Q.Ş. KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Q.Ş.KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

10 CİLDDƏ

Q.Ş.KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

VIII CİLD

Cildin redaktoru:
S.H.Mehdiyeva
filologiya elmləri doktoru, professor

Rəyçilər:
R.Ə.Rüstəmov
filologiya elmləri doktoru, professor
V.Z.Adilov
filologiya elmləri namizədi

Q,Ş.Kazımov. Seçilmiş əsərləri, 8-ci cild,
Bakı, «Nurlan», 2010, 544 səh.

Bu cildə prof.Q.Kazımovun «Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi», «XIX əsr Azərbaycan ədəbi dilinin sintaksisi» monoqrafiyaları, keçən əsrin ikinci yarısında və XXI əsrin yaşadığımız günlərində elmi iş, kitab çapı və dissertasiyalara yazdığı rəylər daxildir.

www.qkazimov.gen.az

I HİSSƏ

AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İNKİŞAF TARİXİ

Əsərdə mübtəda, xəbər, tamamlıq, təyin və zərflik budaq cümləli tabeli mürəkkəb cümlələrin «Kitabi-Dədə Qorqud»dan başlayaraq, XVIII əsrin sonlarına qədərki inkişaf yolu öyrənilmişdir. «Kitabi-Dədə Qorqud», «Şəhriyar» (Məhəmməd), «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa» (Suli Fəqih), «Qisseyi-Yusif» (Qul Əli), «Mehri və Vəfa» (Ümmi İsa) kimi dastan və məsnəvilərlə yanaşı, Qazi Bürhanəddin, Nəsimi, Şah İsmayıl Xətai, Füzuli, Qurbani, Məsihi, Ruhi Bağdadi, M.P.Vaqif və b. klassik şairlərimizin əsərlərindən toplanmış zəngin material əsasında budaq cümləni baş cümləyə bağlayan vasitələr (intonasiya, bağlayıcılar, bağlayıcı sözlər, ədatlar, şəkilçilər), budaq cümlələrin tipləri («baş cümlə + budaq cümlə», «budaq cümlə + baş cümlə» quruluş tipləri) və onların növləri, yaranma yolları tədqiq edilmişdir.

BİR NEÇƏ SÖZ

Cümlə aid olduğu mərhələdə həm xalqın təfəkkürünü, həm də dilin inkişaf səviyyəsini əks etdirən ən mühüm vasitədir. Ümumən insan təfəkkürünün inkişaf səviyyəsini başqa vasitələrlə, məsələn, radionun, televiziyanın, kompyuterin, atom silahının kəşfi ilə də təsəvvür etmək mümkündür. Lakin cümlənin inkişaf səviyyəsi ilə bunların kəşfi arasında böyük fərq vardır: bunlar tək-tək fərdlərin, fövqəladə istedad sahibi olan insanların təfəkkür səviyyəsini göstərir, cümlə isə yazıya alındığı dövrdə bütöv bir xalqın adi və orta inkişaf səviyyəsini əks etdirir. Çünki bu və ya digər strukturda təzahür edən cümlənin aid olduğu dilin elə o dövrdə həmin cümlənin strukturundan daha zəngin potensial imkanları olur.

Dil inkişaf edir, səlisləşir, zənginləşir və nəticədə tədricən dəyişir. Lüğət tərkibində dəyişmə üzdə olanlar əsasında daha tez nəzərə çarpır. Bu cəhət daha çox dövrün ictimai-siyasi və təsərrüfat-texniki leksikasına aiddir, inkişaf lüğət tərkibinin əsas hissəsini – əsas lüğət fondunu zədələyə bilmir. Qrammatik quruluş isə minilliklər yola salır və bu müddətdə kiçik qabarmalar, çəkilmələr olur: bir sıra vasitələrin qrammatik mənası daha çox ümumiləşir, mücərrədləşir, zəruri ehtiyac olmayan bir sıra vasitələr öləziyir, kənarda qalır, xırda ağac budaqları kimi quruyur, ovulub tökülür.

Türk dillərinin inkişaf yolu aydındır. Bu dillərdə söz kökləri fonetik cəhətdən uçurulub dağıdılmır, əsasən sabit qalır və bütün qrammatik əlamətlər pilə-pillə söz kökünün üzərinə artırılır – çox ciddi qanunauyğunluqla. Bu qanun türk dillərinin ruhudur və türk dilləri başdan-binadan belə bir inkişaf yolundadır. Odur ki uzun inkişaf yolu keçməsinə baxmayaraq, çox qədim dövrlərdən Yer üzünün böyük bir ərazisinə yayılmış türk xalqlarının dilləri arasında yaxınlıq daha çox qalmaqdadır. Lakin bununla bərabər, hər bir türk dili xidmət etdiyi xalqın psixologiyasına, adət-ənənə, etnik xüsusiyyət və vərdişlərinə görə yeni keyfiyyətlər qazanmışdır və bu cür fərqli keyfiyyətlər bütün türk dillərində vardır. Bu cəhəti əsas götürdükdə ən yaxın dillər hesab olunan türk və Azərbaycan dilləri də ən fərqli dillərdir. Bu dillərin bir neçə yüz il bundan əvvəl təcrid olunduğunu güman və iddia edənlər xalqların tarixini, etnik ənənələrini, dillərin quruluşunu, lüğət tərkibini nəzərə almırlar.

Azərbaycan dili türk dilindən türk dilinin bir dil kimi doğulduğu gündən fərqlənir və türk dili doğulana qədər o dilin daşıyıcılarına da xidmət etmişdir. Çünki Azərbaycan dili kökü eradan əvvəlki minilliklərə gedən türk tayfalarının dili əsasında hələ birinci minilliyin əvvəllərində xalq dili kimi təşəkkül tapmış yerli bir dildir. Odur ki onu 11-ci yüzillikdə Orta Asiya çöllərindən gələn Səlcuq oğuzlarının dili ilə eyniləşdirmək

olmaz. Azərbaycanın e.ə.III-II minilliklərdən məlum olan tayfalarının (kutilər, sular, turukkilər, kassitlər, mağlar, utilər, albanlar və s.), Aratta, Manna qurucularının türklərdən ibarət olduğu[1], «Kitabi-Dədə Qorqud»un Homerlə yaşıdlığı və Ön Asiyada yaranması[2], Orta əsr Göy türk xaqanlığını yaradan Aşina tayfasının Azərbaycandan Orta Asiyaya miqrasiyası[3], mixi yazılarda toplanmış saysız toponim, etnonim və antroponimlərin türk mənşəli açılışı, bizim birinci minillikdə Orta və Mərkəzi Asiyada müşahidə edilən türk tayfa adlarının eradan əvvəlki minilliklərdə Ön Asiya – Azərbaycan tayfa adlarında təmsil olunması[4] və s.-dən məlumdur ki, Azərbaycan çox qədimdən türk yurdudur, heç bir mənafe meyillərinə uymadan, dilin və xalqın tarixini faktlardan aldıqları təəssürat əsasında izah edən dilçi və tarixçilərimizin qeyd etdiyi kimi, Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili hələ V-VI yüzilliklərdə tam təşəkkül tapmışdı. Ə.Dəmirçizadə yerli və gəlmə türk tayfalarının konsolidasiyasını nəzərə alaraq yazırdı: «…Qafqaza və İrana oğuz, qıpçaq tayfalarının kütləvi surətdə gəlmələri və bu ərazidə əsrlər boyu yaşayan türk dilli tayfalarla qaynayıb-qarışmaları türk dillərinə mənsub vahid ümumxalq dili halında Azərbaycan dilinin hələ V-VI əsrlərdən formalaşması prosesini, demək olar ki, daha da sürətləndirdi və tamamlamış oldu»[5]. Y.Yusifov da təşəkkül tarixini bir qədər uzun müddətə görsə də, əslində, xalqın və dilin təşəkkülünü həmin dövrlə əlaqəli izah etmişdir: «Azərbaycan dilinin və xalqının təşəkkülü III-VII əsrlərdə baş vermişdir»[6]. «Kitabi-Dədə Qorqud» VI-VIII əsrlər şifahi ədəbi dilimizin nümunəsi, həm də çox kamil ədəbi dil nümunəsidir. «Dədə Qorqud» boyları quruluş etibarilə çox zəngin və mürəkkəb bir dil mühafizə edib saxlamışdır. Təkcə bunu qeyd etmək kifayətdir ki, bugünkü tabeli mürəkkəb cümlə strukturu tam və bütöv şəkildə «Dədə Qorqud» sintaksisində mövcuddur və bir fakt kimi günümüzə qədər saxlanmışdır.[1]

---

[1] *Bax:* Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994, c.61-82; 114-119; 145-150 və s.

[2] *Bax:* Q.Kazımov. Seçilmiş əsərləri, I, Bakı, «Nurlan», 2008, s.321-362.

[3] Yenə orada, c.295-312.

[4] *Bax:* Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т.I, Баку, Элм, 1991; *yenə onun*:Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994; *yenə onun*: Azərbaycanın etnik tarixinə dair, Bakı, Elm, 1994 və s.

[5] Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi. Birinci hissə, Bakı, «Maarif» nəşriyyatı, 1979, s.49-50.

[6] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994, c.235.

[1] Г.Казымов. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003, s.460-540.

Bizim hələlik əlimizdə olan ən qədim ədəbi materiallar XIII yüzilliyə aiddir: Həsənoğlunun qəzəlləri də, «Dastani-Əhməd Hərami», Suli Fəqihin «Yusif və Züleyxa», Əlinin «Qisseyi-Yusif» məsnəviləri də. Bu əsərlər o qədər yüksək sənət və dil nümunələridir ki, bunların heç birini yazılı ədəbi dilin ilk nümunəsi hesab etmək olmaz. Bunların hər biri uzun inkişaf yolunda olan bir poeziya dilinin, bir ədəbi dilin müəyyən bir yüksəliş dövrünün nümunəsidir. «Kitabi-Dədə Qorqud»un ilk dəfə VII əsrdə yazıya alındığı, hələ VI yüzillikdə İran şahı Ənuşirəvanın saray kitabxanasında Təpəgöz boyunun fars dilinə tərcüməsi olduğu[2] məlumdur. «Dədə Qorqud»un XVI əsr əlyazmasının XI əsr əlyazmasından köçürüldüyü də məlumdur. M.Kaşğari «Divan»ının, «Qutadğu bilig»in və başqa XI əsr abidələrinin bizə gəlib çatması göstərir ki, bu cür kamil əsərlərin hələlik bizə çatmayan kamil sələfləri də olmuşdur. «Dədə Qorqud»dan sonrakı dövrü mərhələlərə ayırsaq, IX-XI əsrləri yazılı ədəbi dilin təşəkkülü dövrü saya bilərik. Lakin bu cür bölgü iki istiqamətdə mübahisə doğura bilər: əlimizdə konkret material olmadığı üçün bu dövr bir mərhələ kimi qəbul olunmaya bilər. Cəmiyyətin inkişafını, ictimai-siyasi hadisələri, M.Kaşğari «Divan»ı, Balasağunlu Yusifin «Qutadğu bilig» əsərləri kimi böyük abidələri, hələ V əsrdə təkmilləşdirilən Alban yazısını nəzərə aldıqda yazılı ədəbi dilin daha əvvəlki dövrlərə aid olduğuna şübhə etməmək olar. Lənətə gəlsin ərəb-islam işğalçılarını və xain qonşuları. Eyni dərəcədə indi də yaşamaqda olan xain daxili yaramazları. Heç indi də bu dilin tarixinə can yanğısı ilə fikir verən yoxdur.

Qəribə burasıdır ki, zəngin ədəbi nümunələri olan XIII-XIV əsrlərin, hətta bir qədər sonrakı – Füzuli, Xətai, Qurbani kimi nəhənglər yetirmiş XV-XVI əsrlərin Azərbaycan dilinin də milli orijinallığını yuxu sayıqlamaları şəklində şübhə altına almağa çalışanlar var.

Mövcud olan faktlar istər-istəməz daha əvvəllərə çəkir. Lakin daxilimizdəki şübhələr, «filankəslər nə deyər» qorxusu irəli getməyə imkan vermir. Suli Fəqihin «Yusif və Züleyxa» məsnəvisini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, şairin Anadolu türkcəsi ilə heç bir əlaqəsi olmayıb. Onun bədii dili təmiz və xalis Azərbaycan dilidir və sanki türk (Osmanlı) tələffüzünün əksinə olaraq, bu əsərin dilində «ə» səsi bir qədər də artıq işlədilmişdir. Əsərin sonundakı maddeyi-tarixə əsasən poemanın 1218-ci ildə yazıldığı müəyyən edilmişdir. Bununla yanaşı, transliterasiyanın, ön sözün, lüğətin tərtibçiləri – Sənan və Səbuhi İbrahimovlar, bir sıra qüsurlarına baxmayaraq, bu əsərin çapı ilə çox faydalı bir iş görərək yazmışlar: «…faktlar göstərir ki, Suli Fəqih XIII əsrdə yox, çox

[2] Ə.C.Şükürlü. «Dədə Qorqud» dastanlarının meydana çıxma tarixi və itmiş boyları haqqında mülahizələrim. «Kitabi-Dədə Qorqud» - 1300, Elmi-praktik konfransın materialları, «Ünsiyyət», 2000, s.56.

əvvəllər, hələ dilimizə ərəb-fars sözlərinin az nüfuz etdiyi bir vaxtda, təqribən XI-XII əsrlərdə yaşamışdır»[1]. Bu güman doğrudur, çünki 1218-ci ildə yazılıb bitirildiyi doğrudursa, bu əsərin müəllifi həm də XII əsrin adamıdır, Nizaminin müasiridir və deməli, XI-XII əsrlərin dil qanunları üzərində köklənib. Bir neçə əsrlik inkişaf yolunda ümumxalq dilində ciddi dəyişikliklər az ola bilir. Zaman XVIII əsrin şairi M.P.Vaqifdən bizi artıq 4-cü yüzilliklə ayırmağa başlamışdır. Amma Vaqifin bir sıra Qoşmaları sanki bu günün məhsuludur:

Ey Vidadi, sənin bu puç dünyada,
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir,
Hələ indi səndə nə var, ağlarsan?

Nə dəyişib? Xalq dilində yazan belə yazar. Biz bu şəkildə Ümmi İsanın sonralar XIV əsrə aid olduğu dəqiqləşdirilən «Mehri və Vəfa» məsnəvisinin dilini «Dastani-Əhməd Hərami»nin dili ilə müqayisə edərək XI əsrə aid olduğunu söyləmişdik və əslində, bu əsərlər daha əvvəlki əsrlərin dil xüsusiyyətlərini daşıyır.

Adlarını qeyd etdiyimiz müəlliflərin «Yusif və Züleyxa»nın dili haqqında fikirləri doğrudur, lakin onların fikirlərində daha qədim dövrlərə getmək qorxusu ilə bağlı tərəddüdlər də var: «…qədim və orta əsrlər abidələrini milli sirmələrə bölmək düzgün deyil. Onların hamısı hər hansı bir türkdilli xalq tərəfindən yaransa da, eyni zamanda vahid türk ədəbi nümunəsidir»[2]. Doğru deyil. Bu cür fikirlər keçmiş tarixi tədqiqat ənənəsinin nəticəsidir. Həmin dövrdə də hər bir əsər həmin əsəri yaradan xalqın öz dilindədir. Bu əsəri o dövrdə də çuvaşlar və ya başqırdlar və yaxud da qazaxlar eyni dərəcədə mənimsəyə bilməzdilər. O dövr üçün vahid türk dilindən danışmaq özü zərərli tendensiyanın davamıdır. Yuxarıda dediyimiz kimi, ümumxalq Azərbaycan dili artıq V-VI əsrlərdən mövcud idi və bu dildə yazılmış hər bir əsər bu dilin öz məhsuludur və onu başqa dillərdən fərqləndirmişdir. Alimlərimiz imkan daxilində, tarixi tədqiqat prosesində bu fərqləri araşdırmalıdır. Bu cəhətdən, məsələn, Əlinin «Qisseyi-Yusif» əsərində, az da olsa, qeyri-azəri elementləri müşahidə edilir:

Ol quyunun qırağında bir taş vardı,
Cəbrail ol ***taşnı*** ora tez apardı.

[1] Suli Fəqih. Yusif və Züleyxa (Transliterasiya, ön söz və lüğətin müəllifləri Sənan İbrahimov, Səbuhi İbrahimov), Bakı, «MBM» nəşriyyatı, 2008, s.3.
[2] Yenə orada, s.5.

Suvun üzrə həm ol ***taşnı*** möhkəm tardı,
Yusif gəlib ol taş üzrə olur imdi[1] –

bəndində ***taşnı s***özündəki təsilik hal şəkilçisi ***–nı*** lap qədim dövrlərdən Azərbaycan dili üçün səciyyəvi olmayıb. Nəsimi və Füzuli kimi sənətkarların dilində müşahidə edilməyən bu element, təbii ki, başqa türk dillərinin poeziya dilinə təsiri ilə izah olunur[2]. Bu xüsusiyyətə Xətainin və Kişvərinin dilində də rast gəlmək olur. Lakin bunun dilin sintaktik quruluşuna təsiri yoxdur, çünki adların idarə edilməsində heç bir fərq törədə bilmir.

Prototürk (ən qədim dövrlərdən e.ə.V əsrədək) və protoazərbaycan dili (e.ə.V əsr – eramızın V əsri) dövrlərindən fərqli olaraq, ümumxalq dili əsasında ədəbi dilin təşəkkül və inkişafı dövrünün (V - XV əsrlər) və dilimizin milli dil şəklində yenidən qurulması və inkişafı dövrünün (XVI – XXI əsrlər) zəngin və özünəməxsus orijinal mənbələri vardır. Bu mənbələr içərisində «Kitabi-Dədə Qorqud» kimi nəhəng abidə var, Qazi Bürhanəddin, Nəsimi, Füzuli divanları, Xətai, Məsihi, Vaqif var. Bu monoqrafiya şərti mərhələlər üzrə qruplaşdırılmış həmin mənbələr əsasında yazılmışdır. Etiraf edirik ki, tabeli mürəkkəb cümlənin inkişaf tarixinə həsr olunmuş ilk monoqrafiya kimi, bu əsər zəngin dil faktlarını tam təfərrüatı ilə əhatə edə bilməmişdir. Daha çox müşahidə olunan, aparıcı xət kimi nəzərə çarpan əlamətlər tədqiqata cəlb edilmişdir. Lakin «Azərbaycan dilinin tarixi» kitabımızın «Dədə Qorqud»un sintaksisinə həsr olunmuş bölməsi ilə (s.439-540), XIX əsr ədəbi dilinin sintaksisinə aid yazımızla və «Müasir Azərbaycan dili. Sintaksis» dərsliyi[3] ilə tabeli mürəkkəb cümlənin inkişaf yolu və müasir vəziyyəti barədə kifayət qədər təəssürat qazanmaq mümkündür.

Bu dil «Kitabi-Dədə Qorqud»un poetik dili ilə başlanğıcdan poeziya dili kimi fəaliyyətə başlamış, xalq dilindən uzaq bir sıra nəsr nümunələrini nəzərə almasaq, XVIII əsrə qədə daha çox poeziya dili kimi inkişaf etmişdir. XVI əsrdə Füzulinin qələmi ilə nəsr sahəsində də yeniliklər yaranmışdır: «Füzuli divan və poemalarına yazdığı dibaçələrdə, məktublarında, «Şikayətnamə», «Rind və Zahid», «Hədiqətüs-süəda» əsərlərində bir nasir kimi öz parlaq istedadını üzə çıxarmışdır. Ədəbiy-

[1] Qul Əli. Qisseyi-Yusif (Çapa hazırlayanlar, lüğət və şərhlərin müəllifləri Elməddin Əlibəyzadə, Əbülfəz Hüseyni), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995, s.29.

[2] *Bax:* H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990, s.45.

[3] *Bax:* Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, 2000, 2004, 2007, 2008-ci il nəşrləri və «Seçilmiş əsərləri», V cild, Bakı, 2008.

yat tariximizdə Füzuli nəsri yeni bir mərhələdir»[1]. Lakin bu nəsr də öz leksik tərkibi və söz birləşməsi strukturu ilə dilin quruluşunun tarixi aspektdə tədqiqi üçün Füzulinin poeziya dilindən fərqli olaraq, çox az mAterial verir. XVII-XVIII əsrlərdə nəsr əsərləri yeni bir mərhələyə qədəm qoyur, nəsr qafiyəlilikdən xilas olur və təbii axara düşür, bir sıra şifahi xalq ədəbiyyatı nümunələri yazıya alınır. Bu dövrün qiymətli nəsr əsərlərindən «Şəhriyar» dastanı daha çox diqqəti cəlb edir. «Klassik səcili nəsr ilə yeni nəsr arasında bir körpü olan «Şəhriyar» əsəri ideyasına, poetik gözəlliklərinə görə seçilir və yeni təsir bağışlayır. Burada əski dastan-epos ənənələri ilə müasir nəsr ənənələri birləşir»[2].

Poeziya dili aparıcı olmuş və dilimizin sintaktik quruluşunu lazımi şəkildə ehtiva edə bilmişdir. Şeir dili sintaktik quruluşuna görə yalnız cümlə üzvlərinin və mürəkkəb cümlə komponentlərinin inversiyası baxımından bədii nəsr dilindən fərqlənə bilir ki, bu da fikrin aktuallaşdırılması ilə bağlı olduqda daha təbii təsir bağışlayır və sintaktik modellərin ifadəsi baxımından heç bir struktur pozğunluğa səbəb olmur.

Elmi ədəbiyyatda bağlayıcılarla bağlayıcı sözlər qarışdırılır[3]. Biz tədqiqat prosesində bunları nizama salmağa çalışdıq. Bir sıra bağlayıcı sözlər (məsələn, ***çün, çü, gər, əgər*** və s.) müxtəlif budaq cümlələrə xidmət edir. Onların işləndiyi cümlənin mənası budaq cümlənin növünü müəyyənləşdirməyə daha çox kömək edir. Odur ki əsərdə oxucu üçün mübahisəli görünən nümunələrin olması da mümkündür.

[1] Məhəmməd. Şəhriyar (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir), Bakı, «Yazıçı», 1987 - kitabına Ə.Səfərlinin ön sözü, s.3-4. .

[2] Yenə orada, s.4.

[3] H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990,s.360-361; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s. 255 və s.

MƏRHƏLƏLƏR VƏ ŞƏRTİ İXTİSARLAR

Tabeli mürəkkəb cümlənin inkişafı aşağıdakı mərhələlər və mənbələr üzrə öyrənilmişdir:

1.V -XI əsrlər:

DQ – «Kitabi-Dədə Qorqud» (Tərtib və ön sözün müəllifləri F.Zeynalov, S.Əlizadə). Bakı, «Yazıçı»,1988.

Oğuz. – «Oğuznamə» (Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi S.Əlizadə). Bakı, «Yazıçı», 1987.

2.XII -XIV əsrlər:

DƏH - «Dastani-Əhməd Hərami» (Tərtib edəni və ön sözün müəllifi professor Əlyar Səfərli), Bakı, Gənclik, 1978.

Həs. – İzzəddin Həsənoğlu. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.24-25.

QB - Qazi Bürhanəddin. «Divan» (Ön söz, tərtib və lüğətin müəllifi professor Əlyar Səfərli), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1988.

QY – Qul Əli. «Qisseyi-Yusif» (Tərtib, ön söz, şərhlər prof. E.Əlibəyzadənindir). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995.

Nəs. - İmadəddin Nəsimi. «Seçilmiş əsərləri» (Tərtib edəni prof.H.Araslı). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1973.

MV - «Mehri və Vəfa» (Tərtib edəni və ön sözün müəllifi Aysel Şərifova), Bakı, «Nurlan», 2005.

Suli – Suli Fəqih. «Yusif və Züleyxa» (Transliterasiya, ön söz və lüğətin müəllifi Sənan İbrahimov və Səbuhi İbrahimovdur).Bakı Universiteti, 2008.

YM – Yusif Məddah. «Vərqa və Gülşah», Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.148-207.

3.XV- XVI əsrlər:

Bəs.– Bəsiri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.353-355.

C.şah – Mirzə Cahanşah Həqiqi, Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s..243-259.

Fəz. – Fəzli. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.511-514.

Füz. - Füzuli, «Əsərləri» (Tərtib edəni prof.H.Araslı). 2-ci cild, Bakı, Azərbaycan SSR EA-nın Nəşriyyatı, 1958.

Ham. – Hamidi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.262-265.

Həb. – Həbibi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.356-377.

Həq. – Həqiri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.495-510.

Hid. – Əfsəhəddin Hidayət. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.266- 286.

Xəl. – Xəlili. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.260-261.

Xət. - Şah İsmayıl Xətai (Tərtib, müqəddimə, lüğət və izahlar Əzizağa Məmmədovundur). «Əsərləri», 2-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1976.

Kiş. – Nemətulla Kişvəri. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.301-352.

Qurbani - Qurbani (Toplayanı,tərtib edəni, ön söz, qeydlər və izahların müəllifi prof.Q.Ş.Kazımov). Bakı Universiteti Nəşriyyatı, 1990.

Rəh. – Rəhməti. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.515-524.

Ruhi – Azadə Musəvi. «Ruhi Bağdadi. Mühiti», həyatı, poetikası və divanı, Bakı, «Elm», 2005.

Sür. – Sürur. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XIII-XVI əsrlər Azərbaycan şeri, üçüncü cild, Bakı, 1984, s.490-492.

4.XVII -XVIII əsrlər:

Əmani – Məhəmməd Əmani. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.20-52.

Qövsi – Qövsi Təbrizi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.216-267.

Məs. - Məsihi. «Vərqa və Gülşa» (Tərtib, ön söz və şərhlər Əlyar Səfərlinindir). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1977.

Nişat – Nişat Şirvani. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.268-280.

Saib – Saib Təbrizi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.119-215.

Vaqif - Molla Pənah Vaqif. «Əsərləri» (Tərtib edəni prof.H.Araslı) Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960.

Vid. – Mola Vəli Vidadi. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, altıncı cild, Bakı, 1988, s.367-399.

«Şəhriyar» - Məhəmməd. «Şəhriyar» (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir). Bakı, «Yazıçı», 1987.

BUDAQ CÜMLƏNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR VƏ TİPLƏRİN MƏNŞƏYİ

Dildə mürəkkəb cümlənin struktur modelləri onun inkişaf səviyyəsini göstərən ən mühüm amillərdəndir. Mürəkkəb cümlə nitq mədəniyyətinin yüksək inkişaf dövrünün məhsulu sayılar. Azərbaycan dili mürəkkəb cümlə strukturunun təşəkkül tarixi çox qədimdir. Azərbaycan şifahi ədəbi dilinin böyük abidəsi olan «Kitabi-Dədə Qorqud» sintaksisinin müasir ədəbi dilimizin sintaktik quruluşu ilə müqayisəsi göstərir ki, bugünkü ədəbi dilimizin tabeli mürəkkəb cümlə modellərinin, demək olar ki, hamısı «Dədə Qorqud»un dilində vardır. Keçən 1500 ilin müddətində mürəkkəb cümlə modelləri səlisləşmə və zənginləşmə istiqamətində böyük inkişaf yolu keçmişdir. Bu inkişaf prosesinin nəticələri «Dastani-Əhməd Hərami», «Mehri və Vəfa» məsnəvilərinin, Həsənoğlunun, Qazi Bürhanəddinin, Yusif Məddahın, Nəsiminin, Hamidinin, Hidayətin, Kişvərinin, Həbibinin, Füzulinin, Şah İsmayıl Xətainin, Qurbaninin, Sahib və Qövsi Təbrizilərin, Məsihinin, M.P.Vaqifin və b.-nın əsərlərində əks olunmuş, «Şühədanamə» kimi tərcümə əsərlərinin, «Şəhriyar» dastanı kim dastanların dilində öz təcəssümünü tapmışdır.

Budaq cümlələri və onları baş cümləyə bağlayan vasitələri ətraflı nəzərdən keçirməklə biz dilimizin sintaktik quruluşunun "Dədə Qorqud"un yarandığı dövr mənzərəsi barədə daha aydın təsəvvür qazana bilirik. Bu cəhətdən "Dədə Qorqud" bütün qədim dövrün yekunu, hazırkı ədəbi dilimizin başlanğıcıdır. Dastanların dil materialı sübut edir ki, bu dil qədim olmaqla yanaşı, sonrakı dövrlərdə özünü göstərən bütün sintaktik normaların ilkin qəlibinə malik olmuşdur. Bunu ayrı-ayrı budaq cümlələri nəzərdən keçirməklə də görmək olar.

Təbii ki, yazılı ədəbi dilin təşəkkülünə qədər tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmək üçün intonasiya, az bir qrup bağlayıcı söz və *–sa.-sə* şəkilçisi daha fəal olmuş, sonrakı dövrlərdə bağlayıcı sözlər və bir sıra milli və alınma bağlayıcılar fəaliyyətini genişləndirmişdir. Odur ki bağlayıcı vasitələri budaq cümlələrlə birlikdə öyrənmək lazım gəlir.

H.Mirzəzadə tabeli mürəkkəb cümlənin inkişaf yolunu nəzərdən keçirərək bu qənaətə gəlmişdir ki, tarixən budaq cümlələr üç münasibətlə baş cümləyə bağlanmışdır:

1.Bir qrup budaq cümlə baş cümlədə iştirak etməyən hər hansı bir cümlə üzvünün yerində işlənərək, onu əvəz edir. Müəllif bu qrupa: *Xoşdur ki, bulam vüsalə fürsət* (Füz.) tipli misallar vermişdir. Baş cümlədə mübtəda yoxdur, budaq cümlə onun əvəzində işlənmişdir;

2.Baş cümlənin tərkibində budaq cümlənin əvəzedicisi – işarə əvəzliyi iştirak edir, cümlə formal cəhətdən bitmiş kimi görünsə də, fikir qapalı qalır və ona görə də budaq cümlə gəlməli olur: *Biz ol quşuz ki, dam danəmizdir*. (Xət.) Baş cümlədə təyin vəzifəsində ***ol*** sözü işlənmiş, lakin konkret məna ifadə etmədiyindən budaq cümlə gəlməli olmuşdur.

3.Baş və budaq cümlə yanaşma əsasında əlaqəyə girir. Baş cümlədə buraxılmış və ya əvəzliklərlə ifadə olunmuş üzv olmur. Şərt, nəticə, güzəşt, müqayisə kimi cümlələr bura daxil edilir. Sintaktik əlaqə bağlayıcı və bağlayıcı sözlərlə yaranır.[1]

Beləliklə, müəllif cümlə üzvləri arasında olan yanaşma əlaqəsini tabeli mürəkkəb cümlənin tərkib hissələrinə də aid etmiş, həm də bunun üçüncü qrup cümlələrdə (şərt, nəticə, güzəşt, müqayisə budaq cümlələrində) olduğunu qeyd etmişdir. Göstərdiyi budaq cümlələr fərqli səciyyəyə malik cümlələrdir. Nəticə, müqayisə budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş cümlə əvvəl, budaq cümlə sonra işlənir. Baş cümlənin budaq cümləyə yanaşmasından danışmaq olmaz. Şərt və güzəşt (qarşılaşdırma) budaq cümlələri baş cümlədən əvvəl işlənsə də, baş cümləyə bağlayıcı sözlər, ədatlar və şəkilçilərlə bağlanır. Burada da budaq cümlənin baş cümləyə yanaşmasından (bilavasitə yanaşma əlaqəsi ilə bağlanmasından) danışmaq olmaz.

Ümumən tabeli mürəkkəb cümləni bu cür üç qrupa ayırmaq özünü doğrultmur. Birinci və ikinci qruplar, demək olar ki, eyni quruluş tipindən ibarətdir. Fərq budur ki, birində qəlib söz işlənir, o birində işlənmir. Lakin işlənmədikdə də onu asanlıqla təsəvvür və bərpa etmək olur. Tabeli mürəkkəb cümləni tərkib hissələrin yerinə və bağlayıcı vasitələrə görə qruplaşdırmaq onların müasir vəziyyətini və inkişaf yolunu öyrənmək üçün daha faydalıdır.

Bu cəhətdən Azərbaycan dilində işlənən tabeli mürəkkəb cümlələri baş və budaq cümlələrin yerinə və tərkib hissələri əlaqələndirən bağlayıcı vasitələrə görə iki tipə ayırmaq olar.

1.Budaq cümlə əvvəl, baş cümlə sonra işlənir. Budaq cümlə baş cümləyə bağlayıcı söz, ***da, də, belə***, ***kim*** və ***ki*** ədatları, ***-sa,-sə*** şəkilçisi, ***isə*** şərt ədatı və onun ixtisar şəkli ***(-sa,-sə)*** ilə bağlanır. Bağlayıcı söz əksərən sabit qalmaqla, digər vasitələr (ədatlar, şəkilçilər) müxtəlif şəkildə növbələşir. Baş cümlədə qarşılıq bildirən söz ola da bilir, olmaya da bilir (bir qisminin – şərt və qarşılaşdırma budaq cümlələrinin baş cümləsində ümumən olmur). Məsələn:

Kim *munu oxur, yazarü dinlər,*
Həq lütfilə yarlığasun ***ani***! (Xətai)

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Azərbaycan Universiteti Nəşriyyatı, Bakı, 1990, s.352-353.

Bu misalda birinci tərkib hissə ***kim*** bağlayıcı sözü ilə baş cümləyə bağlanmışdır. ***Kim*** sözündən sonra ***ki*** ədatını və ya budaq cümlənin xəbərində ***–sa, -sə*** şəkilçisini, və ya ***isə*** şərğ ədatını işlətmək olar. Baş cümlədə qarşılıq bildirən ***ani*** sözü var, işlənməyə də bilərdi. Bu cür cümlələrdə normal sıra «budaq cümlə + baş cümlə» şəklindədir, lakin bədii əsərlərdə və canlı danışıq dilində aktuallaşdırma prosesi və ya poeziya tələbləri ilə əlaqədar tərəflərin yeri asanlıqla dəyişə bilir.

Belə cümlələrin «sonrakı dövrlərdə, xüsusən yeni dövrün ədəbi dilində normalaşması» barədə fikir doğru deyildir[1]. Bu tip cümlələr çox qədimdir. Hətta Şumer mixi yazılarında bu cür cümlələrin ilkin variantına rast gəlmək olur[2].

2.Budaq cümlə baş cümlədən sonra işlənir və baş cümləyə bağlayıcı (*ki, kim, çünki, ona görə də, ona görə ki, odur ki* və s.) ilə bağlanır. Baş cümlədə budaq cümlənin qəlibi ola da bilir, olmaya da. Məs.: *Billah, **bu** yamanmıdır **ki,** hala Əmvatə söz ilə verdim əhya?* (Füz.)

Bu tabeli mürəkkəb cümlənin baş cümləsində qəlib söz (*bu*) işlənmişdir. İşlənməyə də bilərdi (bir qismində ümumən olmaya bilir). Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanmışdır.

Bu tip tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə yalnız intonasiya ilə də bağlana bilir: Aşiq ***oldur,*** canını qıldı fəda dildarına. (Nəs.)

İntonasiya ilə qurulan bu cür cümlələr qədim və ilkin tabeli mürəkkəb cümlə tiplərindəndir. Belə cümlələr müasir ədəbi dilimizdə də işlənməkdədir; məs.: *Necə getdilər, **bilmirəm**. İndi niyə belə eləyir**, başa düşmürəm**.* Qədim abidələrin dilində belə cümlələr daha çoxdur.

İntonasiya ilə qurulduğu, hələ bütün hallarda bağlayıcı özünə möhkəm yer edə bilmədiyi üçün bu cür cümlələrdə budaq cümlənin baş cümlədən asılılığı zəifdir, ona görə də aktuallaşdırma, "yeni"ni daha aydın nəzərə çarpdırma prosesində analitik tipdə baş cümlə kimi təşəkkül tapan hissə «Kitabi-Dədə Qorqud»un dilində bəzən budaq cümlədən sonra işlənmişdir*: (Ala gözlü oğlun qardaşını andı, gedər). Ağca yüzlü gəlinün döndəräməz, **Sizə məlum olsun!*** (112) Bu cür sərbəstlik intonasiya ilə qurulan cümlələrdə hətta budaq cümlənin baş cümlə arasında işlənməsinə də yol açmışdır: ***Səndənmidir, bəndənmidir**, tənri-təala bizə bir yetman oğıl verməz, **nədəndir?*** (35) Burada '*Səndənmidir, bəndənmidir, nədəndir*' hissəsi zəif təşəkkül tapmış baş cümlədir.

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 1990, s.355.

[2] *Bax:* Q.Kazımov. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003, s.130-131.

Kim və *ki* bağlayıcıları baş və budaq cümlə arasında möhkəmlənmədiyi və komponentlərin yeri sabitləşmədiyi üçün tərəflərin yeri sərbəstdir, aktuallaşdırma əsasında eyni tipli baş cümlə əvvəl də işlənə bilmiş, sonra da işlənmişdir. Məsələn:

Qandadur könülümü ***bən bilürəm,***

İlla ***bilməzəm ki****, könül qandadur.* (QB) –

beytinin ikinci misrasında baş və budaq cümlə müasir dil baxımından düz sıralanmış, birinci misrada tərəflərin yeri sanki dəyişmişdir. Birinci misra: *Bən bilürəm, qandadır könlümü* – şəklində düşünülür. Əslində isə, həmin misrada tərəflər həm də düz sıralanmışdır, cümləni: *Qandadur könülümü,* ***ani bən bilürəm*** – şəklində də düşünmək olar.

Tərkib hissələri intonasiya ilə əlaqələnən belə cümlələrdə tərəflərin inversiyası həm dilin daxili imkanlarından, həm də aktuallaşdırma və poetik nitqin tələblərindən irəli gəlmişdir. Bağlayıcısızlıq baş cümlənin budaq cümlədən əvvəl və ya sonra işlənməsinə imkan yaratmışdır. Bu cəhəti Suli Fəqihin, Qazi Bürhanəddinin, Nəsiminin dilində də görürük, sonrakı dövrlərin ədəbiyyatında da. Lakin əvvəlki mərhələdə daha çox müşahidə olunur.

Aşağıdakı cümlələrdə baş cümlə kursivlə fərqləndirilmişdir:

Eşq nədür, aşiq nədür, ***bilmədünüz.*** (Suli) Sən anadan neylə toğdun, ***bir ayt.*** (Suli) Nə suç qıldı, nəşə qaçdı, ***anı söylən!*** (Suli) Məqsudunuz nədurur, ***bir aydunuz***. (Suli) Qəndə ögrəndin bu dili, ***ayt bənə.*** (Suli) Neçə dürli eybi vardur, ***qılın bəyan!*** (QY) Necə haldır, nə başlardır, ***görəlim.***(DƏH) Padşah qanqınız olur ***biləlüm.***(MV) Necə oldu, ***biliniz*** *əhvalını*. (MV) Bunda dəxi töhfə nə var*,* ***biləyim.***(MV) Könlək iyəsi kimdür, ***biz biləvüz,*** Qanda isə, ***istəyəvüz, bulavuz***.(MV)

Bu cümlələrin budaq cümləsində ***neylə, nə, nəşə, nədurur, qəndə-/qanda, neçə, necə, qanqınız, kimdür*** sual əvəzlikləri (nisbi əvəzliklər) işlənmişdir. Bu cür cümlələr iki istiqamətdə inkişaf etmişdir.

1.Sual əvəzlikləri olan belə cümlələr prepozitiv, bağlayıcı sözlü cümlələrin inkişafına səbəb olmuşdur. Bu cümlələrin hamısının baş cümləsinə qarşılıq bildirən ***anı*** sözünü artırmaq olar (üçüncü misalda var): Eşq ***nədür***, aşiq ***nədür***, (***anı) bilmədünüz.*** Sən anadan ***neylə*** toğdun, ***(anı) bir ayt.*** və s. Sual əvəzliyi olan tərkib hissələrin xəbərinə şərt şəkilçisini və ya ***isə*** şərt ədatını artırmaq olar: Eşq ***nədürsə***, aşiq ***nədürsə***, (***anı) bilmədünüz.*** Sən anadan ***neylə toğdunsa***, ***(anı) bir ayt..*** Sual əvəzliyinə mümkün halda ***ki, kim*** ədatlarını artırmaq olar: Sən anadan ***neylə kim*** toğdun, ***(anı) bir ayt. Qanqınız ki*** padşah olur***, (anı) biləlüm.*** Güləndamı ***nə*** yerdədir, biləydi. (DƏH) Bunlar «budaq cümlə + baş cümlə» quruluş tipinin əsas əlamətləridir.

2.Bu cür cümlələr bağlayıcılı (postpozitiv) budaq cümlələrin inkişafına da səbəb olmuşdur. İfadə etdiyi fikrin aktuallaşdırılması ilə əlaqə-

dar budaq cümlə postpozitiv mövqedə işlənərək baş cümləyə bağlayıcı ilə bağlanmışdır:

Bilmədünüz ki, eşq nədür, aşiq nədür. ***Bir ayt kim,*** sən anadan neylə toğdun.

Və yaxud:

1.Rəncü nədürür Züleyxanın, ***biləmiyədi.*** (Suli) - Rəncü ***nədürür sə*** Züleyxanın, ***anı biləmiyədi.*** (Suli) - ***Züleyxanın rəncinin nə olduğunu*** biləmiyədi.

2.Rəncü nədürür Züleyxanın, ***biləmiyədi – Biləmiyədi,*** rəncü nədürür Züleyxanın – ***Biləmiyədi ki***, rəncü nədürür Züleyxanın – ***Züleyxanın rəncinin nə olduğunu*** biləmiyədi.

Klassik ədəbiyyatın dilində intonasiya ilə qurulan, lakin budaq cümləsində sual əvəzliyi (nisbi əvəzlik) olmayan cümlələr də çox işlənmişdir. Belə cümlələrdə baş cümlənin xəbəri əksərən nitq, görmə, eşitmə və təfəkkür felləri və bəzi başqa nitq hissələri ilə ifadə olunmuşdur:

Bakdı gördi ol yigit çərçi imiş. (MV) ***Gördüər*** bir övrət evində yalquz.(MV) ***Yegərk oldur,*** bu tərtibi yaxam, Sərrafın donı geyüb tışra çıkam. (MV) ***Zəmanlardur*** geçər eşqüm sənün hüsnünlə sərtayı… (QB) ***Bəllüdür,*** nolısaruz bu qamu aşub ilə biz.(QB) Dərviş olub şalvar geyəyim ***dersən.***(Xət.) Hər qula yeysən, ***dedilər***.(Xət.) Heç kimə könül verim ***deməzdim***.(Xət.) Həddin tanıgil, mana ***der idi***.(Xət.) Bir elçi dəxi bulam, ***der idim***.(Xət.) Bəxtim***, bilirəm***, mənim yamandır. (Füz.) Vaqif, çoxdur dərdin, ***mən də bilirəm***. (Vaqif)

Bu cümlələrin çoxunda lazımi fikrin aktuallaşdırılması, daha aydın nəzərə çarpdırılması üçün baş cümlə budaq cümlədən sonra işlənmişdir. Belə cümlələr dilimizdə indi də işlənməkdədir. Bu cür cümlələr analitik – bağlayıcılı cümlələrin inkişafının özülünü təşkil etmişdir. Baş cümlə əvvəl, budaq cümlə sonra işlənmiş, tərkib hissələr arasına ***kim, ki*** bağlayıcıları daxil olmaqla tərəflərin yeri sabitləşmişdir:

Dərviş olub şalvar geyəyim ***dersən – Dersən*** dərviş olub şalvar geyəyim ***- Dersən ki,*** dərviş olub şalvar geyəyim.

Beləliklə: *Nə qılır ol arada Xızır* ***eşit.***(34) – tipli cümlələr inkişaf prosesində həm bağlayıcı sözlü cümlələrin (*Xızr ol arada* ***hər nə*** *qılır,* ***onu eşit*****),** həm də bağlayıcılı cümlələrin (***Eşit ki,*** *Xızr ol arada nə qılır*) inkişafı üçün əsas olmuşdur. *Bigünaham axır*, ***məlumdur sana*** (MV) – tipli (sual əvəzliksiz) cümlələr isə bağlayıcılı tipin nüvəsi olmuşdur: *Bigünaham axır*, ***məlumdur sana – Sana məlumdur ki,*** *bigünaham.*

Qeyd etdiklərimizdən aydın olur ki, budaq cümlənin hər iki tipi qədim və orijinaldır, heç bir dilin təsiri ilə yaranmamışdır və kök dildən gəlir. Bu cəhətdən N.Z.Hacıyeva çox düzgün müşahidə etmişdir ki, «Azərbaycan dili sintaktik qurumlarının tarixi aspektdə öyrənilməsi göstərir ki, onlar əksəriyyət etibarilə ümumtürk xarakteri daşıyır. Onlar öz-

lərini, demək olar ki, bütün türk dillərində yayılmış sabit modellərdə göstərir»[1] .

Türk dillərinin tədqiqi sübut edir ki, bu dillərdə tədricən bağlayıcılı cümlələr çoxalmışdır. Lakin elə türk dilləri də var ki, onlarda bağlayıcısız tip üstünlük təşkil edir. N.Z.Hacıyeva bunu bağlayıcısız cümlələrin bağlayıcılı cümlələr üçün «çox güclü konkurent olması ilə» əlaqələndirmişdir[2].

Hiss olunur ki, türk dillərinin daha qədim dövrlərində mürəkkəb konstruksiyalar daha çox feli bağlama tərkibləri ilə yaranmış, hazırkı budaq cümlə tipləri sonralar təşəkkül tapmışdır. Bunu N.Z.Hacıyeva da müşahidə etmiş və yazmışdır: «Həm qədim abidələrin, həm də müasir türk dillərinin analizi feli bağlama konstruksiyalarının bağlayıcılı mürəkkəb cümlələrlə müqayisədə daha qədim tarixə malik olduğu barədə nəticə çıxarmağa imkan verir»[3].

Tarixən tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmək üçün aşağıdıkı vasitələrdən istifadə edilmişdir.

İntonasiya. Tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirən ilk və ən qədim vasitə intonasiyadır. İntonasiya hər cür cümlənin təşkiledici vasitələrindəndir. Lakin intonasiya ilə qurulan cümlələrdən danışarkən başqa bağlayıcı vasitələrin - bağlayıcıların, bağlayıcı sözlərin, şəkilçilərin, ədatların iştirakı olmadan qurulan cümlələr nəzərdə tutulur və belə cümlələr adətən çox dəqiq olmasa da, «bağlayıcısız tabeli mürəkkəb cümlələr» adlandırılır. Tarix boyu, «Dədə Qorqud»dan əvvəlki dövrlərdə belə cümlələrdən ünsiyyətdə geniş istifadə olunmuşdur və indi də canlı danışıq dilində «Dədə Qorqud»un dilində rast gəldiyimiz *...on altı yıldır, tutsaqdır* - tipli cümlələr çox işlənir.

Bağlayıcı. Daha qədim dövrlərdə bağlayıcılar az olmuş, tədricən artıb çoxalmışdır. Tədqiqatlar göstərir ki, başqa türk dillərinə nisbətən, Azərbaycan dilində bağlayıcılar onun inkişafının erkən dövrlərindən işlənməyə başlamışdır[4].

Tarixən budaq cümləni baş cümləyə bağlayan əsas bağlayıcılar aşağıdakılardır.

---

[1] Н.З.Гаджиева.Синтаксис сложноподчиненного предложения в азербайджанском языке. Изд.-во АН СССР, Москва, 1963, с.11.

[2]Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Издательство «Наука», Москва, 1973, s.335.

[3] Н.З.Гаджиева.Синтаксис сложноподчиненного предложения в азербайджанском языке,с.11.

[4] Yenə orada, s.12.

Kim bağlayıcısı. Bu bağlayıcı qədim uyğur abidələrinin dilində[1] də işlənmişdir, lakin «Kitabi-Dədə Qorqud»da və bizim klassik ədəbiyyatda fəal işlənmə imkanları ilə seçilir, tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən əsas vasitə kimi çıxış edir; məs.: *Beyrək baqdı gördi **kim**, kiçi qız qarındaşı binardan su almağa gəlür*...(DQ) *Dedilər **kim**, dəhanı yoxdur anın* (Nəs.) və s.

Bu bağlayıcı tədricən *ki* bağlayıcısının üstün mövqeyi ilə öz işləkliyini itirmişdir. Buna baxmayaraq, XX əsrin əvvəllərinə qədər işlənməkdə davam etmişdir. *Kın, kün, kun, kin* şəkillərində şivələrimizdə indi də işlənməkdədir: *Vaxt gəlir kin, munun atası can üstə olur*[2].

Ki bağlayıcısı. Bu bağlayıcı ***kim*** bağlayıcısından son səsin düşməsi ilə yaranmışdır. Keçən min il ərzində tədricən həmin bağlayıcını üstələmiş və müasir dilimizdə sabitləşərək, ***kim*** bağlayıcısını tam sıxışdırmışdır; məsələn: *Böylə digəc qız tanıdı-bildi **ki,** Beyrəkdir*.(65) *Nə rəvadır **ki**, geyə cahilü nadan kəpənək.* (Nəs.)

Kim və ***ki*** bağlayıcıları polisemantik bağlayıcılar olub, tarixən mübtəda, xəbər, tamamlıq, təyin, tərz, dərəcə, zaman, səbəb, məqsəd, nəticə və analitik şərt budaq cümlələrini baş cümləyə bağlamışdır. Bu bağlayıcılar ədatlaşaraq bağlayıcı sözlərlə birlikdə də çox fəal rol oynamışlar.

N.Z.Hacıyevanın müşahidəsinə görə, *ki* bağlayıcısı müasir Azərbaycan və türk dillərində fəal olduğu halda, türkmən, tatar, Krım-tatar, özbək, uyğur dillərində zəif işlənir, kumık dilində isə *qe* şəklində sabitləşmişdir[3].

Ki bağlayıcısının mənşəyi haqqında üç fikir vardır. Tədqiqatçıların bir qismi (V.A.Qordlevski, N.K.Dmitriyev, A.N.Kononov və b.) onu fars mənşəli hesab etmişlər. Bir qismi (fransız türkoloqu Jan Deni) ***ki*** bağlayıcısının eyni dərəcədə həm fars, həm də türk dillərinə məxsus olduğunu göstərmişdir. Üçüncü qrupa aid olan dilçilər (M.Hüseynzadə, H.Mirzəzadə, N.Z.Hacıyeva, Ə.Z.Abdullayev və b.) onun türk dillərinin özünə məxsus olduğunu qeyd etmişdir[4].

Bizim fikrimizcə, Jan Deni daha düzgün fikir söyləmişdir. Məsələnin tarixinə uzun-uzadı varmadan qeyd etmək olar ki, *ki* bağlayıcısı *kim* sözündən yaranmışdır. *Kim* sözü tarixən sual əvəzliyi və nisbi əvəzlik ki-

---

[1] Ə.Rəcəbli. Qədim türkcə-azərbaycanca lüğət,Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, Bakı, 2001, s.107.

[2] М.Ш.Ширалиев..Диалекты и говоры азербайджанского языка, Издатеьство «Элм», Баку, 1983, с.160.

[3]Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Издательство «Наука», Москва, 1973, s.357.

[4] *Bax*: Ə.Z.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.350-367.

mi işlənmiş və bağlayıcılaşmışdır. *Kim nə deyir, mən bildim - Mən bildim kim nə deyir. Kim* bağlayıcısının *ki* şəklinə və ya *m~n* keçidi ilə *kin* şəklinə düşməsi çətin anlaşılan məsələ deyil. Məsələ ondadır ki, *kim* sual əvəzliyi nostratik sözlərdəndir – *kis, kisi, kişi* «adam» sözləri ilə bağlıdır. Rus dilindəki *kto*, ingilis dilindəki *who*, orta fars dilindəki *ke*, fransız dilindəki *que* sual əvəzliyi də mənşəcə birdir və bunların tarixi inkişaf prosesində həmin dillərdə bağlayıcıya çevrilməsi də eyni istiqamətdə olan inkişafın nəticəsidir. Jan Deni bu cəhəti görməsə də, məsələni düzgün qoymuşdur. N.Z.Hacıyeva ***ki*** və ***kim*** bağlayıcılarının mənşəcə müxtəlif olduqlarını qeyd etmişdir[1] ki, bu da ağlabatan deyildir.

İkinci bir mühüm məsələ də *kim (ki)* ədətı ilə *kim (ki)* bağlayıcısını fərqləndirməkdir. Fikrimizcə, ədat bağlayıcıdan yaranmışdır və bağlayıcı sözlərlə birgə işlənən *ki* və *kim* bağlayıcı deyil, ədatdır. Bu sözlərin tarixən bağlayıcı kimi işlənməsi daha qədimdir. Bağlayıcı söz təşəkkül tapdığı dövrdən onların ədatlaşması da başlamışdır. Ə.Z.Abdullayev də, N.Z.Hacıyeva da bəzən *kim* və *ki* bağlayıcıları ilə *kim* və */ki* ədatlarını qarışdırmışlar[2].

Anın üçün bağlayıcısı. Bu bağlayıcı nəticə budaq cümləsini baş cümləyə bağlamışdır: *Beş aqçaluq əlüfəcilər yoldaş etdin,* ***anunçun*** *ol qəl'əyi sən alımadun.* (DQ) Xalis Azərbaycan sözlərindən ibarət olan bu bağlayıcı müasir dilimizdə ***onun üçün, onun üçün də*** şəkillərində işlənməkdədir.

Zira bağlayıcısı. Bu bağlayıcı səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: *Bildim bu qəziyyə imtəhandır,* ***Zira ki*** *bu bir bəlayi-candır.* (Füz.)

Zira bağlayıcısı «çünki» sözünün sinonimi olub, müasir dilimizdə çox az hallarda işlədilir, mənşə etibarilə fars sözü sayılır.

Ta, ta ki, ta kim bağlayıcıları. Bu bağlayıcılar daha çox məqsəd və zaman budaq cümlələrini baş cümləyə bağlamışdır: *Çağırdı pəs ol pəri xisali,* ***Ta*** *bir də görə rüxi-vüsali.* (Məs.) *Bu qızların ona qıldı məhrəm,* ***Ta kim*** *olar ilə ola həmdəm.* (Məs.)

Çünki bağlayıcısı. Bu bağlayıcı səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: *Bəd halətə düşmə,* ***çünki*** *vardır Biləncə xəyali-ruyi-niku.*(Xət.) ***Çünki*** sözü inkişaf prosesində bağlayıcı söz kimi də işlənmiş, tədricən bağlayıcı kimi sabitləşmişdir. ***Çün*** hissəsi alınmadır.

Kim və ***ki*** bağlayıcıları ilə ***çünki*** bağlayıcısı məna imkanlarına görə antonim sayıla bilər. *Kim//ki* bağlayıcıları əksər budaq cümlələri baş

[1]Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, s.360.
[2] Yenə orada.

cümləyə bağladığı halda, *çünki* sözü bağlayıcı kimi sabitləşdikdən sonra yalnız səbəb budaq cümləsini baş cümlə ilə əlaqələndirir.

Bağlayıcı sözlər. Tarixi abidələrin dilində budaq cümləni (prepozitiv budaq cümlələri) baş cümləyə bağlayan aşağıdakı bağlayıcı sözlər işlənmişdir:

Əgər/gər bağlayıcı sözləri. Müxtəlif türk dillərində işlənən bu bağlayıcı sözlər daha çox şərt budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: *Zahid,* ***əgər xəta isə*** *ol zülfü sevdiyim, Qəbrim içində yalvarayım qoy ilanlara.* (Fəz.) ***Gər aşiq isən*** *sən, ey cahangərd, Qaçma ki, mənəm sənin lə həmdərd.* (Füz.)

Azərbaycan, türk, türkmən dillərində ***əgər*** və ***gər*** sözlərindən düzələn ***əgərçi, gərçi*** bağlayıcı sözləri də işlənmişdir. Bunlar qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlamışdır[1]. Məs.: *Qafilsən əgərçi sən özündən, Mən vaqif özündənü sözündən*. (Məs.) *Andan sənə* ***gərçi*** *yetdi nöqsan, Yüz səncə ona yetişdi xüsran.* (Məs.)

Əgər, gər və **əgərçi** bağlayıcı sözləri fars mənşəlidir. Bunlardan yalnız ***əgər*** sözü dilimizdə sabitləşə bilmişdir.

Elə ki bağlayıcı sözü. Bu bağlayıcı söz zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Elə ki*** *taxıldı burnuna çeşmək, Qocalıq əl verib, dəxi nə şişmək.* (Vid.)

İndi ki bağlayıcı sözü. Şərt budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***İndi ki*** *gəlmisən, buyur içəri*.(Nağıllar)

Çü bağlayıcı sözü. Səbəb, tərz, şərt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Vəhdət dəmində dərvişü sultan* ***çü*** *bir imiş, Gəl xəstədil Nəsimi, qəbul eylə şalını.* (Nəs.)

Çün bağlayıcı sözü. Zaman, səbəb, şərt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Könül, şaha, gözündə* ***çün*** *guşənişin oldı, Əhli-kərəmə ikram vacib ola mehmanə* (QB)

İndi ki, kimi, tək, təki mənalarında ***çü***, *necə ki, elə ki* mənalarında ***çun*** sözü fars mənşəli sayılır və dilimizdə sabitləşə bilməmişlər, alınma və arxaik sözlərdəndir.

Qaçan kim bağlayıcı sözü**.** Zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Qaçan kim*** *dünün iki bəxşi keçdi, Yerindən durdu ol Əhməd Hərami*.(DƏH) *Hərami ol bağı* ***qaçan ki*** *gördi, Enib atdan gəlib içəri girdi*.(DƏH)

Qanda, Qanda kim bağlayıcı sözləri. Yer budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Qanda*** get**sə**vüz, həm biz də gedəvüz. (MV) ***Qanda kim*** *baksa, gülü reyhan gəlür.* (MV)

---

[1] Н.З.Гаджиева.Основные пути развития синтаксической структуры тюркских языков, s..351.

Qaçan kim, qanda kim bağlayıcı sözləri ***xaçan kim, haçan kim, xanda kim, harda kim*** inkişaf yolu keçmiş, müasir dildə *haçan ki, harda ki* şəkillərində sabitləşmişdir.

Kim bağlayıcı sözü. Mənşə etibarilə sual əvəzliyindən ibarət olub, nisbi əvəzlik-bağlayıcı söz kimi işlənən bu söz mübtəda, xəbər, tamamlıq, təyin budaq cümlələrini baş cümləyə bağlamışdır; baş cümlədə qarşılıq bildirən söz olur (xəbər və təyin budaq cümlələrinin baş cümləsində mütləq işlənir, mübtəda və tamamlıq budaq cümlələrinin baş cümləsində işlənə də bilər, işlənməyə də). məs.: ***Kim*** görürsə yüznüzü, olur həlak. (MV)

Nə bağlayıcı sözü. Sual əvəzliyindən yaranmış bu bağlayıcı söz türk dillərində geniş yayılmışdır və müxtəlif hallarda işlənərək mübtəda, tamamlıq, xəbər, təyin budaq cümlələrini baş cümləyə bağlamışdır. Baş cümlədə qarşılıq bildirən söz işlənir (işlənmədikdə təsəvvür olunur); məs.: *Məşuqədən ana* ***nə gəlürsə****, (ol) qəbul ola.(*Nəs.)

Nə ki/nə kim bağlayıcı sözü. Mübtəda və tamamlıq budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: Başım üstünə ***nə kim*** buyurursan. (DƏH)

Anca kim bağlayıcı sözü. Zaman budaq cümləsini baş cümləyə bağlamışdır: ***Anca kim*** *durdum, anın çıkdı canı.* (MV**)**

Nə kim, nə ki, anca kim bağlayıcı sözləri məhdudlaşmış və şivələrdə qalmışdır.

Ol zaman ki/ o zaman ki bağlayıcı sözləri. Zaman budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***O zaman ki*** *məhşər xalqı dururlar, Divan olub sorğu-sual sorarlar*. (Vaqif)

Nə qədər bağlayıcı sözü. Kəmiyyət, zaman, şərt, güzəşt budaq cümlələrini baş cümləyə bağlamışdır; məs.: *Rəhində sənin dil* ***nə qədər ki düşə*** *şərrə, Könlüm o rüxi-mehrü münəvvərdən üzülməz*. (Vaqif)

Hər qanda kim bağlayıcı sözü**.** Yer budaq cümləsini baş cümləyə bağlamışdır; məs.: ***Hər qanda kim*** *şərh eyləsəm şirin dodağın qəndini, Ərvah uşər sinək kimi ol dadlı şəkkər xəndinə.*(Nəs.)

Hərçənd, hərçənd ki bağlayıcı sözləri. Qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayır; məs.: ***Hərçənd*** *kişi* ***düzə*** *vəsilə, Təğyir edəməz qəzanı hiylə.* (Məs.)

Bağlayıcı sözlərin mövcud təfərrüatı budaq cümlələrdən danışılarkən qeyd ediləcəkdir.

Dilimizin ilkin inkişaf mərhələlərində həm bir sıra bağlayıcılar, həm də bağlayıcı sözlər çoxmənalı olmuş, tədricən çoxmənalılıqdan azad olmuşlar. ***Ki*** bağlayıcısı çoxmənalılığını saxlamışdır.

N.Z.Hacıyeva göstərir ki, Azərbaycan dilinin ilkin abidələrinin xarakter xüsusiyyətlərindən biri bağlayıcıların aid olduğu budaq cümlə ilə birlikdə ön pozisiyada işlənməsidir. Müəllif bu məqamda: ***Çün*** *gördi ani*

səbayi-miskin, Çəkdi cilovini, oldu ğəmgin (Xət.)[1] – misalını vermişdir. Burada iki cəhətdən qüsur vardır. Bu cür sözlər bağlayıcı deyil, bağlayıcı sözlərdir. Bağlayıcı sözlər bir qayda olaraq, aid olduğu budaq cümlə ilə birlikdə ön pozisiyada işlənir, bağlayıcılar isə baş və budaq cümlənin arasında. Digər tərəfdən, bu xüsusiyyət yalnız ilkin abidələrə deyil, müasir Azərbaycan dilinə də aiddir. ***Çün*** sözü arxaikləşmiş olsa da, bu gün bu tipli budaq cümlələrin əvvəlində ***elə ki, o zaman ki, nə qədər ki*** və s. müxtəlif bağlayıcı sözləri işlənməkdədir.

Şəkilçilər, ədatlar. Bağlayıcı sözlü tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirmək üçün müasir dilimizdə olduğu kimi, tarixən də ***–sa,-sə*** şərt şəkilçisindən, ***isə*** şərt ədatı və onun şəkilçiləşmiş formasından (***-sa,-sə***)[2] ***-mı,-mi, -mü, -mü*** sual şəkilçisindən və bir sıra ədatlardan (***da, dəxi, belə*** və s.), modal sözlərdən istifadə edilmişdir.

-sa,-sə şəkilçisi ilə ***–mı*** sual şəkilçisinin budaq cümlələrə xidməti ***kim*** və ***ki*** bağlayıcıları ilə ***çünki*** bağlayıcısının nisbəti kimidir. Yəni ***–sa, -sə***, demək olar ki, bütün budaq cümlələrə xidmət etdiyi haldı, ***-mı*** şəkilçisi zaman, şərt, nəticə kimi bir neçə budaq cümləni baş cümləyə bağlamışdır. Məs.: ***Kim qılsa*** xəyal anın vüsalın, Qət eyləyə rişteyi-xəyalın. (Məs.) Baş alıb gedirəm sizin mahaldan, ***Axtarsan da,*** bu Qurbani tapılmaz. (Qurbani) ***Öldürsə dəxi*** *ki,* çəkməzəm qəm. (Xət.) *Mərə dəlü ozan, mən* ***eyiblümiyəm ki****, mana eyib qoşarsan?* (DQ)

Ənənəvi olaraq, tabeli mürəkkəb cümlələr budaq cümlənin növləri üzrə öyrənilir.

[1] Н.З.Гаджиева.Синтаксис сложноподчиненного предложения в азербайджанском языке,s.21.

[2] Ətraflı məlumat üçün bax: G.Abdullayeva. Azərbaycan dilində ***-sa, -sə*** şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri, Bakı, 2000.

BUDAQ CÜMLƏNİN NÖVLƏRİ

MÜBTƏDA BUDAQ CÜMLƏSİ

«Kitabi-Dədə Qorqud»un dilində mübtəda budaq cümləsinin hər iki tipi normal şəkildə işlənmişdir. Baş cümlədə qəlib və qarşılıq bildirən sözlərdən az istifadə edilmişdir; məs.: ***Nə gəlürsə,*** *bənim sağrıma gəlsün*. (33) *On altı yıldır ki****, Oğuz içindən getmiş idik***.(53) – cümlələrindən birincisində budaq cümlə, ikincisində baş cümlə əvvəl işlənmişdir. Birinci misalda budaq cümlə baş cümləyə bağlayıcı sözlə (***nə*** sözü), ikinci misalda ***ki*** bağlayıcısı ilə bağlanmışdır.

"Budaq cümlə + baş cümlə" quruluşlu cümlələrdə budaq cümlə baş cümləyə ***nə*** sözü ilə yanaşı, ***hər kim, nə qədər*** bağlayıcı sözləri ilə də bağlanmışdır. Bağlayıcı sözlərin heç birində ***ki*** ədatı yoxdur. Əksinə, budaq cümlələrin sonunda ***-sa,-sə*** şəkilçisi fəaldır. Baş cümlələrdə az hallarda qarşılıq bildirən söz işlənmişdir: ***Hər kim*** *yemədi,* ***ol*** *Qazan xatunıdır*. (88) *..****nə*** *diyər****sə****, olurdı*. (31) *...meydanda* ***nə qədər*** *at var****sa****, qan qaşındı*. (88) *Ol zamanda Oğuz yigitlərinə* ***nə*** *qəza gəl****sə****, uyxudan gəlürdi*. (90)

Bu hal göstərir ki, ümumən budaq cümlənin bu növünün təşəkkül tarixi çox qədimdir.

Analitik quruluşda budaq cümlə baş cümlədən sonra gələrək, baş cümlə ilə bəzən yalnız intonasiya ilə, bəzən də ***kim*** bağlayıcısı ilə əlaqələnmişdir. Baş cümlə yarımçıq cümlə şəklindədir - qəlib söz işlənməmişdir: *...on altı yıldır, tutsaqdır.* (94) *Üç gündür qoşalığım yoq.* (106) *On altı yıldır kim, babanın tutsağıyam*.(59) *Bəgümizin bir oğlı vardı, on altı yıldır kim, ölüsi-dirisi xəbərin kimsə bilməz*.(60)

XII- XIV əsrlərin və sonrakı dövrlərin ədəbi dilində mübtəda budaq cümləsinin hər iki tipi zəngin bağlayıcı vasitələri, forma və quruluş xüsusiyyətləri ilə diqqəti cəlb edir.

I tip. Bu dövrün ədəbi dilində mübtəda budaq cümləsinin bağlayıcı sözlə baş cümləyə bağlanan tipində budaq cümlə baş cümlədən əvvəl işlənərək, ona bir sıra bağlayıcı sözlərlə bağlanmışdır. Baş cümlədə əvvəllər qarşılıq bildirən ***ol,*** tədricən ***o*** sözü işlənmişdir. Bunlar olmadıqda təsəvvür edilir.

Budaq cümlə aşağıdakı bağlayıcı sözlərlə baş cümləyə bağlanmışdır:

Kim bağlayıcı sözü ilə: ***Kim*** əvvəl tanımadı kəndi vücudi şəhrini, ***Ol*** gədəhimmət nə yoldan varə sultan istəyə? (Nəs.) ***Kim baqarsa*** yüzimə, heyran olur. (Suli) ***Kim*** bunı bilür ***isə,*** ərənlərdür.(QB) ***Kimün*** var ***isə***

eşqi uşda, gələ meydana.(QB) ***Kim*** dilər ***isə*** qavlaya şahin, ***Gövdəsi*** ortalıxda laşa gərək.(QB)

Birinci misalda budaq cümlə baş cümləyə ***kim*** bağlayıcı sözü ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***ol*** sözü işlənmişdir. Sonrakı misallarda budaq cümlənin baş cümləyə bağlanmasında ***kim, kimün*** bağlayıcı sözləri ilə yanaşı, ***isə*** şərt ədatı da iştirak etmişdir. Bir qisminin baş cümləsində qarşılıq bildirən söz yoxdur, artırmaq olar: ***Kim*** bunı bilür ***isə, (ol)*** ərənlərdür – ***Bunu bilən*** *ərənlərdür.* Son misalda qarşılıq bildirən söz yiyəlik halda olub, ***gövdəsi*** sözü ilə birləşmə yaratmış, adlıq halda mübtəda vəzifəsində işlənməklə cümlənin mübtəda budaq cümləsi kimi formalaşmasına səbəb olmuşdur.

Bu xüsusiyyət eynilə XV-XVI və XVII-XVIII əsrlərin ədəbi dilində də davam etmişdir. Məsihinin «Vərqa və Gülşa» məsnəvisi öz dilinin zənginliyi, eyni zamanda arxaik elementlərin çoxluğu ilə seçilir. Bir sıra hallarda Məsihi daha qədim dövrün arxaik formalarından istifadə etmişdir. Əsərinin məzmunundan, poetik imkanlarından, işlətdiyi müqayisələrdən görünür ki, böyük istedad sahibi olmuşdur. Alınmalar, izafət tərkibləri, qapalı saitli şəkilçilər onun dilini bu cəhətdən Füzulidən əvvəlki dövrlərlə bağlayır. Odur ki məsnəvinin dilində bağlayıcı sözlü cümlələr daha zəngindir. Şair bağlayıcı sözlü cümlələrə nisbətən analitik budaq cümlələrdən az istifadə etmişdir.

Dövrün ədəbi dilindən bir neçə nümunə:

Kim qarşına var***sa***, gözün örtər (Xət.) ***Kim bəsləsə*** gülbün, ***ol*** görər gül.(Məs.) ***Kim qılsa*** xəyal anın vüsalın, Qət eyləyə rişteyi-xəyalın. (Məs.) ***Kim*** özündən keçəcək, ***o*** tapacaq burda qərar.(Saib) ***Kim*** göz açdı, töküldü yaşi. Baş qovzadı ***kim***, kəsildi başi.(Məs.) Baş qavzamağa ***kim*** oldu xürsənd, Verdi yelə sər hübab manənd.(Məs.) ***Kim heyf edə*** sakini Hicazə, Yetməz ***o*** nəmazdin niyazə.(Məs.) ***Kim*** özü ***ola*** qəmə giriftar, Özgə ğəminə əcəb qıla çar? (Məs.)

Göründüyü kimi, bir neçə cümlədə qarşılıq bildirən ***o, ol*** sözləri vardır. Əvvəlki üç budaq cümlənin xəbərində şərt şəkilçisi ***–sa,-sə,*** son iki cümlədə isə şərt şəkilçisi məqamında ***–a,-ə*** arzu şəkilçisi işlənmişdir.

Bağlayıcı sözlər əksərən ***kim ki, kimün ki, nə ki, şol ki, şol kim*** şəkillərində ***kim*** və ya ***ki*** ədatları ilə birgə işlənmişdir.

Kim ki bağlayıcı sözü ilə: ***Kim ki*** yası dutma***sa***, olur asi.(MV) ***Kim ki*** şəhidün olur *isə* ola ğazi.(QB) ***Kim ki*** bizari ***ola*** bazaridür, ***Kim ki*** bazar ***isdəyə*** ba-zar ola. (QB) ***Kim ki ata*** kəndü varlığını şəmsün nurına, Səd isə, nəhs isə bilə kəndünün yılduzını.(QB) ***Kim ki gələ*** anı ***təfərrüc edə***, Ah edə, dəxi düşə, əqli gedə.(MV) ***Kim ki*** görər, görməzə urar gedər. (MV) ***Kim ki*** müsəlmandurur, qonaq sevə.(MV)

Əvvəlki iki misalda ***kim ki*** bağlayıcı sözü ilə yanaşı, şərt şəkilçisi, ***isə*** şərt ədatı, sonrakı üç misalda ***–a,-ə*** arzu şəkilçisi də işlənmişdir**.**

Nəsiminin dilində ***kim ki*** bağlayıcı sözlü budaq cümlələr intensiv işlənmə imkanları ilə diqqəti cəlb edir. Bu formanın özü xalq dilində zəngin olmuş, xalq dilinin bu xüsusiyyəti Nəsiminin təbliği şeir dilində üstün yer tutmuşdur. Həm də şairin əksərən ***ki*** ədatı ilə işlətdiyi bağlayıcı sözlər bu gün xalq dilində işləndiyi kimidir. Çox nadir hallarda budaq cümlənin sonunda –***sa,-sə*** və ya ***isə*** işlənmişdir. Qarşılıq bildirən söz də çox azdır:

Başinə ***kim ki*** düşmədi kölgəsi ənbərin, saçın, Dövlətə sadiq olmadı, uğramadı hümayinə. (Nəs.) Eşqinə ***kim ki*** qılmadı baş ilə canını səbil, Dərdinə çarə bulmadı, uğramadı dəvayinə. (Nəs.) Faili-mütləqi-yəqin ***kim ki*** dilər görə bu gün, Baxsın anın cəmalına, həqqi görər bu ayinə. (Nəs.) ***Kim ki*** bu halə düşmədi, qoy vara kəndü halinə. (Nəs.) ***Kim ki*** zahir görmədi üzündə həqqin surətin, ***Güzgüzü*** ari degildir, çarə qılsın pasinə. (Nəs.) ***Kim ki*** səni sevmədi, eşqinə can vermədi. (Nəs.) Can ilə ***kim ki*** könlünü eşqinə qılmadı vətən, Divə müsəlləm eylədi məmləkəti-Skəndəri.(Nəs.) ***Kim ki*** can verdi bu yolda, buldu ***ol*** cananəyi. (Nəs.) Cənnəti-ədnin tamaşası rüxün gülzarıdır, ***Kim ki*** şol gülzarı buldu, özgə gülzar istəməz.(Nəs.) ***Kim ki*** Nəsimi kimi vahidü fərd olmadı, Vahidimütləq degil, zati-vahid olmadı. (Nəs.) ***Kim ki*** mələk kimi sana qılmadı səcdə, ey sənəm, Ta əbəd ***adı*** div imiş, münkiri-bibəsər kimi.(Nəs.)

Kim ki bağlayıcı sözü XV-XVI və XVII-XVIII əsrlərin ədəbi dilində – Cahan şah Həqiqi, M.Füzuli, Ş.İ.Xətai, Məsihi, M.P.Vaqif və b.-nın əsərlərində də öz işləkliyini davam etdirmişdir. Məs.:

Ola sidq ilə ***kim ki*** əhli niyaz, Olar ***ol*** yol içində saf şahbaz. (Xət.) Əql meydanını zindani-bəla bilməz hənuz ***Kim ki*** bir müddət cünun mülkünü seyran etmədi. (Füz.) ***Kim ki*** baxdı səndən ayru Kişvərinin yüzinə, Bildi kim, halı nədür möhtaci-təqrir olmadı.(Kiş.) ***Kim ki*** səndin döndərüb himmət verə hurayə dil, Oldu ***ol*** bidərd xari-dideyi-eynülyəqin.(Məs.) ***Kim ki*** bu aləmdə ömrün sərf edib yar axtarır, Gənci-gövhər dağıdıb viranədə mar axtarır. (Qövsi) ***Kim ki*** sevdayi-səri-zülfi-pərişanə düşər, Gah zindana, gahi çahi-zənəxdanə düşər. (Vaqif) ***Kim ki*** birçəklərini sünbülə timsal salır, Xubların başına qovğa gətirir, qal salır. (Vaqif)

Bəzən şeir tələbləri ilə əlaqədar bağlayıcı sözlə *ki* ədatı arasına başqa söz daxil olmuşdur: Gözi hinduvü xətadur ***kim*** ana ***ki*** türk der ***isə*** *Ləbinün tadı* şəkərdür, vəli *rəngi* al olamı. (QB)

Kimin kim, kimin ki, kimdə kim bağlayıcı sözləri ilə: ***Kimin kim*** qızı var, Belində önəlməz ***sızı*** var. (Oğuz.) ***Kimdə kim*** səbr olmadı, adəm dəgül. (Suli) Məqsudi ***kimin ki*** iki aləmdə nə sənsən, Məqsudini itirdivü fəth olmadı kami. (Nəs.) ***Kimin kim*** bəxti yar olmaz, dönər idbarə iqbali. (Nişat)

Kimin ki bağlayıcı sözü Xətainin dilində daha çox işlənmişdir: ***Kimin ki*** olmasa üzrü, niyazi, Qəbul olmaz ***niyazi***, həm ***namazi***.(Xət.) Şah

qatda ***kimin ki*** adəmi var, Əz cövrü sitəm nədən ***qəmi*** var? (Xət.) ***Kimin ki*** məni içrə zati yoxdur, Çürükdür ***sözünün bünyadı*** yoxdur (Xət.) və s.

Göründüyü kimi, bu misalların baş cümlələrində nəzərdə tutulan korrelyatın (*onun) niyazi, namazi, (onun) qəmi, (onun) sözünün bünyadı* şəkillərində mənsubiyyət şəkilçili ikinci tərəfi işlənmişdir. Bu cür birləşmələrə *ol* sözü uyuşmur. Bu hal göstərir ki, Xətainin dövründə *o* əvəzliyi xalq dilində tam sabit işləkliyə malik olmuşdur və onun ***ol*** arxetipi poetik tələblərlə bağlıdır.

Hər kim bağlayıcı sözü ilə: Xəyalından gözün ***hər kim*** buraxdı özgə mənzurə, Bu mənidəndir, ey can kim, xəyalın qədrini bilməz. (Nəs.) Nəqqaşı nəqş içində hüsnündə gördü zahir, Güzgüsünün üzündən ***hər kim*** gedirdi pasi. (Nəs.) Cahanü canı tərk eylər düşər ***hər kim*** bu sövdayə. (Nəs.) ***Hər kim*** ərdir, uş ala bəndən ati. (YM) ***Hər kim*** bu yolda quldurur, aləmdə ***ol*** sultan gərək. (Nəs.)

İkinci və üçüncü misallarda komponentlər yerini dəyişmiş, son misalda qarşılıq bildirən söz işlənmişdir.

Hər kim bağlayıcı sözü sonrakı dövrlərdə də işləkliyini davam etdirmişdir: Bu mübarək işi ***hər kim*** etdi, pünhan etmədi. (Füz) ***Hər kim*** özünə nigah edərdi, Öz hasilini təbah edərdi. (Məs.) Öz şahını ***hər kim*** aldı döndi, Ol şivədə ***ləşgəri*** sevindi.(Məs.) Hər kim anın əlindən içər badə, qan içər. (Saib)

Hər kim bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Hər kim*** indi bana ***baqsa***, əqli şaşər. (QY) ***Hər kim*** anı gör***sə***, yolundan aza. (MV) Bu dünyada mülkü o, malı neylər, ***Hər kim*** ol***sa*** sənin ilən yar, gəlin! (Vaqif)

Hər kim bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hər kim ala*** canına cəfanı, ***Lazım görə*** ruyi-müddəani, Məzur olacaqdır ol aradə.(Məs.) Məni belə ***hər kim görə***, bil, ağlar.(Vid.)

Hər kim məqamında ***hər ki*** bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hər ki*** dərmansız ***qala***, Bu düa qılsa, ol dəm qurtula. (Suli)

Hər kim ki bağlayıcı sözü ilə: ***Hər kim ki*** səni sevər səndən aparur bir xət. (QB) ***Hər kim ki*** tövhid əhlidir, ***ol*** didü vadid əhlidir. (Nəs.) ***Hər kim ki*** saçın küfrünə iman gətirməz, Mömin degil ***ol*** dinin itirmiş, ona çox vay! (Nəs.) ***Hər kimi ki*** yaxmadıvü yandırmadı firqət, İrmədi Xəlil kimi bu gün nuri-vüsalə. (Nəs.) ***Hər kim ki*** düşdü eşqinə, büryanü həm giryan gərək. (Nəs.) İllər yaşar Xızr kimi ***hər kim ki*** gecələr Gülüzlü yar ilən meyi çün ərğəvan içər.(Saib)

Sonrakı dövrlərdə də ***hər kim*** bağlayıcı sözü ***ki*** ədatı ilə daha intensiv işlənmişdir; məs.: ***Hər kim ki*** əsir olur bu damə, Səbr etsə gərək ğəmi-müdamə. (Füz.) ***Hər kim ki*** bu nüktədəndir agah, Dövrani-fələkdən etməz ikrah. (Füz.) Meyli-canan etməsin ***hər kim ki*** qıymaz canına. (Füz) ***Hər kim ki*** sənə olundu mənzur, Nakamlığına aldı mənşur. (Məs.) ***Hər kim ki*** göz açdı gördü ani, Qoydu həvəs atəşinə cani. (Məs.)

Bəzən bağlayıcı sözdə ***ki*** ədatı ola-ola, budaq cümlənin xəbərində şərt ədatı da işlənmişdir: ***Hər kim ki*** bizi anır***sa***, bulsun.(Xət.) Müasir ədəbi dilimizdə ***ki*** ədatı şərt şəkilçisi və şərt ədatı ilə növəli işlənir.

Hər kimsə kim bağlayıcı sözü ilə: Sidq ilə ***hər kimsə kim*** tutmadı eşqin yolun, Salikü abid deyil, şeyxi-rəşid olmadı. (Nəs.) Rüxsarın üzrə zülfünü ***hər kimsə kim*** gördü dedi: Küfri-siyəhdir sanasan, dağıtmış iman üstünə. (Nəs.)

Hər kimsə ki bağlayıcı sözü ilə: Məqsudinə bulmadı hidayət, ***Hər kimsə ki*** bilmədi bu rahı. (Nəs.)

Hər kimsə ki bağlayıcı sözündə bir qədər loruluq və artıq söz (***hər***) olduğu üçün sonrakı dövrlərdə nisbətən az işlənmişdir. Füzulidə: ***Hər kimsə ki*** aşiqdir, ***işi*** ahü fəğandır.

Hər kimin kim bağlayıcı sözü ilə: Qaradır ruzigarı ***hər kimin kim***, könlü rövşəndir.(Qövsi)

Hər kimsənin ki bağlayıcı sözü ilə:***Hər kimsənin ki*** qibləsi, ey can, sən olmadın, İrağə düşdü Kəbədən, əhli-səfa degil. (Nəs.)

Sonrakı dövrlərin ədəbi dilində ***kimə***, ***hər kimə ki, kimsə, kimsə ki*** bağlayıcı sözləri nəzərə çarpmağa başlamışdır. Bunlar əksərən şərt və arzu şəkilçiləri ilə birgə çıxış edir: ***Hər kimə ki*** baxdın, oldu məcnun. (Füz) Canın sənə ***kimsə*** ver***sə***, itməz. (Füz.) ***Kimsə ki*** özündən ***ola qafil***, Bir özgəyi bilməyə nə qabil?(Füz.) ***Kimə yetə*** sərsəri-əmudi, Xaki-rəh olur ***anun vücudi***.(Məs.) Lütfün ***kimə sunsa*** badeyi-nab, Ta sübhi-qiyamət ***ol*** qılar xab.(Məs.) ***Kimsə kola*** özgənin əsiri, Qeyrin necə ola dəstgiri? (Məs.)

Nə bağlayıcı sözü ilə: Məşuqədən ana ***nə*** gəlür***sə***, qəbul ola. (Nəs.) Yigit ***nə geyərsə***, yaraşır.(Oğuz.) Əzəldə həq ***nə*** yazmış ***isə*** bolur.(QB) Çün səndə ***nə*** var, onda dəx var.(Xət.) Dəstimdə ***nə*** var, getdi əldən. (Xət.)

Bu misallardan əvvəlki üçündə bağlayıcı söz ***isə*** köməkçi sözü ilə işləndiyi üçün ***ki*** ədatına ehtiyac olmamışdır. Bu hal bugünkü sabit normanın hələ o dövrdə də tam mümkün olduğunu göstərir.

Nə bağlayıcı sözü abidələrdə təklikdə az görünsə də, müasir dildə başqa bağlayıcı sözlərdən daha çox işlənir.

Hər nə bağlayıcı sözü ilə. Bu bağlayıcı söz sonrakı dövrlərin ədəbi dilində daha çox, həm də əksərən şərt şəkilçisi ilə birgə işlənmişdir: Haqdan gəlir, ***hər nə*** gəl***sə*** bir qula. (Xət.) ***Hər nə*** de***sə***niz, mənə rəvadır. (Füz.) ***Hər nə diləsən***, arada vafir. (Məs.) Tamam puçdur ***hər nə söhbət eyləsən***. (Vid.) ***Hər nə*** Sənubər ***desə,*** siz yaxşıdır deyin. («Şəhriyar»)

Nə kim, nə ki bağlayıcı sözləri ilə: ***Nə ki*** zülfündə gündüzin gördüm, ***Ol*** gözümə bu gecə xab olısar. (QB) ***Nə kim*** göz var idi, ***həp(si)*** quruldu.(MV) ***Nə kim*** vardı, bu surətdə göründü.(Xət.) ***Nə ki*** rəqqas var ***isə***, gəlsin bura.(MV)

Son misalda bağlayıcı söz ***isə*** ədatı ilə birgə işlənmişdir. Sonrakı dövrlərdə məhdudlaşaraq şivələrdə qalmışdır.

Nəm ki bağlayıcı sözü ilə: Ağzunda ***nəm ki*** var ***isə*** xod müxtəsər durur. (QB)

Hər nə ki bağlayıcı sözü ilə: ***Hər nə ki*** hökm etmiş idi, gəldi başuma. (QB) Canlı danışıq dilində işləkliyini davam etdirməkdədir.

Hər nəsnə ki bağlayıcı sözü ilə: ***Hər nəsnə ki*** bəndə var sər ***cümləsi*** səndədür, Bilsəm ki, nədür ol ki, ana olasən təşnə. (QB)

Bu bağlayıcı söz sonrakı dövrlərdə tədricən arxaikləşmişdir. Xətainin «Dəhnamə» məsnəvisində buna yaxın mənada ***hər nəstə ki*** bağlayıcı sözü işlənmişdir: ***Hər nəstə ki*** var, getdi əldən. (Xət.)

Ol kim bağlayıcı sözlü ilə: Gizlə razın, səbr qıl axır sənə dərman verir, Ey Məsih, ***ol kim*** səni dərdə giriftar eylədi. (Məs.)

Ol kim *səni dərdə giriftar eylədi,* ***(ol)*** *sənə dərman verir – Səni dərdə giriftar eyləyən sənə dərman verir* – bağlayıcı sözlü tip.

Ol ki bağlayıcı sözü ilə: ***Ol ki*** məndən vəhm edərsən, məndə yok. (MV) ***Ol ki*** bu sirri bilir, oldu şahi-Misri-vücud. (Nəs.)

Ol bəlayi ki bağlayıcı sözü ilə: ***Ol bəlayi ki*** *əzəldə demiş idi könülüm,* ***Ol*** *edər cana bəlayi* dedilər, çinmi, əcəb?! (QB)

Ol başı ki bağlayıcı sözü ilə: ***Ol başı ki*** bəxt eyləmədi eşqinə qurban, Dəyməz ayağın tozuna, ey sərvi-dilaray. (Nəs.)

Ol nigar ki bağlayıcı sözü ilə***: Ol nigar ki*** var idi, Mehri idi.(MV)

Ol qövm kim bağlayıcı sözü ilə: ***Ol qövm kim*** bu sözü eşitdilər, Cövhəri andə qodilər getdilər. (YM)

Ol məlik ki bağlayıcı sözü ilə: ***Ol məlik ki*** ulu bəzirgən idi, ***Əvi*** tolu dür ilə mərcan idi.(Suli)

Şol kim bağlayıcı sözü ilə: Sultandır iki cahanda ***şol kim,*** Fəzlihəqq ola ***anın pənahı***. (Nəs.)

Şol ki bağlayıcı sözü ilə: ***Şol ki*** bay qılur qəmu yoxsulları, Banə dəxi ***ol*** veribdi buni. (Suli)

Şol quş ki bağlayıcı sözü ilə: ***Şol quş ki*** *tutğan quşnı azad qılur, Sanma ki, dünyada* ***ol*** *az ad qılur.* (QB)

Şol quş ki bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Şol quş ki düşə*** damuna bismildür, əfəndi. (QB)

Şol ulu xoca ki bağlayıcı sözü ilə: ***Şol ulu xoca ki*** gəlmişdi bunda, Qatı hörmətlidir atan qatunda. (DƏH)

Şol yar ki bağlayıcı sözü və arzu şəkilçisi ilə: Zülfünə düşən çıxmağı müşkildür, əfəndi, ***Şol yar ki bixiş ola***, bizim kibi olsun. (QB)

Qanda bağlayıcı sözü ilə: ***Qanda*** irmax var ***isə,*** son ***ucu*** ümmana gəlür. (QB)

Füzulinin dilində mübtəda budaq cümləsi ***hər söz ki, hər laf ki, bir iş ki, hər tənə ki, ol sərv ki*** bağlayıcı sözləri ilə də baş cümləyə bağlan-

mış, şair bağlayıcılı cümlələrdən çox istifadə etsə də, yeni bağlayıcı sözlərlə də ədəbi dili zənginləşdirmişdir; məs.: ***Hər söz ki*** gəlir zühurə məndən, Min tənə bulur hər əncüməndən. (Füz.) ***Hər laf ki*** eylərəm, xətadır. (Füz.) ***Bir iş ki*** qılır şikayət ustad, Şagirdə olur ***rücui*** bidad. (Füz.) ***Hər tənə ki*** eyləsən, rəvadır. (Füz.) ***Ol sərv ki*** çıxdı bu çəməndən, Məndən getdi, deyil ki səndən.(Füz.) Füzulinin poemalarında, xüsusilə «Leyli və Məcnun»da analitik budaq cümlələr böyük üstünlüyə malikdir və demək olar ki, bağlayıcı sözlü cümlələr onun üçdə biri qədərdir. Lakin bağlayıcı sözlü cümlələr də bağlayıcı sözlərin rəngarəngliyi ilə seçilir. Şairin mübtəda budaq cümləsini baş cümləyə bağlamaq üçün işlətdiyi bağlayıcı sözlər əksərən ***ki*** ədatı ilə birgə çıxış edir. Çox az hallarda budaq cümlənin xəbərində ***–sa, -sə*** şəkilçisi vardır.

Qurbaninin şeirlərində bunlara müvafiq olaraq ***hər kəs*** bağlayıcı sözü də işlənmişdir: ***Hər kəs*** nə iş tut***sa***, gələr başına. (Qurbani)

Məsihinin dilində budaq cümlələr baş cümləyə ***bir od ki, ol pa ki*** bağlayıcı sözləri ilə də bağlanmışdır: ***Bir od ki*** çəkibdürür zəbanə, Bin suz salupdurur cəhanə.(Məs.) ***Ol pa ki*** çəkərdi güldən azar, Zəncirə olupdurur giriftar.(Məs.) Zira atası ***ki*** şahımızdır, Hər müşkil ilə pənahımızdır.(Məs.)

M.P.Vaqif el sənətinin, el şairlərinin cərgəsində olduğu üçün dili də sadədir. Şair intonasiya ilə qurulan cümlələrə daha çox fikir vermişdir. M.P.Vaqif canlı dildə işlənən ***bir kimsə ki, hər kəsin, hər kəs ki, harda*** bağlayıcı sözlərindən daha çox istifadə etmişdir; məs.: Vaqif, ***bir kimsə ki*** bizdən yaşına, Yəqin bil ki, bizlən olmaz aşina. (Vaqif) ***Hər kəsin*** yox ***isə*** ağlı, kamalı, Dünyada alıbdır sahib camalı. (Vaqif) Hər kəsə ***hər kəs ki*** et***sə*** yaxşılıq, olur yaman. (Vaqif) ***Harda*** olsan, ***ora*** dönər behiştə. (Vaqif)

Şair ***ki/kim*** ədatlarından sonra əksərən ***–sa,-sə*** şəkilçisini də işlətməli olmuşdur: Hansı qəmli könlü ***kim*** sən ***edər olsan*** şadiman, ***Ol*** sənə, əlbəttə ki, bədguluq eylər, bigüman. (Vaqif) Bir gözəl ***ki şirin ola*** binadan, Yüz il getsə, ***onun dadı*** əksilməz. (Vaqif)

Cümlə ki (*hər kim* bağlayıcı sözü məqamında) bağlayıcı sözü ilə: Şəhər qövmi uyquda, ***cümlə ki*** var.(MV)

Ki ədatı ilə. Mənbələrin dilində mübtəda budaq cümləsinin baş cümləyə *ki* ədatı ilə bağlandığı hallar da var.; məs.: Onlar ***ki*** deyirlər bu nə fəryadü fəğandır, Barı bu sözü ol güli-xəndanə desinlər.(Qövsi)

Bir sıra cümlələrdə, xüsusən «Mehri və Vəfa» məsnəvisinin dilində bağlayıcı sözlə ***kim*** və ***ki*** ədatıları arasında müxtəlif sözlər işlənmişdir: ***Ol*** ulu küp ***ki*** torpaq doludur, Ulu oğluna işarət. (MV) ***Ol*** ulu qardaşımız ***ki*** şahdurur, Rum elində şimdi padşahdurur.(MV)

Cümlədə komponentlərin yeri dəyişmişdir. Cümlə düz sıra ilə belə olmalıdır: ***Cümlə ki*** şəhər qövmü var, ***(hamısı)*** uyquda(dır).

Mübtəda budaq cümləsinin prepozitiv tipində budaq cümlənin baş cümləyə bağlanmasında bağlayıcı sözlə yanaşı, çox vaxt şərt şəkilçisi iştirak edir. Məs.: Gəlir başına ***nə kim yazsa*** təqdir.(DƏH)

Şərt çaları məqamında ***isə*** şərt ədatı və ya onun şəkilçiləşmiş forması daha fəaldır; məs.: Görəli şol büti-çini yəqin oldı ki, *Hər kim ki* xəbər verür*sə* Mani nəqşinün vəsfini çin söylər. (QB) *Kimün* var *isə* eşqi uşda, gələ meydana. (QB) Qılıc yalın verəli ələmə əli, vəli *Kimə* ələst dedüm *isə* bana dedi, bəli. (QB) Fərrux ruxunı ***kim ki*** sabahın görür ***isə*** Mal ola ***ədusıvü*** mübarək ola ***hali***. (QB)

Belə cümlələrin bir qismində yiyəlik halda nəzərdə tutulan qarşılıq bildirən söz baş cümlədəki mənsubiyyət şəkilçili sözlə birlikdə qarşılıq bildirən söz - mübtəda kimi təşəkkül tapmış olur. Yuxarıdakı misalda *ədusi, hali* belə sözlərdəndir: ***onun ədusi, onun hali***.

Müasir dildə bağlayıcı söz *ki* ədatı ilə işləndikdə budaq cümlənin xəbərində ***-sa, -sə*** və ya ***isə*** olmaz, budaq cümlənin sonunda ***-sa, -sə, isə*** olduqda *ki* ədatı işlənməz. Qazi Bürhanəddinin dilində bu cəhət, yəni *ki* ədatı ilə ***–sa,-sə*** şəkilçisinin eyni zamanda işlənməsi, demək olar ki, dövr üçün norma halındadır. Məs.: Əqlü dil ilə canü tənüm ana fədadur, Yarun yolına ***hər nə ki*** gedər ***isə*** yetməz. (QB) Hiç kişidən eşqə inkar olmadı, ***Kim ki*** bazar ***isə***, bizar olmadı. (QB) Dün gecə yüzüm basa, gözə gəldi xəyalün, Səndən bizə, şəha, ***nə ki*** gəldi*sə* qədəmdür. (QB) Fərrux ruxunı ***kim ki*** sabahın görür ***isə***, Mal ola ədusıvü mübarək ola hali. (QB) və s.

Bu tipdə tərəflərin yer dəyişməsi həmişə mümkündür; məs.: Həqdir, ey can, ***hər nə kim*** təqdiri-yəzdan eylədi. (Nəs.) İçümüzdə sanasın eşqə döndi, ***Nə ki ləbdən bu dəndana irişdi***. (QB) Mücrim oldı cəfasını çəksün, ***Kim ki məşuqi-bivəfayı sevə***. (QB)

Tarixən budaq cümlələrin sonunda işlənən şərt şəkilçisini onun sinonimi kimi, arzu şəkilçisi ***–a,-ə*** də əvəz etmişdir. Bu xüsusiyyətə əvvəlki mənbələrin dilində daha çox rast gəlirik: Yüzini ***hər kim ki qıla*** xak yarı yolına, Yar yolında bilə gərək hər işün hər yüzini. (QB) Hammamda ***nə şeir ki deyilə*** tər düşər (QB) və s.

Tədqiqat göstərir ki, bu dövrün ədəbi dilində «budaq cümlə+baş cümlə» quruluşlu mübtəda budaq cümlələri «baş cümlə+budaq cümlə» quruluş tipinə nisbətən üstünlük təşkil edir. Bu hal başqalarının dilində də var, lakin daha çox Qazinin dilində müşahidə olunur və şairin ümumxalq folklorundan bol-bol bəhrələndiyini göstərir. Məs.: İşbu eşq ***kim*** bəndə vardır, kimdə var? (Suli) Yürəgüm kirpügün alında sanasın, *Nəştəri* ***qanqı*** *tamara* ***ki*** *irişə,* ***qanı*** *tamər*. (QB) Bən hüsnün ilə canəmü camun ilə xaməm, Hər cam ***ki*** hüsnün ilədür xam gəliməz. (QB)

Abidələrin dilində üslubdan asılı olaraq fərqlər vardır. Şah İsmayıl Xətainin dilində bağlayıcı sözlərlə baş cümləyə bağlanan mübtəda budaq cümlələri analitik tipdən fəaldır.

Mübtəda budaq cümləsinin bu tipində bağlayıcı sözlərə müvafiq olaraq, baş cümlədə mübtəda vəzifəsində qarşılıq bildirən *ol* sözü (bəzən də *bu* sözü) olur və budaq cümlə vasitəsilə izah edilir:

Bağdadnı ***kim*** viran qıla bilür, ***Ol*** yenə bu viranı Bağdad qılur. (QB) ***Hər kim ki*** yaxılmaya bir günəşin odında, Bir quzda yata qar tək səyvana gəliməz ***ol.*** (QB) ***Kimün ki*** ola cismində can dirivü əql ölü, Oynayan ilə canın meydana gəliməz ***ol.*** (QB)

Daha əvvəlki mənbələrdə qarşılıq bildirən sözlərə az yer verilməsi göstərir ki, bu model xalq dilində çox qədim dövrlərdən formalaşmışdır. Baş cümlədə qarşılıq bildirən söz olmadıqda təsəvvür edilir.

II tip. Mübtəda budaq cümləsinin analitik tipində budaq cümlə baş cümlədən sonra işlənərək, ona ya yalnız intonasiya ilə, ya da intonasiya və *kim, ki* bağlayıcıları ilə bağlanmışdır.

Mübtəda budaq cümləsinin analitik tipi Qazi Bürhanəddinin dilində nisbətən az işlənmişdir. Bağlayıcı sözlü mübtəda budaq cümlələri ilə müqayisədə bu hal Nəsiminin dilində də belədir.

«Baş cümlə + budaq cümlə» quruluşlu mübtəda budaq cümlələrinin bir qismində budaq cümlə baş cümləyə yalnız intonasiya ilə bağlanmışdır. Sonrakı dövrlərlə müqayisədə belə cümlələrin daha çox nəzərə çarpması qədim dövrlərə getdikcə intonasiyanın aparıcı mövqeyi ilə bağlıdır. Qazinin, Nəsiminin dilində, İsanın «Mehri və Vəfa» məsnəvisində belə cümilələr diqqəti daha çox cəlb edir. Məs.: Nə l***ayiqdir*** bana, bunu bən geyim? (MV) ***On bir aydır***, çəkirüz bu cəfayı. (MV) ***Məlum olsun***, ey Xudavəndim, sana Uşbu kişilər güc eylədi mana.(MV) Nə ***rəvadır***, kişi kölgəsin qova? (MV) Bən ***neçə yildür***, bu dənizdə tururam. (Suli)

Qurbaninin və Füzulinin şeir dilində də bir sıra budaq cümlələr baş cümləyə yalnız intonasiya ilə bağlanmışdır: Hər dərd ki var, Leyli aldı, ***Məlumdurur,*** sənə nə qaldı.(Füz.) ***Bir rəsmi-qədimdir cahanda***, Sud istəyən istəmək ziyan da.(Füz.) ***Adətdi***, dərərlər yaz bənövşəni. (Qurbani) ***Səkkiz şeydi*** bu dünyanı tutubdu.(Qurbani)

Analitik tipə daxil olan bu cümlələrin tərkib hissələri arasına asanlıqla ***ki*** bağlayıcısını artırmaq olar. Bağlayıcı özünə yer edə bilmədiyi üçün tərkib hissələri intonasiya ilə əlaqələnən belə cümlələrdə komponentlərin öz yerini dəyişməsi tez-tez müşahidə edilir: Sərvün sala özgə kişiyə sayə ***rəvamı,*** Gün ki keçə sənsüz ömürə saya ***rəvamı.*** (QB) Zülfün ilə cəmalüni buriyəsin ***rəvamıdur.***(QB) Sahibi kimdür anın, ***bilinmədi.*** (MV)

Bu cümlələrin heç birinin baş cümləsində budaq cümlənin yerliyi – qəlibi işlənməmişdir, odur ki baş cümlələr yarımçıq cümlə şəklindədir.

«Dastani-Əhməd Hərami»nin dilində də intonasiya ilə baş cümləyə bağlanan budaq cümlələrdə aktuallaşdırma ilə əlaqədar komponentlə-

rin yeri dəyişmişdir: *Rəvamıdır* bənim sözüm sıyasan? (DƏH) Məkanı qandadır *bilinmədi hiç*.(DƏH) – cümlələrindən birincisində müasir dil baxımından sıra normaldır. İkinci misalda normativ baxımdan tərəflərin yeri dəyişmişdir. Müasir dilimizdə də bu cür cümlələr işlənməkdədir. Bunlar ən qədim və ilkin variantdır, tiplər belə cümlələrdən yaranmışdır: *Bilmirəm, necə getdilər - Necə getdilər, bilmirəm*.

Bağlayıcılı cümlələrdə budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

Kim bağlayıcısı ilə: ***Bu*** nə işdir ***kim***, qılırsin, ay oğul? (Suli) *İkən xoş oldu* ***kim***, duymadı anı, Görüb ol zalımı ürkmədi canı.(MV) Ləbi ki qana gəlüpdür yürəgümün qanına, *Rəvadurur* ***ki,*** cigərim qanına ol qanə. (QB) Yandırırsan könlümü eşqinlə, *məlum oldu* ***kim***, Ani risvayi-cəhan etmək dilərsən, etməgil. (Nəs.) Şəmi-rüxün hərarəti yandırır, ey qəmər, bizi, *Uşbu cəhətdən oldu* ***kim***, göylərə çıxdı dudumuz. (Nəs.) *Məsləhətdir* ***kim***, baxasan halinə, Verəsən Gülşahı Vərqə əlinə. (YM) Bağrımı bir qan edən vardır, *deyil məlum* ***kim***, Sən özünsən, ya sözündür, ya dəhandır, ya nədir. (Qövsi) *Gərək məlumunuz olmuş ola* ***ki***, aləmdə sənin vəsfi-camal və kamalın məşhur olubdur. («Şəhriyar»)

Əvvəlki dövrlərdə baş cümlədə əksərən qəlib sözdən istifadə edilməmişdir, ona görə də baş cümlə mübtədasız yarımçıq cümlə şəklindədir. Lakin Füzulinin «Leyli və Məcnun» poemasında ***kim*** bağlayıcılı cümlələrdə əksərən ***o, ol, bu*** sözləri baş cümlədə budaq cümlənin yerliyi kimi mütləq işlənməli olmuşdur; məs.: Məlum idi əhli-halə ***ol hal Kim***, nüsxeyi-eşqdir bu timsal.(Füz.) Ğəmi-pünhan məni öldürdü, ***bu*** həm bir ğəm ***kim,*** Gülrüxüm olmadı agah ğəmi-pünhanımdan. (Füz.) Şəhrdən səhrayə bir fərq olduğun hər kim bilir, Bilmiş ***ol kim***, eşq səhrasında sərgərdan deyil.(Füz.) Aləmdə sənə ***bu*** qaldı tədbir ***Kim***, Kəbəyə eltəsən əsirin. (Füz.) Ərbabi-kəmalə ***ol*** əyandır ***Kim***, hüsn ilə eşq tovəmandır. (Füz.) Ey gül, ***bu*** mənə deyilmidir nəng ***Kim***, olmayasan mənimlə həmrəng? (Füz.) Vəhdət rəvişində xoş deyil ***bu Kim***, dişrədə istəyəm nişanın. (Füz.) Səhv imiş ***ol kim***, səni biz əhli-irfan bilmişiz.(Füz.)

Füzulinin dilində *Fərz oldu* ***kim****, tey qılam büsatım* (Füz.) – tipli baş cümləsi qəlib sözsüz cümlələr nisbətən azlıq təşkil edir.

Ki bağlayıcısı ilə: Əmərsə tifli can nola ləbündən, *Zəmanlardur* ***ki,*** eşq ilə əməndi. (QB) *Hələ yazı idi* ***ki***, gəldi başa.(MV) *Rəyətə xoşdur* ***ki***, şah ədl eyləyə.(MV) Yiddi yildür ***ki,*** qaldum bundə bən.(Suli)

Analitik tip Nəsiminin dilində o qədər də işlək deyil. Yəni tam normalaşmış şəkildədir, lakin bağlayıcı sözlü cümlələr qədər aparıcı deyildir: *Rəvamıdır, rəvamıdır*, həbibi, ***Ki,*** oda yandırasan mən qəribi? (Nəs.) *Nə rəvadır* ***ki***, geyə cahilü nadan kəpənək. (Nəs.)

Ki bağlayıcılı cümlələrin baş cümləsi əksərən ismi xəbərlidir: ***Xoşdur ki***, vüsalə dönsə hicran.(Xət.) Dəxi kimdən görərsən munca işlər***, Öz***

işidir ki, munca işlər işlər.(Xət.) ***Xızr abi idi ki***, nuş qıldım.(145) ***Xoş dəm ki***, bu cismü can qavışdı. (Xət.) ***Xoşdur ki,*** bulam vüsalə fürsət. (Füz.) ***Kimdir ki***, gəlib cahanə getməz.(Füz.) Leyli ***nə rəva ki,*** ola məcnun? (Füz.)

Baş cümləsi feli xəbərli mübtəda budaq cümlələri nisbətən az işləkdir: *Atasına müqtəzayi-adət* ***Fərz oldu ki***, onu edə sünnət. (Füz.) *Böylə* ***görünür ki***, aşinasan.(Füz.)

Füzulidə də, Xətaidə də belə cümlələrin bir qismində baş cümlədə ***o, bu*** qəlib sözləri zəruri üzvlər kimi işlənmişdir: ***Bu***, sözmüdurur ***ki***, eylədin nəql? (Xət.) Xoşdur ***bu ki***, talib ola mətlub.(Füz.) Billah, **bu** yamanmıdır ***ki,*** hala Əmvatə söz ilə verdim əhya? (Füz.)

Sonrakı dövrlərdə də ***kim*** və ***ki*** bağlayıcıları müvazi şəkildə işlənməkdə davam etmişdir. Bunlar intensiv işlənmə etibarilə yalnız müəllif üslubundan asılı olaraq fərqlənmişlər. Məsələn, Füzulinin dilində ***ki*** bağlayıcısı hələ işlənmə etibarilə ***kim*** bağlayıcısı ilə bərabərləşə bilməmişdir. Xətainin dilində isə ***ki*** bağlayıcılı mübtəda budaq cümləsi aparıcıdır. Həm də maraqlıdır ki, ***ki*** bağlayıcılı baş cümlələr ismi, ***kim*** bağlayıcılı baş cümlələr əksərən feli xəbərlidir.

«Baş cümlə + budaq cümlə» quruluşlu tabeli mürəkkəb cümlələr fikri genişləndirməyə, qarışıq tipli mürəkkəb cümlələrin poeziya dilində geniş yer tutmasına imkan yaratmışdır. Məsələn, Füzulinin:

Bir kimsə əgər olaydı agah
Kim, xəlqi necə yaradır allah,
Mümkün ***ki***, iradətilə ol həm
Xəlq edə bileydi özgə aləm. (Füz.) –

misraları bütövlükdə şərt budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir. Eyni zamanda hər iki komponenti mürəkkəbdir: budaq cümləsi tamamlıq, baş cümləsi mübtəda budaq cümləlidir.

Getdikcə ədəbiyyatın xəlqiləşməsi, xalq dilinə yaxınlığı Məsihinin əsərlərində, M.P.Vaqifin şeir dilində daha aydın görünür. Məsihinin dilində «baş cümlə + budaq cümlə» quruluş tipində intonasiya ilə baş cümləyə bağlanan mübtəda budaq cümlələri nəzəri daha çox cəlb edir. Belə cümlələrin baş cümləsində əksərən qəlib söz işlənmişdir: Xəlq içində ***bu*** məsəldürür faş, Min qarğaya bəs atanda bir daş.(Məs.) Həqqa ki, ***bu*** nəqsidür kəmalə, Qafil olasan ev içrə halə.(Məs.) ***Üç aydır*** olmuşam həsari.(Məs.)

Bu cəhət, yəni asindetik cümlələrin üstünlüyü M.P.Vaqifin dilində də aydın müşahidə olunur. Belə ki analitik mübtəda budaq cümlələri şairin dilində daha çox intonasiya ilə baş cümləyə bağlanmışdır; məs.: ***Çox zamandır***, yarın həsrətindəyəm. (Vaqif) ***Xeyli vaxtdır***, yarın fərağında-

yam. (Vaqif) ***Şərt deyildir***, yatıb duram yanında. (Vaqif) ***Neçə gündür***, didarını görmənəm. (Vaqif) ***İgidlərə gərəkdir*** yaxşı ad aləmdə söylənsin. (Vaqif)

Məsihinin dilində ***kim*** və ***ki*** paralelliyi davam edir. M.P.Vaqifin xalq şeri üslubunda yazdığı əsərlərdə artıq ***ki*** bağlayıcısı tam üstün mövqedədir, lakin klassik şeir üslubunda ***kim*** bağlayıcısı öz müvazinətini saxlamışdır. Məsələn: Məlum olunur ***ki,*** ol münafiq Almış ələ nəqsi-əhdi-sabiq.(Məs.) Bir-iki gün idi ***kim,*** səfərdən Gəlmişdi o seyri-bəhrü bərdən.(Məs.) Bu neçə gündür ***ki***, səndən ayrıyam. (Vaqif) Gah olur ***ki,*** zülf gizləyib, xal bağlar. (Vaqif) Gah olur ***ki***, nazik əllər görünür. (Vaqif) Kakil nə rəvadır ***ki***, könüldən edə qeybət. (Vaqif) Ey oğlan, neçə gündir ki, sən özindən bixəbərsən, ağzından-burnundan köpük gəlür. («Şəhriyar»)

Nisbətən əvvəlki dövrlərdə *kim* və *ki* bağlayıcılarının paralel işlənməsi ilə əlaqədar konkret müşahidələr də mövcuddur. «Dastani-Əhməd Hərami» və İsanın «Mehri və Vəfa» məsnəviləri üzərində apardığımız müşahidələr göstərdi ki, «Dastani-Əhməd Hərami»də *kim* bağlayıcı və ədatı 83 dəfə, ***ki*** bağlayıcı və ədatı 56 dəfə işlənmişdir. «Mehri və Vəfa»nın dilində ***kim*** bağlayıcı və ədatı 98 dəfə, ***ki*** bağlayıcı və ədatı 50 dəfə işlənmişdir[1]. Heç şübhəsiz, bunlar müəllifin üslubu ilə bağlıdır. Lakin hər halda aydın olur ki, bu əsərlərin yazıldığı dövrdə ***ki*** bağlayıcı və ədat kimi işləklik etibarilə ***kim*** sözünə çatmasa da, sürətlə inkişaf prosesi keçirir. Bunu Qazi Bürhanəddinin dilindən danışarkən İ.E.Quliyev də müşahidə etmişdir: «H.Mirzəzadə yazır *ki,* XVIII əsrə qədər yazı dilində *kim* şəkli *ki*-yə nisbətən daha fəal olmuşdur.(66,67) Qazi Bürhanəddinin yüz qəzəlində (səh.30 – səh.75) apardığımız müşahidə göstərir ki, bu bağlayıcı ***ki*** şəklində daha çox işlənmişdir (*ki* şəklində 124 dəfə, *kim* şəklində 3 dəfə). Nəsiminin dilində isə bu bağlayıcı ***kim*** şəklində çox işlənərək, müxtəlif tabeli mürəkkəb cümlə tiplərinin komponentlərini əlaqələndirmişdir… Deməli, ***kim*** bağlayıcılı cümlələr daha qədim dövrlərdə təşəkkül tapmış və XIV əsrin ortalarında belə mürəkkəb cümlələr inkişaf edərək elə bir mərhələyə çatmışdır ki, artıq o zaman ***kim***-dən ***ki***-yə keçmə prosesi güclənmişdir».[2]

Baş cümlədə mübtəda budaq cümləsinin yerliyinin olub-olmamasına görə bu tipin özünü də iki növə ayırmaq olar. Cümlələrin bir qisminin baş cümləsində mübtəda vəzifəsində qəlib söz – işarə əvəzliyi işlənməmişdir. Az hallarda baş cümlədə qəlib sözə rast gəlmək olur.

---

[1] *Бах*: Г.Ш.Казымов. Seçilmiş əsərləri, 1-ci cild, Bakı, «Nurlan», 2008, s.420-421.

[2] İ.E.Quliyev. Qazi Bürhanəddin dilinin sintaksisi, nam. diss., Bakı, 2008, s.107.

Baş cümlədə ***bu*** sözü: ***Bu*** nə sözdür ***ki***, söylərsiz qatımda? (MV) Rövşən idi ***bu kim***, yüzin sevər idüm qədimdən. (QB)

Baş cümlədə ***ol*** sözü: Bu dürrün kanın ***ol*** buldu ***ki***, qərq oldu bu dəryayə. (Nəs.) Nurü səfa içindəyəm qərğə, vəli, bu haləti ***Ol*** nə bilir ***ki***, düşmədi mehri-rüxün havasinə. (Nəs.)

Baş cümlədə ***o*** sözü: ***O kimdi ki***, dünyaya gəlməmişdən Onların şəkili vardı behiştdə? (Qurbani) ***O nəd*i *ki***, ildırımdan yeyindi? (Qurbani)

Müasir dilimizdə olduğu kimi, mübtəda budaq cümlələrinin bu növündə bəzən baş cümlənin xəbərində ***–mı,-mi, -mu,-mü*** sual şəkilçisi də işlənmişdir. Belə cümlələrdə ***–mı, -mi, -mu, -mü*** bağlayıcı vasitə olmAyıb, sual məqsədi ilə işlədilir. Bu cür cümlələrdə də qayda üzrə, budaq cümlə baş cümləyə ya yalnız intonasiya, yaxud da *ki* bağlayıcısı ilə bağlanmışdır; məs.: *Sehrmiydi* ləbündə gördüm qan*,* Aşkara, şəha, qızıl yağısın (QB) *Məsləhətmidir*, bəni bunda qoyub Sən gedəsən, qılmayasan hiç yad? (YM) *Rəvamıdur ki, ləbün saldı işbu hala dili.* (QB) Ey oğul, *bəs olmazmı*, biz fəqirləri bu qədər atəşi-suzana yandurursan? («Şəhriyar»)

Analitik mübtəda budaq cümlələrinin bir qismində baş cümlə, müasir dildə olduğu kimi, zaman məzmununa malikdir; məs.: Bən ***neçə yildür***, bu dənizdə tururam. (Suli) ***Neçə gündür***, didarını görmənəm. (Vaqif) və s.

Əvvəlki dövrlərdə müasir dildən fərqli olaraq, bəzən xəbərlə *ki* bağlayıcı arasına başqa sözlər daxil olmuşdur. Təbii ki, burada şeir dilinin tələblərini də unutmaq olmaz; məs.: Ay ilə günəşi səni görəli görməmişəm *Sən **rəva olamı** hər gecə **ki**, yılduz görəsin.* (QB)

Bu cümlə hazırkı normal sırada *Sən **rəva olamı** ki, hər gecə yılduz görəsin* – şəklində ola bilərdi.

Buradan aydın olur ki, bağlayıcı və ya ədat kimi işlənən kim və ki sözlərinin cümlədə yeri qədim və ilkin mərhələlərdə sabit olmayıb.

Belə düşünmək olmaz ki, XVIII əsr elə bir əsrdir ki, artıq ədəbi dil arxaik formalardan tam təmizlənmişdir. Bu dövrün ədəbi dili elə bir neçə əsr əvvəlki dildir, Qurbaninin, Tufarqanlı Abbasın dilidir. Lakin bu ədəbi dilin klassik üslubda yazan Füzulisi yoxdur, yalnız gözəlləmələrdən ibarət aşıq şerinin, el ədəbiyyatının yaradıcısı M.P.Vaqif var, M.V.Vidadi var. Elə buna görə də bir əsr sonra S.Ə.Şirvani yenə də eyni üslubu davam etdirir. Deməli, bədii dil ondan istifadə edənin ədəbi meylindən, xalq dilinə münasibətindən asılı olaraq qəlizləşə və ya sadələşə bilir.

Bura qədər nəzərdən keçirdiyimiz bağlayıcı vasitələr də, mürəkkəb cümlələrin quruluş tipləri də millidir, çox qədim dövrlərdən formalaşmış olan mübtəda budaq cümləsi yalnız səlisləşmə, zənginləşmə yolu ilə irəliləmişdir.

XƏBƏR BUDAQ CÜMLƏSİ

Budaq cümlənin bu növünün müasir quruluş modelləri – bağlayıcı sözlü və bağlayıcılı formaları «Kitabi-Dədə Qorqud»un dilində artıq tam təşəkkül tapmış haldadır. Bağlayıcı sözlü tipi az işlənmişdir. Baş cümlədə zəruri üzv kimi, qarşılıq bildirən söz, yəni xəbər, təbii ki, həmişə işlənməli olmuşdur. Budaq cümlə baş cümləyə ***hər kim*** bağlayıcı sözü ilə bağlanmış, baş cümlənin xəbəri qarşılıq bildirən ***ol*** sözü ilə ifadə olunmuşdur: ***Hər kim*** *yedi****, ol degil****.* ***Hər kim*** *yeməd*i, ***oldur.*** (47)

Dastanların dilində xəbər budaq cümləsinin ***kim*** bağlayıcılı analitik tipi daha fəaldır. Baş cümlənin xəbəri ***şoylədir, boylə oldı, budur, odur*** sözləri ilə ifadə olunmuş və budaq cümlə vasitəsilə izah edilmişdir:

Xanım, bu gün Bayındır xandan buyruq ***şoylədir*** *kim, oğlı-qızı olmuyanı tənri-təala qarğayıbdır, biz dəxi qarğarız*. (34) *Mərə Dəli Domrul, allah-təalanın əmri* ***boylə oldı*** *kim, Dəli Domrul canı yerinə can bulsun, onun canı azad olsun*.(81) *Yegrəgi* ***budur*** *kim, bunda qırılavuz*. (116) *Bunın müdarası* ***oldur*** *kim, Qazanı çıqaravuz, anlara bərabər edəvüz.* (120)

Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrdə müşahidə olunan bir cəhət - intonasiyanın yaratdığı imkanla, sərbəstliklə əlaqədar və ***ki*** bağlayıcısının hələ özünə möhkəm yer edə bilməməsi nəticəsində «Dədə Qorqud»un dilindəki analitik xəbər budaq cümlələrinin bir qismi tabesiz mürəkkəb cümlələrə çox yaxındır, hələ tərəflərin yeri tam sabitləşməmişdir; məs.: *Evin yağmalatdığın dəm Taş Oğuz bilə bulınmadı, səbəb oldur* (123) - cümləsi qoşulma əlaqəli tabesiz mürəkkəb cümləyə oxşasa da, ***səbəb oldur*** hissəsi zəif əlaqələnən baş cümlə funksiyasını yerinə yetirir. Dilin sonrakı inkişafı prosesində ***ki*** bağlayıcısı özünə yer etdikcə bu cür sərbəstlik aradan qalxrmış, analitik tip tam sabitləşmişdir.

Qazi Bürhanəddinin, İ.Nəsiminin, Yusif Məddahın şeir dilində, «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa» (Suli Fəqih), «Mehri və Vəfa» (Ümmi İsa), «Qisseyi-Yusif» (Qul Əli) məsnəvilərində xəbər budaq cümləsinin hələ «Kitabi-Dədə Qorqud»da və sonrakı klassiklərin əsərlərində tam müasir səviyyədə mövcud olan hər iki tipi geniş işlənmə imkanları ilə diqqəti cəlb edir.

I tip. Müasir Azərbaycan dilində «budaq cümlə+baş cümlə» quruluşlu, bağlayıcı sözlü xəbər budaq cümlələri rəngarəng xüsusiyyətləri, bağlayıcı vasitələrin zənginliyi ilə seçilir. Lakin abidələrin dilində xəbər budaq cümləsinin bu tipi, əsas qəlib qalmaqla, nisbətən az işlənmişdir.

Budaq cümlə baş cümlədən əvvəl işlənərək ona aşağıdakı bağlayıcı sözlərlə bağlanmışdır:

Kim bağlayıcı sözü ilə: Ol Məhəmməd ***kim*** həbibi-həqq Rəsul-(dur), ***Oldurur*** qamu nəbilərdən əsül. (MV)

Kim (kimi) bağlayıcı sözü və şərt şəkilçisi ilə: Oğlum ***kimi sevsə***, gəlünim ***oldur.*** (Oğuz.)

Kim (kimi) bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Könül ***kimi sevərsə***, görklü ***oldur***. (Oğuz.) Yerləri, gögləri ***kim yaratdısa***, ***Kim*** bu gögləri dürükəsüz (dirəksiz) ***tutdusa, Oldurur*** həm bəni dəxi yaradan. (Suli)

Qanda bağlayıcı sözü ilə*:* Laməkandır, kimsə bilməz qandadır, Ola ***qanda*** istər isən, ***andadır***. (MV)

Qanda bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Adam ***qanda isə,*** qədəm ***andadır***. (Oğuz.)

Qanda bağlayıcı sözü, ***ki*** və ***isə*** ədatları ilə: Yoxdurur bəllü məqamı könülün ***Qanda ki isdərlər isə, andadur***. (QB)

Nərədə bağlayıcı sözü ilə: Nigara, necə ki, irağ isən bini ana dur, Ki, *sən* ***nərədə*** *olursan yönümüz* ***ol yanadur***. (QB)

Şol dəm ki bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Şol dəm ki*** *xəyalün* ***gələ****, həccüm bənüm* ***oldur,*** İrərsəm ayağın tozına ol bana merac. (QB)

Misallardan göründüyü kimi, xəbər budaq cümlələri baş cümləyə ***kim, kimün ki, kimə***, ***qanda, qanda ki, nərədə, şol dəm ki*** bağlayıcı sözləri ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***oldurur, andadur, ol yanadur, oldur*** sözləri işlənmişdir.

Kim ədatı ilə: Anun ***kim*** dərdi var, dərman ***anundur***, Anun ***kim*** sidqi var, iman ***anundur***. (Oğuz.)

Qanda – harada, qanda ki – harada ki, nərədə – nə yerdə, şol dəm ki – o dəm ki şəklində fonetik dəyişmələrlə xəbər budaq cümləsinin qeyd etdiyimiz qəlibi ədəbi dilimizdə bu gün də işlənməkdədir. ***Kim, qanda*** və ***nərədə*** bağlayıcı sözləri ***ki*** ədatı olmadan da işlənmişdir. Müasir dildən fərqli olaraq, ***qanda ki*** bağlayıcı sözündə ***ki*** ədatı ola-ola, budaq cümlədə ***isə*** köməkçi sözü də vardır.

Sonrakı dövrlərin ədəbi dilində eyni qəlibdə xəbər budaq cümləsi müasir bağlayıcı sözlərə daha çox meyil edir. Füzulinin dilində bağlayıcı sözlü xəbər budaq cümlələrindən az istifadə edilmişdir. Xəbər budaq cümləsinin bu tipi müasir dildə də nisbətən az işlənir. Füzulidə budaq cümlə baş cümləyə ***hər kim, hər kimdə ki*** bağlayıcı sözləri ilə bağlanmışdır. Ədat olmadıqda budaq cümlənin xəbərində ***–sa, -sə*** işlənmişdir. Baş cümlənin xəbəri ***oldur, oldurur*** sözlərindən ibarətdir: ***Hər kimdə ki*** vardır istitaət, Dərdü qəmü möhnətü qənaət, ***Oldurur*** bu müsafirətdə yarım. (Füz.) Çox dərməyə ***hər kim olsa*** qadir, ***Oldur*** bu sənəmlər içrə nadir. (Füz.) ***Hər nə*** sən buyurursan, əlbəttə, səlah ***ondadur***. («Şəhriyar») Vallahül-əzim, ***hər nə*** siz xəyal edərsiz, ***elə degil***. («Şəhriyar»)

Xəbər budaq cümləsinin bu tipi quruluş çətinliyinə görə az işlənsə də, sonrakı dövrlərdə də işlənməkdə davam etmiş və tarixi normanı ardı-

cıl olaraq mühafizə etmişdir; məs.: Kəs***sə hər kəs*** tökülən qan izini, Qurtaran dahi ***odur*** yer üzünü.(Cavid) ***Hər kim*** yüz il yaşama***sa***, Günah ***onun özündədir***. (Sarıvəlli)

Tarix boyu daim xəbər budaq cümləsinin analitik tipi daha işlək olmuşdur.

II tip. Baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Budaq cümlə baş cümləyə bəzən yalnız intonasiya ilə, əksərən ***ki*m** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

Əlinin «Qisseyi-Yusif», Suli Fəqihin «Yusif və Züleyxa» məsnəvilərində, «Dastani-Əhməd Hərami»nin dilində xəbər budaq cümləli tabeli mürəkkəb cümlə nisbətən az işlənmişdir. Təsadüf edilən cümlələrin tərkib hissələri intonasiya ilə əlaqələnmişdir. Baş cümlənin xəbəri ***budur, oldur*** sözlərindən ibarətdir: Tanrı ***oldur,*** ölüyi qılur diri. (Suli) Adəmi ***oldur ki,*** ol aşiq ola. (Suli) Dərtlü ***ol kim***, eşq sənə dərman ola. (Suli) Yegrəg ***oldur***, rəva görgil satılmağı. (QY) ***Budur*** qəsdim səni oda yaxam bən, İraqdan xoş tamaşana Baxam bən.(DƏH) Dügün eylədi, kəbin etdi aldı, Əcəb ***budur***, anı həm bikr buldı. (DƏH)

Əvvəlki abidələrdən Qazi Bürhanəddinin dilində də xəbər budaq cümləsinin baş cümləyə intonasiya ilə bağlandığı hallar az deyil; məs.: Kişi ***budur*** qaşınun key bizi oxa dikər, Gər bulur isə səfa qurban içindür qoçaq. (QB) Aşiq ***oldur*** bişürə canü dilin (QB) və s.

Bu cəhət eyni şəkildə Nəsiminin dilində də davam edir: Aşiq ***oldur*** canını qıldı fəda dildarına.(Nəs.) Zəmirim, niyyətim ***oldur***, qaçan fal açaram sənsiz. (Nəs.) «Mehri və Vəfa» məsnəvisinin dilində də tərkib hissələri əlaqələndirən əsas vasitə intonasiyadır, bağlayıcıdan az istifadə edilmişdir; məs.: Yegrəgi ***oldur***, bunı boğazlayam. (MV) Yegrəg ***oldur,*** buna dəxi səbr edəm, Varım uşbu zəngilər ilə gedəm.(MV) Yegrəg ***oldur,*** bu tərtibi yaxam. (MV) Yegrəg ***oldur***, varam ardınca gedəm. (MV)

Sonrakı dövrlərdə – Xətainin, Qurbaninin, Füzulinin, Məsihinin, Vaqif və başqa poeziya ustalarımızın dilində də, üslubdan asılı olaraq, xəbər budaq cümləsinin intonasiya ilə qurulan analitik tipi nəzərə çarpacaq dərəcədə işlənmişdir; məs.: Uş muradım səndən, ey şəha, ***budur:*** Həmdəmi-məcuri hurizad qıl.(Həq.) Məqsudim ***oldur*** ləbindən kam alım. (Həq.) Mürid ***oldur***, ola əhli-iradət Hər işdə var ala pirdən icazət. (Xət.) Əhdim ***budu***, bir də yarı görəm mən. (Qurbani) Qorxum ***budu***, xoryat bağdan gül üzə. (Qurbani) Arif ***oldur*** bilməyə dünyavü mafiha nədir.(Füz.) Zira ki, nisibi-hüsni-qabil ***Oldur***, ona aşiq ola mail. (Füz.) Dövri-fələgin ***budur*** mədari, İqraridə yoqdurur qərari. (Məs.) Meylim ***budur*** olmuyam fəramuş. (Məs.) Meylim ***bu,*** gedəm Səlim şahə, Salam özümü o bargaha.(Məs.) Molla ***odur*** hər nə görsə kitabda, Onu şərh eyləyə haqda-hesabda. (Vaqif) Arzum ***budur,*** gözüm tikəm gözünə. (Vaqif) Həmişə

bu idi fikrü xəyalım, İkimiz bir yerdə həmdəm olalım. (Vaqif) Vaqifa! Əsli ***budur,*** mən bu binadan küsmüşəm (Vaqif) və s.

Misallar göstərir ki, harda ki canlı danışıq dilinə, xalq dilinə meyil güclüdür (Qurbanidə, Vaqifdə olduğu kimi), intonasiya ilə qurulan cümlələr də üstünlük təşkil etmişdir. Lakin ilkin mərhələdə intonasiyanın üstünlüyü ***kim, ki*** bağlayıcılarının hələ yazılı dildə bugünkü qədər özünə yer edə bilməməsi ilə əlaqədardır.

Kim və ***ki*** bağlayıcıları paralel şəkildə xəbər budaq cümləsini baş cümləyə bağlamaqda davam edir. Sonrakı dövrlərə yaxınlaşdıqca hiss olunur ki, faktik olaraq, canlı tələffüzdə ***ki*** bağlayıcısı əsasdır, lakin klassik poeziya ənənələri ***kim***-dən yaxa qurtarmağa imkan vermir.

Kim bağlayıcısı ilə: Məqsudum ***oldir kim***, sənə irəm, Sənin ol qutlu camaluni görəm. (Suli) Bəllü ***budur kim***, dəva içün cəvab idər bu dəm.(QB) Baxəbərdən xəbər dutaruz ümid, Xəbər ***oldur ki,*** ola bixəbərə. (QB) ***Budur*** şol müşkil ayət ***kim***, üqudi bizəban etdi. (Nəs.) ***Budur*** şol abi-heyvan ***kim***, ləbində həq nəhan etdi. (Nəs.) Dildə bu ***oldu ki***, dildarım qanı? (MV) İyliginə ***bumudur*** əvəz anın ***Kim,*** olasan xayin sahibimərdin.(YM) Xani-visalından anın fikrim ***budur kim***, yarıyam. (Hid.) Hüsnü cəmal içində həmin eybiniz ***budur Kim***, mən şikəstə halinə yox iltifatınız. (Kiş.) Səri-zülfi-siyaşın haq ***bu kim***, yekdanə sünbüldür.(Ruhi) Bəla ***bu kim***, nə sağəm mən nə bimar. (Bəs.) Aşiq ***oldur kim***, qılır canın fəda cananına.(Füz.) Ey müsəlmanlar, xoş ***ol kim***, yarı nadan olmaya. (Vaqif)

Ki bağlayıcısı ilə: Gözəl ***oldur ki,*** məlahətlü ola. (Suli) Nazik ***oldur ki,*** nə ki zülfi qulağına deyə Mubəmü cümləsini könlümə təqrir qılur.(QB) Qıldı fəna vücudumu küll kərim ilə kəlam, Zərqi-həsən ***budur ki***, şah səndən bu gün gədayinə. (Nəs.) Surətdə adəm oğlunu, mənidə div olan ***Oldur ki***, həqqi tanımamış, aşina degil. (Nəs.) Məqsudum ***oldur ki***, qələni görəm. (MV) Bu dün ***oldur ki,*** fəxri-aləm Ba-həzrəti-laməkan qavışdı.(Xət.) Leyliyi sənə verərlər, əmma Şərti ***bu ki***, olasan xirədmənd. (Füz.) ***Budur*** qərəzim ***ki***, dustü düşmən Görsün səni eyləyəndə şivən.(Füz.) Mərd ***odur ki,*** işin tuta mərd ilən. (Qurbani) Qorxum ***budurur ki,*** zilli-idbar Hicrə məni eyləyə giriftar. (Məs.) Yar ***odur ki***, yarın cövrünə dözə. (Vaqif)

Bəzən qəlib sözlə ***ki*** bağlayıcısı arasına başqa sözlər daxil olmuşdur. Bu yalnız poeziyanın tələbləri ilə bağlı olmayıb, bağlayıcının xəbərdən sonra tam sabitləşməməsi ilə də bağlıdır. Məs.: Hilal olmuş qaşı ***budur*** əcayib, ***Ki,*** yoxdur bədrinün hərgiz mühaqi. (QB) Xətayimidürür gözün nigarına əcəb çindən, Səvab ***oldur*** könülə ***ki,*** oxı çıxmaya içindən. (QB) Zikri ***budur*** dilində ***kim,*** va zərqü va təzvirimiz. (Nəs.) Cəmşidialəm ***<u>oldur</u>*** mənidə, ey qəmər ***kim,*** Fərxəndə surətindir cami-cahannümasi.(Nəs.) ***Oldur*** bu gecə ***ki***, əhli-iman Uçmağilə cavidan qavışdı.(Xət.)

Budur qərəzim ***ki***, cavidani Adın tuta ərseyi-cahani. (Füz.) ***Budur*** fərqi, könül, məhşər gününün ruzi-hicrandan ***Kim***, ol can döndərər cismə, bu, cismi ayırar candan.(Füz.)

Sonrakı dövrlərdə bu hal zəifləmişdir, bağlayıcı əksərən baş cümlədə qəlib sözdən – xəbərdən sonra işlənmişdir.

Baş cümlənin xəbəri, yəni budaq cümlənin baş cümlədə qəlibi, başlıca olaraq, aşağıdakı vasitələrlə ifadə olunmuşdur:

Ol, oldur sözləri ilə: Müəzzin ***oldur ki***, vəqt ilə banlaya. (Oğuz.) İnsan ***oldur ki***, kəndüyə güc gətürməyə.(Oğuz.) Məqsudum ***oldir kim,*** sənə irəm.(Suli) Bən eyd edərəm hər gecə gisuları ilə Dəgnək gözi bizdən diləgüm ***ol ki,*** bəid et. (QB) Günahım ***ol ki,*** anı sevmişəm bən, Günaha həm günah olur kəfarə.(QB) Arif ***oldur ki***, bulımaz yar qatında özini. (QB) Adəm ***oldur ki,*** andan əsrük ola, Ayığ olanlara uyux deyəlüm. (QB) Dərdüm ***oldur ki,*** totağuna irəm, İrürəm dərdi bu dəvaya qanı. (QB) Aşiq ***oldur ki,*** qayıtmaya yedigi yarədən. (Nəs.) Aşiq ***oldur kim***, qılır canın fəda cananına. (Füz.) Yoldaş ***oldur kim,*** qara günlərdə yoldan çıxmasın.(Saib) Xoş ***ol ki***, xələfdən ola xoşdil. (Füz.) Qorxum ***oldur ki***, sabah ağ düşə saqqal içinə. (Vaqif)

Ol sözü ***–durur*** şəkilçisi ilə: Gözi yürəgi qanadur, bən ləbini qanadayım Çünki şəriət ***oldurur ki***, qana yenə qan gərək. (QB) Kimdə ki varlığı qarışa qəlb ola yəqin Saf ***oldurur ki***, aşiqi mala kəlam ola. (QB)

O (***odur, odu, o idi*** şəkillərində) sözü ilə: Dilbər ***odur ki,*** sözləri sözdə şükürəfşan ola. (Ruhi) Qorqum ***odur ki,*** nagəhan bir gün arada qan ola.(Ruhi) Mərd iyid ***odu ki***, dediyin tuta. (Qurbani)

Onadır sözü ilə: Yazıq ***onadır ki***, dəsti boşdur.(Xət.)

Bu sözü ilə***.*** ***Bu*** sözü ***budur*** şəklində xəbərlik şəkilçisi ilə işləndiyi kimi, ***-durur*** şəkilçisi ilə və şəkilçisiz də işlənmişdir.

Xəbərlik şəkilçisi ***–dır*** *ilə*: Gözləri qəmzə oxı ilə adəm öldürür, Şirin ***budur ki,*** ləli qılur qan bixəttihi. (QB) Nigara, hurimisin pərünün bu fərrü yox, Əcəb ***budur ki***, fəriştəyə bənzər adamzad. (QB) Təng idi ləbün söyləməyəli könülümi, Qorxum ***budur*** öksüzə ***ki,*** bir qan edə ləlün.(QB) Eşq atəşinə ***budur*** əlamət ***Kim***, baş çəkə şöleyi-məlamət. (Füz.) ***Budur*** kərəmindən iltimasım ***Kim,*** tutasan öldüyümdə yasım. (Füz.) ***Budur*** rəhü rəsmi ruzigarın ***Kim***, ola xəzanı hər baharın. (Füz.)

Bu sözü ***-durur*** *şəkilçisi ilə:*Çü fürsətün dəmi irə dəmin dəminə qoma, Ki dəhr işi ***budurur ki,*** yarənləri ayıra. (QB) Səndin ***budurur*** ümidi- məqsud Ol şövqə müdam zövqüm artur.(Məs.)

Bu sözü şəkilçisiz: Müşkülə düşdügüm ***bu ki***, zülfünə şanə gəlmişəm. (QB) İşbu xəyalə qalmışam ki, beli tək xəyal olam, Sevda başumda zülfi tək ***bu ki,*** irəm visalinə. (QB) Gözündurur bu dərdümə dərman biaynihi, Dərdüm ***bu ki***, verəm gözünə can biaynihi. (QB) Üçüncü ***bu kim***, qalırsa xoşdur Bu dünyada hər kimin nişani. (Xət.) Qəsdim ***bu***

ki, eyləyəm məni-zar Evdən-evə seyr Müştərivar. (Füz.) Qorxum ***bu ki,*** özgə ola halım, Dünyada nə mən qalam, nə malım. (Füz.) Dərdim ***bu ki***, şərmsarəm ondan. (Füz.) Dur olduğuçun səndən cürmüm ***bu ki***, Ruhivəş Vəsfində keçər ömrüm, şair qulunam, cana! (Ruhi) Səri-kuyinə bəla ***bu ki***, gedən lal gəlür. (Ruhi) İkinci ***bu kim***, olanda qəmgin Bu könlünün ola mehribani.(Xət.) Şərtim ***bu ki,*** gər gəlürsə Vərqa, açub yüzünə dəri-təmənna, Mərhəm qoyuban dili-fikarə, Tapşurayim anda yari yarə. (Məs.) Yegrək ***bu ki***, edəlim ərusi, Salub işə təblü nayü kusi.(Məs.) Qorxum ***bu ki,*** nagah əcəl alğay nəfəsim. (Əmani)

Mənbələrdə ***ol, şol, bu*** qəlib sözlərindən sonra xəbər şəkilçisinin işlənməməsi əksərən vəznlə bağlı olmuşdur.

Budur, bu idi formaları ilə: İyliginə ***bumudur*** əvəz anın ***Kim***, olasan xayin sahibi-mərdin. (YM) Həmrahlığın ***bu idi***, ey yar, ***Kim,*** qılmıyasan məni xəbərdar.(Məs.)

Bu formanın ***deyil*** inkar ədatı ilə inkarına da rast gəlmək olur: Həqqa ***bu deyildir*** etiqadım ***Kim***, hasil edəm mən öz muradım. (Füz.)

Şol, şoldur sözü ilə: Məğsudum ***şol kim,*** səni qucam, öpəm. (Suli) Tuza axar gibi axar könüllər zülfinə anun Zəhi insafsuz ***şol ki***, bəni mən edə tuzumdan. (QB) İstiqamət bana ***şoldur ki,*** görəm qamətüni Gözüni görməyicək bana səqamət gözükür. (QB)

Şöylədür sözü ilə: Xəyalün bəndə ***şöylədür ki,*** qan alur olur isəm, Üşənürəm qanalıcı seçiməyə sizi bizdən. (QB)

Şundadır sözü ilə: Dövlət dəxi ***şundadır kim***, anda xətər vardur. (QB)

İşbudur sözü ilə: Sözüm ***işbudur ki,*** sizə aydurəm. (Suli)

Bəzən baş cümlənin xəbəri ***ol*** işarə əvəzliyi ilə yarımmüstəqil ***olmaq*** felinin birləşməsindən ibarətdir: Bu gecə dilbərümün gisusı şəbgir qılur, Diləgi ***ol olamı*** dilləri nəxcir qılur. (QB) Çox kişi bu dünyada deyə eşqə əsirəm Aşiq ***ol ola,*** gösdərə eşqinə nişana. (QB)

Məsihi ***kim*** bağlayıcısından az istifadə etsə də, ***-dır*** əvəzinə ahəngə uyğun olaraq arxaik ***durur*** şəkilçisinə daha geniş yer vermişdir: Qorxum ***budurur*** o gül üzarın ***Kim***, anın ilə keçər mədarım, Bu ülfəti-mən ola aradə.(Məs.) Qorxum ***budurur ki***, surəti-hal Ədayə verə kilidi-iqbal. (Məs.)

Xətai, Füzuli, Məsihi və Vaqifin dilində xəbər budaq cümləsinin analitik tipi işləkdir.

TAMAMLIQ BUDAQ CÜMLƏSİ

Müasir ədəbi dilimizdə olduğu kimi, «Kitabi-Dədə Qorqud»un dilində də tamamlıq budaq cümləsi çoxişlənən, bağlayıcı vasitələrinin zən-

ginliyi ilə seçilən budaq cümlə növüdür. ”Dədə Qorqud”un dilində hər iki tipi fəaldır; məs.: ***Hər nə*** *iş ol****sa****, Qorqud ataya tanışınca işləməzlərdi*. ***Hər nə ki*** *buyursa, qəbul edərlərdi, sözin tutub təmam edərlərdi*.(31) *Dilədi* ***ki****, oğlanı hələk qılaydı. Yəqin bildi* ***kim,*** *oğlan kafərə tutsaqdır* (74) – cümlələrindən əvvəlki ikisi bağlayıcı sözlü, sonrakılar bağlayıcılı cümlələrdir. Əvvəlki iki misalda budaq cümlə baş cümlədən əvvəl işlənərək ona ***hər nə, hər nə ki*** bağlayıcı sözləri və ***-sa*** şəkilçisi ilə, sonrakı misallarda baş cümlədən sonra işlənərək ona ***ki, kim*** bağlayıcıları ilə bağlanmışdır. Əvvəlki misalların baş cümlələrində qarşılıq bildirən söz olmadığı kimi, sonrakılarda da qəlib söz işlənməmişdir.

Bağlayıcı sözlü cümlələrdə budaq cümlə baş cümləyə yuxarıdakılardan əlavə, ***kimün ki, nə yerdə, anun kim, hər kim, kimi*** bağlayıcı sözləri ilə də bağlanmışdır. Budaq cümlələrdə ***ki*** ədatına nisbətən ***-sa,-sə*** şəkilçisi fəaldır; məs.: ***Kimün ki*** *oğlı-qızı yoq, qara otağa qondurın...* (34) ***Nə yerdə*** *gözəl* ***qopdısa,*** *çəküb aldı*.(37) ***Kimə baqsa****, eşqilə oda yaqar*. (88) ***Nə yerdə*** *sırılur* ***varsa,*** *çəkən bilür*. (32)

Eyni quruluşlu cümlələrin bir qisminin baş cümləsində qarşılıq bildirən ***ana, anı*** sözləri müşahidə olunur: ***Anun kim*** *oğlı-qızı* ***olmuya,*** *tənri-təala* ***anı*** *qarğayıbdur, biz dəxi qarğarız*. (35) “***Hər kim*** *ol üç canvəri* ***basa-yensə, öldürsə****, qızımı* ***ana*** *verərəm” deyü vədə eyləmişdi*. (85) ***Hər kim*** *ol üç canvəri* ***basa,*** *ol qızı* ***ana*** *verirlər.. Gözün* ***kimi tutarsa,*** *könlün* ***kimi sevərsə, ana*** *varğıl.* (112)

Qarşılıq bildirən söz yiyəlik halda olduqda ikinci tərəflə birlikdə üzv olur: (*Hər kim) Basub öldürməsə,* ***anun başını*** *kəsirlər, bürcə asarlar* (86) - cümləsində ***anun başını*** birləşməsi tamamlıq olduğu üçün cümlə tamamlıq budaq cümləlidir.

Tamamlıq budaq cümləsinin analitik tipində budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır. Az hallarda baş cümlədə qəlib sözə rast gəlmək olur: *Qazan, oğlan avda idügin* ***andan*** *biləyin* ***kim****, yorğun atunla, güdəlmiş cidanla ardına düşəsən*. (74) *Beyrək baqdı gördi* ***kim****, kiçi qız qarındaşı binardan su almağa gəlür...* (60) *Əzrayilə buyuruq elədi* ***kim****, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil.* (79) *Qanturalı bildi* ***kim****, bu yağı basub tağıdan Selcan xatundur.* (92) *Dəpəgöz də bildi* ***kim****, Basat dəri içindədir.* (101) *Gələnlər bildi* ***kim****, bunlar Oğuz ərənlərindəndir.* (116) *Dəpəgöz bildi* ***kim****, Basat mağaradadır.* (101) *Dəli bəg dilədi* ***ki****, Dədəyi dəpərə çala*. (56) *Böylə digəc qız tanıdı-bildi* ***ki,*** *Beyrəkdir* (65) və s.

Tamamlıq budaq cümləsinin analitik tipi əksərən baş cümlənin feli xəbərini izah edir, az hallarda ismi xəbərlə də əlaqələnmişdir: ***Xəbəri yoq k****i*, alacağı ala gözli qızın otağı olsa gərək. (54)

Baş cümlələrin xəbəri daha çox görmə, eşitmə və nitq felləri ilə ifadə olunmuşdur. Bu cəhətdən «Dədə Qorqud»un dilində ***görmək*** feli

daha fəaldır: ***Gördi kim***, uçarda quzğun, tazı tolaşmış, yurtda qalmış. (44) ***Gördi kim***, bir dərənin içində toz gah dərilür, gah tağılur. (91) ***Qanturalı baqdı gördi kim,*** bir kimsənə yağıyı öginə qatmış, qovar. (91) ***Gördi kim***, pəri qızları qanat-qanada bağlamışlar, uçarlar. (98) ***Gördilər kim***, bir ibrət nəsnə yatur. (98) Qapaq qaldırdı. ***Baqdı gördi kim,*** gözi ətdir. (101) ***Gördi kim***, yüzük genə Dəpəgözün ayağı altında yatur. (101) ***Gördi kim***, ilqıçı kafərlər yund güdərlər.(113) ***Gördi kim***, belində qopuzı var. (113) ***Baqdı gördi kim***, ayun on dördinə bənzər bir məhbub, ala gözlü gənc yigit burcuq-burcuq tərləmiş uyur.(113) ***Qazan gördi kim,*** ləşgər ögincə bir ağ-boz atlu, ağ ələmlü bəg dəmür tonlu Oğuzun ögincə gəldi. (120) ***Baqdı-gördi ki***, bir sultan simüz sığın-keyikdir.(54) ***Məsləhət gördülər ki,*** Dədə Qorqud varsun. (55) ***Xan qızı gördi ki***, Qazan gəlür (91) və s.

Misallarda ***kim*** bağlayıcılı cümlələr üstünlük təşkil edir.

Dastanların dilində baş cümləyə intonasiya ilə bağlanan tamamlıq budaq cümlələri daha fəal, daha işləkdir: "kim", "ki" bağlayıcıları tərkib hissələr arasında möhkəmlənmədiyi və tərkib hissələrin yeri sabitləşmədiyi üçün baş və budaq cümlələrin yeri sərbəstdir, aktuallaşdırma əsasında eyni tipli baş cümlə əvvəl də işlənə bilmiş, sonra da işlənmişdir[1]. Məsələn, dastanın eyni səhifəsində (46) eyni cümləyə həm ***Qanğısıdır, bilmədilər***, həm də ***Bilmədilər, qanğısıdır*** şəklində təsadüf edilir. Yaxud: ***Bəglər, mən sizi niyə qağırdım, bilürmisiz?*** (124) ***Bilürmisən, səni niyə qağırdıq?*** (124) Ona görə də sonralar "baş cümlə + budaq cümlə" şəklində sabitləşən tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələri iki qrupa ayırmaq olar.

a)budaq cümləsi baş cümlədən sonra işlənənlər: ***Görürmisən,*** nələr oldı? (35) ***Bəglər, bilürmisiz***, Qazana necə heyf eyləmək gərək? (46) ***Gördi*** gög çayırın üzərinə bir qırmızı otağ dikilmiş. (54) ***Gördi***, düğündə göygü ox atar. (63) ***Xanım baba, qorxuram***, səgirdərkən Qonur atın sürücdirəsən.(74) ***Gördinmi*** mən mana netdim? (86) ***Gördi*** bənzi sararmış, dilbəndi boğazına keçmiş. (105) ***Gördilər,*** bir süri qaz oturar. (116)

b) budaq cümləsi baş cümlədən əvvəl işlənənlər: Xan qızı, səbəbi nədir, ***degil mana!*** (35) Mərə qavat, muxannatlıq ilə ər öldürmək necə olur, ***mən sana göstərəyim***.(126) Qalqubanı yerimdən turam, ***derdim.*** Qalın Oğuz içinə girəm, ***derdim***.(73) Nərmidir, mayamıdır, ***anı bilsəm***. (97) Qara tonuz tamında yatur, ***degil.*** (75) Qarusından ağ əllərin bağlan, ***demiş***.(106) Qəl'ənüzdə tutsaq varmıdır, kafər, ***degil mana!*** (114) Qazana düşmən imişsən, ***bildim***. (123)

Tədricən bu cür cümlələrdən "a" bəndində olanlar bağlayıcı ilə sabitləşmiş, "b" bəndində olanların bir qismi (Xan qızı, səbəbi ***nədir, de-***

[1] *Bax:* Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.347.

gil mana! (35) Mərə qavat, muxannatlıq ilə ər öldürmək ***necə olur***, ***mən sana göstərəyim*** və s.) bağlayıcı sözlü cümləyə çevrilmiş və tiplər müəyyənləşmişdir. Canlı danışıq dilində bu formalar hazırda da qalır.

Dastanların dilində tamamlıq budaq cümləsinin baş cümlənin daxilində işləndiyi hallar da var: Hey, hey, dayələr, babam mana bən səni yüzi niqablu Beyrəgə vermişəm, diərdi.(54) - cümləsində budaq cümlə (*bən səni yüzi niqablu Beyrəgə vermişəm*) baş cümlənin (*babam mana diərdi*) daxilində yerləşmişdir.

Sonrakı abidələrin dilində tamamlıq budaq cümləsinin hər iki tipi paralel şəkildə inkişaf etmişdir.

I tip. Tamamlıq budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipində budaq cümlə baş cümlədən əvvəl gələrək ona bağlayıcı sözlərlə bağlanmışdır. Baş cümlədə qarşılıq bildirən ***o*** sözü ismin yönlük, təsirlik, yerlik və çıxışlıq hallarından birində olur. Qarşılıq bildirən söz olmadıqda təsəvvür edilir. Məs.: ***Ol*** küp içində sümüklər vardurur, At, qatır, qoyun, dəxi davardurur, Tapşurun ortancı oğlana ***onı***.(MV) Ol gecə ***nə*** buldu yarilən hal, Dilim deyəməz süfati-əfal.(Xət.)

Bu misallardan birincisində budaq cümlə baş cümləyə ***ol,*** ikincisində ***nə*** bağlayıcı sözü ilə bağlanmışdır**.** Birinci misalın baş cümləsində qarşılıq bildirən ***onı*** sözü işlənmişdir. İkinci misalda qarşılıq bildirən söz yoxdur, ***onı*** sözünü artırmaq olar. «Dədə Qorqud»da olduğu kimi, «Mehri və Vəfa» məsnəvisinin dilində də belə cümlələr çox zəngindir. Bu əsərin dilində bağlayıcı sözlü tamamlıq budaq cümlələrinin ən ibtidai tipinə rast gəlmək mümkündür. Yuxarıdakı misallarda olduğu kimi, budaq cümlədə ***ol*** bağlayıcı sözü, baş cümlədə qarşılıq bildirən ***onı*** sözü.

Dövrün abidələrinin dilində əksərən bağlayıcı söz ***kim*** və ya ***ki*** ədatı ilə birgə işlənmişdir: ***Nə kim*** Əhməd hərami dedi şahə, ***Qamu*** ərz eylədilər padişahə. (DƏH) ***Hər nə ki*** dilərsən, istə məndən. (Füz.)

Birinci msalda ***nə*** bağlayıcı sözü ***kim*** ədatı, ikinci misalda ***hər nə*** bağlayıcı sözü ***ki*** ədatı ilə birgə işlənmişdir.

Bağlayıcı sözdə ***kim/ki*** ədatlarından biri olmadıqda budaq cümlənin xəbərində şərt şəkilçisi ***(-sa,-sə***) və ya ***isə*** şərt ədatı (ya bütöv, ya da ixtisar formasında) işlənmişdir: ***Hər kimi görsəm,*** soraram xəbərin.(MV) Ey beli qıl, Ta ki, ***nə*** qıla ***bilür isə, anı*** cana qıla. (QB)

Abidələrin dilində ***kim*** və ***ki*** ədatları ilə işlənən forma üstünlük təşkil edir. Lakin bəzən həm ədat, həm də ***–sa, -sə*** (və ya ***isə)*** birlikdə işlənmişdir: ***Hər kəsi ki*** gör***sə***n, şikayət eylə!(Vaqif) ***Nə ki*** hüsnündə yazdı ***isə*** xəttün Könül lövhində biz oxıruz əzbər. (QB)

Bu forma müasir ədəbi dilimiz üçün arxaikləşmişdir. Çünki üç vasitə (bağlayıcı söz, ***ki*** ədatı və şəkilçi) birlikdə nitqi ağırlaşdırır, fikrin çevik ifadəsinə imkan vermir.

Abidələrin dilində tamamlıq budaq cümləsini baş cümləyə bağlayan aşağıdakı bağlayıcı sözlər (ədatlı və ya ədatsız) işlənmişdir.

Kim bağlayıcı sözü: ***Kim*** munu oxur, yazarü dinlər, Həq lütfilə yarlığasun ***ani!*** (Xət.)

Kim bağlayıcı sözü və şərt şəkilçisi ***-sa,-sə: Kim desə*** mənə ki, aşiq oldum, Rüsvayi-dili xəlayiq oldum, «Əbləh» deyibən gülərdim ***ona.*** (Xət.) ***Kim eyləsə*** seyri-bağə adət, Sər sayeyi-sərvdən fərağət, Hala ***ona*** məskən ola gülxən. (Məs.) ***Kim dutsa*** xilafi rəsmü adət, Gümrah ***ani*** eyləmiş şəqavət.(Məs.)

Birinci misalda *«Əbləh» deyibən gülərdim* ***ona*** hissəsi baş cümlə, qalan hissəsi tamamlıq budaq cümləsidir. Tamamlıq budaq cümləsi isə şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir.

Kim bağlayıcı sözü və ***isə (-sa,-sə): Kim eşək olursa***, biz səməriyüz. (Oğuz.)

Kim ki bağlayıcı sözü: Canın canana tərk edən birini binə dəgşürdi Canını ***kim ki*** tartındı, yenə ***ana*** ziyan oldı. (QB)

Kim ki bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Kim ki*** mənə ***yoldaş olsa,*** eylərəm divanə mən. («Şəhriyar»)

Kimi kim bağlayıcı sözü: ***Kimi kim*** bivəfa dünyada gördüm, bivəfa gördüm. (Füz.)

Kimi bağlayıcı sözü və şərt şəkilçisi: ***Kimi sevsən***, ***onunla*** həm qoparsan. (Xət.)

Kimsə bağlayıcı sözü və ***isə***: Gər ***kimsə*** deyər***sə***, qılma bavər. (Füz.)

Nə bağlayıcı sözü: ***Nə*** verirsün, qəbul edərüz ***ani.*** (Suli) ***Nə*** kişidir, gətiriniz görəyim. (DƏH) Quzum dəxi ***nə*** der, bir görəyin der. (DƏH) Malik aydər: ***Nə*** sözün var, söyləgil. (Suli) ***Nə*** buyursan sən, bən ***anı*** qılam imdi. (QY) Ey qarı, sən ***nə*** bilürsən, eylə. («Şəhriyar»)

Nə bağlayıcı sözü və ***arzu şəkilçisi: Nəni*** ol ***buyura***, siz ***ani*** tutun. (Suli) Hər yerdə ***ola nə*** cins faxir, Cəm eylədi cümlə ol əkabir.(Məs.)

Nə bağlayıcı sözü və ***isə*** şərt ədatı: ***Nə*** dənli mal ***dilər isə*** verəyim. (DƏH) Buyur ***nə*** qulluğun ***varsa***, edəlim.(DƏH)

Nə kim bağlayıcı sözü: ***Nə kim*** etdin bənim haqqımda ehsan, Əvəz verə sənə ol yuca sübhan.(DƏH) Qulağında ***nə kim*** var idi cövhər, Xoca Rüstəmə cümlə bəxşiş etdi. (DƏH) ***Nə kim*** sən bənə etdin, bən edəyin. (DƏH) ***Nə kim*** sanırdı xəlqə, kəndi buldu. (DƏH) ***Nə kim*** siz buyurursuz xeyr əgər şər, ***Anı*** tutmaq yerincə bizə düşər. (DƏH)

Nə kim bağlayıcı sözü və şərt şəkilçisi: Ol ***nə kim buyursa***, ***ani*** işləyəm. (Suli)

Nə kim bağlayıcı sözü və ***isə: Nə ki*** könlünüz ***dilərsə,*** buləsiz. (Suli) Ayıtdı kətxuda danla gələyin, Tapın ***nə kim buyurursa*** qılayın. (DƏH) ***Nə kim*** şah ***der isə***, bən ***anə*** fərman. (DƏH)

Nə ki bağlayıcı sözü: ***Nə ki*** sən dirsən, biz andə edəlüm. (Suli) ***Nə ki*** nəqqaş var bu şərdə, dirəsin. (Suli) ***Nə ki*** şərh etdi, Züleyxa ***qamusin*** anladı. (Suli) ***Nə ki*** könlümdədir, ***ani*** söylədin. (Suli) ***Nə ki*** lütf etdi, ***ani*** söylədi.(Suli) ***Nə ki*** sən buyurursan, mən ***ona*** yox deməgə qüdrətim yoxdur. («Şəhriyar»)

Nə ki bağlayıcı sözü və ***isə***: ***Nə ki girürsə*** əlinə ox ilə yaya verür. (QB) ***Nə ki*** bizə ***gərək isə***, gətürün. (QB)

Nəni bağlayıcı sözü və arzu şəkilçisi: ***Nəni*** ol ***buyura***, siz ***ani*** tutun. (Suli)

Nitə bağlayıcı sözü: ***Nitə oldı*** hekayət anla, aqil.(DƏH)

Nə və ***nitə*** bağlayıcı sözlü bir sıra cümlələri asanlıqla analitik tipə çevirmək mümkündür: ***Nitə oldı*** *hekayət anla, aqil*.(DƏH) *– Aqil, anla (ki) nitə oldu hekayət.* ***Nə*** *əndişə içindəsən halın de – Halını de (görək) nə əndişə içindəsən.* (DƏH)

Nəni ki bağlayıcı sözü və ***isə***: *Göz* ***nəni ki görəcək isə,*** *görür.* (QB)

Nədən bağlayıcı sözü və ***isə: Nədən qorxarisəm, ana*** sataşdım. (DƏH)

Hər kim bağlayıcı sözü: Hər guşədə ***hər kim*** aldı bir kam, Hər büqədə ***hər kim*** içdi bir cam, Leylinin anası gördü mütləq. (Füz.)

Hər kim bağlayıcı sözü və ***isə: Hər kim nə əməl qılırsa*** bünyad, ***Muzdunu*** verər əvvəlcə ustad. (Füz.)

Budaq cümlə baş cümləyə ***hər kim*** və ***nə*** bağlayıcı sözləri (və ***isə*** şərt ədatı) ilə bağlanmış qovuşuq cümlədən ibarətdir.

Suli Fəqihin dilində ***hər kim*** əvəzinə daha çox ***hər ki*** bağlayıcı sözü işlənmişdir: ***Hər ki*** bənə tapüdi həqq ***andan*** bizar. (Suli)

Bu hal mübtəda budaq cümləsinə də aiddir: *Hər ki* aşiq olmadı, heyvan ola.(Suli)

Hər ki bağlayıcı sözü: ***Hər ki*** Nəsimi tək sücud Fəzli-ilahə qılmadı, Div kimi bu gün ***anı*** bəlkə bu yolda dayinə. (Nəs.)

Hər kim bağlayıcı sözü və şərt ədatı ***isə: Hər kim*** girib ***söylər isə,*** öldürür.(MV)

Hər kimə bağlayıcı sözü: Nədən kim ***hər kimə*** üz tutdum, ***ondan*** yüz bəla gördüm. (Füz.)

Hər kimə ki bağlayıcı sözü: ***Hər kimə ki*** eylədün nəzarə, İqbal ***ona*** eylədi kənarə.(Məs.)

Hər kimə ki bağlayıcı sözü və ***–sa, -sə*** şərt şəkilçisi: ***Hər kimə ki yetsəm***, şikayətimdər. (Vaqif)

Hər kimə bağlayıcı sözü və şərt ədatı ***isə***: ***Hər kimə uğrar isə,*** Mehri sorar.(MV)

Hər kimin ki bağlayıcı sözü və şərt şəkilçisi ***-sa,-sə:*** Ey oğul, ***hər kimin ki*** cövhəri pak və özü xoşidrak ***olsa, ondan*** mərifət əskik olmaz… («Şəhriyar»)

Hər kimsədən kim bağlayıcı sözü: Vəfa ***hər kimsədən kim*** istədim, ***ondan*** cəfa gördüm (Füz.)

Hər nə bağlayıcı sözü: ***Hər nə*** dilədin, müyəssər etdi. (Füz.) ***Hər nə*** gördüm, əyri gördüm, özgə babət görmədim. (Vaqif) Ey atayi-mehriban, ***hər nə*** məsləhət var idi, mən ərz elədüm. («Şəhriyar»)

Hər nə bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər nə*** sözüm ***olsa***, ***hər nə*** vayə, Pünhani derəm ***onu*** Səbayə.(Xət.)

Hər nə ki bağlayıcı sözü: Cəhanda ***hər nə ki*** vardur, dəmi vəhdətdən urmışlar. (QB) ***Hər nə ki*** gözi yürəgə qıldı, Bən bir qələm ilə yüzdə yazdum. (QB) ***Hər nə ki*** xilafi-şər – unutğıl. (Füz.) ***Hər nə ki*** doğrusudur, ***onu*** ərz edərəm. («Şəhriyar»)

Hər nə ki bağlayıcı sözü və ***isə: Hər nə ki başına gəlirsə,*** haqdan bil. (Oğuz.) ***Hər nə ki*** istər ***isə***, Mehrə verin.(MV)

Hər nə kim bağlayıcı sözü: İmdi geygil bu toni, şükr et Həqqə, ***Hər nə kim*** dilərsən, virə sənə. (Suli)

Hər nə kim bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər nə kim*** sən ***diyəsən***, ***ani*** qıla. (Suli)

Hər nə kim bağlayıcı sözü və ***isə: Hər nə kim dilər isən***, verüm sana. (MV)

Nerdə bağlayıcı sözü **–** ***isə:*** Qolay yol ***nerdə isə*** buldu bunlar. (DƏH)

Ol ki bağlayıcı sözü: ***Ol ki*** Mehri dersən, ***andan*** əl yugil.(MV)

Xanda bağlayıcı sözü və ***isə***: ***Xanda*** bir xaç əhli ***varsa***, ***qamusun*** seyr eylədim. (Nəs.)

Kim ədatı ilə: Ulu küp ***kim*** gördülər torpaq dolu, Qoydular ana, birisin açdılar.(MV)

Ki ədatı ilə: ***Nə*** qapıdan ***ki*** girürsən, çıxarsın ***andan*** sən.(QB) ***Ol*** küp içində ***ki*** altun var görün, ***Onu*** sultanın kiçi oğluna verin.(MV) ***Hər*** riştə ***ki*** həqq əyan edibdir, ***Sərriştəsini*** nihan edibdir.(Füz.) Qəm ***ki*** gəlir mənə firqəbəfirqə, Nə Məcnun çəkibdir, nə görüb Vərqə. (Vid.)

Ki ədatı və şərt şəkilçisi: Xublardan ***ki*** mənə ***gəlsə*** hər bəla, İstəməm ***ona*** mən dərman eyləyəm. (Vaqif)

Bir sıra cümlələrdə ***ki*** ədatı ilə bağlayıcı söz arasında başqa sözlər işlənmişdir. Bu hal müasir dildə də qalmaqdadır və ədatla bağlayıcı sözün birləşməsinin tam başa çatmadığını göstərir.

Nəsnə, şey, söz, iş, yer, göz, tən, qəmzə, can, yüz (üz), dil, şişə, sevgi tipli bir sıra sözlər isə ümumiləşib bağlayıcı sözə çevrilə bilməsə də, ***ol, şol, hər, bir*** sözləri və ***ki, kim*** ədatları ilə birləşərək bağlayıcı söz məqamında işlənmiş, budaq cümləni baş cümləyə bağlamışdır.

Hər sözü ilə:

Hər nəsnə ki bağlayıcı sözü: ***Hər nəsnə ki*** saçında kəmin ilə anladum, Şimdi deyüməzəm ***qamusından*** kəmini bən. (QB)

Hər nəsnə ki bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər nəsnə ki dilə düşə ana*** dəgərdi öz Bizüm içün ana dəxi göz dəgdi sanasız. (QB)

Hər şeyi ki bağlayıcı sözü: Hər kişi ***hər şeyi ki*** sevdi, ***onu*** bəhtər istədi. (Vaqif)

Hər söz bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər söz desən*** anda ***anı*** söylər, Nə özgə kimi yalanı söylər.(Xət.)

Hər iş kim bağlayıcı sözü və arzu şəkilçisi: ***Hər iş kim dutasan,*** eşq ilə dutgil. (Xət.)

Hər yerdə ki bağlayıcı sözü: ***Hər yerdə ki*** bildi bir nəzirgah, Varıb ***ona*** oldu xaki-dərgah. (Füz.)

Ol, şol sözləri ilə:

Ol göz ki bağlayıcı sözü və arzu şəkilçisi: ***Ol göz ki*** yüzün ***görməyə,*** göz demə ***ana***. (MV)

Ol şey ki bağlayıcı sözü: ***Ol şey ki*** ölüdür, ***onda*** yoxsan.(Xət.)

Ol tən ki bağlayıcı sözü: ***Ol tən ki*** diridir, ***onda*** çoxsan.(Xət.)

Ol qəmzə ki bağlayıcı sözü: ***Ol qəmzə ki*** tir edər fəşanə, Bir sənə gərək ***ona*** nişanə.(Xət.)

Ol can ki bağlayıcı sözü: ***Ol can ki*** çün xəyal ola belün qılı ilə Görürsə nöqtə ağzunı, sən ***anı*** hiçə say. (MV)

Şol yüz ki bağlayıcı sözü və arzu şəkilçisi: ***Şol yüz ki*** tozun ***silməyə***, yüz demə ***ana*** (MV)

Şol dili ki bağlayıcı sözü: İlahi, ***şol dili ki*** yaxdı eşqi-yar odına, Gərək ki, yaxmayasın dəxi intizar odına. (QB)

Bir sözü ilə:

Bir iş ki bağlayıcı sözü və arzu şəkilçisi: ***Bir iş ki*** qəzadan ***ola***, təğyir vermək olmaz.(«Şəhriyar»)

Bir şişə ki bağlayıcı sözü: ***Bir şişə ki*** oldu parə-parə, ***Peyvəndinə*** hiç varmı çarə? (Füz.)

Bir sevgi ki bağlayıcı sözü: ***Bir sevgi ki*** sevgisindən yad olur, Məgər ***onun yaxşılığın*** bilməzmi? (Vaqif)

Faktlar göstərir ki, hələ çox qədim dövrlərdən qovuşuq[1] tabeli mürəkkəb cümlələr də formalaşmışdır. Belə cümlələrdə iki bağlayıcı söz və iki qarşılıq bildirən söz işlənməklə iki cümlə bir cümlə kimi qovuşmuş olur: ***Hər kimsə nə*** əkdi, ***onu*** biçdi. (Qövsi) ***Hər kim nə bilirsə*** ləb, ya ləhv, İzharə gətirdi etməyib səhv.(Füz.) ***Hər kişi hər şeyi ki*** sevdi, ***onu*** bəhtər istədi. (Vaqif)

Bu misallarda qarşılıq bildirən sözləri asanlıqla bərpa etmək olar: ***Hər kimsə nə*** əkdi, ***onu*** biçdi - ***Hər kimsə nə*** əkdi, ***(o) onu*** biçdi.

---

[1] T.Müzəffəroğlu. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası,Azərnəşr, Bakı, 2002, s.179-212.

Prepozitiv cümlələrdə aktuallaşdırma və poeziya dilinin tələbləri ilə əlaqədar, canlı danışıq dilində olduğu kimi, bir sıra cümlələrdə komponentlər öz yerini dəyişmişdir. Aparun ***nə ki*** ana gərək isə (QB) – cümləsi əslində belə işlənməli idi: ***Nə ki*** ana gərək ***isə****, aparun*.

Aşağıdakı cümlələrdə də bunu görmək olar:

Söylə ***ana, nə k*i** gəldi başıma.(MV) Neçün yox deyəvən ***nə kim desə*** xan.(DƏH)

Əvvəlki mənbələrdə olduğu kimi, bəzən Məsihinin və Vaqifin dilində də bağlayıcı sözlü tipdə tərəflər yerini dəyişmişdir: Qılma mənə ***hər nə kim*** səzadur (Məs.) – ***Hər nə kim*** səzadır, (***onu)*** mənə qılma. Bin suz ilə ol qəm aşinası Yazdı ***nə ki var*** müddəasi (Məs.) **–** ***Nə ki*** müddəası var, (***onu***) min suz ilə yazdı.

Ümumiyyətlə, «budaq cümlə + baş cümlə» quruluş tipi analitik tip tabeli mürəkkəb cümlələrdən fərqli olaraq, adətən qısa və çevik olur, daha milli xarakter daşıyır və onun tərkib hissələri arasında əlaqə möhkəm olur. Qısa və çevik olduğu üçün bəzən başqa cümlənin tərkibində işlənir.

Faktlar göstərir ki, dil öz qrammatik quruluşuna görə həmişə zəngin olmuşdur. Lakin ondan istifadə edənin meyil və istəyi, istedad və bacarığı müxtəlif olmuşdur. Məsələn, çətin söz və ifadələr olsa da, Xətainin dili xalq dilinin təbii ifadə vasitələrini və o cümlədən qrammatik quruluşun əsas işlək formalarını özündə daha çox cəmləyə bilmişdir.

Füzulinin dil zənginliyi budaq cümlələrin rəngarəngliyində də özünü göstərir. Şairin poemalarının dilində bağlayıcı sözlərin iştirakı ilə baş cümləyə bağlanan tamamlıq budaq cümlələrinə daha intensiv rast gəlmək olur. Məsihinin «Vərqa və Gülşa» məsnəvisində intonasiya ilə qurulan analitik budaq cümlələr kəmiyyət etibarilə daha zəngindir.

II tip. XII-XIV əsrlərin ədəbi dilində, yəni «Dastani-Əhməd Hərami», «Yusif və Züleyxa», «Mehri və Vəfa» məsnəvilərində, Qazi Bürhanəddinin əsərlərində intonasiya ilə baş cümləyə bağlanan tamamlıq budaq cümlələri üstünlük təşkil edir. Bu hal təbii sayılmalıdır, çünki intonasiya ilkin və ən qədim vasitədir. Bağlayıcılı və bağlayıcı sözlü cümlələr intonasiya ilə qurulan cümlələrdən əmələ gəlmişdir.

Misallara diqqət yetirək: Söyləyimədi dilüm ləli-ləbün vəsfini, ***Dedüm ana*** kəndüdən dil-dilə dəprətməgil. (QB) ***Bana der*** necə aşiqsin, nədür bu eşq hay-huyı. (QB) Can sanurdum lələni, ***könlümə sordum*** bu nədür? (QB)

«Mehri və Vəfa»nın dilində analitik tamamlıq budaq cümlələri daha işləkdir. Qazinin dili ilə müqayisədə intonasiya ilə baş cümləyə bağlananları daha çoxdur. Məs.: ***Gördü*** qarşudan gəlir bir canavar.(MV) Taxt ögündə ***gördi*** durur bir tayə.(MV) ***Bən bilürəm*** kimdir iyəsi anın.(MV) ***Bilürəm*** haqq hacətin qılur qəbul.(MV) ***Qardaşı der***: Əqlini dir başına.

(MV) ***Vəfa bilir***, kəndinin halı necə.(MV) ***Var de yaruma bənim*** tezcək gələ. (MV) ***Mehrə deyün***, qılmasın bizdən gilə.(MV) ***Söylə:*** Ey çiçək gətürən, qandasan? (MV) ***Dayə sanur*** bağa təfərrüc edər.(MV) ***Gördilər*** bir səhrada bir su akar.(MV) ***Tanrı bilür*** nə qədər yol getdilər.(MV) ***Sayis aydır***, əsrük idim, bilmədim.(MV)

Asindetik cümlələrin bu cür üstünlüyü «Dastani-Əhməd Hərami»-nin dilində də nəzəri cəlb edir: ***Bular bildi*** nədir dinü dinayət. (DƏH) *Eşit* təqdir işi anlara netdi. (DƏH) ***Görür*** on kişi qatıraq gedərlər. (DƏH) ***Biləsiz*** anların fikri, sözü nə.(DƏH) Qapısı xəznənin ***gördü*** açılmış. (DƏH) ***Şəhər kətxudasına der*** bilirvən.(DƏH) ***Nə bilsin şah*** anın bu sirləri nə? ***Yigit etdi***: üşənmən, qorxu yemən.(DƏH) ***Gəlir görür*** yerindən getmiş ol qız.(DƏH) ***Dedilər*** gəldi bir kişi əbalı, Durur qapuda ***bilməziz*** nə halı? (DƏH) ***Buyurdular*** yaraq edin dügünə.(DƏH)

Nəsiminin dilində də analitik tipdə tamamlıq budaq cümlələrinin intonasiya ilə bağlandığı hallar çoxdur: ***Sufi nə bilsin*** mən necə ol camdən buldum səfa. (Nəs.) ***Kim nə bilir*** bu könlümün fikri nədir, xəyali nə? (Nəs.) ***Dedilər***, miskin Nəsimi, doğruya yoxdur zaval. (Nəs.) ***Kim nə bilir,*** bu xəstənin dərdi nədir, dəvasi nə? (Nəs.) ***Dilbər aydır***, ey Nəsimi, səbr elə, qılma fəğan… (Nəs.) ***Bildim anı həq bilir,*** sənsən yəqin canü cahan. (Nəs.) ***Pəncşənbə günü yarə dedim,*** pəndim eşitgil. (Nəs.)

Budaq cümlələrin intonasiya ilə baş cümləyə bağlandığı hallar Füzulinin dilində də nəzəri cəlb edəcək dərəcədədir, yəni canlı dilin xüsusiyyəti kimi özünü qabarıq göstərir; məs.: ***Fikr eylə və gör*** nədir bu üslub. (Füz.) ***Canlar çəkib istərəm həmişə*** Dükkanım ola rəvaci-bazar, Hər istədigin bula xiridar.(Füz.) ***Derlər səni*** eşqə mübtəlasən. (Füz.) ***Bilmən*** nədir ol hədisə məzmun.(Füz.) ***Həq bilir***, yar deyil canü dilimdən ğaib.(Füz.) ***Bilmən*** necə verəyin cavabın. (Füz.)

İntonasiya ilə qurulan bu cür cümlələr xalq şeirinin böyük yaradıcısı olan Qurbaninin dilində analitik cümlələrin ən aparıcı növü sayıla bilər; məs.: ***Bilmirəm*** mələksən, mələkzadəsən. (Qurbani) ***Yara deyin***, yaralarım bağlasın.(Qurbani) ***Dedim***, pərim, zülflərini darama.(Qurbani) ***Dərviş bilər*** xirqə nədi, dəri nə. (Qurbani) ***Qurbani der***, hər kim şaha kəc baxar, Onun kamalına tez zaval olu. (Qurbani) Mələklər çıxanda ol tamaşayə ***Dedilər,*** bu nə nur, nə əcayibdir! (Qurbani)

Xətainin dilində də intonasiyanın rolu mühümdür; məs.: ***Şah Xətaim aydır***, sən qulun nedər? (Xət.) ***Xətaim der:*** bir vəliyəm yoluyla. (Xət.) ***Şah Xətai aydır:*** sirrini yayma.(Xət.) ***Mana sorun***, kimdən aldım yasayı? (Xət.) ***Heç bilməz idim*** nəyəm özümni.(Xət.) ***Aydır:*** sorayım nə kişidir bu? (Xət.) Və s.

Məsihinin dilində analitik tamamlıq budaq cümlələrində budaq cümlə baş cümləyə daha çox intonasiya ilə, az hallarda ***kim***, nisbətən fəal şəkildə ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: ***Kim bildü*** nədir o zatə məz-

mun? (Məs.) ***Bimar bilür*** bulanda səhhət Səhhət onadur nə dənqlü nemət.(Məs.) ***Bilmən*** bu kəlamə nə səbəbdür! ***Lakin bilməzdi ol müşəvvəş,*** Ol xərmənə kim buraxdı atəş.(Məs.) ***Fikr eylədi*** yazə yarə məktub.(Məs.) ***Düşdi o cəmaət içrə qovğa***, Gülşani varub gətirdi Vərqa. (Məs.)

M.P.Vaqifin dilində analitik tamamlıq budaq cümlələri artıq öz üstünlüyü ilə seçilir. Bu cür cümlələrdə budaq cümləni baş cümləyə bağlayan əsas vasitə intonasiya və ***ki*** bağlayıcısıdır. ***Kim*** bağlayıcısı klassik üslubda olan əsərlərində, həm də məhdud şəkildə özünü göstərməkdədir. İntonasiya ilə: ***Vaqif deyir***, yalvar yara, könlün al. (Vaqif) ***Vaqifi derlərdi*** çox gözəlsevən. (Vaqif) ***Vaqif deyər***, doymaz sevən sevəndən. (Vaqif) ***Vaqif der***, nə mülkü malı görəydim. (Vaqif) ***Deməginən*** Molla Pənah qocadır. (Vaqif) ***Siz də deyin***, toya gələn oynasın. (Vaqif) ***Söyləgilən:*** Sizin divanədəndir. (Vaqif)

Vasitəsiz nitq şəklində qurulan belə cümlələr də çoxdur: ***Vəfa aydır Mehrə:*** Ey, halın necə? ***Mehri aydır***: Atları gətir gecə.(MV) ***Dedi vəzirlərə***: durun varalım, Alın, gəlin oları der görəyim, Nəyə gəldi xəbərlərin sorayım.(DƏH)

Başqa budaq cümlələrdən fərqli olaraq, daha intensiv işlənən tamamlıq budaq cümlələrinin intonasiya ilə baş cümləyə bağlanan analitik tipinin bu cür zənginliyi sübut edir ki, xalq həmişə yığcam, çevik, bağlayıcısız cümlələrə öz nitqində üstünlük vermiş, lakin süni – bədii dildə söz ustaları ahəngi, ritmi, rasional fikrin çatdırılmasını nizamlamaq üçün bağlayıcıların işlənmə imkanlarını genişləndirmişlər.

Nəzərdən keçirdiyimiz abidələrin dilində ***kim*** və ***ki*** bağlayıcıları budaq cümləni baş cümləyə bağlamaq rolunu əvvəllər ***kim***, tədricən ***ki*** bağlayıcısının üstün rolu ilə davam etdirmişdir.

Kim bağlayıcısı ilə: Əfkarumı çün cəm edərəm *bunı bilürəm* ***Kim,*** canü könül eşqinə əfkar gərəkdür. (QB) *Bu söz ilə faş etdi ləbün razi-cəhanı* ***Kim,*** suzum ilə yaxdum oda sazi-cəhani. (QB)

Maraqlıdır ki, Qazinin dilində ***kim*** bağlayıcısına nisbətən, ***ki*** bağlayıcılı cümlələr üstünlük təşkil edir; məs.: *Günəş yüzündə bilürəm ki,* yoxdur meyli-pirayə. (QB) *Könüldə kim bilə* ***ki,*** nə qopısar, Ki, qonışmış yenə ay ilə pərvin. (QB) Dəmdür yürəgüm ilə yaşum hər biri hər dəm, *Adəm deməzüz* ***ana ki,*** bilməyə dəmini. (QB) *Sorıcağaz deyiməzəm* ***ki,*** nəsin. (QB) *Misri hüsnümi görənlər deməsün* ***ki,*** nili yox. (QB)

Qazinin əksinə olaraq, Nəsiminin, «Mehri və Vəfa», «Dastani-Əhməd Hərami» məsnəvilərinin dilində ***kim*** bağlayıcısı böyük üstünlüyə malikdir. Bir neçə misal:

Görəsiz ***kim***, necə hikmət söylədüm.(MV) *Bilməyir* ***kim***, xancaru səfər edə. (MV) *Gördü* ***kim***, Mehr yüzünə urmuş yüzün. (MV) Xızıra halın yigit qıldı əyan ***Kim,*** bu yigit mənim qardaşımdurur. (MV) *Yəni dilər*

kim, irişə dostuna.(MV) *Bağbana sorı* ***kim***, oğlanın qanı? (MV) *Kim nə bilür bəni* ***kim***, bən nə quşam?(MV) *Tacü təxtin tərkin urub istərəm* ***Kim***, ona yaram yürəgim göstərəm.(MV) *Bilin* ***kim***, fəthimiz bu yolda çoxdur. (DƏH) *Dedilər* ***kim,*** bu nə çoxluq kişidir.(DƏH) *Xəbər ver atama* ***kim***, anı alsın Bənim köşkümə yaxın qarşu gəlsin. (DƏH) *Görür* ***kim***, atası gəlir yaluğuz.(DƏH) *Şahənşah eydir* ***kim*** dəstur verəyim, *Dilər* ***kim*** bir xəbər andan alaydı. (DƏH) *Barmaq ilən göstərərlər* ***kim***, üzündür qibləgah. (Nəs.) *Nə bilə* ***kim***, qanda vara, abi-heyvan istəyə. (Nəs.) *Ol bilir* ***kim***, aşiq olmuş nərgisi-şəhlasinə.(Nəs.) *Yəmini bilməyən bil* ***kim***, şimalin qədrini bilməz. (Nəs.) *Sorma, ey dilbər, mana* ***kim***, hacətin məndən nədir. (Nəs.) *Gəl, ey dilbər, məni gör* ***kim,*** necə xoş yanaram sənsiz. (Nəs.) *Olma məlul, ayıtma* ***kim,*** bəndü həsar içindəyəm. (Nəs.) *Fikr eylə* ***kim***, nə tüngi-şəkərğarə düşmüşəm. (Nəs.)

Həmin bu mənbələrdə ***kim*** bağlayıcısı ilə müqayisədə nisbətən az işlənsə də, ***ki*** bağlayıcılı tamamlıq budaq cümlələri də az deyil: Hər kişi bu aləmdə bir nəsnəyə adanur, *Bən kişi* ***ana*** *derəm* ***ki***, eşq ilə adana. (QB) *Ləbün eşqi könüldə* ***şuna*** *bənzər* ***Ki,*** bir miskin yabanda buldı gövhər. (QB) *Bilməzəm* ***ki***, qandadır ol gülüzar.(MV) *Der* ***ki***, bağışlın bu oğlanı bana.(MV) *Mən eşitdim* ***ki***, Bağdadı görənlər Anın sultanın ikən söylədilər.(DƏH) *Dilərəm* ***ki,*** duram qapında bən də. (DƏH) *Biliməzim* ***ki,*** qancaru gedəyin. (DƏH) *Nə aydam* ***ki***, necə düzdilər anı. (DƏH)

Kim və ***ki*** bağlayıcılı cümlələr XV-XVI əsrlərin ədəbi dilində yazıçı üslubundan asılı olaraq, bu və ya digərinin üstün mövqeyi ilə işlənməkdə davam etmişdir. Məsələn, Xətai tamamlıq budaq cümləsinin baş cümləyə bağlanmasında ***kim*** bağlayıcısına nisbətən ***ki*** bağlayıcısından bir neçə qat artıq istifadə etmişdir ki, bu da onun xalq dilinə diqqəti ilə bağlıdır. Misallar: *Dedim* ***ki***, sən onu sorma məndən.(Xət.) *Gördüm* ***ki***, gəzir çəməndə xoşdəm. (Xət.) *Qövl etdi mənə* ***ki***, dan atan çağ, Bülbül budağa qonub ötən çağ, Olmuş ola namə cümlə təhrir… (Xət.) *Gözümə dedim* ***ki***, tərki-xab et.(Xət.) Hər kimi görər, *deyər* ***ki***, savul.(Xət.) *Sən bilməmisən* ***ki,*** mən nə şahəm.(Xət.) *Kim dedi sana* ***ki***, gəl bu mərzə. (Xət.) *Yar aydır ona* ***ki,*** ey cigərxun, Çox etmə bu yolda sən cigər xun.(Xət.) *Dedim* ***ki***, diriğ, gecə keçdi, *Heç bilmədim* ***ki***, necə keçdi! (Xət.)

Qurbani çox az hallarda ***ki*** bağlayıcısından istifadə etmişdir: Qurbani deyir ***ki***, sonasan,sona. (Qurbani)

Kim bağlayıcısı ***ki***-yə nisbətən Füzuli məsnəvilərinin dilində də qeyri-fəaldır. Ardıcıl nəzərdən keçirdiyimiz «Leyli və Məcnun» poemasında ***kim*** bağlayıcısı ***ki*** bağlayıcısının təqribən altıda biri qədərdir. Poemaların dilində ***kim*** və ***ki*** bağlayıcılı tamamlıq budaq cümlələri başlıca olaraq aşağıdakı nisbətdədir.

Kim bağlayıcılı cümlələr əsasən bunlardır: *Bihudədir ol qamu fəsanə* ***Kim***, aşiqdir filan filanə. (Füz.) *Vəhm eyləmədinmi* ***kim,*** çəkib ah,

Suzi-ciyər ilə bir səhərgah Yandıram oda doquz rəvaqın. (Füz.) *Nagah olur atan-anan agah* ***Kim***, ğeyr ilə aşina olubsan.(Füz.) *Bildir mənə* ***kim***, nədir günahım? (Füz.)

Ki bağlayıcısı: *Şərh eylə mənə* ***ki***, çərx netdi? (Füz.) *Sən bildirdin* ***ki,*** kimdir allah. (Füz.) *Ancaq deməzəm* ***ki***, xaki-Bağdad Alayişi-nəzmdəndir azad. (Füz.) *Dövran istər* ***ki***, xar ola nəzm. (Füz.) *Bilmişlər idi* ***ki***, hüsni-göftar Qədrim qədərincə məndə həm var. (Füz.) *Sözlər dersən* ***ki,*** bilməzəm mən. (Füz.) *Gördü* ***ki***, behiştə hur gəlməz. (Füz.) *Bildi* ***ki***, sipehri-şöbədəbaz Bir şöbədə eyləyibdir ağaz. (Füz.) *Umdun* ***ki***, mənimlə olasan şad. (Füz.) *Der imiş düşmən* ***ki***, həmdəmdir Füzuli yar ilə. (Füz.) *Bildi* ***ki***, qəbul olur duası.(Füz.) *Vəhm etdi* ***ki,*** olsa yarə vasil Nöqsan ola canü cahə hasil. (Füz.) *Dersən* ***ki***: «Sənə nə nisbətim var?» (Füz.) *Fikr etmə* ***ki***, mən nişatməndəm. (Füz.) *Gördü* ***ki***, bu şölə bir nəfəsdir. (Füz.) *Fərz eylə* ***ki***, oldu yar yarın. (Füz.) *Eşqin bilirəm* ***ki,*** böylə qalmaz. (Füz.) *Sən sanma* ***ki***, oldur ol, mənəm mən. (Füz.) Bikəsliyim olmaya mənə ar, *Məlum edələr* ***ki,*** varisim var. (Füz.) *Bildim* ***ki***, məni sevirsən, ey mah! (Füz.) *Nişə sormazsan* ***ki***, əhvali-dili-şeyda nədir? (Füz.) Və s.

Daha sonrakı dövrlərdə – Məsihinin və Vaqifin dilində artıq ***ki*** bağlayıcısı tam üstünlüyə malikdir. Əgər Məsihinin dilində ***ki*** ilə ***kim*** bağlayıcısı onda bir nisbətlə işlənmişdirsə, Vaqif öz qoşmalarında, demək olar ki, ***kim*** bağlayıcısından istifadə etməmişdir. ***Kim*** bağlayıcısına onun yalnız klassik şeir üslubunda yazdığı əsərlərdə rast gəlirik.

Məsihidə: *Danla nə bilür* ***ki***, *kimsə* gərdun Bu bəzmə verür şərab ya xun? (Məs.) *Gəl söylə mana* ***ki***, kimdurur yar.(Məs.) *Duydum* ***ki***, nədir rümuzi-əsrar.(Məs.) *Pəs söylə ona* ***ki***, ey qələtray, Bu danişə olma cəhl fərsay.(Məs.) *Verdilər ona xəbər* ***ki***, ey şah, Düşmən bizə yetdi olgil agah. (Məs.) *Qılgil* ***anı kim***, sənə rəvadur. (Məs.)

Vaqifdə: Deməli çox gizli dərdi-dilim var, *Qorxuram* ***ki,*** deyəm, eşidə əğyar. (Vaqif) *İstərəm* ***ki***, yazam göndərəm, ey yar, Səhər oğrun əsən yel ilən sənə. (Vaqif) *Bilmənəm* ***ki***, sənə nə demiş əğyar. (Vaqif) *Bir gün görərsən* ***ki,*** vallah, ölmüşəm. (Vaqif) *Demə* ***ki***, molladır mənim sevdigim. (Vaqif) *Haqq bilir* ***ki,*** səni necə istərəm. (Vaqif) *Bilir* ***ki***, bilirəm qədrin sovqatın. (Vaqif) *Bilməzəm* ***ki***, nədir mənim günahım. (Vaqif) *Kim qıyar* ***ki***, düşə gül yarpağı qanqal içinə. (Vaqif) *Kim qalıbdır* ***ki***, onun qəm tökməyibdir qanını? (Vaqif) Göründüyü üzrə, baş cümlədə qəlib sözə nadir hallarda təsadüf edilir.

Tarix boyu tamamlıq budaq cümləsinin aid olduğu baş cümlə əksərən feli xəbərli olmuş, tamamlıq baş cümlədə feli xəbərlə ifadə olunan işi, hərəkəti tamamlamışdır. Lakin bəzən vasitəli tamamlığın sualına cavab verən budaq cümlələr baş cümlənin ismi xəbərinə də aid olmuşdur; məs.: *Var ümidüm (nəyə?)* ***ana ki,*** bən irişəm irişməsinə. (QB) *Bir ay dəxi* ***gərək*** *(nəyə?)* ***kim,*** bir yıl ola.(MV) *Nə dilim (nəyə?) var*, anı şərh ey-

ləyəm bən, *Nə bilim (nəyə?)* ***var ki,*** şərhin söyləyəm bən. (DƏH) *Mən həm buna* ***qailəm ki***, pəndin Nisbət mənə xeyrdir, deyil şər. (Füz.) ***Şahiddir*** *ona bu inqilabın* ***Kim***, aşiqisən bir afitabın. (Füz.) ***Ümidvar idim*** *əvvəl* ***ki***, bir nişat görüm. (Füz.) *Qüdrətim* ***yox ki***, qılam kimsəyə şərhi-ğəmidil. (Füz.) *Ümidim* ***vardır ki,*** bu qara gün getməyə başə. (Vaqif)

Dövrün ədəbi dilində analitik tamamlıq budaq cümlələrinin baş cümləsində əksərən qəlib söz – yerlik işlənməmişdir. Bu hal budaq cümlənin təşəkkül tarixinin qədimliyi, baş cümlədə onu işarə əvəzliyi ilə işarə etməyə xüsusi ehtiyacın olmaması ilə bağlıdır. Məntiqi vurğu altına düşdükdə və ya vəznin tələbləri ilə əlaqədar baş cümlədə aşağıdakı qəlib sözlərə rast gəlmək olur.

Ana sözü: *Adəm* ***ana*** *deyərəm* ***ki,*** ola narü həvadən, Adəmmidür ol ki**,** dəm ura ab ilə gildən?(QB)

Anı sözü: Yerü göy götürməz ***anı ki,*** insan götürər. (Oğuz.) Saçında azdı könülümü azduğı uzanır, *Könül dilər* ***anı ki,*** azmağ azana uzana. (QB) *Boynına almadı kimsəsi* ***anı Kim,*** ola ol məmləkətin sultanı. (MV) *Bilmədim bən* ***anı kim***, cadu imiş.(MV)

Anı sözü qəlib söz kimi daha fəaldır.

Onu sözü: *Gör* ***onu ki*** hər nihali-sərkəş, Sudəndirü sərf eylər atəş. (Füz.) *Bilmək gərək* ***onu kim***, cəvahir Nə gənci-nihandan oldu zahir? (Füz.)

Ondan sözü: *Eşq içrə əzab olduğun* ***ondan*** *bilirəm* ***kim***, ***Hər kimsə ki*** aşiqdir, ***işi*** ahü fəğandır. (Füz.)

Buna sözü: *Mən həm* ***buna*** *qailəm* ***ki***, pəndin Nisbət mənə xeyrdir, deyil şər. (Füz.)

Buni sözü: ***Buni*** *həqiqət bilün* ***ki,*** yüzini görən, Qılımaya eşqi duasını məcazi. (QB)

Munu sözü: *Peyvəstə* ***munu*** *xəyal edərdim* ***Kim***, sən tələbi-visal edərsən. (Füz.)

Şuna sözü: *Bən* ***şuna*** *qulam* ***ki,*** ol bir nami-namus eyləyə, Bir dəm içün dünyada bin yili əfsus eyləyə. (QB)

Misallar göstərir ki, ***anı, şuna*** tipli arxaik sözlər daha çox əvvəlki mərhələdə işlənmişdir. Füzuli isə daha çox danışıq dili faktından istifadə etmiş, hətta şivə çalarlı söz də (*munu)* işlətmişdir. Az və ya çox işlənməsinə baxmayaraq, baş cümlədə lazım gəldikdə qəlib sözlərin işlənməsi müasir dilimiz üçün də normadır.

Beləliklə, ümumiləşdirəcək olsaq, qeyd etməliyik ki, analitik tip tamamlıq budaq cümlələri Qazi Bürhanəddinin dilində daha fəaldır. Onun «Divan»ının dilindəki tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin analitik tipində baş cümlədə qəlib söz ***bu, ol, şu*** sözləri ilə ifadə olunmuşdur. Həmin sözlər substantivləşərək müxtəlif hallarda baş cümlənin tamamlığı vəzifəsində işlənmiş və budaq cümlə vasitəsilə izah

edilmişdir. Lakin əksərən baş cümlədə budaq cümlənin qəlibi işlənməmişdir. Təbii ki, qəlib sözün hansı halda olması xəbərin təsirli və ya təsirsiz olmasından asılı olmuşdur; məs.: ***Bənzər ki,*** (nəyə?) sadə dildurur ol kafər ayinə. (QB) Səni bən bilürəm ancax bu yolda, Cəhan içində kim ***bilə ki,*** (nəyi?) kimüm. (QB)

Mübtəda budaq cümləsində olduğu kimi, tamamlıq budaq cümləsində də bəzən baş cümlənin xəbəri *-mı* şəkilçisini qəbul etmişdir. Lakin həmin şəkilçi sual məqsədi ilə işlədilməmiş, bağlayıcı vasitə kimi çıxış etməmişdir; məs.: Aşüftə biliməz***mi*** dərü bişəsi yoxdur. (QB) *Sən deməz**mi**ydün **ki**,* bən sənün olam? (QB)

Baş cümlənin xəbəri daha çox görmə, təfəkkür, iş və nitq felləri ilə ifadə olunmuşdur; məs.: ***Dilərdim*** bənim ilə yar olaydun, ***Nə bilirdim*** belə əğyar olaydın. (DƏH) Görən ***aydır ki***, tufan oldu sənsiz. (Nəs.) ***Bildi ki***, hər qatında məqbul imiş duası. (Nəs.) Nəqşi-xəyali-surətin ***sanma ki,*** məndən ayrıdır. (Nəs.) Həqqi bilən ***bilir ki***, nə didarə düşmüşəm. (Nəs.) ***Soralım*** qandan gəlür, qanda gedir, Mətləbi nə, qancaru səfər edir. (MV) Kimə ***aydayım ki***. anın sitəmində can usandı?(Nəs.) ***Bildim*** yəqin ***ki***, nərgisi-məstin dilər kəbab.(Nəs.) Cahanda kimsə ***görməmiş ki,*** bayquş ala göyərçin. (Nəs.) ***Dersən kim***, dəhri-pirindən nəsihət almışuz. (Xət.) ***Gördü ki***, bir ovçu dam qurmuş. (Füz.) ***Dedim,*** könül, sevmə xublar xubunu. (Qurbani) ***Fikr etmə ki***, yoxdur əhli-idrak, ***Demə ki***, bolub kəsad bazar. (Füz.) ***Xəyal etmişdi*** Vaqif ***kim***, rəvan bir xoş qəzəl yazsın. (Vaqif) Səyyad, saqın, cəfa yamandır! ***Bilməzsənmi ki,*** qana qandır?! (Füz.) Səndə ***bilirəm ki***, lütf çoxdur. (Füz.) Sürmə ***bilirəm ki***, artırır nur. (Füz.) ***Təhqiq edibəm ki***, düşmənindir. (Füz.) ***Eylərlər idi güman ki***, ol zar Bir özgə bəlayədir giriftar. (Füz.)

«Mehri və Vəfa»nın dilində ***demək*** felinin baş cümlənin xəbəri kimi işləndiyi hallar çoxdur. Lakin ***aytmaq, aymaq*** feli bu cəhətdən daha üstündür və bu sözlə işlənən baş cümlələrin sayı 140-dan artıqaır. Bunların əksəriyyəti vasitəsiz nitq şəklindədir.

Əvvəlki dövrlərdə ***kim*** bağlayıcısının baş cümlənin xəbərindən aralanması və ya xəbərlə yerdəyişməsi göstərir ki, bu bağlayıcı hələ müasir dildə olduğu dərəcədə öz zəruri yerində – baş və budaq cümlə arasında sabitləşə bilməmişdir: Cüftçü cüftünə gedirkən ***kim görür***, Hava yüzündə bir könlək gəlür.(MV)

S***anmaq*** feli əvvəllər müstəqil baş cümlə kimi çıxış etdiyi halda, Füzuli dövründə artıq işlətməkdən asılı olaraq tam modal söz kimi də çıxış edir: ***Sanasan,*** bağçada güllər açılmış. (Qurbani)

Tamamlıq vasitəsiz və vasitəli olduğu kimi, baş cümlənin xəbərindən asılı olaraq, tamamlıq budaq cümlələrinin də bir qismi vasitəsiz, bir qismi vasitəli tamamlığın suallarına cavab verir. Məs.: Bülbül kimi Nəsimi ***dilər ki***, fəğan ilə Gül söhbətinə yaramiyə naleyi-ğürab. (Nəs.) Mən

bilirəm ki, can ilə susamışam zülalinə. (Nəs.) Ya ilahi, ***bilməzəm kim***, nolur əhvalım mənim. (Xət.) ***Bildir*** mənə ***kim***, nə pişəsən sən. (Xət.) ***Razıyuz*** (*nəyə?*) bu kürədə peykünə sindan olalum. (QB) ***Təəccüb eylədi*** (nəyə?), bu işi gördü.(DƏH)

Son iki cümlədə budaq cümlə vasitəli, əvvəlkilərdə vasitəsiz tamamlığın suallarına cavab verir. Bu sahədə çox mühüm cəhət odur ki, vasitəli tamamlığın suallarına cavab verən tamamlıq budaq cümlələri hədsiz dərəcədə azdır, çünki əksər baş cümlələrin xəbəri təsirli fellərlə ifadə olunmuşdur.

TƏYİN BUDAQ CÜMLƏSİ

"Dədə Qorqud"un dilində təyin budaq cümləsinin əsasən analitik tipinə rast gəlmək olur. Budaq cümlə baş cümləyə ***kim, ki*** bağlayıcıları ilə bağlanmışdır. Əsas xüsusiyyəti ondan ibarətdir ki, budaq cümlə baş cümlənin əşya məzmunlu üzvünə aid olur. Baş cümlədə budaq cümlənin qəlibi kimi ***ol, öylə*** əvəzlikləri işlənmişdir:

Ağam Qazan, bu ağac ***ol*** *ağacdır* ***kim****, sən kafəri basarsan, qarnın acıqar, mən sana bu ağacla yemək bişürərin*. (46) *Ol* ***öylə*** *adam degildir* ***kim****, sana görinə*. (54)

Cümlələrin bir qismində baş cümlədə budaq cümlənin qəlibi yoxdur, lakin intonasiya ilə təsəvvür edilir:

Baba, mana bir qız alı ver ***kim****, mən yerimdən turmadın ol turgəc gərək*.(55) *Bin ayğır diləyübdir* ***kim****, qısrağa aşmamış ola. Bin də qoç diləyübdür* ***kim****, qoyuna girməmiş ola*. (56)

I tip. Təyin budaq cümləsinin «budaq cümlə + baş cümlə», yəni bağlayıcı sözlü tipinin «Kitabi-Dədə Qorqud»da işlənməməsi o demək deyildir ki, o dövrdə budaq cümlənin bu növü formalaşmamışdı. Mübtəda və tamamlıq budaq cümlələrinin haqqında danışılan tipi varsa, eyni zamanda çoxişlənmə imkanları ilə nəzərə çarpırsa, təyin budaq cümləsinin də belə tipi olmalıdır. Sadəcə olaraq, danışıq vaxtına qənaət, fikrin tez və asan ifadəsi baxımından təyin budaq cümləsinin bu tipi mübtəda və tamamlıq budaq cümlələri ilə müqayisədə nisbi artıq vaxt tələb edir. Məsələn, ***Hansı*** *kəndə gəlsə,* ***o*** *kəndi abadlaşdırırdılar* – cümləsinin baş cümləsində qarşılıq bildirən sözlə birlikdə təyinlənən də işlənməli olmuşdur: ***o kəndi***. Cümlə təyin budaq cümləlidir. Lakin cümlə: ***Hansı*** *kəndə gəlsə,* ***onu*** *abadlaşdırırdılar* – şəklində daha asan qurulur. Qarşılıq bildirən söz isimləşərək fikrin daha yığcam ifadəsinə imkan verir. Bu cür hallarda təyin budaq cümləsi mübtəda və tamamlıq budaq cümlələri tərəfindən bir növ udulmuş olur. Ona görə də təyin budaq cümləsinin bu

tipi dildə nisbətən az işlənir, bir çox abidələrdə belə bir tipin işlənməsi üçün zəruri situasiyaya ehtiyac olmur.

Fikrin izahı üçün yenə bir misal. Bağlayıcı sözlü aşağıdakı cümlədə qarşılıq bildirən təyinedici söz olmadığından onu təyin budaq cümləli tabeli mürəkkəb cümlə saymaq çətindir:

Yoxdur ***nəsibi*** eşqi-həqiqətdən, ey könül,
Şol kimsənin ki mürşidi naqisüqul ola. (Nəs.)

Bu misralarda inversiya vardır. Əslində, tərəflər belə işlənməli idi: ***Şol kimsənin ki*** mürşidi naqisüqul ola, Yoxdur ***nəsibi*** eşqi-həqiqətdən, ey könül.

Burada ***nəsibi*** sözü baş cümlədə qarşılıq bildirən ***onun*** sözünü tələb edir – ***onun nəsibi.*** Bu iki söz birlikdə mübtəda vəzifəsində çıxış edir və mübtəda budaq cümləsinin yaranmasına səbəb olur. Təyin budaq cümləsi üçün qarşılıq bildirən ***o adamın nəsibi*** birləşməsi yaranmalı idi**.**

Nəsiminin əsərləri ilə eyni dövrün məhsulu olan «Mehri və Vəfa» məsnəvisinin dilində təyin budaq cümləsinin bağlayıcı sözlü tipi, az da olsa, vardır. Qeyd edəcəyimiz nümunə tam səlis nümunə olduğundan belə cümlələrin bədii dildə az işlənməsinə baxmayaraq, xalq dilində çoxdan formalaşmış olduğunu göstərir. Budaq cümlə baş cümləyə ***kim*** ədatı ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***ol*** sözü işlənmişdir:

Ol iki at tışrada ***kim*** var idi,
Bir sayis ***ol*** atları bəklər idi. (MV)

Qazi Bürhanəddin dilinin tədqiqi göstərir ki, təyin budaq cümləsi qədim inkişaf tarixinə malik budaq cümlə növlərindəndir. Qazinin «Divan»ının dilində hər iki tipdən istifadə edilmişdir.

Təyin budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipində (bağlayıcı sözlü) əksərən ***hansı*** bağlayıcı sözünün arxaik variantı olan ***qanqı*** sözündən istifadə edilmişdir. Belə cümlələr şairin dilində azdır, lakin müasir təyin budaq cümləsi modelinə uyğundur. Bu tipin tam mükəmməl formasının işlənməsi budaq cümlənin bu növünün dildə qədim dövrlərdən sabitləşmiş olduğunu göstərir. Məs.:

Qanqı könüldə ***ki*** odun olmaya,
Ol könüli bən bilürəm qarə yox. (QB)

Göründüyü kimi, budaq cümlə baş cümləyə ***qanqı*** bağlayıcı sözü və ***ki*** ədatı ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən (təyin vəzifəsində) ***ol*** sözü işlənmişdir.

Sonrakı dövrlərdə, xüsusən M.P.Vaqifin dilində bağlayıcı sözlü təyin budaq cümləsinin tam səlis formasına rast gəmək olur:

Bir evdə ki belə gözəl olmaya,
O ev bərbad olub talanmaq gərək. (Vaqif)

Baş cümlədəki qarşılıq bildirən ***o*** sözü cümləni başqa budaq cümlələrlə qarışdırmağa imkan vermir.

Beləliklə, abidələrin dilində bir sıra başqa budaq cümlələr kimi intensiv işlənməsə də, təyin budaq cümləsinin bağlayıcı sözlü tipi qədim dövrlərdən müəyyənləşmiş və normal inkişaf yolu keçmişdir.

II tip. Təyin budaq cümləsinin analitik tipində baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Budaq cümlə baş cümləyə bəzən intonasiya ilə bağlanmışdır. Bu hal üslubdan, xalq ifadə tərzinə münasibətdən asılı olaraq, «Oğuznamə»nin, «Mehri və Vəfa»nın, «Dastani-Əhməd Hərami»nin, Xətainin, Qurbaninin dilində daha çox müşahidə olunur; məs.:

Adəmi var, qızıl alma naqşıdur,
Adəmi var, heyvan andan yaqışıdur.
Adəmi var, söhbətində baş yitər,
Adəmi var, söhbətində can bitər. (Oğuz.)

Quş var, ət yedirirlər, ***quş var***, ətin yeyirlər. (Oğuz) ***Var idi bunların içində bir ər,*** Qatı gürbüz bahadur idi sərvər.(DƏH) ***Var idi ol bağçada bir xub çiçək***, Dəxi tazə olur idi duricək.(MV) ***Gördü bir oğlan,*** yüzü bənzər ayə.(MV)

Bu cümlələrin hər birinə ikinci komponentdən əvvəl ***ki*** bağlayıcısını artırmaq olar.

Şah İsmayıl Xətainin məsnəvilərinin dilində intonasiya ilə baş cümləyə bağlanan təyin budaq cümlələri nəzəri xüsusi cəlb edir; məs.: ***Bir evə qəhr ola***, müsafir getməz.(Xət.) ***Bir gövhəri bulmaq gərək***, Heç sərraflar bulmaz ola. (Xət.) ***Söz vardır*** kəsdirər başı, ***Söz vardır*** kəsər savaşı. ***Söz vardır*** ağulu aşı Bal ilən edər yağ bir söz.(Xət.) ***Daxi sir var*** deyilməz xəlq içində, ***Yenə söz var*** deyəsi xülq içində.(Xət.)

Xətaidən verdiyimiz birinci cümləni: «*Bir evə qəhr olsa, müsafir getməz*» kimi yox, «*Bir evi qəhr olsun ki, ora müsafir getmir*» kimi anlamaq lazımdır.

Bu misalların bir qismində ***ol*** və ***bir*** qəlib sözləri var. Qalan cümlələrin baş cümləsinə ***ol, elə*** sözlərini əlavə etmək mümkündür: ***Elə söz vardır*** kəsdirər başı, ***Elə söz vardır*** kəsər savaşı.

Qurbaninin və Vaqifin dilində də belə cümlələr var: ***O*** nə güldü, dövrəsində xar olmaz. (Qurbani) ***Bir*** gün olur, itirərsiz Vaqifi. (Vaqif)

Təyin budaq cümləsini baş cümləyə bağlamaq üçün ***kim*** və ***ki*** bağlayıcıları paralel şəkildə işlədilmişdir. Bu bağlayıcılar intensiv işlənmə

imkanlarına görə yalnız yazıçı üslubu ilə fərqlənir. Məsələn, Qazinin dilində təyin budaq cümləsini də baş cümləyə bağlamaq üçün ***ki*** bağlayıcısı aşkar üstünlüyə malikdir. Şair əsasən ***ki*** bağlayıcısından istifadə etmişdir; məs.: Xam ola ***şol*** söz ***ki***, ənbərdən keçər**.** (QB) Susamışam nola bən görməgə didarunuzı, Susadım ***şol*** yüzə ***ki***, dideyi-dəvran təşnə. (QB) Eşq ***bir*** bazardur ***ki,*** anda satılmaz özini. (QB) Eyş edəlüm ***ki,*** ola ol eyşdən dilşad şad.(QB) ***Bir*** sayəyəm ***ki***, göz görürü yoxdurur tənüm, Bu halı yar bana ömürə saya bənzəməz. (QB) Bir dil qanı ***ki,*** yana odına bu nigarun, ***Bir*** mey qanı ***ki***, ola dəva işbu xumarun. (QB)

Bu misallarda budaq cümlə baş cümlədən sonra işlənərək ona ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Birinci misalın baş cümləsində mübtədanın təyini vardır: ***şol*** sözü. Aktuallaşdırılaraq məntiqi vurğu altında tələffüz edilən həmin söz konkret bir məna ifadə etmir və budaq cümlənin baş cümlədə yerliyi, qəlibi kimi çıxış edir. Məntiqi vurğudan aydın hiss olunur ki, baş cümlədən sonra budaq cümlə gəlməli və ***şol*** sözü ilə nəyin nəzərdə tutulduğunu izah etməlidir. Bu cümləni sadə cümlə şəklində ifadə etsək, həmin cümlədə də təyin aktuallaşmış olacaqdır, lakin onun budaq cümlə şəklində aktuallaşması daha güclüdür, çünki o (təyin) birbaşa ifadə edilmir, əvvəlcə qəlib söz-işarə əvəzliyi vasitəsilə dinləyənin, oxucunun nəzərinə çatdırılır, sonra onun mahiyyəti açılır.

Baş cümlədə təyin budaq cümləsinin yerliyi, qəlibi kimi aşağıdakı sözlərdən istifadə edilmişdir. Bunların əksər arxaik olanları Qazinin dilindədir.

Şöylə sözü: ***Şöylə*** günəşdür ol ***ki,*** qılur söhbət ay ilə. (QB) Bən ***şölə*** gülün aşiqi oldum ***ki,*** göricək Toymaya vücudum dəxi xarından, əfəndi. (QB)

Şol sözü: ***Şol*** süciyəm ***ki***, zövqümi xəmmar bilmədi. (QB) Xalis nigari-eşqinə sikkə uran zərə, ***Şol*** qəlb ola ***ki***, qalibi-qüllabı yoxdurur. (QB) ***Şol*** suyı sunğıl bana ***ki,*** od ola feli. (QB) Buldu könlüm səninlə ***şol*** vüslət ***Kim***, anın vəslinə vüsal irəməz. (Nəs.) Dilbərin ləli əzəl bəzmində içirmiş mana ***Şol*** meyi ***kim***, nöh fələkdir kəmtərin peymanəsi. (Nəs.)

Ol sözü: Vay ***ol*** kişiyə ***kim,*** allahdan inayət olmaya. (Oğuz.) Vay ***ol*** kişiyə ***kim***, günahın bilməyə. (Oğuz.) Namərd ola ***ol*** kişi ***ki,*** qəsd eyləyə mərdə. (QB) Nihayətə irər ***ol*** hüsn ***ki***, apara canı.(QB) Fili piyadə qıldı, atın aldı ruxların, Fərzünləniz ***ol*** işi ***ki,*** bu şəhsuvar edər. (QB) Bu dünlə eşqünün məhi-tabında xoş geçər, ***Ol*** aya can fəda ola ***ki***, bəndə xoş geçər. (QB) Bən qulıyam dünyada ***ol*** nərlərün ***Ki,*** bu dəm meydanumda kükrəşürlər. (QB) Əlfazi-Nəsimi bu gün ***ol*** möcüzədir ***kim***, Bənzər ana bir lölövü şəhvar ələ girməz. (Nəs.)

Bəzən eyni cümlədə həm ***şol*****,** həm də ***ol*** qəlib sözü işlənmişdir**:** Ləbin ***şol*** ləli-əhmərdir, dişin ***ol*** dürri-gövhərdir ***Ki***, ləli torpağa saldı, buraxdı dürri dəryayə. (Nəs.)

O sözü: ***O*** şahın xəznəsini gözləyəlim ***Kim, ol*** sultanın adıymış Şəhinşah. (DƏH)

Bu sözü: ***Bu*** gecədir ol ***ki***, təşnə Xızrə Heyvan suyu nagəhan qavışdı. (Xət.) ***Bu*** gündurur ol ***ki***, xəstə Yəqub Yusifdən azub, rəvan qavışdı.(Xət.)

O, bu sözlərinin qəlib söz kimi işləndiyi belə cümlələr ilkin mərhələdə hələ azdır.

Bir sıra cümlələrdə qəlib söz kimi ***bir*** sözü işlənmişdir. ***Bir*** sözü intonasiya ilə birlikdə ***elə bir, şöylə bir*** mənalarını ifadə edir: ***Bir*** saray yapdı bulər ***kim***, nə deyim. (Suli) ***Bi*r** dəm umaram ***ki,*** ola yar ilə bir dəm.(QB) Bən ***bir*** otam ***ki,*** hiç bəni əttar bilmədi. (QB) Gözindən anun günilərəm əksümi bənüm, Qopar yenə könüldən ***bir*** məani ***Ki,*** dil bilürü dil söyləməz anı. (QB) ***Bir*** nəfisə qalmışam ***ki,*** varlığım oldur, Sizə fidi ruzü həftəvü mah ilə sal.(QB) Səba nəql eylədi canuma ***bir*** söz ***Ki,*** bən qılımazam anı rəvayət (QB) və s.

Xətainin və Füzulinin dilində belə cümlələr daha çoxdur: ***Bir*** yar var idi mənə qədimi ***Kim,*** könlümün ol idi nədimi.(Xət.) Həm yox mənə ***bir*** rəfiqi-həmdəm ***Kim,*** eyləyə bu yarama məlhəm.(Xət.) ***Bir*** mülkdə ver mənə qərarı ***Kim***, yetməyə adəmi ğübarı. (Füz.) Tədbir ilə buldu ***bir*** xirədmənd ***Kim***, lütf ilə söz qılanda təqrir, Təqriri verərdi daşa təğyir. (Füz.) Gərək buna ***bir*** tənbih edək ***ki,*** heç kimsənəyə olmamış ola. Amma ***bir*** şairdür ki, heç manəndi-misli yoxdur. («Şəhriyar»)

Belə sözü: O yer də bir ***belə*** yer idi ***ki***, vəsfin demək dil ilən və kağız ilən mümkün olmaz. («Şəhriyar»)

Müasir dildə olduğu kimi, bir sıra cümlələrdə qəlib söz işlənməmişdir: Yalan olmaz ***ki***, anun yarısı gerçək olmıya. (Oğuz.) Oxlar atar gözləri ***ki***, taşları yarar, Xəstəyə urur özini olamı məğdur. (QB) Qanı dil ***ki,*** gözünlə parə degül, Bu könül axı səngi-xarə degül. (QB)

Bu misalların baş cümləsində budaq cümlənin qəlibi yoxdur, buna görə də qəlib sözün yarada biləcəyi təəssüratı intonasiya yerinə yetirmiş, budaq cümlə baş cümlədə təyinlənən sözlə birbaşa əlaqələnmişdir.

«Mehri və Vəfa»nın dilində ***kim*** və ***ki*** bağlayıcıları təqribən bərabər kəmiyyətdə işlənmişdir. «Dastani-Əhməd Hərami»də ***ki*** nisbətən üstündür.

Kim bağlayıcısı ilə: Yer yüzi at ayğınə təngidi ***Kim,*** hesabə gəlməzdi sağisi (sayı). (Suli) Qanı Mehrilə tayə, Məşuqəm ***kim***, yüzi bənzərdi ayə? (MV) Biz qəriblərüz burada biməkan ***Kim***, cəfalar çok bizə qıldı zaman.(MV) Yenə qıla kəndözün günəş nihan ***Kim***, anın nuriylə aydındır cahan. (MV) ***Bir*** iş var ***kim***, anı təcil edərlər, ***Bir*** iş var ***kim,*** anı təcil edərlər.(DƏH)

Ki bağlayıcısı ilə: İrəsən bir qalaya ***ki***, çok ulu. Gəncxanədir içi, həm altun dolu. (MV) Var idi şəhr içrə bir sərraf ***ki***, ol Qatı zənbaz idi,

həm dünyası pul.(MV) Hərami anda qondu bir dərəyə ***Ki,*** insan uğramazdı ol arayə.(DƏH) İş edəyim sənə aləmdə düpdüz ***Ki***, anın kibi iş heç görməmiş göz.(DƏH) Dedi gəldi bizə bir can parası ***Ki,*** oldur gözlərin ağı, qarası. (DƏH)

Nəsiminin dilində ***kim*** bağlayıcısı nisbət etibarilə bir qədər üstündür:

Kim bağlayıcısı ilə: Uğramadı hüsnünün atəşi ***şol*** canə ***kim***, Şol günəşin tabinə cismi qədid olmadı. (Nəs.) Qanı cahanda, ey könül***, ol*** vəhdət əhli ***kim,*** Yüz min bəlavü möhnət ilə mübtəla degil. (Nəs.) Kim bilir ***ol*** şümari ***kim***, mən nə şümar içindəyəm? (Nəs.) Bu gün, ey xubların şahı, əmiri-dilbəransan ***kim***, Xəyalın ləşgəri verdi könül şəhrini yəğmayə. (Nəs.)

Ki bağlayıcısı ilə: Meraca çıxdı ruhi-Nəsimi Buraq ilən, ***Şol*** laşədən nə faidə ***ki,*** la-zəlul ola? (Nəs.)

Kim bağlayıcısının üstün mövqeyi Şah İsmayıl Xətainin, Füzulinin, Nişat Şirvaninin və b.-nın dilində də qalmaqdadır: ***Ol*** oddur o ***kim***, Xəlili Nəmrud Ba məncanaq atdı ona çün dud.(Xət.) Gördü onu bağibani-məhrəm ***Kim***, gözlər idi yolunu hər dəm.(Xət.) Der qasidəm ***ol*** şikəstə zarə ***Kim***, aşiq olubdur ol nigarə.(Xət.) Əvvəl səbəb oldu nəzmi-tovhid ***Kim***, bəndəliyin odur nişani.(Xət.) Yoxdur ***bir*** mülk bu zamanda ***Kim***, nəzm rəvacı ola onda.(Füz.) ***Bir*** bəzmi-müsibəti-bəladır ***Kim,*** əvvəli qəm, sonu fənadır. (Füz.) ***Bir*** bəzmgah eylədi mürəttəb ***Kim,*** görmədi onu çeşmi-sağər. (Füz.) Yaşım suyu oldu varə-varə ***<u>Bir</u>*** bəhr ***kim***, yox ona kənarə. (Füz.) ***Bir*** mənzilə düşdü rəhgüzari ***Kim,*** seyrdə idi onda yari. (Füz.) ***Bir*** lələn eşitmişəm sənin var ***Kim***, ləlimə oldur səzavar. (Füz.) O ***bir*** əyyarihindudir ***kim***, olmaz fitnədən xali. (Nişat) və s.

Ki bağlayıcısı ***kim*** ilə müqayisədə xüsusən Füzulinin dilində işləklik etibarilə geri qalır. Misallar: Yetirdi özünü hər necük var ***Ol*** bağə ***ki***, mənzil etdi dildar.(Xət.) Getdin ***o*** yerə ***ki***, getmək olmaz, Yetdin ***o*** yerə ***ki***, yetmək olmaz. (Füz.) ***Bir*** dövrdəyəm ***ki***, nəzm olub xar. (Füz.) ***Bir*** vaqeədir ***ki***, düşdü nagah. (Füz.) ***Ol*** sözü deməz ***ki***, ola təkrar. (Füz.) Ey xoş ***ol*** günlər ***ki***, mən həmraz idim canan ilə. (Füz.)

Həm Xətainin, həm də Füzulinin dilində vəznlə, ahənglə əlaqədar bəzən ***ki*** bağlayıcısı sonrakı sözlə birləşmişdir: ***Ol*** bağə irişdi ***kondadır*** yar.(Xət.) ***Ol*** gülşənə yetdi ***kondadır*** yar.(Xət.) ***Bir*** feyzi-nəzər mənə rəfiq et ***Kalayişi-ixtilafdan*** pak. (Füz.)

Bu misallarda ***kondadır, kalayişi*** sözləri ***ki ondadır, ki alayişi*** kimi nəzərdə tutulur.

Bu cəhətə Məsihinin dilində də rast gəlmək olur: Gəzməkdə yetişdi rahi-Vərqa ***Ol*** çadıra ***konda*** idi Gülşa.(Məs.)

Füzulinin «Leyli və Məcnun» məsnəvisində bütün təyin budaq cümlələri, demək olar ki, analitik tipə aiddir, budaq cümlə baş cümləyə

kim və ***ki*** bağlayıcıları ilə bağlanmışdır. Baş cümlədə az hallarda qəlib söz kimi ***ol*** sözü işlənmişdir, əksər cümlələrdə ***bir*** sözü vardır.

Qurbaninin dilində də analitik tip əsasdır. İntonpsiya və ***ki*** bağlayıcılı cümlələrin baş cümləsində ***o*** sözü qəlib söz kimi işlənmişdir:

Xoş ***o*** kimsəyə ***ki*** yata yuxuda
Cəbrayıl üstünə gətirə nida. (Qurbani)

XVII əsr ədəbi dilində də analitik təyin budaq cümlələri aparıcıdır. Arxaik elementlərə üstünlük verən Məsihinin dilində ***kim*** və ***ki*** bağlayıcıları bərabər işlənmişdir:

Uçduqda yetişdi bürci-yarə ***Kim***, anda idi o mahparə.(Məs.) Məşhur əkabirü əhali Bir bəzmə ***ki*** etdi anda bünyad ***Kim,*** görməmiş ani adəmizad.(Məs.) Bu könül bir qətrədir ***kim,*** onda dərya gizlənir. (Qövsi)

İkinci misalın baş cümləsində ***ki*** ədatının işlənməsini üslubi qüsur da saymaq olar, bağlayıcı sözlü cümlələrlə bağlayıcılı cümlələrin hələ də ilkin arxaik qarışıq formasının saxlanması kimi də dərk etmək olar.

Məsihinin dilində ***ki*** bağlayıcısı məqamında ***ta*** bağlayıcısının işləndiyi hala da rast gəlmək olur: Bir şərt edərəm sizə nihani, ***Ta*** gəlməgimin ola nişani.(Məs.)

M.P.Vaqifin dilindəki əksər təyin budaq cümlələri analitik tipə aiddir və budaq cümlələrin baş cümləyə bağlanmasında artıq ***ki*** bağlayıcısının üstün mövqeyi aydın görünməkdədir. Lakin baş cümlədə budaq cümlənin qəlibi kimi ***ol*** sözü fəaldır: Afəti-bəla-fənadən dağıla, bərbad ola ***Ol*** bina ***ki***, onda bir zülfi-pərişan olmaya. (Vaqif) Həyatı baqidir ***ol*** kimsənin ***ki***, niknam olsun. (Vaqif)

Baş cümlədə qəlib söz kimi ***bir*** sözü işləkdir, lakin müasir dilə daha uyğun tərzdə artıq ***belə bir*** qəlib sözü də vardır: Sən deyilsən ***belə bir*** şey ***ki***, çıxasan üzə sən. (Vaqif) Bulmadım ***bir*** dost ***ki***, ondan bir ədavət görmədim. (Vaqif) Afəti-dəhr dəyər ***ol*** kəsə ***kim***, kamildir. (Vaqif)

M.P.Vaqifin dilində ***kim*** bağlayıcı sözü ***ki*** ədatı ilə yanaşı elə işlənmişdir ki, həm bağlayıcı söz, həm də asemantik ***kim*** bağlayıcısı kimi dərk oluna bilir:

Nə səfa ***ol*** gül yanaqdan ***ki***, gözə görünməyə.
Nə ləzzət ***ol*** qönçə ləbdən ***kim ki*** xəndan olmaya? (Vaqif)

Beləliklə, biz «Kitabi-Dədə Qorqud»dan XVIII əsrə qədərki (bu əsr də daxil olmaqla) mümkün olan poeziya nümunələri əsasında təyin budaq cümləsini zəngin nümunələr əsasında nəzərdən keçirdik. Aydın olur ki, təyin budaq cümləsinin hər iki quruluş modeli çox qədim dövrlərdən təşəkkül tapmışdır.

ZƏRFLİK BUDAQ CÜMLƏLƏRİ

TƏRZ BUDAQ CÜMLƏSİ

«Kitabi-Dədə Qorqud»un dilində budaq cümlənin bu növünün bağlayıcı sözlü tipi yox dərəcəsindədir. Nümunə kimi göstərdiyimiz misal da mübahisəli görünə bilər: *...**necə** məsləhət görərlərsə, ana görə iş edəlim.* (55) Baş cümlədəki qarşılıq bildirən ***ana görə*** sözləri *o cür* mənasındadır.

Budaq cümlənin analitik tipi müasir səviyyədə işləkdir - budaq cümlə baş cümlədən sonra gələrək ona ***kim*** bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə ***eylə, şöylə*** qəlib sözləri işlənmiş və budaq cümlə vasitəsilə izah edilmişdir. Budaq cümlələr nəticə çalarına malikdir:

*Buğanın alnına bir yumruq **eylə** urdı kim, buğayı göti üzərinə çökürdi*.(88) *Aslanın alnın gözədüb bir yumruq **eylə** urdı kim, yumruq çənəsinə toqundu, ovatdı*. (89) *Sügüligi Dəpəgözün gözinə **eylə** basdı kim, Dəpəgözün gözi həlak oldı. **Şöylə** çalayım səni mağara divarına kim, quyruğın mağarayı yağlasun*. (101) ***Şöylə** çalayım ki, künbədlə tartağan olasan*. (101) ***Eylə** qaxdı kim, künbəd zirü zəbər oldı.* (102)

Budaq cümlələrin bir qismi müqayisə çalarına malikdir: *Qız bir oxla Qanturalıyı atdı **şöylə kim**, başında olan bit ayağına endi*.(93) *Hasar qapusına girmişkən qara polad uz qılıcı ənsəsinə **eylə** çaldı kim, başı tob kibi yerə düşdi*. (96)

Təbii ki, birinci misaldakı ***atdı şöylə kim*** sözlərində qəlib sözü və bağlayıcını müasir dil səviyyəsində nizama salmaq da olar: ***şöylə atdı kim.***

I tip. «Dədə Qorqud»dan sonrakı abidələrin dili üçün də bağlayıcı sözlü tərz budaq cümlələri o qədər işlək deyildir. Daha zəngin dil materialını əhatə edən Qazi Bürhanəddinin dilində bu tip budaq cümlələr nisbətən az işlənmiş və budaq cümlə baş cümlədən əvvəl gələrək ona ***necə, necə ki, netə//nitə,*** bəzən də ***şöylə*** bağlayıcı sözləri və ***isə*** köməkçi sözü ilə bağlanmışdır; məsələn: Qəmzən oxı yarasını canımda gizlərəm, *Sən **necə ki** gərək **isə***, anı cəhana yay.(QB)

Bu misalın baş cümləsində (*anı cəhana yay*) qarşılıq bildirən söz olmasa da, artırmaq olar: *anı cəhana **eylə** yay.* Lakin bu cür cümlələrin baş cümləsində, az hallarda olsa da, qarşılıq bildirən sözə də rast gəlmək olur; məsələn: Nigar bizüm ilə ***necə*** bir qılur nazı, ***Necə*** əsir edə kəklik cəhanda şahbazı. (QB)

Misaldan göründüyü kimi, cümlədə komponentlərin yeri dəyişmişdir (əvvəl baş cümlə, sonra budaq cümlə işlənmişdir) və hələ bağlayıcı sözlə qarşılıq bildirən söz də o qədər fərqlənmir.

Əsas model bu cürdür və formalaşıb. Lakin Qazi Bürhanəddinin, Nəsiminin, «Mehri və Vəfa»nın dil faktları göstərir ki, hələ elə mərhələdir ki, tərz budaq cümləsinin analitik tipi ilə analitik-sintetik tipinin o qədər də fərqlənmədiyi hallar var. Qazi Bürhanəddindən verdiyimiz aşağıdakı misallara diqqət yetirək:

Şəha, şahin gözün könlümi alur, ***Necə ki*** bəhrilər alur oxları. (QB) Şəha, hüsn ilə səni həq irürmiş qayətə, leykin ***Netə ki*** cud ilə irmiş cəhanda Hatəmi-Tayı. (QB) Qaşları peyvəstə əgri bulınur öz əhdinə ***Necə ki*** bağlamışam bən anlara canumı çin. (QB) Təşnədür qəddüm sənün bənüm yürəgüm qanına, ***Şöylə ki*** düşmən yürəginə bu nizə təşnədür. (QB) Qulluğa canum yasanur ***necə*** zülfün yasanur, Zülfünün bəndində bəni sən usana sanasın. (QB) Səməndər oldı könül eşqün odı dənizinə, ***Nitə ki*** yaş dənizinə bu gözüm oldı səmək (QB) və s.

Bu misallarda ***necə ki, netə ki, şöylə ki, nitə ki*** bağlayıcı sözlü ikinci tərkib hissələr budaq cümlədir. Baş cümlə əvvəl işlənmişdir. O zaman belə düşünmək olar ki, bu cümlələrin tərkib hissələri inversiyaya uğramışdır. Lakin bu cümlələri asanlıqla analitik tip şəklində də təsəvvür etmək mümkündür: *Şəha, şahin gözün könlümi (öylə) alur,* ***Necə ki*** *bəhrilər oxları alur;* ***Necə ki*** *bəhrilər oxları alur, Şəha, şahin gözün könlümi (öylə) alur.*

Bu cür cümlələrə Əlinin «Qisseyi-Yusif» əsərində də rast gəlmək olur: ***Netə*** Yəqub ol Yusifi sevər idi, Yusif Yəqub uyluqında birər idi. (QY)

«Mehri və Vəfa» məsnəvisinin dilində də bağlayıcı sözlü bu cür tərz budaq cümlələri müşahidə olunur. Budaq cümlə baş cümləyə ***netə kim*** bağlayıcı sözünün köməyi ilə bağlanmışdır: Keçdi Vəfa taxta oturdu rəvan, Hökm edirdi ***netə kim*** Nuşirəvan. (MV)

Nəsiminin dilində tərz budaq cümləli tabeli mürəkkəb cümlələr məhdud şəkildə müşahidə olunur. Lakin bu o demək deyildir ki, Nəsimi dövründə bu cür budaq cümlələr az inkişaf etmişdir. Bu baxımdan aşağıdakı fikir özünü doğrultmur: «Belə düşünmək olar ki, nəsr dili sahəsi ilə, həm də obrazlı ifadələr üçün münasib olan belə cümlələr inkişafı nöqteyi-nəzərindən daha sonrakı dövrlərdə geniş yayılmışdır; çünki bir sıra yeni janrların (o cümlədən hekayə, povest, roman və s.) XIX əsrin ikinci yarısından inkişafı tərzi-hərəkət budaq cümləli tabeli mürəkkəb cümlələrin də inkişafına kömək etmişdir»[1]. Dil faktının bol və ya məhdud işlənməsi qrammatik quruluşun inkişafı ilə də bağlıdır, lakin bir çox hallarda məsələ şairin, yazıçının üslubundan, onun daha çox vərdiş etdiyi vasitələrdən asılı olur. Normal bir nümunənin olması strukturun nəzərdə tutulan dövrdə artıq mövacud olduğunu göstərir. Bu cəhət dövrün başqa

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi sintaksisi.Bakı,«Maarif», 1968, s.162.

sənət abidələrinin - «Mehri və Vəfa», «Dastani-Əhməd Hərami» məsnəvilərinin, Qazi Bürhanəddin poeziyasının verdiyi faktlarlarla da təsdiq olunur.

Bu baxımdan Nəsiminin aşağıdakı misraları da təminedicidir: Cövrünə səbrü təhəmmül eyləgil müşriklərin, ***Necə kim*** gördü Rəsul ilə Əliyyül-Mürtəza. (Nəs.) Taətin fövt etmə şeytan gərçe yüz nur göstərir, Qiblədən döndərmə üzün, ***necə kim*** Zeynal-iba.(Nəs.) Gəl Əli, Musa, Riza kimi həqqin əmrini tut, ***Necə kim*** həqdən gəlir canü könüldən çun riza. (Nəs.) Susadım vəslinə irməkliyə, ey cani-siyah, ***Nitə kim*** Yusifə Yəqub ilə Kənan susadı. (Nəs.)

Misallar göstərir ki, bağlayıcı vasitələrə görə Nəsiminin tərz budaq cümlələri Qazi Bürhanəddinin cümlələrinə daha yaxındır.

Məsihinin dilində bu cür cümlələrdə ***necə ki*** bağlayıcı sözü məqamında ***eylə ki*** bağlayıcı sözü işlənmişdir:

Eylədi gözdən nihan öznü o mahi-xərgəhi,
Eylə kim zülmətdə məva abi-heyvan eylədi. (Məs.)

Bu cür hallara baxmayaraq, artıq XVI əsrdə - Qurbaninin şeirlərində tərz budaq cümləsinin bağlayıcı sözlə bağlanan tipi baş cümlədə qəlib sözün işlənməsi ilə tam normal və müasir şəkildədir:

Sən olasan səni şahi-Xorasan,
Necə ki görərsən, ***öylə*** deyərsən. (Qurbani)

Qurbaninin qoşmalarında yalnız intonasiya ilə (bağlayıcı sözün və korrelyatın olmadığı) cümlələr də sadə danışıq dili norması kimi mövcuddur; məs.:

Ver içəyim, yar, əlindən badə sən,
Ərəstun içirdi loğmana, Pəri.(Qurbani)

Burada ikinci misranın əvvəlinə asanlıqla ***necə ki*** bağlayıcı sözünü artırmaq mümkündür.

«Şəhriyar» dastanında da tam müasir formaya rast gəlirik: ***Necə*** bizə layiqdür, sənin işin ***elə*** əmələ gəlür, xatircəm ol. («Şəhriyar») Gərək ***necə*** biz, vəzir də sərəfraz ola. («Şəhriyar»)

II tip.Analitik tərz budaq cümləsi normal inkişaf yolu keçmişdir. «Dədə Qorqud»un dilində olduğu kimi, tərz budaq cümləsinin analitik tipi «Dastani-Əhməd Hərami»nin dili üçün də səciyyəvidir. Burada tərz budaq cümləsinə aid nümunələr nisbətən az olsa da, mövcud nümunədən

görünür ki, budaq cümlənin bu növü tam müasir şəkildə formalaşmışdır. Müqayisə bildirən tərz budaq cümləsinin baş cümləsində *eylə* qəlib sözü, budaq cümlədə ***sanasan kim*** modal sözü işlənmişdir:

Həyasından qızardı, ***eylə*** tərlər,
Sanasan kim gülə düzüldü dürlər. (DƏH)

«Mehri və Vəfa» məsnəvisinin dilində tərz budaq cümləsinin analitik tipi daha işləkdir. Baş cümlədə qəlib söz kimi ***şöylə, öylə, eylə*** sözləri işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə, ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır.

İntonasiya ilə: ***Eylə*** *getdi, kimsə irməz gərdinə.* (MV)

Belə cümlələrdə müqayisə məzmunu güclüdür, müqayisə və obrazlılıqla bağlı olaraq, budaq cümlələrdə ***sanasan, sanki*** modal sözləri işləndiyi üçün baş cümlələrdə qəlib sözə ehtiyac olmayıb:

İki yar bir-birinə bulaşdılar,
Sanasan ay ilə gün qovuşdular.(MV)
Çəkdi Vəfa Mehri aldı yanına,
Sanki yüz bin can qarışdı canına. (MV)

Sanasan, sanki modal sözlərinə müvafiq şəkildə budaq cümlədə ***şöylə kim*** modal sözü də işlənmişdir:

Çün anı eşidib Mehri ağladjı
Şöylə kim şahın cigərin dağladı. (MV)

Şöylə kim sözləri ***elə bil*** məqamında da işlənmişdir:

Uyqu basdı, ikisi də yatdılar,
Şöylə ki balı şəkərə qatdılar. (MV)

Qəlib söz kimi çıxış edən ***öylə*** sözü nəzmin tələbləri ilə əlaqədar bəzən budaq cümlənin əvvəlinə düşmüşdür:

Qorkumdan bir ata binür qaçaram,
Öylə sanki bir quş oldum uçaram. (MV)

İsmi xəbərlə bağlı tərz zərflikləri də mümkündür ki, məsnəvidə *Ağzı həqqədür,* ***sanasan*** *rəsmi simi* (MV) - tipli cümlələr də işlənmişdir.

Qazi Bürhanəddinin, Suli Fəqihin dilində tərz budaq cümləsi baş cümləyə ***ki*** və ***kim*** bağlayıcıları ilə bağlanmış, baş cümlədə ***böylə, şöylə***

qəlib sözləri işlənmişdir; məsələn: *Gözümüz **şöylə** qərq oldı ki, bulmazuz gözümüzi.*(QB) ***Şöylə*** düşdü Züleyxa ayağdan yerə ***Kim,*** unutdu kənd-özini biçarə. (Suli)

Qəlib sözlər daha çox bağlayıcıya yaxın mövqedə – baş cümlənin sonunda özünü göstərir; məsələn: Düşeyim oduna bən, sən dəxi qıl bəni qəbul ***Şöylə ki*** yaz gecəsi şəmünə pərvanə düşər. (QB) Nigarına nə halətdür ki, bilməzüz özümüzi, Bazı ilə gözləri qılur seydi-dilü can ***Şöylə ki*** kişi avlayımaz baz ilə dəxi (QB) və s.

Qeyd edilən misallardan birincisində nəticə, sonrakılarda müqayisə çaları vardır.

Müqayisə bildirən tərz budaq cümlələrinin bir qisminin baş cümləsində qəlib söz işlənmədiyindən baş və budaq cümlənin əlaqəsi zəifdir. Əlaqə yalnız budaq cümlədəki ***sanasan ki*** modal sözünün vasitəsilə yaranmışdır: *Sənün eşqin bəni yaxdı **sanasın** **Ki** bir od salı verdün bir qamışa*. (QB) Hammamda nə şeir ki deyilə tər düşər, *Zira axar suya, **sanasın ki**, şəkər düşər.* (QB) Bu cümlələrə ***elə, eylə, şöylə*** sözlərini artırmaq da olar: *Sənin eşqin bəni **elə** yaxdı, **sanasan ki…***

Şah İsmayıl Xətai *necə ki* mənasına müvafiq şəkildə ***çün*** sözündən istifadə etmişdir:

Güllər vərəqinə doldu şəbnəm,

Çün bərgeyi-hovzi-abi-zəmzəm.(Xət.)

Qurbani intonasiya ilə qurulan cümlələrdən istifadə etmiş, qəlib söz kimi, canlı dilin əlaməti olaraq ***elə*** sözünü işlətmişdir: Mən ona ***elə*** müştaqam, ***Necə*** bülbül gülə, gülə. (Qurbani)

Qazidən başlayaraq tərz budaq cümləsinin ***necə ki*** bağlayıcı sözü ilə işlək forması sonrakı dövrlərdə də davam etmişdir: Çoxdur həvəs ərbabi, vəli aşiqi-sadiq Azdır, ***necə kim*** nəğmeyi-tər çox, əsər azdır. (Qövsi) ***Necə ki*** görürsən özün filməsəl, Camalındır cahan içrə bibədəl. (Vaqif) Şami-qəm şadlıq əyyamına xoş ziyvərdir, ***Necə kim*** xali-siyəh arizi-cananə düşər. (Vaqif)

Təbii ki, bir sıra budaq cümlələrlə müqayisədə tərz budaq cümləsi dildə nisbətən az işlənir və tarixən də belə olmuşdur.

DƏRƏCƏ BUDAQ CÜMLƏSİ

Dərəcə budaq cümləsi də nisbətən az işlənən, tərz və kəmiyyət budaq cümlələrinə yaxın olan budaq cümlə növüdür. «Kitabi-Dədə Qorqud»un dilində az görünür. Lakin ümumən müasir modeldə mövcuddur:

Əzrayilin gözini ***elə*** qorxutdum ki, gen qapuyı qodı, tar bacadan çıxdı. (80) - cümləsində ***elə*** sözü *o dərəcədə* mənasını ifadə edən qəlib söz kimi işlənmişdir.

Əvvəlki dövr abidələrinin dilində əlamətin dərəcəsini bildirən belə budaq cümlələrin baş cümlədə yerliyi ***öylə*** və ***şöylə*** sözləridir:

Şöylə qızlıq (qıtlıq) oldu ***kim***, xəlqi ütər. (Suli)
Öylə xubdur, hüsn içində misli yok. (MV)
Dəxi girdi içəri, gördi bir saray,
Şöylə rövşəndir, sanasan kim, bir ay.(MV)

Göründüyü kimi, ***o dərəcə*** məqamında ***şöylə, öylə*** sözləri əlamət bildirən sözlərlə birgə işlənmişdir: ***şöylə*** qızlıq oldu, ***öylə*** xubdur, ***şöylə*** rövşəndir.

Müasir dilimizdə olduğu kimi, dərəcə budaq cümləsinin abidələrdə yalnız analitik tipi işlənmiş və budaq cümlə baş cümləyə intonasiya və ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Tərz budaq cümləsi kimi, dərəcə budaq cümlələri də nəticə və müqayisə çalarına malikdir.

Nəticə çalarlı dərəcə budaq cümləsinin baş cümlədə feli xəbərə aid olduğu hallar da var.. Baş cümlədə ***o dərəcə*** mənasında ***o qədər*** qəlib sözü işlənmişdir: ***Ol qədər*** getdi ki, Vəfa görmədi.(MV)

Qazi Bürhanəddinin dilində dərəcə budaq cümləsi baş cümləyə daha çox ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Budaq cümlənin baş cümlədə qəlibi kimi ***bu qədər*** və dilimizdə arxaikləşmiş ***şöylə*** sözləri işlənmişdir; məs.: Dür dökər gözlərüm, nigara, dişinçün, ***Bu qədər*** *eybi var ki,* düzümə gəlməz. (QB) ***Şöylə*** *boyadı yüzümi ay yüzünün xəyalı ki,* Ayağumuza baş qoya, görür isə xəzan bizüm. (QB) *Könül həvan ilə* ***şöylə*** *səfa bulupdur ki,* Xəcil ola anı görürsə camı Cəmşidün (QB) və s.

Nəsiminin dilində əsas qəlib sözlər ***şol qədər*** və ***şöylə*** sözləridir. Budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanmışdır. Lakin əksərən şair ***kim*** bağlayıcısından istifadə etmişdir; məs.:

Şəha, lələn şərabindən Nəsimi ***şoylə*** sərxoşdur, Olubdur valehü heyran, diləməz abi-ənguri. (Nəs.) ***Şol qədər*** safidir ləbin eyni ***Kim***, anın abinə zülal irəməz. (Nəs.) Qaşların ***şoylə*** mötədildir ***kim***, Etidalinə etidal irəməz. (Nəs.) Batinə kar eylədi eşqi-rüxün ***şoylə kim***, Tənə urar altunun rənginə rüxsarımız. (Nəs.) Vardı oturdi İbn Yamin qatinə ***Şol qədər kim***, döndi toni toninə. (Suli)

Füzulinin yaradıcılığında budaq cümlələri baş cümləyə bağlayan vasitələr, yəni baş cümlədə budaq cümlənin yerliyi genişlənir, çoxalır. Füzuli qəlib söz kimi ***öylə*** sözü ilə yanaşı, ***ol rütbədə, ol məqamə, ol qədər, bir qayətə, ol növ*** sözlərini də baş cümlədə ***o dərəcə*** mənasında işlətmişdir. Budaq cümlə baş cümləyə əksərən ***kim,*** bəzən ***ki*** bağlayıcısı ilə bağlanmışdır.

Baş cümlədə ***ol rütbədə*** sözləri: ***Ol rütbədə*** qədri-nəzmdir dun ***Kim***, küfr oxunur kəlami-mövzun. (Füz.)

Baş cümlədə ***ol məqamə*** sözləri: Heyranlığı ***ol məqamə*** yetdi ***Kim***, düşdü ayaqdan, usu getdi. (Füz.) Zəfi-təni ***ol məqamə*** yetdi ***Kim***, bəstər içində cismi itdi.(Füz.)

Baş cümlədə ***öylə*** sözü: ***Öylə*** zəif qıl tənimi firqətində ***kim,*** Vəslinə mümkün ola yetirmək səba məni! (Füz.) Olmuşdu bəşərdən ***öylə*** bizar ***Kim***, öz əksin sanırdı əğyar.(Füz.) ***Öylə*** sərməstəm ***ki***, idrak etməzəm dünya nədir.(Füz.) Rəqib çün gəlir ol kuyidən, əcəbdir kim, Tutulmuş ***öylə kim***, ağzını zülfüqar açmaz. (Qövsi)

Baş cümlədə ***ol qədər*** sözləri: Dərdin mənə ruzi ***ol qədər*** qıl ***Kim***, kimsəyə ol olub müyəssər, Kimsə mənə olmaya bərabər! (Füz.)

Baş cümlədə ***bir qayətə*** sözləri: ***Bir qayətə*** yetdi zəfi-cismi ***Kim***, peykəri nəqşi-bəstər oldu. (Füz.)

Baş cümlədə ***ol növ*** sözləri: ***Ol növ*** idi zülməti-şəbi-tar *Kim*, olmadı sariban xəbərdar.(Füz.)

Bu bağlayıcı sözlərin, demək olar ki, hamısı müəyyən fonetik səlisləşmə ilə hazırki canlı danışıq dilində işlənməkdədir.

Məsihi də ***o dərəcə*** sözlərinə daha yaxın olan ***ol qədər*** qəlib sözündən istifadə etmişdir: Yoxdur mənə dəxi ***ol qədər*** mal, Ta kim düzəyim zərurəti-hal. (Məs.)

Misallar göstərir ki, dərəcə budaq cümləsinin modeli qədimdən təşəkkül tapmışdır.

ZAMAN BUDAQ CÜMLƏSİ

Müasir ədəbi dilimizdə olduğu kimi, budaq cümlənin bu növünün bağlayıcı sözlə baş cümləyə bağlanan tipi «Kitabi-Dədə Qorqud»un dilində daha işləkdir. Budaq cümlə baş cümlədən əvvəl gələrək ona ***necə kim, qaçan, qaçan kim, ol vəqt kim*** bağlayıcı sözləri ilə bağlanmışdır. Müasir ədəbi dilimizdə ***ki*** ədatı ilə ***-sa,-sə*** şəkilçisi növbələşdiyi halda, dastanların dilində əksərən bağlayıcı sözdə ***kim*** ədatı, xəbərdə -sa,-sə işlənmişdir; məs.: ***Qaçan kim*** Budaq ***atsa***, Beyrək "Əlün var olsun!" dedi. Uruz ***atsa***, "Əlün var olsun!" deyirdi. (63) Al ayğır ***qaçan kim*** yağı qoxusın ***alsa***, ayağın yerə dögərdi, tozı gögə çıqardı. (107)

Kim ədatının və ya ***sa,-sə*** şəkilçisinin işlənmədiyi, növbələşdiyi hallar da mümkündür: Bayındır xanın divanına ***qaçan istəsə***, varır-gəlürdi. (110) ***Qaçan*** Qazan evin ***yağmalatsa***, həlalının əlin alur, tışra çıqar, ***andan*** yağma edərdi. (123) ***Necə kim*** bu düşi gördüm, ***şundan bərü*** əqlim-huşum dərə bilmən. Mərə Qılbaş, ***ol vəqt kim*** Üç, Boz oq yığnaq ***olsa***, ***ol vəqt*** Qazan evin yağma edərdi. (123)

Əvvəlki iki cümlədə bağlayıcı söz və ***-sa,-sə*** şəkilçisi, üçüncü cümlədə bağlayıcı söz və ***kim*** ədatı, son misalda isə həm bağlayıcı söz,

həm ***kim*** ədatı, həm də ***–sa, -sə*** şəkilçisi işlənmişdir. Son variant müasir dil baxımından arxaik sayıla bilər, artıq norma hesab olunmur.

Göründüyü kimi, sonrakı cümlələrin baş cümləsində qarşılıq bildirən ***andan, şundan bərü, ol vəqt*** sözləri də işlənmişdir.

Keçən tarixi dövr ərzində bağlayıcı sözlər də, qarşılıq bildirənlər də fonetik dəyişikliyə uğramışdır. İndi zaman budaq cümləsində ***necə ki*** yox, ***neçə ki*** bağlayıcı sözü işlənir. ***Qaçan, ol, andan, şundan*** sözləri isə fonetik dəyişikliklə ***haçan, o, ondan, bundan*** şəklində işlənir.

Zaman budaq cümləsinin müasir ədəbi dilimizdə özünü göstərən "budaq cümlə + baş cümlə" quruluşlu ***ki*** bağlayıcılı tipi də formalaşma tarixinin qədimliyi ilə diqqəti cəlb edir. Hiss olunur ki, zaman budaq cümləsinin bu modeli daha qədimlərdən normalaşmışdır; məs.: Qapu eşigi üzərindən arqurı qomışlardı ***ki, bu məhəldə*** xan Qazan yetdi. (74) Dastanın dilində bu formanın ***ki*** bağlayıcısız növü də müşahidə olunur: Üç günə varmasun, allah sevindirsün sizi! (62) – Üç günə varmamış, allah sevindirsin sizi.

Sonrakı abidələrdə də belə cümlələrə rast gəlirik. Bu cür zaman budaq cümlələrinin quruluşca mürəkkəb olduğu da müşahidə olunur:

Başın çıxardı ***ki,*** baxaydı andan, Boğazından çalar ol güli-xəndan. (DƏH) Əl urdu ***ki***, çöhrəsin edə pak, Ol şiyftə açdı çeşmi-pürnəm. (Füz.)

Əl urdu ***ki****, çöhrəsin edə pak-* budaq cümlədir, lakin məqsəd budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Sadələşdirsək: ***Çöhrəsini pak etmək üçün əl vuranda*** Ol şiyftə açdı çeşmi-pürnəm – şəklində olacaqdır.

Zaman budaq cümləsinin bu növü dilimizdə geniş şəkildə işlənməkdədir.

I tip. Zaman budaq cümləsinin «budaq cümlə + baş cümlə» quruluş tipi tarixən də dilimizdə çox işlənmiş və zəngin bağlayıcı vasitələrə malik olmuşdur. Budaq cümlə baş cümləyə müxtəlif vasitələrlə – bağlayıcı sözlər, ***kim*** və ***ki*** ədatları, ***kim*** və ***ki*** bağlayıcıları, intonasiya və s. ilə bağlanmışdır.

XIII-XIV əsrlərin ədəbi dilində bağlayıcı sözlə baş cümləyə bağlanan zaman budaq cümlələri daha çox nəzəri cəlb edir. Bu dövrdə budaq cümlə baş cümləyə aşağıdakı bağlayıcı sözlərlə bağlanmışdır.

1.Qaçan bağlayıcı sözü ilə: ***Qaçan*** yoldaşları qızı gördülər, Qamusu qorxuban candan keçdilər.(DƏH)

Müasirliyə doğru inkişaf prosesində ədatın və şəkilçinin işlənmədiyi belə cümlələr iki cəhətdən maraqlıdır. Yalnız bağlayıcı sözlə baş cümləyə bağlanan belə budaq cümlələr həm ilkindir, həm də son nəticədir, yəni bu ilk forma tədricən ədat və şəkilçi ilə zənginləşsə də, son nəticədə tədricən onlardan xilas olub yüngülləşməkdədir. Bu son nəticə

tələffüz vaxtına qənaətlə əlaqədardır və budaq cümlənin baş cümləyə həm də intonasiyanın köməyi ilə bağlanmasından irəli gəlir.

Qaçan bağlayıcı sözü «Dastani-Əhməd Hərami»nin, «Mehri və Vəfa»nın dilində daha çox ***kim,*** Qazi Bürhanəddinin dilində ***ki*** ədatı ilə birgə işlənmişdir.

Qaçan kim forması: ***Qaçan kim*** dünün iki bəxşi keçdi, Yerindən durdu ol Əhməd Hərami.(DƏH) ***Qaçan kim*** ol döşək vaxtı olurdu, Dolanırdı ol işə qız gəlirdi.(DƏH) ***Qaçan kim*** ol zəxmli oldı, qaçdı, Neçə dağlar, neçə səhralar aşdı. (DƏH) ***Qaçan kim*** qızı gördü döndü getdi, Yenə yoldaşları qatına yetdi. (MV)

Qaçan ki forması: Bu süffədə ki günəş-ay müzəhhəb etmiş ani, ***Qaçan ki*** olmayasın sən, səvası yox, nedəlüm?! (QB) Səba hikayət edər bülbül cəmalündən ***Qaçan ki*** yırta yaxasını qonça, ol qəş edər (QB) ***Qaçan ki*** sünbüli-zülfün niqabı ayə düşər, Qəmər səhabə girər, afitabə sayə düşər. (Nəs.) ***Qaçan ki*** qətl edəsən, nəfsini oda atasan, İrişə ayəti-ünzür, dönə həyata məmat. (Nəs.)

Bəzən ***ki*** ədatı ilə ***qaçan*** sözü arasına başqa sözlər daxil olmuşdur. Bu hal hələ ədatın bağlayıcı sözlə tam qovuşmadığını göstərir: ***Qaçan*** xurşid ***ki*** məşriqdən göründi, Ulu dağlar qamu nur tac urundi. (DƏH)

Misallar göstərir ki, tədricən normalaşma prosesi gedir. Bağlayıcı söz ***kim*** və ya ***ki*** ədatı ilə birgə işlənirsə, budaq cümlədə ***–sa, -sə*** şəkilçisinə ehtiyac qalmır, ahəng yüngülləşir, artıq elementlər sıradan çıxır.

Lakin bəzən budaq cümlənin xəbərində ***-sa, -sə*** şəkilçisi, ***isə*** köməkçi sözü də işlənmiş və şərt çaları yaratmışdır; məs.: Tapundan birlik umarız ***qaçan ki*** Der ***isən*** yarunam, əğyar olasın. (QB) Yoxsulü bəy ilə aparur başa halini, İlla ***qaçan ki*** səni görür ***isə*** bayilə (QB) və s. Misallarda komponentlərin yeri dəyişmişdir. Bu cür cümlələr Qazi Bürhanəddinin dilində çoxdur. Şairin dilində bu növ zaman budaq cümləli tabeli mürəkkəb cümlənin komponentlərinin inversiyaya uğradığına tez-tez rast gəlmək olur; məs.: Nəşr etsə saçını, qəti təşvişə düşərəm, Cəm ola xatirüm yenə ***qaçan ki*** ləf qıla. (QB) Bindən öndin şikar qılmadı hiç, Qəmzələri ***qaçan ki*** çıxdı ava (QB) və s.

Hər qaçan bağlayıcı sözü və şərt şəkilçisi: ***Hər qaçan*** sultan ***nəzər etsə*** bənə, Ol qədəhi sunam anin əlinə. (Suli)

Netəkim bağlayıcı sözü: ***Netəkim*** ol gecə olurdu halət, Qız ilə olur idi ol hekayət. (DƏH) ***Hər qaçan, netəkim*** sözləri arxaikləşmişdir.

2.Bir gün ki bağlayıcı sözü ilə: Padşah ***bir gün ki*** sayru düşər, Rahətindən rənc ilə ayru düşər, Artdı gündən-günə rənci gördülər, Qəmu bəglər dirilübən gəldilər. (MV)

Sonralar Füzulinin dilində bağlayıcı sözlü zaman budaq cümlələri çoxalmışdır. Şair daha çox ***bir gün ki, ol dəm ki, ol gün ki, hər neçə ki, ol ləhzə ki*** bağlayıcı sözlərindən istifadə etmişdir: ***Bir gün ki*** meyi-sü-

heyl təsir Vermişdi mizaci-pakə təğyir, Həmrəngi-bəhar olub xəzanım, Dönmüşdü əqiqə zəfəranım. (Füz.) ***Ol dəm ki*** bu xakdanə düşdü, Halını bilib fəğanə düşdü.(Füz.) ***Ol gün ki*** rəhimdə kilki-qüdrət İcadıma verdi ziybi-surət, Doldurdu həva ilə dimağım, Sevda ilə bağladı ayağım. (Füz.) ***Ol gün ki*** gözümdə var idi nur, Gözdən üzünü yaşırdın, ey hur! (Füz.) ***Ol dəm ki*** olurdu ruz rövşən, Nəğmə kimi pərdədar olurdu. (Füz.) ***Hər neçə ki*** təndə canı vardır, Namusumuza ziyanı vardır. (Füz.) ***Hər neçə ki*** ona mihmansan, Eyşü tərəbilə kamiransan. (Füz.) ***Hər necə ki*** var idi nigari, Aləmdə idi onun qərari. (Füz.) ***Ol ləhzə ki*** hüşyar olursan, Əlbəttə ki, şərmsar olursan. (Füz.)

Buradakı bağlayıcı sözlərin bəzilərində ***(hər neçə ki***) bir qədər loruluq olsa da, bunlar əsas bağlayıcı vasitələr kimi sonralar da işlənməkdə davam etmişdir; məs.: ***Ol dəm ki*** göründü gözümə şəmi-cəmalın, Yandırdı məni şövq odu pərvanə tək, ey dust! (Vid.)

3.Bəzən budaq cümlə bağlayıcı söz olmadan, ***kim*** və ***ki*** ədatları ilə baş cümləyə bağlanmışdır; məs.: Xəzinəyə bular ***kim*** girdilərdi, Qumaş, altunü aqca aldılardı. (DƏH)

Füzulinin dilində ***ki*** ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümlələri çoxdur və bu ədat ***elə ki*** bağlayıcı sözünün ifadə etdiyi mənaya uyğun məna ifadə edir; məs.: Məcnun ***ki*** eşitdi Leyli adın Sandı ki, fələk verər muradın. (Füz.) Məcnun ***ki*** eşitdi bu xitabı, Verdi bu əda ilə cəvabı.(Füz.) Leyli ***ki*** eşitdi ol sədayi, Bildi eşiyindəki gədayı. (Füz.) Nərgis ***ki*** göz açdı, bağə girdi, Bir baxmağılan özün itirdi. (Füz.)

Qurbanidə müasirlik güclüdür. Şair arxaik formalara fikir verməmiş, intonasiyadan və ***ki*** ədatından daha çox istifadə etmişdir: Əl uzatdım yarın yaxasın açam, Gözümə Gürcüstan narı göründü. (Qurbani) Məhəmməd ***ki*** qədəm basdı meraca, Pişvazinə gəldi mimü lamü kaf. (Qurbani)

Əvvəlki misalın birinci komponentinə ***ki*** ədatını da artırmaq mümkündür. Tərkib hissələr intonasiya ilə əlaqələnmişdir.

Misallardan göründüyü kimi, «Dədə Qorqud»dan sonrakı dövrlərdə tədricən bağlayıcı sözlü cümlələrdə ***–sa,-sə*** işləkliyini azaltmışdır.

Bizə yaxın olan daha sonrakı dövrdə - Məsihinin üslubunda ***ki*** ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümlələri daha böyük üstünlük təşkil edir: Gülşa ***ki*** eşitdi ol məqali, Bildi nədür anənin xiyali. (Məs.) Dayə ***ki*** eşitdi ol məqali, Bər verdi şükufeyi-xəyali. (Məs.) Vərqa ***ki*** eşitdi ol məqali, Bildi nədür atanın xəyali. (Məs.)

Bu misalların hamısında ***ki*** ədatından əvvəl ***elə*** bağlayıcı sözünü işlətmək mümkündür. Bu hal müasir dilə doğru budaq cümlənin daha çox səlisləşməkdə olduğunu göstərir.

Ki ədatı ilə baş cümləyə bağlanan zaman budaq cümlələrində şərt və səbəb çaları da olur. Məsələn: Ağ əlin ***ki*** dəyər o müşki-naba, Bənzər bulut içrə girən mahtaba (Vaqif) – misralarında «ağ əlin ki dəyər» söz-

lərini «ağ əlin dəyəndə», «ağ əlin dəydiyi üçün» və ya «ağ əlin dəysə» kimi də düşünmək olar.

4. Ol zaman kim bağlayıcı sözü ilə: ***Ol zaman kim*** nüh fələk dövrandı, Yəqubun on iki oğlı vardı.(Suli) ***Ol zaman kim*** lütf ilə bir gövhərə qıldın nəzər, Zahir ol gövhərdən oldu cümlə əşya laədəd. (Nəs.)

Sonralar - M.P.Vaqifin dilində ***o*** sözünün müasir dil üçün arxaik *ol* formasını nəzərə almasaq, demək olar ki, müasir ədəbi və canlı danışıq dilində işlənən bağlayıcı sözlər işlənmişdir. Şairin dili bağlayıcı sözlü cümlələrlə zəngindir. Daha çox ***o zaman ki, ol zaman ki, ol gün ki, hər zaman ki, eylə ki, elə ki, neçə ki*** bağlayıcı sözlərindən istifadə etmişdir: ***Ol zaman ki*** aşnalığı tərk etdik, Cüda düşdük, xeyli ciyər bərkitdik. (Vaqif) Surətini çəkdi ***ol gün ki*** nəqqaş, Camalını qıldı hər gözəldən baş.(Vaqif) ***Hər zaman ki*** səndən umdum şəfəqqət, Bir dava başladın, qalmaqal etdin. (Vaqif) ***Hər zaman kim*** ol sənəm gedir qabağımdan mənim, Başadək bir od düşər, yanar ayağımdan mənim.(Vaqif) ***Eylə ki*** görər məni, yaylıq çəkər rüxsarinə.(Vaqif) ***Neçə ki*** dirisən, ölü deyilsən, Padişahsan əgər özünü bilsən.(Vaqif) ***Elə ki*** on beş yaşına gəldi, öz-özünə fikr edüb ki, nə zamanatən mən atamın əlinə baxub, özüm bimərifət qalacağam. («Şəhriyar»)

Bu cür cümlələrdə tərəflərin yeri bəzən dəyişmişdir: Mən canımı qurban sana demişəm, ***Ol zaman ki*** oldu qalü bəla, qız. (Vaqif) Gedərmiş mərdümdən qədrü hörmətlər, ***Elə ki*** şövkətü şan gedər oldu.(Vid.)

5. Nəsiminin dilində müasir dilimizdə işlətdiyimiz ***neçə ki, nə qədər ki*** bağlayıcı sözlərinə yaxın məqamda ***anca (anca kim)*** bağlayıcı sözünə rast gəlmək olur: Müshəfi-hüsnün həqqiçün, ey dilaramım mənim, ***Anca kim*** bu təndə canım var, səndən dönməzəm. (Nəs.)

6.Nəsiminin dili üçün ***ta, ta kim, ta ki*** bağlayıcı sözləri ilə baş cümləyə bağlanan zaman budaq cümlələri daha səciyyəvidir.

Ta bağlayıcı sözü ilə: ***Ta*** üzün şəmindən iraq düşmüşəm pərvanə tək, Yanaram leylü nəhar, ey nurü narım, qandasan? (Nəs.) ***Ta*** bir piyalə verdi, kəbab etdi bağrımı. (Saib)

Ta bağlayıcı sözü və ***kim*** ədatı ilə:***Ta kim*** üzünü görmüşəm, hüsnündə heyran olmuşam. (Nəs.) Qulağı arifin ***ta kim*** Nəsiminin sözün dinlər, Sədəf tək inculər ağzı dollar dür şahivarindən. (Nəs.)

Ta bağlayıcı sözü və ***ki*** ədatı ilə: Nəsimi ***ta ki*** oldu həqqə vasil, Xızrın çeşməsi bolmuş həyatı. (Nəs.) Abi-həyatın zövqünü mən ***ta ki*** sordum, ləblərin İçirmiş ol meydən mana, mən abi-heyvan olmuşam. (Nəs.) ***Ta ki*** xəbər gəldi xublar şuxundan, Əl çəkdim cahanın varü yoxundan. (Vid.)

Bu cümlələrdəki ***ta ki, ta kim*** sözləri müasir dildə işlənən ***elə ki, o vaxtacan ki*** bağlayıcı sözlərinə müvafiqdir. Onu da qeyd etmək olar ki, ***ta*** sözü eyni məqamda danışıq dilində indi də işlənməkdədir.

Bu bağlayıcı sözə Nəsimidən əvvəl Qazi Bürhanəddinin dilində də rast gəlmək olur; məs.: Əziz olmadı ***ta*** çaha düşmədi Yusif, Zənəxdə biz dəxi şaha əsiri-çah olalum. (QB) Bu bağlayıcı sözün rolu barədə Ə.Sadıqov da eyni fikirdə olmuş və yazmışdır: «Yazılı abidələrdə zaman budaq cümləsini baş cümləyə bağlamağa xidmət edən vasitələrdən biri də *ta ki* bağlayıcısıdır. Bu bağlayıcı da çox vaxt budaq cümlədə *«elə ki»* mənasında işlənir və budaq cümlə baş cümlədən əvvəl gəlir»[1].

Canlı danışıq dilinə üstünlük verdiyinə görə qeyd edilən bağlayıcı söz M.P.Vaqifin dilində də geniş yer tutur. Şairin dilində ***ta*** bağlayıcı sözü əksərən ***ki*** ədatı ilə birgə işlənmişdir; məs.: ***Ta*** düşdü mənim başimə sevdası bu zülfün, Zəncir ilə divanələrin çəkdi səfinə.(Vaqif) ***Ta ki*** məni gördü ol qəlbi qara, Çəkdi yaşmağını o gül rüxsara.(Vaqif) ***Ta ki*** gördüm yanağının mən rəngin, Düşmüşəm bir oda, közə, Fatimə! (Vaqif) ***Ta ki*** gördüm camalının şöləsin, Əridi bağrımda tamam yağ, gəlin. (Vaqif) ***Ta ki*** səni gördüm, mum tək əridim. (Vaqif) ***Ta ki*** gördüm, heyran oldum mən sənə. (Vaqif) Taci-zərdən ***ta ki*** ayrıldı dimaği-pürqürur, Payimal oldu təpiklərdə, səri-sərdarə bax! (Vaqif) Qıl körpüdən ***ta ki*** sürçər ayağın, Cəhənnəm xovfindən yarılar yağın.(Vaqif)

Ta bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Ta*** bir piyalə saqiyi-xunxar ***verməsə***, Yüz kasə qan əgər içərəm, qanə bilmənəm. (Qövsi) ***Ta*** mənzilini ***bilməsəm,*** doğrusu, sənə su vermənəm və qoymanam bir yerə gedəsən. («Şəhriyar»)

Ta ki bağlayıcı sözü də şərt çaları yarada bilir:: Vaqif ***ta ki*** dura tamaşasına, Bilməz baxa bəzəyinin hansına. (Vaqif)

*7.*Budaq cümlə baş cümləyə ***necə//neçə, neçə ki*** bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: Əhd etdi ayrulığ ilə bu dəlü könülüm, Ki ***neçə*** ömri var isə, ayrılmaya, bəgüm. Bir söhbəti ki bir nəfəs ol yar ilə keçdi, ***Neçə ki*** ömür var ***isə***, ana qaluruz biz. (QB) Bin səbr ilə bir aşiq ***necə*** var ***isə*** ömri ***Ta*** gəlməyə canına bir cana gəliməz ol (QB) və s.

Son misalda ***kim/ki*** ədatlarından biri olmadığı üçün ***isə*** köməkçi sözündən istifadə edilmişdir.

«Dəhnamə»nin dilində də ***elə ki*** məqamında ***necə kim*** bağlayıcı sözünə rast gəlmək olur: Səndən ***necə kim*** can ayrı düşdi, Tən ya çürüdü, ya sayru düşdi.(Xət.)

8.Budaq cümlə baş cümləyə ***andan ki, andan bəri, andan bərü ki*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Andan bərü ki*** eşqün odına yaxılmışuz, Bazari boz, şəha, bizi bazari sanmağil (QB) ***Andan ki*** saçı gül yüzinə müşk ilə düşdi Miskin könülüm bir qıl ilə müşkilə düşdi.(QB)

---

[1] Ə.Sadıqov.Nəşr edilən klassik ədəbiyyatda durğu işarələrinin işlədilməsi vəziyyəti. «Türkologiya», Bakı, 2000, № 1-4, s.26.

9.Budaq cümlə baş cümləyə ***şundan, şundan bəri*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Şundan bərü ki*** cadu gözün çavın eşitdüm, Əsrük yatıban oynamağı hər dəm iş etdüm. (QB)

10.Budaq cümlə baş cümləyə ***şol dəm, şol ləhzə, şol nəfəs*** və s. bağlayıcı sözlər vasitəsi ilə bağlanmışdır; məs.: ***Şol dəm ki*** qəmzən oxı qıldı dili nişanə Qan axar oldı gözdən bir qətrə ab gəlməz (QB) və s.

Sonralar Xətai bu sıradan çox işlənən bağlayıcı sözlü zaman budaq cümlələrinə daha çox müraciət etməli olmuşdur. Bu bağlayıcı sözlərdə qəlib qalmaqla, ***şol, şu, ol, kim*** sözləri dəyişmişdir. Budaq cümlə baş cümləyə ***şol zaman ki, şu dəmdən kim, ol dəm ki*** bağlayıcı sözləri ilə bağlanmışdır: ***Şol zaman ki*** bətni-ümdə nütfeyi-mədfun idik, Əmri-bari ilə anda pərdəyi-pürxun idik.(Xət.) ***Şu dəmdən kim*** sənin gördüm cəmalın, Giriftar olmuşam yüz min bəlayə. (Xət.) ***Ol dəm ki*** mən ol cəmalı gördüm, Özümdən özümü xali gördüm. (Xət.) ***Ol dəm ki*** bu xakidanə düşdü, Halını bilib fəğanə düşdü.(Füz.)

11.Abidələrin dilində çoxişlənən bağlayıcı sözlərdən biri də ***çün /çun*** sözüdür. «***Çun*** və onun ***çu/çü*** şəkli bütün türk dilləri üçün eyni dərəcədə səciyyəvi deyildir. Qədim türk dili abidələrindən Orxon-Yenisey, qədim Uyğur, Şərqi Türküstan mətnlərinin dilində olmamışdır. Orta əsr özbək dilinə aid yazılarda isə həmin bağlayıcıya rast gəlirik… XIV-XVIII əsrlərin yazı materiallarının dilində işlənən ***çun*** və ***çu/çü*** bağlayıcıları vəzifə etibarilə dəyişməsə də, mənaca xeyli geniş olmuşdur… ***Çün*** bağlayıcısı *o vaxt, o zaman* sözlərinin sinonimii olduğu kimi, müasir dilimizdə ***elə ki*** bağlayıcısı ilə əmələ gələn zaman budaq cümlələrinə də tam uyğun gəlir»[1]. Qeyd etməliyik ki, müəllif bağlayıcı sözlə bağlayıcını fərqləndirməsə də, göstərilən bağlayıcı sözlərin zaman budaq cümləsinə də xidmət etdiyini düzgün müəyyənləşdirmişdir.

Çün (bəzən ***çünun*** şəklində) bağlayıcı sözü müasir dildəki ***elə ki*** bağlayıcı sözünün mənasına müvafiq məna ifadə edir**:** ***Çün*** eşitdi İbn Yamin bu sözü, Ağlarikən tazə oldi gül yüzi. (Suli) ***Çünun*** oyandı, Yusifi bulmadı.(Suli) ***Çün*** günəş toğdi fələklərə, Bir qara bulut gəldi yağmur, nərə.(Suli) İkisi ***çün*** qövlü möhkəm etdilər, Hər birisi bir yanaya getdilər.(MV) ***Çün*** gecə oldu gövhər düşdü suya, Dünya xalqı vardı qamu uyquya. (MV) ***Çün*** nicat qılduq mundan gedərüz, Bir padişah mülkinə əzm edərüz.(MV) Mehri aydır: ***Çün*** Vəfa gəldi bizə, Bənzədi cümlə dünümüz gündüzə. (MV)

Bu cür cümlələrdə bəzən tərkib hissələr inversiyaya uğramışdır: Bağban deyir: Dövlətin xub işlədi, ***Çün*** xatun bizə bunı bağışladı.(MV)

---

[1] H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası,Bakı,1990, s.360-361

Bəzi cümlələrdə durğu işarəsindən düzgün istifadə edilməmişdir, ona görə də cümlənin mənası qarışır. Gördi Mehri Vəfayı ***çün*** qıldı ah. (MV) Tayə Mehri gördü, ***çün*** durdu uru (MV) – cümlələrində vergül, fikrimizcə, ***çün*** sözündən sonra qoyulmalıdır: *Çün Mehri Vəfayı gördü, qıldı ah – elə ki Mehri Vəfanı gördü, ah çəkdi.*

Bəzən ***çün*** sözü ***kim, ki, elə ki*** məqamlarında işlədilmişdir: Yigit ***çün*** bir-bir eşitdi sözini, Həqə ismarladı ol dəm özini.(DƏH) Həramilər ***çün*** ol odu görürlər, Danışıban ol arədə dururlar.(DƏH) Qılınc ilə ***çün*** anı dəxi yıxdı, Sürüdi gögdəsin taşra buraxdı.(DƏH) Keçib ol dün yenə ***çün*** oldu gündüz, Nur ilə doldu aləm yüzü düpdüz. (DƏH) ***Çün*** axşam irişibən gün tolundu, Qamu dağlar başı yavı qılındı. (DƏH) Cavabını anın ***çün*** aldı bunlar, Genə sultan qatına gəldi bunlar. (DƏH) Keçibən ol gecə ***çün*** sübh oldu, Durub Əhməd Hərami şahə gəldi. (DƏH) Keçibən Xoca Rüstəm ***çün*** oturdi, Oxuyuban Güləndamı gətirdi.(DƏH)

XV-XVI əsrlər ədəbiyyatında ***çün*** bağlayıcı sözü fəal şəkildə işlənməkdə davam etmişdir.

Xətainin dilində. Bu söz Xətainin dilində ***elə ki*** bağlayıcı sözünün ifadə etdiyi mənaya müvafiq işlənmişdir: ***Çün*** gördüm onu bu səltənətdə, Öz halətini unutdu könlüm. (Xət.) ***Çün*** yetdi mana, səlam qıldım. (Xət.) ***Çün*** gördü onu Səbayi-miskin, Çəkdi cilovunu oldu ğəmgin.(Xət.) ***Çün*** gördü onun bu halını huş Gəldi mana biqərarü bihuş. (Xət.) ***Çün*** gəldi mənim yanıma yetdi, Sordum ona kim, nigar netdi? (Xət.) Bu sözləri ***çün*** eşitdi guşim, Qalmadı qərarü səbrü huşim. (Xət.)

Bu cümlələrdə ***çün*** sözünü ***elə ki*** sözü ilə əvəz etmək olar: ***Çün*** yetdi mana, səlam qıldım, Öz dərdi-dilim tamam qıldım – ***Elə ki*** yetdi mana, səlam qıldım, Öz dərdi-dilim tamam qıldım.

Bu misalları səbəb budaq cümləsi kimi də izah etmək olardı. Lakin səbəbdən çox zaman mənası vardır. Misallardakı budaq cümlələri səbəb budaq cümləsi kimi götürdükdə budaq cümlənin mənasında bir mexanikilik, kortəbiilik nəzərə çarpır, zaman budaq cümləsi kimi izah etdikdə təbii və şüurlu təhkiyədən söhbət gedir. Məsələn, ***Çün*** gəldi mənim yanıma yetdi, Sordum ona kim, nigar netdi? – cümləsini *Mənim yanıma yetdiyi üçün sordum…* yox, *Mənim yanıma yetəndə sordum…* kimi anlamaq düz olar. Hər halda, ***çün*** sözündə səbəb mənası da vardır.

Eyni xüsusiyyətə Füzulinin dilində də rast gəlirik: ***Çün*** gördü bu halı Zeydi-ğəmnak, Əfqan qılıb etdi yaxasın çak.(Füz.)

Füzulinin dilində ***çün*** sözü ilə yanaşı, ***çü*** sözünün də zaman budaq cümləsini baş cümləyə bağladığını görürük. Məs.: Məcnunə ***çü*** namə oldu vasil, Dür gördü əqiqinə müqabil.(Füz.) Ol pir ***çü*** gördü oğlu halın, Tökdü rüxi-zərdə əşki-alın.(Füz.)

Xətainin dilində də ***elə ki*** bağlayıcı sözü və ya sadəcə ***ki*** ədatı məqamında işlənmiş ***çü*** sözü zaman budaq cümləsini baş cümlə ilə əlaqə-

ləndirmişdir: Ol peyki-Səba ***çü*** mindi atı, Xoş sürdü iradətilə qatı. (Xət.) Yeridi Səba ***çü*** barigahə, Bağladı təvəkkülün ilahə. (Xət.)

Çü bağlayıcı sözü bir qədər sonra da davam etmişdir: Məsihi də ***ki*** ədatı məqamında bəzən ***çü*** sözünə müraciət etmişdir: Vərqa ***çü*** eşitdi ol cəvabi, Birinə yüz oldu iztirabi.(Məs.) Eşitdi ***çü*** ol kəlami ləşgər, Oldu qəmu cəng üçün dilavər. (Məs.)

Çü bağlayıcı sözü ilk dövrlərdən ***elə ki*** mənasında zaman budaq cümlələrinə xidmət etmişdir: ***Çü*** gəldi padişahın həzrətinə, Rəvan sultan süvar oldu atına.(DƏH) ***Çü*** sübh oldu, yerində durdu sultan, Oxudu bəylərini dərdi ol xan.(DƏH) ***Çü*** dügün savulub axıra irdi, Hərami ol gecə gərdəgə girdi.(DƏH)

12. ***Elə ki*** bağlayıcı sözü məqamında ***çünki/çünkim*** bağlayıcı sözlərindən də istifadə edilmişdir: ***Çünki*** Yəqub dinlədi bu sözləri, Ah qıldı, tolə gəldi gözləri.(Suli) Dedi bizə, ***çünki*** Misrə irəsiz, Hər birinüz bir qazudən girəsiz.(Suli) ***Çünki*** vardı bularə, səlam virir.(Suli) Güləndam yüzini ***çünkim*** açardı, Sarayın içinə şölə saçardı. (DƏH) Buyurdu ***çünki*** məmurlar dərildi, Bir ulu köşk içün bünyad uruldu.(DƏH)

Keçən zaman müddətində ***çun/çün*** bağlayıcı sözü tam arxaikləşmiş, ***çünki*** bağlayıcı sözü isə bağlayıcıya çevrilmişdir və müasir dilimizdə yalnız səbəb budaq cümləsini baş cümləyə bağlayır.

13.«Oğuznamə»nin və Suli Fəqihin məsnəvisinin dilində budaq cümlə baş cümləyə daha müasir forma – ***nə vaxt*** bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə də bağlanmışdır: ***Nə vaxt keçərsə*** Yusif, bənə degil. (Suli) Bən ***nə vaxt ölürsəm***, qiyamət ***ol gün*** qopar. (Oğuz.)

14.Şərt çalarlı bir sıra cümlələr lap qədim dövrlərdən baş cümləyə şərt şəkilçisi ilə bağlanmışdır: Ülkər ***düşsə***, qış olur. (Oğuz.)

II tip. Müasir dilimizdə az işləndiyi kimi, abidələrin dilində də zaman budaq cümləsinin analitik tipi nisbətən az işlənmişdir. Buna baxmayaraq, lap ilkin abidələrin dilində də zaman budaq cümləsinin «baş cümlə + budaq cümlə» quruluş tipi mövcuddur.

Analitik tipin həm intonasiya ilə, həm də bağlayıcı ilə baş cümləyə bağlanan növləri qədimdir. «Mehri və Vəfa»nın dilində baş cümlədə qəlib söz kimi ***o vaxta qədər ki*** mənasında ***anca kim*** sözü işlənmişdir: ***Anca kim*** durdum, anın çıkdı canı. (MV**)**

«Mehri və Vəfa»nın dilində zaman budaq cümləsinin bu tipinə rast gəlsək də, əsərin dilində bağlayıcısı sözlü tip daha işləkdir.

İlkin abidələrdən Qazi Bürhanəddinin «Divan»ında, az da olsa, «baş cümlə+budaq cümlə» quruluşlu zaman budaq cümlələri var. Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcı ilə bağlanmışdır. Burada da budaq cümlənin baş cümlədə qəlibi kimi ***anca*** sözü işlənmişdir; məs.: Dilərəm ***anca*** içəm ki, tənümdə var nəfəsüm. (QB)

Şah İsmayıl Xətai də analitik zaman budaq cümlələrindən istifadə etmişdir. Tam müasir səviyyədə baş cümlədə ***onda*** qəlib sözü işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Özümnü yetirdim ***onda*** naçar Ol bağa ***ki,*** bəzm edərdi dildar.(Xət.)

Burada baş cümlədə qəlib söz ***ol*** sözü yox, ***onda*** sözüdür: cümlə «dildar bəzm etdiyi bağa» yox, «dildar bəzm edəndə özümü bağa yetirdim» kimi başa düşülməlidir.

«Şəhriyar» dastanının dilində baş cümlədə ***o zaman*** mənasında ***o halətdə*** qəlib sözü işlənmişdir: Xacəsəra qalxub ***o halətdə*** yetişdi ***ki***, tamam əazimi-Gəncə məsləhətdə var idilər. («Şəhriyar»)

YER BUDAQ CÜMLƏSİ

Budaq cümlənin bu növünün müasir dilimizdə geniş yayılmış "budaq cümlə + baş cümlə" tipinə «Kitabi-Dədə Qorqud»un dilində də rast gəlirik. Budaq cümlə baş cümləyə ***nə yerdə, nerəyə*** bağlayıcı sözləri ilə bağlanmışdır. Budaq cümlənin xəbərində ***-sa,-sə*** şəkilçisi, baş cümlədə qarşılıq bildirən ***anda*** sözü işlənmiş və budaq cümlə baş cümlədəki işin, hərəkət, hadisə və əlamətin yerini bildirmişdir; məs.:

Oxı ***(nə) yerdə düşsə***, ***anda*** gərdək dikərdi.(57) ***Nə yerdə*** enir-qaruşır, toz ***varsa*** və ***nə yerdə*** qarğa-quzğun ***oynarsa, anda*** istəyəlüm. (91)

Bunlar sonrakı ədəbiyyatdan (ədəbi mənbələrdən) asılı olmayaraq, artıq ümumxalq dilinin təşəkkül tapdığı ilkin mərhələdən yer budaq cümləsinin müasir tipinin tam formalaşmış olduğunu göstərən dəqiq faktlardır. Yer budaq cümləsinin müasir modelindən fərqli bir cəhət yoxdur. Keçən müddət ərzində yalnız bağlayıcı və qarşılıq bildirən sözlər arxaik rəngini dəyişmiş və zənginləşmişdir.

Yer budaq cümləsinin eyni quruluş modeli Qazi Bürhanəddinin, Nəsiminin dilində, «Dastani-Əhməd Həramі», «Mehri və Vəfa» məsnəvilərində də özünü göstərir. Bağlayıcı vasitələri aşağıdakılardır:

Qanda bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Qanda getsəvüz***, həm biz də gedəvüz. (MV) ***Qanda baksam***, görürəm hazır səni. (MV)

Bu cümlələrin baş cümləsinə ***anda*** sözünü artırmaq da olar: ***Qanda baksam, anda*** görürəm hazır səni.

Qanda bağlayıcı sözü və arzu şəkilçisi ilə: Get bilə anınla, hər ***qanda gedə.*** (MV)

Belə cümlələrdə tərəflərin inversiyası bağlayıcı vasitələrin verdiyi imkan əsasında daim mümkün olmuşdur.

Qanda bağlayıcı sözü, ***ki*** ədatı və arzu şəkilçisi ilə: Saçun qılı şol belünə degülmi kəmər bəs ***Qanda ki*** lətif ***ola*** çəkər bari-girani. (QB)

Qanda bağlayıcı sözü, ***kim*** ədatı və şərt şəkilçisi ilə: ***Qanda kim baksa***, gülü reyhan gəlür. (MV) ***Qanda kim varsa***, bil, ol könlək, ey yar, İstəyələr bəni ***anda*** bil naçar.(MV)

Qanda bağlayıcı sözü, ***kim*** ədatı və ***isə*** köməkçi sözü ilə: ***Qəndə kim*** dilər ***isə,*** varur idi. (Suli)

«Mehri və Vəfa» məsnəvisindən verdiyimiz misallar göstərir ki, eyni tipli baş cümlədə qarşılıq bildirən söz (***anda*** sözü) işlənə də bilir, işlənməyə də. Bunlar budaq cümlə qəlibinin artıq tam formalaşmış və mücərrədləşmiş olduğunu göstərir.

Füzulinin dilində ***qanda*** sözü danışıq dilinə yaxın səviyyədə – ***hər qanda*** şəklində işlənmiş, şərt şəkilçisinə, ***kim*** və ya ***ki*** ədatına ehtiyac olmamışdır; məs.: ***Hər qanda*** görərdi əhli-təsxir, Divanəsinə dilərdi zəncir.(Füz.) ***Hər qanda*** bilirdi var bir zar, Ənduhü müsibətə giriftar, Cəm edib olurdu əncümənsaz.(Füz.)

Nerədəysən bağlayıcı sözü ilə. Bu söz əslində ***nerədə*** bağlayıcı sözündən, ***isə*** şərt ədatından və 2-ci şəxsin şəxs şəkilçisindən ***(-n)*** ibarətdir. Məs.: ***Nerədəysən***, çələb sənin**lə** rəhbər. (DƏH)

Qazinin dilində yer budaq cümlələri ***hər nerdə, nerdə, nə yerdə, xancaru*** və ***qanda*** bağlayıcı sözləri ilə baş cümləyə bağlanmışdır

Nerdə/nərdə ki bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ayinədə gördi xal, dedi ki, Rum elidür, ***Nerdə ki*** fülfül ***ola***, **(*anda*)** həm ruxü fil vardurur. (QB) ***Nərdə ki*** əshabi-əncüm kibi cəmiyyət ***qıla***, Nöql ağızlarında ər əfvahi-əhbab olsa yeg. (QB)

Hər nerdə bağlayıcı sözü və ***ki*** ədatı ilə: ***Hər nerdə ki*** varlıx var, yoxlığa girmişdür, Sən sanma ki, ağzunda bu dəm fəqət olmuşdur. (QB)

Hər nerəyə bağlayıcı sözü və şərt şəkilçisi ilə. Xətainin dilində yer budaq cümləsinin, arxaik ***nerəyə*** sözünü nəzərə almasaq, normal tipi vardır: budaq cümlə bağlayıcı söz və –***sa,-sə*** şəkilçisi ilə baş cümləyə bağlanmış, baş cümlədə qarşılıq bildirən ***onda*** sözü işlənmişdir: Qadirsən, ey ulu şahim, qadirsən! ***Hər nerəyə baxsan***, ***onda*** hazirsən. (Xət.)

Nə yerdə bağlayıcı sözü və ***kim*** ədatı: ...zülfündə canlarun sağışın kimsənə bilməz, Həzaran can asılmışdur ***nə yerdə kim*** güsuru var. (QB)

Şol yerdə ki bağlayıcı sözü və arzu şəkilçisi ilə: Dökiləli zülfi yüzinə bildi canum kim, ***Şol yerdə ki*** şadılığ ***ola*** həm-həm olısar. (QB)

Qancaru bağlayıcı sözü, ***ki*** və ***isə*** şərt ədatı ilə: Mancınaq oldu həvanü top sanum, ***Qancaru ki*** dilər ***isən***, anı at (QB)

Xancaru bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: ***Xancaru baxarsam,*** sənəma, səni görürəm, Billah, di axı, bu düşə təbir nədür. (QB)

Tərəflərin yerdəyişmə halları «budaq cümlə + baş cümlə» (bağlayıcı sözlü) quruluş tipinin yaratdığı imkanla yanaşı, poeziyanın tələbləri ilə də bağlıdır. Yuxarıdakı cümləni «*Nə yerdə kim güsuru var, (orada) həzaran can asılmışdur*» şəklində də işlətmək mümkündür.

Misallardan göründüyü kimi, şərt şəkilçisinin, şərt ədatının (həmçinin onun ixtisar şəklinin) və şərt şəkilçisi məqamında işlənən arzu şəkilçisinin yer budaq cümləsinin baş cümləyə bağlanmasında mühüm rolu vardır. Bu hal yalnız yer budaq cümləsinə aid deyil, əksər budaq cümlələrə aiddir. N.K.Dmitriyev ***-sa, -sə*** şəkilçisinin yer budaq cümləsinin əmələ gəlməsində rolunu nəzərə alaraq yazmışdır: «Şərt forması xüsusi budaq cümlə tiplərində də işlənir ki, bunlar mahiyyətcə yer budaq cümlələri olsa da, şərt məzmununu da saxlayır»[1]. Bu cəhət yalnız şərt şəkilçisinə deyil, ***isə*** və onun ixtisar şəklinə də aiddir.

Araşdırmalar göstərir ki, komponentləri analitik-sintetik üsulla əlaqələnən yer budaq cümləli tabeli mürəkkəb cümlələr Azərbaycan, qaqauz və türkmən dillərində yayılmışdır[2].

Hər qanda bağlayıcı sözü və ***kim*** ədatı ilə: ***Hər qanda kim*** də`vi var, san ***anda*** yavi var. (Oğuz.)

Hər qanda bağlayıcı sözü**,** ***kim*** ədatı və şərt şəkilçisi ilə: ***Hər qanda kim şərh eyləsəm*** şirin dodağın qəndini, Ərvah uşər sinək kimi ol dadlı şəkkər xəndinə.(Nəs.)

Anda bağlayıcı sözü, ***ki*** ədatı və şərt şəkilçisi ilə: Can təndə qalmaz, ***anda ki görsəm*** cəmalını.(DƏH) Baş cümlədə qarşılıq bildirən sözə ehtiyac olmamışdır.

Qeyd. Cümlədə bir qədər anlaşılmazlıq var. Yəqin ki, yerinə görə bağlayıcı söz kimi verdiyimiz ***anda ki*** sözü ***qanda ki*** olmalı idi.

Xanda bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Xanda çağırsan,*** yetərəm. (Xət.)

Nə yerdə bağlayıcı sözü ilə: ***Nə yerdə*** əkərsən, bitərəm. (Xət.)

Harda bağlayıcı sözü və şərt şəkilçisi ilə: Canan ***harda olsa***, can alar ***anda***. (Qurbani)

Qurbani təbii normal formadan istifadə etmişdir. Lakin artıq söz işlətməmək meyli ilə əlaqədar onun şeirlərində də qarşılıq bildirən sözə meyil azdır.

Xətainin və Qurbaninin əsərlərindən verdiyimiz son misallar göstərir ki, canlı dildə artıq müasir formalar – bağlayıcı sözlər var. Şairlər, əvvəlki misallardan gördüyümüz kimi, çox vaxt ənənəni mühafizə etmiş, arxaik vasitələrə meyil göstərmişlər.

Məlumdur ki, yer budaq cümləsinin baş cümləsində qarşılıq bildirən söz üç halda – yönlük, yerlik və çıxışlıq hallarındja olur. Lakin abi-

---

[1] Н.К.Дмитриев.Грамматика башкирского языка, Изд.АН СССР, М.-Л., 1948, с.269.

[2] Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, 2-ci hissə, Bakı, BSU, 2002, s.140

dələrin dilində qarşılıq bildirən sözlərə yönlük və çıxışlıq hallarında, az təsadüf edilir. Yerlik halda ***anda*** sözünə daha çox rast gələ bilirik.

Füzulinin işlətdiyi cümlələrdə də qarşılıq bildirən söz nəzəri cəlb etmir. ***–sa, -sə*** şəkilçisi də budaq cümlədə fəal deyil. Budaq cümlə bağlayıcı söz və ***kim*** ədatı ilə baş cümləyə bağlanmışdır: ***Hər mənzilə kim*** güzar edərdi, Səhrayı bənəfşəzar edərdi.(Füz.)

M.P.Vaqifin şeirlərində bağlayıcı söz,–***sa,-sə*** şərt şəkilçisi və ***isə*** şərt ədatı üstünlük təşkil edir:

Handa üz tutdum ***isə***, düşdüm elə qal içinə. (Vaqif)
Sallanıb yüz naz ilən hərdən çıxanda xanədən
Hər tərəf baxsa, qırar həm dost, həm biganədən. (Vaqif)

«Şəhriyar» dastanının dilində yer budaq cümləsinin tam müasir normasına rast gəlirik – ***harda ki – orda: Harda ki*** sənin rizan var, biz də ***orda*** varuq. («Şəhriyar»)

Beləliklə, keçən min ilin müddətində yer budaq cümləsini əmələ gətirən vasitələr – bağlayıcı və qarşılıq bildirən sözlər, şərt şəkilçisi, *isə* ***(sa, -sə)*** şərt ədatı, arzu şəkilçisi, ***kim*** və ***ki*** ədatları müəyyən təkmilləşmə yolu keçsə də, budaq cümlənin əsas qurulma modeli daim mövcud olmuşdur. Bu müddət ərzində ***qanda, nerədə, nerdə, şol yerdə, anda, xanda*** kimi bağlayıcı sözlər arxaikləşmiş və ya fonetik şəklini dəyişmişdir. ***Kim*** ədatı köhnəlmiş, şərt şəkilçisi və şərt ədatı qalmış, ***ki*** ədatı və şərt əlamətləri növbəli şəkildə işlənmə xüsusiyyəti qazanmışdır. Əvvəlki dövrlərdən fərqli olaraq, getdikcə baş cümlədə qarşılıq bildirən sözün yeri daha da sabitləşmişdir.

SƏBƏB BUDAQ CÜMLƏSİ

Səbəb budaq cümləsinin hər iki tipi «Kitabi-Dədə Qorqud»un dilində artıq tam normalaşmış halda mövcuddur. “Budaq cümlə + baş cümlə” quruluş tipində budaq cümlə baş cümləyə ‘çün’ bağlayıcı sözü ilə bağlanmışdır:

Çün inayət tənridən oldı, bəgün, paşanın himməti Qanturalıya oldı. (89) ***Çün*** sən Qazana düşmən oldın, biz də düşməniz. (124)

Bu quruluş müasir dilimizdə qalır, yalnız ***çün*** əvəzinə ***ki*** ədatından istifadə olunur: Sən ***ki*** Qazana düşmən oldın, biz də düşməniz

“Baş cümlə + budaq cümlə” quruluş tipində budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə ***anunçun*** qəlib sözü işlənmiş, budaq cümlə vasitəsilə izah edilmişdir:

Oğul, ***anunçun*** yağı deyirlər ***ki,*** biz anlara yetsəvüz, öldürəriz, anlar bizə yetsə, öldürər. (70)

Müasir dilimizdə arxaik olan ***anunçün*** əvəzinə ***ona görə, onun üçün*** qəlib sözləri işlənir.

«Kitabi-Dədə Qorqud»dan sonrakı ədəbiyyatımızda ən çox işlənən tabeli mürəkkəb cümlə növlərindən biri də səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Doğrudur, budaq cümlənin bu növünü intensiv işlənmə imkanlarına görə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrlə müqayisə etmək olmaz, lakin həqiqətdə budaq cümlənin bu növü də ədəbiyyatda geniş yer tutur. Bu hal bədii fikrin dəlillərlə irəliləməsindən asılı olduğu kimi, bağlayıcı vasitələrin imkanları ilə də bağlıdır.

I tip. Səbəb budaq cümləsinin nəzərdə tutduğumuz bağlayıcı sözlü, «budaq cümlə + baş cümlə» quruluş tipi müasir dilimizdə az işlənir[1]. Lakin abidələrin dilində səbəb budaq cümləsini baş cümləyə bağlayan vasitələr çox olduğundan budaq cümlənin bu tipi də intensiv işlənmə imkanları ilə fərqlənir. Bir səbəb də sonralar bağlayıcı kimi tam sabitləşmiş bir sıra vasitələrin əvvəllər klassik ədəbiyyatın dilində həm də bağlayıcı söz kimi işlənməsidir. Bağlayıcı sözlər içərisində arxaikləşənlər də vardır.

Çünki bağlayıcı sözü. Qeyd etdiyimiz kimi, müasir dilimizdə analitik səbəb budaq cümlələri çox işlənir, baş cümlə əvvəl, budaq cümlə sonra gəlir, budaq cümlə baş cümləyə əksərən ***ki*** və ***çünki*** bağlayıcıları ilə bağlanır. ***Ki*** bağlayıcısı aydınlaşdırma yolu ilə əksər analitik mürəkkəb cümlələrə xidmət edir. Lakin ***çünki*** bağlayıcısı birmənalıdır və yalnız səbəb budaq cümlələrini baş cümləyə bağlayır. Klassik ədəbiyyatın dilində də ***çünki*** bağlayıcılı belə çümlələr çoxdur. Müasir dildə yalnız baş və budaq cümlənin arasında işlənir və budaq cümlə ilə birlikdə tələffüz olunur. Lakin abidələrin dilində onun yeri müasir dildə olduğu qədər sabit deyildir. Abidələrin dilində həm də bağlayıcı söz kimi işlənmişdir.

Bu sözə bağlayıcı söz kimi, «Dastani-Əhməd Hərami», «Mehri və Vəfa» məsnəviləri ilə yanaşı, Qazi Bürhanəddinin, Nəsiminin və başqa klassiklərin dilində də rast gəlirik. *Canü başım yolda fədadur bu gün, Ol sənəm* ***çünki*** *bizə mehman gəlür* (MV) – misralarında ***çünki*** sözü budaq cümlənin daxilində olsa da, onu asanlıqla budaq cümlənin əvvəlinə keçirmək mümkündür: *Canü başım yolda fədadur bu gün,* ***çünki*** *ol sənəm bizə mehman gəlür*. Burada ***çünki*** sözü bağlayıcıdır və aid olduğu budaq cümləni baş cümləyə bağlamışdır. Lakin qeyd etdiyimiz abidələrdə ***çünki*** sözü əksəriyyət etibarilə bağlayıcı yox, bağlayıcı söz məqamında –

[1] Бах: Ə.Abdullayev.Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.282-283; Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.379.

prepozitiv budaq cümlələrin əvvəlində işlənmişdir; məs.: ***Çünki*** dügün axəri oldu təmam, Buların eşigü buldiy hamam. (Suli) Qızından ***çünki*** sultan dinlədi söz, Dua qıldı və dedi: ey gözəl yüz.(DƏH) Buların dirligini ***çünki*** yıxdı, Rəvan kəndi yuxarı köşkə çıxdı. (DƏH) ***Çünki*** anda akça pulu buldular, Şəhər qövmü cümlə ana uydular. (MV) ***Çünki*** Vəfa Mehri təfərrüc edər, Taxt ögünə düşübən əqli gedər. (MV) Aşiqin başında əql qılmaz qərar, ***Çünki*** eşq gəldisə, əql eylər səfər. (MV) ***Çünki*** sultana aydır ol sözüni, Şah sevindi, yerə urdu yüzüni. (MV) ***Çünki*** sultan işbu sözü dinlədi, Qaqıdı Züleyxaya xəşm eylədi. (Suli)

Qazi Bürhanəddinin: ***Çünki*** aləm tüfeyli-dilbərdür, Eşq ayağına cami-cəm dedilər - cümləsində də ***çünki*** sözü bağlayıcı söz kimi işlənmişdir, əvvəlki tərkib hissə (*Aləm tüfeyli-dilbər olduğu üçün)* budaq cümlə kimi çıxış edir.

Nəsiminin yaradıcılığında səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr geniş yer tutur. Şair sanki hər bir fikrini poetik şəkildə əsaslandırmaqdan zövq alır. Bağlayıcı vasitələr isə rəngarəngdir. Əksər bağlayıcı vasitələr müasir dildə olduğu kimidir.

Lakin Nəsiminin dilində də müasir dildə səbəb bağlayıcısı kimi məhsuldar olan ***çünki*** sözü hələ nə formaca, nə də məzmunca sabitləşmişdir. Hələ geniş şəkildə bağlayıcı söz kimi işlənməkdədir – həm ***çünki,*** həm də ***çün kim*** fonetik variantlarında. Həm zaman budaq cümləsini baş cümləyə bağlayır, həm də səbəb budaq cümləsini. ***Çünki*** rəf oldu üzündən, ey şəhi-xuban, niqab, Qalmadı küfrü zəlalət, zahir oldu afitab (Nəs.) – cümləsini həm «***Elə ki*** üzündən niqab rəf oldu» kimi, həm də «Üzündən niqab rəf olduğu üçün» şəklində izah etmək olar. İkinci məna üstündür. Aşağıdakı cümlələr də belədir: Bu könül şəhrini ***çünki*** hicr viran eylədi, Gör ki, səndən özgə bir məmurü memar istəməz. (Nəs.) Mişkin saçına ***çün kim*** verdim iki cahanı, Assiyə uğrayana qılca ziyan gərəkməz.(Nəs.) ***Çünki*** viran könlüm, ey can, məskən oldu eşqinə, İstəməz ayruq imarət könlümün viranəsi. (Nəs.) Ruhi-qüds oldu Nəsiminin həqiqət sözləri, Varlığın tərh etdi ***çünkim*****,** kəndi çıxdı arədən. (Nəs.)

Bu misallarda ***çünki (çün ki – çün kim)*** bağlayıcı sözlərinin olduğu hissə budaq cümlədir və baş cümlədən əvvəl yerləşmişdir: *Ey şəhi-xuban,* ***üzündən niqab rəf olduğu üçün*** *küfrü zəlalət qalmadı, afitab zahir oldu.*

Çünki bağlayıcı sözü budaq cümlənin əvvəlində işləndiyi kimi, daxilində də işlənmişdir: Uşbu işə ***çünki*** bən basdım qədəm, Götürəyim anı sənə uşbu dəm. (MV) Dedi ***çünki*** işlədim bən bu işi, Düşmən olisər bənə uşbu kişi.(MV)

Sonrakı dövrdə - Qurbaninin yalnız deyişmələrindən birində ***çünki*** sözünə bağlayıcı söz kimi təsadüf edilir: ***Çünki*** olduq xeyrə, şərə yarı biz, Gəlsən, bölək borcu sənnən təncə hey! (Qurbani)

Çünki sözü XVIII əsrə doğru həm bağlayıcı söz kimi geriləmiş, həm də zaman mənasını tədricən zəiflətmiş və itirmişdir. Məsihi ***çünki*** sözünə bağlayıcı söz kimi az diqqət yetirmiş, bu sözdən bağlayıcı söz kimi az istifadə etmişdir. Onun dilində bu söz səbəb budaq cümləsinin daxilində işlənmişdir: Qıldın məni ***çünki*** sirrə məhrəm, Dur çəkmə dəxi məşəqqətü qəm. (Məs.) «Şəhriyar» dastanının dilində də hələ bağlayıcı söz kimi müşahidə olunur: Yaxşı budur, ***çünki*** o qonaqdır, mən onun çadırına gedərəm. («Şəhriyar») ***Çünki*** siz layiq görüb qəbul edərsiz, mən də qəbul etmişəm və vermişəm. («Şəhriyar»)

Çün (çünün) bağlayıcı sözü. ***Çün*** sözü də səbəb budaq cümləsini baş cümləyə bağlayan fəal bağlayıcı vasitələrdəndir. Bu söz də həm bağlayıcı söz, həm də bağlayıcı məqamında işlənmişdir. Aşağıdakı misallarda səbəb budaq cümləsini baş cümləyə bağlayan bağlayıcı söz kimi çıxış edir: Cəbrayıl ***çün*** Yusifə böylə didi, Yusifin könlündə qəğu qalmadı. (Suli) ***Çün*** eşitdi ani, Yusif səvünür.(Suli) ***Çün*** müqərrər oldi sultanlıq ana, Ol daxi hökmün yeritdi dörd yana.(Suli) Ey Nəsimi, ***çün*** rəfiqin Fəzl imiş, yəni ilah, Lütf ilə qəhr oldu vahid, həm həbib oldu rəqib. (Nəs.) Nəsimi ***çün*** səni buldu, dü aləmdən vəhid oldu. (Nəs.) Buldu Nəsimi ***çün*** səni, keçdi qamudan, ey sənəm. (Nəs.) Vəslindən oldum ***çün*** qəni, mən mülkü malı neylərəm. (Nəs.) Qaşınla Kirpiyin ***çün*** seyd eylədi cahanı, Səyyad olana ayruq tirü kaman gərəkməz. (Nəs.**)** Saçın zəncirini məndən fələk ***çün*** çəkdi, ayırdı, Tənim şəhrində sevdadən dəli olmuş, gəzər könlüm.(Nəs.)

Göründüyü kimi, bu söz Nəsiminin işlətdiyi fəal bir bağlayıcı vasitədir. Bu misallarda səbəb bildirən tərkib hissə baş cümlədən əvvəl işlənmişdir: **Çün** eydi-əkbərdir üzü, yüz can ona qurban gərək (Nəs.) – ***Üzü eydi-əkbər olduğu üçün*** ona yüz can qurban gərək.

Çünki sözünə yaxın məqamda ***çün*** bağlayıcı sözü «Mehri və Vəfa»nın dilində də səbəb budaq cümləsinə xidmət etmişdir: Padşah ***çün*** Mehriyi təfərrüc edər, Ah edübən, düşübən əqli gedər.(MV) ***Çün*** atalığa qəbul etdin bəni, Əvərəyim baş-göz eyləyəm səni.(MV) ***Çün*** qara oldu günüm, yad oldular qardaşlar. (Saib)

Aşağıdakı misallarda da ***çün*** sözü daha çox səbəb budaq cümləsinə xidmət edir: ***Çün*** nəxli-həqiqeyi-hünərsən, Miftahi-xəzaneyi-gühərsən, ***Çün*** onu yığınca çəkmişəm rənc, Qıyma ***ki,*** nəsibi-ğeyr ola gənc. (Füz.) ***Çün*** baqi deyil, mülki-Süleymanə inanma.(Vid.)

Çün sözü də ***çünki*** sözü kimi həm zaman bildirmiş (***elə ki*** mənasına müvafiq), həm də səbəb bildirmişdir. Yuxarıdakı bir sıra misalları da zaman mənasına müvafiq yozmaq olar. Aşağıdakı cümlələrdə də ***çün*** sözü həm zaman, həm də səbəb mənası ifadə edir: ***Çün*** gördü anasi ol nigari, Getdi yelə səbrü qərari. (Məs.) ***Çün*** bildi kim olduğunu Leyli, Rüxsarına axdı əşk seyli.(Füz.)

Çü bağlayıcı sözü. Əlimizə çatan ilkin abidələrin dilində ***çü*** sözü də bağlayıcı söz kimi səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: ***Çü*** hökm oldi, açıldı qapu bizə.(Suli) ***Çü*** gördi bunları, ol durdı getdi. (DƏH) Düni günə qatıb bular ***çü*** getdi, Beş-on gündə bular Bağdada yetdi.(DƏH) ***Çü*** düşmən öldi, qəmdən oldu azad. (DƏH)

Füzulinin dilində də ***çü*** sözü səbəb budaq cümləsini baş cümləyə bağlayan bağlayıcı vasitə kimi işlənmişdir: Zatında ***çü*** var idi məhəbbət, Məhbubu göründə tutdu ülfət. (Füz.) Ol pir ***çü*** gördü surəti-hal, Surət kimi qaldı bir zaman lal.(Füz.) Gördü ***çü*** siyahruy bəxtin, Çəkdi duruban səvadə rəxtin. (Məs.)

Aşağıdakı cümlələri isə ***çü*** sözü ilə həm səbəb, həm də zaman (***elə ki*** mənasında) budaq cümləli tabeli mürəkkəb cümlə kimi yozmaq olar: Mahiyyətini ***çü*** dayə bildi, Ol mahı ona ənis qıldı.(Füz.) Ol pir ***çü*** vaqif oldu halə, Məcnun kimi etdi ahü nalə. (Füz.) Asəf ***çü*** yetişdi ol vüsalə, Baş ayağə qoydu, qıldı nalə.(Məs.) Əntər ***çü*** ol işdən anladı raz, On min kişi eylədi sərəfraz.(Məs.) ***Çü*** gördü atasının məzarın, Şəm eylədi ona cismi-zarın.(Füz.) - ***Atasının məzarını gördüyü üçün//Atasının məzarını görəndə*** Şəm eylədi ona cismi-zarın.

Ta, ta ki, ta kim bağlayıcı sözləri. Səbəb budaq cümləsinin baş cümləyə bağlanmasında ***ta, ta ki, ta kim*** bağlayıcı sözlərinin də müəyyən rolu olmuşdur. Bunlar da gah bağlayıcı söz, gah da bağlayıcı məqamında işlənmişdir. Tərəfləri arasında sərbəstlik vardır və araya söz daxil ola bilmişdir. Məs.: ***Ta*** bilələr ***ki*** məğribin günəşi doğdu, ey qəmər, Türfə niqabını götür, xəlqə görün qəmər kimi. (Nəs.)

Bu bağlayıcı söz həm təklikdə, həm də ***kim, ki*** ədatları ilə birgə işlənmişdir: ***Ta*** olmaya əşk üzdə məlum, Rüxsarinə lölö idi mənzum. (Füz.) – ***Üzündə göz yaşları görünməmək üçün*** üzünə ləl düzdürmüşdü. ***Ta kim*** ola dudi-ahə manənd, Bağlanmış idi bənəfşə sərbənd.(Füz.) ***Ta kim*** ola sövti-nalə pamal, Qullanmış idi sədalı xəlxal. (Füz.) ***Ta*** olmaya kimsə andan agah, Bu şeri oxurdu əksər ol mah. (Məs.)

Ki ədatı. Müasir ədəbi dilimizdə səbəb budaq cümləsinin baş cümlədən əvvəl işlənərək ona ***ki*** ədatı ilə bağlandığı məlumdur. Bunun ilkin nümunələrinə Qazi Bürhanəddinin «Divan»ında rast gəlirik; məs.: Dili bu ənbəri-zülfün ***ki*** müşkilə saldı, Nəsimə qul olayım müşkilümi qıldı cəli. (QB)

Füzuli də ***ki*** ədatından istifadə etmişdir. ***Ki*** bağlayıcılı cümlələrdən fərqli olaraq, səbəb budaq cümləsinin bu növündə budaq cümlə baş cümlədən əvvəl işlənmişdir; məs.: Məcnun ***ki*** xəbərdən oldu agah, Gərdunə yetirdi şöleyi-ah.(Füz.) - ***Məcnun xəbərdən agah olduğu üçün*** gərdunə şöleyi-ah yetirdi.

Bu forma sonrakı inkişaf dövründə - M.P.Vaqifin dilində artıq əsas işlək formadır***;*** məs.: Vaqif ***ki*** düşübdür əqlü kamaldan, Əksik olmaz başı

qovğadan, qaldan. (Vaqif) – ***Vaqif əqlü kamaldan düşdüyü üçün*** başı qovğadan, qaldan əksik olmaz.

Bağlayıcı söz və ***ki*** ədatı ilə baş cümləyə bağlanan səbəb budaq cümlələrində arzu şəkilçisinin tarixi mövqeyi də qədimdir: Bu camaat ***çünki*** şərab ***içələr***, Hər birisi əsrüyübən gecələr. (MV) ***Ta məhv ola*** gözdən axıdan xun, Həm kömləyi, həm donuydi gülgun.(Füz.) Bağlayıcı vasitələrdə şərt çaları olduğu üçün şərt şəkilçisi bu sahədə qeyri-fəaldır.

Beləliklə, abidələrin dilində prepozitiv səbəb budaq cümlələri ***çünki, çün, çü, ta ki*** bağlayıcı sözləri və ***ki*** ədatı ilə baş cümləyə bağlanmışdır. ***Çünki*** sözü tədricən bağlayıcı söz mövqeyini itirərək bağlayıcılaşmış, ***çün, çü*** sözləri tamam sıradan çıxmış, ***ta ki*** bağlayıcı sözü canlı danışıq dilində qalmışdır. ***Ki*** ədatının köməyi ilə bağlanan səbəb budaq cümlələri müasir dilimizdə səbəb budaq cümləsinin mühüm prepozitiv növü kimi sabitləşmişdir.

II tip. XIII-XIV əsrlər və bir qədər də sonrakı dövr bir sıra bağlayıcı sözlərlə bağlayıcıların müvazi işləndiyi, tədricən onların bir sahə üzrə sabitləşmə istiqamətində inkişaf etdiyi və bir qisminin arxaikləşdiyi dövr sayıla bilər. Bu cəhətdən yuxarıda nəzərdən keçirdiyimiz bağlayıcı sözlərə diqqət yetirmək kifayətdir.

Nəsimi bağlayıcılı cümlələrdən əlavə, intonasiya ilə baş cümləyə bağlanan analitik səbəb budaq cümlələri də qurub işlətmişdir: Musa kimi gər aşiq isən könlünü arıt, Saf olmayacaq ayinə, didar ələ girməz (Nəs.) – misralarından ikincisinin – budaq cümlənin əvvəlinə asanlıqla ***çünki*** bağlayıcısını artırmaq olar.

«Mehri və Vəfa»nın dilində intonasiya ilə baş cümləyə bağlanmış səbəb budaq cümlələri də ilkin formanı yaşatmaqdadır: İşrət edin bunda bu gün şahanə, Qalmadı ortada ayruq bəhanə (MV) - misalında da ikinci komponentdən əvvəl ***çünki*** bağlayıcısını işlətmək olar.

Səbəb budaq cümləsinin baş cümləyə intonasiya ilə bağlanan analitik növünə Qazinin əsərlərində də rast gəlmək mümkündür: Aşiq bənü məşuq sən olmamağ olımaz,Eşqi bana, hüsni sənə qism eylədi allah (QB) - Aşiq bənü məşuq sən olmamağ olımaz*, (çünki) Eşqi bana, hüsni sənə qism eylədi allah.*

Şah İsmayıl Xətainin əsərlərində bağlayıcı vasitələr Nəsimidə olduğu qədər zəngin deyildir. İntonasiya ilə qurulan aşağıdakı cümlə «baş cümlə + budaq cümlə» quruluşludur: Yarəb, uzun eylə leyli-vəsli, *Üşşaqə budur murad əsli*. (Xət.)

İkinci misradan əvvəl ***çünki*** və ya birinci misradan sonra ***ki*** bağlayıcısını artırmaq olar.

Qurbanidə intonasiya ilə qurulan analitik səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr daha fəaldır. Budaq cümlələrin əvvəlinə ***çünki***

bağlayıcısını artırmaq olar. Cümlələr müasir bağlayıcısız cümlələr tipindədir: Dedim, könül, sevmə xublar xubunu, (*çünki)* Onun hər muyində yüz min qal olu. (Qurbani) Dedim, pərim, zülflərini darama, (*çünki*) Könül gəştə çıxar tellərə doğru.(Qurbani)

Dövrün ədəbi dilində səbəb budaq cümləsini baş cümləyə bağlamaq üçün aşağıdakı bağlayıcılardan istifadə edilmişdir.

Kim bağlayıcısı. Bu bağlayıcı nəzərdən keçirdiyimiz dövr ərzində səbəb budaq cümləsini baş cümləyə bağlayan ən mühüm bağlayıcıdır. Lakin təbii ki, tədricən ***ki*** bağlayıcısı ilə müqayisədə geriləməli olmuşdur.

Çünki sözü ilə müqayisədə ***kim*** bağlayıcısının işlənmə vəziyyəti müasir normalara tam müvafiq olmuşdur və bu hal XIII-XIV əsrlərin bədii materiallarının hamısı üçün səciyyəvidir; məs.: Gəl bəri ***kim***, sən canımın canısan.(MV) Dedilər kim, nə buyurursan anı Qılalım, ey qamumuzun sultanı, ***Kim,*** sənlə rövşəndir bu cahan. (MV) Şükr et ***kim***, həqq irgürdi bu günə. (MV) Aydır: Ey vay ***kim,*** işimi bilmədim! (MV)

Nəsiminin və Nəsimidən əvvəlki abidələrin dilində də səbəb budaq cümlələrini baş cümləyə bağlayan əsas vasitə ***kim*** və ***ki*** bağlayıcılarıdır.

Kim bağlayıcısı: Aytdılar çoq yaşağıl sultan ilə ***Kim***, bizi ağırladun ehsan ilə. (Suli) Saqiya, camı gətir ***kim***, mən uşatdım növbəmi.(Nəs.) Tərk et ikiligi ***kim***, bir rəngimiş boyasi.(Nəs.) Qurmağa qoyma yayını, salma məni fəraqə ***kim*****,** Doğramış oxları anın yürəgimi zəhər kimi. (Nəs.) Cəhd et məcalın əldə ikən yarə yarə ***kim***, Bir gəz əcəl irər, dəxi verməz məcalını.(Nəs.) Ey könül, şad ol ***kim***, ol məhbubi-zibadır gələn. (Nəs.)

Lakin şairin dilində ***ki*** bağlayıcısı budaq cümləni baş cümləyə bağlamaqda daha fəaldır: Yelə qarşu tükürmə ***ki***, yenə surətinə gəlür. (Oğuz.) Şükr edirəm ***ki,*** düşmüşəm alə gözünün alına.(Nəs.) Sən mana yar ol ***ki***, könlüm bir dəxi yar istəməz.(Nəs.) Nəsimi quluna qıl çarə, dərman ***Ki,*** canlı gəldi, bican oldu sənsiz.(Nəs.) Dildarə həris olma ***ki,*** dildar ələ girməz.(Nəs.) Dərmanını dərd eylə ***ki***, timar ələ girməz. (Nəs.) Gəlgil ***ki***, qapdı şövqi-cəmalın qərarimi.(Nəs.) Götür pərdə camalından ***ki*****,** sənsən eynimin nuri. (Nəs.) Sallanıb naz ilə gəlgil ***ki*****,** mənim didələrim ayağın tozuna, ey xosrovi-xuban, susadı.(Nəs.) Sənubərqədli dildarım, təbibim, Yetir didarinə ruhi-rəvanım ***Ki***, can quşu uçar bir gün qəfəsdən, Qalır firqət içində mehri-canım. (Nəs.) Dut əlimi ***ki***, düşmüşəm əqrəbü mar içindəyəm. (Nəs.) Gəl, ey dilbər ***ki,*** müştaqəm, səni görmək dilər könlüm.(Nəs.) Gəlgil ***ki*****,** sənsiz qönçə tək doldu içim qan, qandasan? (Nəs.)

Qazi Bürhanəddinin dilində də səbəb budaq cümləsinin ən tipik, gələcəkli və uğurlu bağlayıcı vasitəsi ***ki*** bağlayıcısıdır. Onun budaq cüm-

lələri daha aydın səbəb məzmununa malikdir; məs.: Cəhani can yolına verürəm bən ***Ki,*** can içün dilərəm bən cəhanı. (QB) Türki gözi bu könlümi yasağa yetürə gərək, İşvələrünçün öləyim ***ki,*** canuma aman gəlür (QB) və s.

Sonrakı dövrdə – Xətainin dilində ***kim*** bağlayıcılı cümlələrin də baş cümləsində, yuxarıdakı misallarda olduğu kimi, qəlib söz işlənməmişdir: Şol Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini, Bar-ilahi, əfv qıl ***kim***, tövbəkarəm doğrusu. (Xət.) Qıldım könülə həzar nifrin ***Kim***, şad ikən etdi bizni qəmgin.(Xət.) Bir qasidi dəxi istəyim mən ***Kim***, səbrü qərarə çarə yoxdur. (Xət.) Çox oldu məlul, piçə düşdü ***Kim***, lafi bu yolda hiçə düşdü. (Xət.) Ey xəstə Xətai, şakir ol ***kim***, Mehr ilə vüsalə döndü hicran. (Xət.)

Xətainin dilində analitik səbəb budaq cümlələri daha çox ***ki*** bağlayıcısı ilə baş cümləyə bağlanmışdır. Maraqlıdır ki, müasir dildə bu cür cümlələrin baş cümləsində əksərən ***ona görə, ondan ötrü, o səbəbə*** qəlib sözləri olur, Xətainin dilindəki cümlələrdə bu cür sözlər görünmür, lakin artırmaq mümkündür: Xızrı sev ***ki,*** sahibinin quludur. (Xət.) Qədr etmən aya ***ki,*** var hilalın, Baxman günəşə ***ki,*** var zəvalın.(Xət.) Müşk iyləmənəm yüzü qaradır, Gül dəstələmən ***ki,*** yüz paradır, Dadman şəkəri ***ki***, əsli neydir, Mey içmən ***əz an ki***, feli qeydir, Cəng alman ələ ***ki,*** bülhəvəsdir, Ney dinləmənəm ***ki***, əznəfəsdir. (Xət.) Qəbul et bu duayi, ya ilahi, ***Ki***, sənsən cümlə aləm padşahi. (Xət.) Şad oldu könül ***ki***, gəldi yaşım. (Xət.)

Baş cümləsi elliptik xarakterdə olan ***ki*** bağlayıcılı bir sıra cümlələr canlı dilin əlamətləri kimi çox maraqlıdır: ***Yüz qəm ki,*** irişmədim məramа! (Xət.) ***Vəh-vəh ki,*** tükəndi vədeyi-vəsl. (Xət.)

Füzulinin şeir dilində səbəb budaq cümlələrini baş cümləyə bağlayan əsas vasitələr ***kim, ki, ta kim, zira ki, çün və çü*** bağlayıcılarıdır

Xətaidə olduğu kimi, Füzulinin şeirlərində də ***kim*** bağlayıcılı səbəb budaq cümlələrinin baş cümləsində qəlib sözlər müşahidə olunmur və belə cümlələr ***ki*** bağlayıcısı ilə müqayisədə geriləməkdədir: Alma ələ sağəri-meyi-nab ***Kim***, ğərqə edər səni bu girdab.(Füz.) Sən şəmsən, uymagil həvayə ***Kim***, şəmi hava verər fənayə. (Füz.) Nəleyni buraxdı ol bəlacu ***Kim***, aşiqə payibənddir bu.(Füz.) Sud istəmə sevdayi-ğəmi eşqdə hərgiz ***Kim,*** hasili-sevdayi-ğəmi-eşq ziyandır. (Füz.) Saqi, gətir ol şərabi-nabi ***Kim,*** yetdi nisabə ğəm hesabı.(Füz.) Cövrü çox eyləmə ***kim,*** olmaya birdən tükənə. (Füz.) Yüz şükr ***kim***, qılmadım xəsarət. (Füz.)

Ki bağlayıcılı analitik cümlələr Füzuli yaradıcılığında daha mühüm yer tutur. Nəsimidə, Xətaidə olduğu kimi, Füzuli də baş cümlədə qəlib sözdən istifadə etməmişdir. Lakin cümlələrin hamısında ***ona görə, ondan ötrü, o səbəbə*** tipli qəlib sözlər düşünmək mümkündür və bunları səbəb intonasiyası əvəz edir: Saqi, mədəd et ***ki,*** dərdməndəm, Ğəm silsiləsinə paybəndəm.(Füz.) Rəhm et ***ki,*** ğəribü xaksarəm, Bimunisü yarü ğəmkü-

sarəm. (Füz.) Saqi, tut əlim ***ki***, xəstəhaləm, Ğəm rəhgüzərində payimaləm. (Füz.) Can vermə ğəmi-eşqə ***ki*,** eşq afəti-candır. (Füz.) Qaçma ***ki*,** mənəm səninlə həmdərd.(Füz.) Rəhm eylə ***ki*,** gəldi rəhm çağı. (Füz.) Canə təmə etmə ***ki*,** mənimdir, Tərk eylə təni ***ki***, məskənimdir! (Füz.)

Canə təmə etmə ***ki*,** mənimdir, Tərk eylə təni ***ki,*** məskənimdir! – ***Ona görə*** canə təmə etmə ki, o mənimdir – ***Mənim olduğu üçün*** canə təmə etmə. Təni ***ona görə*** tərk eylə ki, məskənimdir – ***Məskənim olduğu üçün*** təni tərk eylə və s.

Xətai kimi, Füzuli də canlı danışıq dilindən gələn elliptik baş cümlələri həvəslə işlətmişdir: Yüz vay ***ki,*** fövt olundu fürsət, Yüz heyf ***ki***, tutmadım təriqin, Bir neçə gün olmadım rəfiqin. (Füz.) Müjdə ***ki*,** muradın oldu hasil. Müjdə ***ki,*** müyəssər oldu məqsud. (Füz.)

Kim bağlayıcılı cümlələr Qövsinin, Məsihinin dilində daha da azalmışdır. Onların dilində səbəb budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***ki*** bağlayıcısıdır. Baş cümlədə qəlib söz müşahidə olunmur: Mən düşən vadiyə basman qədəm, ey aşiqlər, ***ki,*** bu çöllərdə nə Məcnun və nə mühmil görünür. (Qövsi) Ah ***kim***, firqət şərabi bağrımı qan eylədi. (Məs.) Rəhm eylə mənə ***ki,*** natəvanəm.(Məs.) Qəm çəkmə ***ki***, axır oldu hicran.(Məs.) İncinmə ***ki,*** səndin oldu təqsir.(Məs.) Qəm çəkmə ***ki,*** saxlaram səlamət Tapşurduğini mənə əmanət.(Məs.)

Ümumən, nəzərdən keçirdiyimiz dövrlərin ədəbi dilində ***Onunçun*** *mən sənə yalvarmanam* ***kim,*** *yalvaran çoxdur* (Qövsi) – tipli, baş cümləsində qəlib söz olan cümlələrə az hallarda rast gəlmək olur.

M.P.Vaqifin yaradıcılığında səbəb budaq cümlələri tam səlis müasir ədəbi normalardadır.

Budaq cümlə baş cümlədən sonra işlənərək ona intonasiya ilə bağlanmışdır: *Adını demərəm, (çünki) eldən ayıbdır*. (Vaqif)

Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: *Bir qədəm bas* ***ki****, toy sənin toyundur.* (Vaqif) *Allaha şükür* ***ki,*** *kamal da yoxdur*. (Vaqif) *Hər kəs öz otağı tərəfin pak və pakizə etsünlər* ***ki,*** *Cahangir xan tamaşa üçün gəlür*. («Şəhriyar»)

Nəzərdən keçirdiyimiz son mərhələdə ***ki*** bağlayıcısı ilə yanaşı, vəzn və ahəng ilə əlaqədar ***kim*** bağlayıcısı da qalmış və əsasən klassik şeir üslubunda olan əsərlərin dilində işlənmişdir: Ey gözüm, qan ağla ***kim*,** çeşmi-xumarım gəlməmiş.(Vaqif) Aydın olsun gözlərim ***kim***, gəldi yarın kağızı. (Vaqif) Tüf sənin üzünə ***kim,*** xublar içində məni sən, Bir kəs idim, elədin nakəsü nadan, saqqal. (Vaqif) Gözlərindən əlaman ***kim***, canımın cəlladıdır. (Vaqif)

Çünki bağlayıcısı. «Dastani-Əhməd Hərami»nin dilində ***çünki*** bağlayıcı sözlü cümlələr səciyyəvi olsa da, bu əsərin dilində ***çünki*** sözünün hazırkı ***çünki*** bağlayıcısına yaxın məqamda işləndiyi hallar da var: Dilini tutdu əbsəmcək oturdu, Vəfası yox cahanın ***çünki*** gördi. (DƏH)

Bu misraları: *Dilini tutdu əbsəmcək oturdu,* ***çünki*** *gördü cahanın vəfası yoxdur* – şəklində də işlətmək olar.

Qazi Bürhanəddinin şeirlərindən aydın olur ki, hələ ***çün*** sözü ilə ***ki*** ədatının tam birləşmədiyi hallar da davam etməkdədir: Rəngin axar yaşum yaşı uzun nə çarədür, Yürək dəmi dimağuma ***çün ki*** buxar edər. (QB) Onun dilində də ***çünki*** sözü hələ sabitləşməmişdir. Həm bağlayıcı söz kimi, həm də baş və budaq cümlə arasında bağlayıcı kimi işlənmişdir: Bən vücudı ol nigara qılmayum gərək fəda *Ol səbəbdən çünki* vəhdət yar ilə məhduddur (QB) – kimi cümlələrdə ***çünki*** sözü ***ki*** bağlayıcısı məqamındadır, müəllif *ol səbəbdən çünki* sözlərini ***ol səbəbdən kim*** mənasında işlətmişdir.

Aşağıdakı misralarda ***çünki*** sözü müasir dildə olduğu kimi bağlayıcıdır, baş və budaq cümlənin arasında işlənmişdir, budaq cümlə ilə – ikinci tərkiblə birgə tələffüz olunur, lakin hələ ***çünki, çün ki, çün kim*** fonetik variantları vardır: Abi-heyvan qiymətini heyvana sorma, Xızra sor, ***Çünki*** idrak eyləməz hər dəkmə heyvan sizlərə. (Nəs.) Ey Nəsimi, səcdə qıl hüsnünə qarşu dilbərin, ***Çünki*** xublar surətidir həq-təala məzhəri.(Nəs.) Yaxma məni fəraqilən, ***çünki*** mən, ey üzü qəmər, Xalisü müxlis olmuşam eşqi-rüxündə zər kimi.(Nəs.) Səndən müdam ehsan umar, ***çün kim*** gədadır binəva. (Nəs.) Kirpiklərin oxundan bir ox bu yanə göndər, ***Çün k*i** bu yarəlinin zəxminə mərhəm oldur. (Nəs.)

Şah İsmayıl Xətainin dilində ***çünki*** sözü daha aydın şəkildə bağlayıcı mövqeyindədir***.*** ***Çünki*** sözünün işləndiyi cümlə analitik səbəb budaq cümləsidir və baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir: Bəd halətə düşmə, ***çünki*** vardır Biləncə xəyali-ruyi-niku.(Xət.)

Deməli, ***çünki*** sözü bağlayıcı kimi müasir mövqeyini tam qazanmaqdadır.

M.P.Vaqifin dilində də ***çünki*** sözünə artıq bağlayıcı kimi rast gəlirik: Getmiş idi ixtiyarım biləsincə yarımın, ***Çünki*** yarım gəlməmiş, həm ixtiyarım gəlməmiş. (Vaqif)

Bağlayıcı şəklində az və ya çox işlənməsindən asılı olmayaraq, artıq tədqiq etdiyimiz dövrün son mərhələsində ***çünki*** sözü bağlayıcı söz kimi əhəmiyyətini itirmiş, daha çox bağlayıcı kimi inkişafını davam etdirmişdir.

Zira/zira ki bağlayıcısı. Bu söz «çünki» mənasında fars sözü olub, ilkin mənbələrin dilində bağlayıcı kimi işlənmiş, tədricən işləkliyini azaltmışdır. Müasir dildə az işlənsə də, qalmaqdadır. İlkin mənbələrdə: Buna sultan yetirə mali məgər, ***Zira*** bu qulda vardur nim hünər.(Suli) Yas dutaq Vəfa içün, geyək qara, ***Zira*** can vermək gərək doğru yara. (MV) Məşhur idi şəhr ara rəmmal qatı, ***Zira*** hasil etmiş idi sənəti.(MV)

Bu cümlələrdəki ***zira*** sözünün yeri müasir dildəki ***çünki*** bağlayıcısına tam uyğundur.

«Mehri və Vəfa»nın dilində olduğu kimi, Qazi Bürhanəddinin dilində də səbəb budaq cümləsinin mühüm bağlayıcı vasitələrindən biri, ***zira/zira ki*** bağlayıcısıdır: Dərdün dilərəm bana dəxi nəsnə gərəkməz, ***Zira ki*** yenə dərd ilə dərman ələ gəlür.(QB) Könül oğurluğa vardı, asıldı zülfündən Cəzasıdur, ***zira*** oxımadın dükana girür. (QB) Tolu əyax ver, ey saqi, ***zira*** novruz çağıdur, Şərəfdədür həməldə şəms, əyağ onun əyağıdur (QB) və s.

Sonralar Füzuli də analitik cümlələrdə ***zira ki*** bağlayıcısından istifadə etmişdir: Bildim bu qəziyyə imtəhandır, ***Zira ki*** bu bir bəlayi-candır. (Füz.)

Neçün ki/niçün ki bağlayıcısı. Baş və budaq cümlə arasında işlənən, budaq cümlə ilə birgə tələffüz edilən ***neçün ki, niçün ki*** sözləri mənaca ***çünki*** bağlayıcısına müvafiqdir və analitik səbəb budaq cümləsini baş cümləyə bağlamışdır: Ey ədib, uy vermə adabından əhli-vəhdətə, Əbsəm ol, ***niçün ki*** eşq adabını bilməz ədib. (Nəs.) Adəmdən olma qafil, ***neçün ki*** adəm oldur.(Nəs.) Əsrari-«küntə-kənzən» hər sinə məhrəm olmaz, Arif gərək bu sirrə, ***neçün ki*** məhrəm oldur. (Nəs.) Hicran şərabı acıdır, müştaqa içirmə anı, ***Neçin k*i** yar ol ağuyi içirməz, ey can, yarinə. (Nəs.) Yetər dərdin dəva müştaqə, ***neçün Ki*** dərdin bilənə dərman gərəkməz. (Nəs.)

Bu cümlələri ***çünki*** bağlayıcılı cümlələrlə eyni şəkildə sadələşdirmək olar: Səndən müdam ehsan umar, ***çün kim*** gədadır binəva – ***Binəva gəda olduğu üçün*** səndən müdam ehsan dilər. Adəmdən olma qafil, ***neçün ki*** adəm oldur – ***Adəm ol olduğu üçün*** adəmdən qafil olma.

Neçün ki/niçün ki bağlayıcısı hazırda canlı danışıq dilində işlənməkdədir.

Anın üçün ki bağlayıcısı. ***Çünki*** və ***neçün ki*** bağlayıcılarına müvafiq olaraq, Nəsiminin dilində ***anın üçün ki*** bağlayıcısı da işlənmişdir: Dövlətinə bu dünyanın olma müqəyyəd, ey məlik, ***Anın üçün ki*** dünyanın dövləti bisəbat olur. (Nəs.)

Müasir dildə bu bağlayıcının yalnız əvəzlik hissəsi fərqlidir və bağlayıcı ***onun üçün ki*** şəklində işlənir.

Ondan ötrü kim bağlayıcısı. Bu bağlayıcı tam müasirdir (*kim – ki* fərqi müstəsna olmaqla) və M.P.Vaqifin dilində işlənmişdir: Müxtəsər kim, belə dünyadən gərək etmək həzər, ***Ondan ötrü kim*** deyildir öz yerində xeyrü şər. (Vaqif)

Ta, ta ki, ta kim bağlayıcısı. Bu bağlayıcı ilkin mərhələdən Nəsiminin dilində işlənmişdir: Badilən göndər saçın buyin mana hər sübhdəm, ***Ta ki*** yandım, keçdi həddən intizarım, qandasan? (Nəs.) – cümləsində ***ta ki*** bağlayıcısı ***çünki*** mənasını verir.

Çün bağlayıcısı. ***Çün*** sözünə səbəb bağlayıcısı kimi Nəsiminin, Məsihinin dilində daha çox rast gəlirik. Məsihidən sonrakı dövrdə bu söz

həm bağlayıcı, həm də bağlayıcı söz kimi tam arxaikləşmişdir. Misallar: Dünyavü mülkü malinə meylü məhəbbət eyləmə, Aldanmazam sənə dəxi, ***çün*** bildim halını. (Nəs.) İndi şəhadət əhliyəm, ***çün*** əhli-iman olmuşam. (Nəs.) Rövzeyi-rizvanı dəvət qılma, ey zahid, məni, ***Çün*** mən ol dərgahdən səhni-gülüstan bulmuşam.(Nəs.) Ağlamayım neyləyim, ***çün*** gövdədən can ayrılır. (Nəs.) Ver oğluna müjdə, ey nikuxah, ***Çün*** hali-dilindən oldum agah. (Məs.)

Çü bağlayıcısı. Bu söz əksərən bağlayıcı söz kimi işlənmişdir. Lakin onun ***çünki*** bağlayıcısının mənasına müvafiq bağlayıcı kimi səbəb budaq cümləsini baş cümləyə bağladığı hallar da var; məs.: Tərk eylə məni, ***çü*** tərkin etdim. (Füz.) Mən istərəm bəlanı, ***çü*** istər bəla məni (Füz.) – ***Bəla məni istədiyi üçün*** mən də bəlanı istərəm.

Belə cümlələrə hələ ilkin mərhələdə Qazi Bürhanəddinin dilində də rast gəlirik: Təcəllisinə Tur tağı doyımaz, ***Çü*** üşşaqə xitabı ləntərandur. (QB) Tənüm can oldı, ***çün*** cana irişdi, Yenə bu qətrə ümmana irişdi (QB) və s.

Hər iki misalda ***çü*** sözünün işləndiyi hissə budaq cümlədir. Belə cümlələrin tərkib hissələri asanlıqla inversiyaya uğraya bilir.

Beləliklə, tarixi inkişaf prosesində bir sıra bağlayıcı vasitələr (***çünki, çün, çü***) həm bağlayıcı söz, həm də bağlayıcı məqamında işlənmiş, bir qismi (***çün, çü***) tədricən tam sıradan çıxmış, ***çünki*** sözü bağlayıcı kimi səlisləşmiş, inkişaf ***ki*** və ***kim*** bağlayıcılarından birincinin xeyrinə olmuşdur.

MƏQSƏD BUDAQ CÜMLƏSİ

«Kitabi-Dədə Qorqud»un dilində budaq cümlənin bu növünün yalnız analitik tipi işlənmişdir. Budaq cümlə baş cümlədən sonra gələrək ona həm intonasiya ilə, həm də ***kim, ki*** bağlayıcıları ilə bağlanmışdır. Budaq cümlənin xəbəri əmr və ya arzu şəkillərində olub, arzu, istək ifadə edir və baş cümlədəki işdən sonra baş verə bilən hadisəni bildirir; məs.: İmdi, mərə dəli, gəldim ***ki***, sənin canın alam. (80) And iç ***kim***, bizim elümizə yağılığa gəlməyəsən. (117) Şimdi bunı kimə verər ***kim,*** xatiri xoş ola. (104)

Budaq cümlənin eyni quruluşlu bağlayıcısız növü daha fəaldır: Biz kafərə salam vergil, *öldürməyəlim.* (43) Qaraca çoban, anamı kafərdən diləyəyim, *at ayağı altında qalmasun.*(48) Oğul, sən qız istəməzmişsən, bir cılasın bahadır istəyirmişsən, *anun arqasında yeyəsən-içəsən.* (85)

Bu cümlələrin hamısına ***ki*** bağlayıcısı artırmaq olar: Qaraca çoban, anamı kafərdən diləyəyim ***ki,*** at ayağı altında qalmasun – ***At ayağı altında qalmaması üçün***, Qaraca çoban, anamı kafərdən diləyəyim.

Müasir Azərbaycan dilində olduğu kimi, tarixi abidələrin dilində də məqsəd budaq cümləsinin analitik tipi əsasdır. Budaq cümlə baş cümlədən sonra işlənərək baş cümlədəki işin məqsədini bildirir.

XIII-XIV əsrlərin ədəbi dilində bağlayıcılı cümlələrlə yanaşı, tərkib hissələri yalnız intonasiya ilə əlaqələnən, bağlayıcı olmadan baş cümləyə qoşulan məqsəd budaq cümlələri normal tarixi model üzrə işlənmişdir; məs.: Can içində söyləyəm bir-bir sözi, *Dünyadən getdükdə analar bizi.*(Suli) Duraq edibdilər bir sərp arayı, *Oları kimsə varmaya arayı.* (DƏH) Hər biri bir iqlimə qıldı səfər, *Bulalar bu dərdə yəni bir zəfər*. (MV) Ölmədən nəfsini öldür, *arifi-rəbb olasan*.(Nəs.)

Sonrakı mərhələdə Şah İsmayıl Xətai tərkib hissələri intonasiya ilə əlaqələnən məqsəd budaq cümlələrinə daha geniş yer vermişdir. Bu onun canlı danışıq dilinə münasibətindən, xalq şeri tərzində yaradıcılığa üstün meylindən irəli gəlirdi. Aşağıdakı misallarda budaq cümlələr baş cümləyə intonasiya ilə bağlanmışdır: Bir dəxi var ol nigarə məndən, *Rəf ola məgər bu yara məndən*. (Xət.) De məndən ona bu neçə söznü, *Dutmaya dəxi visalə göznü*.(Xət.) Cəmali-Mustafaya ver səlavat, *Olasan cümlədən sağü səlamat. (*Xət.) Məhəmməd ümməti qalmaz damuda, Salavat ver, *canın yanmaya oda*.(Xət.) Könül göziylə bax, *didar görəsən*. (Xət.)

Qurbaninin qoşmalarında hazırkı canlı danışıq dilində olduğu kimi, məqsəd budaq cümləsi baş cümləyə əsasən intonasiya ilə bağlanmışdır: Qohum-qardaş yığılıban gələsiz, Adna axşamında bəlgə qoyasız, *Kəsilə qovğası, qalı qızların*. (Qurbani) Nə ola, bir şadlıq xəbəpri gələ, *Yüklənə barxanam ellərə doğru!* (Qurbani) Çək pərdəni, *naməhrəmlər görməsin*. (Qurbani)

Məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***kim, ki, ta, ta ki*** bağlayıcıları olmuşdur.

«Dastani-Əhməd Hərami»nin dilində ***ki*** bağlayıcılı cümlələr üstünlük təşkil edir; məs.: Həm üç gövhər gətirmişəm dəxi uş, Qəbul etsin ***ki,*** könlümüz ola xoş.(DƏH) Xocalar endi(lər) atlı atından ***Ki,*** bununla görüşmək niyyətindən. (DƏH)

Bu misallarda budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır. Son misalda budaq cümlədəki «görüşmək niyyətindən» sözlərini «görüşsünlər» şəklində də işlətmək mümkündür, yəni budaq cümlə indiki halda da arzu bildirir.

«Oğuznamə»nin, «Yusif və Züleyxa»nın, «Mehri və Vəfa»nın dilində məqsəd budaq cümləsini baş cümləyə bağlayan ***kim*** və ***ki*** bağlayıcıları təqribən bərabər kəmiyyətdə işlənmişdir. ***Kim*** bağlayıcısı ***ki***dən yalnız bir qədər üstündür. Baş cümlədə qəlib söz yoxdur.

Kim bağlayıcısı ilə: Ol mötəbər aydər: Ani altuni Bənə vergil ***kim,*** sevindürüm səni. (Suli) Dua qıl ***kim,*** haqq bənə oğul virə. (Suli) ***Anun-***

çün işbu şəhrə gəlmişəm ***Kim,*** səni alaydım, gedəydüm. (Suli) Ol Çələb dərgəhına yalvaruram ***Kim***, bənə həq tanrı bir oğul virə. (Suli) Səbr qıl ***kim***, bulasin altun külah. (Suli) Ver salavat ***kim***, sözün olsun əsül. (MV) Ertə durdu ***kim***, gedə girə yola. (MV) Bən gətürdüm ***kim***, səni verim buna. (MV) Durdu Vəfa bağda ***kim***, yemiş dərə. (MV) Okı, gəlsün anı sultan bağına ***Kim***, bən anun ay yüzüni görəyim. (MV) Bir qədəh bənüm əlimdən iç, ey yar, ***Kim***, bizim dərdimizə ola timar. (MV)

Ki bağlayıcısı ilə: Qırağu (qırov) ***anun içün*** yağar ***ki,*** əli-ayağı üşüdə. (Oğuz.) Yapdur ani ***kim,*** səvinə bu canum. (Suli) Bir gəmi düzdi ***ki***, yağıdan qaça.(MV) Bir qaçı gəldi ***ki***, eyləyə şikar. (MV) Bürc dibində dur ***ki,*** gəlim gedəvüz.(MV) Bir qaç əyaq bənim əlimdən şərab İç ***ki***, qalmasun ara pərdə, hicab. (MV) İç ***ki***, getsün aramızdan qeylü qall.(MV) İki qul qoydu ***ki***, siz burda durun, Daim ol surətə qarşu oturun. (MV)

Qazi Bürhanəddinin dilində məqsəd budaq cümləsinin əsasən bağlayıcılı növü işlənmişdir. Budaq cümlə baş cümləyə daha çox ***ki*** və ***ta, ta ki*** bağlayıcıları ilə bağlanmışdır.

Ki bağlayıcısı ilə: Bülbül yenə çağırdı ***ki***, fəryad şad ola, Qəddün yenə salındı ***ki***, şümşad şad ola.(QB) Gözünə ax-qara deməzəm **ki**, şəhla duymasun.(QB)

Adətən, ***ki*** bağlayıcısı baş cümlənin xəbərindən sonra işlənər, lakin şairin dilində onun yeri sərbəstdir, yəni baş cümlədə üzvlər arasında inversiya olduğu üçün ***ki*** bağlayıcısı bilavasitə xəbərin yanında işlənməyə də bilir; məs.: Müfərrih sun dilə ləli-ləbündən ***Ki,*** düşməyə saçun ilə xəyalə. (QB) Canuna ver canı ***ki,*** tənün cansuz olmaya (QB) və s. Bu hal indi də poeziya dilində mövcuddur.

Ki bağlayıcısı bəzən ***yəni*** sözü ilə birgə işlənmişdir: Tənümi al boyadı gözlərümün yaşı ilə, Yaxdı içümdə odın, ***yəni ki*** fanus eyləyə. (QB)

Ta, ta ki, ta kim bağlayıcıları ilə. Məqsəd budaq cümləsi ***ki*** bağlayıcısı məqamında işlənmiş ***ta, ta ki, ta kim*** bağlayıcıları ilə də baş cümləyə bağlanmışdır: Sən sitareyi götür, ***ta ki*** bu dövründə sənün Şəmsi biləsin nədür, ***ta kim*** nə bilisər qəmər. (QB) Zülfünə de ki, boynumı bəndinə gəmişə, ***Ta*** bir gecə bəni sənün ilə görə bədxah. (QB)

Qazi Bürhanəddinin dilində olduğu kimi, Nəsiminin dilində də məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***kim***, ***ki***, ***ta, ta ki*** bağlayıcılarıdır.

Kim bağlayıcısı ilə: Canını tərk eylə ***kim,*** bu yolda canan bulasan. (Nəs.)

Ki bağlayıcısı ilə: Sünbülünü gül üstünə qoyma ***ki,*** yeli dağıda, ***Ta ki*** xəyali-xam edən fikri-məhalə düşməyə. (Nəs.)

Ta ki bağlayıcısı ilə: Kəbə üzündür, ey sənəm, üzünədir sücudumuz, ***Ta ki*** görə bu səcdəyi, narə yana həsudumuz. Canımızı buraxmışız

atəşi-eşqə ud tək, ***Ta ki*** səfavü zövq ilə eşqinə yanə udumuz. (Nəs.) Görsət üzünü bir kərə, ***ta kim*** Nəsimi can verə. (Nəs.)

Füzulinin aşağıdakı misralarında da ***ta*** sözü məqsəd bildirən ***ki*** bağlayıcısı məqamında işlənmişdir: Təmkinimi bəlayi-məhəbbətdə qılma süst, ***Ta*** dust tən edib deməyə bivəfa məni. (Füz.)

Bəzən budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmış, budaq cümlənin əvvəlində ***ta*** ədatı da işlənmişdir: Mənsuri-eşqə axirətin darı oldu dar, Ol darə gəl ***ki, ta*** görəsən onda darimi. (Nəs.)

Beləliklə, göründüyü kimi, məqsəd budaq cümləsinin ən qədim modeli müasir modeldir, əsas bağlayıcı vasitələr isə intonasiya, ***kim, ki, ta, ta ki, ta kim*** bağlayıcılarıdır. Baş cümlələrin heç birində qəlib söz yoxdur. Bunlar budaq cümlə modelinin çox qədim olduğunu göstərir.

Qeyd etdiyimiz bağlayıcılar sonrakı mərhələdə də işləkliyini davam etdirmişdir.

Xətainin dilində ***kim*** bağlayıcısı məhdudlaşmış, ***ki*** bağlayıcısı ilə müqayisədə çox seyrək işlənmişdir; məs.: Fərzəndinizi mənə bağışlə ***Kim***, *elçi qılım o dilrübayə, Şayəd ki, bulam onunla vayə*. (Xət.)

Şair ***ki*** bağlayıcısı məqamında ***ta*** bağlayıcısından da istifadə etmişdir: Üzr etdim anında bir mükafat, ***Ta*** *qalmaya ortada münafat*. (Xət.) Məndən apar ona naümidi, ***Ta*** *dutmaya vəslimə ümidi*. (Xət.)

Xətainin dilində məqsəd budaq cümləsini baş cümləyə bağlamaq üçün ***çün*** bağlayıcısına və bağlayıcı məqamında ***şayəd*** sözünə də rast gəlirik: Fərxəndə cəmalına nəzər qıl, ***Çün*** *görə gözün rüxi-dilaram*. (Xət.) Nomid oturma, gəl vüsalə, ***Şayəd,*** səni hicr əlindən alə. (Xət.)

Lakin Şah İsmayıl Xətainin dilində məqsəd budaq cümləsini baş cümləyə bağlayan əsas vasitə ***ki*** bağlayıcısıdır. Bu bağlayıcı işləklik etibarilə çox fəaldır: Hümmət eylə sən ***ki***, *daima gələ,Yaman-yaxşı bizim yüzümüz gülə.*(Xət.) Müsafir gəlir ***ki,*** *qisməti bilə*. (Xət.) Həq duta əlin ***ki***, *dutasan əl*. (Xət.) Əzm etdi həvəs ***ki,*** *yaza namə.*(Xət.) Qovl etdi mənə ***ki,*** dan atan çağ, Olmuş ola namə cümlə təhrir, Hər ərzə ki var, içində təqrir, *Gəlim, aparım onu nigaRa.*(Xət.) Aldım qələmi ***ki,*** *namə yazım.* (Xət.) Oxudum onu ***ki,*** *qalmaya şək.*(Xət.)

Füzulinin, Saibin dilində məqsəd budaq cümləsini baş cümlə ilə əlaqələndirmək üçün daha çox ***kim*** və ***ki***, bəzən də ***ta kim*** bağlayıcılarından istifadə edilmişdir.

Kim bağlayıcısı ilə: Saqi, gətir ol meyi-mağani ***Kim***, unudalım ğəmi-cəhani. (Füz.) Söylərdi bənəfşəyə ğəmi-dil ***Kim,*** söyləyə yarə olsa vasil.(Füz.) ***Onun üçün*** sevirəm mən dili-sədparəmi ***kim***, Çeşmi-bimari-və hər gün ola bir parə fəda. (Qövsi)

Ki bağlayıcısı ilə: Gəldim ***ki,*** olam qəmin hərifi.(Füz.) Əl urdu ***ki,*** açа ol niqabi.(Füz.) Əzm eylədilər ***ki***, edələr dəf. (Füz.) Qıl çarə ***ki***, düşmən olmaya şad. (Füz.)

Ta kim bağlayıcısı ilə: Zövq ilə tutub təriqi-sabiq Adəti üzərinə sübhi-sadiq Gəldi yenə məktəbə fərəhnak, ***Ta kim*** qıla zövqi-vəsli idrak. (Füz.)

Məsihinin dilində müasirlik güclüdür. Şairin dilində ***ki*** bağlayıcısı üstünlük təşkil edir, ***kim*** çox az işlənmişdir. Məsihi ***ta, ta ki, ta kim*** bağlayıcılarından da istifadə etmişdir. Bunlar da onun xalq dilinə geniş yer verməsi ilə əlaqədardır.Məs.: Getdim ***ki***, qılam bu dərdə dərman. (Məs.) Pəs anasi gəldi ol miyanə, Gəldi ***ki,*** duya həqiqəti-raz. (Məs.) Gəldim ***ki,*** pozam bu dəstgahın.(Məs.) Pəs anası gəldi ol miyanə, ***Ta*** mürğinə verə abü danə. (Məs.) Düşdülərü qondular bərabər, ***Ta*** dinlənə bir dəm anda ləşgər. (Məs.) Nəsb eylədi hər tərəf qəravül, ***Ta*** yetmiyə onlara tətavül. (Məs.) Çağırdı pəs ol pəri xisali, ***Ta*** bir də görə rüxi-vüsali. (Məs.)

Nəzərdən keçirdiyimiz faktlar göstərir ki, bağlayıcı vasitələrdən istifadə hər bir sənətkarın üslubu ilə bağlı olsa da, ***kim*** və ***ki*** bağlayıcıları minillik boyu davam etmiş, daha sonrakı mərhələdə *ki* bağlayıcısının üstünlüyü ilə bağlayıcılı məqsəd budaq cümlələri sabitləşmişdir. ***Ta ki, ta kim*** bağlayıcıları canlı danışıq dilində qalmışdır.

Yəqin ki, danışıq dilində ***ona görə ki, ondan ötrü ki, o məqsədlə*** tipli müxtəlif bağlayıcı vasitələr də olmuş, lakin şeir dili onların bir çoxunu əhatə edə bilməmişdir.

ŞƏRT BUDAQ CÜMLƏSİ

Tamamlıq budaq cümləsi kimi, şərt budaq cümləsi də bizim orta əsr ədəbiyyatının dilində geniş işlənmə imkanları, rəngarəng bağlayıcı vasitələri ilə diqqəti cəlb edir.

«Kitabi-Dədə Qorqud»un dilində son dərəcə işlək cümlələrdəndir. Lakin boyların dilində yalnız "budaq cümlə + baş cümlə" quruluş tipi müşahidə olunur. Bağlayıcı vasitələrə görə bu tipi aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ***sintetik*** şərt budaq cümlələri; daha işlək olan bu modeldə budaq cümlə baş cümləyə şərt şəkilçisi ***-sa,-sə*** ilə bağlanmışdır; məs.:

Qarşu yatan qara qarlı tağlardan ***aşar olsa***, allah-təala sənin oğlına aşut versün. (54) Ağ saqallu atanı, ağ birçəklü ananı ***sorar olsan***, sağdır, Bamsı! (59) ***Gəlməz olsan***, Baybican qızı Banıçiçəgi aldırdın, bəllü bilgil.(59) Mərə çobanlar, bir kişi yolda taş ***bulsa,*** yabana atar. (60) Keyik ***olsa,*** bir, ya iki bölük olurdı. (69) Baba, içində bəy yigitlər ***öldürsələr,*** qan sorularmı, də'vilərrmi? (70) Ol zamanda oğul ata sözin iki eləməzdi. İki ***eləsə,*** ol oğlunı qəbul eləməzlərdi. (71) Deməz ***olsan,*** yana-göynə qarğaram, a Qazan, sana. (73) Qarşu yatan qara tağlar ***istər olsa,*** el yaylar. (75) Qarşu yatan qara tağlar ***qarısa***, otı bitməz, el yaylamaz. (76) Souq-

souq suların ***içər olsam,*** mənim qanım olsun! (83) Bəg yigit, baş ***əsən olsa***, börk bulınmazmı olur? (91) Daim gəldügində ***tursa,*** dövlət yaxşı. (96) Arıq ***olsa,*** qulağın dələrdi. (104) At ***işləməsə,*** ər ögünməz. (104) Bəg yigidim, qalabalıq yağı ***gəlsə***, qayıtmaz idin. Bütünə ala ox ***toxunsa,*** əgilməz idin.(106) Ana həqqi tənri həqqi ***olmasaydı,*** qafillücə görkli başın kəsəydim. (111) Yerə dəxi ***düşsə,*** toz kibi savrılardı. (48)

Bu cür cümlələrin bir qismində ***isə*** şərt ədatının ixtisar şəklindən istifadə edilmişdir: ***Çalırsan***, ələün qurısun.(56) Nagah qaçma-qovma ***olarsa***, birisini binəm, birisini yedəm. (55) Dədə, mən üçini ***buluramsa,*** ikisini sən bulurmısan? (56) Bir yildə ***gəlməzsəm,*** iki yil baqqıl. ***Gəlməzsəm,*** ol vəqt mənim öldügimi biləsən. (112)

Budaq cümlə ismi xəbərli olduqda ***isə*** köməkçi sözünün hər iki formasına rast gəlmək olur: Ağ saqallu baban ***var isə***, ağlatmağıl. (108) Hünərin ***var isə***, qartaşın Əlincə qəl'əsində əsirdir, var, anı qurtar. (111) Souq-souq binarlarım ***gərəksə***, ana içət olsun! (81)

Bəzi cümlələrdə ***-sa,-sə*** bütün xəbərlərə artırılmış olsa da, onların hamısı budaq cümlə əmələ gətirə bilmir, bir qismi sadəcə olaraq arzu, istək mənası ifadə edir; məs.: Mənim dəxi oğlım ***olsa,*** xan Bayındırın qarşusın ***alsa-tursa, qulluq eyləsə***, mən dəxi ***baqsam sevinsəm, qıvansayum, güvənsəyim*** (52) - cümləsini müasir dildə: *Mənim də oğlum olsaydı, xan Bayındırın qarşısın alıb dursaydı, qulluq eyləsəydi, mən də sevinərdim, qıvanardım, güvənərdim* - şəklində nəticə çalarlı şərt budaq cümləsi kimi düşünmək olar.

Bu xüsusiyyətə Suli Fəqihin «Yusif və Züleyxa», Qul Əlinin «Qisseyi-Yusif» məsnəvilərində də rast gəlirik:

Adəm oğlanı ***günah etsə*** gərək
Sonra girü təbəsin ***tutsə*** gərək. (Suli)
Yusif aydır: Şah ***buyursa***, ***əmr qılsa***,
Xəzinədar xəzinəyə ***nəzər qılsa***,
Nə qalmışdur xəzinədə varub ***görsə,***
Gəlüb şaha ***xəbər versə***, deyür imdi. (QY)

Suli Fəqihin ikinci misrasında ***tutsə*** sözü *tutmalıdır, gərək tuta* mənasındadır. Əlinin «Qisseyi-Yusif» əsərindən verdiyimiz əvvəlki üç misrada şərt şəkilçisi həqiqətən şərt mənası yaratmaq üçün işləndiyi halda, son misrada əmr və ya xəbər şəkli məqamındadır: yəni xəzinədə nə qaldığını görüb xəbər versin.

Sintetik şərt budaq cümlələrində komponentlərin inversiyası fikrin aktuallaşdırılması ilə bağlıdır və dilimizin müasir normalarına tam uyğundur; məs.: Baba malından nə faidə, ***başda dövlət olmasa.*** (31) Yarın qiyamət günində mənim ələüm Qazan xanın yaqasında olsun, ***mənim qanım Aruza qoarsa.*** (125)

Amma gətirməyəcək ***olursan****, bu qatla öldürmədim, ol vaqtın öldürərin* – cümləsində *olursan* sözündə *–san* bütövlükdə şəxs şəkilçisinə bənzəyir. Lakin burada *–sa,-sə (isə)* şəxs şəkilçisindən **(*-n*)** əvvəl işlənmişdir. Müasir dildə ***–sa,-sə*** şəxs şəkilçisindən sonra işlənir – *olursansa* şəklində. Bu cəhət nəzərə alınmazsa, «Altun üzüyü istərsən, nişanın söylə!» tipli cümlələr asindetik (intonasiya ilə qurulan) cümlə kimi başa düşülər. Əslində isə, bu cür sözlər təsriflənən kimi, *-sa,-sə* özünü göstərir: *istər-sə-m, istər-sə-n, istər-sə.*

b) ***analitik*** şərt budaq cümlələri; şərt budaq cümləsinin bu növü baş cümləyə ***çünki, çünkim, əgər*** bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: ***Çünki*** Qazan bəgdən buyruq olubdur, qon otursın. (64) ***Çünki*** ər dilərsən, varub babanı qurtarsana. (94) ***Əgər*** böylə öldürməzsin, bir dürlü dəxi öldirəməzsin, bəlli bilgil. (37) ***Əgər*** bu dedigim nəsnələri gətürərsiniz, xoş, verdim. ***Çünki*** dedin, əlbətdə, varsam gərək. (86)

Bu cümlələrdəki ***çünki*** sözü hələ bağlayıcı kimi formalaşmamışdır, ***bir halda ki*** bağlayıcı sözü məqamında işlənən bağlayıcı sözdür.

Çün sözü ilə: ***Çün*** *böylə oldu, haman imdi irəli durmaq gərək, bəy oğlu! Qız,* ***(çün)*** *sən ərə varırsan, (barmağındakı) altun üzük mənimdir, ver mana, qız! – dedi.*

Mətnə əsasən bu cür cümlələr «belə olduğu üçün» yox, «bir halda ki belə oldu» mənasını ifadə edir.

c) ***analitik-sintetik*** şərt budaq cümlələri; şərt budaq cümləsinin bu növü baş cümləyə 'əgər' bağlayıcı sözü və ***isə*** (***-sa,-sə)*** şərt ədatı ilə bağlanmışdır; məs.:

Dərsə xan ***əgər*** oğlancığın ***görərsə***, oturmaz, bizi həb qırar. (40) ***Əgər*** çobanla ***varacaq olursam***, Qalın Oğuz bəgləri bənim başıma qaqınc qaxarlar. (46) ***Əgər*** sənin atun mənim atumı ***keçərsə,*** onun atını dəxi keçərsən. (54)

Bəzi şərt budaq cümlələrində ***ki*** ədatı ilə ***-sa,-sə*** şəkilçisinin birgə işləndiyi də müşahidə olunur: Oğuz zamanında bir yigit ***ki evlənsə,*** ox atardı. (57) Bu forma zaman çalarlı olub, müasir dil baxımından arxaik sayılır.

«Kitabi-Dədə Qorqud»la XIII – XIV əsrlər arasında xeyli boşluq var. Əlimizdə bu dövrə aid yazılı mənbələr yoxdur. Lakin XIII–XIV əsrlərə aid bədii ədəbiyyat nümunələri o qədər səlis, cilalanmış və kamil əsərlərdir ki, onları təşəkkül dövrü nümunələri hesab etmək qeyri-mümkündür. Bu dövrün dil normalarını öyrənmək üçün «Dastani-Əhməd Hərami»nin (XIII əsr), Əlinin «Qisseyi-Yusif» (1212), Suli Fəqihin «Yusif və Züleyxa» (1218), İsanın «Mehri və Vəfa» (1371/72), Yusif Məddahın «Vərqa və Gülşah» (1368/69) əsərlərinin, Qazi Bürhanəddin, Nəsimi divanlarının dili çox zəngin material verir.

Şərt budaq cümlələri məna çaları ilə fərqlənir.

1.Bir qisminin baş cümləsindəki iş icra edilmiş olur: Mənim kimi cannisarın ***olmasa***, Düşər ol dəm çox sorağa ləblərin.(Qurbani)

2.Baş cümlədəki işin icrası budaq cümlədəki işdən asılıdır. Əgər budaq cümlədəki iş icra olunarsa, baş cümlədəki işin də icrasına inam var. Belə cümlələr mənbələrin dilində aparıcıdır: Neylərsən ***əgər*** atan ***eşitsə***, Qəhr ilə sənə ***siyasət etsə***? (Füz.) ***Eşidərsə*** daş ərir həsrətdə ahü zarımı. (Nəs.)

3.Budaq cümlədəki fikir mümkün deyil, ona görə baş cümlədəki fikir də irrealdır: Bu vüsalə yuxu əhvalı demək mümkün idi, ***Əgər olsaydı*** yuxu dideyi-giryanimizə. (Füz.) ***Olsaydı*** mənim sözümdə bir hal, Əlbəttə, olurdum əhli-iqbal.(Füz.)

«Dədə Qorqud»dan sonrakı dövrlərdə də şərt budaq cümləsi baş cümləyə aşağıdakı üsul və vasitələrlə bağlanmışdır.

Sintetik şərt budaq cümləsi. «Dədə Qorqud»da olduğu kimi, nəzərdən keçirilən dövrün ədəbi dilində şərt budaq cümləsi baş cümləyə daha çox ***-sa,-sə*** şərt şəkilçisi ilə bağlanmışdır. Şərt budaq cümləsinin bu növü müasir normalara tam uyğundur. Məs.: Eyilügə ***eyilig olsa***, öküzə bıçaq urulmazdı. (Oğuz.) Oğlana ***üz versən***, başdan aşar. (Oğuz.) Atlar ***dəpişsə,*** arada eşək ölür. (Oğuz.) Tanrıya ***yalvarsaydın*** işbu dəm, Tanrı sənə bir fərəh virərdi həm. (Suli) ***Qığırırsa,*** qatinə varmayalum. (Suli) Qılıc ***salsa,*** bin ərə təpinəydi. (DƏH) Dün *ol**sa***, yolların gözlərlər idi. (DƏH) Fəsad ***etsə***, könüldən eylər idi. (DƏH) Mən bu gün ***səbr eyləsəm***, danla fəğanı neylərəm? (Nəs.) Borclu ***görsə***, həm anın borcun verür. (MV) Mən ***ölsəm***, sən büti-şəngül, sürahi eyləmə qül-qül. (Həs.) Sən ***deməsən,*** bən olur idim həlak. (YM) Yuxarudan yüzün anın ***görsə*** gün, Düşə gögdən yerə, ola sərnigün. (MV)

Bu cür cümlələrin bir qismində tərəflər inversiyaya uğramışdır: Yeridir, daşlara ***dögsəm*** başım mən. (DƏH) Çıxar qoxusı, oda ***düşsə*** ənbər. (QB) Oda yaxar mənbərini ***görsə*** ani həm xətib. (Nəs.)

A.Annanurov qeyd edir ki: «Fikrimizcə, *-sa,-sə* şəkilçili cümləni təyin etmək, bu və ya digər bir növə aid etmək üçün ***–sa,-sə*** şəkilçisinə deyil, budaq cümlənin hansı sözün əsasında baş cümləyə bağlanmasına əsaslanmaq lazımdır»[1]. Bu fikir təbiidir, çünki *–sa,-sə* şəkilçisi, demək olar ki, bütün budaq cümlə növlərini baş cümləyə bağlamağa xidmət edir. Odur ki onun şərt budaq cümləsi əmələ gətirib-gətirmədiyini və ya

[1] А.Аннануров.Основные вопросы сравнительного синтаксиса русского и туркменского языков в плане переводческой работы. Nam. diss., Aşxabad, 1953, s.198.

hansı budaq cümləyə xidmət etdiyini öyrənmək üçün cümlənin məzmunu ilə yanaşı, digər bağlayıcı vasitələrə də diqqət yetirmək vacibdir.

Şərt budaq cümləsinin sintetik növü çox fəaldır. İ.Quliyev Qazi Bürhanəddinin dili üzərində müşahidələr apararaq yazır: «Beləliklə, Qazi Bürhanəddinin yüz qəzəlində (QB., s.400-441) işlənmiş sintetik tipli şərt budaq cümlələrinin sayı otuz altıya, analitik-sintetik tipli şərt budaq cümlələrinin sayı iyirmi dördə bərabərdir. Müşahidə göstərir ki, şairin dilində sintetik tipli şərt budaq cümlələrinin sayı digərlərinə nisbətən üstünlük təşkil edir»[1].

M.Cəfərzadə də tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən vasitələrdən *-sa, -sə* şəkilçisinin fəal mövqeyini qeyd edərək göstərir ki, ədəbi dildə olduğu kimi, dialekt və şivələrimizdə də tabeli mürəkkəb cümlələrin təşkilində, müxtəlif budaq cümlə variantlarının qurulmasında ***-sa, -sə*** şəkilçisi əsas vasitə kimi çıxış edir[2].

Şərt budaq cümləsinin «Kitabi-Dədə Qorqud»da müşahidə etdiyimiz baş cümlə ilə inversiyası lazımi fikrin aktuallaşdırılması prosesində sonrakı dövrlərin poeziya dilində də özünü göstərir.

İsə şərt ədatının ixtisar şəkli şərt budaq cümlələrinin baş cümləyə bağlanmasında daha fəal olmuşdur: İraq yerə səni ***verir olursam***, Bənə (bir) dərddürür sənsiz ***olursam***.(DƏH) Bəni ana ***verirsə,*** hal düşvar. (DƏH) ***Mədəd olursa***, bənə andan olur.(DƏH) Olmasın kim, ya nigar, ah edəsən. Gər ***dilərsən,*** sağ-səlamət gedəsən. (YM) Hər kim səni ***deməzsə*** rəhman sifətli həqsən, İtirmiş ol qaragün həqq ilə həqşünasi. (Nəs.) ***Eşidərsə*** daş ərir həsrətdə ahü zarımı. (Nəs.) ***Yürüməzsə***, bən anı yürüdəyim.(YM) ***Ğalib olursa,*** üzügü verəsən.(YM) ***Olursa*** həqq-taaladan inayət, Qılam bu qisseyi bir-bir hekayət. (YM)

Tərəflərin yer dəyişdiyi hallar da çoxdur: Ey vay, bəni *dərdə* ***davam olmayısarsa,*** Bin vay, bini bu dərdə ***davam olmayısarsa.*** (QB)

Şərt budaq cümləsinin bu növü, təbii ki, ədəbi dilin sonrakı inkişaf mərhələlərində də işlənməkdə davam etmişdir; məs.: Sanmın ***günəş olsa***, nur salmaz.(Füz.) ***Olsaydı*** mənim sözümdə bir hal, Əlbəttə, olurdum əhli-iqbal.(Füz.) Gənc ***istəsən***, əjdahadan istə. (Füz.) Gül qönçəliyində xar iləndir, ***Açılsa,*** bir özgə yar iləndir. (Füz.) Hüsn ***olmasa***, eşq zahir olmaz, Eşq ***olmasa***, hüsn mahir olmaz.(Füz.) Arizindən ayrı ***fəryad eylərsəm,*** eyb eyləmən.(Ruhi) ***Eyləsəm*** vəslin ***təmənna***, bəxt yar olmaz ba-

[1] İ.E.Quliyev.Qazi Bürhanəddinin dilinin sintaksisi, nam. diss., Nəsimi ad. Dilçilik İnstitutu, Bakı, 2008, s.133.

[2] M.Cəfərzadə.Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, Azərnəşr, 1990, s.220.

na. (Ruhi) Gözinə ***çəkməsə*** ayağın tozni, Ruhiyi kim bilirdi əhli-nəzər? (Ruhi) Məşuqədən ***alsa*** qərz busə, Canü sər ilən əda qılan dil! (Xət.) Göz ***görməsə***, dil götürməz aram.(Xət.) Bir söz ***desəm,*** eyləmə itabi. (Xət.) Mənim kimi cannisarın ***olmasa***, Düşər ol dəm çox sorağa ləblərin. (Qurbani) Qəm əhliyəm, ***dindirməsən*** dinmərəm. (Qurbani) Üzünü ***görməsəm***, bataram yasə. (Qurbani) ***Çağırsam*** ağamı, yetişər dadə. (Qurbani) Dərdim çoxdu, nər-mayələr götürməz, Kərgədan ***olmasa***, fil mana göndər. (Qurbani) Ömr ***möhlət versə***, rüsvayi-cahan qılsam gərək. (Kiş.) Abi-heyvan çeşməsindən dadlıdır, ***Versə*** lələn çün bir içim su bizə. (Həb.) Süd ***içsə***, sanırdı kim, içər qan. (Füz.) Göz mərdüməgindən ***olsa*** xali, Göz mərdüməgi olurdu xali. (Füz.) Vallah, suya saru qurbağanı bir ***vursalar***, iki sıçrar. («Şəhriyar»)

Bu cür cümlələrin bir çoxunda tərəflər inversiyaya uğramış olur: Eyb eyləmə ***ağlasam*** bu halə. (Füz.) Bülbül əfğan eyləməzmi ***olsa*** gülşəndən cüda? (Ruhi) Bir laçınsan sarı, sarın ***olmasa***.(Qurbani) Bənzər der idim yüzünə gül, qəddinə sərvi, Pak ***olsa*** gülün daməni, sərv ***olmasa*** yekpa. (Xəl.) Zülfünü salma yüzinə, qılma günüm qara Kim, verməz ay işıq, ***düşər olsa*** səhab ana. (Hid.) Qalmaz dərdü qəmdən əsər, ***Görsəm*** yüzün cananımın. (Əmani)

Sintetik şərt budaq cümləsinin felin arzu formasının şəkilçisi *-a, -ə* ilə baş cümləyə bağlandığı hallar da müşahidə olunur: Güzgüdə ***görəydi*** öz-özünü, Öz arizinə olurdu meyli.(Füz.)

XVII-XVIII əsrlərin ədəbi dilində ***–sa,-sə*** şəkilçili budaq cümlələr səlis şəkildə davam etməkdədir: Bulmaq ***diləsən*** məni-zəlili, Ahim şərəri qılur dəlili. (Məs.) Qəribliyə ***düşsəm***, qan ağlar didəm. (Vaqif) Bir söz ***desəm***, olmayaydı qəzəbnak.(Vaqif) Xəstə Vaqif ***ölsə***, canına fəda. (Vaqif) Üzünü ***görməsəm,*** qopar qiyamət.(Vaqif) Adam aşıq ***bağlasa,*** gərək sınanmış aşıq ola. …əgər onun kamalı camalına görə ***olsa,*** mən bundan əl götürmənəm. («Şəhriyar»)

Analitik şərt budaq cümləsi. Şərt budaq cümləsinin bu növü baş cümləyə ***əgər//gər, şimdi ki, çü*** və ***çün*** bağlayıcı sözləri və ***ki*** ədatı ilə bağlanmışdır.

Əgər bağlayıcı sözü ilə: Xızr ***əgər*** zülmətdə istər çeşmeyi-heyvanını, Susamış müştaqə lələn abi-heyvan oldu, gəl! (Nəs.) **Əgər** su daməninin tutdum, rəvan döndərdi üz məndən. (Füz.) ***Əgər*** şərab verirsən, ayağa dur, saqi.(Qövsi)

Əgər bağlayıcı sözünün ixtisar şəkli ilə: Tutmaq dilərəm sənin kimi yar, Amma əcəb, **ər** sənin kimi var!? (Füz.)

Əgər bağlayıcı sözü sonrakı mərhələlərdə: Yazılmış ***əgər*** bu tərz təqdir, Mümkünmüdür olmağında təğyir.(Məs.) ***Əgər*** yarsan, gəl sarma-

şaq qol-boyun. (Vaqif) Şəhriyar da səfər rüsxətini sizdən istər. ***Əgər*** qəbul edərsiz, bir dua verin… («Şəhriyar»)

Əgər bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Eşit gəl bir Həraminin sözünü, ***Əgər görür isən*** məni yüzünü.(DƏH) Eytdi kim, e qız, etdin bənə sən, ***Əgər ölməz isəm*** edəm sənə mən.(DƏH) Sənə göstərəyim birbir bu gün bən, ***Əgər göstərməz isəm*** ər degiləm. (DƏH) Yarun ***əgər*** meylini ***anlar isən***, Çıx fələgün dəxi yedi qatına. (QB) Münkir ***əgər*** yox ***deyir isə***, uş müshəf, uş təfsirimiz. (Nəs.) ***Əgər inanmaz isən***, sor bu nüktə xalından. (Nəs.) ***Vər elçi isən***, oturma ğafil! (Füz.) ***Vər sandın isə*** ki, natəvanəm, Azürdeyi-möhnəti-cəhanəm, Həm şərt idi üzr qılmaq İrsal. (Füz.) ***Əgər yolçu isən***, körpünü dolan. (Xət.) ***Əgər mömin isən*** sən şahı tanı. (Xət) Zahid, ***əgər xəta isə*** ol zülfü sevdiyim, Qəbrim içində yalvarayım qoy ilanlara. (Fəz.)

Gər bağlayıcı sözü ilə: ***Gər*** görər vaiz üzünü, dəmbədəm eylər fəğan. (Nəs.) ***Gər*** inanmazsan, yüzügü uş nişan. (YM) ***Gər*** mərdsən, etməgil bəhanə. (Məs.) ***Gər*** Leyli üçündür iztirabın, İkrah ilə verməzəm cavabın. (Füz.) ***Gər*** sana gərək bu yolda qasid, Bir qutlu nəfəs, Səbadır adı.(Xət.) ***Gər*** müsəlmansan, Hidayət, tərki-Quran eyləmə. (Hid.) ***Gər*** inanmırsan, bir oq atgil mana qarşu sına. (Kiş.)

Tərəflərin inversiyası: Yenə getdi əqli, gəlməz başına, Eşq əsər eylər**,** ***gər*** uğrar taşına.(MV)

Gər bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: ***Gər aşiq isən***, könlünü arıt. (Nəs.) ***Gər*** qəbul ***olur isə*** bu hacətim, Bunların fərmanı ola taqətim. (YM) ***Gər aşiq isən*** sən, ey cahangərd, Qaçma ki, mənəm səninlə həmdərd. (Füz.) ***Gər var isə*** rəhmin, eylə çarə. (Füz.) ***Gər aqil isən***, nədir bu halət? (Füz.) ***Gər elçi isən***, yetir pəyamın! (Füz.) ***Gər*** səadət küncini bulmaq ***dilərsən***, fani ol. (Xət.) ***Gər*** lələn ***isə*** çü Şirin, ey yar, Fərhad gərəkdir ona bir zar. (Xət.)

Sonrakı mərhələdə: ***Gər dutmaz isən*** sözüm xətadur, Axırda mənə, sənə cəfadur. (Məs.) ***Gər istər isən*** rüxi-səlamət, Məndən sana yetməsin məlamət, Döndər dövrün əvvəlki halə. (Məs.) ***Gər*** oldu ***isə*** məhəbbətin sir, Dəxi ona nə əlacü tədbir?! (Məs.) ***Gər aqil isən***, eşit nəsihət. (Məs.)

Çü bağlayıcı sözü ilə: Bu hüsn məmləkətinə ***çü*** sən Süleymansın, İnayətün, a bəgüm, Asəfə gərəkməzmi? (QB) ***Çü*** dərdün böylə müzmərdür könüldə, Neçün olmaz canun canuma müdğəm. (QB) Vəhdət dəmində dərvişü sultan ***çü*** bir imiş, Gəl xəstədil Nəsimi, qəbul eylə şalını. (Nəs.)

Bu misallarda ***çü*** sözü «bir halda ki» mənasını ifadə edir.

Çün bağlayıcı sözü ilə: ***Çün*** oldı adın Rəşid, bir söylə, bir eşit. (Oğuz.) Könül, şaha, gözündə ***çün*** guşənişin oldı, Əhli-kərəmə ikram

vacib ola mehmanə (QB) Xəstə Nəsimi, yarın əhvalını heç sormaz, Sormağına ***çün*** gəlməz, barı gələ yasına.(Nəs.) Canını verdi Nəsimi ***çün*** saçın zəncirinə, Neçin anın məskənin zəncirü zindan eylədin? (Nəs.) ***Çün*** bunu verdin bana, sən sakin ol. (YM) ***Çün*** cənnət əhlidir, nə verürsən əzab ona. (Hid.)

Sonrakı mərhələlərdə də ***çün*** bağlayıcı sözü şərt budaq cümləsi tərkibində «bir halda ki» mənasını ifadə edir: ***Çün*** ol sənə qıldı mehribanlıq, Yaxşılığa eyləmə yamanlıq! (Füz.) ***Çün*** əbr deyilsən, olma giryan! ***Çün*** seyl deyilsən, etmə əfğan! (Füz.) ***Çün*** cənnət əhlidir, nə verürsən əzab ana. (Hid.)

Bu cümlələrdə ***çün*** bağlayıcı sözü ***əgər, bir halda ki*** bağlayıcı sözlərinin mənasına müvafiq məna ifadə edir. H.Mirzəzadə yazır ki, XIV-XVIII əsrlərin yazı materiallarının dilində işlənən *çün* və *çu//çü* bağlayıcıları vəzifə etibarilə dəyişməsə də, mənaca xeyli geniş olmuş, dilimizdə *ona görə, çünki, elə ki, o vaxt ki, madam ki, ancaq, amma, kibi//kimi, gər//əgər, sanki, elə bil ki, bir sözlə, demək, axırda, üçün, görə* kimi bağlayıcı, ədat, modal sözləri əvəz etmişdir[1].

Çünki/çünkim bağlayıcı sözü ilə: ***Çünki*** şükrün var dəxi, qüssə yemə.(Suli) ***Çünki*** bu ğəddarı sən qıldın əsir, Gətir imdi əlimə sən bunu ver. (YM) Uşbu işə ***çünki*** bən basdum qədəm, Götürəyim anı sənə uşbu dəm. (MV) ***Çünkim*** aydırsan həqi hər yerdə hazırdır, neçün Fərq, ey qafil, edirsən məscidü meyxanəyi? (Nəs.) Ey oğul, ***çünki*** mənim sözümü qəbul və məni getməgə rəva görmədin, qulaq as gör nə deyirəm. («Şəhriyar») ***Çünki*** bu əmrə razı deyilsən, atan səni bidamağ etməz. («Şəhriyar»)

Şimdi ki bağlayıcı sözü ilə: Yar kənara gəlicək bən çü miyana gəlmişəm, ***Şimdi ki*** irdi firqəti, dərd ilə cana gəlmişəm. (QB)

Ki ədatı ilə: Ləli-ləbün ***ki*** eyni-həyat oldı ver bana, Hərgiz qayurmağil yerinə bu həvasili. (QB) Ol *ki* dəva dərdidür, tənə nə möhtacı var, Ol ***ki*** degül böylə, pəs dərdi dəvadan degül (QB) Can *ki* sirab oldı ana bən necəsi can deyəm, Can dedügüm oldurur ki, bir əzizə təşnədür (QB) Həva ***ki*** qıldı pərişan nigar gisusını, Nə lazım ola dili qıldı isə zirü zəbər? (QB) Canda ***ki*** eşq olmadı, dildə xəbər nə faidə, Gözdə ***ki*** görmək olmadı, nuri-bəsər nə faidə. (Nəs.)

Kim və ***ki*** ədatları sonrakı dövrdə: Bizdən ***ki*** usandı, yarı kimdir? (Füz.) Mən ***kim*** sənindəm, sənindir ol həm. (Füz.) Təşrif ***ki*** buyurdun, götürdün qədəm, Gərəkdir payinə üz nisar edəm. (Vaqif) Yarlıqda ***ki*** yoxdur xəyalın sənin, Bəs dünyada yarınmağın nədəndir? (Vaqif)

---

[1] H.Mirzəzadə. Yazılı abidələrimizdə işlənən ***çün*** və ***çü*** bağlayıcıları haqqında. ADU-nun Elmi Əsərləri, № 1, Bakı,1965, s.21.

İsə şərt ədatının köməyi ilə: Önümə aş qo, iki əlim boş qo; ***yeməz isəm,*** başıma taş qo. (Oğuz.) ***Yoxsul isən***, sənə altun virim, ***Yəlın isən***, sənə ton geydürim. (Suli) Şimdi özün ***dilər isən***, yetür özüni bul bəni. (QB) Xoş yigitdir, ***dilər isə***, verəlim. (YM) Sözüm ***yanlış olur isə*** utanam. (DƏH) ***Söylər isən***, şeytanı şad idərsən. (Suli) İyləyücək öp dodağından anı, Şükr anə ***dilər isə***, vergil canı. (MV) İyiliklə qız ***verir isə*** alam, ***Verməz isə*** bilirəm bən nə qılam. (YM)

İsə ədatı ismi xəbərli şərt budaq cümlələrinə də artırılmışdır: Əcəbdir, bu xoca ***degil isə*** ol.(DƏH) Dedi: -Ya Vərqə, ***ər isən***, gəl bəri. (YM)

İsə şərt ədatı sonrakı mərhələdə daha da fəallaşmışdır: Könlün ***xoş isə***, təbəssüm eylə!(Füz.) ***Sufi isən***, alıb satma, Halalına haram qatma. (Xət.) Sən ***varmaz isən***, varıram özüm. (Xət.) Yükün ***zülm isə*** arxandan buraxgil. (Xət.) ***Kəbədisə***, mən də birin yapmışam. (Qurbani) ***Olmaz isə*** eşq, hüsn olur xar. (Füz.) ***Gönçə isən*** əndəlibiz, ***şəm isən*** pərvanəyiz. (Ruhi) Saçınğa ***dedim isə*** nafeyi-Çin, pərişan bolma, bolmaz qul xətasız. (Kiş.)

Analitik-sintetik şərt budaq cümləsi. Şərt budaq cümləsinin bu növü də fəal işlənmə imkanları ilə diqqəti cəlb edir.

Analitik-sintetik şərt budaq cümlələri aşağıdakı vasitələrlə baş cümləyə bağlanmışdır.

Əgər bağlayıcı sözü və şərt şəkilçisi ***(-sa,-sə)*** ilə: ***Əgər bulsa*** bəni, heç verməz aman. (DƏH) Şərh ***əgər qılsam*** cəmalın dəftərindən bir vərəq, Hər sözüm min fəsl olur, hər fəsl yüz min bablər. (Nəs.) Biri-birin bir *dəm* ***əgər görməsə***, Dönər idi bunların eyşi yasə. (YM) Mədəni-ruh ***əgər desəm*** ləblərinə, əcəb degil. (Nəs.)

Sonrakı dövrün dil materialları içərisində ***əgər*** bağlayıcı sözü və şərt şəkilçisi ilə baş cümləyə bağlanan şərt budaq cümlələri xüsusi nəzərə çarpır. Misallar: Neylərsən ***əgər*** atan ***eşitsə***, Qəhr ilə sənə ***siyasət etsə***? (Füz.) Yaşırıb saxlardım eldən dağı-hicranın, ***əgər Etmək olsaydı*** müdara dideyi-giryan ilə.(Füz.) Bu vüsalə yuxu əhvalı demək mümkün idi, ***Əgər olsaydı*** yuxu dideyi-giryanimizə. (Füz.) Nəqdi-canın ***əgər*** ol simtənə ***sərf etsən***, Sanma, ey aşiqi-möhnətzədə, edə vəfa.(Ruhi) ***Əgər*** yolunda can verənə ***ərzi-cəmal etsən,*** Sana can vermədən aləmdə bir sahibnəzər qalmaz.(Ruhi) Kim dutar əlin ***əgər şər olsan***? (Xət.) Bir qönçəsən**,** ***əgər*** xarın ***olmasa***. (Qurbani) ***Əgər xəbər alsa*** yar əhvalımı, Könlüm şikəst, günüm qara deyərsən. (Qurbani) ***Müsaid olsa əgər*** ruzigar bizim ilə, Orada baş açubən ruzigarə yalvaralım. (Ham.) Dövri-hüsnində ***əgər qul olsa*** könlüm Yusifi, Olmasın yarəb kim, ol çahi-rüxündən çıxa. (Hid.)

Daha sonrakı mərhələdə: Baş açub ***əgər dağıtsa*** kakül, Aləm dola buyi-sünbülü gül. (Məs.) ***Qoysam*** qədəm ***ər*** fəzayi-seyrə, ***Açsam*** nəzər ***ər*** cəmali-qeyrə, Qaşım tək ola qədim xəmidə. (Məs.) ***Dil versəm əgər*** dəxi həvayə, ***Ləb açsam əgər*** dəxi nəvayə, Dil dərd odunun kəbabı olsun, Ləb qəm sözünün kitabı olsun. (Məs.) Çoxlar sənə iyma ilə baş əyər, Mum tək ərir, ***olsa*** bağrı daş ***əgər***. (Vaqif) …***əgər*** onun kamalı camalına görə ***olsa,*** mən bundan əl götürmənəm. («Şəhriyar») ***Əgər*** səndə eşq əlaməti ***olsa idi***, bu qədər vəqt tab qılmazdın və dura bilməzdin. («Şəhriyar») ***Əgər*** mürdə ***görsə***, zində olur. («Şəhriyar»)

Əgər bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Yar ***əgər mehrü vəfa etməzsə***, yoxdur zurimiz. (Ruhi) ***Əgər salih olursa*** sana canum, Qəriv eyləyə naqə can içindən. (QB) .) Can ***əgər getdisə***, sən sağ ol, mana candan nə qəm. (Kiş.)

Əgər bağlayıcı sözü və arzu (***-a,-ə***) şəkilçisi ilə. Hiss olunur ki, *əgər* bağlayıcı sözü əvvəlki dövrlərdə arzu şəkilçisi ilə daha fəal işlənmişdir; məs.: Dedi: bunlar ***əgər*** bizdən ***olaydı***, Bu vaxtın qancəri seyrin qılaydı. (DƏH) ***Əgər*** canum ***sevə***, könül verəyin.(DƏH) Şol büt ***əgər*** bizüm ***ola***, sanki olur cəhan bizüm.(QB) Ayıtdı: ***Əgər çağıram*** Vəfa ***dura***, Zəngilər ana qılıclar ura.(MV) Zöhrə ***əgər*** nazi-şivəsin ***görə,*** Fəryad edübən ura canın yerə. (MV) Eşqə bürhan gösdərür yüzün ***əgər*** Bir nəfəs lütfin bizümlə ***yar ola*** (QB) Cəllad tək gözləri alsa canımı, Namərdəm mən ***əgər aman eyləyəm***. (Vaqif)

Əgər bağlayıcı sözü və arzu şəkilçisi sonrakı mərhələdə Xətai, Rəhməti, Məsihi və b.-nın dilində də birlikdə çıxış edir: Can xoşdur ***əgər buluna*** canan. (Xət.) Hər yüzüm ***əgər olaydı*** yüz-yüz, Səndən kəsəmən o gözlərimni, Salam ayağına yüzlərimni. (Xət.) ***Əgər*** damən ***çəkə*** bizdən səlamət əhli, cayizdir. (Rəh.) Qürbət eldə ***əgər düşəm*** xəstə mən, Bulunmaz bir kimsə dərman eyləsün. («Şəhriyar») Xudavənda, ***əgər*** bunun kamalı camalına görə ***ola***, padşahlığa layiqdür. («Şəhriyar») Yarın şamaməsi oxşar şəkərə, Heyran olur mələk**,** ***əgər göstərə***.(Vaqif) …mən aşıqlara dostam, ***əgər*** aşıq ***ola***. («Şəhriyar»)

Gər bağlayıcı sözü və şərt şəkilçisi ***(-sa,-sə)*** ilə: ***Gər*** macal ***bulsam***, həbibin çövrüləydim başına. (Nəs.) Aləmdə bu gün sənciləyin yar kimin var, ***Gər*** var ***desən,*** yox deməzəm, var, kimin var? (Nəs.) Həq ***desəm gər*** hüsnünə, olmaz günah.(Nəs.)

Gər bağlayıcı sözü şərt şəkilçisi ilə birlikdə sonrakı dövrdə daha da fəallaşmışdır; məs.: ***Gər qılsa*** onu tələf həvadis,Yox bir xələfi ki ola varis. (Füz.) Oda ***yandırmasa gər*** şölə ilə nöh fələgi, Nə bitər atəşi-ahi-dili-suzanımdan? (Füz.) ***Gər gəlsə*** əcəl, mənim nəm ala? (Füz.) ***Gər*** səhhətə ***qadir olsa*** bimar, Dərdə özün eyləməz giriftar.(Füz.) Bu şeri ***gər oxusan*** dəmadəm, Məlumun olur mənim ğəmim həm! (Füz.) ***Gər*** şəmə

açılsa şərhi-razım, Sayəmdən olur min etirazım. (Füz.) ***Gər*** könlü ***xoş olsa,*** ərz qıllam. (Xət.) ***Gər*** firqəti ***salsan*** asimanə, Göylərdə fələk cəmisi yanə.(Xət.) Dodağun içrə dişüni gülər çağında ***gər görsə***, Xəcalətdən sədəf içində mirvaridi-tər qalmaz. (Kiş.) ***Gər*** sənincün ***qılmasam*** *çak*, ey büti-nazikbədən, Gorum olsun şol qəba, əgnimdə pirahən kəfən. (Həb.) Göz yaşı ***gər durmasa***, naseh, məni mən eyləmə.(Rəh.) Qeyrə ***gər*** mehrü vəfa ***qılsan,*** bana cövrü cəfa, Olmazam rəncidə səndən, çün budur adət sana.(Ruhi)

Sonrakı mərhələdə: ***Gər görsə*** cəmali-kəmalın, Eylər mələk arizu vüsalın. (Məs.) Sən ***gər*** mənim ***olsan*** fəna dünyada, Elə billəm, padişaha dönmüşəm. (Vaqif) Bir beləsi ***gəlsə gər*** sizə, Vaqif, Eylə səcdə, ikram, ayağından öp. (Vaqif)

Gər bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Doyımaya bu yürəgüm odına ahın, ***Gər irürsə*** həva vücudına ahın (QB) Bən nedərəm cümlə aləm mülkünü, ***Gər*** anınla ***olmazsa*** tacü külah.(YM) Söylə məqsudin nədir, bən biləyim, ***Gər əlimdən gəlirsə***, qılayım. (YM) ***Gər*** adına ***deyilmişsə*** şahibaz, Söylə görüm, onu atmaq nədəndi? (Qurbani) Dedi, ***gər*** sənin yüzün seyl ***axıdarsa,*** nəm gedər? (Hid.) ***Gər*** eşqi ***görərsə*** nöh fələklər, Çərx üzrə fələk yana mələklər. (Xət.) ***Gər*** muradın *can* ***isə***, əmr eylə, təslim eyləyim. (Ruhi)

Bu cür hallarda qeyd edilən vasitələr ismi xəbərlə də işlənmişdir: Küfr ***əgər iman deyilsə*****,** pəs niçün düşmüş ki, mən Küfri-zülfün həlqəsində nuri-iman bulmuşam? (Nəs.)

Gər bağlayıcı sözü və arzu ***(-a,-ə)*** şəkilçisi ilə: ***Gər*** əfsun oxuyub bir dəm ***ürəydi***, Oluq dəm ayı gögdən endirəydi. (DƏH) ***Gər*** ana ***olmaya fəda***, bəs nəmüz ola can bizüm. (QB) ***Gər gösdərə*** şol gisularun sərsərimuyi, Əqlü dilü can cümlə ola bər səri-muyi. (QB) Vücudi külli fəda ***gər qıla*** kişi yolına, Ömür yolına köyiməyə bir nəfəs əyyam. (QB) ***Söylənə gər*** Nəsiminin mədrəsədə məqaləti, Dərsini qoya mədrəsə, qiyl ilə qalə düşməyə.(Nəs.) İlla qorxum Vərqədəndir, ***gər*** anı ***Öldürəsən*** qəbul edəm bir səni. (YM) ***Gər*** mənim bu hikmətimi ***biləsiz***, Məmləkətdə padşahlıq qılasız. (MV) Kafərəm, ***gər*** mən bu xeyr işinə ***təxir eyləyim***. (Hid.)

Müasir dildən fərqli olaraq, Qazi Bürhanəddinin dilində şərt budaq cümlələrinin *əgər//gər* bağlayıcı sözləri və *-a,-ə* arzu şəkilçisi ilə baş cümləyə bağlanmasına geniş şəkildə rast gəlirik[1].

Gər bağlayıcı sözü arzu şəkilçisi ilə birlikdə XV-XVI əsrlərin və sonrakı dövrün ədəbi dilində də işlənməkdə davam etmişdir: ***Gər*** məndə

[1] İ.E.Quliyev.Qazi Bürhanəddinin dilinin sintaksisi, nam. diss., Nəsimi ad. Dilçilik İnstitutu, Bakı, 2008, s.133.

bir ***ixtiyar olaydı*****,** Əvvəldən ədəb şüar edərdim. (Füz.) Hər şuxdə ***gər olaydı*** bu tövr, Sən olmaz idin yeganeyi-dövr.(Füz.) ***Gər*** bir igidin ***düşə*** məlali, Yetər sana bildirincə hali.(Xət.) Hicran odu ***gər düşə*** zəminə, Yandıra zəmini-həftüminə. (Xət.) ***Gər*** tarağ diş ilə, ey Rəhməti, ol zülfü ***açа***, Düşə od canına yeldən, yana dəndanələri. (Rəh.)

Sonrakı mərhələdə: ***Gər*** nazı qədəm ***qoya*** miyanə, Tufani-bəla düşər cahanə.(Məs.) Gülşadə ***gər ixtiyar oleydi***, Haşa ki, qıleydi ol cüdalıq.(Məs.) ***Gər*** silsilə ***nəsb edəm*** cəmalə, ***Vər*** *xal* ***düzəm*** rüxi-xəyalə, Ol gərdənimə ola səlasil, Bəxtim üzünə ola o xal nil. (Məs.)

-a,-ə arzu formasının şərt mənasında işlənməsi müasir Azərbaycan dilində zəifləmiş, dialekt və şivələrimizdə qalmışdır.

Çün bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ol bu yüzügü nigarin ***çün görə***, Şək degil kim, ol sana nəsnə verə. (YM) Meyvənin taracıdur, ***çün*** bağ ***ola*** divarsız.(Kiş.)

Əgərçi bağlayıcı sözü və şərt şəkilçisi ilə: Mənsurivar ***əgərçi*** məni darə ***çəksələr,*** Darüş-şəfa derəm mən ani, dar bilmənəm. (Həq.)

Əgərçi bağlayıcı sözü və arzu şəkilçisi ilə: Xoşdur, ***əgərçi*** cümləsi bir yerdə ***cəm ola***, Avazi-cəngü nəğməvü tənbur ilən rübab. (Nəs.)

Hərgah bağlayıcı sözü və şərt şəkilçisi ilə: ***Hərgah ölməsəm,*** Şəhriyarı taparam və gətürürəm.(«Şəhriyar») Ey atayi-mehriban, ***hərgah*** iki dost bir-birin ***görməsə*** və rəsmiyyəti-məhəbbət ayinlərində möhkəm ***olmasa***, sifariş ilə ziyarət əmələ gəlməz və o iş bitməz. («Şəhriyar»)

Hərgah bağlayıcı sözü və arzu şəkilçisi ilə: Ey ustad, mən dərdimi səndən gizləmənəm, ***hərgah*** bir cüzvi işarə ***biləsən***. («Şəhriyar»)

Ki ədatı və arzu şəkilçisi ilə: Bir evdə ***ki*** kölə-qaravaş ***olmıya***, ol evin bərəkəti olmaz. (Oğuz.)

Dövrün poeziya dilində ***asindetik***, yəni baş cümləyə yalnız intonasiya ilə bağlanan şərt budaq cümlələri də vardır: ***İnanmırsan*****,** soruş Şahixubandan. (Qurbani)

Sintetik şərt budaq cümləsini baş cümləyə bağlayan şərt şəkilçisi, ***isə*** (-sa,-sə) şərt ədatı müasir dilimizdə ədəbi norma şəklində işlənməkdədir. Analitik şərt budaq cümləsini baş cümləyə bağlayan ***gər, çün, çü, çünki, çünkim, şimdi ki*** bağlayıcı sözləri və ***kim*** ədatı sıradan çıxmış, ***əgər, indi ki, bir halda ki, hərgah*** bağlayıcı sözləri və budaq cümləni baş cümləyə bağlayan ***ki*** ədatı qalmış, normalaşmışdır. Analitik-sintetik vasitələrdən ***gər - -sa,-sə, gər – isə, gər - -a, -ə, çün - -a,-ə, əgərçi - -a,-ə, əgərçi - -sa, -sə*** arxaikləşmiş, ***əgər – sa, -sə, əgər – isə*** formaları sabitləşmişdir.

QARŞILAŞDIRMA BUDAQ CÜMLƏSİ

Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrin tərkib hissələri mənaca qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir və ya biri digərinə güzəştə gedir.

Müasir ədəbi dilimizdə mürəkkəb cümlənin bu növünün «budaq cümlə + baş cümlə» quruluş tipi geniş yayılmışdır. Bu model dildə özünü üç şəkildə göstərir:

1)budaq cümlə baş cümləyə ***nə qədər***, bəzən ***hər nə qədər*** bağlayıcı sözləri, ***-sa,-sə*** şəkilçisi, ***da, də, belə*** ədatları ilə bağlanır və bu vasitələr müxtəlif şəkildə növbələşir;

2)budaq cümlə baş cümləyə ***hərçənd*** bağlayıcı sözü ilə bağlanır, baş cümlənin əvvəlində ***amma, ancaq, lakin, fəqət*** bağlayıcılarından biri işlənir;

3)budaq cümlə baş cümləyə ***kim, nə, hara*** və s. sual əvəzlikləri – bağlayıcı sözlərlə bağlanır, budaq cümlənin xəbəri təkrar olunur (əvvəl xəbər, sonra əmr şəklində)[1].

Müasir ədəbi dilimizdə olduğu kimi, «Kitabi-Dədə Qorqud»un dilində də qarşılaşdırma budaq cümləsinin "budaq cümlə + baş cümlə" quruluş tipi əsasdır. Budaq cümlə baş cümləyə aşağıdakı vasitələrlə bağlanmışdır:

a) şərt şəkilçisi ***-sa,-sə*** və ya ***isə*** şərt ədatının ixtisar şəkli ilə; bu model daha işləkdir:

Qara eşək başına üyən ***ursan***, qatır olmaz. Qaravaşa ton ***geyirsən***, qadın olmaz.(31) Baban sana ***qıydısa***, sən babana qıymağıl. (40) Oğul, bin kafər ***öldürsən,*** kimsə səndən qan də'vilməz.(70) Yüz bin ər ***gördümsə,*** yüzim dönmədi.(117) Səksən bin ər ***gördimsə,*** səksənmədim. (117) Qaraqucımın qulağı görinməz ***olsa***, Qayırı ərən qılağuzsız yol ***yanılsa***, Qılağuzsuz yol başaran Qazan ər idim. (117)

Bü cür cümlələrdə ***-sa,-sə*** şəkilçisindən sonra güzəşt mənasını gücləndirən ***da, də*** ədatını artırmaq mümkündür.

b***)-sa,-sə*** şərt şəkilçisi və 'dəxi' ədatı ilə:

Səndən yegrək qadir bizə oğul verməz, ***Versə dəxi,*** sənin yerin tuta bilməz. (76)

c) ***nə qədər*** bağlayıcı sözü və ***isə*** (-sa,-sə) ilə: Əmma oğlanı ***nə qədər götürdilərsə***, turmadı, gerü aslan yatağına vardı. (98)

ç) ***nə*** bağlayıcı sözü və budaq cümlənin xəbərinin təkrarı ilə: ***Nə olur-olsun***, hələ mən avımı alayın. (54)

---

[1] *Məlumat üçün bax*: Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, Aspoliqraf LTD MMS, 2004, s.393-400.

d) komponentlərin inversiyası və ***gərəksə*** sözünün iştirakı ilə: Qazandan dönməzəm, ***gərəksə*** yüz parə eylə! (125)

Dəxi ədatı arxaikləşmiş, sonuncu model işləkliyini zəiflətmişdir. «Kitabi-Dədə Qorqud»un verdiyi bu nümunələr müasir ədəbi dilimizdə qarşılaşdırma budaq cümləsinin bütün mövcud quruluş modellərinin əsasında durur.

XIII-XVIII əsrlərin ədəbi dil materiallarında qarşılaşdırma budaq cümləsi baş cümləyə müxtəlif məna çalarları ilə bağlanmışdır.

Baş və budaq cümlənin məzmunu ziddiyyətli şəkildə qarşılaşdırılmışdır: Hər kanda ***əgərçi*** ləl çoxdur, Bir ləl ki layiq ola, yoxdur. (Füz.) ***Gərçi*** xəndandır fərəhdən ağzı açılmış gülün, Əndəlibin gözləri gör kim nə giryan oldu, gəl! (Nəs.) ***Gərçi*** sözünə qulaq tutdum, Nə sud, eşitdimü unutdum. (Füz.) ***Gərçi*** canandan dili-şeyda üçün kam istərəm, Sorsa canan bilməzəm kami-dili-şeyda nədir. (Füz.)

Baş cümlədəki fikir budaq cümlədəki fikrə güzəştə gedir: Sən ***qıysan***, mən sənə qıymanam, gəlin! (Vaqif)

Baqş və budaq cümlənin məzmunu müqayisəli şəkildə fərləndirilir: Leylidə ***əgərçi*** dərd çoxdur, Məcnuni-həzincə dərdi yoxdur. (Füz.) ***Əgərçi*** xarlə həmdəmdir, ***amma*** pakdaməndir. (Ruhi) Qafilsən ***əgərçi*** sən özündən, Mən vaqif özündənü sözündən.(Məs.)

Budaq cümlədə şərt çaları olur: ***Əgər*** suçlu ***isəm***, sən tanrıya bax. (DƏH) ***Çalışsa, çırpınsa***, əkdiyi bitməz. (Xət.)

Qarşılaşdırma budaq cümləsi baş cümləyə aşağıdakı üsullar və vasitələrlə bağlanmışdır.

Sintetik üsulla. Mürəkkəb cümlənin bu növündə, müasir ədəbi dilimizdə olduğu kimi, budaq cümlə baş cümləyə şərt şəkilçisi və ya ***isə*** şərt ədatının şəkilçiləşmiş forması ilə bağlanmışdır; məs.: ***Fəsad etsə***, könüldən eylər idi. (DƏH) Eyilik eylə, dənizə buraq: balıq ***bilməzsə,*** xalıq bilür. (Oğuz.) Qonaq yedügin ***bilməzsə,*** ev issi xərcin bilür.(Oğuz.)

Birinci misalda budaq cümlə «əgər fəsad etsə» mənasından çox, «fəsad da etsə» mənasına malikdir və tərkib hissələrdə ziddiyyət var.

Azərbaycan canlı danışıq dilində xəbərin təkrarı ilə baş cümləyə bağlanan qarşılaşdırma budaq cümlələri də vardır. Həmin cümlələrdə təkrarlardan birincisi xəbər, ikincisi əmr şəklində sabitləşmişdir. Cümlənin əvvəlində bağlayıcı söz də olur. Tarixən belə cümlələr bir qədər fərqlidir; məs.: ***Nə olsa-olsun***, ana bən hələ irəm derəm. (QB)

XV-XVI əsrlərin ədəbi dilində qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayan vasitələr müasir dildə olduğundan daha zəngindər. Bunların bir çoxu tədricən arxaikləşmişdir. Budaq cümlə baş cümləyə daha çox analitik və analitik-sintetik üsullarla bağlanmışdır. Qarşılaşdır-

ma budaq cümləsinin yalnız intonasiya ilə baş cümləyə bağlanan ***asindetik*** növü də vardır. Bu cür cümlələr Qurbaninin dilində daha çox müşahidə olunur. Məs.: Ha ***aradım,*** əlim yara yetmədi. (Qurbani)

Bu cümlənin tərəflərini qarşılaşdırma əlamətləri ilə də əlaqələndirmək olar: Ha ***aradım,*** əlim yara yetmədi - Ha ***aradımsa,*** əlim yara yetmədi - Ha ***aradımsa da,*** əlim yara yetmədi.

Sonrakı dövrlərdə də sintetik qarşılaşdırma budaq cümləsi baş cümləyə daha çox şərt şəkilçisi ilə bağlanmışdır: Ruhiyi-biçarəyi ***öldürsə*** möhnət, ğəm degil, Ey məsihadəm, xüsusa kim ola səndən cüda. (Ruhi) Qan ilə ***tolsa*** gözlərin, cövrünə qalma dilbərin, Şayəd ol mahpeykərin məqsudi imtahan ola. (Ruhi) Gör ol bipaki kim, ***yıqılsa*** aləm, eyninə gəlməz. (Ruhi) Yanmağa atəşi-eşqinlə əzəldən məmuruz, Qeyrə ***məlum degilsək,*** sana xud məlumuz.(Ruhi) Dünya malın ***versən***, bizə gərəkməz. (Xət.) Meydanda başına tup çalman, Çövkan saçım ***yüz olsa*** bərduş. (Xət.) Mən ***ölsəm,*** bu aləm heç xarab olmaz.(Qurbani) Yüz il ***keçsə*,** öz yarımdan dönmərəm. (Qurbani) Sənünlə ol məhəbbət kim, mənim könlümdə ca qıldı, Anı aşkarə qılmazmən qiyamət ***aşikar olsa***. (Kiş.) Verməzəm bir tari-muyunu sənin, ***Versələr*** cümlə cahanı sərbəsər. (Həq.) Eşq yar olsa əgər, aləm ***yıxılsa*,** qəm yemən.(Rəh.) Min il muradım ilə ***dönsə*** ruzigar, azdır.(Qövsi)Yüz bağü bahar ***olsa***, mənim könlüm açılmaz. (Qövsi) Aşiqə baqmaz gözəllər, yüz məhəbbət ***görsələr*.** (Ruhi)

Bu cümlələrin hamısında güzəşt mənası vardır və şərt şəkilçisindən sonra qarşılaşdırmanı gücləndirmək üçün ***da, də*** ədatı da işlənə bilər. Lakin hiss olunur ki, ***da, də*** və ya ***dəxi*** ədatı müasir dildə olduğu qədər işlək deyildir.

Daha sonrakı mərhələdə, xüsusilə M.P.Vaqifin yaradıcılığında qarşılaşdırma budaq cümləsinin bu növü üstünlük təşkil edir. Məs.: Yetə bilməz yarın şamaməsinə, ***Olsa*** bu dünyanın varı şamama! (Vaqif) Sərasər bir yerə ***yığılsa*** xublar, Sənin bir muyinə tay ola bilməz. .(Vaqif) Bağrın ***olsa parə-parə,*** baxmaram. (Vaqif) Qul vermişəm bu canımı canına, Harda ***olsam***, könlüm gələr yanına. (Vaqif) Olmaz belə adəm, ***yığılsa*** aləm. (Vaqif) Gözəl olmaz sən tək, ***olsa*** gözəl yüz. (Vaqif) Sevdayi-saçın, ***keçsə*** yüz il, sərdən üzülməz. (Vaqif) ***Hər nə desəm,*** sən incimə sözümdən. (Vaqif) Sənin kimi xan və bəylərbəyinin hərəmi-möhtərəmi çox olur. Biz ***iki olsaq***, nə eyb eylər? («Şəhriyar») Rövşən etməz yüz min günəş ***bərq etsə***, Bu möhnətdə qaralanmış könlümü. (Vid.) Hər növ ilə ***olsa*** ol qəzali, Damə saluban bula vüsali. (Məs.)

Şairin dilində ***da, də*** ədatı ilə işlənən forma da vardır: Yüz ***görsək də*** əgər özgə hərəmdən, Qurtulmanıx hərgiz fikrü ələmdən. (Vaqif) Vaqif öz qulundur, sənə qurbandır, ***Öldürsən də***, vallah, dinməz, danışmaz. (Vaqif) ***Ölsəm də***, ayağım mənim ol dərdən üzülməz. (Vaqif)

Sintetik üsulda ***isə*** şərt ədatının şəkilçiləşmiş formasından da istifadə edilmişdir: Səyyad dedi: Budur məaşım, Açman ayağın, ***gedərsə*** başım. (Füz.) Ey bülhəvəsü şikəstə ğəmnak, Yüz sən tək ***olursa***, eyləmən bak! (Xət.) Başım ***gedərsə***, mən bu işi dana bilməzəm. (Fəz.)

M.V.Vidadinin dilində arzu şəkilçisi ilə baş cümləyə bağlanan qarşılaşdırma budaq cümlələrinə də rast gəlmək olur: Əhli-dildən ***gələ*** min zəxm, o bir dərd olmaz.(Vid.) Ər libasın ***geyə*** hər rənglə zən, mərd olmaz. (Vid.)

Beləliklə, sintetik qarşılaşdırma budaq cümləsi nəzərdən keçirdiyimiz tarix boyu məhsuldar şəkildə işlənmiş və ədəbi dilimizdə tam sabitləşmişdir. Müasir dildə əvvəlki dövrdən əsas fərq hazırda *da, də* ədatından daha çox istifadə edilməsidir.

Analitik üsulla. Qarşılaşdırma budaq cümləsinin analitik üsulunda budaq cümlə baş cümləyə aşağıdakı vasitələr – bağlayıcı sözlər və ədatlarla bağlanmışdır.

Gərçi bağlayıcı sözü ilə: Misirdə ançiləyin köşk yoğ idi, ***Gərçi*** ol şərdə səraylar çoğ idi. (Suli) ***Gərçi*** fəraqə düşmüşəm, eyni-vüsal içindəyəm.(Nəs.) Dedi ***gərçi*** sizə zəhmətlər oldu, Vəlakin bizlərə rahətlər oldu. (DƏH) Bunlar ***gərçi*** bu işi tədbir etdi, Xuda gör kim necəyi təqdir etdi. (DƏH) ***Gərçi*** hidayət eylədi Musayı narə ol şəcər, Aşiqə hadidir üzün, nurinə ol şəcər kimi. (Nəs.) Səbrin şərabi ***gərçi*** müfərrəhdir, ey həkim, Aşiqlərin davası bu acı dəva degil. (Nəs.) ***Gərçi*** mühiti-əzəməm, adım adəmdir, adəməm, Tur ilə künfəkan mənəm, mən bu məkanə sığmazam. (Nəs.) ***Gərçi*** ayi üzünə bənzədərəm, Qaşların şəklinə hilal irəməz. (Nəs.) ***Gərçi*** kəndü sali-hürmə bir idi, Ol yigitlikdə cahanda bir idi. (YM) ***Gərçi*** təqsirü günah oldı qulundan xidmətə, Sizdən oldı canumuza lütfü ehsan, afərin. (QB)

Gərçi sözü XX əsrin əvvəllərinə qədər işlənmiş, sonra arxaikləşmişdir.

Əgərçi bağlayıcı sözü ilə: Ğəmdən ***əgərçi*** firqətin min çəri çəkdi üstümə, Sən mana bəssən, ey sənəm, qorxmavü yek süvarə gəl. (Nəs.) Düşmən ***əgərçi*** hiyləvü tədbir içindədür, Tədbirü hiylə həm yenə təqdir içindədür. (QB)

XV-XVI əsrlərdə də budaq cümlə baş cümləyə daha çox ***gərçi, əgərçi*** bağlayıcı sözləri ilə bağlanmışdır: Mey ***gərçi*** səfa verər dimağə, Axdığı üçün düşər əyağə. (Füz.) ***Gərçi*** bilirəm onu ki xətdir, Bilmən ki, səhih, ya qələtdir. (Füz.) Bir neçə zaman ***əgərçi*** yandın, Suzi-dilə dözmədin, usandın. (Füz.) Sərsəri idik, ***əgərçi*** talibi-biçun idik. (Xət.) Çox vardır ***əgərçi*** qeylü qalın, Heç kimsənə anlamaz məqalın. (Xət.) ***Gərçi*** didarında yetdi canü dil məqsuduna, Həmdillah ki, mən ol didara müş-

taqam yenə.(Həq.) Yusifin ***gərçi*** xiridarı çox irür hüsn ilə, Nəqdi-can birlə məni-bidil xiridarəm sana.(Kiş.) Ləli-canbəxşin ***əgərçi*** mürdə cismə can verir, Çeşmi-bimarın, nigara, canları rəncur edər. (Həb.)

Daha sonrakı mərhələdə: Təbriz cəzbəsi yaxamı tutmuş aparır, Qövsi, ***əgərçi*** damənimi İsfahan tutar. (Qövsi) ***Gərçi*** sənə çox mənim kimi yar, Yoqdur mənə səndən özgə qəmxar. (Məs.) Ol cümləyə ***gərçi*** oldu faiq, Tərk eyləmədi təriqi-sabiq.(Məs.) Andan sənə ***gərçi*** yetdi nöqsan, Yüz səncə ona yetişdi xüsran.(Məs.) Ziyayi-şəms tək etdi, məni bədr eylədi, hala ***Əgərçi*** qəddimi dövrani-filmazi hilal etdi. (Vaqif)

Gərçi, əgərçi bağlayıcı sözləri və baş cümlədə ***amma*** bağlayıcısı ilə: Çərxə ***gərçi*** gecələr sevdayi-xali-yar ilə Nazirin, ***amma*** gözüm sanmın kim, bu kövkəb tutar. (Ruhi) Oqundan bir nişan olmayıcaq cananə can getməz, ***Əgərçi*** getməgə can verür***, amma*** nişan getməz. (Ruhi) Çoqdur ***əgərçi*** dərdü bəlasi məhəbbətin, ***Amma*** nə çarə əldə degil ixtiyarimiz. (Ruhi) ***Gərçi*** var özgə havası yarun, ***əmma*** vardurur Can anın müştaqivü könlüm həva vari hənuz.(Kiş.) Gözümdən ***gərçi*** pünhandır nigarın surəti, ***amma*** Görünən vəchidir anın nəzər qıldıqca hər cayə. (Nəs.) ***Gərçi*** bimiqdarıq, ***amma*** haqq bilir miqdarımız. (Qövsi) Ellərdə ***əgərçi*** var cəmilə, Hər birisi nadiri-qəbilə, ***Əmma*** gördüm məlik hilalın, Var bir qızı qabili-vüsalın. (Məs.) ***Gərçi,*** ey Xizr, bulubsan şərəfi-feyzi-əzəl, Verməyibdir könül asayişi ***amma*** sənə əl. (Vaqif)

Gərçi, əgərçi bağlayıcı sözləri və baş cümlədə ***vəli, vəleyk***, ***liykən*** bağlayıcıları ilə: ***Gərçi*** hər xarü xəsə atəşsuzanuz biz, ***Leyk*** əhli-nəzərə tazə gülüstanuz biz.(Ruhi) ***Gərçi*** Nəsimi sözün dadını verdi, ***vəli*** Dadə gətirdi anı ləfzi-şəkərbarımız. (Nəs.) Bu can ***gərçi*** giran idi belündə, ***Vəli*** lələün qatında müxtəsərdür. (QB) Dutar çiçək yenə simin sipər fələk oxuna, ***Əgərçi*** həddi degüldür, ***vəleyk*** dərxor edər. (QB) ***Əgərçi*** qətreyi-sudan yaratdı, ***Vəli*** öz eşqini ona yar etdi. (Xət.) Təşbih ***əgərçi*** narəvadür, Ol zatə məsəl dimək xətadür, ***Liykən*** bizədür vəzifeyi-pas, Təhqiqi-rümuz kəlləmünnas. (Məs.)

Bu model ədəbi dilimizdə işlək modellərdəndir, lakin bağlayıcı vasitələr fərqlidir – ***gərçi*** əvəzinə ***hərçənd*** bağlayıcı sözündən, ***vəli, liykən, vəleyk*** əvəzinə ***amma, ancaq, lakin*** bağlayıcılarından istifadə edilir. Bu cəhət ***gərçi (əgərçi) – amma, gərçi – leyk*** modellərinə də aiddir.

Həsənoğlunun qəzəlində işlənmiş aşağıdakı cümlə bu model əsasında qurulsa da, tərəflər arasında ziddiyyət müşahidə edilmir: Həsənoğlu sənə ***gərçi*** duaçıdır, ***vəli*** sadiq. (Həs.)

Gərçi bağlayıcı sözü və ***ki*** ədatı ilə: Vəslinə irmək istərəm, ***gərçi ki*** eyniyəm anın, Məndən anı kim ayıra, fikrü məhal içindəyəm. (Nəs.) Zülfi özini yüzində ***gərçi ki*** Rüstəm deyə Sən anı başından anla hilədür dəstan edər. (QB)

Əgər bağlayıcı sözü ilə: Qılan bu işləri cümlə xudadur, ***Əgər*** qüdrətdürür, ***əgər*** qəzadur. (DƏH) Padişahımız ***əgər*** oldu həlak, Həqq bizə sultan verübdir bir mələk.(MV) ***Gər*** dağda, ***əgər*** çəməndə idim, Heç bilməz idim ki, xənda idim. (Xət.) Ayinə **əgər** cəhannümadır, Biqədrdür ol çü bihəyadür. (Məs.)

Əgər bağlayıcı sözü və ***kim*** ədatı ilə: Çün qəm yeyirəm qəm degil, ey aşiq, ***əgər kim*** Qəm yürəgə kar eylədi, qəmxar ələ girməz. (Nəs.)

Əgər bağlayıcı sözü və şərt ədatı ilə: ***Əgər*** suçlu ***isəm***, sən tanrıya bax. (DƏH) Dərd ilə ***əgər*** yüz il ***ölür isən***, Bir bus ilə qılmanam səni hey. (Xət.) ***Əgər*** oğlan sənin yanında çox ***əziz isə***, o, allah yanında bəndədür. («Şəhriyar»)

Əgər bağlayıcı sözü, şərt modallığı yaradan ***isə*** hissəciyi və ***da, də*** ədatı ilə: ***Əgər*** Pərizad xanım səhranişin olub, həmişə həmsöhbəti əhli-səhra ***olub isə də,*** allah üçün nə surətdə, nə fəhmi-kamalda məmaliki-Gürcüstanda bərabəri yoxdur. («Şəhriyar»)

Gər bağlayıcı sözü ilə: ***Gər*** ağu virisən, biz ani yiyəlüm. (Suli) ***Gər*** İbni Səlam idi bəhanə, Məcnun idi bais ol fəğanə. (Füz.) ***Gər*** zahiri pirü natəvanəm, Batində pələngə həminanəm. (Məs.)

Gər bağlayıcı sözü və baş cümlədə ***amma*** bağlayıcısı ilə**:** ***Gər*** gündüzə xəlq müştəriydi, ***Əmma*** mənə gecə xoştər idi. (Xət.)

Gər bağlayıcı sözü və baş cümlədə ***leyk, vəli*** bağlayıcıları ilə: ***Gər*** zahirinizdə nəstə yoxdur, ***Leyk*** alıçalıq içində çoxdur. (Xət.) Bəzmi-vəslin məhrəmi ***gər*** verdi çoq həsrət mana, ***Leyk*** hər bir həsrət oldu hicrdə rahət mana. (Rəh.) ***Gər*** Hidayətin Nəvayi kimi rəngin sözləri Necə kim çoxdur, ***vəli*** demək gərək bir-bir cavab. (Hid.)

Gər bağlayıcı sözü və ***isə*** şərt ədatı ilə: Mən sənə kəminə qul deməzmən, ***Gər*** Kavus ***isən*** bu gün, ***əgər*** Key. (Xət.)

Hərçənd bağlayıcı sözü ilə: ***Hərçənd*** ad ilə mən Səbayəm, Üşşaq yoluna can fədayəm.(Xət) ***Hərçənd*** görür ədudən ülfət, Dutur Gülşa təriqi-külfət.(Məs.) ***Hərçənd*** yaman keçdi günüm, şükr ki keçdi. (Qövsi) ***Hərçənd*** müntəzir qalub baxdılar, namaz vaxtı ötdi, oyanmadı. («Şəhriyar»)

Hərçənd bağlayıcı sözü və ***ki*** ədatı ilə: Şadiyi ki verdi bizə bu xanədə eşqün, ***Hərçənd ki*** qəhhar ola, xanə verələrmi? (QB) ***Hərçənd ki*** üşşaqı anun sağışa gəlməz, Cövr ilə cəfaya bəni təyin edər ol yar (QB) ***Hərçənd ki*** əsdi badi-qovğa, Yetişmədi şahə buyi-Vərqa. (Məs.)

Hərçənd bağlayıcı sözü və baş cümlədə ***əmma*** bağlayıcısı ilə: Amma bu vaxt ***hərçənd*** vəziri-əzam, cümlə ümurlər ona müfəvvəzdir və muxtar həmvar, ***əmma*** öz işində həya mane olub danışmaz. («Şəhriyar»)

İsə şərt ədatı ilə: Ağalar dedigin tutmaq gərəkdir, Ağu sunar ***isə*** yudmaq gərəkdir.(DƏH) Aləm xürrəm ***olur irsə***, aşiq gülməz. (QY)

Cümlə aləm hurisi ***olur isən***, Olmaya meylim sana ***ölür isən***.(YM) Can cana ***irmədi isə***, tən tənə irdi, şükr ana*!* (QB) ***Kuhi-Qaf isən***, qılam zirü zəbər.(YM) Hər sözü böhtan ***isə,*** həqqa, bu söz böhtan deyil. (Füz.)

İsə və ***da, də*** ədatları ilə: Ol ***bilməz isə də***, sən bilürsən. (Xət.)

Nə qədər bağlayıcı sözü ilə: Sənə qurban olum, ***nə qədər*** fikir elədim, heç xatirimə bir zad gəlməz.(Şəhriyar») Gəldi, ***nə qədər*** səy elədi, oğlan durmadı. («Şəhriyar»)

Bu model də müasir dildə işlək modellərdəndir.

Nə qədər bağlayıcı sözü və şərt ədatı ilə: ***Nə qədər yuca isən,*** düşmənin alu görmə.(Oğuz.) Tağ ***nə qədər yuca isə***, üzərindən yol aşar. (Oğuz) Ət ***nə qədər*** arıq ***isə***, ətmək üstündə yaraşır.(Oğuz.)

Sonrakı inkişaf mərhələsində bu cür cümlələr bir qədər də təkmilləşmişdir. Müasir dildə olduğu kimi, baş cümlədən əvvəl ***yenə*** sözü işlənməyə başlamışdır. ***Nə qədər*** sözü ilə yanaşı, ***hər nə qədər*** bağlayıcı sözü də istifadəyə qoşulmuşdur: ***Nə qədər qadir isək*** çəkmədə eşqin ələmin, ***Yenə*** yanında sənin şey degilüz, mədumuz. (Ruhi) ***Hər nə qədər fəqir isək***, hümmətimiz büləndurur. (Ruhi)

Nə qədər bağlayıcı sözü mənasında ***necə kim*** bağlayıcı sözü ilə: Tamam bir yil aradı ol nigarı, Kimsənədən xəbər almadı hərgiz, ***Necə kim*** istədi, bulmadı hərgiz. (DƏH) ***Necə kim*** istədilər, bulmadılar, Kimsədən heç bir xəbər bilmədilər. (MV)

Necə ki bağlayıcı sözü ilə: ***Necə ki*** yalvardı, çarə olmadı. (Suli)

Sonrakı inkişaf prosesində ***gərçi, əgərçi, gərçi – amma, gərçi – leyk, gərçi – vəli, əgərçi - vəli, vəleyk, leykin, gərçi ki, gərçi isə, gər, gər – amma, gər – leyk, gər – vəli, əgər – sa, -sə – isə*** arxaikləşib sıradan çıxmış***, hərçənd, hərçənd ki, hərçənd – amma (ancaq, lakin), nə qədər*** bağlayıcı sözləri sabitləşmişdir. ***Əgər*** sözü şərt budaq cümləsini baş cümləyə bağlayan vasitə kimi məhdudlaşmışdır.

Analitik-sintetik üsulla. Qarşılaşdırma budaq cümləsinin bu üsulla baş cümləyə bağlanan növü daha işlək olmuşdur. Budaq cümlə baş cümləyə aşağıdakı vasitələrlə bağlanmışdır.

Əgər, gər bağlayıcı sözləri və arzu şəkilçisi ilə: Adıdır dünyada qalan kişinin, ***Əgər*** ərkək ***ola*** və ***gər*** dişinin. (DƏH) Hüsnünə mən aşiqəm, ey dilbər, ***əgər*** sən mana ***Qılasan*** min gəz cəfa, dildar, səndən dönməzəm. (Nəs.)

Əgər və ***gər*** bağlayıcı sözləri arzu şəkilçisi ilə sonrakı dövrlərdə də fəal şəkildə işlənmişdir: ***Gər*** bəni ***öldürəsən***, qapını tərk eyləməyəm. (Ham.) İrişəməz şol hümanın zülfinə Mürği-dil ***gər*** şahinü şahbaz ***ola***. (Həb.) Mən yerdə üzünü dinləməz mən, Fəryadın ***əgər yetə*** bəəflak. (Xət.) Ursa həcəri-mübarəkə baş, Yumşaya, ***əgər ola*** qara daş. (Füz.)

Yüz bağı-İrəm ***gər ola***, yüz rövzeyi-gülşən, Heç vəchlə sizdən üzümü döndərə bilməm. (Vaqif) Sahibi-saqqal ***əgər*** yüz ***ola*** sahir sözlü, Ram olub baxmaz ona hiç bir ahu gözlü. (Vaqif)

Əgər bağlayıcı sözü və şərt şəkilçisi ilə: Heç kimsə işi cahanda itmam Tapmas, ***əgər olsa*** xas, ***əgər*** am. (Əmani) Kişvəri eşqində öldisə, nə qəm, key şah, Yox əcəb Fərhad ***əgər can versə*** Şirin üstünə. (Kiş.) ***Əgər*** vadiyi-firqətdə ***ağarsə*** giryədən çeşmi, ***Yenə*** Yəqubi-dil ol Yusifi-Kənanə inciməz.(Ruhi)

Müasir ədəbi dilimizdə qarşılaşdırma budaq cümləsindən sonra, baş cümlənin əvvəlində ***yenə, indi, hələ*** tipli sözlər işlənir. Bu cəhətdən Ruhi Bağdadinin cümləsindəki ***yenə*** sözü tam müasirlik xüsusiyyətinə malikdir.

Əgər bağlayıcı sözü, şərt şəkilçisi və ***da, də*** ədatı ilə. Bu forma müasir formalardandır: ***Yüz görsək də əgər*** özgə hərəmdən, Qurtulmanıx hərgiz fikrü ələmdən. (Vaqif)

XVII-XVIII əsrlər ədəbi dilində qarşılaşdırma budaq cümləsini baş cümləyə bağlayan vasitə kimi, şərt və arzu şəkilçiləri işləklik etibarilə fərqlidir. Məsihinin də, Vaqifin də dil faktları göstərir ki, arzu şəkilçisi bu məqamda daha fəal olmuşdur.

Əgər bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: ***Əgər*** quş oluban ***uçar olursa***, Dənizlər aşıbvan ***keçər olursa***, Gəliməz bunda, ey xublar güzini, Keyik basmaz olur aslan izini. (DƏH)

Gərçi bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Dərunam ***gərçi*** surətdə bəni birun ***görürlərsə***, Həzaran var dəruni ki, bilürəm bən anı birun. (QB)

Gər bağlayıcı sözü və ***isə*** şərt ədatının ixtisar şəkli ilə: Tanrı bilir bir qılını verməyim, ***Gər verərlərsə*** bana dünyaca mal. (YM) Əlin kəsərəm bu damənimdən***, Gər*** yaxan ***olursa*** yüzünüz çak.(Xət.) Dönməzəm eşqin yolundan, haq bilür, ***Gər tökərlərsə*** yerə qanım mənim. (Həq.)

Göründüyü kimi, bu cür cümlələrdə tərəflər asanlıqla inversiyaya uğraya bilmişdir. Belə inversiya halları müasir dildə də mövcuddur.

Nə qədər bağlayıcı sözü və ***isə*** şərt ədatının şəkilçiləşmiş forması ilə: Bu gülü gör ki, rəngü çöhrəsinə ***Nə qədər al edirsə***, al irəməz. (Nəs.) ***Nə qədər*** fikri-dəqiq ***edər olursam*** bilünü, Qayətinə əql irməz ol miyanun, neyləyim. (Həb.)

Nə qədər, nə qədər ki bağlayıcı sözləri və arzu şəkilçisi ilə. Bu quruluş bizim nəzərdən keçirdiyimiz nisbətən son mərhələdə müşahidə olunur; məs.: ***Nə qədər*** uymuş ***ola*** düşməni-dirin, yeydir. (Qövsi) Rəhində sənin dil ***nə qədər ki düşə*** şərrə, Tiğin ilə ***doğranə əgər*** bir neçə kərrə, Torpağımı yellər ***dağıda*** bəhrlə bərrə, Cümlə bədənim ruyi-zəmində ***ola zərrə***, Könlüm o rüxi-mehrü münəvvərdən üzülməz. (Vaqif)

Paralel tərkib hissələrdə ***nə qədər*** bağlayıcı sözü sonrakı misrada ***əgər*** bağlayıcı sözü ilə əvəz olunmuşdur.

Nə qədər ki bağlayıcı sözü həm arzu, həm də şərt şəkilçisi ilə birgə işlənmişdir: ***Nə qədər ki*** yüzə ***yetirsə*** yaşı Ta ki ***həkdən düşə, titrəyə*** başı, Qəmzəsinin heç cəlladı əksilməz. (Vaqif)

Nə dənlü (nə cür) bağlayıcı sözü və ***isə*** ədatının ixtisar şəkli və ya şərt şəkilçisi ilə: Qar ***nə dənlü*** çoq ***yağsa,*** yaza qalmaz. (Oğuz.) Yılan ***nə dənlü*** əgri-bögri ***yürürsə,*** ini qapusına gəlicək toğrulur. (Oğuz.)

XV- XVI əsrlərdə qarşılaşdırma budaq cümləsini analitik-sintetik üsulla baş cümləyə bağlayan vasitələr xeyli zənginləşmişdir. Bu dövrə aid aşağıdakı yeni vasitələr görünməkdədir:

Müasir dildəki şərt şəkilçisi və ***da, də*** ədatı ***(-sa da, -sə də***) məqamında ***həm –sa*** bağlayıcı və şəkilçisindən istifadə olunmuşdur**:** Oğlan necə səbr pişə qılsın, Vər səbri ***həm olsa***, nişə qılsın? (Füz.)

Şərt şəkilçisi və ***amma*** bağlayıcısı ilə: Ömrümüz cövrilə keçdi dəviyi-sidq etmədik, ***Eyləsək*** dəvayi-sidq, isbata ***amma*** qadiriz.(Ruhi)

Şərt şəkilçisi və ***ancaq*** bağlayıcısı ilə: ***Olsam*** ğəmi-aləmə giriftar, ***Ancaq*** sən idin ənisü ğəmxar. (Füz.)

İsə şərt ədatının ixtisar şəkli və ***dəxi*** ədatı ilə: ***Arslan olursa dəxi***, bir kişi bir şəhərə neyləsün? (Oğuz.)

İsə şərt ədatının ixtisar şəkli və ***da, də*** ədatı ilə: Xəti ***gəlürsə də***, sən ləli-yari əm, Ruhi. (Ruhi)

Şərt şəkilçisi və ***da, də*** ədatı: İyəvən qız ərə varmaz, ***varırsa da,*** bəxt bulmaz.(Oğuz.) Üzümü ***qoysam da*** üzünün üstə, Öpübən dişlərəm, yeyən deyiləm.(Qurbani) Küsülü ***olsan da***, səni dindirrəm. (Qurbani)

Bu model qarşılaşdırma budaq cümləsinin müasir ədəbi dilimizdə ən işlək modelidir.

Ədat bəzən xəbərdən əvvəl işlənmişdir: Tuzsız aşa şəkər ***də qosan***, tadı gəlməz. (Oğuz.)

Şərt şəkilçisi, ***dəxi*** və ***ki*** ədatları ilə: ***Öldürsə dəxi ki,*** çəkməzəm qəm. (Xət.)

Nə bağlayıcı sözü və xəbərin təkrarı ilə (birinci tərkibdə ***– isə***): Qoy ***nə derlərsə-desinlər***, ruxi-ziba sevəriz. (Rəh.)

Hərçənd bağlayıcı sözü və arzu şəkilçisi ilə: ***Hərçənd*** kişi ***düzə*** vəsilə, Təğyir edəməz qəzanı hiylə. (Məs.)

Şərt şəkilçisi və ***belə*** ədatı ilə: Üç əlif bir eyn ilə ***gəlsə belə***, Müstəid arif gərək ani bilə. (Nəs.)

Keçən müddət ərzində qarşılaşdırma budaq cümləsinin analitik-sintetik üsulunda da xeyli dəyişiklik əmələ gəlmişdir. ***Əgər – -a,-ə*** (arzu forması) tam məhdudlaşmış, ***əgər - -sa,-sə*** və ***əgər – isə (-sa,-sə)*** formaları şərt budaq cümləsinin əlamətləri kimi normalaşmışdır.

Gər - -sa,-sə, ***gər – isə, həm - -sa,-sə,*** şərt şəkilçisi – ***amma (ancaq),*** şərt şəkilçisi – ***dəxi, hərçənd – -a,-ə*** məhdudlaşmış, ***nə qədər ki*** bağlayıcı sözü zaman budaq cümləsində sabitləşmişdir; ***-sa da, -sə də –sa belə, -sə belə*** formaları tam üstün mövqe qazanmışdır.

NƏTİCƏ BUDAQ CÜMLƏSİ

Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Müasir dildə birtiplidir: baş cümlə əvvəl, budaq cümlə sonra işlənir. Tarixi abidələrin dilində də belədir və tez-tez müşahidə olunur.

«Kitabi-Dədə Qorqud»un dilində budaq cümlənin bu növü baş cümlədən sonra işlənərək, ona aşağıdakı vasitələrlə bağlanmışdır.

Baş cümlədə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: ***Noldun***, böylə bunaldın? (57)

Baş cümlədə müxtəlif vəzifələrdə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** və ya ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Mərə, Əzrayil dedüginiz ***nə*** kişidir ***kim***, adamın canın alur? (79) Bənim suçum ***nə oldı kim***, qara otağa qondurdı? Suçımız ***nəydi ki,*** yağmada bilə olmadıq? (123) Bir canda ***nə*** var ***ki,*** sana qıyamamışlar? (83)

Birinci misalın baş cümləsində ***nə*** sözü təyin, ikinci, üçüncü misallarda xəbər, son misalda mübtəda vəzifəsindədir.

Budaq cümlə baş cümləyə ***anunçun*** (müasir dildə *onun üçün*) bağlayıcısı ilə bağlanmışdır: Beş aqçaluq əlüfəcilər yoldaş etdin, ***anunçun*** ol qələyi sən alımadun.(95)

Baş cümlədə ***şöylə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Şöylə*** nərə urdı, hayqırdı ***kim***, tağ və taş yanguləndi.(101)

Budaq cümlə baş cümləyə ***-mi*** sual şəkilçisi və ***ki*** bağlayıcısı ilə bağlanmışdır (***-mi*** sual şəkilçisi baş cümlənin xəbərində işlənmişdir): Mərə dəlü ozan, mən ***eyiblümiyəm ki,*** mana eyib qoşarsan?(65) Məndən dəli, məndən gücli ər ***varmıdır ki,*** çıqa mənümlə savaşa? (79)

Budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Qara polad uz qılıcım yoq ***kim,*** qarvaşduğı dəm eki biçəydim. (89)

Misallar aydın şəkildə göstərir ki, «Dədə Qorqud»un dilində arxaik ***şöylə*** və ***kim*** sözlərini nəzərə almasaq, nəticə budaq cümləsi müasir modelə tam müvafiq işlənmişdir.

XIII-XIV və sonrakı əsrlərin ədəbi dilində nəticə budaq cümləsini baş cümləyə bağlayan vasitələr, başlıca olaraq, aşağıdakılardan ibarətdir.

1.Baş cümlədə müxtəlif cümlə üzvü vəzifələrində ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə müxtəlif vasitələrlə bağlanmışdır.

a) baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır; məs.: ***Noldun*** axı, bənə sən kin eylədin? (Suli) ***Nə*** şərabdır ömür verdi xərabə. (DƏH) Əhsəni-surətdə, yarəb, sən ***nə*** ziba çöhrəsən, Hurilər oldu qulun, xublar qamu fərraşınız? (Nəs.) Suçum ***nədir,*** əcəb ***netdim, nə qıldım***, Qara bağrum bənim qərq oldu qanə? (DƏH) Sən ***nə*** kafirsin yoluna dinü iman dökilür. (QB)

Bu misallarda ***nə*** sözü təyin və xəbər vəzifələrində işlənmiş, budaq cümlələr baş cümləyə intonasiya ilə bağlanmışdır. Bu model sonralar da davam etmişdir; məs.: Bu səndə ***nə*** oddur, ey bəlakeş, Oldu nəfəsin tamami-atəş? (Məs.)

b)baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Büt ***nədür kim***, kişi anə yüz ürə? (Suli) Bən ***nə qıldum*** bunlarə ***kim,*** qəsd idər. (Suli) Ay əcəb, ***nə qıldı*** ol miskin səna ***Kim***, ani zindanə urdin bigüman? (Suli) ***Neylədim kim***, Vərqa vüslətsiz bana? (YM) Yarəb, zəmanə həqqinə mən ***neylədim kim***, ol Məndən cəfavü cövr ilə ayırdı yarimi? (Nəs.) Diyə verdüm bir küp altunı sana, ***Neylədin kim***, dilənüb gəldin bana? (MV) Yarəb, ***nə*** şəmin nuridir gülgün yanağın, ey qəmər, ***Kim,*** nöh fələk pərvanədir şol surətin ənvarinə? (Nəs.) Sən ***nə*** cansın ***kim,*** ayağun tozına can dökilür? (QB) Bu ***nə*** lütf olur, ***nə*** əxlaqü kərəm ***Kim***, qatında pulca yoxdur dərdi-rəm? (YM) Gülbəşəkər ***nə*** nəsnədir ***kim***, irişə məqalinə? (Nəs.) Can ***nədir kim***, qəsdi-can etmək dilərsən, etməgil! (Nəs.) Halınız ***nə kim,*** qara ton geydiniz? (YM) Ay ilə gün ***nədir kim***, ol düşməyə xaki-payinə? (Nəs.) ***Noldu,*** ey münkir, sana ***kim,*** qaynadı qanın yenə? (Nəs.)

Bu misallarda ***nə*** sözü xəbər və təyin vəzifələrində işlənmiş, ***kim*** bağlayıcılı nəticə budaq cümləsinin yaranmasına səbəb olmuşdur.

c) baş cümlədə müxtəlif vəzifələrdə sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Gögdən ***nə yağdı ki***, yer anı tutmadı? (Oğuz.) Sən ***nə*** layiqsin ***ki,*** məbud olasin? (Suli) ***Nə*** güldür bilməzəm, yarəb, ***ki,*** pürçin qondu pürçinə. (Nəs.) Nigarına ***nə*** halətdür ***ki,*** bilməzüz özümüzi.(QB) ***Nə*** şahsın ***ki***, bənüm tək həzar sana qulam? (QB) Bu dərdin de ***nədür, nəyə*** sataşdın ***Ki,*** bu eşq oduna yanıb tutaşdın? (DƏH) Adəm ***nədir ki***, içməsin ol verdigin şərab? (Saib)

XV-XVI əsrlərin poeziya dilində nəticə budaq cümləsini baş cümləyə bağlayan vasitələr daha da çoxalmışdır. Bu dövrdə intonasiya ilə baş cümləyə bağlanan nəticə budaq cümlələri nəzəri xüsusi cəlb edir. Budaq cümlə baş cümləyə sual əvəzliyinin köməyi olmadan, intonasiya ilə bağlanmışdır: *Qız deyilsən, cahıl oğlan sevəsən*. (Qurbani) Bəzən baş cümlədə ***nə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya

ilə bağlanmışdır: Mucib ***nə idi*** məni unutdun, Tərkim qılıb özgə yar tutdun? (Füz.)

Nə sual əvəzliyi olan baş cümlələrin ***kim*** və ***ki*** bağlayıcıları ilə budaq cümlə tələb etdiyi hallar daha fəaldır.

XVII-XVIII əsrlərin ədəbi dilində xəlqilik, xalq dilinə yaxınlıq daha da artmışdır. Bunu ***nə*** sual əvəzliyinin köməkçi fellərlə birlikdə (***neylədim, netdim, noldu, nə olub, nə qıldı*** şəkillərində) xəbər vəzifəsində işləndiyi və budaq cümlənin baş cümləyə intonasiya ilə bağlandığı aşağıdakı cümlələr də aydın göstərir: ***Netdim*** məni dilfikir qıldın, Səddi-rəhi-vəsli-yar qıldın? (Məs.) ***Neyləmişdi*** Vaqif sənə, a zalım, Onu qəm əlində payimal etdin? (Vaqif) Səbəb ***noldu,*** birdən məni tərk etdin? (Vaqif) Bilməm ***nə olub***, sevgili yar yanimə gəlməz. (Vaqif)

Bu misalların hamısında budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır. İntonasiya ilə qurulan bu cür cümlələrdə, təbii ki, vəznin də tələbləri əsas olmuşdur. Lakin ümumən bunlar göstərir ki, poeziya ustalarımız milli inkişaf dövründə canlı xalq danışıq dilinə daha çox üstünlük verməli olmuşlar.

Kim bağlayıcısı ilə: ***Nə*** cinsdir əslin, ey bəlakeş, ***Kim,*** abi-həyatın oldu atəş? (Füz.) ***Nə*** sehr qılırsan, ey səhərxiz, ***Kim,*** atəşin abdən olur tiz? (Füz.) ***Nə*** bim ilə hifzi-gövhər etdin ***Kim***, bəsteyi-əqdi-şövhər etdin? (Füz.) ***Nə*** itdir o ***kim***, özün der adəm? (Xət.) Bilməzəm ***noldu*** yenə ***kim***, yar sormaz halımı. (Kiş.) Sən ***nə etdin kim***, qoyarsan bu qədər minnət mana? (Rəh.)

Ki bağlayıcısı ilə: Zahidin pəndi ***nə*** sud eylər ***ki,*** çeşmi-məsti Turmıyub hər dəm bana rahi-məlamət göstərir.(Ruhi) Yarəb, ***nə*** nur imiş ***ki,*** məni yaxdı narına? Yarəb, ***nə*** zat imiş ***ki***, məni çəkdi darına? (Həq.) ***Nə*** rövşən şəmsi-dinü mehri-cansan ***Ki***, tutdu aləmi ənvarın, ey dust.(Həb.) Bu ***nə*** dindür, bu ***nə*** ayindür ***ki,*** cadu gözlərin Aşiqi-biçarəyi öldürməmişkən dandılar! (Rəh.) Cürmümüz ***noldu ki,*** bizdən eylədin bizarlıq? (Füz.) Eşqilə ***nedim ki***, dağə düşdüm.(Xət.) ***Noldu ki,*** nişatmənd olubsan? (Füz.)

Misallarda ***nə*** sözü təyin və xəbər vəzifələrində işlənmişdir. Müasir dildə də bu forma üstünlük təşkil edir.

Nən (nəyin) şəklində mübtədanın bir komponenti kimi: ***Nən*** var idi ***ki,*** əlindən aldı, Nə mərtəbədən aşağı saldı? (Füz.)

«Şəhriyar» dastanında, demək olar ki, əksərən ***ki*** bağlayıcısından istifadə edilmiş, şeirdə bəzən ***kim*** işlənmişdir; məs.: Ey camaat, buna ***nə*** gəldi ***ki***, bu hala düşübdür? («Şəhriyar») Bilməm ***nədür*** qərəzin ***ki,*** mənə bu qədər cəfanı rəva görürsən? («Şəhriyar»)

2.Baş cümlədə müxtəlif vəzifələrdə ***kim*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır:

Kim bağlayıcısı ilə: Şol qədəhi ***kim*** içə ***kim***, varə bu halə düşməyə? (Nəs.)

Ki bağlayıcısı ilə: Bu ***kimdür ki,*** bənə çağırur? (Suli) ***Kimə*** bənzərsən ey sən, mahpeykər ***Ki,*** aləm bəndi-zindan oldu sənsiz.(Nəs.) Bən ***kim olam ki,*** dəprədəm bir qılını gisusun, Başın əlinə alıban ol iş içün səba gərək. (QB) Dərdə müştaq olmayan ***kimdir ki,*** dərman istəyə? (Nəs.)

Bu məqamda ***ki*** bağlayıcısının üstünlüyü, görünür, şairlərin iki ***kim*** sözünün (əvəzlik və bağlayıcı şəklində) ahəngi pozmasına, bəzən anlaşılmazlıq yaratmasına imkan verməmək meylindən də irəli gəlmişdir. Misallarda ***kim*** sözü mübtəda, tamamlıq, xəbər (***kim olam, kimdir***) vəzifələrində işlənmişdir.

Bəzən baş cümlədə həm ***kim,*** həm də ***nə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Görəlim ***kimdürür,*** ***nə*** xocadır ol ***Ki***, mənim eşqimə çəkmiş dəlim yol. (DƏH)

Sonrakı mərhələdə də ***kim*** sual əvəzliyinin işləndiyi hallarda budaq cümlə intonasiya və ya ***kim*** bağlayıcısı ilə baş cümləyə bağlanmışdır: ***Kimi*** gördük, qiyamətədək gülə? (Xət.) ***Kimdə*** gördü dərd ***kim,*** ol dərdə dərman etmədi? (Füz.) Dustlar, çaki-giribanım görüb eyb eyləmən Kol gülü ***kim*** gördü ***kim***, çaki-giriban etmədi! (Füz.)

3.Baş cümlədə ***nitə*** əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Nitə*** rəva görür heç anı barı ***Ki,*** bir şahin ola qarqa şikarı? (DƏH)

4.Baş cümlədə ***necə*** sual əvəzliyi işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı (bəzən də intonasiya) ilə bağlanmışdır: Bu ***necə*** hüsnü surətdir ***ki,*** nur ehsan edər ayə? (Nəs.) ***Necə*** günəşsən, ey qəmər, ***ki,*** sana Ta əbəd zərrəcə zəval irəməz? (Nəs.) ***Necə*** verdi ana daxi simü zər ***Kim,*** yayıldı Bəryə xəlqinə xəbər? (YM) ***Necə*** aşiq olasan, bu sini bir açuban görməyəsən? (YM) Sən ***necə*** sitarəsən ***ki,*** hər şəb Apardı ğəmin gözümdən uyğu? (Xət.) Bu ***necə*** adətdir, ***necə*** ərkandır, Deməzsən filanı bizə mehmandır?. (Vaqif) Oğrular kimi ***necə*** qaçdunız ***ki***, mən bilmədim. («Şəhriyar»)

5.Baş cümlədə ***qanı, qanda*** sual əvəzlikləri işlənmiş, budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Bir dəxi ***qanı kim***, görüm ol mahi-təmami? (MV) Dedilər bunun kibi xub ***qanda*** var ***Kim***, bizim əlimizə girdi şikar? (MV) ***Qanı*** taqət ***kim,*** geri əqlin verə? (YM)

Füzuli mərhələsində ***qanı*** sual əvəzliyinin ***xanı, xansı*** şəkilləri: …***xanı*** əcəl ***kim***, qıla bir yana məni? (Hid.) ***Xanı*** dövlət ***kim,*** əyağ içib əyağını öpəm? (Kiş.) ***Xansı*** dağın laləsisən, ey bənəfşə xətlü ***kim***, Sünbülün buyindən olur bağ içində susəni? (Hid.)

Daha sonrakı mərhələdə, az da olsa, yenidən arxaik element kimi ***qanı*** sözünə müraciət edilmişdir: De huş ***qanı ki,*** söyləyim raz! (Məs.)

6.Baş cümlədə ***ol qədər*** zərfi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya və ya ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Ol qədər*** çıqdı cadu gögdən yana, Görünürdü cümlə bir xirmən ona.(MV) ***Ol qədər*** yaş tökdüm iki gözümdən, Dərya tək axıban çaya dönmüşəm. (Vaqif) İrsal edəm ***ol qədər*** zərü sim ***Kim,*** düşə zəminə lərzədən bim. (Məs.) Səndən ayrı ***ol qədər*** qan ağladım ***kim,*** dəmbədəm Yaşə batıb, islanıb səbrü qərarın kağızı. (Vaqif)

7.Baş cümlədə ***öylə***, ***eylə, oylə, şöylə, bir dürlü*** əvəzlikləri işlənmiş, budaq cümlə baş cümləyə ***kim, ki*** bağlayıcıları, bəzən də intonasiya ilə bağlanmışdır: ***Şöylə*** eylə ***ki,*** nə ət yansun, nə şiş göynəsün. (Oğuz.) Anə ***bir dürlü*** dəxi iş idəlüm ***Kim,*** duzəğə düşə ol can parəsi. (Suli) Sultana xoş gəlmədi cadu sözü, ***Eylə*** çakar, qanilə doldu gözi. (MV) Çəkdi qılıc, ***öylə*** çaldı ortara, Eylədi ol cadunu iki para. (MV) Könlümdəki eşqün dənizi ***şöylə*** taşar ***kim***, Bu gözlərümün cəfəri təyyar ola bu gün. (QB) Saçınun hər qılı içün bən ***eylə*** oynaram can ***ki*** Fələklər derlər əhsəntüm, mələklər afərin söylər. (QB) Könüldə hicri ***şöylə*** urdı odın ***ki,*** gökdədür sitarə hər şərara. (QB) Həsrət odu ***şöylə*** yaxdı canımı ***Kim***, damarda qalmadı qanım bənim. (YM) ***Şöylə*** zari qıldı Vərqə ol zaman ***kim,*** qamu xəlqü zəminü asiman Ol dəm anınla ağlaşdılar. (YM) Zar ağladı ***öylə kim***, həm ol dəm Ahı oduna yığıldı aləm.(Füz.) Bərhəmzədə qıldı ***eylə*** ani, Az qaldı nəfəsdən uça cani. (Məs.)

8.Baş cümlədə ***anca*** zərfi işlənmiş, budaq cümlə baş cümləyə intonasiya və ***kim*** bağlayıcısı ilə bağlanmışdır: ***Anca*** yalvardum, aman verdi bana. (MV) ***Ancə*** verdi ***kim***, qəni oldu Hilal.(YM) ***Ancə*** ehsan qıldı ***kim***, oldu qəni.(YM)

Füzuli mərhələsində ***anca*** zərfi artıq ***onca*** şəklindədir: ***Onca*** dedi ona həm ğəmi-dil ***Kim***, qıldı onu həm ünsə mail. (Füz.) Ah, ol pəridən ayrılalı ***oncə*** ağladım, gözüm yaşıyla sellər axar bağbanlara. (Fəz.)

9.Baş cümlədə ***bir*** sözü işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Bir*** mey mənə sun ***ki***, məstü mədhuş, Daim özümü qılam fəramuş.(Füz.) ***Bir*** gül degiləm mən, ey həbibim, Hər gün ola tazə əndəlibim.(Məs.)

Son misal təyin budaq cümləli tabeli mürəkkəb cümləyə də oxşayır, lakin məzmununa görə nəticə budaq cümləlidir. Müəllif – Məsihi əndəlibi olan güldən danışmır, demək istəyir ki, haqqında danışılan obraz, ümumiyyətlə, gül deyil ki, onun əndəlibi də ola.

10. ***Nə əcəb*** bağlayıcı sözü və ***kim*** bağlayıcısı ilə: ***Nə əcəb*** qulmuş işbu qul ***Kim***, bənüm xəzinəm buna qiymət dəgül. (Suli)

11.Baş cümlədə ***–mı,-mi, -mü,-mü*** sual ədatı işlənmiş, budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: Cahanda ***yoxmudur*** bir şahzadə ***Ki,*** verirlər məni bir xoryadə? (DƏH)

Füzuli mərhələsində baş cümlədə *–mı* sual ədatı daha da fəallaşmışdır. Füzuli bu növ nəticə budaq cümlələri işlətməyə daha çox meyilli olmuşdur: ***Tənhalığamı*** gətirmədin tab ***Kim***, elədin arizuyi-həmxab? (Füz.) ***İncitdimi*** dərdi-dil mizacın ***Kim***, oldu təbibə ehtiyacın? (Füz.) ***Pəjmürdəmi*** oldu sərvi-dilcu ***Kim***, cəhdlə vermək istədin su? (Füz.) ***Bədxahmı*** etdi qəsdi-gülzar ***Kim***, böylə uruldu rəxneyi-xar? (Füz.) Eşq əhlinə ***aşinamısan*** sən ***Kim***, aşiqi-xəstədən gəlirsən? (Xət.)

Göründüyü kimi, bütün hallarda budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmış, bağlayıcı sanki daha da fəallaşmışdır.

12.Baş cümlədə ***məgər*** sual ədatı işlənmiş, budaq cümlə baş cümləyə yalnız intonasiya ilə, yaxud da ***ki*** bağlayıcısı ilə bağlanmışdır: ***Məgər*** əğyar ilə yar oldı ol yar, Bizümlə razını az edər, oxşar? (QB) ***Məgər*** novruz gəlmişdür müsəvvər ***Ki***, olmuşdur cahan yenə münəvvər? (QB)

Bu model sonrakı dövrlərdə də fəal şəkildə davam etmişdir: Əqrəbdə idi bu gün ***məgər*** mah ***Ketdin*** bu yana əziməti-rah? (Füz.) Yar rəhm etdi ***məgər*** naləvü əfğanimizə ***Ki,*** qədəm basdı bu gün külbeyi-ehzanimizə? (Füz.) Məst etdi ***məgər*** səni bu badə ***Kim,*** bəzmdə durmadın ziyadə? (Füz.) Gül ərusun sübhdən bülbül nikah etmiş ***məgər Kim***, yüzün yaşıl duvaq altında pünhan eyləmiş. (Şahi) Məndin döndü ***məgər*** məzacın, Bu fikr ilə eylədin əlacın? (Məs.) Səvadi namənin, ey dil, ***məgər*** zülmati-heyvandır ***Ki***, ruhum Xızr tək ondan bəsa kəsbi-kamal etdi? (Vaqif) Ay oğlan, ***məgər*** sənin ananın bağrı daş idi ***ki***, sənin tək cavanı qoydu ki, çölə çıxsın? («Şəhriyar»)

Bəzən baş cümlədə ***məgər*** ədatı ***ki*** ədatı ilə birgə işlənmişdir: Sən ***məgər ki*** yaşıl başlı sonasan, Səndə tər cığalı tellər görünür?! (Vaqif)

13.Baş cümlədə həm ***məgər***, həm də ***–mı*** sual ədatları işlənmiş, budaq cümlə baş cümləyə ***anın üçün*** bağlayıcısı ilə bağlanmışdır: ***Məgər*** bu kişilər ***xırsızmı*** *ola*, ***Anın üçün*** düşüb gedər bu yola? (DƏH)

Füzuli mərhələsində ***anun üçün***, ***onunçun***, *anun çü* bağlayıcıları daha da fəal görünür: Biəqlü zəbanü bibəsərsən, ***Anun çü*** müdam xaksərsən.(Xət.) Gözəllikdə kimsə yoxdu təhrində, ***Onunçun*** çəkərəm yarın qəhrin də. (Qurbani) Sünbülün vəsfin səbadən eşidübdürür ***məgər,*** ***Anın üçün*** yelə verür xirmənin gülşəndə gül. (Həb.)

Bu bağlayıcı (***anın üçün/anun içün//anunçün*** şəkillərində) ədatlar olmadan da budaq cümləni baş cümləyə bağlamışdır: Faş eylədim cahanda ənəlhəq rumuzini, Doğru xəbərdir, ***anın üçün*** darə düşmüşəm. (Nəs.) Yüzinlə gülşən içində yanar gülün cigəri, ***Anunçün*** ana səba şəbnəmün suyın rəş edər. (QB) Özini mur gördi eşq içində, ***Anunçün*** bir Süleymana irişdi. (QB) Canan qatında cana məhəl yox ***anun içün*** Bir qətrə suyı dil apara birə saya saymazam (QB) Kimsənə munu fəhm etməz, ***anın içün*** həlakiz biz. (Rəh.)

Ə.Şükürlü yazır: «***Anın içün//anınçün*** tabeli mürəkkəb cümlə əmələ gətirən ən qədim mürəkkəb bağlayıcı sözlərdən biridir. Ehtimal ki, bu bağlayıcıdan anatürk inkişafı dövründə də istifadə olunmuşdur. Təkcə bunu demək kifayətdir ki, ***ol*** işarə əvəzliyinin ***üçün*** qoşması ilə birləşməsi nəticəsində əmələ gələn bu bağlayıcı vasitəsinə qədim türk yazılı abidələrində və demək olar ki, bütün müasir türk dillərində rast gəlmək mümkündür»[1]

14.Budaq cümlə baş cümləyə ***kim*** bağlayıcısı ilə bağlanmışdır: Nə ikən yavuz ol ***kim***, asılasan, nə ikən yavaş ol ***kim***, basılasan. (Oğuz.)

15.Budaq cümlə baş cümləyə ***ki*** bağlayıcısı ilə bağlanmışdır: İraqdan göstərin anı görəyim ***Ki,*** bən andan sizə xəbər verəyim. (DƏH) Qıza bir gün irişdi əmri-təqdir ***Ki,*** bozuldu ***bu üzdən*** rəyi-tədbir. (DƏH)

Nəticə budaq cümləsinin aid olduğu baş cümlə səbəb bildirir. Bu sonrakı misalda baş cümlədəki səbəbi xatırlatmaq üçün «nəticədə» mənasında *bu üzdən* sözləri də işlənmişdir.

Sonrakı mərhələdə budaq cümlənin bu quruluş forması fəal şəkildə işlənməkdə davam etmişdir: Leylini sən eylədin pərivəş ***Kim,*** canə cəmali urdu atəş.(Füz.) Avçı deyiləm ***ki,*** düşəm izinə. (Xət.) Heç kim yox idi ***kim,*** ola mane.(Xət.) Həq duta əlin ***ki,*** dutasan əl.(Xət.)

16.Budaq cümlə baş cümləyə müasir dildəki *odur ki* bağlayıcısının sinonimi olan *oldurur ki* bağlayıcısı ilə bağlanmışdır; məs: Cəhanda eşq odına girməyən fərağatdur, Könül ki sözə düşə, ***oldurur ki*** suza düşər. (QB) Başdurur sərmayəvü səni sevənlər assısı, ***Oldurur ki*** yoluna eşq ilə sərmayə verür. (QB)

17.Budaq cümlə baş cümləyə ***ol səbəbdən*** (***ona görə*** mənasında) bağlayıcısı ilə bağlanmışdır: Məndən qeyri bəlkə bir sevgisi var, ***Ol səbəbdən*** salmır o yada məni? (Qurbani)

Keçən minillik ərzində işlənən bir sıra bağlayıcı vasitələr tədricən məhdudlaşmış və xüsusən son bir neçə əsrdə sıradan çıxmışdır. Bir qismi şivələrdə öz izlərini saxlamışdır.

Nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrin ilkin qurulma vasitəsi – intonasiya tarix boyu dilimizə xidmət etmişdir. Baş cümlədə ***qanı – xanı – xansı, nitə*** sual əvəzlikləri, ***öylə***, ***oylə, şöylə, bir dürlü, anca*** kimi əvəzliklər sıradan çıxmış, ***kim*** bağlayıcısı öz yerini ***ki*** bağlayıcısına vermiş, sual əvəzlikləri çoxalmış, sual ədatları fəaliyyətini genişləndirmişdir. ***Anunçün, ol, oldurur*** tipli sözlərdə fonetik dəyişiklik olmuş, çox qədim dövrlərdən formalaşmış nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr uzun səlisləşmə və təkmilləşmə yolu keçmişdir.

---

[1] Ə.Şükürlü.Azərbaycan dilinin tarixi qrammatikası (zərf və köməkçi nitq hissələri),Bakı, APİ nəşri, 1981, c.81.

KƏMİYYƏT BUDAQ CÜMLƏSİ

Kəmiyyət budaq cümləsi abidələrin dilində nisbətən az işlənən budaq cümlə növlərindəndir. Budaq cümlə baş cümlədəki hərəkət və ya əlamətin miqdarını bildirir. Budaq cümlənin bu növü dərəcə budaq cümləsinə mənaca çox yaxındır.

Kəmiyyət budaq cümləsinin bir qismi baş cümlədən əvvəl işlənərək ona ***nə qədər, hər nə qədər, hər nə qədər kim, nə miqdar*** bağlayıcı sözləri ilə bağlanmışdır. Budaq cümlənin xəbərində əksərən şərt şəkilçisi və ya ***isə*** şərt ədatı işlənmişdir. Baş cümlədə ***ol qədər, o qədər*** sözləri təsəvvür edilir. Məs.:

Nə qədər gərək ***isə,*** alın götürün. (Suli) ***Nə qədər*** bunlar ***dilər isə***, virələr. (Suli) ***Hər nə qədər kim*** anın könlü dilər, yanaram. (Nəs.) Cəfaləri ***nə qədər acı isə***, yeyrəkdir Anın acısı rəqibin yağ ilə balından. (Nəs.) And olsun allaha, ***nə qədər əlimdən gəlsə,*** ata və ananı incitmənəm.(«Şəhriyar») ***Nə qədər əlindən gəlsə***, təcilinə səy et. **(**«Şəhriyar») **–** ***Nə qədər*** əlindən gəl***sə***, təcilinə (***o qədər***) səy et – Təcilinə ***əlindən gəldiyi qədər*** səy et. ***Nə qədər söyləsəm*** sənin şanına, Yaraşar müxəmməs, qəzəl, sevdigim! (Vaqif)

Bəzən baş cümlədə qarşılıq bildirən söz də işlənmişdir:

Artıran söz qədrini sidqilə qədrin artırar,
Kim ***nə miqdar*** olsa, əhlin eylər ***ol miqdar*** söz.(Füz.)
Barigahi-qürbdən cəmiyyəti-malü mənal
Hər nə miqdar olsa, ***ol miqdar*** dur eylər səni. (Füz.)
Sərdəftəri-əhli ruzigarəm,
Hər necə desən, ***yüz onca*** varəm.(Füz.)

Budaq cümlənin baş cümlədən sonra işləndiyi hallar da var. Baş cümlədə ***anca, ol qədər, o qədər*** qəlib sözləri işlənmiş, budaq cümlə baş cümləyə intonasiya, ***kim*** və ***ki*** bağlayıcıları ilə bağlanmışdır:

Anca axa gərək gözümdən yaş ***ki,*** cəhan toptolu hübab olısar. (QB) Yaxdıvü kül etdi odun, şahum, bənüm varlığumı ***Anca*** axıdam göz yaşın ***kim*** olan yaş ara.(QB) Siz bilürsiz, mənim ***ol qədər*** dövlətim var, on oğlum olsa, bəs ola. («Şəhriyar») Fəqir-füqəralərə ***ol qədər*** nəzir və ehsan verüldi ***ki,*** tamam əğniya oldular. («Şəhriyar») ***O qədər*** nəqd və cins və əmval və dəvağ siyahı olundu ki, hesabi-dəftəri müşəxxəs olmağı müşkil oldu.(«Şəhriyar») ***Onca*** qılayın sənə rəvan gənc Kim, yer üzün eyləyə nəhan gənc. (Vaqif)

Bu cümlələrdə aydın şəkildə dərəcə və nəticə çalarları da müşahidə olunur.

Abidələrin dilində az təsadüf edilməsinə baxmayaraq, kəmiyyət budaq cümləsinin müasir struktur tipləri çox qədim dövrlərdən formalaşmışdır.

Qoşulma budaq cümləsi haqqında. Müasir ədəbi dilimizin sintaksisindən bəhs olunan kitablarda «qoşulma budaq cümləsi» adı ilə başqa bir budaq cümlə növü də verilir[1]. Ə.Abdullayev «qoşulma» sözünü rus dilindəki *присоединительное* sözünün müqabilində işlətmişdir[2]. Əsas məzmununa görə ya baş cümlədəki fikrə münasibət bildirən, yaxud da baş cümlənin məzmunu ilə bağlı əlavə məlumat verən cümlə kimi izah olunur[3]. Əsas əlaməti baş cümlədən sonra gələn budaq cümlənin əvvəlində işlənən ***bu da, o da, bunu da, onu da, bunları da, onları da, buna da, ona da*** tipli sözlər hesab olunur. Ə.Abdullayev bu cür misallar vermişdir: məs.: *Yükünü özü boşaldan bu avtomobildə hidrotexniki nəqliyyat qurğusu qurulmuşdur* ***ki, bu da*** *sürücünün işini asanlaşdırır. Bəndalının sözlərini təkcə bir adam eşitmirdi* ***ki, o da*** *Məsmə idi.*

Dilimizdə bu cür ***ki*** bağlayıcısız cümlələr də işlənir: *Bir canım var,* ***o da*** *sizə qurbandır.*

Biz də bir vaxt bunları qəbul etmiş və dərslikdə qeyd etmişik. Lakin hiss olunur ki, bunlar ayrı bir budaq cümlə növü deyil, mübtəda, tamamlıq və təyin budaq cümlələrinin prepozitiv növüdür. Sonra gələn tərkibdəki ***bu da, o da, bunu da, onu da…*** sözləri budaq cümlənin baş cümlədə yerliyidir. Yəni belə cümlələrdə birinci tərkib baş cümlə deyil, budaq cümlədir. Prepozitiv mübtəda, tamamlıq, təyin budaq cümlələrindən fərqi oradadır ki, budaq cümlə baş cümləyə bağlayıcı sözlə deyil, ***ki*** ədatı ilə bağlanır. Baş və budaq cümlə arasında gəlsə də, ***ki*** bağlayıcı deyil, ədatdır və onu budaq cümlənin daxilinə də keçirmək olar: *Yükünü özü boşaldan bu avtomobildə hidrotexniki nəqliyyat qurğusu ki qurulmuşdur,* ***o,*** *sürücünün işini asanlaşdırır. Bəndalının sözlərini ki təkcə bir adam eşitmirdi,* ***o da*** *Məsmə idi. Bir canım ki var,* ***o da*** *sizə qurbandır.*

Mühüm bir cəhət də bundan ibarətdir ki, bir vaxtlar «qoşulma» adı ilə verdiyimiz ilk tərkib hissəsinin baş cümlə olduğunu qeyd etdiyimiz bu cür cümlələrin birinci tərkib hissəsinə əksərən üslubdan asılı olaraq ***–sa,-sə*** şəkilçisi də artırmaq olur. *Bəndalının sözlərini təkcə bir adam* ***eşitmirdisə, o da*** *Məsmə idi. Bir canım* ***varsa, o da*** *sizə qurbandır.*

Ə.Abdullayev də bunu qeyd etmiş və fərqini də göstərmişdir: ***ki*** ədatının (müəllifdə bağlayıcısının) olduğu cümlələrin məzmununda bir qətilik, ***-sa,-sə*** şəkilçili cümlələrdə güman məzmunu var[4]. Konkret misal da vermişdir: *Xurşud*

---

[1] Н.З.Гаджиева. Придаточные относительные предложения, «Исследования по сравнительной грамматике тюркских языков», III, Синтаксис, 1961, s. 219-220; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974, s.345-349; Г.Казымов. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000, s.403-405 və s.

[2] Ə.Abdullayev, göstərilən əsəri, s.345.

[3] Yenə orada.

[4] Yenə orada, s.348.

xanımın söyüb biabır etmədiyi bir adam ***qalmışdısa, o da*** *mən idim*. (S.Qədirzadə) - *Xurşud xanımın söyüb biabır etmədiyi bir adam qalmışdı* ***ki, o da*** *mən idim*.

Belə cümlələri təqribən aşağıdakı kimi sadələşdirmək olur: *Bəndalının sözlərini eşitməyən təkcə Məsmə idi. Olan bir canım da sizə qurbandır. Xurşud xanımın söyüb biabır etməmiş olduğu yeganə adam da mən idim*.

Belə cümlələr,hiss olunur ki, çox sonralar, nəsr əsərlərinin ədəbiyyatda geniş yer tutduğu dövrlərdə inkişaf etmişdir. Odur ki klassik ədəbiyyatın dilində bu cür cümlələrə az təsadüf edilir. İ.Quliyevin Qazi Bürhanəddinin dilində rast gəldiyi ***Bir qılca canum var, saçı qılına fədadır***[1] – cümləsinin ikinci tərkib hissəsinə asanlıqla ***o da*** sözlərini əlavə etmək olar. «Dədə Qorqud»da da belə cümlələr var: *Beyrəgi Qara Dərvənddə öldürmişlər,* ***uş da*** *nişanı, sultanım.* (58)

QARIŞIQ TİPLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Nəzərdən keçirdiyimiz abidələrin dilində tabeli mürəkkəb cümlənin qarışıq tipinin də yüksək səviyyədə inkişaf etmiş olduğu müşahidə edilir. «Kitabi-Dədə Qorqud»un dilində qarışıq tipin əsas özül formalarının varlığı bir daha göstərir ki, həqiqətən ümumxalq Azərbaycan dili sintaktik quruluşunun təşəkkül tarixi çox qədimdir. Prof.Ə.Dəmirçizadə dastanların sintaksisi üzərində ilkin tədqiqatlar əsasında yazmışdır: «Belə bir cəhəti də qeyd etmək lazımdır ki, «Kitabi-Dədə Qorqud» dastanlarında mürəkkəb cümlələrin bəzən qovuşuq tipləri də, hətta silsilə halında işlənmişdir. Belə cümlələrin tərkibində bəzən tabeli və tabesiz cümlələrin müxtəlif növləri, bəzən isə oxşar növləri işlənmişdir. Məs.: Qız, sən mana bir yil baqğıl, bir yildə gəlməzsəm, iki yil baqğıl, iki yildə gəlməzsəm, üç yil baqğıl, gəlməzsəm, ol vəqt mənim öldigimi billəsən, ayğırım boğazlayıb aşum vergil, gözün kimi tutarsa, könlün kimi sevərsə, ana varğıl,-dedi.(R.105)»[2] Professor onu da qeyd etmişdir ki, «Hər halda belə cümlələr haqqında düşünmək və xüsusən tədqiqat işi aparmaq lazım gələcəkdir»[3].

Məlumdur ki, quruluş etibarilə mürəkkəb cümlələr üç növə ayrılır:

1) tərkib hissələri sadə quruluşlu olanlar;

---

[1] İ.E.Quliyev. Qazi Bürhanəddin dilinin sintaksisi, nam. diss. Bakı, 2008,s.140.

[2] Prof.Ə.M.Dəmirçizadə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili, Bakı, V.İ.Lenin ad. APİ, 1959, s.141.

[3] Yenə orada, s. 137.

2) tərkib hissələrindən biri (və ya bir qismi) sadə, digəri mürəkkəb quruluşlu olanlar;

3) hər iki tərkib hissəsi mürəkkəb quruluşlu olanlar.

İkinci və üçüncü hallarda mürəkkəb quruluşlu, yəni qarışıq tipli tabeli mürəkkəb cümlələr yaranmış olur.

«Kitabi-Dədə Qorqud»un dilində tabeli mürəkkəb cümlənin qarışıq (mürəkkəbləşmiş) tipinin başlıca modelləri tərkib hissələrindən biri sadə, digəri mürəkkəb quruluşlu olan cümlə növləridir. Müşahidələr göstərir ki, dastanların dilində hər iki komponenti mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr yaxşı inkişaf etdiyi halda, tabeli mürəkkəb cümlənin bu modeli inkişaf etməmişdir. Başlıca modellər aşağıdakılardır.

I.Budaq cümləsi mürəkkəb quruluşlu olanlar.

1. Baş cümlə sadə, budaq cümlə tabesiz mürəkkəb cümlə şəklindədir; məs.: ***Baqdı gördi*** Oğuzun ucında bir ala sayvan dikilmiş, bir imirzə xub yigit qırq yigid ilən saqında və solında oturırlar. (53) ***Gördilər kim***, bu gələn kişinin qılıcının balçağı qanlu, oğlı görünməz. (91)

Bu cümlələrin hər ikisi tamamlıq budaq cümləlidir. Hər ikisinin baş cümləsi quruluşca sadədir, budaq cümləsi tabesiz mürəkkəb cümlə şəklindədir. Birinci misalın budaq cümləsinin komponentləri arasında zaman, ikincisində qarşılaşdırma əlaqəsi vardır.

2. Baş cümlə sadə, budaq cümlə tabeli mürəkkəb cümlə şəklindədir: ***Gördilər kim***, ol yigit ***kim*** baş kəsübdür, qan dökübdür, Baybörə bəgin sağında oturar. (53) ***Qılbaşa ayıtdım ki, qaçan ki*** Qazan evin yağmaladardı, Taş Oğuz bəgləri bilə yağmalardı. (124) ***Baqdı-gördi*** bu otağ Banıçiçəg otağıymış ***ki***, Beyrəgin beşikkərtmə nişanlısı, adaxlusıydı. (54) ***(Allah) Əzrayilə nida eylədi kim, çün*** dəli qavat mənim birligim bildi, birligümə şükr qıldı, ya Əzrayil, Dəli Domrula can yerinə can bulsun.

Bu misalların hamısında baş cümlə sadə, tamamlıq budaq cümlələri tabeli mürəkkəb cümlə şəklindədir. Birinci misalın budaq cümləsi mübtəda, ikincisi zaman, üçüncüsü təyin, dördüncü cümlə səbəb budaq cümləli tabeli mürəkkəb cümlə kimi qurulmuşdur.

3.Baş cümlə sadə quruluşlu, budaq cümlə paralel şərt budaq cümləlidir: ***Əgər*** səni hasardan aşağa orğanla ***salındıracaq olursam***, babananana sağlıqla ***varacaq olırsan***, ***bəni bunda gəlüb halallıqla alurmısan?*** (59) Üç yüz altmış altı alp ***ava binsə***, qanlu keyik üzərinə yürüş ***olsa***, ***Bəkil nə yay qurardı, nə ox atardı***. (104)

4.Baş cümlə sadə, budaq cümlə (xəbər budaq cümləsi) paralel şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: ***Ozan, evin tayağı oldur ki,*** yazıdan-yabandan evə bir qonaq ***gəlsə,*** ər adam evdə ***olmasa,*** ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. (33)

5. Baş cümlə sadə, budaq cümlə (tamamlıq budaq cümləsi) mürəkkəb quruluşludur - komponentləri inversiyaya uğramış şərt budaq cümləli

tabeli mürəkkəb cümlə şəklindədir; şərt budaq cümləsinin aid olduğu baş cümlə paraleldir; paralellərdən üçüncüsü yenə şərt budaq cümləlidir: ***Ayıtdı kim,*** yer kibi kərtiləyin, topraq kibi savrılayın, qılıcıma toğranayın, oxıma sancılayın, oğlum toğmasun, ***toğarsa,*** on günə varmasun, bəg babamın, qadın anamın yüzin görmədin bu gərdəgə ***girərsəm,*** - ***dedi.*** (90)

Bu son cümlədən göründüyü kimi, "Dədə Qorqud"un mühüm üslub xüsusiyyətlərindən biri cümlənin ***ayıtdı*** sözü ilə başlanıb, yaxın mənalı ***dedi*** sözü ilə bitməsidir. Öyrənilmişdir ki, dastanların dilində ***demək*** sözü 1183 dəfə, ***ayıtmaq*** sözü (müxtəlif variantlarda) 816 dəfə işlənmişdir[1]. Sözlərin bu cür əlaqələndirilməsi üsulu dastanların dilində ahəngdarlığı, lirizmi, şeriyyəti təmin edən mühüm vasitələrdəndir. Bu, canlı danışıq dilinin, dastan söyləmə üsulunun real göstəricisidir. Təbii ki, bunların hər birini ayrıca bir baş cümlə hesab etmək olmaz. Bunlar eyni bir budaq cümlə - tamamlıq budaq cümləsi tələb edir və ona görə də təhlil zamanı bunlardan birinin - birincisinin nəzərə alınması kifayətdir. Dastan boylarında belə cümlələrə tez-tez rast gəlmək olur. Məs.: ***Aydır***: Mərə kafər, Dədəm Qorqud qopuzı hörmətinə çalmadum, - ***dedi***, - əgər ələndə qopuz olmasaydı, ağam başiçün, səni iki parə qılurdım,-***dedi.*** (114) – cümləsi ***aydır*** sözü ilə başlamış, ***dedi*** sözü ilə bitmişdir. Hələ birinci - daha iri bitkin fasilədən sonra da ***dedi*** sözü işlənmişdir. Bunlar birlikdə bir baş cümlədir, qalan hissə tamamlıq budaq cümləsindən ibarətdir. Ortadakı "dedi" sözündən sonra "və" bağlayıcısını işlətmək olar. Bu göstərir ki, budaq cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir, lakin birinci komponenti sadə, ikincisi şərt budaq cümləlidir.

II. Baş cümləsi mürəkkəb quruluşlu olanlar:

1.Budaq cümlə sadədir, baş cümlənin komponentləri tabesizlik əsasında əlaqələnmişdir; məs.: Qarşu yatan qara tağdan bir oğul ***uçurdınsa***, ***degil mana, külünglə yıqdırayım*** (73) ***Çün*** av yarağı oldı, ***kim atın ögər, kim qılıcın, kim çəküb ox atmağın ögər***. (104)

Hər iki misalda budaq cümlələr (şərt və zaman budaq cümlələri) sadə quruluşludur; baş cümlələr tabesiz mürəkkəb cümlə şəklindədir – birincisi ardıcıllıq, ikincisi zaman əlaqəsi ilə birləşmişdir.

2.Mürəkkəb quruluşlu baş cümlənin komponentləri tabelilik yolu ilə əlaqələnmişdir; məs.: Ağca yüzlü anan qarşu gəlüb "oğul" ***desə***, ***Ağ əlləri ardına bağlu, deyəyinmi?*** (76) Dölin almaqdan səfan ***varsa***, Şökli Mələk, ***qara gözli qızın varsa, gətür Qazana ver*** (49) ***Qarğarsan, babama qarğa,*** bu suç, bu günah babamdandır (39) - cümlələrindən əvvəlki ikisi şərt budaq cümləlidir, budaq cümlələri quruluşca sadədir; birinci misalın baş cümləsi tamamlıq, ikinci misalın baş cümləsi şərt budaq cümləlidir.

[1] A.Axundov.Dil və ədəbiyyat, 1-ci cild, Bakı, 2003, s.336.

Son misalda da səbəb budaq cümləsinin aid olduğu baş cümlə şərt budaq cümləlidir.

3. "Kitabi-Dədə Qorqud"un durğu işarələrində bir şərtilik var. Boylarda sual və nida işarələri cümlə sərhədini göstərməyə deyil, daha çox emosionallığa xidmət edir. Oğlunun gəldiyi xəbər verildikdə Beyrəyin atası sevincini aşağıdakı sözlərlə bildirir:

Dilün içün öləyin, gəlincigüm!
Sağ-əsən çıqub gəlsə,
Qarşu yatan qara tağlar sana yaylaq olsun!
Souq-souq suları sana içət olsun!
Qulım-xəlayığım sana qırnaq olsun!
Şahbaz atlarım sana binət olsun!
Qatar-qatar dəvələrim sana yüklət olsun!
Ağayılda ağca qoyunım sana şülən olsun!
Altun-aqçam sana xarclıq olsun!
Dünlügi altun ban evim sana kölgə olsun!
*Qara başım qurban olsun sana, gəlincigüm!-**dedi**.* (66)

Bu parça tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir (son sözü – ***dedi*** sözünü ***Sağ-əsən çıqub gəlsə*** sözlərindən əvvələ də keçirmək olar). Tamamlıq budaq cümləsi isə şərt budaq cümləlidir: *Sağ-əsən çıqub gəlsə, Qarşu yatan qara tağlar sana yaylaq olsun,-dedi* və ya: *Dedi (ki) (oğlum) sağ-əsən çıqub gəlsə, Qarşu yatan qara tağlar sana yaylaq olsun!* Budaq cümlə şərt budaq cümləlidir və şərt budaq cümləsinin tabe olduğu baş cümlə doqquz komponentdən ibarətdir. Baş cümlələrdən sonra qoyulmuş nida işarəsi cümlələrin rabitəsini qıra bilmir, mətn bütövlükdə bir mürəkkəb cümlə kimi dərk olunur. Bu cür hallarda mürəkkəb cümlə bir sintaktik bütövə bərabər olur.

Araşdırmalar prosesində aydın oldu ki, sadə cümlənin quruluş modellərində əsaslı fərq müşahidə olunmur. Əksinə, biz "Dədə Qorqud"un dili ilə müasir ədəbi dilimizin sintaktik quruluşu arasında varislik və kök birliyi, kamil əcdad və zəngin xələf varisliyi görürük. Bu cəhət eyni dərəcədə həm sadə quruluşlu, həm də qarışıq tipli tabeli mürəkkəb cümlələrə aiddir. Sonrakı dövrlərdə dilin daşlaşmış abidələrində həmin özül əsasında yalnız səlisləşmə, zənginləşmə, təkmilləşmə əlamətləri müəyyənləşdirilə bilər. Müasir dilimizlə quruluş birliyini göz önünə çəkməkdə məqsədimiz "Dədə Qorqud" dilinin müasirliyini, bizim zəmanəmizə yaxın bir dövrdə təşəkkül tapmış olduğunu qeyd etmək deyil, dastanların qədimliyini və əks etdirdiyi ilkin feodalizm dövrü dilimizin yüksək inkişaf səviyyəsində olduğunu göstərməkdir. Bu dil 1500-2000 il əvvəl də bu xalqa yüksək səviyyədə xidmət edib. Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin dilinin fonetik sistemi, lüğət tərkibi, qrammatik qurulu-

şu əsrlərin sınağından çıxa bilməyən bir sıra elementlərini tərk etsə də, özünü əsaslı və mükəmməl şəkildə mühafizə edib saxlayıb və yad təsirlərdən qorxmadan təbii inkişaf yolu ilə irəliləyib. Bu dil Həsənoğlunun qəzəl dilindən dəfələrlə kamil, təbii və orijinaldır. Bu dildə yad elementlər azdır və olanlar da köçürmələr prosesinin, katib əməliyyatının məhsuludur. Əgər bu dastanların 1300 illiyi rəsmi qeyd və təsbit olunursa, deməli, ən azı 2000 illik və daha çox yaşı var. Dastanların sintaksisi elədir ki, köçürmələr prosesində heç bir katib onu ciddi dəyişmələrə məruz qoymamış, zədələyə bilməmişdir. Bütün bu mülahizələrlə bu fikirdəyik ki, dastan birinci minilliyin ortalarının yazı dili nümunəsidir. Dastandakı obrazlarda şumerlərin, arattalıların, kutilərin, lullubların, turukkilərin, madayların, mannalıların, albanların, atropatenalıların ruhu və nitqi yaşayır.

"Dədə Qorqud" bizim üçün ona görə qiymətlidir ki, beş min il əvvəldən başlayaraq babalarımızın tək-tək kəlmə-incilərini axtardığımız bir zamanda bizi miladın birinci minilliyinin ortalarında, peyğəmbər zamanına yaxın bir vaxtda birdən-birə nəhəng və misilsiz bir xəzinə üzərinə gətirib çıxarır. Miladdan əvvəlki üç min illik yolda səpələnmiş və parlaqlığı ilə yad mühitdə işıq saçan kəlmə-incilər bizi bu xəzinəyə doğru sürükləyib. Deməli, bu xəzinənin əsil mənbəyini tapmaq üçün tarixin böyük yoluna səpələnmiş həmin inciləri yığa-yığa uzaq keçmişə üz tutmaq lazım imiş.

XIII-XIV əsrlərdə və daha sonrakı mərhələlərdə müşahidə edilən qarışıq tipin daha çox nəzərə çarpan nümunələri aşağıdakılardır.

Baş cümləsi sadə, budaq cümləsi mürəkkəb quruluşlu olanlar

«Kitabi-Dədə Qorqud»dan sonrakı mərhələdə də tabeli mürəkkəb cümlə daha çox tamamlıq budaq cümləsinin mürəkkəbləşməsi ilə genişlənmişdir. Əksərən baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi mürəkkəbdir. Tamamlıq budaq cümləsi, demək olar ki, bütün budaq cümlə növləri əsasında mürəkkəbləşmişdir və aşağıdakı quruluş xüsusiyyətləri ilə nəzəri cəlb edir.

I.Baş cümlə sadə quruluşludur, m ü b t ə d a budaq cümləsi səbəbnəticə əlaqəli tabesiz mürəkkəb cümlə şəklində olub, ikinci komponenti tamamlıq budaq cümləlidir; məs.: Rəyətə xoşdur ***ki***, şah ədl eyləyə, ***Hər kimi görürsə***, iyü söyləyə. (MV)

II.Baş cümlə sadə quruluşlu, x ə b ə r budaq cümləsi tamamlıq budaq cümləlidir: *Hacətim* ***budur*** *sənə, ay padşah* ***kim,*** *xocəm* ***bilə ki,*** *mən-*

də yoq günah. (Suli) Eyni zamanda xəbər budaq cümləsi məqsəd budaq cümləli ola bilir: *Məsləhətim sana* ***budur*** *suva var sən, Boyunızdan tozan-topraq getsün imdi*. (QY)

III. 1.Baş cümlə sadə quruluşlu, t a m a m l ı q budaq cümləsi mübtəda budaq cümləlidir və mübtəda budaq cümləsinin baş cümləsi mürəkkəb quruluşlu olub, şərt budaq cümləli tabeli mürəkkəb cümlə kimi qurulmuşdur; məs.: Biri aydır: ***Hər kim*** ol ***gözsiz isə***, Görəsiydi gözi, yemişim ***yesə***.(MV)

2.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi xəbər budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və xəbər budaq cümləsi də tamamlıq budaq cümləlidir: Cəbrayıl ***aytdı:*** Yusif, həqqin sözü ***Budurur kim,*** sənə bu görklü yüzi Kim veribdür işbu xubluqi sənə, Söylə imdi bir cəvab ilə bənə. (Suli)

3.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi xəbər budaq cümləlidir. Xəbər budaq cümləsi isə paralel şərt budaq cümləlidir: ***Derlər*** bu idi ərəbdə adət ***Kim,*** ər əgər ***ölsə, qalsa*** övrət, Bir il, iki il tutardı matəm, Fəryadü fəğan edib dəmadəm. (Füz.)

4. Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi həmcinsdir – paraleldir: Bən nicə diyəm ***ki***, bana şol yar nə qıldı, Könlüm evinə şol büti-əyyar nə qıldı.(QB)

5.Baş cümlə sadə, tamamlıq budaq cümləsi səbəb budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və səbəb budaq cümləsinin baş cümləsi tamamlıq budaq cümləlidir; məs.: Dedilər ***kim, nə*** buyurursan ***anı*** Qılayım, ey qamumuzun sultanı, ***Kim***, sənlə rövşəndir bu cahan. (MV)

6.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi məqsəd budaq cümləlidir: Cadu gözünə hey de ***ki,*** rəhm edə könülə ***Ki***, taş oxına döyiməyə taş eşigündə. (QB)

7.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləlidir: Mehri aydır: Bən ***gərək isəm*** sana, Verəsən bir yıl gərək möhlət bana. (MV)

Aşağıdakı tamamlıq budaq cümlələri də eyni quruluşa malikdir: ***Bildi ki, gər olmaz olsa*** Leyli, Mümkün deyil olmağı təsəlli.(Füz.) Şərt eylədi ol bülənd əxtər ***Kim, olsa*** bu kami-dil müyəssər, Sərf eyləyə gəncü mali-aləm Cananə yolunda, bəlkə can həm. (Füz.)

8.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Şərt budaq cümləsinin aid olduğu baş cümlə isə qarşılaşdırma budaq cümləlidir və tərəfləri inversiyaya uğramışdır; məs.: Ayıtdı *(**kim**), **əgər*** diri ***qalırsam***, Bucuq yil əglənəm, ***gər*** *çox* ***olursam***. (DƏH)

9.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləlidir və şərt budaq cümləsinin baş cümləsi tamamlıq budaq cüm-

ləli tabeli mürəkkəb cümlə şəklindədir: Der idi: ***gər*** anı bir gəz ***bulaydım,*** Ana bən bilir idim nə qılaydım. (DƏH)

10.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və onun da baş cümləsi səbəb budaq cümləlidir: *Fikr eylədilər* ***ki***, xəsmi-xunxar Bu şivədən ***olsalar xəbərdar***, Qurtulmaq aradan ola müşkil, (*çünki)* Düşmən bizə mülkü cavü mənzil.(Məs.)

11.Baş cümlə sadə, tamamlıq budaq cümləsi qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və budaq cümlənin aid olduğu baş cümlə nəticə budaq cümləlidir: əvvəl ***qanda*** sual əvəzlikli baş cümləsi işlənmiş, sonra nəticə budaq cümləsi gəlmiş və ona ***ki*** bağlayıcısı ilə bağlanmışdır; məs.: Der idi ***kim***, gecə-gündüz ***arasam,*** Sərasər dünyayı bir-bir ***darasam,*** Bunun kimi lətif ***qand***a bulaydım ***Ki,*** oğluma anı kəbin qılaydım. (DƏH)

12.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi nəticə budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Dedi xatun: ***nə*** canı var gələ ol ***Ki*****,** bizim qapımızı ol bula yol. (DƏH) Bilməzəm ***kim,*** neylədim bu qan olası könlümə ***Kim,*** qaçar hər yan məni-biçarədən bizar olub. (Kiş.) ***Dedim*** **ki,** səba bu dəmdə ***xanı Kim***, gələ apara namə yarə. (Xət.)

13.Baş cümlə sadə quruluşlu, tamamlıq budaq cümləsi nəticə budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir və onun da baş cümləsi sadə, budaq cümləsi zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi qurulmuşdur; məs.: Yenə gəldi əqli aydır: Ey nigar, Hurimisən, ya mələkmi, gülüzar, ***Kim***, gözüm doymaz yüzünə bakmağa, Qəsd edər canım tənimdən çıkmağa. (MV)

14.Baş cümlə sadə, tamamlıq budaq cümləsi nəticə budaq cümləlidir. Nəticə budaq cümləsinin özü də şərt budaq cümləlidir: Bən soraram ***ki,*** xasiyyəti ***nə*** totağunun ***Ki*****,** diri qılur öliyi, bir yar ***əgər çıxa***. (QB)

15.Baş cümləyə intonasiya ilə bağlanan tamamlıq budaq cümləsi qarşılaşdırma budaq cümləlidir: ***Həq bilir***, yar deyil canü dilimdən ğaib, Nola ***gər*** ğaib **isə** dideyi-giryanımdan. (Füz.)

16.Baş cümlə sadə, tamamlıq budaq cümləsi paralel qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. ***Qurbani der***: Can içində can ***gələ,*** Yaş yerinə gözlərimdən qan ***gələ***, Camalın görməyə Süleyman ***gələ*****,** Təxti-Süleymana vermərəm səni. (Qurbani)

IV. 1.Baş cümlə sadə, t ə y i n budaq cümləsi qarşılaşdırma budaq cümləlidir: Eşq məsti ***ol*** dilavərdür ***ki, gər*** yüz cürm edər, Dəftəri əmalinə səbt eyləməzlər bir günah. (Rəh.) ***Gör ol bipakı kim, yıqılsa*** aləm, eyninə gəlməz. (Ruhi) Hər iki misalda baş cümlə əvvəl işlənmiş, mürəkkəb quruluşlu budaq cümlələr sonra gəlmişdir.

2.Təyin budaq cümləsi qarşılaşdırma budaq cümləlidir və onun da baş cümləsi (*Qılmaz ona hiç kim nəzarə, Derlər gülə xar, lələ xarə*) zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir:

Bir mülkdəyəm ***ki, gər*** udub qan, Məzmuni-ibarətə çəkib can, Min riştəyə türfə ləl ***çəksəm***, Min rövzəyə nazənin gül ***əksəm***, Qılmaz ona hiç kim nəzarə, Derlər gülə xar, lələ xarə. (Füz.)

3.Baş cümlə sadə quruluşlu, təyin budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir, onun da budaq cümləsi sadədir, baş cümləsi tərəfləri inversiyaya uğramış qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir: ***Bir zamandır şimdi kim***, fəqr içrə ***olsə*** bir kişi, Qayil olmazlar, ***əgər*** yüz bin kəramət ***görsələr***. (Ruhi)

V.Baş cümlə sadə quruluşlu, s ə b ə b budaq cümləsi zaman budaq cümləlidir: Aşiqin başında əql qılmaz qərar, ***Çünki*** eşq ***gəldisə***, əql eylər səfər. (MV) Zülf arasında yaşur zülfüni tökgəc didə ab ***Kim***, yağış yağsa, yaşunur bulut içrə aftab. (Hid.)

VI. Baş cümlə sadə quruluşlu, m ə q s ə d budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Söylərdi bənəfşəyə ğəmi-dil ***Kim***, söyləyə yarə ***olsa*** vasil. (Füz.)

VII. Baş cümlə sadə quruluşlu, ş ə r t budaq cümləsi həmcins və ya paraleldir: ***Gər döndərəm*** etdigüm qərari, Bu şivədə xəsmim ***ola*** yari, ***Gər*** qeyrə ***ola*** rüxi-nəvidim, Məsdud ***oluna*** dəri-ümidim, ***Gər*** adını ***unuda*** bəyanım, *Tovhiddə kəng ola zəbanım.* (Məs.)

Baş cümlə sadə quruluşludur, budaq cümlə paralel tamamlıq budaq cümləli şərt budaq cümləsindən ibarətdir: Bilmək diləsən **gər**, ey nikuru, Kim kəsdi durub bu cuydən su, ***Ya*** kim bu busati-eyşi qarət Qıldı, uçuban dəri-xəsarət, ***Ya*** kim məni səndən eylədi dur, Kim qıldı bizi bu dərdə rəncur, *Örtüb yüzə ehtiyat babın, Təhrirə gətürmədim cəvabın*. (Məs.)

VIII. Baş cümlə sadə quruluşlu, q a r ş ı l a ş d ı r m a budaq cümləsi paraleldir: Suzi-dil ilə ***tökülsə*** yaşım, Tiği-qəm ilə ***kəsilsə*** başım, ***Candan çıxarıb həvayi-eşqi, Tərk eyləməzəm bəlayi-eşqi***. (Füz.) ***Əgər*** ol sehrilə aya ***sağarsa, Əgər*** Zöhrə olub göyə ***ağarsa***, Can əlimdən bənim ol qurtaramı? (DƏH) Saz tutub yüz min sənəm ***oynasa***, Cəm oluban Rumü əcəm ***oynasa***, Göydə mələk, yerdə adəm ***oynasa***, Həzzim olmaz hərgiz özgədən, gəlin! (Vaqif) Yüz zülfü pərişan, hindu xal ***olsa***, Yüz şəkər göftarlı, ləbi bal ***olsa***, Yüz şirindil, ənbərbu maral ***olsa***, Yetə bilməz maralına Vaqifin.(Vaqif)

Göründüyü kimi, tamamlıq budaq cümləsi çox inkişaf etmişdir və qarışıq tip ən çox tamamlıq budaq cümləsinin aldığı formalarla bağlıdır.

Tabeli mürəkkəb cümlə Füzulinin və Məsihinin qələmi ilə daha da mürəkkəbləşmiş, baş və budaq cümlə komponentlərinin sayına və məna

zənginliyinə görə inkişaf etmiş, dilin potensial imkanları daha çox üzə çıxarılmışdır. Tərkib hissələrindən biri sadə, digəri mürəkkəb quruluşlu olan cümlələrdə, əvvəlki dövrlərdə olduğu kimi, *budaq cümlələr* mürəkkəbləşmə istiqamətində daha çox inkişaf etmişdir.

Budaq cümləsi sadə, baş cümləsi mürəkkəb quruluşlu olanlar

I.M ü b t ə d a budaq cümləsi sadə, onun aid olduğu baş cümlə mürəkkəbdir – qarşılaşdırma budaq cümləlidir: ***Hər kimin*** cananı ***kim*** bir əhli-ürfan ***olmaya, Şahi-aləm olsa***, onda rahəti-can olmaya.(Vaqif) Baş cümlənin əvvəlinə mübtəda vəzifəsində ***o*** sözünü artırmaq olar.

Mübtəda budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir: Səndən nə ***inayət olsa*** vaqe, *Fikr etmə* ***ki****, məndə ola zaye*. (Füz.)

II. T a m a m l ı q budaq cümləsi sadə quruluşlu, baş cümlə mübtəda budaq cümləlidir: Ağ yüzündə o qara bənlər ***ki*** var, ***Kim ki görsə anı*** eylər ahü zar. (MV)

III.Z a m a n budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir: ***Çün*** gəldi mənim yanıma yetdi, *Sordum ona* ***kim****, nigar netdi?* (Xət.)

IV.S ə b ə b budaq cümləsi sadə, baş cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir; məs.: ***Çünki*** rəf oldu üzündən, ey məhixuban, niqab, Qalmadı küfrü zəlalət, zahir oldu afitab.(Nəs.)

Budaq cümlə (səbəb budaq cümləsi) sadə quruluşlu, baş cümlə şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir; məs.: ***Çün*** Həqiqinin iki aləmdə sənsən dilbəri, *Canını yolunda qurban qılmazsa, təqsir edər.* (Həq.)

V.1.Ş ə r t budaq cümləsi sadə quruluşlu, baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: Ağızun anar ***olur isəm***, ağızum sulanur, Ləbünlə dişlərün içün dəxi gözüm sulanur.(QB)

2.Şərt budaq cümləsi sadə, onun aid olduğu baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir və onun ikinci komponenti mübtəda budaq cümləlidir***: Əgər*** mənə bir xoş ***xəbər verəsən***, bundan sonra əziz bacı rütbəsində edərəm və bir də ***hər nə*** mətləbin ***var isə*** tamam dərəcəyi-icabətə yetişür. («Şəhriyar»)

3.Şərt budaq cümləsi sadə quruluşlu, onun aid olduğu baş cümlə səbəb budaq cümləlidir: Kamımız ***verməz isən*** ərzi-tələbdən bari, Bizi mən etmə ***ki****,* izhari-təmənna sevərüz.(Rəh.)

4.Şərt budaq cümləsinin aid olduğu baş cümlə qarşılaşdırma budaq cümləlidir: Eşq ***yar olsa əgər***, aləm ***yıxılsa***, qəm yemən. (Rəh.)

5.Budaq cümlə (şərt budaq cümləsi) sadə quruluşlu, baş cümlə tamamlıq budaq cümləlidir: ***Əgər*** Musa kimi gəlmək, təcəlli ***görmək istərsən,*** Nəzər qıl üzünə gör ***kim***, iki aləm əyan oldu. (Nəs.) **Gər** hasil olur bu kam səndən, ***Hər nə ki dilərsən****, istə məndən.* (Füzuli)

6.Şərt budaq cümləsi sadə, baş cümlə tamamlıq budaq cümləlidir və onun da budaq cümləsi tabesizdir: Sizdən ***sorar olsa*** ata halım, keyfiyyəti-möhnətü məlalım, *Söylən* ***ki,*** *fənayə verdi rəxtin, Əyyam siyah qıldı bəxtin*. (Füz.)

V.Q a r ş ı l a ş d ı r m a budaq cümləsi sadə quruluşlu, baş cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: Zülfünün küfrün ***əgərçi*** əhli-fəzl iman bilir, Ey Nəsimi, sanma sən kim, kafər iman istəyə.(Nəs.) Dönməzəm eşqin yolundan *haq bilür*, ***Gər tökərlərsə*** yerə qanım mənim. (Həq.)

Göründüyü kimi, şərt budaq cümləsinin aid olduğu baş cümlələr mürəkkəb quruluşa daha çox meyillidir.

Tərkib hissələrdən birinin – baş və ya budaq cümlənin mürəkkəbləşdiyi hallar, təbii ki, əlavə xüsusiyyətlərə də malikdir və öz inkişafını davam etdirməkdədir. Lakin hər iki komponentin mürəkkəbləşdiyini göstərən nümunələrdə əvvəlki dövrlərlə son inkişaf mərhələləri arasında, əlbəttə, fərqlər vardır.

Hər iki komponenti mürəkkəb quruluşlu olanlar

Tabeli mürəkkəb cümləyə nisbətən, hər iki komponenti mürəkkəb quruluşlu tabesiz mürəkkəb cümlələr nəzərdən keçirilən dövrlərin poeziya dilində daha çox inkişaf etmişdir. Məs.: Hər könül ***ki*** həqqə vasil oldu, buldu etibar, Hər gəda ***ki*** şahə məhrəm oldu, oldu mötəbər (Nəs.)

Və ya: Ərz qılsam qamətindən həşr olur yovməl-qiyam, Söyləsəm kövsər ləbindən məhv olur abi-həyat (Nəs.) – cümlələrinin hər ikisi tabesiz mürəkkəb cümlədən ibarətdir. Hər ikisinin tərkib hissələri mürəkkəb quruluşludur: birincisinin tərkib hissələri mübtəda, ikincisinin tərkib hissələri şərt budaq cümləlidir.

Və yaxud da:

Gerçək xəbər imiş bu ki, xubin vəfası yox,
Kim sevdi xubi kim, dedi, xubin cəfası yox? (Nəs.)

Bu cümlənin tərkib hissələri arasına (ikinci misradan əvvəl) ***amma*** bağlayıcısı artırmaq olar, cümlə qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir. Birinci komponenti mübtəda, ikincisi nəticə budaq

cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Aşağıdakı cümlə bu cəhətdən bir qədər də maraqlı və mürəkkəbdir:

Gər desəm həqsən, nigara, qüssədən İblis ərir,
Vər desəm insan, bu sığmaz əqlə ***kim***, insan budur. (Nəs.)

Bölüşdürmə əlaqəli bu tabesiz mürəkkəb cümlənin hər iki komponenti şərt budaq cümləlidir. Hər iki şərt budaq cümləsi tamamlıq budaq cümləsi kimi qurulmuşdur (*desəm (ki) həqsən – **həqq olduğunu*** desəm). Lakin ikinci misrada şərt budaq cümləsinin baş cümləsi yenə tamamlıq budaq cümləlidir (***əqlə sığmaz ki, insan budur – insanın bu olduğu*** əqlə sığmaz). Tabesiz mürəkkəb cümlənin tərkib hissələri ***və*** bağlayıcısı ilə əlaqələnmişdir, lakin onu asanlıqla ***və yaxud*** şəklinə salmaq olur, odur ki cümlə bölüşdürmə əlaqəlidir.

«Dastani-Əhməd Hərami»nin dili bu cür cümlələrlə zəngindir, deməli, dilin potensial imkanları genişdir. Nəsiminin, Qazi Bürhanəddinin «Divan»larında və ya «Mehri və Vəfa» əsərinin dilində artıq belə cümlələr intensiv işlənmə imkanları ilə diqqəti cəlb edir. Məs.: Ertə durdu ***kim,*** gedə girə yola, Gördü bir akçası yok azuq ala (MV) – cümləsi zaman budaq cümləlidir. Budaq cümləsi əvvəl işlənmişdir və məqsəd budaq cümləlidir. Baş cümləsi tamamlıq budaq cümləlidir: *Yola düşmək üçün ertə duranda azuq almaq üçün bir aqçası da olmadığını gördü.*

Nəzərdən keçirdiyimiz mərhələlərdə mürəkkəb cümlə baş və budaq cümlələrin şaxələnməsi hesabına daha da mürəkkəbləşmiş, Füzulinin, Məsihinin dilində daha da genişlənmişdir.

Hər iki komponenti mürəkkəb quruluşlu olan tabeli mürəkkəb cümlələrə dair aşağıdakı nümunələri qeyd etmək olar.

I.Baş cümlə şərt budaq cümləlidir, budaq cümlə - t a m a m l ı q budaq cümləsi qarşılaşdırma budaq cümləsindən ibarətdir. Qarşılaşdırma budaq cümləsinin aid olduğu baş cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir. Budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: *Bilməz isən, şimdi bil, agah ol*, Yeddi iqlimin gərəksə şahi ol, Bu cahanda Vərqədir yarım bənim, Vərqədən ayruğu əğyarım bənim. (YM)

II.Əvvəl gələn tərkib hissə – z a m a n budaq cümləsi məqsəd budaq cümləlidir, baş cümlə isə zaman əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir: Vərqə dürtdü xəncəri ***kim***, kəndözün Türbə üstündə həlak qıla özün, *Aldılar **şol dəm** əlindən xəncərin, Şaşdılar cümlə silahların varin*. (YM)

III.S ə b ə b budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi zaman budaq cümləli, budaq cümləsi xəbər budaq cümləlidir və hər iki komponentdə budaq cümlə əvvəl, baş cümlə sonra işlənmişdir:

Nigara, ***necə ki irağ isən***, bini ana dur
Ki, sən ***nərədə*** olursan, yönümüz *ol yanadur*. (QB)

Səbəb budaq cümləsinin baş cümləsi nəticə budaq cümləli, özü (budaq cümlə) təyin budaq cümləlidir. Səbəb budaq cümləsi baş cümləyə ***neçin ki*** bağlayıcısı ilə bağlanmışdır:

Aşiqlərin cananəsi həqdir, həqə ver canını,
Neçin ki cansız qalısər ol can ***ki***, bicananədir. (Nəs.)

Səbəb budaq cümləsinin özü də, onun aid olduğu baş cümlə də qarşılaşdırma budaq cümləlidir: Gülüb ***açılsə*** hər xarə *nə ğəm* ***kim****, ol güli-rəna* ***Əgərçi*** *xarlə həmdəmdir,* ***amma*** *pakdaməndir*. (Ruhi)

IV.Ş ə r t budaq cümləsinin qarışıq tipi daha zəngindir.

1.Şərt budaq cümləsi tabeli, baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: ***Gər*** *inanmazsan* ***ki****, qəmzən yıxdı könlüm şəhrini, Bəs bu fəryadım nədəndir, didə qandan nəmdürür?* (Nəs.) Budaq cümlə tamamlıq budaq cümləlidir, baş cümlə isə zaman əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir.

Bu cümlə də eyni quruluşdadır: Gər bilməz isən ***ki***, mən nə zatəm, Nə zülməti-çeşmeyi-həyatəm, *Feyzi-hünərim şərabdən sor, Suzi-cigərim kəbabdən sor*.(Füz.)

2.Şərt budaq cümləsi tamamlıq budaq cümləli, baş cümlə mübtəda budaq cümləlidir: Bir kimsə ***əgər*** olaydı agah ***Kim***, xəlqi necə yaradır allah, *Mümkün* ***ki****,iradətilə ol həm Xəlq edə bileydi özgə aləm*. (Füz.)

3.Baş cümlə səbəb budaq cümləli də ola bilir: Gər ***dersə*** Füzuli ***ki,*** «gözəllərdə vəfa var», *Aldanma* ***ki****, şair sözü, əlbəttə,yalandır.* (Füz.)

4.Paralel şərt budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi tabesiz mürəkkəb cümlədən ibarətdir: Dəryalərə ***yetsə*** ləməyi-tab, Səhralərə ***düşsə*** qətreyi-ab, Dəryalar olurdu cümlə səhra, Səhralar olurdu cümlə dərya. (Füz.)

5.Şərt budaq cümləsinin baş cümləsi məqsəd budaq cümləlidir. Məqsəd budaq cümləsi həmcinsdir və həmcinslərdən ikincisi tamamlıq budaq cümləlidir: Yusif ***əgər*** səbrlə ***şah oldisə***, Misir ilinə köçübən ***gəldisə***, Sən dəxi səbr eylə ***kim***, şah olasin, ***Nə ki*** könüldədir, ***ani*** qılasin. (Suli)

Xətainin dilində də bu cür cümlələr işləkdir: ***Gər*** atəşi-eşq başa ***düşsə***, Bir zərrəcə suzi daşa ***düşsə***, Qatlanmaya ona, çatlaya daş, Meydani-həvadə oynaya baş. (Xət.) Bir ağzıma ***gər olaydı*** yüz dil, Bir qəlbim ***əgər olaydı*** min dil, Bullar sifətin sözün deyəydi, Ollar qəmi-eşqiniz yeyəydi. (Xət.)

6.Budaq cümlə paralel şərt budaq cümlələrindən ibarətdir. Baş cümlə nəticə budaq cümləlidir və onun baş cümləsi də, budaq cümləsi də həmcinsdir: ***Gər bitməsə*** dərgəhində kamım, ***Gər dolmasa*** lütfün ilə camım, Bir dəst ilə ***zud edəm əgər*** dir, Alatü tabaqçini sərazir,/ Əsbabını ***dağıdam*** cəhanə, Bin dağ ***qoyam*** sana nişanə,/ Hicrin biləsən nədir rümuzi, Əksilməyə ömrün ola suzi. (Məs.)

7.Bəzən paralel şərt budaq cümlələrini Füzuli yüksək həddə çatdırmışdır. Aşağıdakı misalda yalnız son üç misra - baş cümlə xəbər budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir:

Gər səndə olan fərağəti-dil
Bir dəm mənə ***olsa idi*** hasil,
Geysuyi-müsəlsəli girehgir
Boynumda ***gər olmasaydı*** zəncir,
Vər bağlamayaydı bəndi-xəlxal
Qeyd ilə ayağımı məhü sal,
Eyb ilə ***çəkilməsəydi*** adım,
Billah, bu idi həmin muradım
Kim, *sayə misalı səndən, ey nur,*
Olduqca vücudum olmayam dur. (Füz.)

Bu cür cümlələr Xətainin dili üçün də səciyyəvidir**.** Aşağıdakı paralel şərt budaq cümlələrinin son iki misrası – baş cümlə tabesiz mürəkkəb cümlədən ibarətdir:

Yanımda həzar hür ***olursa***,
Yüz işvəvü naz ***əgər qılursa***,
Hər biri də səd girişmə ***bulsa,***
Alışma ilə verişmə ***bulsa,***
Bir dərdü xəyalın ***olsa*** dildə,
Ya mehrü cəmalın ***olsa*** dildə,
Qılmayım olara könlü mayil,
Olmaya yüzün xəyalı zayil. (Xət.)

9.N ə t i c ə budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsi mübtəda, budaq cümləsi təyin budaq cümləlidir:

Şeytandır ol ki, surətinə qılmadı sücud,
Düşdü bir incə dərdə kim, anın dəvası yox. (Nəs.)

İkinci misradan əvvəl nəticə bildirən ***belə ki, odur ki*** bağlayıcılarını artırmaq olar.

Misallar göstərir ki, zaman, səbəb və xüsusilə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin qarışıq tipi tarixən daha çox inkişaf etmişdir. Sayının asanlıqla artırılması mümkün olan qarışıq tipli tabeli mürəkkəb cümlələr XIII-XIV əsrlərin ədəbi dilini «təşəkkül dövrü» ədəbi dili adlandırmağa imkan vermir, bu dövr böyük inkişaf yolunda olan bir ədəbi dilin davamıdır. Sonrakı əsrlərdə Füzulinin, Məsihinin, Vaqifin qələmi ilə tabeli mürəkkəb cümlələr baş və budaq cümlələrin mürəkkəbləşməsi istiqamətində daha çox qol-qanad atmış, daha çox zənginləşmişdir.

NƏTİCƏ

1.«Kitabi-Dədə Qorqud»dan başlayaraq, XVIII əsrin sonlarına qədər nəzərdən keçirdiyimiz dil faktları göstərir ki, bugünkü ədəbi dilimizin mürəkkəb cümlə modelləri bizim təsəvvür etdiyimizdən çox-çox qədim dövrlərdə formalaşmış, hələ ümümxalq Azərbaycan dili V-VI əsrlərdə təşəkkül tapana qədər uzun inkişaf yolu keçmişdir. Bunu təkcə «Dədə Qorqud»un dili deyil, uzun ədəbi-bədii inkişaf yolunun XII-XIV əsrlər mərhələsinin «Dastani-Əhməd Hərami» məsnəvisi, Suli Fəqihin, Qul Əlinin məsnəviləri, Həsənoğlu qəzəlləri, Qazi Bürhanəddin, Nəsimi kimi çox qüdrətli şairlərin yaradıcılığı da təsdiq edir.

2.Tabeli mürəkkəb cümlə lap başlanğıcdan özünü iki tipdə – bağlayıcılı və bağlayıcı sözlü tabeli mürəkkəb cümlələr şəklində göstərir. Bağlayıcılı cümlələrdə baş cümlə əvvəl, budaq cümlə sonra, bağlayıcı sözlü cümlələrdə isə budaq cümlə əvvəl, baş cümlə sonra işlənmişdir. Tarixi abidələrin dilində müşahidə etdiyimiz (öz izlərini bu gün də saxlayan) dil faktları göstərir ki, bu tiplərin hər ikisi milli xüsusiyyətə malik olub, dilimizin öz inkişafının nəticəsidir və hər ikisi intonasiya ilə qurulan ən qədim və ilkin tabeli mürəkkəb cümlələrdən əmələ gəlmişdir. Həm də ədəbi dilin bütün mərhələlərində rasional fikrin aktuallaşdırılması ilə bağlı inkişaf yolunda olmuşdur. *Gördügün ol duş da budur*, ***bilgil imdi*** (QY) – tipli intonasiya ilə qurulan cümlələrdə baş cümlənin son mövqedə si həmin hissədəki fikrin aktuallaşdırılması, daha aydın nəzərə çarpdırılması ilə bağlı olmuşdur. Bu cür cümlələr bağlayıcılı taeli mürəkkəb cümlələrin yaranması üçün əsas olmuşdur. Belə cümlələrdə komponentlərin sonrakı normal sırası ***İmdi bilgil, g****ördügün ol duş da budur* – şəklində olmuşdur və bu gün də belədir. Tərəflər arasına ***kim*** və ya ***ki*** bağlayıcısı daxil olduqda tərəflərin sırası və «baş cümlə + budaq cümlə» quruluş tipi sabitləşmişdir. Bağlayıcının olmadığı hallarda tərəflərin yerində sərbəstlik qalmışdır*:İxtiyarum qalmamışdır,* ***həq bilür,*** (QB) – ***Həq bilür***, *ixtiyarım qalmamışdır.*

Asılı tərkib hissədə sual əvəzliyi işləndikdə *«budaq cümlə + baş cümlə»* quruluş tipinin təşəkkülü üçün əsas yaranmışdır. *Bənə nə ögüt verirsin*, ***söyləgil!*** (Suli) - tipli cümlələr bağlayıcılı cümlələr üçün də, bağlayıcı sözlü cümlələr üçün də əsas olmuşdur: ***Söylə ki,*** *bənə nə ögüt verirsin* – (***Onu) Söylə ki,*** *bənə nə ögüt verirsin.*

Eyni zamanda budaq cümlədəki ***nə*** sual əvəzliyi bağlayıcı söz funksiyası qazanmışdır (indiki halda da həmin vəzifədədir):

Bənə ***nə*** ögüt verirsin, ***söyləgil!***

Bənə ***hər nə*** ögüt verirsin, ***onu söyləgil!***

Bənə ***nə ki*** ögüt verirsin, ***onu söyləgil!***

Bənə ***nə*** ögüt ***verirsinsə***, ***onu söyləgil!***

Beləliklə, bağlayıcıların və bağlayıcı sözlərin olmadığı, tabeli mürəkkəb cümlənin tərkib hissələrinin yalnız intonasiya ilə əlaqələndiyi cümlələr əsasında fikrin aktuallaşdırılması zəminində tədricən budaq cümlənin hər iki tipi formalaşa bilmişdir. Faktlar göstərir ki, inkişaf paralel getmişdir, çünki ən qədim abidəmiz olan «Dədə Qorqud»un dilində hər iki tipin quruluş modelləri tam müasir səviyyədədir.

İlkin mərhələdə intonasiya ilə komponentləri əlaqələnən cümlələr üstünlük təşkil etmişdir. İntonasiya əsasında formalaşan tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlənin inversiyası halları hər iki tip tabeli mürəkkəb cümlənin bir kökdən olduğunu, dilimizin daxili imkanları əsasında formalaşdığını və tiplərin tədricən sabitləşdiyini göstərir.

3.Bağlayıcılı tip ilkin formada, yəni bağlayıcısız işləndikdə tərəflərin yeri yenə dəyişə bilir: ***Munca zamandır****, yolunu gözlərəm*. (MV) – *Yolunu gözlərəm,* ***munca zamandır. (Munca zamandır ki,*** *yolunu gözlərəm* - ***Yolunu gözlədiyim*** munca zamandır).

Bağlayıcılı formanın tərəflərinin yerini dəyişmək olmaz, ***ki*** bağlayıcısı buna imkan vermir.

Bağlayıcı sözlü cümlələrdə isə tərəflərin yerini dəyişmək əksərən mümkündür. Yerdəyişmə prosesində cümlə üslubca güclənə də bilir, zəifləyə də.

4.***Kim*** və ***ki*** bağlayıcıları (eyni zamanda ədatlar) Azərbaycan dilinin öz təbiətindən doğmuş köməkçi sözlərdir. ***Ki*** bağlayıcısı ***kim*** bağlayıcısının son samitini itrməsi ilə yaranmışdır. ***Kim*** bağlayıcısı eyni fonetik tərkibli sual əvəzliyi ilə bir mənşədəndir. Onun həm fars, həm də türk dillərində işlənməsi ***kim*** əvəzliyinin nostratik söz olması ilə bağlıdır.

Daha qədim abidələrimizdə intensiv işlənmə imkanları ilə ***kim*** bağlayıcısı ***ki-***dən üstün olmuşdur. Lakin tədricən ***ki*** bağlayıcısı intensiv işlənmə imkanlarını artırmış və axırıncı yüzilliklərdə, demək olar ki, tam hakim mövqe qazanmışdır, ***kim*** bağlayıcısı isə klassik şeir dilində vəznin tələblərini ödəmək üçün işlədilmişdir. Məsələn, M.P.Vaqifin qoşmalarında əsas bağlayıcı ***ki***-dir. Lakin şair qəzəl və müxəmməslərində ***kim***

bağlayıcısından da istifadə etmişdir. Bağlayıcıların fərqli mövqeyi çox zaman şairlərin üslubundan da asılı olmuşdur. Məsələn, hələ XIV əsrdə Qazi Bürhanəddin əksərən ***ki*** bağlayıcısından istifadə etmişdir. Bu, poeziya tələblərindən çox, onun xalq dilinə üstünlük verməsi ilə bağlıdır.

5. Ümumxalq dilinin və şifahi ədəbi dilin təşəkkülü dövrlərində bağlayıcı sözlər nisbətən az olmuşdur. «Dədə Qorqud»un dilində başlıca olaraq ***nə, hər nə, hər nə ki***, ***hər kim, kimün ki, kimi***, ***nə yerdə, nə qədər, necə kim, qaçan, qaçan kim, ol vəqt kim*** və s. bağlayıcı sözlər işlənmişdir. Lakin tədricən bağlayıcı sözlər artıb çoxalmışdır və xüsusilə XV-XVI əsrlərdə budaq cümlələrin daha rəngarəng bağlayıcı sözlərlə baş cümləyə bağlandığını görürük. Təkcə tamamlıq budaq cümləsini baş cümləyə bağlamaq üçün ***kim, kim ki, kimi, kimi ki, kimsə, nə, nə ki, nə kim, nəni, nəni ki, hər kim, hər kimə, hər kimə ki, hər kimin ki, hər kimsədən kim, hər nə, hər nə ki, hər nə kim, hər nəsnə ki, hər ki, şol dili ki, nerdə, nədən, ol ki, ol can ki, ol yüz ki, ol göz ki, şol yüz ki, xanda, ol şey ki, ol tən ki, ol qəmzə ki, hər söz, hər iş kim, hər yerdə ki, bir iş ki, bir sevgi ki*** və s. bağlayıcı sözlərdən istifadə edilmişdir. Doğrudur, bunların sayı bəzən eyni sözün hallar üzrə dəyişməsi (***hər kimə, hər kimi***…) və ya ***kim, ki*** ədatlarının hesabınadır. Lakin bunların hər biri müstəqil qrammatik məna daşıyan sözlərdir - hər bir elementin öz vəzifəsi var. Bunlar eyni zamanda çox vaxt şərt şəkilçisi, ***isə*** şərt ədatı (və ya onun şəkilçiləşmiş forması) ilə öz fəaliyyətini genişləndirmişdir. Lakin bizə yaxın yüzilliklərə doğru bağlayıcı sözlərdə arxaikləşmə ilə əlaqədar, əvvəllər olduğu kimi, yenə də azalma və səlisləşmə baş vermişdir. Lakin bu, əvvəlkindən fərqli keyfiyyətdir və bağlayıcı sözlərin tədricən universal xarakter alması, qrammatik mənasını genişləndirməsi ilə bağlıdır.

6.İnkişafın ən qədim və ilkin mərhələlərində bağlayıcılı cümlələrə nisbətən, bağlayıcı sözlü cümlələr fəal olmuş, tədricən analitik tip üstün mövqe qazanmışdır.

7.İlkin mərhələlərdə bağlayıcı söz, ***kim*** və ya ***ki*** ədatı və ***-sa,-sə*** şəkilçisi birlikdə çıxış etdiyi halda, tədricən ədatla şəkilçi növbələşməyə başlamış və müasir dildə bu qayda sabitləşmişdir.

8.Təbii-tarixi inkişafın öz axarı ilə yanaşı, əsas bağlayıcı vasitələrin, budaq cümlə tiplərinin işlənməsi sənətkarın meyil və istəyindən, üslubundan da asılı olmuşdur.

Bütün tarixi proses göstərir ki, Azərbaycan dili minilliklər boyu yad dillərin güclü təzyiqi altında olmasına baxmayaraq, daim öz milli inkişaf yolu ilə irəliləmiş, öz orijinallığını mühafizə edib saxlamışdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

А.Аннануров.Основные вопросы сравнительного синтаксиса русского и туркменского языков в плане переводческой работы, нам. дисс., Ашхабад, 1953.

Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, «Maarif», 1974.

G.Abdullayeva. Azərbaycan dilində ***-sa, -sə*** şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri, Bakı, 2000.

A.Axundov. Dil və ədəbiyyat, 1-ci cild, Bakı, «Nurlan», 2003.

A.Aslanov. Tabelilik bağlayıcılarının mürəkkəb cümlələrdə rolu. Azərbaycan dilində tabeli mürəkkəb cümlə məsələləri (Elmi əsərlərin tematik məcmuəsi), Bakı, S.M.Kirov adına ADU-nun nəşri, 1983.

Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, I cild, 1994.

M.Cəfərzadə.Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, Azərnəşr, 1990.

Н.К.Дмитриев.Грамматика башкирского языка, Изд. АН СССР, М.-Л., 1948.

Ə.Dəmirçizadə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili, Bakı, APİ nəşri, 1959.

Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi,1-ci hissə, Bakı, «Maarif», 1979.

Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, «Ünsiyyət», 2000.

Q.Kazımov. Seçilmiş əsərləri, I, Bakı, «Nurlan», 2008.

Г.Казымов. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» nəşriyyatı, 2003.

Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков, Изд. «Наука», Москва, 1973.

Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев, т. I, Баку, Элм, 1991.

Q.A.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

Q.A.Qeybullayev. Azərbaycanın etnik tarixinə dair, Bakı, Elm, 1994.

İ.E.Quliyev.Qazi Bürhanəddin dilinin sintaksisi, nam. diss. AMEA, Bakı, 2008.

Qurbani (Toplayanı, tərtib edəni, ön söz, qeydlər və izahların müəllifi prof.Q.Ş.Kazımov). Bakı Universiteti Nəşriyyatı, Bakı, 1990.

Qul Əli. Qisseyi-Yusif (Çapa hazırlayanlar, lüğət və şərhlərin müəllifləri Elməddin Əlibəyzadə, Əbülfəz Hüseyni), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995.

Məhəmməd. Şəhriyar (Tərtib, ön söz və lüğət Əlyar Səfərlinindir), Bakı, «Yazıçı», 1987.

H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan Universiteti Nəşriyyatı, Bakı,1990.

H.Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası (Ali məktəblər üçün dərslik). Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı, 1962.

H.Mirzəzadə. Yazılı abidələrimizdə işlənən ***çün*** və ***çü*** bağlayıcıları haqqında. ADU-nun Elmi Əsərləri, № 1, Bakı,1965.

Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, 2-ci hissə, BSU, 2002.

Ə.Sadıqov.Nəşr edilən klassik ədəbiyyatda durğu işarələrinin işlədilməsi vəziyyəti. «Türkologiya», Bakı, 2000, № 1-4.

Suli Fəqih. Yusif və Züleyxa (Transliterasiya, ön söz və lüğətin müəllifləri Sənan İbrahimov, Səbuhi İbrahimov), Bakı, «MBM» nəşri, 2008.

М.Ш.Ширалиев..Диалекты и говоры азербайджанского языка, Изд. «Элм», Баку, 1983.

Ə.C.Şükürlü. «Dədə Qorqud» dastanlarının meydana çıxma tarixi və itmiş boyları haqqında mülahizələrim. «Kitabi-Dədə Qorqud» - 1300, Elmi-praktik konfransın materialları, «Ünsiyyət», 2000.

Ə.Şükürlü. Azərbaycan dilinin tarixi qrammatikası (zərf və köməkçi nitq hissələri), Bakı, APİ nəşri, 1981.

T.Müzəffəroğlu. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası, Azərnəşr, Bakı, 2002.

G.Yusibova. Nəsiminin dilində tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirən vasitələr haqqında. AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər, 1, Bakı, 2006.

II HİSSƏ

XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN SİNTAKSİSİ

Monoqrafiyada A.Bakıxanov, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvaninin əsərləri, N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev yaradıcılığının ilkin mərhələsi, Kərim ağa Fatehin XIX əsrə aid «Şəki xanlarının ixtisar üzrə tarixi» əsərinin əlyazması, xüsusilə «Əkinçi» qəzetinin materialları əsasında XIX əsr Azərbaycan ədəbi dilinin sintaksisi öyrənilmişdir. Əsərdə prof.Ə.Sadıqovun 80-ci illərdə yazdığı eyni adlı əlyazmasından istifadə edilmişdir.

GİRİŞ

Nəsimi, Füzuli, Vaqif, Zakir kimi klassik şairlərimizin, Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Valeh, Alı, Ələsgər kimi el şairləri və aşıqların yaradıcılıq nümunələrini nəzərdən keçirdikdə aydın olur ki, hər bir dövrün öz inkişaf səviyyəsinə müvafiq yaranan yeni terminlər sistemi müstəsna olmaqla, Azərbaycan dili quruluş etibarilə əsasən eyni zənginliyə malik olmuş, ədəbi dil kimi təşəkkül tapdığı və irəlilədiyi bütün dövrlərdə ən zərif və incə fikirlərin ifadəsinə xidmət etmiş, heç bir fikrin ifadəsi üçün çətinlik qarşısında qalmamışdır. Buradan o nəticəni çıxarmaq olmaz ki, böyük sənət adamlarının, görkəmli alim, şair və yazıçılarımızın Azərbaycan ədəbi dilinin inkişafında xidmətləri yoxdur və ya az olmuşdur. Əksinə, dilin potensial imkanlarının üzə çıxarılması, cilalanması, zənginləşməsi üçün onun sənətkar qələmi ilə işlənməsi, dilin zəngin lüğət ehtiyatının, quruluş xüsusiyyətlərinin üzə çıxarılması həmişə vacib olmuş, dil işlənməklə yüksək mədəni keyfiyyətlər kəsb etmişdir.

Milli dilin XVI əsrdən başlayan təşəkkül və inkişaf yolunda XIX əsr xüsusi bir mərhələ təşkil edir. Bu dövrdə cəmiyyətin inkişaf səviyyəsinə müvafiq olaraq, bir tərəfdən, dilə elmi nəzarət başlayır, digər tərəfdən, orta və klassik üslub davam etməklə yanaşı, realist nəsrin, dramaturgiyanın, satiranın, ədəbi-fəlsəfi traktatın meydana çıxması milli ədəbi dilin cilalanmasında, səlisləşməsində, qrammatik-sintaktik qaydaların sabitləşməsində, ədəbi dilin bir sıra arxaik ünsürlərdən təmizlənməsində daha çox iş görmüş olur.

Ədəbi dilin inkişafında hər bir kiçik mərhələnin rolu vardır. Ona görə də X1X əsrə bütövlükdə eyni gözlə baxmaq olmaz. Bu əsrin birinci yarısı əvvəlki əsrlərdən, başlıca olaraq, Qasım bəy Zakirin satira yaradıcılığı ilə fərqlənir. Orta üslub - qoşma, gəraylı üslubu, klassik üslub – qəzəl, qəsidə üslubu davam edir. A.Bakıxanovun nəsri dil və üslub etibarilə Füzuli nəsrindən xeyli fərqlənsə də, köhnə nəsr üslubunun bir sıra xüsusiyyətlərini də mühafizə edib saxlayır. X1X əsrin ikinci yarısı M.F.Axundovun komediyaları ilə başlayır. Komediyalar vasitəsilə xalq dilinin bütün quruluş xüsusiyyətləri, zəngin lüğət materialı ədəbi dilə gətirilir, müxtəlif istiqamətlərdə milli ədəbi dilin imkanları üzə çıxarılır. "Aldanmış kəvakib" və "Kəmalüddövlə məktubları" yeni realist nəsrin əsasını qoyur - Mirzə Cəlil, Ə.Haqverdiyev, N.Nərimanov, A.Şaiq, Y.V.Çəmənzəminli kimi nasirlərin meydana çıxması üçün yol açır. X1X əsrin üçüncü rübündə az müddətdə nəşr olunan "Əkinçi" qəzeti X1X əsrin sonu, XX əsrin əvvəlində meydana çıxan mətbuat üçün geniş və işıqlı yol açır, ekstralinqvistik amillər güclənir, ana dilli məktəblər və ana dili dərslikləri milli dilin şivəçilik elementlərindən təmizlənməsində, təmərgüzləşməsində tarixi rolunu həyata keçirir.

Bütün X1X əsr ədəbiyyatını - mətbuatı, bədii nəsr və dramaturgiyanı, orta üslub nümunələrini, klassik ədəbiyyatın davamını nəzərdən keçirdikdə aydın olur ki, XIX yüzilliyin milli dilini XX əsrin sonlarındakı milli ədəbi dilimizdən fərqləndirən amillər üç cəhətlə: 1) elmin, texnikanın, təsərrüfatın, mədəni inkişafın, ekstralinqvistik amillərin son inkişaf səviyyəsi ilə; 2) əlinə qələm alan ziyalıların - alim və yazıçılarımızın, mətbuat işçilərinin təhsili, savad dərəcəsi, fərdi üslubu ilə; 3) bir sıra arxaik və məhəlli elementlərlin sıradan çıxması ilə əlaqələndirmək olar.

Bu cəhətlər X1X əsr boyu milli ədəbi dilimizin sintaktik quruluşunda da özünü göstərməkdədir.

SÖZ BİRLƏŞMƏLƏRİ

SİNTAKTİK ƏLAQƏLƏR VƏ SÖZ BİRLƏŞMƏLƏRİ

Söz birləşmələrində və cümlədə sözlər arasında məna və qrammatik əlaqələrin quruluşunda elə bir fərqli xüsusiyyət nəzərə çarpmır. Müasir dildə olduğu kimi, X1X əsrin ədəbi dilində də cümlədə sözlər arasında qrammatik semantika predikativ əlaqəni, atributiv, relyativ və obyekt əlaqələrini əhatə edir; məs.:

Ol şəkərləb, şirinzəban bu sözləri eşidib, çaki-giriban edib, üzünü atasının qəbrinə tutub şivən ilən səsləndi: -Ey atacan! Bir baş qəbirdən götür! Biz pərişanruzgar, tirəbəxtlərə nəzər qıl! Bivəfa ərdəbillilər əlində necə zarü sərgərdan qalmışıq!(AB,124)

Bu cümlələrdə sözlər arasında məna əlaqələri aşağıdakı kimidir (əsas tərəf fərqləndirilmişdir): **predikativ** əlaqə: ***şəkərləb*** *səsləndi,* ***şirinzəban*** *səsləndi,* ***(sən)*** *baş götür,* ***(sən)*** *nəzər qıl,* ***(biz)*** *ərdəbillilər əlində qalmışıq;* **atributiv** əlaqə: *ol* ***şəkərləb****, ol* ***şirinzəban****, bu* ***sözləri****, atasının* ***qəbrinə****, biväfa* ***ərdəbillilər****;* **obyekt** əlaqəsi: *sözləri* ***eşidib****, üzünü atasının qəbrinə* ***tutub,*** *biz pərişanruzgar, tirəbəxtlərə* ***nəzər qıl****;* **relyativ** əlaqə: *bu sözləri eşidib* ***səsləndi****, çaki-giriban edib* ***səsləndi****, üzünü atasının qəbrinə tutub* ***səsləndi****, şivən ilən* ***səsləndi****, qəbirdən* ***baş götür****, zarü sərgərdan* ***qalmışıq****.*

Cümlədə *ey atacan* xitabı və təkid bildirən *bir* sözü də (***Bir*** *baş qəbirdən götür*) vardır. Bunların cümləni təşkil edən sözlərlə qrammatik cəhətdən əlaqələnmədiyi məlumdur. Məna əlaqəsinin olduğu heç kəsdə şübhə doğurmasa da, onun necə və hansı üsulla yarandığı hələ də heç kəsi düşündürməyib. *Ol* sözü, *çaki-giriban* birləşməsi klassik ədəbiyyatdan gəlir; birincisi milli arxaik forma, ikincisi alınma poetik birləşmədir. Əlaqələrdə heç bir anlaşılmazlıq yoxdur. Yalnız *Biz pərişanruzgar, tirə-*

bəxtlərə nəzər qıl! cümləsində *biz* sözünün sintaktik funksiyası oxucunu düşündürə bilər. Əslində, müasir ifadə tərzindən heç nə ilə fərqlənməyən bu cümlədə *biz* sözü vasitəli tamamlıq, *pərişanruzgar, tirəbəxtlərə* sözləri onun xüsusiləşməyən əlavələridir - hal şəkilçisi ikinci əlavədə verilmiş, *biz* sözündə və əvvəlki həmcinsdə ixtisar edilmişdir. Cümləni: ***Bizə - pərişanruzgarlara və tirəbəxtlərə*** *nəzər qıl!* şəklində də qurmaq olar, lakin əvvəlki emosionallığını itirər.

Feli sifət, feli bağlama və məsdər tərkiblərinin bu günümüzə doğru təbii-tarixi axarı predikativ əlaqə ilə yanaşı, subyekt əlaqəsinin mövcudluğunu da təbii şəkildə şərtləndirmişdir; məs.:*Dilbər**, sən gedəli** xəstə düşmüşəm, Gələ gör ki, intizardı can sana*.(QZ,52) *Qürbətdə **alınca hicran canımı**, Öləydim dilbərin öz qabağında* (QZ,44) - cümlələrində feli bağlamaların şəxsli feldən fərqli, müstəqil subyekti (*sən gedəli,hicran canımı alınca*) bugünkü normalardan fərqlənmir.

Sintaktik əlaqələr - tabesizlik və tabelilik əlaqələri də bugünkü normalara tam uyğundur. Sadə cümlələrdə həmcins üzvlərin, mürəkkəb cümlədə tabesiz mürəkkəb cümlə komponentlərinin tabesizlik yolu ilə əlaqələndirilməsində müasir dildə oldluğu kimi, başlıca olaraq, intonasiyadan və tabesizlik bağlayıcılarından istifadə edilmişdir; məs.: ***Behiştin hurisi, göyün mələyi*** *Yetişməz, yüz çala əl-ayaq, sana*.(QZ,50) ***Qərənfil, nəstərən, nərgis, bənövşə, ərğüvan, lalə*** *Zəbani-hal ilə şövqün qılır peyda çəmənlərdə*.(QZ,176) *Gözüm yolda qaldı, könlüm intizar, Gəlmədi canandan bir xəbər mana*.(QZ,47) Müşahidə olunan fərq ümumi sintaktik quruluşda deyil, bəzi bağlayıcılardadır. Misallara diqqət yetirək: *Cəvahir qolbağlar bəyaz biləyi **Gahi** qucar, **gahi** eylər hənəyi*.(QZ,50) *Ey qönçədəhanım, tazə-tərlikdə **Nə** gül həmta olub, **nə** lalə sana*. (QZ,51) ***Nə** nalə yetişir, **nə** fəğan sana*.(QZ,52) *Qaşü göz**ü**, xətt**ü** xalı siyəhrəng, Gərdəni, sinəni, üzü ağ çəkib*.(QZ,53) *Düşəndə **gah, gah** sərəfraz eylə*. (QZ,71) ***Ya** ölərəm, **ya da** yetirrəm bu gün O iki nərgisi-bimarə səni*. (QZ,78) *Zakir, belə avarə**vü** heyran qalınca, Ölüb qala idin oların kaş arasında*. (QZ, 165) *Rəhm eylər əhli-dərdə genə **gah-gah** zülf*. (QZ,225) *Hər sənəm görsə deyərdi, əcəb oğlandır bu, **Ya** Fəramərz **və ya** Rüstəmi-dastandır bu*. (QZ,235) *Müjəv**ü** qəmzəv**ü** göz, bir də kaman əbrulər, Hamı bir yanə **və** bir yanə haman əbrulər*...(QZ,237) *İki keysulərindir atəşin rüxsar dövründə **Və ya** rəqqas hindulərmidir oddan qıraq oynar?* (QZ, 251) *Etməzik ikrah ondan **xah** xasü **xah** am*.(QZ) *Dadixahin əcri latayildi **gəh, gahi** xətər*.(QZ) *Ol vəchdən eylərlər ona rəğbəti-əfzun, **Həm** nörəsü **həm** pir*. (QZ) *Nadan **nə** bilir ki,nədi innab**ü** sepüstan,**Ya** şərbəti-limu*. (QZ)

Qasım bəy Zakirin şifahi xalq şeri tərzində yazdığı əsərlərin (qoşma, gəraylı, təcnis və s.) dilində, demək olar ki, *və* bağlayıcısı işlənməmişdir; - *ü*, az hallarda *vü* bağlayıcısından istifadə edilmişdir. *Və, və ya* bağlayıcılarına az hallarda klassik şeir üslubunda yazdığı əsərlərdə təsa-

düf olunur. Qoşmalarda daha çox təkrar olunan *nə...nə* bağlayıcısına rast gəlmək olur. *Gah* bağlayıcısı müasir dildə olduğu kimi həmcinslərdən əvvəl deyil, *hərdən, bəzən* mənalarında daha çox yanaşı işlənmişdir; klassik şeir üslubunun dilində *gahi/gəhi* şəkillərində də özünü göstərir.

A.Bakıxanovun nəsr dilində, xüsusən "Kitabi-Əsgəriyyə"də *və* bağlayıcısı bugünkü yazılı ədəbi dilimizdə olduğu kimi fəal və işləkdir:

Əsgəri-biçarə gəlib qollarını məşuqəsinin boynuna salıb ***və*** *üzündən öpüb dedi:*

-Ey arami-canım! Fikir elə ki, atandan qalan əmmaməni başıma qoyub, əbasını çiynimə salub ***və*** *qəbasın qucağıma alıb bir nifrin elərəm ki, düşmənlərimizdən biri də yer üzündə qalmaz.*(AB,125) Hətta cümlənin ***və*** bağlayıcısı ilə başlandığı hallar da az deyil**:** ***Və*** *Abbas, Hüseyn bir-birindən ayrılmasın* ***və*** *məcmu müxəlləfati-mətrukatə malik olub validi-alimiqdarım məqamində namül-bədəl olmasın.* (AB,129) *Və* bağlayıcısı seyrək şəkildə A.Bakıxanovun şeir dilində də müşahidə olunur.

"Aldanmış kəvakib" hekayəsi yeni realist nəsrin ilk nümunəsi kimi, bir çox yeni keyfiyyətlərə malik olsa da, əsərdə obraz nitqinin tipikləşdirilməsi, obrazların öz dövrünə və səciyyəsinə məxsus bir dildə danışdırılması əsərin dilini eyni zamanda klassik nəsr dilinə də bağlayır. Buna görə də obrazların dili təhsil və tərbiyəsinə, vəzifə və mühitinə müvafiq olaraq mürəkkəb izafət tərkibləri ilə tipikləşdirilmişdir. Xüsusən *və* bağlayıcısı həmcinsləri əlaqələndirmək üçün ən tipik vasitədir: "*Həmin şəxsi mollabaşı* ***və*** *sərdar Zaman xan* ***və*** *vəzir* ***və*** *müstövfi* ***və*** *mövlana Cəmaləddin* ***və*** *münəccimbaşı sizə göstərəcəkdir."* Müəllifin təhkiyə dili bir çox hallarda sadəliyi, təbiiliyi ilə obrazların nitqindən fərqlənsə də, eyni xüsusiyyəti təhkiyə dilində də görmək mümkündür: "*Sabahı gün şahın buyruğu ilə günortaya iki saat qalmış tamam əyan* ***və*** *əşraf* ***və*** *ərkani-dövlət* ***və*** *üləma* ***və*** *sadat və cümlə ərbabi-mənasib, kətxudadan tutmuş vüzərayadək dərbari-şahidə hazır olub, hər kəs öz yerində durub kəmali-sükut* ***və*** *biistehzarlıq ilə şahın hüzuruna müntəzir idilər".* Yazıçının təhkiyə dilində *və* bağlayıcısı sanki vergül funksiyasını ödəyən bir vasitədir; lakin təsvir obyektini cüt-cüt və ya qrup halında birləşdirməsi bağlayıcının üslubi vəzifə daşıdığını, dövrün dil ab-havasını əsərə gətirmək istəyini də əks etdirir*: Bunlardan sonra mollabaşı* ***və*** *sərdar Zaman xan, vəzir* ***və*** *müstövfi* ***və*** *mövlana Cəmaləddin* ***və*** *münəccimbaşı, üləmayi-giram* ***və*** *sadati-üzam* ***və*** *sair əyan* ***və*** *əşraf* ***və*** *ərbabi-mənasib* ***və*** *bir dəstə piyada* ***və*** *bir dəstə atlı kəmali-şükuh* ***və*** *aram ilə gəlirdilər.* Eyni xüsusiyyəti "Kəmalüddövlə məktubları"nın dilində də müşahidə edirik: *"Ciyərim kabab oldu. Ey İran, hanı sənin o şövkətin* ***və*** *səadətin ki, Kəyumərs* ***və*** *Cəmşid* ***və*** *Güştasib* ***və*** *Nuşirəvan* ***və*** *Xusrov-Pərviz əsarında var idi?"* (MFA,II,9) Yaxud: "*Despot - ibarətdir bir padişahdan ki, öz əmalında heç bir qanuna mütəməssik* ***və*** *müqəyyəd olmaya* ***və*** *xalqın mal* ***və*** *canına*

bihəddü inhisar təsəllüqü ola ***və*** *həmişə öz həvayi-nəfsilə rəftar edə* ***və*** *xalq onun təhti-səltənətində əbdi-dəni* ***və*** *rəzil olub azadiyyət* ***və*** *bəşəriyyət hüququndan bilkülliyyə məhrum ola".* (Yenə orada,s.12)

Artıq "Əkinçi" qəzetində *və* bağlayıcısından istifadə əsasən normaya düşür, bizim bugünkü ədəbi dilimizdə olduğu kimi, həmcinslərdən sonuncusundan əvvəl işlənməklə qapalı sıra yaradır: "*Xırda alış-veriş şəhadətnaməsinin qiyməiti əvvəlinci hissədə 20, ikinci hissədə,* ***yəni*** *bizim Tiflisdə 18, üçüncü hissədə,* ***yəni*** *bizim Badkubədə* ***və*** *Potidə 15, dördüncü hissədə,* ***yəni*** *bizim Gömrüdə, Axalsixdə, Qoridə, Gəncədə, Kutaisdə, Qubada, Naxçıvanda, Suxumda* ***və*** *İrəvanda 10* ***və*** *beşinci hissədə, yəni bizim yuxarıda zikr olmayan yerlərdə 8 manatdır".*(Ə,31) Bu misaldan göründüyü kimi, aydınlaşdırma məqamında qəzetin dilində *yəni* bağlayıcısından təkrar-təkrar istifadə edilmişdir. Bu hal təsadüfi olmayıb, qəzetin dilində sistemli şəkildə özünü göstərir: "*İmtahan ilə biliblər ki, otaqda on dərəcə,* ***yəni*** *on qradus isti olsa****, yəni*** *qışda bizlər sakin olduğumuz otaqların istiliyi olsa, ol vaxtdan iyirmi, ya iyirmi dörd saat süd zikr olan qablarda saxlansa, o südün tamam qaymağı üzünə yığılar".*(Ə,23) Görünür, bu hal xalqla sadə dildə danışmaq, fikri aydın şəkildə çatdırmaq ehtiyacından doğmuşdur. Hətta yeri gəldikdə milli dildə yeni işlətməyə başladıqları termini öyrətmək üçün onun xarici - alınma qarşılığı ilə izahı verilmişdir (*dərəcə - qradus*).

M.F.Axundovun dram əsərlərinin həm remarkalarında, həm də bəzi obrazların dilində *və* bağlayıcısından açıq sıra ilə istifadə halları öz hökmünü saxlamışdır. İlk əsəri "Hekayəti-Molla İbrahimxəlil Kimyagər" pyesinin remarkasında oxuyuruq: "*İkinci məclis Xaçmaz dağında vaqe olur. Dağın damənəsində bir müsəttəh* ***və*** *müəttər* ***və*** *rəngarəng gül, giyah ilə müzəyyən çəməndə iki çadır qurulubdur".*(MFA,I,43) Yaxud "Hekayəti-Müsyö Jordan" əsərində Müsyö Jordanın dilində: "*Bundan əvvəl bizim ətibba* ***və*** *hükəmalarımız cənab Linney* ***və*** *Turnefort* ***və*** *Bartram belə güman etmişlər ki, bu nəbatət ancaq Alp dağlarında* ***və*** *Amerikada* ***və*** *Afrikada* ***və*** *Şveysariya dağlarında mövcud olur*" (MFA,I,71) Lakin sadə adamların nitqini dramaturq ümumxalq dilinə uyğun şəkildə tipikləşdirdiyindən *və* bağlayıcısı dram dilində bugünkü normalara müvafiq şəkildə işlənmişdir. Onu da qeyd edək ki, digər tabesizlik bağlayıcıları da (*amma, lakin, halbuki, da, də, həm...həm də* və s.) dövrün yazılı mənbələrində özünü bugünkü normalara uyğun şəkildə göstərir.

Söz birləşmələrində və cümlədə sözlər arasında ***tabelilik əlaqələri*** də səciyyə etibarilə bugünkü normalardan heç nə ilə fərqlənmir. Yanaşma, uzlaşma və idarə əlaqələri sintaktik vahidlərin tərtibində əsas əlaqə vasitələridir. Ərəb-fars söz və tərkibləri ilə qəlizləşdirilmiş cümlələrdə də sintaktik quruluş Azərbaycan dilinə məxsusdur."*Dedi: -Ey yari-mehribanım! On şahi pul sənə verim, amma məni rədd etmə, hər vaxt gəlib ol*

məbləği mütalibə eyləsəm, bir bəhanə ilə təxir et. Bəlkə bu vəsilə ilə birbirimizi görmək müyəssər ola".(AB,125) İzafət şəklində qurulmuş xitabdan başqa (*ey mehriban yar* əvəzinə, *ey yari-mehriban*), bu cümlənin bütün sintaktik quruluşu Azərbaycan dilinə məxsusdur. *On şahi, pul verim, hər vaxt gəlib, gəlib mütalibə eyləsəm (tələb eyləsəm), ol məbləği, bəhanə ilə təxir et, bu vəsilə ilə, bu vəsilə ilə görmək* sözləri arasında ***yanaşma***, *sənə verim, məni rədd etmə, məbləği mütalibə eyləsəm, bir-birimizi görmək* sözləri arasında ***idarə***, *(o) dedi, (mən) verim, (sən) rədd etmə, (mən) mütalibə eyləsəm, (sən) təxir et, görmək müyəssər ola* sözləri arasında ***uzlaşma*** vardır.

Nəzərə çarpan mühüm fərqlərdən biri bu gün əksəriyyət etibarilə təyin şəklində işlədilən bir sıra sözlərin daha çox xüsusiləşməyən əlavələr şəklində işlənməsidir; məs.: Əsgər bəy.*Mənim dediyim budur ki,* ***Hacı Qara ağcabədilidən*** *ki sövdagər və dövlətli kişidir, pul götürrük.* (MFA,1,192) ***Hacı Kərim zərgər****... öz evinə dəvət edibdir: aşnaları Ağa Zaman* ***həkim və*** *Molla Salmanı və* ***Məşədi Cabbar taciri*** *və* ***Səfər bəy mülkədarı*** *və həm* ***Şeyx Salah*** *xaçmazlını*.(MFA,I,37) *Dərəyə getdikcə çadırlardan birisində sakindir* ***Molla İbrahimxəlil kimyagər****; birisində Molla Həmid, onun şagirdi.Balaca çardaqda olur* ***dərviş Abbas...*** (MFA, I,43) *Bu halda* ***Cavanşir murovun*** *yasovulu yetişir.* (MFA,1, 245) ***Xəlil yüzbaşı*** *tuğluları gətirir*.(MFA,I,243) *Əvvəlinci məclis əlli il bundan əqdəm, dəryayi-Xəzərin kənarında, Lənkəran şəhərində,* ***vəzir Mirzə Həbibin*** *evində vaqe olur*.(MFA,I,97) *Bir il verib ol* ***Məhəmməd darğaya****, O da süvar olub* ***qulan yorğaya***.(QZ,508) *Can nisar etməyə yarə* ***Nəbati fəqir****, İndi bu qəmxanədə ha şəbi-yeldayə bax.*(Nəbati) *Məlik Hüseyncanın oğlu* ***Məlik Ziyəddin yüzbaşı****, onun oğlu* ***Məlik Qasım yüzbaşı****, onun oğlu* ***Məlik Əhməd xandır***.(ŞXİT,3) Mayor. *Sən* ***Məhəmməd yüzbaşının*** *oğlu deyilsənmi ki, mənim qapımda dünənəcən sülənirdi?* (NV,I,115)

Bəzi tədqiqatçılar bu cür birləşmələri komponentləri inversiyaya uğramış birləşmələr kimi izah etmişlər. Lakin bunlar qədim dövrlərdən dildə bu cür formalaşıb, bu cür işlənən əlavəli birləşmələrdir. Ulu dildən gələn "təyinlənən + təyin" modeli Hind-Avropa dillərinin səciyyəvi əlamətinə çevrilmiş, lakin türk dilləri üçün də yabançı olmamışdır. Türk dillərində "təyin + təyinlənən" modeli geniş yayılmışdır. Dilimizdə b*əy, ağa, xanım, qarı, kişi,* habelə qohumluq bildirən *əmi, dayı, xala* tipli sözlər bir sistem şəklində, xüsusi adlara əlavə şəklində işlənmişdir. Lakin yuxarıdakı misallarda *dərviş Abbas, vəzir Mirzə Həbib* birləşmələri göstərir ki, xüsusiləşməyən əlavələrdən təyinə keçid heç də ədəbi dil üçün qadağa xarakteri daşımamışdır.

Müasir dildə mübtəda ilə xəbər arasında uzlaşmanın olmadığı, mübtəda ilə xəbər əlaqisinin analitik yolla - intonasiya və söz sırası ilə yarandığı hallar da X1X əsr ədəbi dilində mövcuddur; məs.: ***Elə mən de-***

***yiləm hüsnünə mayil**, Göz dikibdir tamam Qarabağ sana* (QZ) – misralarında *Hüsnünə mayil (olan) mən deyiləm* cümləsində mübtəda (*hüsnünə mayil*) 3-cü, xəbər (*mən deyiləm)* 1-ci şəxsdədir və aralarında uzlaşma yoxdur.

Müasir ədəbi dilimizdə nisbi keçmişin və qəti gələcəyin 3-cü şəxs təkində *-dır,-dur,-dur,-dür* şəkilçisi işlənə də, işlənməyə də bilir; 3-cü şəxsin cəmində isə *-lar,-lər* şəkilçisindən əvvəl bu şəkilçiyə ehtiyac olmur. Lakin "Əkinçi" qəzetinin dilində 3-cü şəxsin cəmində kəmiyyət şəkilçisindən əvvəl şəxs şəkilçisinin işləndiyi hallar tez-tez müşahidə olunur: *Bu danışıqlardan ötrü Rus və Almaniya dövlətləri Avstriya dövlətinin konsulunu vəkil **edibdirlər**.*(Ə,69) *...bizim Qafqazda olan millətlər oxumağın xeyrini bilib məktəbxanalarımızı **doldurubdurlar**.* (Ə,72) *...yolu onlar bizsiz də **gedəcəkdirlər**.*(Ə,18) *Gələn il avqustun axırında Peterburq şəhərində müsəlmanların dillərin və elmlərin bilən elm sahibləri cəm **olacaqdırlar.***(Ə,77) *Sonra ol şeyləri qaytarıb öz sahiblərinə **göndərəcəkdirlər.***(Ə,77) *İdi* köməkçi sözünün kəmiyyət şəkilçisindən sonra işləndiyi hallar da sonralar səlisləşmişdir: *...poştalyonlar kağız gətirmək üçün pul **alırlar idi**.*(Ə,89) Mübtəda cansız cisimləri, mücərrəd məfhumları ifadə etdikdə müasir dildə 3-cü şəxsin cəmində xəbər adətən tək olduğu, kəmiyyətə görə uzlaşma oldmadığı halda, "Əkinci"nin dilində belələri də uzlaşdırılmışdır: *Məsələn, **yatalaq, titrədib-qızdırmaq, isal və yel naxoşluqları** bu səbəbdən **əmələ gələ bilirlər**.*(Ə,24) *...onun içində çox kiçik **heyvanat** və **nəbatat olurlar**.*(Ə,24)

Cəbrayıl şivələrində olduğu kimi, Q.Zakirin poeziya dilində də bəzən çıxışlıq hal şəkilçisi üst-üstə işlənmiş və idarə əlaqəsi bu yolla yaranmışdır: *Tamam adın eşitdigin gözəllər **Gecədəndən duruub sürtük edəllər**.*(QZ)

S ö z b i r l ə ş m ə l ə r i n i n quruluşunda keçən müddət ərzində bugünkü dil baxımından yalnız səlisləşmə olmuşdur. Əslində, bütün söz birləşməsi modelləri bugünkü kimidir və heç bir arxaik modelə rast gəlmirik. Bədii üslubdan asılı olaraq, söz birləşmələrinin izafət tərkibləri ilə mübarizəsində fərqlər vardır. Qoşma üslubunda, satira dilində, komediyalarda, "Əkinçi" mətnlərində milli söz birləşməsi modelləri üstündür və izafət tərkibləri klassik ədəbiyyatın dili ilə müqayisədə olduqca seyrəkdir. Bir neçə nümunəyə diqqət yetirmək kifayətdir:

*Onun kimi **baş aşağı**, üftadə, Tapılmaz, gəzəsən dari-dünyadə.* (QZ) *Həqdi, gözəl çoxdu **bu vilayətdə,** Hərgiz ola bilməz **sən məlahətdə**.* (QZ) *Könül, nə çəkərsən **munca intizar**? Sev bir **ala gözlü, tər buxaqlı** yar*! (QZ) ***Müjkanın sayəsi** yırtıb üzünü, Qan tökülüb **gül yanağın üstünə**.*(QZ) *Bir l**açın gözlünün sultani-eşqi Könül şəhrin** alıb **xeyli zamandı**.*(QZ) ***O gözləri nərgiz, zülfləri sünbül, Xətti tər bənövşə, yanaqları gül** Dərdimə ki dərman eyləyən dögül, Əhvalımı xəbər almasın barı!*

(QZ) ***Çərxin sitəmindən, dövrün zülmündən Gözəllər şahına*** *dadə gedirəm*.(QZ) ***Barmağında xatəm, belində kəmər, Telində güşvarə****, düymə tamam zər, Qərq olsun yaşıla, ala sərasər, Naz ilə sallana-sallana gəlsin!* (QZ) Bu misallardakı ismi birləşmələri aşağıdakı kimi qruplaşdırmaq olar:

Y a n a ş m a əlaqəli birləşmələr: *onun kimi baş aşağı, onun kimi üftadə, bu vilayətdə, munca intizar, ala gözlü yar, tər buxaqlı yar, gül yanağın (üstünə), xeyli zamandı, tər bənövşə;* u z l a ş m a əlaqəli birləşmələr: *baş aşağı, gözləri nərgis, zülfləri sünbül, xətti tər bənövşə, yanaqları gül*; i d a r ə əlaqəli ismi birləşmələr: *barmağında xatəm, belində kəmər, telində güşvarə*; q a r ş ı l ı q l ı t a b e l i l i k əlaqəsində olanlar: a) yanaşma-uzlaşma əlaqəli birləşmələr: *könül şəhri, gözəllər şahı*; b) uzlaşma-idarə əlaqəli birləşmələr: *müjkanın sayəsi, gül yanağın üstünə, laçın gözlünün sultani-eşqi, çərxin sitəmindən, dövrün zülmündən* və s. *Sən gözəllikdə* birləşməsi k o o r d i n a t i v birləşmədir - tərkib hissələr tabelilik əlaqələri ilə deyil, bərabərhüquqlu uyğunlaşma əsasında yaranmışdır. *Sən görkəmdə, siz igidlikdə, o gözəllikdə* tipli birləşmələr də belə yaranmışdır. Xırda xanım. *Sənin kimi sahibi olan* ***mən günə*** *qalar* (NV,1,47) – cümləsində *mən günə* birləşməsi də belə birləşmələrdəndir.

"Əkinçi" qəzetinin elmi və bədii mətnlərinin dilində bəzi ismi birləşmə modelləri hələ səlisləşməmişdir və müxtəlif variantları ilə görünməkdədir; məsələn: *Süd sərməyə hər qabdan qalaylanmış* ***mis qabı*** *yaxşıdır.* ***Mis qabı*** *baha olduğuna, bu qabı saxlamağa hər kəsin tavanası olmaz. ...qeyri qabların hamısından ağ* ***dəmir qabı*** *yaxşıdır. Amma bizim kəndlərdə* ***dəmir qabını*** *tapmaq çətin olduğundan məsləhətdir ki,* ***mis qabı*** *az olsa,* ***saxsı qabı*** *işlətsinlər. Amma gərək* ***saxsı qabın*** *içi şirli ola, ona görə ki, şirsiz* ***saxsı qabını*** *da* ***ağac qabı*** *kimi təmiz etmək çətindir.* (Ə,33) *Tiflisdən Badkubəyə* ***dəmir yolu*** *təmir olunmağı xalqa məlumdur. Avropa məmləkətləri və Yeni dünya,* ***dəmir yollar****, buxar gəmiləri olmaq səbəbilə sənlə yaxın qonşu olub*.(Ə,60)

Göründüyü kimi, bugünkü ədəbi dilimizdə yanaşma əsasında qurulan *mis qab, dəmir qab, saxsı qab, ağac qab, dəmir yol* birləşmələri qəzetin dilində yanaşma-uzlaşma modeli əsasında yaranmış, *mis qabı, dəmir qabı, saxsı qabı, ağac qabı, dəmir yolu* şəklində işlənmişdir. Lakin həmin birləşmələrin bir qisminin (*saxsı qab, dəmir yol*) mənsubiyyət şəkilçisiz işlənməsi hazırki variantın o dövrdə də mövcud olduğunu və keçən müddət ərzində üstün mövqe qazandığını göstərir.

"Əkinçi" qəzetinin dilində müşahidə olunan bir cəhət də ikinci tərəfi məsdərdən (və ya feli isimdən) ibarət olan mürəkkəb ismi birləşmələrin mənsubiyyət şəkilçisiz formalaşması və bugünkü normalar baxımından naqis görünməsidir; məsələn: *Əkinin yaxşı olmağına bir səbəb* ***toxum yaxşı olmaqdır***. (Ə,368) *Xülasə, bu halda bizim barama qurdlarının*

tələf olmağına ümdə səbəb soyuq, nəmişlik və ***kümlərin havası xarab olmaqdır***.(Ə,233) Bu tipli birləşmələr *toxumun yaxşı olmağı(dır), kümlərin havasının xarab olmağı(dır)* şəklində səlisləşmişdir. Bəzən də bunun əksinə olaraq, məsdərdə (ikinci tərəfdə) mənsubiyyət şəkilçisi olduğu halda, birinci tərəfdə yiyəlik hal şəkilçisinin olmaması aşkar çatışmazlıq kimi görünür: *Pəs bizim dərdimiz ancaq ol* ***kitablar vilayətimizdə olmadığıdır***.(Ə,210) *...cənabınız biz müsəlman tayfası üçün* ***elm öyrənmək dişvar olduğunu*** *bu dəlil ilə sübut edirsiniz ki*...(Ə,311)

"Şəki xanlarının ixtisar üzrə tarixi" əsərində uzlaşma-idarə əlaqəli elə ismi birləşmələr var ki, birinci tərəfində yiyəlik halın şəkilçisi işlənməmişdir; məs.: ***Qutul xanın oğlu adı*** *Şəki xandır və* ***Şəki xanın oğlunun adı*** *Həsən Soltandır.*(ŞXİT,1) ***Şəki vilayətinin sərkərdələri bəzisi*** *Kiş qələsini bərkidüb ondə durdilər.*(ŞXİT,2) Məhəmməd xan Nuxuyə gəlib ***Hacı Çələbinin*** çox ***pulin*** və ***xəzinəsin yerin*** deyibdirlər.(ŞXİT,8) Birinci misalda həm qeyd etdiyimiz variant (*Qutul xanın oğlu adı)*, həm də müasir variant (*Şəki xanın oğlunun adı*) vardır, buna əsasən yiyəlik hal şəkilçisiz formanı texniki qüsur hesab etmək olardı, lakin sonrakı misallardan da göründüyü kimi (*Şəki vilayətinin sərkərdələri bəzisi, Hacı Çələbinin pulin və xəzinəsin yerin*), şəkilçisiz forma təsadüfi deyildir və hər iki variant işlək olmuşdur. Bu cür hallar təbiidir. Dilin quruluşunun elmi şəkildə öyrənilmədiyi, şivəçilik elementlərinin güclü olduğu, yazılı ədəbi dildə müvaziliklərin davam etməkdə olduğu bir dövrdə tək-tək meydana çıxan elmi əsərlərin, bədii nəsr və publisistika nümunələrinin dilində variantlılıq özünü göstərməyə bilməzdi.

Yanaşma əlaqəli (*daş divar*) ismi birləşmələr struktur-semantik xüsusiyyətlərinə görə müasir ədəbi dilimizdəkindən fərqlənməsə də, təkmilləşmə və səlisləşmə yolunda bəzi xüsusiyyətlər müşahidə olunur.

Belə birləşmələrin elə nümunələrinə rast gəlmək olur ki, feli sifət tərkibindən ibarət olan asılı tərəfdə feli sifətin düşmüş olduğu müşahidə edilir; məs.: ***Bizim həmçeşmimiz ermənilərin*** *10 qəzetləri və 3 jurnalları var.* (Ə,208) ***İnsafa layiq iş*** *hansıdır səndə?* (QZ,46) Bu misallardakı *bizim həmçeşmimiz ermənilər, insafa layiq iş* birləşmələrində *olan* feli sifətinin düşdüyü şübhəsizdir. *İnsafa layiq* tipli idarə əlaqəli bir çox ismi birləşmələr bu yolla yaranmışdır və diliizdə bu proses davam etməkdədir. Təbii olaraq, ədəbi dilə belə birləşmələr canlı danışıq dilindən gəlir.

X1X əsr Azərbaycan ədəbi dilində birinci tərəfi sayla ifadə olunan yanaşma əlaqəli ismi birləşmələr də bəzi xüsusiyyətlərinə görə müasir ədəbi dilimizdəkindən fərqlənir. Məlumdur ki, müasir Azərbaycan dilində təyin konkret kəmiyyət bildirdikdə təyinlənən cəmlənməz - *beş kitab* əvəzinə, *beş kitablar* deyilmir. X1X əsr abidələrində isə bəzən konkret miqdar saylarından sonra isimlər cəmlənmişdir; məs.: *Hacı Çələbi o* ***dört xanları*** *da valinin əlindən alıb müraxxəs eyləyüb öz evlərinə gedübdür-*

lər.(ŞXİT,8) ***İki keysulərindir*** *atəşin rüxsar dövrində*.(QZ,251) Hacı Qəmbər. *Təəccüb iş burasıdır ki,* ***iki qulaqlarımın*** *birisi mənə düşməndir, birisi dost.*(NV,1,112) *Fatma xanım süpürgəni atıb küncə, tez oturur bikef,* ***iki əlləri*** *ilə başını tutur*.(NV,1,72) Bu xüsusiyyət özünü birinci tərəfi qeyri-müəyyən saylarla ifadə olunan birləşmələrin bir qismində də göstərir: *Hüseyn xan ilə onun arasında* ***bir neçə dəvalar*** *olub*. (ŞXİT, 3) *Padşah buna* ***çox pullar*** *və xələt verdi*.(ŞXİT,3) *Rusiyadan və Vladiqafqazdan bu günlər buraya varid olan* ***bir xeyli sərmayəli yəhudilər*** *lazım olan yerinə müraciətlə istəyirlər ki, Tiflisdə böyük bir sərrafxana açsınlar*. (K,1887,44,2) Vəzir. *İş budur ki, mən* ***bir neçə bəylər*** *ilə xanın hüzurunda oturmuşduq*.(MFA,1,111) Bu xüsusiyyət hələ orta əsrlərin yazı dilində də olmuşdur. Qeyri-müəyyənlik bildirən saylar birdən artıq kəmiyyət bildirdiyindən "kəmiyyətcə uzlaşma üçün" ikinci komponent cəm şəkilçisi ilə işlənmişdir. Buna görə də tarixən istər konkret miqdar, istərsə də qeyri-müəyyən miqdar bildirən saylardan sonra isimlər əsasən cəm şəklində işlənmişdir.

Asılı tərəfi *hamı* sözü ilə ifadə olunan yanaşma əlaqəli birləşmələrdə bu söz *bütün* mənasında işlənmiş və əsas tərəf bugünkü ədəbi dilimizdən fərqli olaraq bəzən cəmlənməmişdir; məs.: *Biz* ***hamı millətdən*** *ziyadə təhsili-dünya üçün çalışırıq, amma elm olmadığına dalı qalmışıq*. (Ə,194) Lakin əsas tərəfin cəmləndiyi hallar da az deyil: *Pərvərdigara, görəsən, elə* ***hamı arvadlar*** *elə beləmi olurlar?* (NV,I,47)

Asılı tərəfi *bəzi* sözü ilə ifadə olunan yanaşma əlaqəli birləşmələrdə də əsas tərəfin cəm şəkilçisiz işləndiyi hallar vardır. Halbuki *bəzi* sözü əsas tərəfin cəmdə işlənməsini şərtləndirir; məs.: ***Bəzi çayın*** *lili nə ki yeri qüvvətli etməz, amma dəxi xarab edər.* (Ə,264-265)

Yəqin ki, aşağıdakı tipli misallarda *hər bir* sözlərindən sonra işlənən ismin cəmlənməsi dilin qayda-qanunlarının elmi şəkildə müəyyənləşdirilməməsi və üslub qüsuru ilə bağlıdır: *İngilis vilayətində* ***hər bir sənətkarların*** *və* ***hər bir cürə fəhləlik edənlərin*** *icmaı var...*(Ə,84)

X1X əsrin ədəbi dilində elə birləşmələr də var ki, bu gün həmin birləşmələrin ifadə etdiyi nominativ məna daha çox yanaşma əlaqəli birləşmələr şəklində ifadə olunur. Lakin, görünür, fikri aktuallaşdırmaq və əşyanın maddi-material əsasını daha aydın və xüsusi nəzərə çarpdırmaq üçün həmin birləşmələrin asılı tərəfi çıxışlıq halda ifadə olunmuşdur; məs.: *...əhli-cəhənnəmə ərinmiş* ***misdən köynəklər*** *və* ***cübbələr*** *var,* ***atəşdən zəncirlər*** *var və hər cəhənnəm əhlinin ayağında* ***atəşdən nal*** *olur, şiddəti-hərarətindən məğzi başında qaynar.*(MFA,II,48) Bu cür birləşmələr müasir dildə əksərən *mis köynəklər, mis cübbələr, atəş zəncirlər, atəş nallar* şəklində ifadə olunur. Hiss olunur ki, *misdən köynəklər* tipli birləşmələr də tarixən feli sifətin ixtisarı ilə yaranmışdır: *misdən düzəldilmiş köynəklər - misdən köynəklər - mis köynəklər.*

Beləliklə, X1X əsr Azərbaycan ədəbi dilində işlənmiş yanaşma əlaqəli (*daş divar* tipli) birləşmələrin təhlili göstərir ki, bunlar tarixən sintaktik müstəqillik baxımından sabit olmuşdur. Morfoloji-sintaktik quruluş baxımından müasir ədəbi dilimizdəkindən bəzi fərqli cəhətlər isə ya dilin arxaik qrammatik xüsusiyyətlərinin qalığı, ya şivə xüsusyyətləri, yaxud da tərcümə dili ilə bağlı olmuşdur.

X1X əsr Azərbaycan ədəbi dilində yanaşma-uzlaşma əlaqəli (*dağ qartalı* tipli) ismi birləşmələr morfoloji quruluşuna, qrammatik semantikasına görə müasir ədəbi dilimizdəki eyni tipli birləşmələrdən fərqlənmir. X1X əsr abidələrində də bu cür birləşmələrin birinci tərəfi yiyəlik hal şəkilçisiz (qeyri-müəyyənlik bildirən yiyəlik halda) olmuş, ikinci tərəfi 3-cü şəxsin mənsubiyyət şəkilçisini qəbul etmişdir*; məs.: Çün* ***eşq odu*** *əgər dutuşa, canı yandırar.*(AB,125) *Və* ***atan ovsafini*** *bəyan etdiyindən madəri-mehribanım dəxi ona təəşşüq yetirmiş* (AB,129) – cümlələrində *eşq odu, atan ovsafi* belə birləşmələrdəndir. Lakin qarşılıqlı tabelilik əlaqəsində olan birləşmələr əsas quruluş modelini saxlamaqla, bəzən müəyyənlik və qeyri-müəyyənlik baxımından səciyyəvi keyfiyyətləri ilə nəzəri cəlb edir. Məlumdur ki, bu cür birləşmələrin hər iki tərəfi təkdə, tərəflərdən biri tək, digəri cəm ola bilir. Hətta az hallarda hər iki tərəf cəmlənə də bilir; məs.: ***Sonalar gölləri*** *bulanıq olar.*(QZ,133) Lakin miqdar sayı olduqda bu və ya digər komponentin cəmlənməsinə o zaman ehtiyac olar ki, cəmlənən tərəf əşyanın say çoxluğunu deyil, rəngarəngliyini bildirir. Yanaşma-idarə əlaqəli elə birləşmələr var ki, birinci tərəfi müasir dildə cəm şəkilçisi ilə işləndiyi halda, mənbələrdə şəkilçisiz işlənmişdir. Bu cür hallarda birinci tərəfin daha böyük ümumiləşdirmə gücünə malik olduğu hiss olunur; məs.: *Mənim əqidəmə görə, tarixi-hicridən indiyədək* ***türk arasında*** *şair münhəsirdir məhz bu iki şəxsə*. (MFA, I,203) Müasir dildə işlənən *türklər arasında* birləşməsi ilə *türk arasında* birləşməsinin mühüm məna fərqi vardır: birinci halda müxtəlif türk qövmləri parçalanmış şəkildə, ikinci halda birlikdə, küll şəklində düşünülür.

X1X əsr materiallarının dilində yanaşma-uzlaşma əlaqəli elə birləşmələrə də rast gəlmək olur ki, məzmunca uzlaşma-idarə əlaqəli birləşmələrə (*dağların qartalı*) uyğun gəlir. Bu hal ən çox özünü birinci tərəfi xüsusi isimlərlə ifadə olunan birləşmələrdə göstərir. Çünki yanaşma-uzlaşma əlaqəli birləşmələrin birinci tərəfi qeyri-müəyyənlik bildirir, həmin tərəf xüsusi isimlə ifadə olunduqda qeyri-müəyyənlik aradan qalxır, birləşmə mənaca konkretləşir; məs.: *Məlik Əli* ***Fəthəli xan yanına*** *gedir ki, Şəkidə oni xan eyləyə.*(ŞXİT, 9) *Sonra genə* ***Cəbrail ayağı*** *araya gəldi*. (MFA,II,83) *İnanma arizin fikri çıxa* ***Zakir xəyalından***. (QZ,185)

Misallardan göründüyü kimi, qeyd edilən birləşmələrdə müəyyənlik mənasının yaranmasına səbəb birinci tərəfin xüsusi isimlərlə ifadə

olunmasıdır. Şəxs müəyyən və konkret olduğu üçün birləşmə də müəyyənlik bildirir. Bu cür dil faktlarına folklor nümunələrində də rast gəlmək olur: *Hansı dağların qarısan? Hansı bağların barısan?* ***Nigar, Koroğlu yarısan****, Bilsin külli-aləm səni*.(AD,I,56) H.Mirzəzadə məzmunu əsas götürərək bu cür birləşmələri üçüncü növ birləşmə hesab etmişdir: "Orta əsrlərin ədəbi və bədii əsərlərinin dilində üçüncü növ təyini söz birləşməsi, bir qayda olaraq, formal cəhətdən ikinci növ təyini söz birləşməsinə oxşayır. Lakin məna və vəzifə cəhətdən tamamilə üçüncü növ təyini söz birləşməsi kimi dərk edilir. Belə birləşmələrdə birinci tərəf əsasən xüsusi isimlərdən əmələ gəldiyi üçün ikinci tərəfin aidiyyət, mülkiyyət mənası nöqteyi-nəzərindən morfoloji əlamətə, yəni *-in,-ın,-ün, -un* şəkilçisinə ehtiyac duyulmur; çünki birləşmənin məzmununda heç bir qeyri-müəyyənlik, mücərrədlik izi yoxdur; məs.: *Bu* ***Xətai şerinə*** *tən etmə, ey nakəs həsud*! (Xətai..." (HM,90,257)

Birləşmələrin növlərindən danışarkən məzmun yox, forma, quruluş xüsusiyyətləri nəzərə alınmalıdır. Yanaşma-uzlaşma əlaqəli birləşmələr (*Xətai şeri*) uzlaşma-idarə əlaqəli birləşmələrdən (*Xətainin şeri*) əvvəl və qədimdir.(*Bax*: QK,97,353-357) Tarixən uzlaşma-idarə əlaqəli birləşmələr ("III növ təyini söz birləşməsi" adlandırılan birləşmələr) sonralar yarandığı və sabitləşdiyi üçün yanaşma-uzlaşma əlaqəli birləşmələr onun məzmununu da ifadə etməli olmuşdur. Bunu H.Mirzəzadə özü də bir qədər sonra qeyd etmişdir: "Dilimizdə olan belə faktlar göstərir ki, müəyyənlik və qeyri-müəyyənlik tarixən formal cəhətdən deyil, daha çox mətndən, ifadənin məzmunundan asılı olaraq öz ifadəsini tapmışdır. Başqa sözlə desək, ikinci növ təyini söz birləşməsi morfoloji əlamətlərin inkişafı nəticəsində üçüncü növ təyini söz birləşməsinə keçmək üçün bir keçid mərhələsi vəzifəsini görmüşdür." (HM,90,261) Elə buna görə də XIX əsr materiallarının dilində yanaşma-uzlaşma əlaqəli elə birləşmələr var ki, birinci tərəfi ümumi isimlə ifadə olunsa da, birləşmə ümumilik, qeyri-müəyyənlik deyil, konkretlik bildirir. Şübhəsiz, bu cür hallar mətn şəraiti ilə bağlıdır və birləşmənin işləndiyi mühit onun mənasını müəyyənləşdirir; məs.: *Harun-ər-Rəşidin bağbanı bir gün bostandan* ***xəlifə xidmətinə*** *üç ədəd xiyar nubar gətirdi.*-(SƏŞ, II, 593)

Tarixən yanaşma-uzlaşma əlaqəli birləşmələrin birinci tərəfinə mənsubiyyət şəkilçisinin artırılması ilə də onun (birləşmənin) mənası müəyyənləşdirilmişdir. Bu cür dil faktları X1X əsr mənbələrində də mühafizə olunmuşdur; məs.: ***Könlüm quşu*** *pərvaz qılır kuyi-nigarə*. (QZ, 188) Səkinə xanım. *Əgər o məni alan idi, niyə* ***qardaşım sağlığı*** *heç bir söz açmadı?* (MFA,1,261) Nisə xanım. *Əlbəttə, çünki ehtiyat edir ki, sən* ***atan əmləkətini*** *ondan iddia edəsən, səni özünə müxill görür*. (MFA,1, 108) Molla İbrahimxəlil. *Həmin cüzvi beş min manat* ***pullarınız əvəzində*** *ki, bir para zəruriyyəti-lazimiyyə üçün bilkülliyyə məsrəf olunubdur, gü-*

müşünüzü alıb aparasınız.(MFA,1,84) *Gözlərin, ey səngdil, sındırdı* ***könlüm şişəsin****.*(SƏŞ,1,71)

Bu tipli birləşmələrə Azərbaycan folklorunda da rast gəlirik: *Yıxdı* ***dədəm evini*** *Səndəki dolu gözlər.*(QB,84)

H.Mirzəzadə bu cür ismi birləşmələri ədəbi dilimizin bütün dövrlərinə aid mənbələrdə müşahidə etdiyini və bu formanın daha qədim olduğunu qeyd etmişdir.(HM,90, 258) Yanaşma-uzlaşma əlaqəli birləşmələrin müəyyənlik bildirməsi onunla bağlıdır ki, müəyyənlik bildirən yiyəlik hal nisbətən sonralar inkişaf etmişdir və ümumilikdə qeyri-müəyyənlik bildirən birləşmə modeli - uzlaşma-idarə əlaqəli birləşmələr tam təşəkkül tapana qədər onun da funksiyasını yerinə yetirmişdir. Bəzi türk dillərində, məsələn, yakut dilində uzlaşma-idarə əlaqəli birləşmələrin inkişaf etmədiyi də məlumdur.

Beləliklə, tarixi inkişafla əlaqədar olaraq, yanaşma-uzlaşma əlaqəli ismi birləşmələrin morfoloji əlaməti tədricən sabitləşmiş və bu cür birləşmə modeli quruluş və qrammatik semantika cəhətdən tam müasir şəkildə formalaşmışdır. Qeyd edilən birləşmə tipinin qrammatik sərhədlərinin dəqiqləşməsi, şəkil və məzmunca digər birləşmə modellərindən ayrılması dilin sintaktik quruluşunun səlisləşmə və zənginləşmə istiqamətində inkişafı ilə bağlı olmuşdur.

Uzlaşma-idarə əlaqəli ismi birləşmələr X1X əsr Azərbaycan ədəbi dilində birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçili birləşmə tipi kimi tam formalaşmış şəkildədir.

Poetik, mənsur, satirik və dramatik, fəlsəfi və publisistik əsərlərin dilində bu cür birləşmələr də hazırkı ədəbi normalara müvafiq şəkildə işlənmişdir*; məs.: Amma* ***sənin dağı-fəraqından*** *bu növ pərişan olmuşam.* (AB,129) *Məzlum* ***aşiqin*** *əgər* ***ahi*** *büləndə ola, Yeddinci göydə xərməni-Keyvanı yandırar.*(AB,125) *Piranəsərlikdə bir* ***növcavanın Oxları*** *sinəmə kargər olmuş.*(QZ,129) ***Mənim yarım*** *nə danışır, nə dinir,* ***Oların içində*** *əbsəm oturmuş.*(QZ,130) *Bəs əmim oğlu Şahbaz bəy* ***kimin adaxlısıdır?*** (MFA,1,61) *Bilmirəm,* ***evi yıxılmışın qızı*** *haçan gəlib ora girmişdi ki,* ***mənim canım*** *qurtuldu.*(MFA,1,116) ***Meşənin xeyrini*** *hər kəs bilir.* ***Onun ağaclarından*** *özümüzə evlər və qeyri-şeylər təmir edirik.*(Ə,39)

X1X əsrdə ismi birləşmələrin hazırkı əksər mürəkkəb quruluş tiplərinə rast gəlmək mümkündür. Dilimizin sintaktik quruluşunun inkişaf istiqamətini öyrənmək baxımından birləşmələrin mürəkkəbləşmə üsullarının nəzərdən keçirilməsi faydalıdır. Dövrün ədəbi dilində işlənmiş mürəkkəb ismi birləşmələr rəngarəng quruluş xüsusiyyətlərinə malikdir.

a)uzlaşma-idarə əlaqəli birləşmənin birinci tərəfinə aid yanaşma əlaqəli söz olur: ***Mehrsiz mahlərin eşqini*** *asan bildin.*(QZ,240)

*b)*uzlaşma-idarə əlaqəli birləşmənin birinci tərəfi yanaşma-uzlaşma əlaqəli birləşmə ilə ifadə olunur: *Quldurlar atdıqları tüfənglərin gül-*

ləsindən ***araba atının birisi*** *ölüb.*(MFA,1,169) ***Eşq əhlinin qibləgahı*** *oynasın.*(QZ,108)

*c)*uzlaşma-idarə əlaqəli birləşmənin birinci tərəfi uzlaşma-idarə əlaqəli birləşmə ilə ifadə olunur: Teymur ağa. ***Mənim atamın yaxşılıqları*** *sənə haram olsun!* (MFA,1,130) *Buxara xanı padşahi-imperaturi-Rusdan təvəqqe edib ki,* ***onun oğlanlarının birisini*** *məktəbxaneyi-əsgəriyyəyə qəbul etsin.*(Ə,220)

*ç)*uzlaşma-idarə əlaqəli birləşmənin ikinci tərəfinə aid yanaşma əlaqəli söz olur: *İndi tel var ki,* ***İngilisin əvvəlinci vəziri*** *xalqa məlum edib ki, nə Osmanlını Avropadan qovmaq və nə ol xristianlardan əlahiddə dövlət bina etmək mümkün deyil.*(Ə,245) *Mən sevmişəm* ***onun ala gözünü****.*(QZ,114)

*d)*uzlaşma-idarə əlaqəli birləşmənin birinci tərəfi yanaşma-uzlaşma, ikinci tərəfi uzlaşma-idarə əlaqəli birləşmədən ibarət olur: ***Şəki xanının oğlunun adı*** *Həsən Soltandır.* (ŞXİT,1) ***Dağıstan dağının knyazlarının ləzzətin*** *gördüm.*(QZ,510)

e)uzlaşma-idarə əlaqəli birləşmənin hər iki tərəfi yanaşma-uzlaşma əlaqəli birləşmədən ibarət olur*:* ***Badkubə uyezdinin Balaxanı qəryəsində*** *neft quyuları var ki, oradan nefti gətirib şəhərin yanında olan zavodlarda ondan cövhər çəkirlər.*(Ə,306)

*ə)*uzlaşma-idarə əlaqəli birləşmənin birinci tərəfi feli sifətdir: ***Qan eyləyənin qətlinə*** *ehkami-şəriət,Yeksanü müvafiq…*(QZ, 474)

f)uzlaşma-idarə əlaqəli birləşmənin tərəflərindən biri izafətdən ibarət olur*:* ***Aşiqi-biçarənin cismində*** *can canan idi.*(AB,128) ***Aşiqlərin ənduhi-məlalın*** *nə bilirsən?*(AB,131)

*g)*uzlaşma-idarə əlaqəli birləşmənin hər iki tərəfi izafət birləşməsindən ibarət olur: ***Məşuqeyi-dilaranın xəbəri-vürudin*** *istima etdikdə bəstəri-mərizdən durub... bu sözləri deyirdi.*(AB,128)

X1X əsr Azərbaycan ədəbi dilində uzlaşma-idarə əlaqəli birləşmələrin komponentlərinin inversiyasına geniş şəkildə rast gəlmək olur. İnversiya hadisəsi əksərən aktuallaşma ilə bağlı olub, yeni fikir ifadə edən komponentin digər komponentdən sonra işlənməsinə səbəb olmuşdur. Təbii ki, bu xüsusiyyət daha çox poeziya dilinə aiddir; məs.: *İstədim, Qüdsi, deyim* ***vəsfi-camalın dilbərin****.*(AB,238) ***Vüfuri*** *vardır* ***üç firqənin*** *bu kişvərdə, Axund ilə xərü xan bihədü nihayətdir.*(AB,429) ***Ziyası*** *qalmayıb* ***çırağımızın****.*(QZ,116) *Olsun qara* ***üzü*** *görəyim qanlı* ***qəmzənin.*** (QZ,178) ***Bari-qəmin*** *çəkməyə ol* ***çeşmi-xumarın*** *Yox mən kimi mahir.* (QZ,277) ***Ölümümdür mənim*** *ol ruhi-rəvansız bu gecə.*(SƏŞ,1,88) *Can verib cananə,yan* ***şəm'i-rüxündən dilbərin****.*(SƏŞ,1,84)

Yalnız poeziya dilində deyil, canlı danışıq dilində, müasir şivələrimizdə də birləşmə komponentlərinin inversiyası nitqin aktuallaşdırılması ilə bağlı tez-tez müşahidə olunan haldır.

Azərbaycan dilinə məxsus ismi birləşmələrlə yanaşı, X1X əsrdə meydana çıxan bədii və elmi əsərlərin dilində fars dilinə aid izafət tərkiblərindən də istifadə edilmişdir. Lakin izafət tərkiblərindən istifadə bədii əsərlərin dilində eyni nisbətdə deyildir. A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərinin dilində, M.F.Axundovun "Aldanmış kəvakib" hekayəsində obrazların nitqi və bir sıra hallarda dövrün nitq mühitinin canlandırılması üçün müəllif təhkiyəsində izafət tərkiblərinə daha geniş yer verilmişdir; məs.: *Ta ki* ***müruri-zaman*** *ilə* ***firqeyi-eybcu*** *və* ***taifeyi-tənəcu****, yəni* ***əğyari-dilazarü sitəmşüar*** *bu halə vaqif olub* ***zəbani-təərrüz*** *açdılar*.(AB,123) -***Qibleyi-aləm*** *sağ olsun, əgərçi bu bəndə pirlik səbəbilə dərxanədən kənar olub guşəgirlik ixtiyar etmişəm, lakin bu övqat, yəni novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə iqtiran etmələrindən* ***qibleyi-aləmin zati-mübarəkinə ehtimali-sədəmeyi-üzma*** *olduğu üçün vacibatdan bildim ki,* ***hüzuri-pürnura*** *şərəfyab olub,* ***piş-əz-vəqt*** *hadisəni elam edib, dəf'inə tədbir göstərim*.(MFA,1,309)

Lakin Q.Zakirin lirik və satirik əsərlərinin, M.F.Axundovun komediyalarının dili daha əvvəlki dövrlərin klassik poeziya dili ilə müqayisədə sadə və aydın olmaqla yanaşı, bu dildə izafət tərkibləri də seyrəlmişdir. Q.Zakirin aşağıdakı şerinə nəzər salaq:

Badi-səba*, söylə* ***mənim yarıma,***
Gözəllər çıxıbdı seyranə, gəlsin!
Təğafül etməsin, işrət çağıdır,
İçilir ***hər yanda*** *peymanə, gəlsin!*

Bənövşələr salsın başın aşağa,
Nərgiz olsun gözlərinə sadağa,
Gül camalın görüb düşsün torpağa,
Bülbülü gətirsin əfğanə, gəlsin!

Siyah zülfü tər buxaqda *dənlənib,*
Sonalar yerişi ondan öyrənib,
Ovçu görmüş maral *kimi səksənib,*
Oğrun baxa-baxa ***hər yanə****, gəlsin!*

Barmağında xatəm, belində kəmər*,*
Telində güşvarə*, düymə tamam zər,*
Qərq olsun yaşıla, ala sərasər,
Naz ilə sallana-sallana gəlsin!

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən dolanım başına.

*Zakir tək yanmağa **eşq ataşına,***
Cürəti var isə pərvanə gəlsin! (QZ,106)

Bu şeirdə sadə quruluşlu *badi-səba* birləşməsindən başqa, bütün sintaktik quruluş azərbaycancadır. Cəmi bir izafət birləşməsi işləndiyi halda, türk dili modelləri əsasında *mənim yarıma,hər yerdə, siyəh zülf, tər buxaq, ovçu görmüş maral, hər yan, barmağında xatəm, belində kəmər, telində güşvarə, eşq atəşi* kimi ismi birləşmələrin işlənməsi tarixi müşahidələr əsasında H.Mirzəzadənin gəldiyi nəticəni təsdiq edir: "Əruz vəzninin təbiətinə uyğun gələn... izafətlərin miqdarı, şübhəsiz ki, heca vəzninin qanunlarına uyğun gəlmədiyindən, təxminən XVIII əsrdən sonra bunların sayı xeyli azalmışdır".(HM-90,.262)

M.F.Axundovun dram dilində izafət tərkiblərindən ərəb, fars təhsilli obrazların nitqini tipikləşdirmək vasitəsit kimi istifadə edilmiş, məişətdə işlənən bəzi birləşmələr istisna olmaqla, sadə xalq nümayəndələrinin dilində izafət tərkiblərinə yer verilməmişdir. Bunun üçün Sona xanımla Mola İbrahimxəlilin nitqini müqayisə etmək kifayətdir:

Molla İbrahimxəlil. *Bu **dövreyi-tərbiyət** itmamə yetişəndən sonra **əczayi-iksir** gərəkdir **hərarəti-nariyyə** vasitəsilə öz təkmilini itmamə yetirsin.*(MFA,1,49) Sona xanım. ***Başına dönüm,** padşahın **başına çevir**! **Qul xatasız olmaz, ağa kərəmsiz.** Yaz **bu işi** yuxarı bildir, bəlkə **mənim göz yaşıma** rəhm eləyələr. Mən dilimdən kağız verirəm ki, bundan sonra Heydər bəyi **heç bir yaman işə** qoymuyam.*(MFA,1,249) Molla İbrahimxəlil müştərilərdə xof yaratmaq üçün öz nitqində daha çox qəliz izafət tərkiblərinə yer verdiyi halda, Sona xanım canlı xalq ifadələri, atalar sözləri və məsəllərlə fikrini ifadə edir.

Tədqiq və araşdırmalar göstərir ki, müasir ismi birləşmə modelləri X1X əsrdə tam cilalanmış şəkildə mövcud idi və onların işlənmə nisbəti yalnız ədəbi növ və janrlarla, yazıçı üslubu, yazıçının dilə münasibəti və tipikləşdirmə ustalığı ilə bağlı olmuşdur. X1X əsrin ikinci yarısından realist nəsrin və dramaturgiyanın geniş vüsət qazanması, XX əsrin əvvəllərindən dilə elmi nəzarətin güclənməsi, əlifba, orfoqrafiya, durğu işarələri məsələlərinin müzakirələri, tədricən dilin qrammatik quruluşu barədə elmin məktəb çərçivəsindən kənara çıxması ismi birləşmə növlərinin də formaca və qrammatik semantika baxımından daha da təkmilləşməsinə səbəb olmuşdur.

X1X əsr Azərbaycan ədəbi dilində ***feli birləşmələr*** - feli sifət, feli bağlama və məsdər tərkibləri quruluş və məna xüsusiyyətlərinə görə müasir ədəbi dilimizdəki feli birləşmələrdən fərqlənmir. Əsrin birinci yarısında - nəsr əsərlərinin az inkişaf etdiyi dövrdə mürəkkəb quruluşlu geniş və silsiləli feli tərkiblər azdır. Poeziya dilində, xüsusən Q.Zakirin lirik əsərlərinin, M.F.Axundovun komediyalarının dilində canlı danışıq

dilinə məxsus yığcam feli birləşmələr işlədilmişdir. "Əkinçi" qəzetində daha çoxsözlü, mürəkkəb quruluşlu tərkiblər üçün imkan yaranmışdır. Nümunələrə diqqət yetirək.

F e l i b a ğ l a m a tərkibi: ***Sevgi gərək sevgisinə yetəndə*** *Qucaqlaşa, qulac qollar açıla*.(QZ,46) ***O şahibaz gözlərini görəndə*** *Uçar mürği-ruhum, durmaz bədəndə*.(QZ,59) *Ey sevdiyim,* ***səndən cüda düşəli,*** *Mənəm gecə-gündüz əzab içində*.(QZ,64) *Mümkündür aşiqə dincəlmək məgər* ***Gül ilə həmsöhbət xarı görəndə?*** (QZ,65) ***Açanda zülfündən bəndü bağı sən****, Pərişan eylərsən ittifaqı sən*.(QZ,51) *Götür qoy başımı dizin üstünə, Can verəyim* ***baxa-baxa üzünə***.(QZ,70) *Sən elə* ***oğurluğa, quldurluğa da gedəndə*** *deyirdin ki, məni görən, tanıyan olmaz*.(MFA,1,198) *Çünki* ***süd çox zaman sərilmiş qalanda*** *qaymaq turşuyur, amma* ***tez yığılanda*** *onun qədəri az olur*.(Ə,32)

F e l i s i f ə t tərkibi: ***Müəttər zülfünün həsrətin çəkən*** *Gül iyləməz, müşkü ənbər istəməz*.(QZ,59) ***Gözəl sevən*** *gərək keçə canından,* ***Canını istəyən*** *dilbər istəməz*.(QZ,59) ***Təbrizdə arşını bir abbasıya alınan*** *çit burada altı şahıya satılır*.(MFA,1,207) ***Bizim ilə zindəganlıq cəngi edən*** *millətlər elm təhsil edirlər*.(Ə,51) ***Xonçasında doşab halvası olmayan*** *şəkər halvasın bəyənməz*.(Ə,59)

M ə s d ə r tərkibi: *Yetişibsən, indən belə yaraşmaz* ***Yadlar ilə deyib-danışmaq*** *sana*.(QZ,50) *Ey əndəlib, səndə bu nə adətdi -* ***Fəğan çəkmək növbaharı görəndə?*** (QZ,65) *Xoşdur mana* ***içmək ağu sənin****lə.* (QZ,67) ***Səg rəqib sözünə etibar etmək*** *- Bilməzəm, xublarda bu nə adətdi*. (QZ,71) *Nə xoşdur* ***canana canı yetirmək, Doyunca nəzarə eyləyib ölmək***.(QZ,99) ***Bu üç gündə bəni-adəm ilə mülaqat və mükalimə etmək və bir tərəfə çıxmaq*** *ona mümkün deyil*.(MFA,1,45)

"Əkinçi" qəzetinin dilində əksərən müasir formaya uyğun olan məsdərlər bir çox hallarda *-lıq,-lik* şəkilçisi ilə birgə işlənmişdir: *Dünyada olan zəhərlərin hər birisi bədənə bir qeyri cürə kar edir. Məsələn, ilan zəhəri* ***qana qarışmaqlığı ilə*** *və tüstü* ***ağza dolmaqlığı ilə*** *insanı fövt edirlər. Amma tiryak, şərab, bir neçə qeyri şeylər* ***beyinə dəyməkliyilə*** *onu tələf edib insanı fövt edirlər*.(Ə,57)

Feli birləşmə daxilində müstəqil subyekt bildirən sözlərin işlənməsi müasir dilə xas olduğu kimi, keçən əsrlərin ədəbi dilinə də xas olmuşdur; ***məs.: Düşəndə yadıma*** *vəfalı* ***dilbər*** *Sərasər od tutub alışır cigər*. (QZ,87) *Sevdiyim, dəmadəm sellər açılır Hər zaman* ***düşəndə iraq gözlərin***. (QZ,103) ***Qürbətdə alınca hicran canımı****, Öləydim dilbərin öz qabağında*.(QZ,44)

"Əkinçi" qəzetinin mətnlərində dilin struktur modellərindən geniş istifadə imkanları yarandığı üçün bəzən cümlədə fikir feli sifət, feli bağlama, feli isim və məsdər tərkiblərinin iştirakı ilə ifadə edilmişdir; məs.: ***Dünyada xəlq olunan*** *millətlər* ***öz lisanlarına ana lisanı deyib****, ol lisan*

***ilə xudavəndi-aləmə ibadət edib**, insanlıq edirlər. Bunun üçün **bir lisan bir millətin olanda** və **lisanın dəxi əsası millət olduğundan** (hər) bir kişiyə vacibdir ki, **daima onun irəli getməsinə** canını fəda etsin və **millətin xidmətində bulunmayan** kişiyə bir kəs yaxşı deməyəcəkdir.* (Ə,89)

CÜMLƏ
MƏQSƏD VƏ İNTONASİYAYA GÖRƏ CÜMLƏNİN NÖVLƏRİ

Azərbaycan ədəbi dilinin X1X əsrə aid bütün mənbələrində nəqli, sual, əmr və nida cümlələrindən bugünkü ədəbi normalara müvafiq şəkildə istifadə edilmişdir. Məqsəd və intonasiyaya görə cümlə növlərinin işlənmə nisbəti ədəbi növ və janrlarla, söz ustasının üslubu ilə bağlıdır. Məlumdur ki, ünsiyyətin ən kütləvi vasitələri nəqli cümlələrdir, ona görə də X1X əsrdə meydana çıxan lirik, epik və dramatik əsərlərin, tarixşünaslığa dair mənbələrin dilində aparıcı cümlə növü nəqli cümlələrdir. Bununla yanaşı, digər cümlə növlərinə məxsus formal əlamətlər də bu dövrdə artıq tam formalaşmış şəkildə ədəbi dilə xidmət edir.

X1X əsr ədəbi dilində cümlənin məqsəd və intonasiyaya görə növlərinin struktur-semantik baxımdan tam mənzərəsini təsəvvür etmək üçün onun növlərini ayrılıqda qısaca nəzərdən keçirək.

Nəqli cümlə. X1X əsrə aid nəsrin - A.Bakıxanovun, M.F.Axundovun nəsr əsərlərinin dilində fikrin əsas ifadə vasitələri nəqli cümlələrdir. Müasir ədəbi dilimizdə olduğu kimi, bu cümlələr intonasiya və söz sırası əsasında formalaşmışdır; bu cür cümlələrdə intonasiya tədricən yüksələrək xəbərdən əvvəlki sözün daha yüksək tonla tələffüz edilməsi ilə aktuallaşdırılmış və sonra tədricən alçalaraq kəsilmiş və müəyyən vasitələrlə müasir durğu qapanmasına bənzər qapanma nəzərə alınmışdır. A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərinin nəsr hissəsində işlənmiş təqribən 80-ə qədər cümlədən 9-u sual, 5-i əmr, 3-ü nida, 60-a yaxını nəqli cümlədir. Bir nümunə:

Xülasə, ol qədər naləvü şivən qıldı ki, bihuş olub, dideyi-zahirbini bağlanıb çeşmi-bəsirət açdı. Aləmi-röyada gördü ki, məğfuri-mərhum, müəllimi-məlum qəbrindən qiyam edib məscidə gəldi. Mənbər üzrə çıxıb mövizələr qılırkən dedi...(AB,131) "Aldanmış kəvakib" hekayəsində də yazıçı təhkiyəsi başlıca olaraq nəqli cümlələrlə davam etdirilmişdir: *Səfəviyyənin əvvəli-səltənətində Qəzvin paytəxt idi. Hadisati-mütənəvviənin vüquundan sonra Məhəmməd şah Səfəvi səltənəti öz oğlu Şah Abbasi-əvvələ təslim etdi. Şah Abbasın cülusundan altı il keçib, yeddinci il başlanmışdı ki, aşağıda zikr olunan qəziyyə vaqe oldu.*(MFA,1,303)

Bu misallarda söz sırası, yəni mübtəda - xəbər qütbü də düzgün yerləşdirilmişdir. Misallarda determinantlar mübtədadan əvvəl işlənmişdir. Qasım bəy Zakirin poeziya dilində də lirik qəhrəmanın düşüncələri əksərən nəqli cümlələrlə ifadə olunmuşdur:

Yox idi Zakirdən haşa etməgin,
Nə bir yaşınmağın, nə üz tutmağın;
Kəsilibdi indi gəlib-getməgin,
Əzəlki çağını könlüm arzular. (QZ,115)

Müasir ədəbi dilimizdə işlənən hər cür cümlələrə - müxtəsər və geniş, cüttərkibli və təktərkibli, sadə və mürəkkəb, bütöv və yarımçıq cümlə növlərinə X1X əsr mənbələrində bol-bol rast gəlmək mümkündür və bu cəhətdən nəqli cümlələr müasir ədəbi dilimizdə işlədilən nəqli cümlələrdən heç nə ilə fərqlənmir. Mənbələrdə ismi və feli xəbərli, təsdiq və inkar cümlə növləri də eyni qayda ilə işlənmişdir. Nəsr dilində, o cümlədən M.F.Axundovun "Kəmalüddövlə məktubları" əsərində klassik nəsrimizdə özünü göstərən uzun silsiləli nəqli cümlələr də nəzərə çarpır. Bu cümlələri bəzən izafət tərkibləri daha da qəlizləşdirir. Bu xüsusiyyət A,Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərinin dilində daha çox müşahidə olunur. M.F.Axundovun hekayəsində nəsr dili xeyli sadələşmiş, klassik nəsr elementlərindən tipikləşdirmə məqsədilə və ruhani aləminin silsiləli şərh və cümlə üslubunu nəzərə çarpdırmaq məqsədilə istifadə edilmişdir. Məsələn,"Kəmalüddövlə..."dən bir parça:

Tehranda müsafirlər mükərrər görüblər, padişah dişqarı çıxan vaxtlarda xalqı ki,onun əyalıdırlar, fərraşlar çub və çomaq ilə yoldan uzaq edirlər və əgər bir kəs cüzvi ehmal eləsə, başını və qolunu xurud edərlər.(MFA,II,46)

Mirzə Fətəli imkan daxilində əsərin dilini sadələşdirməyə çalışmış, bir çox hallarda, dini söz və ifadələri nəzərə almasaq, traktat sadə və aydın bir dildə yazılmışdır: *Günorta namazının vaxtında bir neçə rüfəqa ilə məscidi-came'ə daxil oldum. Məscid hər sinif xalqdan mala-mal idi. Bir tərəfdə tüccar, bir tərəfdə sair kəsəbə, bir tərəfdə nücəba oturmuşdu. Mən dəxi rüfəqa ilə bir guşədə əyləşdim...*(MFA,II,47)

Sual cümləsi. Əgər nəqli cümlələr vasitəsilə bir hadisə, əhvalat haqqında nəql yolu ilə məlumat alırıqsa, sual cümlələrinin işlənməsində əsas məqsəd bilmədiyimizi başqasından öyrənmək, bir şeyi dəqiqləşdirmək, aydınlaşdırmaqdır. Buna görə də sual cümlələri adətən iki növə ayrılır: a)dəqiqləşdirici sual cümlələri; b)xüsusi sual cümlələri.

D ə q i q l ə ş d i r i c i sual cümlələrindən bu və ya digər bir fikri dəqiqləşdirmək üçün istifadə edilir. Dəqiqləşdirmək istədiklərimiz sual

cümləsinin özündə olur, dinləyən şəxs cavab cümləsi ilə həmin fikri ya təsdiq, yaxud da inkar eldir.

X1X əsr mənbələrində dəqiqləşdirici sual cümlələrindən çox geniş istifadə olunmuşdur. Dəqiqləşdirici sual cümlələri quruluş xüsusiyyətlərinə görə üç növə ayrılır: adi, alternativ və qoşulma dəqiqləşdirici sual cümlələri.

A d i dəqiqləşdirici sual cümlələrində bir məsələ qoyulur və onun dəqiqləşdirilməsinə cəhd edilir. Dəqiqləşdirilməsinə ehtiyac olan məsələnin adı da çəkilir. Sual verən şəxs adı çəkilən məsələnin dəqiq olub-olmadığını öyrənmək istəyir. Sual cümləsinin bu növü adi nəqli cümlələrə çox yaxındır. Sual mənası intonasiya ilə, bəzən də intonasiya və sual ədatları ilə ifadə olunur. Yalnız xəbərin son hecasının bir qədər uzun tələffüzü ilə bu cür cümlələr nəqli cümlələrdən fərqlənir; məs.: Hacı Nuru şair.*Keçmiş güzarişatı bilmək bifaydadı:r?* (MFA,1,39) Zalxa. *Gedib divanbəyinə xəbər verəcəksə:n?* (MFA,1,142) Fatma xanım. *O boynunu yerə soxduğum getd:i?* (NV,1,66) *Pədərsüxtə, kəvakibin afətindən məni qorxudarsan və əlacını gizlərsə:n?*(MFA,1,308)

H.Mirzəzadə qeyd edir ki, "qədim və orta əsrlərin ədəbi dilini təmsil edən yazıların dilində sual cümlələrinin çox az bir qismi intonasiya vasitəsilə işlənmişdir". (HM,90,,47) Bu fikir özünü X1X əsrin birinci yarısına aid mənbələrin verdiyi faktlarla da doğruldur. A.Bakıxanovun, Q.Zakirin dilində, demək olar ki, intonasiya ilə qurulan sual cümlələri işlənməmişdir. X1X əsrin ortalarından bu cür sual cümlələrinin qəflətən geniş vüsət alması yazıda dialoq nitqindən geniş istifadə edilməsi, ədəbi növlərin inkişafı, xüsusilə komediya janrının meydana gəlməsi ilə bağlıdır. İntonasiya ilə qurulan cümlələr daha çox şifahi nitqə aiddir. Danışıq dili, canlı nitqin xüsusiyyətləri isə dram dilində özünü daha ətraflı və əsaslı göstərə bilir. Odur ki M.F.Axundovun dram dilində intonasiya ilə qurulan sual cümlələrinə əvvəlki dövrlərlə müqayisə edilməz dərəcədə bol-bol rast gəlmək mümkündür.

Ədatlarla, xüsusilə *-mı,-mi,-mu,-mü* şəkilçisi ilə qurulan sual cümlələrinə həm əvvəlki dövrlərə, həm də X1X əsrin birinci yarısına aid mənbələrdə tez-tez rst gəlmək olur; məs.: *Dünyadə hüsuli-şadimani Olmaz**mı** mənə haram sənsiz?*(AB,127) *Çör-çöp dayanar**mı** sel qabağında*? (QZ,45) *Dedim: Zakir ilə var**mı** ülfətin?*(QZ,58) Nəcəf. *Çaharşənbə günü**mü** yola çıxmışdınız?* (MFA,1,167) Naçalnik. *Səndən mən soruşuram ki, bu idi**mi** sizə rast gələn?*(MFA,1,242) *Sən kimi, görüm, onun çöhreyi-tabanı**mı** var? Xali-hindusu**mu** var? Zülfi-pərişanı**mı** var?* (QZ,261)

Bəs/pəs, məgər, ki, yoxsa ədatlarından geniş istifadə edilmiş, bu ədatlar müstəqil sual mənası yarada bilməsələr də, sual mənasını və hadisəyə modal münasibəti gücləndirmişlər*, məs.:Deyir **pəs** indi mən nə deyəm, eylə eylərsini:z?* (ŞXİT,6) *Kür suyu **məgər** çeşmeyi-heyvanə dönüb-*

dü:r? (AB,381) ***Bəs*** *bu işə vəkil tutmuyubsunuz?* (MFA,1,269) ***Məgər*** *əsər etməz bu qəmlər sana:?* (QZ,49) *Soruşdum dilbərdən:* ***yoxsa*** *bərgi-gül Lətafəti gül bədəndən öyrənib?*(QZ,55) Naçalnik. *Kişi, dəxi qaçaq mala getməzsən* ***ki?*** (MFA,1,250)

Müşahidələr göstərir ki, qədim və orta əsrlərdə də fars mənşəli *pəs* və *məgər* ədatlarından yazılı və şifahi ədəbi dildə geniş istifadə olunmuşdur.

Sual intonasiyası və sual ədatları ilə qurulan dəqiqləşdirici sual cümlələrinə çox zaman *bəli, yox, hə, əlbəttə* tipli sözlərlə qısa cavab verilmişdir. Lakin danışanın istəyindən asıllı olaraq sual cümlələrinin bu növünə üzvlənən cümlələrlə də cavab vermək mümkündür və bu cür hallar da olmuşdur; məs.:

Vəzir. *Şölə, doğru de, bu işdən xəbərin var****mı?***

Şölə xanım.*Mən hərgiz bu xüsusda təqsirli deyiləm*! (MFA,1,115)

A l t e r n a t i v dəqiqləşdirici sual cümlələrində, əsasən, iki fakt verilir və bunlardan hansının düzgün, doğru olduğu, hansı cəhətə əməl ediləcəyi müəyyənləşdirilir. Cavab verən şəxs faktlardan birini təsdiq, digərini inkar etməklə sual verən üçün dəqiq olmayan cəhəti aydınlaşdırmış olur. Bu cür cümlələrə *bəli, yox* tipli sözlərlə cavab vermək olmur. Sual cümlələri ya sadə həmcins xəbərli cümlələrdən, ya da tabesiz mürəkkəb cümlələrdən ibarət olur və hər iki halda tərkib hissələr *ya, yainki, yoxsa* bağlayıcıları ilə əlaqələnir; məs.:

Kərəməli. *Ay ağa, geri qaçım, ya irəli?*

Hacı Qara.*Gic oğlu gic, geriyə hara qaçacaqsan? Genə Araza qayıdıb gedəcəksən? İrəliyə qaç qurtar tez*.(MFA,1,233) *Sərdar Fəthəli xan para kəslərdən və böyüklərdən xəbər alır ki, Şəki vilayətinin əsil bəgzadəsi Mələk Əlidir, yoxsa Hüseyn xandır?* (ŞXİT,9) Məstəli şah. *Parijin xarab olmağını istərsiniz, ya Müsyö Jordanın boynunun vurulmağın?* (MFA,1,82)

Alternativ sualın elə bir növü də var ki, birinci sualın təsdiqdə işlənmiş xəbəri ikinci sualda *yox* sözü ilə əvəz edilir və bunlar *ya, yoxsa* bağlayıcıları ilə əlaqələnir; məs.: Qurbanəli. *Uşaqları oxumağa qoyaq, ya yox?* (NN,1,20) Tarverdi. *A kişi, nə tövr adamsan? Sənin nə vecinə? Sən mənə yoldaş ver, sonra gör ki, işimdir, ya yox?* (MFA,1,149)

Q o ş u l m a dəqiqləşdirici sual cümləsi iki tərkib hissədən - əsas cümlədən və ona qoşulan sual cümləsindən ibarət olur. Cümlənin sual mənası qoşulan hissənin vasitəsilə yaranır. Bu cür sual cümlələrinə də əksərən *bəli, xeyr, əlbəttə, sözsüz* tipli sözlərlə, bəzən də bu sözlərlə yanaşı, həm də üzvlənən cümlə ilə cavab verilir; məs.: Vəzir. *Hacı Saleh, eşitdim ki, Rəştə gedirsən,* ***doğrudur?*** (MFA,1,98) Qurbanəli. *Deyirlər, bu gün naçalnik kəndə gələcək,* ***doğrumudur?*** (NN,28) Bayram. *Çox yaxşı, əgər mən bir hiylə qayırım ki, Tarverdi aradan çıxa, sən azad qalasan,*

ona razısanmı? (MFA,1,138) Hacı Kərim zərgər. *Şeyx Saleh öz gözü ilə görübdür ki, Əylis ermənilər iyirmi beş min manat sikkəli pul gətirib, Molla İbrahimxəlildən əlli put xalis gümüş alıb aparıblar;* ***belədimi, şeyxanə?*** (MFA,1,38) Vəzir. *Buyur, tez mənim qırmızı cübbəmi versinlər, kəhər atımı yəhərləsinlər,* ***eşitdinmi?*** (MFA,1,116) *Badi-səba, mənim dərdi-dilimi Ol büti-zibayə dedin,* ***nə dedi?*** (QZ,72)

Bu cür cümlələr canlı danışıq dili ilə ədəbi dilin yaxınlığından, ümumxalq dilinin təbii strukturunun ədəbiyyata daha çox nüfuz etməsindən irəli gəlmişdir. M.F.Axundovun dram dili xalq dili elementlərini bədii dilə böyük ustalıqla daxil etməyin canlı nümunəsidir

X ü s u s i sual cümlələri sual əvəzliklərinin və müvafiq intonasiyanın köməyi ilə yaranmışdır. Belə sual cümlələrində sual əvəzlikləri vasitəsilə qeyri-müəyyən şəkildə ifadə olunan əşya, hadisə, əlamət, kəmiyyət və s.-in müəyyənləşdirilməsi tələb olunur. Bu cür sual cümlələri geniş cavab tələb edir, ona görə də bunların cavabında *bəli, xeyr, yox, əsla, əlbəttə* tipli sözlər işlətmək, suala bu sözlərlə cavab vermək olmur. Müəyyənləşdirilməsinə ehtiyac olan anlayış həmin cümlənin özündə deyil, yalnız cavab cümləsində aydın olur. Sual cümləsinin bu növü qədimdən bəri ədəbi və bədii dildə fəal işlənmişdir. X1X əsrin ədəbi dilində də çoxişlənən cümlə növlərindəndir; məs.: ***Nə*** *çarə edim? Bacıcan!* ***Nə*** *əmri-hadis bu ənduhə bais olubdur?* (AB,124) Hatəmxan ağa. *Həkim sahib, Pariji* ***kim*** *dağıdıbdır,* ***kim*** *yıxıbdır?* (MFA,1,92) Məstəli şah. X*anım, Hatəmxan ağa, Şahbaz bəy indi* ***haradadırlar?*** (MFA,1,83) Fatma xanım. ***Nə vaxt*** *getdilər, başına dönüm?* (NV,1,79) ***Niçün*** *sən xan olmursan, o xan ola?* (ŞXİT,9) *Əgər belə mənfəətə müsəlman losmanı yetişsə və öz milləti qardaşlarına kömək edib əmali-xeyir əmələ gətirsə, onun eybi* ***nədir*** *və* ***nə yol ilə*** *onu məzəmmət eləmək olur?* (Ə,130)

Ritorik sual cümlələri. Ritorik sual cümlələrində naməlum, yaxud dəqiq olmayan sual mərkəzi olmur. Bu cümlələr dəqiqləşdirici və ya xüsusi sual cümlələri kimi, fikri dəqiqləşdirmək və ya məlum olmayanı aydınlaşdırmaq üçün yox, sırf üslubi vasitə kimi çıxış edir, adi nəqli cümlələr kimi, bu və ya digər təsdiq və ya inkar fikri emosional tərzdə, sual cümləsi şəklində ifadə edir. Ritorik sual cümlələrinin tələffüzündə intonasiya böyük rol oynayır, belə cümlələr dinləyiciyə daha dərin təsir bağışlayır. X1X əsr mənbələrində işlənmiş ritorik sual cümlələri də ya yalnız intonasiyanın (və bir sıra sual ədatlarının) köməyi ilə formalaşmış, yaxud da sual əvəzliklərinin iştirakı ilə yaranmışdır.

İtonasiya və sual ədatları ilə qurulan ritorik sual cümlələrinin aşağıdakı növləri vardır:

1.Yalnız sual intonasiyası ilə qurulan ritorik sual cümlələri: Namaz. *Səfər dayım onun dostu deyil idi:?* (MFA,1,150) Bayram. *Mənim ürəyimin yanğısı su ilə sönən yanğıdı:r*? (MFA,1,139) Heydər bəy. *Hacı*

Qara, deyirlər, çox xəsisdir. O, adama pul verə:r? (MFA,1,192) Belə cümlələr formaca inkar olduqda təsdiq, formaca təsdiq olduqda inkar məna ifadə edir.

2.*-mı,-mi,-mu,-mü* sual ədatının iştirakı ilə qurulub formaca təsdiq, məzmunca inkar ritorik cümlələr: Zalxa. *A kişi, sənin kimi qoçaq oğlanı sevməmək olar**mı**?* (MFA,1,143) *Ev buzovundan öküz olur**mu**?* (Ə,216) Zalxa. *Bizdə az**mı** qoçaq oğlan var?* (MFA,1,148) Bayram. *Əmisinin əmrindən **çıxamı** biləcək, obanın öhdəsindən gələ**mi** biləcək?* (MFA,157)

3, *-mı,-mi,-mu,-mü* sual ədatının iştirakı ilə qurulan formaca inkar, məzmunca təsdiq ritorik sual cümlələri: Molla Həmid. *Allaha şükür, belə səfalı yerdə, yaylaqda damaq çağ olmaz**mı**?* (MFA,1, 44) *Belə də məktəbxanalar açıb, qəzetələr çıxarıb bir-birimizin dilini öğrənib dərdindən xəbərdar olmaq bizlərə vacib deyil**mi?*** (Ə,235)

4.Ritorik sual cümlələrinin bir qismi intonasiya və *məgər, bəlkə* tipli ədatların və modal sözlərin iştirakı ilə qurulur: Vəzir. *Qızım, mən **məgər** sənin bacın haqqında bədgüman oluram?* (MFA,1,127) *Mən öz dilimizi **məgər** bilmirəm?* (Ə,216) Məstəli şah. *Pəh, xanım, **məgər** mənim divlərim İran sərbazı idi ki, müftə qulluq edələr? **Məgər** mən Hacı Ağası idim ki,onlara heç zad verməyəm, ancaq söyəm, qorxudam?* (MFA,86)

Sual əvəzliklərinin iştirakı ilə qurulan sual cümlələri X1X əsr ədəbi dilində daha fəal olmaqla rəngarəng emosional keyfiyyətlər ifadə edir. Məsələn: *...gərdişi dövrandan, aləmi-həvadisati-zəmandan nə bakim var ki, əncami-karim bu məqama yetsin?* (AB,128) ***Nə** qəmə, qüssəyə batmaq çağıdı? **Nə** danışıb söz uzatmaq çağıdı?* (QZ,81) *Hanı mən gördüyüm əhmər yanaqlar, Müsəlsəl geysulər, nəsrin buxaqlar?* (QZ,94) *Dərdə **kimin** vardır mən tək davamı?* (MFA,1,340) Heydər bəy. ***Hanı** qızılbaş və osmanlı döyüşü ki, tamam Qarabağı qızıl-gümüşə boyadı?* (MFA,1,190) Bayram. *Atmağın məlum deyil, vurmağın məlum deyil, **hansı** qız sənin kimi oğlanı sevər?* (MFA,1,142) *Hacı Çələbi **niçün** bir böylə böyük olmaq gərək?*(ŞXİT,7) Xırda xanım. *A başı batmış, əgər bu işləri mən bilməyirdim, səni **niyə** çağırırdım?* (NV,1,50) *Biz ki qəzeti basdırmağa hürufat tapmırıq, cəng olan yerlərin surətini və ya maşınların şəklini **necə** çəkdirək?* (Ə,431) *Qarovul, yasovul mənə **nə eliyəcək?*** **(**MFA,1,108)

Ritorik sual cümlələri əksərən yüksək hiss-həyəcanla dolğunlaşdırılmış olur, buna görə də bəzi müəlliflər sual cümləsinin bu növündən nida cümləsi bölməsində bəhs etmişlər. Ritorik sual cümlələri *nə* əvəzliyinin iştirakı ilə daha çox formalaşır. *Nə* əvəzliyi xəbərin bir hissəsi kimi çıxış etdikdə (*lazım, yaraşır, gərəkdir* tipli sözlərlə) bir şeyin, bir işin, hərəkətin lazım olmadığını bildirən ritorik cümlələr yaradır; məs.: Vəli. *Çoban adamıq, bizə quldurluq **nə yaraşır**?* (MFA,1,152) *Məzhəbdə qaim olmağa qəzetə ya jurnal oxumaq **nə lazım**?* (Ə,216) *Dəxi həkim gətirdib müalicə elətmək **nə lazım**?* (Ə,315)

Nəzərdən keçirilən dil faktlarından göründüyü kimi, sual cümləsinin müasir ədəbi dilimizdə işlədilən bütün növləri X1X əsr Azərbaycan ədəbi dlində də işlənmişdir. Bunlar əmələgəlmə üsuluna, qrammatik və semantik funksiyalarına görə müasir ədəbi dilimizdə işlənən sual cümlələrindən fərqlənmir. Bu, bir daha göstərir ki, ünsiyyətin əsas vasitələrindən olan sual cümlələri çox qədim dövrlərdən formalaşmış, ədəbi dil X1X əsrə gəlib çatdıqda ədəbi növ və janrların rəngarəngliyi onun bütün təzahür hallarını əvvəlki əsrlərin dil materialları ilə müqayisədə daha geniş şəkildə yazıya almışdır. X1X əsrin ədəbi dil nümunələrindən topladığımız zəngin faktlar və nümunələr təkmilliyi, səlisliyi, ən incə və zərif fikirləri ifadə etmə imkanları ilə xalqın təfəkkür dərinliyini, obyektiv aləmin fakt və hadisələrinə fəal və müdrik münasibətini də üzə çıxarır.

Əmr cümləsi. Əmr, xahiş, məsləhət, nəsihət, təkid, tələb və s. bildirən cümlə növü də müasir dilimizdə işlənən əmr cümlələrindən formalaşma baxımından, demək olar ki, fərqlənmir. X1X əsr mənbələrində də əmr cümlələrinin xəbəri felin əmr forması və xəbəri əmr hökmündə olan digər formalarla ifadə olunmuşdur; məs.: *Əgər həqiqi neməti fəramuş edib mənə təərrüz qılsan, bu nan* ***gözlərini tutsun*** *və səmumi-küfrani-nemət gülşəni-ömrini* ***xəzan etsin***!(AB,126) *Hala bir* ***tədbir et*** *kim,* ***səbəbi-müvasilət olsun***.(AB,129) *Öldürən zamanda Zakiri-zarı* ***Əl saxla*** *bir, qanlı qəməndən* ***öpüm.***(QZ,96) *Ey cismimin canı, gözümün nuru, Eylədiyin əhdü vəfadan* ***utan!*** *Həq dost tutmaz iqrarından dönəni, Bəndeyixudasan, xudadan* ***utan****!* (QZ,97) *Oğluna deyir ki,* ***get*** *evindən puli* ***gətir****, cəriməni* ***verək****!*(ŞXİT,6) D*ivanbəyi ilə bizi* ***qorxutma!*** (MFA,1,181) *Xub, o şəyatin yığıncağına rast gələn uşaqları mənə* ***göstərin!*** (MFA,1,172) *Osmanlı dövləti Serblərə yazan sülhün bir şərti budur ki, Serb əhli müəyyən olan zamanda, yəni bir neçə il* ***cəng etməsin****, amma Serb əhli yazıb Rusiyadan xəbər alır ki, buna nə* ***cavab verək***.(Ə,317)

X1X əsr mənbələrində arzu formasının əmr cümləsinin xəbəri kimi işləndiyi hallar geniş yer tutur; məs.: *Nə ola əgər varub* ***təcəssüsi-əhkami-şəriət edəsən****, əgər caizü mübah olsa, məni sən aldıqdan sonra valideyni-namidarımı də ki, validi-büzürgüvarın təzvici ilə* ***şad qılasan*** *ki, əhli-beyt arasında* ***təfriqə düşməsin.*** *Və Abbas, Hüseyn bir-birindən* ***ayrılmasın*** *və məcmu müxəlləfati-mətrukatə malik olub validi-alimiqdarım məqamində* ***namül-bədəl olasan.***(AB,129)

Az da olsa, təkid bildirən ədatlar əmr məzmununun müxtəlif çalarda ifadəsiə kömək etmişdir; məs.: Hatəmxan ağa. *Arvad, dəxi nə eləyək,* ***qoy getsin.***(MFA,1,73) Məstəli şah. *İndi siz mənə* ***buyurun görüm,*** *Müsyö Jordan ha vaxt gedəcək?* (MFA,1,81) Məstəli şah. *Xanım, bu sirdən gərək olar və ya başqa adam nə indi, nə sonra* ***xəbərdar olmasın ha!*** (MFA,I,83)

Xəbəri felin əmr formasında olan bir sıra cümlələrdə *gərək* sözü də işlənmiş və həmin söz şəxsli fellə birlikdə əmr hökmündə vacib formasının mənasına müvafiq məna ifadə etmişdir; məs.: ***Gərək*** *indən belə qapıda bürünüb gəbəni* ***Qoymayam*** *qarğa-quşu sərgidən apara dəni.* (QZ,236) Məstəli şah. *Bu surətdə* ***gərəkdir*** *divlərə, ifritələrə* ***əmr edim*** *ki, Pariji xarab etsinlər, altını üstünə çevirsinlər ki, Şahbaz bəy dəxi getmək niyyətindən düşsün*.(MFA,1,80) *Gərək* sözü əmr hökmündə arzu forması ilə də işlənmişdir: ***...gərəkdir*** *ki, meymunu* ***yadınıza salmayasınız*** *və meymun şəklini* ***xatirinizə gətirməyəsiniz***.(MFA,1,53)

M.F.Axundovun komediyalarının dili göstərir ki, ədəbi dil X1X əsrdə sintaktik quruluş baxımından bugünki səviyyədən heç nə ilə fərqlənməmiş, bədii ədəbiyyat mövzu, məqsəd, yazıçı üslubu və s.-dən asılı olaraq istənilən dərinliyə enə bilmişdir. Bunu əmr cümlələrindən istifadə halları da aydın göstərir. Aşağıdakı sözləri bugünki ədəbi ifadə tərzindən fərqləndirmək üçün elə bir əsas yoxdur: Molla İbrahimxəlil. *Molla Həmid, çadırdan tez zərgər kürəsini butəsilə kiçik körük ilə* ***çıxar gətir****! Kürəni yerə* ***qoy,*** *körüyün lüləsini ona* ***keçir****, kürəyə* ***od sal****, butəni üstünə* ***qoy.*** *Çadırın dalısından kömür çuvalını* ***gətir****, kürənin yanına* ***tök****.* ***Gir*** *çadıra, bir məcməi içində üç rəngarəng balaca şüşə var və üç rəngarəng bükülmüş kağız var, g****ötür gətir****; sarı bükülmüş kağızı* ***aç****, içindəki əczani* ***tök*** *butəyə, yaşıl şüşənin suyunu* ***endir*** *butənin içinə,* ***otur,*** *körüyü* ***bas!*** (MFA,1,51)

Təkcə bu bir-iki cümlə ilə Mirzə Fətəlinin nəhəngliyini, onun xalq dilinə və ümdəsi insan psixologiyasına necə dərindən bələd olduğunu görmək, duymaq və anlamaq olar.

Əmr cümlələri struktur baxımdan sabit olmuş, qrammatik semantikasına görə X1X əsrdə də hazırki funksiyasını yerinə yetirmişdir. Az-çox fərqli cəhətlər belə cümlələrin xəbərlərinin morfoloji əlamətlərində özünü göstərir. ki, bu da keçən müddət ərzində səlisləşmiş və müasir dildən fərqli xüsusiyyətlər şivələrdə qalmışdır.

Nida cümləsi. Cümlənin bu növü fikrin emosional və təsirli bir dil ilə, hiss və həyəcanla dolğunlaşdırılmış şəkildə ifadəsinə xidmət edir.

Nida cümlələri bir sıra vasitə və üsullarla yaranmışdır. Bunlar aşağıdakılardır:

Nida cümlələri bəzən cümlənin öz məzmun və intonasiyasına görə müəyyənləşir. Nida cümlələrinin bu növündə nida sözləri, ədat və s. kimi qüvvətləndirici vasitələr olmur. Mətndə təsvir edilən situasiyadan asılı olaraq cümlə hiss və həyəcanla dolğunlaşdırılmış olur. Buna görə də belə nida cümlələri nəqli cümlələrə daha yaxındır və situasiya nəzərə alınmadıqda bu cür cümlələri nəqli cümlələrdən fərqləndirmək olmur. Ona görə də dram əsərlərində bu cür cümlələrin tələffüz şəkli barədə

adətən əlavə cümlələr vasitəsilə məlumat verilir; məs.: Şəhrəbanu xanım (*çığıra-çığıra*). *Bəli, güc olacaq!.. Sənin kimi cahıl uşaqlar subay qalmaqdan tamam yaman yollara düşər, oğurluğa, quldurluğa qurşanar!* (MFA,I,164) Vəzir (*rəngi təğyir tapmış*). *Mən hərgiz sənə və sənin qaravaşıva inanmanam*.(MFA,1,101) Naçalnik (*acıqlanmış*). *Məlum ki, hamınız yalan danışırsınız! Hamınız tənbehə layiqsiniz!* (MFA,1,244) Sona xanım *(ağlaya-ağlaya). Heç bir dəfə də qoymAnam! Yarım dəfə də qoymanam!* (MFA,1,239)

Mötərizədə verilmiş əlavə sözlər və birləşmələr (*çığıra-çığıra, rəngi təğyir tapmış, acıqlanmış, ağlaya-ağlaya*) cümlənin nida cümləsi kimi tələffüzündə mühüm göstəricilərdir.

Bəzən bu və ya digər cümlənin nida cümləsi kimi tələffüz olunduğunu göstərmək üçün həmin cümlədən *qışqırmaq, çığırmaq, fəryad etmək* tipli sözlər işlənmişdir. Daha doğrusu, əvvəlki cümlədə sonrakı cümlənin necə tələffüz ediləcəyi barədə göstəriş verilmişdir; məs.: *Şah* ***qəzəblənmiş aslan kimi*** *dizi üstə çöküb xitab etdi: -Pədərsüxtə, kəvakibin afətindən məni qorxudarsan və əlacını gizlərsən?!* ***Cəllad!*** (MFA,1,308) *Xacə* ***fəryad eylədi****: -****Ey ustad, başımı kəsdin!*** (SƏŞ,II, 585)

Çox zaman cümlənin nida intonasiyası ilə tələffüzü üçün əvvəlcədən situasiya yaradılır və həmin situasiyada cümlənin hiss və həyəcanla dolğunlaşdırılmış olduğu bilinir; məs.: ***...****biz cümləmiz sənin qulun və səgi-asitanən varıq!* (MFA,1,316) *Bizim padşahımız genə Şah Abbasdır!* (MFA,1, 329)

Bədii əsərlərin dilində, xüsusilə dialoq nitqində elə cümlələr də işlənmişdir ki, onların nida cümləsi kimi təşəkkül tapdığını situasiya ilə deyil, cümlənin öz məzmunu ilə də bilmək olur; məs.: Cənnətəli ağa. *Qanı qurşağa çıxardaram!* (NV,1,51) Vəli. *Quşdan qorxan darı əkməz! İndi bu fikirləri eləmək vaxtı deyil!* (MFA,1,158)

Elə nida cümlələri də var ki, xəbəri qəti inkar bildirir. Bu cür xəbərlər eyni zamanda məntiqi vurğu da qəbul edir və hiss-həyəcanla tələffüz edilir, cümlənin nida cümləsi kimi formalaşmasına səbəb olur; məs.: Səkinə xanım. *Mən sənə getmək istəmirəm! Mən səni sevmirəm!* (MFA, 265) *Mən sənin kimi qardaş oğlunu istəmirəm*. (MFA,1,122) Cənnətəli ağa. *Elə işlərə mən qarışmıram və qarışmaq da istəmirəm!* (NV, I,96)

Bəzi nida cümlələrində haqqında danışılan şəxs, əşya, hadisə xəbər vasitəsilə ifadə olunur və xəbər aktuallaşdırılmış olur, məntiqi vurğu ilə tələffüz edilərək cümlənin nida cümləsinə çevrilməsinə səbəb olur; məs.: Sənəm. *Bihəya* ***sənsən!*** (ƏH,1,41) Heydər bəy. *Bu bədbəxtliyə bais* ***budur!*** (MFA,1,249)

Bu cür cümlələrdə xəbər təkrar oluna bilir və emosionallıq daha da artır: Ağa Həsən. *Mən sənin b****əndənəm, qulunam!*** (MFA,1,264) Ziba xanım. *Bəli, sən* ***tanıdıbsan,*** *sən* ***göstəribsən!*** (MFA, 1,102)

Əksərən nida cümlələri nidaların iştirakı ilə formalaşır. Nidalar cümlənin sevinc, təəccüb, qorxu, nifrət kimi çalarlarını daha asan üzə çıxarır və aid olduğu cümlənin hiss və həyəcanla tələffüzünə səbəb olur; məs.: ***Vəh****, nə qamət, nə qiyamət, nə füzun! İstiqamətdə əlif tək mövzun!* ***Vəh,*** *nə zülfü nə səvadi-kiysu*! (AB,122) *Seyd eylədi zülfün məni bu gözlərə,* ***ey vay!*** (AB,236) *Şafei-ruzi-cəzadən olmaya bir çarə,* ***vay!*** *Ya Əli, səndən mədəd, ya bülhəsən, səndən haray!* (QZ, 264) Sair nuxululer.***Uf****, lənətə gələsiniz, meymunlar!* (MFA,1,65) Tarverdi.***Vay aman,*** *atsa mənim işim xarabdır!* (MFA,1,159) Sona xanım.***Vay dədəm vay****, anam çağırır, dəxi gedə bilmənəm!* (MFA,I,199) Şərəfnisə xanım. **Bıy,** *allah, torpaq başıma, arvad nələr danışır!*(MFA,1,65) Fok. ***Ey vay,*** *bu quldur olacaqdjır!* (MFA,1,159) Xanpəri bəyim. *Qolumu tut! Su! Su! Öldüm, allah!* ***Vaaay, vayy!*** (NV,1,106) Fok. ***Ax, dədəm vay!*** *Bu kimdir?* ***Vay aman!*** *Allah, sən saxla!* (MFA,1,159)

Xitablar son pozisiyada, xitablarla birlikdə nidalar, bir sıra müraciət bildirən sözlər də cümlənin nida cümləsi kimi təşəkkülünə səbəb olur; məs.: Bəylər. *Can-baş ilə nəsihətini qəbul edirk,* ***naçalnik!*** (MFA, 1,251) Ağa Mərdan. *Doğruluq heç vaxt itməz,* ***oğullarım!*** (MFA,1,291) Tarverdi. ***Allah,*** *tüfəngi necə uzundur!* (MFA,1,160) Vəzir. ***Allahü əkbər****, xata-balaya düşdük!* (MFA,1,100)

M.Cahangirovun hesablamasına görə, M.F.Axundov və N.Nərimanovun dram əsərlərində 60-a qədər müxtəlif nida sözündən nida cümlələrində istifadə edilmişdir.

And, alqış, qarğış bildirən söz və ifadələr də cümlənin nida cümləsi kimi formalaşmasında mühüm rol oynamışdır; məs.: Arakel. ***Allah haqqı, peyğəmbər haqqı,*** *tüfəng, tapança yoxdur.*(MFA,1, 232) Şərəfnisə xanım. *Yox,* ***vallah, quran haqqı, dayım canına****, mənim heç zaddan xəbərim yoxdur, mənim heç təqsirim yoxdur!* (MFA,1,93) Hacı Qara. ***Allah sənin ömür və dövlətini artıq eləsin, ağa****!* (MFA,1,251) Hacı Qara. ***Allah kəssin*** *belə bazarı! Belə alış-verişi!..* ***Evin dağılsın*** *çit satan!* ***Qapın çırpılsın*** *şilə verən! Çadra verən,* ***səni görüm ki, heç uğuruna xeyir gəlməsin! Sağ-salamat*** *satdığın malın qazancın* ***yemiyəsən! Uf! uf!****..* (MFA,1,201)

Bəzi əvəzliklər də emosional keyfiyyəti ilə nida cümlələrinin təşəkkülünə səbəb olmuşdur: Bayram. ***Nə*** *yaman bəxtim var imiş mənim!* (MFA,1,157) Tarverdi. ***Necə*** *şeytan meymundur!* (MFA,1,163)

Nida cümlələri çox qədim dövrlərdən ədəbi dilimizdə işlək cümlə növlərindəndir. Lakin XIX əsrdə ədəbi növ və janrların genişlənməsi ilə nida cümlələrinin rəngarəng formalarda, rəngarəng vasitələrlə təzahürü də artmışdır.

SADƏ CÜMLƏ

CÜMLƏ ÜZVLƏRİ

Ənənəvi olarq, sadə cümlənin quruluşunu dəqiq şəkildə öyrənmək üçün, hər şeydən əvvəl, cümlənin üzvləri - baş və ikinci dərəcəli üzvlər öyrənilir. Təbii ki, müasir ədəbi dilimizdə olduğu kimi, X1X əsrin ədəbi dilində də cümlənin qrammatik əsası baş üzvlərdən - mübtəda və xəbərdən ibarətdir. İkinci dərəcəli üzvlər - tamamlıq təyin və zərflik baş üzvlər ətrafında cəmləşərək onları (baş üzvləri) müxtəlif cəhətdən izah edir, aydınlaşdırır və tamamlayır. Təyin təyinlənənlə, tamamlıq və zərflik isə xəbərlə bağlı olmuş, xəbər mübtədaya tabe olaraq onunla şəxsə və kəmiyyətə görə uzaşmışdır.

Mübtəda. Cüttərkibli cümlənin baş üzvlərindən biri olan mübtəda cümlənin fikir predmetini, fikir özülünü təşkil edir. Dominant baş üzv olan mübtəda X1X əsrin ədəbi dilində də öz qrammatik xüsusiyyətlərinə görə bugünkü ədəbi dilimizdə olduğu kimidir: bir qayda olaraq ismin adlıq hal formasında olmuş; əlamət və xüsusiyyətləri xəbər və xəbər zonası vasitəsilə izah olunmuş; cümlənin ən müstəqil üzvü olmuş və qrammatik cəhətdən heç bir üzvdən asılı olmamış; *kim? nə?* bəzən də *hara*? sualına cavab vermiş; isim, əvəzlik, məsdər, substantiv ismi birləşmələrlə daha çox ifadə olunmuş, adətən, cümlənin əvvəlində işlənmişdir.

Müasir ədəbi dilimizdə olduğu kimi, X1X əsr abidələrində də bir çox hallarda mübtəda üslubi məqsədlə buraxılmışdır və xəbərdəki şəxs şəkilçilərinin və mətnin köməyi ilə təsəvvür olunur; məs.: ***Gördüm*** o gözəl türrəni rüxsar arasında, ***Bənzətdim*** *onu əf'iyə gülzar arasında.* (AB, 236) *Biväfa* ***ərdəbillilər əlində*** *necə zarü pərişan* ***qalmışıq!*** (AB, 124) *Dilxun* ***qəribiz,*** *bizə bir yar* ***tapılmaz.***(AB,125) *Müddətdir* ***həsrətəm****, bir gəz bəri* ***bax,*** *O xan gözlərinin sədqəsi canım.*(QZ,95) ***Gəzmişəm*** *cahanı, mən* ***görməmişəm*** *Sənin kimi gözəl ellər içində.*(QZ,63) Şahbaz bəy. *Şərəfnisə, bu nə sözdür,* ***deyirsən****?* (MFA,1,77) Namaz. *Ay arvad, nəyin* ***var gətir*** *görək,* ***acmışıq***.(MFA,1,145) Tarverdi. ***Dayanın, dayanın****! Belə* ***bilirəm*** *ki, tüfəng* ***atmasaq*** *yaxşıdır*.(MFA,1,157) Bu misalların bir qismində ***mən, sən, biz, siz*** sözlərindən ibarət olan mübtədalar işlənməmişdir, lakin şəxs şəkilçilərinin köməyi ilə hər bir cümlədə onları bərpa etmək mümkündür.

Müasir ədəbi dilimizdə olduğu kimi, mübtəda nitq hissələri və söz birləşmələri ilə ifadə olunmuşdur. Nitq hissələri ilə ifadə olunan mübtədalar quruluşca sadə, söz birləşmələri ilə ifadə olunanlar mürəkkəbdir. İsim, əvəzlik və məsdərlərlə yanaşı, isimləşən başqa nitq hissələri də (sifət, say, işarə əvəzlikləri, feli sifətlər və bəzi zərflər) mübtəda vəzifə-

sində işlənmişdir; məs.: *Ey aşiqi-mehribanım! Bu **sözlər** fayda verməz.* (AB,125) *Hicrində düşüb bəlayə **Əsgər**.*(AB,126) *Qərəz, **onlar** ağlayıb nalə edirdilər.* (AB,125) *Ah, bunları bu hal ilə görüb və dəsti-müsibət başa vurub **kim** gəldi?* (AB,125) *Bəlkə bu vəsilə ilə **bir-birimizi görmək** müyəssər ola*. (AB,125) *Ah, qardaş, kaş sənin kimi **naxələf** ölə idi, bu günləri görməyə idi.*(AB,125)

Qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmələr mübtəda vəzifəsində daha çox işlənmişdir; məs.: *Çün **eşq odu** əgər dutuşa, canı yandırar*.(AB,125) *Məzlum **aşiqin** əgər **ahi** büləndola, Yeddinci göydə xərmə-ni-Keyvanı yandırar*.(AB,125) ***Gün nuri** gözümə tar olubdur*. (AB, 126) ***Sənin fəraqın** alıbdır qərarü taqətimi*.(AB,129)

A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərindən verdiyimiz bu misallar göstərir ki, mübtədanın ifadə vasitələri müasir ədəbi dilimizdəki ifadə vasitələrindən heç nə ilə fərqlənməmişdir. Doğrudur, əsərdə mübtəda bəzən izafət birləşməsi ilə ifadə olunmuşdur; məsələn: ***Seyri-çəmə-nü kəmali-işrət** Ənduhim olur tamam sənsiz.*(B,127) Lakin A.Bakıxanov klassik ənənənin tələb etdiyi bu cür hallarda izafəti milli söz birləşməsi ilə həmcinsləşdirmişdir: *Nagah gördü kim, **karivani-Leyli, məhbublar sərxeyli** yetişdi*.(AB,128) Milli ruha üstünlük verməsə idi, şair *məhbublar sərxeyli* birləşməsini də izafət şəklində (*sərxeyli-məhbub*) işlədərdi. Aşağıdakı parça isə onun milli ismi birləşmələrə necə üstünlük verdiyini daha aydın gstərir:

*Bir yan **fələk cəfası** mənimçün qəm artırır,*
*Bir yan **zəmanə gərdişi** min matəm artırır.*
*Bir yan **həsud tənəsi** bağrımı qan edər,*
*Bir yan **qərib covri** bəla hər dəm artırır.*
***Eşqin bəlası** sineyi-pürxunə, ah kim,*
Hər ləhzə bir cərahəti-bimərhəm artırır.
***Bunlar qamusu** səhldir, asan tədarki,*
Hicran dili-həzinə qəmi-aləm artırır. (AB,129)

Bizim dövrümüzə yaxınlaşdıqca izafət tərkibləri tədricən çox kiçik faizə enmişdir.

Tədqiq etdiyimiz dövrdə nəzərə çarpan bir cəhət bundan ibarətdir ki, heç bir dəyişiklik etmədən götürdükdə bir sıra cümlələrdə mübtəda sanki ismin təsirlik halındadır. Lakin bu cür "mübtədalar" təsirli fellə əlaqələnməmişdir; məs.: Hacı Qara.***Səni** lənətə gələsən, arvad!* (MFA, 1,212) Şərəfnisə xanım. ***Uşağı** yerə girsin*.(MFA,I, 61) Belə faktlara folklor materiallarının dilində, dialekt və şivələrdə də tez-tez rast gəlmək olur. Bu hal hazırkı dövrdə canlı danışıq dilində də geniş yayılmışdır.

Əslində, bu cür cümlələrdə indi mübtəda kimi görünən təsirlik halda olan söz mübtəda deyil, tamamlıqdır. Bu cür cümlələrdə həmin söz-

lərdən sonra işlənməli olan təsirli felin buraxılmış olduğunu nəzərə almaq lazımdır. Belə cümlələrdə, adətən, *görüm* tipli sözlər buraxılmış olur. Həmin sözün saxlandığı hallar da vardır; məs.: Qurbanəli. ***Səni görüm,*** *zaqqumlanasan!*(NN,27) Güllü. *Ay* ***səni görüm,*** *dünyada ağ gün görməyəsən! Ay* ***səni görüm,*** *dörd balan bir ildə yuyulsun!* (ƏH,I,41) Bu cür cümlələrdə *səni, onu, sizi,uşağı* tipli sözlər deyil, nəzərdə tutulan *sən, siz, o* sözləri mübtədadır, lakin təkrara yol verməmək üçün işlədilmir. İşlədilsə, cümlə, məsələn, belə olardı: *Ay* ***səni görüm, sən*** *dünyada ağ gün görməyəsən!*

Bu cür hallar canlı dilin bədii ədəbiyyata güclü müdaxiləsindən irəli gəlimişdir.

Xəbər. Cümlənin baş üzvlərindən biri də xəbərdir. Xəbər fikir predmetinin hərəkət və ya əlamətini bildirir. Hərəkət dedikdə şəxsli fellərlə, əlamət dedikdə digər nitq hissələri və söz birləşmələri ilə ifadə olunan xəbərlər nəzərdə tutulur. Cümlənin təşkili üçün vacib olan əsas əlamətlər - predikativlik, modallıq xəbərdə cəmləşmiş olduğundan xəbərin cümlədə rolu böyükdür. Xəbər tarixən bütün qrammatik xüsusiyyətlərini təkmilləşmə, səlisləşmə yolu ilə mühafizə edib saxlamışdır, ona görə də "Dilimizin tarixi inkişafı göstərir ki, hər iki qrupdan olan xəbərlər dilimizdə geniş surətdə işlənmişdir. Hər iki qrup xəbərlər vəzifə, məna və morfoloji quruluşuna görə qədim olub, müasir ədəbi dilimizdən fərqlənmir. Bu və ya digər nitq hissəsi xəbər kimi işləndiyi zaman mövcud qanunlara tabe olmuşdur". (HM, 90, 227) "Mövcud qanunlara" dedikdə, bu gün mövcud olan yox, elə həmin dövrlərdə də mövcud olan və bugünkü ədəbi dilimizdə hökm sürən qanunlardan fərqlənməyən qanunlar nəzərdə tutulur. "Fərqlənməyən" dedikdə də bir cəhəti – əsaslı şəkildə fərqlənməməyi nəzərə almaq lazımdır. Çünki bütün digər kateqoriyalarda olduğu kimi, xəbərdə və xəbərlik kateqoriyasında da səlisləşmə, təkmilləşmə istiqamətində xüsusən morfoloji cəhətdən inkişaf olmuşdur. Bu inkişaf minilllik boyu davam etmiş, «Dədə Qorqud» və ondan əvvəlki dövrlərdən artıq müasir forma üstünlük qazanmışdır. XX əsrlə XVI əsr arasında olan fərq XX əsrlə XIX əsr arasında, demək olar ki, yoxdur və ya nəzərə çarpacaq dərəcədə deyildir. Buna görə də yalnız öz izlərini saxlayan bir sıra ənənəvi arxaik formalar, üslub təzahürləri xəbərin bugünkü təzahür formasından fərqli görünə bilir.

Ümumi struktürüna görə X1X əsr ədəbi dilində işlənmiş xəbər müasir ədəbi dilimizdəkindən fərqlənmir. Bir neçə misal: *Qədi* ***xəmidələnib,*** *qaməti kamanə* ***dönüb****.* (AB,128) *Amma sənin dağı-fəraqindən bu növ* ***pərişan olmuşam****.*(AB,129) *Bunun əmmaməsi* ***rəngin****, onun yükü* ***səngin****, Xüsusən ol birinin cübbəsi* ***qiyamətdir****.*(AB,420) *Zakir, nə* ***yamandır*** *halı dünyanın!* (QZ,64) *Piranəsərlikdə bir* ***növcavanın*** *Piyalə* ***çeşminin***

məstanəsiyəm.(QZ,88) ***Təsəlli verirdim*** *mən öz-özümə: Nazlı dilbər* ***inanacaq*** *sözümə*.(QZ,95) Namaz.*Vallah, doğru* ***deyirəm****, elə birisi bu Zalxa! Məgər mənə əvvəldən* ***gələrdi****, əgər quldurluğa* ***əl qoymasaydım?*** *Arvad,* ***belədirmi?*** (MFA,I,155) *...bizlərdə* ***deyərlər*** *ki, yer bir öküz üstə* ***dayanıb*** *və onun hər bir əczası* ***tərpənsə,*** *onun üstə olan yerin hissəsi həm* ***tərpənər.*** *Amma mən bunu* ***başa düşmürəm****, niyə zəlzələ olan zaman bəzi yerin ətrafı tərpənəndə özü* ***tərpənmir****?* (Ə,223)

X1X əsr mənbələrində xəbərin işlənməsi ilə bağlı fərqli cəhətlər:

1.Məsdər *gərək* sözü ilə birlikdə xəbər vəzifəsində işlənir; *gərək* sözü modallıq bildirir və şəxs şəkilçisiz çıxış edir; məs.: Zalxa. *A kişi, oğul sənin kimi* ***olmaq gərək***.(MFA,I,145) *Hacı Çələbi niçün bir böylə* ***böyük olmaq gərək****?* (ŞXİT,7) *Ancaq osmanlı kitabı oxuyanda diqqət ilə* ***oxumaq gərək.*** (Ə,209)

H.Mirzəzadə göstərir ki, "XVIII əsrə qədər xəbəri ifadə edən vasitələrdən biri də məsdərlə *gərək* sözünün əmələ gətirdiyi mürəkkəb formadır. Tarixən felin vacib şəklini əmələ gətirən və cümlədə xəbər kimi işlənən bu birləşmə həmin dövrdən etibarən öz normativliyini itirmişdir".(HM,90,279) Lakin göründüyü kimi, bu forma XIX əsrdə də öz işləkliyini saxlamışdır. Hətta əsrin sonunda da işlənmişdir: O *sözləri ki mən burada sizə deyirəm, onu Səadət də yəqin orada deyir. Ancaq* ***başa düşmək gərək***.(NV,1,158) Bu forma şivələrimizdə də özünü göstərir.

Hətta bəzən ***gərək*** sözü xəbərlik şəkilçisi də qəbul etmişdir; məs.: *Əvvələn,* ***etiqad etmək gərəkdir*** *ki, sirat haqdı*.(MFA,II,47) Nadir şah. *Daha doğrusu, dövlətə dair qanunları bilmərrə ruhanilərdən* ***almaq gərəkdir.*** (NN,1,147) Bu cür dil faktlarına folklor materiallarında da rast gəlmək olur; məs.: *Bu gün bir* ***tədbirə gəlmək gərəkdir.*** *Ərzrum qızından xəbər gəlibdi, mətləbi* ***anlayıb bilmək gərəkdir***.(AD,1,86)

X1X əsr mənbələrində bir çox hallarda *gərək* sözü məsdərdən əvvəl gəlsə də, yenə məsdərlə birlikdə xəbər vəzifəsində işlənmişdir; məs.: Vəzir. *Əlbəttə, səni* ***gərək*** *tikə-tikə* ***doğramaq***.(MFA,I,115) *Ona binaən deyirik,* ***elm və tədbir sahibi gərək olmaq.***(Ə,193)

Gərək sözü xəbərlik şəkilçisi qəbul edərək məsdərdən ayrı işləndikdə, məsdər cümlənin sonunda gələrək aktuallaşdırıldıqda və məntiqi vurğu ilə tələffüz edildikdə həmin söz (*gərək* sözü) müstəqil xəbər kimi çıxış edir: Divanbəyi. ***Gərəkdir*** *tez işi isti ikən* ***silist eləmək***.(MFA,1,166) Şamdan. ***Gərəkdir*** *gözə hər şeyi görüb* ***hiss etmək***.(NN,I,66) Eyni mövqedə *gərəkdir* sözünə yaxın mənada *lazımdır* sözü də çıxış edir: *Pəs* ***lazımdır*** *maşınlar bina edib işləri maşına* ***salmaq***.(Ə,152)

Hiss olunur ki, bu cür cümlələr tarixən quruluşca mürəkkəb olmuş, sonralar *lazım* və *gərək* sözləri olan hissələr transformasiyaya uğrayaraq müstəqilliyini itirmiş və xəbərin bir hissəsinə çevrilmişdir. Bundan əlavə, yuxarıdakı misallarda şəxs şəkilçisi olmayan *gərək* sözünə şəxs şəkil-

çisi (və *ki* bağlayıcısı) də artırmaq mümkündür. *Gərək* sözünün hətta şəxsli fellə birgə xəbər vəzifəsində işləndiyi hallar da vardır: *Ağac ya xəndək üstə, ya da düz yerdə* ***gərək əkilsin***. (Ə,256) Həm *gərək* sözünün, həm də felin şəxs şəkilçili formasının birgə işlənmə halları, onların hər birinin müstəqil xəbər olduğu, *gərək* sözünün baş cümlənin, şəxsli felin isə budaq cümlənin xəbəri vəzifəsində işləndiyi hallar da var; məs.: Məstəli şah. *Bu surətdə* ***gərəkdir*** *divlərə, ifritələrə* ***əmr edim*** *ki, Pariji xarab etsinlər*.(MFA,1,80) Molla İbrahimxəlil. *Bu dövreyi-tərbiyət itmamə yetişəndən sonra əczayi-iksir* ***gərəkdir*** *hərarəti-nariyyə vasitəsilə öz təkmilini* ***itmamə yetirsin***.(MFA,I,49) Teymur ağa. *...bir həftədən sonra* ***gərəkdir*** *ki, toy* ***başlansın.***(MFA,1,132)

Eyni vəziyyəti şəxs şəkilçili *gərək* sözünün arzu formalı fellə birgə işləndiyi hallarda da müşahidə etmək olar: Vəzir. *Hacı Saleh,* ***gərəkdir*** *Rəştdə bir mintənə* ***tikdirəsən***.(MFA,1,98) *Sizin allahınız* ***gərək idi*** *onu rüsvalıqdan* ***saxlayaydı.*** (MFA,11,86)

Bu son cümlənin əsl quruluşu belə olmalıdır: ***Gərək idi ki****, sizin allahınız onu rüsvalıqdan* ***saxlayaydı.***- Sadələşdirsək: ***Sizin allahınızın onu rüsvalıqdan saxlaması*** *gərək (lazım) idi* - mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə qəlibi olduğunu görə bilərik.

Gərək sözünün xəbərlik şəkilçisi olmadan müstəqil xəbər vəzifəsində işləndiyi hallar da var; məs.*:Elm öyrənməyə istitaət* ***gərək****, ittifaq* ***gərək,*** *vəsilə* ***gərək****.* (MFA,III,408) Səadət xanım. *İnsan olan kəsdə məhəbbət* ***gərək****, insaf* ***gərək****, mürüvvət* ***gərək.*** (NV,1,155)

2.Əvvəldə qeyd etdiyimiz kimi, M.F.Axundovun dilində və "Şəki xanlarının ixtisar üzrə tarixi" əsərində bir sıra cümlələrdə xəbərdə cəm şəkilçisi (*-lar,-lər*) üçüncü şəxsin cəmində şəxs şəkilçisindən sonra işlənmişdir; məs.: *Candar bir neçə vəqtdən sonra müsəlman olub adına* ***Əlican*** ***deyibdirlər***.(ŞXİT,1) *Bir neçə arxa Şəki mahalında bular* ***məliklik edibdirlər.***(ŞXİT,3) *Hacı Çələbi o dört xanları da valinin əlindən alıb mürəxxəs eyləyib öz evlərinə* ***gedibdirlər***.(ŞXİT,3) *...bu xiffətin məalından hərgiz* ***əndişə etməyibdirlər*** *və* ***anlamayıbdırlar*** *ki*...(MFA,II,41)

Bunun əksinə olaraq, bəzən *-lar,-lər* şəkilçisi *idi* köməkçi sözü və onun şəkilçiləşmiş formasından (*-dı,-di*) əvvəl işlənmişdir; məs.: *Hükəma bu elmlərlə* ***dəviyi-nübüvvət qılırlardı****...* (SƏŞ,III,12)

3.*İmiş* köməkçi sözünün şəkilçiləşmiş forması (*-mış,-miş,-muş, -müş*) da bəzən xəbərlik şəkilçisindən sonra işlənmişdir. Bu xüsusiyyətə "Şəki xanlarının ixtisar üzrə tarixi" əsərində rast gəlmək olur; məs.: *Şirvan vilayətinə şahın qoşunu gəlib dava edəndə Dərviş Məhəmməd xan da qoşun götürüb gedib Şirvanda qızılbaş qoşununa* ***şəbixun edibdirmiş***. (ŞXİT,2) *Amma xoylu Cəfərqulu xan Şəki vilayətin padşah aləmpənahdan istəyib, padşah da ona* ***veribdirmiş***.(ŞXİT,15) Müasir ədəbi dilimizdə nisbi keçmişin rəvayətində şəxs şəkilçisi *-dır* işlənmir.

4. Müasir dildən fərqli olaraq, bəzən feli və ismi xəbərlərdə xəbərlik şəkilçisi işlənməmişdir. Bu xüsusiyyət özünü A.Bakıxanov, M.F. Axundov, S.Ə.Şirvani və b.-nın dilində, nəqli keçmişin *-mış* şəkilçisindən sonra göstərir; məs.: *Aya, gərdişi-dövranü izai-əbnai-zaman sənə nə **zülmlər etmiş** ki, surəti-halın bu məqamə **yetmiş**?* (AB,128) *Və atan ovsafini bəyan etdiyindən, madəri-mehribanım dəxi ona **təəşşüq yetirmiş**.* (AB,129) Şərəfnisə xanım. *...mənə bir güzgü bağışlayıbdır ki, Parijin əcayibət bağında bitən Yengi Dünya güllərinin surəti dalısında **çəkilmiş**.* (MFA,I,82) Bu xüsusiyyət dram əsərlərinin remarkaları üçün daha xarakterikdir: *Pərzad oturubdur daş üstündə, yanında qıvraq geyinmiş və yaraqlanmış Bayram **gözün** ona **tikmiş**.*(MFA,1,135) *Əbdürrəhman bəy kürsü üstə **əyləşmiş**, qabağında istol, istolun üstə bir stəkan çay, əlində qəzet. Xırda xanım döşəkçə üstə **əyləşmiş,** dalında püştə.*(NV,I,45) Bu cür cümlələrdə xəbərlik şəkilçisi olmadan xəbər vəzifəsində işlənən sözlərdə *-mış* şəkilçisi feli sifətdən nəqli keçmişə keçidin qalıqlarını hiss etdirir.

Üçüncü şəxsin təkində şəxs (xəbərlik) şəkilçisinin buraxılmasına ismi xəbərlərdə də tez-tez rast gəlmək olur; məs.: *Çox yaxşı, sözün **bamənа** və nəsihətin **mufid** və xeyirxahlığın **sabit.*** (MFA,III,407) *Tiflis **müsəxxər** sənə, ey düxtəri-tərsa!* (MFA,I,344) *Məzhəbdə qaim olmağa qəzetə ya jurnal oxumaq nə **lazım**?* (Ə,413) Bu cəhət özünü remarkalarda da göstərir: *Otağın bir qapısı **sağ tərəfdə**, bir qapısı **sol tərəfdə** və iki qapısı **müqabildə**.* (NV, Ü,27)?

Faktlardan aydın olur ki, bəzi müəlliflərin qeyd etdiyi kimi, bu cür xüsusiyyətlər yalnız şeir dilinə məxsus olmayıb (TSDM,29), Azərbaycan dilinin aqqlütinasiya vasitələrinin inkişafda olduğunu göstərir. Əksərən şəkilçili forma üstün olduğu halda, bəzən şəkilçisiz formanın olması keçmişin izləri, şəkilçili formaya keçidin davamı hesab oluna bilər.

5.Maraqlı məsələlərdən biri də xəbərin *var* və *yox* sözlərinin iştirakı ilə analitik yolla ifadəsidir. Bu cür xəbərlərdə *var* və *yox* sözləri *olmaq, idi, imiş* köməkçi sözlərinin ifadə etdiyi qrammatik mənaya bərabər məna ifadə edərək başqa bir leksik-qrammatik mənalı sözlə birgə işlənir; məs.: ***Padşahın rəiyyəti varuq***.(ŞXİT,4) *Usta Yusif, sən bu saatda qibleyi-aləmsən və biz cümləmiz **sənin qulun** və **səgi-asitanən varuq**.* (MFA,1,316) *Ləya huri tayfası belə ömründə kişiyə **yaxınlığı yox, doğduğu yox, doğulduğu yox**, o mamaçalığı nə biləcək idi?* (MFA,II, 109) *Amma kəvakibi də **qınamaq yoxdur**.*(MFA,1,329) *Məndən bir kimsənə güldən ağır söz **eşitdiyi yoxdur**.*(MFA,1,206) Bu misallarda *padşahın rəiyyəti varuq - padşahın rəiyyətiyik, sənin qulun varuq - sənin qulunuq, sənin səgi-asitanən varuq - sənin səgi-asitanənik, yaxınlığı yox – yaxın deyil...* mənalarındadır. Son cümlənin modeli hazırda canlı danışıq dilində işlənməkdədir.

Müasir ədəbi dilimizdə olduğu kimi, XIX əsrin ədəbi dilində də bir sıra cümlələrdə mübtəda ilə xəbər arasında uzlaşma əlaqəsi yoxdur; məs.: *Mənəm **novgüli-bağı-ahəngəri**, Mənəm **valideynin** əziz **Əsgəri**.* (AB,128) *Pəs **əşi'ədən ibarət** o kəslərdir ki, aləmi-zərrdə öz xahişləri ilə iman gətiriblər və **əzlaldan ibarət** o kəslərdir ki, aləmi-zərrdə ixtiyarları ilə küfrü qəbul ediblər.*(MFA,II,115)

Bu cür cümlələrdə işlə iş görən öz ifadə vasitələrini dəyişmiş olur: xəbər olmalı olan söz mübtəda, mübtəda olmalı olan söz xəbər vəzifəsində işlənir. Bu cür hallarda mübtəda ilə xəbər əlaqəsi intonasiya əsasında, koordinasiya ilə müəyyənləşir. Şəxs şəkilçisi əvəzliyə artırılır və əvəzlik sanki özü özü ilə uzlaşmış olur: m*ən-**əm**, o kəslər-**dir***. Əvvəlki misalda mübtəda (qara kursivlə verilmişdir) - xəbər zonası aydındır. Sonrakı misalda feli sifət tərkibi ilə ifadə olunmuş mübtədanın asılı tərəfi saxlanmış, feli sifət buraxılmışdır. Əslində, mübtəda - xəbər əlaqəsi belədir: *əşi'ədən ibarət olan o kəslərdir*, *əzlaldan ibarət olan o kəslərdir.* Birinci misalda uzlaşmanın olmadığı göz qabağındadır: *Valideynin əziz Əsgəri **mənəm**.* Mübtəda (*valideynin Əsgəri)* üçüncü, xəbər (*mənəm*) birinci şəxsdədir. Zahirən ikinci misalda uzlaşma vardır: feli sifət tərkibi (*əşi'ədən ibarət olan*) üçüncü şəxsdə olduğu kimi, xəbər də (*o kəslərdir*) üçüncü şəxsdədir. Lakin uzlaşmanın olmadığını göstərən əsas fakt odur ki, bu cür cümlələrdə mübtəda sabit qala-qala, xəbər bütün şəxslər üzrə dəyişə bilir.

Digər tərəfdən, uzlaşan kimi görünən mövcud formada (son misalda) kəmiyyət uzlaşması daha kobud pozulmuşdur: mübtəda üçüncü şəxsin təkində olduğu halda, xəbər üçüncü şəxsin cəmindədir; halbuki olsa, əksinə ola bilərdi.

H.Mirzəzadə yazır:"Xəbər şəkilçiləri özünün sərbəstliyi ilə də xüsusi maraq oyadır. Çünki cümlədəki məqsəd və ifadənin məzmunundan asılı olaraq, xəbər şəkilçiləri cümlə üzvlərindən hər hansı birinə əlavə edilir, yerindən asılı olmayaraq, xəbər vəzifəsini görür." Müəllif verdiyi misallardan *Sən gecə həmin yanarsan, ey zar, Mən gecəvü gündüzəm giriftar. Bir yerdəyəm əsir ki, torpağı qan içər* (Füzuli) misallarını izah edərək deyir:"Göründüyü kimi, xəbər şəkilçisi cümlədə giriftar, əsir sözlərinə deyil, həmin cümlənin ikinci dərəcəli üzvlərindən zaman və yer zərfliklərinə əlavə edilmişdir."(HM,90,282) Bu fikir aydın şəkildə məntiqsiz fikirdir. Belə çıxır ki, bir sıra sözlər yalnız zaman və ya yer zərfliyi olmalıdır, lakin nədənsə, zaman və yer zərfliyi xəbər şəkilçisi qəbul etmiş, zərflik xəbər olmuşdur. Nəzərə alınmalıdır ki, xəbərlik şəkilçiləri cümlədə hər bir sözə artırıla bilər - istər məkan mənalı, istərsə də zaman mənalı olsun. Zərflik xəbər olmaz. Bu qeydlərdə yuxarıda izah etdiyimiz məsələ - uzlaşmanın olmaması, subyektlə predikatın öz ifadə vasitələrini dəyişməsi nəzərə alınmamışdır. Bu cür dəyişməyə səbəb fik-

rin aktuallaşdırılması, "yeni"ni bildirən sözün, ifadənin - remanın xüsusi nəzərə çarpdırılmasıdır.

Beləliklə, X1X əsr Azərbaycan ədəbi dilində işlənmiş xəbərlər, baş üzv kimi, müasir ədəbi dilimizdə yerinə yetirdiyi funksiyanı yerinə yetirmişdir. Bu cəhətdən heç bir əsaslı fərq nəzərə çarpmır. Lakin xəbərin morfoloji cəhətdən formalaşması baxımdan bəzi fərqlər olmuşdur. Bu da onu göstərir ki, cümlənin ən zəruri üzvü kimi, xəbər morfoloji cəhətdən səlisləşmə, təkmilləşmə yolu ilə inkişaf etmiş, şəkilçisizlikdən şəkilçililiyə doğru irəliləyərək müasir vəziyyətini almışdır. Hətta bəzən xəbərlik şəkilçilərinin bir sıra şəkilçilərlə münasibətdə yeri də sabit olmayıbdır. Hazırda arxaikləşmiş olan bəzi analitik formalar X1X əsrdə də davam etmişdir.

Tamamlıq. Cümlənin ikinci dərəcəli üzvlərindən olan tamamlıq **X**1X əsr Azərbaycan ədəbi dilindəki struktur cəhətinə və funksional keyfiyyətlərinə görə müasir ədəbi dilimizlə müqayisədə heç bir əsaslı fərqə malik deyildir. Həm quruluşuna, həm ifadə vasitələrinə, həm də müstəqim və qeyri-müstəqim obyekt bildirməsinə görə də X1X əsrin ədəbi dili müasir dilimizdən fərqlənmir.

Tamamlıq da digər cümlə üzvləri kimi, həm nitq hissələri, həm də söz birləşmələri ilə ifadə olunmuşdur. Nitq hissələri ilə ifadə olunan tamamlıqlar quruluşca sadə, söz birləşmələri ilə ifadə olunanlar mürəkkəbdir. Qədim dövrlərdən başlayaraq, tamamlıq daha çox substantiv nitq hissələri və söz birləşmələri ilə, yəni isim, əvəzlik, məsdər və ismi birləşmələrlə və eyni zamanda isimləşmiş söz və birləşmələrlə - sifət, say, işarə əvəzlikləri, bəzi zərflər, feli sifət və feli sifət tərkibləri ilə ifadə olunmuşdur; məs.: ***Xəri*** *çıxar aradan,* ***bunlara*** *şəbahəti yox*...(AB,429) *Gördüm* ***səni əğyar ilə****, ey yar, məsəldir, Bayqu tutar, əlbəttə, vətən bar arasında.*(AB,236) *Gördüm o gözəl* ***türrəni*** *rüxsar arasında, Bənzətdim* ***onu əf'iyə*** *gülzar arasında.*(AB,23:) ***Mənə*** *həm yar idi, həm munisü həm dilbər idi, Mən* ***ona*** *çakər idim, həm o* ***mənə*** *sərvər idi.*(AB,383) *Gəzmişəm* ***cahanı*** *mən, görməmişəm Sənin kimi* ***gözəl*** *ellər içində.*(QZ,63) *Vermənəm aləmə* ***xəlvət otaqda Deyib, gülüb, danışmağı səninlə***. (QZ,67) *Neylərəm* ***şəkkəri, qəndi, nəbatı,*** *Xoşdur* ***mana*** *içmək ağu səninlə.*(QZ,67) *Sizi tarı, deyin* ***yara*** *düşəndə, Məgər əl götürüb* ***əmanətindən****?* (QZ,99) *...gərəkdir ki,* ***meymunu*** *yadınıza salmayasınız və* ***meymun şəklini*** *xatirinizə gətirməyəsiniz*. (MFA,1,53) ***Mənim xəbər göndərməyimə*** *müntəzir olun*. (MFA,1,56)...*biz* ***başmaq*** *geyərik, onlar* ***çəkmə*** *geyərlər; biz* ***əlimiz ilə xörək*** *yeyərik, onlar* ***qaşıq ilə*** *yeyərlər.*(MFA,1,69) *Xülasə,* ***meşədən odun və hər bir qism hacət əmələ gəlməyin*** *hər kəs bilir.*(Ə,39)

Bu misallarda *xəri, səni, türrəni, onu, cahanı, səninlə xəlvət otaqda deyib, gülüb danışmağı, şəkkəri, qəndi, nəbatı, meymunu, meymun şəklini,*

meşədən odun və hər bir qism hacət əmələ gəlməyin sözləri və birləşmələri müəyyənlik bildirən, *başmaq, çəkmə, xörək* sözləri qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıq; *bunlara, əğyar ilə, əf'iyə, mənə, ona, mana, yara, əmanətindən, mənim xəbər göndərməyimə, əlimiz ilə, qaşıq ilə* sözləri və birləşmələri vasitəli tamamlıqlardır. Eyni zamanda, bunların içərisində *səninlə xəlvət otaqda deyib, gülüb, danışmağı, meymun şəklini, meşədən odun və hər bir qism hacət əmələ gəlməyin, mənim xəbər göndərməyimə* birləşmələri mürəkkəb, qalanı sadə quruluşludur (nitq hissələri ilə ifadə olunmuş). Bunların bir qismi isimlə (*xəri, türrəni, əf'iyə, cahanı, şəkkəri, qəndi, nəbatı, meymunu, başmaq, xörək, yara, əmanətindən*), bir qismi əvəzliklə (*səni, onu, mənə, mana, ona*), bir qismi qoşmalı sözlərlə (*əğyar ilə, əlimiz ilə, qaşıq ilə*), bir qismi ismi birləşmələrlə (*meymun şəklini*), bir qismi məsdər tərkibi ilə (*səninlə xəlvət otaqda deyib, gülüb, danışmağı, meşədən odun və hər cür hacət əmələ gəlməyin, mənim xəbər göndərməyimə*) ifadə olunmuşdur. Təbii ki, tamamlıq substantivləşmiş başqa nitq hissələri və söz birləşmələrinin digər növləri ilə də ifadə olunmuşdur.

XIX əsrin ədəbi materiallarının dilini müasir ədəbi dilimizdən fərqləndirən mühüm cəhətlərdən biri müəyyənlik bildirən vasitəsiz tamamlığın ***-ı,-i,-u,-ü*** şəkilçisi olmadan müəyyənlik bildirməsidir. Bu hal mənsubiyyət şəkilçili söz və birləşmələrə aiddir; məs.: *Kuyi-canandan cüda **aşiqlər əhvalın** desəm, Dəşt ara bikəs qalan **rəncur şəklin** göstərir*. (AB,235) *Dil ənəlhəq söyləsə, **Mənsur şəklin** göstərir*.(AB,235) *Neylərəm günəşi, mahi-ənvəri, **Üzarın** anaram, **ruyin** istərəm*.(QZ,89) *Can verməyə **səri-kuyin** istərəm*.(QZ,89) ***Başın qüllabəsin, belin kəmərin Hər birin** bir yanə atmaq çağıdı*.(QZ,81) *Bu müsibətdə biz ki, onun şiəsiyik, gərək təziyədarlıq edək, haray və **fəryad naləsin** ərşə yetirək*. (MFA, III, 413) *On iki min qoşun verib göndərir ki, get **Şirvan vilayətin** zəbt eylə*. (ŞXİT,11) *Məlik Nəcəfi qoymaz imiş ki, **sünni əhlin** bihəq yerə incitsün*. (ŞXİT,5) *Sonra padşah buyurdi, **Kiş qələsin** söküb xarab eylədilər*. (ŞXİT,3) *...burada **meşə salmağın qaydasın** bəyan edək.*(Ə,39) *Gələn il **bağçanın ikinci hissəsin** də əkir və üçüncü il **üçüncü hissəsin** də əkir*...(Ə,40) *Şaha ərz eylə ki, Çələbi məni qoymur ki, **şahın qulluğun** rəiyyətə buyuram*.(ŞXİT,5) Vəzir. *Yıxın naziri, **ayağın** salın fələqqəyə*. (MFA, 1,105)

Bu cür ifadə tərzini şeir dilinin xüsusiyyəti ilə bağlamaq olmaz. (TSDM,61) Bu cür tamamlıqlar "Kitabi-Dədə Qorqud" dastanlarından başlamış bu günə qədərki ədəbiyyatımızda geniş yer tutur. Ə.Dəmirçizadə bu cür tamamlıqları "şəkilçili müxtəsər tamamlıqlar" adlandırmış (KDQD,123) və bunların dastanlarda daha intensiv işləndiyini göstərmişdir. Sonu ***n*** ilə bitən mənsubiyyət şəkilçili sözdən sonra təsirlik hal şəkilçisinin işlənməməsi bu gün canlı danışıq dilində də geniş müşahidə

olunur. Bunlar bizim yazılı ədəbiyyatda da (XX əsrdə) geniş yer tuta bilərdi, lakin sovet dövründə tərtib olunmuş ciddi orfoqrafiya qaydaları buna imkan verməmişdir.

Onu da qeyd edək ki, dil tarixindən bəhs olunan əsərlərdə təsirlik hal şəkilçisinin belə söz və birləşmələrdə düşmüş olduğu göstərilir. (TSDM,61; HM,90,291) Bizim fikrimizcə, bu cür söz və birləşmələrdə təsirlik hal şəkilçisinin düşdüyünü güman etmək doğru deyildir. Bu forma qədim formadır və hələ təsirlik hal şəkilçisinin yaranmadığı dövrlərdə, görünür, təsirlik halın funksiyasını da yerinə yetirmişdir. *...gərəkdir Məhəmməd Həsən xanı öldürəsən, ya* ***gözlərin*** *çıxarasan* (ŞXİT,11) – cümləsindən göründüyü kimi, hal şəklçisiz müəyyənlik bildirən təsirlik hal mənsubiyyət şəkilçisi hesab etdiyimiz *-ın* şəkilçisinin vasitəsilə ifadə olunmuşdur. Bu şəkilçi birinci şəxsdə *-ım*, üçüncü şəxsdə *-ı* şəklindədir: *gözlərim, gözlərin, gözləri*. Bu şəkilçinin şəxs əvəzliklərindən əmələ gəldiyi sözsüzdür. Görünür, şəxs əvəzliyindən düzəlmiş bu şəkilçi hər üç şəxsdə son ***n*** samitini saxlamışdır: *mənim gözlərin, sənin gözlərin, onun gözlərin*. Fərq burdadır ki, müasir dövrdə üçüncü şəxsdə son samit yoxdur və şəkilçi açıq heca şəklindədir, lakin saitlə başlayan şəkilçi gələn kimi, *n* bərpa olunur: *onun gözlər**in**i*. Birinci şəxsdə də fərq var: son samit *n* yox*, m*-dir. Bu, ya assimilyasiya nəticəsidir, yaxud da birinci şəxsdə *mən* sözündən *-m*, ikinci, üçüncü şəxslərdə *n* qalmışdır. Birinci və ikinci şəxslər müasir dildə mənsubiyyət şəkilçisindən sonra mütləq təsirlik hal şəkilçisini tələb edir, *mənim gözlərim çıxararsan, sənin gözlərin çıxararam* deyilmir, lakin diqqət edilsə, dil üçün bu cür ifadə forması elə də yad deyil və görünür, bunların unudulma tarixi birinci minillikdə olmuşdur. Lakin üçüncü şəxsdə mənsubiyyət şəkilçisinin samiti olmadığından və həmin samit (bütövlükdə *-ın* şəkilçisi) vaxtilə təsirlik hal funksiyasını da yerinə yetirmiş olduğundan nitq prosesində üçüncü şəxsdə təsirlik hal funksiyasını yerinə yetirmək üçün *-n* samitinin bərpası kifayət edir. Azərbaycanda oğuzların yayıldığı ərazilərdə bu cür ifadə tərzi güclüdür və onu yazıdan məhrum edən orfoqrafiya qaydalarıdır.

Müasir şivələrimizdə olduğu kimi, X1X əsr materiallarının dilində ikinci şəxsdə təsirlik hal şəkilçisindən əvvəl *n* samiti *v*, üçüncü şəxsdə isə *y* samiti ilə ifadə olunmuşdur: *Bir şəxs Nuşirəvani-adilə müjdə gətirdi ki, allah-taala* ***sənin*** *filan* ***düşmənüvü*** *götürdü*.(SƏŞ,II,579) *Şah qəzəbnak olub* ***Çələbiyi*** *istər*.(ŞXİT,5)

Vasitəli tamamlıqlar ismin yönlük, yerlik, çıxışlıq hallarında olan sözlər və birləşmələrlə yanaşı, *ilə (birlə), üçün, qarşu* və s. qoşmaların artırıldığı əşya bildirən sözlər və birləşmələrlə də ifadə olunmuşdur Bu cəhətdən X1X əsr Azərbaycan ədəbi dili ilə müasir ədəbi dilimiz arasında elə bir fərq yoxdur. Yalnız X1X əsrin ədəbi dilində ara-sıra bu gün üçün tam arxaikləşmiş olan *birlə* qoşmalı tamamlıqların işləndiyini mü-

şahidə etmək olur və həm də bu hal özünü klassik üslubda yazılan elmi əsərlərdə göstərir. A.Bakıxanov hər yerdə *ilə* işlətdiyi halda, S.Ə.Şirvaninin "Bixud" məqaləsində *ilə* sözü ilə yanaşı, *birlə* sözünə də bir yerdə rast gəlirik: *Və qüdəmayi-əhli-hikmət təsrih qılıblar ki, qivami-cümleyi-mövcudat məhəbbətə mənutdur, intizami-silsileyi-mümkünat* ***onun birlə*** *mərbut*. (SƏŞ,III,125)

Bəzən yönlük hal əvəzinə, tamamlığın təsirlik halda işlənməsi də, təbii ki, qədim müvaziliyin qalıqlarındandır: *Bizim* ***məktəbləri*** *bir adam* ***tamaşa eləməyə*** *gedərsə, fələqqə və kültökən çubuqdan başqa, nə təlim əsbabı görəcəkdir?* (SƏŞ,III, 441) Məlumdur ki, *tamaşa etmək* feli adları təsirlik halda deyil, yönlük halda tələb edir. Lakin tərkib daxilində işlənmiş *məktəb* sözü təsirlik haldadır.

Göründüyü kimi, tamamlıqlar da struktur-semantik cəhətdən XIX əsrdə eyni funksiyanı yerinə yetirmiş, lakin həm vasitəsiz, həm də vasitəli tamamlıqlarda morfoloji cəhətdən təkmilləşmə, səlisləşmə istiqamətində inkişaf olmuşdur.

Təyin. Başqa ikinci dərəcəli üzvlərə nisbətən daha çox qeyri-müstəqil olan təyin də XIX əsr ədəbi dilində müasir quruluş xüsusiyyətlərinə malik olmuş, eyni leksik-qrammatik funksiyanı yerinə yetirmiş və eyni ifadə vasitələrinə malik olmuşdur. Nitq hissələri içərisində daha çox sifət, say və atributv isimlərlə, söz birləşmələri içərisində daha çox feli sifət tərkibləri və qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmələrlə ifadə olunmuşdur.

Nitq hissələri ilə ifadə olunmuş sadə tənlər**:** *...mənə təərrüz qılsan,* ***bu*** *nan gözlərini tutsun*.(AB,126) ***O*** *binəvanın işi rənc ilə rəyazətdir*. (AB,429) ***Xoşləhcə*** *pərizadələrin ləli-ləbindən* ***Bu*** *kişvəri-pürşur bədəxşanə dönübdür*.(AB,381) *Nə mənə, bəlkə* ***tamam*** *aləmə taci-sər idi.* (AB,-383) *Piranəsərlikdə* ***hərcayi*** *könül Bir* ***tazə*** *cananın bəndivanıdı.* (QZ,70) ***Duzlu*** *hekayətin,* ***nəməki*** *sözün,* ***Pəsəndidə*** *xülqü xuyin istərəm*. (QZ,89) ***Qadir*** *allah bir də səbəb salaydı,* ***Bəyaz*** *cəbinində tağı görəydim. Sürtəydim üzümü* ***gülgəz*** *yanağa,* ***Siyah*** *zülfü,* ***tər*** *buxağı görəyDim.* (QZ, 92) Divanbəyi. *Necə təqsirin yoxdur? Bəs* ***bu sınmış*** *sandıqlar,* ***soyulmuş*** *araba, tüfəng atılmaq təqsir deyil?* (MFA,1, 164)

Mürəkkəb təyinlər ismi və feli birləşmələrlə, müxtəlif nitq hissələri və söz birləşmələrindən ibarət tərkiblərlə ifadə olunmuşdur: ***Bular vuran*** *od idi əhli-fəqr xərmənina Ki, indi şöləvər oldu cahanda, vəhşətdir*. (AB,429) ***Rüxsarə düşən*** *türrələri çəkmə kənarə*.(AB,236) *Var* ***sən kimi yüz*** *xər belə bazar arasında*.(AB,236) ***Dövrü dönmüş*** *fələkə bax ki, mənim badəkəşim Saqiyi-məclis olub, cam tutar özgələrə*.(AB,383) *Təğafül eyləmə, ey badi-səba, Bəlkə* ***o gül üzlü*** *yarı görəsən*.(QZ,102) ***Hər*** *hücrənin altında* ***yetmiş min qara*** *ilan var və hər ilanın qarnında* ***yetmiş min***

zəhrdar *səbu yatır.*(MFA,11,48) *İngilis dövləti ğeyr dövlətlərə məlum edib ki,* ***osmanlı istəyən altı aylıq*** *sülhə razı olub.*(Ə,260)

Təyinin işlənməsi ilə bağlı fərq kimi qeyd edə bilərik ki, X1X əsrdə, əvvəlki dövrlərdə olduğu qədər olmasa da, hələ ümumxalq malı olmayan bir sıra ərəb, fars mənşəli sözlər, izafət tərkibləri təyin vəzifəsində işlənməkdə davam edir - bu gün bu cür ifadə vasitələrindən dil artıq təmizlənmişdir. Bir sıra türk mənşəli sözlər isə semantik və funksional mövqeyini dəyişmişdir; məs.: Heydər bəy. *Naçalnik,* ***tamam*** *danışdığı sözlər böhtandır.* (MFA,1,248) *...o bir çərxin üstündə* ***hamı*** *tiyanların ipəgi yığılır.* (Ə,200)

Bu misallardakı *tamam, hamı* sözləri müasir dilimizdə *bütün* sözünün ifadə etdiyi mənanı ifadə edir.

Kəmiyyət təyinindən sonra təyinlənənin cəmlənməsi hallarını da bu cür fərqlər sırasında qeyd etmək olar. Lakin qalan hallarda hər şey müasir dildə olduğu kimidir. Müasir dildə təyinin ən səciyyəvi ifadə vasitələri (sifət, say, işarə əvəzlikləri, feli sifət və feli sifət tərkibləri, ismi birləşmələr və s.) X1X əsrdə də ifadə vasitələri içərisində üstünlüyə malik olmuşdur. Bu dövrdə də şəxs əvəzlikləri təyin vəzifəsində işlənməmişdir. Bu dövrdə də isimlər və substantiv ismi birləşmələr təyin vəzifəsində işlənmək üçün atributiv-adyektiv səciyyə qazanmalı olmuşdur. Yuxarıdakı misallardan göründüyü kimi, bu dövrdə də müxtəlif nitq hissələri və söz birləşmələrindən ibarət olan qeyri-həmcins mürəkkəb təyinlər dil üçün səciyyəvi olmuşdur; məsələn, ***Rusiyadan və Vladiqafqazdan bu günlər buraya varid olan bir xeyli sərmayəli*** *yəhudilər lazım olan yerinə müraciətlə istəyirlər ki, Tiflisdə* ***böyük*** *bir sərrafxana açsınlar.* (K,1887,44,s.2) - cümləsində mürəkkəb təyin feli sifət tərkibindən (*Rusiyadan və Vladiqafqazdan bu günlər buraya varid olan*), qeyri-müəyyənlik bildirən miqdar sayından (*bir xeyli*) və düzəltmə sifətdən (*sərmayəli*) ibarətdir. Ona görə də təyinin bütün ifadə vasitələrini ayrılıqda nəzərdən keçirməyə ehtiyac yoxdur. Lakin təyinlə bağlı mühüm bir cəhəti xüsusi nəzərdən keçirmək lazım gəlir.

Dilçilərimizin fikrincə, təyin bir çox hallarda tarixən təyinlənəndən sonra işlənmişdir: "Qədim və orta əsrlərin yazı dilində maraqlı xüsusiyyətlərdən biri də budur ki, cümlədə təyinlər təyinlənənlə yerini dəyişir; bu da birinci şəxs əvəzliyi *mən* sözü ilə daha çox əlaqədar olur və XVIII əsrə qədər bədii əsərlərin dilində tez-tez təsadüf edilir: *Kim qaçar hər yan* ***mən biçarədən*** *bizar olub.*(Kişvəri)" (HM,90,297) H.Mirzəzadə verdiyi misalları izah edərək yazır:" R.Məhərrəmova Azərbaycan dilində işlənən təyinlərin tarixi inkişafını öyrənərkən belə bir cəhəti nəzərə alaraq yazır:"Məlum olduğu üzrə şəxs əvəzlikləri təyin vəzifəsində işlənməz. Nəzərdən keçirdiyimiz mənbələrdə də şəxs əvəzliklərinin təyin vəzifəsində işlənməsi halına təsadüf etmədik..." Lakin müəllif bir az sonra

belə bir nəticəyə gəlir ki, "...Birinci tərəfdə olan əvəzlik isə təyinə məxsus *hansı?* sualına cavab olur; deməli, təyin vəzifəsində işlənir". Əlbəttə, bu nəticədən sonra, təxminən, 27-yə yaxın misal gətirir, bununla da şəxs əvəzliklərinin təyin vəzifəsində işləndiyini təsdiq etmiş olur". (HM,90,298)

H.Mirzəzadənin qeydlərindən aydın olur ki, bu cür ifadə tərzi qədim Azərbaycan dilində güclü olmuş və hətta fars dlinə də təsir etmiş, fars dilində də belə ifadələr (*mən biçarə, mən bimar, mən zar...*) işlənmişdir. Azərbaycan dilində isə bu cür "yerdəyişmə" ilə yanaşı, fars forması da (*məni xaki, məni dilxəstə*) özünə yer tapmışdır.

Bu qeydlərdə iki mühüm məsələ vardır: 1) şəxs əvəzliyinin təyin vəzifəsində işlənib-işlənməməsi məsələsi; 2) *mən fəqir* tipli birləşmələrdə təyinlə təyinlənənin "yerdəyişməsi" məsələsi.

Qeyd etməliyik ki, X1X əsrin ədəbi dilində də *mən fəqir* strukturu son dərəcə məhsuldardır, həm də yalnız *mən* sözünə deyil, başqa əvəzliklərə, hətta isimlərə də aiddir: ***Mən bikəsə*** *künci-möhnət olmuş Hicran gecəsi məqam sənsiz*.(AB,127) *Qurbanı mən olam* ***sən növcavanın***. (QZ, 73). Üçüncü şəxsin cəmindən başqa, buradakı *mən bikəsə, sən növcavanın* birləşmələrində *mən, sən* sözlərini bütün şəxslər üzrə dəyişmək olar:

Mən növcavanın *qurbanı sən olarsan.*
Sən növcavanın *qurbanı mən olaram.*
O (Əhməd) növcavanın *qurbanı mən olaram.*
Biz növcavanların *qurbanı siz olarsınız.*
Siz növcavanın *qurbanı biz olarıq.*

Beləliklə, bu proses yalnız *mən* əvəzliyinə aid deyildir, bütün şəxsləri əhatə edir. Əsas məsələ budur ki, bu cür ifadə tərzini təyinlə təyinlənənin yerdəyişməsi kimi izah etmək tam yanlış bir fikirdir. Çünki bu cür söz sırası təkcə qədim olmaqla deyil, ilk ana dildən gələn və yer üzündəki bütün dillərdə özünü mühafizə edib saxlayan bir prosesdir - hazırda rus dilində də, fars dilində də, türk dillərində də özünü göstərməkdədir. Türk dillərinə məxsus qədim abidələrdə *xaqan Bumın, xaqan İstəmi* yox, *Bumın kağan, İstəmi kağan* işlənir. Lakin dilimizin xüsusiyyəti belədir ki, təyin kimi səciyyələndirən vasitələr getdikcə daha çox öndə işlənir, buna baxmayaraq, qohumluq bildirən sözlər, *yazıq, fağır, bədbəxt, zalım* və s. tipli çoxlu söz yenə də eyni şəkilə şəxs əvəzliyi və xüsusi adlardan sonra işlənir, əlavə səciyyəsi daşıyır. Bu cəhəti nəzərə aldıqda Azərbaycan dilinin fars dilinə təsirini bir sıra məhdud ifadələrdə aramaq olar, lakin dilimizdəki izafətlər ümumən bu quruluşda olsalar da, fars formasının sonradan mənimsənilməsidir, necə ki eyni kökdən olan *od* və *atəş* sözlərindən birincisi türk, ikincisi fars formasıdır.Bu cür birləşmələrdə əvəzlik və xüsusi isimlərin təyin olub-olmamasına gəlincə,

qeyd etməliyik ki, sağ tərəfdəki sözlər əvəzlik və isimlərin morfoloji əlamətlərini qəbul etmiş olur: *mən yazığa* birləşməsindəki *-a* şəkilçisi əslində *mən* sözünə aiddir - *mənə* deməkdir; ona görə də sağ tərəfdə işlənən sözləri təyinlənən deyil, sol tərəfdəki sözlərin (əvəzlik və isimlərin) *xüsusiləşməyən əlavəsi* hesab etmək doğru olar.

Zərflik. X1X əsr Azərbaycan ədəbi dilində zərfliyin bütün məna növləri işlənmişdir.Yalnız zərfliyin bəzi məna növlərinin ifadə vasitə və üsullarında spesifik cəhətlər vardır. Bunu zərfliyin ayrı-ayrı məna növlərini yığcam şəkildə nəzərdən keçirməklə daha aydın görmək olar.

T ə r z z ə r f l i k l ə r i işin, hərəkətin icra tərzini, keyfiyyətini, müqayisəsini, hal-vəziyyətini bildirir. Müasir dildə olduğu kimi, XIX əsr mənbələrində işlənmiş tərz zərfliklərini də növlərə ayırmaq olar.

1.Tərz zərfliklərinin bir qismi işin, hərəkətin həqiqi mənada icra tərzini bildirir, müasir dildə olduğu kimi, tərz zərfləri, feli bağlama və feli bağlama tərkibləri, *ilə* qoşmalı isimlər və s. ilə ifadə olunur; məs.: *Əsgəri-biçarə **gəlib qolların məşuqəsinin boynuna salub** və **üzündən öpüb** dedi*.(AB,125) *...bir dəstə piyada və bir dəstə atlı **kəmali-şükuh** və **aram ilə** gəlirdilər*.(MFA,1,316) *Tutmuş idim səri-kuyində mənzil, Gecə-gündüz danışardım **dilbədil**.* (QZ,105) *Eylə ki yandırdı dürüst ayağın, Görərsən ki, **yavaş-yavaş** dağ çəkər*.(QZ,119) *Bir gün **ağyardan məxfi özünü ol şuxi-gülgun üzarə yetirib** dedi*.(AB,124)

2.Tərz zərfliklərinin bir qismi işin, hərəkətin keyfiyyətini bildirir. Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi dilində də tərz zərfliyinin bu növü sifət-zərf hesab olunan, əslində adverbial sifətlərdən ibarət olan sözlərlə ifadə olunmuşdur; məs.: *...hər kimsə gərək bir növ mənzur ilə cilabəxşi-dideyi-dil olub, ovqati-şərifi **zaye** və **bihudə** keçirməsin*. (AB,335) Divanbəyi. *Amma çünki **mərdliklə** təqsirini iqrar elədin, mən sənin günahından keçirəm*.(MFA,1,184) Divanbəyi. *Uşaqlar, bunun qolların **bərk** dalısında bağlayın*.(MFA,1,155) *Nə **göyçək** yaraşır, nə **xoş** görünür Mina, inci kəmər bel arasında*.(QZ,43)

3.Tərz zərfliklərinin bir qismi işin, hərəkətin icra tərzini bildirməklə yanaşı, subyektin, iş görənin də hal-vəziyyətini göstərir. Tərz zərfliyinin bu növü əksərən *halda, vəziyyətdə, tərzdə, şəkildə* sözlərinin müxtəlif sözlərə və birləşmələrə artırılması yolu ilə, feli bağlama və feli bağlama tərkibləri, qoşmalı birləşmələr və s.-lə ifadə olunmuşdur; məs.: *Məstəli şah caduküni-məşhur **qaşqabağı tökülmüş** içəri girir.* (MFA,1, 79) *Atdı, vurdu, yıxdı, keçdi **çəpəndaz**.*(QZ,199) *Əf'i kimi daim zülfi-müsəlsəl **Qıvrım-qıvrım olub** yatar yanında*.(QZ,42) *Fatma xanım süpürgəni atıb küncə, tez oturur **bikef**, iki əlləri ilə başını tutur*.(NV,1,72)

4.Tərz zərfliklərinin çoxişlənən bir növü əksərən *kimi, kibi, tək, qədər,* bəzən də *üzrə*, *misli* qoşmalarının qoşulduğu sözlər və birləşmə-

lərlə ifadə olunmuşdur. Bu cür tərz zərfliklərində əksərən bir obrazlılıq olur, bənzətmə, müqayisə məzmunu ilə tərz zərfliyinin digər növlərindən seçilir; məs.: *Biçarə münəccimbaşının ərvahı uçub başladı* ***yarpaq kimi*** *titrəməyə*.(MFA,1,308) *Tutub səri-zülfün, dönüb başına,* ***Şanə tək*** *gəzəsən tel arasında*.(QZ,43) *Zakirəm, sızlaram* ***misli-əndəlib***.(QZ,47) *Bir zaman var idi, görəndə məndən* ***Ahuyi-xütən tək*** *qaçardı məndən.* (QZ, 103) *Zəlzələ 3 qism olur: ləpə kimi, tullama, dolandırma. Ləpə kimi olanda yer* ***su ləpələnən kibi*** *tərpənir*.(Ə,241) *Yusif Sərracı mindirdilər ata, əsas* ***qərari-sabiq üzrə*** *dərbari-şahiyə rəvanə oldu.* (MFA,1,317)

X1X əsr ədəbi dilində fars dilindən alınıb qoşma mövqeyində işlədilmiş *manənd, süfat* sözləri və *kimi* qoşması mənasında *-in* şəkilçili sözlər vasitəsilə də müqayisə-bənzətmə mənalı tərz zərfliklərinə təsadüf edilir. Bu cür tərz zərfliklər bir çox hallarda canlı dil ilə deyil, ənənə ilə bağlı olmuşdur; məs.: *...ahəstə mükaliməni - ahəstə oxu, qoca mükaliməsində -* ***qocamanənd*** *söylə*.(MFA,II,201) *Ol məzlumeyi-qəmnak dəxi gündüzlər seylabi-əşki-biqərarın dəlili-rah, gecələr* ***şəmi-şəbistanın*** *şöleyi-ah edərdi*.(AB,127)

Z a m a n zərfliklər işin, hərəkətin zamanını bildirir. Müasir Azərbaycan ədəbi dilində olduğu kimi, X1X əsrin dil materiallarında da zaman zərfliyi işin hüdudu məlum olmayan zaman ərzində icra olunduğunu, başlanğıc və qurtaracaq zamanını, həm başlanğıc, həm də qurtaracaq zamanını bildirmişdir. Bəzi spesifik cəhətlər dövrlə, dövrün ictimai hadisələrinin zaman anlayışının konkretləşdirilməsində rolu ilə bağlıdır. Məsələn, X1X əsrin ədəbi dilində - yazılı mənbələrdə zaman zərfliklər müəyyən tarixi şəxsiyyət və hadisələrin adlarının xatırlanması ilə ifadə olunmuş, birləşmə və sözlərdə bu cür adlar iştirak etmişdir: ***Şah İsmayıl ölən ildə*** *Gürcüstan valisi Leonid xan qoşunun götürüb gəlib, Həsən Soltan da qoşun ilə anın qabağına gedib dava eylədilər*. (ŞXİT,1) ***Şirvan vilayətinə şahın qoşunu gəlib dava edəndə*** *Dərviş Məhəmməd xan da qoşun götürüb gəlib Şirvanda qızılbaş qoşununa şəbixun edibdirmiş.* (ŞXİT,2) ***Səfəviyyənin əvvəli-səltənətində*** *Qəzvin paytaxt idi.* (MFA,1, 303) *Cənab Starsevin pakdaman və kardanlığı axırıncı* ***Rus-Osmani müharibəsində*** *Şamaxı müsəlmanlarına məlum oldu.*(SƏŞ,III, 438)

Zaman zərfliklər daha çox günün, ayın, ilin müəyyən vaxtlarını bildirən sözlərin iştirak etdiyi birləşmələrlə ifadə olunmuşdur; məs.: *Bu niyyət ilə* ***bir gün sübh tezdən*** *gəlib dərviş oturan otağın qapısının dalısında gizləndi.*(MFA,II,257) Maraqlıdır ki, hərəkətin başlanğıc, qurtaracaq zamanlarını, həm başlanğıc, həm də qurtaracaq zamanını bildirmək üçün işlədilən zaman zərfliklər də əksərən yuxarıdakı tipdən olan vasitələrlə, yəni konkret yox, daha çox müəyyən tarixi hadisə, yaş dövrü, günün, ayın, ilin müəyyən dövrünü bildirən sözlərin iştirakı ilə ifadə olunmuşdur: ***Tarixi-hicridən bu zamana qədər*** *milləti-islam arasında bir*

kimsənə şeir ilə nəzmə fərq verməyib.(MFA,II,222) *Zülqərneyn* ***bir gün sübhdən axşama kimi*** *məclisi-hökumətdə əyləşdi*.(SƏŞ,II,582) *Cüha* ***o gün axşamacan*** *gəzdi*.(SƏŞ,II,604)

Zaman zərfliklərinin dini anlayış bildirən söz və birləşmələrlə ifadəsi halları da dövrün dünyagörüşü ilə bağlıdır və nəzərə çarpacaq dərəcədə fəal ifadə vasitələrindəndir: *...cəmi xəlaiq* ***məhşər günündə*** *onun üstündən mürur edəcək*.(MFA,II,47) Y*alqız* ***məhərrəmin əşəreyi-ulasında*** *təziyədarlığa məşğul olsalar, yenə səhldir*...(MFA,II,107)

Bəzən *əvvəl, əqdəm, sonra* qoşmalarının ifadə etdiyi məna fars alınmaları ilə ifadə edilmişdir; məs.:*Buna binaən mən... özümə vacib bildim ki, bu keyfiyyəti* ***piş-əz-hadisə*** *qibleyi-aləmə məruz edim.* (MFA,1, 304) *Bir gün Şamaxıda bir nəfər şəxs* ***bə'd-əz-zöhr*** *vəfat eləmişdi*. (SƏŞ, 11, 601)

Y e r zərflikləri işin, hərəkətin icra olunduğu yeri, əşyanın tutduğu sahəni, hərəkətin istiqamətini, varacağı son nöqtəni, işin başlanğıc, çıxış nöqtəsini, həm başlanğıc, həm də qurtaracaq yerini ifadə etməkdə müasir ədəbi dilimizdən heç nə ilə fərqlənmədiyi kimi, yer zərfləri, yer bildirən isimlər, ismi birləşmələr, qoşmalı sözlər və s. kimi ifadə vasitələrinə görə də fərqlənmir. Bir neçə misal: ***Quba şəhərində*** *Ahəngərzadə Əsgər adlı bir cavani-novrəsü şirin şəmaili-dilfirib olub*...(AB,122) *Ey didə, məgər neyləmişəm mən sənə axır, Qoydun məni sən* ***yar ilə əğyar arasında***. (AB,238) ***Lövhi-cəbinində*** *katibi-qəza İki "nun" çəkibdi* ***ağın üstünə***. (QZ, 69) ***Diyari-qürbətdə*** *binamü nişan Qalmışam, tapılmaz halım soruşan*. (QZ,87)*Yusif Sərracın dükanı* ***şah məscidinin meydanının məşriq səmtində*** *vaqe idi*.(MFA,1,315) Kərəməli. *Ay ağa,* ***geri*** *qaçım, ya* ***irəli****?* (MFA,1,238) ***Kiş çayından*** *bir arx mən də* ***evimin yanına*** *gətirim*. (ŞXİT,1) *Hüseyn xan Məlik Əlini alıb* ***Şəkiyə*** *gəlir*.(ŞXİT,9) ***Krımın Qarasubazar şəhərində*** *rəcəbin 27-də qaz yumurtasından böyük dolu yağıb*...(Ə,49) ***Misirdən*** *yazırlar ki, Misir ilə Həbəş hökumətinin arasında danışıq düşdüyünə xədifi-Misir* ***Həbəşin sərhəddinə*** *əsgər göndəribdir*. (Ə,70)

S ə b ə b zərflikləri işin icrasının, əlamətin meydana çıxmasının səbəbini bildirir və ifadə vasitələrinə görə bugünkü ifadə vasitələrindən az fərqlənir. Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi dilində də səbəb zərflikləri daha çox çıxışlıq halda olan məsdər, feli sifət tərkibləri və ismi birləşmələrlə ifadə olunmuşdur; məs.: Şəhrəbanu xanım. *Sənin kimi cahil uşaqlar* ***subay qalmaqdan*** *tamam yaman yollara düşər*. (MFA, I,64) Məstəli şah. *...gecə-gündüz* ***onun qorxusundan*** *evlərində rahat yata bilməzlər*.(MFA,1,80) ***Çərxin sitəmindən, dövrün zülmündən*** *Tökülür dəmbədəm yaşım, ağlaram*.(QZ,87) *Axirül-əmr* ***bu fəndə səramədi-ruzigar olduğundan*** *elmi-şeirdə bu münasibətlə təxəllüsün "Fələki" qılmışdır*. (SƏŞ,II,88)

Ötrü, üçün, görə qoşmalarının artırıldığı, qoşulduğu sözlər və birləşmələr də qrammatik semantikasından asılı olaraq səbəb zərfliyi vəzifəsində işlənmişdir: Teymur ağa. *...sən* ***bir para arzuların xatiri üçün*** *onu xana vermək fikrinə düşmüşdün.*(MFA,I,131) ***Gələsən və Görəsən qələçəsi çox hündür və bərk olmağına görə*** *heç kimsə ala bilməmişdi*. (ŞXİT,2)

T.İ.Hacıyev qeyd edir ki, "...əsrin elmi və publisist yazılarında "görə" qoşması yox dərəcəsindədir, onun məqamında "binaən" işlədilir". (TH,2,35) Bu cəhət "Əkinçi" qəzetinin dilində özünü daha qabarıq göstərir. Qəzetin dilində *görə* qoşmalı səbəb zərflikləri çox az işlənmişdir: *Belə olan surətdə biz müsəlmanlar* ***elm təhsil etməkdən, yəni Zindəganlıq cənginin əsasını ələ gətirməkdən qaçmaqlığa görə*** *ol cəngdə məğlub olub mürur ilə tələf olacayıq*.(Ə,72) Çox maraqlıdır ki, qəzetin dilində bugünkü ədəbi dilimizdə yol verilməyən bir hal - məsdərin qoşmasız səbəb zərfliyi vəzifəsində işlənməsi çox geniş müşahidə olunur; məs.: *Saniyən,* ***südü süzmədiyimizə və onun qab və qaşığını təmiz saxlamadığımıza*** *onun yağı da natəmiz olur*.(Ə,45) ***...biz udduğumuz havanın qədəri yediyimiz xörəyin qədərindən ziyadə olduğuna*** *xörək yaxşı da olsa, yaman hava insanı fövtə verir*.(Ə,65) ***Ol vaxt günün istisi ol köklərə artıq dəydiyinə*** *ol ağacın meyvələri qeyri ağacların meyvəsindən ay yarım irəli yetişmişdir*.(Ə,67) *Amma Rus əsgərini görəndə* ***onun əsgəri dağıldığına*** *özü beş adam ilə qaçıb Buxara sərhəddinə gedib*. (Ə,69) *İndi* ***aclıqdan və soyuqdan onlar tələf olduğuna*** *Avropa əhli onlara paltar və çörək göndərir* (Ə,77) və s. *Ona binaən* sözləri isə səbəb zərfliyi vəzifəsindən çox, ***ona görə*** bağlayıcısının əvəzində işlənmişdir (bu bağlayıcıya nisbətən daha fəal olmaqla): *Əgərçi bizim Qafqazda qara mal çox saxlanır, amma onlardan qeyri vilayətlərdəki kimi mənfəət olmur.* ***Ona binaən*** *ki biz malları saxlamağı... bilmirik. Bu səbəbdən bizim mallarımız korluq çəkib zəif olurlar.* ***Ona binaən*** *mala naxoşluq düşən zaman ... bizim zəif maldan artıcaq tələf olur...*(Ə,21) *Binaən* sözü qoşulduğu sözlə birlikdə səbəb zərfliyi vəzifəsində də işlənmişdir: *Və ondan əlavə, gəştiyi-ahənimizin bir üzvü həmin bəhri-Əhmərdə şikəst olub,* ***təmirinə binaən*** *sair hüccacdən təxirə düşdük*.(SƏŞ,III,300)

Səbəb, cəhət sözlərinin ikinci tərəf kimi işləndiyi birləşmələrlə: *Gürcüstan valisinin gücü və qüdrəti çox idi,* ***amma şaha qulluq eyləmək səbəbi ilə*** *Həsən Soltana gücü çatmazdı*.(ŞXİT,1) *Amma* ***fəsli-təbistanda suları üfunət etdiyi cəhətdən*** *çox məkəsi-pürazar olur*.(SƏŞ,III,134)

Arxaikləşməkdə olan *-übən* şəkilçisinin əmələ gətirdiyi tərkiblər də bəzən səbəb zərfliyi vəzifəsində işlənmişdir: *Onları çap edənləri* ***dövlətə böhtan deyübsüz deyübən*** *məhbus edib*.(Ə,274)

H.Mirzəzadə *-ıban* şəkilçili feli bağlama tərkibindən danışarkən bu şəkilçinin "X1X əsrə qədər" (HM-90,171) işləndiyini qeyd etsə də, X1X

əsrə aid nümunələr də vermişdir. Bizim verdiyimiz misallar da göstərir ki, bu şəkilçi ilə düzələn tərkiblər X1X əsrdə də az-çox işlək olmuşdur.

M ə q s ə d zərfliyi işin, hərəkətin məqsədini bildirmiş və müasir ədəbi dilimizdəki ifadə vasitələrindən fərqlənməmişdir.Daha çox *üçün, ötrü,* bəzən də *ilə* qoşmasının qoşulduğu söz və birləşmələrlə ifadə olunmuşdur: *Bir neçə ildən sonra Yusif Sərrac...* ***təhsili-elm üçün*** *İsfahana getdi*.(MFA,I,311-312) *Lihaza mən dəxi* ***milləti-islamı bu əmri-qəribdən müstəhzər etmək üçün*** *bərsəbili-imtəhan altı təmsil, bir hekayət təsnif etdim*.(MFA,1,199) *Mən mədyun oluram* ***bu işdən ötrü*** *hər ildə yüz manat göndərim*.(Ə,367) ***Bu sözü düşmən sözü hesab eləməsinlərdən ötrü*** *mətləbi aşkar edək*.(Ə,271) *...bir dərviş...* ***siyahət əzmilə*** *Firəngistana güzar eləmişdi*.(MFA,II,256)

Bəzən məqsəd zərfliklər yönlük halda olan isimlə və ismi birləşmələrlə ifadə olunmuşdur. Bu cür misalların bir qismində məsdərin düşdüyü hiss olunur; məs.: *Sizi* ***bir əmrdən ötrü məsləhətə*** *çağırmışam*. (MFA,1,304) *Bir gün padşah haman vəzirlə bir şəhərdən bəid olan səhraya* ***şikara*** *getmişdi.*(SƏŞ,II,587) Sona xanım. *Get* ***qaçaq mala,*** *sonra gəl, toyunu elə*!(MFA,1,100)

K ə m i y y ə t və d ə r ə c ə zərflikləri hərəkətin və əlamətin miqdarını, dərəcəsini bildirmiş, daha çox miqdar zərfləri, saylar, dərəcə zərfləri və bir sıra ismi birləşmələrlə ifadə olunmuşdur. Strukturunda müasir dildən fərqli cəhətlər, demək olar ki, yoxdur; məs.: *Məlik qızılbaş olmaq səbəbi ilə bizi* ***çox*** *incidir*.(ŞXİT,4) ***Nə qədər*** *seyr edirəm kuçə ilə bazarı, Adam* ***çox az*** *görünür, izdihami-kəsrətdir*.(AB,429) ***Birə yüz*** *artıbdı cövrü sitəmi Dəxi də dərdimi biləndən bəri*.(QZ,74) *Yandığına görə alovlarına Hələ barı* ***beş gün*** *səfa görəsən*.(QZ,101) *Gözəl olan gərək dünyadə möhkəm Unutmaya yarın* ***bir saət, bir dəm***.(QZ,127) *Yüz huriyü qılman olaydı hazır,* ***Mu qədəri*** *ülfət etməzdi xatir*.(QZ,129) *...bu nömrədə oğul atanın qulu olmağından* ***bir az*** *danışacağıq*.(Ə,384) *Əvvəl bu əməl Qarabağ tərəfində olub. Sonra* ***kəm-kəm*** *artıb*...(Ə,297) ***Zərrəcə*** *eybin yox başdan ayağa, Ola bilməz sən tək* ***sərasər*** *gözəl* .(QZ,85) *...ona binaən, keçən gündən vaqe olan güzarişi və ərkani-məşvərətin göftgüsünü* ***tamam*** *eşitmişdi*. (MFA,1,319) *...atasını* ***bilkülliyyə*** *inandırdı ki, o, təriqimüstəqimdədir*. (MFA,II,127) *Nuşirəvana həkimin bəyanatı* ***nəhayət*** *xoş gəldi və ənam əta qıldı*. (SƏŞ, II,581) *Camalınızı sevirəm də, ruhunuzu, ağlınızı* ***daha artıq dərəcədə*** *sevirəm.* (NN,1,200)

X1X əsrin ədəbi dilində xüsusiləşmiş tərkiblərlə şərt və qarşılaşdırma zərfliklərinin ifadə olunduğunu da qeyd etmək olar: *Təcrübə ilə biliblər ki,insanın əqli beyin ilədir, yəni* ***insanın beyni artıq olduqcan*** *əqli də çox olur*.(Ə,226)

Beləliklə, zərfliklərin müasir ədəbi dilimizdə işlənən bütün məna növləri X1X əsrin ədəbi dildində də mövcud olmuş, öz qrammatik se-

mantikası və ifadə vasitələri ilə səlisləşmə, zənginləşmə istiqamətində inkişaf etmişdir. Təbii ki, zərfliyin ifadə vasitələri üzərində zamanın möhürü də öz əksini tapmışdır.

Əlavələr. Əlavələr asılı olduğu cümlə üzvündən sonra gəlib, onu müxtəlif cəhətdən izah edib aydınlaşdırmış, onun mənasını konkretləşdirmişdir. Əlavələrin aid olduğu üzv *əlavəli üzv* adlandırılır. Əlavə əlavəli üzvdən əksərən xüsusi intonasiya və fasilə ilə ayrılaraq xüsusiləşir. Lakin əlavəli üzvdən fasilə ilə ayrılmayan, xüsusiləşməyən əlavələr də vardır və belələri daha qədim tarixə malikdir. Bu cəhətlərə əsasən əlavələr iki növə ayrılır: a)xüsusiləşən əlavələr; b)xüsusiləşməyən əlavələr. X1X əsr Azərbaycan ədəbi dili materiallarında əlavənin hər iki növü normal qaydada, yəni bugünkü tələblərə müvafiq şəkildə işlənmişdir. Fərq burasındadır ki, demokratik qüvvələr yeni nəsr və publisistika nümunələrində xalq dilinə yaxın bir dildə danışmaq, fikri insanlara aydın və asan çatdırmaq üçün bir sıra hallarda əlavələrdən daha tez-tez istifadə etmiş, bu məqamda əlavə, aydınlaşdırıcı məlumat verdiklərini bildirmək üçün *yəni* bağlayıcısından daha çox istifadə etmişlər. Bu xüsusiyyət A.Bakıxanovun, M.F.Axundovun dilində də vardır, lakin "Əkinçi" qəzetində daha intensiv işlənmişdir; məs.: *Ta ki, müruri-zaman ilə firqeyi-eybcu və taifeyi-tənəcu,* ***yəni əğyari-dilazarü sitəmkar*** *bu halə vaqif olub zəbani-təərrüz açdılar*.(AB,123) *Qibleyi-aləm bu əyyami-nühusətdə,* ***yəni novruzdan on beş gün keçənədək*** *gərək özünü səltənətdən xəl' edə.* (MFA,1,310) *...məclisi-məraz nəsayidədir,* ***yəni qandan xali incə və ağ damarlardadır.***(MFA,II,54) *...cənab naçalnikin uzunqulaqları şəhərin ən mühüm və zəruri mayəhtacını,* ***yəni odun və kömürünü*** *firavanlaşdırıb ucuz eləməkdədir.*(SƏŞ,III,437) *İmtahan ilə biliblər ki, otaqda on dərəcə,* ***yəni on qradus*** *isti olsa,* ***yəni qışda bizlər sakin olduğumuz otaqların istiliyi*** *olsa, ol vaxtda iyirmi, ya iyirmi dörd saat süd zikr olan qablarda saxlansa, o südün tamam qaymağı üzünə yığılar.*(Ə,23) *...yayda,* ***yəni isti olan zaman****... xəstə olanların ahü naləsi tamam vilayətimizi basır.*(Ə,65) *Gəvasin bir yastı dəmirdir ki... onu kotanın künəsinə,* ***yəni binasına*** *möhkəm edirlər.*(Ə,101) ***Yəni*** bağlayıcılı bu cür əlavələr tərkibdaxili üzvlərə də aid ola bilir: *Bu səbəblərə binaən qaymağı südün üzündə bir gün bir gecədən,* ***yəni iyirmi dörd saatdan ziyadə saxlamaq*** *məsləhət deyil.*(Ə,23)

Əlavələr *yəni* bağlayıcısı olmadan da xüsusiləşərək əlavəli üzvə bağlanmışdır: *Molla Həmid,* ***onun şagirdi,*** *əl bağlayıb qabaqda durubdur.* (MFA,I,47) *...başqa səmtdə oturubdur Ağa Mərdan -* ***Hacı Qafurun arvadının vəkili****.*(MFA,1,292) Bəzən əlavələr vasitəsilə ümumilik və ya qeyri-müəyyənlik bildirən əvəzliklərin mənası izah edilmişdir; məs.: *Və bəzisi -* ***əvvəlkilər*** *tabe oldular.* (MFA,II,112) *Xahişim var ki, Təbrizdən Rəştə səfər edəm və oradan dəxi Mazəndarana -* ***divlərin və pərilərin mə-***

kanına *gedim, seyr eləyim*.(MFA,II,105) *Rüfəqadan birisi,* ***Əhməd adlı****, ayağın hücrənin içinə uzatdı*.(MFA,II,59)*İndi mən əfradi-nasdən bir mərdi-fəqirəm,* ***Abbas Məhəmməd oğlu*****.**(MFA,I,313) Bu son iki misalda əlavələr qoşulma konstruksiya şəklindədir.

Fars dili sintaksisinə uyğun olaraq, bəzən əlavə aid olduğu üzvə *ki* bağlayıcısı ilə bağlanmışdır: *Şah öz xanlarından,* ***ki o vali Müstövfi ola****, sərdar eylər*.(ŞXİT,11) *Həmin il,* ***ki 1291-ci sənədir****, əvaili-rəcəbdə... mülahizə olundu ki...*(SƏŞ,III,151)

Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi dilində də əlavələrin bir qismi əlavəli üzvə xüsusiləşmədən bağlanmışdır: *Amma Hacı Nuru* ***şair*** *ittifaqən çağrılmamış gəlibdir. Ev sahibi Hacı Kərim* ***zərgər*** *əhli-məclisə mütəvəcceh olub mətləb başlayır.*(MFA,I,37) *Şərəfnisə* ***xanım*** *ikinci damda ahəstə ağlaya-ağlaya yun darayır.*(MFA,I,59) *Şahbaz* ***bəy*** *başını aşağı salıb gedir*.(MFA,I,65) *Hacı Qara işarə edir. Xəlil* ***yüzbaşı*** *onun tərəfinə çevrilir*.(MFA,I,235) *İkinci məclis vaqe olur Ağa Mərdan* ***Halvaçı oğlunun*** *evində*.(MFA,I,273)

XIX əsrdə də cümlənin bütün üzvlərinə aid əlavələr işlənmişdir. Xitabların, qarşılıqlı tabelilik əlaqəsində olan (II tip) ismi birləşmələrin birinci tərəfinin, feli tərkiblərin daxili üzvlərinin də əlavəsi olmuşdur. Əlavənin bütün növlərinin müasir tələblərə müvafiq şəkildə işlənməsi bir daha təsdiq edir ki, tədqiq olunan dövrdə ədəbi dilimiz ən zərif və mürəkkəb fikirləri çox rəngarəng vasitə və üsullarla dəqiq şəkildə ifadə etmək imkanına malik olmuşdur."Şəki xanlarının ixtisar üzrə tarixi" əsərindəki bəzi əlavələrin müasir dil normalarına uyğun olmaması əsərin canlı danışıq dilində, daha çox şivə materialına üstünlük verilərək yazılması ilə əlaqədardır. Adətən, xüsusiləşən əlavələr əlavəli üzvün qrammatik xüsusiyyətlərini qəbul edərək onunla uzlaşır. XIX əsrin materiallarında isə bu cəhətdən bəzən üslubi naqislik müşahidə olunur.

Xüsusiləşmələr. Cümlə üzvlərinin xüsusiləşməsi fikrin aktuallaşdırılması məqsədilə bəzi üzvlərin xüsusi intonasiya ilə tələffüz edilməsi, fasilə və vurğu ilə nəzərə çarpdırılması nəticəsində cümlə sistemində baş verən bir qrammatik-funksional hadisədir. Xüsusiləşmə X1X əsrdə də müasir ədəbi dilimizdə olduğu kimi, bəzi xüsusiləşdirən vasitələrin iştirakı ilə formalaşmışdır.

Müasir dilimizdə olduğu kimi, X1X əsrdə də xüsusiləşmə qoşmaların və ara sözlərin xüsusiləşdirən vasitə kimi çıxış etdiyi cümlələrdə özünü göstərir. Ona görə də xüsusiləşmiş üzvləri iki növə ayırmaq olar: a)qoşmalı xüsusiləşmələr; b)ara sözlü, bağlayıcılı dəqiqləşdirici xüsusiləşmiş üzvlər.

Qoşmalı xüsusiləşmələr yalnız ikinci dərəcəli üzvlərə, xüsusən tamamlıq və zərfliklərə aiddir. Tamamlıqlar daha çox *başqa, qeyri, əlavə*

qoşmalarının köməyi ilə xüsusiləşmişdir; məs.: *Çünki miləli-islamdan bu səfahatda* ***sizdən başqa****, bir sahibi-zövq tanımıram*.(MFA,II,204) *Ol cahani-səx...* ***Di'bil Xüzaiyə əvəzində bəxşeyiş etdiyi məbləği-xatirdən qeyri****, özünün mübarək olan xəz xirqəsin mərhəmət qılmışdı.* (SƏŞ,III,17) *...****həkimdən əlavə****, hər vilayətə mötədil baxıcılar təyin oldu ki...* (MFA, I, 322) Bunlardan əlavə, *bədəz, bəqeyrəz, məgər/məgərinki* sözlərinin qoşma məqamında işlənməsilə də tamamlıqlar xüsusiləşmişdir, lakin müasir dildə işlənməyən bu cür vasitələr bizim dilimizdəki qoşmalardan fərqli olaraq, aid olduğu üzvdən əvvəl işlənmişdir; məs.: *...ruh bir keyfiyyətdir, əcsami-mürəkkəbeyi-zihəyatda ki,* ***bə'dəz tərkibi-əcsam****, müvafiqi-qəvanin və şüruti-xilqət peyda olur*.(MFA,II,10!) *Nə filhəqiqət, hüququllahdan bir mənfəət aid deyil,* ***bəqeyrəz zərər***.(MFA,II,96) *...dünyadan bir şey özünlə apara bilməzsən,* ***məgər səvab və üqba***.(SƏŞ,II,590) *Pəs sənin çarən yoxdur,* ***məgərinki ancaq burada dayanasan, qulaq asasan***. (MFA,II,66)

Zərfliklər *əvəzinə, halda, ola-ola, dura-dura, görə-görə* tipli qoşmaların və bəzi qoşmalaşmaqda olan sözlərin köməyi ilə xüsusiləşmişdir; məs.: *Mən razıyam ki,* ***yüz min əvəzinə,*** *sahibi-ədalət xaliq, məni... bəlkə min il cəhənnəmdə yandırsın*. (MFA,II,50) *Cüha dedi ki, qapını aç,* ***iyirmi quruşun əvəzində****, yüz qızıl gətirmişəm*.(SƏŞ,II,605) *Nagah dilbərlik Babilistanının cadugərlərindən bir nəfər və gözəllik Gürcüstanının əyyarlərindən bir hiyləgər qarətgərlik əzmilə qədim şəhristani-bədənə qoyub,* ***əqalimi-bədəni ahəstə-ahəstə dolanıb axtardığı halda****, bir məkani-şərifə yetişdi ki*...(SƏŞ,II,130) *Həqiqət, biz əhaliyi-Şirvanın bizövq olduğuna bu kifayət etməzmi ki, Dövlətşah Səmərqəndi* ***neçə məsafətlər Şirvandan bəild ola-ola****, mövlana həkimi-bahir və ədibi-mahir Qiyas Şirvaninin əşari-abdarlərin öz təzkirəsində zəbtü rəbt eyləsin...* (SƏŞ,III,26) *...ey həkim,* ***sənin başın dura-dura****, bəs dərdi-sərimi kimə verim?* (SƏŞ, II,595) *Görəsən,* ***bunun bu imdadını və bu əhsani-bipayanını və insaniyyətini görə-görə****,genə islam üləmalarından...deyirlər ki*...(SƏŞ,II, 429)

Dəqiqləşdirici xüsusiləşmiş üzvlər bütün cümlə üzvlərini - həm baş, həm də ikinci dərəcəli üzvləri əhatə etmiş, başlıca olaraq, *xüsusən, xüsusən ki, bəxüsusihi, ələlxüsus, o cümlədən, hətta* sözlərinin iştirakı ilə formalaşmışdır. Bunların bir qismi *xüsusilə* sözünün dilimizdə sabitləşə bilməmiş formalarıdır. Xüsusiləşdirən ara sözlər aid olduğu üzvdən əvvəl işlənmiş və həmin üzvün daha aydın nəzərə çarpdırılmasına, aktuallaşmasına səbəb olmuşdur. Dəqiqləşdirici xüsusiləşmiş üzvlər küllün cüz'ə münasibətini bildirməklə yanaşı, həmcinslərdən birini daha aydın nəzərə çarpdırmağa da xidmət etmişdir və qrammatik semantikasına görə müasir dildən fərqlənmir. Misallar: *Altmış il bundan əqdəm Firəngistanda,* ***xüsusən ingilis məmləkətində****, filosoflar mütəəddid təsniflər yazıb kəsb və tədərrüsün lüzumiyyətini və mənfəətini xalqa bildirdilər*. (MFA, I,255) *Məlumdur ki, bu sinndə həyat necə şirin və əzizdir,* ***xüsusən ki də-***

rəceyi-ülyada və təxti-səltənətin üstündə.(MFA,I,304) *Milləti-islamın və* ***bəxüsusihi milləti-İranın*** *çırağın keçirdi*.(MFA,II,95) *Ol xosrovi-islam-pənahın xeyri-dualari və mədhü sənalari xasü amə,* ***ələlxüsus, zümreyi-sadati-kiramə*** *pəncgahi-taət və əsli-ibadət kimi vacib və lazımdır.* (SƏŞ, III,8) *Çifayda, ümərayi-İran, bəlkə külli-əhli-İran,* ***hətta despot özü də,*** *heç biri elmin təhsilinə rağib deyillər*.(MFA,II,42)

Bəzən tabesiz mürəkkəb cümlənin ikinci komponentindəki üzv birinci komponentdəki üzvə görə xüsusiləşmiş olur; məs.: *...xəlq məni görməyə gəldilər;* ***o cümlədən Məhəmməd ibn-Osman-Əsədi də gəlib oturdu***. (MFA,II,64) *...Yaqub bəy Nikitov... həmən qəryeyi-Gərgəncdə ziyafət edib Şamaxının bir para əyan və əşxaslarından Gərgənc qəryəsinə dəvət edib;* ***o cümlədən alişan Strasev və mirovoy sudya Sərkisov və Bala bəy Lələyov və alişan Mahmud ağa Məhəmmədov və alişan Qulu bəy Əliyev həmən ziyafətdə olublar.*** (SƏŞ,III,431) *...pirü cavan daməni-səşra və mərğzarı bu günlərdə səyahət etməkdədirlər,* ***ələlxüsus ki şiddət və üsrəti-zimistandan guşeyi-xəmurdə münzəvi olan abidələr və alimlər beyda və səhralərdə seyrü səfayə iqdam ediblər.*** (SƏŞ.III,430)

Bəzi xüsusiləşmiş üzvlər isə tabeli mürəkkəb cümlənin baş cümləsinə qoşulmuş, ondan sonra budaq cümlə işlənmişdir: *Allah-taala ondan razı olsun,* ***ələlxüsus ki, Quba şəhərinin naçalniki, alişan Vladimir İvanoviç Kozlakovskidən*** *ki, bu il Quba şəhərini aclıqdan və əcəldən nicat veribdir və neçə gözəl sərəncamlar edibdir*.(SƏŞ,III,429)

Beləliklə, X1X əsrin ədəbi dilində də xüsusiləşmə struktur xüsusiyyətlərinə, funksional cəhətinə görə müasir ədəbi dilimizdəki zəngin imkanlara malik olmuş, yalnız bu gün üçün arxaik olan bir sıra xüsusiləşdirən vasitələrlə fərqlənmişdir.

SADƏ CÜMLƏNİN QURULUŞU

CÜTTƏRKİBLİ CÜMLƏLƏR

X1X əsr Azərbaycan ədəbi dilində də ünsiyyətin əsas vasitəsi cüttərkibli (müəyyən şəxsli) cümlələrdir. Hər bir nitq parçasında fikir ifadəsinin əsas vasitəsi baş üzvlərin hər ikisinin iştirakı ilə ifadə olunmuşdur. Dövrün ədəbi dilində, müasir ədəbi dilimizdə olduğu kimi, "mübtəda + xəbər + mübtəda" ifadə forması (KA,SNP,9-27) çox qədim dövrlərdən təşəkkül tapmışdır. Ona görə də subyekt ideyasının son məqamda şəxs şəkilçiləri ilə ifadəsi və təkrarı tam şəkildə özünü göstərməkdədir; məs.: Tarverdi.*Genə* ***<u>m ə n</u> yalqız qaldım***. ***<u>Z ə r ə r i</u> yoxdur***. *Kimdən* ***qorxacağam?*** *Mal yiyələrini* ***qaçırmışıq***. *A gədə, nə böyük* ***sandıqlardır****! Yə-*

*qin, **i ç i n d ə k i** tamam **taftadır**. **P ə r z a d** elə yaşı olduqca tafta tumanköynək **geysin**. Qurumsaq **Namaz** indi yarısını məndən **istəyəcək**. **Qələt eləyir**! **Nə qayırıbdır** ki, yarısını ona **verim**! Bəlkə **s a n d ı q l a r ı n i ç i n d ə k i** tirmə **şaldır?** Ya **padşahlıq puludur**? Tez bir **baxım görüm nə var**? Sandıqda, deyəsən, **b i r z a d tərpənir**...*(MFA,1,162)

Bu cümlələrin hamısı cüttərkibli - müəyyən şəxsli cümlələrdir**.** *Nə qayırıbdır ki, yarısını ona verim. Tez bir baxım görüm nə var* – cümlələri mürəkkəb, qalanı sadə cümlələrdir. Əksəriyyətində mübtəda - xəbər əlaqəsi zahirdədir, bəzilərində mübtəda işlənməsə də, təsəvvür edilir. Bir qisminin mübtədası cümlənin öz xəbərinə əsasən - xəbərdəki şəxs şəkilçisinin köməyi ilə müəyyənləşir: *(**Mən**) kimdən qorxacağam? (**Biz**) mal yiyələrini qaçırmışıq. (...**mən**) yarısını ona verim. (**Mən**) tez bir baxım görüm...* Bir qisminin mübtədası mətnə əsasən müəyyənləşir: *A gədə, (**bu sandıqlar**) nə böyük sandıqlardır? (**Namaz**) qələt eləyir. (**Namaz**) nə qayırıbdır ki... Ya (**sandıqların içindəki**) padşahlıq puludur?*

Bunlar cüttərkibli cümlələrin fikir ifadəsinə necə xidmət etdiyini aydın göstərir. Həm də aydın olur ki, uzaq keçmişlərdə şəkilçiləşməsi, variantlaşması yolu ilə şəxs əvəzliklərinin subyekt ideyasını xəbərdə asanlıqla əks etdirə bilməsi nəticəsində fikrin asan, yığcam və sürətlə ifadəsi, təkrara yol verilməməsi üçün çox zaman xəbərin köməyi ilə dərk olunan mübtədanın işlənməsinə ehtiyac olmamışdır. Dilin bu imkanları X1X əsrə tam formalaşmış halda gəldiyindən yeni əsrə bu sahədə heç bir təzə şey keçməmişdir, ona görə də bu cəhətdən X1X əsrin ədəbi dili müasir ədəbi dilimizdən heç nə ilə fərqlənmir.

Cüttərkibli cümlələr müxtəsər və geniş olmaqla fərqlənmiş, təyin, tamamlıq və zərfliyin iştirakı ilə qurulan cüttərkibli geniş cümlə növləri bu dövrə artıq çox qədim dövrlərdən tam formalaşmış şəkildə gəlib çatmışdır. Dövrün bu sahədə əməyi odur ki, yeni realist nəsrin, dramaturgiyanın, orta şeir üslubunun, satirik üslubun, mənzum hekayələrin böyük vüsətlə meydana çıxması ilə bütün sadə geniş cüttərkibli cümlə formalarını yazıya ala bilmiş, bədii və elmi dil üçün cüttərkibli cümlənin imkanlarını geniş ölçüdə sınaqdan keçirmişdir.

Məntiqi vurğu altına düşmədikdə, yeni bir şey ifadə etmədikdə, şəxs şəkilçiləri vasitəsilə ifadəsi tam şəkildə kifayət etdiyindən birinci və ikinci şəxslərin tək və cəmində mübtədanın ixtisarı halları bu dövrdə tam ədəbi norma olmuşdur; məs.:

Gülçöhrə. *Ağabacı, sən allah, niyə **ağlayırsan**?*

Şərəfnisə. ***İtil** cəhənnəmə **deyirəm**, əlimdə işim var, qoy **işimi tutum!***

Gülçöhrə. ***Sən** ki **iş tutmursan**, ancaq **ağlayırsan**, de görüm, niyə **ağlayırsan**? **Deməzsən,** gedib anamı **çağıraram**. Di, de görüm, niyə **ağlayırsan?*** (MFA,I,60)

Hacı Qara. *Özgəyə quyu qazan özü düşər. Çox* ***adamların evin yıxıbsınız.*** *İndi cəzanıza* ***yetişərsiniz****. Yaraqlarınızı* ***salın!*** *Yoxsa, vallah, tüfəngi bu saatda ürəyinizin başına* ***boşaldaram****!* (MFA,1,230) Heydər bəy. *Ohan həqiqətən yalan danışdı. Ondan ötrü ki hamı bir yerdə* ***altı adam idik****, qaçaq mal gətirirdik. Dörd yükümüz var idi. Bunlara rast gəlib qorxudub* ***qovduq****,* ***çıxıb getdik.***(MFA,I,248)

Mübtədaya ehtiyac olmadığı bütün hallarda buraxıldığı üçün bu cür cümlələr dilimizdə xüsusi bir cümlə tipi kimi nəzərə çarpır, ona görə də cüttərkibli bütöv cümlələrdən ibarət olan bu cür nitq vahidlərini bəzi dilçilər təktərkibli hesab etmişlər.(ZB,SC,51-53)

Cüttərkibli müxtəsər və geniş cümlələr: Ziba xanım. ***Mən yalançıyam****?* ***Doğru danışan sənsən***? (MFA,I,115) Xan. *Əziz ağa!* ***Lötkə hazırdırmı****? Əziz ağa.* ***Hazırdır****!* (MFA,I,123) Hacı Qara. ***Mən adam soyan deyiləm****.* ***Sizin kimi özgə malına tamah edənlərin canını alanam!*** (MFA,I, 22) Səlim bəy. *Bu qədər* ***xalqın duası sizin əcrinizdir.*** *Həqiqətdə, bu qədər* ***xalq*** *sizə* ***əyal hesab olunur****. Bu* ***Lənkəran vilayətinin abadlığı sizin ədalətinizin bərəkətindəndir***.(MFA,I,119) Vəzir. *Başına dönüm, keçən* ***padşahlar*** *ədalətin icrasında övlad və əqrəbalarına* ***tərəhhüm etməyiblər****. Sultan* ***Mahmud Qəznəvi*** *bu günə cürm üçün müqərrəblərindən birisinin boynunu öz əlilə* ***vurdu****.* (MFA,I,121)

Bir cəhəti də qeyd etməliyik ki, X1X əsrdə sadə cümlə nə qədər səlisləşmiş olsa da, onun sərhədləri bugünkü ədəbi dilimizdə olduğu qədər diferensiallaşmamışdır və ona görə də bəzən cümlə sərhədlərini müəyyənləşdirmək o qədər də asan deyildir, bir sıra cümlələrdə "cümlənin müxtəlif struktur səviyyələri üçün müştərək sayılan əlamətlər" (HM, 90, 323) özünü göstərir. Bu cəhət yaranmaqda olan yeni realist nəsrin ilk nümunələrinin dilinə də aiddir; məs.:

Və atan ovsafini bəyan etdiyindən, madəri-mehribanım dəxi ona təəşşüq yetirmiş. Nə ola əgər varub təcəssüsi-əhkami-şəriət edəsən, əgər caizü mübah olsa, məni sən aldıqdan sonra valideyni-namidarimi də ki, validi-büzürgüvarın təzvici ilə şad qılasan ki, əhli-beyt arasında təfriqə düşməsin. Və Abbas, Hüseyn bir-birindən ayrılmasın və məcmu müxəllə-fati-mətrukatə malik olub validi-alimiqdarım məqamində namül-bədəl olasan. (AB,129)

Buna bənzər təsvir üsuluna M.F.Axundovun hekayəsində də rast gəlirik:

Sabahı gün Yusif şah salam otağına təşrif gətirib Molla Rəməzanı və Qurban bəyi və Mirzə Cəlili və Mirzə Zəkini ki, onun dostlarından idilər və şahın olara hər xüsusda vüsuqu var idi, ehzar elədi, mənsəbi-mollabaşılığı verdi Molla Rəməzana, sərdarlığı həvalə elədi Qurban bəyə, xanlıq ləqəbilə vəzarəti tapşırdı Mirzə Cəlilə, müstövfiliyi Mirzə Zəkiyə, münəccimbaşılıq mənsəbini bilmərrə mətruk etdi ki, dövlətə və millətə zə-

rərdən başqa bir faydası yox idi. Buyurdu tamam vilayət hakimlərinə elamnamə və hökmi-müəkkəl göndərilsin ki, bu gündən sonra hərgiz cürət etməsinlər ki, biduni-təcvizi-şər'-şərif bir müsəlmanı movridi-müaxizəyə gətirsinlər və bacarmasınlar ki, məhz həvayi-nəfsləri ilə bir kəsi cərimə edələr və ya qətlə gətirələr və ya burun, qulağın kəsələr, gözün çıxardalar və hökmdən əlavə hər vilayətə mötəmid baxıcılar təyin oldu ki, gedib vilayətlərin əhvalatından və xalqın həvaicindən xəbərdar olub, gəlib ərz etsinlər.(MFA,1,321-322)

A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərindən verdiyimiz sintaktik bütöv üç cümlədən ibarətdir, aradakı nöqtələri aradan götürüb həmin qaranəfəs intonasiya ilə o cümlələri bir cümlə şəklinə salmaq da olar. M.F.Axundovun "Aldanmış kəvakib" hekayəsindən verdiyimiz mətn isə iki sintaktik bütövdən ibarətdir və iki cümlədə verilmişdir. Bu cümlələri diqqətlə təhlil edib komponentlərini, komponentlər arasında əlaqələri müəyyənləşdirmək də mümkündür, lakin demək istəyirik ki, bu cür hallarda sadə cümlənin diferensiasiya səviyyəsi son dərəcə aşağı olub, "Dədə Qorqud" mətnlərini yada salır. (HM, 90, 323-324) Bu hal orta üslubda yazılmış qoşmaların dilində də müşahidə olunur:

Deyirlər ki, sabah gələcək yarım,
Şərməndəyəm, artıb dərdü qübarım;
Candan qeyri yoxdur özgə isarım,
O da ki ziyadə biləyaqətdi.(QZ,71)

Bu bənd bir cümlədən ibarətdir və həmin cümlə altı sadə cümlə komponentini özündə birləşdirmişdir. Canlı danışıq dilində olduğu kimi, burada da cümlələrin müstəqilliyinə deyil, söylənməli olan fikrin ifadəsinə diqqət yetirilmişdir. Məstəli şah, Molla İbrahimxəlil kimi obrazların tipikləşdirilmiş nitqi müstəsna olmaqla, dram dili bu cür qovuşmuş cümlələr deyil, sadə, yığcam, təbii cümlələr əsasında qurulmuşdur.

Dövrün ədəbi dilində: *Soyun, gecə keçdi, yatmaq çağıdı* (QZ,81) – tipli sadə mətnlər də çoxdur. Misranın birinci komponenti cüttərkibli, sonrakı ikisi təktərkibli - şəxssiz cümlələrdir və onların hər birinin əmələ gəlmə yolu başqa-başqadır.

TƏKTƏRKİBLİ CÜMLƏLƏR

Şəxssiz cümlə. Şəxssiz cümlələr mübtədası olmayan və mübtəda təsəvvürü qeyri-mümkün olan sadə təktərkibli cümlə kimi izah edilir. Əslində, bu cür anlayış formal cəhətdən doğrudur. Mahiyyətə diqqət yetirdikdə aydın olur ki, fikir predmeti kimi çıxış edən mübtəda bu cür

cümlələrdə aydın şəkildə təsəvvür edilir. Mübtədanın ifadə oluna bilməməsi və "təsəvvür edilməməsi" faktı dilin tarixi inkişafı prosesində bir neçə səbəblə bağlı olmuşdur və bu səbəblərin hər biri X1X əsrin ədəbi dilində də özünü göstərməkdədir.

Şəxssiz cümlələrin böyük bir qrupunda cümlənin tarixi-etimoloji mübtədası tədricən xəbərlə qovuşmuş və xəbərin "daxili subyekti" kimi sabitləşmişdir. Daxili subyekt özünü müxtəlif şəkildə göstərir:

Daxili subyekt nitq hissələrindən ibarət olur; məs.:

...lakin kəvakibin təsirini rədd etmək üçün, doğrusu, heç bir çarəyə ***əqlim çatmır***.(MFA,1306)

Daxili subyekt söz birləşmələrindən ibarət olur; məs.: *Behər surət,* ***şahın*** *münəccimbaşıdan haman namünasib xəbərə görə* ***zəhləsi getmişdi***. (MFA,I,308) ***Xalqın*** *təzə padşahdan* ***zəhləsi gedir***.(MFA,I,325)

Xəbər ismi frazeoloji vahiddən də ibarət ola bilir; məs.: ***Gözüm yollardadı, əlim duada***.(QZ,91)

Bu misallarda *əqlim çatmır, şahın zəhləsi getmişdi, xalqın zəhləsi gedir, gözüm yollardadı, əlim duada(dır)* birləşmələri müasir dil baxımından həmin cümlələrin xəbəridir. Əslində, bu xəbərlərdə fikir predmeti ilə onun hərəkəti və əlaməti birləşmişdir, *əqlim, şahın zəhləsi, xalqın zəhləsi, əlim, gözüm* sözləri və birləşmələri etimoloji mübtədadır, xəbərlə frazeoloji qovuşma nəticəsində bugünki baxımdan cümlələrin təktərkibli - şəxssiz cümlə kimi formalaşmasına səbəb olmuşdur.

2.Şəxssiz cümlələrin bir qismi *olmaq, gərək* tipli sözlərin öz müstəqilliyini itirməsi və mübtəda ilə birləşməsi yolu ilə yaranmışdır: ***Buradan indi keçmək olmaz***.(MFA,I,217) ***Sakit olmaq gərək*** *yarı görəndə*. (QZ,65) Çünki bu, məclisi-xasdır, *mənim tərəfimdən* ***icazət olunur*** ki, oturasınız.(MFA,I,304) *O mehrabü minbər* ***qaşlara mail Olmayanın olmaz imanı kamil***.(QZ,99)

Bu misallarda *keçmək olmaz, sakit olmaq gərək, icazət olunur* sözləri xəbərdir; *keçmək*, *sakit olmaq* məsdəri və *icazət* sözü etimoloji mübtədadır. Son misalda söz sırasını düzəltsək (*O mehrabü minbər qaşlara mail olmayanın imanı kamil olmaz*), feli sifət tərkibi ilə (*o mehrabü minbər qaşlara mail olmayanın*) *imanı kamil olmaq* frazeoloji vahidinin birləşərək bütövlükdə xəbər vəzifəsində işləndiyini görə bilərik. Cümlənin etimoloji mübtədası *o mehrabü minbər qaşlara mail olmayanın imanı* birləşməsindən ibarətdir.

Fikir predmetini bildirən sözlər xəbərlə ismi birləşmə əmələ gətirərək cümlənin xəbəri kimi çıxış edir: ***Nə qəmə, qüssəyə batmaq çağıdı? Nə danışıb söz uzatmaq çağıdı?*** (QZ,81) Bu cümlələrdə *qəmə, qüssəyə batmaq, danışıb söz uzatmaq* tərkiblərinin ifadə etdiyi anlayışlar fikir predmetini təşkil edir, lakin onlar müstəqil mübtəda şəklində çıxış edə bilməmiş, qeyri-müəyyən yiyəlik halda işlənərək mənsubiyyət şəkil-

çili *çağ* sözü ilə birləşərək *-dır* şəkilçisini qəbul etməklə fikir predmetinin həm də bir əlamət şəklində təzahür etməkdə olduğunu bildirmişdir.

Şəxssiz cümlələrin böyük bir qrupu yuxarıdakılardan fərqli üsulla əmələ gəlmişdir. Bu cür cümlələrdə fikir predmeti var, lakin o, predikativlik əlaməti qəbul edərək həm də bilavasitə həmin əlamətin reallaşmaqda olduğunu bildirir. Başqa sözlə desək, bu cür cümlələrdə bir sintetizm vardır - fikir predmeti ilə onun əlaməti birlikdə mövcuddur. Misallara diqqət yetirsək görərik ki, aşağıdakı cümlələrdə fikir predmetinin özü predikativlik əlamətini qəbul etmişdir:

Sevdiyim, ***şikayət zamanı deyil***.(QZ,86) Hacı Kərim zərgər. *Hacı Nuru,* ***hələ şeir oxumaq vaxtı deyil***.(MFA,I,39) ***Baharın əvvəli idi; novruzdan üç gün keçmişdi***.(MFA.I,303) ***Ömründən*** *ancaq* ***iyirmi iki il keçmişdi.***(MFA,I,304) Bu növ tədbirin vasitəsilə indi ki, ***qibleyi-aləmin cülusunun yeddinci ilidir,*** xəzineyi-amirə... malamaldır.(MFA,I,305)

Bu cümlələrdə *şikayət zamanı, şeir oxumaq vaxtı, baharın əvvəli, novruzdan üç gün keçməsi,ömürdən iyirmi iki il keçməsi, qibleyi-aləmin cülusunun yeddinci ili* fikir predmetini bildirən dil vasitələridir. Bunlar eyni zamanda predikativlik əlamətləri (*deyil, idi, -di, -dir*) qəbul edərək fikir predmetinin reallaşmaqda olduğunu da bildirmişdir, mübtəda və xəbər sintez olunmuşdur. Bu cür cümlələr öz yığcamlığı, emosionallığı ilə bədii dil üçün ən keyfiyyətli ifadə vasitələri hesab olunur.

Bəzən fikir predmeti məsdərlə ifadə olunmuşdur. Məsdər şəxs şəkilçisiz olduğundan şəxssiz cümlə forması yaranmışdır; məs.: Vəzir. *Əlbəttə, səni gərək tikə-tikə doğramaq*.(MFA,1,115)

X1X əsrin ədəbi dilində şəxssiz cümlə formaları müasir ədəbi dil normalarına müvafiq qurulmuşdur.

Qeyri-müəyyən şəxsli cümlə. Təktərkibli cümlənin bu növü bir və ya bir neçə qeyri-müəyyən şəxs tərəfindən icra edilən iş və hərəkəti bildirmək üçün işlədilən sadə cümlələrdən ibarətdir. Bu tərif müasir dil baxımından qeyri-müəyyən şəxsli cümlələri tam əhatə etməsə də, onun əsas tipini mahiyyətcə izah edir. Qeyri-müəyyən şəxsli cümlələrdə həqiqətən əksərən işin icraçısı olur, iş görən olur, lakin icraçı bir subyekt kimi, bir mübtəda kimi cümlədə öz ifadəsini tapa bilmir və nəticədə cümlə qeyri-müəyyən şəxsli cümlə kimi formalaşır. Şəxssiz cümlələrin xəbəri üçüncü şəxsin təkində olduğu halda, belə cümlələrin xəbəri üçüncü şəxsin cəmində olur.

X1X əsrin ədəbi dilində qeyri-müəyyən şəxsli cümlələr də müasir normalara tam uyğun şəkildə işlənmişdir; məs.:

Ziynət otağının qapısını açdılar, şaha göstərdilər.(MFA,I,320) Molla Salman.*Uf, lənətə gələsiniz!* ***Uf, əl çəkməzlər****!*(MFA,I,54) *İttifaq, keçirdi əzim qafilə,* ***Tainki gördülər əhvalı belə***...(QZ,313) ***Amma hər tə-***

rəfdən bizə yazırlar *ki, onlar ilə ol məzmuna müvafiq rəftar olunmur. Məsələn,* ***deyirlər ki, amildən şəhər pulu istəyirlər***.(Ə,135) ***Bizim Badkubə quberniyasında ol qanunu nə tövr anlayıblar****, yazıb bəyan etmişik və əgər* ***qeyr yerlərdə onu qeyr tövr anlayır isələr,*** *bizdə taxsır yoxdur*. (Ə,135) ***Kokand xanlığı zəbt olunandan sonra Abtavabaşçını və qeyr sərkərdələri tutub Rusiyaya göndəriblər***.(Ə,149)

Bu cümlələrdə işin icraçısı vardır: birinci cümlədə şahın xidmətçilərindən, ikinci cümlədə meymunlardan söhbət gedir. Lakin xidmətçilərin kimlərdən ibarət olduğu, neçə nəfər olduğu (hər halda, bir neçə nəfərdən artıq olmaz) bilinmədiyi kimi, meymunu yada salmamağa söz verən nuxulular da hələ nə baş verdiyini, kimlərin onlara mənən əzab verdiyini, niyə tərlədiklərini, həyəcan keçirdiklərini bilmədiyimiz zaman onlar ah-fəryad edir, nəyinsə əl çəkmədiyindən haray çəkirlər və yalnız sonra məlum olur ki, hər şey onların gözünə meymunlar, quyruqlu həmdunələr şəklində görünür və onlara əzab verirmiş.

Bu hal - işi icra edənin olması, lakin onların bir mübtəda kimi zahirə çıxa bilməməsi göstərir ki, əslində, bu cür cümlələrin də fikir predmeti, xəbərlə ifadə olunan hərəkət və əlamətin daşıyıcısı vardır və deməli, qeyri-müəyyən şəxsli cümlələr də faktik olaraq cüttərkibli cümlə sxemi üzrə təşəkkül tapmış cümlə növüdür. Ona görə N.K.Dmitriyev cümləni bütövlükdə mənfi və müsbət yükün birliyi əsasında elektrik cərəyanının alınmasına bənzətməkdə tam haqlıdır.(Az.Qr.,59)

Qeyri-müəyyən şəxsli cümlələr bəzən tabesiz mürəkkəb cümlə komponentlərindən biri kimi işlənmişdir: ***Qəhvə gətirdilər***, *içdi*. ***Qəlyan verdilər***, *çəkdi*.(MFA,I,321) ***Münəccimbaşıya əvaxirdə bu bəhsi varid edirdilər,*** *cavab verirdi ki…*(MFA,I,308) Lakin təktərkibli cümlənin bu növü tabeli mürəkkəb cümlə tərkibində özünü daha çox göstərir. Bu cəhətdən baş cümlə kimi işlənən *deyirlər* sözü daha çox müşahidə olunur: *...bu məlun və bidini ki,* ***deyirlər****, tənasüxi məzhəbdir.*(MFA,I, 326) Hacı Kərim. *Kəldəkli Molla İbrahimxəlil,* ***deyirlər*** *ki, rüxsət alıb... kimya qayırır.*(MFA,I,38) Hacı Nuru şair. *Hərçənd bir neçə vaxt bundan irəli, belə ki,* ***deyirlər****, o, Tiflisə getmişdi…*(MFA,I,40) ***Deyirlər*** *ki, sabah gələcək yarım .*(QZ,71) *Hazır olsa bir məclisə yüz adəm,* ***Derlərdi****, filani burdadır, əbsəm!* (QZ,77) *Dəlik-dəlik eyləmişdi sinəmi,* ***Dedilər*** *ki, gəlir sala məlhəmi*.(QZ,104) ***Deyirlər*** *ki, hər yapalaq bir oturuma 40 siçan yeyir*. (Ə,138) Yalnız xəbərdən ibarət olan bu cür qeyri-müəyyən şəxsli cümlələr quruluşca müxtəsərdir. Geniş cümlələrdə ikinci dərəcəli üzvlər də iştirak edir və müstəqil işlənmə imkanları ilə fərqlənir.

Qeyri-müəyyən şəxsli cümlələr, işlək cümlə növlərindən biri kimi, həm baş, həm də budaq cümlə funksiyasını yerinə yetirmişdir.

Budaq cümlə kimi: *Ona binaən əmr etdim ki,* ***Osmaniyyə sərhədindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin ziraətini xarab***

etsinlər və çarpalarını qovub gətirsinlər, körpüləri dağıtsınlar və yolları pozsunlar.(MFA,I,305) *Bu şəhri-Qəzvində bir nəfər nabəkar peyda olubdur ki...* ***adına Yusif Sərrac deyirlər***.(MFA,I,310) *Amma bilmirəm ki, nə əmr vaqe oldu ki,* ***onu unutdular.*** (MFA,I,314)

Baş cümlə funksiyasında: *Və dəxi* ***zikr edirlər*** *ki, məzhəbi-tənasüxə qaildir.*(MFA,I,311)

Bəzən də həm baş, həm də budaq cümlə kimi çıxış etmişdir: ***Gürcüstanda belə fərz edirdilər*** *ki, guya o qaçıbdır və* ***istəyirdilər ki, onu geri qaytarsınlar***.(MFA,I,314) ***Deyirlər****, hər vilayətdə bir dustaqxana bina olunacaq ki,* ***taxsırkarları orada saxlasınlar***.(Ə,141)

Qarışıq tipli tabeli mürəkkəb cümlələrin də tərkib hissələrindən biri (və ya bir neçəsi) qeyri-müəyyən şəxsli cümlədən ibarət olmuşdur; məs.: ***Cənab Sərdarın dəftərxanasından qubernatorlara yazırlar*** *ki, Məkkəyə gedən müsəlmanlara məlum eləsinlər ki, pasportlarını Osmanlı konsuluna pişnəhad etməmiş sərhəddən keçsinlər...*(Ə,140) ***Müddəilər könlünə nərgisi-fəttan dedilər****, Kim inanır bu sözə,* ***göz görə böhtan dedilər***.(QZ,261)

Bu cür cümlələrdə qeyri-müəyyənlik az və ya çox ola bilir. Təbii ki, bu cəhət mətn və situasiya əsasında müəyyənləşir. Misallardan göründüyü kimi, təktərkibli cümlənin bu növünün xəbəri əksərən xəbər, bəzən də əmr formasının üçüncü şəxs cəmində olur.

Ümimi şəxsli cümlə.Təktərkibli cümlənin bu növü iş və hərəkətin icrasının hamıya aid olduğunu bildirən sadə cümlə növüdür. Ümumi şəxsli cümlələrin məzmununda bütün sadə cümlə növlərindən fərqli olaraq, şəxs baxımından ümumiləşdirmə olur. Lakin bu, leksik ümumiləşdirmə deyil, cümlənin qrammatik semantikası ilə bağlı olub, işin icrasının tək-tək və ya bir qrup subyektə deyil, hamıya aid olduğunu bildirir. Bu cür cümlələrin məzmununda zaman və məkan ümumiliyi olur, yəni sadə cümlənin bu növü hamıya, həmişə, hər yerdə aid olan iş və hərəkəti bildirir. Ona görə də ədətən atalar sözləri və məsəllərdən, monolit ümumiləşdirici, hikmətli, aforistik cümlələrdən ibarət olur. Odur ki ümumi şəxsli cümlələrin xəbərinin hansı şəxsdə olması da elə bir əhəmiyyətə malik deyildir, çünki xəbər hansı şəxsdə olursa-olsun, işin məzmunu bütün şəxsləri, onların tək və cəmini əhatə edir.

Daha çox folklor əsaslı cümlə növlərini əhatə etdiyindən ümumi şəxsli cümlələr də qədimdir və ona görə də X1X əsrin ədəb dilində nisbətən az işlənsə də, ümumən müasir formalar artıq mövcuddur və bu cəhətdən keçən əsrin cümlə quruluşu ilə müasir təktərkibli cümlələr arasında bir fərq yoxdur.

Hər halda, ümumi şəxsli cümlələrin xəbəri formal olaraq müxtəlif şəxslərdə olur.

1.Xəbər əmr formasının birinci şəxs cəmində olur:

Ohan. *Balam, nə işimiz var? Deyərik:* ***dəvə gördük, qığın da görmədik***.(MFA.I,223)

2.Xəbər şərt formasının birinci şəxs cəmində olur: ***Əgər bir otu göyərən vaxtda soyuğa versək****, tələf olur...*(Ə,129)

3.Xəbər əmr formasının ikinci şəxs təkində olur: *O ki hal əhlidir, unutmaz yarın,* ***Əyri dolan istər düz, qabağında***.(QZ,44) ***Hünərin var isə döz qabağında***.(QZ,44)

4.Xəbər əmr formasının ikinci şəxs cəmində olur: *Eyləməsin –* ***deyin o sitəmkara****,Tay-tuş arasında şərmsar məni*.(QZ,77) *Mən öləndən sonra,* ***deyin dildara,*** *Yadlar ilə deyib-gülməsin, barı!* (QZ,82) ***Sizi tarı, deyin yara düşəndə****, Məgər əl götürüb əmanətindən?* (QZ,99)

5.Xəbər arzu formasının ikinci şəxs təkində olur: ***Tutub səri-zülfün, dönüb başına, Şanə tək gəzəsən tel arasında***.(QZ,43) ***Yandığına görə alovlarına Hələ barı beş gün səfa görəsən***.(QZ,101) *Adətü qanundu,* ***əhli-zənanə Əqd edib verəsən sultanə, xanə***.(QZ,316) ***Əgər bir göyərən otu qaranlıq yerdə saxlıyasan****, onun rəngi saralıb tələf olur*. (Ə,129) ***..əgər bir əlcə pambığın içinə toxumları qoyub onları soyuq olmayan yerdə sulüyasan****, onlar əvvəl zaman göyərir...*(Ə,129) *Bil ki, bədəsildən yoxdu fayidə,* ***Üzəsən canını yüz qabağında.***(QZ,44)

5.Xəbər xəbər formasının üçüncü şəxs cəmində olur: ***O gün ki atəşinlə arizi-cananə yazmışlar, Məni-sərgəştəni ol atəşə pərvanə yazmışlar***.(QZ,209)

6.Xəbər arzu formasının üçüncü şəxs cəmində olur: ***Əgər rizə-rizə kəsələr məni****, Mundan sonra əldən qoymazam səni*.(QZ,316)

Sanasan sözündən ibarət ümumi şəxsli cümlənin tədricən öz müstəqilliyini itirməkdə olduğu, bağlayıcılaşma prosesinə başlamış olduğu müşahidə olunur: ***Sanasan*** *içində gül pirəhənin Bir bərgi-səməndir cəsədin sənin*.(QZ,61)

Digər təktərkibli cümlələr kimi, ümumi şəxsli cümlələr də müxtəsər və geniş olur. Müxtəsər ümumi şəxsli cümlələr yalnız xəbərdən ibarət olur və adətən tabeli mürəkkəb cümlə tərkibində baş cümlə kimi işlənir: *O qədər gəlmədi, intizar öldüm,* ***Deyin****, indən belə yara gəlməsin*.(QZ,107) Genişində ikinci dərəcəli üzvlər də iştirak edir: *Əzəldən deyər ki, bəri dur, bəri,* ***İrəli durarsan****, o durar geri.*(QZ,119)

Adlıq cümlə. Sadə cümlənin bu növü bədii üslubun məhsuludur, xalq dilinə, canlı danışıq dilinə deyil, bədii üsluba əsaslanır, üslubi bir kateqoriya kimi özünü göstərir. Canlı danışıq dili üçün az xarakterikdir. Əgər cüttərkibli və digər təktərkibli cümlələr kimi, şifahi ünsiyyətin formalaşdırdığı vasitə olsa idi, qədimdən bəri o da elmi və bədii ədəbiyyatda digər cümlə növləri ilə yanaşı kifayət qədər işləkliyi ilə diqqəti cəlb

edərdi. Lakin dilimizin tarixindən bəhs edən əsərlərdə qeyd edildiyi kimi (HM,90,338), daha çox X1X əsrdən - dram janrının formalaşdığı, meydana çıxdığı dövrdən özünü göstərir. Buna baxmayaraq, lap qədim abidələrdə də, klassik poeziya dilində də nümunələrinə rast gəlmək mümkündür və M.F.Axundovun pyeslərindən əvvəl də poeziyamızda adlıq cümlə tipində cümlələrə təsadüf edilir. Əşya və hadisələrin adını qeyd edib, mövcud olduğunu bildirib, lakin onun haqqında aydın predikativlik vasitələri ilə məlumat verilməməsi halları aşağıdakı cümlələr üçün də səciyyəvidir: ***Mərifətdə kamil, sinndə uşaq, Qədir bilən, özü doğru, sözü sağ... Quzu quyruğu tək nazikü yumşaq****, Lərzə verə cismi hər yanə gərək.*(QZ,84) ***Barmağında xatəm, belində kəmər, Telində güşvarə, düymə tamam zər.****.. Qərq olsun yaşıla, alə sərasər, Naz ilə sallana-sallanə gəlsin!* (QZ,106) Yaxud "Aldanmış kəvakib"də: ***Dəsteyi-fərraş, əllərində ağac, onların əqəbində miraxur, yedəyində bir türkmən atı: cəvahrnişan yəhər və əsbab üstündə, mürəssə rəxt başında, mirvarid sinəbənd döşündə, zümrüd qotaz boynunda***.(MFA,1,315)

Ənənəvi olaraq əsər adlarını da bəzi dilçilər adlıq cümlə hesab edirlər: *"Kitabi-Əsgəriyyə","Kəmalüddövlə məktubları", "Aldanmış kəvakib"* və s.

Lakin təbii ki, adlıq cümlələrin daha səlis nümunələri dram əsərlərinin remarkaları ilə bağlıdır. Bu cəhətdən M.F.Axundovun komediya yaradıcılığı örnək olmuş, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov və başqaları bu cümlə tipini təbii axara salmışlar.

M.F.Axundov pyeslərində "Əfradi-əhli-məclis"də - iştirakçıların kimliyini, yaşını, zahiri görünüşünü qeyd etdiyi zaman adlıq cümlələrdən daha çox istifadə etmişdir: *Molla Salman* - ***mərhum Molla Cəlil alimin oğlu, nuxulu, mərtub, qəviheykəl***.(MFA,I,37) *Dərviş Məstəli şah* – ***caduküni-məşhur, iranlı, əlli yaşında***.(MFA,I,59) *Səkinə xanım* – ***mərhum Hacı Qafurun bacısı, on səkkiz yaşında, qız*** (MFA,1,255) və s.

M.F.Axundovda *Ohan* sözündən sonra mötərizədə verdiyi *Ermənilərin yüzbaşısı* kimi adlıq cümlələr də vardır, lakin ümumən remarkalarda adlıq cümlələrin inkişafı daha çox sonrakı dövrlə bağlıdır. Məsələn, təsəvvür üçün N.Vəzirovun pyeslərindən bir neçə nümunə də kifayətdir: *Rəsul taxt üstə uzanıb,* ***otağın ortasında miz və onun üstə bir neçə piyalə və çaydan****. **Əsgər ayaq üstə, küncdə***.(NV,I,35) *Səlman bəy əyləşib otağın bir tərəfində,* ***yanında dəftərxana kağızları***.(NV,I,65)*Vaqe olur Aslan bəyin otağında.* ***Divara tərəf miz, ətrafında səndəllər, miz üstə cürbəcür əntiqə şeylər. Qapılarda, pəncərələrdə pərdələr, xəlilər.***. .(NV, I,193) ***Hamısının əlində tüfəng, çiyinlərində yapıncı, patrondaşı iki qatar, İldırımın və Xəlilin çiynində dolu xurcunlar***. (NV,II,102)

Adlıq cümlələr XX əsrdə xeyli zənginləşmiş və dram əsərlərinin, ssenarilərin dilində geniş vüsət almışdır.

SADƏ CÜMLƏNİ GENİŞLƏNDİRƏN VASİTƏLƏR

Xitablar. X1X əsrdə yaranmış bədii və elmi əsərlərin dilində işlənmiş xitablar əksəriyyət etibarilə rəmzi-bədii obrazlara müraciət xarakteri daşıyır, daha çox bədii üsluba xidmət edir. Yalnız M.F.Axundovun komediyalarında, hekayəsində və fəlsəfi əsərində müraciət vasitələri ədəbiyyatı real zəminə endirir. Daxil olduğu cümlənin üzvləri ilə yalnız mənaca bağlı olmasına baxmayaraq, fikrin emosional ifadəsində xitabların rolu böyükdür. Çox zaman lirik, həzin, emosional fikir xitabların vasitəsilə ifadə olunmuşdur.

Xitabların əsas funksiyası müraciət olunanı çağırmaq, oyatmaq, onun diqqətini cəlb etmək, onu bu yolla bir işə təhrik etməkdir. Lakin bununla yanaşı, bədii xitablar məhəbbət, sevgi, alqış, nifrət, qəzəb və s. bildirməklə, eyni zamanda, müraciət olunana münasibətin də başlıca təzahür vasitəsi kimi çıxış edir. Bu xüsusiyyət əvvəlki dövrlərə nisbətən, nəsrin, satiranın, dram sənətinin, mənzum hekayələrin meydana çıxması ilə əlaqədar X1X əsr ədəbiyyatında daha qabarıq müşahidə olunur. Onu da qeyd etmək olar kə, xitablar əksərən çağırış bildirən a*y, ey, ya* nidalarının iştirakı ilə işlənmişdir; məs.: ***Ay Çələbi**, şahın nökəri ilə yüzləşmə, puli ver*.(ŞXİT,6) *Ərz elədi ki, **ey şeyx**, mən istəyirəm ki, Həccə gedəm*. (SƏŞ,II,594) Ərəb dilinə məxsus *ya* nidasından əksərən dini (real və mövhumi) şəxslərə müraciət zamanı istifadə edilmişdir: ***Ya Cəbrail**, yetir özünü sibti-rəsulun üstünə*...(MFA,II,110) ***Ya Həvva**, nə səbəbə sən nəimi-behiştdən göz yumdun?* (MFA,II,64)

Zəmanənin nəbzinə uyğun olaraq elə xitablar işlənmişdir ki, onlar həm də müraciət olunana aydın münasibət ifadə edir. Bu cür xitablar adətən ictimai təbəqə və zümrələri, həmin təbəqə və zümrələrə ictimai münasibəti ifadə edir; məs.: ***Ey üləma**, bir dəxi deyirsiniz ki, təşrihi-əmvat etməyin, haramdır*...(MFA,II,54) *...**ey qulam**, bu acılıqda xiyarı belə şirin-şirin nə üçün yeyirdin?* (SƏŞ,II,592) *..**ey mələk,** bəs mənə bir məmləkət bəxş qıl*.(SƏŞ,II,589) *...**ey xəlifə,** dünyadan özünlə bir şey apara bilməzsən*.(SƏŞ,II,590) *Dedilər ki, **ey çoban**, nə var?* (SƏŞ,II,602)

Xitab bəzən insan xarakterinə müvafiq seçilmiş substantiv söz və birləşmələrlə ifadə olunmuşdur. Bu cür ifadə vasitələrində mənfi və ya müsbət münasibət daha qabarıqdır: *..**ey kövdən,** sən nə dəlil ilə bu qövlünü sübuta yetirirsən?*(MFA,II,108) *...**ey sadədil**, eşşəyin itibdir, car çəkirsən*. (SƏŞ,II,590) ***Ey biçarə**, bir təsəvvür eylə ki*...(MFA,II,124) Eyni qayda ilə söyüş bildirən vulqar söz və ifadələr də substantiv formada müraciət vasitəsi kimi işlənmişdir: ***Pədərsüxtə**, kəvakibin afətindən məni qorxudarsan və əlacını gizlərsən?*(MFA,I,308) *...**ey məlun**, sən mələikəyi-müqərrəb cümləsindən idin*.(SƏŞ,II,604)

Substantiv söz və birləşmələrlə yanaşı, metaforik sözlər də xitab kimi işlədilmişdir. Məsələn, "Kəmalüddövlə məktubları"nda İran əhlinə *ey İran* sözləri ilə müraciət olunur: ***Ey İran**, hanı sənin o şövkətin?..* (MFA,Ii,9)

Bir cümlə üzvünə uyğun gələn sadə xitablarla yanaşı, struktur baxımdan iki üzvə - təyin və mübtədaya uyğun gələn xitablara da bu dövrün ədəbiyyatında geniş rast gəlmək olur. Bu cür xitabların təyinedici hissəsi adətən sifətdən, ismi birləşmədən və ya izafət tərkibi və s.-dən ibarət olur; məs.: ***Ey axmaq müvərrix..***.(MFA,II,86) ***Ey qoca övrət***... (SƏŞ,II,578) ***Mənim məxdumum mollabaşı***...(MFA,I,316) ***Mənim əzizim naqil***... (MFA,II,200) ***Məxdumi-mükərrəmi-imən şeyxül-islam!***.. (MFA, II, 204) ***Ey bəradəri-mehribanım Kəmalüddövlə!***..(MFA,II,124) Təyinedici hissə feli sifətdən də ibarət ola bilir: ***Ey əziz olan mehman..***. (SƏŞ, II,580)

A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərində və bir çox başqa əsərlərində, xüsusən şeirlərində klassik üsluba uyğun olaraq xitabların izafət birləşmələri ilə ifadəsi halları nisbətən çox müşahidə olunur. Hətta bəzən müəllif eyni obyektə müxtəlif izafət birləşmələri ilə müraciət edir. Sevgiliyə müraciətlə: ***Ey aşiqi-mehribanım... Ey yari-mehribanım... Ey arami-canım...Ey cani-şirin..*** Digər yazıçı və şairlərin yaradıcılığında da bu cür rəngarəng müraciət vasitələrinə rast gəlmək olur: Övlada müraciətlə:***Ey nuri-didə***...(AB,131) ***Ey fərzəndi-girami***... (MFA, II,57)...***ey nuri-dideyi-girami***...(SƏŞ,III,594) Padşaha müraciətlə:...***ey padişahi-aləm***...(SƏŞ,II,578) ...***ey hakimi-rövşənrə'y***...(SƏŞ,II,581) ***...ey padişahi-aləmpənah...*** (SƏŞ,II,582) Başqa sahələrə də aid belə izafət-xitablara rast gəlmək mümkündür: ***Ey aşiqi-miskin!.***.(AB,126) ...***ey müqərrəbi-dərgahi-ilahi***...(MFA,II,60) ***Ey İrani-biçarə***...(MFA,II,15) ***...ey pəsəri-Arslan..***.(SƏŞ,II,599)

Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi-bədii dilində də eyni obyektə müraciətlə işlənmiş sinonim xitablardan istifadə edilmişdir; məs.: ***Ey aşiqi-dilxuni-müztər, ey novgüli-çəməni-ahəngər!*** *Bu nə halə-ti-mükəddərdir kim, müşahidə qılıram?* (AB,128) *Bir gün əğyardan məxfi özünü ol şuxi-gülgun üzarə yetirib dedi: -****Ey yari-mehriban! Ey arami-dilü can! Vey nazikbədən, gülpirəhən! Ey şəkərləb, şirinsüxən!*** *Ruzigari-şöbədəbaz nə zəmaneyi-hiyləsaz fitnələr ağaz edib, dövləti-vüsalə möhnəti-fəraq yetirmək istər.*(AB,124)

Xitabların əlavələri də emosional fikrin ifadəsinə geniş imkan yaratmışdır: *Afərin sənə, ey Kəmalüddövlə,* ***ey Babur şah Kürəkənin xələfi, ey Hümayun şah Teymurinin nəticəsi!*** (MFA,II,128)

Başqa sintaktik vasitələr kimi, xitablar da struktur və semantik baxımdan əsasən sabit olmuş, yalnız bir sıra alınma leksik və sintaktik vasitələrlə (izafət birləşmələri ilə) ifadəsinə görə müasir dildən fərqlən-

mişdir. Q.Zakirin dilində *sevdiyim, ey Leylicəmal, ey çeşmi-xumar, dilbər* tipli xitablarla yanaşı, klassik ədəbiyyatdan və folklordan gələn rəmzi-bədii xitablar da davam etmişdir: ***Ey dil**, həzər eylə zənəx çahından* . (QZ,69) ***Badi-səba**, mənim dərdi-dilimi Ol büti-zibayə dedin, nə dedi?* (QZ,72) ***Könül**, əbəs yerə üzmə canını*...(QZ,83) ***Ey cismimin canı, gözümün nuru**, Eylədiyin əhdü vəfadan utan!*(QZ,97) M.P.Vaqif kimi, Q.Zakir də müraciət vasitələrini real canlı düşüncənin səviyyəsi ilə əlaqələndirmişdir: *Zindəganlıqdımı bu, ağrını alım,* ***qocalıq?*** (QZ,235)

Ara sözlər, ara və əlavə konstruksiyalar. Sadə cümləni genişləndirən vasitələr içərisində ara sözlər, ara və əlavə kostruksiyalar da nəzəri cəlb edir. Ara və əlavə konstruksiyaların işlənməsi baxımından müasir ədəbi dilimizlə X1X əsrin ədəbi dili arasında fərq yoxdur. Yalnız ara sözlərin bir qisminin ifadə vasitələri köhnəlmiş və işləkliyini itirmişdir.

Tarixən də ara sözləri formalaşdıran əsas vasitə intonasiya və fasilə olmuşdur. Q.Zakirin: *Sənin gileyin çox, mənim günahım, Onların* ***nəhayət*** *zamanı deyil* (QZ,86) - misralarında *nəhayət* sözü bir qədər əlavə fasilənin gücü ilə çox asanlıqla ara sözə çevrilə bilərdi, lakin şair bu sözü *zamanı* sözü ilə birləşmə şəklində cümlənin xəbəri vəzifəsində işlətmişdir.

Ara sözlərin və birləşmələrin müasir dilimizdə işlənən bütün məna növlərinə XIX əsrin ədəbi dilində də rast gəlmək mümkündür. Bunun üçün ara sözlərin bəzi məna növlərinə diqqət yetirmək kifayətdir.

1.***Yəqinlik*** bildirən və müasir dildə də işlənən ara sözlərin (*əlbəttə/əlbət, yəqin, doğrudur, doğrusu, həqiqətən, həqiqətdə, şəksiz* və s.) içərisində işləkliyini itirənlər də vardır. Buraya *mütləqa, məbadə, filhəqiqət, əlhəq, həqqa ki, vaqeən, filvaqe* və s. kimi az bir qisim ara sözlər daxildir; məs.: *...sahibi-möhr qazi imiş, ya şeyxül-islam imiş, ya müctəhid imiş, ya mollayi-qeyri-məruf imiş və ya* ***filhəqiqət**, heç vücudu yox imiş*... (MFA,II,33)***Vaqiən də**,naibi-imam necə özünü kəlbi-imama məhkum və tabe bilsin*...(MFA,II,41) ***Bişübhə**, təbiəti-bəşəriyyətin müqtzasınca rizası yox idi*...(MFA,II,83)

Güman, şübhə bildirən ara sözlər də müasir ədəbi normalara uyğun olmuş, başlıca olaraq, *bəlkə, bəlkə də, ehtimal ki, görünür, görəsən* tipli sözlərlə ifadə olunmuşdur. Lakin M.F.Axundovun fəlsəfi traktatında canlı danışıq dilinə və ümumxalq dilinə əsaslanan əsərlərin dilinə xas olmayan *yəhtəmil ki* (*ehtimal ki*) tipli tək-tək ara sözlərə də təsadüf edilir; məs.: *Əgər bütpərəstliklə baqi qalsaydılar,* ***yəhtəmil**, bir günə çıxardılar.*(MFA,II, 22) *Amma qaideyi-elmiyyəni bir növ ilə təqrir etmək olur,* ***yəhtəmil ki**, ondan filcümlə bəsirət hasil edəsiniz.*(MFA,II,65)

Sıra, ardıcıllıq bildirən *əvvələn, birincisi, ikincisi, nəhayət* tipli ara sözlərlə yanaşı, bir sıra əsərlərin dilində *saniyən, salisən* tipli sözlər də

işlənmişdir. Bu sonuncular müasir ədəbi dilimizdə işləkliyini itirmişdir. Bunlardan əlavə, nəticə, ümumiləşdirmə bildirmək üçün *xülaseyi-kəlam, əlqərəz, qərəz ki, müxtəsəri-kəlam* tipli bu gün üçün ədəbi dilimizdə arxaikləşmiş, yaşlıların dilində, şivələrdə özünü saxlamış olan bir sıra ara sözlərə də təsadüf edilir.

Mənbə və isnad bildirən ara konstruksiyaların da bir neçə arxaik formasına rast gəlmək olur: ***O cənabın dərəceyi-kəmalına binaən****, dövləti-Rusiyyənin Şirvanatə istilasında ümuri-səltənətdə sahibmənsəb və sahibnişan kimsənələrdən olmuşdur*.(SƏŞ,III,72) ***Əhadisi-sərihə mucibincə****, xüruci-Mehdini, yəni on ikinci imamı mütəvatir rəvayət edibdirlər*. (MFA,II,56)

X1X əsr Azərbaycan ədəbi dilində həm bir söz, həm də birləşmə şəklində olan, həm ismi, həm də feli ara sözlər kifayət qədər öz ifadəsini tapmışdır. Ədəbi və elmi əsərlərin dilində işlənmiş ara sözlərin təhlili göstərir ki, modal münasibətin dəqiq və səlis ifadəsi üçün ara sözlərdən ustalıqla istifadə edilmişdir. Ara sözlər məna növlərinə görə rəngarəng olub, müasir dilimizdə əhatə etdiyi bütün sahələri əhatə etmişdir.

Ara sözlər müxtəlif quruluş xüsusiyyətlərinə malikdir. Bu cəhətdən onları aşağıdakı qruplara ayırmaq olar:

1.Ara söz bir sözdən ibarətdir. Daha çox nəzərə çarpan forma olduğu üçün sintaktik vahidlərin bu tipi adətən *ara sözlər* adlandırılır; məs.: ***Heyf ki,*** *görmədim gül camalını*.(QZ,117) Nisə xanım. ***Əlbəttə****, mənzuru ixtiyar axtarmaq və izzətdə olmaqdır!* (MFA,I,107) Xan. ***Xub,*** *sənin vəzirin hərəmxanasında işin nə idi*? (MFA,I,122) Vəzir. ***Doğrudur****, mən sənin haqqında gümani-bəd edə bilmərəm.*(MFA,I,107) Hacı Qara. ***Doğrusu,*** *mən faydasız pul verməyə öyrənməmişəm*.(MFA,I,209) ***Əlqissə****, ol cavani-süxtəcan... həmqərini naləvü əfqan olurdu*.(AB,122) ***Qərəz****, onlar ağlayıb nalə edirdilər*.(AB,125) ***Xülasə****, ol məzlumə dedi.* (AB, 125) ***Əvvələn****, etiqat etmək gərəksizin ki, sirat haqdır*.(MFA,II,47) *Əgər bu sirri bir afəridəyə nəql edərsiniz,* ***bişübhə,*** *hamınızın boynunu vuraram*. (MFA,II,60)

2.Söz birləşməsindən ibarətdir: ***Çox yaxşı****, ağa, bu bir asan işdir; təki iksirin təkmili buna mövquf olsun...*(MFA,I,53)

3.İzafət birləşməsindən ibarətdir: ***Axirül-əmr****, bir gün əlimə bir parə nan alıb üstündə rovqəni-kərə tışrə çıxdım.*(AB,125) ***Müxtəsəri-kəlam****, gümüş xahiş edənlər bir mərtəbədə çoxdur ki...*(MFA,1,49)

4. Cümlədən ibarətdir: Şərəfnisə xanım. ***Nə bilim,*** *deyiblər ki, qızlar ilə, gəlinlər ilə oğlanlar bir yerdə oynuyurlar, danışırlar, gülürlər*. (MFA,I,65)

X1X əsrin ədəbi dilində ara və **əlavə konstruksiyalardan** daha çox istifadə edilmişdir. Əlavə konstruksiyalar cümlə daxilində işlənib,

müxtəlif sözləri, birləşmələri dəqiqləşdirmək, əlavə məlumat vermək, xüsusilə dram əsərlərində obrazların davranış tərzini, geyimini, mimikasını, danışıq üslubunu, hissi-psixoloji keyfiyyətlərini göstərmək məqsədi daşıyır. Əlavə konstruksiyaların meydana çıxması M.F.Axundovun fəlsəfi traktatı, komediyaları və "Əkinçi" qəzetinin dili ilə daha çox bağlıdır.

Əlavə konstruksiyalar həyatın özü qədər rəngarəng olduğu üçün onları məna qruplarına ayırmaq lazım gəlmir. Lakin onları quruluş xüsusiyyətlərinə görə fərqləndirmək mümkündür. Müasir dildə olduğu kimi (*bax:* QK,S,258-261), X1X əsrdə də onların aşağıdakı işlək quruluş tipləri olmuşdur:

Bir sözdən ibarət olanlar: Hacı Kərim zərgər (***xoşluqla***). *Hacı Nuru, hələ şeir oxumaq vaxtı deyil*.(MFA,I,39) Hacı Nuru şair (***incimiş***). *Necə nə faydası var?* (MFA,I,39) *Keçən il 50-60 min putacan və çox hissəsin paraxod (**vapor**) ilə aparıblar*.(Ə,354)

Birləşmə şəklində olanlar: Sair nuxulular (***başlarını yuxarı qovzuyub***). *Uf, lənətə gələsiniz meymunlar!* (MFA,I,55) *Raquze şəhərindən tel var ki, ustaşlar (**yağı olan Bosnə əhli**) Osmanlını bərk basdılar, 1000 adam öldürüb, çox tüfəng, azuqə alıb, Kluq, Petrovais şəhərlərini yandırdılar*.(Ə,429) *Bular bizim sinurumuzu - **bir ucu Zabilistan, bir ucu Mədain -** düşməndən saxlayırlarmı?* (MFA,II,37)

Cümlə şəklində olanlar: Molla Salman (***Yoldaşlarının halətindən və təsdiqindən cürətlənib cavaba iqdam edir***). *Ağa, tamam dağların heyvanatı... hücum gətirirlər*.(MFA,I,55) *Rumıniya (**Osmanlı dövlətinə xərac verən əyalətdir ki, indi bizim ilə birləşib, onlar ilə cəng edir**) Dubroviç vilayətini (**Tuna vilayətinin bir hissəsidir**) istəyir*.(Ə,428) *Şəmsin və qəmərin ki, **- olar dəxi zərrədirlər,** -qanunu budur ki, tülu etsinlər, işıq salsınlar*...(MFA,II,67)

"Əkinçi" qəzetinin dilində bəzən bir cümlə daxilində müxtəlif quruluşlu əlavə konstruksiyalardan istifadə edilmişdir; məs.: *İyulun 31-də Bukarpeştdən (**Rumıniyanın paytaxtı**) Ternoy şəhərinin (**Balkandan Tuna tərəfə Osmanlı şəhəridir ki, bizim Rus zəbt edib**) ətrafında olan dağları rus bərkidir. Məhəmmədəli paşa (**sərəsgər**) rus əsgərlərindən səkkiz ağac aralı dayanıb*.(Ə,427)

Sintaktik bütöv şəklində olanlar: Hacı Qara. *A qurbanınız olum, tuta bilmənəm.Əlimi budaqdan üzsəm, su güclüdür, məni aparacaq, halqa edin, atın, belimə düşsün! (**Heydər bəy sicimi halqa edib tulluyur, düşür Hacı Qaranın boğazına, çəkir. Hacı Qara iki əlli sicimdən yapışıb boğula-boğula qırağa çıxır, suyu səpələnir**).* (MFA,I,219)

Misallardan göründüyü kimi, komediyaların dilində işlədilmiş əlavə konstruksiyalarla "Əkinçi" qəzetinin dilində işlənmiş konstruksiyalar quruluş xüsusiyyətlərinə görə uyğun gəlsə də, məna və üslubi keyfiyyətlərinə görə tamamilə fərqli səciyyəyə malikdir. Komediyalarda obrazın

mənəvi-psixoloji, zahiri-cismani əlamətləri əsas hədəfdirsə, "Əkinçi" mövcud dünyanın rəngarəng hadisələri haqqında məlumat vermək məqsədi güdür və oxucunu dünya işləri ilə daha geniş miqyasda tanış edir.

MÜRƏKKƏB CÜMLƏ

TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR

X1X əsr Azərbaycan ədəbi dilində tabesiz mürəkkəb cümlənin müasir strukturu tam formalaşmış şəkildədir. Bir çox hallarda mürəkkəb cümlə tam diferensiallaşmamış olsa da, canlı danışıq dilində olduğu kimi, mürəkkəb cümlə komponentləri bəzən aydın qütblənməsə də (bu, daha çox yazılı dilin və üslubun bugünkü qədər cilalanmaması ilə bağlıdır), tabesiz mürəkkəb cümlə komponentləri arasında məna əlaqələri aydın seçilməkdədir. Bundan əlavə, çox az hallarda alınma-arxaik bağlayıcılar da hələ işlənməkdədir.

Müasir ədəbi dilimizdə olduğu kimi, X1X əsrin ədəbi dilində də tabesiz mürəkkəb cümlələrin komponentləri həm intonasiya ilə, həm də tabesizlik bağlayıcıları ilə əlaqələnmişdir.

1.Birləşdirmə əlaqəsi. Tabesiz mürəkkəb cümlənin bu növünün tərkib hissələrində müxtəlif iş və hadisələr sadalanmış, həmin iş və hadisələrin ya eyni zaman ərzində, yaxud da müəyyən ardıcıllıqla baş verdiyi ifadə olunmuşdur. Ona görə də bu qrupa daxil olan tabesiz mürəkkəb cümlələrin özləri də iki növə ayrılır:

a) eynizamanlı birləşdirmə (zaman əlaqəsi);

b) ardıcılzamanlı birləşdirmə (ardıcıllıq əlaqəsi).

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr sadalama üsulu ilə qurulduğundan iki tərkib hissədən ibarət olduğu kimi, üç və daha çox tərkib hissədən də ibarət ola bilir.

a)eynizamanlı birləşdirmə: *...bu vaqiədən sonra hər tərəfdən xalq onun tənəsinə dil açdılar* ***və*** *müridlərin çoxunun etiqadına onun nübüvvəti sidqində şübhə düşdü* ***və*** *münafiqlər onun inkarında cürətli oldular*. (MFA,II,84) *Di'bil ağladı* ***və*** *imam Riza* ***dəxi*** *giryan oldu*. (SƏŞ,III,17) *Hər ikisinin təbi olmağı məşhurdur* ***və*** *zikri-xeyr ilə adları hər dildə məzkurdur*.(SƏŞ,III,117) Zəmani ki, mənim bəxtimdən həmşəhərlilərim də ki sizsiniz, ***nə*** *kamal var,* ***nə*** *ağıl var,* ***nə*** *beyin var*. (MFA,I,43) ***Həm*** *sənin təvəssütün həmməzhəblərin barəsində məqbul oldu,* ***həm*** *mənim sözüm pozulmadı*.(MFA,I,50) ***Nə*** *mən öldüm bu möhnətdən qurtardım,* ***Nə*** *cövrü cəfadan dilbər usandı.* (QZ,80)

Bir yan fələk cəfası mənimçün qəm artırır,
Bir yan zəmanə gərdişi min matəm artırır,
Bir yan həsud tənəsi bağrımı qan edər,
Bir yan qərib covri bəla hər dəm artırır.(AB,129)

Eynizamanlı birləşdirmədə bəzən (müasir dildə olduğu kimi) tərkib hissələrə aid ortaqlı zaman zərfliyi - determinant işlənmişdir. Bu cür üzvlər komponentlərdə qeyd edilən hadisələrin eyni zamanda cərəyan etdiyini göstərən fakt kimi əhəmiyyətlidir; məs.: *Nə könlüm açılar, nə üzüm gülər* ***Səg rəqib dərində olandan bəri***.(QZ,74)

XIX əsrin ədəbi dilində də birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentlərini əlaqələndirmək üçün *və, nə...nə, həm...həm* bağlayıcılarından istifadə edilmişdir. Lakin müasir dildə *və* bağlayıcısı sonuncu komponentdən əvvəl işlənməklə qapalı sıra yaratdığı halda, əsrin elmi üslubunda bütün komponentlər arasında sadalanmışdır.

Bəzən komponentlərin təkrar olunan xəbəri (və ya xəbərlik şəkilçisi) ixtisar olunmuşdur: *Fərhad - Şirinin, Qeys - Leylanın, Mən də bir pərinin* ***divanəsiyəm***.(QZ,88) Bu cür cümlələr ismi xəbərli də olur: *Hal - pərişan, dil nigaran, müztərib...*(QZ,90) *Gözüm yollardadı, əlim duada*. (QZ,91)

b)ardıcıl birləşdirmə: *...miraxur mürəssə rəxtli atı qabağa çəkdi, Yusif Sərracı mindirdilər ata, əsas qərari-sabiq üzrə dərbari-şahiyə rəvanə oldu*.(MFA,I,317) Bu halda ayaq tappıltısı gəlir, Əziz bəy girir o biri otağa, Səkinə xanımın bibisi Zübeydə içəri daxil olur.(MFA,I,259) *Qapını döydü, övrəti qapının dalına gəldi*.(SƏŞ,II,605)

2.Səbəb-nəticə əlaqəsi. Tabesiz mürəkkəb cümlənin bu növü birləşdirmə əlaqəsindən fərqli olaraq, adətən iki komponentdən ibarət olur; birinci komponent səbəbi, ikinci komponent həmin səbəbdən doğan nəticəni bildirir. Səbəb-nəticə əlaqəsində də tərkib hissələr əksərən intonasiya ilə, bəzən *və* bağlayıcısının iştirakı ilə əlaqələnmişdir; məs.: *Xülasə, ənvai-naləvü şivən ilə bir-birindən vida edib, məşuqə səfər qıldı* ***və*** *aşiqi-məhcur dideyi-xunbar ilə bikəs qaldı***.** (AB,126) *Seyyid Zülfüqar Şirvan şahının vəziri Məhəmməd-əl Əstəriyə bir qəsidə oxudu, vəziri-binəzir Seyyid Zülfüqarə yeddi xərvər əbrişim əta qıldı*.(SƏŞ,III,33) Hacı Nuru şair. *...bir qəbiristanlıq adam qırdın, xalq işindən başa düşdü, tərkini qıldı*.(MFA,I,41)

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr iki komponentdən ibarət olsa da, komponentlərdən biri mürəkkəb quruluşlu ola bilir; məs.: *Nə onda mürvət var, nə məndə taqət, Yaman yerə yetib işim, ağlaram.*(QZ,87) Bu misalda hər iki komponent mürəkkəbdir - tabesiz mürəkkəb cümlə şəklindədir.

3.**Qarşılaşdırma əlaqəsi**. Mürəkkəb cümlənin bu növündə tərkib hissələrdəki müxtəlif iş və hadisələr ya ziddiyyətli şəkildə qarşılaşdırılır, yaxud da sadəcə olaraq müqayisə edilir və fərqləndirilir. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentləri əksərən qarşılaşdırma bağlayıcaları ilə əlaqələndirilmişdir.

a)ziddiyyətli qaşılaşdırma: *Haman nigini səfəri-İraqdan müraciətdə Şirvanşah həkim Xaqanidən xahiş qıldı, həkim vermədi*.(SƏŞ,II,41) *Çünki o məlunların əxbari əksər övqat nəticə bağışlayır,* ***amma*** *özləri yalançı və bədzatdırlar*.(MFA,I,307) *Sənin atan usta Rəhman dəllək, ülgücbülöv ilə məqul dövlət qazandı, sən puç etdin. Neçə kərə mən sənə dedim ki, .. qarpız suyu ilə qızdırmaya müalicə etməkdən əl çək, sözümə qulaq asmadın*.. (MFA,I,41)

b) müqayisəli və fərqləndirici qarşılaşdırma: *Fransa və İngilis məmləkətlərində eşşəkləri və atları və öküzləri dəxi vurmaq və incitmək qədəğəndir,* ***amma*** *İran məmləkətində despotun fərmanı ilə hətta cəlilüşşə'n üməranın ayaqlarını fələqqəyə qoyub çubuq vurarlar*.(MFA,II,32) *Hacı Şeyxqulunun da dövləti var imiş,* ***amma*** *Hacı Çələbinin sikkəsi və rəşadəti ondan artıq imiş*.(ŞXİT,4) *...o,ustadi-elm və ədəbdir,* ***amma*** *mən ustadi-nəzmü nəsrəm*.(SƏŞ,III,12) *Elmi-təbiəti və elmi-nücumu bu məktubda sənə və sairələrə təlim etmək mümkün deyil,* ***amma*** *qaideyi-elmiyyəni bir növ ilə təqrir etmək olur*.(MFA,II,65) *...Hatəmin tamam əzası tökülüb,* ***vəlakin*** *iki əlləri səlamət qalıbdır*. (SƏŞ,II,595) *Bəli, belə səfalı yer çox tapılar,* ***amma*** *Molla İbrahimxəlil kimi büzürgüvar ələ düşməz*. (MFA,I,45) *Onları kiçik olduğuna baxmaq ilə görmək olmaz,* ***amma*** *ol suyun bir damcısına altı yüz böyüdən ayna ilə baxanda o bir damcıda neçə min heyvanat və ələfiyyat görmək olur*.(Ə,113) *Əsl çiçəkdən çox adam tələf olur, amma səpgidən yüzdə biri vəfat edər*.(Ə,114)

Qarşılaşdırma əlaqəsinin komponentlərində bir sıra üzvlərin müqayisə yolu ilə qarşılaşdırıldığı hallar da vardır: Molla İbrahimxəlil. ***Mən sizə yaxşılıq etmək fikrindəyəm, siz mənim əməyimi və cəfamı zae etmək fikrindəsiniz!*** (MFA,I,52) Vəzir. ***Mən bir böyük vilayətə*** *nəzarət edib dolandırıram;* ***sən kövdən bir mənim evimi, mənim nökərlərimi*** *dolandıra bilmirsən!*(MFA,I,106) ***Dad eylərəm, yetişməzsən haraya***. (QZ,45) ***Yetər oldu ömür başa, yetmədi Əlim zülfi-pərişanə,*** *ay mədəd!* (QZ,56) *Çox* ***alişan nazəninlər görmüşəm, Sənin kimi şahizadə tapılmaz***.(QZ,57) ***Mən ona çakərəm, o mana sultan***.(QZ,90)

Aydınlaşdırma əlaqəsi. Tabesiz mürəkkəb cümlənin bu növü də səbəb-nəticə və qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr kimi, iki komponentdən ibarət olur. Komponentlərdən biri ümumilik bildirir, digəri onu izah edib aydınlaşdırır. Müasir dilimizdə aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr əsasən intonasiya ilə qurulur, *yəni* bağ-

layıcısından az istifadə edilir, lakin X1X əsrin ədəbi dilində bu bağlayıcı əlavələri və tabesiz mürəkkəb cümlənin bu növünü əlaqələndirməkdə çox fəal olmuşdur; məs.: *Hələ qulaq as, üsuli-dinin bir əsli ədalətdir,* ***yəni*** *müsəlman olan kəs gərək xaliqi adil bilsin*.(MFA,II,50) *İkinci fəsildə əkin və ziraət xəbərləri olacaqdır,* ***yəni*** *bizim ya qeyri vilayətlərdə olan əkinlərdən, onları əkib becərməkdən, onları əkib becərən vaxtda işlənən əsbablardan, əkin yerini şuxm etməkdən... danışıq olacaqdır*.(Ə,17-18) *...əsl çiçək yovuxmadır,* ***yəni*** *bir xəstənin yanına sağ adam gəlsə, o da naxoşluyar*.(Ə,114) Tərkib hissələrin intonasiya ilə əlaqələndiyi hallar da az deyildir: *...bu gün xəlifədən qəribə əhval müşahidə olundu: üç nubar olan xiyardan bir dilim bir kimsəyə verməd*i.(SƏŞ,II,593) *Dadistad edənlər üç qismdir: əvvəlinci və ikinci qism gildi hesab olunur, amma üçüncü qism gildi deyil və özü də beş firqədir: birisi xırda alış-veriş etmək, birisi malları yük ilə gəzdirmək, birisi malları əldə gəzdirmək, birisi sənətkarlıq və birisi amillik*.(Ə,106)

5.Bölüşdürmə əlaqəsi. Tabesiz mürəkkəb cümlənin bu növünün tərkib hissələrində müxtəlif iş və hadisələr qeyd olunur, həmin iş və hadisələr bir-birini növbə ilə əvəz edir, yaxud da onlardan birinin mümkünlüyü ifadə olunur. X1X əsrin ədəbi dilində də tabesiz mürəkkəb cümlənin bu növü bölüşdürmə bağlayıcılarının iştirakı ilə formalaşmışdır.

a)hadisələr bir-birini növbə ilə əvəz edir: *...ya bir zirək Bab çıxır, ya bir huşyar sahibi-məzhəb peyda olur*...(MFA,II,45) Burada *ya* bağlayıcısı müasir dildəki *gah* bağlayıcısı məqamındadır.

b)qeyd edilən hadisələrdən birinin mümkünlüyü ifadə olunur: Əziz bəy. *Ya gərək bu saatda bibini çağırıb mənim qulağım eşidə-eşidə deyəsən ki, sən Ağa Həsənə getməyəcəksən, yainki gərək bu gün mən Ağa Həsəni öldürəm!* (MFA,I,258)

6.Qoşulma əlaqəsi. XIX əsrin ədəbi dilində qoşulma əlaqəli tabesiz mürəkkəb cümlə nümunələri də qeydə alınmışdır. Bu cür cümlələrdə ikinci komponent birinciyə bir növ əlavə kimi qoşulur. Aşağıdakı nümunələrdə bu cəhət daha aydın müşahidə olunur:

Hacı Kərim zərgər. *Min manat da mənim üçün al,* ***evimi girov verdim.***

Ağa Zaman həkim.*Min manat da mənim üçün al,* ***övrətimin bağını girov verirəm.***

Səfər bəy mülkədar. *Min manat da mənim üçün al,* ***kəndim girov olsun***.(MFA,I,39)

Qarışıq tipli tabesiz mürəkkəb cümlələr. Adi, sadə quruluşlu tabesiz mürəkkəb cümlələrlə yanaşı, Qasım bəy Zakirin, M.F.Axundovun

və "Əkinçi"nin dilində tabesiz mürəkkəb cümlənin mükəmməl qarışıq tiplərinə də rast gəlirik. Bir neçə nümunəni nəzərdən keçirək:

1.Komponentlərdən biri sadə, digəri tabesiz mürəkkəb cümlə şəklindədir; məs.: *Gözüm yolda qaldı, könül intizar; Gəlmədi canandan bir xəbər mana*.(QZ,47) Qarşılaşdırma əlaqəli bu tabesiz mürəkkəb cümlənin komponentlərindən birincisi zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi formalaşmışdır, ikincisi sadə quruluşludur.

2.Komponentlərdən biri sadə, digəri tabeli mürəkkəb cümlə şəklindədir; məs.: ***Nə yar yazı bilir, yazam göndərəm**, **Nə** deyən var o dildarə dərdimi*.(QZ,75) ***Altı ay yoxdur ki, bizim "Əkinçi" qəzeti çap olunur**, **amma** ingilisin paytaxtı London şəhərində onun çap olunmağı məlumdur*.(Ə,99) Hər iki cümlədə birinci komponent tabeli, ikincisi sadədir. Birinci cümlə zaman, ikincisi qarşılaşdırma əlaqəlidir. Birinci cümlədə tabeli komponent nəticə budaq cümləli, ikincidə mübtəda budaq cümləlidir.

3.Tabesiz mürəkkəb cümlənin hər iki komponenti tabeli mürəkkəb cümlə şəklindədir: *Bir neçə ildir **ki,** Rusiya dövlətinə tabe olmuşuq **və** buçağadək bizim ticarətimiz qədim sayaq olan kimi olubdur, **amma** Rusiya dövlətinin öz əhli zikr olan xərci çox zamandır **ki**, verir*.(Ə,19) - qarşılaşdırma əlaqəli bu tabesiz mürəkkəb cümlənin komponentlərinin sərhədi *amma* bağlayıcısından ayrılır; hər iki komponent mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir, Fərq buradadır ki, birinci komponentdə budaq cümlə zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi qurulmuşdur.

4.Sadalama üsulu ilə qurulan tabesiz mürəkkə cümlənin komponentlərindən biri tabesiz, digəri tabelidir; məs.:

Zakirəm, türfə xiyaban ilə bağım vardır,
Yatmağa, durmağa rəngin otağım vardır,
Nə qədər aşü plov yesə qonağım, vardır,
Yaxşı nəvvadələrim, oğul, uşağım vardır,
Yoxdu bir özgə qəmim, fikrü xəyalım qocalıq.(QZ,236)

Birinci komponenti birləşdirmə (eynizamanlı) əlaqəsi ilə qurulmuş 6 tərkib hissədən ibarət olan bu tabesiz mürəkkəb cümlənin dördüncü tərkib hissəsi (üçüncü misra) tabeli (kəmiyyət budaq cümləli), son misrası (ikinci komponent) tabesiz (qarşılaşdırma əlaqəli) "mürəkkəb cümlə"dən ibarətdir.

5.Tərkib hissələrdən biri sadə, digəri qarışıq tiplidir; məs.: *Nə ola, əgər varub təcəssüsi-əhkami-şəriət edəsən, **əgər** caizü mübah ol**sa,** məni sən aldıqdan sonra valideyni-namidarimi də ki validi-büzürgüvarın təzvici ilə şad qılasan **ki**, əhli-beyt arasında təfriqə düşməsin* (AB, 129) - səbəb-nəticə əlaqəli bu cümlədə ikinci *əgər* bağlayıcısına qədərki hissə birinci komponent, qalanı nəticə bildirən ikinci komponentdir. İkinci

komponent şərt budaq cümləlidir - budaq cümləsi (*əgər caizü mübhəm olsa*) sadə quruluşludur, baş cümləsi məqsəd budaq cümləli tabeli mürəkkəb cümlə kimi formalaşmışdır.

Səndən ayrılandan bəri lalam mən,
Ü*mid yoxdu gələn ilə qalam mən;*
And olsun Kəbəyə, xəstəhalam mən,
Can verməyə səri-kuyin istərəm.(QZ,89)

Bu cümlə də səbəb-nəticə əlaqəlidir. Birinci komponenti zaman əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir və onun üç komponentindən ikincisi tamamlıq budaq cümləlidir.

Qarışıq tip baxımından aşağıdakı cümlələr də maraqlıdır: *Sən çox yaxşı qatırçılığa layiqsən; **amma** beyninə düşübdür **ki**, mən də gərək molla olam, **ondan ötrü ki** atam molla idi*.(MFA,1,41) *On il bundan əqdəm zikr olan oxuyanların nisfi qədər oxuyan olmayıb, **amma** indi Rusiyada **ol qədər** oxumaq istəyən var **ki,** ümumi məktəbxanalar dolubdurlar **və** hər ildə hər bir məktəbxanaya oxumaqdanq ötrü **ol qədər** ərizə verən olur **ki**, onlardan yer olmadığına beşdən bir adam götürmək olur*. (Ə,72)

Qarşılaşdırma əlaqəli birinci tabesiz mürəkkəb cümlənin ikinci komponenti *amma* bağlayıcısından başlanır; ikinci komponent mübtəda budaq cümləli, mübtəda budaq cümləsi isə səbəb budaq cümləlidir. İkinci cümlə də qarşılaşdırma əlaqəlidir, birinci tərkib hissəsi (*amma* bağlayıcısına qədər) sadə quruluşlu, ikinci tərkib hissəsi birləşdirmə (eynizamanlı) əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir və hər bir komponenti "baş cümlə + budaq cümlə" quruluşlu nəticə budaq cümləli tabeli mürəkkəb cümlə kimi formalaşıb.

6.Sadalama üsulu ilə qurulmuş zaman əlaqəli tabesiz mürəkkəb cümlənin hər bir komponenti qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir:

Hatəmxan ağa.*Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar, biz papaqlı oturarıq, onlar başı açıq otururlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alırıq, onlar gizlin alarlar; biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parijdə çox ər almaq*. (MFA,1,69)

Qarşılaşdırma əlaqəli aşağıdakı tabesiz mürəkkəb cümlə daha mürəkkəb quruluşludur:

Müsyö Jordan. *Cənab Linney bunu fərz edir üçüncü dərəcədə **və** cənab Turnefort onu fərz edir dördüncü dərəcədə, **amma** mən onu ikinci dərəcədə fərz edəcəyəm **və** bu otun adı latınca serastrum alpinumdur **ki**, göz ağrısına nəhayət mənfəəti var*.(MFA,1,71) *Amma* bağlayıcısından iki

komponentə ayrılan bu cümlənin birinci komponenti zaman, ikinci komponenti qoşulma əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir və ikinci komponentin qoşulan hissəsi təyin budaq cümləlidir.

7.Tabesiz mürəkkəb cümlənin hər iki komponenti qarışıq tipli tabeli "mürəkkəb cümlə"dən ibarətdir: *Bu surətdə gərəkdir divlərə, ifritələrə əmr edim **ki,** Pariji xarab etsinlər, altını üstünə çevirsinlər ki, Şahbaz bəy dəxi getmək niyyətindən düşsün; **yainki** Mərrix ulduzuna hökm edim **ki**, Müsyö Jordanın boynunu vursun **ki,** Şahbaz bəyi aparan olmasın.* (MFA,1,81) *Yainki* bağlayıcısına qədər olan birinci komponent tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə kimi qurulmuşdur; baş cümləsi sadə, budaq cümləsi mürəkkəbdir - nəticə budaq cümləlidir. İkinci komponent də eyni quruluşludur, lakin tamamlıq budaq cümləsi məqsəd budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Cümlə özü bütövlükdə bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir və komponentlər *yainki* bağlayıcısından ayrılır.

Beləliklə, keçən əsrin ədəbi dilində məntiqi-struktur baxımdan tabesiz mürəkkəb cümlələrdə bir fərq yoxdur və mürəkkəb cümlə komponentləri arasında tabesizlik əlaqəsi özünü müasir normalara müvafiq şəkildə göstərir.

TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Tabeli mürəkkəb cümlələrin əsas quruluş modelləri çox qədim dövrlərdən formalaşmışdır. Uzunmüddətli poeziya dilində onun, demək olar ki, bütün əsas növləri işlək olmuşdur. Lakin X1X əsrdə nəsrin, dram sənətinin, satirik şerin meydana çıxması, davam etməkdə olan orta üslub, M.F.Axundovun fəlsəfi traktatı və mətbuat dili dilimizin bütün təbii imkanlarını, o cümlədən tabeli mürəkkəb cümlə modellərini, baş və budaq cümlələri əlaqələndirən vasitələri küll halında üzə çıxarmaq və qeydə almaq üçün əvvəlki dövrlərdən qat-qat geniş imkanlar yaratmışdır. Bunu ayrı-ayrı budaq cümlə növlərini nəzərdən keçirməklə də görə bilərik.

1.Mübtəda budaq cümləsi ya baş cümlədə olmayan mübtədanın əvəzində işlənir, yaxud da baş cümlədə işarə əvəzliyi-qəlib sözlə ifadə olunmuş mübtədanı izah edib aydınlaşdırır. Budaq cümlənin bu növü müasir dilimizdə olduğu kimi, iki tipdə özünü göstərir.

I tip.Baş cümlə əvvəl, budaq cümlə sonra işlənmiş, budaq cümlə baş cümləyə ya yalnız intonasiya ilə, yaxud da *ki* bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə budaq cümlənin qəlibi kimi işarə əvəzliyi-mübtəda işlənmişdir (işlənmədikdə təsəvvür edilir); məs.: *Mənəm **kim**, atam çakucundan səda alır künbədi-çərxi-neylufəri*.(AB,128) *Onun borcudur, işlə-*

rin yaxşısı və yamanlığını ayna kimi xalqa göstərsin.(Ə,150) *Filosofların birisinin qövlüdür **ki**, dünyada heç bir əməl xalqın... biqeyrət olmağına bais deyil, məgər sədəqə vermək.*(MFA,II,98) *Bular vuran od idi əhli-fəqr xərmənin***ə** ***Ki**, indi şöləvər oldu cahanda, vəhşətdir*.(AB,429) *Bundan gələsi o var **ki**, sən bu qızların havasına yellənib uçursan, istəyirsən Parijə gedəsən!* (MFA,I,77) *Sizin üzünüzün susuzluğundandır **ki,** Təbrizdən vəba və taun əksik olmur!* (MFA,I,261) Zübeydə. *Amma tamam Təbrizə məlum oldu **ki**, bu iş məhz hiylədir*.(MFA,I,262) *Dörd ildir **ki**, qəzeti çap etməyə izn istəmişik və bu zamanda dünyanı gəzib bu hürufatı tapmışıq*.(Ə,37)

Bədəl. *Qəhrəman, mənim belə yadıma gəlir **ki**, biz Hacı Qafurun yanında olduğumuz saatda bir uşaq səsi gəldi.*

Qəhrəman.*İndi mənim də fikrimə düşür **ki,** bucaqda bir arvad oturmuşdu, qucağında bir qundaq var idi.*

Qəffar. *A kişi, deyəsən, mənim də xatirimə gəlir **ki,** Hacı Qafur dedi ki, o mənim arvadımdır, o uşaq da mənimdir. Bir aydır, anadan olubdur.*(MFA,I,290-291)

Bu misallardan bir qismində budaq cümlə baş cümləyə intonasiya ilə, əksəriyyətində *ki* bağlayıcısı ilə bağlanmışdır.

Bəzən baş cümlə budaq cümlənin arasında işlənmiş, budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır: *Zakir **neçə gündür**, itirib özün*. (QZ,80)

II tip. Budaq cümlə baş cümlədən əvvəl işlənmiş, ona bağlayıcı sözlərlə (*kim, kim ki, hər kim, hər kəs, hər nə* və s.) bağlanmışdır. Bağlayıcı sözdə *ki* ədatı olmadıqda budaq cümlənin xəbərində *-sa,-sə* şəkilçisi işlənmişdir (bəzən hər ikisindən birlikdə istifadə edilmişdir). Baş cümlədə qarşılıq bildirən söz olmadıqda təsəvvür edilir; məs.: ***Kimin ki** xülqü müzəyyəndir, istəməz zinət*.(AB,428) *Yetişdi bir yerə iş, **hər kimin ki** saqqalı Hənalı ol**sa** uzun, **hörməti** ziyadətdir*.(AB,428) ***Hər kimsə ki** aqildir, Qılmaz özünü rüsva bədgulər arasında*.(AB,418) *Bu bahar fəslində, gül mövsümündə **Hər kimin ki** ol**a** yarı yanında, Bürci-Əsəddədir **kövkəbibəxti**.* (QZ,41)...***Hər kəs** türk dili yazıb-oxumağı bilməsə, calis ola bilməz*. (Ə,309) ...***hər kim** öz övrətindən razıdır**sa,** ayağa dursun*. (SƏŞ,II,60) ***Hər kim** gələ Tiflisə tamaşa tələbindən, Zülfi-ruxi-məhvəşləri görmək səbəbindən, Görməz əsəri rahəti-can ruzü şəbindən*. (AB,81) ***Kimin ki** güzarı düşsə kuyinə, İlişir yüz yerdən tari-muyinə*.(QZ,49) ***Hər kim** yana onun iştiyağına, Gərəkdir əl qata cigər yağına*.(QZ,104) *Necə ağlamayım, bəs ağlamazmı **Bir kəs ki** yarından iraqə düşər?* (QZ,123) Şeyx Salah. ...*Molla İbrahimxəlilgilə **hər kəs** sikkəli pul gətirdi**sə**, iki çəkisi bərabəri sikkəsiz xalis gümüş aldı apardı*.(MFA,I,38) ***O kəslər ki** həmişə bizə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə gün-gündən tərəqqi edib irəli gediblər*.(Ə,18)

Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin yalnız bir Qismində budaq cümlə baş cümlədən əvvəl gələrək ona *ki* ədatı ilə bağlanmışdır: *...bu ot **ki** görürsünüz, **bunun adı** aqantusdur...* (MFA,1,71)

Xəbər budaq cümləsi. Budaq cümlənin bu növü baş cümlənin işarə əvəzlikləri - qəlib sözlərlə ifadə olunmuş xəbərini izah edib aydınlaşdırmışdır. Xəbər budaq cümləsinin bağlayıcı sözlü modeli qədim olsa da, müasir dilimizdə olduğu kimi, XIX əsrin ədəbi dilində də xəbər budaq cümləsinin "baş cümlə + budaq cümlə" quruluş tipi daha işlək olmuşdur. Baş cümlənin xəbəri əksərən *budur, odur, oldur, bu idi, o idi, bu imiş, o imiş* sözləri ilə ifadə olunmuş, budaq cümlə vasitəsilə izah edilmişdir. Budaq cümlə baş cümləyə əksərən *ki* bağlayıcısı, bəzən də intonasiya ilə bağlanmışdır; məs.: *Labüdd aləmi-surətdə iqtizayi-təbiəti-bəşəri **oldur ki,** hər kimsə gərək bir növ mənzur ilə çalışsın...*(AB,121) *İkinci təklifim **budur ki**, gərək Hacı Qafurun dövlətinin yarısına qane olasan*. (MFA,I,277) *Ağa Bəşir, sənin təqsirin **budur ki**, bu qapıda qulluq edənlərin vəzifəsini onlara tanıtmayıbsan*.(MFA,I,106) *Mənim də gümanım **bu idi ki**, bu iş sizin lamahala xatirinizdə olacaqdır*. (MFA,I,291) *Əlbəttə, bu xəbərlərə səbəb **oldur ki**, bizim adamın bu qərardaddan xəbəri yoxdur*.(Ə,19)

Bəzən baş cümlənin xəbəri *ondadır, bundadır, oradadır, buradadır, orasıdır, burasıdır* və s. sözlərlə ifadə olunmuşdur; məs.: *...mənim təəccübüm **ondandır ki**, sizin kimi bimisl fazil bu güzarişi mayeyi-iftixar sanıb, öz etiqadınız ilə onu səadəti-üzma güman edirsiniz...*(MFA,II,91) *Amma səhvi **buradadır ki,** haman vücudi-küllə iradə və ixtiyar qərar verir*. (MFA,II,204) *Müşgül **burasıdır ki**, nihan sirr olacaq faş*.(QZ,257)

Baş cümlənin xəbəri *bu, o* sözlərinin *ibarət, qədər* sözləri ilə birləşməsi şəklində də ifadə olunmuşdur: *Proqres - **ibarətdir ondan ki**, xalq hər xüsusda - ülumda və sənayedə və əqayildə anən-fəanən talibi-tərəqqi olub cəhalətdən və bərbəriyyətdən nəcat tapmağa sai olalar*. (MFA,-II,14) *Bu toxumlar havada **ol qədərdir ki,** insan hər nəfəsin alanda*

3.Tamamlıq budaq cümləsi. Tamamlıq budaq cümləsi baş cümlənin xəbərini tamamlayır: ya baş cümlədə tamamlıq olmur, tamamlığın baş cümlədən doğan sualına budaq cümlə cavab verir, yaxud da budaq cümlə baş cümlənin işarə əvəzliyi-qəlib sözlə ifadə olunmuş tamamlığını izah edir. Müasir dilimizdə olduğu kimi, X1X əsrin ədəbi dilində də çoxişlənən mürəkkəb cümlə növlərindən biri tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Tamamlıq budaq cümləsinin "baş cümlə + budaq cümlə" və "budaq cümlə + baş cümlə" quruluş tiplərinin hər ikisi işlək olmuşdur. Lakin təbii ki, analitik tip daha çox nəzəri cəlb edir.

I tip. Budaq cümlə baş cümlədən sonra işlənmiş və ona bəzən yalnız intonasiya, əksərən *ki* bağlayıcısı ilə bağlanmışdır. Müasir dildə ol-

duğu kimi, baş cümlədə qəlib söz - işarə əvəzliyi işlənmişdir (qəlib söz olmadıqda təsəvvür edilir). Budaq cümlə əksərən baş cümlədə xəbər vasitəsilə ifadə olunan işi, hərəkəti tamamlamış, bəzən baş cümlədə ismi xəbərə, feli tərkiblərə də aid olmuşdur; məs.: *Nagah gördü* ***kim,*** *karivani-Leyli - məhbublar sərxeyli yetişdi*.(AB,128) *Sərdar Fəthəli xan bir para kəslərdən və böyüklərdən xəbər alır* ***ki****, Şəki vilayətinin əsil bəgzadəsi Məlik Əlidir, yoxsa Hüseyn xandır?* (ŞXİT,9) *Dəxi* ***bunu*** *fikir etmir* ***ki,*** *belə dögülməkdən özü bu günə qalıb və belə vay günə onun övladı həm qalacaq*.(Ə,265) Hacı Kərim zərgər. *Hələ sən* ***bunu*** *isbat elə* ***ki****, hər kişinin öz sənəti necə özünə iksirdir?* (MFA,I,40) Zübeydə.*Mən ona gedib deyən deyiləm* ***ki****, qız razı olmur*.(MFA,I,263) Ağa Həsən.*Xanım, bir səbəbini bildirəydin* ***ki****, mən niyə sizin ittifaqınıza və mərhəmətinizə layiq olmuram?* (MFA,I,265) Səkinə xanım. *Nə bilirlər* ***ki,*** *sən kimsən? Elə bilirlər* ***ki****, sən mənim qohumumsan.*(MFA,1,267)

Budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanmışdır: *Yar demişdi: gələn bayrama gəlləm*...(QZ,43) İntonasiya ilə bağlanan bu cür cümlələrdə komponentlər yerini dəyişə bilir; məs.: *Cəfa çəkmə, məndən sana yar olmaz -* ***Dönə-dönə dedi o dilbər mana****.*(QZ,47)

II ip. Tamamlıq budaq cümləsinin ikinci tipində budaq cümlə baş cümlədən əvvəl işlənərək ona bağlayıcı sözlərlə bağlanmış, bəzən bağlayıcı sözlə yanaşı, budaq cümlənin xəbərində ***-sa,-sə*** şəkilçisi işlənmişdir. Əksərən bağlayıcı söz *ki* ədatı ilə birgə çıxış etmişdir. Baş cümlədə qarşılıq bildirən söz-tamamlıq olmadıqda, təsəvvür edilir; məs.: ***Hər sənəm ki*** *verə yarına zəhmət, Oxunur ölüncə* ***zatına*** *lənət*.(QZ,49) *Gərək* ***gözlərinə*** *millər çəkilə,* ***Hər kim*** *de****sə*** *vəhşi qəzalə sana.*(QZ,51) *Ədavət yolilə səg rəqib məndən Bimürvətə* ***hər nə*** *dedi, inandı*.(QZ,80) Bu qalmağala bizi ancaq o çör-çöp döşürən Müsyö Jordan salıbdır. *Baba dərviş,* ***hər nə*** *bilirsən,* ***ona*** *elə!* (MFA,I,82) *..indi vəzarəti* ***hər kəsə ki*** *layiq bilirsən,* ***ona*** *ver.*(MFA,1,120) *Sonra* ***hər nə*** *ol****sa****, mənə bildirərsən*.(MFA,I,142) ***Hər kəs*** *ayaq irəli qoy****sa****, qarnın tüstü ilə dolduracağam*.(MFA,I,183) Bilirəm nə deyirsən. ***Hər nə*** *bilirsən, elə,* əlindən gələni əsirgəmə! (MFA, I,265)

Təyin budaq cümləsi. Təyin budaq cümləsi müasir modelinə uyğun olaraq, baş cümlənin əşya məzmunlu bu və ya digər bir üzvünü təyin etmək üçün işlənmişdir. Əksərən baş cümlədən sonra gələrək ona *ki* bağlayıcısı ilə bağlanmışdır. Bağlayıcı sözlü növündən fərqli olaraq, analitik tipi çox işlənmişdir. Baş cümlədə *elə, elə bir* tipli qəlib sözlər, bəzən də yalnız ***bir*** sözü işlənmiş və budaq cümlə vasitəsilə izah edilmişdir; məs.: ***O*** *aşiq bilir ki, qədrin vüsalın, Bir müddət möhnəti-fərağı çəkər.* (QZ,120) *Yox olsun o ölkə ki, onda cadu, pitik olmaya!* (MFA,I,76) ***Elə*** *külfət var* ***ki,*** *üç qardaşın biri müsəlman, biri xristian, biri bütpərəstdir.*(Ə,235)

Heydər bəy. ***Bir*** *hünər göstərrəm* ***ki,*** *Rüstəmi-dastan da göstərməmiş ola.* (MFA,I,190) *Bu naxoşluğun səbəbi* ***bir*** *qurtdur* ***ki****, itin bağırsaqlarının içində zindəganlıq edər*. (Ə,151) *Vəzir, aram tut, indi bu saatda ona* ***bir*** *divan edərəm* ***ki****, məcmui-aləmə ibrət olar!* (MFA,I,121) *Qız qalıb yalqız, ancaq bir cavan namizədilə ki, əlindən heç bir iş gəlməz*. (MFA,1,280) *Bu, Həpo qumarbazdır* ***ki****, dünən Ərdəbildən gəlibdir. Bu, qəzvinli Şeydadır* ***ki,*** *gündüz sərraflıq edər, gecə əyyarlıq. Bu da Qurbanəli həmədanlıdır* ***ki****, gecə hər iş əlindən gələr, amma gündüzlər bazarda corab satar. Bu da marağalı Hənifədir* ***ki****, gündüz qoltuqfüruşluq edər, gecələr mənim yanımda olur*. (MFA,I,284-285) *Qorxma, Həpo* ***bir*** *nadürüstdür* ***ki****, hər sifətə və hər dona girə bilər.* (MFA,I,285)

Baş cümlədə qəlib söz-təyin işlənməyə də bilir, budaq cümlənin baş cümlədə hansı üzvü izah etdiyi intonasiya ilə bilinir; məs.: *Çernyayev rus generalıdır* ***ki,*** *2 min əsgər ilə Daşkənd şəhərini alıb, tamam Türküstanı zəbt etmişdi*.(Ə,212) *Bu sözləri ona mollabaşı deyirdi* ***ki,*** *İranda bir mətin kimsənə hesab olunurdu*.(MFA,1,316) *Vaqe olur Şəmsəddin mahalında, dərənin içində* ***ki****, bir tərəfində təpə dəxi zahirdir*.(MFA,1, 156)

Təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin bir qismində budaq cümlə baş cümlənin daxilində - aid olduğu sözdən sonra işlənmişdir: *Təmsili-qisseyi-vaqiə* ***ki, keyfiyyəti dörd məclisdə bəyan olub****, itmamə yetir*.(MFA,I,35) *Çünki fosfor* ***ki, ondan kibritlərin başı olur****, bərk zəhərdir*.(Ə,196) *Bir para xanlar* ***ki, Leonid xan ilə bilə o həvaldə durmişdilər****, Dərviş Məhəmməd xanın getməgin bilüb qoşun əhli yolların qurubdurlar*.(ŞXİT,3) *Bu xərc* ***ki, genə bizim özümüzə məsrəf olacaqdır****,* ***o*** *xərclərlə məktəbxanalar açılır...*(Ə,20)

Daxili təyin budaq cümləli tabeli mürəkkəb cümlələr XIX əsrə qədər Azərbaycan dilində daha çox işlənmiş, sonralar ədəbi dilin xəlqiliyi, canlı dilə daha çox söykənməsi əsasında tədricən azalmış və Hind-Avropa dil sisteminin quruluş xüsusiyyətini tədricən itirərək baş cümlədə aid olduğu hissə ilə birləşərək budaq cümləyə çevrilmişdir.

5.Zərflik budaq cümlələri. XIX əsrin ədəbi dilində zərflik budaq cümlələrinin, demək olar ki, bütün növləri işlənmişdir və quruluş modelləri əsasən bugünkü kimidir.

Tərz budaq cümləsi baş cümlədəki hərəkətin icra, əlamətin meydana çıxma tərzini bildirir. XIX əsrin ədəbi dilində də tərz budaq cümlələri mənaca fərqlənərək iki semantik çalarda özünü göstərir:

a) nəticə bildirənlər; b)müqayisə bildirənlər.

Bu xüsusiyyətlər özünü daha çox "baş cümlə + budaq cümlə" quruluş tipində göstərir.

Budaq cümlə baş cümlədən sonra işlənərək ona *ki* bağlayıcısı ilə bağlanmışdır. Baş cümlədə qəlib söz kimi *elə* işarə əvəzliyi tərz zərfliyi

vəzifəsində işlənmiş və budaq cümlə vasitəsilə izah edilmişdir. Budaq cümlə nəticə çalarına malikdir; məs.: Tükəz. *Səni görüm boğazın **elə** tutulsun **ki**, su da ötməsin, ay göyərmiş!* (MFA,I,211)

Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanır, baş cümlədə *bir tövr, bir tərz, bir növ, bir təriq, bir növ ilə, bir qayətdə* sözlərindən biri işlənir; məs.: *Qasım bəy qafiyatında öz məhbubəsi ilə **bir növ** müxatibə və mükalimə edir **ki,** adam valeh olur.* (MFA,II,203) *Amma əqaidini tülki və çaqqal əfsanələrinin içində **bir tərz ilə** gizləyibdir **ki**, duymaq çox çətindir.*(MFA,II,208) *...nəqaye və güzarişatı və əhvali-müasirini və ətvari-pirü cavanı **bir növ ilə** bəyan edir **ki**, insan vəcdə və zövqə gəlir.* (MFA,II,203)

Ədəbi və elmi əsərlərin dilində tərz budaq cümləsinin ikinci - "budaq cümlə + baş cümlə" quruluş tipi daha çox müşahidə olunur. Bu cür tərz budaq cümlələri baş cümləyə *necə, hər necə, necə ki* bağlayıcı sözləri ilə bağlanmış, baş cümlədə qarşılıq bildirən *elə, elə də* sözləri işlənmişdir: Molla İbrahimxəlil. *Sənə **hər necə** deyirəm, **elə** eylə.* (MFA, I,-44) ***Necə ki** builki bahalığı soraq verən yox idi, **elə də** bu ilki kimi taxılın hüsula gəlməyin dəxi soraq verməyirlər.*(SƏŞ,III,432) Vəzir. *...**necə ki** deyiblər, əməl elə...*(MFA,I,129) Ağa Mərdan. S*izi aparsın məhkəməyə, orada **necə ki** indi söylədiniz, **bu qərar ilə** şəhadət edin.*(MFA,I, 291)

Bəzən *necə ki* bağlayıcı sözünə müvafiq olaraq, baş cümlədə qarşılıq bildirən söz məqamında *dəxi* sözü işlənmişdir (bu forma müasir dildə arxaikdir); məs.: *Yəni **necə ki** məkanın bidayət və nihayəti yoxdur, zaman **dəxi** biibtida və intihadır.*(MFA,II,92) ***Necə ki** qüvveyi-teleqrafiyyə bir para əczayi-mədəniyyənin imtizacında zühura gəlib iftiraqında zaildir, ruh **dəxi** cismin tərkibində zühura gəlib cismin mütəlaşi olmağında zail olur.*(MFA,II,205)

Canlı danışıq dilində olduğu kimi, ikinci tipdə baş və budaq cümlə bəzən yerini dəyişmiş, bağlayıcı sözlə birlikdə budaq cümlə baş cümlədən sonra işlənmişdir; məs.: *Mən əmani-əhli-zəminəm, **necə ki** ulduzlar əmani-əhli-asimandır.*(MFA,II,60) *Ol ruzigarın hükəması o elmə məsaiyi-cəmilələr məbzul edib, minhaci-nübüvvəti ol istidrac ilə puşidə qılıblar, **necə ki** Nuh əleyhissəlamın əsrində dəvət və əzimətin iştiharı vardı.*(SƏŞ,III,12)

Dərəcə budaq cümləsi baş cümlədəki hərəkət və ya əlamətin dərəcəsini bildirir. Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi dilində də dərəcə budaq cümləsinin bir tipi - "baş cümlə + budaq cümlə" quruluş tipi işlək olmuşdur. Budaq cümlə baş cümlədən sonra gələrək ona *ki* bağlayıcısı ilə bağlanmış, baş cümlədə *o dərəcə, o dərəcədə* məqamında işlənən qəlib sözləri izah edib aydınlaşdırmışdır. Baş cümlədə aşağıdakı qəlib sözlərdən istifadə edilmişdir:

Baş cümlədə ***o qədər*** sözü qəlib söz kimi: *..biz **o qədər** kövdənik **ki**, hər gunə ləğviyyatı əqlin mizanında çəkməmiş mühəssənatdan sanırıq*. (MFA,II,84)

Baş cümlədə ***belə, bir belə*** sözləri qəlib söz kimi: *Amma buranın xalqı **belə** firəng çitinə hərisdir **ki**, onu görəndə al-yaşılın üzünə baxmırlar*.(MFA,I,196) *...bu sənət **bir belə** asan zaddır **ki**, hər bir məktəbdən çıxan kimsənələrin əksəri fars arasında bir az məşq etməkdə əlfazı nəzmə düzməyə qadir olur*.(MFA,II,203) *Əlbəttə, xərc var, onun varlığına söz yoxdur, Amma **elə** artıq deyildir **ki**, xalqa çox cəbr olsun*. (Ə,20)

Bu cür cümlələrdə *o qədər, bir belə* sözləri kəmiyyət budaq cümləsinin qəlibinə bənzəsə də, əşyanın kəmiyyətini deyil, hərəkət və əlamətin dərəcəsini bildirir və dərəcə budaq cümləsinə xidmət edir.

Baş cümlədə *bir mərtəbədə* qəlib sözü: *Xaçmazdan gələn bu Şeyx Salah sizi **bir mərtəbədə** inandırıb və əqlinizi çaşdırıb **ki**, mənim sözümə hərgiz etimad etməyəcəksiniz*.(MFA,I,40) Molla Həmid. *Ələlxüsus gümüş xahiş edənlər **bir mərtəbədə** çoxdur **ki**, hər kürənin gümüşünü bir ay, iki ay peşəki sövda edib alırlar*.(MFA,I,46) *...qayətdə müəssir moizələrinin qüvvəti ilə xalqı övzai-məişətin təhsilinə **bir mərtəbədə** şövqmənd etdilər **ki**, xalq biaram karxanalar yapmağa və sənaye işlətməyə iqdam edib…* (MFA,II,255) *İran xalqı **nə mərtəbədə** əqli-tüfuliyyətdə baqidirlər **ki,** bu növ cəfəngiyyata qulaq asmaqdan mütənafir olmurlar.* (MFA,II,108)

Baş cümlədə *o yerə* qəlib sözü: *Ay ləçər, axır işi **o yerə** gətiribsən **ki**, mənim qaravaşımı söyüb mənim üstümə göndəribsən?* (MFA,I,109)

Zaman budaq cümləsi baş cümlədəki hərəkət və ya əlamətin zamanını bildirir. Müasir dilimizdə zaman budaq cümləsinin "budaq cümlə + baş cümlə" quruluş tipi daha çox işlənir və rəngarəng quruluş modelləri ilə diqqəti cəlb edir. X1X əsrin ədəbi dilində həmin quruluş modellərindən əksəriyyəti qeydə alınmışdır.Bunların içərisində köhnəlmiş bağlayıcı vasitələr də vardır.

Budaq cümlə baş cümlədən əvvəl gələrək ona *hər vaxt ki, havaxt, nə qədər, vəqti ki* bağlayıcı sözləri ilə bağlanmışdır (müasir dilimizdə *vəqti ki* sözləri *vəqta ki* şəklində, həm də az hallarda şərt budaq cümləsinə xidmət edir); məs.: ***Hər vaxt ki*** *mən bu xarab olmuş otağa gəldim, bir xatadan xali olmanam.*(MFA,I,103) ***Vəqti ki*** *mən Rum hökumətindən məzum olub, çoxlu mal ilə Bağdada varid oldum, xalq məni görməyə gəldilər*.(MFA,II,64) ***Nə qədər*** *bədəndə canım var, nəfəsim gəlib-gedir, and olsun Rəşid bəyin öz canına, mən düşməndən intiqam almamış ondan əl çəkməyəcəyəm*.(NV,I,148) *...mən **havaxt** deyərəm, **o saatda** atın, vurun!* (MFA,I,219)

Budaq cümlə baş cümlədən əvvəl gələrək ona *ki* ədatı ilə bağlanmışdır: *Əvvəl yetişən gündə **ki** İskəndəri gördüm, Aya, bu mələkdir, de-*

dim, insanə dönübdür.(AB,382) Hacı Mehdi. *...iş* ***ki*** *düzəldi, səni razı edərəm*.(ƏH)

Budaq cümlə baş cümlədən əvvəl gələrək ona *neçə ki, nə qədər ki* bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: ***Neçə ki*** *onunla həmzəban idim, Xəlq içində sultan idim, xan idim.*(QZ,47) ***Nə qədər ki*** *sağdır, qoyarmı əğyar Yetişə ol şahdan nəvalə sana?* (QZ,51)

Budaq cümlə baş cümləyə *elə ki* bağlayıcı sözü ilə bağlanmışjdır; məs.: ***Elə ki*** *yetişib ala gözlərə, Hər birisin qaynar bir bulaq çəkib*. (QZ,53)

Budaq cümlə baş cümlədən əvvəl gələrək ona *ta kim, ta inki, o qədər ki* bağlayıcı sözləri ilə bağlanmışdır: ***Ta kim*** *kətmi-ədəmdən qədəm ərseyi-vücudə qoydum, ...təbimi qayətdə maili-əşar və qəlbimi nəhayətdə şaiqi-əbyati vəcdasar tapdım*.(SƏŞ,III,8) ***Ta inki*** *məclis münqəzi oldu, Məhəmməd mənə yaxın gəlib dedi...*(MFA,II,68)

Zaman budaq cümləsi bəzən baş cümlədən sonra işlənmiş, ona intonasiya ilə bağlanmışdır. Baş cümlədə ***o qədər*** qəlib sözü «o zamana qədər» mənasındadır: ***O qədər*** *mən ölməyəydim, müxtəsər Genə o gördüyüm çağı görəydim.*(QZ,92)

Yer budaq cümləsi dövrün ədəbi və elmi əsərlərinin dilində az işlənsə də, müasir struktura tam müvafiqdir. Budaq cümlə baş cümlədən əvvəl işlənmiş, ona *haraya, harada, haradan* məqamında *hər mənzilə ki, nə yerə ki, hər yerə ki* tipli bağlayıcı sözlərlə bağlanmışdır. Baş cümlədə qarşılıq bildirən söz olmasa da, *oraya, orada, oradan* şəkillərində təsəvvür edilir; məs.: ***Hər mənzilə kim*** *vürud edər, bu növ ilə ağazi-sürud edərdi.*(AB,125)*..**hər yerə** gedirsən, təziyədir*. (MFA,II,107) ***Hər yerdə*** *bir təbib eşitdim, vardım...*(QZ,80)

Kəmiyyət budaq cümləsi baş cümlədə ifadə olunan hərəkət və əlamətin miqdarını bildirir. Kəmiyyət budaq cümləsi az işlənən budaq cümlə növlərindəndir.Budaq cümlə baş cümlədən əvvəl işlənmiş, ona *hər nə qədə*r, *nə qədər ki* bağlayıcı sözləri ilə bağlanmışdır. Bağlayıcı sözdə *ki* ədatı və ya budaq cümlənin sonunda *-sa,-sə* şəkilçisi işlənir, baş cümlədə *o qədər, bir o qədər* tipli qarşılıq bildirən söz olur və ya təsəvvür edilir; məs.: *Əvaildə yanına əsbab qayırmaq üçün* ***hər nə qədər*** *qızıl və gümüş gətirdilər,* ***nisfindən artıq*** *oğurladın...*(MFA,III,40) ***…hər nə qədər*** *istəyirsiniz, seçin.*(MFA,I,204) Əziz bəy. ***Nə qədər ki*** *sənin qardaşın mənə sitəm edib məni səndən uzaq eləməyə çalışırdı,* ***o qədər*** *mənim məhəbbətim artıb, onun cövr və cəfasına səbr edib dayanmışam*. (MFA,I,248) *Hacı Qafurun sağlığında onun bacısının beş abbasıya ixtiyarı çatmazdı, amma mən* ***nə qədər*** *istəsəydim, xərc edərdim.* (MFA, I,279) *Nə qədər qaymağın qədəri az oldu,* ***ol qədər*** *onun yağı əla olur.* (Ə,24)

Səbəb budaq cümləsi baş cümlədəki hərəkət və ya əlamətin səbəbini bildirir. XIX əsrin ədəbi dilində quruluş modelləri müasir dildən o qədər fərqlənməsə də, həmin modellərə xidmət edən bağlayıcı vasitələrin bir qismi müasir dildə işlənmir.

Budaq cümlə baş cümlədən sonra gələrək ona əksərən *ki*, bəzən də yazı ənənələri ilə əlaqədar *kim* bağlayıcısı ilə bağlanmışdır; məs.: *Səngdil, rəhm elə* ***ki,*** *könlüm olub şişə mənim...*(AB,383) *Lənət olsun buların zatına hər şamü səba* ***Ki****, mənim sir sözümü eylədi car özgələrə.* (AB,383) *Sonra sərdar Fəthəli xan Məlik Əliyə naxoş olub* ***ki,*** *ağanın yüzinə neçün dursan?*(ŞXİT,9) *Vallah, qəribə əhməqdirlər bu ingilis tayfası* ***ki****, belə xətərli millət ilə az qalmışdı cəng başlayalar*. (MFA,I, 329) *Firəng qızları başlarına örtən təsəklər mənə lazım deyil, al Parijdə onların başlarına ört* ***ki,*** *Qarabağdan onların havasına yellənib uçursan.* (MFA,I,63) *Sənin namusunu arvadın Şölə xanım batırır* ***ki,*** *gecə-gündüz Teymur ağa ilə qol-boyundur*. (MFA,I, 101) *Evi yıxılsın Mirzə Həbib vəzirin* ***ki,*** *bizim axırımızı bu günə çıxartdı!* (MFA,I,109)

Budaq cümlə baş cümlədən sonra gələrək ona *çünki, zira ki* bağlayıcıları ilə bağlanmışdır; məs.: *O surətdə kəvakibin təsiri haman mücrimin başında çatlayacaq,* ***çünki*** *o vaxt İran padşahı odur* .(MFA,I, 310) *Əmr, həva məsafəsindən fövqi-məqamda tənəffüs edə bilməz,* ***zira ki*** *xilafi-qanuni-xilqətdir*.(MFA,II,79)

Müasir dildə adətən *çünki* bağlayıcısı budaq cümlənin əvvəlində işlənir, budaq cümlə isə baş cümlədən sonra yerləşir. Lakin XIX əsrin ədəbi dilində elə cümlələr var ki, *çünki* bağlayıcı söz kimi işlənmişdir; məs.: ***Çünki*** *Ağa Mərdan yerin, göyün haramzadasıdır, mən özümə vacib bildim ki, piş-əz-vəqt sizi onun hiyləkarlığından xəbərdar edim*. (MFA,I,268) ***Çünki*** *o yerin ətrafında vaqe olan Serb və Qaradaq əyalətləri həmçinin slavyandırlar və qədim zaman Osmanlıya tabe olublar, ona binaən məzkur əyalətlərin əhli gizdin sərhəddi keçib Qerdseqovinə sakinlərinə kömək edirlər*.(Ə,58) Bu cümlələr səbəb budaq cümləlidir. Onları bu cür sadələşdirmək olar: ***Ağa Mərdan yerin, göyün haramzadası olduğu üçün*** *mən özümə vacib bildim ki...* Müasir dildə struktur normalar fərqlidir: *çünki* bağlayıcı söz kimi cümlənin əvvəlində işlədilmir (dil yad elementi atmışdır).

Yerdəyişmə olduqda ikinci komponentin əvvəlində *ona görə* bağlayıcısı işlədilir və bu halda səbəb məzmunu baş cümlədə qalır, cümlə nəticə budaq cümləsinə çevrilir: *Ağa Mərdan yerin, göyün haramzadasıdır, ona görə də mən özümə vacib bildim ki, vaxtından əvvəl sizi onun hiyləgərliyindən xəbərdar edim*.

Bu cür sintaktik quruluş da Azərbaycan dilinə xas deyil; məs.: *İvan Bahadıra dili ilə cavab verə bilməyib baş əydi və başını əyən vaxt* ***çünki gözləri bahadırda idi****, fincanın yarısı dizinə töküldü*.(NN)

Bunlar göstərir ki, ***çünki*** sözü hələ XIX əsrdə də tam bağlayıcıya çevrilməmiş, bağlayıcı söz kimi də işlənməkdə davam etmiş və nəhayət, cümlənin daxilində - baş və budaq cümlə arasında sabitləşmişdir.

Budaq cümlə baş cümləyə *ondan ötrü ki, o səbəbə ki* bağlayıcıları ilə bağlanmışdır; məs.: *Və başa dəri papağı təcviz etməyin,* ***ondan ötrü ki*** *qanın daima bədəndə gərdişi və dəvəranı var*.(MFA,II,55) *...biz ananın rəhmindən təvəllüd tapmarıq, bəlkə ananın budundan təvəllüd taparıq,* ***o səbəbə ki*** *biz həqq-təalanın nuruyuq*.(MFA,II,58)

Budaq cümlə baş cümləyə müasir canlı danışıq dilində özünü saxlamış ***nə üçün ki***, XIX əsrdə çox fəal işlənsə də, müasir dildə arxaikləşmiş ***ona binaən ki*** bağlayıcıları ilə bağlanmışdır; məs.: *Kənd və kiçik şəhər əhalisinin ömrü böyük şəhərlərdə sakin olanların ömründən uzun olur,* ***ona binaən ki*** *kənd əhli təmiz havada və günün işığında, amma böyük şəhərlərdə izdiham kesrət olduğuna onların əhli natəmiz havada və çıraq, şəm' ya qeyri yandırılan şeylərin işığında güzəran edillər*. (Ə,154) *Heyhat ki, sərgərdan qalmışıq,* ***nə üçün ki*** *tüfuliyyətdə pirəzənlər bizlərə bir para nağıl deyiblər*...(Ə,153)

Bəzən səbəb budaq cümləsi baş cümlədən əvvəl gələrək, ona *ki* ədatı ilə bağlanmışdır: *O* ***ki*** *hal əhlidir, unutmaz yarın*.(QZ,44) *Mənim ki sənin tək gözəl yarım var, behişt huriləri gözümə görükməz. (*MFA,I,77) *İndi* ***ki*** *səni gördüm, tamam dərd-qəmim yadımdan çıxdı*.(MFA,1,179)

Məqsəd budaq cümləsi baş cümlədəki işin, hərəkətin məqsədini bildirir. X1X əsr mənbələrində məqsəd budaq cümləsinin "baş cümlə + budaq cümlə" quruluş tipi işlək olmuşdur.

Budaq cümlə baş cümləyə *ki*, bəzən də *kim* bağlayıcısı ilə bağlanmış, baş cümlədəki işin məqsədini izah edib aydınlaşdırmışdır.

Budaq cümlənin xəbəri əmr formasında olub arzu bildirir; məs.: *Şah mühəssil göndərür* ***ki****, Hacı Çələbidən yüz tümən cərimə alın*. (ŞXİT,6) *İbn-Cavşir tərəfindən on şümş tila gətirirdim* ***ki****, Bağdadda Hüseyn ibn-Ruhə verim*.(MFA,II,63) *Yoxsa Pariji sən buyurub yıxdırıbsan* ***ki****, mən dəxi ora gedə bilməyim?* (MFA,I,93) *İndi bu saatda gələcəklər sənin yanına* ***ki,*** *sən hər nə desən, ona əməl etsinlər*. (MFA,I,274) *Otuz tümən nəzr eləmişəm* ***ki****, hər kəs bu tiflin barəsində şəhadət etsə, onun qabağına sanıyam*. (MFA,I,290)

Budaq cümlənin xəbəri felin arzu formasında olub, arzu, istək bildirir; məs.: *Naçar, qoşunu dağıdıb bir para adamla Mustəfi xanın yanına gedir* ***ki,*** *bəlkə genə mənim ilə dost ola*.(ŞXİT,13) *Seyyidi-xaksar mövlana Qiyasın "Nüzdəhbabi-hüsn"də nəzm etdikləri qəsideyi-qərranı "Təzkireyi-Dövlətşah"dan bu risaləyə nəql etdim* ***kim****, ərbabi-lübab mütaliəsindən feyzyab olalar*.(SƏŞ,III,26) *Amma Zeynəb xanım gərək mənim hər sözümə, hər tədbirimə əməl etsin* ***ki****, bu iş əncam tapa*. (MFA,I,277)

Budaq cümlə baş cümləyə *ta, taki, tainki* bağlayıcıları ilə bağlanmışdır. Bunlar müasir dildə öz izlərini şivələrdə saxlamış, ədəbi dildə məhdudlaşmışdır; misallar: *Ey qardaşlar, səy edin,* ***ta*** *möhtac olmayasınız.* (Ə,194) *Ey pərvərdigar, bizi cəhənnəmdən çıxar,* ***taki*** *şayistə əməl edək.* (MFA,II,49) *Gərək bu ev buradan dağıla,* ***tainki*** *təmiratımıza nöqsan olmaya.* (SƏŞ,11,577)

Məqsəd budaq cümləsinin baş cümləyə yalnız intonasiya ilə bağlandığı hallar da vardır və bu hala elmi dilin tədricən daha çox sadələşməkdə olduğunu göstərən vasitə kimi M.F.Axundovun əsərində rast gəlirik: *...o bəyanı da o vərəqlərə yazdırın, müruri-dühur ilə yadigar qalsın.* (MFA,II,209)

Məqsəd budaq cümləsi baş cümlənin ismi xəbərini də izah edib aydınlaşdırmışdır: *Sənə ancaq yekcəhətlik və yekdillik lazımdır* ***ki****, revolyusiya edib übudiyyətdən nəcat tapasan*.(MFA,II,40) *Bunların vücudu ona lazımdır* ***ki,*** *bizim qazandığımızı və öz mülkümüzdə yer altından tapdığımız az, ya çox qızıl və gümüşü əlimizdən alsınlar*.(MFA,II,37)

Məqsəd budaq cümləsi əksərən nəticə çalarlı olur: *...bu elmi-cədidə müxbir olub bəqədri-qüvvə əmsalını təsnif etməyə iqdam edələr* ***ki****, onların ehtimalından bu fənni-əcib islam arasında dəxi şöhrət tapa.* (MFA, II,199-200)

Şərt budaq cümləsi baş cümlədəki hərəkət və əlamətin şərtini bildirir. Şərt budaq cümləsinin "baş cümlə + budaq cümlə" quruluş tipi müasir dildə olduğu kimi, X1X əsrin ədəbi dilində də az işlənmişdir. Baş cümləsində *o şərtlə* qəlib sözü məqamında *o surətdə* sözləri işlənən və budaq cümləsi baş cümləyə *ki* bağlayıcısı ilə bağlanan nümunələr mövcuddur: *İtaət* ***o surətdə*** *binalıdır* ***ki****, iradətdən və məhəbbətdən naşi ola*. (MFA,II,46)

Şərt budaq cümləsinin müasir dilimizdə işlənən bütün quruluş modellərinə XIX əsrin ədəbi dil materiallarında da rast gəlirik. Bu cəhətdən "budaq cümlə + baş cümlə" quruluş tipinin aşağıdakı növləri var:

1.*Sintetik şərt budaq cümləsi.* Şərt budaq cümləsinin bu növü baş cümləyə *-sa,-sə* şəkilçisi, arzu formasının şəkilçisi –a,-ə və şərt ədatının ixtisar şəkli ilə bağlanmışdır; məs.: *Mən dəxi səndən ayrı çəkdiyim bəlaları* ***şərh etsəm****, baisi-italeyi-məqal olur*...(AB,129) *Aralıqda meyü məhbub* ***olmasa,*** *Bahar zimistandan bətərdir mana*.(QZ,48) Hacı Salah. *Amma, ağa, mintənənin ölçüsü* ***məlum olsa*** *idi, çox yaxşı olardı*. (MFA,I,99) *Göz yaşilə namə* ***yazsam****, görəsən, Bizə çarə o dilbərdən olurmu?* (QZ, 127) *Ruhülqüdsün və Firdovsinin kəlamını Xəta dilində dəxi* ***tərcümə edəsən****, vazeh məzmun çıxar*.(MFA,II,209)

2.*Analitik şərt budaq cümləsi***.** Şərt budaq cümləsinin bu növü baş cümləyə *əgər, hərgah, madam ki, vəqti ki* bağlayıcı sözləri, bəzən də yal-

nız *ki* ədatı ilə bağlanmışdır; məs.: ***...hərgah*** *iyirmi quruşu gətirməsən, qapını açacağam və illa yox.* (SƏŞ,II,605) Şərt budaq cümləsinin bu növündə budaq cümlənin xəbəri xəbər formasının müxtəlif zamanlarında ola bilir; məs.: *Saqi, xoş hekayət istərsən* ***əgər,*** *Bir cam ilə eylə damağımı tər*. (QZ,48) ***Əgər*** *həqiqətdə siz belə isnadı etiqad üzündən, nə riya yolundan, xaliqi-ərz və səmaya verirsiniz, mən sizinlə müvafiqət etmirəm*. (MFA,II,91) ***Əgər*** *bu sirri bir afəridəyə nəql edərsiniz, bişübhə, hamınızın boynunu vuraram*.(MFA,II,60) ***Əgər*** *xaliq mənim ilə belə rəftar edəcəkdi, niyə məni yaratdı?* (MFA,II,51) *Xəstəliyim görməyə* ***ki*** *gəlmədi, Dəxi məzarıma gəlməsin barı!* (QZ,82) *Dərdimə* ***ki*** *dərman eyləyən dögül, Əhvalımı xəbər almasın barı!*(QZ,82) *Qəsdin aşiq canı almaqdı* ***əgər****, Göz ucilə qıya baxmağın yetər*.(QZ,123) *Sən* ***ki*** *öz adını dürüst yazmağa qadir deyilsən, nə üçün molla olursan?* (MFA, I,41) *Eh, xanım, kişilərin* ***əgər*** *ağlı var, niyə biz onları bir qədəmdə min yol aldadırıq?* (MFA,1,94) ***Əgər*** *o sənin aşnandır, qoy sən deyən kimi olsun*. (MFA,I,120) *Adam* ***ki*** *qorxaq oldu, bu cür bəhanə gətirər*.(MFA,I,154)

Analitik şərt budaq cümləsinin *bəşərti ki* bağlayıcı sözü ilə bağlandığı hallar da olmuşdur: *Gətirdiyin şeylərin başını batırmaq, izin itirmək mənim boynuma,* ***bəşərti ki*** *hər zaddan mənə yarı pay olsun*. (MFA,1,150)

Bu cümlədə tərəflərin yeri dəyişmişdir.

Analitik şərt budaq cümləsi bəzən *bir halda ki* sözləri məqamında *çünki* bağlayıcı sözü ilə baş cümləyə bağlanmışdır; məs.: *Dəxi nə eyləmək,* ***çünki*** *Tarverdi çarəsiz xahiş edir, onun sözü sınınca, düşmənin boynu sınsın*. (MFA,I,153) *Xub,Ağa Mərdan,* ***çünki*** *Hacı Qafurdan oğlan qalıbdır, dəxi nə mürafiə lazımdır?* (MFA,I,294) Bu cür quruluş daha çox səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrə xidmət edir.

Analitik şərt budaq cümləsi baş cümləyə ***əgər, əgər ki, gər*** bağlayıcı sözləri və ***isə*** şərt ədatı ilə də bağlanmışdır: ***Əgər ki*** *mətləbin gül* ***görmək isə****, Kirisənə gül'üzarı görəndə.*(QZ,65) *Vur boynumu,* ***gər*** *var* ***isə*** *günahım.*(QZ,60)

Şərt budaq cümləsinin qeyd edilən bağlayıcı vasitələri ismi xəbərli budaq cümlələri də baş cümləyə bağlamışdır; məs.: ***Əgər*** *başqalarının dini və məzhəbi həqdir, bizimki niyə həqq olmasın? (*MFA,II,130) ***Əgər*** *mənim vüsalıma talibsən və dövləti-didarıma rağibsən, gərəkdir ki, bu təllin türabını filan yerə nəql edəsən*.(SƏŞ,11,599)

3.*Analitik-sintetik şərt budaq cümləsi*. Şərt budaq cümləsinin bu növü baş cümləyə *əgər, hərgah, əgər ki* bağlayıcı sözləri və *-sa,-sə* şəkilçisi, ***isə*** şərt ədatının ixtisar şəkli ilə bağlanmışdır; məs.: ***Əgər*** *həqqi-neməti fəramuş edib mənə* ***təərrüz qılsan****, bu nan gözlərini tutsun.* (AB,126) *Aralıqda bədxah* ***olmasa əgər****, Sevgi sevgisindən olmaz mükəddər.* (QZ, 58) ***Əgər*** *sizdən hər biriniz məni... ərliyə* ***qəbul edirsə****, təzədən bu ibarət ilə siğeyi-nikah oxutdurram*.(MFA,II,314) ***Əgər*** *doğru* ***rəftar etsəydin****,*

əlbəttə, indi dövlətli kimsənələrin biri idin.(MFA,I,40) ***Hərgah*** *rəisi-ləşgər...* ***qüsur göstərsəydi,*** *muridi-bazxast olurdu.* (MFA,II,19) ***Hərgah*** *bu halda qədri bilinməyən üləmalarımız axirətə* ***səfər eyləsələr****, kimlər onların yerində oturacaqdır?* (SƏŞ,III,441) ***Əgər*** *onu burada* ***tikdirsəm****, Ziba xanım da bir eləsini istəyəcək.*(MFA,1,99)

Bəzən bu cür cümlələrin baş cümləsində *dəxi* ədatı da işlənmişdir: ***Əgər*** *Bağır xan bu əmrə* ***razı olsa,*** *piyadələrin sərkərdəsi Fərəc xan* ***dəxi*** *razı olacaq.*(MFA,I,326) *...****əgər*** *onu da* ***öldürsəm****,* ***dəxi*** *qəbirdə olanlarımız rahat yatarlar.*(SƏŞ,11,602) Bu cür cümlələrdə *əgər* əvəzinə, *işdir* sözünün işlənməsinə də təsadüf edilir: ***İşdir, yolu düşsə*** *məzarım üstə, Pünhan gəlsin, aşikarə gəlməsin.*(QZ,107)

Bu sonuncu hal canlı dildə qalmaqdadır.

Analitik-sintetik şərt budaq cümləsi arzu formasının əlaməti olan *-a,-ə* şəkilçisinin iştirakı ilə də düzəlmişdir; məs.: *Bir aşiq can verə canana* ***əgər,*** *bişübhə, behişti-bərinə gedər.*(QZ,74) *...****əgər*** *bir şəxsin başı kəsilə,haman kəsik başı mucid Əmr və Zeydin xahişi ilə bədənə müttəsil edib, məqtul olan şəxsi təzədən diri etmə*z.(MFA,II,79) ***..əgər*** *onun məaşiri-aliyələri zəbt və rəbt ola, bir kitabi-mütəvvəl olacaqdır.*(SƏŞ,III,429) Heydər bəy. ***Əgər*** *o əl çəkə, ölkə fərağət olar.*(MFA,I,191)

Müasir dildə olduğu kimi, XIX əsrin ədəbi dilində də bəzən "budaq cümlə + baş cümlə" quruluşlu tabeli mürəkkəb cümlələrin komponentlərinin yeri dəyişmişdir; məs.: *Doğrudur, külli-icmaın millətə az, ya çox mənfəəti olur,* ***əgər*** *icma vətən içində və bir milləti-vahidənin tabeliyində vaqe ola.*(MFA,II,97) *Biçarə liberal, biçarə panzər nə etsin,* ***vəqti ki*** *ərbabi-xəyalə və ərbabi-üquli-səlimeyə danışmaq üçün bu zalimlər, yəni üləma yol vermirlər.* (MFA,II,41) *Eyb etmə, sözüm müşəvvəş ol****sa****...* (AB,127) *Sənin çörəyin mənə qənim olsun,* ***əgər*** *xilaf ərz edirəm!* (MFA,I,121) *Mənim başımı necə çəkib ağırını tutacaqsan,* ***madam ki*** *başım bədənimdədir?* (MFA,I,128)

Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlənin məzmunu ya ziddiyyətli şəkildə qarşılaşdırılır, yaxud da müqayisə edilir, fərqləndirilir, biri digərinə güzəştə gedir. Budaq cümlənin bu növü çox işlənən, rəngarəng bağlayıcı vasitələri ilə seçilən budaq cümlədir. Lakin qarşılaşdırma budaq cümləsinin "baş cümlə + budaq cümlə" quruluş tipi o qədər də inkişaf etməmişdir. Yalnız M.F.Axundovun komediyalarında bu cür bir-iki cümləyə rast gəlmək olur ki, bunları da vaxtilə prof.Ə.Abdullayev qeydə almışdır: *Onların qılınc-tüfəngi* ***o qədər*** *məni qorxutmur* ***ki****, silisti, apar-gətiri canıma vəlvələ salır.* (MFA,I, 208) *Özümü öldürrəm* ***ki****, onu yaman işə qoymanam.*(MFA,I,251) (*Bax*: ƏA, TMC, 344) Göründüyü kimi, baş cümlə əvvəl, budaq cümlə sonra işlənmiş və budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanmışdır.

Qarşılaşdırma budaq cümləsinin "budaq cümlə + baş cümlə" quruluş tipi həm müasir dildə, həm də XIX əsrin ədəbi dilində daha işlək olub, bir sıra quruluş modellərinə malikdir.

1.Qarşılaşdırma budaq cümləsinin ən çox işlənən modellərindən biri *hərçənd (ki) - amma (ancaq, lakin, fəqət, və lakin)* bağlayıcı vasitələri ilə qurulan formasıdır: budaq cümlə baş cümlədən əvvəl gələrək ona *hərçənd (ki)* bağlayıcı sözü ilə bağlanır, baş cümlənin əvvəlində qarşılıq bildirən tabesizlik bağlayıcılarından biri işlənir; məs.: ***Hərçənd*** *bir neçə vaxt bundan irəli, belə ki, deyirlər, o, Tiflisə getmişdir,* ***amma*** *ona kimya qayırmağa kim izn verdi və kim gördü?* (MFA,I,40)

2.Budaq cümlə baş cümləyə *əgər, əgərçi* bağlayıcı sözləri ilə bağlanmışdır; məs.: *...**əgərçi** Molla Pənah müqəddəm ərsəyə gəlib bu fənndə Qasım bəyə nisbət rəhnümadır,* ***və lakin*** *ləzzət və təsir və mühəssənatinəzmiyyə Qasım bəyin xəyalatında çoxdur*.(MFA,II,203) ***Əgərçi*** *günah ondan yaman görünürdü,* ***amma*** *əfv eləmək məndən yaxşı görünür*. (SƏŞ,II,597) ***Əgərçi*** *bizim Qafqazda qara mal çox saxlanır,* ***amma*** *onlardan qeyri vilayətlərdəki kimi mənfəət olmur*.(Ə, 21)

3.Qarşılaşdırma budaq cümləsi baş cümləyə *nə qədər, nə qədər ki, hər necə* bağlayıcı sözləri və *-sa, -sə* şəkilçisi ilə bağlanmışdır; məs.:

Lövhi-xəyalə ***hər necə tərh eyləsəm*** *qaşın, Gəlməz xəyalə, axırı məhzi-xəyal olur*.(AB,239) Bəzən də yalnız bağlayıcı söz və intonasiya ilə bağlanmışdır; məs.: ***Nə qədər*** *seyr edirəm kuçə ilə bazarı, Adam çox az görünür, izdihami-kəsrətdir*.(AB,429) ***Nə qədər ki*** *fikrü xəyal eylədim, Çıxartmadım bir kənarə dərdimi*.(QZ,75)

4. Budaq cümlə baş cümləyə ***-sa da, -sə də*** şəkilçi və ədatı ilə bağlanmışdır: Qul xətasız olmaz, ey çeşmi-xumar! ***Öldürsən də*** *sonra ixtiyarın var*.(QZ,91)

5. ***Əgər*** bağlayıcı sözü, ***-sa da, -sə də*** şəkilçi və ədatı ilə: ***Əgər*** *sən tək pərilər padşahı Pariji* ***yıxdırsa da,*** *halaldır*. (MFA, I,93)

Bu cür cümlələrdə ədəbi normadan çox, şivə xüsusiyyəti var.

6. Budaq cümlə baş cümləyə *-a,-ə* arzu şəkilçisi, *da, də* ətatı ilə bağlanmışdır (ədat budaq cümlənin daxilində işlənir); məs.: *Ağa Həsən istər məni başdan-ayağa cəvahirə* ***də tuta****, mən ona gedən deyiləm*. (MFA,I,260)

7.Qarşılaşdıirma budaq cümləsinin baş cümləyə *-sa,-sə, -a,-ə* şəkilçiləri ilə bağlandığı hallar da vardır: ***Cəm olsa*** *xəlayiq,* ***yığılsa*** *ellər, Sənin tək dilbəri-sadə tapılmaz.* (QZ,57) *Onları* ***öldürsən,*** *məni görməmiş və pulları mənə verməmiş buradan getməzlər*. (MFA,I,44) *Yüz il ömrün* ***ola, yeyəsən, geyəsən****,* ***içəsən,*** *sənin pulun tükənməz*.(MFA,I,211)

Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Müasir dildə olduğu kimi, X1X əsrin ədəbi dilində də nəticə budaq cümlə-

sinin yalnız bir tipi olmuş, baş cümlə əvvəl, budaq cümlə sonra işlənmişdir. Lakin bağlayıcı vasitələrə görə bu tipin özünü də bir neçə qrupa ayırmaq olar.

1.Baş cümlədə müxtəlif cümlə üzvü vəzifələrində *kim, nə, hara, neçə, nə qədər, necə, hansı* və s. sual əvəzlikləri işlənmiş, həmin sual əvəzliklərinin dolayı yolla ifadə etdiyi səbəbin nəticəsi budaq cümlə vasitəsilə izah edilmişdir. Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanmışdır; məs.: *Heç bilməzəm, mənim bəxti-siyahım **Nə** şami-tirədir **ki**, gündüz olmaz*.(QZ,58) *Təcrim **nədir ki,** cərimə verim?* (ŞXİT,6) *Aya, gərdişi-dövranü izai-əbnai-zəman sənə **nə** zülmlər etmiş **ki**, surəti-halın bu məqama yetmiş?* (AB,128) *Xaliq dünya həyatından **nə** çox ziyadə nemətlər mənə kəramət edibdir **ki**, bu növ üqubətə məni giriftar edə?* (MFA,II,50) *...atanın vəzirlərindən **nə** xəta gördün **ki**, cümləsin zindana saldın?*(SƏŞ,II,582) *...**nə üçün** qəzayi-hacətdən ötrü o qədər ləşgərgahdan uzaq gedirdi **ki**, heç kəs ondan xəbərdar olmasın*.(MFA,II,86) *..**pəs niyə** dədən Zib-Övrəngə bu vəzlərdən vermədin **ki,** dediklərinə əməl edəydi?* (MFA,II,131) *...hansı səfeh həzrəti-Xızrın həyatına və həzrəti Nuhun ömrünün min il və həzrəti-Loğmanın ömrünün üç min il olmağına qaildir **ki**, bu dəlil tiami-qaibin həyatının imkanına misal ola?* (MFA,II,61) *İnsan **nə qədər** gərək kövdən ola **ki**, bu müddəti heyvanat aləmində müəssir bilməyə?* (MFA,II,61) *Sizin allahınız **haçan və kimin** təvəssütü ilə Zeynəbdən istirza etdi **ki**, onu göydə peyğəmbərə təzvic edir?* (MFA,II,82) *Məndə **hanı** o qədər vaxt və fürsət **ki,** hər bir cüzviyyata özüm mübaşir olam.* (MFA,I,51) *Mən bu saatda Hatəmxan ağanı çağırram görüm Müsyö Jordan **nəçidir ki**, onun qardaşı oğlunu tovlaşdırıb Parijə aparır?* (MFA,I,64)

Bu cür hallarda budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanmışdır: *Səbəb **nədir**, əl çəkibsən vəfadan?*(QZ,49) *Ey didə, məgər **neyləmişəm** mən sənə, axır Qoydun məni sən yar ilə əğyar arasında?* (AB, 236) *Dəysin başına səktəsiz ol həmdü səlatın, **Kimsən**, gəzəsən aşiq ilə yar arasında*.(AB,236) ***Hanı** bir xiridar, bilə qiymətim?* (QZ,88)

2.Budaq cümlə baş cümləyə *ki* və *kim* bağlayıcıları ilə bağlanmışdır (baş cümlədə bəzi ədatlar da işlənə bilir); məs.: *Zülmü gör **kim,** ayrılıqdan canə yetdim aqibət*.(AB,125) ***Aya,** bir möcüzə və əlamət zahir olur **ki,** mənim xatirim mütməni olsun?* (MFA,II,56) *Siz gərək elmi-təbiətdən xəbərdar olasınız **ki**, bu işarənin həqiqətini fəhm edə biləsiniz*. (MFA,II, 51) *Kamal ata kürkü deyil **ki**, irslə övlada yetişə*. (MFA,I,41) ***Məgər** mən ölmüşəm **ki**, səni vəzir özgəsinə verə bilə*? (MFA,1,107) *Kazakların gözünə görükərəm**mi ki**, mənim tükümü didələr?* (MFA,I,198)

3.Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanmış, baş cümlədə *elə, eylə, belə, o qədər,ol qədər* sözləri işlənmişdir; məs.: *Hətta olar bir dəfə peyğəmbərin azarında **elə** ifrat etdilər **ki**, həzrəti-rəsul bir ay sə-*

rasər oların hamısını tərk edib, olarla mülaqat etmədi. (MFA,II, 83) *...bu yaxın zamanda* ***belə*** *axşaşdılar* ***ki****, az qaldı küllən babi və tənasüxi məzhəb olalar*. (MFA,II,80) *...bu gün övrətim qıçıma* ***belə*** *vurubdur* ***ki****, qıçım şikəst olubdur*.(SƏŞ,II,600) *Xülasə,* ***ol qədər*** *naləvü şivən qıldı* ***ki****, bihuş olub, dideyi-zahirbini bağlanıb çeşmi-bəsirət açdı*.(AB,131) Bu cür cümlələrin baş cümləsində bəzən yalnız *bir* sözü işlənmişdir: *...atandan qalan əmmaməni başıma qoyub, əbasın çiynimə salıb və qəbasın qucağıma alıb* ***bir*** *nifrin elərəm* ***ki,*** *düşmənlərimizdən biri də yer üzündə qalmaz*. (AB,125)

4.Bəzən budaq cümlə baş cümləyə *ta, ta ki, tainki* sözləri ilə də bağlanmışdır: *Xaqaninin qeyrəti Mücir ilə o gözəlin arasına tərzi-fəraq saldı,****tainki*** *dərdi-hicran Müciri bimarlıq bəstərində natəvan qıldı.* (SƏŞ, III,45)

5.Budaq cümlə baş cümləyə *ona binaən, ona görə, buna görə* bağlayıcıları ilə bağlanmışdır; məs.: ***Çün*** *türki dilinin imlası xüsusunda bu anə qədər bir qaideyi-külliyyə mərqum olunmayıbdır,* ***ona binaən*** *mən təmsilatımın imlasında istilahı dəstaviz etdim.*(MFA,II,200) *Çünki Yusif atasının tək oğlu idi,* ***ona görə*** *atasından sonra mümkün olmadı ki, elmlərini başa çatdırsın.*(NN) *Bir şəxs mədyun olub xətti-dimağ eləmişdi,* ***buna görə*** *peyğəmbərlik iddiası elədi*.(SƏŞ,II,585)

Obyektiv aləmin hadisələri arasında səbəb-nəticə ardıcıllığı nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrdə aydın şəkildə mühafizə olunduğu üçün bağlayıcı vasitələrdən asılı olmayaraq, bütün hallarda səbəb bildirən baş cümlə əvvəl, nəticə bildirən budaq cümlə sonra gəlmişdir.

QARIŞIQ TİPLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Adi, adətən iki tərkib hissədlən - baş və budaq cümlədən ibarət olan və çoxişlənən tabeli mürəkkəb cümlələrlə yanaşı, X1X əsrin ədəbi dilində qarışıq tipli tabeli mürəkkəb cümlələrin əksər modellərinə rast gəlmək mümkündür. Bunlardan daha çox müşahidə olunan quruluş modellərinin bir qismini aşağıda qeyd edirik..

1.Baş cümlə sadə quruluşlu, budaq cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: *Amma* ***çünki*** *sən bir para arzuların xatiri üçün onu xana vermək fikrinə düşmüşdün,* ***ona görə*** *bu əmri sənə bildirmək mümkün olmurdu* ***və*** *o cəhətdən sən bir para gümani-bəd mənim haqqımda edib, mənim ölümümə çalışırdın.*(MFA,I,131) ***Ona görə*** bağlayıcısı ilə başlayan nəticə budaq cümləsi tabesiz mürəkkəb cümlə şəklindədir.

2.Baş cümlə sadə quruluşlu, budaq cümlə tabeli mürəkkəb cümlə şəklindədir; məs.: *Ol rəis dəxi müvəkkillər təyin etdi* ***ki,*** ***hər yerdə*** *ol aşi-*

qi-dilxuni ***görsələr,*** *tutub şikənceyi-siyasətə yetirsinlər*.(AB,125) Məqsəd budaq cümləli bu tabeli mürəkkəb cümlənin budaq cümləsi yer budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir. Bu cür hallarda budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanmışdır: Y*alvardım səbayə: şərh et halımı, Yolun düş****sə****, çeşmi-xumar yanında* (QZ, 42) – cümləsində baş cümləyə intonasiya ilə bağlanmış məqsəd budaq cümləsi şərt budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir.

Aşağıdakı cümlələr də eyni quruluşludur: *Mənə yəqin hasil olubdur* ***ki,*** *bizdə* ***hər*** *adət və xasiyyət var* ***isə,*** *əksi Parij əhlindədir*. (MFA, I,60) *İndi səni* ***ondan ötrü*** *çağırdım* ***ki, əgər*** *bir əlacın var* ***isə,*** *eylə*. (MFA,I,74) *Teymur ağanın gözü aydın olsun* ***ki****, sevgilisinə təzə mintənə buyrulur* ***ki,*** *geysin, onun qabağında süzsün*. (MFA,I,101) *İndi sənə məlum olsun* ***ki****, mənim sənin evinə gəlməyim* ***ondan ötrü idi ki,*** *mən sənin baldızın Nisə xanıma təəşşüq yetirib, allahın əmri ilə onu almağa talib idim.*(MFA,I,131) ***Elə ki*** *ol şəxs xahiş elədi* ***ki****, natarius ancaq onun dəstxəttini təsdiq etsin****, ol vaxtda*** *belə dəstxətti təsdiq etməkdən ötrü natariusa iki şahı, yəni on qəpik gərək verəsən*.(Ə,26).

3.Baş cümlə sadə quruluşlu, budaq cümlə qarışıq tipli tabeli mürəkkəb cümlə şəklindədir; məs.: Xacə Məsud. *Xan dalısınca əlli adam buyurdu* ***ki****, hər yerdə* ***tapsalar,*** *tutub qolubağlı gətirsinlər* ***ki****, öldürsün*. (MFA,I,124) Cümlənin sərhədi birinci *ki* bağlayıcısındandır, ora qədərki hissə baş cümlə, qalan hissə tamamlıq budaq cümləsidir; tamamlıq budaq cümləsinin özü də şərt budaq cümləli tabeli mürəkkəb cümlə şəklindədir: şərt budaq cümləsi sadə, onun aid olduğu baş cümlə məqsəd budaq cümləlidir. Səkinə xanım.*Vallah, mən bilmirəm* ***ki****, tarı yanında* ***nə*** *günahın sahibiyəm* ***ki****, həmişə bir səbəb düşər, mənim bəxtim bağlanar* (MFA,-I,256) - cümləsində *ki* bağlayıcısından ayrılan tamamlıq budaq cümləsi nəticə budaq cümləli tabeli mürəkkəb cümlədən, nəticə budaq cümləsi isə səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir. *Bu səbəbə məsləhətdir, sel suyu çəkiləndən sonra suyu içilən quyunun suyunu çəkib onu təmiz edəsən* ***ki****, bu quyuda ancaq quyudan fəvvarə verən su qalsın* ***ki****, bu suyu içmək olsun* (Ə,25) - cümləsi mübtəda budaq cümləlidir. Baş cümlə (*bu səbəbə məsləhətdir*) sadə quruluşludur.

Aşağıdakı cümlələrdə də baş cümlə sadə quruluşlu, budaq cümlə qarışıq tiplidir: *Qəzetlərdə belə söylənir* ***ki,*** *solan Berqaş* ***vəhabi də olsa****, ona ümid var, soltan Əbdüləziz əsgər və top-tüfənglə yola salsın.*(Ə,28) *Nisə xanıma tapşırmışam* ***ki,*** *dəhlizdən dışqarı bir yerdə oturub gözləsin,* ***əgər*** *vəzir* ***görünsə****, tez bizi xəbərdar etsin*.(MFA,I,110)

4.Budaq cümlə sadə quruluşlu, baş cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: *Alov tutar kağız, alışar qələm,* ***Səbt etsələr*** *hər tumarə dərdimi.*(QZ,75) *Şəyatin* ***olmasa idi****, dünyada heç bir yaman əməl olmazdı* ***və*** *bəni-adəmi yaman işlərə heç kəs düçar etməzdi*. (MFA, I,88)

5.Budaq cümlə sadə quruluşlu, baş cümlə tabeli mürəkkəb cümlə şəklindədir: *Rəqib nə **qədər ki** sağdır, o dilbər Bilirəm **ki**, bizim ilə düz olmaz.* (QZ,58) ***Əgər,** məsələn, mən Qarabağa **gəlməsəydim**, kim biləcəkdi **ki,** Qarabağın yaylaqlarında bu otlar mövcuddur?* (MFA,I,71) *Yükü sağ-salamat gətirib **çıxarsan,** mən də çalışaram, sənin xeyrin üçün sənə verilən çitləri çox baha sataram*.(MFA,I, 216) Zaman (birinci misal) və şərt budaq cümlələrinin (ikinci, üçüncü misallar) baş cümləsi tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir. *Yayda çox **isti olsa**, otaqda buz saxlayırlar **ki**, oranın havasını soyuq etsin* (Ə,32) – cümləsində isə şərt budaq cümləsinin baş cümləsi məqsəd budaq cümləlidir.

6.Baş cümlə tabeli, budaq cümlə tabesiz mürəkkəb cümlə şəklindədir: *Həqiqəti-mətləb budur **ki,** mövlana Molla İbrahimxəlil sizdən pul almayacaqdır; **ondan ötrü ki** keçən kürənin və əldəki kürənin gümüşünü tamam Əylis ermənilərinə sikkəli pulun iki çəkisi bərabəri sevda edib veribdir **və** ikinci kürənin də iksirinin tamam və təkmil olmağına bir ay qalıbdır.*(MFA,I,45) ***Əgər** süd sərilən qablar təmiz **də** ol**sa**, **amma** onlar sərilən yer, yəni otaq çox isti, soyuq, ya yaman iyli ol**sa**,ol vaxtda **ya** süddən qaymaq tamam yığılıb hasil olmaz, **yainki** süd turşuyub tələf olar.* (Ə,22) Birinci misalda baş cümlə xəbər budaq cümləli tabeli mürəkkəb cümlə, budaq cümlə isə (səbəb budaq cümləsi) qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir. İkinci misalda budaq cümlə şərt budaq cümləsindən ibarətdir və onun özü də qarşılaşdırma budaq cümləlidir; *ol vaxtda* sözündən başlayan baş cümlə isə bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə strukturundadır.

7.Hər iki komponent qarışıq tiplidir: *...amma bu sözləri **ondan ötrü** sənə deyirəm **ki**, **elə** durub-oturmayasan **ki,** sənin xüsusunda xana bir yaman söz deyələr, Nisə xanımdan da könlü çıxa; **çünki** bu saatda Nisə xanımdan ötrü biixtiyardır **və** mənə buyurdu **ki,** bir həftəyədək onun köçmək tədarükünü görüm!* (MFA,I,127)

Çünki bağlayıcısından iki hissəyə ayrılan bu cümlənin birinci hissəsi baş, ikinci hissəsi səbəb budaq cümləsindən ibarətdir; baş cümlə məqsəd budaq cümləlidir, məqsəd budaq cümləsinin özü də (*elə durub-oturmayasan ki)* nəticə budaq cümləlidir və nəticə budaq cümləsi də səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir. Cümlənin *çünki* sözündən başlayan budaq cumləsi zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi qurulmuşdur: birinci komponenti (*bu saatda Nisə xanımdan ötrü biixtiyardır*) sadə quruluşlu, ikinci komponenti tamamlıq budaq cümləlidir.

Beləliklə, qarışıq tipli tabeli mürəkkəb cümlənin əsas quruluş modelləri X1X əsrdə arxaik elementlərdən əsasən təmizlənmiş, tam müasir şəkildə sabitləşmişdir.

NƏTİCƏ

Şübhəsiz, hər bir yüzillik elmi-texniki tərəqqə ilə, bəşəriyyətin təfəkkür inkişafı ilə həqiqi mənada o birini – özündən əvvəlkini geridə qoyur. Lakin bu cəhətdən XIX yüzilliyi nisbi fərq ilə XVII, XVIII yüzilliklərdən fərqləndirmək, yəni onların arasında çox az fərq olduğunu iddia etmək olmaz. Xüsusən ona görə ki, XIX əsr XX əsrdə meydana çıxan elmi-texniki möcüzələrin bünövrəsini qoyan bir əsrdir. Elektrikin kəşfi bəşəriyyəin qarşısında böyük yaradıcılıq üfüqləri açdı. Bəşəriyyət şam işığından aydınlıq və günəşli günlərə çıxdı, onun əl əməyi hədsiz dərəcədə yüngülləşdi. Bu əsr ədəbiyyatın büsbütün insan həyatına enməsi, inkişafı, dilə nəzəri münasibətin təşəkkülü, mətbuatın meydana çıxması ilə də bütün əvvəlki əsrlərdən fərqlənir. Ensiklopedik biliyə malik olan A.Bakıxanov, Qasım bəy Zakir, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani kimi nəhənglər, mütəfəkkirlər məhz bu əsrdə yetişir, milli ədəbi dil hər tərəfə qol-qanad açır.

XIX əsr milli ədəbi dilin bütün əvvəlki əsrlərdən fərqli, sürətli inkişafı əsridir. Bu dövrə çatana qədər Azərbaycan ədəbi dili uzun inkişaf yolu keçmişdir. Birinci minilliyin ortalarında ümumxalq dili kimi formalaşan Azərbaycan dili özünün söz birləşməsi, sadə və mürəkkəb cümlə modellərinə həmin dövrdən malik olmuş və onun struktur modelləri «Kitabi-Dədə Qorqud»un dilində yüksək şəkildə öz ifadəsini tapmışdır. XVI əsrdən milli dil kimi inkişaf yoluna düşən Azərbaycan dili, zaman gəlib XIX yüzilliyə çatdıqda, dram sənətinin, satiranın, realist şerin və nəsrin, publisistikanın, mətbuatın, fəlsəfi əsərlərin - elmin, ədəbiyyatın yüksək inkişafı ilə öz potensial imkanlarını daha geniş şəkildə üzə çıxara bilmiş, bir sıra arxaik elementlərdən təmizlənərək, böyük sürətlə səlisləşmə, zənginləşmə yolu keçmiş, yüksək və təkmil bir ədəbi dil kimi bu günümüzə gəlib çatmışdır.

ŞƏRTİ İXTİSARLAR

TSDM - R.Məhərrəmova, M.Cahangirov.Azərbaycan dilinin tarixi sintaksisinə dair materiallar. Bakı,EA nəşri,1962.

HM,90 - H.Mirzəzadə.Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1990.

KDQD - Ə.Dəmirçizadə."Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı,V.İ.Lenin ad.APİ nəşri,1959.

KA,SNP - Kamal Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, "Maarif",1998.

ZB,SC - Zərifə Budaqova. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, EA-nın nəşri,1963.

TH,II - T.İ.Hacıyev.Azərbaycan ədəbi dili tarixi. II hissə, Bakı, "Maarif",1987.

MC,1 - Muradxan Cahangirov.Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Bakı, "Elm" nəşriyyatı,1978.

AzQr.- Azərbaycan dilinin qrammatikası. EA-nın nəşri, II hissə, Bakı,1959.

QK,S - Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Ünsiyyət", 2000.

QK,97 – Q.Kazımov. Sənət düşüncələri, Azərbaycan Dövlət Kitab Palatası, BakI, 1997.

AƏT - Azərbaycan ədəbi dili tarixi. Bakı, "Elm" nəşriyyatı, 1991.

НГ,СТЯ – Н.З.Гаджиева. Основные пути развития синтаксической структуры тюркских языков. Москва,"Наука", 1974.

ƏD,ƏDT - Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. 1-ci hissə. "Maarif", Bakı,1979.

ПЯЧер.- проф.П.Я.Черных.Историческая грамматика русского языка. Изд. третье, Москва,1962.

EƏ, TD – E. Əzizov.Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı Universiteti Nəşriyyatı,1999.

SD - Azərbaycan ədəbi dili tarixi (Sovet dövrü). Bakı,"Elm" nəşriyyatı, 1982.

ВГАд.-В.Г.Адмони. Исторический синтаксис немецкого языка. Москва,1963.

Az.D - Z.Budaqova,T.Hacıyev.Azərbaycan dili. Bakı,"Elm" nəşriyyatı, 1992.

AB – Abbasqulu ağa Bakıxanov Qüdsi. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1984.

Ə - "Əkinçi"(Tam mətni) -Tərtib edəni T. Həsənzadə, Bakı, Azərnəşr, 1979.

QZ - Qasım bəy Zakir. Əsərləri. Bakı,"Elm" nəşriyyatı, 1964.

MFA,I - Mirzə Fətəli Axundov.Əsərləri. 1-ci cild, Bakı, EA nəşriyyatı,1958.

MFA,II - Mirzə Fətəli Axundov.Əsərləri, 2-ci cild, Bakı, EA nəşriyyatı,1961.

MFA,III - Mirzə Fətəli Axundov. Əsərləri. 3-cü cild, Bakı, EA nəşriyyatı,1962.

SƏŞ - Seyid Əzim Şirvani. Əsərləri, 1-ci cild, Bakı, EA-nın nəşri,1967.

SƏŞ - Seyid Əzim Şirvani. Əsərləri. 2-ci cild, Bakı, EA-nın nəşri,1969.

NV,I - N.B.Vəzirov. Əsərləri. 1-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1953.

NV,II - N.B.Vəzirov. Əsərləri. 2-ci cild, Bakı, Azərbaycan Dövt Nəşriyyatı,1954.

ƏH,1 – Əbdürrəhim bəy Haqverdiyev. Seçilmiş əsərləri, 1-ci cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1956.

ŞXİT – Kərim ağa Fateh. Şəki xanlarının ixtisar üzrə tarixi.- əlyazması.

AD,I –Azərbaycan dastanları, 1-ci cild, Azərbaycan SSR EA-nın Nəşriyyatı, Bakı, 1965.

III HİSSƏ

FİLOLOGİYAMIZ XX ƏSRİN II YARISI, XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ

RƏYLƏR
MÜLAHİZƏLƏR

Kitabın bu bölməsində 60-cı illərin sonlarından başlayaraq namizədlik və doktorluq dissertasiyalarına, çap olunacaq kitablara, elmi işlərə yazdığım rəylər toplanmışdır. Bir sıra kitab müzakirələrində etdiyim çıxışların mətnləri də bura daxildir. Məhkəmə mübahisələri ilə bağlı ekspert rəyləri, protokollardan çıxarışlar (o çıxarışları kafedranın katibi olarkən özüm yazmışam) var. Kitabda çap olunmamış yazılar toplandığı üçün bəzi dissertasiyalara (S.Əlizadə, M.Cahangirov, X.Cabbarov, Rəhman Purəkbər Möhsün oğlu və b.) opponent rəylərim bura daxil edilməmişdir. Onlara əvvəlki cildlərdə rast gəlmək olar. Şübhəsiz, keçən müddət ərzində itib-batan rəylər də olmuşdur. Oxucu dil və ədəbiyyat məsələlərinə həsr olunmuş bu rəylərlə tanış olmaqla son 40 il müddətində filologiyamızın inkişaf istiqamətləri barədə müəyyən təəssürat qazana bilər.

F.e.n., dos. N.K.Abbasova.
«C.Cabbarlı pyeslərinin leksikası»
DD, 1968-1969

Ədəbi dilin müəyyən mərhələdəki inkişaf səviyyəsini, əsrlərdən bəri tədricən qazanmış olduğu ifadəlilik imkanlarını, sənətkarın bu sahədə fərdi əməyini düzgün müəyyənləşdirmək üçün yazıçı dili daha etibarlı mənbə olub, zəngin və əsaslı material verir. Dram dili xalq dilinə, canlı dilə daha yaxın olduğundan, bir sıra başqa janrlara nisbətən, xalq dilinin incəliklərini daha yaxşı əks etdirə bildiyindən və bu səhə bizim sovet ədəbiyyatının yaranmağa başladığı dövrdə Cəfər Cabbarlının qələmi ilə yüksək bir zirvəyə qaldırıldığından Cabbarlının dram dilinin tədqiqi, həm də böyük dramaturqun bütün dramaturji irsinin bir küll halında öyrənilməsi tədqiqatçıdan böyük cəsarət, gərgin əmək, bədii dilin təbii imkanlarını üzə çıxara bilmək qabiliyyəti, analiz etmə və ümumiləşdirmə bacarığı tələb edir. "C.Cabbarlı pyeslərinin leksikası" adlı doktorluq dissertasiyası bir fakt, bir nəticə kimi həmin cəhətlərin öz müəllifində olduğunu qətiləşdirən bir sənəddir.

Dissertasiyanın mövzusunun aktuallığı sözsüzdür. Mövzunun mühüm cəhətlərindən biri onun konkretliyidir. Müəllif bir neçə problemi birdən həll etmək istəməmiş, Cabbarlının dram dilinin konkret bir sahəsini - leksikasını əsas götürmüş, işi leksik tədqiqlə məhdudlaşdırmaqla dil faktlarını daha dəqiq və daha diqqətlə yoxlamağa, hər bir faktı sanki zərrəbin altında nəzərdən keçirməyə imkan qazanmışdır.

Doğrudur, dosent N.Abbasovadan əvvəl də bu sahənin tədqiqatçıları olmuşdur, lakin C.Cabbarlının dram dilinin leksik tərkibi haqqında yalnız bu əsərlə tam təsəvvür yaranır, bu əsərlə Cabbarlı dilinin ecazkarlığı səbəbləri ilə sistem halda tanışlıq mümkün olur.

Dissertasiya giriş, 5 fəsil və kitabiyyatdan ibarətdir.

«Giriş"də C.Cabbarlının bədii dilinin ədəbi dilimizin zənginləşdirilməsi, xalq dilinə yaxınlaşdırılması sahəsində rolundan, mövzunun tədqiqi tarixindən, aktuallığından qısaca bəhs olunmuş, müəllif öz tədqiqat metodu barədə yığcam məlumat vermişdir.

Dissertasiya lüğətdən əlavə, iki hissədən ibarətdir. Üç fəsli birləşdirən I hissə "C.Cabbarlının söz axtarışları" adlanır.

Bu hissədə I fəsil "C.Cabbarlı pyeslərində kitab sözləri", II fəsil "Pyeslərin sinonim zənginliyi", III fəsil "C.Cabbarlının novatorluğu" adlanır. Əslində, bunlar fərqli, bir qəlibə sığmayan məsələlərdir. "Kitab sözləri" Cabbarlı dilinə klassik ədəbiyyatdan, kitablardan, mətbuatdan gələn sözlərdir. Bu fəsil sözün sahə qruplarının tədqiqi ilə bağlıdır. Sinonimlər isə sözün semantik cəhəti ilə bağlı olub, məna və şəkilcə fərqlənən söz qruplarına - semantik qruplara aid məsələdir. "Cabbarlının nova-

torluğu" isə söz yaradıcılığı ilə bağlı olub, dramaturqun yeni leksik-semantik axtarışlarına həsr edilmişdir.

Lakin müəllif bu fərqli məsələləri məharətlə I hissədə birləşdirə bilmişdir. Cabbarlı klassik ədəbiyyatdan gələn hər kitab sözünü götürməmiş, bəyəndiyi, diqqətlə seçdiyi, öz zövqünə, obrazların xarakterinə uyğun olan sözləri ədəbiyyata gətirmişdir. Dramaturqun obrazların nitqində işlətdiyi sinonim cərgələr onun canlı xalq dilindən, müxtəlif üslublardan seçib götürdüyü sözlər əsasında məfhumun məna incəliklərini təfərrüatı ilə əks etdirmək üçün sinonim cərgələri necə genişləndirdiyini, zənginləşdirdiyini qabarıq şəkildə nəzərə çarpdırır. Dramaturqun dildə novatorluğu isə onun söz axtarışları, dili leksik-semantik yolla zənginləşdirmə vasitə və üsulları ilə bağlıdır.

Beləliklə, I, II, III fəsillər zahirən əlaqəsiz kimi görünsə də, müəllif bunları "C.Cabbarlının söz axtarışları" adı altında məntiqi əsasda möhkəm əlaqələndirə bilmişdir. Bu da məlumdur ki, leksika anlayışı çox geniş və rəngarəng məsələləri əhatə edir. Sözə leksikoloji baxımdan müxtəlif cəhətdən yanaşmaq mümkündür. Lakin müəllif, muasir dil fənnində olduğu kimi, bütün leksik kateqoriyaların tədqiqini deyil, diqqəti daha çox cəlb edən, dramaturqun üslubu üçün səciyyəvi olan məsələləri əsas götürmüş, daha səciyyəvi halların tədqiqi ilə məşğul olmuşdur.

I hissənin əsasını, bel sütununu "Pyeslərin sinonim zənginliyi" fəsli təşkil edir. Burada ismi və feli sinonimlər, sinonim sıralar, sinonim topluluqları, sinonim sözlərin yerləşdirilmə üsulları, sinonimləri çeşidləndirmə manevrləri, iş, hərəkət, görmə, eşitmə və nitq fellərinin sinonimliyi kimi bölmələr bir çox cəhətdən yeni olub, dramaturqun sözdən istifadə ustalığını daha qabarıq üzə çıxarır.

Doğrudur, müəllif sözün digər semantik qruplarından xüsusi başlıqlar altında bəhs etməmişdir, lakin sinonimlərdən danışarkən sözlərin omonimliyini, çoxmənalılığını da nəzərdən qaçırmamış, sözlərin müxtəlif mənalarının, omonimlərinin sinonimlərini müəyyənləşdirməklə, əslində, digər semantik qrupları da müəyyən dərəcə əhatə etmişdir.

I hissədə kitab sözlərinin tədqiqinə həsr edilmiş fəsildə rus və türk dillərindən gələn və ya qədim dövrlərdən dilimizdə işlənən kitab sözlərinin, istilahların üslubi-semantik xüsusiyyətləri, Cabbarlı dilində bunların qazandığı yeni keyfiyyətlər diqqətlə araşdırılmışdır.

"Cabbarlının novatorluğu" fəslindən aydın olur ki, böyük dramaturq yalnız yeni sözlər işlətmək, yeni sözlər yaratmaqla kifayətlənməmiş, sözə yeni məna çaları və ya yeni məna verməyi, sözün yeni mənalarını ədəbiyyata gətirməyi bir çox başqalarından daha çox bacaran qüdrətli bir sənətkar olmuşdur.

Dissertasiyanın II hissəsi iki fəsildən ibarətdir. "Cabbarlı pyeslərinin canlı dil əsası" adlı IV fəsildə daha çox canlı xalq dili ilə bağlı olan,

ədəbi dildə az işlənsə də, bədii dilin orijinallığını mühafizə edən ***çulğamaq, ovunmaq, darılmaq, əsirgəmək, daldalamaq, dümsükləmək…*** kimi sözlər "Canlı, lövhəli sözlər" adı ilə izah edilir, dilimizin tarixi, bəzən də qohum türk dilləri ilə müqayisələr əsasında bu sözlərin Cabbarlı tərəfindən yeni mətn şəraitində yeni mənalarda işləndiyi göstərilir. Bu fəsildə insanın daxili aləmi, hissləri ilə bağlı olan sözlər "Emosional leksika" adı altında leksik-qrammatik qruplara ayrılmış, isim, sifət və fellərdən ibarət olan emosional sözlər ayrılıqda nəzərdən keçirilmişdir. Müəllif remarkaları da unutmamış, dialoqlarla yanaşı, remarkalarda işlənmiş emosional sözlərin pyeslərdəki rolunu da müəyyənləşdirmişdir. Bu fəsildəki "Emosional sözlər və musiqi sədaları" bölməsi də yeni və maraqlıdır. Müəllif böyük bir söz qrupunun canlı danışıqdakı mənaları və məna çalarları fonunda onların pyeslərdəki rolunu və vəzifəsini, nitq axınındakı məna incəliklərini, canlı danışıq dilinə daxil olub, işlənmə dairəsinə görə fərqlənən xalq etimologiyalı sözləri, şivə leksikası ünsürlərini pyeslərin ümumi dil materialı əsasında xüsusi bölmələr üzrə qruplaşdırıb tədqiq etmişdir. Bu hissədə sözlərin canlı danışıqdakı tələffüz formaları da unudulmayıbdır.

525 səhifəlik II hissənin 325 səhifəyə qədərini sonuncu fəsil - "Cabbarlı pyeslərinin real dil əsası" fəsli təşkil edir. Bu fəsildə ümumişlək sözlərin məna zənginliyinin tədqiqi əsas məqsəd kimi qarşıya qoyulmuş, fellər görmə, nitq, iş, hərəkət felləri kimi leksik-semantik qruplara ayrılmış, hər bir felin pyeslərdə təsadüf edilən məna incəlikləri əhatə olunmuşdur. Fəslin qalan hissəsi ümuişlək isimlər, sifətlər və əvəzliklərin tədqiqindən ibarətdir. Bu fəsildə leksikoqrafik iş çox güclüdür. Bu cür tədqiqat izahlı lüğətlərin hazırlanmasına köməkdir.

Birisi "Real dil əsası", digəri "Canlı dil əsası" adlandırılmış bu iki fəsli müəllif "Cabbarlı pyeslərinin xalq dili əsası" adı altında birləşdirmişdir. Fəsillərin adlarında bir cəhət bir qədər anlaşılmazdır: ümumiyyətlə, "real dil əsası" deyildikdə nə nəzərdə tutulur və əgər bu söz həqiqi mənadadırsa, canlı danışıq dili sözləri real dil vahidləri deyilmi? Bu fəsildən belə bir nəticəyə gəlmək də çətindir ki, "canlı dil əsası" dedikdə, müəllif canlı danışıq dili ilə daha çox bağlı olan, real dil əsası dedikdə isə ədəbi dilə daxil olan sözləri nəzərdə tutur. Əgər belə olsa idi, məsələn, IV fəsildə "Emosional leksika" adı ilə verilən və ədəbi dilə daxil olan külli miqdarda sözü izahı ilə birlikdə V fəslə keçirmək lazım gələrdi.

Bundan əlavə, dissertasiya üçün nöqsan sayıb, müəllifə xeyli əvvəl çatdırmış olduğum aşağıdakı qeydləri də söyləməyi lazım bilirəm:

1.Tədqiqatın Cabbarlı əsərlərinin hansı nəşri üzrə aparıldığı barədə heç bir qeyd verilmir. Səhifələr hansı çapın səhifələridir – bilinmir.

2."Azərbaycanca yazılmış əsərlərdə türk sözlərinin istifadəsi uzun tarixə malik olub, qohum olan hər iki dilin ədəbi-mədəni əlaqəsini, təsirini göstərir"

(səh.55,I h.) tezisi, məncə, doğru deyildir, çünki uzun tarix başqa şeydir, XX əsrin əvvəllərində alınmış bir sıra türk sözləri başqa.

3.I fəsildə əvvəl ekspressivliyə görə seçilən kitab sözləri, sonra türk sözləri, istilahlar, rus sözləri verilir. Bu fəsil kitab sözləri adlandırıldığı üçün, əvvəlcə kitab sözləri haqqında giriş, sonra rus və türk sözləri və nəhayət, kitab sözlərinin ekspressivliyi verilsə, rus, türk sözlərinin və istilahların az-çox xüsusiyyətləri də əhatə edilərdi.

4.Sinonimlər bölməsində bəzən söz göstərilir, lakin onun sinonimi pyesdə deyil, ədəbi dildə nəzərdə tutulur (I h., səh. 115, 121 və s.); bu hissə sinonimlərdən çox, köhnəlmiş sözlərdən bəhs edən bir bölməyə bənzəyir.

5.Bəzən nəzəri cəhətdən əsaslandırılmadan mətn sinonimliyinə geniş yer verilir. (I h., səh. 145, 190, 305 və s.); hətta "sinifsiz cəmiyyət - yaramaz quruluş" kimi antonim birləşmələr sinonim sırada verilmişdir. (I, 305)

6.Ümumişlək söz ilə ədəbi dil sözü qarşı-qarşıya qoyulur. Məsələn, müəllif yazır: "İkisi ümumişlək, biri ədəbi dil sözü olan sinonimlər: yel - külək – ruzigar". Bizcə, hər üç söz ədəbi dil sözüdür (ümumişlək söz ədəbi dilə aid olar), lakin ilk ikisi ümumişlək, sonuncusu az işlənən kitab sözü, poetik sözdür.

7.İndi leksikologiya ilə frazeologiya ayrı-ayrı sahələr kimi sürətlə ayrılmaqdadır. Lakin müəllif öz tədqiqatında leksik vahidlərlə frazeoloji vahidləri ayırmamışdır. Görünür, müəllif söz haqqında tam təsəvvür yaratmaq üçün onu hər cür şəraitdə, hətta fraza mühitində də götürməyi lazım bilmişdir.

8.Bəzi bölmələr, məsələn, sinonim topluluğu, sinonimlərin yerləşdirilmə üsulları və s. təkrar olunur. Müəllif bunları birləşdirə bilər.

9."Tarixi sinonimlər" bölməsində verilən sözlər adlar qrupuna daxildir. Feli sinonimlərə bunun dəxli yoxdur. Ona görə də tarixi sinonimləri sinonimlərin bir bölməsi kimi deyil, ismi sinonimlərin bir bölməsi kimi vermək olar.

10.1-ci fəsildə də kitab sözlərinin ekspressivliyindən danışılır, III fəsildə də. Bundan əlavə, I hissənin 275, 293, 368, 370 və s. səhifələrində də təkrarlar vardır.

11.Nəhayət, dissertasiyada türk dilləri ilə və bizim əlaqədar dilçilik ədəbiyyatı ilə zəruri müqayisə halları bizə az göründü.

Dissertasiyaya əlavə edilmiş lüğət bu əsərin qiymətini daha da artırır. Bizim dilçilikdə ilk dəfə olaraq böyük bir külliyyatın lüğəti hazırlanmış, dos.N.Abbasova Cabbarlının pyeslərində təkrar olunmadan nə qədər söz işləndiyini müəyyənləşdirə bilmişdir.

"C.Cabbarlı pyeslərinin leksikası" adlı əsər oxuduğum müvafiq doktorluq dissertasiyaları ilə bir elmi səviyyədə dura bilən bir əsərdir.

Nizami ad. Ədəbiyyat və Dil İnstitutu.
F.e.n., b.e.i. R.C.Məhərrəmova. «Sabirin satirasının leksikası»
DD. 26.02.1969

Müasir sovet dilçiliyinin aktual problemlərindən biri də yazıçı dilinin tədqiqi problemidir. Bədii üslub təsvir və ifadə vasitələrini xalq di-

lindən alır, ona əsaslanır, lakin eyni zamanda xalqa və onun dilinə güclü təsir edir. Xalqın saflaşmaqda, zənginləşməkdə, kamilləşməkdə olan baxış və düşüncələri, gerçəkliyi dərk etmə pillələri məişətdə, xalq həyatında baş vermiş dəyişmələr bədii ədəbiyyatda, o cümlədən realist ədəbiyyatda öz əksini daha dolğun tapır. Bədii ədəbiyyatın dili xalq dili, dövrün ədəbi dili əsasında formalaşan fərdi-bədii yaradıcılıq üslubunun məhsuludur. Bədii dilin tədqiqi ilə xalq dilinin fikri ifadə zənginlikləri kəşf edilməklə bərabər, bədii üslubun hər dövrün özünə məxsus inkişaf səviyyəsi də müəyyənləşir. Bədii əsərlər müəyyən dövrə məxsus dil xüsusiyyətlərini özündə cəmləşdirmiş olur. Bu cəhətdən müdafiəyə təqdim edilmiş dissertasiyanın mövzusu vacib və aktualdır.

Sabirin satira dili xalq dilinin tükənməz sərvətlərindən istifadənin zirvəsidir. Əhəmiyyətlisi də budur ki, belə bir sənətkarın satira dili üzərində dilimizin inkişaf tarixinə dərindən bələd olan, satira dilinin böyük məziyyətlərindən baş açan, onun sətiraltı mənalarını, dərin qatlarda gizlənmiş incə mətləblərini ustalıqla üzə çıxarmağı bacaran, həqiqi bir doktor kimi yetişmiş Rəhilə Cavad qızı Məhərrəmova tədqiqat aparmış, uğurlu nəticələr əldə etmişdir.

Dissertasiyada azəri şeir üslubunun inqilabi satira ilə birləşməsində böyük rolu olmuş nəhəng bir simanın söz sənətkarlığının tədqiqi qarşıya qoyulmuşdur. Müəllif yeni şeri günün tələblərinə, həyatın zəruri ehtiyaclarının yerinə yetirilməsinə yönəltmiş alovlu satirikin ifadə vasitələrinin mühüm bir sahəsini - leksikasını tədqiq etmişdir. 462 səhifədən ibarət olan dissertasiyada məsələlər dörd fəsildə birləşdirilmişdir.

I fəsildə Sabir satirasının dilindəki sinonim, omonim, antonim sözlər tədqiq edilmişdir. Bu fəsildə şairin satirik şeirlərinin gücünü, təsirini doğuran, artıran leksik, semantik vasitələr üzə çıxarılmış, şairin qələmi altında sözlərin yeni məna zənginlikləri ilə necə dolğunlaşmış olduğu tutarlı faktlarla izah edilmişdir. Müəllif müəyyənləşdirmişdir ki, ümumxalq dilinin sinonim sıraları Sabir satirasında yeni variantlar, yeni komponentlərlə qovuşur, bunlar bədii məqsədi, ideyanı daha aydın, daha obrazlı, daha təsirli ifadə etməyə imkan verir. "Sionimlər" bölməsi dissertasiyanın dərin işlənmiş, dəyərli fikirlər, mülahizələrlə zəngin olan hissələrindən biridir. Müəllif Sabir satirasının gücünü, ekspressivliyini artıran, "eyniköklü və həmcins sinonimlər" adlandırılan sinonimləri izah edərkən məsələnin dilçiliyimizdə qoyuluşunu, xüsusən azəri dilçiliyində nə dərəcə işıqlandırılmış olduğunu da yeri gəldikcə izah etməli olmuşdur. Bu cür fikir və mülahizələr qaranlıq məsələlərlə bağlı mövcud fikir və qeydləri də aydınlaşdırır.

Dissertasiyada sinonim, omonim, antonim sözlərin tədqiqi yalnız bədii yaradıcılığın inkişaf yollarını aydınlaşdırmaq üçün deyil, azəri dilçiliyi üçün faydalı, qiymətli faktlar verməsi baxımından da qiymətlidir.

Bunlar azəri dili lüğət tərkibinin inkişafı və sözün semantik cəhətdən zənginləşməsi yollarını öyrənmək üçün çox faydalıdır.

Fikrin yazıçıya vacib olan bir tərzdə ifadəsi bəzən xalq dilində olmayan yeni sözlərin, ifadələrin yaranması ilə nəticələnir. Bədii məqsəd özünə lazım olan çalarlar, mənalar, yeni söz və yeni birləşmələr doğurur. Sabir satirasında təsadüf olunan belə yeni sözlərin dolaşıqlıq törətmədən kinayə, eyham, sarkazm gülüş qammaları ilə öldürücülük keyfiyyətlərinin tədqiqi dissertasiyanın qiymətli cəhətlərindəndir.

Dissertasiyada inqilabi satiranın real dil zəmini ətraflı təhlil edilmişdir. Adi məişətdə, gündəlik həyatda elə bir təsir doğurmayan ümumişlək sözlərin şairin qələmi ilə satira vasitələrinə necə çevrildiyi üzə çıxarılmışdır. Söz yaradıcılığı məsələsinə həsr olunmuş II fəsildə müəllif Sabirin satirik şeirlərində işlənmiş şəkilçilərin semantik xüsusiyyətlərinə daha çox diqqət yetirmiş, şəkilçilərin vasitəsilə yaradılmış məna çalarlarını araşdırmışdır. Bəzi şəkilçilərin Sabir satirasında təsadüf edilən yeganə mənalarının tarixi köklərini müəyyənləşdirmək üçün müəllif yeri gəldikcə müasir türk dilləri və türk dillərinə məxsus qədim yazılı abidələrlə müqayisələr aparmışdır. Bu cür tədqiqat - Sabir poeziyasındakı düzəltmə və mürəkkəb sözlərin üslubi imkanlarının, Sabirin bu sahədəki sənətkarləq xüsusiyyətlərinin tədqiqi şairin dilini öyrənməkdən əlavə, izahlı lüğətlərin hazırlanması üçün də faydalı olacaqdır.

III fəsildə Sabir satirasının leksik tərkibi mənşə cəhətdən nəzərdən keçirilmiş, alınma sözlərin alınma səbəblərinin və onların müxtəlif qruplarının tədqiqi fonunda müəllif Sabir dövründə dilimizin lüğət tərkibinin ümumi mənzərəsinin elmi təsvirini vermişdir. Bu fəslə daxil edilmiş dialektizmlər və arxaizmlər bu mənzərəni daha da əyaniləşdirir.

IV fəsil Sabir üslubunu daha çox fərdiləşdirən, şairin dilini xalq dili ilə daha çox bağlayan, satira dilindəki obrazlılığa, emosionallığa daha çox güc verən frazeologiya məsələlərinə həsr edilmişdir. Müəllif frazeoloji vahidlərin qrammatik təsnifini vermiş, xalq dili frazeologiyasından istifadənin üslubi rəngarəngliyini, Sabirin bu sahədəki novatorluğunu üzə çıxarmışdır.

Yalnız Sabirin satira dilini deyil, ümumiyyətlə, dilimizin lüğət tərkibini, sözün mənasının inkişaf yollarını öyrənmək üçün bu dissertasiyanın mühüm nəzəri və əməli əhəmiyyəti vardır.

Sabir satirasının tədqiqinə həsr olunmuş əsərlər çoxdur. Bunların içərisində şairin dil və sənətkarləq məsələlərinin tədqiqinə aid qiymətli əsərlər də vardır. Lakin hazırkı dissertasiyanın əhəmiyyəti orasındadır ki, əsərdə Sabirin satira dilinin leksik, frazeoloji və semantik xüsusiyyətləri bir küll halında tədqiq edilmiş, Sabir satirasının ecazkar gücünün sözdən, ifadədən hansı üsullarla istifadə əsasında meydana çıxdığı geniş təhlil edilmişdir.

Dissertasiyanın aşağıdakı nöqsanları da vardır.

1. I fəslin sinonimlər bölməsinin əsas xüsusiyyətlərindən biri budur ki, müəllif "Müasir Azərbaycan dili" fənnində olduğu kimi, nəzəri hissəni verib, misallar göstərmək yolu ilə getmədiyindən, Sabir satirasının verdiyi faktlardan çıxış etdiyindən satiranın inqilabi ruhu, müxtəlif sinif və təbəqələr arasındakı kəskin ictimai təzad sinonim cərgələrin, xüsusən mətn sinonimlərindən ibarət olan sıraların qarşılaşdırılması, antonimləşdirilməsi fonunda çox qabarıq şəkildə üzə çıxarılmışdır. Lakin müəllif bəzən bu cür tədqiqat prosesində mətn sinonimlərini də mütləq sinonimlər cərgəsində vermişdir. Məsələn, ***qövm - millət, dağ - daş, torpaq - daş*** və s. tipli bir sıra sözlər mütləq sinonim kimi izah edilmişdir. (1 h., səh, 91, 92)

2.Söz yaradıcılığından bəhs olunan ikinci fəsil gərgin əməyin məhsuludur. Lakin müəllif bu fəsildə bütün məsələləri eyni dərəcədə təhlil etməmiş, bir sıra bəzi terminləri yalnız sadalamaqla kifayətlənmiş, əlavə izahat verməmişdir.

3.Frazeologiya fəsli dissertasiyanın qiymətli fəsillərindəndir. Lakin müəllif burada da hər bir məsələyə eyni dərəcədə diqqətlə yanaşmamış, məsələn, atalar sözlərinin üslubi məqamlarını frazeoloji vahidlərin başqa növlərinə nisbətən səthi işləmişdir.

4.Dissertasiyada tək-tək üslub xətalarına da təsadüf edilir.

Sabir satirasının ecazkar dilini öyrənmək, dilimizin satira gücünü, satira vasitə və üsullarını aşkara çıxarmaq baxımından dissertasiya çox faydalıdır və Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, filologiya elmləri namizədi Rəhilə Cavad qızı Məhərrəmovanın "Sabir satirasının leksikası" adlı bu əsəri doktorluq müdafiəsinin tələblərinə tam cavab verir.

Nizami adına Ədəbiyyat və Dil İnstitutu.
K.e.i İslam Vəliyev. «XIV-XIX əsr Azərbaycan dili yazılı abidələrində keçmiş zaman formaları»
ND. 03.03.1969

Dilimizin tarixini, xüsusən onun qrammatik quruluşunu hərtərəfli öyrənmək üçün ayrı-ayrı morfoloji və sintaktik kateqoriyaların xüsusi mövzu kimi seçilməsi, "Kitabi-Dədə Qorqud" dastanlarının, zəngin ədəbi-bədii, elmi, publisistik əsərlərin, türk dillərinə məxsus yazılı abidələrin, qədim qrammatik formaları canlı bir muzey kimi qoruyub saxlayan dialekt və şivələrimizin verdiyi faktlar əsasında onların dəqiq elmi tədqiqi yalnız bizim dilçiliyimizi deyil, həm də türkologiyanı zənginləşdirir və qiymətli monoqrafiyaların yaranmasına səbəb olur. Müəyyən bir türk dilində konkret bir qrammatik kateqoriyanın hərtərəfli elmi tədqiqi, şübhəsiz, digər türk dillərində də həmin kateqoriyanın öyrənilməsi işini asanlaşdırır. Bu cəhətdən Nizami adını Ədəbiyyat və Dil İnstitutunun

kiçik elmi işçisi İ.D.Vəliyevin "XIV-XIX əsr Azərbaycan dili yazılı abidələrində keçmiş zaman formaları" adlı namizədlik dissertasiyası aktual bir mövzuya həsr olunmuşdur.

Məlumdur ki, hər hansı bir mövzunun öyrənilməsi üçün ilk növbədə həmin mövzunun tədqiqi tarixinə nəzər salmaq lazımdır. Elə buna görə də dissertant əsərin birinci fəslində azəri dilçiliyində və ümumiyyətlə, türkologiyada keçmiş zaman formalarının tədqiqi vəziyyətini araşdırmış, bu sahədə türkoloqların fikirlərini nəzərdən keçirərək keçmiş zamanın ifadə formalarına münasibətinə görə onları tənqidi şəkildə qruplaşdırmışdır. Türkoloqları dörd qrupa ayrıran müəllif I qrup dilçilərin fikirlərinə əsaslanmış, keçmiş zamanın şühudi və nəqli keçmiş kimi iki əsas formaya malik olduğunu əsas götürərək tədqiqatını bunların üzərində qurmuşdur.

Müəllif, keçmiş zaman formalarından danışarkən daha çox mübahisəyə səbəb olan "idi", "imiş" köməkçi sözləri üzərində xüsusi dayanmış və I fəslin II bölməsində bunların dildə rolu, keçmiş zaman formalarına yaxın və fərqli cəhətləri barədə yığcam məlumat vermişdir.

Şühudi kneçmişin şəkli əlaməti ***(-dı, di, -du, -dü; -tı, -ti, -tu, -tü; -d, -t***) türk dillərində qədim tarixə malik olduğu kimi, əsas mənadan əlavə, rəngarəng məna xüsusiyyətlərinə və semantik çalarlara da malik olmuşdur. Ona görə də türkoloji ədəbiyyatda bu şəkilçi ilə ifadə olunan keçmiş zamanın müxtəlif terminlərlə adlandırılması müəyyən mənada təbiidir. II fəslin əvvəlində dissertant problemin bu cəhətini nəzərdən keçirmiş və şəkilçinin etimologiyası barədə mülahizələrini söyləmişdir. Bir sıra türkoloqların fikrinə istinad edərək, müəllif ***-dı,-di,-du, -dü*** şəkilçisinin ***-duq, -dük*** şəkilçisindən əmələ gəldiyini göstərir ki, bunu onun qədim abidələrdən gətirdiyi misallar da (***mən barduq, sən barduq, ol barduq; mən yay qurduq, ol gəldük*** və s.) təsdiq edir.

Dissertant ***-dı, -di*** şəkilçisinin tarixən hansı şəxs şəkilçiləri ilə işləndiyini də yoxlamış və müşahidə etmişdir ki, başqa zaman formaları və fel şəkilləri I şəxsin cəmini bildirmək üçün lap qədim dövrlərdən "***z***" ünsürünü qəbul etdiyi halda, yalnız şühudi keçmişin şəkilçisi elə o dövrlərdən ***-q//-k*** elementini qəbul etmişdir.

Dissertant XIV-XIX əsrlərin azəri abidələrində şühudi keçmiş zamanın semantik xüsusiyyətlərini və şühudi keçmiş şəkilçisinin daşıdığı əlavə vəzifələri nəzərdən keçirərək, onun üslubi məqamla əlaqədar nəqli keçmiş, qəti gələcək zaman mənalarında, şərt şəkli, ***-ıb*** feli bağlaması, substantivləşmiş keçmiş zaman feli sifəti əvəzində işlədiyini müəyyən etmişdir. Yeri gəldikcə müəllifin daha qədim abidələrdə və müasir ədəbi dilimizdə bunların müəyyən izlərini əks etdirən misallar verməsi ***-dı, -di*** şəkilçisinin uzun tarixi, zəngin qrammatik və üslubi inkişaf yolu barədə təsəvvürü genişləndirir.

Dissertasiyada nəqli keçmiş zamanın hər iki ifadə formasının -***-mış,-miş,-muş,-müş; -ıb,-ib,-ub,-üb*** şəkilçilərinin tədqiqinə xüsusi yer verilmişdir. Dissertant hər iki şəkilçinin etimologiyası barədə mövcud ağlabatan mülahizələrə əsaslanmış və istinad etdiyi fikirləri yeni faktlarla daha da zənginləşdirmişdir. Şühudi keçmişin tədqiqində olduğu kimi, nəqli keçmişin ifadə formalarının semantik xüsusiyyətləri, tarixən hansı şəxs şəkilçiləri ilə işləndiyi və ümumi inkişaf yolu da ətraflı araşdırılmışdır.

Dissetrasiyada zəngin elmi və bədii ədəbiyyatdan istifadə olunmuşdur. Qədim əlyazmalarından seçilmiş misallar müəllifdən gərgin axtarışlar aparmağı tələb etmişdir.

Dissertasiyanın asanlıqla islah oluna bilən nöqsanları da vardır.

İ.Vəliyevin əsəri dilçilik fikrinin inkişafı üçün faydalı olub, namizədlik dissertasiyasının tələblərinə tam cavab verir.

M.F.Axundov adına APİ.
Müəl. C.M.Axundov. «Müasir Azərbaycan ədəbi dilində sual cümlələri»
ND. 08.12.1969

Çıxış edən yoldaşlar: Azərbaycan SSR EA-nın müxbir üzvü, V.İ. Lenin adına APİ-nin azəri dilçiliyi kafedrasının müdiri, professor Ə.Dəmirçizadə, dosentlərdən A.Məhərrəmov, A.Hüseynov, B.İbrahimov, baş müəllimlər Q.Kazımov, R.Həsənov, Q.Bağırov və başqaları göstərdilər ki, "Müasir Azərbaycan ədəbi dilində sual cümlələri" adlı namizədlik dissertasiyası öz aktuallağı ilə diqqəti cəlb edən müasir dil problemlərindən birinə həsr olunmuşdur. Dissertasiyanın mühüm cəhətlərindən birisi budur ki, mövzu bizim dilçilik üçün yeni metodla - eksperiment əsasında işlənmişdir. Dissertant Moskvada professor V.A.Artyomovun laboratoriyasında sual cümlələrinin intonasiyasını eksperiment yolu ilə tədqiq etmiş və bir sıra əhəmiyyətli göstəricilərə nail olmuşdur. Dissertasiyaya əlavə olunmuş intonasiya qrafiklərindən ibarət albom, sual cümlələrinin intonasiya fərqlərini göstərən ümumi cədvəl, sual cümlələrinin növlərini əks etdirən sxem müəllifin gərgin və səmərəli işinin nəticəsidir.

Dissertasiya "Giriş", üç fəsil, nəticə, bəzi terminlərin lüğəti, kitabiyyat və eksperimentin nəticələrini əks etdirən qrafiklərin fotoreproduksiyaları əsasında tərtib edilmiş illüstrativ materialdan ibarətdir.

"Giriş"də sual cümlələrinin tədqiqi əhəmiyyəti, tədqiqatın hansı üsullarla aparıldığı barədə yığcam məlumat verilmişdir.

I fəsil sual kateqoriyası və onun azəri dilində ifadə vasitələrinə həsr edilmişdir. Müəllif bu fəsildə sual cümləsi və onun məntiqi hökm

ilə əlaqəsi məsələsinə toxunaraq, qeyd edir ki, sual ilk növbədə cavab almaq məqsədilə işlənsə də, onun hökm ifadə etmək funksiyası da vardır ki, bu, sual cümləsinin növündən asılıdır. Biz bu fəsildə Azərbaycan dilində sual cümlələrinin tədqiqi tarixinin xülasəsi ilə də tanış oluruq. Bu fəsildə sual kateqoriyasının dilimizdəki ifadə vasitələri haqqında məlumat da qiymətlidir. Burada müəllif sual kateqoriyasını yaradan vasitələri diqqətlə nəzərdən keçirərək onları sintaktik, sintaktik-morfoloji və leksik-sintaktik vasitələr kimi üç qrupa ayırmışdır.

II fəslin əsasını müasir ədəbi dilimizdəki sual cümlələrinin təsnifi təşkil edir. Müəllif sual cümlələrinə üç cəhətdən yanaşmağın mümkün olduğunu qeyd edir: sintaktik quruluşuna görə, ifadə məqsədinə görə və ümumi xarakterinə görə. Müəllif öz tədqiqatını getdikcə dərinləşdirərək, sual cümlələrinin quruluşuna görə əvəzlikli, əvəzliksiz, ifadə məqsədinə görə həqiqi, ritorik və təhrikedici, ümumi xarakterinə görə ilkin və təkrar sual cümlələrinə ayrıldığını qeyd edərək, bunların hər birini zəngin dil faktları əsasında ayrıca tədqiq etmişdir. Qətiyyətlə demək olar ki, bu məsələlərin əksəriyyəti Azərbaycan dilçiliyi üçün yenidir.

Dissertasiyanın III fəsli müasir ədəbi dilimizdəki sual cümlələrinin intonasiya xüsusiyyətlərinin tədqiqinə həsr edilmişdir. İntonasiya sual cümləsinin qurulmasında əsas vasitə olduğundan müəllifin sual cümlələrində intonasiyanın rolunu ayrıca tədqiq etməsi, sual yarada bilən digər vasitələr olduqda və heç bir əlavə vasitə olmadıqda intonasiyanın rolunu dəqiqləşdirməsi dissertasiyanın çox qiymətli cəhətlərindəndir. Bu fəslin qiymətli cəhətlərindən biri də burada həqiqi, ritorik və təkrar sualların intonasiya xüsusiyyətlərinin dəqiq eksperiment göstəriciləri ilə müəyyənləşdirilməsi, nəticələrin çox diqqətlə tərtib edilmiş cədvəllərdə ümumiləşdirilməsidir.

Müəllif bu nəticəyə gəlir ki, sual cümlələrində sual intonasiyasını təyin edən əsas vasitələr özünü əksər halda cümlənin son hecasında göstərir. Bu vasitələr son hecanın tələffüz müddətindən, əsas tonun istiqamətindən ibarətdir. Bunlardan əlavə, cümlənin tezlik diapazonu, enmə və yüksəlmə intervalları, ayrı-ayrı hallarda amplitud intensivliyi, tələffüz səviyyəsi və tempi də sual intonasiyasını təşkil edən vasitələr kimi çıxış edir. Müəllif həqiqi, ritorik və təhrikedici sualların intonasiya xüsusiyyətlərini müqayisəli şəkildə aydınlaşdırmışdır.

Dissertasiyanın bəzi qüsurları da vardır.

Dissertant ardıcıl olaraq azəri dilinin təbiətindən çıxış etməyə çalışmışsa da, dissertasiyada bəzən başqa sistemli dillərin sual cümlələrinə məxsus xüsusiyyətlərdən çıxış etdiyi hallar da hiss olunur.

Dissertasiyanın asanlıqla düzələ bilən texniki qüsurları da var. Albomun birinci səhifəsində 8-ci və 9-cu cümlələr leksik tərkibcə eynidir. Həmin cümlələrin nə məqsədlə verildiyi onların qarşısında göstərilmədiyindən anlaşılmır.

Bunlar dissertasiyanın ümumi dəyərinə elə bir təsir edə bilmir. Dissertasiyanın elmi səviyyəsi yüksəkdir. "Muüasir Azərbaycan ədəbi dilində sual cümlələri" adlı bu əsər namizədlik müdafiəsinin tələblərinə tam cavab verir.

V.İ.Lenin ad.APİ.
F.e.n., dos.Azər Əliş oğlu Hüseynov. «Azərbaycan dilinin şimal-qərb şivələri»
DD. 17.11.1971

Mən dissertasiyanın II hissəsi üzərində durmaq istəyirəm. Bu hissə dörd fəsildən ibarət olub, "Leksika" adlanır. Bu hissənin lap əvvəlindən həqiqi leksikoloji tədqiqatın çətinlikləri praktik şəkildə özünü göstərir. Müəllifin əsas xidməti Azərbaycan dili şivə leksikasının şimal-qərb layını ustalıqla, ağır zəhmətlə qaldıra bilməsindədir. Türk dilləri və monqol dili ilə aparılan müqayisələr əsasında müasir dilimizdə leksik-semantik cəhətdən fərqli xüsusiyyətlərə malik olan bir qrup sözün etimoloji tədqiqi həmin sözlərin inkişaf yolu haqqında aydın təsəvvür yaradır. Bu hissədə şivələrdə az təsadüf olunan, müəllifin çox vaxt yalnız bir türk dilində rast gəldiyi sözlərin lüğəti də verilmişdir. Belə sözlərə digər türk dillərində təsadüf edilməməsi, müəllifin qeyd etdiyi kimi, ayrı-ayrı dillərə məxsus lüğətlərin dil materialını əhatə etmə imkanı ilə də bağlıdır. Bu hissənin başlıca nöqsanı, bizcə, türk tayfalarının qonşuluğundakı qədim qafqazdilli tayfaların təmasının nəzərdə tutulmamasıdır. Şimal-qərb şivələrində belə faktlar ola bilərdi. Görünür, bu sahəyə az diqqət yetirilməsi tarixi mənbələrin yoxluğu ilə əlaqədardır.

Müəllifin tədqiqləri şivə leksikasının sinonim zənginliyini göstərir. Frazeoloji ifadələr, toponim və etnonimlər, keçmiş yaşayış yerləri, adətlər və ayinlər haqqında qeydlər və faktlar fonunda bu ərazidə yaşayanların qədim tarixi təsdiq edilmiş olur. Haylələr və lilaylar, sadılar, bayatılar, tapmacalar, atalar sözləri və məsəllər, mahnılar dil tarixçisi ilə yanaşı, folklorşünas üçün də çox maraqlıdır. "Gülüm, səbəhdi" mahnısı Dədə Qorqud hissləri doğurur. Mətnlər, müsahibə aparılmış şəxslərin adları, onların yaşı və müsahibə tarixi bəzi qiymətli faktların təsadüfliyi ehtimalını aradan qaldırmış olur. Bu hissənin əsasını təxminən yüz səksən səhifəlik lüğət təşkil edir. Bu lüğət min ildən artıq bir dövr ərzində qorunub saxlanmış dil materialının sistemli tədqiqi olub, elm aləminə qiymətli hədiyyədir.

Bu hissədə xırda nöqsanlar da vardır:
1.Üslub səhvi, səh.283-də birinci cümlə.

2.Səh. 294-də "təsəvvüf" sözü yerindədirmi?
3.Səh.308-də şerin misra bölümü sözdəki hecalara görədir.
4.Ədəbiyyat həm daxildə, həm də sonda verilir.
5.Səh. 88-ədək ifadələr nömrələnmiş, sonra nömrələnməmişdir.
6.Səh. 7-də "saqara" (qarğış) sözü "səğər" sözü ilə, səh. 13-də "basarat" sözü "bəsarət" sözü ilə əlaqələndirilə bilərdi
7.Səh.144-də söz lüğətdə "qIoraza", misalda "qIuraza" şəklində verilib. Misaldan görünür ki, sözün kökü "qIuraz"dır.

Dissertasiya, uzun və ağır zəhmətin nəticəsi olub, nəzərdə tutulan məqsədə tam müvafiqdir.

V.İ.Lenin adına APİ. Azərbaycan dilçiliyi kafedrası.
Dos. A.Ə.Hüseynovun "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı doktorluq dissertasiyasının müzakirəsi
Protokol 5. Çıxarış
17.11.1971

Çıxış edən yoldaşlar: Azərbaycan SSR EA-nın müxbir üzvü, filoloji elmlər doktoru, prof.Ə.M.Dəmirçizadə, dos.A.Məhərrəmov, dos. B.İbrahimov, dos.H.Mirzəyev, dos.Q.Kazımov, dos.Ə.Şükürov, dos. Q.Bağırov, dos.C.Cəfərov, dos.B.Sadıqov, b.m. R.Həsənov, b.m.B.Əhmədov, b.m. Ə.Bəşirova və başqaları göstərdilər ki, dos.Azər Əliş oğlu Hüseynovun "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı doktorluq dissertasiyası mövzusunun aktuallığına, tədqiqat üsuluna, müəllifin şəxsi əməyi nəticəsində toplanmış zəngin dialektoloji materialın təhlili üsuluna görə fərqlənən, həm dialektologiya elmimiz, həm də dilimizin tarixi üçün böyük əhəmiyyətə malik olan qiymətli əsərdir. Dissertasiya A.Hüseynovun 50-ci illərdən başlayaraq apardığı uzun tədqiqatın nəticəsidir.

Dialektoloji tədqiqatın düzgün elmi istiqamətdə aparılması üçün müəllif şimal-qərb şivələrində danışanların etnik xüsusiyyətlərinin tədqiqinə müəyyən yer verməli olmuşdur. Faktlar göstərir ki, şimal-qərb rayonlarının əhalisi etnik cəhətdən çox qarışıqdır. Burada qıpçaq ünsürlərinin üstün mövqe tutması, etnik cəhətdən türk olmayan tayfa qalıqlarının mövcudluğu tədqiqatı xeyli çətinləşdirmişdir. Bu çətinliklərə baxmayaraq, müəllif dəqiq istiqamət götürmüş və çox zəngin material toplamışdır. Müəllifin topladığı dialekt materialının əsasını nadir dil faktları təşkil edir ki, bu da qədim ünsürlərin dilimizin qollarında - dialekt və şivələrdə qorunub saxlandığını göstərən dəlilərdəndir. İndiyə qədər yanlış olaraq iber-qafqaz dillərinin, erməni dilinin elementləri kimi izah edilmiş bir sıra dil vahidlərinin müəllif tərəfindən qədim türk dillərinin qalıqları olduğunun müəyyənləşdirilməsi elm üçün çox qiymətlidir.

Dissertasiya dörd fəsildən ibarətdir.

Birinci fəsildə müəllif Zaqatala, Qax və Balakən rayonları ərazisində baş vermiş tarixi hadisələri qısa şəkildə izləmiş, bu qısa xülasə əsasında şivə əhalisinin etnik tərkibi haqqında aydın təsəvvür yarada bilmişdir. Tədqiqat əsasında müəllif belə bir nəticəyə gəlmişdir ki, şimal-qərb zonası şivələrinin lüğət tərkibindəki bəzi türk dili ünsürləri (qıpçaq və ümumən şimal türk dillərinə məxsus əlamətlər) daha qədim tarixi hadisələrlə bağlıdır; Qafqaz dillərinə məxsus elementlər isə qədim deyil, yaxın keçmişlə əlaqədardır. Tədqiqatdan aydın olur ki, Azərbaycan dilinin şimal-qərb şivələri xəzər, qıpçaq, oğuz və səlcuq problemlərinin həllində türkoloji axtarışlara kömək edə biləcək qiymətli faktlarla zəngindir. Tədqiq olunan ərazinin toponimiyasında TURUKlar, QIPÇAQlar və OĞUZlarla əlaqədar əlamətlər və izlər aydın şəkildə saxlana bilmişdir.

Mürəkkəb tarixi şəraitdə müxtəlif qəbilə və tayfaların tarixən çarpazlaşması əsasında təşəkkül tapmış şimal-qərb şivələri fonetik tərkibcə son dərəcə zəngin və çoxcəhətlidir. Yığcam və dərin elmi təhlil əsasında qurulmuş ikinci fəsildə ("Şimal-qərb şivələrinin fonetik xüsusiyyətləri") müəllif şivələrin fonetik xüsusiyyətlərini araşdırmış, hamıya məlum olan, əksər dialekt və şivələrimizdə işlənən faktları deyil, nadir və daha maraqlı fonetik xüsusiyyətləri əhatə etməklə şivə xüsusiyyətlərinin tarixi aspektdə tədqiqinin orijinal nümunəsini yaratmışdır.

Başlıca olaraq, eşitmə üsulundan istifadə edən müəllif şivələrdə saitlərin ilkin və qədim uzanmasına təsadüf etmədiyini bildirir və sözün mənşəyinə diqqət yetirmədən bu ərazidə ilkin uzanmadan danışan dilçiləri haqlı olaraq tənqid edir. Müəllifin bu hissədəki tədqiqatının qiymətli cəhəti bəzi sait və samitlərin spesifik tələffüzünü türk dillərinin qədim tarixi ilə bağlaya bilməsindədir. Lakin müəllif səslərin şivə tələffüz tərzini həmişə qədim türk izləri kimi izah etməmiş, qonşu dillərin təsirini də (məsələn, T3, ÇI səslərində) unutmamışdır. Bu fəslin sait səslərin söz başında, söz ortasında qarşılıqları, tək-tək təsadüf edilən samit əvəzlənmələri, bəzi səslərin zəifləməsi, səs düşümü, söz başında "y" samitinin saxlanması, sözlərin ortasında samitlərin qoşalaşması, "h"laşma haqqında qeydlər, söz sonunda cingiltili samitlərin işlənməsi, sonu "ay" fonetik kompleksi ilə bitən sözlər, "genişlənmiş" söz kökləri, assimilyasiya, dissimilyasiya, metateza, ahəng qanunu kimi çox maraqlı bölmələri tədqiq olunmuş şivələrin həqiqi elmi mənzərəsini əks etdirir.

Dissertasiyanın qrammatik xüsusiyyətlərin tədqiqinə həsr olunmuş üçüncü fəsli ("Qrammatika") daha geniş və daha zəngindir. Bu hissədə müəllif qrammatik xüsusiyyətlərin tədqiqinə qrammatik kateqoriyalar (hal, mənsubiyyət, xəbərlik və s.) üzrə ən qədim əlamətlərin üzə çıxarılması və tarixi istiqamətdə təhlili ilə başlamış, türk dilləri ilə və qədim türk yazılı abidələri ilə müvafiq müqayisələr apararaq dəqiq nəticələr əl-

də etmişdir. Say (xüsusən sıra sayı) və əvəzliklərə (daha çox işarə əvəzliklərinə) dair qədim xüsusiyyətlərin aşkara çıxarılması bu fəslin daha maraqlı və faydalı hissələrindəndir. Bu fəsildəki fel bəhsi də zəngin və genişdir. Müəllif fel bəhsi ilə əlaqədar Azərbaycan dialektologiyasının problematik məsələlərinə toxunmuş, felin şəkil kateqoriyası ilə əlaqədar zəruri müqayisələr aparmışdır. Bəzi qrammatik xüsusiyyətlər haqqında müəllifin apardığı ümumiləşdirmələr yalnız Azərbaycan dilçiliyi üçün deyil, türkologiya üçün də maraqlıdır.

Dissertasiyadan aydın olur ki, şimal-qərb şivələrində feli sifət, feli bağlama, qoşma, bağlayıcı, nida, ədat və modal sözlər qədim xüsusiyyətləri saxlamış olmasına görə dialekt və şivələrimiz içərisində xüsusi yer tutur. Dos.A.Hüseynovun bu məsələlər ilə əlaqədar qarşılaşdırma, tarixi müqayisə və təhlil əsasında tədqiqi də Azərbaycan dialektologiyası sərhədlərindən kənara çıxa biləcək qədər əhəmiyyətli olub, qiymətli məsələlərə toxunur.

Dissertasiyanın 370 səhifəlik bir hissəsini "Leksika" adlanan IV fəsil təşkil edir. Bu fəslin özü də "Şimal-qərb şivələrinin leksik xüsusiyyətləri", "Etnoqrafik əlamətlər", "Folklor nümunələri", "Mətnlər" kimi bölmələrdən ibarətdir. Bu hissənin lap əvvəlindən həqiqi leksikoloji tədqiqatın çətinlikləri praktik şəkildə özünü göstərir. Müəllifin əsas xidməti Azərbaycan dili şivə leksikasının şimal-qərb layını ustalıqla, ağır zəhmətlə qaldıra bilməsindədiir. Türk dilləri və monqol dili ilə aparılan müqayisələr əsasında müasir dilimizdə leksik-semantik cəhətdən fərqli xüsusiyyətlərə malik olan bir qrup sözün etimioloji tədqiqi həmin sözlərin inkişaf yolu haqqında aydın təsəvvür yaradır. Bu hissədə digər şivələrdə çox az təsadüf olunan, müəllifin çox vaxt yalnız bir türk dilində rast gəldiyi sözlərin lüğəti də verilmişdir. Belə sözlərə digər türk dillərində təsadüf edilməməsi, müəllifin qeyd etdiyi kimi, ayrı-ayrı dillərə məxsus lüğətlərin dil materialını əhatə etmə imkanı ilə də bağlıdır.

Bəzi qeydlər şivə leksikasının sinonim zənginliyini göstərir. Bəzi ifadələr, toponim və etnonimlər, keçmiş yaşayış yerlərinin adları, adətlər və ayinlər haqqında qeydlər və faktlar fonunda bu ərazidə yaşayanların qədim tarixi təsdiq edilmiş olur. Haylələr və lilaylar, sadılar, bayatılar, tapmacalar, atalar sözləri və məsəllər, mahnılar dil tarixçisi ilə yanaşı, folklorşünas və etnoqraflar üçün də maraqlıdır. Mətnlər, müsahibə aparılmış şəxslərin adları, onların yaşı və müsahibə tarixi bəzi qiymətli faktların təsadüfiliyi ehtimalını aradan qaldırmış olur. Bu hissənin əsasını təxminən 180 səhifəlik lüğət təşkil edir. Bu lüğət min ildən artıq bir dövr ərzində qorunub saxlanmış dil materialının sistemli tədqiqi olub, elm aləminə qiymətli hədiyyədir.

Dos.A.Hüseynovun "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı dissertasiyası yalnız faktlarla zəngin deyildir. Müəllifin tədqiqat üsulu,

dil faktlarına obyektiv münasibəti, dərin və ümumiləşdirici təhlili, zəngin elmi ədəbiyyatdan tənqidi şəkildə istifadə bacarığı dissertasiyanın elmi dəyərini artıran cəhətlərdir.

Dissertasiyanın əvvəlində verilmiş transkripsiya şivələrin fonetik xüsusiyyətlərini dəqiq şəkildə əks etdirə bilir. Hər fəslin sonunda verilmiş ümumiləşdirici nəticələr və ədəbiyyat göstəricisi həmin fəsillər haqqında təəssüratı bir növ tamamlayıcı vasitə rolu oynayır.

Qeydlərdən aydın olur ki, dos.A.Ə.Hüseynovun "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı dissertasiya işi hazırdır və doktorluq dissertasiyasının tələblərinə tam cavab verir. Əsər müdafiəyə buraxıla bilər.

Qərar: 1.Dosent Azər Əliş oğlu Hüseynovun "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı əsəri doktorluq dissertasiyasının tələblərinə tamamilə cavab verir. Dissertasiya hazır hesab edilsin və müdafiəyə buraxılsın.

2.Aftoreferat dissertasiyanın məzmununu, əsasən, əhatə edir.

3.Çap olunmuş məqalələr dissertasiyanın məzmununu əhatə edir.

4.Kafedra rəsmi opponentliyə aşağıdakı yoldaşları məsləhət bilir:

a) akademik M.Şirəliyev;

b) prof. E.Sevortyan;

c) filoloji elmlər doktoru R.Məhərrəmova;

ç) prof. T.Hacıyev.

АПИ им. М.Ф.Ахундова. Г.Г.Байрамов. «Синтактико-стилистические вопросы перевода прозы с английского языка на азербайджанский язык»
KD. 03.02.1972

Выступавшие товарищи: член-корр.АН Азерб. ССР, Заведующий кафедрой азербайджанского языкознания, доктор филологических наук, проф.А.Демирчи-заде, доценты Г.Кязимов, Г.Мамедов, Ю.Мамедов, Г.Багиров, старший преподаватель, кандидат филологических наук А.Баширова,, доцент кафедры иностранных языков А.Ягуби, старший преподаватель Г.Хасполадова и др. отметили, что развитие культурных, политических и экономических связей с народами Европы, а также с другими народами, говорящими на английском языке, требует особого внимания к переводческому делу. Назрела необходимость разработки различных вопросов теории перевода, ибо без определенных теоретических основ невозможно улучшение качество перевода с английского языка на азербайджанский остается до сих пор неразработанным. В частности, нет ни од-

ного исследования, посвященного синтактико-стилистическим вопросам перевода прозы с английского языка на азербайджанский язык. С этой точки зрения кандидатская диссертация Г.Г.Байрамова "Синтактико-стилистические вопросы перевода прозы с английского языка на азербайджанский язык"посвящена разработке очень актуальной темы.

Работа состоит из введения, четырех глав, выводов и библиографии.

Первая глава озаглавлена "Перевод и стилистический синтаксис". Здесь рассматриваются такие вопросы, как перевод и стиль, стилистический синтаксис и сохранение его в переводе и отмечается, что из всех аспектов языка синтаксис обладает наибольшей стилистической значимостью, ибо основу его составляет предложение, а любой перевод начинается с лингвистического анализа предложения и завершается выбором в языке, на который осуществляется перевод, такой синтаксической конструкции, которая соответствовала бы оригиналу и отражала в переводе стилистические особенности переводимого текста. Любые изменения, происходящие в структуре предложения, автор рассматривает как изменения в форме и последующие главы работы связывает, в основном, с этой проблемой.

Вторая глава посвящена "Сохранению в переводе функционального порядка слов". Автор, исходя из синтаксической роли слова в предложении, предпочитает вместо термина "порядок слов" употреблять термин "функциональный порядок слов". В этой главе освещается характер функционального порядка слов в английском и азербайджанском языках и отмечается, что как в том, так и в другом языке функциональный порядок слов носит стилистический и синтактико-семантический характер, причем английскому языку более присущ синтактико-семантический характер, а азербайджанскому - стилистический.

В работе всесторонне рассматривается вопрос о сохранении при переводе с английского языка функционального порядка слов.

Третья глава повествует о взаимозамене различных категорий при переводе. В силу специфики языков при переводе с английского языка на азербайджанский оказывается невозможным передавать все категории оригинала идентичными средствами. Чтобы сохранить при переводе единство формы и содержания, другими словами, точно отразить в переводе значение и стилистические особенности оригинала, приходится прибегать к замене одних категорий другими. В диссертации эти категории группируются и получают обоснование в фактическом материале.

Четвертая глава посвящена изменению структуры предложения при переводе. В связи о тем, что в английском и азербайджанском языках ряд языковых категорий значительно различается, то в процессе перевода изменяются и структурные типы предложений, простые предложения, а также главное и придаточное предложения в сложноподчиненном предложении объединяются, части сложносочиненного предложения разъединяются и т. д. Все эти случаи анализируются автором на конкретных примерах, отмечаются наиболее удачные в стилистическом отношении варианты и показываются объективные причины изменения структуры предложения.

В заключении даются общие выводы по главам.

Известно, что в основе перевода лежит не передача отдельных слов, выражений, сочетаний, а целых предложений связного текста. Предложение же есть объект исследования синтаксиса. Стилистический синтаксис, являющийся более сложной и трудной областью по сравнению с другими областями стилистики, требует от исследователя глубоких теоретических знаний. Основываясь на впечатление, полученное от диссертации, можно с уверенностью сказать, что автор успешно справился со всеми трудностями. Отношение к фактам и анализ языковых явлений свидетельствуют о том, что Г.Байрамов имеет высокую научно-теоретическую подготовку, он сумел вникнуть во все сложные вопросы стилистического синтаксиса, постичь их тонкость и глубину. О его высокой теоретической подготовке свидетельствует и широта и разнообразие использованной литературы, особенно на английском и русском языках.

Данная диссертация ясно показывает, насколько трудным и ответственным делом является искусство перевода. Опубликование работы в виде отдельной монографии было бы большим подспорьем для тех, кто трудится в этой области.

В работе отмечены некоторые легко устранимые недостатки.

Из сказанного выше становится ясно, что диссертационная работа Г.Байрамова на тему "Синтактико-стилистические вопросы перевода прозы с английского языка на азербайджанский язык" является завершенной и отвечает всем требованиям, предъявляемым к кандидатским работам.

Nəsimi ad.Dilçilik İnstitutu.
M.Ş.Qasımov. «Azərbaycan dili terminologiyasının əsasları»
DD. 14.03.1972

Mənim oxuduğum hissə dissertasiyasının iki fəslini əhatə edir - I və II fəsilləri. Bunlardan əlavə, bu hissədə 10 səhifəlik "Bir neçə söz", 15 səhifəlik "Giriş" bölmələri də vardır.

"Bir neçə söz"də mövzunun aktuallığı, dilçiliyimizdə tədqiqi tarixi ilə yanaşı, ayrı-ayrı fəsillərrdə hansı məsələlərin qoyulduğu və nə üçün məhz həmin məsələlərin əhatə edildiyi aydınlaşdırılmışdır. "Giriş"in əsasını "Terminologiya nədir və hansı cəhətlərdən öyrənilə bilər?" sualının cavabı təşkil edir, göstərilir ki, terminologiya üç cəhətdən - sırf dilçilik, tətbiqi dilçilik və nitq mədəniyyəti baxımından öyrənilə bilər. Müəllif terminin dilçilik cəhətlərinin müəyyənləşdirilməsinə xüsusi fikir vermişdir. Bu hissədə 1933-cü ildə ölkəmizdə yaradılmış Texniki Terminologiya Komissiyasının (sonralar Komitəsinin) işindən, terminologiya məsələlərinin nizama salınması sahəsində rolundan xeyli geniş bəhs edilir. Maraqlı burasıdır ki, terminologiya məsələləri ilə əvvəllər başqa sahələrin mütəxəssisləri (Çaplıgin – aviasiya mühəndisi) məşğul olmuş, dilçilər bu sahəyə tədricən gəlmişlər.

I fəsil "Terminin spesifikası" adlanır. Bu fəsil termin, terminologiya və nomenklatura anlayışları, termin və nomenklatura, terminə verilən tələblər, terminin tərkib hissələri, elementləri, müxtəlif nitq hissələrinin terminləşməsi, terminlər və ümumi ədəbi dilin leksikası, terminlərin dildə əhəmiyyəti kimi məsələləri əhatə edən yeddi bölmədən ibarətdir. Müəllif ümumi dilçilikdə termin və terminologiya məsələləri ilə əlaqədar ziddiyyətli fikirləri nəzərdən keçirdikdən sonra terminə xas olan: terminin təkmənalılığı, dəqiqliyi, üslubi neytrallığı, əlaqədar elm sahəsində məcburi şəkildə işlədilməsi, bir neçə dildə vahid şəkildə işlənməsi kimi beş əsas cəhəti şərh etmişdir. Bu məsələlərdən sonuncusunu bütün terminlərə aid etmək olmaz. Bu hissədə terminə verilən tələblər də – terminin dəqiqliyi, qısalığı, sistemliliyi, elementlərinin sırası üçün əksərən forma-quruluş uyğunluğu məsələləri də şərh edilmişdir.

II fəsil Azərbaycan dilində termin yaradıcılığının təşəkkülü, formalaşma və inkişaf tarixindən bəhs edir və "Azərbaycan dili terminologiyasının inkişaf tarixi" adlanır. Ə.Dəmirçizadənin 1958-ci ildə çap olunmuş "Azərbaycan ədəbi dilinin inkişaf yolları" əsərinə əsasən Azərbaycan dili terminologiyasının inkişaf yolu üç dövrə bölünür: XIX əsrin I rübünə qədərki dövr, XIX əsrin I rübündən Sovet hakimiyyəti qurulana qədərki dövr və Sovet dövrü.

Hər bir dövr terminologiya məsələlərinə münasibətdə ayrıca nəzərdən keçirilmişdir. I dövr üçün əsas mənbə Kaşğari, İbn-Mühənna lüğətləri, Nəsiminin və Füzulinin şeirləri olmuş, termin yaradıcılığında əsas mənbəyin ərəb və fars dilləri olduğu göstərilmişdir. II dövrdə mənbələr sırasına Azərbaycan dili, rus dili və rus dilinin beynəlmiləl fondu da daxil olmuşdur. Və bu sahədə M.F.Axundovun, Zərdabinin, bolşevik mətbuatının, mollanəsrəddinçilərin rolu xüsusi öyrənilmişdir. Terminologiya tarixində Sovet dövrü xüsusi tədqiq olunmuş, daxili dövrlərə ayrıl-

mışdır: 20-29, 29-44, 44-52, 52-dən sonrakı dövr. II fəslin Sovet bölməsi çox maraqlı və zəngin olub ayrıca bir fəslə bərabərdir.

Dissertasiyanın dili sadə, aydın, məntiqi və sistemlidir. Yalnız bunu qeyd etmək kifayətdir ki, bu hissənin – ilk iki fəslin yüngül redaktə ilə çapı dərin tədqiqat əsəri kimi faydalı olar. Müəllif 100-dən artıq lüğətdən istifadə etmişdir. Biz dissertasiyanın II hissəsinin də belə yüksək səviyyədə yazılmış olduğuna şübhə etmirik. Ona görə də bu əsərin doktorluq dissertasiyasının tələblərinə tam cavab verdiyini qeyd edirik.

Dissertasiyada bəzi nöqsanlara da təsadüf olunur. 1.Səh. 87. Müəllif özü də yazır ki. "terminologiya" sözü iki mənada - bir dildə işlənən terminlərin məcmusu və dilin terminlər sistemindən bəhs edən elm mənalarında işlənir. İkinci mənanı nəzərə aldıqda müəllifin verdiyi "Terminologiya xüsusi tədqiqat obyektidir" (səh.10) başlığı ziddiyyətli görünür - elm elmin tədqiqat obyekti olur. Hansı mənada terminologiyadan söhbət getdiyinə işarə edilməli idi.

2.Səh.45. Müəllif yazır: "Çoxmənalılıq ümumi dilə məxsus deyil". Xüsusi dil də var? Yenə yazır: "Ümumi ədəbi dildəki sözlər obrazlılığa malik olur". (səh. 52) Terminlər ümumi ədəbi dilə daxil deyilmi?

3.Bəzi məsələlər (məs.: nomenklatura və s.) izah edilərkən misalların verilməməsi fikirdə mücərrədliyə səbəb olur.

5.II fəsildə terminlərin inkişaf tarixi nəzərdən keçirilmişsə də (I və II dövrlər), bütün mənbələrə (məs. Xətai, Vaqif və başqa şairlərin, elmi əsərlərin dili) diqqət yetirilməmişdir, ona görə də bunu sistemli araşdırma saymaq olmaz.

Nəsimi ad. Dilçilik İnstitutu. Xasay Cabbarov. «Azərbaycan dilində tabu və evfemizmlər» ND. 26.04.1972

Tabu və evfemizmlər dilçiliyimizdə az da olsa, tədqiq olunmuş sahələrdəndir. "Bir neçə söz" və üç fəsildən ibarət olan bu dissertasiyadan aydın olur ki, Azərbaycan dilinin üslubiyyatına dair əsərdə (Ə.Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı,Bakı, 1962) qeyd olunduğu kimi, bu məsələ üslubiyyatla daha çox bağlıdır və tabular, evfemizmlər üslubi-leksik kateqoriyadır.

Mövzunun tədqiqi tarixinin yığcam xülasəsi göstərir ki, tabu və evfemizmlər dilimizdə fərqlənən, hətta müəyyən mənada məfhumun adi ümumişlək ifadə vasitələri ilə münasibətdə antonim mövqedə duran dil elementləridir. Həm də bu əsərdən bir daha aydın olur ki, tabular və evfemizmlər nə qədər fərqlənsələr də, həm də bir-biri ilə möhkəm bağlıdır - bunların arasında bir növ səbəb-nəticə əlaqəsi vardır, ona görə də bunları təcrid edilmiş şəkildə öyrənmək olmaz. Dissertasiya başdan-başa belə bir təəssürat yaradır ki, dil tabulardan təmizlənmə, evfemizmlərlə zən-

ginləşmə istiqamətində inkişaf edir və şübhəsiz, burada cəmiyyətin mədəni səviyyəsi, dünyagörüşü və ümumi inkişafı, zövqü, ümumi dil mədəniyyəti mühüm rol oynayır. Bütün bunlara baxmayaraq, dildə müəyyən səbəblərlə əlaqədar qadağan sayılan söz və ifadələr, cümlələr – tabular çoxdur, çünki bunların varlığını təmin edən amillər, obyektiv səbəblər çoxdur. Real həyatda insan üçün həm faydalı, həm də zərərli varlıqların, məfhumların olması, müəyyən məfhumun bəzən gözə çarpan ilk əlamətə görə adlandırılması (bu əlamət yaxşı da ola bilər, pis də), insanın şüur səviyyəsi, bir sıra dini-mifoloji anlayışlar, bəzi adət-ənənələr və eyibli vərdişlər, qarğış və söyüşlər və s. dildə tabuların yaranmasını şərtləndirən əsas səbəblərdir. Müəllif bu səbəbləri 12 qrupa ayırmış, sonrakı 20 qrup daxilində tabuların evfemizmlərlə əvəz edilməsinin praktik və nəzəri cəhətlərini aydınlaşdırmışdır.

Tabuların şifahi və yazılı nitqdə ixtisarı, tabu söz və ifadələr əvəzinə eyhamlardan, alınma sözlərdən, məcazlardan, əlverişli sinonim vasitələrdən, idiomlardan, ibarələrdən, litotalardan, antifrazalardan, dialekt sözlərindən, təqlidi sözlərdən istifadə edilməsi onları işlətməməyin əsas yollarından hesab olunur.

Bu əsərdə də "Azərbaycan ədəbi dilinin inkişaf yolları" əsərində olan bölgü əsas götürülmüş, ədəbi dilimizin üç böyük mərhələsində tabu və evfemizmlərin inkişaf yolu nəzərdən keçirilmişdir. Müəllif konkret misallar əsasında bu nəticəyə gəlmişdir ki, I və II dövrlərdə, yəni Sovet dövrünə qədər tabuların bilə-bilə, şüurlu şəkildə yumşaldılaraq, təhrif edilərək evfemizmlərlə əvəz edilməsi halları az olmuş, III dövrdə bu məsələdə nisbət dəyişilmişdir. Bu hal Sovet dövründə ictimai-iqtisadi şəraitin, mədəni səviyyənin inkişafı ilə əlaqələndirilmişdir.

Dissertasiyada ünsiyyətin konkret məqamlarında - ilk tanışlıq, vaxtaşırı görüş, nəvazişkarlıq və əzizləmə, bağışlama və üzrxahlıq, təbrik və təşəkkür, hədə, hərbə-zorba, öyüd-nəsihət, müsahibi inandırma, nifrət və qəzəb məqamlarında evfemizmlərdən istifadənin zəruriliyi və əhəmiyyəti xüsusi tədqiq olunmuşdur.

Evfemizmlərin ifadə vasitələrinə dissertasiyada xüsusi fəsil (II) ayrılmış, leksik, qrammatik, frazeoloji vasitələr və evfemizmlərin ayrı-ayrı mətnlərlə ifadəsi ətraflı nəzərdən keçirilmişdir.

Beləliklə, dissertasiya evfemizm nədir, nə vaxtdan tədqiq olunmağa başlamışdır, tabularla əlaqəsi və fərqli cəhətləri nədən ibarətdir, bunlardan birincisini ikincisi necə və hansı yollarla əvəz edir, hansı vasitələrlə ifadə olunurlar, hansı üslubi imkanlara malikdir kimi suallara ətraflı cavab verən ilk tədqiqat əsəridir. Zahirən dildə əhəmiyyətsiz söz qrupları kimi nəzərə çarpan tabu və evfemizmlər haqqında bu əsəri oxuduqdan sonra dilin leksik və frazeoloji tərkibində onların necə zəngin bir lay təşkil etdiyi haqqında dərin təsəvvür yaranır.

Əsər “Dədə Qorqud”dan başlayaraq bu günə qədərki min illik mənbələrin diqqətlə nəzərdən keçirilməsi əsasında toplanmış çox zəngin material əsasında yazılmışdır. Dissertasiya yüksək elmi səviyyədə olub, namizədlik müdafiəsinin tələblərinə tam uyğundur.

Dissertasiyanın bəzi nöqsanları da vardır:

1.Səh.78-də verilmiş misallar "uydurma etimologiya"ya uyğun deyildir; 83-də verilən misallar ibarə eyil, idiomdur.

2.Səh, 230-da: "Canlı danışıq dili, bədii dil və ədəbi dil – bunların hər üçü ümumxalq dilinin bir-biri ilə bağlı olan qolları və mənbələridir" - fikri əksinə qurulmalı idi.

3.Təkrarlar: 25, 51, 133.

4..Dəqiq olmayan ifadələr: "Tabu və evfemizmlər əsas üslubiyyatın tədqiq obyekti"dir (14), "yunan filosofu Helvetsi" (32), "Frazeoloji vahidlərdən ən geniş yer tutanı atalar sözləridir" (162) və s.

5. Orfoqrafik səhvlər: 9,41,63,65,103,263 və s. ("onun əsas quruluşu" yox, "səs quruluşu" - tipli qüsurlar anlaşılmazlığa səbəb olur).

6. *Hörmətinizdən çıxaram, ömrüm uzunu sizə minnətdar olaram, əziyyətinizi çəkərəm* (73) tipli ifadələr təqdir edilir, halbuki riyakarlıq vasitələridir.

АПИЯ им.М.Ф.Ахундова. Ч.О.Гусейнова. «Сопоставительное изучение места прямого дополнения в современной французском и азербайджанском языках» KD. 10.09.1972

За последнее время наряду с развитием различных областей языкознания большое внимание уделяется также и сравнительному языкознанию, в частности изучению структуры разносистемных языков путем применения методов типологического исследования. С этой точки зрения, диссертация Ч.О.Гусейновой, написанная на высоком научном уровне, представляет собой интересное исследование, целью которого является сопоставительное изучение места прямого дополнения в повествовательном предложении современного французского и азербайджанского языков.

Диссертация состоит из введения, трех глав и библиографии.

Первая глава посвящена сопоставительному изучению места прямого дополнения-существительного, в которой сделана попытка выявить факторы, обуславливающие стабильность места прямого дополнения-существительного в сопоставляемых языках, а вторая – дополнению-местоимению в обоих языках.

Известно, что прямое дополнение-существительное в повествовательном предложении современного французского языка стоит

на третьем месте (непосредственно после подлежащего и сказуемого), а в аналогичных предложениях азербайджанского языка - то между подлежащим и сказуемым, то перед сказуемым.

Особенно тщательно автор останавливается на вопросе о дополнении, выраженным именем в неопределенном винительном падеже. Выводы, сделанные диссертантом, подкреплены убедительными фактами и научно обоснованы.

Читая автореферат диссертации, становится ясным, что, говоря о месте прямого дополнения в обоих языках, автор не довольствуется разрешением сугубо узкой проблемы, но и уделяет большое внимание стилистическому употреблению исследуемого члена предложения.

В третьей главе диссертации освящен один из наиболее интересных вопросов романистики, а именно вопрос о месте прямого дополнения, относящегося к сказуемому, выраженному личной формой глагола + инфинитив. Здесь уместно отметить, что сопоставление с азербайджанским языком в этой главе освещено относительно слабо.

Достоинством работы Ч.О.Гусейновой является и то, что автор, избрав в качестве предмета исследования один из интересных вопросов в конкретной области грамматической системы французского языка в сравнении с азербайджанским языком, изучает его во всем его многообразии и дает его всестороннюю характеристику. При этом автор не ограничивается констатацией фактов, а в большинстве случаев дает объяснение тех или иных явлений.

С уверенностью можно сказать, что настоящее исследование Гусейновой Ч.О. на тему: "Сопоставительное изучение места прямого дополнения в современном французском и азербайджанском языках" вполне отвечает требованиям, предъявляемым к кандидатским диссертациям, а ее автор вполне заслуживает искомой степени кандидата филологических наук.

T.Z.Əliyev. «Kəşkül» qəzetinin dili» DD. 1973

Mən dissertasiyanı az vaxtda nəzərdən keçirdim. I fəsil maraqlı fəsildir. Burada XX əsrə qədərki mətbuatımızın inkişaf yolu yığcam şəkildə nəzərdən keçirilmiş və elə bu prosesdə həmin dövr mətbuat dilinin tədqiqi vəziyyətinə də toxunulmuşdur. I fəslin 2-ci hissəsi daha maraqlıdır - "Kəşkül"də dil məsələləri. Bu hissəni o dövrün bir sıra materialları əsasında genişləndirib bir dissertasiya səviyyəsinə qaldırmaq olardı. Dissertasiyadakı yığcam xülasə o dövrün qabaqcıl ziyalılarının ədəbi dilimi-

zin müxtəlif məsələlərinə münasibətini öyrənmək üçün müəyyən qədər imkan yaradır. Lakin təəssüf ki, dissertant müəllif məsələsi ilə ötəri şəkildə olsa da maraqlanmamış, bu fikirlərin daha çox kimlərə aid olduğunu ya müəyyənləşdirmək istəməmiş, ya da çətin olduğu üçün bu məsələyə girişməmişdir. Bəzən "Kəşkül"ün ana dili haqqında çıxışları çox şişirdilir. Dissertantın fikrincə, "Kəşkül"ün yazılarından sonra "Ana dili bir sıra məktəblərdə yavaş-yavaş tədris olunmağa başladı". (23) Halbuki ana dilinin tədrisi daha əvvəllərə aiddir. "Kəşkül" bu işə müsbət təsir edə bilərdi. Mənə elə gəlir ki, biz bir cəhəti də düz qiymətləndirmirik: dissertasiya belə təəssürat doğurur ki, guya çarizm "ana dili" deyənlərin dilini kəsirmiş. Məsələn: "Qəzetin ana dilinin saflığı, təmizliyi, tədrisi haqqında qığılcımvarı çağırışları onun redaksiya heyətindən nə qədər cəsarət tələb edirdi" (20). Bu cəhət nəzərə alınmalı idi ki, çarizm milli dillərin inkişafı naminə olmasa da, öz müstəmləkəçilik siyasəti naminə yerli dildə məktəblər açılmasına, dərsliklərin yaranmasına, mətbuatın inkişafına imkan yaradırdı. Və bu cəhətlər bizdə çar hökuməti ilə əlaqə və münasibətlərdən sonra başlamışdır.

I hissədən aydın olur ki, "Kəşkül"ün fikir əhatəsi geniş olmuş, qəzet dilin çox ciddi elmi məsələlərinə toxunmuşdur. Məsələn, dillərin qohumluğu məsələsi, Azərbaycan dilinin türk dillərinin qərb qrupuna aid olması məsələsi və s. belə toxunulmamış problemlərdən idi. Lakin təəssüf ki, bəzən müəllif belə məsələləri "Kəşkül"ün dili ilə deyil, öz dili ilə verir. Bizi əvvəlki maraqlandırardı.

Mən əsərin II fəslinə - "Leksik xüsusiyyətlər" fəslinə də nəzər saldım. Bu fəsil dissertasiyanın əsasını təşkil edir. Lakin qrammatik xüsusiyyətlərdən bəhs edən III fəsil də IV-dən geri qalmır. Burada xüsusən sintaktik xüsusiyyətlərdən bəhs edən hissələr müəllifin hazırlıqlı bir alim olduğunu daha aydın göstərir. Amma burada canlı danışıq dili əsasında qurulmuş cümlə tiplərinə diqqət yetirmək və ümumiyyətlə, qəzet dilinin sintaksisinə təsir edən əsas amillərin nədən ibarət olduğunu göstərməklə müəllif mənzərəni tamamlaya bilərdi.

Əsərdə tək-tək dil-üslub xətaları, orfoqrafik səhvlər, bəzən ərəb əlifbasının dəqiq oxunmaması halları və s. vardır; ***-ıb*** - həmişə feli bağlama şəkilçisi kimi (səh.141-də və s.) verilmişdir. Səh.15-də bir sitatdan qəzetin üç dildə - fars, ərəb, türk dillərində çıxdığı görünür, lakin bu barədə əlavə məlumat verilmir.

Ümumiyyətlə, müəllifin zəhməti böyükdür. O, qəzetin 548 səhifəlik bütün nüsxələrinin fotosurətini əldə etmiş (Leninqrad, Saltıkov-Şedrin) və həmin materiallar əsasında mətbuat dilimizin çox maraqlı bir dövrü haqqında ilk bitkin təəssürat yarada bilmişdir.

М.М.Текуев. «Сложные глаголы в карачаево-балкарском языке (деепричастия с вспомогательными глаголами) в сравнительном плане»
КД. 1973

Исследование посвящено глагольным конструкциям в карачаево-балкарском языке, характерным также для большинства тюркских языков, но не получившим до сих пор однозначного грамматического толкования в тюркологической литературе. Автор в своей работе исходит из положения Б.А.Серебренникова о том, что глагольные аналитические конструкции представляют собой сложные глаголы, служащие для выражения способа протекания глагольных действий и по своей структуре находятся в процессе развития от словосочетания к сложному слову. Диссертант исходя из этих позиций, сумел, на наш взгляд, доказать, что образование «деепричастие + вспомогательный» глагол в карачаево-балкарском да и в других тюркских языках служит выразителем способа протекания действия, а не видовыми показателями, как утверждают некоторые тюркологи. Представляется правильным и то, что М.М.Текуев делит сложные глаголы на две группы: сложные глаголы с именной и глагольной основой.

В соответствии с задачами работа состоит из трех глав и заключения. В первой главе рассматриваются сложные глаголы не только в тюркских языках, но и в других индоевропейских, таким образом, автор стремится осветить данное явление с общелингвистической точки зрения. В данной же главе диссертант сложные глаголы карачаево-балкарского языка по способу их соединения, по характеристике смысловых отношений и семантической точки зрения делит на две группы:

а) сложные глаголы, составленные из имен и вспомогательных глаголов, первая часть которых может состоять из имен, модальных слов и междометий;

б) сложные глаголы, которые состоят из сочетания деепричастия и вспомогательных глаголов.

В результате анализа многочисленных примеров карачаево-балкарского языков на всевозможные употребления сложных глаголов автор приходит к выводу, что в них основное грамматическое значение выражает второй компонент. Отмечая полемичности подхода ко второй группе, относительно основной семантической нагрузки входящих компонентов, автор считает, что эту нагрузку несет первый компонент, а второй - дополнительную нагрузку. Обоснованным следует считать и такое утверждение автора, где

сложные глаголы представляют собой единство, обозначающее не только действие, но и способ его протекания.

В сопоставительном плане подходит автор и к проблемам вида в карачаево-балкарских сложных глаголах (вторая глава). Автор исходя из общелингвистических предпосылок, предъявляемых к категории глагольного вида в русском языке, делает вывод о том, что карачаево-балкарским сложным глаголам не присуща категория вида. Подтверждением этому служит проведенный М.М.Текуевым анализа примеров, откуда следует, что значение того или иного предложения с глаголом указанного типа будет зависеть от контекста, ситуации, в которых происходит действие. Отсюда автор заключает, что категория глагольного вида отсутствует в карачаево-балкарском языке. И все же не смотря на приведенные доказательства автора, этот вопрос нельзя считать окончательно решенным.

Третья глава посвящена семантическому анализу карачаево-балкарских глаголов в служебном значении в сочетании с предшествующим деепричастием. Эта глава представлен автором более подробно, привлечен сравнительный материал и с других тюркских языков. Анализированные автором 30 вспомогательных глаголов в сочетании с деепричастиями на ***-п,-ып,-ип,-уп,-юп*** и на ***-а,-е, -и***, показывают, что они выражают характер протекания действия. Причем возможность сочетания одного глагола с другими обусловлена семантической взаимозависимостью составляющих компонентов. Показан различный характер действия одного и того же вспомогательного глагола в зависимости от другого сочетаемого.

Обобщая все сказанное, хочется отметить как положительное и то, что автор часто проводит параллель затрагиваемых языковых явлений, сравнивает исследуемые стороны сложных глаголов в разных языках. Однако в этом последнем надо бы более глубже раскрыть как общности, так и различия затронутых сторон, указать сферы общего и отличительного их употребления. Далее, автор нечетно выражает взгляды по отношению к некоторым исследуемым явлениям по сравнению с теми, которые он отрицает.

Nəsimi ad. Dilçilik İnstitutu.
S.S.Hüseynov. «Qasım bəy Zakirin əsərlərinin leksika və frazeologiyası»
ND. 14.03.1973

Mən dissertasiyanın II - "Frazeoloji ifadələr" fəsli ilə daha ətraflı tanış oldum. Göründüyü kimi, müəllif müxtəlif terminlər içərisindən

"frazeoloji ifadələr" terminini seçib götürmüş və əvvəlcə frazeoloji vahidlərin morfoloji xüsusiyyətlərini nəzərdən keçirmişdir. Dissertasiyadan aydın olur ki, bədii dili tədqiq olunmuş digər sənətkarlarımızla yanaşı, Zakirin əsərlərinin dili də feli frazeoloji vahidlərlə zəngindir. Bədii əsərlərin frazeologiyasına həsr olunmuş əsərlər içərisində ilk dəfə bu əsərdə feli frazeoloji vahidlərin məna növləri üzrə qruplaşdırılmasına, iş, hərəkət, görmə, eşitmə, təfəkkür prosesləri ilə bağlı anlayışlar ifadə edən frazeoloji vahidlərin fərqləndirilməsinə rast gəlirik. Feli frazeoloji vahidlərin yaranmasında hansı fellərin daha məhsuldar olduğu, isimlə ifadə olunan birinci tərəfin daha çox hansı isimlərlə ifadə olunduğu müəllifin diqqətini daha çox cəlb etmişdir. Qeyd olunan sahələrə dair faktların dissertantı özünə daha çox çəkməsi bədii dil sahəsində aparılan əvvəlki tədqiqatların istiqamətinin düzgünlüyünü bir daha təsbit etmiş olur. Müəllifin lazımi nöqtədə - "olmaq" və "etmək" felləri ilə düzələn vahidlərdən danışarkən mürəkkəb söz və frazeoloji vahid məsələsinə toxunması və əsasən düzgün mövqe tutması dil hadisələrinin təhlilində diqqətli olduğunu, elmi ədəbiyyatı yaxşı mənimsədiyini göstərir.

Bu fəsildə frazeoloji vahidlərin semantik xüsusiyyətlərinin tədqiqinə xüsusi yer verilmişdir. Sinonim və antonim frazeoloji vahidlər geniş tədqiq ounmuş, çoxmənalı frazeoloji vahidlərə də müəyyən yer verilmişdir. Frazeoloji sinonimləri bir cərgədə birləşdirən əlamətin izahı, ayrı-ayrı frazeoloji vahidlərin məna incəliklərinin düzgün şərhi dissertasiyanın müvəffəqiyyətli cəhətlərindəndir. Atalar sözləri və məsəllərin semantik və quruluş xüsusiyyətlərinin ətraflı tədqiqi Zakirin folklordan istifadə ustalığını göstərməklə yanaşı, müəllifin filoloji qabiliyyətini də aydınlaşdırır. Əsərin bu hissəsində söyüşlər, qarğışlar, yalvarışlar, andlar kimi yeni bölmələr də vardır. Bu hissələr Zakirin lirika dilini, xüsusən satirik ifadə vasitələrini bir küll halında təsəvvür etmək üçün yaxşı imkan verir. Ümumiyyətlə, bu fəslin mühüm cəhəti müəllifin toplamış olduğu çox zəngin frazeoloji materialı şairin üslubu ilə bağlı şəkildə ümumiləşdirə bilməsidir.

Dissertasiyanın nöqsanları:

1. Fr. v.-rin qrammatik xüsusiyyətlərindən bəhs edilən hissədə söyüş, qarğış, and və yalvarışların hansı nitq hissəsinə daxil edilməsi məsələsi aydın olmur. Bu cür mövzularla bağlı bir sıra dissertasiyalarda və hətta dərs vəsaitlərində verildiyi kimi, bunları nidayi fr. v-r adı altında toplamaq səhv olmazdı.

2.Əsərdəki bəzi müqayisələr ağlabatan deyildir. Məsələn, müəllifin fikrincə, Zakir "knyaz yatağı", "oğru yatağı" kimi ifadələri "kömür, neft yatağı" kimi ifadələrlə qarşılaşdırmaqla yaradıb. (124) Bəlkə sonrakı ifadələr heç Zakir dövründə ümumişlək deyildi, amma "qoyun, quzu yatağı" vardı.

3.Müəllifin sifət məqamında işlənən fr. ifadələrə dair verdiyi misallardan sonuncusu müstəsna olmaqla, hamısı məcaziləşmiş feli sifət tərkibləridir. (126)

4.Dissertasiyanın əvvəlki iki fəsli "Məna bəhsi" və "Lüğət tərkibində müxtəlif söz qrupları" adlanır. Məncə, bu fəsillərin yerini dəyişmək daha düzgün olardı. Çünki əvvəlcə söz, onun mənşəyi, işlənmə xüsusiyyətləri, lüğət tərkibində mövqeyi, sonra semantik xüsusiyyətləri izah olunmalıdır.

5.Müəllif 12-ci səhifədə doğru olaraq, bir-birinin tam eynini təşkil edən iki cisim və hadisə olmadığını göstərir və buradan biz belə bir nəticəyə gəlirik ki, o, "mütləq sinonimlər"in əleyhinə çıxmalıdır. Lakin 13-cü səhifədə sinonimlərin mütləq və nisbi sinonimlərə ayrıldığını görürük. Mütləq sinonimlər sırasında müəllif, məsələn: ***yar - canan - nigar - dilbər - dildar - övrət - zən - xatun - əyal - keyvəni*** - kimi sinonim cərgələr verir və bir yerdə "bunların yerini dəyişmək çox çətindir" (15) deyir. Əslində isə, müəllifin verdiyi «mütləq sinonimlər» bir çox dilçilərin dediyi leksik dubletlərə uyğun gəlmir. Yalnız nisbi sinonimləri oxuyanda aydın olur ki, müllif terminləri öz bildiyi mənada – yəni "mütləq sinonimlər"i "nisbi sinonimlər" mənasında işlətmişdir. Lakin əvvəlcə heç bir izahat verilmədiyi üçün oxucu yalnız situasiya ilə bu məsələni anlayır.

6.Dissertasiyada bəzi üslub nöqsanları. Zakirin dilində feli sinonimlərdən danışılarkən deyilir: "Burada daha çox sadə danışıq sözləri ilə ədəbi dil sözləri bir sinonim cərgədə birləşir". (17) Və dərhal Qalkina-Fedoruka istinad edilir, belə çıxır ki, Fedoruk Zakirin dilinə bələd imiş. Zakirin ifadə yaradıcılığından danışarkən yazır: "Bu halı duyan Şarl Balli…" (123) Guya Şarl Balli də Zakirin ifadə yaradıcılığına bələd imiş.

7.Bəzi sözlər nitq hissəsi kimi düzgün izah olunmamışdır. Məsələn, ***ay*** (месяц) - zərf, (40), ***yol*** - zərf, ***tərəf*** (səmt), ***yan*** - zərf, (19), ***ta ki*** - qoşma (19).

8.Yanlış ifadələr: Sifətlə ifadə olunan sinonimlər - (16) Zərflə ifadə olunan, zərfdən düzələn sinonimlər; dialekt mənşəli sözlər - (20). Fr. ifadələr dilin lüğət tərkibinin bir şöbəsidir - (118); mənsubiyyət əvəzliyi - (122) və s.)

9.Azərbaycan dilçilik ədəbiyyatına laqeyd münasibət vardır: Eyniköklü sinonimlərdən danışılarkən Qreçkoya istinad edilir, bir ifadədən ötrü İslam Əsgərovun qəzet məqaləsi xatırlanır, bilavasitə əlaqədar əsərlər yada düşmür.

Bir sıra nöqsanlarını islah etməklə əsər müdafiə oluna bilər.

V.İ.Aslanov. «Azərbaycan dilinin tarixi leksikologiyası (rekonstruksiya məsələsi)» DD. Mart 1973

Aftoreferatda mövzunun aktuallığı yaxşı əsaslandırılıb. Dilimizin tarixinə dair bir sıra qiymətli əsərlər yazılmışsa da, bu əsər ulu dilin (türk protodilinin) sözlərinin Azərbaycan dili materialları üzrə bərpası sahəsində ilk əsərdir. E.V.Sevortyanın Azərbaycan dilində fel və ad düzəldən şəkilçilərə dair sanballı əsərlərindən sonra bu əsər linqvogenetik planda yazılmış ən yaxşı monoqrafiyadır. Əgər Sevortyan başqa türk dillərindən gətirdiyi zəngin faktlar əsasında ayrı-ayrı məsələlərin təsdiqinə çalışmışsa, indiki dissertasiyanın müəllifi əsasən Azərbaycan dili faktlarının sayını artırmaqla, eyni xarakterdə olan və dilçilik ədəbiyyatında ilk dəfə

qeyd olunan faktlar hesabına öz fikrinin isbatına çalışmışdır. Məsələn, müasir dildə ***-çı*** şəkilçisinin fellərdən isim düzəltmədiyini, ona görə də "dilənçi" kimi yeganə sözün şübhəli olduğunu nəzərə alaraq, müəllif bu cür sözlərin sayını 10-a qədər artırmışdır (23) ki, bu da dilçilikdə olan və müəllifin də razılaşdığı belə bir fikri təsdiq edən faktora çevrilir ki, tədqiqat diaxronik şəkildə qədimlərə doğru getdikcə sözdüzəldici və sözdəyişdirici şəkilçilər arasında vəzifə fərqi zəiflədiyi kimi, eyni bir şəkilçinin yalnız müəyyən nitq hissəsindən olan sözə artırılması məsələsi də öz əhəmiyyətini itirir.

Ulu dilin sözlərinin bərpası əsas və mühüm məsələdir. Müəllif bu sahədəki işini dialekt və şivələrin, folklorun, tarixi mənbələrin, qohum dillərin, qədim abidələrin verdiyi faktlar üzrə aparmaqla söz köklərindəki tək və əsas samitin bərpasına xüsusi diqqət yetirmişdir. Görkəmli dilçilərin də fikri belədir ki, ilk ana dilin lüğət tərkibini yalnız bu cür tədqiqatlar hesabına yenidən qurmaq, təsəvvür etmək olar.

Burada bir məsələni də qeyd etməliyik. İndi dilçilikdə türk dillərinə məxsus ana dilin sözlərində ilk samitin kar və ya cingiltili səs olması barədə rəy müxtəlifliyi vardır. Bu cəhətdən dilçilər üç qrupa bölünür: bir qismi söz əvvəlində həm kar, həm də cingiltili samitlər olduğunu (Pederson), bir qismi yalnız kar samitlərin olduğunu, ayrı-ayrı hallarda həm də cingiltili "b" samitinin işləndiyini (Menqes), bir qismi isə heç bir istisna olmadan ilk samitlərin kar samitlər olduğunu (Radlov, Tenişov) göstərirlər. Beləliklə, əsas meyil kar samitlərə doğrudur. Müəllifin tədqiqatında da bərpa edilən bir sıra söz köklərinin kar samit əsaslı olması bu fikri təsdiq edir. Lakin bu məsələ ilə əlaqədar şübhə doğuran hallar da vardır. Məsələn, müəllif doğru olaraq kirpik sözünün "kiprik"dən əmələ gəldiyini qeyd edir. "Kip" sözünü isə "qıp" sözü ilə əlaqələndirir - ***Göz qıpmaq***. ***Qıp- qıs - qıy*** sözlərinin bir kökdən ***QV*** kökündən olduğunu qeyd edir, halbuki bunların kar tələffüzü də mövcuddur. Bəlkə buradakı kar ***q(k)*** səsidir? Eyni zamanda bir kökdən hesab olunan ***ufaq, ufan, ufat, uşaq*** sözlərinin kökü ***UV*** hesab olunur.

Bəzi sözlərin izahında bir tələsiklik hiss olunur. Məsələn, ***tarağlamaq, tuş olmaq, tuş gəlmək*** kimi söz və ifadələrin tamamilə arxaikləşdiyi, Azərbaycan dilində qalmadığı qeyd olunur.

Maraqlı nöqtələrdən biri kimi, felin arxaikləşməsi və ondan düzəlmiş ad əsasında əvvəlki mənaya uyğun düzəltmə felin yaranmasıdır:

ba (bağlamaq) - ***bağ*** - (ip, kəndir) - ***bağla*** (bağlamaq);

quc - qucaq - qucaqla…

Müəllif göstərir ki, belə hallarda bəzən sonrakı - yəni düzəltmə fel ilkin formadan fərqli məna ifadə edə bilir; məs.:

qon - (oturmaq) - ***qonaq - qonaqlamaq***;

düg - (düymək)- ***dügmə – dükmələmək*** və s.

Bunun səbəblərini də müəllif izah edə bilərdi - ***qonmaq*** felində məna daralmış, söz quşlara, uçan əşyalara aid olmaqla məhdudlaşmış, lakin qalmışdır; ***dügmək*** və ***biçmək*** sözləri isə indi də işləndiyi üçün həmin mənada yeni sözə ehtiyac yoxdur, ona görə başqa məna bildirən söz yaranmışdır.

Dissertasiyanın II fəsli də maraqlıdır. Semantik xüsusiyyətlərin tədqiqini də müəllif etimoloji istiqamətə yönəltmişdir. Sinonim, omonim, antoim və çoxmənalı sözlərin tədqiqi dilin leksik tərkibinin tarixi inkişaf yolunu daha aydın təsəvvür etməyə imkan verir. Müəllifin tədqiqatı faydalı axtarışlar istiqamətindədir. Lakin bizə elə gəlir ki, bəzən işin xatirinə sol gedir. Məsələn, müəllifin fikrincə, klassiklərin dilində ***baş, saç, göz, ağız*** sözləri ilə paralel işlənmiş ***sər, zülf, çeşm, dəhən*** sözləri heç vaxt canlı dilə daxil ola bilməmişdir və ona görə də müəllif belələrini sinonim saymır (səh.26). Bizcə, bunların dildə sabitləşə bilmədiyini və müəllifin tədqiqat istiqaməti üçün belə sözlərin maraqlı olmadığını qeyd etməklə kifayətlənmək daha düzgün olardı.

Buna bənzər hala omonimlərdə də rast gəlirik. Müəllif müxtəlif nitq hissələrinə daxil olan ***yaş*** (göz yaşı) - ***yaş*** (gənc) - ***yaş*** (gizləmək) sözlərini omonim deyil, omoform hesab edir, omonim dedikdə eyni n. h-dən ibarət olan sözləri qeyd edir: ***yaş*** - (göy) - ***yaş*** (gənc – qəd.). Bu istiqamət müəllifin öz tədqiqatı üçün faydalıdır. Bu yolla eyni n. h-nə daxil olub omonimləşmiş sözlərin semantik inkşafını izləyə bilir. Lakin bu fikir müxtəlif nitq h-dən omonimlərin deyil, yalnız omoformların əmələ gəldiyi fikrini təsdiq etmir. Omoform - oxşar formalı deməkdir və qrammatik yolla düzəlir.

Əsər faydalıdır. Bu cür tədqiqat öz əhəmiyyətini itirməz. Dissertasiya türkologiyada qiymətli bir əsər kimi qarşılanacaq.

S.M.Kirov ad. ADU. İzayəddin Nəcəfov. «Müasir Azərbaycan dilində qarışıq tipli tabesiz mürəkkəb cümlələr»
ND. 05.12.1973

Dissertasiyanın əsasını III fəsil - "Qarışıq tipli tabesiz mürəkkəb cümlələrin quruluşu və komponentlər arasında məna əlaqələri" fəsli təşkil edir. Bu fəsil həm elmi-nəzəri, həm də praktik cəhətdən əhəmiyyətlidir. Müasir dilin quruluşunun ali və orta məktəblərdə tədrisi yalnız bu cür tədqiqat işlərinin nəticəsində tam səmərəli ola bilər.

Bu fəsil tabesiz mürəkkəb cümlənin qarışıq tipinin I fəsildə alınmış beş ümumi nəticə-sxemi (sadə+tabesiz, sadə + tabeli, tabesiz + tabesiz, tabeli + tabeli, tabesiz + tabeli m. c.) və məna əlaqələrinə dair ikin-

ci fəslin nəticələri, yəni 6 məna əlaqəsi (qarşılaşdırma, aydınlaşdırma, səbəb-nəticə, birləşdirmə, sadalama, bölüşdürmə) üzərində qurulmuşdur.

Lakin buradaca qeyd etməliyik ki, birinci fəsil nə qədər obyektiv tədqiqat təsiri bağışlayırsa, II fəsil o qədər subyektiv xarakterdədir. Müəllif I fəsildə "period", "mürəkkəb sintaktik bütöv" və "qarışıq tipli tabesiz mürəkkəb cümlələr" terminlərini diqqətlə nəzərdən keçirərək, bu terminlərdən sonuncu üzərində dayanmaqla daha düzgün hərəkət etmiş, bu sahədə Azərbaycan dilçiliyindəki fikirləri əsasən düzgün qiymətləndirmiş və düzgün nəticələrə gəlmişdir. Lakin II fəsildə sistem yoxdur. Bu fəsil "Tabesiz mürəkkəb cümlələrdə məna əlaqələrinin təsnifi" adlanır, mündəricatda bu fəslin adına "qarışıq tipli" sözləri də əlavə olunmuşdur. Bilinmir ki, müəllif ümumiyyətlə tabesiz mürəkkəb cümlələrdə məna əlaqələrindən danışır, yoxsa qarışıq tiplilər nəzərdən keçirilir.

Əslində, bu fəsil işlənə də bilərdi, işlənməyə də bilərdi. Ona görə lazım deyildi ki, müəllif indiyə qədər verilmiş bölgülərdən birinə əsaslanmaqla kifayətlənə bilərdi. Ona görə işləmək lazım gəlmişdir ki, indiki bölgülərin heç biri doğru olaraq müəllifi təmin etməmiş, buna görə də o, mövcud fikirləri saf-çürük edərək konkret misallar əsasında bölgünü səlisləşdirməyə çalışmışdır. Lakin, bizə elə gəlir ki, bu sahədə müəllif bir sistem, bir əsas götürə bilməmişdir. Bir tərəfdən, özü qeyd edir ki, məna əlaqələrini müəyyənləşdirərkən bağlayıcıları, bağlayıcı sözləri, ədatları və hətta modal sözləri də nəzərə almaq lazımdır. Lakin özü praktik şəkildə bağlayıcı və bağlayıcı sözlərə diqqət yetirmədən, yalnız bir neçə ədat və modal sözün rolunu nəzərdən keçirməklə kifayətlənmişdir. Sadalama əlaqəli tabesiz mürəkkəb cümlələrdə isə bağlayıcı vasitələrə daha az fikir verilmişdir.

Yeri gəlmişkən onu da deyək ki, sadalama əlaqə forması ola bilməz. Sadalama olsa-olsa, xüsusiyyətdir və bu xüsusiyyətə qarışıq tipli tabesiz mürəkkəb cümlələrin çoxunda rast gəlmək mümkündür. Zaman, səbəb-nəticə, ziddiyyət və s. əlaqə kimi çıxış edə bilir, lakin sadalama əlaqə forması ola bilməz. Tabeli mürəkkəb cümlələrin bir qisminin tabesiz mürəkkəb cümlələrdən əmələ gəlməsi fikrini nəzərə alsaq, tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasındakı əlaqələr tabelidə baş və budaq cümlələr arasındakı əlaqələrə bir növ uyğun gəlməlidir. Bu cəhətdən hətta birləşdirmə əlaqəsi də özünü doğruldur, son zamanlar qeyd olunan qoşulma budaq cümlələrinə bənzəyir.

Tabesiz mürəkkəb cümlənin qarışıq tipi haqqında fikrimizi genişləndirən bu əsərdə də tərəflər arasında məna əlaqələri təminedici deyildir. Müəllif özü də tez-tez sadalama xüsusiyyətinin başqa məna əlaqələrinə də aid olduğunu, belə cümlələrin nisbətən azlığını xatırlatmalı olur.

Qeyd etdiyimiz kimi, əsas fəsil III fəsildir və bu fəsli müəllif beş mühüm bölmə üzərində qurmuşdur. Bu bölmələr şübhə doğurmur və

yaxşı cəhəti budur ki, fikirlər zəngin misallarla və dəqiq sxemlərlə əyaniləşdirilmişdir. Termin müxtəlifliyinə (*bağlayıcı söz - bağlayıcı birləşmə* - 134), yerinə düşməyən cümlələr olmasına (74, 76, 82, 108, 131, 143), ədat və modal sözlərin qarışdırılmasına (***axı*** **-** mod. söz kimi), sxemlərin yaddan çıxmasına (137) və s. baxmayaraq, əsər faydalı əsərdir. Dissertasiya sintaksisin ən çətin və qaranlıq, az işlənmiş məsələlərindən birinə həsr olunmuşdur. Dissertantın tədqiqat obyektini ardıcıl və sistemli şəkildə şərh edə bilməsi onun sintaksisin başqa sahələrindən və mürəkkəb cümlə problemindən yaxşı baş açdığını, bu sahədə həqiqətən namizədlik dissertasiyası tələbləri səviyyəsində iş görmüş olduğunu təsdiq edir.

Əbdülmanaf Əbdülrza oğlu Xəlilov. «Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin sintaktik rolu» ND. 25.05.1974

Morfoloji vahidlərin sintaktik funksiyasının qohum dillərlə müqayisəli tədqiqi dilçiliyimizi maraqlandıran problemlərdəndir. Bu sahədə aparılan tədqiqat türk dillərinə məxsus ayrı-ayrı qrammatik kateqoriyaların öyrənilməsinə, qohum dillərin müqayisəli qrammatikasının yaradılmasına köməkdir. Əbdülmanaf Xəlilovun qısa giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarət olan "Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin sintaktik rolu" adlı namizədlik əsəri bu cəhətdən aktuallığı ilə diqqəti cəlb edir.

Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin baş və budaq cümlələr arasında əlaqə yaratmaqda rolu barədə hər iki dilə aid elmi ədəbiyyatda müəyyən məlumat verilmişdir, lakin həmin məsələ iki dilin müqayisəsi əsasında sistemli şəkildə ilk dəfə bu dissertasiyada nəzərdən keçirilmişdir.

Məlumdur ki, əvəzlik digər əsas nitq hissələrindən fərqli olaraq, ümumi və mücərrəd məna ifadə edən bir nitq hissəsidir. Əvəzliyin mənası mətn daxilində, bu və ya digər əşya və hadislərə bilavasitə işarə prosesində müəyyənləşir. Əvəzliyin bu xüsusiyyəti onun baş və budaq cümlələr arasında əlaqə vasitəsi kimi çıxış etməsinə geniş imkan yaradır. Bu cəhətləri nəzərə alan dissertant əsərin I fəslində Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin konkret misallar əsasında tarixi aspektdə müqayisəli təhlilini vermiş, onların hər iki dildə tarixi inkişaf yolunu izləmişdir.

Ə.Xəlilov Azərbaycan və tatar dillərində bağlayıcılarla nisbi əvəzliklərin, başqa sözlə, bağlayıcılarla baş və budaq cümlələr arasında bağlayıcı vasitə kimi çıxış edən bağlayıcı sözlərin fərqli xüsusiyyətlərini aydınlaşdırmağa xüsusi diqqət yetirmişdir.

Dissertasiyanın II fəsli nəzəri və praktik cəhətdən daha maraqlıdır. Budaq cümlələrin əksərən baş cümlədə işarə əvəzlikləri ilə ifadə olunmuş, ümumilik və mücərrədlik bildirən üzvü izah edib aydınlaşdırması əsas götürülərək, dissertant tərəfindən həmin fəsildə mübtəda, xəbər, tamamlıq, təyin, tərzi-hərəkət, müqayisə, dərəcə, zaman, yer, kəmiyyət, səbəb, məqsəd, şərt, güzəşt, nəticə və qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələr diqqətlə nəzərdən keçirilmiş, hər iki dilin verdiyi faktlar əsasında budaq cümlələrin vasitəsilə baş cümlədəki hansı üzvün izah edildiyi, işarə əvəzliklərindən bu məqamda necə istifadə edildiyi diqqətlə araşdırılmışdır.

III fəsil budaq cümlələrin baş cümləyə bağlanmasında sual əvəzliklərinin roluna həsr olunmuşdur. Hansı sual əvəzliklərinin bağlayıcı söz kimi işləndiyi və bağlayıcı sözlə baş cümləyə bağlanan budaq cümlələrin yeri barədə qeydlər baş və budaq cümlələrin əlaqəsində sual əvəzliklərinin mühüm rola malik olduğunu göstərir. Müəllifin izahatı və verdiyi faktlar budaq cümlənin növünün müəyyənləşməsində baş cümlədəki işarə əvəzliklərinin həlledici rolu haqqında məlum fikri möhkəmləndirir.

Avtoreferatdan aydın olur ki, dissertant mövzuya dair toplamış olduğu materialı müasir dilçiliyin tələbləri baxımından yüksək elmi səviyyədə təhlil edə bilmiş, dəqiq nəticələr əldə etmişdir. Məqalə və tezislərin siyahısı göstərir ki, dissertasiyanın əsas hissələri çap olunmuşdur.

Əsər mətn dilçiliyi problemlərinə həsr olunmuş ilk nümunə sayıla bilər. Mətnin qurulmasında əvəzliklərin rolu böyükdür və müəllif ilk dəfə olaraq belə bir araşdırma aparmaqla bu sahədə qarşıda böyük vəzifələr durduğunu göstərmiş olur.

Bunları nəzərə alaraq qeyd edirik ki, "Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin sintaktik rolu" adlı əsər namizədlik dissertasiyasının tələblərinə cavab verir və onun müəllifi Ə.Ə.Xəlilov filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

"Müasir Azərbayjan dili" (IV kitab, Sintaksis) dərsliyinin müzakirəsi 17.04.1979

Mənim şəxsi təəssüratıma görə, bu dərslik "Müasir Azərbaycan dili" fənninin leksika, morfologiya məsələlərinə həsr olunmuş hissələrindən daha yaxşı işlənmişdir, ona görə də bu əsərdə ciddi, prinsipial qüsurlar o qədər də çox deyil. Burada ibtidailik, bəsitlik halları da azdır. Ona görə də tələbələrimizi əsasən təmin edir və lazımi materialı mənimsətmək imkanı verir.

Dərsliyin gələcək nəşrini daha da təkmilləşdirmək üçün bir neçə qeydimiz vardır. Bunlar daha çox texniki və metodiki xarakter daşıyır.

Məlumdur ki, dərslik sintaktik əlaqələr haqqında məlumatdan sonra söz birləşmələri və cümlə problemlərinə keçir. Bu hal təbiidir və sintaksisin tədqiq obyektini bunlar təşkil edir.

Söz birləşməsi problemi əsərdə pis işlənməmişdir. Xüsusən söz birləşmələri haqqında məlumat, ismi birləşmələr bölmələri dərslik tələblərinə müvafiqdir, tələbələrin səviyyəsinə uyğundur.

Feli birləşmələr mövzusu da dərslikdə əhatəlidir. Lakin qeyd etməliyik ki, bu əhatəlilik bəzən öz çərçivəsini aşır və dərsliyin həmin bölməsi dərslik materialından çox, tədqiqat işinə oxşayır. Bizcə, bu hissəni bir qədər yonmaq, sığallamaq, xüsusən bir sıra mənalarla əlaqədar təfərrüatı məhdudlaşdırmaq, ixtisar etmək lazımdır. İndiki halda tələbələr bu bölməni oxuyarkən çox vaxt əsas məsələləri əlavə məsələlərdən seçməkdə çətinlik çəkirlər.

Yəqin ki, dərslik müəllifləri feli birləşmələrin budaq cümlə olması barədə fikirləri mənasız saydıqları üçün dərsliyə daxil etməmişdir. Amma, məncə, bu cür fikirlər türkologiyada hələ qaldığından bu barədə ən azı kiçik şrift ilə bir neçə səhifəlik məlumat vermək zərərli olmazdı.

Onu da qeyd edək ki, kitabda termin ikiliyi də özünü göstərir: kitabın əvvəlində feli birləşmələrdən danışıldığı halda, sonrakı hissələrdə "tərkib" (274 və s.) termini işlədilir.

Dərslikdə tərkiblərə münasibət də konkret deyil: tərkiblərin bir üzv olduğu göstərildiyi halda, tərkib daxilində tamamlıq və zərfliklərin olduğu da (159, 188 və s) nəzərdə tutulur. Beləliklə, ziddiyyət yaranır - bir mürəkkəb üzv kimi təhlil edilməsi əsas prinsip sayılan tərkib parçalanır. Belə olduqda, subyekti olan tərkiblərdə subyekt bildirən (adlıq halda olan) söz nə üçün mübtəda sayılmır və nə üçün şəxssiz fellə birlikdə bir üzv kimi götürülür - başa düşülmür.

C ü m l ə və onun təsnifi məsələləri, cümlə üzvləri əsərdə pis işlənməmişdir.Cümlə üzvləri bölməsində çətinlik odur ki, ifadə vasitələri nin adları uzun-uzadı sadalanır, sonra toplu halda misallar verilir. Giriş izahında cümlə üzvü olan sözlərin, birləşmələrin əlamətləri o qədər də aydın şərh olunmayıb. Bəzən artıq məlumat verilir: məsələn, məncə, xəbərin felin məna növləri ilə ifadəsinin məsələyə o qədər də dəxli yoxdur, bu məsələ şəkillərdən danışılanda (morfologiyada) əhatə olunur.

Tərifin, şübhəsiz, elm üçün o qədər də əhəmiyyəti yoxdur, lakin tərif xarakterli bəzi qeydlər bəsitdir - təyinin tərifi kimi. (177)

Cümlə üzvlərinin xüsusiləşməsi mövzusunu bir qədər genişləndirmək olar.

Əlavələr dərslikdə iki qrupa ayrılmışdır: xüsusiləşən və xüsusiləşməyən əlavələr. Xüsusiləşməyən əlavələr əvvəlcə verilir. Qeyd etmə-

liyik ki, xüsusiləşməyən əlavələrdə verilən məlumat o qədər də əhəmiyyətli deyil. Burada ***Babakişi, Məsməxanım*** kimi sözlərdə ***kişi, xanım*** sözlərinin tarixən əlavə kimi (***Baba kişi, Məsmə xanım***) sözə qoşulduğu göstərilir ki, bunun məsələyə dəxli yoxdur. "*Şəxsən mən - Qəşəm bu xarabalığa ziddəm*" kimi cümlələrdə "***mən - Qəşəm***" sözləri arasına tire qoyulub, lakin bu sözlərin arasında tirelik fasilə olmur. ***Nağıl-pyes, alim-geoloq*** tipli dil vahidlərinin ikinci iərəfi burada əlavə, kitabın əvvəlində isə (52) söz birləşməsinin tərəfi sayılır.

Bizcə, xüsusiləşməyən əlavələrə yenidən baxmaq, səhihləşdirmək və xüsusiləşən əlavədən sonraya keçirmək lazımdır. Çünkü bu cür əlavələr əvvəlki iki-üç səhifədə tələbələri çaşdırır və əsl əlavələrə çatana qədər onlar bir şey öyrənə bilmirlər. Bu hissəni müəyyən dərəcə ixtisar da etmək olar.

Əsas məsələlərdən biri sadə cümlənin təsnifidir. Burada müəyyən şəxsli cümlə adı çəkilir, lakin məlumat verilmir. "Müəyyən şəxsli cümlə" anlayışının öxü mübahisəlidir, lakin qəbul edilirsə, məlumat vermək lazımdır. Tək və cüttərkibli cümlələr «baş üzvlərin iştirakına» görə bölünür. Fikrimizcə, "iştirak" sözü doğru deyil və yerinə düşmür. "Baş üzvlərdən biri iştirak etməyən cümləyə təktərkibli cümlə deyilir" tərifini əsas götürsək, tələbənin haqqı var ki, bütün yarımçıq cümlələri təktərkibli hesab etsin. İştirak etməməyin arxasında belə bir məfhum da durur ki, var, iştirak etmir. Beləliklə, "iştirak etmir" və "mövcud olmur" anlayışlarını fərqləndirmək lazımdır.

Bütöv və yarımçıq cümlələrin baş və ikinci dərəcəli üzvlərin iştirakına görə bölgüsü də mənə doğru görünmür. Bundan əlavə, "Yuxarıda danışdıqlarımız bütöv cümlələrə aid olduğundan indi də yarımçıq cümləyə keçirik" fikri ilə kifayətlənmək olmaz, bütöv cümlə haqqında məlumat lazımdır. Yarımçıq cümlə mövzusunda təfərrüat və stilistik izahlar vardır.

Şəxsən mənim üçün dərslikdə çətin və müəmmalı qalan məsələlərdən biri t a b e s i z mürəkkəb cümlə mövzusudur. Mən təkcə bu əsəri deyil, digər əsərləri də nəzərdən keçirmişəm, lakin bir çox məsələlər yenə də qaranlıqdır.

Əvvələn qeyd edək ki, dərslikdə bu mövzu ilə bağlı təkrarlar vardır: qarışıq tipli tabesiz mürəkkəb cümlələrdən həm tabesiz mürəkkəb cümlə bölməsində, həm də kitabın sonunda danışılır, bunların birini dəqiqləşdirib saxlamaq lazımdır. Dərslikdə məna əlaqələri çox yığcam və bir çox hallarda bəsitdir. Bölüşdürmə əlaqəsi məntiqi əsası olan əlaqə olduğu halda, dərsliyə daxil edilməmişdir. Əksinə, yer əlaqəsi mübahisə doğurur, dərslikdə verilmişdir. Yer əlaqəsində əsas şərt tərkib hissələrə aid ümumi yer zərfliyinin olmasıdır. Belə olduqda fikirləşməli oluruq: tərkib hissələrə aid ümumi tamamlıq, ümumi səbəb zərfliyi və s. olduqda

hansı əlaqədən danışmalıyıq? Bəzən tərkib hissələrə aid həm zaman, həm də yer zərfliyi müşahidə olunur və s. Ən böyük çətinlik isə əlaqələrin bir-birinə çox yaxınlığı və çoxunun zaman bildirməsidir.

Tabeli mürəkkəb cümlənin sirukturu elədir ki, sistem var və ona görə də asan dərk olunur. Burada da bəzən budaq cümlələr (***Rüstəm kişiyə elə gəldi ki*** - tipli baş cümlə, təyin budaq cümləsinin dərslikdə verilən üçüncü tipi, ***Mən bu qərara gəldim*** -tipli cümlələr və s.) mübahisəyə səbəb olur.

Budaq cümlələrin bağlayıcı sözlə qurulan tipi daha milli xarakter daşısa da, "baş cümlə + budaq cümlə" quruluş tipləri dildə daha çox işlənir, ona görə də bunları əvvələ keçirmək tədris baxımından daha faydalı olardı. Bəzən nəticə budaq cümləsi ilə nəticə bildirən digər budaq cümlələri seçmək çətin olur.

Dərslikdə qeyd olunmalı başqa qüsurlar da vardır. Səh.11-də "predikativ əlaqə"dən danışılır, sonrakı üç əlaqə ilə müqayisədə bu əlaqə "subyekt əlaqəsi" adlandırılmalı idi. ***Sən gəlirsən, Həyat gözəldir*** cümlələrində predikativ əlaqədən danışmaq olar. Bəs "sən gələndə" – tipli birləşmələri hansı məna əlaqəsinə daxil etməli?

Dos.X.M.Cabbarov. «Son 30 ildə Azərbaycan dilçiliyində sintaksislə bağlı tədqiqatlar» Elmi iş.18.05.1979

52 makina yazısı həcmində olan bu elmi işdə dosent Xasay Cabbarov son 20-30 il ərzində Azərbaycan dilçiliyində sintaksisin nəzəri və əməli məsələləri ilə bağlı tədqiqat əsərlərini nəzərdən keçirmiş, dilçiliyimizin bu sahədəki yeniliklərini, kəsir və nöqsan cəhətlərini ümumiləşdirməyə çalışmışdır. Elmi işdə sintaktik əlaqələr, söz birləşmələri, sadə və mürəkkəb cümlələr, sintaktik təkrirlər, sintaktik sinonimlik və s. kimi problemlərlə əlaqədar dərsliklərin, dərs vəsaiti və monoqrafiyaların təhlili geniş yer tutur. Bu sahədə Azərbaycan dilçilərindən M.Hüseynzadə, Ə.Abdullayev, Z.Budaqova, Y.Seyidov, A.Axundov, Z.Tağızadə, M.Adilov, N.Abdullayeva və başqalarının xidmətləri xüsusi araşdırılmış və qiymətləndirilmişdir. Əsərin sonunda dilimizin tarixi sintaksisinin tədqiqi ilə əlaqədar yazıların təhlilinə ayrıca yer verilmişdir.

Bu işlə tanışlıq əsasında Azərbaycan dili elmi sintaksis kursunun təşəkkül və formalaşma mənzərəsi ilə tanış oluruq. Tədrici inkişaf və ayrı-ayrı görkəmli alimlərin qələmi ilə meydana çıxan yenilik gözümüz önündən gəlib keçir. Tədqiqat işlərinin təhlili prosesində müəllifin söylədiyi bir sıra mülahizələr, qeyd və göstərişlər əsərlərin yeni nəşrinin təkmilləşdirilməsi işi üçün faydalı ola bilər. Lakin mülahizələr içərisində

bəsit və sadəlövh olanları, daha çox düşünmək, xüsusi tədqiqat aparmaq və sonra nəticəyə gəlmək tələb olunanları da vardır. (səh.: 5-6, 13, 23, 24-25, 29, 33 və s.).

"Son 30 ildə Azərbaycan dilçiliyində sintaksislə bağlı tədqiqatlar" adlı elmi iş dilimizin sintaktik quruluşunun tədqiqi vəziyyətini izləmək, bu sahədəki yenilikləri ümumiləşdirmək, nöqsanları nəzərə almaq baxımından faydalıdır və ona görə də dos. X.Cabbarovun bu əsəri elmi iş kimi qəbul edilməyə layiqdir.

Cəlilov Firudun Ağası oğlu. «Azərbaycan dilində bağlayıcısız tabeli mürəkkəb cümlələr»
ND. 20.12.1979

Azərbaycan dilçiliyində mürəkkəb cümlələrin struktur-semantik və qrammatik xüsusiyyətləri xeyli öyrənilmiş, bu sahəyə dair dəyərli monoqrafiyalar, tədqiqat əsərləri meydana çıxmışdır. Lakin tədqiqat prosesində diqqəti daha çox bağlayıcılı mürəkkəb cümlələr cəlb etmiş, bağlayıcısız mürəkkəb cümlələr haqqında məlumat çox vaxt bəsit və ötəri xarakter daşımışdır. Əslində isə bağlayıcısız forma daha qədim olmaqla yanaşı, ünsiyyətin mühüm vasitəsi kimi, canlı dildə daha çox işlənir və rəngarəng xüsusiyyətləri ilə nəzəri cəlb edir. Bağlayıcısız formanın tədqiqi bağlayıcılı formaya nisbətən çətin və mürəkkəb olduğundan bağlayıcısız mürəkkəb cümlələr bir çox hallarda tədqiqat prosesində ikinci plana keçirilmişdir. Halbuki dilin müasir quruluşunun öyrənilməsi və ali məktəblərin filologiya fakültələrində «Müasir Azərbaycan dili» fənninin hərtərəfli elmi əsasda öyrədilməsi baxımından bu sahənin elmi-nəzəri aspektdə tədqiqi günün zəruri məsələlərindən idi. Bütün bunları nəzərə aldıqda aydın olur ki, dissertant F.Cəlilov aktual bir mövzuda tədqiqat aparmış, nəzəri və praktik cəhətdən faydalı bir işlə məşğul olmuşdur.

Dissertasiyanın avtoreferatını nəzərdən keçirdikdə, mövzu ilə əlaqədar yaranan bu xoş təəssüratı dissertantın iş üsulu və nəticələri tamamlayır, əsər elmin indiki inkişafı səviyyəsi baxımından oxucunu razı salır. Nəzəri cəlb edən ən mühüm cəhət budur ki, bu əsər bir namizədlik dissertasiyası kimi zəngindir; müəllif elmi-nəzəri ədəbiyyatı diqqətlə öyrənmiş, dilin müxtəlif qollarından mövzu ilə əlaqədar zəngin material toplamış və həmin materialı elmi əsasda diqqətlə nəzərdən keçirib ümumiləşdirməyə çalışmışdır.

Giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiyada, ilk dəfə olaraq, bağlayıcısız tabeli mürəkkəb cümlələrin hərtərəfli tədqiqinə rast gəlirik. Müəllifin tədqiqat planı lazım və zəruri

olan bütün istiqamətlərə şaxələnə bilmişdir. Bu əsərdən bağlayıcısız tabeli mürəkkəb cümlələrin növləri, struktur və intonasion xüsusiyyətləri, yaranma və transformasiyaya uğrama yolları barədə ətraflı məlumat almaq mümkündür. Müəllif fakt və hadisələrdən nəticə çıxarmaqda müstəqildir, o, elmi fikri tənqidi şəkildə nəzərdən keçirməklə müstəqil fikir söyləmək qabiliyyətinə malik olduğunu burada aydın şəkildə nümayiş etdirə bilmişdir. Bağlayıcısız mürəkkəb cümlələrin inkişaf mərhələləri barədə fikri və tərtib etdiyi sxem ağlabatandır.

Dissertasiyanın ikinci fəsli daha konkret məsələyə – bağlayıcısız tabeli mürəkkəb cümlələrin komponentlərini bağlayan vasitələrin tədqiqinə həsr olunmuşdur. İlk dəfə olaraq bu əsərdə bağlayıcısız tabeli mürəkkəb cümlələrin komponentlərini əlaqələndirən fonetik, leksik, qrammatik, struktur və semantik vasitələrdən bir sistem şəklində bəhs edilmişdir. Həm də müəllif bu vasitələrin hər birinin tədqiqinə diqqətlidir, əvvəlki qeyri-səhih fikirlər onu azdıra bilmir, faktlardan daha dəqiq nəticələr çıxarmağa çalışır və buna müvəffəq olur. Bu sahədə dissertanta eksperiment materialı da xeyli kömək etmişdir. Eksperiment əsasında əldə etdiyi hesablamalar tərkib hissələrin əlaqələndirilməsində tempin rolunu aydın şəkildə nəzərə çarpdırır. Burada təkcə bağlayıcısız tabeli mürəkkəb cümlələrin intonasiya xüsusiyyətlərinin tədqiqi müəyyən dərəcədə genişləndirilməklə bir namizədlik dissertasiyası üçün kifayət edərdi. Lakin müəllif daha çox iş görmüş, öz mövzusu ilə əlaqədar fikri hərtərəfli ümumiləşdirməli olmuşdur.

İntonasiya ilə yanaşı, modal sözlər, ədatlar, xitablar, əvəzliklər və bəzi zərflər də tərkib hissələri əlaqələndirən vasitələr kimi dildə mühüm rola malikdir. Ona görə də dissertant ikinci fəslin müvafiq bölmələrində onların rolunu nəzərdən keçirməklə bağlayıcı vasitələr haqqında ümumi mənzərəni tamamlayır.

Dissertant bağlayıcısız tabeli mürəkkəb cümlələrin baş və budaq hissələrində xəbərlərin forma xüsusiyyətlərini öyrənmək sahəsində də xeyli iş görmüşdür.

Dissertasiyanın avtoreferatı yüksək elmi səviyyəsi və zənginliyi ilə diqqəti cəlb edir. Dissertantın mövzu ilə əlaqədar çap olunmuş məqalələri ilə tanışlıq da məndə bu cür təəssürat doğurmuşdur. Məqalələri tədris vəsaiti kimi də faydalıdır. Şübhəsiz, əsər bütövlükdə çap olunduqdan sonra daha çox fayda verəcəkdir. Doğrudur, əsərdə mübahisəyə səbəb ola bilən məsələlər də vardır, lakin onlar indiki halda elmi fikrin inkişafı üçün faydalıdır və dissertasiyanın elmi dəyərinə xələl gətirmir.

Məqalələrdən və avtoreferatdan aldığım təəssürat əsasında deyə bilərəm ki, «Azərbaycan dilində bağlayıcısız tabeli mürəkkəb cümlələr» adlı əsər namizədlik dissertasiyasının tələblərinə tam cavab

verir və onun müəllifi F.A.Cəlilov filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Musayev Mehman Musa oğlu. «Cənub-qərb qrupu türk dillərində zaman budaq cümlələri və zaman mənalı feli sifət, feli bağlama tərkibləri»
ND. 15.05.1980

Son 20-30 ilin müddətində dilimizin sintaktik quruluşunun tədqiqi və öyrənilməsi sahəsində xeyli iş görülmüşdür. Buna baxmayaraq, dilimizin quruluşu ilə bağlı bir sıra problemlərin həm müasir dil aspektində, həm də diaxronik planda ətraflı tədqiqinə xüsusi ehtiyac vardır. Belə problemlərdən biri də budaq cümlə və tərkib məsələləridir.

Nəsimi adına Dilçilik institutunun aspirantı M.M.Musayev bu ehtiyacı nəzə alaraq, problemin həllinə kömək üçün konkret bir mövzu seçmiş, zaman budaq cümləsi və zaman mənalı feli sifət, feli bağlama tərkiblərinin tədqiqi ilə məşğul olmuşdjur. Zaman budaq cümləsi ilə zaman mənalı tərkiblərin bu cür əlaqəli tədqiqi fakt və hadisələrin sistem şəklində öyrənilməsinə imkan yaradır. Dissertant öz işini bir dilin materialı ilə məhdudlaşdırmamış, müəyyən nəticəyə gəlmək üçün türk dillərinin cənub-qərb qrupuna daxil olan digər dillərin dil faktları ilə müqayisə və qarşılaşdırmalar aparmışdır.

Giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiya zəngin faktlar əsasında yazılmışdır. Müəllif əlaqədar elmi-nəzəri ədəbiyyatı tənqidi şəkildə diqqətlə nəzərdən keçirmiş, tədqiqatçıların fikirlərini obyektiv şəkildə qiymətləndirməyə çalışmışdır.

Birinci fəsildə zaman budaq cümləsinin struktur-qrammatik xüsusiyyətləri əhatə olunmuşdur.

Məlümlür ki, zaman budaq cümləsi Azərbaycan dilində çox işlənən, rəngarəng bağlayıcı vasitələri olan budaq cümlə növlərindəndir. Bu cəhət türk dillərinin cənub-qərb qrupuna aid olan başqa dillərin qrammatik quruluşunda da özünü göstərir. Dissertasiyada Azərbaycan dili ilə yanaşı, türk, türkmən, qaqauz dillərinin materialları da nəzərdən keçirilmiş, zaman budaq cümləsinin formal qrammatik əlamətləri, baş və budaq cümlələrin zaman münasibəti, tərəflərin sırası və s. məsələlər kompleks şəkildə tədqiq edilmişdir.

Dissretasiyanın sonrakı fəsillərində zaman mənalı feli sifət (II fəsil) və feli bağlama (III fəsil) tərkibləri araşdırılmış, tərkibləri yaradan morfoloji əlamətlər və onların semantik xüsusiyyətləri nəzərdən keçirilmişdir.

Burada mühüm məsələ tərkiblərlə budaq cümlələrin münasibəti məsələsidir. Müəllif o dilçilərin mövqeyində durur ki, onlar feli sifət, feli bağlama və məsdər tərkiblərini budaq cümlə hesab etmirlər. Buna görə də dissertasiyada zaman mənalı feli sifət və feli bağlama tərkibləri ilə zaman budaq cümlələrinin sintaktik sinonimliyindən geniş danışılmalı olmuşdur.

Fəsillərdə qoyulmuş məsələlər sıx əlaqəli olduğundan dissertasiya mövcud problemin öyrənilməsi baxımından yaxşı təəssürat yaradır. Bununla yanaşı, avtoreferatda mübahisə doğuran cəhətlər də vardır. Müəllif ***elə ki, o gün ki, o gündən ki, o vaxt ki, o vaxtdan ki, onda ki, indi ki, nə qədər ki, necə ki***… (səh.5) sözlərini bağlayıcı adlandırır. Bunlar bağlayıcı deyil, mövcud dilçilik ədəbiyyatında qeyd olunduğu kimi, bağlayıcı sözlərdir. "Azərbaycan bu vəziyyətdə ikən xarici avantüra təhlükəsi də yaxınlaşırdı" - cümləsində "vəziyyətdə ikən" sözləri yanlış olaraq feli bağlama hesab edilir və s.

Müəllif Azərbaycan dilində və qohum türk dillərində zaman budaq cümlələri ilə zaman mənalı tərkibləri nəzərdən keçirərkən onların uyğun, oxşar və ortaqlı xüsusiyyətləri ilə yanaşı, fərqli cəhətlərinə də diqqət yetirmiş, fərqlərin, başlıca olaraq, fonetik, morfoloji və leksik amillərlə bağlı olduğunu göstərmişdir.

Müəllif zəngin türkoloji ədəbiyyata müraciət etmiş, yeri gəldikcə digər qohum dillərlə də müqayisələr aparmışdır. Əsərin mühüm nəzəri və praktik əhəmiyyəti vardır.

Dissertasiyanın mövzusu ali məktəblərin filologiya fakültələrində tədris edilən "müasir Azərbaycan dili" və "türkologiya" fənləri ilə sıx bağlıdır, ona görə də əsər dərs vəsaiti kimi də faydalıdır.Tədqiqatın yeniliklərini nəzərə alaraq qeyd edirik ki, Mehman Musa oğlu Musayevin "Cənub-qərb qrupu türk dillərində zaman budaq cümlələri və zaman mənalı feli sifət, feli bağlama tərkibləri" adlı əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Akif Fərman oğlu Miriyev. «Azərbaycan mətbuat dilində qrammatik normalar (70-ci illər)» ND. 15.10.1980

Avtoreferat mətbəə üsulu ilə çap olunmuşdur və 32 səhifədən ibarətdir. Bu bizə 60-cı illərin avtoreferatlarını xatırlatdı və xoş təəssürat yaratdı. Həcmi elədir ki, müəllif dissertasiya haqqında kifayət qədər təsəvvür yarada bilmişdir.

Üç fəsildən ibarət olan dissertasiyanın birinci fəsli "Dilçilikdə norma anlayışı və ədəbi normalar" adlanır. Hiss olunur ki, müəllif bu sahədə ümumi dilçilik ədəbiyyatına yaxşı bələddir. Görkəmli Avropa və rus alimlərinin fikirlərini yığcam şəkildə xülasə edərək problemin qoyuluşu ilə əlaqədar kifayət qədər fikir aydınlığı yarada bilmişdir.

Əyanilik vasitələri və müxtəlif sxemlər, variantlar və normadan çıxma hallarının tədqiqi əsərin elmi dəyərini artırır.

Dissertasiyanın I fəslində mətbuat dilində morfoloji, III fəslində əsas sintaktik normalar nəzərdən keçirilmişdir. Sözdüzəldici (isimdüzəldən) şəkilçilər, hal, mənsubiyyət, kəmiyyət kateqoriyası əlamətləri, felin növ kateqoriyası, təyini söz birləşmələri, söz sırası, uzlaşma ilə əlaqədar əsas variantlar və bütün bu sahələrdə ədəbi normadan kənara çıxma halları 70-ci illər mətbuat dilinin ümumi mənzərəsi barədə aydın təsəvvür yarada bilmişdir.

Tədqiqat prosesində müəllif bəzi qrammatik qaydalar barədə mövcud fikirləri dəqiqləşdirməyə çalışmışdır. Pis tərcümə təsirləri barədə də müəllifin fikirləri maraqlıdır.

Müəllif faydalı elmi nəticələr əldə etmişdir.

Avtoreferatdakı faktlarla əlaqədar bir neçə qeydimiz də vardır:

1.*İnsan dənizi dalğalanmağa başlandı; Əfqanıstanda yeraltı sərvətlərinin* - tipli ifadə tərzi norma variantları deyil, sadəcə texniki qüsurlardır.

2.*Maşınların vaxtında xəttə çıxmaması* - sintaqmında söz sırası - *xəttə vaxtında çıxmaması.* Bu cür iradlar şifahi nitqin xüsusiyyətlərini unutmaqla bağlıdır. Son dərəcə qatı qrammatist olmaq olmaz.

Müəllif ilk tezisini 1973-cü ildə çap etdirib. Deməli, uzun müddətdir ki, əsərin üzərində işləyir. Bir alim kimi yetişmiş və geniş təcrübə qazanmışdır. Əsər hazırkı dövrdə mühüm nəzəri və praktik əhəmiyyət daşıyır.

Bunları nəzərə alaraq qeyd edirik ki, Akif Fərman oğlu Miriyevin «Azərbaycan mətbuat dilində qrammatik normalar (70-ci illər)» adlı əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir.

AETPEİ. Dissertant Hüseynova Solmaz Rza qızı.
«Ali məktəblərin rus bölmələrində tələbələrin Azərbaycan dilindən lüğət ehtiyatını zənginləşdirmək yolları»
ND. Opp.r. 01.12.1980

Respublika ali məktəblərinin rus bölmələrində başqa millətlərin nümayəndələri və ümumiyyətlə, rus dilində təhsil alan gənclər partiya

və hökumətin milli dillərə qayğısının təzahürü kimi, bir qayda olaraq, respublikanın milli dilini də öyrənir, Azərbaycan dilinin zəngin təbiəti ilə tanış olur, bu dildə yazıb-oxumaq, bu dildən ünsiyyət vasitəsi kimi istifadə etmək vərdişi qazanırlar. Ənənəvi şəkildə davam edən bu proses ildən-ilə genişlənir və təkmilləşir. Yeni proqram və dərsliklər meydana çıxır. Azərbaycan dilinin ali məktəblərimizin rus bölmələrində tədrisi metodları təkmilləşir.

Lakin etiraf etməliyik ki, milli dilimizin başqa millətlərdən olan gənclərə öyrədilməsi və ümumən rus bölmələrində tədrisi işi hələ də günün tələbləri səviyyəsində deyildir. Biz bu sahədə partiya və hökumətin yaratdığı imkanlardan tam istifadə edə bilmirik. Ali məktəblərin spesifikasını nəzərdə tutan proqram və dərsliklər azdır. Tədris çox vaxt ibtidai səviyyədə aparılır, taftalogiyaya əsaslanır, qrammatik qanunları, tərif və qaydaları əzbərlətməklə məhdudlaşır, bu qaydaların praktikaya sərbəst tətbiqi, bilavasitə fikri ifadə etmək vərdişləri yaratmaq borcu unudulur və s. Onu da qeyd etməliyik ki, bu cür halların bir qismi eynilə rus dilinin Azərbaycan məktəblərində tədrisinə də aiddir.

Bu cəhətləri nəzərə aldıqda aydın olur ki, "Ali məktəblərin rus bölmələrində tələbələrin Azərbaycan dilindən lüğət ehtiyatını zənginləşdirmək yoları" adlı namizədlik dissertasiyası aktual, əhəmiyyətli və faydalı bir mövzunun tədqiqinə hər olunmuşdur.

Mövzu bütövlükdə Azərbaycan dilinin tədrisi metodlarına və bu metodların təkmilləşdirilməsi, zənginləşdirilməsi yollarının tədqiqinə həsr olunmayıb. Çünki bu, son dərəcə mürəkkəb və geniş bir problem olub, böyük bir elmi qüvvənin uzun müddətə görə biləcəyi bir işdir, daim təkmilləşmə yolu ilə irəliləyən bir prosesdir. Dissertant bu ümumi mövzunun konkret bir cəhətini, çox mühüm bir sahəsini tədqiq obyekti kimi seçmiş, tələbələrin lüğət ehtiyatını zənginləşdirmək yolları və metodları üzərində təcrübə və araşdırmalar aparmışdır. Bu sahənin tədqiqi və öyrənilməsi işinin dissertant tərəfindən ön plana çəkilməsi Azərbaycan dilinin tədrisi xeyrinədir. Çünki lüğət ehtiyatı olan şəxs, necə olsa, fikrini ifadə edə bilir. Buna görə də lüğət ehtiyatını zənginləşdirmək və səmərəli zənginləşdirmə metodları axtarmaq təkcə rus bölmələrində Azərbaycan dilinin deyil, Azərbaycan bölmələrində rus dilinin tədrisi işini təkmilləşdirmək, irəlilətmək baxımından da faydalıdır.

Dissertantın tədqiqatçılıq qabiliyyəti, ümumiləşdirmələr aparmaq bacarığı rəğbət doğurur. Dissertasiya müxtəlif ali məktəblərdə aparılmış zəngin eksperiment materiallarının, rus bölmələrində Azərbaycan dilini tədris edən qabaqcıl müəllimlərin və dissertantın özünün on ildən artıq bir dövrdə apardığı fəal müşahidələrin ümumiləşdirilməsi nəticəsidir.

160 səhifəlik bu dissertasiya giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Sonda "Əlavələr" adı altında ixtisas leksikası minimumunda nə-

zərdə tutulmuş sözlərin termin yaradıcılığı prosesi ilə əlaqədar qruplaşdırılmasına aid nümunələr lüğəti verilmişdir. ***İqtisad, əmək, məhsul, gəlir, dəyər, əmtəə*** tipli terminləri əhatə edən bu hissə axırda verilsə də, müəllifin ilkin işinin, ilkin müəyyənləşdirməsinin nəticəsidir və həmin lüğət minimumunu tərtib etməklə dissertant öz işini əvvəlcədən düzgün istiqamətləndirə bilmişdir.

Mövzunun aktuallığı, tədqiqat işinin qarşısında duran vəzifələr, tədqiqatın metodları, mövcud işin elmi yenilikləri, aprobasiya işi, dissertasiyanın əhəmiyyəti, işin həcmi və dissertasiyanın qısa məzmunu girişdə yığcam və sistemli şəkildə şərh olunmuşdur.

Mövzu bu dissertasiya işinə qədər monoqrafik tədqiqat obyekti olmamışdır. Ona görə də dissertant, təbii olaraq, qeyri-azərbaycanlılara Azərbaycan dili tədrisinin tarixinə nəzər salmış, bu sahədə çap olunmuş proqram və dərsliklərin təhlilini vermişdir. Bunlar dissertasiyanın birinci fəslinin məzmununu təşkil edir.

Keçən əsrin əvvəllərindən - Azərbaycanın Rusiyanın tərkibinə daxil olduğu vaxtdan çarizmin Qafqazda və Orta Asiyada Azərbaycan dilinin rolunu qiymətləndirməsi, öz mənafeyi xatirinə bu dilə bələd olan kadrlar yetişdirmək cəhdi istər-istəməz Azərbaycan dilinin tədrisi işinə də müsbət təsir etmiş, nəticədə bir sıra dərsliklər yaranmışdır. Prof. Mirzə Kazım bəy, Mirzə Şəfi, L.M.Lazerev, Lazar Budaqov, Yəhya bəy Haqverdiyev, N.Nərimanov, S.M.Qənizadə və başqalarının inqilabdan əvvəl bu sahədə xidmətləri nəzərdən keçirilərkən dissertantı daha çox, onların əsərlərində leksika məsələləri maraqlandırmışdır. Dəqiq cədvəllər və ali məktəblərin rus bölmələrində Azərbaycan dilinin tədrisinə verilən vaxta dair müqayisələr ali məktəblərin fəaliyyətə başladığı vaxtdan keçən müddət ərzində yaranmış mənzərəni əks etdirir.

Rus bölmələrində Azərbaycan dilinin tədris edildiyi 30-40 il ərzində cəmi bir neçə proqram çap olunmuşdur. Tədqiqatdan aydın olur ki, bu proqramlarda leksik minimumların hüdudu dəqiq olmamaqla yanaşı, müxtəlif institutların, hətta müxtəlif fakültələrin ixtisas təmayülü də (ADU-nun son proqramı müstəsna olmaqla) nəzərə alınmamışdır.

Dərs saatlarının qorunub saxlanmasında da pis vəziyyət vardır. Yalnız Azərbaycan Dövlət Universiteti (1955-75-ci illərin məlumatı) ilkin dərs saatını (408 saat) qoruyub saxlamış, bütün başqa ali məktəblərimizdə saatların miqdarı tədricən azalmış, Ç.İldırım adına Politexniki İnstitutda, Neft və Kimya İnstitutunda qeyri-azərbaycanlılara Azərbaycan dilinin tədrisinə aid saatlar tamamilə ləğv edilmişdir. Şübhəsiz, bu cəhət müəyyən dərəcə institut təşkilatlarının fəaliyyətsizliyi ilə də əlaqədardır.

Tədqiqatdan o da aydın olur ki, ali məktəblərin yaxşı dərsliyə ehtiyacı daha artıqdır. Uzun müddət ümumtəhsil məktəblərinin dərsliklərindən istifadə edən ali məktəblərin rus bölmələri üçün yalnız son 20 ildə

bir neçə dərslik çap olunmuşdur. Canlı ünsiyyət, nitq vərdişi əvəzinə, bu kitablarda qrammatik materialı əzbərlətmək meyli üstün olmuşdur. Dissertant nöqsanları göstərməklə kifayətlənməmiş, bu nöqsanlardan qurtarmaq yollarını da göstərməyə çalışmış, mövcud dərsliklərin təhlili əsasında belə bir nəticəyə gəlmişdir ki, müxtəlif ali məktəblər üçün eyni bir dərslik yaratmaq səmərəli nəticə verməz. Ali məktəblərin ixtisas profilinə uyğun dərsliklər yaratmaq lazımdır.

II fəslin son bölməsində ali məktəblərdə lüğət üzrə işin aparılma vəziyyəti nəzərdən keçirilmiş, bu sahədə əsas nöqsanlar və onları doğuran səbəblər konkret bəndlərdə ümumiləşdirilmişdir.

İkinci fəsil ümumişlək sözlər üzrə lüğət minimumunun müəyyənləşdirilməsi və mənimsənilməsi yollarına həs edilmişdir. Burada ilk növbədə dissertantı ali məktəbə daxil olmuş tələbələrin lüğət ehtiyatının mövcud vəziyyəti maraqlandırır. Bu, əslində, belə də olmalıdır, çünki tələbənin lüğət ehtiyatının mövcud mənzərəsini təsəvvür etmədən onu düzgün davam və inkişaf etdirmək olmaz. Dissertant tələbələrin ilk gündən mexaniki olaraq güclülər və zəiflər qruplarına ayrılmasını və bu cür mexanikiliyin nəticə-nöqsanlarını düzgün tənqid edir, müəyyən müddət müşahidələr aparmaq və xüsusi üsullarla onların biliyini müəyyənləşdirib sonra qruplaşdırmaq məsələsini düzgün əsaslandırır.

Tələbələrin lüğət ehtiyatını zənginləşdirmək üçün lüğət minimumunun müəyyənləşdiriləsi mühüm bir mərhələ sayılır. Dissertantın fikrincə, lüğət minimumunu əvvəlcədən müəyyənləşdirmək dərsin səmərə və keyfiyyətini artırır. Buna görə də bu bölmədə lüğət minimumunun müəyyənləşdirilməsi yollarından ətraflı bəhs edilmişdir.

Tələbələrin lüğət ehtiyatının müəyyən edilməsi və lüğət minimumunun müəyyənləşdirilməsi lüğət materialının mənimsənilməsi üçün hazırlıq mərhələləri sayılır. Bu sonuncu isə özlüyündə əsas mərhələdir, ona görə də nəzərdə tutulan lüğət minimumunun mənimsənilməsi yolları dissertasiyada xüsusi işlənmişdir. Bu fəsil geniş və elmi cəhətdən yüklüdür. Bu fəslin özünü müəllif namizədlik dissertasiyası həddinə çatdıra bilərdi.

Mühüm müddəalardan biri lüğət üzrə işlərin aparılması prosesində ixtisas leksikasının nəzərə alınması məsələsidir. Şübhəsiz, ikinci dili öyrənməkdə əsas məqsəd ünsiyyəti təmin etməkdir. Dissertant bu işi ixtisas təmayülü ilə qarşılıqlı əlaqədə aparmağı lazım bilir ki, bu da tələbənin gələcək fəaliyyəti üçün həqiqətən əhəmiyyətlidir. Buna görə müəllif dissertasiyasının üçüncü fəslini lüğət üzrə işlərin aparılması sistemində ixtisas leksikasının yeri və mənimsədilməsi yollarına həsr etmişdir.

Müxtəlif ali məktəblərin və hətta dar ixtisas fakültələrinin profilini nəzərə almaqla ixtisas leksikasını müəyyənləşdirmək üçün dörd mühüm prinsip müəyyən edilmiş və həmin prinsiplər əsasında Xalq Təsərrüfatı

İnstitutunun ümumi profili və onun ayrı-ayrı fakültələrinin dar ixtisas təmayülü nəzərə alınaraq lüğət minimumu tərtib edilmişdir.

Müəllifin aparmış olduğu eksperimentin nəticələri göstərir ki, ixtisas leksikasını yüksək səviyyədə mənimsətmək üçün müəyyən edilmiş mətnin özü yüksək tələblər əsasında qurulmalıdır. Mətnlərin seçilməsi üçün dissertantın məsləhət gördüyü on tələb dərslik və dərs vəsaiti müəllifləri üçün və eyni zamanda müəllim üçün aydın istiqamət verir. Dissertant çalışmalar sisteminin keyfiyyətinə xüsusi əhəmiyyət verir və onun tərtib etdiyi nümunə-çalışmalar göstərir ki, həqiqətən leksik-qrammatik və leksik-üslubi çalışmalar diqqətlə qurulmuş olduqda ixtisas leksikasının mənimsədilməsində mühüm rol oynayır.

Dissertasiyanın elmi və praktik əhəmiyyəti qeyd olunanlardan daha çoxdur. Lakin eyni zamanda bəzi iradlar da qeyd etmək mümkündür.

1.Dissertant rus bölmələri üçün proqramların geniş təhlilini verdiyi halda, onların heç birinin tərtibçisini xatırlatmır. Bu hal müəyyən dərəcə dərsliklərə də aiddir. Hər bir kiçik müvəffəqiyyətimiz əvvəlki irsin zəminindədir. Ona görə də biz tənqid-təhlil prosesində əvvəlkiləri mütləq xatırlamağa borcluyuq.

2.Ayrı-ayrı nümunələr, faktlar və misallar ümumən diqqətlə seçilmişdir. Lakin bəzən misallar ibtidai görünür; məsələn, ali məktəb tələbəsinə portfel, qələm haqqında kiçik inşa yazmaq məsləhət görülür (səh.62), bəzən də misallar artıq dərəcədə ağırlaşdırılır, məsələn, "*Girdə, ağsifətli Marinanın qızıl kimi sapsarı dalğalı ipək saçları çiyinlərinə qədərdir*" - kimi cümlələrin qeyri-azərbaycanlı tələblərə təhlili tapşırılır ki, belə cümlələr azərbaycanlı filoloq tələblər üçün də çətinlik törədə bilər.

3.Bəzi sözlərin tərcüməsində qyeri-dəqiqlik var: ***nəsnə*** – вывод, ***vəhdət*** - встреча, ***yumşaltmaq***- мягкость və s.

Bunlar daha çox texniki xarakterli qüsurlardır. Əsər faydalı bir vəsait kimi çap olunarkən asanlıqla düzələ bilər. Ümumiyyətlə, əsər yüksək təəssürat doğurur. Hiss olunur ki, ciddi plan əsasında, ciddi rəhbər nəzarəti altında işlənmişdir. Əsərin elmi-nəzəri səviyyəsi də yüksəkdir. Fikirlər geniş elmi-pedaqoji ədəbiyyata və zəngin dil materialına əsaslanır. Proqram və dərsliklərin tərtibi, rus bölmələrində Azərbaycan dilinin tədrisi baxımından nəzəri və praktik əhəmiyyəti göz qabağındadır.

Biz dissertantın məqalələri və dissertasiyanın avtoreferatı ilə də tanışıq. Məqalələr və avtoreferat dissertasiyanın məzmununu əhatə edir.
Qeyd etdiyimiz cəhətlərə əsasən deyə bilərik ki, "Ali məktəblərin rus bölmələrində tələbələrin Azərbaycan dilindən lüğət ehtiyatını zənginləşdirmək yolları" adlı dissertasiya namizədlik müdafiəsinin tələblərinə tam cavab verir və onun müəllifi Solmaz Rza qızı Hüseynova pedaqoji elmlər namizədi alimlik dərəcəsi almağa layiqdir.

Ədəbi dilimizin morfologiyası
1980

Milli ədəbi dilimizin tədqiqi partiya və hökumətin gündəlik qayğısı sayəsində getdikcə genişlənir və dərinləşir. Müharibədən sonrakı dövr ərzində Azərbaycan ədəbi dilinin qrammatik quruluşu, lüğət tərkibi, fonetik sistemi, üslubi imkanları mühüm elmi-nəzəri tədqiqat obyektinə çevrilmiş, yazı və orfoqrafiyası, orfoepik normaları səlisləşdirilmiş və daha çox nizama salınmışdır. Bu sahədə Nəsimi adına Dilçilik İnstitutunun ənənəvi rolu vardır. İnstitutun müasir Azərbaycan dili şöbəsi üç cildlik «Müasir Azərbaycan dili» kitabının ikinci cildini nəşr etdirməklə (Bakı, «Elm» nəşriyyatı, 1980, elmi redaktoru Z.İ.Budaqova) dilimizin morfoloji quruluşunun tədqiqi və öyrənilməsi sahəsində yeni mühüm addım atmışdır.

Kitab sözün quruluşu, təsrifi, dəyişməsi, mühüm morfoloji kateqoriyalar – nitq hissələri problemlərinə həsr olunmuşdur. Əsər böyük bir kollektivin səmərəli əməyinin məhsuludur. Əsərin yazılmasında Azərbaycan SSR EA-nın müxbir üzvü, prof.Z.Budaqova, prof. M.Adilov, filologiya elmləri doktoru Ə.Cavadov, filologiya elmləri namizədləri R.Xəlilov, A.Aslanov, İ.Məmmədov, H.Quliyev, V.Əliyev, Ə.Şükürov, Ə.Xəlilov, R.İsrafilova və İ.Hacıyevdən ibarət böyük bir qüvvə iştirak etmişdir. Müsbət cəhətdir ki, müəllif kollektivinin seçilməsində konkret sahələrin xüsusi tədqiqatçıları nəzərə alınmış və müəlliflərin bir qismi ali məktəblərimizdən dəvət edilmişdir.

32 çap vərəqi həcmində olan bu əsər dilimizin morfoloji quruluşu ilə bağlı bütün əsas məsələləri əhatə edir. Tədqiqat əvvəlki elmi zəmin üzərində qurulmuşdur. Müəlliflər mövzu ilə bağlı Azərbaycan dilçilik ədəbiyyatına obyektiv nəzərlə yanaşmış, diqqətli müşahidə və araşdırmalarla morfoloji problemlərin öyrənilməsi işini irəlilətməyə çalışmışlar. Burada imkan daxilində bütün əvvəlki fikir və mülahizələr nəzərdən keçirildiyindən mütəxəssis oxucu hətta müəllifin nəticə-fikri ilə razılaşmadıqda belə, ümumi mülahizələr əsasında müəyyən qənaətə gəlmək imkanına malikdir. Bu cəhət kitabın ali məktəblərimizdə tədrisi əhəmiyyətini artırır, bir vəsait kimi, mövcud kateqoriyaların öyrənilməsi işini asanlaşdırmaqla yanaşı, dilçiliyimizin bu sahədə inkişaf yolunu, dilçilərimizin xidmətini də təsəvvür etməyə imkan verir. Ayrı-ayrı bölmələrdə morfoloji kateqoriyaların bütün xüsusiyyətlərinin əhatə edilməsinə cəhd edilmişdir. Bu hal tədqiqatçıdan şəxsi müşahidə və məntiqlə yanaşı, əvvəlki irsi yaxşı bilməyi və ümumiləşdirməyi tələb edir. Monoqrafiya zəngin dil faktları əsasında yazılmışdır. Bu cəhət filoloq oxucunu inandırır, prinsipial məsələlərin həllində müəllif qənaətini təsdiq edən bir vasitə kimi mühüm rol oynayır. Həm

də faktlar sadəcə sadalanmamış, ciddi elmi qruplaşdırmalar aparılmışdır ki, bu da ümumi nəticələrə gəlmək üçün geniş imkan verir. Ayrı-ayrı mövzuların tədqiqində cəsarətlə yeni fikir söyləmək meyli duyulur. Müəlliflər dilimizin qədim abidələrinə, kateqoriyaların tarixi inkişaf yoluna dərindən bələd olmaqla morfoloji vahidlərin keçib gəldiyi yolu öyrənmək əsasında onların müasir mərhələdə vəziyyəti, gələcək inkişaf istiqaməti barədə təsəvvür yarada bilmişlər. Ona görə də bir çox faktların izahında, tarixi-müqayisəli metodun köməyi sözsüzdür. Nəticələrin düzgünlüyü də çox vaxt bu cəhətlə şərtlənir.

Kitabda morfem – morfologiya, kök və şəkilçi, nitq hissələrinin təsnifi barədə giriş xarakterli məlumatdan sonra əsas və köməkçi nitq hissələrinin geniş elmi-nəzəri təhlili verilmişdir.

Morfologiya sözün leksik-semantik cəhətini deyil, ümumiləşmiş qrammatik mənaları və bu mənaların paradiqmalı ifadə formalarını öyrənir. Buna görə də girişdə qrammatik kateqoriya, ümumi və xüsusi qrammatik kateqoriyalar, söz, onun quruluşu, kök və onun xüsusiyyətləri, şəkilçilərin növləri və səciyyəvi əlamətləri haqqında qeydlər sonrakı böyük bölmələr üçün əsaslı zəmin yaradır.

Bu kitabda da məlum üç prinsip (leksik, morfoloji və sintaktik xüsusiyyətlər) üzrə nitq hissələri əsas (isim, sifət, say, əvəzlik, fel, zərf) və köməkçi (qoşma, bağlayıcı, ədat, modal sözlər, nida) olmaqla iki böyük qrupa ayrılmışdır.

Məlumdur ki, əşya, varlıq birincidir, əlamət və xüsusiyyətlər isə varlığın özündən təzahür tapır. Buna görə də bir qayda olaraq əşya adı bildirən nitq hissəsi – isim əvvəlcə öyrənilir. İsim adlar qrupunda öz kateqoriyalarının zənginliyi ilə də birincidir. Kitabda ismə məxsus qrammatik kateqoriyalara – kəmiyyət, hal, mənsubiyyət kateqoriyalarına xüsusi yer verilmiş, mənsubiyyət və hal şəkilçilərinin oxşar cəhətləri, onları fərqləndirən əsas əlamətlər, sahib şəxs və mənsub əşya anlayışı və onun dilimizdə ifadə üsulları, ayrı-ayrı isim hallarının məna incəlik və çalarları diqqətlə nəzərdən keçirilmişdir. Lakin mənsubiyyət və hal kateqoriyalarında qrammatik xüsusiyyətlərlə üslubi-stilistik cəhətlər bəzən bir səviyyədə verilmiş, yiyəlik və təsirlik halın qeyri-müəyyənlik bildirən formaları bir qədər bəsit şərh olunmuşdur.

İsim zəngin sözdüzəldicilik imkanlarına malikdir. Sözdüzəldici şəkilçilərin artırılması və müxtəlif sözlərin birləşməsi yolu ilə dilimizdə saysız-hesabsız düzəltmə və mürəkkəb isimlər yaranmışdır. Bunlar monoqrafiyada düzəltmə – törəmə isimlər kimi şərh olunmuş və isimdüzəltmənin üç üsulu göstərilmişdir.

Qeyd etməliyik ki, isimdüzəltmənin «leksik-sintaktik-morfoloji üsul»u o qədər də ağlabatan deyildir. Doğrudur, başqa nitq hissələrindən çox nadir hallarda substantivləşmə yolu ilə də isim əmələ gəlir,

lakin substantivləşmə bir prosesdir, bu prosesdə nitq hissəsi isim xüsusiyyətləri qazanmaqla yanaşı, öz xüsusiyyətlərinin bir qismini saxlayır. Məsələn, sifət substantivləşərkən dərəcə əlamətini itirsə də, əlamət, keyfiyyət mənasını saxlayır. ***Sarımsaq, ilmək, quymaq*** kimi sözlərin vaxtilə substantivşləşmə yolu ilə yarandığını indi artıq xüsusi tədqiqatla müəyyənləşdirmək olar və s.

Kitabda «Sifət», «Say» və «Əvəzlik» bölmələri nəzəri dərinliyi və material zənginliyi ilə seçilir. Sifətin və sayın quruluş və məna xüsusiyyətləri diqqətlə nəzərdən keçirilmiş, bir çox hallarda fikri əsaslandırmaq üçün qədim abidələrlə, müasir türk dilləri ilə zəruri müqayisələr aparılmışdır. Xüsusən sifətin başqa nitq hissələrinə oxşarlığı və onları fərqləndirmək meyarı əlamət, keyfiyyət bildirən nitq hissəsi kimi onun mahiyyətinə daha dərindən nüfuz edir. Lakin burada da sifətlə zərfin hüdudu məsələsi qaranlıq qalır. «Say» bölməsində mürəkkəb sayın hüdudu da aydın deyil. Əvəzliyin məna növləri geniş işlənmiş, nisbi əvəzliklər xüsusi məna növü kimi verilmişdir ki, bu da bölmənin əhəmiyyətini artırır.

Fel morfoloji xüsusiyyətlərinin zənginliyi ilə bütün nitq hissələrindən fərqlənir. Buna görə də kitabda fel bütün digər əsas nitq hissələrinə bərabər yer tutur. Fel dilin milli orijinallığını və qədim xüsusiyyətlərini qoruyub saxlayan və bu sahədə heç bir leksik-qrammatik söz qrupu ilə müqayisə edilməyən bir nitq hissəsi kimi, özü söz deməyə, fikir söyləməyə, araşdırmalar və qruplaşdırmalar aparmağa imkan verir. Fel kateqoriyaları süzgəcindən keçə bilməyən bir söz fellər sırasına yol tapa bilmir. Bu cəhətlər felin tədqiqinə həsr olunmuş bölmədə aydın şəkildə özünü göstərir. Fellərin zəngin lüğəvi məna qrupları, quruluş və növ xüsusiyyətləri, rəngarəng təsrif formaları, şəxsiz fellər (feli sifət, feli bağlama və məsdərlər), fellərdə inkarlığın təzahür halları, tərz bildirmə xüsusiyyətləri ardıcıl, sistemli, dəqiq faktlar və ümumiləşdirmələrlə şərh olunmuşdur. Fellərin quruluş xüsusiyyətləri, xüsusən mürəkkəb fellər, mübahisə törədə bilən bəzi cəhətlərinə baxmayaraq, daha ətraflı tədqiq edilmişdir. Növ kateqoriyasında «keçər» və «keçməz» fellər haqqında fikrin kənar edilməsi, şəxssiz növün xüsusi bir növ kimi qeyd olunması, bizcə, bölmə müəllifinin daha obyektiv mövqe tutduğunu göstərir. Burada təsirli fellərlə icbar növ fellərin sərhədini ayırmaq cəhdi də əhəmiyyətlidir. Xüsusi tərz birləşmələri və zaman formaları ilə ifadə olunan tərz mənalarına kifayət qədər yer verilmişdir. Felin altı şəkli (əmr, xəbər, vacib, arzu, lazım, şərt) verilmiş, ümumi şərt bildirən *-sa, -sə (isə)* bağlamalar sırasına daxil edilmiş, «yaza bilmək» quruluşlu fellər tərkibi fel hesab olunmuş, -maqda, -məkdə şəkilçisi davamlı indiki zamanın əlaməti kimi izah edilmişdir. Azərbaycan SSR EA-nın nəşr etdiyi «Azərbaycan dilinin qrammatika-

sı» (1960) kitabında olduğu kimi, burada da **idi, imiş** köməkçi sözləri zaman formaları hesab olunmuş, buna görə də felin zaman formalarının sayı çoxalmışdır. Bunların bir qismi (qəti gələcəkli keçmiş, qeyri-qəti gələcəkli keçmiş, bitməmmş keçmiş, davamlı keçmiş) «keçmiş zamanın mürəkkəb formaları» kimi şərh olunmuşdur. Qeyd etməliyik ki, ***idi, imiş*** zaman kateqoriyası əlaməti olsa idi, onda bu kateqoriyanın hüdudu genişlənər və o, adları da əhatə edə bilərdi. Kitabdan felin təsriflənməyən formaları – feli sifət, feli bağlama və məsdər haqqında geniş məlumat almaq mümkündür. Əsərdə zərflərin quruluş və törəmə xüsusiyyətlərinin tədqiqinə xüsusi diqqət yetirilmişdir. Zərf və sifəti fərqləndirmək meyarı xüsusi qeyd olunmasa da, praktik olaraq həqiqi zərflərin sifətlə qarışdırılmamasına cəhd edilmişdir.

Köməkçi nitq hissələrinin – qoşma, bağlayıcı, ədat və modal sözlərin tədqiqi əvvəlki ənənəni təkmilləşdirmə yolu ilə davam etdirilmişdir. ***İdi, imiş*** köməkçi sözləri bu yaxınlarda çap olunmuş bir sıra məqalələrdə ədat hesab olunduğu halda, burada yenə əvvəlki kimi «bağlama» adı ilə verilmişdir. Nidalarla yanaşı, təqlidi və vokativ sozlər, ritmik söz qrupları, uşaq sözləri haqqında məlumat yenidir və kitabın ümumi dəyərini artırır.

Doğrudur, yeri gəldikcə qeyd etdiyimiz çatışmazlıqlarla yanaşı, bu kitabda yanlış görünən, dəqiqləşdirilməsinə ehtiyac duyulan fikirlər də var; bundan əlavə, müxtəlif müəlliflərin zidd mülahizələrinə, təkrarlara, texniki qüsurlara da rast gəlmək mümkündür. Lakin ümumilikdə «Müasir Azərbaycan dili» kitabı dövrümüzün tələblərinə uyğun şəkildə, yüksək elmi-nəzəri səviyyədə yazılmışdır, ona görə də Azərbaycan dilçiliyinin hazırkı mərhələsində xüsusi yeri olan qiymətli bir tədqiqat kimi diqqəti cəlb edir.

Ənvər Abbasov. «Azərbaycan dili» proqramı (rus məktəblərinin II-X sinifləri üçün) 26.04.1981

Proqram ümumən yaxşı hazırlanmışdır. Vahid prinsiplər müəyyənləşdirilmiş və həmin prinsiplər bütün siniflərdə ardıcıl olaraq gözlənmişdir. Ona görə də proqramda birsistemlilik, vahidlik prinsip kimi aşkar görünür. Müəllif imkan daxilində bütün lazımi lüğəvi, qrammatik və pedaqoji tələbləri gözləməyə çalışmışdır. Bu, bir sinif üçün bəlkə də asan olardı, lakin doqquz sinif üçün proqram hazırlamaq, şübhəsiz, tərtibçidən böyük zehni və fiziki əmək tələb etmişdir. Əslində, bu cür tərtibat başqa bir cəhətdən daha faydalı hesab oluna bilər: tərtibçi bütün siniflər üzrə vahid bir proqram hazırlamaq üçün onları pillə-pillə

siniflər üzrə bir-birinin zəminində hazırlamalı olduğuna görə bu işin öhdəsindən daha məntiqi gələ bilərdi və proqramda bu cəhət həqiqətən özünü göstərir. Rus məktəblərində Azərbaycan dili tədrisinin üç dövrdə nəzərdə tutulması tədrisin qarşısında duran əsas tələbləri ödəmək baxımından lazımi imkanı yarada bilir.

Biz proqramı uğurlu saymaqla və onun üzərində bilavasitə bəzi üslubi düzəlişlər aparmaqla yanaşı, onun daha da təkmil olması üçün aşağıdakıları da qeyd etməyi lazım bilirik:

1.Rus dilindən Azərbaycan dilinə və əksinə t ə r c ü m ə – çalışmalar yalnız son sinifdə (X sinif) qeyd olunur. Bunu, bizcə, bir prinsip kimi əvvəldən axıra qədər nəzərdə tutmaq lazımdır.

2.Proqramda lüğət minimumu barədə bir söz deyilmir. Burada ən zəruri məfhumların ifadəçiləri və rus-Azərbaycan dillərində ortaqlı sözlər xüsusi nəzərə alınmalıdır.

3.Doğrudur, II-VIII siniflər üzrə eyni 8 mövzu saxlanır və həmin mövzuların müxtəlif cəhətdən dərinləşdirilməsi, genişləndirilməsi nəzərdə tutulur. Amma, məncə, girişdə qeyd etmək olardı ki, «Nitq inkişafı üçün mövzular» elə də toxunulmaz deyildir, münasib şəkildə dəyişdirilə, bəzən genişləndirilə bilər. Çünki, məsələn, II sinifdə: «günəşin doğması, hər tərəfə işıq saçması» kimi konkret qeydlər proqramda artıqdır. Burada, bu sinifdə idman haqqında, yemək şeyləri barədə, ev heyvanları, vəhşi heyvanlar haqqında, bağ, ağaclar, musiqi alətləri, saat haqqında sadə qeydlər nəzərdə tutulmamışdır, halbuki, məncə, lazımdır.

III sinifdə saat, gün, həftə, ay, il haqqında məlumat təkrar olunmalıdır.

4.«Dil materialları»nda bəzi dəqiqləşmələrə ehtiyac var.

II sinifdə yalnız I şəxs təki bildirən «mən» sözünün öyrədilməsi nəzərdə tutulur, ş ə x s s o n l u q l a r ı n ı n hamısını. Burada uyğunsuzluq var.

Dərslik praktik şəkildə, proqram isə şüurlu olaraq a d l ı q halı və qeyri-müəyyənlik bildirən təsirlik halı əhatə etməlidir.

II sinifdə söz sırasına dair çalışmalar vermək olar.

II sinifdə Azərbaycan əlifbası verilə bilər.

Bütün siniflərdə spesifik hərflər sırasında *ç* hərfi gedir.

III sinifdə mənsubiyyət şəkilçiləri öyrədilir, bizcə, ***-si*** formasını unutmaq olmaz.

Şəxs əvəzlikləri III sinifdə də tam əhatə olunmur.

IV sinfin əvvəlində – təkrar bölməsində təsirlik halı da əlavə edib ismin hallarını ilkin ümumiləşdirmək olar.

Bizcə, VII sinifdə cümlə üzvlərindən danışarkən uzlaşma, yanaşma və idarə haqqında yığcam məlumat verilə bilər.

IX sinifdə fonetikada yalnız spesifik səslər verilir. Bizcə, burada fonetikadan bütün bilikləri çalışmalarla ümumiləşdirmək lazımdır.

X sinifdə durğu işarələri lazımi səviyyədə tam ümumiləşdirilməlidir.

5.U l d u z l a r bəzən artıq qoyulur. Şagirdlərin zəruri olaraq bilməli olduqları qaydalar da ulduzla işarələnir. Məsələn, tək və cəm isimlər keçilir, amma tələbdə ulduzla işarələnir (səh.16).

6.Bəzən başlıqlarda vahid qayda pozulur: «Nitq inkişafı üçün nümunəvi mövzular» - gah «nümunəvi» sözü düşür (III sinif), gah «mövzu» sözü «mətn» ilə əvəz olunur (V sinif).

«Şagirdlərin bacarıq və vərdişlərinə verilən tələblər» - IV sinifdə olur: «Şagirdlərin ***bilik***, bacarıq və vərdişlərinə verilən ***əsas*** tələblər».

7.Biz bir sıra texniki və üslub xətalarını düzəltdik, bəzilərini isə qeyd edirik:

Səh.8-də: *şagirdlər öz atalarının* – ifadəsi işlənir.

Səh.10: -MIŞ, -MİŞ – şühudi keçmiş zaman felləri?

Səh.11. və s.: e ş i d i l m i ş mətnlər.

Səh.12-də: «Verilmiş suallara (3-4 sualla) yazılı cavab yazmalı» - cümləsi anlaşılmır.

Səh.12-də: «Təbiət»in izahatı qarışıqdır.

Səh.13-də: «**Rus dilindən fərqli** Azərbaycan dilində olan spesifik səslər» - əvvəli artıqdır.

Səh.14-də: Şagirdlər bilməlidirlər: söz birləşməsi ilə söz və cümlənin f ə r q l ə n m ə s i n i.

Səh. 15: «Azərbaycan əlifbasını əlifba sırası ilə s a y m a ğ ı.

O x u n m u ş (bəlkə keçilmiş?) şeirləri əzbər söyləməyə.

Səh.20-də: qoşmanın və ya bağlayıcının köməkçi nitq hissəsi olmasını (bilməlidirlər – nə olsun?)

Səh.25. bilməlidirlərdə: tabesiz və tabeli mürəkkəb cümlənin fərqlənməsini.

Səh.28-də: «cümlədə mübtədanın xəbərlə uzlaşması» yox, əksinə.

8.Durğu işarələrinə, xüsusən nöqtəli vergülə diqqəti artırmaq lazımdır. I paraqraflar nöqtəli vergül ilə ayrılsa, daha yaxşı olar.

9.Nədənsə, son sinifdə lüğət minimumu azalır.

10.Bizcə, proqramın əvvəlində bu vaxta qədərki proqramlar barədə yığcam məlumat pis olmazdı.

7-8-ci siniflərin "Azərbaycan dili" (sintaksis) kitabı haqqında (müəllifləri: M.Şirəliyev, M.Hüseynzadə) 1982

Orta məktəblər üçün yeni "Azərbaycan dili" proqramı əsasında bu dərslik də qayda üzrə tamamilə yenidən işlənməli, müasir tələblər əsasında qurulmalıdır. Bunun üçün dərsliyin bir çox bölmələri sadələşdirilməli, bəzi bölmələri zənginləşdirilməli, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunlaşdırılmalıdır. Yeni proqramın bu ümumi tələbi ilə yanaşı, dərsliyin köhnəlmiş, müasir məktəbi, müəllim və şagirdləri təmin etməyən, məntiqi və elmi cəhətdən yanlış olduğu aşkar görünən aşağıdakı cəhətlərini də qeyd etməuk olar:

1.Tərif və qaydaların əksəriyyəti elmi baxımdan dəqiq və təminedici deyildir; cümlənin tərifi (belə çıxır ki, hər biri bitmiş fikir ifadə

edən sözlər birləşir), cümlə üzvünün tərifi, təyinin, bütöv cümlə, mürəkkəb cümlə və sairin tərifi natamam, məntiqsiz və ya elmi cəhətdən yanlışdır.

2.Nəzəri məlumatda nisbət gözlənilməmişdir. Sadə cümlənin təsnifi bəsitdir; tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqələri məsələsi də bəsit işlənmişdir, həm də bu cəhət yalnız bağlayıcısız tabesiz mürəkkəb cümlələrə aid edilmişdir; həmcins üzvlər haqqında məlumatda təfərrüat və lazımsız izahat geniş yer tutur; tabeli mürəkkəb cümlənin bəzi zəruri əlamətləri unudulmuşdur; ismi birləşmələrin təsnifi qənaətbəxş deyildir və s.

3.Dərslikdə elmi yanlışlıqlar və təkrarlar vardır. Məsələn, ***bəli, yox, xeyr*** və s. kimi sözlər həm yarımçıq cümlə kimi izah edilmiş (səh. 66, halbuki bunların yarımçıq cümləyə qətiyyən dəxli yoxdur), həm də bunlardan ayrıca bəhs edilmişdir (səh.79). Dərslikdə "Nida" haqqında məlumat da artıqdır.

4.Nəzəri fikrin izahı üçün verilmiş misalların bir çoxu elmi və metodiki baxımdan qüsurludur. Misallar çox vaxt uzun-uzadı və maraqsız cümlələrdən ibarətdir. Belə misalları şagirdlərin yadda saxlaması çox çətindir. Misallar mənalı, yığcam və yadda qalan olmalıdır, şagirdi cəlb etməlidir. Bir çox misallar "Nuh əyyamından" qalmadır, gözü-qulağı az qala mazol edibdir ("*Nataşa saya dəsmal verdi, İlyas bəyənmədi"* tipli). Nümunə-misalların verilmə sistemi də pisdir; qaydalar hamısı söylənir və birdən-birə çoxlu misal verilir; şagirdlər hansı misalın hansı qayda ilə bilavasitə əlaqədar olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər.

5.Tapşırıqlar sistemində də qeyri-elmi, qeyri-məntiqi fikirlər vardır: "Sözləri cümlədə həm fel, həm də feli sifət kimi işlədin" – cümləsindən belə çıxır ki, feli sifət tamamilə başqa nitq hissəsidir və fel deyildir; tapşırıqlarda sifətlə zərflər çox vaxt qarışdırılır (səh.5); "birləşmələrin arasında şəxsə görə uzdaşma" - birləşmələrin arasında yox, tərəfləri arasında; "oğlan idi" tipli sözlər mürəkkəb xəbər hesab olunur (34); "verilmiş sözləri səbəb-məqsəd zərfliyi yerində işlədin" - yerində sözü yerində deyildir; "quzular mələşən ağıla sarı" parçasında "ağıla sarı" sözləri zaman zərfliyi kimi izah edilir və həm də bu, şagirdlər üçün nümunə-təhlil sayılır (səh.98); - ümumiyyətlə, bu tapşırıqdakı (211) nümunə-cümlə düzgün təhlil edilməmişdir: mürəkkəb cümlələrin izah edilməmiş tiplərinə aid misallar verilmişdir (107, 111, 113 və s.).

6.Kitabda texniki qüsurlar üzündən çoxlu elmi qüsurlar meydana çıxır: bəzən eyni fikir eyni bir mətndə təkrar olunur: "*Onların Səmayəyə çatmasına bir az qalmış..."* feli bağlama tərkibində "bir az" sözləri qara yığılmaqla zərflik hesab olunmuşdur, halbuki bu sözlər tərkib daxilində zərflik deyil, zərf ola bilər; zərfliyin ifadə vasitələri mövzusunda ***Dilbər, uşaq, Şərif, meyvə*** kimi sözlər qara yığılmaqla zərflik kimi izah edilmiş

olur və bunlar şagirdləri, sözsüz, çaşdırır; qeydlər uzun-uzadı və dolaşıq cümlələrlə verilir: "təkrar edilən həmcins üzvlər arasında vergül qoyulur" -"təkrar edilən" və “həmcins üzvlər” (75) və s.

Bunlar dərsliyin ilk baxışda nəzərə çarpan nöqsanlarının bir qismidir. Dərsliyi müasir tələbat əsasında ortaya çıxarmaq üçün yenidən diqqətlə işləmək lazımdır.

N.İsmayılzadə, M.Yusifzadə və Ə.Rəcəbov.
«Azərbaycan dilindən imla və ifadə yazı mətnləri»
Dərs vəsaiti. 20.04.1982

310 səhifəlik bu vəsait tədris rus dilində olan məktəblərin 2-10-cu sinifləri üçün nəzərdə tutulur. Vəsait müəllimə kömək məqsədi ilə yazılmışdır.

Şagirdlərin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirmək, onların leksik və qrammatik biliklərini zənginləşdirmək, möhkəmlətmək və yoxlamaq üçün imla və ifadə mətnləri vacib dərs vəsaiti sayılır. Müəllim dərslik materiallarından əlavə, tez-tez belə mətnlərə ehtiyac hiss edir. Vaxtilə nəşr olunmuş ifadə və imla mətnləri indi xeyli köhnəlmişdir və yeni proqramın tələblərinə cavab vermir. Ona görə də yuxarıda adlarını qeyd etdiyimiz müəlliflər yeni proqramın tələblərinə müvafiq şəkildə belə bir məcmuə hazırlamaqla ümumtəhsil məktəblərinə çox böyük kömək etmiş olurlar. Vəsait müəllimlərin və şagirdlərin ehtiyaclarını əsasən ödəyəcəkdir.

Vəsait üç hissədən ibarətdir:

1. 2-10-cu siniflər üçün imla mətnləri;

2.4-10-cu siniflər üçün ifadə yazı mətnləri;

3.Ayrı-ayrı siniflər üzrə (5-ci sinifdən başlayaraq) imla və ifadə yazılar üçün əlavə materiallar.

I hissədə müəlliflər şagirdlərin yaş və bilik səviyyələrinə, tədrisin məqsəd və istiqamətinə müvafiq olaraq, lüğət üzrə imla, yaradıcı imla, seçmə imla nümunələrinə daha çox yer vermişlər. Vəsaitin bu hissəsində toplanmış imla nümunələri və müxtəlif mətnlər (rabitəli və rabitəsiz mətnlər) hər bir sinif üçün nəzərdə tutulan leksik və qrammatik minimuma, demək olar ki, uyğundur. Müəlliflər ikinci sinifdə səciyyəvi səslərin və hərflərin öyrədilməsini xüsusi nəzərə almış, hər bir səciyyəvi hərf üçün kifayət qədər mətn tərtib etmişlər. Mətnlərin mövzuları da aşağı siniflərdə proqram üzrə nəzərdə tutulan əsas mövzulara uyğundur.

4-10-cu siniflər üçün ifadə yazı mətnləri müəlliflərdən daha çox zəhmət tələb etmişdir: hər bir mövzu üzrə ayrıca plan və lüğət tərtib etmişlər. Bunlar müəllim və şagirdlərin işini xeyli asanlaşdıracaqdır.

V-X siniflərə aid əlavə materiallar üçün də plan və lüğət tərtib edilmişdir. Bunlar əvvəlki bölmələrdə verilmiş imla və ifadə mətnlərindən, təbii ki, öz mürəkkəbliyi və zənginliyi ilə seçilir. Bu mətnlərdə şagirdləri işlətmək, onların biliyini dərinləşdirmək üçün çoxlu leksik material toplanmaqla yanaşı, onların qrammatik quruluş etibarilə nisbətən mürəkkəb olması da şagirdlərin nitq inkişafını dərinləşdirmək baxımından faydalıdır.

Vəsaitə daxil edilmiş imla və ifadə mətnləri müxtəlif keyfiyyətdədir. Burada asandan çətinə prinsipi əsas götürülmüşdür. Mətnlər eyni sinfin rübləri üzrə ardıcıl mürəkkəbləşdiyi kimi, pillə-pillə siniflər üzrə də mürəkkəbləşir. Eyni zamanda mətnlər elə tərtib edilmiş və ya elə mətnlər seçilmişdir ki, onlardan həm Azərbaycan dilini yaxşı bilənlər, həm də zəif bilənlər istifadə edə bilər və ya bu mətnlərdən bəziləri zəiflər üçün nəzərdə tutulduğu halda, bəziləri Azərbaycan dilini nisbətən yaxşı bilənlər üçün seçilmişdir. Lazım gəldikdə bəzi mətnləri sadələşdirmək və ya bir qədər mürəkkəbləşdirmək imkanı da vardır.

İfadə və imla mətnlərinin mövzuları müxtəlif və rəngarəngdir. Burada həyatın bütün sahələrinə aid materiallara rast gəlmək mümkündür. Ailə, məişət, məktəb, təsərrüfat, sənaye, idman və s. kimi insan fəaliyyətinin ümumi sahələrinin, demək olar ki, hamısı əhatə edilmişdir. Vəsaitdə həm bədii, həm də elmi, həm orijinal, həm də tərcümə əsərləri vardır, həm yazılı ədəbiyyatdan, həm də Azərbaycan xalqının və başqa xalqların folklorundan maraqlı materiallar verilmişdir. Bunlar şagirdlərin marağını artıracaq, onların mətnlər üzərində daha həvəslə işləməsinə imkan yaradacaq.

Vəsaitdə verilmiş materiallar - imla və ifadə mətnləri tərbiyəvi-didaktik prinsiplər əsasında tərtib edilmişdir, milli ruhda, eyni zamanda beynəlmiləlçilik və vətənpərvərlik ruhundadır. Partiya və hökumət rəhbərlərinin əsərlərindən səciyyəvi parçaların seçilib vəsaitə daxil edilməsi onun ictimai-siyasi və tərbiyəvi rolunu daha da artırır.

İmla və ifadə mətnlərindən müəllim rabitəli nitqin inkişafı üzrə başqa işlərin aparılmasında da istifadə edə bilər. Bu mətnlərdən lazım gəldikdə Azərbaycan orta məktəblərinin Azərbaycan dili müəllimləri də faydalana bilərlər.

Tədrisi rus dilində olan məktəblər üçün belə bir vəsaitə böyük ehtiyac olduğu üçün "Azərbaycan dilində imla və ifadə yazı mətnləri" adlı bu əsərin çap olunmasını faydalı hesab edirəm. Redaktə yolu ilə asanlıqla düzələ bilən bəzi nöqsanlarına baxmayaraq, əsər çap üçün hazırdır.

T.İ.Hacıyev, K.N.Vəliyev. «Azərbaycan dili tarixi (oçerklər və materiallar)»
May, 1982

250 makina səhifəsi həcmində olan bu əsərin yazılmasında əsas məqsəd filologiya fakültələrində təhsil alan tələbələrin Azərbaycan ədəbi dilinin tarixinə dair biliklərini praktik cəhətdən yoxlamaq, dərinləşdirmək, əməli istiqamətə yönəltmək, qədim abidələrin dili üzərində bilavasitə müşahidələr aparmaqdır. Bu, özlüyündə çox faydalı bir işdir və həm də bu sahədə ilk təşəbbüs olmaq etibarilə qiymətlidir. Belə praktikumlara ehtiyac çoxdur.

Əsər yalnız praktik materiallardan ibarət deyildir və burada bir sıra oçerklər də verilmişdir. Doğrudur, tələbələr ədəbi dil tarixi fənninin tədrisi prosesində mühazirə, dərslik və dərs vasitələrindən proqram üzrə zəruri materialı öyrənə bilirlər, lakin bilavasitə yazı abidələrindən seçilib verilmiş mətnlərin dili üzərində ilkin müşahidə və araşdırmalar aparmaq üçün bu cür oçerklərə ehtiyac vardır, bunlar tələbənin yolunu işıqlandırır. Buna görə də biz həmin oçerkləri faydalı və gərəkli hesab edirik.

Oçerklər əsasən yığcam olub, tarixi qrammatika və ədəbi dil tarixinin əlaqəli və fərqli cəhətləri, tədqiq obyektləri, Azərbaycan dili anlayışı, ədəbi dil tarixinin dövrləri, XIII - XIV və XIV - XVI əsrlər ədəbi dili kimi məsələləri əhatə edir.

Əsərdə "Azərbaycan dili anlayışı"nın şərhinə nisbətən geniş yer verilmişdir. Bu hal əslində zəruri ehtiyacdan irəli gəlmişdir. Dilçiliyimizdə Azərbaycan ədəbi dilinin qədim kökləri əsaslı şəkildə öyrənilməmişdir. Bu sahə hələ də qaranlıq və dumanlı olaraq qalmaqdadır. Bunun bir səbəbi də yeni eradan əvvəlki miniilliklərə və bizim eranın birinci minilliyinə dair materialın yoxluğu və ya azlığıdır. Bu cəhəti nəzərə alaraq, müəlliflər ağır zəhmət hesabına müxtəlif xarici mənbələrdə səpələnmiş tək-tək məlumatları toplayaraq, nəticə etibarilə zəngin material əldə etmişlər. Bu materiallar türk tayfalarının Azərbaycana sonradan gəldiyini və birdən-birə yerli aborigenlərin dilini sıxışdırıb aradan çıxartdığını iddia edənlərin yanlış fikirlərini ustalıqla təkzib edir, hələ eradan çox-çox əvvəllər ölkəmizin ərazisində türk tayfalarının, türk mənşəli dilin mövcud olduğunu və türklərin sonrakı (bir neçə dəfə) gəlişləri ilə bu tayfaların, türk dilinin gücləndiyini, tədricən ümumxalq dilinə çevrildiyini sübut edir. Qeyd etməliyik ki, dilimizin bizim minilliyə qədərki inkişaf yolunu ancaq bu istiqamətdə araşdırmaq nəticə verə bilər.

Əsərdə Azərbaycan ədəbi dilinin inkişaf yolu iki dövrə ayrılmışdır: ***təşəkkül dövrü, sabitləşmə dövrü***. Müəlliflərin fikrincə, birinci dövr IX-X əsərlərdən XVII əsrin əvvəllərinə qədərki dövrü, ikinci dövr isə XVII əsrin əvvəllərindən hal-hazıra qədərki dövrü əhatə edir.

Prof.Ə.Dəmirçizadə birinci dövrü "Ümumxalq dili əsasında Azərbaycan ədəbi dilinin formalaşıb inkişaf etməsi dövrü" adlandırır və bu dövrü XI-XIII əsrlərdən XVIII əsrə qədərki bir dövr hesab edir. Bizcə, hər iki bölgüdə birinci dövr uzun dövrdür, təşəkkül və ya sabitləşmə, formalaşma bu qədər uzun olmaz. Uzağı Həsənoğluya qədərki dövr sabitləşmə - formalaşma üçün kifayət edərdi. Şifahi dil nümunəsi olsa da, "Kitabi-Dədə Qorqud" kimi bir abidənin dili və ya Nəsiminin dili bütöv bir ədəbi dil nümunəsi üçün kifayətdir və Nəsiminin dilini «təşəkkül» nümunəsi saymaq olmaz.

Kitabın əsasını müxtəlif abidələrdən seçilib götürülmüş nümunələr - mətnlər təşkil edir.

Əsər ədəbi dilimizin inkişafında nəzərdə tutulan birinci mərhələni - "təşəkkül dövrü"nü əhatə edir. Ona görə də verilmiş mətnlər bu dövrə aid abidələrdən seçilmişdir. Yeri gəldikcə müqayisələr aparmaq üçün qohum dillərə məxsus bəzi abidələrdən də nümunələr verilmişdir.

Mətnlərin seçilməsində dövrü xarakterizə etməyə imkan verən faktların və səciyyəvi əlamətlərin bolluğu, üstünlüyü əsas götürülmüşdür. Ona görə də ədəbi dil tarixi fənninin tədrisi prosesində praktik şəkildə yoxlamaq və öyrənmək üçün ehtiyac duyulan hər cür dil faktına bu materiallarda rast gəlmək mümkündür. Həm də bu faktlar bir çox dil-nitq hadisələrini ardıcıl inkişaf prosesində izləməyə imkan verir.

Tələbələri işlətmək və istiqamətləndirmək üçün hər bir mətnin sonunda suallar və çalışmalar - tapşırıqlar tərtib edilmişdir.

Filoloq tələblərə və ümumən ədəbi dil tariximiz ilə maraqlananlara faydasını nəzərə alaraq, əsərin dərs vəsaiti kimi çap olunmasını məsləhət bilirik. Bu əsərdən tarixi fonetika və tarixi qrammatika ilə məşğul olanlar da istifadə edə bilərlər.

Biz əsərin elmi dəyərini artırmaq üçün aşağıdakıları təklif edirik:

1.Bəzi oçerklərdə müəllif tək şəxsin (I ş.təkin) dilindən danışır (səh.6 və s.), əsərin müəllifi isə məlum olduğu üzrə ikidir. Belə halda ya üslubu dəqiqləşdirmək, yaxud da hər müəllifin işlədiyi bölməni dəqiq göstərmək lazımdır.

2.Əsərin mündəricatı bəsitdir, mövzuları tam əhatə edə bilmir. Mündəricatı yenidən işləmək və mətnləri də daxil etmək olar.

3.Hazırkı nüsxədə ədəbiyyat olmadığı üçün bir çox məsələlər şəxsən mənə qaranlıq qaldı. Məsələn, səh.30-da KASPİ sözünün etimoloji izahı prosesində Ə.Dəmirçizadənin fikrinə münasibət nəzərimə çarpmadı.

4.Dərslikdə və dərs vəsaitlərində ümumi sərlövhələr diqqətlə və məntiqi tərtib olunmalıdır. Ədəbi dilin dövrləşdirilməsi barədə məlumatdan sonra birdən-birə şifahi xalq ədəbiyyatı nümunələrinə keçilir. Məncə, məlumatdan sonra müəlliflər qəbul etdikləri bölgüyə əsasən başlıqlar verməli idilər: əvvəlcə ədəbi dilin təşəkkül dövrü, sonra inkişaf mərhələləri və s.

Onu da qeyd edim ki, əsərdə nə üçün yalnız təşəkkül dövrünə aid materialların əhatə edildiyi də izah edilməlidir: müəlliflər ya sonrakı dövrə aid materialın çoxluğunu qeyd edə bilər, yaxud əsərin üzərində "birinci hissə" sözlərini.

5.Bəzi terminləri bir formada dəqiqləşdirmək lazımdır: əksər kitablarda "Kitabi-Dədə Qorqud", burada isə "Kitabi-Dədəm Qorqud" və həm də tərcüməsi ilə: "Dədə Qorqud kitabı" işlədilir.

6.Bəzi mətnləri yığcamlaşdırmaq, artıq şeyləri ixtisar etmək olar, məsələn: səh.107-112-də eyni parça 5-6 dəfə təkrar olunur.

7.Səh.105-dən başlayaraq, "Kitabi-Dədə Qorqud"a aid edilən atalar sözlərinin (bunların içərisində atalar sözləri də tapmaq mümkündür) çoxu alqışlar, öyüdlərdir.Həm də bu bölmə "Kitabi-Dədə Qorqud"un özünə aid olan atalar sözlərindən sonra verilməlidir.

8.Səh.120-dən başlayan fotosurətin əvvəli, axırı, izahı, qeydi yoxdur.

9.Bəzi mənbə və materiallar ("Qisseyi-Yusif", "Dastani-Əhməd Hərami" və s.) haqqında bir münasibətlə müəyyən qeydlər vermək, yazılma, tapılma, nəşr tarixi haqqında bir-iki söz demək yaxşı olardı.

10.Sonda alınma və arxaik sözlərin lüğəti verilmiş olsa idi, faydalı olardı.

11.Qeydlərimizin biri də çalışma və suallara aiddir. Bunlar bəzən çox ümumidir (səh. 127-də 13-cü bənd və s.). Bütöv mətndən sonra çalışmalar verilməsinin başqa bir mühüm çətinliyi də vardır. "Kitabi-Dədə Qorqud"la əlaqədar təqribən 40 səhifəlik material verilmiş, sonra 28 bənddən ibarət çalışma nəzərdə tutulmuşdur (səh. 84-126). Yaxud: Füzulidən 33 səhifəliik (səh.204-236) material verilmiş, 15 bənddən ibarət tapşırıq müəyyən edilmişdir. Yaxşı tələbə bir dərs üçün bu tapşırıqdan ikisini-üçünü icra edə bilər, çünki hər dəfə həmin 33 səhifəni və ya "Kitabi-Dədə Qorqud"dan 40 səhifəni nəzərdən keçirməlidir və elə bu materialın içərisindən fakt axtarmaq böyük vaxt tələb edəcəkdir. Ona görə də yaxşı olardı ki, hər bir tapşırıq üçün konkret, balaca və səciyyəvi mətnlər nəzərdə tutula idi.

12.Əsərdə texniki qüsurlar çoxdur. Məsələn, əsərin sonunda verilmiş sual və tapşırıqların bir çoxunu (23, 150, 151 və s.) qədim abidələrə nisbətən daha çətin başa düşmək olur. Üslub xətaları (səh.106-da 9-cu bənd və s.) vardır...

Biz bu ilk təşəbbüsü qiymətləndirir və onun filologiya fakültələri üçün dərs vəsaiti kimi çap olunmasını faydalı hesab etdiyimizi bir daha qeyd edirik.

B.Əhmədov, A.Abdullayev. «Azrbaycan dili» (rus məktəbi, 5-ci sinif) 06.09.1982

163 səhifədən ibarət olan bu dərslik bir tədris ili ərzində keçilməsi nəzərdə tutulan 60 dərsi əhatə edir. Dərslik pedaqogika, psixologiya və filologiya elmlərinin tələb və prinsipləri əsasında tərtib edilmiş, 5-ci sinif şagirdlərinin yaş və bilik səviyyəsinə uyğun qurulmuşdur. Müəlliflər əvvəlki üç ildə - II, III və IV siniflərdə öyrənilmiş fonetik, leksik və qrammatik minimumu genişləndirmək, zənginləşdirmək və eyni zamanda vərdişə çevirmək üçün dərslik üzərində ciddi işləmiş, nitq inkişafı məsələlərinə xüsusi diqqət yetirmişlər. Şagirdlərin dünyagörüşünü geniş-

ləndirmək, əlavə məlumatla onların biliyini zənginləşdirmək prinsipini ardıcıl olaraq rəhbər tutmuşlar.

Tərtib edilmiş mətnlər öyrədici xarakterdədir, yığcam və səlis cümlələrdən ibarətdir, asan və oxunaqlıdır.

Leksik minimum aşağı siniflərdə öyrənilənlər nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Şagirdlər üçün zəruri leksik-frazeoloji material seçilmiş, ünsiyyət üçün daha çox ehtiyac duyulan dil vahidlərinə üstünlük verilmişdir.

Şagirdlərin əvvəlcədən tanış olduğu qanunların və qrammatik qaydaların praktik yolla, müxtəlif çalışma və tapşırıqlar vasitəsilə dərinləşdirilməsi məsələsi müəlliflərdən xüsusi səy tələb etmişdir. Şagird psixologiyasını nəzərə almaqla, uzun-uzadı və maraqsız çalışmalarla onları yormaq "ənənəsi" bu dərslik üçün səciyyəvi deyildir.

Canlı nitqə, danışığa üstünlük vermək, qrammatik qaydaları əzbərlətmək yox, canlı dili mənimsətmək müəlliflərin əsas məqsədi olduğundan dərslikdə həyatın çox müxtəlif sahələrini əhatə edən dialoqlar tərtib edilmişdir. Sözlər də, ifadələr də, qrammatik qaydalar da bu dialoqların vasitəsilə asanlıqla mənimsənilə bilər.

Dərsliyin sonunda leksik minimumla yanaşı, "Danışıq məşğələləri üçün materiallar", "Şəkil üzrə söhbət üçün materiallar", "Əlavə oxu üçün materiallar", "Müraciət formaları" verilmişdir ki, bunlar onun praktik dəyərini xeyli artırır. Dərslik Azərbaycan dilini praktik şəkildə mənimsətmək, öyrətmək baxımından geniş imknalara malikdir. Dərslikdə yeniliklər çoxdur.

Şübhəsiz, dərsliyin kiçik qüsurları da var:

1.*Dovşan balası, musiqi alətləri, məktəbyanı sahə, siyasi iş* birləşmələri leksik vahid kimi verilmişdir. İkinci sinifdən başlayaraq öyrədilən bəzi morfemlər də söz kökü ilə birlikdə nəzərdə tutulur: *necəsən, ağızlarda* və s.

2.Bəzi mətnlər zəifdir (8-ci dərsdə tarixlər sadalanır). Bir sıra dərslərə aid çalışmalar çox bəsitdir, azdır (çalışma 257-266 və s.).

3.Fel haqqında məlumat sonra verildiyi halda, gələcək zaman formaları, nədənsə, qabağa düşmüşdür (s.20), həm də gələcək zaman indiki zamandan əvvəl verilmişdir.

4.Səh.29-da təyinin tərifi düz deyil (sifətin tərifidir); səh. 31-də zərflik haqqında məlumat çox bəsitdir; səh. 64-də başdakı izahda "çoxhecalı" sözü olmalı idi; səh. 86-da yiyəlik hal şəkilçisinin artırılması məsələsi dəqiqləşdirilməlidir; səh. 104-də sifət haqqında ikinci abzas başa düşülmür.

5.Dərslikdə artıq sözlər (səh.4, çal. 4-ün izahı), durğu işarəsi səhvləri, texniki qüsurlar nəzərə çarpır. Bəzi şeirlərin və hekayələrin müəllifi qeyd edilməyib (səh. 74 və s.).

Dərslik çap üçün hazırdır və onun çap olunması rus məktəbinin şagirdləri üçün faydalı olar

Təlimi rus dilində olan məktəblərin II-X siniflər üçün "Azərbaycan dili proqramı" (II sinif) 02.12.1982

1.Proqramda nitq inkişafı üçün nəzərdə tutulan təxmini mövzular qənaətbəxşdir. Mövzuların ailə, məktəb, təbiət və insan əməyi, bayram şənlikləri, vaxt, saat, günlər, vətən və sair kimi zəruri məsələləri əhatə etməsi dərslik tərtibi işini təkmilləşdirmək baxımından faydalıdır. Buraya musiqi alətləri və s. kimi məsələləri də əlavə etmək olardı, lakin başlıqdakı "təxmini" sözü bu cür başqa zəruri mövzulara imkan yaradır.

2.Bizcə, nəzərdə tutulan leksik minimumun hüdudu (150-200; dili yaxşı bilənlər üçün: 200-250) kifayətdir və ilk sinifdə - ikinci sinifdə bu qədər yeni sözün öyrədilməsi norma sayıla bilər.

3.Nəzərdə tutulan qrammatik material təminedicidir. II sinif şagirdlərinə bundan artıq qrammatik məlumat vermək lazım olmadığı kimi, bundan az məlumat vermək də olmaz. Proqram tərtib edilərkən orta həddə düzgün müəyyənləşdirilmişdir.

4.Proqramda şagirdlərin bacarıq və vərdişlərinə verilən tələblər də kifayət qədər əsaslandırılmışdır. Burada dinləyib-anlama, danışma, oxu və yazı üzrə şagirdlərin il boyu qazanmalı olduğu ümumi bacarıq və vərdişlərin hüdudu əhatə olunmuşdur. Bunlar müvafiq sinif üçün dərsliyin ümumi keyfiyyəti ilə həmahəngdir.

Bu hissədə, bizcə, cüzi düzəlişlərə də ehtiyac olacaqdır. Bəzən tərtibçi ümumən sinfə aid ola bilən cəhəti yalnız Azərbaycan dilini yaxşı bilənlərə aid etməklə məhdudlaşdırmışdır (Bu cür hallar, məlumdur ki, proqramda xüsusi işarə ilə qeyd edilir): a) dinləyib-anlama üzrə deyilir: "Azərbaycan dilinə məxsus sait və samit səsləri bir-birindən ayırmağı" bacarmalıdır - bu, şagirdlərin hamısına aid olmalıdır; b)oxu üzrə qeyd edilir: sözləri hecalarla (*co-rab, cü-cü*) oxumağı bacarmalıdır; v)habelə oxu üzrə qeyd edilən: tələffüz normalarına, intonasiyaya və vurğuya riayət edərək kiçik mətnləri oxumağı bacarmalıdır - tələbi də bütün şagirdlərə aid edilə bilər.

Ümumilikdə götürdükdə, proqram hazırkı tələbata uyğundur. Biz proqramın təsdiq və çap edilməsini münasib sayırıq.

M.Şirəliyev, M.Hüseynzadə, Q.Kazımov. «Azərbaycan məktəbinin VII-VIII sinifləri üçün «Azərbaycan dili» dərsliyi» *Müəllif sözü.* Dekabr, 1982

Biz dərsliyi, demək olar ki, 80-90 faiz yeniləşdirmişik. Respublika Mətbuat Komitəsinin yoxlamasına əsasən 95 faiz təzələnmişdir.

1.Mövcud (istifadədə olan) dərslikdə verilmiş tərif və qaydalar dəqiqləşdirilmiş, səlisləşdirilmiş və onların məfhumun əsas əlamətlərini ifadə etmə gücü artırılmışdır.

2.Proqram üzrə bütün nəzəri məlumat yenidən işlənmiş, nöqsanlardan təmizlənmiş, elmin son nailiyyətləri əsasında dəqiqləşdirilmiş, ayrı-ayrı detalların izahında sistem yaradılmışdır. Nəzəri məlumat bir qədər yığcam verilmiş, sadələşdirilmiş, proqram üzrə nəzərdə tutulmayan materiallar ixtisar edilmişdir.

3.Yeni proqramın tələblərinə uyğun olaraq, ilk dəfə cüttərkibli cümlələr, təktərkibli cümlələr, bağlayıcı sözlər, baş cümlədə müəyyənləşən sözlər və s. haqqında məlumat verilmiş və bir sıra mövzular yenidən işlənmişdir.

4.Dərslikdə çalışmalar sistemi tamamilə yenidən qurulmuşdur. Mövcud dərslikdə ayrı-ayrı mövzular üzrə çalışmalar nisbətən az, həcmcə böyükdür, lazımi dil faktları isə seyrəkdir. Müəllimlərin şikayətləri əksərən çalışmaların təminedici olmaması ilə bağlıdır. Buna görə də dərslik yenidən işlənərkən çalışmaların həcmi nisbətən kiçildilmiş, onların rəngarəngliyinə, nəzəri məlumatın ayrı-ayrı detallarını əhatə etməsinə diqqət yetirilmişdir. Misallar artıq sözlərdən təmizlənmiş, cümlələr sadələşdirilmiş, lazımi faktların zənginliyinə daha çox diqqət yetirilmişdir. Nəzəri məlumat işlənərkən köhnəlmiş, on illərlə təkrar olunan misallar yeniləri ilə əvəz olunmuşdur. Çalışmalara aid əlavə tapşırıqlarla şagirdlərin praktik işini daha da dərinləşdirmək nəzərdə tutulmuşdur.

5.Nümunə-misallar ənənəvi olaraq daha çox bədii üslubdandır. Lakin yeni dərslikdə əvvəlkindən fərqli olaraq, elmi və publisistik üslublardan da bütün bəhslər üzrə nümunələr verilmişdir.

6.Mövcud (əvvəlki) dərslikdə dil materialı 30-40-cı illərin ədəbiyyatından götürülmüşdür. Yeni dərsliyin dil materialı 60-70-ci illərin əsərlərindəndir və dilimizin hazırkı quruluşuna daha müvafiqdir.

7.Dərslikdə ilk dəfə olaraq, 20-yə qədər şəkil verilmişdir, bunlar sintaksisin öyrənilməsi ilə yanaşı, şagirdlərin ümumi dünyagörüşünə də təsir edəcəkdir.

8.Əvvəlki dərslikdən fərqli olaraq, yenidən işlənmiş bu kitabda yeni təhlil qaydaları, xeyli sxem verilmişdir ki, bunlar materialın praktik şəkildə dərk olunmasına və ümumiləşdirilməsinə kömək edəcəkdir.

V.İ.Lenin ad. APİ. Dos.Ə.Şükürov. «Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi» DD (birinci müzakirə). 26.12.1982

Köməkçi nitq hissələrinin yaranma və inkişaf yolu barədə fikir söyləmək, həm də bütün köməkçi nitq hissələrini bir sistem şəklində təd-

qiq etmək, öyrənmək həqiqi elmi iş üçün tələb olunan səbr və mətanətdən əlavə, ümumi nəzəri hazırlıq, çətin və mürəkkəb mənbələrdən istifadə edə bilmə, faktlardan tarixi inkişaf izlərini ayıra bilmə, ümumiləşdirmə qabiliyyəti, gərgin əmək və yaradıcılıq tələb edir. Dos.Ə.Şükürov bu xüsusiyyətlərə malik olan yoldaşdır. Dissertasiyadakı əməyi, saysız-hesabsız elmi-nəzəri mənbələrə yaradıcı-tənqidi münasibəti, toplayıb təhlil etdiyi zəngin dil materialı onun bu cür imakanlarını bir daha əyaniləşdirir.

Köməkçi nitq hissələri az öyrənilmişdir. Bu sahə tarixi aspektdə daha az tədqiq olunmuşdur. Çünki köməkçi nitq hissələrinin təşəkkül və formalaşma, inkişaf tarixi maraqlı olduğu qədər də çətindir, mürəkkəbdir. Az-az tədqiq olunmuş müxtəlif kateqoriyaları birləşdirmək, ümumiləşdirmək və iri monoqrafik əsər yaratmaq vaxtı çoxdan çatmışdı. Bu boşluğu dosent Ə.Şükürovun əsəri, şübhəsiz, doldurur.

Əsər işin ümumi xarakteristikası, giriş və üç fəsildən ibarətdir. Qayda üzrə ümumi nəticələr, şərti ixtisarlar və kitabiyyat da verilmişdir. Bu başdan qeyd edə bilərik ki, kitabiyyat çox zəngindir, müəllif mövzu ilə bilavasitə və dolayı yolla əlaqədar olan bütün əsas ədəbiyyatı nəzərdən keçirmişdir, ona görə də əsər, demək olar ki, hər bir qoşma, ədat, bağlayıcı haqqında söylənmiş fikirləri bir mənbə kimi yığcam şəkildə özündə cəmləşdirmişdir.

Türk dillərində köməkçi nitq hissələrinin öyrənilməsi metodlarına həsr olunmuş girişdə ən qədim nəzəri mənbələrdən başlamış bu günə qədərki əsas ədəbiyyat diqqətlə nəzərdən keçirilmiş, qoşma, bağlayıcı və ədatlar haqqında söylənmiş fikirlər təhlil edilmişdir. Müəllifin bu prosesdə gəldiyi ümumi nəticələr onun yolunu aydınlaşdırır. Lakin müəllif bununla da kifayətlənməmiş, hər bir köməkçi nitq hissəsindən ayrıca bəhs edərkən yeni çıxarışlarla öz fikrini əsaslandırmalı olmuşdur. Bütün bunlar əsəri təsvirçilikdən uzaqlaşdırır, onun nəzəri səviyyəsini yüksəldir. Qohum dillərlə aparılan müqayisələr ayrı-ayrı köməkçi sözlərin inkişaf yolu barədə təsəvvürü daha da dərinləşdirir və genişləndirir.

Müəllifin tədqiqatı belə bir mülahizəni bir daha təsdiq edir ki, qoşmalar daha qədim, bağlayıcılar nisbətən sonrakı dövr yaranış xüsusiyyətlərinə malikdir. Şumer dilində rast gəldiyimiz ***qim, qimi*** (kimi) qoşması bu fikri təsdiq edə bilən bir faktdır. İlkin qoşmalar, törəmə qoşmalar, xalis Azərbaycan-türk sözlərindən və alınma sözlərdən ibarət olan, adlardan və fellərdən əmələ gələn qoşmalar, ismin müxtəlif halları ilə əlaqələnən, adlarla adlar və adlarla fellər arasında əlaqə yaradan qoşmalar - qoşmaların tədqiqi işini hərtərəfli aparmaq üçün bunlar zəruri idi və ona görə də müəllif bütün bu məsələləri birinci fəsildə araşdırmışdır.

Ə.Şükürov ədatları, modal sözləri, bağlayıcıları da bu şəkildə diqqətlə tədqiq etmişdir.

Əsər ümumilikdə gərgin yaradıcı əməyin məhsuludur və doktorluq dissertasiyasının tələblərinə tam müvafiqdir. Əsərin əsas hissələri çap olunmuşdur.

Biz əsərin müdafiə üçün tam hazır olduğunu qeyd edərək, aşağıdakıların dəqiqləşdirilməsini istərdik:

1.Bəzi qədim mənbələrdən (nəzəri ədəbiyyatdan) müəllifin dolayı yolla istifadəsi şübhəsizdir (1612, 1680 və s. illərdə çıxan kitablar); müəllif ikinci mənbəni də qeyd edə bilərdi.

2.Səh.20-nin yuxarı hissəsində verilənlərin hamısını bağlayıcı söz adlandırmaq olmaz (***nə-nə, çünki*** bağlayıcıdır, ***sanki*** modal.s.).

3.Bəzən müəyyən bir dil faktı haqqında müxtəlif fikirlər söylənir, sonda müəllif mülahizəsi bilinmir və ya çox zəif ifadə olunur. Bu hal qoşmalarda daha çox nəzərə çarpır. (Məs.: səh.101-də ***ötrü*** qoşması haqqında və s.)

4.Səh.109, 110-da: ***kərrə, gəz*** sözləri qoşma deyil; səh 11-də ***suy*** qoşmasının misalı yoxdur.

5.Səh.140-da ilk cümlədə: "не способны" yox, "достаточно не способны" yaxşı olar.

6.***Azu, qü, ok*** (səh.141) bizim dilə aid olmadığı üçün səhifənin aşağısında verilə bilərdi.

7.***Əlqissə*** - həm ədat, həm də modal söz kimi verilir. ***Qoy, gör, məgər*** modal söz yox, ədatdır.

8.***Ki*** ilə bağlanan xəbər, t/h, zaman, nəticə b. cümlələri yoxdurmu?

9.***Bu səbəbdən, ol cəhətdən, ol səbəbdən*** - sözləri olan cümlələr səbəb yox, nəticə b. cümləleridir.

10.***Kim ki*** (və variantları) bağlayıcı sözündə ***ki*** bağlayıcı yox, ədatdır.

S.M.Kirov ad. ADU. Dos.S.Əlizadə. «Azərbaycan ədəbi dili tarixindən praktikum»
27. 12.1982

Füzulinin şeir dilinə həsr olunmuş 83 səhifəlik bu əsər yığcam girişdən, müxtəlif mətnlərdən, onların lüğətindən və şərhindən ibarətdir. "Bir neçə söz" - praktikumun tərtibi üsuluna, Füzuli sənətinin böyüklüyünə həsr olunmuşdur.

Əsərdə 30-a yaxın qəzəlin, 9 qitənin, 3 rübainin və 18 beytin şərhi verilmişdir.

Müəllif Füzuli əsərlərinin 1958-ci il nəşrinə əsaslansa da, qəzəlləri, qitə, rübai və beytləri şairin qədim əlyazma nüsxələri ilə yoxlamış, texniki qüsurlarını düzəltmiş, qəzəllərdə ayrı-ayrı beytlərin yerini dəqiqləşdirmişdir.

Hər bir qəzəlin, rübainin, qitənin ardınca onun lüğəti - alınma və arxaik sözlərin izahı verilmişdir.

Məlumdur ki, Füzuli əsərlərinin şərhi çox çətin məsələdir. Şairin qəzəllərinin düzgün şərhi filoloq alimdən çox böyük hazırlıq tələb edir; bunun üçün şairin yaşadığı dövrün (və ondan çox-çox əvvəllərin) fəlsəfəsini, ictimai-siyasi həyat tərzini, dini, etnoqrafiyanı, saysız-hesabsız qədim Şərq əfsanələrini, kökü üç-dörd min il əvvələ gedən hadisələri bilmək, sözün məcazilik imkanlarından, poetik dilin xüsusiyyətlərindən kamil şəkildə baş açmaq tələb olunur. Əks təqdirdə tədqiqat Füzulinin saxtalaşdırılmasına, bəsitləşdirilməsinə, Füzuli dərinliyinin, Füzuli eyham və işarələrinin itirilməsinə və nəticədə süni surətdə Füzulinin "müflisləşdirilməsi"nə aparıb çıxara bilər.

Samət Əlizadənin şərhləri başlanğıcdan - bir-iki qəzəlin şərhi ilə tanışlıqdan sonra bu qorxunu aradan qaldırır. Aydın olur ki, müəllif (S.Əlizadə) Füzuli sənətinin həqiqi şərhini vermək imkanına qabil olan bir alimdir. O, həqiqətən Füzulini duyur və bu duyğunu, Füzuli fikrini başqa şəkildə, başqa bir dil ilə oxucuya çatdıra bilir.

S.Əlizadənin şərhləri Füzuli istəyini uğurla ifadə edə bildiyindən bu əsəri müvəffəqiyyətli saymaq olar. Ona görə də bu əsərdən yalnız Azərbaycan Dövlət Universitetinin tələbələri deyil, bütün pedaqoji institutların tələbələri, orta məktəbin dil-ədəbiyyat müəllimləri, gənc elmi işçilər və bütün Füzuli pərəstişkarları faydalanacaqdır.

Doğrudur, qəzəlləri müəllifin hansı prinsipə əsasən seçdiyi məlum deyil (müəllif ədəbi dil tarixi proqramını, orta məktəb proqramını və s. əsas götürə bilərdi), lakin ümumən yaxşı qəzəllər seçmişdir. Bəlkə də Füzulidə pis qəzələ rast gəlmək mümkün deyil, lakin "yaxşı" dedikdə biz rəngarəngliyi nəzərdə tuturuq - 20 -30 qəzəllə müəllif Füzuli sənəti haqqında, Füzuli dilinin poetik imkanları haqqında geniş təsəvvür yarada bilmişdir. Qitələr, rübailər, beytlər də belədir.

Nömrələnmiş beytlərin ardıcıl şərhi və bu işin ayrı-ayrı qəzəllər üzrə davam etdirilməsi Füzulinin fikir silsiləsini, Füzuli sənətinin hamı tərəfindən etiraf olunan böyüklüyünü dərk etməyə kömək edir.

Ərəb, fars mənşəli çətin sözlərin, izafət tərkiblərinin, arxaik söz və ifadələrin bilavasitə mətnin ardınca verilməsi, şübhəsiz, oxucunun işini asanlaşdırır, müqayisələr aparmağa, şərhləri obyektiv şəkildə qəbul etməyə imkan yaradır.

Bizdə, hələlik, bu şəkildə hazırlanmış praktikum birincidir: mətnlər, onların lüğəti və dəqiq şərhi. Müəllifin məharəti də bu şərhlərdədir, auditoriya üçün bunlar çox faydalıdır. Lakin burada ənənəvi praktikumlar üçün xarakterik olan çalışma və suallar, ədəbiyyat yoxdur.

Lüğətdə bir çox sözlərin təkrarını müəllif özü görüb qeyd etmişdir. Bu, ümumən texniki cəhətdən qüsur olsa da, oxucunun xeyrinədir, lakin təfəkkürü aktuallaşdırmaq yox, avtomatlaşdırmaq baxımından faydalıdır.

Həm də burada ərəb, fars və türk mənşəli sözləri müəllif şərti işarələrlə çox asanlıqla ayıra bilərdi (bu, indi də gec deyil).

Lüğətdə sözlərin çox zaman mətni mənası, məcazi mənası, məna çalarları nəzərə alınmışdır. Az hallarda diqqətsizlik də müşahidə olunur (***hübab*** - "köpük qabarcığı", başqa şeirdə: "köpük", "qabarcıq" - bu sonrakı düzdür; ***təqsir*** - "qüsurlu", "nöqsan" - biri isim, biri sifət və s.).Çox zaman müəllif ən incə eyhamları da tuta bilmişdir:

Məni qərarım ilə qoymaz oldun, ey gərdun.
Yeridir ahim ilə versəm inqilab sana –

beytini nəsrlə düzgün vermişdir: *Ey fələk, məni öz istəyimlə qoymadın; səni öz ahımla devirsəm, yeridir*. Lakin şərhdə ikinci misranı: *Mən ahımın yeli ilə sənin çarxını fırlatmaqda haqlıyam* - şəklində fərqli izah etmiş, inqilabın nə şəkildə, hansı vasitə ilə icra olunduğunu da izah etmişdir. (səh. 4-6).

Doğrudur, qədim elmlərə daha dərindən bələd olmaqla, Füzəli qəzəllərinin şərhini daha da dərinləşdirmək olar. Lakin indiki halda müəllifin şərhləri tam qənaətbəxşdir. Bunlara irad tutmaq, onların şərhini bundan artıq genişləndirmək çətindir. Çox az hallarda müəllifin şərhinə etiraz etmək olur:

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim! –

beytində *əmanət al* - sözləri ilə nəyin nəzərdə tutulduğu bilinmir və izah edilmir. Bu şerin birinci beyti: *Ey həkim, canımda gizli bir xəstəlik var, amandır, gizli dərdimi xalqa bildirmə* - şəklində izah olunur; Füzuliyə bələd olmayan oxucu bunu əməlli xəstəlik kimi başa düşə bilər, çünki şairin dediyi "eşq" sözü, "eşq dərdi" burada xatırlanmır.

Gəl mənim tədbiri-bihudəmdə sən bir sə`y qıl - misrasını*: Sən gəl mənim hədər tədbirimi artır, ey həkim, çalış ki...* şəklində izah edir, halbuki artırmaq söhbəti yoxdur, *səy qıl - səy elə.*

Son beytdə (*Rənc çəkmə, sihhət ümmidin*…) "q*əbuli-sihhət etməz"* sözləri - "sağala bilməz" kimi izah edilir, burada bir obyektivlik var; Füzuli dediyində isə xəstənin sağalmaq istəməməsi kimi subyektiv münasibət duyulur.

Bu cür mübahisə doğura bilən şərhlər yenə göstərmək olar. Lakin yığcam şərhdə təbii olaraq hər şeyi ifadə etmək həmişə mümkün olmur.

Əsərin girişi çox yığcam və tutarlı yazılmışdır. Lakin burada praktikumun hazırlanmasının məqsədi, beytlərin, qəzəllərin, qitə və rübailərin seçilmə prinsipi, əsərin kimlər üçün nəzərdə tutulduğu barədə də

məlumat vermək olardı. Ciddi elmi dil ilə yazılmış bu girişdə: "Bu kitabça Füzuli gülüstanından bağlanmış kiçik bir dəmət olub", "çətin sözlərin üzündəki pərdənin götürülməsinə", "Füzuli dəryadır! Həmin sətirlərin müəllifi bu dəryadan ovcu tutduğu qədər götürmüşdür!" kimi Füzulinin öz təsiri ilə yaranmış, daha çox gənc olanlara xoş gələ bilən cümlə və ifadələr də vardır.

Bu cür cüzi nöqsanlara baxmayaraq, müəllif çox diqqətlidir. Əsərdə artıq söz və ifadələrə, üslub nöqsanlarına rast gəlmək çətindir. Əsər mühüm tədris əhəmiyyəti ilə yanaşı, Füzuliseverlərə qiymətli hədiyyə olacaqdır.

Bütün bu cəhətlərini nəzərə alaraq, onun çap olunmasını faydalı hesab edirəm.

Ə.Abbasov, Ş.Qaralov. «Azərbaycan dili» (gürcü məktəbinin IV-V sinifləri üçün) dərsliyi 02.05.1983

Dərslik ilk təşəbbüs kimi qiymətlidir. Müəlliflər onun hazırlanması üçün zəruri tələbləri məsuliyyətlə nəzərə almışlar.

Dərslikdə öyrədilməsi nəzərdə tutulmuş leksik minimum qənaətbəxş müəyyənləşdirilmişdir. Tərtibat zamanı zəruri ümumişlək leksik vahidlər seçilmiş və onların öyrədilməsi üçün mətn və tapşırıqlar vasitəsilə təkrarına kifayət qədər diqqət yetirilmişdir. Beləliklə, leksik minimumun kəmiyyət və keyfiyyətində ümumi tələblərə uyğunluq vardır.

Əsas mətnlər də pis seçilməmişdir. Həyatın müxtəlif sahələrinə aid zəruri öyrənilməli fakt və hadisələrin, milli və beynəlmiləl keyfiyyətlərin tədrisi ruhunda tərbiyə məsələsi dərslikdə ön plandadır. Xüsusən şifahi nitq vərdişləri üçün dialoqlardan geniş istifadə diqqəti cəlb edir.

Dərslikdə nəzərdə tutulmuş çalışmalar sistemi də elmi-pedaqoji prinsiplərə əsaslanır. Əsas mətnin məzmununun və qrammatik materialın mənimsədilməsi üçün təqribən eyni sistemli 9-a qədər çalışma verilmişdir. Çalışmalarda gürcücə-azərbaycanca və əksinə tərcümələr dilin praktik mənimsədilməsi üçün mühüm rol oynayacaqdır. Dili yaxşı bilənlər üçün sistemli şəkildə nisbətən çətin çalışmalar tərtib edilmişdir.

Dərslikdə əyaniliyə xüsusi diqqət yetirilmişdir.

Hər sinif üçün 30 dərs müəyyən edilmiş, ayrı-ayrı dərslər sadə və yığcam, yaş səviyyəsinə uyğun şərh edilmişdir.

Dərsliyi ümumi tələblərə əsasən hazır hesab etmək olar.

Lakin dərslikdə dəqiqləşdirilməsinə ehtiyac duyulan bir sıra məsələlər vardır ki, bunların bir qismi redaktə prosesində, bir qismi isə müəlliflər tərəfindən asanlıqla aradan qaldırıla bilər.

1.Yaxşı olar ki, dərsliyin sonunda yeni öyrədilən sözlərin lüğəti verilsin. Bu lüğət leksik minimuma nələrin daxil olduğunu daha əyani göstərərdi.

Bəzən yeni söz öyrədilməsində nisbət düzgün gözlənməmişdir. Bəzi dərslərdə yeni söz azdır, bəzilərində isə çox (məsələn, 4-cü paraqrafda balaca bir mətndə birdən-birə 15 söz, 6-cı paraqrafda 12 söz və s.).

2.Əsas mətnlər, dediyim kimi, pis deyil. Lakin elmilik, öyrədiçilik və emosionallıq nisbətən zəifdir. Hətta bu cəhətdən 9-cu çalışmalarda dili yaxşı bilənlər üçün nəzərdə tutulan mətnlər daha təsirlidir.

Digər tərəfdən, burada bir çətinlik hiss edirəm. Əsas mətnlərdə verilmiş bir sıra yazılar («Əllər nə üçün lazımdır?», «Keçi», IV s. «Uşaq və buz» və s.) məktəbəqədər xarakterlidir. Söz, dil öyrətmək üçün olar, amma məzmunca çox ibtidaidir. 4-5-ci siniflər üçün gecdir. Ümumən bu cür ibtidailik bütün əsas mətnlərdə var.

Dərsliyin tərtibində Azərbaycan və rus məktəbi üçün dərsliklərin materiallarından da istifadə edilib. Lakin burada da ciddi seçim lazım idi. Məsələn, pionerin öz qalstukunu açıb qatarı saxlaması nədənsə təsirlidir, burada bir yenilik ruhu var. Amma qoca arvadı sürüşkən yoldan keçirmək (anandır? xalandır? sualları ilə) lap, nədənsə, adamı darıxdırır.

Səh.31-də «Əllər nə üçün lazımdır?» - əsas mətn, dialoq. Cavablar: top oynamaq üçün, kəpənək tutmaq üçün, çaya daş atmaq üçün. Baba da yekunlaşdırır: «Əllər çox şeyə lazımdır».

Səh. 34-də «Alabaş» mətni: qonşuların xoruzu dalaşır, alabaş ayırır və xoruz onunla dost olur.

26-cı paraqrafın mətni (saat haqqında şeir) çox bəsitdir.

5-ci paraqraf da: «Gülzar hər gün dərsdən gəlir».

C.Cavadlıdan üç şeir.

Lətif Vəliyev – s.199.

H.Z i y a d a n: Bir yerdə dayanmayır.

Əsas mətnlərdə t ə k r a r l a r:

Bakı haqqında iki mətn, üç mətndə Bakı Azərbaycanın paytaxtıdır.

İki sinifdə kosmonavtların təqribən eyni şəkli, eyni məzmunda mətn.

L e n i n haqqında hər iki sinifdə, həm də H.Hüseynadənin «Əziz babamız» – şeiri; s.101, 204.

3.Ə l i f b a haqqında. İlk kitabdırsa, səciyyəvi səslərlə yanaşı, digər hərflər də verilə bilər.

4.Çalışmalarda da qüsurlar var.

S.46-da çalışma 2-nin şərti.

S. 55-də çalışma 3.

Çalışma – sözləri artıqdır.

Əsas mətnə aid suallar çalışma kimi nömrələnməyə bilər.

Çalışmalara əlavə tapşırıqlar görmədim.

5.T ə k r a r dərslər yoxdur.

Bu qüsurları islah etməklə dərsliyi çap etmək faydalı olar.

Nəsimi ad. Dilçilik İnstitütu. İntizar Salehova.
«Müasir Azərbaycan ədəbi dilinin epistolyar üslubu»
ND. 08.05.1983

Epistolyar üslub, başqa sözlə, məktub, məktublaşma üslubudur – şəxsi məktubların dilidir: intim-məişət məktublarının, ədəbi məktubların və şəxsi-işgüzar məktubların.

Bu üslub müəllif və adresat arasında yazılı nitq vasitəsilə əlaqə yaratmaq vəzifəsi daşıyır və bu prosesdə müəlliflə adresat tez-tez yerini dəyişə bilir, monoloji nitq geniş mənada dialoji nitqə çevrilir.

Bu üslub praktik şəkildə ölkəmizdə geniş fəaliyyətdədir. Üslubun ünsiyyət forması kimi əməli əhəmiyyəti böyükdür. Lakin bu üslub bizim filologiyamızda tədqiq edilməmişdir. İntizar xanım Salehova bu mövzunu seçməklə faydalı bir iş görmüş və onu ideya-estetik cəhətdən deyil, bir dilçi kimi, linqvistik baxımdan nəzərdən keçirmişdir.

İşdən alınan ümumi təəssürat belədir ki, müəllif rəsmi tələblər və ümumi qayda əsasında yazmalı olduğu girişə səthi və sadəlövh hökmlərlə başlamışdır. Lakin əsas məsələlərin şərhini nəzərdən keçirərək tədqiqatın gedtikcə dərinləşdiyi, mürəkkəbləşdiyi, müəllifin mövzunun şərhinə cəlb etdiyi faktların zənginliyi oxucunu razı salır, mövzunun aktuallığından doğan xoş əhval-ruhiyyəni müəllifin əməyi artırır. Hiss olunur ki, dissertant bu sahədə zəngin rus dilçilik ədəbiyyatını diqqətlə nəzərdən keçirmiş, onlardan öz məqsədinə uyğun şəkildə istifadə edə bilmişdir. Müəllifin A.Şaiq, C.Məmmədquluzadə, C.Cabbarlı, S.Vurğun və başqa görkəmli sənət adamlarının məktublarından gətirdiyi misallar dil faktı kimi yerinə düşməklə bərabər, ideya-estetik və əxlaqi cəhətdən də düzgün seçilmişdir.

I fəsildə ("Epistolyar uslubun funksional üslublar sistemində yeri") müəllif epistolyar üslubun ədəbi dilin digər üslublarından fərqli cəhətlərini izah etməklə yanaşı, onu bir sıra başqa oxşar üslub nümunələrindən də "təmizləməyə" çalışmışdır. Ona görə də müəllif öz şərhinə "üslub nədir?" sualı ilə başlamış, sonra tədricən epistolyar üslubun xarakter əlamətlərinin izahına keçmişdir. Müəllif rəsmi məktubların, gündəlik və xatirələrin, sənədlərin, rəsmi dövlət və idarə kağızlarının, epistolyar romanların, bədii məktubların, publisistik yazıların, şifahi nitqin... epistolyar üslubla, yəni şəxsi müəllif yazışmaları ilə oxşar və fərqli cəhətlərini ardıcıl şəkildə nəzərdən keçirərək, onları epistolyar üslubdan təcrid etmiş və beləliklə, öz tədqiqat obyektini dəqiqləşdirmişdir. İ.Salehova doğru qeyd edir ki, dil-nitq vasitələrinə görə dilin üslubları qapalı dairəyə malik deyildir, bir üsluba məxsus nitq vasitələri digər üslublarda da işlənə bilir və bununla yanaşı, hər bir üslub üçün səciyyəvi nitq vasitələri də vardır. Lakin, fikrimizcə, funksional üslubları o qədər də xırdalamaq

doğru deyildir. Bəlkə də müəllif öz tədqiqat obektini konkretləşdirmək məqsədi ilə şəxsi müəllif yazışmalarını ayırmış, epistolyar üslubun əhatəsini daraltmışdır. Bəzi tədqiqatçılarda olduğu kimi, epistolyar üslubu bütöv götürüb bir qolunu ayrıca tədqiq etmək olardı.

Disserasiyanın II fəsli epistolyar üslubun kompozisiya - nitq sisteminə həsr olunmuş, müəllif bu hissədə məlumat verən, mühakimə yürüdən və ya lirik xarakterdə olan monoloqların geniş təhlilini vermiş, giriş, əsas hissə və nəticədən ibarət olan məktubların səciyyəvi əlamətlərini müəyyənləşdirmişdir.

Epistolyar üslubun səciyyəvi sintaktik əlamətlərinə həsr olunmuş üçüncü fəsil əvvəlki fəsillərə nisbətən daha çox linqvistik xarakterdədir. Burada birləşmələrin və cümlələrin epistolyar üslubda rolu və xarakteri şərh olunmuşdur.

Beləliklə, barinci fəsil epistolyar üslubun başqa üslub və nitq vasitələrindən fərqini, ikinci fəsil quruluşunu, üçüncü fəsil sinaktik xüsusiyyətlərini əhatə edir. Hər fəslin sonunda müəllif ümumiləşdirmələr aparmış və inandırıcı nəticələr əldə etmişdir.

Dissertasiyanın kitabiyyatı zəngindir.

Əsər namizədlik dissertasiyasının tələblərinə tam cavab verir, müəllifin bir tədqiqatçı kimi yetişdyini sübut edir.

Dissertasiyada mübahisə doğura bilən cəhətlər də vardır.

I."Giriş"i bir qədər səlisləşdirmək, dərinləşdirmək yaxşı olardı. Burada bir sıra cümlələr bir-birini inkar edir: "epistolyar uslubun mövcudluğu məsələsi bir neçə il müddətində mübahisə mövzusu olmuşdur" (s.1); "müstəqil üslub kimi varlığına şübhə ilə yanaşan yoxdur" (s.2); məqsəd "onun müstəqil üslub kimi mövcudluğunu təsdiq etməkdir" (s.2); "Axırda bu nəticəyə gəlinir ki, Azərbaycan ədəbi dilində epistolyar üslub müstəqil surətdə mövcuddur" (s.3); "Biz də, təbii ki, ikinci qrup dilçilərin mövqeyində duracaq və epistolyar üslubun xarakterik əlamətlərini mümkün dərəcədə açıb göstərəcəyik. Bu isə bir qədər çətindir" (s.9) və s. “Ketsba nədənsə rəsmi məktubları da epistolyar üsluba daxil edir" (s.-12).

2.III fəsildə sadə birləşmələrə verilən misallar epistolyar üslub üçün o qədər də səciyyəvi deyil.

Üçsözlü mürəkkəb birləşmələr qarışıq izah olunur. Məsələn, müəllifə görə, "Azərbaycan xalqı içərisində" birləşməsində "Azərbaycan xalqı” təyin edən qrup, "içərisində" təyin olunandır.(s.87) Yaxud: "M.İbrahimovun S.Vurğuna məktubu" birləşməsində ilk iki söz həmcins üzvlər kimi üçüncünü təyin edir (s.88) "Mənim suallarım, etirazlarım" birləşməsində “sonrakı iki həmcins üzv" (4 edər) birinci sözlə təyin olunur (s.89) və s. Bu sxemlərdə nöqsanlar olsa da, müəllifin zəhməti çoxdur.

3.Son fəsildə söz birləşmələrinin quruluş xüsusiyyətləri öyrənildiyi halda, cümlənin epistolyar üslubda emosional cəhətləri, məqsəd və intonisiyaya görə növləri tədqiq edilir ki, burada da bir yarımçıqlıq var.

Yazıçı-jurnalist Məmməd Şəkili Çələbiyev.
«Mən on birinci stolam (povestlər)»
14.09.1983

464 səhifəlik (makina yazısı ilə) bu kitab "Mən on birinci stolam", "44-cü ilin bir yay günü", "Güləsər" povestlərini əhatə edir.

Povestlərin mövzusu, yazıçı istəyini əks etdirən problemlər aktualdır - hazırkı dövrdə cəmiyyəti düşündürən məsələlərdən, sosializm quruculuğu ilə bağlı böyük yeniliklərdən, inkişaf prosesində irəliləyişimizə mane olan əngəllərdən həqiqi yazıçı ustalığı ilə söz açılmışdır.

Mövzular rəngarəngdir. "44-cü ilin bir yay günü" və "Güləsər" povestlərinin mövzusu kolxoz və kənd həyatı ilə bağlı olduğundan bir qədər yaxındır. "Mən onbirinci stolam" povesti isə mövzu cəhətdən fərqlənir. Bu son povestdə əskər həyatı, əskər həyatı ilə bağlı bir təsadüf və həmin təsadüfdən doğan böyük məhrumiyyətlərə dözən insan iradəsi, xalqlar dostluğu, yaxşı insanların birliyi və xeyirxahlığı qələmə alınmışdır.

Əhsən müəllimin oğlu Vüqar əskəri borcunu yerinə yetirərkən ehtiyatsızlıq edir və tankla bronavik maşının arasında qalır, sol qıçı dizdən xeyli yuxarıdan qırılır, bədəni bərk əzilir, çoxlu qan itirir. Bir ay Naxçıvanda, altı ay Yerevanda hərbi xəstəxanada yatmalı olur. Nəhayət, o, qayğıkeş insanların - azərbaycanlı Hidayət və Duvangir qardaşlarının köməyi, qayğısı sayəsində sağalıb ayağa qalxır.

Povestin məzmununun bu cür qısa olmasına baxmayaraq, müəllif süjetin ümumi inkişafı prosesində çox mühüm hadisələrə toxuna bilmiş, mühüm insani keyfiyyətlərin təsviri zamanı cəmiyyətdə kök salmış bir çox yaramaz cəhətlərin real və kəskin tənqidini vermişdir.

Vüqar son dərəcə dözümlü, möhkəm iradə sahibi, nikbin, zarafatcıl və gülərüz bir gəncdir. Eyni zamanda ədalətsizlik gördükdə tez alınır, dərhal təbdən çıxır. Elə ən yaxşı keyfiyyətlərindən biri bir çoxları kimi "əşi, mənim nə işimə" deyə murdar hadisələrə göz yuma bilməməsidir. Sözün düzünü deməkdən çəkinmir, qəbul imtahanı zamanı gördüyü qeyri-obyektiv münasibəti nifrətlə müəllimin üzünə çırpır. Dilini saxlamağı bacarmadığı üçün başqa sahələrdə də onun işi gətirmir və könüllü surətdə ordu sıralarına getməli olur. Namuslu bir gənc olmaqla yanaşı, həm də mərddir, qoçaqdır, çətinlikdən, ağır gündən, dəhşətli əzablardan çəkinmir, qorxmur, ağlayıb-sıtqamır, anasını-atasını kövrəltməmək üçün ağır cərrahiyyə əməliyyatları altında səsini çıxarmamağa çalışır; altı ay çarmıxa çəkilmiş vəziyyətdə arxası üstə qalır, sınıq qıçından neçə pudlarla daş asırlar, lakin o, təbdən çıxmır, insan qüvvəsinin dözə biləcəyi son həddə qədər dözür.

Vüqarın atası və anası - Əhsən və Mina da heyrətamiz dərəcədə dözümlü insanlardır. Onlar yeddi ay növbə ilə çox vaxt çarpayı əvəzinə kətillərin üstündə Vüqarla yanaşı yatır, onun əzablarını bütün varlıqları ilə daşımağa, azaltmağa çalışırlar, pərvanə kimi onun başına fırlanırlar. Eyni dərəcədə səmimi və mehriban olan bu ata-anadakı böyük iradə heyrət doğurur. Həkim Lida Vladimirovna da Vüqarın ata və anasından geri qalmır, gecəsini gündüzünə qataraq Vüqarın sağalması üçün əlindən gələni əsirgəmir.

Povestdə Sovet xalqlarının dostluğu, sovet adamlarının iradə və mətanəti, çətin anlarda məhrumiyyətlərə dözmək, çətinliklərlə birlikdə mübarizə aparmaq əzmi, nikbinliyi və s. kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər qabarıq şəkildə təsvir edilmişdir.

"Qırx dördüncü ilin bir yay günü" povestində müharibə dövründə arxa cəbhədə meydana çıxan çətinliklər və bu çətinliklərin nəticələrinin hələ 30 il sonra da özünü göstərdiyi təsvir edilmişdir.

Pedaqoji məktəbin son kursunda oxuyan 17 yaşlı Kişvər ehtiyac üzündən təhsilini bitirməmiş, dağ kəndlərindən birinə müəllim təyin edilir. Hər yerdə olduğu kimi, burada da müharibənin tərətdiyi aclıq və səfalət hökm sürür. Şagirdlərlə çiyələk yığmağa gedən Kişvər özü də bilmədən uşaqların təhriki ilə bir dəstə sütül sünbül yığır və yolda kənd sovetinin sədri pəzəvəng Qulamla rastlaşır. Qulam cinayət işi qaldıracağı ilə hədələyib çirkin məqsədini həyata keçirir, qızın həyatını zəhərləyir.

Pozulan və həyatın burulğanlarından çıxa bilməyən Kişvəri komsomol sıralarından çıxarırlar. O, yenicə ordu sıralarından qayıtmış Cəlili aldadır və Cəlil onunla evlənməyə məcbur olur. 30 il keçməsinə baxmayaraq, Kişvər yenə pozğun hərəkətlərindən əl çəkmir, ləkəli və savadsız olduğu halda, yüksək ad almağa çalışır və bu işdə ona ləyaqətsiz adamlar kömək etmək istəyir. Öz işinə namus və vicdanla yanaşan adamlar ona ləyaqətsizliyini başa salırlar, lakin bu adamlar 30 illik bir ailənin dağılmasını də rəva bilmirlər: "Ağac kökdən, insan isə mənəvi aləmindən zədə almasın… Kişvər lap elə qırx dördüncü ilin yayında on səkkiz yaşın içində zədələnmişdi, sağalmaq bilmirdi, elə bu zədə ilə də yaşamalı idi".

Əslində, Kişvər mühitin qurbanı olur. O hələ çox gənc ikən əzazil və namussuz adamlara, ləyaqətsiz idarə başçılarına rast gəlir. Hələ sünbül əhvalatından əlavə, əzazil kənd sovetinin sədri pəzəvəng Qulam prokurorla sözləşib Kişvərin atasının da düşmənə satıldığını, düşmən tərəfə keçdiyini uydurur və kamala yetməmiş bir qızı çıxılmaz vəziyyətdə qoyur. Lakin Kişvər tədricən özünü ələ ala bilərdi, "sağala" bilərdi. Amma o bu yolu tutmur, çirkin yolla rahat yaşayış onu şirnikdirir və bəd əməllər onun ömürlük yol yoldaşı olur: 30 illik bir ailənin üzvü ola-ola, geyinib-keçinib, gah torqun müdiri, gah da maarifin inspektoru ilə qolboyun olub xəlvətlərə çəkilir.

Pəzəvəng Qulam çox həyasız məxluqdur. Müharibədən, qadınların başsız və kişisiz qalmasından istifadə edərək, gündə bir ailənin namusuna toxunur. Onun kəsdiyi başın sorğu-sualı yoxdur. Kimdən xoşu gəlmədi, xəstə, şikəst, uşaq olmasına baxmadan cəbhəyə basdırır, intiqam alır. Qanun keşikçisi, prokuror adına ləkə olan Məcid kimilər ona bu işdə dayaq olur.

Əsərdə müsbət və xeyirxah insanlar da az deyildir. Tamam nənə, onun nəvəsi Südabə, məktəb komsomol təşkilatının katibi Dürdanə öz yüksək əxlaqi keyfiyyətləri ilə Kişvərdən fərqlənir və onun ziddini təşkil edirlər. Tamam nənə mehriban və qayğıkeş bir qadındır, onun qızı Südabə də eyni dərəcədə səmimi və çətinliklərə dözümlüdür. Dürdanə doğruluğu sevən, namuslu, tələbkar bir qızdır. O, ömür boyu insani keyfiyyətlərini artırmış, haqsızlıq, ədalətsizlik, qadın ismətinə yaraşmayan hərəkətlər onun nifrət mənbəyi olmuşdur. 30 ildən sonra Kişvərlə rastlaşdıqda onun şərəfsiz yolla "yüksəlməsi"nə imkan vermir, yuxarı təşkilatların qarşısında məsələ qaldırır. O, Kişvər kimi iradəsiz adamları yaxşı tanıyır, belələrinin ümumiyyətlə yaşamağa haqqı olmasa da, yaşamalı olduğunu mülahizə edir, onun ailəsinin dağılmasını istəmir.

Povest ictimai, əxlaqi-etik baxımdan faydalı bir əsərdir, oxucuda iradəsizlik, dözümsüzlük, saxtakarlıq əleyhinə nifrət yarada bilir.

"Güləsər" povesti həm həcm, həm də əhatə etdiyi hadisələrin zənginliyi, ideya-bədii keyfiyyətləri ilə seçilən bir əsərdir. Povestdə 70-ci illərdə yetişən kənd ziyalılarının, xüsusən kommunistlərin psixologiyasında yaranan yeni keyfiyyətlər, onların işi və həyatı, məişəti təsvir edilmişdir. Əsərin mərkəzində mənəvi saflıq, vicdani borc, insan ləyaqəti, ictimai əməyə münasibət və s. kimi mühüm məsələlər qoyulmuşdur.

Povestin baş qəhrəmanı Güləsər İsmizadədir. Onun atası İsmi Moskva uğrunda döyüşlərdə sol qıçını itirmiş, arxaya qayıtdıqdan sonra kolxozda vicdanla işləmiş, araba ilə dərz daşıyarkən Əyriçayda boğulub ölmüşdür. Dayısının - Rifahi müəllimin himayəsində böyüyən Güləsər ali təhsil almış, partiya sıralarına daxil olmuşdur. Bağçılıq birliyində baş aqronom və ilk partiya təşkilatının katibidir. Güləsər ictima borcunu hər şeydən, hətta ailə səadətindən də üstün tutur. O, işin üstündə öz gələcək qayınatası ilə üz-üzə gəlir, onun eyiblərini üzünə deyir, raykomun bürosunda sevdiyi oğlanın atası Motal oğlu Cabbarı ifşa edir. Güləsər üçün cəmiyyət qarşısında ictimai borcunu yerinə yetirməkdən müqəddəs heç nə yoxdur. Dayısı ilə söhbətində deyir: "Yalan pis şeydir, dayı. Mən bir ilandan qorxuram, bir də yalandan". Yalan danışdığına, dövləti aldatdığına görə Motal oğlu Cabbarı rüsvay etməkdən çəkinmir.

Müəllif Güləsərin simasında kənd təsərrüfatında son dövrlərdə yaranmış çox mühüm bir bəlanın ifşasına yol açmış, ictimai quruluşa ləkə gətirən bir yaramazlığı köklü şəkildə qırmanclamışdır. Uydurma və ya-

lan rəqəmlər yetmişinci illər təsərrüfatının ən mühüm bəlalarından biri olmuş, indi də kökü kəsilməmişdir.

Güləsər və Güləsərin cəbhəsinə daxil olan namuslu sovet adamları bütövlükdə onun qayınatası Motal uşağı nəslinə qarşı durur. Bu nəsil 37-ci il hadisələrindən süzülüb-keçən, kapitalist-burjua irticaçılığını başqa şəkildə, mənfur bir yolla davam etdirən bir nəsildir. Vadikənddə onlar kolxozun rəhbər vəzifələrinə soxulmuş və onu uzun müddət əldə saxlamışlar. Budur, müharibənin ikinci ilidir. Əli silah tutan cəbhədədir. Lakin Motal uşaqları iş başındadır: onların hamısının bronu var: Motal oğlu çopur Səfər sədr, yetim Abdulla partkom, arıq Piriş briqadir, kor Həsən ferma müdiridir. Yurd sahibsizdir, donuz təpəyə çıxır. Motal uşaqları kolxozun əmlakını öz aralarında dağıdır, satır, qız-gəlinin namusuna sataşır, dinənin gözünü çıxarırlar. Qılçının birini itirmiş İsmini ləkələyib həbsə atdırırlar. İndiki kolxoz sədri Cabbarın atası kor Həsən kolxozun malqarasını vəhşicəsinə qırıb satır: "Şura hökuməti qəbzini alır, əmoğlu. Nemsə Mozdoka çatıb. Bir azdan gəlib tutacaqlar buranı da" - deyə əmisi oğlunu - sədri inandırır və kolxozu az qala talan edirlər, əlsiz-ayaqsızları ruzusuz qoyurlar. "İnqilab" kolxozunun indiki sədri Cabbar həmin kor Həsənin oğludur. O, son dərəcə mənsəbpərəst, özündən razı bir şəxsdir. Qonşu təsərrüfatların uğurlarını gözü götürmür, özünü həmişə gözə soxmağa çalışır, yalan və uydurma rəqəmlərlə dövləti aldadır. Lakin Motal oğlu Cabbar prototipləri ilə müqayisədə məhdud və zəif təsvir edilmişdir. 70-ci illərin bu cür təsərrüfat başçıları eqoizmlə, yalan vədlər və rəqəmlər hesabına baş aldatmaqla yanaşı, özlərini rəhbərlik etdikləri təsərrüfatın ağası hesab etmiş, onu istədiyi şəkildə idarə etmiş, xüsusən kolxoz əmlakının şəxsi mənafe naminə sağa-sola xərclənməsində böyük "şücaət" göstərmişlər. Cabbar kor Həsənin oğludur, onda bu cəhətlər qabarıq olmalı idi.

Cabbarın oğlu, Güləsərin nişanlısı Möhsün daha ləyaqətsiz adamdır. Bəzən təəccüb edirsən ki, Güləsər kimi bir qız belə bir adama necə ürək açа bilmişdir?

Əsərdə Cəbi, Rifahi müəllim, Məhərrəm, Muxtar kimi təmizqəlbli, işgüzar, ictimai əxlaqi münasibətləri gözləyən, təsərrüfat üçün əlindən gələni əsirgəməyən müsbət obrazlar da vardır. Ovçu Məhərrəm və briqadir Muxtar sadə adamların nümayəndələridir. Müharibə illərində buzov otaran Muxtar indi aqrotexnikdir. Qapısında motosiklet və "Moskviç - 412" markalı maşın var. Ovçu Məhərrəm 12 uşaq atasıdır. Ailəsinin firavan həyatını Daşüzün bağ-bağçasından görür. Bağlar bar verdikcə Məhərrəm bir növ möminləşir, müdrikləşir, səhər yerindən qalxanda əl-üzünü yumamış bağa girmir ki, tənəklərin bərəkəti qaçar.

Beləliklə, müəllif zamanın müəyyən gedişində namuslu insanların təsviri ilə yanaşı, ayağa dolaşanların, mənəm-mənəmliyin, əliəyriliyin,

uydurma rəqəmlərin, pozğun və əyyaş həyat tərzinin, ağalığın ümumi işə böyük əngəl olduğunu da üzə çıxara bilmişdir.

Povestlər Məmməd Şəkilinin yazıçılıq istedadını bir daha təsdiq edir. Müəllif təhkiyəsində təmkin və məntiq aydın və güclüdür. Hər üç povestdə hadisələr vahid süjet ətrafında ustalıqla əlaqələndirilmişdir. Müəllif oxucunu ələ almağı, əsas ideyanın mənimsədilməsi yolunda səfərbər etməyi bacarır. Təsvir və təhkiyə dili bədii, emosional və bir qədər publisistikdir. Povestlər şirin oxunur, müəllif istəyi oxucuda yüksək hisslər doğurur.

Povestlərdə islah edilməsi mümkün və vacib olan qüsurlar da vardır.

1."Mən onbirinci stolam" povestinin ilk səhifələrini bir daha nəzərdən keçirmək və həmin hissəni cilalamaq lazımdır. Bəzən müəllifin təhkiyə intonasiyasında bir sünilik hiss olunur, təsvirdə publisistlik güclənir.

2.Qeyd edilən povestdə on birinci stolun mahiyyəti geniş mənada gözəl şərh olunmuş, valideyn borcu, xalqlar dostluğu əsasında on birinci stolun necə təşkil olunduğu diqqətlə təsvir edilmişdir. Lakin bu terminin spesifik-konkret mənası hamıya məlum olmadığından və əsərdə bu barədə konkret qeydə təsadüf edilmədiyindən məsələnin mahiyyəti oxucuya bir qədər qaranlıq qalır (ifadənin terminoloji mənasını kiçik bir qeydlə açmaq olardı).

3.Bizcə, ikinci povestin ("Qırx dördüncü ilin bir yay günü") lap son cümləsi artıqdır, o cür bəraətə ehtiyac yoxdur.

4."Güləsər" povestində artıq yerlər var. İsmi ilə, Cabbardan əvvəlki Motal uşaqları ilə bağlı hadisələrdə bir təfərrüat var. Bu hissəni diqqətlə oxuyub redaktə etmək lazımdır. Xüsusən camışların kəsilməsi, soyulması, şaqqalanması kimi hadisələrin təfərrüatı artıq görünür və hadisələrin inkişafını ləngidir.

5.İsmi dövrünün, Cabbardan əvvəlki Motal uşaqlarının təsvirində ləqəblərdən geniş istifadə, demək olar ki, bütün adların ləqəblərlə verilməsi oxucunu çaşdırır, obrazların adları ikiləşir: belə bir çətin vəziyyətdə bir tərəfdən də müəllifin gah adları, gah ləqəbləri qeyd etməsi oxucunun işini çətinləşdirir, sürətli oxunu ləngidir, obrazları qarışdırmamaq üçün hər dəfə xeyli düşünməli olursan.

6.Bəzi adlar da uğurlu seçilməmişdir. Səxavət daha çox kişi adıdır və Mösünün özünə layiq işçisinə uymur. Müəllifdə xoş təsir bağışlayan yumor vardır, buna görə də bəzi adları satirik və ya yumoristik planda verməyə çalışmışdır. Bu cəhətdən, məsələn, "Motal uşaqları" kimi adlar yaxşı seçilmişdir. Lakin Müştəbehzadə adı əsərin adseçmə effektinə mənfi münasibət yaradır. Bu adda heç bir təzəlik yoxdur, elə bil, bu adı min dəfələrlə harada isə eşitmişik, hansı əsərdə isə oxumuşuq. Bu adı dəyişmək lazımdır.

7.Əsərdə bir sıra dil qüsurları vardır. "Bunu da filankəs dedi" şəklində cümlə forması müəllifin üslubunu səciyyələndirən bir ifadə vasitəsidir, lakin bəzən bu cür cümləni uyğun olmayan hadisəyə şamil etmək, yersiz işlətmək artıq görünür.

8.Povestlərdə rus dilindən alınmış bir sıra söz və ifadələr işlənmişdir. Müəllif bunların üzərində çox diqqətlə düşünməli və onların (***snimka, spitsa, skletni vityajie, abxod, nasılka*** və s.) milli ifadə tərzini müəyyənləşdirməlidir.

Bunlar rusca olan mətndə, rusca dialoqda işlənə bilər, lakin bir halda ki, müəllif rusca olmalı olan dialoqları milli dilə çevirmişdir, bu cür terminologi sözlərin qarşılığını tapmalı idi. Bu cür sözlərin qeydsiz-şərtsiz rus dilində verilməsi ilk povestin mühüm dil qüsurlarındandır.

9.Nitqi tipikləşdirmə prosesində də müəllif rus dili sözlərinin işlədilməsində diqqətsizliyə yol vermişdir. Vüqar Yerevan xəstəxanasında Lida Vladimirovna ilə belə danışır:"*Uje altıncı aydır, Lida Vladimirovna, çox da ki mən dözürəm!*" Lida bizim dili bilirdimi? Vüqar onunla hansı dildə danışır? Situasiyadan aydın olur ki, söhbət rus dilində gedir. Belə halda müəllif ya "Hərb və sülh"də olduğu kimi, söhbəti hansı dildə gedirsə, o dildi də verməli idi, yaxud da bütün mətni səlis ana dilində vermək lazım idi. Bəzən də əksinə hal müşahidə olunur. Əhsən müəllim Vüqar barəsində doktor Zaxarovla söhbət edərkən doktor başqa müalicə üsulu olmadığına and içir: "*Yoxdur, Qlyanus! Olsa… İnanırsınız ki, sizdən çox biz narahatıq".*

Biz Məmməd Şəkilinin "Mən onbirinci stolam" kitabını bədii fikrin inkişafı və ideya-estetik baxımdan faydalı hesab edirik və onun çap olunmasını məsləhət bilirik.

V.İ.Lenin adına APİ. H.H.Məmmədov. «Azərbaycan sovet poeziyasının dil və üslub xüsusiyyətləri (1930-cu illərin şeir dili materialları əsasında)» DD, 04.11.1983

30-cu illərin şeir dili həqiqi sovet tərbiyəsi ilə böyümüş, ədəbiyyata əsl sovet şairi kimi gəlmiş S.Rüstəm, S.Vurğun, M.Müşfiq, M.Rahim, R.Rza və başqalarının yaradıcılığı ilə bağlıdır. Bu dövr köhnənin tədricən həyat səhnəsindən çəkildiyi, yeninin gur bir axınla həyat səhnəsinə gəldiyi dövrdür. Ona görə də bu dövr ədəbiyyatının və o cümlədən poeziyanın qarışıq, mürəkkəb, orijinal və maraqlı məsələləri çoxdur. Bütün bunlar həmin dövrün öz tənqidində ilkin qiymətini almışdır. Lakin həmin dövrün poeziya dilinə sonrakı kamil baxışdan sistemli qiymət verilməmiş, filoloq-dilçilər həmin dövrün monoqrafik tədqiqi ilə məşğul olmamışlar. Buna görə də dos. H.Məmmədovun doktorluq dissertasiyasının mövzusu aktual və nəzəri-estetik baxımdan tədqiqi zəruri olan mühüm məsələlərdəndir.

Dos. H.Məmmədov həmin dövrün poeziya dilini tədqiq edərkən parlaq istedad sahibi M.Müşfiqin yaradıcılığını əsas götürmüş, S.Rüstəm və S.Vurğun yaradıcılığı ilə ardıcıl müqayisələr aparmışdır. Şübhəsiz, tədqiqat prosesində 1000 illik əvvəlki ədəbiyyata və hazırkı poeziya dilinə də nəzər salınmış, bir çox məsələlərin qədim kökləri, sonrakı təkamülü və inkişafı, müasir vəziyyəti barədə maraqlı fikirlər söylənmişdir.

Dos. H.Məmmədov 30-cu illərin şeir dilindən tədqiqatın mövzusuna uyğun şəkildə zəngin material toplamış və həmin materialı filologiyamızın, estetik fikrin son nailiyyətləri baxımından sistemli şəkildə şərh etməyə çalışmışdır.

Tədqiqatın mühüm üstün cəhətlərindən biri müəllifin xüsusən M.Müşfiq yaradıcılığından aldığı bədii faktları, dil materialını sosial-ictimai planda düzgün şərh edə və mənalandıra bilməsidir. Bu cür tədqiqat prosesində Müşfiq yaradıcılğının əzəməti, böyüklüyü, parlaqlığı, çoxcəhətliliyi, az vaxt ərzində fəaliyyət göstərmiş belə bir şəxsin nadir istedad sahibi olduğu bir daha nəzərimizdə canlanır. Elə dissertasiyanın bir mühüm məziyyəti də onun bu cəhəti ilə bağlıdır.

Dissertasiyada 30-cu illərin şeir dilinə baxış iki cəhətdəndir: müəllif poeziya dilinin materiallarını həm Azərbaycan sovet ədəbi dilinə xidməti baxımından, həm də ümumən dil və sənətkarlıq məsələlərinin, poetik nitqin inkişafı baxımından nəzərdən keçirmişdir. Xüsusən dissertasiyanın «1920-1930-cu illərin şeir dili materialının lüğət tərkibi və bəzi morfoloji xüsusiyyətləri haqqında qeydlər» adlı birinci fəslində poeziya dilinin lüğət materialı ədəbi dilin lüğət tərkibinin inkişafı baxımından işıqlandırılmış, leksik materialın yenilik ruhu ilə necə xəlqiləşdiyi, fərdi-üslubi və ümumi bədii keyfiyyətlər qazandığı konkret misallarla şərh edilmişdir. Tədqiqatın mühüm bir cəhəti də budur ki, 20-30-cu illər şeir dilinin tədqiqi prosesində həmin dövrün dil quruculuğu, dilin və dilçiliyin inkişafına dövlət və ümumxalq nəzarəti məsələlərinə də müəyyən yer verilmişdir. Bu fəsildə dəqiq hesablamalar müəllifin lüğət materialı üzərində gərgin əməyinin bəhrəsidir. Dəqiq hesablamalar nitq hissələrinin kəmiyyəti və keyfiyyəti məsələlərinə, leksik materialın mənşə xüsusiyyətlərinə dair dəqiq fikirlər söyləməyə imkan vermişdir.

Dissertasiyanın «1920-1930-cu illərin şeir dilində sözlərin məna qruplarının poetik xüsusiyyətləri» adlı II fəslində sinonim və antonim sözlərin leksik-semantik və poetik xüsusiyyətləri nəzərdən keçirilmiş, 30-cu illərin şeir dilində sinonim cərgələrdən və antonim qarşılaşdırmalardan yeni keyfiyyətdə istifadənin konkret nümunələri göstərilmişdir.

Dissertasiyanın mühüm fəsillərindən biri 30-cu illərin poeziya dilində epitetlərin tədqiqinə həsr edilmişdir. Epitetlərin müxtəlif sahə qrupları Müşfiqin poeziya dilinin zənginliyini, yeni həyatın, yeni quruluşun poeziya dilində özünə necə yer tapdığını, yeni poetik ruhun yeni ifadə vasitələrini son dərəcə qabarıq şəkildə oxucuya çatdırır.

Dos. H.Məmmədov şeir dilində poetik frazeologiyanın tədqiqi ilə 30-cu illər şeir dilinin frazeoloji və leksik tərkibi haqqında təsəvvürü bir növ ümumiləşdirə bilmiş, təbii və ictimai həyatda, təfəkkürdə

baş verən yenilikləri dərhal və qabarıq şəkildə əks etdirən dilin böyük bir sahəsinin – lüğət tərkibinin hansı zəmin üzərində, necə və hansı vasitələrlə, nə şəkildə inkişaf etdiyini, yeniləşməkdə olduğunu nümayiş etdirə bilmişdir.

Ümumiləşmiş şəkildə qeyd edə bilərik ki, əsərdə doktorluq dissertasiyasının tələblərinə müvafiq material və elmi-nəzəri şərh, tədqiq və ümumiləşdirmə vardır.

Dos.H.Məmmədovun «Azərbaycan sovet poeziyasının dil və üslub xüsusiyyətləri» adlı əsəri doktorluq dissertasiyasının tələblərinə müvafiq şəkildə hazırlanmışdır. Yuxarıdakı qeydləri nəzərə almaq və elmi keyfiyyətini, nəzəri səviyyəsini yüksəltməklə müdafiəyə buraxmaq olar.

Lakin, bizcə, əsərin daha da təkmilləşdirilməsi üçün onun üzərində daha çox redaktə xarakterli aşağıdakı işlər də aparılmalıdır:

1.«Bir neçə söz» adlanan girişdə 30-cu illərdə meydana çıxan yeni şerin və yeni şairlərin hansı zəmin üzərində meydana çıxdığı bir qədər səthi və nisbətən dumanlı şərh olunmuş, bundan əlavə, girişdə yeni tələblərlə bağlı bəzi məsələlər əhatə edilməmişdir.

2.I fəsildə («1920-1930-cu illərin şeir dili materialının lüğət tərkibi və bəzi morfoloji xüsusiyyətləri haqqında qeydlər») zəngin lüğət materialı toplanmışdır, lakin həmin materialın təhlilində bir səthilik, sadalama nəzərə çarpır. Burada verilən sözləri bu şəkildə üstdən aşağı sadalamaq yox, elmi şərhə daxil etmək lazımdır, həm də mənə elə gəlir ki, buradakı qruplaşdırmada elmi prinsip və ardıcıllıq yoxdur. Sözlər bəzən həddən artıq kiçik və mənasız qruplara ayrılmışdır. Sözləri ictimai-siyasi, dini mahiyyətinə, məişətlə bağlılığına və s. görə bir neçə böyük qrupa ayırıb təhlil etmək daha yaxşı olardı.

3.Sözlərin məna qruplarından danışarkən şeir dilində çoxmənalılığın, omonimliyin rolunun nə üçün şərh edilmədiyi təəccüb doğura bilər. Həm də bu hissələrdə bəzən verilən bölgülərdə müəyyən prinsip gözlənməmişdir. Məsələn, nisbi sinonimlər üç qrupa bölünür: hər iki tərkibi lüğət tərkibində möhkəmlənmiş sözlərdən ibarət olanlar; söz sırasının pozulması ilə əmələ gələnlər, tərəflərindən biri metaforik sözlərdən ibarət olanlar. – Bu bölgüdə hər növ bir ayrı prinsipə daxildir (birincidə sabitləşmə, ikincidə söz sırası, üçüncüdə metaforlaşma – sabitləşənin bir tərəfi metaforlaşa da bilər və s.

4.III fəsil epitetlərə həsr olunub. Epitetlər tropların bir növüdür və ümumən şeir dilində tropların rolu böyük olur. Lakin nə üçün tropun digər növləri haqqında, heç olmasa, konkret misallarla yığcam giriş məlumatı da yoxdur, təəccüb doğurur.

5.Əsərin son fəsli poetik frazeologiyaya həsr olunub. Lakin mənə qalsa, burada əslində müqayisələrin, metonimlərin, metaforların, mübaliğə və başqa trop növlərinin tədqiqi mühüm yer tutur, əslində, burada başqa ad altında trop növləri şərh olunur. Həqiqi mənada poetik frazeologiya materialı son dərəcə azdır. Ona görə də kiçik zəhmətlə həmin fəsli epitetlərlə birləşdirmək və gözəl bir fəsil əmələ gətirmək mümkündür.

6.Əsərdə elmi-nəzəri ədəbiyyata münasibət zəifdir. Azərbaycan dilçilik ədəbiyyatı əsərdə görünmür, - yaxşı və ya pis - öz təsirini göstərmir.

7.Əsərdə ümumiləşdirmə nisbətən zəifdir, fəsillərin nəticələri və müəllifin ümumiləşmiş qənaəti yoxdur.

8.Dil və üslub məsələlərinə həsr olunmuş bu əsərdə üslub xətaları, artıq və gurultulu söz və ifadələr ciddi redaktə olunmaq ehtiyacına malikdir. Əsərdə Müşfiq dilinə aludəçilik və onun hətta bir çox hallarda «rekord» vurduğu qeyd olunur.

V.İ.Lenin ad. APİ. Dos.H.İ.Mirzəyev. «Azərbaycan dilində sadə fellər» 15.03.1984

Dos.H.Mirzəyev 25 ilə yaxındır ki, fellər üzərində tədqiqat aparır. 60-cı illərin ortalarında namizədlik dissertasiyası müdafiə etdikdən sonra feldə konkret və mürəkkəb bir sahənin – təsirli və təsirsiz fellərin tədqiqi ilə məşğul olmuşdur. Ona görə də bu vəsait təsadüfi olmayıb, onun uzunmüddətli müşahidələrinin, tədqiq və araşdırmalarının nəticəsidir.

H.Mirzəyevin tədqiqatının ümumi xarakteri belədir ki, o, təsirlilik və təsirsizlik məsələsini felin bütün quruluş növləri üzrə nəzərdən keçirmişdir. İş belə gətirmişdir ki, bu sahədə düzəltmə fellər qabağa düşmüş və Həsən müəllim bir neçə il əvvəl düzəltmə fellərin təsirlilik və təsirsizlik imkanlarına dair dərs vəsaiti çap etdirmişdir. İndiki vəsait isə sadə fellərin eyni xüsusiyyətlərinin tədqiqinə həsr olunmuşdur.

Əsər ixtisas kursu üçün nəzərdə tutulduğundan müəllif onun əvvəlində felin qrammatikada mövqeyi, yeri, fel tədqiqinin əhəmiyyəti barədə məlumat vermişdir. Feldən danışılan bütün əsərlərdə bu barədə az-çox məlumat verilir. Lakin bu əsərdə həmin məsələ daha ətraflı, daha diqqətlə işlənmişdir.

Vəsaitin əvvəlində Azərbaycan dilçiliyində və türkologiyada təsirli və təsirsiz fellər haqqında yazılmış əsərlərin çox yığcam xülasəsi verilmişdir. Bu yığcam xülasədə mövzu ilə bağlı böyük və ya kiçik bir əsərin unudulduğunu güman etmək çətindir. Həsən müəllimdə mövzu ilə bağlı ədəbiyyatı tədqiqata cəlb etmək vərdişi çox güclüdür və bu vərdiş ona namizədlik dissertasiyasından qalmışdır. Vəsaiti sadəcə vərəqləməklə də bunu görmək mümkündür.

Əsərin ən mühüm bölmələrindən biri sadə fellərdə təsirlilik, təsirsizlik məsələsinin tədqiq edildiyi hissədir.

Müəllif burada bir, iki və üçhecalı sadə felləri nəzərdən keçirmiş, onların ilkinlik və törəmə xüsusiyyətlərini araşdırmalı olmuşdur. Buna görə də müəllif türk dillərində fel kökünün ulu-ilkin forma və

quruluşu barədə fikirlərə münasibətini bildirmişdir. İki və üçhecalı sadə felləri əmələ gətirən ünsürlər – şəkilçi və sözlər, şübhəsiz, sözlərin təsirli və ya təsirsiz olmasına təsir etmişdir. Ona görə də bu cür araşdırma müəllif məqsədinin düzgün istiqamət almasına kömək etmişdir. Tədqiqat prosesində hətta təkhecalı fellərin son səslərinin rolu olduğu və bu səslərin tarixən müstəqil şəkilçi kimi sözə daşlaşdığı fikri müdafiə olunur.

Vəsait «Azərbaycan dilində sadə fellər» adlandırılmışdır. Bu, təsadüfi deyildir. Müəllif təkcə ədəbi dili nəzərdə tutmur, təkcə müasir dili də nəzərdə tutmur. Ona görə də təsir kateqoriyasının izahı üçün bütün arxaik və şivə çalarlı fellər ədəbi dil felləri ilə birlikdə araşdırmalara cəlb edilmiş, və nəticədə, müəllif imkan daxilində minillik inkişaf prosesində müşahidə olunan əksər felləri tədqiqata cəlb etməklə leksikoqrafik cəhətdən də xeyirli iş görmüşdür.

Əsərdə çoxhecalı fellərin inkişaf yolunu əks etdirən cədvəllər həm fellərin ilkin formalarını, inkişaf yolunu təsəvvür etməkdə, həm də fikrin əyani başa düşülməsində mühüm rol oynayır.

Vəsaitdə mühüm bir cəhət də fellərin başlanğıc və son samitlərinin daha çox hansı səslərlə ifadə olunduğunu müəllifin sistemli öyrənməsidir.

Bu bölmədə tədqiqatın ümumi nəticəsi olaraq fellər üç qrupa – təsirli, təsirsiz və keçid prosesində olan fellərə ayrılmış və xüsusən mübahisə törədən üçüncü qrupun qrammatik xüsusiyyətləri geniş şərh olunmuşdur.

Vəsaitin mühüm bir hissəsini təsirli fellərin qrammatik-semantik imkanlarının təsviri təşkil edir. Təsirli fellə ifadə olunan işin icrası nəticəsində vasitəsiz tamamlıq şəklində ifadə olunan əşyada əmələ gələn dəyişmələr bu hissədə çox böyük təfərrüatla, incəliklərinə qədər nəzərdən keçirilmişdir. Dərslik və dərs vəsaitlərində adətən verilən beş forma burada 80-ə qədər müxtəlif çalara ayrılmışdır. Bizcə, burada bir təfərrüat vardır və ümumiləşdirmə aparılmalıdır.

Ümumilikdə götürdükdə dos.H.Mirzəyevin bu əsəri həm elmi, həm də tədris baxımından faydalıdır və ona görə də həmin əsərin çap olunmasını və ona lazımi qrif verilməsini məsləhət bilirəm.

Leyla Nuşiravan qızı Tahirbəyova.
«Azərbaycan dilində fransız mənşəli adlar»
ND. 24.03.1984

185 səhifəlik bu əsər giriş, beş fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Dissertasiya fransız mənşəli xüsusi adların - antroponim və topo-

nimlərin öyrənilməsinə həsr olunmuşdur. Giriş hissə həcm etibarilə xeyli böyükdür (25 səhifə). Müəllif burada mövzu ilə bağlı bir sıra anlayışları aydınlaşdırmalı olmuşdur. Alınma adları iki qrupa: eydonimlərə – xüsusi adlara və genonimlərə - ümumi (apelyativ) adlara ayırmışdır.

Fransız dilindən alınmaların əsasını gelt-qall mənşəli sözlər tutduğundan o dildən alınmış sözlər dissertasiyada qallizmlər adlandırılmış və birbaşa deyil, rus dili vasitəsilə alındığı üçün termin bir qədər də dəqiqləşdirilərək qallorusizmlər alı ilə təqdim edilmişdir. Bu hal dünya dillərinin inkişaf yoluna və dil əlaqələrinə müəllifin bələd olduğunu göstərir.

Dilçilik nəzəriyyəsini yaxşı mənimsəmiş müəllif tədqiqatında ümumi dilçilik terminologiyasına daha çox müraciət etmiş, əsərini nəzəri dilçilik səviyyəsində işləmişdir. Məlumdur ki, alınma sözlər ekzogen, mənşə dilin sözləri endogen leksika adlandırılır. Bunları qısa şəkildə ifadə etmək üçün dissertasiyada şərti işarələrdən də istifadə edilmişdir.

Girişdən sonra mövzunun aktuallığı, metodlar, əsərin nəzəri və praktik əhəmiyyəti, quruluşu və s. kimi məsələləri şərh edilmişdir.

Giriş dissertasiya üçün açardır. Buradakı qeydlər olmasa, dissertasiya başa düşülməzdi.

Birinci fəsildə eydonimlərin - qallorusizmlərin hansı mənbələrdən götürüldüyü, nə kimi materialdan ibarət olduğu aydınlaşdırılır. Dissertasiyada əksərən ASE-dən, bundan əlavə, bir çox başqa lüğətlərdən götürülmüş fransız elm, mədəniyyət, ictimai fikir xadimlərinin adlarından ibarət 535 söz nəzərdən keçirilmiş, onların hansı saitlərlə və ya hansı samitlərlə başlandığı müəyyənləşdirilmişdir. Əsərdə bu sahədə roluna görə saitlər 3, samitlər 6 qrupa ayrılmış və dəqiq cədvəllər verilmişdir.

Bu fəsildə zəhmət çoxdur, lakin analiz bir qədər zəifdir, iş texniki xarakter daşıyır. Digər tərəfdən, mənbələrdə mötərizədə verilən və əsas sözü izah edən, lakin tədqiqat obyekti kimi nəzərdə tutulmayan sözlərə (s.36-39) çoxlu nümunələr vardır ki, bunları azaltmaq da olardı.

İkinci fəsildə onomastik adların iki qrupundan bəhs edilmişdir: şəxs adları (antroponimlər) və coğrafi adlardan (toponimlər).

Bir qədər sonra müəllif bunlara manadonimləri (mədəniyyət abidələrinin, bədii əsərlərin adları) də əlavə etmiş və beləliklə, qallorusizmlər üç qrupa ayrılmışdır: antroponimlər, toponimlər, manadonimlər.Və burada adam az qala dəhşətə gəlir: bu "onimlər" özləri də daxili qruplara ayrılır və ən əsası bunlardan ibarət olan 36 termin yaranır.

Müəllifin öz hesablamalarından aydın olur ki, tədqiq edilən adların böyük bir hissəsini (308 söz) antroponimlər təşkil edir.

Əsərdə xüsusi adlar sosioloji xarakterinə görə: elm və texnika xadimlərinin, ictimai-siyasi xadimlərin adlarına; tarixi-xronoloji parametrə görə: orta əsr və intibah dövrü, yeni dövr və ən yeni dövr adlarına bölünmüşdür. Toponimlər də müvafiq qruplara ayrılmışdır.

Üçüncü fəsil dilçilik baxımından daha maraqlı olub, qallorusizmlərin fonetik uyğunlaşmasına həsr edilmişdir. Üç bölmədən ibarətdir.

I bölmə "Fonetik uyğunlaşma modelləri" adlanır. Müəllif burada qallorusizmləri 5 model üzrə qruplaşdırmış və bütün sözləri həmin beş qrup üzrə bir-bir yoxlamış, 33 səhifəlik dəqiq cədvəllər üzrə bütün sözlərə bu modellər üzrə baxmışdır. Təkcə bu bölmə, mən deyərdim ki, dilçiliyimizdə ilk dəfə tamam uzaq bir dildən alınmaların başına nələr gəldiyini, onların mənşə dildən nəyə görə, nə dərəcədə fərqləndiyini təsəvvür etmək üçün çox böyük material verir. Bu fəsil həm də praktik cəhətdən faydalıdır. Bu cədvəllər uzunmuddətli gərgin əməyin nəticəsində yarana bilərdi.

Cədvəllərdə hər bir sözün mənaca hansı qrupa aid olduğu da öz əksini tapmışdır.

Bu fəsil dissertasiyanın ən mühüm fəslidir. Lakin burada hər bir modelə aid dəqiq cədvəllərdən sonra bir də təzədən - təkrarən nümunələr göstərmək o qədər də əhəmiyyətli deyildir, ixtisarla verilə bilərdi. Fəslin ikinci bölməsində fransız, rus, Azərbaycan dillərinin sait-samit nisbəti nəzərdən keçirilmişdir.

Fransız dilində 20, rus dilində 36, Azərbaycan dilində 24 samitin dəqiq xarakteristikası verilmişdir. Uyğunsuzluğun əsas səbəbi budur ki, Azərbaycan dili səs sisteminə görə fransız dilinə daha yaxın olduğu halda, sözləri rus dilindən alır və rus dili həmin sözləri çox pis günə qoymuş olur. Müəllifin mənşə dildən necə almışıq və necə ola bilərdi – şəklində verdiyi misallar çox maraqlıdır.

Bunları biz indi bilə-bilə, sözlərin işlənməsində düzəliş edə bilmirik, çünki ənənənin rolu çoxdur və tərgitmək çətindir.

Dördüncü fəsil alınmaların morfoloji və sintaktik uyğunlaşmasına, son fəsil alınmaların semantik modulyasiyasına (müxtəlif xüsusi adlar, ümumi və xüsusi adlar yaranması) həsr olunmuşdur.

Bunlar kiçik fəsillərdir. Məsələn, son fəsil, 5-6 səhifəlikdir. Bunları müəllif birləşdirə də bilərdi. Bu fəsillər də dil məsələləri ilə bağlıdır, alınmaların dildə uyğunlaşması ilə əlaqədar bir sıra məsələlərin aydınlaşmasına kömək edir.

Burada mübahisəli cəhətlər də vardır. Səh. 137-də deyilir ki, rus dili sintetik, Azərbaycan və fransız dilləri analitik dildir. Və sonrakı səhifədə izah edilir ki, analitik dillərdə qrammatik məna ağırlığı sintaksisin üzərinə, rus dilində isə morfologiyanın üzərinə düşür. Bu fikir, məncə, doğru deyil. Sintetizm bütün dillərdə var. Rus dili flektiv dildir və bu cəhətdən ingilis dili ilə qarşılaşdırıla bilər: ingilis dilində sözün əvvəli dəyişir, sonu sabit qalır - analitik dildir, rus dilində isə əvvəli sabit qalır, sonu dəyişir- sintaktik dildir. Türk dilləri isə iltisaqi dildir.

Əsərin başqa bir nöqsanı da budur ki, sitatlar baş alıb gedir. Hamıya məlum olan və müəllifin özünün deyə biləcəyi fikirləri də (xüsusən girişdə) sitat-

larla verir, yaxud dalbadal korifeylərdən sitatlar… (s.12) Ədəbiyyat zəngindir, amma artıq şeylər var. Bütün lazımi lüğətlər göstərilir, bundan sonra təzədən "qallisizm", "kalka" sözlərinin işləndiyi lüğətlər verilir.

Dissertasiya yüksək səviyyədə işlənmişdir. Roman və german dillərindən bəhs edən görkəmli alimlərin əsərləri səviyyəsində yazılmışdır. Elmi baxımdan zəngindir, müəllifin zəhməti və elmi nəticələri namizədlik dissertasiyası tələblərindən artıqdır.

M.Aslanov, Z.Səmədov. «Azərbaycan dili» (rus məktəbinin 9-cu sinifləri üçün dərslik) 07.04.1984

Dərsliyin ədəbi materialları əsasən hazırdır. Yaxşı cəhəti budur ki, şagirdləri Azərbaycan həyatının, Azərbaycan mədəniyyətinin rəngarəng sahələri, görkəmli adamları, mədəniyyət və incəsənət xadimləri, onların yaradıcılığı ilə, məişət məsələləri ilə tanış edir. Dərslikdə xalqımızın keçmişini və bu gününü öyrədən maraqlı bədii parçalar toplanmış, tarixi və müasir əsərlərdən maraqlı nümunələr verilmişdir.

Hiss olunur ki, müəlliflər bir sistem şəklində əsas və əlavə oxu materiallarını fərqləndirməyə çalışmışlar. Əməli yazılara dair verilmiş nümunə və göstərişlər faydalı olacaqdır.

Mətnlər əksərən beynəlmiləlçilik və vətənpərvərlik ruhundadır.

Dərsliyin başqa müsbət keyfiyyətləri barədə də söhbət açmaq olar. Lakin bütün müsbət cəhətləri ilə yanaşı, kitabın ciddi nöqsanları da vardır və o yenidən işlənməlidir.

Dərslikdə mətnlər aşağıdakı ümumi başlıqlar altında toplanmışdır: şifahi xalq ədəbiyyatı, keçmiş günlərdən, sosialist vətənimiz, vətəni sevməyən insan olmaz, əməklə ucalanlar, SSRİ xalqlarının dostluğu.

Burada vahid prinsip yoxdur: şifahi xalq ədəbiyyatı ədəbiyyatın yazılı və şifahi qolları üzrə bölgüdür, sonrakı bütün bölgülər isə mövzular üzrədir. Madam şifahi ədəbiyyat bu cür fərqləndirilir, bütün sonrakıları xronoloji aspektdə bir sistem şəklində yazılı ədəbiyyatın nümunələri kimi vermək olardı və bu hal bir sıra təkrarların, dolaşıqlığın qarşısını alardı.

Sistemsizlik nədədir? Əvvəldə şifahi xalq ədəbiyyatı verildiyi halda, Koroğlu "Keçmiş günlərdən" başlığı altında verilmişdir. S.Vurğun dərsliyin müxtəlif səhifələrində 3 dəfə, Ə.Məmmədxanlı və Mir Cəlal hər biri 2 dəfə verilmişdir. Sonra düzülüş: Sabir - C.Məmmədquluzadə - Müşfiq – Haqverdiyev – Şaiq və s. Yaxud: R.Rza - Nərimanov - X.Rza - Ü.Hacıbəyov - O.Sarıvəlli - H.Abbaszadə. Hələ aralardakıları demirik.

Bu cür sistemsizlik mövzulara görə bölgünün nəticəsidir. Bunlar şagirdlərdə (rus məktəbi şagirdlərində) bizim ədəbiyyat tarixi barədə aydın təsəvvür

yaratmaq əvəzinə (halbuki bu, mühümdür), onların təsəvvürünü qarışdırır, dolaşıqlıq yaradır.

Bizcə, 9-cu sinif olduğu üçün (bu qruplarda ayrıca Azərbaycan ədəbiyyatı keçilmir) xronologiyanı gözləmək, dil materiallarından istifadə prosesində fürsətdən istifadə edərək, söz ustalarını tam ardıcıllıqla (təkrara yol vermədən) düzmək, həm də onlara yer verərkən ədəbiyyatdakı mövqeyini nəzərə almaq lazımdır. Belə olarsa (biz də hazırladığımız müntəxəbatda belə etmişik), bizim S.Rəhimov, Ə.Vəliyev, Ə.Əbülhəsən, M.Rahim, H.Mehdi, M.İbrahimov, İ.Hüseynov, Anar, Elçin, F.Kərimzadə, İ.Məlikzadə və başqa yazıçılarımız təkrarların yerinə düşərdi, şəkil nəzərdə tutularsa, bir sistem halda hamısının şəklini vermək lazım gələrdi. Digər tərəfdən, mövzular üzrə bölgünün özü də sistemli deyildir. "Sosialist vətənimiz" ilə "Vətəni sevməyən insan olmaz" kimi iki eyni mövzuya ehtiyac yoxdur.

Və nəhayət, belə bir dərslikdə Q.Qulam, R.Həmzətov, Laverti, Qüdrət Hikmət kimi sənətkarlardan söz açmaq tamamilə artıqdır. Bu, ədəbiyyat dərsliyi deyildir. Bu cür mövzular ədəbiyyat dərsliyinə salınmalıdır. Biz çətinliklə qurduğumuz bu cür dərslərdə imkan daxilində öz dilimizi və milli sənətkarlarımızı öyrətməliyik.

Ədəbi materialların həcmində də sistem yoxdur. Bəzi materiallar, məsələn, "Poçt qutusu", "Bizim küçə" və s. çox uzundur, hətta iki hissəlidir. Bəzi materiallar çox qısadır: səh. 93-də Z.Cabbarzadənin "Mingəçevir" şeri iki bənddir - əsas dərsdir.

Müşfiqin "Ötənlərdən" şeri inqilabdan əvvəl yazılmış şerə oxşayır (s. 58). A.Şaiqin Mitskeviçus haqqında xatirəsindən parça uğurlu deyil. Nəbi Xəzrinin şeri (s.84) uzun şeirdir və elə bir məzmunu yoxdur. Başqa şeir seçmək olardı. N.Nərimanovdan verilmiş "Tək əldən səs çıxmaz" mətni nəzərdə tutulan sinif üçün çox ibtidaidir. Ü.Hacıbəyovdan verilmiş "Biz hamımız Qafqaz balalarıyıq" mətni də zəifdir və müəllifinin qüdrətini nəzərə çarpdırmır. O.Sarıvəlli yaxşı şair olduğu halda, adına "Qaradağ qızı" adlı oçerk verilmişdir. "Kərpickəsən kişinin dastanı" köhnə tərcümədir.

60, 94, 99, 124, 128, 133 və bir sıra başqa səhifələrdə verilmiş mətnlərin müəllifi bilinmir və əksərən zəif mətnlərdir.

Ədəbi parçaların həcmini uyğunlaşdırmaq, əlavə oxu materiallarını fərqləndirmək lazımdır. Bunun üçün materialları dərslik şəklində tərtib etmək, ayrı-ayrı dərslərin sərhədini fərqləndirmək lazımdır. İndiki halda əsər sistemsiz müntəxəbata oxşayır.

Şifahi xalq ədəbiyyatından seçilmiş parçaların da bir qismi bəsitdir; s.7-dəki lətifə çox zəifdir, gözlənilməzlik çox az hiss olunur, 20-ci illərdə olduğu kimi, yalnız molla tənqid edilir. İctimai tənqid zəifdir.

Lüğət tərtibində prinsip yoxdur. Bəzi mətnlərin lüğəti var, əksər mətnlərin yoxdur. Bu həm əsas mətnlərə, həm də əlavələrə aiddir. "Məktub yetişmədi", "Poçt qutusu" əsərlərinin lüğəti bir səhifəyə qədərdir (40-a qədər söz və ifadə), başqalarında çox azdır.

Çətin söz və ifadələr əksərən izah olunub, lakin yenə də nəzərdən qaçanları var: s. 9-da *ilqar*, s.11-də *girinə keçmək* və s.

Çalışmalar çox azdır və zəifdir. Bəzi bədii parçalara heç bir göstəriş yoxdur, hətta adi suallar belə tərtib edilməyib. Bir çox çalışmalar (s.6-da 1, 3, 4) çox yüngüldür. 10, 13, 38, 43, 62, 151 (5) səhifələrdəki çalışmalar da çox bəsitdir. Bəzən çalışma düz qurulmayıb; s. 8-də bir lətifə verilib, sonra deyilir: "lətifələrdən birini danış".

Qrammatik material da zəif işlənib. Fonetikaya aid çalışma çoxdur, morfologiya çox zəif əhatə edilib. Qeyri-səhih izahlar var: ***ucalma(ğ), artı(ğ)*** kimi tələffüz düzgün sayılır.

Üslub nöqsanları var: "İt tək yaşamaqdan təngə gəldi" - hansı mənadadır? İtin tək yaşamağı nəzərdə tutulur, yoxsa it kimi yaşamaq?

Ümumiyyətlə, əsərdə mətnlər sisteminə, lüğət materiallarına, leksik, frazeoloji, fonetik və qrammatik çalışmalara yenidən baxmaq, əsərin üzərində əsaslı şəkildə yenidən işləmək lazımdır.

Dos.Ə.Şükürov. «Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi» DD (ikinci müzakirə). 24.04.1984

Hələ də köməkçi nitq hissələrinə ikinci dərəcəli bir şey kimi baxanlar vardır. Bu hal bir tərəfdən də həmin nitq hissələrinin adından irəli gəlir. Köməkçi, ikinci dərəcəli - məfhumları bunların tarixən öyrənilməsi işini də ikinci plana atmışdır. Halbuki köməkçi nitq hissələrinin dildə, fikrin düzgün anlaşılmasında rolu çox böyükdür.

Köməkçi nitq hissələrinin müasir dil səviyyəsində tədqiqi qənaətbəxş sayıla bilər. Lakin bu söz qrupunun tarixi aspektdə tədqiqi, onların törəmə və inkişaf yolunun öyrənilməsi Əlisa müəllimin bu əsərinə qədər dərslik, dərs vəsaiti səviyyəsindən kənara çıxa bilməmişdir.

Deməli, Ə.Şükürovun tədqiqat mövzusu aktualdır.

Tədqiqatın aktuallığından doğan bu xoş təəssüratı dissertasiya ilə tanışlıq daha da artırır. Aydın olur ki, dos.Ə.Şükürov yüksək səviyyəli bir əsər hazırlamış və keçən müzakirə zamanı dediklərimizi əksəriyyət etibarilə nəzərə almışdır.

Əlisa müəllimin bu əsərinin yığcam şəkildə Azərbaycan dilində ayrıca çap olunduğunu bilirik. Mən onu da nəzərdən keçirmişəm. O əsərin özü də dilçilik üçün çox əhəmiyyətlidir. Lakin mənim yəqinimdir ki, bu əsər bütövlükdə rus dilində çap olunduqda türkologiyada qiymətli bir əsər kimi qarşılanacaqdır.

Əlisa müəllim klassik bədii ədəbiyyatın dilindən çox zəngin material toplamışdır. Bu material tədqiqat üçün, söz demək üçün geniş imkanlar yaratmışdır.

Lakin müəllif təkcə materiala əsaslanmamışdır. Əsərin üstünlüyü bir də ondan ibarətdir ki, bu vaxta qədər türkolgiyada, Azərbaycan dilçi-

liyində söylənmiş fikirlər bir yerə toplanmış, diqqətlə saf-çürük edilmiş və obyektiv nəticələr çıxarılmışdır.

Əlisa müəllimin elmi-nəzəri ədəbiyyata bələd olma səviyyəsi onun bir tədqiqatçı kimi yüksək hazırlığa malik olduğunu təsdiq edir.

Yeri gəldikcə qədim abidələr, türk dilləri ilə aparılan müqayisələr çox uğurludur və biz müəllifin bu sahələrə yaxşı bələd olduğunu bilirik.

Əsər işin ümumi xarkteristikası, giriş və üç fəsildən ibarətdir. Ümumi nəticələr, şərti ixtisarlar və kitabiyyat da qaydasındadır.

Mən əsəri 1982-ci ilin dekabrında diqqətlə oxuyub eyni qənaətə gəlmişdim və xeyli də nöqsan göstərmişdim. Bu günlərdə dissertasiyanı yenidən nəzərdən keçirdim. Müəllif təkcə həmin nöqsanları düzəltməklə kifayətlənməmiş, əsər üzərində tamamilə yenidən işləmiş və onu daha da cilalamışdır.

Əlisa müəllim özü də təbiətən xeyirxahdır, mədəni bir ziyalıdır. Rus dilini gözəl bilir və daim mərkəzi qəzet və jurnallarda iştirak edir, müşavirə və konfranslarda çıxış edir.

Dos.Ə.Şükürov həqiqi bir alim kimi yetişmişdir. Filologiya elmləri doktoru adı almağa çoxdan layiqdir. Onun "Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi" adlı doktorluq dissertasiyası bütün tələblərə tam cavab verir və müdafiə üçün hazırdır.

Nəsimi ad. Dilçilik İnstitutu. T.M.Mehdiyeva. «Müasir Azərbaycan dilində isimlərin çoxmənalılığı» ND. 02.07.1984

Dilin semantik zənginliyini əks etdirən çoxmənalılıq həm ədəbi, həm də bədii dilin emosional-estetik imkanlarını genişləndirən vasitələrdəndir. Azərbaycan dilçiliyində Ə.Dəmirçizadə, S.Cəfərov, Z.Verdiyeva, F.Ağayeva, M.Adilov və b.-nın əsərlərində sözün çoxmənalılığına xüsusi diqqət yetirilmiş və bu əsərlərdə sözün başqa semantik qrupları ilə, xüsusən omonimliklə çoxmənalılığın oxşar və fərqli cəhətləri sxemlərlə fərqləndirilmişdir. Bədii əsərlərin dilindən bəhs edən dissertasiyalarda da bu məsələyə yer verilmişdir.

Lakin mövzunun monoqrafik tədqiqi daha çox şey aydınlaşdırmağa imkan verərdi və bu cəhətdən "Müasir Azərbaycan dilində isimlərin çoxmənalılığı" adlı dissertasiya aktual bir mövzuya həsr olunmuşdur.

Dissertasiyanın birinci fəsli "İsimlərin məcazi mənası" adlandırılmışdır. Bu cür adlandırma bu fəsil üçün münasibdir, çünki müəllif burada metonimlərin, metaforaların, sneqdoxa, müqayisə və epitetlərin məcazilik imkanlarından danışmış və bu yolla əmələ gələn çoxmənalılığı izah etmişdir. Lakin g i r i ş d ə bu fəsil "Çoxmənalı isimlərin məcazi mə-

naları" adlandırılmışdır. Belə olduqda məcaziliklə çoxmənalılıq qarışdırılmış, eyniləşdirilmiş olur. Belə çıxır ki, bütün metaforalar, metonimlər, sneqdoxa, müqayisə və epitetlər çoxmənalılığa xidmət edir. Müəllif həmin söz kateqoriyaları ilə çoxmənalılığı fərqləndirməli, fərqli cəhətləri göstərməli idi. Əgər yazdıqlarını düzgün hesab edirsə, onda bizdə və ümumi dilçilikdə, poetikada termin anarxiyası vardır.

II fəsildə ("Çoxmənalılıq və leksik-semantik söz qrupları") müəllif çoxmənalılığın yaranmasında etimoloji və lüğəvi mənaların roluna fikir vermiş, çoxmənalılığın daha çox müəyyən söz qrupları ilə bağlı olduğunu, bu sahədə insanın bədən üzvlərinin adlarını bildirən sözlərin fəallığını qeyd etmiş, müxtəlif mənbələrdən topladığı zəngin nümunələrlə fikrini əsaslandırmağa çalışmışdır.

Üçüncü fəsildə çoxmənalı sözlərin semantik mühiti, semantik sahəsi nəzərdən keçirilmişdir. Müəllif çoxmənalılığın daha çox başqa bir sözlə əlaqədə təzahürünü qeyd edir. Buna görə də polisemantik sözlərin ismi və feli birləşmələr tərkibində tədqiqi bu fəslin əsasını təşkil edir.

Dissertasiyanın tədqiqat materialı zəngindir. Bu materialdan nəticə çıxara bilmək üçün dissertasiya geniş imkan verir.

Lakin dissertantı istiqamətləndirmək lazım idi ki, o, çoxmənalılıqla məcazın digər növlərini, trop növlərini fərqləndirə bilsin. Bilmək olmur ki, məsələn, "başmaq" sözü nə üçün çoxmənalıdır. Bu söz adi geyim əşyası və texniki termin kimi omonim ola bilər.

"Başmaqlarını cütləmək", "iki ayağını bir başmağa soxmaq", "başmaqları da razıdır" kimi cümlələrdə *başmaq* sözü eyni mənadadır, lakin cümlələrdə məcazilik var və belə misallar çox-çoxdur.

Baş-göz, baş-beyin, baş-ayaq, başıdaşlı, başıdolu, başı pozuq, başıyuxarı, başıətli kimi sözlərdə "baş" sözünün ismi birləşmə tərkibində çoxmənalılıq qazandığı göstərilir, lakin bunlar söz birləşməsi deyil, qoşa söz, mürəkkəb söz və sairdir.

Birləşmə tərkibində çoxmənalılıq dedikdə, *baş aparmaq, baş açmaq, baş qaldırmaq, baş qoşmaq, baş tutmaq, başa düşmək, başa gətirmək, başa salmaq...* kimi ifadələr nəzərdə tutulur və beləliklə, çoxmənalılıq frazeoloji vahidlə eyniləşdirilmiş olur.

Kəramət Tağıyev. «Hekayə, povest və felyetonlar». 25.09.1984

266 səhifəlik bu toplu "Sənin əlli yaşın var" adlı bir səhifəlik ön sözdən, 158 hekayə, iki povest və felyetondan ibarətdir.

Hekayələrin mövzusu rəngarəngdir: özünü, öz mənafeyini qorumaq, yıxılanı baltalamaq, öz simasızlığı hesabına böyük vəzifə sahibləri-

nin qəlbinə yol tapmaq istəyənlər ("Yıxılan özündən küssün"), valideyn qayğısının, ana əzabının, ananın yuxusuz gecələrinin, iztirabla keçən günlərinin mahiyyətini anlamayan və ya çox gec anlayan nankor övladlar ("Məktub"), arzuları, xəyalları ilə real vəziyyət arasında ziddiyyətlər gülüş doğuran xəyalpərəstlər ("Mənim xəstəliyim"), öz savadsızlığı ilə özünü gülüş obyektinə çevirən, lakin qazanclı yüksək vəzifə əldə etməyə çalışanlar ("Qonağın şəkli"), haram pulla yeganə övladına vaxtından əvvəl "Jiquli" alan, ona hər cür şərait yaradan və onun fəlakətinə səbəb olan valideynlər ("Son arzu"), işi ilə, əməli ilə sözü, vəzifəsi arasında kəskin ziddiyyət olan rüşvətxorlar ("Get, bala, yaxşı hazırlaş"), övladını kalan yerə calamaq, varlı ailələrlə qohüm olmaq istəyən valideynlər ("Çənə söhbəti") yazıçının əsas tənqid hədəflərindəndir. Müəllif bu hekayələrdə yüksək əxlaqi-psixoloji momentlərin bədii təsviri ilə gəncliyin tərbiyəsi işinə diqqət yetirir, onların vicdanla böyüməsini, yüksək insani keyfiyyətlər ruhunda yetişməsini, ataların, babaların gözəl ənənələrini, adətlərini yaşatmasını, böyüklərə qayğı ilə, hörmətlə, ləyaqətlə yanaşmasını, həqiqi bir insan, bir kommunizm qurucusu kimi formalaşmasını arzu edir, bunun üçün ibrətamiz misallar, bədii faktlar gətirir, yüksək mənəvi-əxlaqi detallarla oxucunu inandırmağa çalışır, nəticə çıxarmağa vadar edir. "Ata qarğışı" hekayəsinin qəhrəmanı valideynlərinə qarşı nankorluğunu çox gec başa düşür, insanı, həyatı gec anladığını dərk edir, ağır və üzüntülü peşmanlıq içərisində qovrulur: "Elə ki düşdüm həyatın dibinə, başıma min cür bəlalar gəldi. Vaxtilə atamın, anamın nəsihətlərinə qulaq asmadığıma, onların üzünə ağ olduğuma peşman oldum. Amma əfsuslar olsun ki, artıq gec idi. Sonrakı peşmançılıq fayda vermədi. Atalar demişkən, "Daldan atılan daş dopuğa dəyərmiş".

İctimai bəlaların ifşası, ümumi mülkiyyətə, dövlət mülkiyyətinə xain gözlə baxanların, ictimai əmlakı oğurlayan və talan edənlərin aqibəti "Xəbərdarlıq" hekayəsinin mərkəzində duran əsas məsələdir. Bu mövzuda çox yazılmışdır. Lakin K.Tağıyevin hekayəsində mövzu orijinal bir şəkildə işlənmiş, maraqlı və kəskin, ədalətli bir sonluqla tamamlanmışdır. Rayon istehsalat idarəsinin iclasında müfəttişin verdiyi məlumatdan aydın olur ki,"Şəfəq" kolxozunda vəziyyət olduqca ağırdır: kolxozda çoxlu yeyintiyə yol verilmiş, təsərrüfat bərbad hala salınmışdır. Kolxozun sədri Şükür Salmanov hər ay yalançı məlumatlar verərək partiya və dövlət təşkilatlarını aldatmışdır.

Bunlar, bir tərəfdən, ona görə oxucuya yaxşı təsir bağışlayır ki, hazırkı dövrün əsas bəlalarıdır. Digər tərəfdən, istehsalat idarəsi rəisinin qəti qərarı, güzəştə getməməsi, işi pərdələməyə çalışmaması oxucuya ləzzət verir.

Salmanov hay-küy qoparır, birinci dəfə olduğunu, ona xəbərdarlıq edilmədiyini bildirir. Onun tərəfini saxlayanlar, ona havadarlıq edənlər

də tapılır. Lakin ağsaqqal, təcrübəli, hörmətli Yunis kişinin işə qarışması, onun ibrətamiz misalları Salmanovu da, tərəfdarlarını da susdurur. Yunis kişi Əzrayyılla bir kişinin dostluğu və onun nəticəsi barədə misal çəkib deyir: "A bala, keçən il "İşıq" kolxozunun sədri Sarı Qurbanın oğlu Əlabbasa elə bu cür əməllərinin üstündə on il iş kəsdilər, var-dövlətini də əlindən aldılar. Bəs sənin üçün xəbərdarlıq olmadımı? Yenə keçən il xalqın malına tamah saldığına görə, bu Camal kişinin yerində işləyən... Cəfərə altı il türmə verdilər. O da sənə təsir eyləmədi?"

"Babanın xatirəsi" hekayəsində yoxsulların ayıqlığı, diribaşlığı, varlı tacirlərin xəstəliyi, riyakarlığı bir novella şəklində öz ifadəsini tapmışdır. K.Tağıyev bəzən rəmzlərdən istifadə edərək, hörümçək və pərvanənin timsalında nəcib, xeyirxah və qəlbi məhəbbətlə dolu insanlara tor quranları lənətləyir, onları öz toru ilə birlikdə süpürüb atmağı bu dünyanın əsas qayğıları sırasında işıqlandırır.

Kəramət Tağıyevin əsərlərində dinin, fanatizmin, mollaların, şarlatan fırıldaqçıların, xalqı soyan cindarların və cadugərlərin ifşası mühüm yer tutur. Bu mövzu yazıçının ən sevimli mövzusudur."Canını təslim verdi", "Güllə duvası", "Üləma məclisindən reportaj", "Molla Fətəlinin sərgüzəşti" hekayələrinin, "Mollanın kosmosa səfəri" povestinin əsas tənqid hədəfi mollalar və fanatizmdir. Hətta həkim sənətinin şəfaverici sirlərinə həsr olunmuş "Etiqad" povestinin əsas tənqid hədəfi də yalançı pirlərə, ocaqlara inam və etiqaddır. "Canın təslim verdi" hekayəsinin qəhrəmanı Molla Qəmbər ölməyə razıdır, lakin həkim-doktor əli ilə sağalıb halal zəhmətlə məşğul olmağa yox.

Yazıçının həcmli hekayələri ("Güllə duvası", "Üləma" məclisindən reportaj", "Molla Fətəlinin sərgüzəşti") xalqı aldadan riyakar mollaların sözü ilə əməli, işi arasındakı ziddiyyətlərin ifşası yolu ilə avamların gözünü açmaq, onları başa salmaq, onların kimə inandıqlarını əyani şəkildə görmək və göstərməklə nəticə çıxarmaq baxımından çox faydalıdır. Ayıq və cəsarətli bir kənd adamı olan Kərim molla Cəfərin "güllə duvası" yazmaq adı ilə hərədən 50 manat alıb camaatı soyduğunu bilir, atasının da bu tələyə düşdüyünü gördükdə mollanın axırına çıxmaq qərarına gəlir. Mollaya əlavə 50 manat verib özü üçün "güllə duvası" yazmasını tələb edir və sonra ovçu gülləsini ona tərəf çevirərək mollanı camaat arasında rüsvay edir, onun fırıldaqlarının üstünü açır. Eləcə də yoxsul kəndli Alı kişi öz işlərini mexanikləşdirən, təziyə yerlərinə motosikletlə gedən, səsini maqnitafona yazdırıb-oxudan, özünə əziyyət vermək istəməyən molla Fətəlini, süd verməyən camışına dua əvəzinə yazdığı: "Eşşəyin arpası qoy çox olsun. Mənim qarnım il on iki ay tox olsun. O ki qaldı sənin camışın, süd verdi nə vecimə, vermədi nə vecimə" kimi sarsaq sözlərini əsas tutaraq ifşa edir və bu işdə ona Salman müəllim, Hacı Həsən kimi ayıq ziyalı və kəndlilər kömək edirlər. "Üləma" məclisindən

reportaj" hekayəsində məhərrəmlik büsatının yaxınlaşdığını və buna görə də bol qazanc mənbəyinin yarandığını qeyd etmək üçün böyük kef məclisi quran mollaları sərxoş vəziyyətdə, dava-dalaş prosesində çəkib qəzetdə ifşa edən gənclərin - İsmətlə Ələddinin ayıq mövqeyindən danışılır. Müəllif hekayənin süjetini elə qurmuşdur ki, mollaların öz dili ilə onların keçmişini, hansı yollarla mollalığa gəlib çıxdıqlarını ustalıqla ifşa edə bilmişdir..

"Mollanın kosmosa səfəri" əsərində Molla Müştəba daha geniş fəaliyyət prosesində təsvir edilmişdir. Yerdəki fırıldaqları ilə kifayətlənməyən molla Müştəba kosmosa qalxır, allahı görmək istəyir, lakin iş elə gətirir ki, o biri dünyaya düşür, cənnətlə cəhənnəm arasındakı bir sıra məhəllələri gəzməli olur. Aydın olur ki, bu dünyada oldluğu kimi, elə burada da ədalətsizlik hökm sürür, kim bu dünyada kef çəkmişsə, burada da öz kefindədir, ağadır.

Hekayələr göstərir ki, müəllif şəriət, din, ruhanilik, cənnət, cəhənnəm məsələləri barədə göydəndüşmə fikirlər söyləmir, bu sahədəki dini və dünyəvi ədəbiyyatı çox diqqətlə oxumuş, şəriət qanunlarına istinadən, dini kitablardakı qeyd və təfsirlər əsasında fanatizmin, dinin bir sıra ağlasığmaz rəvayət və inanclarını satirik dil ilə qamçılamışdır. Əsərin ümumi nəticələrindən biri də budur ki, zülmkar hər yerdə zülmkardır, ruhanilərin o dünya haqqında şirin vədləri ağlasığmaz uydurmalardan ibarətdir. Molla Müştəba nəfsinin qurbanı olduğu ağır qızdırmadan ayıldıqda, bir molla olsa da, doktor üçün adam yollayır.

Topluya daxil olan əsərlər içərisində ən həcmlisi "Etiqad" povestidir. Povestdə kəndin gerilikləri, insanların hələ də çürük inam və etiqadların əsiri olduğu göstərilir. Feldşerin dəfələrlə xəbərdarlığına baxmayaraq, kasıb kəndli Əhliman kişi gözlərinin müalicəsi ilə məşğul olmur və qəflətən gözləri tutulur. O bunu allahın ona qəzəbi kimi başa düşür, səbəbini bir vaxt öldürdüyü pişiklə əlaqələndirir. Əhliman kişi ağır ailəsini saxlamaq üçün gözlərinin açılmasını istəyir, lakin o bunu tibbi yolla deyil, allahın əli ilə - ocaqlara, pirlərə getməklə əldə etmək istəyir, uzaq məsafədəki imam qəbrinə gedir. Faydası olmur. Qatarla Bakıya - Nardaran pirini ziyarətə gəlir, burada da bir fayda olmur və kişi lap bədbinləşir. Lakin bu zaman ona rast gələn yaxşı adamlar – professor Rəfiqə xanım və Səxavət müəllim onun yönünü başqa səmtə salırlar - professor onun gözlərinə ağır operasiyadan sonra işıq verir.

Kəramət Tağıyev çox sakit, təmkinli təhkiyə dilinə malikdir. Bir hadisədən başlayır və tədricən digər hadisələrə keçir, oxucunu ustalıqla mətləbin üstünə gətirir. Bu hal bütün hekayə və povestlərində özünü göstərir. Məsələn, son povestdə müxbirin dünya şöhrətli göz həkimi ilə görüşü təsvir olunur. Əhliman kişinin başına gələnləri professor nəql edir və məlum olur ki, həmin professor həkimlərə inamı olmayan, "açsa mə-

nim gözümü allah açacaq" inamı ilə yaşayan qoca Əhliman kişinin oğludur.

Yazıçının üslubunun ən səciyyəvi cəhətlərindən biri də təhkiyə və dialoqların yumorla, bir çox hallarda satirik epizodlarla davam etdirilməsidir. Yazıçı komizmdən bədiilik vasitəsi kimi geniş istifadə edir, bəzən əsərlərinin əsas ideyasını komik yolla üzə çıxarır; əsərdə komik pafos üstünlük təşkil edir. Xüsusən fanatizmin, mollaların ifşasına həsr olunmuş əsərlərində komik mübaliğə və detallar, hazırcavablıq daha qabarıq nəzərə çarpır.

Yazıçı xalq dili frazeologiyasından, atalar sözləri və məsəllərin komizm imkanlarından ustalıqla istifadə edə bilmişdir. Müəllifin orijinal səlis üslubu vardır..

Bunlarla yanaşı, topluya daxil olan əsərlərin keyfiyyətini daha da yaxşılaşdırmaq üçün aşağıdakıları da qeyd etməyi lazım bilirəm:

1.Ön söz - "Sənin əlli yaşın var" - 13 il əvvəl yazıldığı üçün bu nəşrlə tutmur və ona görə də yenidən işlənməlidir.

2.Hekayə və povestlərdə bəzən artıq və yersiz epizodlara təsadüf edilir. Məsələn, "Etiqad" povestində ali məktəb dekanının kəndə gəlməsi, tələbələri məhsul toplanışına gətirmək söhbəti, kəndin məktəbinin boşaldılması, tələbələrə yemək və yer verilməsi məsələləri əsas hadisələrlə əlaqələnə bilmir. Bunların yüksək pafosla təsviri isə heç yerinə düşmür.

3.Əsərlərdə təkrarlar vardır. Məsələn, övladın qumara, sərxoşluğa qurşanıb, valideynlərinin üzünə ağ olması, sonralar peşmanlıq keçirməsi "Ata qarğışı" hekayəsində də var, "Məktub" hekayəsində də. Hətta bəzən eyni mövzuda (eyni obraz adları ilə) iki hekayəyə rast gəlmək olur ("Canını təslim verdi", "Həbib molla qiyafəsində"). Yaxud xəstə anasına dua yazdırmaq üçün mollanın yanına gedən qız əhvalatı hekayələrdə təkrar olunur və s.

4.Bəzi hekayələrdə bir primitivlik, ibtidailik, mövzu təkrarı hiss olunur. Dialoq şəklində yazılmış "Get, bala, yaxşı hazırlaş" hekayəsində bu cəhətlər aydın görünməkdədir.

Hekayə və povestlər maraqlı və faydalıdır, yüksək didaktik və estetik keyfiyyətlərə malikdir. Ona görə də nəşriyyat planına daxil edilib çap olunmasını məsləhət bilirəm.

V.İ.Lenin ad. APİ. Dos. H.İ.Mirzəyev.
«Müasir Azərbaycan dilində təsirli-təsirsiz fellər»
DD. 11.10.1984

Giriş, dörd fəsil və kitabiyyatdan ibarət olan bu dissertasiya Azərbaycan dili qrammatik quruluşunun mühüm problemlərindən birinə həsr olunmuşdur. Təsir kateqoriyası növ kateqoriyası ilə sıx bağlıdır və dilin morfoloji quruluşunun öyrənilməsi baxımından aktualdır və bu sahədə

ümumiləşdirici bir monoqrafiyaya çoxdan ehtiyac duyulurdu. Ona görə də deyə bilərik ki, dos. H.Mirzəyev öz doktorluq dissertasiyası üçün vacib və gərəkli bir mövzu seçmişdir.

Dissertasiyanın girişində ümumi qayda üzrə mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın metodları, məqsədi, aprobasiya işi və əsərin yenilikləri göstərilmişdir.

I fəsil Azərbaycan dili fellərinin əlamətdar cəhətlərinin tədqiqinə həsr olunmuşdur. Doğrudur, bu vaxta qədər felin müxtəlif xüsusiyyətləri, çoxkateqoriyalı olması, dilin milli orijinallığının qorunmasında rolu və s. kimi məsələlər barəsində az danışılmayıb, lakin ilk dəfə olaraq bu əsərdə felin nitq hissələri sistemində yeri ətraflı tədqiq olunmuşdur.

Bu fəsildə habelə təsir kateqoriyası, onun tədqiqi vəziyyəti, tədqiqi işinin əhəmiyyəti və zəruriliyini doğuran səbəblər hərtərəfli araşdırılmış və beləliklə, mövzunun nəzəri və praktik əhəmiyyəti elmi şəkildə əsaslandırılmışdır.

II fəsil "Sadə fellərdə təsirlilik və təsirsizlik" adlanır. Bu fəsil həcm etibarilə də böyük olub, dissertasiyada mühüm yer tutur. Müəllif birhecalı, ikihecalı və üçhecalı sadə fellərin fonetik tərkibinə nəzər salmış, onların ilk və son səslərini, bu fellərin sonunda tarixi səs-morfem dəyişmələrini və bunların təsir kateqoriyasının təzahüründə rolunu ətraflı tədqiq etmişdir. Bu hissədə verilmiş sxemlər müəllif fikrinin əsaslandırılmasında mühüm rol oynayır.

Fəslin sonunda təsirli və təsirsiz sadə fellərin əşya-obyekt bildirən sözlərlə əlaqəsi və bu əlaqənin xarakteri tədqiq olunmuş, ilk dəfə olaraq bütün təfərrüatı ilə obyekt əlaqəsinin məna incəlikləri hesaba alınmışdır.

Fel düzəldən şəkilçilər və onların təsir kateqoriyasının yaranmasında rolu ilk dəfə bu əsərdə tam əhatə olunmuşdur. Şəkilçilərin təsirli və ya təsirsiz fel yaratması imkan daxilində onların (şəkilçilərin) etimoloji əsası, mənşəyi ilə bağlı izah edilmişdir. Dəqiq qruplaşdırma aparılmış və hansı şəkilçilərin yalnız təsirli, hansıların yalnız təsirsiz fel düzəltdiyi müəyyən edilmişdir. Eyni zamanda həm təsirli, həm də təsirsiz fel düzəldən şəkilçilər də dəqiqləşdirilmişdir.

Mürəkkəb fellərdə təsirlilik-təsirsizlik məsələlərinin tədqiqi ilə quruluşca fərqlənən bütün fellər əhatə edilmişdir.

Dissertasiyanın IV fəsli yeni fonetik qabıqda yerləşib, keçid prosesində olan, həm təsirli, həm də təsirsiz fel kimi işlənən çoxmənalı və omonim fellərin ikili xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur. Müəllif burada eyni felin dildə həm təsirli, həm də təsirsiz fel kimi işlənə bilmə səbəblərini konkret dil materialı əsasında felin semantik inkişafı prosesi ilə bağlı izləmişdir. Burada təsirli və təsirsiz fellər cərgəsi, sinonim, antonim təsirli fellər, təsirli fellərin həmcinsləşməsi kimi məsələlər də maraqlıdır.

H.Mirzəyev 20 ilə qədər bir müddətdə ədəbi dilimizin, şivələrin, qədim abidələrin, loru (və hətta bəzən vülqar) məişət nitqinin verdiyi faktları toplamış, illərlə onların üzərində müşahidələr aparmış və öz müşahidələrinin nəticələrini nəzərdən keçirdiyimiz bu əsərdə toplamışdır. Müəllif bu uzun müddət ərzində turkologiyada fel mövzusu ilə bağlı əsas ədəbiyyatı diqqətlə öyrənmiş, saf-çürük edərək ümumi nəticələrə gəlmişdir. H.Mirzəyev elmi ədəbiyyat məsələsində çox həssas olub, demək olar ki, heç bir əlaqədar ədəbiyyatı nəzərdən qaçırmamışdır. Faktları – topladığı zəngin materialı bir sistem şəklində analiz etdiyindən elmi-nəzəri ədəbiyyatdakı bir sıra mülahizələrlə, təbii olaraq, razılaşmamış, əsər boyu tənqidi mülahizə və fikirlərlə irəliləmişdir.

Bu da yaxşıdır ki, əsər bütövlükdə çap olunmuşdur. Mən daim H.Mirzəyevlə bu mövzu ətrafında söhbətdə olmuş, fəsillər hazır olduqca diqqətlə oxuyub öz mülahizələrimi bildirmişəm. Bundan əlavə, müəllifin bu barədə "Müasir Azərbaycan dilində təsirli və təsirsiz fellər" (1979) adlı kitabını redaktə etmiş və əsərə ön söz yazmışam, "Azərbaycan dilində sadə fellər" (1984) adlı kitabı haqqında Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində dilçilik bölməsinin iclasında geniş rəy söyləmişəm. Bunlarla yanaşı, əsəri bütövlükdə oxuyub, öz qeydlərimi müəllifə çatdırmışam.

Şübhəsiz, hər bir başqa əsər kimi, bu əsərdə də mübahisə doğuran mülahizələr, yanlış faktlar və qüsurlar vardır. Lakin bütövlükdə əsər doktorluq dissertasiyasının tələblərinə tam cavab verir.

Kirov adına ADU. Hacıyev Tofiq Müzəffər oğlu.
«Tabeli mürəkkəb cümlənin sadə cümləyə transformasiyası»
ND. 07.11. 84

Biz bu vaxta qədər dilimizin mövcud vəziyyətini daha çox təsviri yolla öyrənmişik. Amma indi bir sıra tədqiqat işləri ortaya çıxır ki, həmin işlər *necədir?* sualı ilə yanaşı, *niyə belədir?* - sualına da cavab verir. Yəni biz adətən dilin morfoloji və sintaktik quruluşundan danışarkən hazır formaları, qaydaları, materialları nəzərdən keçirmişik. Son dövrdə meydana çıxan bəzi tədqiqat işlərində hazırkı dilimizdə olan bir sıra sintaktik formalar bu formaya necə gəlib düşmüşdür, hansı konkret prosesin nəticəsidir və proses hara aparır kimi maraqlı məsələlərə də cavab verilir.

T.M.Hacıyevin dissertasiyası məhz belə əsərlərdəndir. O, mürəkkəb cümlənin transformasiyasını öyrənərkən dildə sadə cümlənin mürəkkəbləşməsi ilə yanaşı, mürəkkəb cümlənin sadələşməsi kimi mühüm bir əks prosesin zəngin nümunələrini ortaya çıxarmış, bu prosesin nəyə səbəb olduğunu ətraflı araşdırmışdır.

Şübhəsiz, T.Hacıyev bu məsələyə birinci toxunan şəxs ola bilməzdi. Türkologiyada, Azərbaycan və rus dilçiliyində bu və ya başqa məsələdən danışılarkən, yaxud bilavasitə həmin mövzu ilə bağlı müəyyən fikirlər söylənmişdir. Ona görə də dissertant ilk fəsildə məsələnin tədqiqi tarixini araşdırmış, bu sahədəki fikirləri nəzərdən keçirməklə, tədqiqatçıların gördüyü işləri ümumiləşdirmişdir. Aydın olur ki, ya baş cümlə, ya da budaq cümlə, yaxud da bütövlükdə tabeli mürəkkəb cümlə transformasiyaya uğraya bilir.

Transformasiyanın səbəbləri dissertasiyada diqqətlə araşdırılmışdır: reduksiyaya uğrayan komponentin ikinci dərəcəli informativ yükə malik olması, həmin komponentdə modal mənanın güclü təzahürü, komponentin standart şəkil alma meyli və nəhayət, dildə qənaət meylinin güclü olması transformasiyaya səbəb ola bilir.

Aydın olur ki, təyindən başqa, bütün üzvlər transform üzv ola bilər və bütün budaq cümlələrdə transformasiya mümkündür.

Dissertasiyanın üçüncü fəslində *reduksiya və ellipsis nəticəsində nələr yaranır?* sualına cavab verilir. Müəllif müəyyənləşdirir ki, reduksiyaya uğrayan komponent cümlə üzvünə, ara sözə, ədata və bağlayıcıya çevrilə bilir. Bu hadisə bir sıra köməkçi nitq hissələrinin yalnız tək-tək sözlərdən deyil, həm də cümlədən yarandığını göstərir və onların mənşəyini başqa yerdə axtarmaq üçün yol göstərir. Müəllifin tədqiqatı modal sözlər ilə bağlayıcılar arasında bir yaxınlıq olduğunu da təsdiq edir. Transformlar tam və tam olmamaqla iki növə ayrılır.

Müəllif hadisələrə bir ölçü ilə, vahid prinsiplə yanaşır, ona görə də nəticələri düzgündür.

Dissertasiyada xırda qüsurlar da var:

1.Səh. 24-də fikir ziddiyyətlidir: bir tərəfdən, "razılaşmaq olur ki," əsas məna baş cümlədə də olur - deyilir, bir az sonra bu fikir inkar edilir.

2."Görünürdü ki" sözündə ***-dü*** keçmiş zaman şəkilçisi hesab olunur (s.39).

3.Tək-tək sözlər "ifadə" adlandırılır: "Yeri gəlmişkən, *görək* ifadəsi haqqında" (s.48).

4.Yanlış fikir söylənilir: "***Sanki*** ifadəsi isə əksinə, tərkibinə daxil olduğu cümlə ilə qrammatik cəhətdən bağlıdır…" (s.136)

5.Tamamlığın baş üzv olması fikri B.P.Ardentova (1962) isnad edilir. Halbuki ilk dəfə Kazım bəy söyləmişdir. (s.66)

6."Səni yanasan" ifadəsinin izahı inandırmır (s.92). Qrammatik əlaməti başqa cür izah etmək mümkündür.

7. "Doğrudur, düzdür - amma" bağlayıcılı cümlələr Ə.Abdullayevdə ağlabatan şəkildə tabeli mürəkkəb cümlə sayılır. Əsərdə münasibət bildirilmir.

8.Səh. 141-də "səbəb" sözü "çünki"yə uyğun olsa da, verilmiş misalda budaq cümləni baş cümləyə bağlamır.

Əsər mühüm bir məsələ barəsində dilçilik fikrini genişləndirir və namizədlik müdafiəsinin tələblərinə tam cavab verir.

S.M.Kirov adına ADU. Dissertant Xəlilov Nizami. Qasım oğlu. «Ə. Haqverdiyev və folklor» ND. 07.11.84

Əbdürrəhim bəy Haqverdiyev görkəmli dramaturq və nasir olmaqla yanaşı, həm də istedalı jurnalist, ədəbiyyat tənqidçisi, teatr tarixçisi, dilçi və ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində - çətin və mürəkkəb bir şəraitdə, Azərbaycan ziyalıları arasında dil və mədəniyyət məsələləri ətrafında ciddi parçalanma və təmayüllərin hökm sürdüyü bir zamanda Ə.Haqverdiyev böyük dahiliklə əsl yolu düzgün başa düşmüş, xalq dilinin, ümumxalq mədəniyyətinin əsas və aparıcı olduğunu, yad təmayüllərin keçici xarakterini düzgün anlamış, ona görə də bədii və elmi yaradıcılıq prosesində canlı xalq dilinə, xalqın ruhundan süzülüb gələn qabaqcıl meyil və ənənələrə, Azərbaycan xalqının zəngin və misilsiz folkloruna əsaslanmışdır. Bu səbəbdən, Mirzə Cəlil kimi, Ə.Haqverdiyev də bu gün çox sevilir, onun bədii və elmi irsi kommunizm quruculuğu işində gənclərimizə böyük mənəvi qüvvə verir, gənc nəslin estetik tərbiyəsində mühüm rol oynayır. Onun əsərlərində milli kolorit çox güclüdür.

Ə.haqverdiyevin dram və nəsr yaradıcılığının gücü zəngin folklor zəminə bağlı olması, yazıçının şifahi xalq ədəbiyyatından böyük ustalıqla faydalanması ilə əlaqədardır. O öz əsərlərində folklor materiallarından praktik istifadə ilə yanaşı, bu sahənin elmi tədqiqi ilə də xüsusi məşğul olmuş, həmin sahəyə dair bir sıra qiymətli məqalələr yazmışdır.

Görkəmli sənətkarın fəaliyyəti və yaradıcılığı müxtəlif cəhətdən tədqiq olunmuş, fəaliyyətinin ayrı-ayrı sahələrinə dair qiymətli monoqrafiya və dissertasiyalar yazılmışdır. Lakin bu vaxta qədər Ə.Haqverdiyev və folklor kimi zəngin və maraqlı bir sahə tədqiqatdan kənarda qalmışdı. Odur ki Nizami Qasım oğlu Xəlilovun dissertasiya mövzusu aktualdır.

Avtoreferatla tanışlıq gənc alimin tədqiqatçılıq qabiliyyəti ilə bağlı xoş təəssürat yaradır. Avtoreferat dolğun olub, Ə.Haqverdiyevin Azərbaycan folklorundan istifadə ustalığı barədə sistemli məlumat verir. Müəllif mövzu ilə bağlı zəngin praktik material toplamış, həmin materialı ciddi plan əsasında, elmi-nəzəri ədəbiyyatı diqqətlə öyrənməklə ətraflı şərh etmiş, yazıçının folklordan istifadə ustalığını ortaya çıxarmışdır..

Giriş, üç fəsil və kitabiyyatdan ibarət olan bu dissertasiya yüksək nəzəri səviyyəsi ilə diqqəti cəlb edir. Girişdə mövzunun aktuallığı, işin məqsədi və tədqiqatın yenilikləri ilə bağlı qeydlər dissertasiya haqqında

əvvəlcədən aydın təsəvvür yaradır və dissertantın Marksizm-Leninizm klassiklərinin əsərlərinə, parityanın ədəbiyyat və incəsənət haqqında qərarlarına, görkəmli alim və sənətkarların bilavasitə mövzu ilə əlaqədar fikir və mülahizələrinə bələd olduğu, onlardan düzgün istiqamət aldığı tam bir qənaət hasil edir.

Dissertasiyanın ayrı-ayrı fəsilləri arasında möhkəm məntiqi rabitə vardır. Fəsillər bir-birini tamamlayır və beləliklə, tədqiq edilən mövzu ilə bağlı bitkin təəssürat yaradır.

"Ə.Haqverdiyev xalq ədəbiyyatı haqqında" adlı birinci fəsil sonrakı fəsillər üçün bir açardır. Bu fəsildə müəllif, Ə.Haqverdiyevin şifahi xalq ədəbiyyatı, teatr tarixi - xalq teatrı, xalqın psixologiyası, etnoqrafiyası, dünyabaxışı, məişəti, adət və ənənələri, dil yaradıcılığı barədə fikir və mülahizələrini nəzərdən keçirmiş, elmi məqalə, çıxış və qeydlərini ətraflı təhlil etməklə böyük yazıçının yaradıcılığında folklor ənənələrinin kortəbii deyil, şüurlu xarakter daşıdığını, yazıçının bu sahədə dərin elmi nəzəri biliyə malik olduğunu və öz yaradıcılığında bədii əsərin folklor qaynaqlarına usta yazıçı-alim nəzəri ilə baxdığını şərh etmiş, təkcə çap olunmuş materiallarla kifayətlənməyərək, Ə.Haqverdiyevin zəngin arxivindən geniş istifadə etmişdir.

Dissertasiyanın II fəsli - "Ə.Haqverdiyev yaradıcılığında xalq ədəbiyyatından istifadə"- geniş bir problemin yığcam şərhindən ibarətdir. Burada biz Ə.Haqverdiyev sənətindəki təbiiliyin, şirinliyin, gözəlliyin, yığcamlığın, yumorun, satiranın yaranma sirlərindən biri və mühümü ilə – yazıçının şifahi xalq ədəbiyyatına məxsus müxtəlif janrlardan nəyi və necə əxz etdiyi ilə ətraflı tanış oluruq. Müəllif bunları yazıçının böyük irsindən aldığı zəngin faktlar və misallarla izah etmiş, Ə.Haqverdiyev sənətinin folklorla bağlı sirlərini açıb göstərmişdir.

"Yazıçının dil və üslubuna folklorun təsiri" adlandırılan III fəsildə şifahi xalq ədəbiyyatı materialları əsasında yazıçının dram və nəsr dili nəzərdən keçirilmişdir. Bu hal müəllif istəyindən çox, mövzunun xarakteri ilə bağlıdır. Belə ki şifahi xalq ədəbiyyatı dil materialı əsasında reallaşır, dildə təzahür edir və buna görə də bədii əsərin dili ilə bağlı hər bir elementdə özünü göstərir. Odur ki müəllif xalq ədəbiyyatına məxsus portret çəkmə imkanlarının, təkrirlərin, bir sıra tərkiblərin, təhkiyə üsulunun, atalar sözləri və məsəllərin, xalq dili frazeologiyasının, xalq ədəbiyyatında tez-tez təsadüf edilən yuxugörmənin, əvvəlcədən hiss etmə, duyma aktının, xalq mahnılarının, laylaların, bayatıların, xüsusi adlar və ləqəblərin, alqış, qarğış, söyüş bildirən söz və ifadələrin, şifahi ədəbiyyatda bol-bol istifadə edilən başqa vasitələrin Ə.Haqverdiyev üslubunda rolunu, Ə.Haqverdiyevin xalq ədəbiyyatı ilə daha çox bağlı olan üslubi fiqurlardan istifadə ustalığını açıb göstərməklə yazıçının dram və nəsr

dilinin bədiilik sirlərinin mühüm və müəyyən bir qismi ilə oxucunu tanış edir.

Müəllifin tədqiqatı namizədlik dissertasiyası tələblərinə tam cavab verir. Dissertasiyanın əsas hissələri çap olunmuşdur.

Bunları nəzərə alaraq qeyd edirik ki, "Ə.Haqverdiyev və folklor" adlı əsər namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Nəsimi ad. Dilçilik İnstitutu. Məmmədova Zərifə Bayram qızı. «Müasir Azərbaycan ədəbi dilində sözün mənasının genişlənməsi» ND. 16.01.1985

Son dövrlərdə müdafiə olunan dissertasiyaları nəzərdən keçirdikdə aydın olur ki, bəzən böyük və ümumi bir mövzu götürülür və onun daha çox gözə dəyən cəhətləri öyrənilir; bəzən də əksinə, son dərəcə dar və konkret bir mövzu bütün əsas cəhətləri nəzərə alınmaqla tədqiq edilir.

Bu dissertasiya ikinci qrup əsərlərdəndir.

Sözün leksik və semantik xüsusiyyətlərindən bəhs olunan əsərlərdə az-çox onun mənasının genişlənməsindən də danışılmışdır, lakin bu əsərdə mövzu ilk dəfə monoqrafik tədqiqat obyektinə çevrilmişdir.

Əsərin "Giriş" hissəsində mövzunun tədqiqi tarixinə nəzər salınmış, rus, Avropa, Azərbaycan dilçilərinin, türkoloq alimlərin bu sahədə xidməti məsələnin qoyuluşu nöqteyi-nəzərdən araşdırılmışdır.

"Sözlərin semantik dəyişməsinin semasiologiyada yeri. Semantik dəyişmə tipləri" adlı I fəsil dissertasiyanın əsasını təşkil edir. Müəllif semantik dəyişmənin məcaziləşmə, mənanın genişlənməsi, mənanın daralması kimi üç tipindən ikincisinin tədqiqi ilə məşğul olmuşdur. Lakin əlaqəli olduğundan sözün mənasının genişlənməsi və daralması məsələlərini, demək olar ki, eyni ölçüdə tədqiq etmişdir. Müəllif məna genişlənməsinin çoxmənalılıqla, məcaziləşmə ilə əlaqə və münasibətini, yaxın və fərqli cəhətlərini aydınlaşdırmağa çalışmış, sözün mənasının genişlənməsinin mətnlə bağlı olduğunu - söz birləşmələri, cümlə və abzas daxilində müəyyənləşdiyini qeyd etmişdir.

Dissertasiyanın bu fəslinin son bölməsini mənanın genişlənməsi və sözün qrammatik quruluşu məsələləri təşkil edir. Burada mənaca genişlənən sözlər birləşmə və ifadələr daxilində nəzərdən keçirilmiş, şəkilçilərin, birləşmələrin mənanın genişlənmə və daralmasında rolu aydınlaşdırılmışdır.

“Mənaca genişlənmiş sözlərin leksik-semantik analizi” adlı II fəsil isim və fellərdə məna genişlənməsinin müxtəlif formalarını əhatə edir. Məna genişlənməsi ekstralinqvistik amillərlə əlaqəli öyrənilmiş, məna

dəyişməsinin bir çox hallarda əşya və hadislərin dəyişməsi ilə bağlı olduğu müəyyən edilmişdir.

Yalnız xalis Azərbaycan sözlərində deyil, alınmalarda da bu proses izlənmişdlir. Müəllif Azərbaycan dilçilik ədəbiyyatına çox diqqətlildir.

İş namizədlik dissertasiyasının tələblərinə uyğundur.

Müəllifin cəhdlərinə baxmayaraq, dissertasiyada çoxmənalılıqla məna genişlənməsi qarışır və hətta əsərin sonunda müəllif çoxmənalı felləri mənaca genişlənmiş fellər hesab edir. Məsələyə bu cür yanaşdıqda çoxmənalı adları da belə götürmək olardı.

Bağır Bağırov. «Poeziyaya həsr olunmuş ömür»
15.03.1985

492 səhifəlik bu əsər "Giriş" (3-21), "Böyük yolun başlanğıcı" (21-141),"Qəzəb və məhəbbət nəğmələri" (141-184), "Zaman və poeziya" (184-384), "Müasirlik və yenilik mövqeyindən" (384-451) və "Yaradıcılıq üfüqləri" (451-492) kimi beş fəsildən ibarətdir. Monoqrafiya bütövlükdə xalq şairi Rəsul Rzanın yaradıcılığına həsr olunmuşdur, ona görə də şairin ilk qələm təcrübələrindən başlayaraq, son dövr yaradıcılığına qədər, demək olar ki, bütün məsələləri əhatə edir.

Hiss olunur ki, müəllif bu əsəri uzunmüddətli gərgin elmi axtarışların nəticəsi kimi meydana çıxarmışdır. Sadə, aydın, təmkinli bir dil ilə yazılmış bu əsər R.Rzanın 50 ildən artıq bir dövrü əhatə edən böyük yaradıcılıq yolu barədə yaxşı təsəvvür yaratmaqla bərabər, ümumən sovet dövrü ədəbiyyatımızın inkişaf yolu haqqında da aydın bilgi verir, R.Rza yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişaf yolu fonunda tədqiq edilir. 20-ci illərin sonu, 30-cu illərin əvvəllərindən başlayaraq, ardıcıl və sistemli şəkildə tədqiq edilən R.Rza yaradıcılığı, şairin poeziya axtarışlarının yüksələn bir xətlə inkişafı ümumən Azərbaycan ədəbiyyatına məxsus, bu ədəbiyyatın inkişaf və zənginləşməsi ilə bağlı bir sıra məsələlərin şərhinə geniş imkan vermişdir. R.Rza Azərbaycan sovet poeziyasının yaradıcılarından biri olduğu üçün onun yaradıcılığının tədqiqi sovet dövrü ədəbiyyatımızın inkişafından təcrid edilə bilməzdi, əksinə, müəllif bu əlaqəni şüurlu şəkildə bir qədər də dərinləşdirməklə və daha ətraflı nəzərdən keçirməklə, yaranmaqda olan yeni tipli poeziyanın qarşısına çıxan maneə və əngəlləri, onun uğurlu və uğursuz cəhətlərini göstərməklə daha bitkin bir iş görmüş, bütövlükdə Azərbaycan sovet ədəbiyyatının tədqiqi və öyrənilməsi sahəsində böyük zəhmət çəkmişdir. Monoqrafiya ümumxalq məhəbbəti qazanmış sənətkarın yaradıcılığının bütövlükdə öyrənilməsi baxımından ilk uğurlu addım kimi qiymətlidir.

Rəsul Rzanın sənətkarlığı, cəsarətli yaradıcılıq yolu, əsərlərinin məziyyətləri barədə müxtəlif adda kitabçalar, monoqrafiyalar, külli miqdarda məqalə çap edilmiş, şairin yaradıcılığına namizədlik və doktorluq dissertasiyaları həsr olunmuşdur; lakin şairin Azərbaycan sovet poeziyası yaradıcılarından biri kimi xidmətləri, ənənə və novatorluq məsələləri, Böyük Vətən müharibəsi dövrü poeziyası, ədəbi əlaqələrin inkişafı sahəsində rolu, dünya dillərinə tərcümə olunması və s. ilk dəfə bu monoqrafiyada sistemli şəkildə tədqiq olunmuşdur.

"Böyük yolun başlanğıcı" adlı birinci fəsil şairin 1928-ci ildən - ilk qələm təcrübələrindən Böyük Vətən müharibəsinə qədərki dövrü əhatə edir. Müəllif ilk şeirlər əsasında müəyyənləşdirir ki, həyata fəal münasibət, inqilabi pafos, fikrin aydın və sərrast ifadəsi, tribunluq, döyüşkənlik, nikbin ruh R.Rza şerinin ilk anlardan görünməyə başlayan əsas keyfiyyətləri olmuş, şair vahid ədəbi mövqedən bunları daim inkişaf etdirmişdir. Bu dövrün ilk görkəmli nailiyyəti - "Bolşevik yazı" birdən-birə yaranmamış, 1928-1931-ci illər arasındakı axtarışların, poeziya sahəsində təcrübənin nəticəsi kimi meydana çıxmışdır.

Akad.M.Arifin dediyi kimi, Sovet ədəbiyyatının "tələbəlik illəri", "startı" olan 30-cu illər qızğın yaradıcılıq və məfkurə mübarizəsi illəri idi. Müəllif bu mübarizədə R.Rzanın M.Quliyev, Ə.Nazim, M.K.Ələkbərli, H,Zeynallı, M.Rəfili, H.Mehdi, M.Arif və başqaları ilə birlikdə necə iştirak etdiyini həmin dövrün materialları əsasında ətraflı tədqiq edərək oxucunu o illərə aparmış, o illərin havasına daxil etmişdir. Biz əsərdə R.Rzanın bu inkişaf və mübarizədə günbəgün artan fəaliyyəti ilə tanış oluruq. O dövrün mətbuat orqanlarının, SSRİ və Azərbaycan Proletar Yazıçıları qurultaylarının R.Rzanın həyatında rolunu, şairin ümumi yüksəliş və tərəqqi yolunda əmək və istedadını necə sərf etdiyini öyrənirik. 20-ci illərdə, bu illərin sonlarında, sonrakı onillikdə S.Rüstəm, M.Müşfiq, S.Vurğun, M.Rahim, M.Rəfili, A.Faruq, N.Rəfibəyli, M.Dilbazi kimi şairlərin poeziyaya yeni məzmun gətirməklə yanaşı, yeni forma axtarışları sahəsində xidmətləri xüsusi araşdırılmış, sərbəst şeir formasının yaradılmasında Mayakovski, Nazim Hikmət, R.Rza qələminin rolu ətraflı izah olunmuşdur. Maraqlıdır ki, sərbəst şeir R.Rza yaradıcılığında dərin kökləri olan qədim ənənə ilə bağlı izah edilir, bu formanın gəlmə, göydəndüşmə olduğunu fikirləşənlərə qəti cavablar verilir.

Beləliklə, müəllif bu fəsildə şairin 20-30-cu illər şeir yaradıcılığı əsasında şairin tədricən necə yetkinləşdiyini, geniş ictimaiyyətin diqqətini cəlb edən bir şair kimi formalaşdığını, ictimai fəaliyyətini, mədəni inkişafa xidmətlərini də ətraflı tədqiq etmişdir.

"Qəzəb və məhəbbət nəğmələri" fəsli R.Rzanın müharibə dövrü şeir yaradıcılığına həsr olunmuşdur. Min dörd yüz on səkkiz gün davam edən bu müharibə, R.Rzanın dediyi kimi, "sonsuz insan iztirabları ilə do-

lu" günlərin başlanmasına səbəb oldu. Başqa şairlərimiz kimi, R.Rza da öz qələmini süngüyə çevirdi. Şair bu dövrdə olduqca məhsuldar işləmiş, Kerç cəbhəsində bilavasitə döyüşlərdə iştirak edərək Sovet ordusunun misilsiz qəhrəmanlığını, Vətənə və xalqa sədaqətini öz gözləri ilə görmüş, yeni-yeni şeirləri, publisist yazıları və oçerkləri ilə döyüşçülərimizi düşmənə qarşı mübarizəyə ruhlandırmışdır. Onun bu dövrdə yazdığı şeirlərin bir qismi "Vətən", "Bəxtiyar", "Ölməz qəhrəmanlar", "İntiqam", "Leytenant Bayramın gündəliyindən", "Qəzəb və məhəbbət" kitablarında toplanmışdır. Tədqiqatçı bunların ümumi təhlili fonunda R.Rzanın müharibə dövrü fəaliyyətinin geniş mənzərəsini yaratmışdır.

Monoqrafiyanın üçüncü fəslini "Zaman və poeziya" fəsli təşkil edir. Bu fəsil 200 səhifəlik bir materialdan ibarət olub, həcm etibarilə əsərin ən böyük fəslini təşkil etdiyi kimi, məzmun və mündərəcə etibarilə də çox zəngindir, çünki R.Rzanın bir şair kimi daha çox püxtələşmiş dövrünü, ən görkəmli yaradıcılıq nümunələrini əhatə edir. Bir sıra gözəl lirik əsərləri ilə yanaşı, məşhur "Lenin" poeması bu dövrün məhsuludur. R.Rza yaradıcılığının bu dövrünü düzgün xarakterizə edə bilmək üçün müəllif şairin poeziyasının əlvanlığına, yenilik keyfiyyətlərinə, ənənəyə münasibətinə ciddi diqqət yetirmiş, forma və məzmun vəhdətini, sərbəst şerə göstərilən ümumi meyil və münasibətləri ardıcıl şəkildə izləmişdir. "Lenin" poemasının ideya-estetik keyfiyyətləri filologiyamızda az-çox tədqiq olunmuşdur, buna görə də müəllif poemanın yazılma şəraiti, şairin axtarış və tapıntıları barədə daha çox fikir söyləmiş, sonrakı dövrdə poema üzərində işi, əsərə əlavə etdiyi fəsillərin məzmunu barədə dəqiq araşdırmalar aparmışdır.

Bu fəsildə "Beynəlxalq mövzunun davamı", "Ən gözəl şerim, yanıqlı mahnım", "Fəal humanizm", "Rənglər silsiləsi ətrafında mübahisələr", "Şəxsiyyət və zaman", "Uşaq dünyası", "Sabir sağ olsaydı" kimi bölmələr R.Rzanın geniş diapazonlu yaradıcılığı barədə ətraflı məlumat almaq imkanı yaradır. Burada şairin beynəlxalq hadisələrə münasibəti də, uşaq şerləri də, satira və yumor yaradıcılığı da, yaradıcılığının mübahisəli cəhətləri də əhatə olunmuşdur. R.Rzanın bir şair kimi əzəməti, böyüklüyü bu bölmələrdə səmimiyyət və zəhmətlə qələmə alınmışdır.

R.Rza məhdud yaradıcılıq yolu keçməmiş, yalnız şeir yazmaqla məşğul olmamışdır. Onun nəsr əsərləri, zəngin publisistik və tənqidi məqalələri, oçerkləri vardır və bunlar onun yaradıcılığında xüsusi yer tutur. Bundan əlavə, R.Rza tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, bir sıra görkəmli rus və Avropa şairlərinin əsərlərini tərcümə etmişdir. Monoqrafiya müəllifi bunları da nəzərə almış, R.Rzanın ədəbi-ictimai fəaliyyəti barədə tam təsəvvür yaratmaq üçün "Müasirlik və yenilik mövqeyindən", "Yaradıcılıq üfüqləri" fəsillərində şairin tənqidi və publisistik

yaradıcılığını, tərcüməçilik fəaliyyətini və xüsusən şairin özünün başqa dillərə tərcüməsini ilk dəfə sistemli şəkildə ümumiləşdirmişdir.

Ümumən monoqrafiya yaxşı işlənmişdir. R.Rza yaradıcılığına dəyərli hədiyyə olub, ədəbiyyatşünaslığımızı da zənginləşdirəcəkdir.

Monoqrafiyanın islahı mümkün olan bir sıra nöqsanları da vardır:

1.Monoqrafiya ümumən dəqiq plan əsasında yazılmışdır, lakin bəzi bölmələr o qədər də təminedici deyildir. Məsələn, "Lenin" poemasından çox danışılır, lakin poemanın ideya-estetik keyfiyyətləri, quruluş və kompozision xüsusiyyətləri o qədər də açılmır. Bundan əlavə, bəzi məsələlər təfərrüatı ilə şərh olunduğu halda, şairin yaradıcılığının son illərinə diqqət yetirilməmişdir.

2.Monoqrafiyanı çapa hazırlayarkən, xüsusən də redaktə zamanı təkrarlara xüsusi diqqət yetirmək lazımdır. Əsərin həcminin böyüməsində təkrarların rolu çoxdur. Məsələn, səhifə 216-219, 234, 268, 277, 319, 320, 229, 380, 389, 428, 434 və s.-də təkrarlar var. "Mən bağa yox, ayrı bağa" şeri haqqında fikirlər, Mayakovskiyə münasibət məsələləri, Sabir satirasından şairin bəhrələnməsi və başqa məsələlər müxtəlif səhifələrdə təkrar olunur. Eyni əsərə aid səhifənin ayağındakı ədəbiyyat göstəriciləri də hədsiz dərəcədə təkrar olunur və yer tutur.

3.Monoqrafiyada artıq yerlər və xırdaçılıqlar da var. "Giriş" çox uzundur və burada ixtisar edilməli məsələlər çoxdur. İlk fəsildə tənqid məsələlərində də ixtisarı mümkün olan yerlər vardır. "Şeirdə novator axtarışlar" hissəsində kənara çıxma halları çoxdur. Səh. 184-dən 227-dək bəzi şeirlərin təhlili yerinə düşmür (s.234-də "Görüş" şeri). Səh.228-231 arasında məktublar monoqrafiyanın elmi dəyərini aşağı salır, yüngülləşdirir. "Sabir sağ olsaydı" başlığı altında şeirlər çox xırdalanır, bu cür xırdalanma "Müasirlik və yenilik mövqeyindən" (s.384) bölməsində də var. Səh.383-də,451-də, 487-490-da da belə artıq yerlər var.

4.Əsərdə ümumən sitatçılıq çox nəzərə çarpır və bundan əlavə, səh. 184, 371, 451 və s.-də köhnəlmiş sitatlar vardır.

5.Monoqrafiyada bir sıra ziddiyyətli fikirlər var: bax: səh. 21, 20-30, 190-192, 193 və s.

6.Bəzi başlıqlar yaxşı səslənmir: "Bolşevik yazı"ya qədər", "Şair ətrafında mübahisələr" və s. Monoqrafiyanın 22, 88, 89, 98, 114, 126, 152-153, 160, 201, 204, 214, 258, 345, 352, 423-426 və s. səhifələrində üslub qüsurları var.

7.Əsərdə bir sıra aydın olmayan imzalar müşahidə olunur: səh. 71-də "Mim-Re" Mikayıl Rzaquluzadə kimi izah olunur, bəlkə Mikayıl Rəfilidir?

8.Səh.99-100-də R.Rza və Sabir yaradıcılığı arasında məntiqi bağlılığın tədqiqi inandırıcı əsaslara malik deyildir.

9.Monoqrafiyanın bir çox səhifələrində sənətkarlıq məsələlərinə toxunulmuş və onları nəzərə çarpdırmaq üçün altından xətt çəkilmişdir. Bizcə, sənətkarlıq məsələlərini xüsusi bir fəslə toplamaq lazım idi. Bu cür mümkün olmadığı təqdirdə onları dağınıq halda qabarıqlaşdırmağın mənası yox idi.

10.Monoqrafiya, görünür, bir qədər əvvəllər (şairin sağlığında) yazılmış olduğu üçün bir çox hallarda ümumi müəllif təhlilində zaman uyuşması düz gəlmir və alınan təəssürat əsasında güman etmək olur ki, R.Rza yaradıcılığını davam etdirir. Bu cəhətdən əsərin dilinə xüsusi fikir vermək və onu mövcud vəziyyətə uyğunlaşdırmaq lazımdır (əslində, qeyd etməliyik ki, müəllif əksərən bu cəhəti nəzərə alıb; bizim qeydimiz unudulan səhifələrə aiddir).

Bizim bu qeydlərimiz redaktə zamanı asanlıqla islah oluna bilər. Qeydlər içərisində əsərin ümumi sisteminə zidd olan, onu daha çox uçurub-dağıtmağa səbəb olan nöqsanlar yoxdur. Bunların çap zamanı nəzərə alınması əsərin dəyərini daha da artırar.

Prof.Bağır Bağırovun "Poeziyaya həsr olunmuş ömür" adlı əsərini xalq şairi R.Rza yaradıcılığının ilkin geniş və hərtərəfli tədqiqi baxımından faydalı hesab edirik və onun çap olunmasını məsləhət bilirik.

Kirov ad. ADU. Z.Şahbazova. «Müasir Azərbaycan dilində ara söz, ara söz birləşmələri»
26.03.1985

131 səhifəlik bu əsər ara sözlərin yaranma, inkişaf və zənginləşmə yoluna, cümlədə roluna, məna xüsusiyyətlərinə həsr olunmuşdur. Müəllif birinci növbədə ara söz və ara söz birləşmələrinin cümlə üzvləri ilə qrammatik əlaqəsi məsələsini araşdırmışdır. Bu cəhətdən dilçiləri dörd qrupa ayırmışdır:

1).Cümlə üzvləri ilə qrammatik və semantik əlaqəni inkar edənlər. 2).Qrammatik əlaqəni inkar edib, yalnız semantik əlaqəni qəbul edənlər. 3).Ara sözləri cümlə üzvləri ilə bərabərhüquqlu sayanlar. 4).Ara sözlərin cümlə üzvləri ilə həm qrammatik, həm də semantik bağlılığını qəbul edənlər.

Əslində, burada üçüncü və dövrdüncü qrupları birləşdirmək olardı, çünki ara söz cümlə üzvü ilə bərabərhüquqlu sayılırsa, deməli, onun cümlə üzvləri ilə həm semantik, həm də qrammatik əlaqəsi qəbul edilir.

Müəllif özü dördüncü qrupun fikrini qəbul edir - həm mənanı, həm də qrammatik əlaqəni. Müəllifin fikrincə, ara sözlərin cümlə üzvləri ilə qrammatik bağlılığının mühüm bir əlaməti onun xəbərlə münasibətidir.

Ara sözlər modal mənasına görə də qruplaşdırılmış, modallığın üç növü göstərilmişdir: indikativ (həqiqi) modallıq; konyuktiv (gümanlı) modallıq; imperativ (əmr, arzu bildirmə və s.) madallıq.

Müəllifin fikrincə, ara sözlərin ifadə etdiyi modallıq subyektiv, xəbərdəki modallıq isə obyektiv modallıqdır və SM cümlədə OM-lə eyni ola bilər. SM bəzən obyektiv modallığı dəyişə, başqa səmtə yönələ bilər: *şübhəsiz, gəldi; bəlkə də gələr* və s. Bu cəhəti əsas tutaraq müəllif göstərir ki, "OM - SM-dən asılıdır, onunla qrammatik əlaqə yaradır". Z.Şahbazova bu əlaqənin mövcud tabelilik və ya tabesizlik əlaqəsindən fərqləndiyini, A.Q.Rudnevə əsaslanaraq, onun "nisbi əlaqə" ("соотносительный связ") olduğunu göstərir, lakin həmin hissə elə qarışıq izah edilir ki, heç nə başa düşülmür (s. 30-31).

"Ara söz, ara söz birləşmələrinin törəmə yolları" adlı bölmədə ara sözlər haqqında tədqiqatçıların fikirlərinə yığcam nəzər salındıqdan sonra cümlədə modal sözlərlə ara sözlərin fərqi müəyyən edilir, onların eyni şey olmadığı göstərilir. Modallığın: felin şəkilləri, felin zamanları, intonasiya, ədatlar, modal sözlər, ara sözlər, nidalar və s. ilə ifadə olunduğu və beləliklə, modal sözlərin modallıq vasitələrindən yalnız biri olduğu, ara sözlərin daha geniş mövqe tutduğu, bütün modal sözlərin ara söz olduğu, lakin bütün ara sözlərin modal söz olmadığı qeyd edilir, konkret misallarla baş cümlələrin, budaq cümlələrin (mübtəda, tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş cümlə, şərt, qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrdə budaq cümlələr) və cümlə üzvlərinin transformasiyası yolu ilə ara sözə çevrildiyi izah edilir.

Müəllif "ara söz" məfhumunu geniş götürür, ara söz birləşmələrini də çox vaxt bu ad altında düşünür, lakin bir qədər sonra ara söz birləşmələrini daha geniş tədqiq edərək onları ismi və feli olmaqla iki növə ayırır.

Z.Şahbazovanın əsəri maraqlı və dilçiliyimiz üçün faydalı əsərdir. Müəllifin zəhməti çoxdur. Elmi fikrin irəliləməsi üçün əsər xeyli nəzəri və praktik material verir. Müəllif öz fikirlərini çox zaman əyanilik vasitəsi kimi sxemlərlə əsaslandırır.

Əsərin bəzi nöqsanlarını da qeyd etmək istərdik:

1.Aşağıdakı cümlə və həmin cümlədəki "əsas cümlə üzvü olan və əsas cümlə üzvü ola bilməyən sözlər" başa düşülmür:

"Ara söz, ara söz birləşməsi ifadəsinin özü də bir termin kimi maraqlıdır. Ara sözlər - yəni iki kateqoriyanın: əsas cümlə üzvü olan və əsas cümlə üzvü ola bilməyən sözlər arasında özünə məxsus yer tutan sözlər". (s. 31) Bunlardan ikincilər elə ara sözlər özləridir (xitabla birlikdə) - özü özü ilə orta mövqeni necə tuta bilər?

2.Subyektiv modallıq, yəni ara sözlərlə ifadə olunan modallıq üç növə: indikativ, imperativ və konyuktiv modallığa ayrılır, amma məna incəliklərindən danışarkən ara sözlərin 7 qrupu verilir. Bizcə, bunların nisbəti uyğun olmalı idi. Ümumən, subyektiv modalığın üç növü ilə bu məna incəliklərini göstərən qruplar arasında münasibəti əks etdirən cədvəl tərtibi yaxşı olardı.

3.Mübtəda və tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümləsinin deformasiyası nəticəsində əmələ gələn "mənə elə gəlir ki", "qəribədir ki" tipli dil vahidlərinin nə vaxt ara söz, nə vaxt baş cümlə kimi çıxış etdiyi qaranlıq qalır.

4.Əsərdə verilən sitatların hamısı ruscadır.

5.Felin şəkillərinə aid sxemdə (s.29) bütün şəkillər əhatə olunmur.

6.Girişdə və sonrakı bir sıra səhifələrdə ad çəkilir, aşağıda mənbə göstərilmir, həm də bilmək olmur ki, məsələn, niyə M.Şirəliyev və M.Hüseynzadənin orta məktəb dərsliyinin həmişə yalnız 1946-cı il nəşri əsas götürülür.

Üzərində "redaktə etdim, çapa gedə bilər" sözləri yazılıb. Amma, əslində, əsər redaktə olunmayıb. Giriş çox tələsik yazılıb, cümlələr çox vaxt bir-birilə

bağlanmır; redaktə olunmalı üslub səhvləri, təkrarlar vardır və bunları asanlıqla ləğv etmək olar.

Əsərin yenidən redaktə olunmaqla "Maarif" nəşriyyatında çap olunmasını məsləhət bilirik.

R.Əsədov, Ə.Əhmədov. «Azərbaycan dili» (Azərbaycan məktəbinin VI sinfi üçün)
08.08.1985

224 səhifəlik bu dərslik mövcud proqramın tələblərinə uyğun şəkildə yazılmışdır. Ona görə də dərslikdə proqrama uyğun olaraq fel (felin formaları, feli sifət, feli bağlama və məsdər), zərf və köməkçi nitq hissələri əhatə olunmuşdur.

Dərslik filoloji pedaqogikanın uzunmüddətli təcrübəsinə əsaslanır, ənənəvi dərslik təcrübəsinin ən yaxşı cəhətləri əsasında yazılmışdır, ona görə də normadan kənar hallar müşahidə edilmir.

Nəzəri materialların həcmi düzgün müəyyənləşdirilmiş, elmi səviyyəsinə ciddi diqqət yetirilmişdir. Nəzəri hissələr dilçilik elminin son nailiyyətləri əsasında işlənmiş və müasir pedaqogikanın tələblərinə əməl edilmişdir. Tərif və qaydalar sadə və anlaşıqlıdır, şagirdlərin yaş və bilik səviyyəsinə uyğundur. Morfologiyanın əhatə edilən məsələləri sadə, təbii dil faktları, yadda qalan ifadə və cümlələrlə, **şagirdlərin səviyyəsinə uyğun** izah edilmişdir.

Dərsliyin mühüm keyfiyyətlərindən biri çalışmalar sisteminin zənginliyidir. Hər bir konkret mövzunun mənimsədilməsi üçün kifayət qədər çalışma tərtib olunmuşdur. Çalışmalar nəzəri materialın ayrı-ayrı detallarının mənimsədilməsinə xidmət etməlidir və dərslikdə bu cəhət nəzərə alınmışdır.

Çalışmalar sistemi elə qurulmuşdur ki, yalnız yeni dərsi öyrətməyə xidmət etmir. Müəlliflər çox ustalıqla bütün keçilmişlərin təkrarına, həm də arasıkəsilməz takrarına imkan yaratmışlar. Yaxşı cəhətdir ki, əsər boyu söz və ifalədərin yazılışı və tələffüzü məsələləri diqqət mərkəzində durur.

Əsərin həcmini artırmadan ayrı-ayrı çalışmalarda xarakterik söz və ifadələrin üzərinə müxtəlif işarələr qoymaqla fonetik, qrammatik, leksik təkrarı ardıcıl şəkildə davam etdirmək imkanı yaradılmışdır.

Çalışma mətnləri ictimai-siyasi, əxlaqi-estetik keyfiyyətlərinə görə də nəzəri cəlb edir. Mətnlərdə orta məktəbi bitirən şagirdlər üçün aşılamaq istədiyimiz hər bir keyfiyyət - iradəlilik, mənəvi saflıq, vətənə, insana, təbiətə məhəbbət, ictimai mülkiyyətə, əməyə kommunist münasibəti,

dostluq, yoldaşlıq, beynəlmiləlçilik və s. öz ifadəsini tapmış və hər bir çalışmanın qrammatik öyrədicilik xüsusiyyətləri ilə yanaşı, sosial-mənəvi cəhətləri də mütləq nəzərə alınmışdır.

Dərsliyin əvvəlində və sonunda keçilmişlərin təkrarı üçün xüsusi çalışmalar tərtib olunmuşdur.

Dərsliyin keyfiyyətcə daha da yaxşılaşması üçün bir sıra təklif və qeydlərimizi də müəlliflərə çatdırmaq istərdik.

1. Təklif edirəm ki, mədəniyyət tariximizə məxsus nadir abidələr və onların şəkilləri hesabına dərslik bir qədər zənginləşdirilsin; bizim VII-VIII siniflər üçün "Azərbaycan dili" dərsliyində olduğu kimi, dil və dilçilik sahəsində xidmətləri olan görkəmli alim və yazıçılardan bir neçəsinin (M.F.Axundov, N.Nərimanov, B.Çobanzadə, Ə.Dəmirçizadə və b.) şəkli və haqqında (çalışmalar şəklində) yığcam məlumat verilsin.

2. Dərslikdə təhlil sxemləri vardır. Lakin bunları hər bir nitq hissəsi üzrə daha ümumiləşmiş şəkildə qurmaq və xüsusi nəzərə çarpdırmaq lazımdır.

3.***İdi, imiş, isə*** - dərslikdə "köməkçi fel" adlandırılır. Bir sıra mənbələrdə də belədir. Bunları "köməkçi" də olsa, fel adlandırmaq olmaz. Bunlara dəqiq ad tapmaq lazımdır. "Köməkçi fel" yox, hələlik "köməkçi söz" demək olar.

"Alaydı", "alaymış" şəklində yazılışa orfoqrafiya icazə verirmi?

4.Dərslikdə mühüm bir məsələ üzrə termin vahidliyi olmalı - ya "dəyişən fel", yaxud da "şəxsli fel" termini işlədilməli, fel formaları bu termin altında öyrədilməlidir. Əks halda anlaşılmazlıq yaranır.

5.Bəzi hallarda nəzəri mətn paraqraflara ayrılır. Məncə, bu, lazım deyil, akademizmə aparır.

6.Dərslikdə deyilir ki, "feli bağlama da fel kimi təsirli və təsirsiz olur". Bu hökmdən belə çıxır ki, feli bağlama (eləcə də feli sifət və məsdər) fel deyil, amma fel kimi təsirli və təsirsiz olur. Əslində, deyilməlidir ki, feli bağlama da dəyişən (və ya şəxsli) fel kimi təsirli və təsirsiz olur.

7.Çalışmalar sistemində bir sıra nöqsanlar var ki, bunları redaktə zamanı asanlıqla islah etmək olar.

Bəzi çalışmalar ağırdır. Səh.12-də 32-ci çalışma. Oxuyun, isim, sifət, say və əvəzlikləri seçib yazın. Bunu bir dərs müddətində ancaq etmək olar.

Səh 36-da çalışma 61. İsim kimi ***yarış, gülüş, görüş*** sözləri verilir, onlardan məsdər düzəltmək tələb olunur.

İfadə düz qurulmur. Səh. 33: "Əmr forması II şəxsin təki heç bir şəkilçi qəbul etmir" demək düz deyil, deyilməlidir ki, formanın özünün şəkilçisi yoxdur.

"Oxuyun, mətnə ad verin" üsulu çox təkrarlanır. Bir sıra çalışmalar şifahidir, amma düzgün yazmaq üçün hərf buraxılıb. Çalışma 157.

"Bu söz cümlənin filan üzvü yerində işlənmişdir" cümləsində "yerində" sözü yerində deyil. "Vəzifəsində" deyilməlidir.

Çalışma 36,39,72,190 və s.-də (şərtində) məntiqsizlik halları var.

8. Əsərin quruluşuna da fikir vermək, təkrarları dərsliyin əsas hissəsindən ayırmaq lazımdır. Axırda verilmiş "Sintaksis", "Orfoqrafiya və durğu işarələri" təkrarları artıqdır. Bir sıra mətnlərin müəllifi yoxdur.

R.Əsədov və Ə.Əhmədovun Azərbaycan məktəbinin VI sinfi üçün "Azərbaycan dili" dərsliyi müasir tələblərə uyğun hazırlanmışdır və ciddi redaktə ilə çap oluna bilər.

Prof. T.İ.Hacıyev. «Azərbaycan ədəbi dili tarixi»
15.11.1985

«Azərbaycan ədəbi dili tarixi» fənni Azərbaycan Dövlət Universitetinin və pedaqoji institutların filologiya fakültələrində uzun müddətdir ki, tədris olunur və Azərbaycan dilinin funksional üslublarının və xüsusən bədii dilin ilk formalaşma dövründən bu günə qədər keçdiyi yolu öyrənmək sahəsində mühüm rol oynayır. Lakin bu yaxınlara qədər bu sahədə ali məktəb tələbə və müəllimlərinin istifadə edəcəyi sabit bir dərslik olmamışdır. 1979-cu ildə prof.Ə.Dəmirçizadə «Azərbaycan ədəbi dili tarixi» adlı dərslik çap etdirməklə bu boşluğu qismən ödədi. Ona görə «qismən» deyirik ki, mərhum Ə.Dəmirçizadənin bu əsəri ədəbi dil tarixinin XVIII əsrə qədərki dövrünü əhatə edir. O vaxtdan keçən müddət ərzində dərsliyin ikinci hissəsinə daha çox ehtiyac duyulur. T.İ.Hacıyev «Azərbaycan ədəbi dili tarixi» dərsliyinin ikinci hissəsini hazırlamaqla xeyirxah bir iş görmüşdür.

16 çap vərəqi həcmində olan bu dərslik həm də ona görə maraqlıdır ki, ədəbi dilimizin zəngin və çoxşaxəli inkişaf dövrünü – milli ədəbi dilin inkişaf və sabitləşmə dövrlərini əhatə edir. Məlumdur ki, XIX və xüsusən XX əsr dilə nəzəri münasibətin yaranma və güclənmə dövrüdür. XX əsrin əvvəllərində ədəbi dilimiz yad dillərin təsir və təzyiqinə daha çox məruz qalmışdır.

Sovet dövründə isə milli ədəbi dilimizin inkişafı və çiçəklənməsi üçün, demək olar ki, hər cür şərait yaranmış, ədəbi dil bütün üslublar üzrə ahəngdar şəkildə inkişaf yolu keçmişdir.

Bütün bunları nəzərə almaq, ədəbi dilin keçdiyi inkişaf yolunun həqiqi mənzərəsini yaratmaq, dil proseslərini ümumiləşdirmək dərslik müəllifindən bu sahəyə böyük hazırlıq və istedad tələb edir.

Tam cəsarətlə qeyd edə bilərik ki, prof.T.Hacıyev nəzərdə tutulan zəhmətə qatlaşmış və dəyərli bir dərslik yaratmışdır.

Dərslik prof. Ə.Dəmirçizadənin dayandığı nöqtədən başlayaraq, bütün sonrakı dövrü əhatə edir. Müəllif ədəbi dilin XVIII əsrdən sonrakı inkişaf yolunu və bu müddət ərzində dilin təkamülü ilə bağlı əsas mərhələləri nəzərə alaraq, dərsliyi üç mühüm fəslə ayırmışdır: XIX əsr ədəbi dili, XX əsr ədəbi dili, sovet dövrü ədəbi dili.

Bu dövrlərin hər biri haqqında iri monoqrafiyalar yazıla bilər, çünki bu dövrlərin hər biri həm dil məsələlərinin zənginliyi, həm də

bizə yaxın dövrlər olmaqla dil materialının zənginliyi baxımından fərqlənir. Elə dərslik müəllifinin də mühüm bir ustalığı orasındadır ki, bütün məsələləri diqqətlə ümumiləşdirə bilmiş, lazımsız təfərrüata varmadan, proqram dairəsində, proqram tələbləri hüdudunda yaxşı bir dərslik hazırlamışdır.

«Azərbaycan ədəbi dili tarixi» (II hissə) dərsliyi yalnız məlum materialların, məlum nəzəri fikirlərin dərslik şəklinə salınmasından ibarət deyildir. Dərsliyin əsasında müəllifin uzunmüddətli tədqiq və araşdırmaları durur. Əsərdə bir çox məsələlərə yeni baxış, yeni münasibət vardır. Ümumi ənənələr əsasında yazılsa da, dərsliyin orijinal cəhətləri, yenilikləri çoxdur. Ona görə də bu dərslik ümumən ədəbi dilimizin elmi tədqiqi və öyrənilməsi baxımından çox faydalıdır.

Dərsliyin mühüm keyfiyyətlərindən biri də budur ki, müəllif ayrı-ayrı məsələlərin izahında zəngin dil materialına əsaslanmışdır: məsələlərin şərhində müəllifin gətirdiyi faktlar və misallar dəqiq olmaqla yanaşı, inandırıcıdır, dil faktlarının estetik keyfiyyətlərinə xüsusi fikir verilmişdir.

Bir cəhəti də qeyd edək ki, dərsliyin yazılma texnikası və üslubu da gözəldir. Müəllif məsələləri çox sadə, aydın, yeri gəldikdə obrazlı bir dildə şərh etmişdir. Xüsusən tələbə təfəkkürü, tələbələrimizin bu sahəyə hazırlıq dərəcəsi diqqətlə nəzərə alınmışdır.

Doğrudur, dərslikdə mübahisə doğura bilən cəhətlər də var, bəzi texniki qüsurlar da müşahidə olunur, lakin bunlar redaktə zamanı asanlıqla islah oluna bilər.

Prof. T.İ.Hacıyevin «Azərbaycan ədəbi dili tarixi» (II h.) dərsliyi zəruri ehtiyacla bağlıdır və yüksək səviyyədə hazırlanmışdır, ona görə də dərsliyin çap olunmasını məsləhət bilirik.

V.İ.Lenin ad. APİ. V.Əlieyev. «Azərbaycan dilində felin təsriflənməyən formaları (məsdər)» 25.0I.1986

162 səhifədən ibarət olan bu əsər felin şəxssiz formalarından birinin – məsdərin tədqiqinə həsr olunmuşdur. Əsərin giriş hissisində müəllif təkcə məsdərdən deyil, ümumən felin şəxssiz, əsərdə deyildiyi kimi, «təsriflənməyən» formalarından, onların türkologiyada tədqiqi məsələlərindən danışır, təsriflənməyən formaların mahiyyətinin izahına çalışır, məsdər, feli sifət və feli bağlamanın nitq hissələri arasında mövqeyi, təsriflənməyən formaların zaman, şəkil, şəxs kateqoriyalarına münasibəti, bu sahədə işlədilən terminlərin səciyyəsi və s. kimi məsələləri aydınlaşdırır.

Girişdən aydın olur ki, müəllif elmi-nəzəri ədəbiyyata lazımi şəkildə bələddir, mövcud fikirləri öz mülahizələri baxımından kifayət qədər saf-çürük edə bilmişdir. Buna görə də bir çox hallarda mütəxəssislərlə polemik münasibət, mövzu ilə bağlı fikirlərə tənqidi qeydlər diqqəti cəlb edir.

Əsərin əsas hissəsini məsdər və onun xüsusiyyətlərinin elmi tədqiqi təşkil edir.

Müəllif əvvəlcə məsdərin tədqiqi tarixinə nəzər salmış, elmi ədəbiyyatda mövcud fikirlərin yığcam xülasəsini vermişdir.

Bu hissədə mühüm yeri məsdərin qrammatik xüsusiyyətlərinin tədqiqi tutur. Məsdərin şəxsli fellərə və isimlərə uyğun cəhətləri ətraflı nəzərdən keçirilir. Şəxsli fellərə aid bir sıra xüsusiyyətlər – təsirlik, növ, inkarlıq şəkilçiləri qəbul edərək dəyişməsi felin bütün şəxssiz formalarına və o cümlədən məsdərə də aiddir və müəllif bunu konkret nümunələrlə bir daha təsdiq etmişdir. Eyni zamanda məsdərlər isim kimi hallana bilir, hərəkətin adını bildirdiyi üçün mənsubiyyət şəkilçiləri qəbul edir və s.

Əsərdə məsdərin sintaktik xüsusiyyətlərinin araşdırılmasına da geniş yer verilmişdir. Məsdərin ismi söz birləşmələri, feli birləşmələr tərkibində mövqeyi və müxtəlif cümlə üzvləri vəzifəsində rolu xüsusi başlıqlar altında öyrənilmiş, ətraflı şərh olunmuşdur.

Əsər qısa nəticələr və kitabiyyatla bitir. Əsərdə bir sıra sxemlərdən, cədvəllərdən istifadə edilmişdir ki, bunlar fikri əyaniləşdirir. Ümumən elmi aparaturası yaxşıdır, lakin bir sıra redaktə olunmalı, təkmilləşdirilməli məsələlər də vardır.

1.Əsərdə deyilir: «Məsdərin felə məxsus xüsusiyyətləri». Məsdər özü felin tərkibində öyrənilir və fel hesab olunur. Belə olduqda, yuxarıdakı cümlədə məntiqsizlik var. «Məsdərdə şəxsli fellərə məxsus xüsusiyyətlər» demək düzgün olardı.

2.Məncə, «təsriflənməyən fel» termini də düz deil. Fel dedikdə, sözün kökü nəzərdə tutulur və bütün fellər təsriflənir.

3.«Azərbaycan dilində bir qrup məsdər, feli sifət və feli bağlamanın substantivləşərək, adyektivləşərək ismə, sifətə, zərfə keçməsi…» (səh.3,4) – cümləsində məsdərin substantivləşməsi fikri məntiqi deyil. Məsdər elə felin substantiv formasıdır.

4.Müəllif omonim şəkilçilərdən bəzən məhdud şəkildə danışır. Məsələn, ***-mış, -miş*** – həm feli sifət, həm də zaman şəkilçisi kimi izah olunur. Halbuki bu şəkilçi düzəltmə isimlər, feli bağlama şəkilçisi və ***imiş***-in ixtisar şəkli kimi də işlənə bilir. (s.16)

5.Müəllif bu qərara gəlir ki, təsriflənməyən forma şəkilçiləri sözdüzəldicidir. Bunun sübuta ehtiyacı var.

6.Məsdər şəkilçisinin «bax» sözündən (***b – m*** ilə) əmələ gəlməsi barədə S.Cəfərovun fikrini qeyd edir, münasibət bildirmir. (s.69)

Dos. V.Əliyevin «Azərbaycan dilində felin təsriflənməyən formaları (məsdər)» adlı dərs vəsaiti faydalıdır və onun dərs vəsaiti qrifi ilə çap olunmasını məsləhət bilirəm.

Nəsimi ad. Dilçilik İnstitutu. Sayalı Sadıqova. «Müasir Azərbaycan dilində termin-söz birləşmələri» ND, 02.02.1986

Müəllif tədqiqat üçün termin-söz birləşmələrini əsas götürmüş və onları vacib olan üç mühüm cəhətdən – ümumi nəzəri xüsusiyyətlərini öyrənmə, inkişaf tarixini izləmək və müasir dili zənginləşdirmə prosesində iştirakını aydınlaşdırmaq baxımından nəzərdən keçirmişdir. Bu üç cəhət termin-söz birləşmələrin dildə mövqeyi barədə aydın təsəvvür yaradır.

I fəsil özlüyündə əhatəlidir: termin-söz birləşmələrinin tədqiqi məsələləri, onların adi söz birləşmələri ilə, sadə terminlərlə, mürəkkəb terminlərlə oxşar və fərqli cəhətləri, termin-söz birləşmələrinin məna və quruluş xüsusiyyətləri öyrənilmişdir.

Bu fəsildə komponentlərin nitq hissələri ilə ifadəsi məsələləri və bu məsələ ilə bağlı düsturlar mövzunu tədris üçün də əyaniləşdirir.

II fəsildə müəllif Dədə Qorqud, Nəsimi, Xətai, Füzuli, Kazım bəy, Lazarev, L.Budaqov, «Əkinçi», M.Əfşar, M.F.Axundov, N.Nərimanov, C.Məmmədquluzadə, bolşevik və sovet dövrü mətbuatı və sairdə termin-söz birləşmələrin inkişaf yolunu araşdırmışdır.

III fəsil müasir Azərbaycan dilinin termin-söz birləşmələri ilə zənginləşmə prosesini əhatə edir, daha doğrusu, hazırkı mərhələdə vəziyyət, dilin daxili imkanları və alınmalar yolu ilə zənginləşmə məsələsi nəzərdən keçirilir.

Əsər lakonik, yığcam, aydın bir üslubda yazılmışdır. Dissertant götürdüyü mövzunu nəzərdə tutulan plana uyğun şəkildə əhatə edə bilmişdir.

Bəzi qeydlərimiz də var.

1.İlk səhifədə «Müasir Azərbaycan ədəbi dilində»ki termin-söz birləşmələrin tədqiqinin nəzərdə tutulduğu qeyd edilir. Əsərdə isə birləşmələrin Dədə Qorquddan (hətta Kaşğaridən) bəri inkişaf yolu izlənmişdir. Odur ki başlıqdakı «müasir» sözü artıqdır.

2.«Beş-altı termindən ibarət termin-söz birləşməsi» ifadəsi işlədilir, «sadə cümlə tərkibinə daxil olan sintaqmlar» misalı verilir. Misalın tərkibindəki bütün sözlər termin deyil, odur ki «termin» əvəzinə, söz, tərəf, komponent düz olar.

3.Nəsimidən verilən termin-söz birləşmələrin hamısı izafətdir.

4.«Yanaşılan tərəf», «yanaşan tərəf» kimi ağır terminlər indi ***əsas*** və ***asılı*** tərəf adlanır.

5.Son fəsildə termin-söz birləşmələrin üç yolla: semantik, sintaktik və kalka yolu ilə yarandığı qeyd edilir, əslində, hər üçündə qurulma sintaktik yol ilədir.

Sayalı Sadıqovanın əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və müdafiəyə buraxıla bilər.

S.M.Kirov ad. ADU. Məftunə Vəliyeva. «Azərbaycan xalq şerinin fonopoetik xüsusiyyətləri»
ND, 26.04.1986

Dissertasiya xalq şerinin dil və sənətkarlıq xüsusiyyətlərinin diaxronik tədqiqinə həsr edilmişdir. Buna görə də müəllif analiz üçün topladığı materialları imkan daxilində ilkin yaranma strukturunu nəzərə almaqla müəyyənləşdirmişdir. Fal və cadu formulları, alqış və qarğışlar, frazeoloji qəliblər, ilkinlik forma və ruhunu saxlamış atalar sözləri, məsəllər, bayatılar, Mahmud Kaşğari divanından, «Dədə Qorqud» boylarından verilən nümunələr xalq şerinin qədim təşəkkül və inkişaf yolunu öyrənmək baxımından zəngin təəssürat doğurur. Əsərlə tanışlıq nəticəsində mərasim nəğmələrinin, mahnı mətnlərinin, azhecalı qədim atalar sözlərinin, qarğış və alqışların «Dədə Qorqud» kimi iri dastanlar üçün necə zəmin hazırladığını və «Dədə Qorqud»un özunün bu prosesdəki təkamül yolunu təsəvvür etməyə imkan verir.

Müəllif xalq şeir dilinin ilkin yaranma yolunu nəzərdən keçirməyə çalışmışdır. Ədəbiyyatşünaslıqda isə bu sahədə müəyyən fikirlər vardır. Dissertantın verdiyi fakt və nümunələr, gəldiyi nəticələr ziddiyyətli fikirlər içərisində ən ağlabatanlarını təşkil edir.

Məlumdur ki, indiki şeir forması birdən-birə yaranmamışdır. Hətta şerin sillabik vəznə çatması da nisbətən sonrakı hadisədir. Daha əvvəllər indiki mənada başa düşülməyən sərbəst vəzn həlledici rol oynamışdır. Bu hal «Dədə Qorqud» un dilində özünü mühafizə etmişdir. Bu cür şeirdə əsas faktor hecaların sayı deyil, ritm yaradan vasitələr olmuşdur, ona görə də dissertasiyanın ilk fəslində ritm yaradan vasitələrin – söz, heca, cümlə vurğusunun, ahəng qanununun ritm-intonasiya vasitəsi kimi tədqiqi mühüm yer tutur.

Türk dillərinin aqlütinativ xarakteri və bu dillərdəki ahəng qanunu xalq şerinin ilkin mərhələsində güclü alliterasiya mənbəyi kimi mühüm rol oynamış, xalq şeri alliterasiyadan geniş istifadə mərhələsini keçməklə öz yerini qafiyəli şerə vermişdir. Elə buna görə də dis-

sertasiyanın ikinci fəslində, xüsusən bayatılarda qədim izləri mühafizə edən xarici və daxili alliterasiyanın və bu sahədə samit və saitlərin roluna xüsusi diqqət yetirilmişdir. Faktlar qoruyub saxlamışdır ki, daxili alliterasiya daha çox səsi və bütün janrları əhatə etmişdir.

Qafiyənin güclənməsi, bütöv bəndin yaranması və alliterasiyanın əvvəlki üstün mövqeyini itirməsi təqribən xalq şerinin yeni bir struktur xüsusiyyət kəsb etmə mərhələsi kimi tədqiq olunmuş və bu cəhətin öyrənilməsinə xüsusi fəsil ayrılmışdır.

Qeyd etməliyik ki, əsərin bir çox başqa məziyyətləri də vardır. Ən mühüm keyfiyyətlərindən biri budur ki, müəllif öz fikirlərini əksərən inamla, cəsarətlə deyir. Faktlarla təsdiq edir. Başqa bir cəhət də budur ki, forma-dil məsələlərinə uyub, məzmunu unutmur, xalq şerinin ilkin nümunələrini nitq-quruluş cəhətləri ilə yanaşı, estetik baxımdan və xalqın təfəkküründün inkişafı ilə bağlı izah edir.

Çox rəngarəng, hətta bəzən gözlənilməz elmi ədəbiyyatdan istifadə müəllifin əhatəli axtarışlarını təsdiq edir.

Əsərin dili əksərən məntiqi sillogizmləri xatırladır, artıq söz müşahidə edilmir.

Dissertasiya bizə keçmişimizi öyrənməkdə kömək edir, namizədlik işinin tələblərinə tam cavab verir.

Bir çox sitatlar rusca saxlanmışdır ki, bu, şübhəsiz, əsərin rus dilinə çevriləcəyi ilə bağlıdır. Bəzən müəllif qəliz terminlər işlədir. Məsələn, 4-cü səhifədəki ***kvalitativ – kvantitativ*** terminləri kimi. Bunlar ***kəmiyyət*** və ***keyfiyyətcə*** deməkdir, lakin, görünür, bu cür terminlər də ruscaya tərcümə ilə bağlıdır. ***Eksplist – implisit*** terminləri və bir çox başqa terminlər də belədir.

Əsərdə bəzi təkrarlar var. Məs.: s.33-də Orxon-Yenisey abidələrinin şeirlə yazılıb-yazılmaması barədə fikir bir də təkrar olunur.

Üslubi qüsurlar var: «Görünür, bu səhv mülahizəni yürüdənlər *monqol hücumlarına qədər türkdilli xalqların yazılı və şifah ədəbiyyatı ilə dərindən tanış olmamışlar*». (69) «Sarı Aşığın bayatılarında *otuza qədər sait səslərin* hesabına xarici alliterasiya yaranır». (85)

İş müdafiəyə hazırdır.

Nuryağdı Nartıyev. (Türkmənistan) «Müasir türkmən dilində mürəkkəb cümlənin quruluşu»
DD. 07.12.86

Mürəkkəb cümlə problemi dilçiliyin ən mühüm və mürəkkəb problemlərindəndir. Bu sahəyə dair bir sıra qiymətli əsərlər yazılmış olsa da, ayrı-ayrı türk dillərində mürəkkəb cümlənin quruluş xüsu-

siyyətləri ilə bağlı mübahisəli məsələlər hələ də davam etməkdədir. N.Nartıyev türkmən dili materialları əsasında belə bir mövzu üzrə tədqiqat aparmaqla həmin məsələlərin aydınlaşmasına, ayrı-ayrı türk dillərində mürəkkəb cümlənin quruluşu ilə bağlı təsəvvürlərin dəqiqləşməsinə, türkoloji fikrin inkişafına kömək edir. Məhz dissertasiyanın çox mühüm keyfiyyətlərindən biri budur ki, müəllif ümumi türkoloji ədəbiyyatda, xarici dilçilikdə, rus dilçiliyində mürəkkəb cümlə ilə əlaqədar bütün mübahisəli məsələlərə toxunmuş və hər bir məsələdə özünün şəxsi mövqeyini ağlabatan şəkildə sübut etməyə çalışmışdır.

Ön söz, giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarət olan bu dissertasiyanın girişində müəllif türkologiyada mürəkkəb cümləyə münasibətdə üç meyli diqqətlə nəzərdən keçirmiş, öz tədqiqatı əsasında feli sifət, feli bağlama və məsdər tərkiblərinin (istər ayrıca subyekti olsun, istər olmasın) budaq cümlə olması fikrinin yanlış olduğu qənaətinə gəlmişdir. Müəllif bu prosesdə xəbəri əsas götürür, onun üstün rolunu, zaman, şəxs, şəkil əlamətləri ilə formalaşmasının zəruriliyini xüsusi qeyd edir. Beləliklə, müəllif öz qənaətinə görə III qrup dilçilərin mövqeyində dayanır, tərkibləri budaq cümlə deyil, cümlənin çevrilmiş üzvləri kimi təhlil etməyi düzgün hesab edir.

Girişdə əsas istiqaməti aydınlaşdırdıqdan sonra müəllif ilk iki fəsildə tabesiz və tabeli mürəkkəb cümlələrin ətraflı təhlilini vermişdir. Tabesiz mürəkkəb cümlə dedikdə, dissertasiyada tabesizlik bağlayıcıları ilə qurulan mürəkkəb cümlələr nəzərdə tutulmuş və bu məqsədlə tabesizlik bağlayıcıları üç qrupa – birləşdirmə, qarşılaşdırma və bölüşdürmə bağlayıcılarına ayrılmışdır. Müəllifin bu qənaəti tamamilə düzgündür və tabesizlik bağlayıcılarının bu cür qruplaşdırılması məntiqidir. Bunlar eyni zamanda tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqələrini dərk etmək işini də asanlaşdırır. Belə ki birləşdirmə bağlayıcıları zaman, səbəb-nəticə və s. kimi mənalar üzrə tərkib hissələri birləşdirirsə, bölüşdürmə bağlayıcıları bölüşdürmə, qarşılaşdırma bağlayıcıları qarşılaşdırma əlaqəsinə xidmət edir və nəticədə məna əlaqələrinin praktik şəkildə dərk olunması işi asanlaşır. Odur ki bu cür bölgünün elmi əhəmiyyəti ilə yanaşı, tədris əhəmiyyəti də vardır.

Türk dillərinin quruluşunu birtərəfli izah edənlərin əksinə olaraq, türkmən dili faktları əsasında türk dillərində analitik, sintetik və analitik-sintetik xüsusiyyətlərin cəmləşmiş olduğunu göstərməkdə də müəllif tam haqlıdır. Əsərdə bu cür quruluş xüsusiyyətləri budaq cümlələrin izahı prosesində konkret faktlarla nəzərdən keçirilmişdir.

Budaq cümlələrin tədqiqi ilə əlaqədar bağlayıcılar, bağlayıcı sözlər və ***-sa, -sə*** şəkilçisi bir daha diqqətlə araşdırılmış, onların sintaktik funksiyaları ətraflı şərh olunmuşdur. Müəllif budaq cümlələrin

təsnifi məsələlərinə də diqqət yetirmiş, mövcud təsniflərin nöqsan və çatışmazlıqlarını qeyd edərək, yeni bölgü əsasında türkmən dilində işlənən budaq cümlələri zəngin dil materialı əsasında ətraflı şərh etmişdir. Müəllifin bölgü və tədqiqatında bir sıra yeniliklər müşahidə olunur. Mövcud budaq cümlələr ətraflı tədqiq olunmaqla yanaşı, xəbər, aydınlaşdırma, müqayisə və məqsəd budaq cümlələri haqqında da ilkin məlumat verilmişdir.

Sintaksisin çətin sahələrindən biri bağlayıcısız mürəkkəb cümlələr və onların struktur-semantik xüsusiyyətlərinin tədqiqidir. Bağlayıcı olmadıqda və xüsusən cümləni mətndən ayırdıqda, hansı intonasiya ilə tələffüz olunduğu bilinmədikdə cümlənin tabesiz və ya tabeli olduğunu müəyyənləşdirmək də çətin olur, tədrisdə dolaşıqlıqlar meydana çıxır. Bu cəhəti nəzərə alaraq, müəllif bağlayıcısız mürəkkəb cümlələri tabesiz və tabeli növlərə ayırmamış, mürəkkəb cümlənin bir növü kimi öyrənmişdir.

Dissertasiya yüksək elmi səviyyədə yazılmışdır. Müəllif bütün lazımi nəzəri ədəbiyyatı gözdən keçirmiş və əlaqədar məsələlərə öz münasibətini bildirmişdir. İşin mühüm keyfiyyətlərindən biri də budur ki, müəllif heç bir məsələdə tərəddüd etmir, müxtəlif yollardan ən ağlabatanını əsas götürür, yeni fakt və dəlillərlə fikrinin təsdiqi üçün zəmin yaradır. Budaq cümlələrə münasibətdə müəllifin tendensiyası aydındır.

Doğrudur, bu qiymətli əsərdə mübahisə doğuran cəhətlər də vardır, çünki müəllifin özünün də qeyd etdiyi kimi, tərkib və budaq cümlə məsələsi ilə əlaqədar mübahisələr hələ də davam etməkdədir. Lakin ümumilikdə götürdükdə müəllif bu ağır və sanballı mövzunun öhdəsindən dilçiliyin indiki tələbləri baxımından lazımi səviyyədə gələ bilmişdir. Dissertasiya xüsusən türkmən dilçiliyi üçün bir sıra yenilikləri ilə diqqəti cəlb edir və burada ümumən türkoloji fikri irəlilədən məsələlər çoxdur. Bütün bu cəhətlərə əsasən, bu qənaətə gəlirik ki, «Müasir türkmən dilində mürəkkəb cümlənin quruluşu» adlı əsər doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi Nuryağdı Nartıyev filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Hacıyeva Nailə Nəriman qızı. «Əbri Xacə ibn Adilin «İxtiyarati-qəvaidi-külliyyə» əsəri və onun leksikası» ND. 05.01.1987

Ədəbi dilimizin çoxəsrli inkişaf yolunu biz daim poeziya dili nümunələri əsasında öyrənmişik. Doğrudur, bədii üslub spesifik bir üslub

kimi, ümumxalq dilinin zənginliklərini və hər bir dövrün, hər bir epoxanın dil tendensiyasını daha ətraflı əhatə edir, lakin bununla belə, ədəbi dilin ümumi mənzərəsi funksional üslubların təzahür imkanlarının tam nəzərə alınması ilə dəqiq müəyyənləşə bilər. Bu mənada XV əsrə məxsus elmi üslub nümunəsinin, həm də dil tarixi tədqiqinin daha çox poeziya nümunələrinə əsaslandığı bir dövrdə elmi nəsr dilinin tədqiqi öz aktuallığı ilə diqqəti cəlb edir. Dövrün dil mənzərəsinin qoruyucusu olan, tədqiqatçıların diqqətini çox az cəlb etmiş "İxtiyarat"ın leksik və frazeoloji sisteminin tədqiqini, həm də ilkin monoqrafik tədqiqini nəzərə aldıqda dissertant N.Hacıyevanın faydalı və xeyirxah bir işlə məşğul olduğu aydınlaşır.

Giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiya ilə tanışlıq N.Hacıyevanın bir dil tarixçisi kimi tam hazırlıqlı olduğunu sübut edir. Bu hal təkcə lüğət materialını düzgün mənalandırmaqla, sözün struktur-semantik inkişaf yolunu metodoloji baxımdan düzgün izləməklə deyil, ərəb əlifbasının çox mürəkkəb və çətin qaydalarından, bu əlifba ilə yazılmış mətnlərdən sərrast və ustalıqla baş açma imkanları ilə də bağlıdır. Bu sonuncu halın özü böyük zəhmət və bacarıq tələb edir və xüsusən dil tarixçisi üçün zəruri şərt hesab olunur. Nücum və astronomiyanın müxtəlif məsələlərinə həsr olunmuş bu qədim abidənin dili üzərində tədqiq və araşdırmalar müəllifin - N.Hacıyevanın yalnız bir dilçi deyil, qədim dövrün yazı sənətinə, mədəni inkişaf səviyyəsinə, maddi-mədəniyyət və ədəbi-elmi əlaqələrinə bələd olan bir alim kimi yetişdiyini göstərir. Məhz bu cür hərtərəfli biliyə malik olmaqla "İxtiyarat"ın dünyanın müxtəlif şəhərlərində saxlanılan əlyazmalarının yaşını, köçürüldüyü tarixi, yazı sistemini, əsərin astrologiyanın çətin müəmmaları ilə bağlı olan daxili quruluşunu - məzmununu elmi şəkildə şərh etmək mümkün olardı. Və məhz bu cür imkanlara malik olduğu üçün müəllif qədim abidənin əlyazmalarının hərtərəfli xarakteristikasını vermiş, hətta onun əldə olmayan əlyazmaları barədə ağlabatan mülahizələr söyləmişdir.

Dissertasiyanın ikinci fəsli əsl dilçilik tədqiqatı kimi çox maraqlıdır. Müəllifin statistik-hesablama üsulundan istifadə etməsi, xalis Azərbaycan (türk), ərəb və fars mənşəli sözləri, onların intensiv işlənmə imkanlarını dəqiq müəyyənləşdirməsi ayrıca bir namizədlik dissertasiyası dəyərində qiymətlidir. Arxaik sözlər, xüsusən terminoloji leksika ilə bağlı yeni materiallar XV yüzilliyin, ondan əvvəlki və sonrakı dövrlərin ədəbi-elmi siması, dilə münasibəti barədə təsəvvürü dərinləşdirir. "Zülüm", "höküm", "sülüh" kimi sözlər çox vaxt yeni hadisə kimi izah edilən bir qaydanın qədimliyini, həm də ərəb, fars dillərinin güclü təzyiqi dövründə daha güclü olduğunu güman etməyə əsas verir. Dissertant geniş tədqiqat aparmış, təkcə leksik və frazeoloji araşdırmalarla kifayətlənməmiş, əlaqədar məsələlərdən danışarkən dilin səs sistemi, fonetik hadisə və qa-

nunlar haqqında da məlumat vermişdir. Leksikadan danışılarkən söz yaradıcılığı prosesinin nəzərdən keçirilməsi, ad və fel düzəldən şəkilçilərin tədqiqi işin ümumi əhatə dairəsini və keyfiyyətini artırmışdır.

Əsərdə sözün semantik imkanlarının tədqiqinə xüsusi fəsil ayrılmışdır. Şübhəsiz, bu fəsil olmadan "İxtiyarat" müəllifinin sözdən istifadə ustalığı və sözün o dövrün özünəməxsus daxili cəhəti açılmamış qalardı. Çoxmənalı, omonim və antonim sözlərin tədqiqi fonunda biz dildə olan arxaikləşmə və yeniləşmə ilə tanış oluruq, dövrün spesifik dil xüsusiyyətləri, bəzi başqa abidələrə nisbətən, oxucunu ruhən 500-600 il əvvələ daha çox apara bilir.

Əsərin elmi səviyyəsi xoş təsir bağışlayır. Müəllifin məntiqi, elmi şərh etmə üsulu, ardıcıllığı, elmi ədəbiyyata tənqidi münasibəti, dissertasiyanın ümumi quruluşu və məzmunu qədim və ilkin mənbələr üzərində ümidli tədqiqatlar apara biləcək bir mütəxəssis yetişdiyini göstərir.

Hiss olunur ki, müəllif "İxtiyarat"ın lüğətini hazırlamışdır. Dissertasiyanın və xüsusən bu lüğətin kitab şəklində çapı dilçiliyimiz üçün çox faydalı olardı.

Şübhəsiz, dissertasiyada mübahisə doğura bilən cəhətlər də var. Lakin onlar asanlıqla aradan qaldırıla bilər. "Əbri Xacə ibn Adilin "İxtiyarati-qəvaidi-külliyyə" əsəri və onun leksikası" adlı dissertasiya namizədlik müdafiəsinin tələblərinə uyğundur.

S.M.Kirov ad. ADU. Dosent K.Əliyev. «Nitq mədəniyyəti və üslubiyyatın əsasları». Proqram 12.04.1987

Proqramın hazırlanması zərurəti proqramların vaxtaşırı təzələnməsi qayğısı ilə yanaşı, tədris planının dəyişilməsi ilə də bağlıdır. Əvvəllər ayrıca "Nitq mədəniyyətinin əsasları" proqramı olub və müəllifin etirafına görə, həmin proqramda natiqlik sənəti məsələlərinə də geniş yer verilib. Bununla yanaşı, şübhəsiz, universitetin müvafiq fakültələri üçün "Üslubiyyat" proqramı da olub.

Lakin indi yeni dərs planına əsasən nitq mədəniyyəti və üslubiyyat məsələləri birləşdirilib: "Nitq mədəniyyəti və üslubiyyatın əsasları" fənni yaradılması nəzərdə tutulub. Müəllif bu yeni tədris planı əsasında yeni proqram tərtib etməli olmuşdur. Proqram sistemli şəkildə nitq mədəniyyəti və üslubiyyat məsələlərini əhatə edir. 14 bölmədən ibarətdir. Bölmələrdə qayda üzrə mühüm və zəruri məsələlər nəzərə alınmış, sonda zəruri ədəbiyyatın siyahısı verilmişdir..

Proqram diqqətlə işlənmiş və müasir tələblərə müvafiq qurulmuşdur. Bəzi iradlarımız da var:

1.Fənnin tədrisi qarşısında duran məqsəd və vəzifələr aydın deyil, bir qədər konkret izah olunmalıdır.

2.Bəzi bölmələr arasında əlaqə hiss olunmur. Məsələn, son bölmələr "Sinonimlik" və "Bədii təsvir və ifadə vasitələri" adlanır. Lakin bunların hansı zərurətlə proqrama daxil edildiyi bir cümlə ilə də olsa, əsaslandırılmır.

3.Bədii üslub hələ də funksional üslublar sırasında verilir. Rus dilçiliyində xeyli vaxtdır ki, funksional üslublardan fərqli, spesifik üslub kimi öyrənilir.

4.Azərbaycan natiqlik sənətinin inkişaf yolundan danışılarkən aşıq-natiqlər, şair-natiqlər və siyasi natiqlər barədə məlumat verilir. Lakin bu siyahı natamamdır. Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı və b. aşıq-natiqlər nəzərdə tutulur, Qurbani yox, halbuki Qurbani yalnız aşıq-natiq kimi yox, siyasi natiq kimi də Şah İsmayılın ordusunda böyük iş görüb. Eləcə də şair-natiqlərdən Davdakın adı çəkilir, Nizaminin yox və s.

5.Proqramın sonunda verilən ədəbiyyat çox bəsit və natamamdır. Burada nitq mədəniyyəti, üslub və üslubiyyat məsələləri, bədii nitq və s. ilə bağlı A.Axundov, Y.Seyidov, T.Hacıyev və başqalarının müvafiq əsərlərini, obrazlılıq (X.Cabbarov), sinonimlik, komik sənət və s. Barədə əlaqədar kitabları qeyd etmək olar.

Proqramın üslubi və texniki nöqsanları da var. "Bir neçə söz"ün ilk cümləsində XVII qurultaydan danışılır. Bu bir neçə sözdə son cümlə də artıqdır və s.

Proqramın redaktə ilə çap olunmasını faydalı hesab edirəm.

S.M.Kirov ad. ADU. Dosent M.N.Qiyasbəyli. «Azərbaycan dilində sayın tədrisi». Metodik göstəriş 14.06.1987

44 səhifəlik bu əsər ali məktəbin rus qruplarında say mövzusunun tədrisinə hsr olunmuşdür. Əsər "Giriş", "Say nədir?", "Sayın məna növləri" və "İstifadə edilmiş ədəbiyyat"dan ibarətdir.

Əsər həqiqətən metodik göstəriş şəklində işlənmişdir. Rus qruplarında Azərbaycan dili tədrisinin spesifik cəhətləri nəzərə alınmış, mövzunun lazımi şəkildə mənimsədilməsi üçün əlverişli vasitə və üsullardan istifadə edilməsi nəzərdə tutulmuşdur.

"Giriş"də müəllif say mövzusunun ali və orta məktəb dərsliklərində vəziyyəti ilə bağlı bir sıra məsələləri araşdırmış, bu sahədə elmi-metodiki çatışmazlıqlar olduğunu qeyd etmiş, ali məktəbin rus qruplarında Azərbaycan dili say sisteminin morfoloji və sintaktik xüsusiyyətlərinin öyrədilməsi ilə bağlı çətinlikləri göstərmişdir.

Metodik göstərişin əsas hissəsi say və onun məna növlərinin tədrisi yollarına həsr olunmuşdur. Bu hissədə miqdar sayları, sıra sayları, kəsr və qeyri-müəyyənlik bildirən saylar ayrılıqda nəzərdən keçirilmiş, sayın məna növlərinin praktik şəkildə mənimsədilməsi üçün həqiqətən

müəllimə kömək edə bilən, tədrisin keyfiyyətinə müsbət təsir edəcək göstərişlər hazırlanmışdır.

"Göstərişlər"in bir sıra mühüm keyfiyyətləri vardır. Hər şeydən əvvəl, bu göstərişlər ona görə faydalı olacaqdır ki, burada auditoriyanın - rus qruplarının xarakteri, tələbələrin ümumi vərdiş və psixologiyası, səviyyəsi, işə münasibəti əsas götürülmüşdür. Buna görə də göstərişlər iki dildə tərtib edilmiş, çalışmalar paralel olaraq Azərbaycan və rus dillərində verilmişdir. İkinci dili öyrənməyin mühüm yollarından olan tərcümə məsələlərinə - rus dilindən Azərbaycan dilinə və əksinə tərcümə işlərinə geniş yer verilmişdir.

İşin mühüm cəhətlərindən biri də «Göstərişlər»də rus və Azərbaycan dillərinin spesifik cəhətlərinin nəzərə alınması, ayrı-ayrı mövzuların tədrisində uyğun və xüsusən fərqli cəhətlərinin diqqət mərkəzinə qoyulmasıdır. Fərqləri əyani və əməli şəkildə başa salmaq üçün maraqlı çalışmalar tərtib olunmuşdur. Bu cür çalışmalar dillərin fərdi-spesifik xüsusiyyətlərini öyrənmək, düzgün yazmaq, düzgün danışmaq, ikinci dili səlis və təmiz öyrənmək üçün çox münasibdir.

«Göstərişlər»də nəzəri cəlb edən başqa bir cəhət müəllifin elmi qrammatikalarımızda öz əksini tapa bilməyən bir sıra məsələləri də əhatə etməsi, yeri gəldikdə, sayla bağlı araşdırmalar aparmasıdır. Çox zaman əhəmiyyət verilməyən bəzi məsələləri də bu əsərə toplamaqla, müəllif say mövzusu ilə bağlı bir sıra başqa xüsusiyyətlərə də toxunmaq lazım gəldiyini göstərmişdir.

Çalışmaların (və eyni zamanda nəzəri qeydlərin) həcmi, yığcamlığı da lazımi qaydada olub, metodik göstərişlərdən istifadənin səmərəliliyinə təsir edəcəkdir.

Biz bu qənaətdəyik ki, rus qruplarında sayın tədrisi prosesində bu əsərdən istifadə olunarsa, mənimsəmə işinə, Azərbaycan dilinin praktik şəkildə öyrədilməsinə həqiqətən kömək edə bilər.

Göstərişlərdə bəzi qüsurlar da vardır:

1.Doğrudur, çalışma mətnləri maraqlı qurulmuşdur, vətənpərvərlik, beynəlmiləlçilik ruhundadır. lakin bəzən müəllif sayların bütün təfərrüatı ilə öyrədilməsi xatirinə "yeddisini vermək", "qırx vermək", "bir allaha ümidim var", "bir imama yalvarmaq" və s. kimi ifadələrin öyrədilməsini də məsləhət görür.

2.Bəzi çalışmaların tələblərini dəqiqləşdirmək olar. Məsələn, 29 nömrəli çalışmada tələb olunur ki, "say tərkibli söz birləşmələri cümlədə tamamlıq vəzifəsində işlədilsin" (s.23) və bu tələbə əsasən, "Mən mağazadan üç kitab aldım" cümləsində "üç kitab" nümunədə tamamlıq hesab edilir. Əslində isə "üç" - təyin, "kitab" – tamamlıqdır.

3.Müəllif, nədənsə, daha çox köhnə elmi ədəbiyyata, köhnə dərslik və dərs vəsaitlərinə əsaslanır, halbuki son dövrun morfologiya kitablarını, ali və orta məktəb dərsliklərini əsas götürmək lazım idi (Sonda verilən ədəbiyyata nəzər salmaq kifayətdir).

Ümumiləşmiş şəkildə qeyd edə bilərik ki, M.N.Qiyasbəylinin tərtib etdiyi "Azərbaycan dilində sayın tədrisi" adlı metodik göstərişlər düzgün elmi-metodiki əsasda qurulmuşdur və "Say" mövzusunun ali məktəbin rus qruplarında öyrədilməsi üçün faydalı olacaqdır. Odur ki biz əsərin çap olunmasını məsləhət bilirik.

Nizami ad. Ədəbiyyat İnstitutu. Baxşəliyev Əflatun Şükür oğlu.
«Azərbaycan sovet poemasında Lenin obrazı»
ND. 23.02.1988

Ədəbiyyatımızda Lenin obrazı mürəkkəb və çoxşaxəli bir mövzudur. Poeziya, nəsr və dramaturgiyamızda belə bir mövzunun tədqiqi Azərbaycan sovet ədəbiyyatının yaranıb inkişaf etdiyi 70 ilə qədərki bir müddət ərzində onun ana xəttini təşkil edən mühüm bir mövzunun tədqiq edilib öyrənilməsi, ümumiləşdirilməsidir. Bu mövzu daim diqqət mərkəzində olduğundan onun tədqiqi işi də davamlı bir proses kimi daim irəliləmişdir. Odur ki bu mövzuya həsr olunmuş bir sıra tədqiqat əsərləri olsa da, 30-cu illərdən başlayaraq, ədəbi tənqid və ədəbiyyatşünaslıq bu sahədə öz sözünü desə də, Ə.Baxşəliyevin bu əsəri aktuallığı ilə nəzəri cəlb edir. Həm də Ə.Baxşəliyev düzgün olaraq bütün ədəbi növləri deyil, üzdə olanlarla kifayətlənməmək və tədqiqatı obyektiv şəkildə dərinləşdirmək məqsədi ilə poema janrını əsas götürmüş, 1920-1980-ci illər arasında yaranmış irili-xırdalı bütün poemaları nəzərdən keçirməklə əhəmiyyətli ümumiləşdirmələr apara bilmişdir.

Giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiyanın "Rəhbərin obrazını yaratmaq sahəsində təşəbbüslər. Leninianada bədii-fəlsəfi ümumiləşdirmələr" adlı birinci fəslində müəllif 50-ci illərə qədərki müddətdə M.Müşfiq, S.Vurğun, M.Rahim, S.Rüstəm, A.Faruq, Ə.Fövzi və başqalarının yaratmış olduqları poemaları nəzərdən keçirmiş, Lenin obrazının, Leninin ictimai-siyasi fəaliyyətinin bədii ədəbiyyatda ifadəsini xronoloji ardıcıllıqla, müasir ədəbiyyatşünaslıq və estetikanın tələbləri baxımından ətraflı təhlil etmişdir. Tədqiqatın ümumi gedişində müəllif Ümumsovet leninianasının bu sahədə təcrübəsinin poema ustalarına təsirini unutmur. Araşdırmalar Oktyabr və Lenin mövzularının daim vəhdətdə inkişafını üzə çıxarır. Birinci mərhələdə ədəbiyyatımızda leninanın inkişafında S.Vurğunun xüsusi xidməti olmuşdur.

Ə.Baxşəliyev çox düzgün olaraq, R.Rzanın "Lenin" poemasının təhlilinə, "Lenin" poeması və xalq probleminə xüsusi fəsil ayırmışdır. Bu poema həqiqətən Azərbaycan leninianasının mühüm nailiyyətidir. Poema böyük rəhbərin həyat yolunun bədii tarixi-xronoloji ifadəsi olduğundan, bütün sovet ədəbiyyatında Leninə həsr olunmuş yüksək səviyyəli gözəl

bir poema kimi xüsusi tədqiqə layiqdir. Bu əsər haqqında çox yazılmış olsa da, müəllif ona əvvəlki dövrün - 30 illik təcrübənin zəminində baxmış və onun meydana çıxmasını şərtləndirən amilləri aşkara çıxarmışdır. Əsərdə "Lenin" poemasının "rəhbər və xalq problemi" baxımından təhlili uğurludur.

Dissertasiyanın "Azərbaycan sovet poeziyasında Lenin obrazı axtarışlarının yeni mərhələsi" adlandırılan üçüncü fəsli də maraqlı olub, "Lenin" poemasından sonra yaranmış və Lenin mövzusuna həsr olunmuş poemaların elmi-nəzəri təhlilindən ibarətdir. Bu fəsildə N.Xəzri, B.Vahabzadə, B.Adil, Q.Qasımzadə, Qabil, A.Zeynallı, F.Mehdi, İ.Səfərli və başqa şairlərimizin yaradıcılığına diqqət yetirilmiş, "Lenin" poemasından sonrakı dövrdə leninianan müvəffəqiyyətləri araşdırılmışdır. Tədqiqat göstərir ki, bu əsərlərdə böyük rəhbərin xarakteri müxtəlif cəhətdən, müxtəlif cizgilərlə şərh olunur, kommunist əxlaqı problemlərinin rəhbərin bioqrafiyası ilə bağlı cəhətləri ustalıqla səciyyələndirilir. Bu fəsildə janr spesifikası problemlərinə, poemaların quruluş, forma xüsusiyyətlərinə, üslub məsələlərinə də müəyyən yer verilmişdir.

Girişdə mövzunun aktuallığı, tədqiqatın yenilikləri, fəsillərin qoyuluşu düzgün və ağlabatan şəkildə əsaslandırılmışdır. Nəticə oxucuda müəllif tədqiqatı barədə aydın təsəvvür yaradır, müəllifin tədqiqat prosesində əldə etdiyi yeniliklərlə oxucunu tanış edir. Hiss olunur ki, dissertant mövzu ilə bağlı praktik mənbələrlə - 60 illik bir dövrdə poema yaradıcılarının fəaliyyəti ilə yanaşı, elmi-nəzəri ədəbiyyata da yaxşı bələddir. Yığcam şəkildə olsa da, avtoreferat əsərin əsas məzmununu əhatə edir. Əsər ümumilikdə dissertantın bir tədqiqatçı kimi yetişmiş olduğunu, ədəbiyyatşünaslıq istedad və təmkinini sübut edir.

"Azərbaycan sovet poemasında Lenin obrazı" adlı bu əsər ədəbiyyatımızda Lenin obrazının tədqiqi baxımından faydalanır və namizədlik dissertasiyasının tələblərinə tam cavab verir.

S.M.Kirov ad. ADU. Dos.İ.T.Məmmədov. «Azərbaycan dili semasiologiyasına giriş (kontekstoloji təhlil)»
10.03.1988

119 səhifəlik bu əsər dilin semantik imkanlarının yeni aspektdə tədqiqinə həsr olunmuşdur. Dilçiliyimizdə semasiologiya məsələlərinin tədqiqinə aid bir sıra əsərlər vardır. Lakin bu əsər, demək olar ki, yeni istiqamətdə işlənmişdir. Müəllifin tədqiqat metodu bizim ənənəvi dilçilik tədqiqatından çox, Moskva ümumi dilçilik məktəbinin istiqamətini xatırladır. Bu hal, hər şeydən əvvəl, əsərin ümumi nəzəri səviyyəsi ilə müəyyənləşir. İ.T.Məmmədov tədqiqat prosesində semasioloji araşdırmalar

müəllifi kimi tanınan görkəmli rus və Avropa alimlərinin fikirlərinə əsaslanmış, onlarla polemikaya girmiş, bir sıra yanlış mülahizələri rədd etməklə, obyektiv yol seçmiş, daha sağlam fikirlərə əsaslanmışdır.

Vəsaitdə bütövlükdə dilin semantik imkanlarından çox, polisemantizm məsələləri müəllifi düşündürmüşdür. Məsələnin nəzəri izahı üçün müəllif mətn mühitini ciddi şəkildə nəzərə almış, çoxmənalılığın kontekstual xarakterini ətraflı izah etmişdir. Sözün əsas və əlavə mənaları, əsas mənanın məfhumun xarakteri, əlavə mənanın mətn mühiti ilə bağlılığı, məfhumi əsasdan məhrum olması ağlabatan faktlarla isbat edilmişdir. Əsas və əlavə mənaların fərqləndirilməsində bir sıra əlamətlərin, xüsusən tərcümə məsələlərinin rolu diqqətlə izah edilmişdir. Müəllif öz tədqiqatını, başlıca olaraq, isimlər üzərində qursa da, digər nitq hissələri ilə əlaqəni unutmamışdır. Yeri gəldikcə, düzəltmə sözlərlə yanaşı, mürəkkəb sözlərin semantik imkanları da araşdırılmışdır.

Təbii ki, problemin izahı prosesində dil və nitq məsələlərinə münasibət meydana çıxır və bu cəhətin semantika məsələləri ilə bağlı izahı müəllif niyyətinin daha da dürüst müəyyənləşməsinə kömək edir.

Tədqiqat əsasən "İzahlı lüğət"in materialları üzərində qurulmuşdur. "İzahlı lüğət"dən verilən misallar və həmin misalların nəzəri təhlili həm müəllif ideyasının şərhinə imkan yaratmış, həm də bir növ lüğətin tənqidi təhlilinə çevrilmişdir. Buna görə də bu cür vəsait bir dərs vəsaiti kimi faydalı olmaqdan əlavə, lüğətlərin təkmilləşdirilməsinə də köməkdir. Əsərdə yeri gəldikcə dastan materiallarından da istifadə edilmişdir.

Vəsaitdə mübahisə doğura bilən cəhətlər də vardır.

Müəllif, Kroçenin belə bir fikri ilə razılaşır ki, söz bir mənaya iki dəfə malik ola bilməz; söz yalnız bir kontekstdə canlıdır; başqasında o artıq başqa sözdür (60). Bu fikir bir dildə nə qədər adam danışırsa, o qədər "a" səsi var - fikri kimidir və onu həqiqi mənada başa düşmək olmaz, fərdi çalara baxmayaraq, əsas məna qalır.

Əsərdə bir sıra sitatlar rus dilində verilmişdir. Dərs vəsaiti olduğu üçün bunların tərcüməsi vacib idi.

Dos.İ.T.Məmmədovun "Azərbaycan dili semasiologiyasına giriş" əsəri elmi-nəzəri səviyyəsi ilə seçilir, faydalıdır və ona görə də dərs vəsaiti qrifi ilə çapı məsləhətdir.

Nəsimi ad. Dilçilik İnstitutu. Hacıyeva Besta İsmayıl qızı.
«Qafqazın türkdilli arealında zaman formalarının izoqlosları»
ND. 22.03.1988

Əlavələrlə birlikdə 219 səhifədən ibarət olan bu dissertasiya Qafqazın türkdilli arealında zaman formalarının tədqiqinə həsr olunmuşdur.

Dissertasiya ön söz, giriş, üç fəsil, nəticə, ədəbiyyat və zaman formalarının yayılma xətlərini əks etdirən 19 xəritədən ibarətdir.

Dissertasiyada əsas areal kimi Azərbaycan ərazisi, Azərbaycan dili götürülmüşdür. Dil faktları kimi, müəllifin əsas istinad materialı şivə materiallarıdır. Lakin tədqiqat prosesində Qafqazın başqa türk xalqlarının, oğuz qrupuna daxil olan digər dillərin materiallarına da müraciət edilmişdir. Müəllif zaman formalarının müasir vəziyyətini izləməklə kifayətlənməmiş, onların hansı ərazidən hansı istiqamətə yayıldığını, etimoloji əsasını müəyyənləşdirməyə çalışmışdır. Ona görə də tədqiqat həm sinxron, həm də diaxron aspektdə aparılmış, həm təsvir üsulundan, həm də müqayisəli-tarixi metoddan istifadə edilmişdir.

Ön söz bizim dissertasiyaların ön sözləri kimi geniş işlənməmişdir, cəmi üç səhifə yarımdan ibarət olub, başlıca olaraq, mövzunun aktuallığı, işin yenilikləri, nəzəri və praktik əhəmiyyəti kimi məsələləri əhatə edir. Bunun əvəzində bir sıra məsələlər "Giriş"də aydınlaşdırılmışdır. «Giriş» dissertasiyanın həcm etibarilə üçünücü fəslindən (19 səhifə) çoxdur və ikinci fəslinə bərabərdir. Burada əsas məqsəd areal dilçiliyin tarixini öyrənmək, onun dialektologiya ilə arxeologiya arasında yerini, fənn və ya yeni bir elmi istiqamət olduğunu müəyyənləşdirməkdir. Müəllif bu fikirdədir ki, areal dilçilik dilçilikdə yeni bir istiqamətdir.

I fəsil 98 səhifədən ibarət olub, dissertasiyanın əsasını təşkil edir. Bu fəsil indiki və gələcək zaman formalarının semantik və etimoloji tədqiqinə, yayılma xətlərinin müəyyənləşdirilməsinə, türk dillərində mövqeyinə həsr olunmuşdur. Müəllif bu fəsildə indiki və gələcək zaman şəkilçilərinin ***-ır,-r, -er, -or, -ör; -a, -adı, -at, -attı; -a-var, -adır; -a-tura, a(tan); -ı, -i, -u, -ü; -ıy, -iy; -ey; -yo,-yə, -yor; -maqda, -a-yat; -ar,-ər, -mar; -man, -mən; -acaq, -əcək; -ac, -əc; -ayak; -lık; -cax; -cı, -ci, -c; -ası, -as*** kimi 30-a yaxın müxtəlif formasından danışır, bunların bizim şivələrimizdə mövqeyini, qədim abidədərlə əlaqəsini izləyir. Bunlardan yalnız bir-ikisi bizim dilə məxsus deyil.

Bu fəsildə şəxs şəkilçilərinin müxtəlif variantları və fonetik xüsusiyyətləri də əhatə edilmişdir.

II fəsil keçmiş zaman formalarını, son fəsil isə Azərbaycan keçid şivələrində zaman formalarının tədqiqini əhatə edir. Bu iki fəsil birlikdə 40 səhifəyə qədərdir.

Ümumən iş maraqlıdır və müəllif zəngin elmi ədəbiyyat nəzərdən keçirib, dialekt və şivələrimizin tədqiqi ilə bağlı əksər materialları, zaman şəkilçilərinin tarixi-etimoloji izahına həsr olunmuş əksər əsərləri öyrənmiş və onları tənqidi şəkildə tədqiqata cəlb etmişdir. Hər bir morfemin izahında öz xüsusi mövqeyini bildirmiş, daha çox N.Hacıyevanın mövqeyini müdafiə etmişdir. Sonda verdiyi xəritələr zaman şəkilçilərinin yayılma arealını əks etdirir.

Dissertasiyaya aid qeydlərimiz:

1.Müəllif dialekt faktlarına əsaslandığı halda, bəzən ədəbi dil və dialekt fərqlərini unudur. Məsələn: ***-ır, -maq, -da, -am, -əm*** və s. Şəkilçilərin Azərbaycanın bütün dialektlərində işləndiyi göstərilir (səh. 69, 104, 110, 113 və s.). Bunlar ədəbi dil faktıdır.

2.Əsərdə ümumən dialekt və şivə anlayışları qarışdırılır, hansı rayondan danışılırsa, çox vaxt həmin rayonun şivə xüsusiyyətləri dialekt adı altında verilir: İsmayıllı, Mərəzə, Ordubad, hətta Cəbrayıl dialekti (s.93) və s.

Dissertasiyada tarixi-müqayisəli araşdırma bizim üçün faydalı olan belə bir nəticə çıxarılmasına imkan vermişdir ki, Azərbaycan dilində bir sıra zaman formaları oğuz və qıpçaq tayfa dillərindən daha əvvələ aiddir (s.78, 125).

Əsər bütövlükdə faydalıdır və namizədlik dissertasiyasının tələblərinə tam cavab verir.

А.М.Аббасов. Лингводидактические проблемы содержания обучения азербайджанскому языку в русских школах (IV-VIII классы) KD. Opp.r. 12.05.1988

Неуклонное проведение в жизнь ленинской национальной политики в нашей стране открыло новые горизонты для стремительного развития национальных языков. В настоящее время, в период перестройки и демократизации, культура и язык каждого проживающего в нашей стране народа получили новый толчок в развитии, что явилось практически претворением ленинской национальной политики. В.И.Ленин писал, считая уступки языкам и их равноправие важным фактором прогресса: “Все нации государства безусловно равноправны и какие бы то ни были привелегии, принадлежащие одной из нациий или одному из языков, признаются недопустимымы и противоконституционными".(Ленин В.И. Проект закона о равноправии нации и о защите прав национальных меньшинств. Полн.собр.соч. изд-е 5-е.Т.25.-М.: Политиздат, 1961, с.136).

В свете сказанного в настоящее время расширились научно-педагогические исследования по вопросам преподавания родных языков. К числу таковых относится и диссертационная работа А.М..Аббасова, в которой ставится задача разработать лингводидактические проблемы содержания обучения азербайджанскому языку в IV-VIII классах русских школ. В данном исследовании впервые разработано и экспериментально апробировано научно обоснованное содержание обучения азербайджанскому языку в русской шко-

ле, определены принципы и пути организации лексического и грамматического материалов.

Диссертация состоит из 185 страниц машинописи, включая введение, три главы, выводы и библиографию.

Во ввдении обосновывается актуальность темы и постановка вопроса, определяются объект, основная цель, задачи и методы исследования, конкретизируются гипотеза и методологическая основа, определяется научная новизна, теоретическая и практическая значимость результатов, внедрение результатов исследования в практику, а также обосновывается структура диссертации.

В I главе под названием "Общие вопросы исследования" соискатель вполне справедливо для определения состояния вопроса делает краткий исторический экскурс, на основе анализа программы, учебников и общего состояния преподавания азербайджанского языка в русских школах делает соответствующие выводы для дальнейшего улучшения постановки вопроса на современном этапе. Учитывая, что по данным вопросам имеются исследования проф. А.Абдуллаева, И.Байрамова и др., после краткого обзора автор переходит к конкретному анализу программ и учебников. Становится очевидным, что до Великой Октябрьской социалистической революции учебные программы отсуствовали, а имеющиеся те или иные учебники предназначались для самостоятельного изучения азербайджанского языка и для подготовки переводчиков.

Диссертант А.Аббасов на основе анализа предшествующих программ составил свою программу (1983) и раскрыл в диссертации ее теоретические основы. Программа охватывает примерную тематику по развитию речи, определенные языковые материалы, требования, предъявляемые к знаниям, умениям и навыкам учащихся. Автор приходит к теоретическим обобщениям через практику, что позволило ему прийти к верным выводам.

В диссертации рассмотрены степень годности и эффективность учебников по азербайджанскому языку для русских школ начиная с изданной в 1922 году книги "Обучающая по тюркски" и по настоящее время, отмечены положительные стороны и имеющиеся недостатки. В диссертации на первый план выдвинуты вопросы составления учебников, их структура, усвоение новых слов, методы, а также имеющиеся в этой области недостатки. Внимательно изучены недостатки, связанные с подачей лексического и грамматического материала.

В 1977 году содержание обучения азербайджанскому языку в русских школах усовершенствовано и диссертант был одним из основных участников в проведении исследования по совершенствованию этого содержания. В целях проверки состояния усвоения

азербайджанского языка в русских школах диссертант проводил эксперименты в ряде школ республики, выявил имеющиеся недостатки. Здесь как важные недостатки выделены лексико-семантические,лексико-грамматические, лексико-орфоэпические, лексико-стилистические и др. Диссертант попытался выявить случаи конкретного проявления этих недостатков и основные их типы. В процессе эксперимента автор справедливо разделяет учащихся на практически владеющих азербайджанским языком и слабо владеющих.

Таким образом, в первой главе диссертации раскрываются общие вопросы объекта исследования, как состояние преподования, программы и учебники, чем была создана предпосылка для последующих глав.

Для исследования в качестве основного взят второй концентр (IV-VIII классы) и поэтому диссертант интересовался не фонетикой, не орфографией, а вопросами лексики и грамматики, определение лексического и грамматического минимума и II и III главы диссертации посвятил этим вопросам.

Как известно, работа над словарем одна из важнейших задач, стоящих перед преподаванием родного языка и обучением второму языку. Однако уточнение словарного минимума, отбор лексических единиц должны строиться на достоверных принципах. Вторая глава диссертации под названием "Проблема определения лексического материала по азербайджанскому языку в русских школах" впервые посвящена уточнению таковых принципов для второго концентра.

Содержание работы над словарем связано значением и произношением, правильным правописанием слов, правильным использованием их в процессе устной и письменной речи. Если изучение значения, правописания и произношения слова является важным, то в первую очередь возникает необходимость уточнения словарного минимума. Это до последнего времени осуществлялось со стороны авторов учебников приблизительно. Поэтому в данном параграфе главы диссертант попытался уточнить принципы лексического минимума, глубоко изучил положения ученых об изучении второго языка и иностранного языка и выдвинул шесть принципов: принцип частности; принцип семантической ценности; ситуативно-тематический принцип; синонимический принцип; принцип словообразовательной ценности; принцип исключения слов, имеющих полные соответствия в родном языке.

На наш взгляд, перечисленные принципы реальны для уточнения лексического минимума. Если в первом концентре - во II и III классах, эффективен последний принцип, то во втором концентре предусматривается изучение совершенно новых слов, что целесообразно с логической точки зрения.

Наиболее значим последний параграф данной главы. В данном параграфе речь идет о том, по какой системе добиваться усвоения научно обоснованного лексического минимума и какими путями организовывать работу по усвоению лексического минимума на уроках и во внеклассное время, указывается на необходимость организации лексического матерала в тематическом, семантическом, грамматическом, орфоэпическом и орфографическом отношениях. Выдвинутые теоретические соображения практически апробированы экспериментальным путем и сделаны конкретные выводы. Вторая глава ценна тем, что здесь раскрыты вопросы определения лексического минимума и пути правильной организации обучения.

Как известно, для изучения того или иного языка важно знать грамматическую структуру. Поэтому в третьей главе "Проблема определения грамматического материала по азербайджанскому языку в русских школах" - диссертант отмечал место и значение грамматики в системе обучения азербайджанскому языку, уделяет внимание отбору грамматического минимума и определении принципов. Автор на основе критического анализа научной литературы и практического опыта приходит к выводу, что грамматический минимум для IV-VIII классов русских школ должен определяться на основе следующих принципов: а) принцип учета умений и навыков, приобретенных в младших классах; б) принцип функциональной или речевой направленности; в) принцип учета родного языка; г) принцип дифференциальной значимости; д) омонимический принцип. Краткая характеристика этих принципов доказывает их необходимость. Автор уделил внимание путям организации грамматического материала в процессе и указывает три пути: 1.Функциональная организация грамматического материала. 2.Дифференциально-систематическая организация грамматического материала. 3.Опора на опережающую претензию грамматического материала по родному языку.

На основе эксперимента диссертант убедительно доказал достоверенность данных положений.

В работе Аббасова А.М. отсутствует описательность. По каждому вопросу автор конкретно высказывается, выдвигает свои соображения, проверяет их посредством эксперимента и приходит к определенным выводам. Поэтому работа является полезной в области методики преподавания языка.

Наряду со указанными положительными сторонами данная диссертация не лишена и некоторых недостатков, которые в некоторой степени полемичны или связаны стилистической стороной вопроса.

1.Диссертант пишет "...практическое усвоение учащимися азербайджанского языка предусмотрено как основная цель изучения этого пред-

мета (106,3)".“Привитие им навыков правописания не превращается в основную цель". (с.106). Мы не совсем согласны с этим положением. Автор на данной же странице диссертации пишет, что "Трудно усвоить слово, не опираясь на его написание". Если мы уменьшаем требование, то школа, слабый учитель сводят это на нет. Обучение должно быть обучением и никаких поблажек здесь не должно быть. Если мы сейчас отнесемся к ученику строже, то в будущем он не будет обвинять нас в либеральности, в счет чего он получил слабые знания.

2.Нам недостаточно ясно, почему автор для исследования в качестве основного концентра берет IV-VIII классы. В настоящем содержании диссертации, выдвинутые положения достаточно полезны и для других концентров.

3.Работа посвящена в основном уточнению лексического минимума, однако здесь для эксперимента не всегда слова подбираются удачно. В диссертации указывается, что в центре внимания обучающего эксперимента, проводимого в начале IV класса стояло усвоение слов ***körpə*** (младенец), ***əyləşmək*** (садиться), zəng (звонок), ***söyləmək*** (рассказать), ***əl qaldırmaq*** (поднимать руку), ***əzbərləmək*** (зубрить), ***çığırmaq*** (звать), ***uşaq*** (ребенок), ***dəftər*** (тетрадь), ***kitab*** (книга), ***oxumaq*** (читать), ***yazmaq*** (писать). Следует сказать, что слово садиться, звонок, зубрить, ребенок, тетрадь, книга, читать, писать изучаются во втором классе. (с.80).

4.В диссертации имеются и стилистические погрешности. Так, неясно, что хочет сказать автор в предложении: "В программы, изданные в 80-е годы не был включен словарный минимум, не соответствовали уровню учащихся предусмотренные грамматические знания и умения".

Сказанное, конечно, не снижает теоретической и практической значимости данной диссертации.

Автореферат соответствует основному содержанию диссертации. Опубликованные материалы охватывают основное содержание диссертации.

Учитывая вышеизложенное, можно заключить, что диссертация Аббасова А.М. отвечает требованиям, предъявлениям к кандидатским диссертациям ВАК и автор достоин присуждения искомой ученой степени по специальности 13.00.02-методика преподования азербайджанского языка.

Azərbaycan ETPEİ. Aspirant İmanov Akif Kazım oğlu.
«Sintaksisdən başlanğıc kursunun tədrisində şagirdlərin sintaktik bacarıq və vərdişlərinin formalaşdırılması»
ND. Opp. r. 10.06.1988

Aşkarlıq və demokratiyanın gücləndiyi, milli dilin tədqiqi, tədrisi imkanlarının genişləndiyi bir şəraitdə Azərbaycan dilinin başqa sahələri ilə yanaşı, qrammatik quruluşunun, xüsusən fikrin maddi dil cildinə sa-

lınması vasitəsi olan və dilin əsəb sistemini təşkil edən sintaktik quruluşun orta məktəbdə öyrədilməsi və bu işə elmi-pedaqoji nəzarətin xüsusi tədqiqat əsərlərində ümumiləşdirilməsi, tədris metodlarını eksperiment yolu ilə təkmilləşdirmə, irəlilətmə səyləri özü özlüyündə aktualdır.

Azərbaycan Elmi Tədqiqat Pedaqoji-Elmlər İnstitutunun dissertantı İmanov Akif Kazım oğlu dissertasiyada bu aktual məsələni orta məktəbin bütün sinifləri üzrə deyil, konkret bir sinif üzrə öyrənmək məqsədilə, sintaksisdən başlanğıc kursun tədris edildiyi IV sinfi əsas götürmüş, yeri gəldikcə, I-III siniflərdə bu sahə ilə bağlı bilik və bacarıqları, VII-VIII siniflərdə sintaksisdən sistematik kursun tədrisi imkanlarını da nəzərə almış, müqayisələr aparmışdır.

Yaxşı metodistin işi çətindir. Uzun müddət ədəbiyyat tariximizdə dilçilərin işini də ədəbiyyatşünaslar görmüş, bədii əsəri sosial-ictimai baxımdan hərtərəfli təhlil etdikdən sonra onun dilinə də toxunmuş, "bu əsərin dili təbiidir, bədiidir, yığcam və emosionaldır" kimi bir neçə cümlə ilə onun dil məsələsini də "həll etmişlər". Lakin son vaxtlar bir sıra dilçilər yetişmişdir ki, onlar bədii əsərin dil, sənətkarlıq xüsusiyyətlərini, poetik quruluşunu hərtərəfli təhlil etməklə yanaşı, əsərin sosial-ictimai dəyərini də nəzərdən keçirir və ədəbiyyatşünasların borcunu qaytarırlar. Bu həm də onunla bağlıdır ki, bədii əsərin linqvistik təhlili onun ictimai məzmunundan təcrid edilmiş şəkildə mümkün deyildir.

Belə bir vəziyyət, dil və ədəbiyyat fənlərinin tədrisi məsələlərinin tədqiqində də özünü göstərir. Kazım bəydən başlayaraq, uzun müddət görkəmli dilçi alimlər dilin elmi-nəzəri tədqiqi ilə məşğul olmuş, yeri gəldikcə onun tədrisi məsələlərinə də toxunmuş və ya tərtib etdikləri dərsliyin ümumi stili, mövzunun və çalışmaların tərtibi prinsipləri əsasında öz metodlarını da nümayiş etdirmişlər. Sonralar metodika daha sürətlə ayrılmağa, müstəqilləşməyə başladı. Lakin nə qədər ayrılsa, müstəqilləşsə də, nəzəri məsələlərə bələd olmadan metodika hazırlamaq olmaz. Bu mənada deyirik ki, həqiqi metodistin işi çətindir: o həm nəzəriyyəni yaxşı bilməli, həm də onun səmərəli tədrisi yollarını göstərməlidir. Hazırda bir sıra görkəmli metodist alimlərimiz (həm dilçi, həm də ədəbiyyatçı metodistləri nəzərdə tuturam) bu vəzifəni yerinə yetirməklə yanaşı, ədəbiyyat məsələlərinə qarışan dilçilərin fəaliyyətinə analoji şəkildə, dil və ədəbiyyat məsələlərinə münasibət bildirməli olur və biz bu halı təbii sayırıq; çünki nəzəri materialın tədqiqi səviyyəsi, bir çox mübahisəli məsələlərin elmi razılaşdırılmaması onların tədrisi barədə düşüncələrə mane olur, ona görə də metodist alim dilçilikdə, ədəbiyyatşünaslıqda da gücünü sınamalı olur (Bəşir Əhmədov, Əziz Əfəndizadə, Yəhya Kərimov, Camal Mustafayev, Şəmistan Mikayılov və b. kimi).

Bu qeydlərdən məqsədim dissertantın ümumi elmi hazırlığı barədə fikrimi söyləməkdir. Dilin başqa sahələrinə nisbətən, sintaksis daha çox

məntiqi təfəkkür tələb edən sahədir, çətin sahədir. Əslində, ibtidai kurs olsa da, IV sinif dərsliyindən və dissertasiyadan aydın olur ki, orta məktəbdə nəzərdə tutulan bütün əsas məsələlərin kökü bu sinifdə vardır. Odur ki həmin məsələlərin tədrisi yollarını təkmilləşdirmək barədə axtarışlar sintaksis məsələlərinə yaxşı bələd olmadan mümkün deyildir və dissertasiyadan aldığımız təəssürat əsasında deyə bilərik ki, Akif Kazım oğlu İmanov həqiqətən bu sahəyə yaxşı bələd olan bir metodist alim kimi yetişmişdir.

Dissertasiya giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Girişdə qayda üzrə mövzunun aktuallığı, elmi və praktik əhəmiyyəti, məqsəd və vəzifələri, obyekt və predmeti, aprobasiya işi yığcam şərh olunmuşdur.

"Tədqiqatın ümumi məsələləri" adlı I fəsildə dissertant ilk növbədə söz birləşməsi və cümləyə münasibətin müxtəlif aspektləri ilə və bu sahədə mövcud olan müxtəlif mülahizə və fikirlərlə tanış olmuş və bütün bunlar sintaksis tədrisinin başlanğıc sinifdə nəzəri əsaslarının sərhədini müəyyənləşdirmək üçün müəəlifə lazımi imkanlar vermişdir. Bu imkanlar sintaksisin nəzəri məsələlərinin dairəsini dəqiqləşdirməklə onun tədrisi yolları barədə düşüncələr üçün zəmin yaratmışdır.

1971-1972-ci tədris ilindən başlayaraq, Azərbaycan dilindən sistemli kurs IV sinifdən tədris edilir və IV sinifdə sintaksisə başlanğıc kurs kimi xüsusi yer verilir. Proqram və dərsliklərin dəyişməsi və metodik ədəbiyyatın bu səviyyəni gözləyə bilməməsi bir daha bu cür tədqiqata ehtiyacı ortaya çıxarmışdır.

I fəslin mühüm bölmələrindən biri mövcud proqram və dərsliklərin təhlilinə həsr olunmuşdur. Dissertant IV sinfin "Azərbaycan dili" proqram və dərsliyini hərtərəfli təhlil edərək onların nöqsanlarını üzə çıxarmış, konkret tövsiyələrlə onların təkmilləşdirilməsi yollarını göstərmişdir. Dissertasiyada məktəb təcrübəsinin sintaksisin tədrisi baxımından yoxlanması, bir çox məktəblərdə yoxlama-eksperimentlər müəllimlərin və şagirdlərin tədrislə bağlı qüsurlarını və bu qüsurların obyektiv və subyektiv səbəblərini aşkara çıxarmağa imkan vermişdir. Bu nöqsanlar içərisində müəllimlərin ümumi səviyyəsinin aşağı olması, bəzən nəzəri materiala üstünlük verməklə praktik işin diqqətdən yayınması, didaktik materialın məqsədəuyğun seçilməməsi, ümumiləşdirici sintaktik təhlilə tədrisdə lazımi yer verilməməsi və s. daxildir ki, bunlar məktəbin ümumi nöqsanlarıdır. Bütün bunları nəzərə alaraq, dissertant məktəbin, dərslik və proqramların, mövzu ilə bağlı məktəb təcrübəsinin ümumi mənzərəsini aydınlaşdırdıqdan sonra bu fəsli sintaksisdən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasına verilən tələbləri dəqiqləşdirməklə bitirmişdir. Sintaksisdən başlanğıc kurs ibtidai şəkildə olsa da, bütün əsas məsələləri əhatə edir. Müəllif yazır:"Sintaksisdən başlanğıc kursda anlayışlar sis-

teminə və bilik, bacarıq və vərdişlərə yiyələnmək o deməkdir ki, nəticə etibarilə şagird cümləni məqsəd və intonasiyaya görə müəyyənləşdirməyi, cümlədə sözlərin əlaqə və asılılığını sualların köməyi ilə göstərməyi, sadə cümlələri üzvlərinə görə təhlil etməyi, müvafiq mürəkkəb cümlələri komponentlərinə ayırmağı və bütövlukdə onu intonasiya ilə oxumağı, yazıda durğu işarələrindən məqsədəuyğun şəkildə istifadə etməyi bacarsın". (s.45)

Dissertasiyanın əsasını təşkil edən II fəsil ("Sintaksisdən başlanğıc kursda şagirdlərin sintaksisə dair bilik, bacarıq və vərdişlərini formalaşdırmağın optimal yolları") dörd böyük bölmədən ibarətdir.

İlk növbədə müəllifi sintaksisdən bilik, bacarıq və vərdişlərin necə ardıcıllıqla aşılanması məsələləri maraqlandırmışdır. Söz birləşməsi - cümlə - mətn ardıcıllığı və bunların hər birinin daxili məzmunu, bir-biri ilə əlaqə və münasibəti dilçiliyin və metodikanın yeni tələbləri baxımından düzgün şərh edilmişdir. Buna görə də dissertasiyada əvvəlcə söz birləşmələrinə dair bilik, bacarıq və vərdişlər verilməsinin optimal yolları şərh olunmuş, sonra cümlə mövzusunun eksperimental və kontrol siniflərdə fəal müşahidə prosesində tədrisi vəziyyəti araşdırılmışdır.

Əsərdə cümlənin tədrisi məsələləri (IV sinif) xüsusi bir fəsil təşkil edəcək səviyyədə işlənmişdir ki, bu da mövzunun öz tutumu ilə bağlıdır. Cümlə və onun əlamətləri, cümlənin baş üzvləri, ikinci dərəcəli üzvlər, müxtəsər və geniş cümlələr, cümlənin məqsəd və intonasiyaya görə növləri, xəbərin mübtəda ilə uzlaşması, həmcins üzvlü cümlələr, xitablı cümlələr, sadə və mürəkkəb cümlələr, vasitəsiz nitq, dialoq və sair kimi sintaksisin əsas mövzularının proqram həcmində tədrisi üsulları və hər bir kiçik mövzu ilə bağlı eksperimentlər ağlabatan axtarışlar və tədrisi keyfiyyətcə yüksəltmək cəhdləri ilə bağlı olub, müəllimi düzgün istiqamətləndirmək, dərslik və proqramları təkmilləşdirmək məqsədi daşıyır. Mətn, onun quruluşu və bu sahədə şagirdlərin almalı olduqları bilik və bacarıqların dairəsi barədə qeydlər sintaktik vahidlər və onların tədrisi barədə fikri yekunlaşdırır. Əməli nəticələri gücləndirmək üçün müəllif sintaktik təhlil nümunələri və eksperiment göstəriciləri ilə şagirdlərin bilik, bacarıq və vərdişlərini yoxlamaq, möhkəmləndirmək barədə geniş imkanlar olduğunu göstərir. Müəyyənləşdirici eksperimentlər sintaksisin tədrisi ilə bağlı subyektiv və obyektiv qüsurların aradan qaldırılmasına kömək edə bilər.

Akif İmanovun dissertasiyası IV sinifdə (gələcək V siniflərdə) sintaksisdən başlanğıc kursun təlimi keyfiyyətini yüksəltmək üçün faydalı elmi-pedaqoji göstəricilərə malikdir. Müəllif ardıcıl olaraq hər bir mövzunun kontrol və eksperimental siniflərdə yoxlama nəticələrinə əsaslanmış, fikrini eksperiment nəticələrini əks etdirən bir sıra cədvəllərlə isbat etmişdir. Dissertasiya ruh etibarilə müəllim əməyini düzgün istiqamət-

ləndirmək, şagirdlərin fəallığını artırmaq xarakteri daşıyır, dərslik və proqramların yenidən işlənməsi tələblərini ortaya çıxarır.

Dissertasiyada, şübhəsiz, mübahisə doğuran cəhətlər də vardır.

1.Dissertasiyanın girişində oxuyuruq: "Sintaksisdən başlanğıc kursun… tədrisi qarşısında duran vəzifələr şagirdlərdə durğu işarələrinə dair bacarıqlar formalaşdırmaq və rabitəli nitqin inkişafı üçün lazımi şərait yaratmaqdan ibarətdir. Başlanğıc kursun vəzifələri, göründüyü kimi, çox genişdir". (s.3) Bu fikir sonrakı abzasda da təkrar edilir. "Deməli, sintaksisdən başlanğıc kursun tədrisi didaktikanın məlum prinsipləri əsasında elə qurulmalıdır ki, şagirdlərin durğu işarələri ilə əlaqədar savad səviyyəsi yüksəlsin, onların nitqi sintaktik konstruksiyalar baxımından daha da təkmilləşsin". (s.3) Bu fikir səh.27 və s.-də də təkrar edilir. Aydın olur ui, müəllif başlanğıc kursda - IV sinifdə sintaksis tədrisini durğu işarələri və nitq inkişafı ilə bağlı izah edir. Bizcə, bu, müəllifin qeyd etdiyi kimi çox "geniş" deyil, əksinə, çox məhdud vəzifədir. Orta məktəbdə durğu işarələrinin mənimsədilməsi ilə, əslində, bütün fənlərin tədrisi prosesində məşğul olmaq lazımdır. Lakin təbii ki, ilk növbədə bu işlə dil dərslərində əsaslı məşğul olmaq gərəkdir; eləcə də nitq inkişafı bütün fənlərdə gözlənilməlidir. Tarix dərsi də, təbiət elmləri də nitq inkişafı üçün əsas verir. Azərbayxan dili dərsləri nitq inkişafının əsl gözətçisi, nəzarətçisi, elmi istiqamətvericisi olmalıdır. Nitq inkişafı daha çox qeyri-milli məktəblərdə Azərbaycan dilinin tədrisinə aiddir. Milli məktəbdə isə Azərbaycan dili tədrisi sistemli kursda şagirdlərə dilin tərkib hissələri, onun quruluşu haqqında elmi məlumat verilməli, bu kurs tamamlanarkən ictimai hadisə olan dil barədə şagirdlərdə ümumi elmi təsəvvür yaranmalıdır.

2.Dediyimiz kimi, ayrı-ayrı mövzuların tədrisinin keyfiyyətcə yüksəldilməsi yollarının araşdırılması prosesində eksperimentlər aparılmış, kontrol və eksperimental siniflər və onların nəticələri cədvəllərlə, sxemlərlə müqayisə edilmişdir və şübhəsiz, eksperiment nəticələri üstünlüyü ilə seçilmişdir. Lakin bəzən eksperiment nəticləri də çox aşağıdır. Məsələn, eksperiment sinfində 34 şagirddən yalnız 17-si, kontrol sinifdə isə 8-i ***o, bu*** sözlərini təyin vəzifəsində düzgün müəyyənləşdirə bilir. Bu həd eksperiment üçün də çox aşağıdır: 50 faizdir. Eksperiment elə aparılmalı idi ki, mənimsəmə daha yüksək nəticələrə malik olsun.

3.Müəllif "Mən öz yurdumu qürbətin cənnətinə dəyişmərəm" cümləsini təhlil edərək yazır: "…"qürbətin" sözünü ayrılıqda cümlə üzvü hesab edib, *nə yin?* sualını sintaktik sual hesab etsək, o zaman "qürbətin" sözünün ayrılıqda aydın anlayış bildirməməsini nəzərə almamış olarıq. Bu isə belə bir səhv nəticəyə gətirib çıxarır ki, cümlə üzvü olmaq üçün sözün müstəqil şəkildə anlayış bildirməsi əsas deyil". (s.57) Qeyd etməliyik ki, "qürbətin" sözü müstəqil anlayış bildirir. Biz bu cür sözləri (yiyəlik halda olan sözləri) müstəqil anlayış bildirmədikləri üçün deyil, ona görə müstəqil cümlə üzvü saymırıq ki, ənənəvi olaraq III növ ismi birləşmələri bir üzv kimi götürürük. Artıq bir neçə ildir ki, Ə.Abdullayev yiyəlik halda olan sözləri müstəqil təyin kimi ayırmaq uğrunda mübarizə aparır və bəzi xalqların dilçiliyində həqiqətən III növün tərəfləri ayrı götürülür.

4.Bəzən müəllif diqqətsizlik və ya cüzi ifadə qüsuru ilə elmi səhvə yol verir: "mübtəda ilə xəbər bir-biri ilə uzlaşır" (s.116); bu fikri müəlllif səh. 48-də

sxemdə mübtəda ilə xəbər arasında oxun ucunu hər iki tərəfə qoymaqla da təkrar etmişdir. Bu cür işarə və qeyd koordinasiyaya aparır, bərabərhüquqlu əlaqə deməkdir. Dilçiliyimizdə isə hələlik xəbər mübtədayv tabe hesab edilir.

Yaxud dərslikdəki 147 nömrəli çalışma, kontrol sinifdən fərqli olaraq, eksperiment keçirilən sinifdə müəyyən ardıcıllıqla icra edilir. Müəllif yazır: "Kontrol siniflərdə bu ardıcıllıq nəzərdə tutulmadığından şagirdlər ən zəruri bacarıqlara yiyələnməkdən - nitq inkişafından məhrum oldular". Nəzərə almaq lazımdır ki, nitq inkişafı bir çalışma ilə reallaşmır, tədris boyu yaradılır.

A.K.İmanov xeyli müddət Naxçıvan MSSR-in məktəblərində eksperimentlər aparmışdır və orta məktəblə bağlı yoldaşdır, orta məktəbə yaxşı bələddir. Onun bu dissertasiyası proqram və dərsliklərin təkmilləşdirilməsinə, məktəbdə Azərbaycan dili tədrisinin elmi və praktik cəhətdən keyfiyyətcə yaxşılaşmasına kömək edə bilər. Bu cəhətdən əsərin elmi-pedaqoji əhəmiyyəti ilə yanaşı, mühüm praktik əhəmiyyəti də vardır və ilk dəfə olaraq bu əsərdə başlanğıc kursda sintaksis tədrisinin elmi-nəzəri əsasları monoqrafik tədqiq edilmişdir. A.İmanov bilavasitə mövzu ilə bağlı 9 məqalə və tezis çap etdirmişdir. Bunlar və avtoreferat dissertasiyanın məzmununu əhatə edir. Dissertantın elmi-nəzəri ədəbiyyatı və məktəb təcrübəsini ümumiləşdirmə əsasında gəldiyi nəticələr ağlabatandır. Bunları nəzərə alaraq qeyd edirik ki, İmanov Akif Kazım oğlunun "Azərbaycan dili sintaksisinin ibtidai kursunun öyrədilməsində sintaktik bacarıq və vərdişlərin formalaşdırılması" adlı əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi pedaqoji elmlər namizədi alimlik dərəcəsi almağa layiqdir.

V.İ.Lenin ad. APİ. Dosent C.Ə.Cəfərov.
«Nitq hissələrində keçid prosesləri»
DD. 1988

Əsərin quruluşu aydındır: giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, I fəsil mövzunun tədqiqi tarixinə həsr olunmuşdur. Müəllif bu fəsildə nitq hissələrinin təsnifi prinsiplərini nəzərdən keçirmiş, bu barədə fikirlərin xülasəsini vermişdir. Nitq hissələrində keçid prosesinə diqqət yetirilmişdir. Ümumi dilçilikdə, türkologiyada və Azərbaycan dilçiliyində keçid prosesinin tədqiqinə dair fikir və mülahizələr göstərir ki, bu sahədə az iş görülmüşdür, öyrənilməli, ümumiləşdirilməli məsələlər çoxdur. Ümumən əsərlə - dissertasiya ilə tanışlıqdan aydın olur ki, nitq hissələrinin tədqiqi və öyrənilməsi işində bu günə qədər bir yarımçıqlıq var: nitq hissələrinə məxsus bir növ sabit xarakter daşıyan sözlər qruplaşdırılmış, dildəki inkişaf, əsas nitq hissələ-

rinin bir-birinə və köməkçi nitq hissələrinə doğru inkişafı, nitq hissələrinin və ümumən dilin qrammatik quruluşunun bu yolla arasıkəsilməz hərəkəti çox zəif nəzərə alınmışdır.

Elə buna görə də dissertasiyanın II fəslində dilçiliyimizdə ilk dəfə olaraq sistemli şəkildə əsas nitq hissələrində keçid prosesləri - substantivləşmə, adyektivləşmə, saylaşma, əvəzlikləşmə, adverbiallaşma kimi mühüm proseslər nəzərdən keçirilmişdir.

Dtssertasiyanın III fəsli köməkçi nitq hissələrində və köməkçi nitq hissələrinə keçid proseslərinə - qoşmalaşma, modallaşma, bağlayıcılaşma hadisələrinə həsr edilmişdir.

Ən əhəmiyyətlisi budur ki, müəllif vahid prinsip götürmüş, əsas və köməkçi olmaqla bütün nitq hissələrinə eyni prinsiplə, eyni ölçü ilə yanaşmışdır - nitq hissələrinin təsnifində olduğu kimi, gah bu, gah da digər prinsipi üstün tutmamışdır. Ona görə də dissertasiya nitq hissələri ilə bağlı bir lay, bir təbəqə qaldırır və bu lay başdan-başa bütün morfologiyanı əhatə edir, sintaksislə bağlanır, həm də bu elə bir lay, elə bir təbəqədir ki, həmişə mübahisə doğurur, həmişə aralıqda qalır, hərə bir nitq hissəsinin üzərinə atır. Bu əsərdəki prinsip daha da təkmilləşdirilməklə, dəqiqləşdirilməklə bu cür mübahisələrə son qoymaq mümkündür və ona görə də Cəfər müəllimin əsəri həm nəzəri, həm də praktik cəhətdən çox əhəmiyyətlidir.

Əsərin mühüm müsbət keyfiyyətləri də, nəzərə çarpan nöqsanları da müəllifin ilk dəfə olaraq nitq hissələrinə bu cür vahid prinsiplə yanaşmasından irəli gəlmişdir.

Dissertasiyanın mühüm məziyyətlərindən biri də fakt zənginliyindədir. Nəzərdə tutduğumuz faktlar sadəcə olaraq məlum sözlərə aid cümlələr seçməkdən ibarət deyildir. Fakt dedikdə hər bir nitq hissəsinə aid keçid prosesini şərtləndirən külli miqdarda materialı nəzərdə tuturuq.

Adətən, dissertasiya işində başqalarının fikirlərinə münasibət bildirmək adi haldır. Lakin Cəfər müəllimin işinin xarakteri elədir ki, bu sahə vahid prinsip əsasında ilk dəfə tədqiq olunduğundan, başqaları tərəfindən söylənmiş elə bir fikir yoxdur ki, müəllif ona irad tutmasın, onun kəsir və nöqsanlarını qeyd etməsin. Bu cəhət mövzudan, onun tədqiqi prinsiplərinddən irəli gəlir. Dissertasiyada, demək olar ki, mövzu ilə bağlı bütün əsas ədəbiyyat nəzərdən keçirilmişdir.

Əsərdə düzəldilməsi mümkün olan nöqsanlar da var:

Səh.87-də məsdər formalı fellərin substantivləşməsindən danışılır. Müəllif özü də izah edir ki, substantivlik elə məsdərin canında var. Ona görə də bu hissəni "məsdərin substantivləşməsi" deyil, "məsdərdə substantivlik" adlandırmaq lazım idi.

Bəzi söz və ifadələrdə proses başa çatdığı halda, müəllif onları hələ də prosesdə sayır. Fikrimizcə, ***birtəhər, arabir, əlbir*** tipli sözlər adverbial sözlər de-

yil, artıq zərfdir. ***Birə-beş*** sözü də belədir. Fikrimizcə: "Mən ondan bir yeyib, beş götürmüşəm" - cümləsində ***bir, beş*** - adverbial yox, substantiv sözlərdir. Əsərdə bəzən modal sözlərlə bağlayıcıların sərhədi seçilmir. Səh.259-da 1, 2 və 3-cü paraqrafların hamısında nəticə əlaqəsi var.

Əsərdə təkrarlar var: V.Vinoqradovun, Ə.Abdullayevin və başqalarının fikirləri təkrar edilir. Leksik vahid kimi sözün, morfoloji vahid kimi nitq hissəsinin, sintaktik vahid kimi cümlə üzvünün quruluşundan ayrıca bəhs etmək lazım gəldiyi mülahizəsi, sözün leksik və qrammatik mənası məsələsi və s. də təkrar olunur.

Əsər doktorluq dissertasiyasının tələblərinə cavab verir və müdafiə üçün hazırdır.

Nəsimi ad. Dilçilik İnstitutu. Hüseynov İmamverdi Ağa oğlu. «İngilis atalar sözlərinin Azərbaycan dilinə adekvat tərcüməsi problemi»
ND. 21.10.1988

130 səhifəlik bu dissertasiya (istifadə edilmiş elmi və bədii ədəbiyyat siyahısı bu səhifəyə daxil deyildir) aktual bir mövzunun - ingilis dili məsələləri və onların Azərbaycan dilinə ekvivalent tərcüməsi probleminin öyrənilməsinə həsr olunmuşdur. Son dövrlərdə bilavasitə ingilis dilindən tərcüməyə xüsusi əhəmiyyət verildiyindən bu sahədə tərcümə prinsiplərinin və spesifik xüsusiyyətlərin dəqiqləşdirilməsinə, qarşılıqlı frazeoloji lüğətlərin tərtibinə böyük ehtiyac duyulur. Dissertasiya məhz belə bir ehtiyacdan irəli gəlmişdir.

Ön söz, giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu əsər məqsəd aydınlığı, tədqiqatın istiqaməti və məsələlərin həlli baxımından diqqəti cəlb edir. Ön sözdə müəllif mövcud müasir qaydalar əsasında mövzunun aktuallığını əsaslandırmış, tədqiqatın məqsəd və vəzifələrini, elmi işin yeniliklərini, metod və metodologiyasını, quruluşunu, elmi və praktik əhəmiyyətini şərh etmişdir. Dissertasiyının "Giriş"i əsas fəsillərdəki məsələlərin şərhi üçün açardır. Burada müəllif tədqiq və araşdırmalar, elmi ədəbiyyatın tənqidi təhlili əsasında ingilis dili məsəllərinin və ümumən ingilis dili frazeologiyasının Azərbaycan dilinə tərcüməsinin frazeoloji ekvivalent, frazeoloji analoq, kalka, təsviri tərcümə, mətni əvəzetmə kimi müxtəlif üsullarını müəyyənləşdirmiş və sonrakı iki fəsildə bunların zəngin dil materialı əsasında geniş şərhini vermişdir.

"İngilis və Azərbaycan dili məsəllərinin müqayisəli (qarşılaşdırmalı) təhlili" adlı birinci fəsil bir neçə bölmədən ibarətdir. İlk bölmədə ("Məsəllərin struktur-semantik xüsusiyyətləri") ingilis və Azərbaycan dili məsəllərinin uyğun və fərqli cəhətləri araşdırılmışdır. Bu hissə aydın göstərir ki, hər iki dildə məsəllər əksərən nəqli cümlə, təsdiq və inkar

cümlə, ritorik sual cümlələri, əmr cümlələri, tabesiz və tabeli mürəkkəb cümlələr şəklində olmaqla bir-birinə struktur-semantik baxımdan uyğun gəlir və tərcümə prosesində bu cəhətlərin nəzərə alınması zəruri bir keyfiyyət kimi ortaya çıxır. Tədqiqat bir daha təsdiq edir ki, məsəllər struktur-semantik cəhətdən sabit olur, dəyişmir. Bu sabitlik həm mənada, həm leksik tərkibdə, həm də sintaktik quruluşda özünü göstərir.

Müəllif hər iki dildə məsəllərin uyğun və oxşar cəhətləri, üslubi imkanlarının spesifikası ilə yanaşı, uzual və okkozional formalaşma xüsusiyyətləri barədə diqqətlə araşdırmalar aparmışdır. Xüsusən okkozional formalaşmada sinonim və antonim əvəzetmələr hər iki dilin geniş imkanlara malik olduğunu aydın göstərir. Dissertasiyada mühüm bir cəhət bu məqamda sinonimliklə variantlılığın fərqləndirilməsidir.

"Məsəllərin ingilis dilindən Azərbaycan dilinə adekvat tərcüməsinin müvəffəqiyyəti problemi" adlı ikinci fəsil nəzəri və praktik cəhətdən daha əhəmiyyətlidir. Çünki bu fəsil tərcümə problemləri ilə bilavasitə bağlı olan nəzəri və əməli məsələlərin konkret şərhindən ibarətdir. Burada ingilis dilindən ana dilinə tərcümənin nəzəri cəhətləri, tərcümə prosesində istifadə edilən üsul və vasitələr, tərcümənin ekvivalentliyini təmin edən faktorlar ətraflı tədqiq edilmiş, tərcümə prosesində yol verilən nöqsanlar, qaydaların pozulması halları bədii ədəbiyyatdan gətirilən zəngin nümunələr əsasında qruplaşdırılmışdır.

Dissertasiya işi 4000-dən artıq atalar sözü və məsəlin qarşılaşdırılması, 1200 ç. v.dən artıq elmi və bədii ədəbiyyatın verdiyi faktlar əsasında yazılmışdır. Müəllif imkan daxilində bütün zəruri ədəbiyyatı nəzərdən keçirmişdir və buna görə də əsərin elmi səviyyəsi yüksəkdir.

Dissertasiyada mübahisə doğura bilən cəhətlər də vardır. Lakin hazırkı vəziyyətdə bu əsər tərcümə nəzəriyyəsinin müəyyənləşdirilməsinə, frazeoloji tərcümə lüğətlərinin yaradılmasına, frazeoloji vahidlərin adekvat tərcüməsinin keyfiyyətcə yaxşılaşdırılması işinə köməkdir. Buna görə də biz bu əsəri filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün lazım olan bütün tələblərə cavab verən bir əsər hesab edirik.

S.M.Kirov ad. ADU. Prof. N.Abbasova.
«Klassik bədii dil»
16.01.1989

Azərbaycan ədəbi dilinin çoxəsrlik tarixini, onun təşəkkül və inkişaf yolunu, müxtəlif mərhələlərdən keçərək necə səlisləşdiyini, zənginləşdiyini öyrənmək üçün şifahi xalq ədəbiyyatı materialları, ədəbiyyatımızın görkəmli simalarının yaradıcılığı misilsiz imkanlara malikdir. Ümumən folklor materialları və klassik ədəbiyyat dil tarixinin tədqiqi və

öyrənilməsi üçün əsas mənbələrdəndir. Bununla yanaşı, klassik ədəbiyyatımızın elə görkəmli simaları vardır ki, onların hər birinin dili xüsusi kurs üçün mövzu ola bilər və dilimizin tarixini daha dərindən öyrənmək üçün bu cür kurslara böyük ehtiyac vardır. Elə buna görə də biz professor Nəmidə xanım Abbasovanın klassik bədii dil məsələlərini xüsusi kurs kimi mövzu seçməsini təqdir edirik.

138 səhifəlik bu yığcam əsər "Kitabi-Dədə Qorqud"un, Nəsiminin və Füzulinin dilinin tədqiqinə həsr olunmuşdur.

"Kitabi-Dədə Qorqud" dilimizin tarixi tədqiqi üçün insan cəmiyyətinin qoruyub bizə çatdırdığı əvəzsiz mənbədir. Bu dastan ortaya çıxandan bəri yüzlərcə görkəmli alimin diqqətini cəlb etmiş, qorqudşünaslar nəsil-nəsil bu əsərin tədqiqi ilə məşğul olmuşlar. Lakin bu dastan yaxın vaxtlara qədər daha çox tarixi qrammatika və tarixi leksikologiya baxımından araşdırılmışdır. Nəzərə alsaq ki, bu əsər həm də yüksək bədiilik nümunəsidir, onun poetik xüsusiyyətlərinin, məcazlar sisteminin tədqiqinə də böyük ehtiyac olduğu aydın olar. Əslində, dastanın bu cəhətdən tədqiqinə də başlanmışdır. N.Abbasova isə bu cəhətə daha diqqətlə yanaşaraq, konkret bir sahənin - bədii təyin-epitetlər sisteminin tədqiqi ilə dastanın dilinin emosional-estetik keyfiyyətləri barədə yüksək təəssürat yarada bilmişdir. Məcazlar sisteminin ən kütləvi və çoxişlənən növlərindən biri olan epitetlərin təsirlilik imkanlarının zənginliyi, rəngarəng ifadə vasitələri - frazeoloji birləşmələr, ***-lı*** və ***-an*** şəkilçili isimlər və sifətlər, epitetlərin təkrarı, epitetlərdə alliterasiya və s. tropun bu növünün qədimliyinin və "Kitabi-Dədə Qorqud" dilinin emosional təsir gücünün meydana çıxmasında xüsusi əhəmiyyəti olduğunu göstərir.

Mütəfəkkir şair Nəsiminin yaradıcılığı da dilimizin tarixi tədqiqi üçün neçə-neçə nəsillərin istinad mənbəyi olmuşdur. Lakin bu böyük şairin şeir dilinin açılmamış sirləri hələ çoxdur. N.Abbasova Nəsimi dilinin ümumi mövqe və əhəmiyyəti barədə məlumat verməklə yanaşı, bir sıra konkret məsələlərin ilkin şərhinə çalışmış, xüsusən şairin xalq danışıq dili elementlərindən necə faydalandığını ətraflı tədqiq etmişdir. Nəsimi poeziyasında forma və məzmun vəhdətinin, xalq dilindən və folklordan gələn ifadələrin, atalar sözləri və məsəllərin, aforizmlərin, təkrarların, sinonim cərgələrin, şairin cinas yaratma qüdrətinin geniş şərhini verməklə, müəllif Nəsimi poetikasının bir sıra səciyyəvi xüsusiyyətləri barədə xüsusi kurs dairəsində müvafiq təəssürat yaratmışdır.

Əsərin mühüm bölmələrindən biri "Füzulinin poetik dili" adlanır. Müəllif bu bölmədə mövzudan istifadə edərək XV-XVI əsr bədii dilinin bir sıra xüsusiyyətlərini aydınlaşdırmışdır. Füzuli və Nəsiminin bədii dili müqayisəli öyrənilmiş, bu görkəmli sənətkarları birləşdirən və ayıran cəhətlərin şərhinə cəhd edilmişdir. Sözün həqiqi və məcazi mənasının, frazeoloji birləşmələrin, müqayisələrin, mübaliğələrin, bənzətmələrin, qar-

şılaşdırmaların, sinonim və antonim cərgələrin, obraz nitqinin, bədii mükalimələrin, müvaziliklərin, köməkçi sözlərin Füzulinin sənət dilinin təşəkkül və formalaşmasında rolu elmi işdə ətraflı tədqiq olunmuşdur.

Göründüyü kimi, əsərin tədqiqat obyektləri böyükdür. Həm də müəllifin məqsədi bu obyektləri tarixi qrammatika istiqamətində deyil, bədiilik prizmasından araşdırmaq, oxucuda bədii dilin imkanları, şifahi ədəbiyyat yaradıcılarının, klassik sənətkarların sözdən istifadə ustalığı barədə təsəvvur yaratmaqdır. Bütün bunlar bugünkü poeziya və nəsr sənətkarlığının köklərini araşdırmaq baxımından da faydalıdır.

Məsləhət görərdik ki, ayrı-ayrı mövzularda nəzərə çarpan az-çox dağınıqlıq bir qədər qaydaya salınsın. Müəllif hər mövzuda nədən danışacağı barədə əvvəlcədən tezis şəkilli məlumat verə bilərdi. Bundan əlavə, məlumdur ki, "Dədə Qorqud"un, Nəsiminin və Füzulinin dilinə həsr olunmuş çox zəngin elmi ədəbiyyat vardır. Vəsaitin sonunda tələbələri bu ədəbiyyatın ən dəyərliləri ilə tanış etmək yaxşı olardı.

Ümumilikdə götürdükdə, prof. .N.Abbasovanın əsərini faydalı hesab edirik və onun çap olunmasını məsləhət bilirik.

S.M.Kirov ad. ADU. Dosent A.Aslanov. «Azərbaycan dilində köməkçi nitq hissələri»
10.04.1989

299 səhifəlik bu əsər müasir Azərbaycan dilinin az öyrənilmiş sahələrindən birinin - köməkçi nitq hissələrinin tədqiqinə həsr edilmişdir.

Dos.A.Aslanovun belə bir elmi əsər, belə bir dərs vəsaiti hazırlaması hər cəhətdən faydalıdır. Ona görə ki hazırkı vəziyyətdə köməkçi nitq hissələrinin hərtərəfli tədqiqinə dilçiliyimizdə böyük ehtiyac var: bu sahə, qeyd etdiyimiz kimi, az öyrənilmişdir, ayrı-ayrı köməkçi nitq hissələri ilə bağlı qaranlıq, mübahisəyə səbəb olan cəhətlər çoxdur və bunlar istər-istəməz tədris prosesində ciddi çətinliklər törədir. Digər tərəfdən, A.Aslanov köməkçi nitq hissələrinin elmi cəhətdən dəqiqləşməsində, müəyyənləşməsində, köməkçi nitq hissəsi pasportu almasında bir tədqiqatçı kimi xüssui rolu olan alimdir. Onun hələ 50-ci illərin sonlarında yazdığı "Müasir Azərbaycan dilində modal sözlər"(1957), "Bağlama" (1958) və s. məqalələri, ilk elmi qrammatikalarda çıxışları bu fikri aydın sübut edir. A.Aslanov uzun müddət düşünüb-daşınan, özünün xüsusi rəyi olan dilçilərimizdəndir və onun köməkçi nitq hissələrinə dair bu qiymətli araşdırmaları bizi xoş təsir bağışlayır.

Əsər girişdən və "Bağlayıcı", "Qoşma", "Bağlama", "Ədadtlar", "Modal sözlər" adlı bölmələrdən ibarətdir. Vəsaitin mühüm keyfiyyətlərindən biri ayrı-ayrı köməkçi nitq hissələrinin qrammatik-morfoloji xüsu-

siyyətlərinin şərhindən əvvəl onların tədqiq tarixinə nəzər salınmasıdır. Bu cəhəti müəllif ardıcıl olaraq bütün köməkçi nitq hissələrində gözləmiş, Mahmud Kaşğaridən bu yana hər bir köməkçi nitq hissəsi haqqında qeyd və mülahizələri ardıcıl şəkildə izləmişdir. Bu cür yığcam tarixi xülasə əsasında ziddiyətli fikirlər aşkar olur. A.Aslanov köməkçi nitq hissələrinin "yaralı" nöqtələrini yaxşı bilir, ilk növbədə mübahisə doğuran cəhətlərin aşkarlanmasına və dəqiqləşdirilməsinə diqqət yetirir və həm də mülahizələrini əksərən dəqiq faktlarla əsaslandırır. Bağlayıcıların quruluş xüsusiyyətləri, qoşmaların yiyəlik halla münasibəti, ədatlarla modal sözlərin əlaqəsi və s. belə məsələlərdəndir.

Şübhəsiz, köməkçi nitq hissələrinin tədqiqində əsas yeri onların qrammatik xüsusiyyətlərinin və məna növlərinin öyrənilməsi tutur. Müəllif bütün əvvəlki bölgüləri nəzərdən keçirərək, onları bir qədər də dürüstləşdirir, bədii ədəbiyyatdan verdiyi zəngin dil faktları əsasında ətraflı izah edir. Köməkçi nitq hissələrinin özləri də yaxın xüsusiyyətlərinə görə qruplaşdırılmışdır. Müəllif qrammatik xüsusiyyətlərinə görə daha yaxın olan qoşma və bağlayıcıları bir qrupa, ədat və modal sözləri digər qrupa daxil etməkdə haqlıdır və bu cür bölgü dilçiliyimizin 50-ci illərdən sonrakı təcrübəsinə əsaslanır.

Qoşmaların və bağlayıcıların köməkçi nitq hissəsi kimi müstəqilliyinə şübhə edənlər yoxdur. Lakin hələ də ədatlarla modal sözləri bir qrupa daxil edənlər, yəni birləşdirib bir nitq hissəsi kimi izah edənlər vardır. A.Aslanovun bu tədqiqatı, yəqin ki, bunların müxtəlif nitq hissələri kimi ədəbiyyatda birdəfəlik sabitləşməsinə kömək edəcəkdir.

A.Aslanov hər bir mövzunun tədqiqində yeni cəhətlər üzə çıxarmaq cəhdi ilə yanaşı, yeni köməkçi nitq hissəsi kimi "bağlamalar" haqqında da məlumat vermişdir. Bu nitq hissəsinə ***idi, imiş, isə, ikən*** köməkçi sözlərini daxil edir. Müəllif təqribən əsərin üç çap vərəqi həcmində böyük bir hissəsində bağlamaların ətraflı təhlilini vermişdir. Bu hissə onun uzunmuddətli düşüncələrinin məhsuludur. ***İdi, imiş*** köməkçi sözlərini zaman şəkilçisi hesab etməməkdə müəllif xüsusilə haqldır. Özlüyündə bu bölmə həmin hissəciklərin tədqiqi baxımından çox maraqlıdır. Lakin işləklik etibarilə fəal olsa da, söz-vahid tərkibi etibarilə çox məhdud olan bu cür "nitq hissəsi" ayırmaq özünü doğrultmayacaqdır.

Əsərdə bir sıra mübahisə törədə bilən cəhətlər vardır ki, bizcə, redaktə zamanı onların islahı vacibdir:

1.Bizə elə gəlir ki, səh.32-də mürəkkəb bağlayıcılardan danışılarkən bütün bəndlərdə "yanaşma" sözü yerində deyil. Aydındır ki, yanaşma tabelilik əlaqəsidir. "İki bağlayıcının yanaşması ilə düzələnlər" dedikdə bağlayıcıların bir-birinə yanaşması düşünülür, halbuki biri o birinə yanaşar; 4-cü bənddə: "Yönlük və yiyəlik halda olan bir işarə əvəzliyinin (***o, bu*** sözlərinin) ***görə, üçün*** qoşmalarına yanaşması ilə: “ona görə". Bəlkə: qoşmanın əvəzliyə qoşulması ilə demək doğru olar? 7-ci bölgüdə "yanaşma" sözü heç yerində deyil.

2.Bağlayıcıların tədqiq tarixində 50-ci illərin məktəb dərsliyindən danışılır, son illərə fikir verilmir. 1983-cü ilin (və sonrakı illərin) məktəb sintaksisində bağlayıcıların indi vəsaitdə verilən məna növlərinə uyğun bölgü vardır (səh. 85, 127 və s.) – müəllif fikir verməyib.

3.Bizim fikrimizcə, 117-ci səhifədəki birinci abzasın son cümləsində müəllif nahaq ehtiyatla danışır. "*Ev üçün getmək*" tipli birləşmələrdə, lap "*Mənə tərəf gəlmək*" birləşməsində də qoşma adlara qoşulur, əsərdə deyildiyi kimi, xüsusi tipli qoşmalı birləşmə əmələ gətirir. Lakin həmin birləşmə fellər tərəfindən "zəif də" olsa, idarə olunmur, qoşmalı birləşmə fellərə yanaşır, ona görə də müəllifin bu abzasdan çıxardığı nəticə: "Deməli, fellər qoşma ilə yaranmış xüsusi tipli birləşmələri də idarə edir" fikri doğru görünmür. ***Mənə tərəf gəlmək -*** necə olacaq: *Mənə gəlmək?* Hətta "*Evə sarı getmək*" cümləsi ilə "*Evə getmək*" də eyni mənalı deyil.

4.Səh.172-də bağlamalarla köməkçi fellərin fərqi kimi qeyd olunan 5-ci bənd düz deyil. Köməkçi fellər başqa sözlərlə birləşdikdə mürəkkəb üzv əmələ gətirmir.

5.Müəllifin fikrincə, ***-mı*** şəkilçisi ***idi, imiş*** sözlərinə artırıla bilməz, guya "*Sən dünən iclasda idinmi?"* cümləsi düz deyil, "*Sən dünən iclasdamı idin:"* forması düzdür. Müəllif öz fikrinin sübutu üçün cavab cümləsini əsas götürür. Vacib deyil ki, belə cümlələrə "İdim" cavabı verilsin. Bu cür cümlələrə adətən ***bəli, yox, xeyr, hə*** sözləri ilə də cavab verilir.

6.Əsərdə üslub səhvləri (məsələn, elə bölmələrin adları: nə üçün "Bağlayıcı", "Qoşma" tək, amma "Ədatlar", "Modal sözlər" cəm? Bəzi misalların qeyridəqiqliyi - *O heç şey düşünə bilmir, heç nə qət edə bilmirdi* - s.246 – cümləsində "heç" ədat mənşəli olsa da, bu cümlədə "şey", "nə" sözlərilə birlikdə əvəzlikdir), bir sıra təkrarlar və s. müşahidə olunur.

A.Aslanovun dili əsasən səlisdir, aydın və oxunaqlıdır. Burada sözçülüyə yer yoxdur. Əsər bütövlükdə yaxşı təəssürat yaradır, ali məktəb müəllim və tələbələri üçün faydalı olacaqdır. Ona görə çap olunmasını məsləhət bilirəm.

M. Həsənov. «Azərbaycan dili sintaksisi tədrisinin linqvistik-didaktik əsasları» DD. 15.10.1989

Çox zaman deyirlər ki, metodika elm deyil. Amma mən deyərdim ki, həqiqi metodistin işi çox çətindir. Çünki həqiqi metodist alim dilin tədrisinin elmi-nəzəri və praktik məsələlərinə, pedaqogika və psixologiya ilə əlaqəli cəhətlərinə yüksək dərəcədə bələd olmaqla yanaşı, dilin nəzəri məsələlərini də bilməli, yaxşı bir dilçi kimi də formalaşmalıdır.

Dilin tədrisi metodikasından yazılan dissertasiyalar çoxdur. Lakin yaxşı metodist alimlərimiz çox azdır və olanları barmaqla göstərmək olar

ki, belə görkəmli alimlərdən biri də Məmməd müəllimdir - Məmməd Həsənov.

Məmməd müəllim çətin bir sahənin - qrammatikanın məntiqi təfəkkürlə daha möhkəm bağlı olan, dilin əsəb sistemini təşkil edən bir sahəsinin - sintaksisin tədrisi məsələləri ilə məşğul olmuşdur. Həm də sadəcə olaraq "məşğul olmuşdur" yox, 30 ildən artıq bir müddətdə daim ardıcıl olaraq sintaksisin tədrisi ilə bağlı çətinliklərin aradan qaldırılması yolları barədə öz müşahidə və düşüncələrini mətbuat vasitəsilə məktəbə, geniş müəllim ordusuna çatdırmışdır.

Doğrudur, sintaksisin tədrisi ilə bağlı çətinliklərin aradan qaldırılması yolları barədə, opponentlərin də qeyd etdikləri kimi, başqaları da ara-sıra yazmışlar, lakin Məmməd müəllim bu sahə ilə ardıcıl məşğul olmuş, söz birləşməsi, sadə və mürəkkəb cümlə ilə bağlı çətinliklərin aradan qaldırılması yolları barədə bir sistem şəklində araşdırmalar aparmışdır. Onun bu sahəyə dair monoqrafiyası və çoxlu məqaləsi var..

Sintaksisin əsas tədqiq obyekti olan cümlə dildə olan bütün fakt və hadisələri özündə cəmləşdirdiyindən və dilçiliyin bütün sahələrinin öyrənilməsi üçün material verdiyindən burada qovuşan, birləşən, müqayisə olunmalı məsələlər çoxdur. Belə bir sahədə iş aparmaq, şagirdlərin yaş və bilik səviyyəsini nəzərə alaraq çətin və mürəkkəb məsələləri onların səviyyəsində, dəqiq elmi əsaslarla şərh etmək, əslində, böyük təcrübə və hərtərəfli hazırlıq tələb edir. Dissertasiyası ilə bağlı nəşr etdirdiyi monoqrafiyasını nəzərdən keçirdikdə xeyli zəhmətinin şahidi oldum.

Məmməd müəllimin yazıları iki cəhətdən əhəmiyyətlidir. O, bir tərəfdən, öz yazıları ilə orta məktəb dərsliklərinin təkmilləşməsinə, nəzəri və metodiki cəhətdən yaxşılaşmasına kömək edir, digər tərffdən isə orta məktəb müəllimlərinə kömək edir, istiqamət verir, nəyi necə öyrətmək, hansı məsələlərə diqqəti artırmaq lazım gəldiyini aydınlaşdırır.

Məhz bu sahədə yaxşı mütəxəssis olduğu üçün mən 7-8-ci siniflərin "Azərbaycan dili" dərsliyini yenidən işləyib, 1983-cü ildə müzakirəyə təqdim edərkən ETPEİ-də onu mütləq Məmməd müəllimə oxutmaq lazım gəldiyini bildirdilər.

Rəyindən xeyli şey götürdüm, bir sıra məsələləri dəqiqləşdirməli oldum. Bu, onun yazılarının və mövcud dissertasiyanın həqiqi əməli əhəmiyyətə malik olduğunu bir daha təsdiq edir. Lakin mən onda da razılaşmadım, indi də razılaşmıram ki, Məmməd müəllim cüt və təktərkibli cümlə anlayışının dərsliyə daxil edilməsinin əleyhinədir, bunların çətin olduğunu iddia edir.

Bunlar elə də çətin anlayışlar deyil, şərhdən çox şey asılıdır. Dərslik müəllifi qrammatik anlayışın nəzəri şərhini sadələşdirə də, mürəkkəbləşdirə də bilər. Digər tərəfdən, başqa cür ona görə mümkün deyil ki, sadə cümlənin əsas və ən mühüm bölgüsü cüt və təktərkiblilikdir. Müx-

təsərlik-genişlik, bütövlük-yarımçıqlıq yeni cümlə tipi deyil, bunlar cüt və təktərkibli cümlələrin formalarıdır.

Çox zaman xüsusən bizə - V.İ.Lenin adına APİ-yə xarici rəy üçün gələn dissertasiyalardan yoldaşların narazılığı daha çox ondan ibarət olur ki, birinci sinif şagirdləri öz müəllimlərindən başqa heç kimi tanımadıqları kimi, bu yoldaşlar da başqa müəssisədə yazılanları oxumurlar. Amma Məmməd müəllim bu dissertasiyada ümumən bu sahədə yazılmış bütün əsas ədəbiyyatı üzə çıxarmış və münasibət bildirmişdir. Həm də düzgün mövqeyi, aydın münasibəti vardır.

Bəlkə də vaxtında müdafiə şurası olsa idi, Məmməd müəllim çoxdan doktor, professor idi.

F.Həsənov, Ə.Əliyev, Ə.Rəhimova, Z.Əhmədova. «Azərbaycan dili» (rus məktəbinin I sinfi üçün dərslik) 16.02.1991

Dərslik iki hissədən ibarətdir. Birinci hissədə: "Tanışlıq", "Ailədə", "Məktəbdə", "Heyvanlar və quşlar", "Məktəb ləvazimatları", "Dirrik və bostan bitkiləri", "Sinifdə", "Meyvə ağacları və meyvələr", "Vətən", "Ev və həyət", "Paltar və ayaqqabı", "Bədən üzvləri", "İdman", "Bayram şənlikləri", "İlin fəsilləri" kimi 14 mövzuda dərs nəzərdə tutulmuşdur. Şəkillər üzrə dərs prinsipinə əsasən kokret olaraq nə barədə şəkillər çəkilməli olduğu göstərilmişdir. Bunlar ümumən yuxarı sinif proqramlarında əhatə edilən bütün əsas mövzuları ehtiva edir. Ona görə də ünsiyyət üçün zəruri olan bütün məsələlərlə tanışlıqdan ötrü şagirdlər geniş imkan əldə etmiş olacaqlar. Lakin bu mövzuların sıralanmasında məntiqi dəyişikliyə ehtiyac var. Yaxından uzağa prinsipi ilə əvvəlcə "Ev və həyət", sonra "Vətən" mövzusunda dərs daha səmərəli olardı. "Heyvanlar və quşlar" araya düşmədən, "Məktəbdə" və " "Məktəbli ləvazimatları" mövzuları verilə bilərdi və s. İstər-istəməz dərslərdə bir-birinə keçidlər, buna görə də təkrara bənzər eyniliklər mövcuddur.

İkinci hissə yuxarıda göstərilən mövzulara dair mətnlərdən, daha doğrusu, mövzuların sözlü, konkret misallı kommentariyasından ibarətdir. Burada müəllim və şagirdlər üçün zəngin material verilmişdir.

Dərsliyin qurulmasında intensiv üsul nədən ibarətdir? Bəlkə az vaxtda çox material öyrədilməsi nəzərdə tutulur?

Qeyd etməliyik ki, həqiqətən materialın həcmi baxımından dərslik xeyli ağırdır. Bunu az qala Azərbaycan məktəblərinin birinci sinfinə tətbiq etmək olarda. Bu şeyləri izah və ifadə edə bilən şagirdlər üçün daha sonra bu barədə təhsilini davam etdirməyə o qədər də ehtiyac olmazdı. Burada hüdud yoxdur.

Misallarda lorulaşdırmaq, dilə ehtiram əvəzinə, istehza doğura bilən misallar var:- Sənin adın Əlidir. Əli deyil, Vəlidir. Sonra da: Əli, Vəli, Pirvəli və s.

Proqram üzrə il boyu 74 saat vaxt ayrılmışsa, 4 saatdan 14 mövzu azlıq edir.

Biz proqramı da nəzərdən keçirdik. Dərslik və proqram uyğun gəlir. Lakin proqram proqramdan çox, dərs vəsaitinə oxşayır.

Ümumən, diqqətli redaktə və sadələşdirməklə dərslik və proqramın çapı alternativ əsasda faydalı olardı.

Nizami ad. Ədəbiyyat İnstitutu. F.e.n. Əsgərli Zaman Şükür oğlu. «Azərbaycan faciəsinin poetikası» DD. 10. 02.1992

Bədii ədəbiyyatın bütövlükdə poetika məsələlərinin tədqiqinə az fikir verilir. XIX əsrin sonlarında formalaşıb, dram sənətinin bir qolu kimi gah yüksələn, gah da enən bir xətlə irəliləyən faciə janrının poetik xüsusiyyətlərinə daha az diqqət yetirilmişdir. Bu cəhətdən filologiya elmləri namizədi Zaman Əsgərli faydalı tədqiqat obyekti seçmiş, dramaturgiyamızın ümumi fonunda aydın seçilən faciə janrının poetik imkan və xüsusiyyətlərini araşdırmışdır.

Avtoreferatdan aydın olur ki, müəllif zəngin ədəbi material üzərində müşahidələr aparmış, mövcud elmi-nəzəri ədəbiyyatı diqqətlə nəzərdən keçirmişdir. Avtoreferatın girişi müəllifin axtarışları və əldə etdiyi yeniliklər barədə aydın təsəvvür yaradır.

Bizim dilçilik və ədəbiyyatşünaslıqda hələ də bir sıra terminlərin məna hüdudu dəqiq deyil, hər kəs bu terminlərdən istədiyi, başa düşdüyü mənada istifadə edir. Əsl tədqiqatçı nəzəri təhlil və ümumiləşdirmələr prosesində bu cür halları nəzərə almalı, terminlərin məna hüduduna aydınlıq gətirməlidir. Bu cəhət Z.Əsgərlinin əsərində vardır. Əsərinin ümumi nəticələrindən əlavə, mühüm bir keyfiyyəti də odur ki, o, haqqında danışmalı olduğu bir çox anlayışları əvvəlcə dəqiqləşdirməli olmuş, sonra elmi təhlilə keçmişdir. Yaxşı tədqiqatçı belə də etməlidir, əks təqdirdə, onun əsərinin elmi sistemindən danışmaq olmaz.

Onu da qeyd etməliyik ki, terminoloji aydınlıq müəllifin öz yolunu işıqlandırmış, onun iş prosesində düzgün istiqamət almasına kömək etmişdir. Məsələn, müəllif ilk fəsildə "konflikt" və "kolliziya" anlayışlarının sərhədini dəqiqləşdirməklə faciə qəhrəmanlarının inkişaf yoluna, fərdlərin və qrupların ictimai mübarizə və toqquşmalarına dəqiq elmi təhlil verə bilmişdir. Bu əsas üzərində təkcə faciə janrını deyil, onun tiplərini də qruplaşdıra bilmişdir.

Dissertasiyanın "Faciə qəhrəmanı və milli xarakter" fəsli göstərir ki, müəllif N.Vəzirov, Ə.Haqverdiyev, H.Cavid, C.Cabbarlı kimi görkəmli dramaturqların faciə əsərlərinin verdiyi zəngin materialla kifayətlənməmiş, onların çox az toxunulmuş, bəlkə də heç toxunulmamış bir sıra əsərləri ilə yanaşı, M.Məmmədzadə, M.M.Axundov, M.V.Vəliyev və başqalarının da bir sıra əsərlərini ilk dəfə tədqiqata cəlb etmişdir.

Dissertasiyanın "Fabula, süjet və kompozisiya" fəsli də maraqlıdır. Müəllif burada da öz ənənəsinə sadiq qalaraq, mübahisəli məsələlərdən qaçmamış, fabula ilə süjetin, süjetlə kompozisiyanın əlaqəli və fərqli cəhətlərini lazımi şəkildə aydınlaşdırmışdır. Fabulanın əsasını təşkil edən hadisələr sisteminin mənbəyi - müasir həyatın verdiyi material, tarixin və xalqın şifahi ədəbiyyatının yaratdığı imkanlar faciə janrının söykəndiyi əsas qaynaqları düzgün əhatə edir.

İlk faciə əsərlərində xoşbəxtliklə başlayan hadisələrin tədricən faciəvi xarakter aldığı, faciənin tədricən dərinləşdiyi müəllif müşahidələrinin düzgün nəticəsidir. Bu da bir həqiqətdir və müəllif də elmi təhlil əsasında belə bir nəticəyə gəlmişdir ki, faciə qəhrəmanının ölümü bir nikbinlik yaradır, ətraf mühitin, havanın təmizlənməsinə, yeniləşməyə səbəb olur. Əsl ölüm satira qəhrəmanının ölümüdür. Satirik əsərdə qəhrəman ölməsə də, mənən tam məhv edilmiş olur.

Müəllifin fikrincə, kompozisiya anlayışı genişdir və əsərin bütün elementləri - nitq vasitələri, hadisələr sistemi, quruluş və obrazlar qalareyası onun kompozisiyasını təşkil edir.

"Dramatik əsərin arxitektonikası və quruluşu" adlı son fəsildə dram əsərinin daxili quruluşu şərh olunmuşdur. Müəllif pillə-pillə – başlıqdan, annotasiya və afişadan başlamış obrazların monoloq, dialoq və kütləvi danışıqlarına qədər bütün sistemin faciə əsərinin arxitektonikasında rolunu izah etmiş, yalnız faciə əsərlərinin deyil, dram növünün başqa janrlarının da poetikasının tədqiqi nümunəsini vermişdir.

Z.Əsgərli çeynənmiş ifadələrdən, tapdanmış yoldan qaçmışdır, odur ki müstəqil düşüncənin məhsulu olan orijinal bir əsər müəllifi kimi rəğbət doğurur. Hiss edirsən ki, ədəbiyyatşünaslığa yeni baxışla yeni və qüdrətli bir nəsil gəlir və bu nəsil bizim böyük ədəbiyyatşünas alimlərimizin boş olan yerlərini dolduracaqdır.

Əsərin elmi və əməli əhəmiyyəti böyükdür. Əsər ali məktəblərimizin filologiya fakültələrində xüsusi kurs kimi tədris oluna bilər.

Biz avtoreferatdan aldığımız təəssürat əsasında deyə bilərik ki, "Azərbaycan faciəsinin poetikası" adlı əsər filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün tam əsas verir və onun müəllifi Zaman Şükür oğlu Əsgərli filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tam layiqdir.

X.M.Cabbarov,O.K.Babayev.
«Dil quruculuğu və nitq mədəniyyəti»
02.03.1992

Hansı sahənin mütəxəssisi olur-olsun, kamil ziyalı şəxsiyyəti üçün nitq mədəniyyəti vacib və zəruri əlamətdir. Buna görə də Azərbaycan Texniki Universitetinin belə bir fənnə öz auditoriyalarında yer verməsi təqdirəlayiqdir.

Nitq mədəniyyətinə dair vəsait və dərsliklər yox dərəcəsindədir. Olanlar da səthi və sistemsiz yazılardan ibarətdir.

Təqdir edilməlidir ki, universitetin professoru X.Cabbarov və f.e.n. O.Babayev humanitar ali məktəbləri qabaqlayaraq nitq mədəniyyəti üçün proqram və vəsait hazırlamışlar.

178 səhifəlik bu əsər üç fəsildən ibarət olub, nitq mədəniyyətinin ümumi nəzəri məsələlərini, obrazlı nitqin insan hisslərinə emosional təsirini, insan nitqini zənginləşdirən üslubi vasitələr sistemini əhatə edir.

Əsərin ilk fəslində nitq mədəniyyəti və ədəbi dil, natiqlik sənəti və onun tarixi, şifahi və yazılı nitqin mühüm keyfiyyətləri barədə məlumat verilmiş, sonrakı fəsillər nitq mədəniyyətinin ünsiyyət prosesində roluna, nitq vasitələrinin seçilib işlədilmə imkanlarının tədqiqinə həsr olunmuşdur. Tabu və evfemizmlər mədəni nitqin əsas daşıyıcıları kimi izah edilmişdir.

Heç şübhəsiz, nitq mədəniyyəti tarixi inkişaf prosesində kamilləşir və dilin tarixi ilə möhkəm bağlıdır. Bu cəhət vəsaitdə konkret dil faktları ilə şərh olunmuş, frazeoloji vahidlərin, sintaktik fiqurların və trop növlərinin rolu zəngin dil faktları əsasında izah edilmişdir.

Əsərin adının «Dil quruculuğu və nitq mədəniyyəti» adlandırılması və buradakı «dil quruculuğu» ifadəsi təəccüb doğurur. Bu məsələ bizim dövrə aid xarakter məsələ olmadığı kimi, əsərdə «dil quruculuğu»ndan da ətraflı bəhs edilmir.

Vəsaitdə üslublardan danışılarkən: elmi üslub, bədii üslub, ictimai-publisistik üslub, rəsmi-əməli üslub, məişət nitq üslubu və natiqlik üslubu kimi 6 üslub göstərilir – burada, bizcə, şifahi və yazılı nitq üslublarının eyni səviyyədə götürülməsi və xüsusən natiqlik üslubunun bütün başqa üslublarla bərabər səviyyədə verilməsi doğru olmazdı. Funksional üslublarla bunları eyniləşdirmək olmaz.

Əsərdə üslub səhvləri, eyni faktın müxtəlif müəlliflərə aid edilməsi halları (s.41, 67 və s.) və s. də vardır.

Bu cür hallara baxmayaraq, əsər faydalıdır və onun dərs vəsaiti kimi çap olunmasını məsləhət bilirik.

Nəsimi ad.Dilçilik İnstitutu. «Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası». II hissə. Sintaksis 1992

Kollektiv əməyin məhsulu olan bu əsər türk dillərinin oğuz qrupunun – Azərbaycan, türk, türkmən, qaqauz dillərinin sintaktik quruluşunun müqayisəli tədqiqinə həsr olunmuşdur. Kitab dilin sintaktik quruluşunun, demək olar ki, bir sistem şəklində bütün sahələrini əhatə edir.

Sintaktik əlaqələr, söz birləşmələri, sadə cümlə və onun tərkib elementləri, sadə cümlənin quruluş xüsusiyyətləri, mürakkəb cümlələr, tabesiz və tabeli mürəkkəb cümlələrin struktur-semantik xüsusiyyətləri ənənəvi ardıcıllıqla öyrənilmiş, bir kitabda dörd lay kimi dörd dilin sintaksisi tutuşdurma, müqayisə və fərqləndirmə yolu ilə tədqiq edilmişdir.

Əsərdə araşdırmalar qohum dillərin müasir səviyyələri üzrə aparılmışdır. Bu cəhət tarixi-müqayisəli metod üçün əsaslı zəmin yaradır. Bu yol ilk ana dilin, kök dilin - prototürkün müəyyənləşdirilməsinə aparan yoldur. Ona görə də bu cür tədqiqat özlüyündə həm ayrı-ayrı dillərin sintaktik quruluşunun öyrənilməsi, həm də onların əlaqəli diaxron tədqiqi baxımından çax faydalıdır. Ali məktəblərdə türkologiya fənninin tədrisi üçün bu cür əsərlərə böyük ehtiyac olduğunu da nəzərə aldıqda kitabın qiyməti artır.

Onu da qeyd edək ki, əsərin ümumi elmi istiqaməti aydın və düzgündür. Hər bir müəllif öhdəsinə düşən bölməni elmi baxımdan lazım olan istiqamətdə hazırlamağa çalışmışdır. Sintaksisin ümumən təsəvvür edilən məsələlərinin araşdırılma istiqaməti sınaqdan çıxmış istiqamətdir. Lakin müəlliflər heç də həmişə ənənənin qulu olaraq qalmamış, ayrı-ayrı konkret mövzuların tədqiqi prosesində hələ dəqiq müəyyənləşdirilməmiş, qaranlıq və dolaşıq məsələlərin izahına da çalışmışlar. Mövcud elmi ədəbiyyatdakı fikirləri yarıb keçmə, tədqiqatçının dərk etdiyi şəkildə mənalandırma cəsarəti də vardır ki, bu, əsərin elmi səviyyəsinə müsbət təsir edir, onu mövcud faktların sadəcə təsviri-tutuşdurulması məhdudluğundan xilas edir. Bu cəhət az-çox bütün bölmələrə aiddir. Lakin tabeli mürəkkəb cümlələrin tədqiqində özünü daha çox göstərir.

Əsərin elmi əhəmiyyətindən çox danışmaq olar. Yığcam şəkildə qeyd edirik ki, bu əsər faydalıdır və düzgün elmi-metodiki aspektdə işlənmişdir.

Əsərin çapı prosesində redaktəsinə ehtiyac duyduğumuz bir sıra məsələləri də qeyd etmək istərdik:

1."Sintaktik əlaqələr" bölməsində adları çəkilən inkorporasiya, sintetizm, seperatlaşma, lokallaşma və s.-in türk dillərinə aid olub-ola bilməməsi və ümumi mahiyyəti barədə ən azı qeydlərdə məlumat verilə bilərdi. Bu hissədə kəmiyyətcə uzlaşmanı daha diqqətlə izləməklə (dörd dildə müqayisəli şəkildə),

onların gələcək inkişaf yolunu müəyyənləşdirmək olardı. Burada, bəzən əksinə izahat - "mübtədanın xəbərlə uzlaşması" (s.6) halları da vardır.

2.Bəzi şərhlərin bilərəkdən və yə bilməyərəkdən olduğunu aydınlaşdırmaq çətindir. Məsələn, II növ təyini söz birləşmələrinin tərəfləri adətən bir üzv kimi götürülür. Lakin əsərdə "yeni kolxoz şəhərciyi tikmək işinə" birləşməsindəki məsdər tərkibi (yeni kolxoz şəhərciyi tikmək) təyin kimi qeyd edilmişdir. Hazırkı tədris plan və proqramları baxımından bu, yanlışdır (s.40). Müəllifin bu barədə prof. Ə.Z.Abdullayevin mövcud mülahizəsinə istinad edib-etməmdiyi də bilinmir.

3."Tabesiz mürəkkəb cümlələr" bölməsində tabezsizlik bağlayıcıları düzgün qruplaşdırılmayıb. Eyni zamanda onların hansı məna əlaqələrinə xidmət etdiyi də düzgün izah edilməmişdir. Məsələn, ***ya - ya da*** (s.131), ***yaxud*** (s.135), ***gah, gah da*** bağlayıcılarının (s.136) zaman əlaqəsinə, ***lakin*** bağlayıcısının birləşdirmə əlaqəsinə (s.132) və s. xidmət etdiyi göstərilir. Əslində isə bunlardan "lakin" bağlayıcısı qarşılaşdırma, qalanı bölüşdürmə əlaqəsinə xidmət edir və bu cəhət bağlayıcı qruplarının adında da vardır. Məsələn, ***ya - ya da*** bağlayıcısı aydın şəkildə iki hadisədən birinin mümkünlüyünü bildirir: *Ya mənim huşum başımda olmayıb, ya da sənin eynəyin gözlərində*. Əgər bağlayıcını atsaq, onda zaman əlaqəsi əmələ gələ bilər: *Mənim huşum başımda olmayıb, sənin də çeşməyin gözlərində* və s. Bu bölmədə həmcins üzvlü cümlə ilə tabesiz mürəkkəb cümlənin qarışdırıldığı hallar da var: *Bu budka spirt çənlərinin yanında həm balaca idi, həm də qəsdən işıqlandırılmırdı* (s.129) – cümləsi sadə cümlədir.

4.Baş cümlədə şəxs əvəzliyindən qəlib söz ola bilməz. Qəlib söz işarə əvəzliyi olmalıdır (s.149-a bax). Baş cümlədə mübtəda yerində ("yerində"-sözü də düz deyil, "vəzifəsində" işlətmək lazımdır) "qeyri-müəyyən şəxs əvəzliyi" işlənir – fikri də düz deyil. Verilmiş cümlədə: *Stolun üstündə nə ki lazım idi, hamısı hazır oldu* - "hamısı" qarşılıq bildirən söz deyil, onun ikinci komponentidir.

Azərbaycan ETPEİ. Abdullayeva Hava Qara qızı.

«Azərbaycan dili dərslərində linqvistik eksperiment priyomundan istifadə təlim prosesini optimallaşdırmağın vasitələrindən biri kimi (sintaksis materialları üzrə)»

ND. Opp.r. 23.12.1992

Təlim prosesini optimallaşdırmaq, tədrisin keyfiyyətini yüksəltmək üçün ən əlverişli vasitə və üsulların tətbiqi müəllimin qarşısında duran birinci dərəcəli vəzifədir. Bu cəhət pedaqoji ustalıq üçün ilkin şərtlərdəndir. Odur ki optimallaşdırma vasitə və üsullarının öyrənilməsi, cəmiyyətin hər bir inkişaf pilləsində elmin, texnikanın, təfəkkürün səviyyəsinə uyğun üsulların müəyyənləşdirilməsi elmi-nəzəri, pedaqoji işin, görünür, əbədi yol yoldaşıdır.

Həqiqi pedaqoq, gerçək metodist həm elmi incəliklərinə qədər bilməli, həm də onu çox böyük ustalıqla çatdırmağı bacarmalıdır. Bu hə-

qiqət hamıya məlum olsa da, elmin özünü bilməyə-bilməyə metodikadan dissertasiya yazanlar bu prinsipin özünü çoxdan gözdən salıblar. Lakin mən H.Abdullayevanın dissertasiyasını böyük maraqla oxuduqdan sonra bu qənaətə gəldim ki, öz adını qoruyub-saxlayanlar, üzərinə düşən vəzifənin məsuliyyətini hiss edənlər və öz işinə məsuliyyətlə yanaşanlar da vardır. Bu mənada Hava Abdullayevanı bu başdan təbrik edirəm. Mövzusu aktual olmaqla yanaşı, tədqiqatın nəticələri də çox faydalıdır.

"Giriş", iki fəsil, "Yekunlaşdırıcı eksperimentin nəticələri", "Nəticə" və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarət olan 210 səhifəlik bu əsər aydın təfəkkürlə işlənmişdir və dəqiq məntiqi quruluşa malikdir.

"Giriş"də yığcam şəkildə qarşıda duran məqsəd və vəzifələr, tədqiqatın yenilikləri, eksperiment üçün nəzərdə tutulan fərziyyələr, əsərin yazılma mənbə və metodu, aprobasiyası yığcam şəkildə əhatə edilmişdir.

Müəllif fəsilləri düzgün əsaslandırmışdır. I fəsildə linqvistik eksperiment priyomunun ümumi məsələlərini nəzərdən keçirmiş, priyomların sistemli şərhi üçün əsaslı zəmin hazırlamışdır.

Rus və Azərbaycan dilçi-metodistlərinin bu sahəyə dair apardıqları işlər göstərir ki, ümumən bir çox metodistlər linqvistik eksperiment metodunun təlim prosesində böyük rola malik olduğunu görmüş və qeyd etmişlər. Bu elə bir priyomdur ki, tədris prosesində ondan yan keçmək olmur. Lakin tarixən məsələyə birtərəfli yanaşmış, LEP-in bu və ya digər üsullarından biri və ya ikisi ilə iş aparmış, onun sistemli tədqiqi ilə məşğul olmamışlar.

Müəllif yazır: "Məlum mənbələrdə bu priyomun (və ya metodun) növləri müxtəlif terminlərlə və müxtəlif sayda göstərilsə də, demək olar ki, təxminən eyni növlər (və ya formalar) bu və ya digər mənbədə təkrar olunmuş, hər hansı formanın mahiyyəti bir-iki nümunə üzrə aydınlaşdırılmış, linqvistik eksperimentin əsas xüsusiyyəti isə əvəzetmə əsasında izah edilmişdir" (səh.16). Elə buna görə də dissertant linqvistik eksperiment priyomunu digər vasitələrdən, məsələn, sintaktik suallardan təmizləmiş, priyomların miqdarını dəqiqləşdirmişdir.

Dissertasiyada LEP sintaksisin çətin məsələlərinin izahına yönəldilmişdir. Belə məsələlər isə sintaksisdə çoxdur. Həm də müəllif LEP-dən istifadə etməklə yalnız mövzunu aydın və şüurlu başa salmaq, düzgün mənimsətmək, sintaktik təhlili dəqiq və məntiqi aparmaq üçün deyil, biliyi möhkəmləndirmək, vərdiş yaratmaq bacarığı üçün də tətbiq nümunələri vermişdir.

Müəllif sintaksisin tədrisi prosesində LEP-dən istifadəni iki mərhələyə ayırmış, V-VII siniflərdə istifadə olunan ilkin - sadə mərhələ ilə, VII-IX siniflərdə istifadə edilə bilən əsas - mürəkkəbləşdirilmiş mərhələni fərqləndirmişdir.

Tədqiqat işindəki elmi sistemin bir mühüm göstəricisi də budur ki, müəllif proqram və dərsliklərdə LEP üçün mövcud imkanları araşdırmadan priyomlara keçməmişdir. Hazırkı proqramlarda praktik işə geniş yer verildiyindən LEP üçün geniş imkanlar vardır. Müəllif bunu konkret misallarla izah edir, proqramdan aldığı təəssürat əsasında nümunələr verir.

H.Abdullayeva Ə.Əfəndizadənin IV sinif, A.Axundov və B.Əhmədovun V-VI siniflər, M.Şirəliyev, M.Hüseynzadə və Q.Kazımovun VII-VIII siniflər üçün "Azərbaycan dili" dərsliklərini diqqətlə nəzərdən keçirmiş, dərsliklərdə linqvistik eksperiment imkanlarını ətraflı araşdırmışdır. Məlum olur ki, dərslik müəllifləri LE-nin vacibliyini duymuş, dərsliklərdə bu yolla mənimsəməyə geniş yer vermişlər.

H.Abdullayeva nəzəri materialların şərhində, çalışmalar sistemində, didaktik materiallarda LEP-dən istifadə imkanlarını, dərslik müəlliflərinin müəllim və şagirdlər üçün yaratdığı imkanları ümumiləşdirmiş, bu sahədə dərsliklərin zəif və uğurlu cəhətlərini şərh etmişdir. Aydın olur ki, 5-ci sinfin "Azərbaycan dili" dərsliyində 497 çalışmadan 44-ü (8,8%), 6-7-ci siniflərin dərsliyində 743 çalışmadan 35-i (4,7 %), R.Əsədov və Ə.Əhmədovun 6-cı sinif üçün dərsliyində 347 çalışmadan 66-sı (19%), 8-9-cu siniflərin (hazırkı 7-8-ci siniflərin) "Azərbaycan dili" dərsliyində 506 çalışmadan 157-si (31%) LEP üçün imkan yaradır.

Müəllif bu qənaətə gəlir ki, dərslik və proqramlarda LEP üçün imkanlar var, lakin bu imkanlar mövcud "imkanlardan çox-çox məhduddur" (s.61). Bu məhdudluq dissertanta görə sintaktik təhlil üçün nəzərdə tutulan cümlələrin az düşündürücü olmasında da özünü göstərir. Və bunlardan nəticə çıxarılır ki, dərsliklərdə LEP-dən istifadə "bir prinsip kimi nəzərdə tutulmamışdır" (s.61).

Dissertant LEP-dən istifadə sahəsində məktəb təcrübəsini də nəzərdən keçirməyi vacib saymışdır. Bu cəhət məsələni tamamlayır: dərslik, proqram, müəllim, şagird. Müəllif bu məqsədlə 150-dən artıq müəllimi dinləmişdir. LEP təlimdə əvəzsiz olduğu üçün, məlum olur ki, bu sahədə nəzəri bilikləri olmasa da, müəllimlər ondan istifadə edirlər. 200-dən artıq dərsdə müşahidələr aparılmış, eksperiment qoyulmuşdur. Bunlar LEP-in faydalı olduğunu sübut etməklə yanaşı, bunun bir sistem şəklində müəllimlərə öyrədilməsi, müəllimlərə bu barədə nəzəri məlumat verilməsi baxımından da əhəmiyyətli olduğunu ortaya çıxarır.

İkinci fəsil "Sintaksisin tədrisində LEP-dən istifadənin sistemi" adlanır. 110 səhifəlik bu fəsildə LE-nin əsas priyomları əhatə edilmişdir.

Fəslin əvvəlində dissertant LEP-ə verilən tələbləri dəqiqləşdirir, göstərir ki, eksperimentdən hər dəqiqə yerli-yersiz deyil, məqamında, diqqətlə, ardıcıl şəkildə, xüsusi hazırlıq görməklə, müəyyən məqsədlə istifadə edilməli, elə edilməlidir ki, eksperiment bezikdirməyə deyil, şagirdləri həvəsləndirməyə xidmət etsin.

Dissertant LE priyomlarının şərhinə keçərək, tədris prosesində frazeoloji vahidlərin düzgün dərk olunması, sual və qeyri-müəyyənlik bildirən əvəzliklərin sintaktik vəzifələrinin əyaniləşdirilməsi, ***olmaq, etmək, bilmək, başlamaq, istəmək*** tipli fellərin müstəqil və qeyri-müstəqil formalarının fərqini, "deyil" sözünün müstəqil xəbər olmadığını, söz birləşmələrinin, tərkiblərin sərhədini və bir çox başqa məsələləri başa düşmək üçün əvəzetmə priyomunun rolunu zəngin misallarla izah etmişdir.

Söz birləşməsinin, cümlənin öyrədilməsi üçün onların sinonimləri ilə əvəz edilməsi, onların hər hansı elementinin cümlədən çıxarılması və ya ixtisar edilməsi, cümləyə yeni elementlərin daxil edilməsi, bərpaetmə, yerdəyişmə, cümlənin yenidən qurulması priyomları da çox zəngin nümunələr əsasında ətraflı şərh olunmuşdur.

Dissertant eksperiment priyomlarının əməli əhəmiyyətini nümayiş etdirmək üçün bir sıra məktəblərdə eksperiment təşkil etmişdir. İki mərhələdən ibarət bu test-eksperiment kontrol siniflərlə müqayisədə öz yüksək nəticələri ilə nəzəri cəlb edir.

Dissertasiyada müəlliflə mübahisə etməyə imkan verən cəhətlər də var.

1. Müəllif mövzu ilə bağlı elmi-nəzəri ədəbiyyatı, dərslik və proqramları obyektiv təhlil etmişdir. Lakin dissertasiyada bəzən subyektiv münasibət də hiss olunur. Məsələn, müəllif dərsliklərin LEP-in imkanları baxımından təhlilini verərkən 6-7-ci siniflərin "Azərbaycan dili" dərsliyini daha çox tənqid edir. 8-9-cu (7-8-ci) siniflərin dərsliyindən isə zorla nöqsan tapmağa çalışır. Dissertasiyanın 51-61-ci səhifələrində bu cür cəhd əsasında tərəfləri birlikdə götürülən birinci növ ismi birləşmələr çox şişirdilir. Müəllifin fikrincə, II, III növ ismi birləşmələrin tərəflərinin birlikdə üzv olması faktını dərslikdə qeyd etməmək lazım imiş və şagirdlər özləri bu nəticəyə gəlməli imişlər. Bu, şagirdin dərslik yazması kimi bir şeydir. Birinci tərəfi yönlük, yerlik, çıxışlıq hallarında olan birləşmələr barədə məlumat verilməməsi də nöqsan kimi qeyd edilmişdir ki, bu da proqramla bağlıdır və s. Lakin müəllif elmi rəhbərinin 5-ci sinif dərsliyinin üzərindən sükutla keçir; bu dərslikdəki çalışma mətnlərinin "düşündürücülük baxımından yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır" (səh.39) desə də, işi dərinləşdirmir. Yalnız bir yerdə "Ə.Əfəndizadənin bir fikri ilə razılaşmaq olmaz" (s.59) qeydinə rast gəldik, xoşlandıq, lakin diqqətlə baxıb gördük ki, bu da "razılaşmamaq olmaz" şəklində imiş.

2.Dissertasiyada az da olsa, elmi qüsurlar müşahidə olunur. Bu hal daha çox dilçiliyimizin özündən gəlir. Müəllif yönlük, yerlik və çıxışlıq hallarında olan söz və birləşmələrin tamamlıq və ya zərflik olduğunu fərqləndirmək üçün bütün vasitələri nəzərdən keçirir, lakin feli xəbərin dinamik və ya statik fellə ifadə olunmasını və buna görə də birinci halda məkan, ikinci halda əşya, obyekt tələb olunmasını (R.Rüstəmovun qeydi) unudur (s.162). Yaxud ***-ıb*** şəkilçili feli bağlama həmcins xəbər hesab olunur və s.

3.Dissertasiyada diqqətsizlik halları da vardır. Bu cəhət ayrı-ayrı dil faktlarının təhlilində özünü göstərir. Səh.54-də 19-cu ədəbiyyatın müəllifin özünə aid olduğu göstərilir. Arxada bu ədəbiyyat Babaysevanındır. "Mirzə Valeh məc-

lislərin iftixarı olmuşdur" (s.91) - cümləsində xəbər "iftixarı olmuşdur" yox, "məclislərin iftixarı olmuşdur" birləşməsidir. 124-125-ci səhifələrdə III növə çevrilə bilməyən ismi birləşmələr sırasında "çay daşı", "meşə ağacı" kimi birləşmələr də verilmişdir və s.

Sintaksis özlüyündə çox çətin sahədir. Dissertant isə sintaksisinin ən çətin və mürəkkəb məsələlərinin tədrisi yollarını araşdırmışdır. Elə bizə ilk növbədə xoş gələn də H.Abdullayevanın bu çətin məsələlərdən həssaslıqla baş açması, onları eksperiment priyomlarından ustalıqla keçirə bilməsidir. Aydın hiss olunur ki, dissertant sintaksisin ən incə məsələlərinə yaxşı bələddir. Elmi rəhbər onu təmkinlə, diqqətlə istiqamətləndirmiş və görünür, onun hər bir cümləsi üzərində düşünmüşdür. Mən dissertasiyanı oxuduqca bu qənaətə gəlirdim və həmin qənaətdə qalıram ki, məhz bu cür dissertasiyalar müəllimə kömək edə bilər. Təkcə müəllimlər üçün deyil, bu əsər ali məktəbin tələbələri və müəllimləri üçün də faydalı əsərdir. Hazırda biz dərsliklər üzərində yenidən işləyirik. Bu əsər şəxsən mənə dərsliyi təkmlləşdirməkdə xeyli kömək edəcək. Əsərin kiçik redaktə ilə çapı çox vacibdir.

Bunlar dissertasiyanın nəzəri və praktik əhəmiyyətini şərtləndirən amillərdir. Müəllifin çap etdirdiyi yazılar və avtoreferat əsərin məzmununu əhatə edir.

Bütün bu cəhətləri nəzərə alaraq qeyd edirəm ki, "Azərbaycan dili dərslərində linqvistik eksperiment priyomundan istifadə təlim prosesini optimallaşdırmağın vasitələrindən biri kimi (sintaksis materialları üzrə)" adlı əsər namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və müəllifi Abdullayeva Hava Qara qızı pedaqoji elmlər namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Mehdiyeva Sevil Hacı qızı. «XVII-XIX əsrlərdə yazıya alınmış Azərbaycan xalq dastanlarının dili» DD, Opp.r. 23.12.1992

Məlumdur ki, xalqın bədii təfəkkürünün ilkin təzahürü şifahi ədəbiyyatla bağlıdır. Bu ədəbiyyat daim özünün demokratizmi, xalq dilinə daha çox yaxınlığı ilə səciyyələnib. Lakin ədəbi dilin keçdiyi inkişaf yolunun tədqiqi ilk növbədə yazılı ədəbiyyata əsaslanıb. Çünki ağızdan-ağıza keçərək dəyişən, yeniləşən ədəbiyyatdan fərqli olaraq, yazılı ədəbiyyat aid olduğu dövrün dil mənzərəsini sabit şəkildə mühafizə edib saxlamış olur.

Bunlar göstərir ki, şifahi ədəbiyyatın qədim dövrlərdən yazıya alınmış nümunələri ədəbi dil normalarının öyrənilməsi baxımından

xüsusi qiymətə malikdir. Buna görə də tədqiqat obyekti kimi seçilmiş mənbə – XVII-XIX əsrlərdə yazıya alınmış xalq dastanlarının dili həm dövrün dil mənzərəsini, həm də dastan poetikasını öyrənmək üçün zəngin material verir.

Mövzu uğurla seçildiyi kimi, nəticələr də müvəffəqiyyətlidir. Dastanlar belə sistemli tədqiqata ilk dəfə cəlb olunur. Tədqiqatın istiqaməti genişdir və dastan dilinin, ədəbi dilin bütün məsələləri üzrə istiqamətlənmişdir.

Ənənəvi girişdə mövzunun aktuallığı, qarşıda duran məqsəd və vəzifələr, tədqiqatın yenilikləri, metod, mənbə və aprobasiya məsələləri yığcam şəkildə əhatə edilmişdir.

İki hissədən ibarət olan 379 səhifəlik bu əsərin I hissəsində yazılı dastanlar folklor abibəsi kimi, II hissəsində Azərbaycan ədəbi dilinin yazılı mənbələri kimi öyrənilmişdir.

Zahirən belə görünə bilər ki, dissertasiyanın «Yazılı dastanlar folklor abidəsi kimi» adlandırılmış I hissəsi ədəbiyyatşünaslıq materialıdır. Əslində, burada poetik-linqvistik tədqiqat əsasdır. Müəllif demək istəyir ki, yazılı dastanlar xalis xalq yaradıcılığı abidəsidir və ədəbi dilin qulluğundadır. Elə buna görə də bu hissənin «Yazılı dastanlar və onların Azərbaycan ədəbi dili tarixində mövqeyi» adlı ilk fəslində dastanlar ədəbi dilə xidməti baxımından araşdırılmışdır.

Müəllif Ə.Dəmirçizadə, T.Hacıyev, M.Cahangirov və başqalarına əsaslanaraq, düzgün bir istiqamət seçir: XVI əsrdən yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan dilinin tədricən milli dil kimi inkişaf yoluna düşdüyünü, buna görə də hər cəhətdən daha artıq xəlqiləşmə, demokratikləşmə yolu ilə irəliləməyə başladığını, Qurbani – Vaqif – Zakir – Ələsgər xəttinin tədricən üstün mövqe qazandığını göstərir. XVII əsrdən başlayaraq qələmə alınmış «Hekayəti-Kərəm», «Şəhriyar», «Koroğlu», «Seyfəlmülk», «Xan Çoban», «Qul Mahmud» dastanlarına məhz bu istiqamətdə yanaşılmışdır. Bir dilçi-folklorşünas kimi, müəllif həmin dastanların hələ yazıya alınmazdan çox-çox əvvəllər mövcud olduğunu, lakin yazıya alındığı dövrün də dil xüsusiyyətlərini özündə cəmləşdirdiyini qeyd edir.

Müəllif bu əsərlərin həqiqətən dastan nümunələri olduğunu və harada yazıya alındığını göstərən araşdırmalar aparmışdır. Əsərlərin strukturuna xüsusi diqqət yetirilmiş, buta verilmə səhnəsindən şeirlə nəsrin növbələşməsi və duvaqqapma nöqtələrinədək bu əsərlərin dastan nümunəsi olduğu əsaslandırılmışdır. Folklor abidələri eli dolaşdığı, dil cəhətdən daim səlisləşdiyi üçün ədəbi dilə daha çox xidmət edir. Lakin çox zaman yarandığı ərazinin şivə xüsusiyyətlərini də müəyyən dərəcə saxlayır. Odur ki müəllif bu əsərlərin dil xüsusiyyətlərinə əsaslanaraq, qərb zonasında yazıya alındığını dəqiqləşdirmişdir.

Müəllif doğru müşahidə etmişdir ki, ədəbiyyatda folklor üslubunun güclənməsi dili qədim dövrlərlə bağlayan arxaizmlərin sürətlə təmizlənməsinə, Azərbaycan xalq dili elementlərinin ədəbi dilə daha güclü axınına səbəb olmuşdur. Yazılı dastanlar bütün fonetik, leksik, orfoqrafik, frazeoloji, morfoloji və sintaktik xüsusiyyətləri ilə milli dilin xəlqiləşmə yolunu əks etdirir.

Dastanların poetik xüsusiyyətlərinin tədqiqi prosesində də müəllifin dilçi qələmi üstünlük təşkil edir: nəzərdən keçirilən bütün məsələlər – sintaqmatik, semantik, linqvistik (leksik, morfoloji, sintaktik-poetik) xüsusiyyətlər ümumilikdə XVII-XIX əsrlərin ədəbi dil – ümumxalq dili münasibətlərini üzə çıxarır.

Dissertasiyanın təqribən 250 səhifəlik II hissəsində dastanların dili öyrənilmişdir. Bu hissədə leksik və qrammatik materialın hərtərəfli analizi verilmişdir.

Dəqiq hesablamalar aparılması da, araşdırmalar göstərir ki, dastanların leksikasının əsas hissəsini fonetik qabığı, semantik imkanları ilə müasir dilimizin lüğət tərkibində işlənən sözlər təşkil edir. Ədəbi dilimizin əsas lüğət fonduna daxil olan bu cür sözləri müəllif ənənəvi bölgülərlə deyil, lüğət materialının özündən çıxış edərək qruplaşdırmışdır. Söz qrupları içərisində onomastik leksika, məişət leksikası, dini-mistik terminlərlə yanaşı, aşıq musiqisi terminləri, döyüş-vuruş leksikası və lirik-romantik sözlər də mühüm yer tutur.

Şübhəsiz, bir neçə yüzillik ərzində leksik material eyni şəkildə qala bilməzdi və hələ dastanların yazıya alındığı dövrdə onun dilində arxaizmlər olmalı idi. Odur ki adların və fellərin bir qismi keçən müddət ərzində tam arxaikləşmə prosesi keçirmiş, bir qismi arxaik çalar qazanmışdır, həm də müşahidələr göstərir ki, semantik cəhətə nisbətən, fonetik qabığın köhnəlməsi daha çox müşahidə olunur. Müəllif düzgün göstərir ki, ***yulduz, yüzinə, yürəgim, urmaq*** tipli sözlər orfoqrafiya mühafizəkarlığı ilə əlaqədar əsrimizin əvvəllərinədək belə yazılıb oxunurdu.

Dissertasiyada təkcə tammənalı sözlər deyil, natamam mənalı sözlər də nəzərdən keçirilmiş, köməkçi nitq hissələri unudulmamışdır. Sinonim cərgələr, antonim qarşılaşdırmalar, leksik omonimlər dastanların dilinin leksik zənginliyini əks etdirir.

Dissertasiyanın II hissəsinin son fəsli «Yazılı dastanların qrammatik xüsusiyyətləri» adlandırılmışdır.

Folklor-danışıq üslubunun kitab-danışıq üslubunu üstələdiyi dövrün məhsulu olan yazılı dastlanların dili göstərir ki, qrammatik quruluşda bir sabitlik hökm sürür. Dastanların morfoloji quruluşundan aydın olur ki, bu dövr ədəbi dilimiz «ədəbi dil normalarının demokratikləşməsi, milli-özümlü qrammatik formaların üstünlüyü, ədəbi dildə

ara-sıra qədim arxaik morfoloji göstəricilərin «görünməsi», qrammatik formaların işlənməsində variantlılıq, lakin bütün bunlarla yanaşı, Azərbaycan (türk) xalq danışıq dili xüsusiyyətlərinin ədəbi (yazılı) dilə hakim kəsilməsi və ədəbi dil üçün normativləşməsi ilə səciyyələnir». (227) Bu cəhət hal kateqoriyasının, kəmiyyət, mənsubiyyət, şəxs kateqoriyalarının, fel zamanlarının, felin formalarının zəngin dil faktları əsasında tədqiqi prosesində özünü göstərir. Morfoloji xüsusiyyətlər də özlüyündə dilin keçmişdən gələcəyə inkişaf yolunu işıqlandırır. Bir sıra az işlənən formalar, məsələn, III şəxsin şəkilçisi *-**i*** (*Çox iztirab eyliri*…., 254) tipli morfemlər maraq doğurur.

Eyni istiqamətdə sintaksisin bütün mövzuları – söz birləşmələri və onların növləri, cümlənin məqsəd və intonasiyaya görə növləri, sadə cümlə və onun üzvləri, cümlədə sözlərin sırası, tabesiz və tabeli mürəkkəb cümlələr, qarışıq tipli mürəkkəb cümlələr, vasitəsiz və vasitəli nitq, durğu işarələrindən istifadə halları sintaktik quruluşun üç əsrlik inkişaf yolu barədə aydın təsəvvür yaradır.

Dissertasiyanın məzmunu qeyd etdiklərimizdən zəngindir. Biz bu qısa qeydlərimizlə onun yığcam xülasəsini verməyə çalışdıq.

Yekun sözündən əvvəl bəzi iradlarımızı söyləmək istərdik.

1.Yazılı dastanların zəngin dil materialı üzərində araşdırmalar imkan verirdi ki, müəllif mövcud dilçilik ədəbiyyatı ilə qələm münaqişəsinə – polemikaya girə bilsin. Lakin biz dissertasiyada, demək olar ki, polemik qeydə rast gəlmədik. Müəllif çox humanistdir. Bütün müəlliflərlə razılaşır. Hətta bəzən adi qəzet məqaləsinin ardınca gedir. Bəzi faktların elmi izahında ardıcıl deyildir. Məsələn, ***tütümək, onəlmək*** kimi sözlərin izahını Nəsimi, Füzuli yaradıcılığından gətirilən misallarla məhdudlaşdırır. Halbuki bu cür sözlər XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış yazıçılarımızın dilində də işlənmişdir və elmi ədəbiyyatda çoxdan qeydə alınmışdır.

2.Müəllif mövcud elmi ədəbiyyata əsaslanaraq, tədqiq etdiyi dövrü «ədəbi dilin sabitləşməsi» dövrü kimi təqdim edir. Bu dövrə qədərki dil – Nəsimi, Füzuli kimi sənətkarların dili ədəbi dilin təşəkkül və inkişaf dövrü hesab olunur. Heç bir formasiya nəzərə alınmadan, dilin öz inkişaf və yeniləşmə mərhələləri baxımından bu, əsasən təbii bölgüdür. Lakin adlandırma qənaətbəxş deyil. Bizcə, XVI əsrə qədərki ədəbi dili dilin ümumxalq dili əsasında formalaşdığı və inkişaf etdiyi dövr, XVI əsrdən sonrakı dövrü milli dil əsasında inkişaf dövrü kimi xarakterizə etmək lazımdır. İntibahdan sonra Avropa dilləri də belə izah olunur. Fransız, ingilis milli dillərinin inkişaf yolu 4-5 əsr, bizimki 15-20 il (XIX əsrin sonlarından) hesab olunur ki, bu, heç bir cəhətdən özünü doğrultmur.

3.Müəllif öz tədqiq obyektinin şərhi prosesində bu dastanların XVII əsrin əvvəllərindən yazıya alınmağa başlaması ilə «yazılı dastanlar qolunun formalaşması» (s.11) fikrini irəli sürür. Lakin özü əsərində bir neçə dəfə «Kitabi-Dədə Qorqud»un hələ XVI yüzillikdə yenidən yazıya alınmasından danışır.

4.Dil faktlarının seçilməsi və izahında diqqətsizlik halları var. Feli birləşmələrlə frazeoloji vahidlərin qarışdırıldığı (s.92), ***köks, davar, yağmur*** tipli sözlərin arxaikləşmiş olduğunun (s.138), adlıq halda olan sözlərin yalnız mübtəda kimi çıxış etdiyinin iddia edildiyi (s.229), Çinü Maçin tipli sözlərin Çini-Maçin şəklində izafət hesab edildiyi (292), tamamlıqla zərfliyin qarışdırıldığı («padşahın sarayına qondular», «hücrəyə girdi» misallarında yönlük halda olanlar tamamlıq sayılır) (292) hallar var. Mübtəda budaq cümləsi kimi verilən bir sıra budaq cümlələr təyin, məqsəd budaq cümlələridir (s.310). Təyin budaq cümləsi kimi verilənlər (s.312) tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdir və bu cümlələrin baş cümləsindəki «şöylə» sözü təyin budaq cümləsinin qəlibi deyil; həmin cümlələrdə «bunu», «bu» sözləri qəlib ola bilər: Şöylə rəvayət edirlər ki… Şöylə rəvayət olunub ki…

Aydındır ki, bu sözlərlə dissertasiyanın əhəmiyyətini azaltmaq istəmirik. Bu cür qüsurlar həmişə mümkündür.

Aydın hiss olunur ki, dissertasiya çoxillik səmərəli zəhmətin nəticəsidir. İlk dəfə tədqiqata cəlb edilən yazılı dastanların dili danışıq-folklor üslubunun ədəbi dilin xəlqiləşməsinə, canlı dilə yaxınlaşmasına təsəvvür etdiyimizdən çox-çox artıq təsir etdiyini göstərir. Müəllif ədəbi dilin üç əsrlik inkişaf yolu barədə təsəvvürümüzü zənginləşdirməklə yanaşı, dastan poetikasının tədqiqi məsələlərini də yeni materiallar əsasında irəlilətmişdir. Bütün bunlar böyük zəhmətlə toplanmış leksik, frazeoloji və qrammatik materialın düzgün qruplaşdırılması və təhlili əsasında əldə edilmişdir.

Müəllifin tədqiqatı təkcə xalqın ədəbi dil ənənələrinin deyil, dastançılıq ənənələrinin də qədimliyini, «Dədə Qorqud» ənənələrini el sənətkarlarının aramsız davam etdirdiyini və bunun XVII-XVIII əsrlərdə daha geniş vüsət aldığını göstərir. Müəllifin mühakimələri, ayrı-ayrı qrammatik formaların qədim işlənmə səviyyəsi və sonrakı taleyi barədə qeydləri ədəbi dilimizin inkişaf yolu barədə əsaslı bilik və təcrübə qazandığını və həqiqi bir tədqiqatçı kimi yetişdiyini sübut edir.

Zəngin dil faktları, dastanların yazıya alındığı dövrə məxsus ifadə tərzi, faktları tədqiq olunan dövrə müvafiq mənalandırma qabiliyyəti oxucunu XVII-XIX əsrlərin dil mühitinə apara bilir. Elə buna görə də dissertasiyanın nəzəri və praktik əhəmiyyəti böyükdür. Sanballı dil tarixinin yaradılmasına, ali məktəbdə ədəbi dil tarixi, tarixi qrammatika, şifahi xalq ədəbiyyatı fənlərinin, bir sıra ixtisas kurs və seminarlarının aparılmasına, izahlı lüğətlər yaradılmasına kömək edəcəkdir.

Müəllifin çap etdirdiyi əsərlər dissertasiyanın məzmununu əhatə edir. Əsas məsələlər avtoreferatda da əhatə edilmişdir.

Bunları nəzərə alaraq qeyd edirik ki, «XVII-XIX əsrlərdə yazıya alınmış Azərbaycan xalq dastanlarının dili» adlı əsər doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi Mehdiyeva Sevil Hacı qızı filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Ə.Şükürlü. «Qədim türk yazılı abidələrinin dili» 1994

XIX əsrin 90-cı illəri türkologiya sahəsində böyük kəşflər illəri idi. Danimarka alimi V.Tomsen 101 il əvvəl - 93-cü ildə qədim türk əlifbasının sirlərini açа bildi. Onun ardınca V.Radlov çox böyük sürətlə qayalar və baş daşları, balballar üzərindəki qədim yazıları oxudu. Yadrinsevdən sonra da yeni kitabələr tapıldı. Sonralar S.Y.Malov bu böyük tarix, dil və mədəniyyət xəzinəsini zənginləşdirirdi. Yenə həmin 90-cı illərdə V.Radlovun, demək olar ki, bütün türk dillərini əhatə edən "Türk ləhcələrinin lüğəti təcrübəsi" əsəri çap olunmağa başladı. Bütün bunlar həmin illərdə Peterburqda təhsil alan, rus, Avropa teatr və dramaturgiya məktəbinin yüksək nailiyyətləri ilə bilavasitə tanış olan gənc və istedadlı ədibimiz Əbdürrəhim bəy Haqverdiyevin gözləri önündə baş verirdi. Ərəb, fars, rus, fransız dilləri ilə yanaşı, bir sıra türk dillərini də yaxşı bilən Ə.Haqverdiyev türk xalqlarının qədim mədəniyyəti ilə bağlı bu kəşfləri hava və su kimi mənimsəyirdi. Odur ki əlverişli zəmin yaranan kimi, qədim türk mədəniyyətinin təbliğinə başlamış - rus dilində yazdığı "Böyük islahat" məqaləsində İohan Tabbert Stralenberqin 1828-ci ildə bu yazılara Orxon çayı sahillərində necə rast gəldiyini, 1889-cu ildə Yadrinsevin yeni abidələrin tapılması və toplanması sahəsində gördüyü işləri qeyd etmiş, sovet hakimiyyətinin ilk illərində Tədqiq və Tətəbbə Cəmiyyətinin tarix, dil və etnoqrafiya bölməsində, ali məktəblərimizin auditoriyalarında bu barədə məruzələr etmiş, mühazirələr oxumuş, abidələrin təbliği ilə məşğul olmuşdur. Əbdürrəhim bəyin böyük bir alim, yazıçı və ziyalı kimi gördüyü bu işlər ilk işlər idi, vətənpərvərlik işləri idi. 20-ci illərdə və 30-cu illərin əvvəllərində Orxan-Yenisey yazılarının tədqiqi və təbliği sahəsində müəyyən işlər aparılsa da, 30-cu illərin ortalarından bu cür işlər “zərərli türkçülük” kimi qadağan olunur. Yalnız 10 - 15 il sonra - 1950-ci illərin əvvəllərindən ali məktəblərin filologiya fakültələrinin tədris planlarına qədim türk yazılı abidələrinin dili bir fənn kimi daxil edilir.

Mən bu fənni 55 - 56-cı illərdə Əkrəm Cəfərin necə şirin tədris etdiyinin, qədim türk kəlmələrini necə şirin tələffüz etdiyinin, şirin bir ləhcə ilə “o zaman bir Malov var idi” sözlərinin şahidiyəm. Elə bil, Əkrəm

müəllim öz tilsimli, sehrli dili ilə "budun" kəlməsini bu saat yanımda tələffüz edir. Bu abidələrdən danışarkən Əkrəm müəllim bizi, elə bil, bu dünyadan ayırırdı, sehrli bir aləmə aparırdı…

60-cı illərdə A.Məhərrəmov abidələrin tədrisi ilə məşğul idi. Onun Kül Tiginin şərəfinə abidənin transkripsiya və tərcüməsi ilə bağlı kitabı ilk dövrlərdə tədris işinə ciddi kömək oldu. Bir qədər sonra Ə.Şükürlü, Ə.Rəcəbov, Y.Məmmədov bu sahənin tədqiqi və tədrisi ilə məşğul olmaqla, qədim türk yazılı abidələri fənninin dərslik, proqram və vəsaitlərlə təmin olunmasına və sabit bir fənnə çevrilməsinə səbəb oldular.

Əlisa Şükürlü vaxtilə A.Məhərrəmovla çap etdirdiyi vəsaiti son dövrün araşdırmalarını əsas götürməklə tamamilə yenidən işləmiş və bu günlərdə sanballı bir dərslik çap etdirmişdir. "Qədim türk yazılı abidələrinin dili" adlı bu dərslik bizim dilçilikdə bu sahədə ilk dərslikdir.

Orxan - Yenisey abidələri (müəllif bunları “Göytürk abidələri” adlandırmışdır) eramızın III - VIII əsrlərinə aid edilir, lakin türkologiyanın nailiyyətləri ilə bağlı Ə.Şükürlünün bir sıra qeyd və məlumatları göstərir ki, bu yazıların yazıldığı əlifba öz başlanğıcını daha qədim dövrlərdən alır. Bundan başqa, türk xalqları uyğur əlifbası adlanan əlifbadan, hindbrahma yazısından, manixey əlifbasından istifadə etmiş, islam dini geniş yayıldıqca ərəb əlifbası üstünlük qazanmağa başlamışdır. Ərəb əlifbası ilə türk dillərində yazılmış sənədlərə hələlik XI əsrdən təsadüf edilir.

Ə.Şükürlü türk xalqlarının yayılma arealı barədə aydın təsəvvür yaratmaq üçün onları ənənəvi şəkildə qohumluq və yaxınlıq dərəcəsinə görə deyil, ərazi mənsubiyyətinə görə qruplaşdırmış, Qərbi Sibirdə, Orta Asiyada və Çin Türküstanında, Qafqazda və Kiçik Asiyada, Volqaboyunda, Qərbi və Şərqi Avropa ölkələrində yaşayan 30-dan artıq turk xalqı haqqında məlumat vermişdir.

İndi türkologiya elə bir səviyyədədir ki, bu xalqların dil xüsusiyyətlərini, mifologiya və folklorunu müqayisəli-tarixi aspektdə öyrənməklə türk dillərinə məxsus ilk ana dilin - prototürkün bərpası mümkündür və biz deyərdik ki, müxtəlif dil ailələrinin bu cür tədqiqi ilə – müxtəlif dil ailələrinə məxsus ilk ana dilin bərpası ilə dünya dillərinin qohumluğunu və bir kökdən olduğunu (protodillərin müqayisəsi əsasında – ikinci mərhələ) sübut etmək - bəşərin və onun dilinin sivilizasiya mərhələlərini müəyyənləşdirmək olar.

Dilçi və tarixçilər "fin" etnoniminin "hun" sözü ilə bağlı olduğuna etiraz edirlər, tədqiqat dərinləşərsə, öz əcdadlarının şərqdən gəldiklərini güman edən finlərin də türk - hun kökü ilə əlaqəsi görünə bilər. Türkoloqların ağlabatan fərziyyələrinə əsasən, müəllif Orxan-Yenisey əlifbasının eradan əvvəl finikiya əlifbası əsasında yarandığını və bu əlifbanın formalaşmasında müstəqil türk damğalarının və yunan əlifbasının müəyyən rolu olduğunu qeyd etmişdir.

Ə.Şükürlü ümumən türkoloji mənbələrə yaxşı bələd olan dilçi alimdir. Bu cəhət özünü qədim türk yazılı abidələrinin tədqiq tarixinə dair araşdırmalarda da göstərir. Mənbələrin tapılması, toplanması, ilkin tədqiqi barədə türkoloq alimlərin xidməti dərslikdə kifayət qədər işıqlandırılmışdır.

Yazılı abidələr çox görkəmli alimlərin diqqətini cəlb etmişdir. Qədim türk mədəniyyətinin, türk xalqları tarixinin öyrənilməsi sahəsində bu abidələrin nə qədər qiymətli material verdiyini təsəvvür etmək çətin deyildir. Qədim əlifbaların köməyi ilə oxunması mümkün olmayan bu əlifbanı ahəng qanununun köməyi ilə oxumaq mümkün olmuşdur. Müəllif yazır: "Beləliklə, V.Tomsen müəyyənləşdirir ki, həmin abidələrdə şəkilçilər, adətən, sözlərin sonuna artırılır. Sonra o müəyyənləşdirir ki, naməlum əlifba ilə yazılmış mətnlərin dilində sait səslərin möhkəm ahəng qanunu mövcuddur. Ona görə də V.Tomsen, haqqında bəhs olunan yazılı abidələri türkcə oxumağı daha düzgün hesab edir. O, ilk olaraq ***türk, tənri*** sözlərini oxuyur. Sonra təxmini olaraq oxuduğu sözlərdə ***t, ü, r, k, n, i*** hərflərinin köməyi ilə başqa sözləri oxuyur və hərflərin ifadəsini müəyyənləşdirir". (Ə.Şükürlü. Qədim türk yazılı abidələrinin dili. Bakı, "Maarif",1993, 20) .

Dərslik dil və dilçilik materialları ilə məhdudlaşmır. Müəllif qədim türklərin dövlət quruluşu, xaqan və sərkərdələri, müharibə və döyüşləri barədə məlumat vermişdir. Bizim dilçilikdə ilk dəfə olaraq bu əsərdə qədim abidələrin ətraflı təsvirinə rast gəlirik. Orxon-Yenisey abidələri H.N.Orkun, T.İ.Ramstedt, V.V.Radlov, S.Y.Malov, D.D.Vasilyev, İ.A.Batmanov, S.Q.Klyaştornı və başqaları tərəfindən tədqiq və təsvir edilmişdir. Ə.Şükürlü dərslik hüdudları dairəsində bu abidələrin, xüsusən Ongin, Tonyukuk, Gül Tigin, Bilgə kağan, Kuli-çur, Moyun-çur abidələri, Yenisey sahillərində tapılmış abidələr, Lena-Baykal yazılı abidələri, Altay, Şərqi Türküstan, Şimali Qırğızıstan, Qazaxıstan, Fərqanə və Şərqi Avropada tapılmış abidələr barədə danışmış, onların tarixi, etnoqrafik, ərazi-inzibati xüsusiyyətlərini qeyd və təsvir etmişdir. Qədim uyğur yazılı abidələri, mani dini məzmunlu yazılar - "Xuastuanift", buddizm məzmunlu yazılar, kağız üzərində yazılmış abidələr - "Altun yaruk" ("Qızıl işığı"), "Irk bitik" kitabları, qədim uyğur hüquq sənədləri haqqında məlumat da maraqlıdır.

Müəllif Orxon-Yenisey abidələrinin konkret dil məsələlərinə keçməzdən əvvəl, qədim Göytürk - Orxon əlifbası, bu əlifbanın quruluşu, saitlər və samitlər sistemi, ahəng qanunu və s. barədə kifayət qədər məlumat vermişdir. İllərdən bəri abidələrin linqvistik xüsusiyyətlərinin ali məktəb auditoriyalarında tədrisi prosesində Ə.Şükürlü Orxan əlifbasının incəliklərinə bələd olmuşdur. Buna görə də qədim türk dilinin fonetika və orfoqrafiyası barədə yazılar həm öyrədici xarakterdədir, həm də bu

yazılarda tədqiq və ümumiləşdirmələr vardır. Ə.Şükürlünün abidələrə marağı onun qədim türk mədəniyyətinə məhəbbəti ilə bağlıdır, yazılarında diqqət və səmimiyyət duyulur. Sait və samitlər sisteminin dərslikdəki təsnif və xarakteristikası P.M.Melioranskinin bu əlifbanın türk dillərinin səs sistemini əks etdirməyə qadir olan ən yaxşı əlifba kimi qiymətləndirməsinə oxucunu bir daha inandırır.

Demək olar ki, müasir ədəbi dilimizdəki bütün saitlərə Orxon - Yenisey yazılarında rast gəlirik. Həmin saitlər əksərən dörd, bəzən beş işarə ilə ifadə olunmuşdur. Maraqlıdır ki, ərəb əlifbasında olduğu kimi, bu əlifbada da bəzi saitlər bilavasitə qrafik işarəsini anlautda tapmamışdır - insan öz işini asanlaşdırmaq imkanına malik olduğu halda, bu qənaət və çətinlik nə ilə bağlıdır?

Qədim insanın sait və samitlərə münasibəti də çox maraqlıdır. Sait səslər üçün eyni bir qrafik işarə ilə (həm qalın, həm də incə saitlər) nəzərdə tutulmuşdur. Samitlərdə isə vəziyyət əksinədir: qalın saitlər ahəngi olan sözlərdə samitlərin qrafik işarəsi incə saitli sözlərdən fərqlidir və bu cəhət ***b, y, l, n, r, s, t*** və s. samitlərə aiddir. Görünür, hələ qədim insanlar söz kökü üçün samitlərin əsas olduğunu, saitlərin müxtəlif variantda samit əsasını ətə-qana doldurmaqla sözü formalaşdırdığını yüz illərlə təcrübədən dərk etmişdir. Onlar indiki dövrə nisbətən samit köklər əsasında "müxtəlif" dillərin bir kökdən törədiyini daha aydın görə bilərdilər. Bu izlər dünya dillərində bu gün də özünü göstərməkdədir və bunu saysız misallarla sübut etmək mümkündür.

Deməli, uzaq babalarımız türklərin və onların əlifba yaradıcılarının dilin leksik quruluşu barədə aydın və məntiqi təsəvvürü varmış; ***v, q, c, f, x, h*** və s. bir sıra samitlərin xüsusi qrafik işarəsinin olması dilin sonrakı inkişafını öyrənmək üçün imkan yaradır.

Dərslikdə uyğur əlifbası barədə də məlumat verilmişdir. Bu əlifbadakı qrafik işarələr onu həm qədim dövrlə - qədim yazılarla bağlayır, həm də bizə doğru inkişaf prosesində sabitləşməkdə olanlarıla...

Nəsimi ad. Dilçilik İnstitutu. F.e.n. Mehman Musa oğlu Musayev. «Türk dillərində tabeli mürəkkəb cümlə» DD. Opp.r. 10.05.1994

40-cı illərdən başlayaraq, mürəkkəb cümlə sintaksisinin öyrənilməsi sahəsində xeyli iş görülmüş, mürəkkəb cümlənin əsas quruluş modelləri aydınlaşdırılmışdır. Tədqiq və araşdırmalar genişləndikcə mürəkkəb cümlə səviyyəsində dilimizin imkanları da üzə çıxarılmışdır.

Ayrı-ayrı türk dillərinin sintaksisi tədqiq edildikcə bu dillərin səciyyəvi quruluş xüsusiyyətlərinin müqayisəyə cəlb edilməsi yolu ilə hər

bir türk dilinin payına düşənlərin tədqiqi turkoloqları daha da maraqlandırmışdır. Filologiya elmləri namizədi Mehman Musa oğlu Musayevin uzun illərdən bəri apardığı araşdırmalar tarixi diferensiasiya prosesində türk dillərinin mürəkkəb cümlə sistemində özünü saxlamış ortaqlı və müşahidə olunan fərqli cəhətlərin öyrənilməsi yolunda diqqətəlayiq tədqiqat işi sayılmalıdır.

İnsan təfəkkürü bu gün nitq vasitələri ilə ifadə edə bildiklərindən çox-çox dərinlərə işləyir, ani assosiativ düşüncələrlə gözlənilməz əlaqələr yaranır. Ona görə də mürəkkəb cümlə sintaksisinin tədqiqi daim aktualdır və müəllif yalnız bizim dilçilik üçün deyil, ümumən türkologiya üçün maraqlı və faydalı mövzu üzərində işləmişdir.

Dissertasiya giriş, beş fəsil, nəticə, kitabiyyat və şərti ixtisarlardan ibarətdir. Girişdə mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsəd və vəzifələri, işin elmi yenilikləri və praktik əhəmiyyəti, metodikası, metod və üsulları, mənbələr, aprobasiya məsələləri və s. barədə sistemli məlumat verilmişdir.

Heç bir elmi iş sələfləri öyrənmədən müəllifinə şöhrət gətirə bilməz. Buna görə də M.Musayev, təbii olaraq, I fəsildə türkologiyada tabeli mürəkkəb cümlə sintaksisinin tədqiqi, məna və quruluş baxımından təsnifi məsələlərini ön plana çəkmiş, tənqidi qeyd və ümumiləşdirmələr əsasında mürəkkəb cümlənin tədqiqinin üç aspekti - struktur-semantik, struktur-funksional və sintaktik-kommunikativ aspektləri barədə obyektiv mülahizələr söyləməyə çalışmışdır.

İşin ümumi ruhunda nəzərə çarpan yenilik həm terminoloji sahədə, həm də təsnif prinsiplərində özünü göstərir. Müəllif ənənəvi dilçilikdəki terminlərdən fərqli olaraq, ***polipredikativ vahid*** terminindən daha çox istifadə etmiş, mürəkkəb cümlələri subordinasiya, koordinasiya və korrelyasiya əsasında qruplaşdırmağı münasib bilmişdir. Bu cür bölgüdə formalaşma prosesinə elmi baxış daha aydındır.

Qeyd etdiyimiz üç əsası nəzərə alaraq, türk dillərini tarixi və sinxron planda gözdən keçirən müəllif tabeli mürəkkəb cümlələri dörd qrupda ümumiləşdirmişdir: *aydınlaşdırma konstruksiyaları, təyin konstruksiyaları, zərflik konstruksiyaları, qoşulma konstruksiyalar*. Bunlar xırdalandıqda 22 budaq cümlə forması modelləşir.

Tarixi araşdırmalar əsasında öz yolunu aydınlaşdıran müəllif sonrakı dörd fəsli həmin dörd qrup üzərində qurmuşdur.

Doğrudur, bu bölgüdə vahid prinsip yoxdur: ikisi cümlə üzvləri - təyin və zərflik konstruksiyaları əsasında, ikisi başqa prinsiplə (aydınlaşdırma konstruksiyaları, qoşulma konstruksiyaları) müəyyən edilmişdir, lakin mahiyyət birdir - bütün fəsillərdə tədqiqat konkret budaq cümlələr üzrə davam etdirilir. "Aydınlaşdırma konstruksiyaları" fəslində mübtəda, xəbər və tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələr nəzərdən

keçirilmiş, qəlib söz-siqnallara və relat - korrelyat sisteminə əsaslanan budaq cümlə tipləri tədqiq edilmişdir. Mübahisəli mühüm bir formaya xüsusi yer verilmiş - "qapalı konstruksiyalar" adı altında vasitəsiz nitq və budaq cümlə məsələsinə münasibət bildirilmişdir. Müəllif nitqi ilə əhatə olunan vasitəsiz nitq dissertasiyada polipredikativ vahid kimi öyrənilmişdir. Qapalı konstruksiyaların qədimliyi onların hələ qədim türk dövründən informasiyavericilik imkanları ilə izah edilmişdir.

Bağlayıcı söz - qarşılıq bildirən söz, yəni relat - korrelyat sistemli cümlələrdə ***-sa*** və ***-mı*** şəkilçilərinin rolu sistemli öyrənilmişdir. Oğuz qrupunda aydınlaşdırma konstruksiyaları üslubi-sintaktik variantları ilə də diqqəti cəlb edir.

"Təyin konstruksiyaları" fəslində təyin budaq cümlələrinin ənənəvi hüdudu müəllifin qəbul etdiyi prinsiplər əsasında genişləndirilmişdir. Dissertasiyada bu məqsədlə yiyəlik halın sintaktik funksiyasına yenidən baxılmış, mərhum prof. Ə.Abdullayevin məlum fikri ilə razılaşan M.Musayev III növ təyini söz birləşmələrinin yiyəlik halda olan birinci tərəfini müstəqil təyin kimi götürmüş və beləliklə, yiyəlik halda olan qəlib söz-siqnallar əsasında belə cümlələri təyin budaq cümləli mürəkkəb cümlə kimi izah etmişdir. 80-ci illərin əvvəllərində yiyəlik hal – təyin ideyası ilə çıxış edən prof.Ə.Abdullayevin tərəfdarları da olmuşdur. Biz 1983-cü ildə F.Cəlilovun "Mürəkkəb cümlə sintaksisi" kitabına yazdığımız ön sözdə, Ə.Abdullayevin fikrinə uyğun bir şəkildə, "Hər kəs getsə, onun adı yazılacaq" tipli cümlələri təyin budaq cümləli tabeli mürəkkəb cümlə hesab edən F.Cəlilovun qeydlərini müəyyən konsepsiya ilə bağlı olduğu üçün dilçilərin mühakiməsinə buraxmışdıq. Bu gün də bu məsələ eyni şəkildə qalır və dissertasiyada müəyyən konsepsiya tərəfdarı kimi çıxış etmək mümkündür.

Ənənəvi dilçilikdə təyin budaq cümləsinin III tipi kimi verilən budaq cümlələrin korrelyatın sintaktik funksiyası əsasında müxtəlif budaq cümlələr arasında ağlabatan şəkildə paylanması da müəllifin əhəmiyyətli yeniliklərindəndir. Bu cür cümlələrdə bir sinkretiklik var və onun tədqiqinə girişmək də maraqlı olardı. "*O şeyi ki axtarırsan, min daşın dalında gizlidir*" tipli cümlələrdə "o şeyi" sözünün və bu qəbildən olan sözlərin ***ki*** ədatı ilə aktuallaşdırılması, tədqiqatçının fikrincə, onun baş cümlənin bir hissəsi olduğunu göstərir.

Qədim abidələr və "Dədə Qorqud" materialları əsasında təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin şivələrdə qalmış arxaik formaları da qeydə alınmışdır.

"Zəfrlik konstruksiyaları" fəsli dissertasiyada nisbətən geniş yer tutur. Zərflik budaq cümlələri "zaman-məkan əlaqəli", "səbəb-məqsəd əlaqəli" "polipredikativ vahidlər" adı altında, tərz, dərəcə, müqayisə və kəmiyyət budaq cümlələri "çoxmənalı konstruksiyalar" kimi öyrənilmiş-

dir. Beləliklə, "zərflik konstruksiyaları" adı ilə ənənəvi yeddi budaq cümlə araşdırılmışdır.

Zərflik budaq cümlələrinin variantları, qrammatik çoxmənalılığı, bu çoxmənalılığın omonimliyə keçə bilməməsi budaq cümlələr haqqında təsəvvürü genişləndirir.

Dissertasiyanın "Koordinativ-qoşulma konstruksiyalar" fəslində tədqiqat ənənəvi dilçilikdəki qoşulma budaq cümləsi istiqamətində deyildir. "Koordinativ-qoşulma budaq cümlələr" dedikdə müəllif şərt, qarşılaşdırma və nəticə budaq cümlələrini nəzərdə tutmuşdur.

Qoşulma konstruksiyalar sadə və mürəkkəb cümlələrə əlavə edilən parselyatlardan fərqləndirilmiş, nəticədə mürəkkəb sintaktik bütövlər də tədqiqata cəlb edilmişdir.

Dissertasiyada tabeli mürəkkəb cümlə sintaksisi bütöv bir lay kimi öyrənilmişdir. Müəllif mübahisələrdən qaçmayıb, əksinə, bir çox hallarda öz konsepsiyasına uyğun olaraq, məsələləri inandığı şəkildə, qeydsiz-şərtsiz bir hökm kimi ifadə edib. Buna görə də dissertasiyada mübahisə üçün imkanlar vardır:

1.Müəllifin fikrincə, ayrı-ayrı türk dilləri yoxdur, formalaşmayıb; "türk dil-dialekt sistemlərinə daxil olan ləhcələr" mövcuddur. Bu fikir dissertasiya boyu davam etdirilmiş, müstəqil dillərdən deyil, "dil-dialekt" fərqlənmələrindən danışılmışdır. Biz bunu zərərli və yanlış hesab edirik. Ən yaxın türk dilləri olan oğuz qrupu dillərini də fonetik, leksik, qrammatik xüsusiyyətlərinə görə ləhcə hesab etmək olmaz, çünki o cür fikir dillərin müstəqilliyini, müstəqil inkişaf tarixini inkar etməkdən başqa bir şey deyil.

2.Dissertasiyada türkçülük meyli hiss olunur. Lakin mən türk birliyi, xristian birliyi, müsəlman birliyi ideyalarının əleyhinəyəm. Yer hamı üçündür. Müəllif "türkcələr"dən danışır və geniş mənada özünün türklüyü ilə fəxr edir. Lakin dissertasiyanın dili rus dili terminologiyası ilə elə mürəkkəbləşdirilmişdir ki, bu əsəri türk deyilən şəxs çox çətin başa düşə bilər. Əsəri lüğətsiz oxumaq çətindir: "***TMC sintaksisində semantik-funksional*** sahələri və onlara görə ayrı-ayrı ***struktur-semantik*** quruluşlarda işlənən ***konstituent-***bağlayıcı vasitələri ***subordinativ, koordinativ*** və ***korrelyativ-sintaktik omomodellər*** üzrə qruplaşdırmaq" (s.6) - cümləsində əlaqə yaratmaq üçün yalnız bir neçə söz bizim dildədir. Hətta bəzən Azərbaycanca termin işlədiləndə qarşısında mötərizədə ruscası verilir.

Müəllif yazır: "Deməli, hər hansı bir dilin, yaxud da dil ailəsinin ilkin inkişaf mərhələsindən başlayaraq, həm sadə, həm də mürəkkəb cümlə sintaksisi mövcud olmuşdur. Sadə, yaxud da "mürəkkəbləşmiş" cümlə quruluşundan TMC sisteminin təşəkkülü isə dilçilikdə Leninizmin həyatın bütün sahələrinə aid edilən "sadədən mürəkkəbə doğru inkişaf" konsepsiyasına əsaslanmışdır ki, bu da dünya təcrübəsində özünü doğrultmadı" (s.21). Lenin bolşevik olmaqla həm də böyük filosof idi. Heç bir dünya təcrübəsi sadədən mürəkkəbə inkişafı inkar etməyib. Müəllifin gətirdiyi misalların iki min, dillərin isə qırx min il tarixi var. İkiözəkli cümlələrin sadə cümlələrdən törədiyini heç kəs inkar etmir.

3.Dissertasiyada oxuyuruq: "…budaq cümlə tiplərindən bəzilərinin sadə cümlə sintaksisində uyğun analoqu yoxdur (şərt, güzəşt və s.)" (s.28) Elə bu

mülahizə ilə də müəllif şərt, güzəşt budaq cümlələrini zərflik budaq cümlələrinə daxil etməmişdir. Sadə cümlə sintaksisi şərt və güzəşt zərfliklərinə dair zəngin material verir. Mərhum A.Həsənovun bu sahədə araşdırmaları ali məktəb tədris təcrübəsində də özünü doğruldur.

4.Dissertasiyada şərt budaq cümləsinin yalnız "budaq cümlə+baş cümlə" qurluş tipi nəzərdən keçirilir, "*Mən o şərtlə gedərəm ki, hamı razı olsun*" tipli cümlələr şərt budaq cümləsi hesab olunmur. Bunlar analitik şərt budaq cümləsidir və baş cümlədə qəlib söz "o" deyil, "o şərtlə" sözləridir.

5.Faktlar göstərir ki, qəlib söz və ya korrelyat işarə əvəzliklərindən ibarət olur və ya onların əsasında işarə əvəzliyi durur. Müəllifin qeydlərində bu sahədə sistem yoxdur. Bəzən qeyri-müəyyən əvəzliklər qəlib söz sayılır (s.91). Korrelyat da (*Kim getsə, **o**, ayaq izi görər*) şəxs əvəzliyi sayılır, əslində isə substantivləşmiş işarə əvəzliyidir. "Qeyri-müəyyən şəxs əvəzliyi" adlandırılan "hamısı" sözünün korrelyat olduğu göstərilir: "*Stol üçün nə lazım idi, **hamısı** hazırlanmışdı*". Əslində, burada korrelyat ("onların" sözü) işlənməmiş, buraxılmışdır. Bəzən sual əvəzliyi ilə nisbi əvəzlik - relat da qarışdırılmışdır (s.156).

6.Dissertasiyada budaq cümlə növlərinə dair misalların bir qismi düzgün izah edilməmişdir. Təyin budaq cümləli tabeli mürəkkəb cümlə kimi verilən: *Elə söz de ki, kalı tökülsün, dəymişi qalsın* - nəticədir; *Nə bəladır ki, ona böylə giriftar olubam* - mübtədadır; *Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir* – dərəcədir; Qorxurdu ki, birdən qızın acığı tutar - səbəb yox, tamamlıq budaq cümləlidir; *Necə eləyək ki, onu dünya üzündən silək* - tərz deyil, nəticədir; *Mən ki dəliləri, xanımları özümdən belə incitdim, day bir də onlar mənim sözümə baxmazlar* - nəticə deyil, səbəbdir. Baş cümləsində ***o şərtlə, bəşərta ki, o məqsədlə*** tipli sözlər işlənən cümlələr düzgün izah edilməyib.

Müəllif budaq cümlələrdə ixtisasrlara dair yaxşı nümunələr verdiyi halda, aşağıdakı misralarda ikinci komponenti təyin budaq cümləsi hesab edir: *Elə işə düşüb ki, allah göstərməsin! Başına bir iş gəlib ki, day demə! Bir hala düşdü ki, gözlər olsun görməsin* (s.132) və s. Bu cümlələrdə budaq cümlələr ixtisar olunub, ***ki***-dən sonrakı hissələr budaq cümlə deyil.

Dissertasiyada verilmiş: *O olmasa da, bu olsun. O getməsə də, bu getsin. O gəlməsə də, sən gəl* - tipli cümlələr güzəşt budaq cümləsi ola bilməz. Bunlar üslubi cəhətdən qüsurlu cümlələrdir və bu cümlələrdə ***də*** ədatı artıqdır.

Mehman Musayev prof.Ə.Abdullayevin monumental əsərindən sonra çox böyük cəsarətlə tabeli mürəkkəb cümlənin tədqiqinə girişmiş, qohum dillərin zəngin faktları əsasında, ağlabatan yeni prinsiplərlə dilin mürəkkəb cümlə qatını hərəkətə gətirmişdir. TMC-nin tədqiqinə sadə cümlələr, mürəkkəbləşmiş cümlələr, mürəkkəb sintaktik bütövlər, parselyatlar da əlavə edilmiş və mənzərə genişlənmişdir. Qohum dillərin tarixi-müqayisəli, tarixi-tipoloji tədqiqi prosesində mövcud və məlum olanlarla kifayətlənməyən müəllif Azərbaycan canlı danışıq dili materialları əsasında budaq cümlələrin üslubi imkanlarını, bağlayıcı vasitələrin geniş qalareyasını üzə çıxarmışdır. Qohum dillərin, qədim abidələrin materialları əsasında budaq cümlələrin arxetiplərinin müəyyənləşdi-

rilməsinə cəhd etmişdir. Budaq cümlələrin ədəbi-normativ tipləri ilə yanaşı, üslubi tiplərinə də diqqət yetirmişdir.

M.Musayev bu çətin mövzunu elmi-nəzəri və praktik baxımdan yaxşı mənimsəyib: bir sıra budaq cümlələrin dəqiqləşdirilməsi sahəsində xeyli iş görüb. Əsərdə ciddi elmi sistem var. Bəzən müəllifin öz yazılarına əsaslanması işin elmi yenilikləri ilə bilavasitə bağlıdır. Nəzəri fikrin inkişafı mürəkkəb cümlə sintaksisinin tədrisinə kömək edəcək.

M.Musayev elmi-nəzəri ədəbiyyatı diqqətlə öyrənmiş, zəngin elmi ədəbiyyata əsaslanmışdır. Biz müəllifin çap əsərləri və avtoreferatı ilə də tanışıq. Bunlar əsərin məzmununu əhatə edir.

M.Musayevin "Türk dillərində tabeli mürəkkəb cümlə" adlı əsəri doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və müəllif filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Prof.M. Həsənov. «Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair» 05.12.1994

Prof.Məmməd Həsənovun hazırladığı metodik göstərişlər müəllimə kömək məqsədi daşıyır. Ona görə də çap olunması məsləhətdir.

Göstərişlərdə üç mühüm mövzu - "Mübtəda və xitab münasibətlərinin öyrənilməsi", "Adlıq cümlələrin tədrisi", "Yarımçıq cümlənin tədrisi" mövzuları əhatə edilmişdir. Müəllif hər üç mövzu ilə bağlı öyrədilməli olan məsələləri dəqiqləşdirmiş və müəllimə kömək məqsədi ilə yeni və zəngin misallar əsasında onların tədrisi yollarını şərh etmişdir.

Müəllif çətin və mübahisə doğuran mövzular seçmiş, dərslikdən istifadə işini xeyli asanlaşdırmışdır. Bu cür göstərişlərə ehtiyac çoxdur, ona görə də bir vaxtlar hər bir dərsliyə aid müəllimə kömək məqsədilə buraxılmış vəsaitlər yenidən nəşr olunmalıdır.

Göstərişlərin "Sadə cümlə tədrisinin ümumi məsələləri" adlı bir bölməsi də vardır (ilk bölmə) və müəllif burada sadə cümlənin təsnifi məsələsinə, dərslikdəki bir sıra terminlərə öz münasibətəini bildirmiş, sadə cümlənin yeni təsnif üsulunu təklif etmişdir.

Qeyd etməliyik ki, buradakı fikirlərin dərslyin hansı çapına aid olduğu bilinmir və müəllifin dərsliyə aid etdiyi bir sıra bölgülər son on beş ildə dərslikdə olmamışdır. Göstərişlər dərslikdən geri qalır. Bəzi məsələlərin tədris baxımından əhəmiyyəti və ali məktəblə varislik məsələsi nəzərə alınmamışdır.

İlk bölmədə yanlış hesab olunan yanlışlıqlara baxmayaraq, göstərişlərin çapını faydalı hesab edirik.

N.Tusi ad. APU. Dos.H.Ə.Qasımov.
«Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası»
DD. 17.05.1995

Mövzu "Müasir Azərbaycan romanı" adlanır. Lakin müəllif dünya ədəbiyyatının verdiyi faktlar əsasında roman janrının üç min illik inkişaf yolunu nəzərdən keçirmişdir. I fəsillə tanışlıq əsasında oxucu romanın tarixi inkişaf prosesində uğradığı dəyişikliklər, janrın təkamül yolu barədə sistemli məlumat alır. Azərbaycan romanının bizim yüzillikdəki inkişaf səviyyəsini müəyyənləşdirmək üçün də tarixi araşdırmadan istifadə edilmişdir. Şübhəsiz, müəllif bu böyük problemi tam əhatə etməyi qarşıya qoymamışdır və bunun özü, yəni bəşər mədəniyyəti fonunda romanın inkişaf yolunun öyrənilməsi bir neçə mühüm elmi iş üçün əsas ola bilər.

Bu ümumi tədqiqat fonunda mənzum romanın, Nizami Gəncəvi romanlarının tarixi rolu bizim roman ənənəmizin qədimliyi baxımından bəşər mədəniyyətinin müəyyən mərhələsini zənginləşdirməklə qürur hissi doğurur. Nizaminin müasiri və yaxın dostu Əbu-Bəkr ibn -Xosrov əl-Ustadın nəsr əsərləri tapılsa idi, bəlkə biz müasir səviyyəli, müasir estetik prinsiplərə uyğun romanla da hələ XII yüzillikdə qarşılaşa bilərdik.

Tarixi araşdırmalar müəllifin yoluna işıq salmış, onun xüsusilə sovet dövründə çox zəngin inkişaf yolu keçmiş Azərbaycan romanını elmi əsasda təhlil etməsi, ümumiləşdirməsi, Azərbaycan romanını tipoloji cəhətdən səciyyələndirə bilməsi üçün imkan yaratmışdır.

Sovet dövrü ədəbiyyatı haqqında müxtəlif fikirlər var. Bəziləri bu ədəbiyyata son dərəcə nihilist yanaşırlar, hətta "Şamo"nu üç-dörd hekayəsi olan dünənki uşaqların yaradıcılığı ilə yanaşı qoyanlar, bir az da ikinciyə üstünlük verənlər var. Bunlar keçmişinə daş atanlar, hansı kök üstə böyüdüklərini anlamayanlardır.

Hər bir yazıçı bütün partiyalılıq prinsiplərini gözləməklə yanaşı, öz qəlbinin dediklərini qələmə alıb, həqiqi sənət əsəri hansı mövqedən yazılmasına baxmayaraq, başlıca olaraq, həyat həqiqətlərini əks etdirir. Bununla yanaşı, kommunist tərbiyəsinin özü də bütün başqa tərbiyə sistemlərindən üstün idi.

H.Qasımov M.S.Ordubadi, S.Rəhimov, Ə.Əbülhəsən, M.İbrahimov, H.Mehdi kimi böyük sənətkarların əməyini, xalqımızın bədii-estetik təfəkkürünün inkişafı sahəsində rolunu obyektiv qiymətləndirib. Bu yazıçılar, xüsusən, məsələn, M.İbrahimov haqqında bu vətən üçün, bu ölkə üçün Mirzə İbrahimovun on mində bir zərrəsi qədər iş görməyənlər boş başlarını bulayır. H.Qasımov hər bir sənətkara həqiqi bir mütəxəssis kimi yanaşır, 50 il, 60 il ədəbiyyatın ağır yükünü çiynində daşıyanların

zəhmətini dərk edə, qiymətləndirə bilir. Hazırkı mətbuatda səslənən bir sıra yanlış mülahizələrə uymamaqda haqlıdır.

Himalay müəllim də daxil olmaqla bu nəsil bu kök üzərində tərbiyə tapıb, qeyd etdiyim bu böyük sənətkarlardan öyrənib. İş elə gətirib ki, mən özüm də 60-cılar nəsli deyilən indiki aparıcı nəslin - İ.Hüseynov, S.Əhmədov, Elçin, Anar, Y.Səmədoğlu, F.Kərimzadə, Ə.Nicat, İ.Məlikzadə, S.Azəri və başqalarının nəsrini ardıcıl nəzərdən keçirmiş, həmin yazıçıların nəsr sənətkarlığı barədə fikir söyləməyə çalışmışam. İndi H.Qasımovun əsərini oxuyarkən onun da yaradıcılığa bir-birindən az-çox tez və ya gec başlamış bu yazıçıların əsərlərini tipoloji cəhətdən çox ustalıqla qruplaşdırdığını görürəm.

İndi başa vurmaqda olduğumuz yüzilliyin sənət adamları barədə obyektiv fikir söyləmək çətindir və hadisələrin indiki şəkildə inkişafı bir çoxlarını çaşdırır. Keçmişdə adı çəkilməmiş və ya damğalanmış bəzi orta səviyyəli yazıçıları dahi mütəfəkkir kimi şişirdənlər, sovet dövrünün nəhənglərini sıxıb kiçiltməyə çalışanlar var. Obyektiv yol tutmaq böyük savad və dünyagörüş tələb edir. H.Qasımovu mən bu cəhətdən doğru yolda görürəm.

Hazırkı dövrdə ədəbiyyatşünas alimin başqa mühüm bir çətinliyi də vardır: ədəbiyyata yeni nəzərlə, yeni dünyagörüşlə baxmağı bacarmaq. Bu məsələ ümumən ədəbiyyatşünas alimlər tərəfindən çox geniş və əsaslı müzakirə tələb edən və hazırkı dövr üçün son dərəcə aktual olan nəhəng problemdir. Ədəbiyyatın ali və orta ümumtəhsil məktəblərində düzgün tədrisi bu problemin azı minimum həllindən çox asılıdır.

Bir var ki, ömür boyu konkret bir-iki sahənin tədqiqi ilə məşğul olasan, bir də var ki, müasir ədəbiyyatdan 120 saatlıq kurs aparasan, bu ədəbiyyatın kiçikdən böyüyə bütün aparıcı qüvvələri barədə ardıcıl olaraq illərlə auditoriyada böyük təcrübə toplamış olasan. Müəllim-tələbə müzakirələri ona geniş yaradıcılıq imkanları vermişdir. Tədqiqatçı alim 100-dən artıq roman haqqında fikir söyləmişdir. Bunları yalnız illərlə aparılan yorulmaz tədqiqat işinin nəticəsi kimi qiymətləndirmək olar.

Bunu da qeyd etməyi vacib bilirəm ki, dosent, professor və altı ildən bəri fakültə dekanı işlədiyim müddətdə Himalay müəllimi səmimi bir insan kimi tanımışam. Bunlar alim və ali məktəb müəllimi üçün zəruri mənəvi keyfiyyətlərdir.

М.Н.Чобанов. «Основы азербайджанской ономалогии» (Часть I). Июл 1995

Одним из актуальных и новых разделов как общего, так и отдельного языкознания является ономалогия, которая стала специ-

альным объектом исследования лишь в последнее десятилетие. В азербайджанском языкознании ономология и её отдельные разделы, стали специальным предметом исследования в основном с 70-х годов нашего столетия. Несмотря на это, языковеды в кратчайшее время добились определенных успехов в этой области. В этом особо отметит научно-исследовательскую работу доц.М.Н.Чобанова, который с конца 70-х годов начал изучать основы азербайджанской ономалогии и добился значительных успехов, опубликовав отдельные пособия, статьи и тезисы выступал с докладами.

Во всестороннем иследовании того или иного современного языка, а также в определении истории народа и его литературного языка большое научно-теоретическое и практическое значение приобретает изучение проблемы ономалогии. С этой точки зрения исследования доц.М.Н.Чобанова "Основы азербайджанской ономалогии", представляет особое актуальное и весьма важное значение не только для азербайджанского языкознания, но также и для тюркологии в целом. В данной работе приводятся интересные лингвистические факты, входящие во все сферы азербайджанского языкознания, остававшиеся до последнего времени монографически неисследованными. В этом пособии освещены общие ономалогические вопросы и её отдельные разделы, которые до последнего времени специально не были объектом исследования.

В книге (часть I) подвергаются систематическому анализу основы азербайджанских антропонимов, в свете общих проблем антропонимики. Подробно рассмотрены такие проблемы, как объекты исследования ономалогии и основных разделов антропонимики; семантические основы структура и происхождение антропонимов, антропонимические категории отчество, фамилия, псевдонимы, прозвище, имена собственные и их условности, имена и антропонимы, полонимы и полиндромические имена, оббревиация антропонимов и их общественно-исторические характеристики. В работе также широко рассмотрены традиции именования новорожденных и др.

Данное пособие дает основание утверждать, что изучение основ азербайджанской ономалогии имеет большое научное теоретическое и практическое значение для разъяснения ряда вопросов азербайджанского языкознания. Настоящее пособие предназначено для студентов филологических факультетов вузов. Пособие может привлечь внимание не только языковедов, но и историков и этнографов и др. исследователей. Поэтому считаю целесообразным издание пособия - "Основы азербайджанской ономалогии" (часть I) доц.М.Н.Чобанова.

M.F.Axundov ad. Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutu. Dosent Barat Boran oğlu Quliyev. «Obyekt komponentli feli konfiqurasiyaların sistem-tipoloji analizi (rus və Azərbaycan dillərinin materialları əsasında)» DD. 18.11.1995

274 səhifəlik bu əsər "Giriş" (s.3-15), üç fəsil (s.15-201), "Nəticə" (s.202-211), "Əlavə" (s. 211-254), "Şərti ixtisarlar" (s.254-255) və "Kitabiyyat"dan (s..256-274) ibarətdir.

Fəsillərin qoyuluşunda məntiqi əlaqə və ardıcıllıq gözlənilmişdir. I fəsildə işin nəzəri və metodiki əsasları tədqiq olunmuş, II fəsil rus və Azərbaycan dillərində obyekt komponentli feli konfiqurasiyaların quruluş xüsusiyyətlərinə, III fəsil konfiqurasiyaların tipoloji cəhətlərinə həsr olunmuşdur. Dissertasiya belə bir tezisə əsaslanır ki, bütün dillərin kökündə eyni "məntiqi sxem" durur, dillərin fərqi həmin "məntiqi sxem"lərin ifadə formasındadır.

Bu cəhətə əsaslanan müəllif obyekt komponentli feli konfiqurasiyaların rus və Azərbaycan dili materialları üzrə tədqiqi ilə məşğul olmuşdur. Konfiqurasiyanın əsas komponentini təşkil edən fel predikativ feldir, yəni müəllif zamana, şəxsə, şəkil əlamətlərinə görə dəyişən, təsrif olunan felləri əsas götürmüşdür.

Bu baxımdan müəllifin namizədlik və doktorluq dissertasiyalarının mövzusu yaxındır. Fərq bundadır ki, namizədlik dissertasiyasında "təsirlik hal + predikativ fel" konstruksiyaları əsas götürülmüş, doktorluq işində isə obyekt komponenti bütün altı halda olan konfiqurasiyalar tədqiq edilmişdir. Müəllifin özünün dediyi kimi, doktorluq dissertasiyasında mövzunun vertikal tədqiqinə, yəni müxtəlif dillərdə müxtəlif mikrosistemlərin araşdırılmasına diqqət yetirilmişdir. Bu hal tədqiqat işinin daha əhatəli faktalarla ümumiləşdirilməsinə səbəb olmuşdur. Belə ki namizədlik dissertasiyasında rus və Azərbaycan dillərində obyekt komponentli feli konfiqurasiyalar arasında uyğunluq və fərq 32/38 nisbətində olduğu halda, doktorluq dissertasiyasında müxtəlif mikrosistemlər üzrə qarşılaşdırma bu nisbətin 59/26 şəklində olduğunu göstərir. Bu vəziyyət belə bir nəticə çıxarmağa imkan verir ki, müxtəlif dillərdə (tipoloji cəhətdən fərqlənən rus və Azərbaycan dillərində) mikrosistemlər arasında uyğunluq daha çoxdur.

Müəllif müqayisələr əsasında onu da müəyyənləşdirmişdir ki, aşağı yaruslarda uyğunluq, yuxarı yaruslarda fərq çoxdur.

Müəllifin istifadə etdiyi elmi ədəbiyyat zəngindir.

Analiz üçün seçilmiş materiallar - bədii ədəbiyyat münasib və müvafiqdir: həm rus, həm də Azərbaycan dili materialları üçün əsasən eyni dövrdə yaşamış müəlliflərin bədii əsərləri seçilmişdir. Azərbaycan dili

materialları üçün lüğətlərə, qəzet və jurnal yazılarının dilinə də müraciət edilmişdir. Dil materialı üçün bunun elə bir əhəmiyyəti yoxdur.

B.Quliyev mövzu ilə bağlı 30 adda məqalə və tezis çap etdirmişdir. Bunlardan 21-i namizədlik dissertasiyasından sonra yazılmışdır və bilavasitə doktorluq dissertasiyası ilə bağlıdır. Bir sıra məqalələri xaricdə (Əfqanıstanda, Rusiya Federasiyasında və s.) çap olunmuşdur. 8,6 çap vərəqi həcmində dərs vəsaiti vardır. Bunlar və avtoreferat dissertasiyanın məzmununu əhatə edir.

Əfqan Əli oğlu Abdullayev. «Aktual üzvlənmənin mətnyaratma imkanları (Azərbaycan və ingilis dillərinin materialları əsasında)»
ND. May 1997

«Aktual üzvlənmənin mətnyaratma imkanları» adlı bu dissertasiya Azərbaycan dilçiliyində çox az öyrənilmiş, maraqlı və aktual bir sahənin – Azərbaycan və ingilis dillərində aktual üzvlənmənin mətnyaratma imkanlarının tədqiqinə həsr olunmuşdur. Aktual üzvlənmə probleminin özü bizim dilçilikdə ətraflı öyrənilməli məsələlərdəndir. Ona görə də dissertant ilk növbədə aktual üzvlənmənin dil sistemində yeri, mahiyyəti, bu sahənin tədqiqi vəziyyəti - dilçilərin müxtəlif, zidd və mübahisəli mövqeyi və sairi ətraflı nəzərdən keçirmiş, əsas və ağlabatan fikirləri ümumiləşdirmək yolu ilə problemin mahiyyəti barədə aydın təəssürat yarada bilmişdir. Nəticə etibarilə, tədqiqat istiqamətini düzgün müəyyənləşdirərək dissertasiyanın «Aktual üzvlənmənin dil sistemində yeri» adlı birinci fəslinin sonunda aktual üzvlənmə məsələsinə keçmək üçün zəmin yaratmış, mətn strukturunda aktual üzvlənmənin yeri və rolu kimi mühüm məsələlərin əsas prinsiplərini aydınlaşdırmağa müvəffəq olmuşdur.

Bütün bunlar dissertasiyanın bel sütununu təşkil edən II fəsildə – «Aktual üzvlənmənin mətnyaratma imkanları» fəslində tədqiq və araşdırmaların düzgün və səmərəli aparılması üçün elmi əsas vermişdir.

Şübhəsiz, bu fəsildə dissertantı ilk növbədə mətnin qurulma texnikası, mətnin bağlılığı məsələsi düşündürmüş, buna görə də müəllif xətti, qlobal və semantik bağlılıq məsələlərini ətraflı nəzərdən keçirməli olmuşdur. Tema və rema məsələləri, cümlə üzvlərinin aktuallaşması, «yeni»nin verilməsi prosesində mətnin tədrici genişlənməsi konkret dil faktları ilə izah edilmişdir: mətndüzəltmədə nitq hissələrinin aktuallaşmasının, formal-qrammatik vasitələrin, fasilə və vurğunun, frazafövqi vahidlərin, təkrarların, paralelizmin, işarə əvəzlikləri-

nin, semantik əlaqələrin geniş inkişafı ingilis və Azərbaycan dili materialları əsasında ətraflı şərh olunmuşdur. Bu fəslin ən maraqlı bölmələrindən biri də aktual üzvlənmənin mətnyaratma imkanlarının presuppozisional xüsusiyyətlərinin tədqiqinə həsr olunmuş bölmədir.

Dissertasiya iki dilin materialları əsasında işlənmiş olduğundan qarşılaşdırma prosesində Azərbaycan dilinin mövzu ilə bağlı bir sıra xüsusiyyətləri ilk dəfə ətraflı izah edilmişdir. Müəllif ingilis dilini gözəl bildiyindən bu sahədəki zəngin xarici ədəbiyyatdan geniş istifadə etmişdir. Dissertasiya işi ilə bağlı ingilis, rus və Azərbaycan dillərində on beşdən artıq elmi məqalə çap etdirmişdir. Bunlar dissertasiyanın əsas müddəalarını tam şəkildə əhatə edir.

Azərbaycan dilçiliyi üçün yeni olan bir sahənin tədqiqinə həsr edildiyindən bu əsərdən müasir Azərbaycan dilinin, ixtisas kurs və seminarların tədrisində, dilimizin struktur xüsusiyyətlərinin tədqiqində geniş istifadə oluna bilər. Əsər yüksək elmi səviyyədə yazılmışdır, nəzəri və praktik cəhətdən xüsusi əhəmiyyətə malikdir.

Fikrimizi ümumiləşdirərək qeyd edə bilərik ki, Əfqan Əli oğlu Abdullayevin «Aktual üzvlənmənin mətnyaratma imkanları» adlı əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Nurlana Əliyeva, Mahmud Fətiyev, Sevil Əliyeva.
«Azərbaycan dili proqramı»
05.12.1997

15 səhifə həcmində olan bu proqram texnikumlarda 231 saatlıq dərs üçün nəzərdə tutulmuşdur. Bu, xeyli saatdır və müasir dilin bütün bölmələrini əhatə edir. Girişdə proqramın məqsəd və vəzifələri ətraflı şərh olunmuşdur. 5-ci və 6-cı səhifələrdə əlavə olaraq saatların semestr və şöbələr üzrə bölgüsü də aparılmışdır.

Proqram müasir ədəbi dilimizin bütün məsələlərini texnikum səviyyəsində əhatə edir və bu proqrama uyğun bir dərsliyin yaradılması nəzərdə tutulan məktəblər üçün çox faydalı olardı.

Proqram hazırdır və çap oluna bilər. Professor Y.Seyidov və dosent T.M.Hacıyev proqramın rəyçiləridir və yəqin ki, onun səlisləşməsinə çalışmışlar.

Proqramda redaktə yolu ilə aradan qaldırıla bilən qüsurlar vardır:

1.Proqramda bölmələr bu sıra üzrə verilmişdir: sözyaratma üsulları; leksikologiya; fonetika; frazeologiya; orfoepiya; qrafika; orfoqrafiya; morfologiya; sintaksis.

Fonetika leksikologiyadan əvvəl, frazeologiya leksikologiyadan sonra verilməlidir. Orfoqrafiya da orfoepiyadan əvvələ keçirilməlidir.

2.Proqramda elmi qüsurlar:

«İsimlə ifadə olunan başqa nitq hissələri» - 9

«Cümlələrin ifadə vasitələrinə görə növləri» - 12

«Cümlənin quruluşuna görə təsnifi: cüt və təktərkibli c.» - 12

«Xəbərlə mübtədanın uzlaşması» - 12

Bir nitq hissəsi o biri ilə ifadə olunmaz – müəlliflər isimləşmədən danışmaq istəyiblər. «Qeyri-müəyyən əvəzlik» olmaz, «qeyri-müəyyənlik bildirən əvəzlik» olar. «Cümlənin ifadə vasitələri» olmaz. Sadə cümlə qrammatik əsasa görə cüt və təktərkibli olar. «Xəbərlə mübtədanın uzlaşması» bərabərhüquqlu əlaqə olardı – «Xəbərin mübtəda ilə uzlaşması» deyilər.

3.Bəzi bölgülər düzgün verilməmişdir:

a) Zərfliyin məna növləri: tərzi-hərəkət, zaman, yer, kəmiyyət, səbəb-məqsəd, keyfiyyət zərfliyi, müqayisə (bənzetmə) zərfliyi» - 13

Səbəb və məqsəd zərflikləri orta məktəbdə ayrılır, burada zərfliyin bir növü kimi verilir. Tərzi-hərəkət zərfliyinin məna növləri (keyfiyyət, müqayisə bildirənlər) müstəqil zərflik növü kimi verilir – bunlar 50-ci illərdə belə bölünərdi. Şərt, qarşılaşdırma, dərəcə zərflikləri nəzərə alınmır.

b) Təktərkibli cümlənin növləri: müəyyən şəxsli, qeyri-müəyyən şəxsli, ümumi şəxsli, adlıq cümlələr – 13. Mübahisəli «müəyyən şəxsli» cümlələr verilir, o böyüklükdə şəxssiz cümlələr unudulur.

c) Üslub qüsurları:

«Ümumxalq Azərbaycan dilinin ədəbi dili» - 7

«Orfoepiya – qrammatik bölmədir» - 8

Sifətdən danışarkən: «Başqa nitq hissələrinin sifətə keçməsi, xüsusilə isimləşməsi» - 9

«Təyinlərin ifadə formaları» - 13

«Mübtəda budaq cümlə, xəbər budaq cümlə» və s. 14

Bu qüsurları aradan qaldırmaqla proqramı çap etmək olar.

M.Ə.Rəsulzadə ad. BDU. Babayeva Gülbəniz Məcnun qızı.

«F.İ.Kərimzadənin yaradıcılıq yolu»
ND, 12.12.1997

Fərman Kərimzadə Azərbaycan ədəbiyyatı tarixində tarixi roman janrının gözəl nümunələrini yaratmış bir yazıçı kimi tanınır və sevilir. 60-çılar ədəbiyyatının görkəmli nümayəndəsi kimi, yaradıcılıqla məşğul olduğu müddətdə «Qarlı aşırım», «Xudafərin körpüsü», «Çaldıran döyüşü», «Təbriz namusu», «Qoca qartalın ölümü» kimi qiymətli romanlar yazmış, keçmiş tariximizin bir sıra səhifələrinə bədii yolla yeni həyat vermişdir. Bu romanlar, yazıçının povest və hekayələri tədqiqat üçün zəngin material verir. Bu cəhətdən G.M.Babayevanın yazıçının yaradıcılıq yolunu tədqiqat obyekti kimi seçməsi, ilk dəfə olaraq

görkəmli bir yazıçının ədəbi yaradıcılığını ədəbiyyatşünaslıq baxımından nəzərdən keçirməsi təqdirəlayiqdir. Mövzu aktualdır. Onu da qeyd edək ki, ümumi şəkildə götürdükdə, dissertasiya işi qismən qarşıya qoyulmuş tələblər səviyyəsindədir və yazıçının həyat yolunu, yaradıcılığını lazımi şəkildə ümumiləşdirə bilmişdir. Çap olunmuş materialları da, o qədər tutarlı olmasa da, müəyyən təsəvvür yaradır. Lakin bizi narazı salan bir sıra cəhətlər vardır ki, onları qeyd etməmək qeyri-mümkündür.

1.Əsərin elmi səviyyəsi çox aşağıdır. Müəllif «İstifadə edilmiş ədəbiyyatın siyahısı»na cəmi 130 ədəbiyyat qeyd etmişdir ki, bunlardan 74-ü Fərman Kərimzadənin öz yazılarıdır. Qalan yazıların bir qismi Füzuli, Xətai, Həbibi kimi şairlərin əsərləri, qəzet məqalələri və s.-dən ibarətdir. (Bizim bir yazımız – «Körpünün həsrəti», «Ulduz», 1983, № 9 – həm bizim öz adımıza verilib, siyahıda № 32, həm də tanımadığımız Q.Qasımzadənin adına, №19)

Başqa bir dildə müəllifin istifadə etdiyi bir əsər belə yoxdur.

Əsas fəsillərdə sitat verdiyi adamlar S.Rüstəmxanlı, B.Vahabzadə, Ə.Əliyev, A.Hüseynzadə, S.Vurğun, C.Zeynaloğlu və başqalarıdır ki, bunların heç biri ciddi ədəbiyyatşünaslıq axtarışları üçün tutarlı material vermir.

2.Dissertant bilavasitə Fərman Kərimzadə ilə bağlı yazılmış yazıları da diqqətlə nəzərdən keçirməmiş, bu yazılar barədə fikrini bildirməmiş, demək olar ki, bir-iki istisna nəzərə alınmazsa, heç kimlə polemikaya girməmişdir. Bu cəhət opponent qeydində də var, müəllif «oxuyub faydalanmışam» sözləri ilə canını qurtarmağa çalışmışdır.

Biz «Çaldıran döyüşü» romanına 13 səhifəlik son söz yazmışıq: «Əbih Sultan tarixən 1497-ci ildə bir döyüşdə öldürüldüyü halda, müəllif onu 1501-ci ilədək yaşadır. Bu hal bədii ədəbiyyatda ümumən mümkündür…» (səh.299) Dissertant bu fikri olduğu kimi verir: «Əbih Sultanın 1497-ci ildə döyüşdə öldürüldüyünə baxmayaraq, 1501-ci ilə kimi yaşamasının şahidi oluruq» (diss. s.89) Cümləni dəyişərkən qüsura yol versə də, fikir eynidir. Opponent (prof.Ə.Xəlilov) 4-cü İradında deyir: «Dissertant bu təzadlı rəqəmi deyir, lakin təsdiq, ya təkzib yoxdur». Dissertant isə cavab verir ki, Əbih Sultanın 1497-ci ildə bir döyüşdə öldürüldüyü barədə tarix kitablarının çoxunda məlumat var. Lakin bu, cavab deyil. Əgər dissertant elmi ədəbiyyatı oxumuş olsa idi, görərdi ki, akademik Ziya Bünyadov bir məqaləsində bizim romanın həmin nöqtəsi barədə dediyimizi olduğu kimi verib və tənqid edərək göstərib ki, tarixi təhrif etmək olmaz. Bəs dissertasiya bu cür mübahisələrə qarışmırsa, yalnız ordan-burdan faktları götürməklə məşğuldursa, nə dissertasiyadır? Nə üçün müəllif mübahisəyə girmir? Şübhəsiz, burada ədəbiyyatdan (elmi ədəbiyyatdan) xəbərsizliyin də rolu var.

3.«Xudafərin körpüsü» romanında Qurbani obrazı yoxdur. Biz 40 dəqiqəlik «Qurbani» verilişimizdə (televiziya ilə, bir neçə il əvvəl), «Kərbəlayı İsmayıl ağırlığı və ya Fərman Kərimzadəni xatırlarkən» («Yeni Azərbaycan», 24 mart 1994) və b. yazılarımızda da qeyd etmişik ki, Qurbani mövzusunu Fərmana biz vermişik, «Çaldıran döyüşü»nə onu mənim məsləhətimlə salıb

və bədii ədəbiyyatda ilk maraqlı Qurbani obrazı yaranıb. Dissertant nə üçün münasibət bildirmir? Bəs dissertasiyada nədən danışılır? Əbih Sultanla bağlı parnoqrafik səhnəni, Qurbani ilə bağlı bəzi dastançılıq meyillərini bizim yazılardan götürür, amma əsas məsələ lazım olmur.

Fərman haqqında ən çox mən yazmışam: «Ulduz» jurnalında, «Çaldıran döyüşü» romanında, «Ədəbiyyat və incəsənət» qəzetində, «Sovet Ermənistanı», «Yeni Azərbaycan» qəzetlərində müxtəlif mövzularda yazılar çap etdirmişəm, bunların heç birinə dissertasiyada münasibət yoxdur, lakin dissertasiyanın 69,70,72,73,74,75,78,81,88,89, 124,125, 142,144 və s. səhifələrində bu yazılardan (ən çox ikisindən) köçürmələr vardır və heç birində istinad yoxdur, yalnız cümlələrdə cüzi dəyişikliklər edilmişdir. Opponentlər və çıxış edənlər də müəllifin F.Kərimzadə haqqında yazılanlara münasibətin olmadığını qeyd etmişlər (Opponent V.Yusiflinin «Dəyirmi stol» söhbəti, prof.S.Əsədullayevin Fərmanın «Qarlı aşırım» romanı barədə yazısının heç yerdə qeyd edilməməsi və s.), halbuki işi müdafiəyə buraxan kafedranın çıxarışının sonunda – ikinci bənddə deyilir ki, «F.Kərimzadənin yaradıcılığının tədqiqi tarixindən sistemli şəkildə məlumat verilməsi yaxşı təsir bağışlayardı». (s.6) Müəllif bu məsləhəti nəzərə almamışdır.

4.Opponentlərin də qeyd etdiyi kimi, dissertasiya nəinki dünya ədəbiyyatşünaslığının nailiyyətləri əsasında işlənməyib, heç Fərmanın daxil olduğu 60-çılar ədəbiyyatının xüsusiyyətləri də nəzərə alınmayıb. Fərman çox vaxt fikri rəmzi obrazlarla ifadə edib. Bu cəhətə əsərdə bir dəfə də toxunulmayıb.

Beləliklə:

a) Əsərin elmi səviyyəsi aşağıdır, ədəbiyyatşünaslığın (xüsusən xarici mənbələrin) son nailiyyətlərindən istifadə edilməyib;

b) Fərman Kərimzadə haqqında yazılmış əsərlər kifayət qədər nəzərə alınmayıb və bu əsərlərə lazımi münasibət bildirilməyib;

c)Dissertasiyada başqa mənbələrdən köçürmələr (plagiatorluq) vardır.

Bu cəhətlər nəzərə alınaraq, dissertasiya üzərində müəllifin yenidən işləməsi məsləhətdir.

Füzuli Nəcməddin oğlu Mustafayev.
«Azərbaycan televiziyasının elm və təhsil verilişlərinin dili»
ND, 10.01.1998

Nəsimi adına Dilçilik İnstitutunda hazırlanmış 147 səhifəlik bu dissertasiya «İşin ümumi səciyyəsi», «Giriş», üç fəsil, «Nəticə», «Ədəbiyyat» və istifadə edilmiş mənbələrin siyahısından ibarətdir.

Dissertasiya elmi səviyyəsinə görə yaxşı təsir bağışlayır. Mövzu ilə bağlı ədəbiyyatdan səmərəli şəkildə istifadə edilmiş, Azərbaycan və rus dillərində mövcud olan nəzəri ədəbiyyat uzunmüddətli müəllif təcrübəsinin şərhində dissertanta faydalı istiqamət vermişdir.

Ümumən televiziya verilişlərinin və xüsusilə elm və təhsil verilişlərinin dil xüsusiyyətlərinin öyrənilməsi yeni sahə olduğundan mövzu maraq doğurur.

Televiziya verilişləri çox rəngarəng olduğu, verilişlər müxtəlif janrlarda aparıldığından zahirən belə görünə bilər ki, bu verilişlərin dilini necə ümumiləşdirmək olar? Elə müəllifin də ustalığı oradadır ki, bütün və hər cür televiziya verilişlərinin dilini deyil, elm və təhsil verilişlərinin dilini öyrənməyə çalışmış, bu sahədəki uğurlu cəhətləri, əsas istiqamətləri və başlıca nöqsanları göstərmək, aşkara çıxarmaq yolu ilə getmiş, dilimizin bu sahədə işlənmə keyfiyyətlərini üzə çıxarmaqla yanaşı, telejurnalistlər üçün dəyərli elmi-nəzəri göstərişlər hazırlaya bilmişdir.

«Giriş»də mövzunun aktuallığını bir daha qeyd edən müəllif onun spesifik keyfiyyətlərini, başqa informasiya vasitələrindən fərqli olaraq, televiziya verilişlərinin daha kütləvi olduğunu, həm görmə, həm də eşitmə duyğularına təsir etdiyini şərh etməyə çalışmışdır. Bu keyfiyyətlər televiziya dilinin spesifikasına bilavasitə təsir edən amillərdir.

Dissertasiyanın birinci fəsli «Elm və təhsil verilişlərinin dili ədəbi dil kontekstində», ikinci fəsli «Elm və təhsil verilişlərinin dilinin üslubi mövqeyi», son fəsli «Elm və təhsil verilişlərinin dili və nitq mədəniyyəti məsələləri» adlanır.

65 səhifəlik birinci fəsil dissertasiyanın ən mühüm hissəsini təşkil edir. Müəllif araşdırmalar nəticəsində bu qənaətə gəlir ki, elm və təhsil verilişlərinin dili şifahi ədəbi dildir. Bu məqamda müəllif danışıq dili ilə şifahi ədəbi dili fərqləndirmə meyarından konkret misallarla söhbət açaraq telejurnalistləri nəzəri cəhətdən istiqamətləndirmək üçün mühüm araşdırmalar aparmışdır. Ona görə də müəllif bu fəsildə şifahi ədəbi dilin fonetik, orfoepik, leksik, frazeoloji və qrammatik normalarına diqqəti cəlb etmiş, elm və təhsil verilişləri dilinin təmizliyi, saflığı məsələlərini, bu dildə şivəçilik elementlərinin, qüsurlu tələffüzün, yersiz alınmaların zərərli təsirini ətraflı izah etmişdir.

Elm və təhsil verilişləri çox rəngarəng üslub nümunələri nümayiş etdirir. Bu verilişlərdə biz bədii üslub, publisist üslub, elmi üslub nümunələrinə tez-tez rast gəlirik. Odur ki müəllif televiziya nitqinin əsasını təşkil edən ədəbi danışıq üslubu ilə elmi, publisist və bədii üslubun əlaqəli cəhətlərinə, qovuşma və birləşmə hallarına xüsusi diqqət yetirməli olmuşdur.

F.Mustafayev elm, təhsil verilişləri dilinin nitq mədəniyyəti problemi ilə bilavasitə əlaqəli olduğunu ayrıca bir fəsildə şərh etmişdir. Burada nitqin fərdi və psixoloji keyfiyyətləri ön plana çəkilmiş, danışıq şəraiti, danışanın kimliyi, hansı mövzuda söhbət etdiyi və s. də

daxil olmaqla nitqin mədəni səviyyəsinə çox müxtəlif amillərin təsiri ətraflı izah edilmişdir. Nədən danışmaq, necə danışmaq məsələləri bu verilişlər üçün əsas olduğundan nitq mədəniyyəti məsələləri daim verilişlərin fərdi səciyyəsi ilə bağlı olmuşdur.

Dissertasiya ilə tanışlıq göstərir ki, müəllifin uzun müddətdən bəri televiziyada işləməsi, zəngin təcrübə və faktlar toplaması əsərin yazılmasında faydalı olmuşdur.

Əsərin hazırlanmasında 1985-1995-ci illər arasında fonda toplanmış verilişlərlə bağlı 60-dan artıq mənbə-materialdan istifadə edilmişdir. Buna baxmayaraq, əsər daha çox nəzəri xarakter daşıyır, telejurnalistlərə kömək baxımından faydalı bir əsər kimi nəzəri cəlb edir. Əsərin bütövlükdə çapı dilimizin bu sahə ilə bağlı inkişaf və irəliləyişini əks etdirməklə yanaşı, xüsusi sahə adamları – radio və televiziya işçiləri, elm və təhsil proqramları iştirakçıları üçün faydalı ola bilər.

Əsərin ümumi elmi-nəzəri səviyyəsini nəzərə alaraq, onun filologiya elmləri namizədi dərəcəsi almaq üçün lazımi tələblərə cavab verdiyini qeyd edirik.

Rüstəmov Rüfət Əşrəf oğlu. «Müasir türk dilində köməkçi nitq hissələri (keçid prosesləri)»
DD, 13.01.1998

4, 25 çap vərəqi (63 səhifə) həcmində məruzə şəklində təqdim olunmuş bu iş müasir türk dilindəki bütün köməkçi nitq hissələrini əhatə edir.

Türkologiyada köməkçi nitq hissələri barədə xeyli araşdırmalar, tədqiqat işləri var. Lakin buna baxmayaraq, hələ də köməkçi nitq hissələri ilə bağlı bir çox məsələlər mübahisəli olaraq qalır. Ümumən nitq hissələrinin, o cümlədən köməkçi nitq hissələrinin tədqiqində nəzəri cəlb edən mühüm bir çatışmazlıq ondan ibarətdir ki, əksərən müasir dil baxımından nitq hissələrinə sabit söz qrupları kimi baxılır, nitq hissələrində inkişaf, bir nitq hissəsindən başqasına keçid nəzərə alınmır. Buna görə də tədris prosesində ciddi dolaşıqlıq və mübahisələr meydana çıxır. Rüfət Rüstəmovun elmi işinin çox mühüm keyfiyyəti ondan ibarətdir ki, o, köməkçi nitq hissələrinin tədqiqi ilə (ənənəvi şəkildə) məşğul olmamış (bu barədə artıq kifayət qədər elmi araşdırmalar var), köməkçi nitq hissələrində keçid prosesinin – əsas nitq hissələrindən köməkçi və köməkçi nitq hissələrindən bir-birinə keçidi öyrənməklə məşğul olmuş, bunun üçün türk dili – Türkiyə türkcəsinin dili tədqiqat obyekti kimi seçilmişdir.

R.Rüstəmovun öz kitabları əsasında hazırladığı elmi məruzə üç fəsildən ibarətdir. Məruzədə köməkçi nitq hissələri funksional-semantik və qrammatik quruluş baxımından, tarixi-müqayisəli və sinxron planda nəzərdən keçirilmişdir.

Birinci fəsildə ümumən keçid prosesinin mahiyyəti izah edilmiş, qoşmalarda, bağlayıcı və ədatlarda bu prosesin necə baş verdiyi, əsas nitq hissələrinin tədricən semantik transformasiya nəticəsində köməkçi söz şəklinə düşməsi, - qoşmalaşma, bağlayıcılaşma, ədatlaşma istiqamətində inkişafı və son mərhələdə tədricən şəkilçiləşməsi, dilin qrammatik quruluşuna xidməti baxımından ətraflı izah edilmişdir. Onu da qeyd etməliyik ki, ədatlaşma prosesinə nisbətən, qoşmalaşma, bağlayıcılaşma daha ətraflı tədqiq olunmuşdur.

İkinci fəsil modallıq kateqoriyasının tədqiqinə həsr olunmuş, müəllif əvvəlcə fəlsəfi və qrammatik modallığın şərhinə çalışmışdır. Əsərdən bir daha aydın olur ki, modallıq kateqoriyasının dildə əhəmiyyəti böyükdür və əsas nitq hissələrinin modal sözlərə doğru transformasiyası dildə geniş şəkildə özünü göstərir.

Məruzənin son fəsli xüsusi nitq hissəsinin – nidaların türk dilində roluna həsr olunmuşdur. Müəllif tədqiqat prosesində nidaların vokativ sözlərlə, yamsılamalarla – təqlidi sözlərlə fərqli cəhətlərinin izahına xüsusi diqqət yetirmişdir, bunların hər birinin köməkçi nitq hissələri sistemində mövqeyini, əsas nitq hissələrinə yaxın cəhətlərini, məna və quruluş xüsusiyyətlərini türk ədəbi dilindən gətirdiyi nümunələr əsasında izah etmişdir.

Məruzədən aldığımız təəssürat əsasında deyə bilərik ki, mövzu maraqlı olduğu kimi, elmi iş də əhatəlidir. Müəllif mövzunun elmi şərhində düzgün istiqamət götürmüşdür. Heç bir ritorikaya qapılmadan sadə, aydın və məntiqi dil ilə mövzunu ardıcıl şəkildə, təmkinlə tədqiq etmiş, zəngin polemikalarla öz fikrinin doğruluğunu əsaslandırmağa çalışmış və öz fikirlərinin isbatına nail olmuşdur. Bir mühüm cəhət də bundan ibarətdir ki, müəllif mövzu ilə bağlı əsas ədəbiyyatı diqqətlə öyrənmiş, bəzi istisnalar nəzərə alınmazsa, türkologiya aləmində mövcud olan bütün körkəmli alimlərin fikirlərinə öz münasibətini bildirmiş, bütün əsas elmi (əlaqədar) ədəbiyyatı araşdırmalar meydanına çəkə bilmişdir.

Maraqlı bir cəhət də bundan ibarətdir ki, müasir türk dilçiliyi keçid proseslərinin və ümumən köməkçi nitq hissələrinin tədqiqi sahəsində bizim vətən dilçiliyindən çox geri qalır. Hələ də türk dilçiliyində bir çox qrammatik kateqoriyalar nisbi şəkildə olsa belə, tədqiq olunmamışdır. Müəllif bütün əsər boyu məsələlərin şərhi prosesində türk dilçilik ədəbiyyatını nəzərdən keçirməklə ustalıqla bu cəhəti nümayiş etdirmişdir.

Mövzu aktual olduğu kimi, onun elmi şərhi qənaətbəxş, nəticələri faydalıdır. R.Rüstəmov mövzu ilə bağlı dərslik müəllifidir və ümumən 47 çap vərəqi həcmində dörd kitabın müəllifidir. Bundan əlavə, 15-ə qədər məqaləsi də var ki, bunlardan bəziləri xaricdə çap olunmuşdur.

Bütün bunlar əsas verir deyək ki, Rüstəmov Rüfət Əşrəf oğlunun «Müasir türk dilində köməkçi nitq hissələri (keçid prosesləri)» mövzusunda elmi məruzəsi doktorluq dissertasiyasının tələblərinə müvafiqdir.

N.Tusi ad. ADPU. Fərzəliyeva Mətanət Çərkəz qızı.
«Azərbaycan dilində fel əsaslarından ad düzəldən qeyri-məhsuldar -q,-k şəkilçisi, onun praforma və derivatları»
ND.15.10.1998

Giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu dissertasiya aktual və maraqlı bir mövzunun tədqiqinə həsr olunmuşdur. Türk dilləri genetik və tipoloji cəhətdən fərqlənən dillər arasında ən qədim izləri qoruyub saxlamaq baxımından nəzəri xüsusi cəlb edir. Bu cəhətdən feldən addüzəldən qeyri-məhsuldar şəkilçilərin müqayisəli-tarixi aspektdə tədqiqi maraqlı elmi nəticələrə gəlmək imkanı verir. Fel əsaslarından ad düzəldən -q, -k şəkilçisi, onun praforma və derivatlarının bir sistem şəklində, tarixi aspektdə tədqiqi dilin inkişaf yolu barədə göz önündə geniş mənzərə yaradır. XIX əsrin əvvəllərindən başlayaraq, müxtəlif dilçilər tərəfindən həmin şəkilçilərlə bağlı müəyyən araşdırmalar aparılmış olsa da, onların bir sistem şəklində tarixi aspektdə monoqrafik tədqiqinə yalnız bu əsərdə rast gəlirik.

I fəsil «Fel əsaslarından ad düzəldən ***-q, -k*** seriyalı qeyri-məhsuldar şəkilçilər, onların praforma və derivatlarının tədqiqi tarixi» adlandırılmışdır. Fəslin adından göründüyü kimi, müəllif ilk növbədə sələflərinin bu sahədə gördüyü işləri ümumiləşdirməyə çalışmış, ona görə də türkoloji ədəbiyyatı diqqətlə nəzərdən keçirərək, türkoloqların ***–q,-k*** seriyalı şəkilçilər barədə fikirlərini xronoloji istiqamətdə, aydın və məntiqi mülahizələrlə saf-çürük etmiş, ilkin formanın ***–qaq*** olduğu qənaətini möhkəmləndirmiş, onun - həmin praformanın dilimizdə mövcud olan 12 sabit formasını ardıcıl şəkildə izləmişdir. – ***-q, -k*** seriyalı şəkilçilər Orxon-Yenisey abidələrindən bəri bütün türkdilli abidələrdə özünü göstərməkdədir. Şübhəsiz, bu şəkilçilərin tarixi daha qədimdir. Dissertant həmin şəkilçilərin tədricən necə şaxələndiyinə, türk dillərində yüzlərlə formanın necə təşəkkül tapdığına oxucunu inandıra bilən faktlar vermişdir. Bütün türk dilləri üçün ortaqlı olan bu

şəkilçilərin türk dil elementi kimi orijinallığı qeyd edilmiş, monqol mənşəli deyil, xalis türk dillərinə məxsus olduğu sübut edilmişdir. Tədqiqat prosesində bir sıra lüğətlərin verdiyi materialları əsas götürən müəllif yalnız müstəqil söz köklərində deyil, «ölü» köklərdə də həmin şəkilçilərin rolunu araşdırmış, tarixən söz köklərində birikən formalarını da üzə çıxarmışdır. Praforma və derivatların funksional-genetik xüsusiyyətləri, tarixi inkişaf prosesində fəallıq və qeyri-fəallığı da bu fəsildə öyrənilmişdir.

Dissertasiyanın II fəsli «Fel əsaslarından ad düzəldən ***–q,-k*** seriyalı şəkilçilər, onların derivasiya moddeləri» adlanır. Bu fəsildə derivasiya modelinin hər biri ayrılıqda nəzərdən keçirilmiş, ölü və müstəqil köklərdə özünü göstərən bütün formalar aşkar edilmişdir. Müəllif asemantik formalar üzərində xüsusi dayanmışdır.

Qeyri-məhsuldar ***-q,-k*** seriyalı şəkilçilərin əmələ gətirdiyi analoji cütlüklər, şəkilçilərin fonetik tərkibi - səs strukturu, səs əvəzlənmələri, ***-q, -k*** seriyalı omomorfemlər, və nəhayət, dilimizin leksik-semantik zənginləşməsində bu şəkilçilərin rolu dissertasiyada ətraflı öyrənilmişdir.

Dissertasiyanın «Əlavə» adlanan hissəsi də maraqlı olub, **-q, -k** seriyalı şəkilçilərlə düzələn (ölü və müstəqil köklərdən) sözlərin lüğətini əhatə edir. Sonrakı hissədə dissertant bu sözləri bir sıra qohum türk dillərindəki variantları ilə müqayisəli şəkildə də qruplaşdırmışdır.

Dissertasiya mühüm nəzəri və praktik əhəmiyyətə malikdir. Dilimizin tarixini, türk dillərinin inkişaf yolunu öyrənmək üçün geniş material verir. Müəllif müxtəlif mənbələrdən zəngin material toplamış, əsas türkoloji ədəbiyyatı diqqətlə nəzərdən keçirməklə həmin faktları müvəffəqiyyətlə araşdıra bilmiş, faydalı elmi nəticələrə gəlmişdir.

Bütün bu cəhətləri nəzərə alaraq qeyd edirik ki, Fərzəliyeva Mətanət Çərkəz qızının «Azərbaycan dilində fel əsaslarından ad düzəldən qeyri-məhsuldar ***–q, -k*** şəkilçisi, onun praforma və derivatları» adlı əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

N.Tusi ad. ADPU. Novruzova Nuridə Səməd qızı. «Sintaktik bütövlərin struktur-semantik xüsusiyyətləri (müasir Azərbaycan dili materialları əsasında)» ND,06.05.1999

Mətn dilçiliyi dilçiliyin yeni və çətin sahələrindəndir. Azərbaycan dilçiliyində bu sahə daha az öyrənilmişdir. Ə.Xəlilov, K.Abdul-

layev, K.Vəliyev və başqalarının bir sıra tədqiq və araşdırmaları müstəsna olmaqla, bu sahədə çox az iş görülmüşdür. Mətnin səciyyəsi barədə nisbətən geniş məlumata K.Abdullayevin bu yaxınlarda çap olunmuş «Azərbaycan dili sintaksisinin nəzəri problemləri» və Ə.Ə.Abdullayevin «Aktual üzvlənmə və mətn» əsərlərində rast gəlirik. Halbuki potensial sintaksisdən fərqli olaraq, aktual sintaksisin ətraflı öyrənilməsi daha böyük nəzəri və praktik əhəmiyyətə malikdir. Ona görə də N.Novruzovanın tədqiqat üçün belə bir sahəni seçməsi dilçiliyimizdə mətn sintaksisi problemlərinin tədqiqi işinin genişləndirilməsi baxımından xüsusi aktuallıq kəsb edir. Bu başdan onu da qeyd edə bilərik ki, mövzunun aktuallığı ilə yanaşı, müəllifin tədqiq və araşdırmalarının nəticələri də uğurlu olub, bu sahədə filoloji biliklərin dərinləşməsinə imkan yaradır.

Giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu əsər müasir dil aspektində müxtəlif bədii və elmi mənbələrdən seçilmiş zəngin dil faktları, mətn nümunələri əsasında yazılmışdır. Mövzunun aktuallığı, işin yenilikləri, metod, mənbə və aprobasiya məsələlərini yığcam şəkildə qeyd edən müəllif birinci fəsli SB-nin (sintaktik bütövlərin) struktur-quruluş məsələlərinə həsr etmişdir. Dissertant ilk növbədə SB-nin sərhədlərini müəyyənləşdirməyə çalışmış, onun başqa dil vahidlərindən fərqini, makromətndə mövqeyini aydındaşdırmışdır, bir bütöv kimi, onun semantik, leksik və qrammatik xüsusiyyətlərini izah etmişdir. Bu fəslin mühüm keyfiyyətlərindən biri də budur ki, müəllif tədqiq obyektini – sintaktik bütövləri abzas, period, diskurs, prozaik bənd, frazafövqi vahid və sair ilə müqayisə etmiş, onların ortaqlı və fərqli xüsusiyyətlərini konkret nümunələr əsasında şərh edə bilmişdir. Müəllifin burada SB-ni təşkil edən cümlələr arasında zəncirvarı və paralel əlaqələr haqqında verdiyi məlumat da mətnin quruluşunun aydın təsəvvür edilməsi baxımından faydalıdır.

İlk dəfə olaraq bu dissertasiyada mətnin kateqoriyaları – koqeziya, prospeksiya, retrospeksiya, inteqrasiya, predikasiya, aktual üzvlənmə haqqında sistemli məlumata rast gəlmək olur.

Dissertasiyanın ikinci fəslində sintaktik bütövlərin tərkib hissələrini - komponentlərini əlaqələndirən leksik, qrammatik və sintaktik vasitələrdən bəhs edilir. Burada verilən şərhlər, fakt və nümunələr leksik təkrarların, əvəzliklərin, qoşmaların, bağlayıcıların, ədatların, sintaktik və prosodik vasitələrin mətnin qurulmasında rolunu üzə çıxarır. Anaforik və kataforik münasibətlər mətnin təşkilində öz həlledici rolunu xüsusi nümayiş etdirir. Söz sırası və onun aktual üzvlənmədə rolu, sinonimlik-paralellik kimi məsələlərin tədqiqi sintaktik bütövlərin qurulma texnikası və onun rəngarəngliyi barədə təəssüratı zənginləşdirir.

Üçüncü fəsil sintaktik bütövlərin semantikasına həsr edilmişdir. Mətnin semantikası müəyyən məzmunu çatdırmaq üçün mövzu obyektlərinin izahı ilə bağlı cümlələr birliyindən hasil olur. SB-nin sərhədlərinin müəyyənləşdirilməsində temanın rolu böyükdür və müəllif bu cəhəti xüsusi nəzərə almışdır. Tematik proqressiya, tema və rema əvəzlənməsi mətnin semantik quruluşunun öyrənilməsində əvəzsiz vasitədir və yalnız bunları öyrənməklə mətnin qeyri-müəyyənlikdən müəyyənliyə doğru necə inkişaf etdiyini təsəvvür etmək mümkündür. Müəllif onu da nəzərə almışdır ki, sintaktik bütövləri təşkil edən cümlələrin hamısı eyni dərəcədə semantik yüklü olmur, buna görə də mətnin komponentlərini təşkil edən cümlələr müstəqil (sərbəst) və qeyri-müstəqil (asılı) cümlələrə ayrılır. Müəllif mətnin növlərinə də nəzər salmış, onları nəqli, təsviri, psixoloji və mühakimə xarakterli mətnlərə ayırmışdır.

Dissertasiya mətn sintaksisinin öyrənilməsi baxımından mühüm nəzəri və praktik əhəmiyyətə malikdir. Əsərin elmi strukturu zəngindir. Müəllif mətn dilçiliyinin əksər görkəmli nümayəndələrinin yaradıcılığına bələddir və onlardan tənqidi şəkildə istifadə edə bilmişdir. Uzun müddətdən bəri bu sahədə elmi araşdırmalar aparması və sintaksis problemlərinə dair ali məktəb auditoriyalarında apardığı məşğələlər onun bir dilçi alim kimi yetişmiş olduğunu göstərir. Çap olunmuş məqalələri və avtoreferat dissertasiyanın məzmununu əsasən əhatə edir.

Bütün bu cəhətləri nəzərə alaraq qeyd edə bilərik ki, Novruzova Nuridə Səməd qızının «Sintaktik bütövlərin struktur-semantik xüsusiyyətləri (müasir Azərbaycan dili materialları əsasında)» adlı namizədlik dissertasiyası hazırdır və əsər müdafiəyə buraxıla bilər.

Təranə Hacıyeva. «Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi»
ND. Opp. r. 03.04.2001

Mahiyyət etibarilə bütün dövrlərdə canlı nitqin təbii ifadəsi el sənətkarlarına məxsusdur. Lakin bir ənənə şəklində biz ədəbi dilin müəyyən mərhələdəki mənzərəsini öyrənmək üçün el sənətkarlarından çox, klassik poeziya ustalarına etibar edirik və heç şübhəsiz, bu hal el sənətkarlarının, aşıqların ədəbi irsinin əlyazmalar əsasında deyil, əksərən hafizələrdən, yaddaşlardan toplanması, onlarda nəzərdə tutulan deformasiyadır. El sənətkarlarının əsərləri fonetik, leksik və morfoloji cəhətdən daha çox aşınmalara məruz qala bilir, lakin onun sintaktik quruluşu əsasən sabit qalmalıdır. Əgər sintaksis də dəyişirsə, cümlə tipi variantlaşır

və tam fərqli variantlar əmələ gəlirsə, bu, artıq orijinal şeir deyildir. Lakin burada da çıxış yolu vardır: şairin fərdi üslubuna əsasən variantlar arasında ilkin və əsas variantı müəyyənləşdirmək mümkündür. Bütün hallarda dilin ədəbiləşmə və milliləşmə imkanlarının üzə çıxarılması ilk növbədə şifahi ədəbiyyat nümunələri ilə bağlıdır.

Bu sözləri deməkdə məqsədimiz odur ki, Təranə xanım Hacıyeva XVI-XVIII əsrlərin Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım kimi sənətkarlarının poeziya dilinin üslubi-poetik sintaksisini mövzu kimi seçməklə ədəbi dilin ilkin milliləşmə yoluna daha faydalı istiqamətdə nəzər sala bilmək imkanı qazanmış, bu uğurlu və aktual mövzunun tədqiqini uğurla başa çatdırmışdır.

168 səhifəlik bu dissertasiya işin ümumi xarakteristikası, giriş, üç fəsil, nəticə və ədəbiyyatın siyahısından ibarətdir.

Qeyd etməliyik ki, müəllif "İşin ümumi xarakteristikası"nda mövzunun aktuallığı, dissertasiyanın yenilikləri, aprobasiya məsələləri, müəllifin qarşısında duran məqsəd və vəzifələr barədə bir qədər yığcam məlumat versə də, 22 səhifəlik girişdə tədqiqatçıların – folklorşünas, ədəbiyyatşünas və dilçilərin tədqiq olunan dövr, dövrün ədəbi dili, Qurbani, Xəstə Qasım, Tufarqanlı Abbas kimi sənətkarların ədəbi-ictimai mövqeyi və s. haqqında fikir və mülahizələrini, aşıq ədəbiyyatının poetik sintaksisi barədə araşdırmaların vəziyyətini şərh etmiş və mövzunun aktuallığını daha ətraflı əsaslandırmaqla tədqiqatın nəzərdə tutulmuş plana müvafiq şəkildə davam etdirilməsi üçün əsaslı zəmin yaratmışdır.

Aşıqların və ümumən el sənətkarlarının əsərlərinin poetik xüsusiyyətlərinin tədqiqi sahəsində çox az iş görülmüşdür. Əslində, bu istiqamətdə tədqiqat daha əhəmiyyətlidir. Çünki fakt və hadisələri sadəcə olaraq sadalamaq, təsviri şəkildə öyrənmək meylindən fərqli olaraq, poetik xüsusiyyətlərin və o cümlədən sintaktik-poetik-üslubi xüsusiyyətlərin tədqiqi dilin məcazilik imkanlarını, üslubi və poetik fiqurların xalq dilinin dərinliklərinə necə işlədiyini və bu yolla dilin özünün necə zənginləşdiyini, ədəbi dilin həqiqi mənzərəsini üzə çıxarmaq baxımından çox faydalıdır. Dediyim kimi, bu sahədə az iş görülüb. Məsələn, mən Qurbani poetikasının monoqrafik tədqiqi ilə məşğul olsam da, bu dissertasiyada əhatə edilmiş bəzi məsələləri əhatə etməmişəm və bu dissertasiya göstərir ki, ayrı-ayrı görkəmli el sənətkarlarının əsərləri üzərində müxtəlif istiqamətdə çox maraqlı elmi axtarışlar aparmaq mümkün və faydalıdır.

Fəsillər elə qurulmuşdur ki, sintaksisin bütün əsas məsələləri - söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlələr (və yeri gəldikcə sintaktik bütövlər) sistemli şəkildə poetik sintaksisə xidməti baxımından diqqət mərkəzində olmuş və üstəlik bütün sintaksisdən keçən ritm, intonasiya məsələlərinə, bir sıra poetexniki xüsusiyyətlərin araşdırılmasına da əsərdə yer verilmişdir.

1-ci fəsildə ("Klassik aşıq poeziyası poetik sintaksisinin əsas vahidləri") dissertant poetik sintaksisin əsas vahidlərindən bədii təyinləri, sintaktik paralelizm və xitabları nəzərdən keçirmişdir. Təbii ki, müəllif ilk növbədə adi təyinlərlə bədii təyinlərin fərqini müəyyənləşdirməli olmuş, sonra hər üç sənətkarın dil faktları əsasında bədii təyinlərin poetik imkanlarını və onların ədəbi dilə xidmətini araşdırmışdır. Müəllif adi təyinlə trop növü olan epitetləri fərqləndirmə prosesində görkəmli dilçi alimlərin (xarici və ölkə dilçilərinin) fikirlərini və aşıq qoşmalarının verdiyi faktları nəzərdən keçirərək bu qənaətə gəlmişdir ki, hər bir dövrün ədəbi və poetik dilə xidməti olan səciyyəvi sevimli epitetləri olur. Müəllif bir sıra dəqiq hesablamalar aparmış və öyrənmişdir ki, aşıq şerindəki xəlqilik, demokratiklik kimi mühüm xüsusiyyətlər onların (aşıqların) ədəbi dilə bizim təsəvvür etdiyimizdən daha artıq xidmət etdiyini göstərir. Dissertant klassik ədəbiyyatdan, folklordan gələn və bir növ daimi xarakter daşıyan epitetlərlə yanaşı, aşıqların fərdi yaradıcılıq nümunələrinə də diqqətli olmuşdur. Epitetlərin emosional-estetik imkanlarına xüsusi diqqət yetirən müəllif onları nitq hissələri üzrə qruplaşdırarkən isim, sifət, feli sifət və qoşa sözlərlə ifadə olunanların kəmiyyətcə üstünlüyə malik olduğunu müşahidə etmişdir. Bəzən poetik vahidlər kimi diqqətdən kənar qalan xitabların tədqiqi əsasında müəllif aşıqlarımızın xitablardan yalnız müraciət deyil, eyni zamanda güclü münasibət vasitəsi kimi də geniş istifadə edildiyini konkret misallarla izah etmişdir. İnsana müraciətlə işlədilən xitablarda da emosionallıq olur, lakin başqa canlı və cansız varlıqlara müraciət onların şəxsləndirilməsinə, gerçəkliyin daha çox poetikləşdirilməsinə səbəb olur. Adətən, qoşma və gəraylılar kimə və ya nəyəsə müraciətlə başlayıb, şairin özünün özünə müraciəti ilə başa çatır. Dissertant bədii xitabların quruluşuna, ifadə vasitələrinə diqqət yetirməklə yanaşı, xitablı cümlələri çox dəqiqliklə sxemləşdirməyə çalışmışdır.

Paralelizm yalnız poeziya nümunələrinin deyil, ümumən mətnin qurulmasında böyük rola malikdir.Paralelizm həm poetiklik vasitəsi, həm də qrammatik vasitə kimi dildə çox qədimdən fəaliyyət göstərir. Bu cəhəti nəzərə alan müəllif aşıq poeziyasında sintaktik paralelizmin imkanlarını ətraflı nəzərdən keçirmiş, tam və yarımçıq paralelizm nümunələri əsasında folklorun kiçik janrlarında - tapmacalar, atalar sözləri, məsəllər və s.-də olduğu kimi, qoşma və gəraylılarda, aşıq deyişmələrində, təcnislərdə də paralelizmin poetik-struktur imkanlarını aydınlaşdırmışdır. Bu fəsildə paralel komponentlərin ortaqlı söz və birləşmələrlə daha sıx əlaqələndirilməsi barədə fikirlər və faktlar da maraqlıdır.

Dissertasiyanın 2-ci fəsli - "Klassik aşıq poeziyasının ritm, intonasiya, poetexniki xüsusiyyətləri"- birinci fəsillə mütənasib olub, 40 səhifə həcmindədir. Bu fəsildə müəllif ilk növbədə ritmin bədii dildə roluna diqqət yetirmişdir. Ritm anlayışı altında ahəngdar, düzgün, növbə-

ləşmə, eyni və yaxın, bəzən zidd mənalı dil vahidlərinin eyni ölçülü ahəngdarlığı nəzərdə tutulur. Və müəllif çox düzgün mövqe tutaraq, ritmin yalnız poeziya üçün deyil, həqiqi bədii nəsr dili üçün də vacib və xarakterik olduğunu qeyd etmişdir. Ritmin əsas təzahür forması – melodiklik və ahəngdarlıq aşıq qoşmalarının əsas poetexnik vasitələrindəndir və bu cəhət, təbi ki, vəznlə də möhkəm bağlıdır. Ritmin tələbləri baxımından heca vəzni, bu vəznin ölçü və bölgü sistemi daha münasibdir. Vəzn, bölgü, ölçü, təqti və s. şerin ritmikliyi ilə yanaşı, mənanın düzgün qavranılmasına da imkan yaradır. Bu sahədə söz sırası həlledici amil sayılır. Seçmə-seleksiya üsulu əhəmiyyətli mövqeyi ilə seçilir. Ritm yaradan vasitələr sırasında söz sırası ilə yanaşı, alliterasiya və qafiyələr də böyük gücə malikdir. Təbii ki, bu sahədə cinas qafiyələr xüsusi seçilir. Müəllif ritm yaradan digər vasitələr - təkrirlər və onun nadir növlərindən olan rəddül-əcüz üzərində ayrıca dayanmış, alliterasiya anlayışını daha geniş planda nəzərdən keçirmişdir. Misralararası (xarici) və misradaxili alliterasiyanın aşıq şerinin formalaşmasında roluna əhəmiyyətli yer verən müəllif konkret hesablamalar aparmış, bir sıra cədvəllər vermişdir. Bu cədvəllər səs təkrarında hansı sait və samitlərin fəal və ya qeyri-fəal olduğunu daha aydın nümayiş etdirir.

Aşıq şerində intonasiyanın roluna xüsusi əhəmiyyət verən müəllif intonasiyanın köməyi ilə sevinc-şadlıq, qorxu-xof, zəriflik-incəlik, təəccüb-heyrət, etinasızlıq-laqeydlik, qəzəb-kin-nifrət, hörmət-sayqı-incəlik, giley-güzar, nəsihət, öyünmə, özünütərif və s. kimi müxtəlif hiss-halların ifadəsini dəqiq nümunələrlə şərh etmişdir.

Dissertasiyanın 3-cü fəsli "Klassik aşıq poeziyasının normativ sintaksisi. Sadə və mürəkkəb cümlələrin üslubi özəllikləri" adlanır. Dissertant ilk cümlələrindən problemi düzgün qoyur: ədəbi növ, janr, forma məsələləri ilə öz hüdudunu genişləndirən poetik sintaksislə qrammatika çərçivəsi hüdudlarında cümlənin üslubi keyfiyyətlərini öyrənməli olan üslubi sintaksisi düzgün fərqləndirir. Bu cəhət tədqiqat prosesində müəllifin yeri gəldikcə ədəbi növ, janr, forma, quruluş məsələlərini də nəzərə almasına imkan yaradır. XVI əsr elə bir dövrdür ki, bu dövrdə klassik üslubla xalq danışıq dilinə daha çox əsaslanan folklor üslubu bir növ üzüzə durur. "Əgər klassik üslub sintaksisi qəzəl janrının poetexniki xüsusiyyətlərindən asılı olaraq alınma konstruksiyalarla, izafət tərkibləri ilə zəngin idisə, XVI-XVIII əsrlərdə folklor üslubunun sintaksisi milliliyə, xalq danışıq dilinə əsaslanmışdı".(s.111) Bu cür fikirlər tədqiqatın istiqamətini düzgün müəyyənləşdirmiş, araşdırmalar dissertantı bu nəticəyə gətirmişdir ki, əvvəlki dövrlərdən fərqli olaraq, milli ismi birləşmələrin izafət tərkiblərini üstələməsi, sadə və mürəkkəb cümlələrin bir sıra milli tip və formalarının fəallaşması, sual cümlələrindən geniş istifadə, arxaik köməkçi nitq hissələrindən tədricən imtina folklor üslubu sintaksisinin

ədəbi dil sintaksisinin normalaşmasında mühüm rol oynadığını göstərir. Belə bir cəhəti düzgün qiymətləndirən müəllf sadə cümlənin (cüttərkibli və təktərkibli, müxtəsər və geniş, bütöv və yarımçıq cümlələrin, elliptik cümlə növlərinin), məqsəd və intonasiyaya görə fərqlənən cümlələrin, mürəkkəb cümlənin, qarışıq tipli - mürəkkəb quruluşlu mürəkkəb cümlələrin poetik-üslubi xüsusiyyətlərini zəngin fakt və nümunələr əsasında ətraflı tədqiq etmişdir. Şeir dilində mürəkkəb cümlə sintaksisinin tədqiqi çətin və mürəkkəb məsələdir. Lakin müəllif bir sıra dəqiq sxemlərlə bu işin öhdəsindən bacarıqla gəlmişdir.

Dissertasiyada çap zamanı düzəldilməsi mümkün olan, ciddi struktur dəyişikliyə səbəb olmayan bir sıra qüsurlar da vardır.

1.Müəllifin bəzi ifadələri üslubi cəhətdən doğru olmadığı üçün elmi nöqsanlara aparır: "Qurbani şerində fonetik, leksik normalarda olduğu kimi, müxtəlif qrammatik kateqoriyaların ifadəsində də XVI əsr ədəbi dili ilə oxşar xüsusiyyətlərə rast gəlinir".(s.20) Belə çıxır ki, Qurbani başqa bir əsrin oğludur, lakin onun dilində XVI əsr ədəbi dili ilə oxşarlıqlar var. Sonrakı qeydlərdən aydın olur ki, müəlif bu məsələni Qurbaninin XVIII əsrdə yazıya alınması ilə bağlamağa çalışmışdır. Lakin fikir yenə ziddiyyətlidir: "...Qurbani şerinin dili əslində XVIII əsrdə yazıya köçürüldüyündən XVI əsr yazılı ədəbi dilindən bir sıra xüsusiyyətlərinə görə fərqlənir". Bunun ardınca müəllif yenə deyir: "Və Qurbani şeir dilini XVI əsr ədəbi dilindən fərqləndirən əsas xüsusiyyət onun şifahi ədəbi dillə bağlı olmasıdır". Bu da aydındır, lakin elə bunun ardınca: "Belə ki Qurbaninin dilinin folklor dili olması faktı XVI əsr şeir dilindəki ənənəni dəyişir, dövrün ədəbi dilinə yeni çalar verirdi." Bu sözləri necə başa düşmək olar? Müəllif nə demək istəyir? Bu "yeni çalar" sonralar yaranan və bizi "çaşdırmağa" çalışan çalardır, yoxsa, doğrudan da, XVI əsr ədəbi dilinə belə bir çalar verib? Sonrakı cümlə təsdiq edir ki, müəllif XVI əsr ədəbi dilinə Qurbaninin real təsirindən danışır: "Bu yenilik daha çox şerlərin sintaksisi ilə həyata keçirilirdi". (s.22-23) Deməli, müəllifdə tərəddüd var: bir tərəfdən, XVIII əsrdə yazıya alındığını güman etdiyi üçün Qurbani şeir dilinin XVI əsr ədəbi dilinə yalnız "uyğun" cəhətlərə malik olduğunu göstərir, digər tərəfdən isə, Qurbaninin xüsusən sintaksis sahəsində XVI əsr ədəbi dilinə real təsirindən danışır. Bizcə, bu real təsir düzgün və əhəmiyyətlidir, şeirlər sonralar yazıya alınarkən Qurbaninin şeri yenidən yazılmaz, yalnız söz və ifadələrdə, izafətlərdə aşınmalar olardı.

2.Müəllif yazır: "XVII əsr ədəbi dilimizin inkişafında keçid xarakteri daşıyır: köhnə Azərbaycan ədəbi dili yeni Azərbaycan ədəbi dilinə keçir, ədəbi dilin ümumxalq dili əsasında formalaşması başa çatır və milli dil əsasında formalaşma başlayır".(s.23) Bizim fikriizcə, keçid dövrü XVI əsrdir, çünki Azərbaycanın mənəvi-iqtisadi cəhətdən birləşdiyi, vahid dövlətin yarandığı, Azərbaycan dilinin dövlət dilinə çevrildiyi, dilin bir çox arxaik elementlərdən təmizləndiyi, hər sahədə canlanma yarandığı, intibahın çiçəkləndiyi, klassik üslubun, orta üslubun və folklor üslubunun zirvə sənətkarlar yetirdiyi dövr bu dövrdür. Milli dilin başlanğıcı buradandır. Məncə,"köhnə ədəbi dil", "yeni ədəbi dil" ifadələri də düz deyil. Müəllifə elmi ədəbiyyatdan gələn "ədəbi dlin ümumxalq dili

əsasında formalaşması başa çatır" kimi yanlış ifadə ilə heç cür razılaşmaq olmaz. Nəsimi, Füzuli kimi nəhəng sənətkarları xalq ədəbi dilinin formalaşmasının başa çatması kimi başa düşmək olmaz. Milliliyə qədərki dövrü bü cür yox, "ədəbi dilin ümumxalq dili əsasında təşəkkülü və inkişafı dövrünün başa çatması", milli dilə keçid kimi xarakterizə etmək lazım idi. Ümumxalq dili əsasında şifahi ədəbi dilin formalaşması ən geci VIII əsrdə başa çatmışdır, yazılı ədəbi dilin formalaşması isə IX-XI əsrlərə aiddir.

3.Dissertasiyanın mühüm nöqsanlarından biri durğu işarələrindən düzgün istifadə edilməməsidir. Durğu işarələri sadəcə durğu işarəsi nöqsanı deyil, sintaksis tədqiqatçısının sintaksisi pis bilməsi təsiri bağışlayır. Ara sözdən, dəqiqləşdirici xüsusiləşmiş üzvləri nəzərə çarpdıran ***o cümlədən, xüsusilə*** tipli sözlərdən sonra yox, əvvəl vergül qoyulmalıdır, dissertasiyada əksinədir (s.26, 28, 62, 77, 75), bəzən heç qoyulmur (56 və s.). Xüsusiləşmədən, qarşılaşdırma budaq cümləsində -***sa da*** şəkilçi və ədatından sonra vergül unudulur (s.71,72). Artıq qoyulmuş vergüllə xitab öz təyinindən ayrılır: *Özünü Xeybərə yetirən, Əli!* (s.75) - misrasında Əli sözündən əvvəl vergül olmaz. İzah zamanı nümunələr ya kursivlə, ya da dırnaqda verilməlidir. Dissertasiya boyu bu nöqsan davam edir.

4. Nahamvar ifadələr, cümlələr: "başqa kimi" (s.29),"klassik şeir poeziyası" (s.41); qüsurlu cümlələr:"Belə ki, bədii təyinlərin əksəriyyəti sifət funksiyasında çıxış edən isimlərdən əmələ gəlir".(s.38) "Aşıq şerində epitetlərin əmələ gəlməsinə gözəllərin vəsfi, tərənnümü səbəb olmuşdur".(s.39) Həm düzdür, həm də düz deyil: yalnız gözəllik kateqoriyası yox, bədiilik vasitələri çirkinliyin, eybəcərliyin ifadəsinə də xidmət edir. "Heç bir üzvlə əlaqəyə girməyən söz və söz birləşmələri - xitablar..." (39) Çox olsa, qrammatik əlaqədən söhbət gedə bilər, məna əlaqəsi də yoxdursa, onda söz artıqdır. Eyni qrammatik mənalı bağlayıcıların yersiz təkrarı: *"...həm də* sifət ilə ifadə olunan xitablar *da* qəbul edir".(s.44) "...həm *də* mətndaxili paralelizmlərin təşkilində *də*..." (s.61) Xitablarda epitetlərin substantivləşməsi: gül üzlü yarım, ləbi ballı qız (s.47) – epitetlər substantivləşmir, substantiv sözü təyin edir. "Sadə müraciət bildirən (?) xitablar" (s.51) - məzmuna, ya quruluşa aiddir? Məzmuna aiddirsə, əhəmiyyətsizdir. Quruluşa aiddirsə, misallarla düz gəlmir: *Dəli könül, nə divanə gəzirsən?* "...xitablar daha güclü olurlarsa, intonasiyaya görə isə, xitablar güclü olur".(s.51-52) "Paralelizm aşığın təfəkküründə məxsus mənaların üzərində qurulub".(s.62) "Məlumdur ki, hər hansı ardıcıl, ahəngdar bölgü sıralama ritm hesab olunur". (s.70) "Sıralama" sözündən əvvəl vergül qoyulsa və "hesab olunur" əvəzinə, "yarada bilir" işlənsə, cümlə məna verə bilərdi. "*Xəbərlərin* morfoloji dəyişikliyə uğrayaraq, təyin və zərflik rolunda çıxış etməsi Xəstə Qasım lirikasının səciyyəvi cəhətlərindəndir: *Vətən deyib ağla, ağlar qal indi"*.(97) Bir cümlə üzvü nə təhər o birisi ola bilər? Bu, şəxsli felin adverbiallaşması və ya atributivləşməsidir. "Azərbaycan ədəbi dili uzun müddət poeziya şəklində inkişaf etmişdir".-deməli, camaat şeirlə danışırmış. "Aşıq şerinin sintaksisi Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrünün bütün funksional imkanlarını nümayiş etdirir".(114) - cümləsi ilə yenə haqqında danışılan aşıqların xidməti geri çəkilir; "milliliyə gedən yolda" demək lazım idi. Dilin milli inkişaf yolunda olduğu nəzərə alınmalı idi. Səh.115-dəki bölgüdə təktərkibli cümlələr unudulub.

5.Seçilmiş numunələrdə qüsurlar müşahidə olunur: *gümüş piyaləli, altun ayaqlı* birləşmələrinin ikinci tərəfi isim deyil, sifətdir.(s.38) *Pəri, sənə qurban Dirili Qurban!* (43) yoxsa: *Pəri sənə qurban, Dirili Qurban!* Yalnız bir ikinci dərəcəli üzvü olan sadə cümlələr kimi verilmiş: *Hifz eyləsin səni tanrı bəladan. Qurbani murada yetdi* (s.117) – cümlələrindən birincisində iki ikinci dərəcəli üzv var, o birində biri də yoxdur. Səh.135-də son misal təyin budaq cümləlidir. Zaman budaq cümləsi kimi verilənlər məqsəd və şərt budaq cümlələridir. (s.140) ***Çünki*** bağlayıcılı cümlədən başqa, səbəb budaq cümləsi kimi verilənlər nəticə budaq cümlələridir.(s.141) Qarşılaşdırma budaq cümləsi düz deyil. (s.142-143) S.144-də 5,6-cı sxemlər düz deyil. 11 də düz deyil.

6.Müəllif, Qurbaninin şeir dilindən misalları daha çox "Qurbani. 55 şeir" (1972) kitabından götürmüş, xeyli təkmilləşdiriliş və zənginləşdirilmiş 90-cı il çapına az fikir vermişdir. Ona görə də verilmiş misalların bir qismi mənasız və məntiqsizdir: *Şəb-nişan eyləyib yola düşmüşəm, Yar, mənim gəldiyimi bilmədinmi sən?* (84) – misralarında *gəldiyimi* yox, *gəldiyim* olmalıdır. Füzulidən verilən misal da doğru deyil (*Can sözdür, əgər bilmirsə insan,*s.86) Rəddül-əcüzə ən yaxşı misal Qurbaninin "Candan eylədi" şeridir.

Qeyd etməliyik ki, dissertasiya müasir tələblərə müvafiq şəkildə, lazımi elmi səviyyədə yazılmışdır. Müəllif zəruri elmi ədəbiyyatı tədqiqata cəlb edə bilmişdir. Həm də bəzi əsərlərdən fərqli olaraq, elmi ədəbiyyata sadəcə sitatçılıq xatirinə müraciət etməmiş, tədqiq olunan dövrün problematik məsələlərini aydınlaşdırmaq məqsədi güdmüş və bu yolda görkəmli alimlərlə polemikadan çəkinməmişdir. Məsələn, ədəbi dilimizin tarixi tədqiqi sahəsində misilsiz xidmətləri olan M.Cahangirovun ədəbi dil sintaksisinin XIX əsrdə formalaşması barədə fikrinə etirazı şəxsən bizim tərəfimizdən elmi obyektivlik naminə rəğbət doğurur. Ən yaxşı cəhət odur ki, ədəbi dilin inkişaf yolu və xüsusən XVI-XVIII əsrlər mənzərəsi barədə bir sıra sol və mühafizəkar fikirlərə qoşulmamış, faktlardan aldığı təəssüratın dili ilə danışmağa çalışmışdır. Buna görə də biz müəllifin gəldiyi nəticələrlə razıyıq. Əsər nəzəri və praktik cəhətdən faydalıdır. Bir sıra ixtisas kurslarının, Azərbaycan folklorunun, Azərbaycan ədəbiyyatının tədqiqi və tədrisi üçün də gərəkli olan bu əsərdən ədəbi dilimizin müəyyən tarixi dövrünü (XVI-XVIII əsrlər) öyrənək baxımından da istifadə oluna bilər. Müəllifin çap işi də məqbuldur: çap olunmuş məqalələri dissertasiyanın məzmununu əhatə edir. Biz bu əsərin bütövlükdə çap olunmasını məsləhət görərdik.

Fikrimizi ümumiləşdirərək deyə bilərik ki, Təranə Hacıyevanın "Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi" adlı əsəri namizədlik müdafiəsinin tələblərinə cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

B.Abbasov, Ə.Abbasov, M.Vəliyeva, N.Nəsrəddinov, İ.Əfəndiyeva. «Pilot təhsil müəssisələrinin V-VI sinifləri üçün Azərbaycan dilindən inteqrativ proqram» 08.06.2001

Proqram Azərbaycan dilinin fonetik quruluşunun öyrənilməsindən başlayır, orfoqrafiya, orfoepiya, leksikologiya, frazeologiya və morfologiya (felin şəkillərinə qədər) məsələlərini əhatə edir. Azərbaycan dili tədrisinin V-VI siniflərdə bu cür ardıcıllıqla nəzərdə tutulması faydalıdır, ona görə ki şagirdlərdə dilin səs sistemi, lüğət tərkibi və qrammatik quruluşu barədə aydın və ardıcıl təsəvvür yaradır.

V və VI siniflər üçün tərtib edilmiş bu proqramların hər biri üç bölmədən ibarətdir.

Birinci bölmədə fənnin tədrisi qarşısında duran əsas vəzifələr, şagirdlərin illik dərs prosesində qazanmalı olacaqları bilik, bacarıq və vərdişlərin dairəsi, ümumi işin keyfiyyəti barədə aydın göstərişlər verilmişdir. Proqramda belə bir bölməyə yer ayrılması vacib və gərəkli hesab olunmalıdır. Bölmə müəllimi və şagirdləri əvvəlcədən xəbərdar edir ki, nələrə daha çox fikir verilməli, hansı məsələlər mütləq yadda saxlanılmalıdır. Heç şübhəsiz, tədris daha geniş məsələləri əhatə edir, buna görə də yaxşı şagird əlavə bilik və bacarıqlara da sahib ola biləcəkdir, lakin nəzərdə tutulan minimum bütün şagird kollektivi üçün məcburi sayılır.

İkinci bölmə həm birinci, həm də qiymətləndirmə baxımından üçüncü bölmə üçün həlledicidir. Əməli proses bu bölmə ilə bağlıdır – proqram üzrə konkret olaraq hansı mövzu və məsələlərin əhatə ediləcəyi bu bölmədə müəyyənləşir. Müəllim-şagird əlaqələri, mövzuların mənimsənilməsi, tədrisin strukturu və keyfiyyəti bu bölmə ilə bağlı reallaşır.

Üçüncü bölmə (öyrətmə və öyrənmə fəaliyyəti, resurslar, qiymətləndirmə) həm ikinci bölməyə xidmət edir - burada tədrisin metodları, dərsliklər, dərs vəsaiti və əyanilik vasitələri, linqvistik və ekstralinqvistik amillərin köməyi, tapşırıq və çalışmalar nəzərdən keçirilir, həm də müstəqil bir əməliyyat kimi, bütün görülmüş işlərin nəticələri yoxlanılır, şagirdlərin fənni mənimsəmə keyfiyyəti, müəllim əməyinin nəticələri qiymətləndirilir və bunun üçün ümumi qayda üzrə 5 bal, eksperiment şəklində 9 bal sistemindən istifadə məsləhət görülür.

Proqramda fonetika, leksikologiya, morfologiya üzrə əhatə edilməli olan elmi biliklər sistemi düzgün müəyyənləşdirilmişdir və fənnin əsaslarını lazımi səviyyədə tədrisə cəlb etməyə imkan verir. Proqramı bitkinləşdirmək, sonrakı sinif üçün morfologiya məsələlərini sona çatdırmaq da olardı. Şagirdlərin (və eyni zamanda fənni mənimsətməli olan müəllimlərin) qarşısına qoyulan tələblər də düzgün müəyyən edilmişdir. Metodiki göstərişlər də bizim elmi pedaqogikanın və fənn metodikasının

tələblərinə müvafiqdir. Zənnimizcə, bu cür kompleks inteqrativ proqram hazırlandığı ilk dəfədir. Tərtibat üsulu da keyfiyyətlidir.

Qeyd etdiyimiz kimi, şagirdlərin qarşısına qoyulan tələb və vəzifələr qənaətbəxşdir və bunlar qiymətləndirmə zamanı əsaslı şəkildə nəzərə alınmalıdır. Lakin bizim fikrimizcə, qiymətləndirmə prosesində bir cəhətə xüsusi fikir verilməli və həmin məsələyə proqramın son bölməsində yer ayrılmalıdır: hazırkı dövrdə mənimsəmənin aşağı keyfiyyəti, hər şeydən əvvəl, səy ilə bağlıdır, şagirdin (və eləcə də tələbənin) müəllimi dinləməməsi, bir çox hallarda dinləmək istəməməsi böyük bir bəla kimi vərdiş halını almaqdadır. Ona görə də səy, diqqət məsələsinə son qrafada yer vermək, qiymətləndirmədə bu cəhəti nəzərə almaq və bu məsələni əvvəlcədən şagirdin diqqətinə çatdırmaq faydalı olardı.

Bütövlükdə proqram yaxşı tərtib edilmişdir və biz onun çapını faydalı hesab edirik.

Bakı şəhəri Nəsimi rayon məhkəməsinin məktubuna əsasən Əsgərova Nabat Əjdər qızının Musəvi Mirəli Vəkil oğluna qarşı müəlliflik hüququnun pozulması iddiası üzrə məsələnin həlli üçün

EKSPERT RƏYİ

23.06.2001

İddiaçının - Əsgərova Nabat Əjdər qızının tələbi bundan ibarətdir ki, Mirəli Vəkil oğlu Musəvi plagiatorluqla məşğul olmuş, onun (Əsgərova Nabat Əjdər qızının) "Ana" (miniatür), "Ayrılıq yolu" (mənsur şeir), "İkimiz də" şeirlərini "Özüm boyda vətənəm" kitabında, "Sənsiz", "Dedin", "Nədir", "Sən","Barış mənimlə", "Ayrılıq", "Həsrətdi", "Səni düşünürəm","Etibarsız","Görüş yeri" (mənsur şeir), "Səni ürəyimdə qısqandım", "Yanıldım","Eşqdir", "O gün", "Çətin","Səninlə", "Sənin", "Yazığım gəlir" şeirlərini "Bu sevgi tanrı sevgisidir" kitabında çap etdirmişdir və ona görə də hüquqi qaydalar əsasında cəzalandırılmalıdır. İddiaçı, bunlardan əlavə, konkret olaraq adını çəkmədiyi iki şeirində M.Musəvinin onun şeirlərindən misralar oğurladığını da qeyd etmişdir. Hər iki tərəf Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinə müraciət etmiş, Agentlik məsələnin məhkəmə yolu ilə həllini məsləhət bilmişdir. Bakı şəhəri Nəsimi rayon məhkəməsi cavabdehin və üçüncü şəxsin izahatlarını dinləyərək hesab etmişdir ki, iş üzrə xüsusi bilik tələb olunan sualları izah etmək zəruriyyəti vardır və ona görə də iş üzrə müəllifşünaslıq ekspertizası təyin edilməlidir. Ona görə də belə bir komissiya yaratmaq və ekspertiza etmək üçün iş EA-nın Nizami adına Ədəbiyyat İnstitutuna və Nəsimi adına Dilçilik İnstitutuna göndərilmiş, hər iki institutdan nümayəndə olmaqla üç nəfərdən ibarət komissiya yaradılmışdır

Məhkəməni daha çox aşağıdakı məsələlər maraqlandırır:

1.Mübahisə predmeti olan əsərlərin müəllifi Əsgərova Nabat Əjdər qızı, yaxud Mirəli Musəvi Vəkil oğludur?

2.Əsər müəllifinin təqribi yaşını və təhsilini müəyyən etmək mümkündürmü?

Komissiya üzvləri şeirləri və sənədləri diqqətlə nəzərdən keçirərək aşağıdakıları müəyyənləşdirmişdir:

1. Sənədlərdən aydın olur ki, 1996-cı ilin noyabrından 1997-ci ilin aprelinədək - 6 aya qədər bir müddətdə M.Musəvi N.Əjdərqızıgildə yaşayıb və həmin müddətdə onun (Nabatın) şeirləri ilə tanış olub. N.Əjdərqızının iddia etdiyi şeirlərin böyük bir qismi ("Sənsiz","Barış mənimlə", "O gün", Çətin","Nədir","Sən","Həsrətdi","Səni düşünürəm", "Sənlə", "Sənin") M.Musəvinin bu evdən ayrılmasından il yarım sonra - 8 mart 1998-ci ildə "Ədalət" qəzetində M.Musəvinin adına dərc olunub. Bunlardan xəbərdar olduqdan sonra, N.Əjdərqızı həmin yazılar da daxil olmaqla "Günəşimin hərarəti kiçilməz" kitabını çapa hazırlayıb və kitab 10 yanvar 1999-cu ildə yığılmağa verilib. İki ay sonra Musəvi öz kitabını yığılmağa verib: "Bu sevgi tanrı sevgisidir" kitabı 3 mart 1999-cu ildə, "Özüm boyda vətənim" kitabı isə 7 ay sonra - 20 iyul 1999-cu ildə yığılmağa verilmişdir. Görünür, maddi çətinlik N.Əjdərqızının kitabı çap etməsini həmin ilin son ayına - dekabra qədər ləngidib. M.Musəvi isə 2 həftəyə (17 mart 1999) birinci, 12 günə (2 avqust 1999) ikinci kitabını çapa imzaladıb. Qəzetdə ("Ədalət",8 mart 1998) N.Əjdərqızının iddia etdiyi 11 şeir, M.Musəvinin birinci kitabında 18 şeir, ikinci kitabında 3 yazı getmişdir. N.Əjdərqızının Agentliyə və məhkəməyə şikayətlərini bu ardıcıl proseslə əlaqələndirmək olar: iddiaçı dəfələrlə qeyd edir ki, Musəvidən plagiatorluğu dayandırmağı xahiş etsə də, M.Musəvi, göründüyü kimi, prosesi davam etdirmişdir.

2.Bir sıra dəlillər göstərir ki, haqqında danışılan şeirlərin N.Əjdərqızının kitabındakı variantları onların ilkin forması, orijinalıdır. Bu barədə aşağıdakıları qeyd etmək olar:

a)N.Əjdərqızının kitabında şeir həqiqi qoşma formasındadır, Musəvidə isə şerin qurulma texnikasına əməl olunmamışdır, sanki bunlar orijinalın pozuq variantlarıdır."Çətin" şerinə baxaq:

Çalış ki, bir kəsin qəlbinə dəymə,
Sındırdınsa onu, yamamaq çətin.
Yaxşı ad qazan ki, düzlüyü əymə,
İnamı sonradan qazanmaq çətin.(Nabat)

Burada rədifdən ("çətin") başqa, ikinci və dördüncü misralarda qafiyə də var (*yamamaq, qazanmaq*) və bunlar sonrakı bəndlərin son misra-

sında həmin məqamda davam edir: *qazanmaq, dolanmaq*. Musəvinin kitabında qafiyələr yoxdur, ona görə də qoşma janrının tələbləri pozulmuşdur:

Çalış ki, bir kəsin qəlbinə dəymə,
Bil insanın öz qədirin, qiymətin.
Yaxşılığı yaşat, düzlüyü əymə,
Hər işdə desinlər mətindi, mətin.(Musəvi)

Burada qafiyə yerində işlənən sözlər: *qədirin, mətindi, qazan, dolanmaq* -uyğun gəlmir, şeir pozulmuşdur.

b)M.Musəvi variantında əksər fərqli cəhətlər, yəni fərqlənən misralar zəifdir, mənasız və tutarsızdır; aydın görünür ki, şeirlərdə çox vaxt fərqinə varılmadan sadəcə dəyişiklik naminə dəyişiklik edilmişdir; məsələn:

Eşqdir hər şey,çıx Kə'bədən, daxili-meyxanə ol,
Ya sevirsən sən məni, hər bir kəsə biganə ol.(Nabat)
Eşqdir hər şey, çıx Kə'bədən, öz eşqinə peymanə ol!
Ya əgər sevirsən məni, sədaqətdə yeganə ol.(Musəvi)

Nabatın işlətdiyi "daxili-meyxanə ol" o deməkdir ki, din evindən çıx, meyxanələrə get - şadlıq məclisi qur. Musəvinin işlətdiyi *peymanə* sözü yerinə düşmür; bu söz iki mənadadır: 'əhd, iqrar' və 'şərab qabı'. Ona görə də misra məna vermir: *əhd ol, şərab qabı ol - peymanə ol* demək olmaz. İkinci misralar da Nabatda güclü və orijinaldır. M.Musəvidə *sən* sözü atılıb, *əgər* sözü işlədilib - ahəng pozulub, fikir zəifdir.

c)qeyd edilən şeirlərin məzmunundan aydın şəkildə görünür ki, bunlar gənc bir qızın qəlbinin çırpıntılarıdır. "Ana" miniatürünü 25-28 yaşlarında oğlan deyil, 15-17 yaşlarında məktəbli qız yaza bilərdi. Bu cəhət "Ayrılıq yolu" mənsur şerinə də aiddir: "*Arzularımız puç oldu, sevinclərimiz heç oldu. Qəlbimizdə qalanan sevgi odu nə tez söndü?! Üzün məndən nə yaman döndü?! Dərdli gözlərim yollarına baxmaqdan yoruldu...*" Bu sözlər qız qəlbindən qopan hıçqırtılardır. Elə buna görə də M.Musəvidə fərqli cəhətlər adətən şerin bir qız, bir qadın tərəfindən söylənmiş olduğunun islahı istiqamətindədir; məsələn:

Qolunda tamam yad bir qızın qolu,
Üzümə gülərək baxmağın nədir? (Nabat)
Qolunda tamam yad oğlanın qolu,
Üzümə baxaraq gülməyin nədir? (Musəvi)

Yaxud:
Sənincün alışdım, sənincün yandım,
Yanan ürəyimi soyutmadın sən.(Nabat) -

bu cür misralar kişi sözü deyil, qadın sözüdür. Ona görə də Musəvidə ikinci misra dəyişdirilmişdir - fərqli və zəifdir:

Sənincün alışdım, sənincün yandım,
Belə alışmağı heç anmadın sən.(Musəvi)

Yaxud da:
Vaxt ötüşə, zaman keçə, dəyişə,
Sən baba olasan, mən ağsaç nənə (Nabat) – misraları Musəvidə belədir:

Vaxt ötüşə, zaman keçə, dəyişə,
Məni yenə çağırasan görüşə...

Təbii ki, bir oğlan dilindən "*Sən baba olasan, mən ağsaç nənə*" sözləri işlənə bilməzdi, ona görə də misra dəyişilməli idi.

3.Xatirələr dəftərindən aydın olur ki, N.Əjdərqızı 1989-1994-cü illərdə institutda oxuyub (hansı institut olduğunu müəyyənləşdirmək mümkün olmadı) və son tədris ilində (1993-ün sonu, 94-ün əvvəlində) bir qrup tələbə yoldaşları ilə birlikdə xatirə yazmışlar. Xatirələrin həmin dövrdə yazıldığı tam inandırıcıdır və lazım gələrsə, ekspertiza edilə bilər. Həmin dəftərçədə N.Əjdərqızının "Ana" miniatürü və "Sən" şeri müəllifin (Əjdərqızının) öz xətti ilə, avtoqraf şəklində yazılmışdır. Bu, çox mühüm faktdır. Miniatürün tarixi yoxdur, hiss olunur ki, Nabat onu orta məktəb illərində (16-17 yaşlarında) yazmışdır. Şerin tarixi var: dekabr 1993-cü il. Bunlar bir də ona görə inandırıcıdır ki, hər iki yazını Nabat kitabda çap edərkən dəyişikliklər etmiş, səlisləşdirmişdir. Elə bu iki yazı M.Musəvinin plagiatorluğu üçün qəti sübutdur. M.Musəvinin dəftəri isə ərəb əlifbası ilə tələsik, qüsurlarla, pozuq və naşı bir üslubda yazılmışdır və ən tezi 1997-ci ilə aiddir, çünki dəftər özü qeyd dəftəri kimi 97-ci ildə istehsalata buraxılıb. Bunlar cavabdehin özgəsinin şeirlərini mənimsədiyini, lakin dəftərin tarixinə baxmadan "fakt" hazırlamaq məqsədi güddüyünü göstərir.

N.Əjdərqızının qalan şeirlərinin hansı yaşda yazıldığını dəqiq müəyyən etmək mümkün olmasa da, hadisə və münasibətlərin gedişini nəzərə alaraq, bir qisminin ("Sənin", "Barış mənimlə", "Sənsiz", "Etibarsız", "Görüş yeri") 24-25 yaşlarında, bir qisminin isə ("Yazığım gəlir", "Nədir" və s) 26-27 yaşlarında *yenidən işləndiyini* təxmin etmək olur.

Bir evdə olduqları 6 ayın müddətində bu yazıları birlikdə oxuyub, dəfələrlə birlikdə müzakirə etsələr də, şeirlər bütövlükdə üslub etibarilə, orijinallıq baxımından N.Əjdərqızına məxsusdur. Bunu məhkəmədə 3-cü şəxsin nümayəndəsinin dediyi sözlər də təsdiq edir. Nümayəndə

iddiaçının sualına cavab olaraq bildirir ki: "Bəli, cavabdeh (yəni M.Musəvi) (Agentlikdə) etiraf etdi ki, əsərlər sizindir (yəni iddiaçının - N.Əjdərqızınındır), lakin təkzib verməyəcəyəm".(Məhkəmə iclasının protokolu, s.4)

Beləliklə:

1.Bütün faktlar göstərir ki, iddiaçının qeyd etdiyi şeirlər həqiqətən onun özünə (Nabat Əjdər qızı Əsgərovaya) məxsusdur və N.Əjdərqızının müəlliflik hüquqları pozulmuş - cüzi və mənasız dəyişikliklərlə şeirləri M.Musəvi tərəfindən mənimsənilmişdir. (Görünür, bunu bildiyi üçün cavabdehin nümayəndəsi işin ekspertizasına razı olmamışdır). (Məhkəmə iclasının protokolu,s.4). M.Musəvi nə qədər izi itirməyə çalışsa da, N.Əjdərqızı müəllif olaraq qalır və onun müəllifliyi hər cəhətdən təsdiq olunur.

2.Şeirlər üslub etibarilə qadın (gənc qız) psixologiyasına uyğundur, erkən - 18-24 yaş arasında yazılmış, 24-26 yaş arasında təkmilləşdirilmişdir.

Nəsimi ad. Dilçilik İnstitutu. Sevinc Novruz qızı Əliyeva.
«Orxon-Yenisey abidələrində toponimlər»
ND. 27.02.2002

Dissertant aktual bir mövzunun tədqiqi ilə məşğul olmuşdur. Dilimizin tarixini əsaslı şəkildə öyrənməli olduğumuz indiki dövrdə bu cür mövzuların tədqiqinə böyük ehtiyac var. Orxon-Yenisey abidələrində qeydə alınmış toponimlərin bir qismi Yuxarı və Aşağı Azərbaycan ərazilərində də əhəmiyyətli izlərə malikdir. Bunların öyrənilməsi iki cəhətdən əhəmiyyətlidir: bir tərəfdən, tədqiq olunmuş toponimləri yaradan etnosların sonralar Azərbaycan ərazisinə gəlişi və bu gəlişlə əlaqədar mövcud ərazilərin etnonim və etnotoponimlərində mühafizə olunmuş izlərini dəqiqləşdirmək baxımından əhəmiyyət kəsb edirsə, digər tərəfdən, daha qədim dövrlərdə türkün beşiyi olan Ön Asiyadan Mərkəzi Asiyaya hərəkət etmiş türk tayfalarını araşdırmaq baxımından qiymətli tarixi-linqvistik material verir. Bu mənada dissertasiyanın strukturu düzgün müəyyənləşdirilmiş, tədqiqat faydalı istiqamətə yönəldilmişdir.

Sevinc xanım Əliyevanın abidələrin dilindəki toponimlər üzərində etimoloji araşdırmaları və gəldiyi ağlabatan nəticələr onun bir tədqiqatçı kimi bacarıqlı və müəyyən təcrübəyə malik olduğunu isbat edir. Heç şübhəsiz, müəllif mövzu ilə əlaqədar özünə qədərki elmi ədəbiyyatı diqqətlə araşdırma, öyrənmə yolu ilə həmin nəticələrə gələ bilmişdir ki, bu da tədqiqat işinin vacib tələblərindəndir. Etimoloji və mənşə araşdırmaları əsasında gəldiyi nəticə - abidələrdə adı çəkilən toponimlərin əksə-

riyyət etibarilə türk mənşəli olması qənaəti elmi həqiqətdir, çünki abidələrdəki dilin daşıyıcıları hələ sonrakı türklər kimi hindavropalılar və ya semitlərlə öz lüğətlərini o dərəcədə qarışdırmamışdılar. Vahid ulu dildən gəlib müxtəlif dil ailələrində müxtəlif şəkil almış sözlərin tədqiqi isə müəllifin məqsədi olmamışdır.

Toponimlərin morfoloji xüsusiyyətlərinə həsr olunmuş ikinci fəsil də maraqlıdır. Xüsusilə düzəltmə və mürəkkəb sözlərdən ibarət olan toponimlər müasir türk dillərində qədim sözdüzəldicilik ənənələrini üzə çıxarmaq baxımından faydalıdır. Müasir türk dillərində fəal şəkildə işlənən bir sıra sözdüzəldicilik vasitələrinin qədim abidələrdə də fəal mövqeyi müşahidə olunur; lakin eyni zamanda bir sıra fəal və məhsuldar şəkilçilərin tədricən işləkliyini məhdudlaşdırması və itirməsi halları da üzə çıxarılmışdır.

Son fəsil dilimizin tarixinin tədqiqi baxımından daha əhəmiyyətlidir. Müəllif abidələrin dilində işlənmiş toponimləri ümumiləşdirərək onların hansı etnonimlər əsasında əmələ gəldiyini və həmin etnonimlərin Cənubi Qafqaz arealında necə iz qoyduğunu kifayət qədər zəngin matierial əsasında aydınlaşdıra bilmişdir.

Hiss olunur ki, S.Əliyeva öz tədqiqat mənbəyinə - abidələrin dilinə yaxşı bələd olduğu kimi, elmi-nəzəri ədəbiyyata da yaxşı bələddir və nəzəri ədəbiyyatı tədqiqata bacarıqla cəlb edə bilmişdir. Buna görə də əsərin elmi aparaturası zəngindir. Müəllifin çap etdirdiyi məqalə və tezislər dissertasiyanın məzmununu tam əhatə edir.

S.N.Əliyevanın bu əsərindən dilimizin təşəkkülündə iştirak etmiş etnosları və ümumən dilimizin tarixini öyrənmək üçün faydalı bir əsər kimi istifadə oluna bilər. Əsərdən bir sıra ixtisas kurs və seminarlarının tədrisində də faydalanmaq mümkündür.

Ümumiləşmiş şəkildə qeyd edə bilərik ki, Sevinc Novruz qızı Əliyevanın "Orxon-Yenisey abidələrində toponimlər" adlı əsəri namizədlik müdafiəsinin tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Yusubova Təranə Oqtay qızı. «Azərbaycan dilində fel+fel tipli feli birləşmələr»
ND. 13.02.2003

Dilçiliyimizdə feli birləşmələrin tədqiqi tarixi o qədər də uzaq deyildir. Bu sahədə əsas iş prof.Y.Seyidovun məşhur monoqrafiyası ilə başlanmışdır. Lakin hələ də bir sıra vacib məsələlər dəqiqləşdirilməmiş qalır. Ali məktəblərin filologiya fakültələrində sintaksisin tədrisi prose-

sində bu cür məsələlər özünü daha qabarıq göstərir. Ona görə də namizədlik dissertasiyası üçün T.O.Yusubovanın seçdiyi bu mövzu aktualdır.

Bu başdan qeyd edə bilərik ki, aktual və faydalı hesab etdiyimiz bu mövzunu dissertant bacarıqla işləmiş, hər bir məsələnin həllində obyektiv elmi mövqe tutmuşdur. Tədqiqat prosesində "fel+fel" quruluşlu birləşmələrin semantik və struktur imkanlarını üzə çıxara bilmiş, bu sahədə elmi təsəvvürü zənginləşdirə biləcək təhlillər aparmışdır.

Mövzu düzgün planlaşdırılmış və avtoreferatdan aydın olur ki, bütün lazımi aspektlərdə tədqiqata cəlb edilmişdir."Fel+fel" tipli feli birləşmələrin başqa feli birləşmələrlə ortaqlı və fərqli cəhətləri, əsas və asılı tərəfləri, tərəflər arasında semantik və qrammatik əlaqələr elmi ümumiləşdirmələrlə şərh olunmuşdur.

Əsərdə "fel+fel" quruluşlu feli birləşmələrin birləşmələr sistemində yeri, tərz birləşmələri və mürəkkəb fellərlə münasibəti, dildə - cümlə daxilində ümumi sintaktik mövqeyi, adverbiallıq əsasında tərz, zaman, səbəb bildirmə imkanları diqqətlə araşdırılmışdır. Müəllif qeyd edilən birləşmələrdə asılı tərəfin əsas tərəflə əksərən yanaşma, bəzən də idarə əlaqəsində olduğu barədə fikri yeni mülahizələrlə irəlilətmiş, "fel+fel" quruluşlu birləşmələri yanaşma və idarə əlaqəli olmaqla iki qrupa ayırmaqla elmi ədəbiyyatdakı bu mövqeyi (bizim fikrimizi) möhkəmlətmişdir. Lakin bu barədə bəzən tərəddüdləri də müşahidə olunur: "Feli birləşmələrin bütün növlərini sintaktik əlaqələr üzrə qruplaşdırmaq, vahid prinsip kimi, sintaktik əlaqələri, tabelilik üsullarını əsas götürmək, bizcə, birləşmələrin dəqiq qrammatik təsnifini çətinləşdirə bilər".(s.21) O doğrudur ki, feli birləşmələr ilk növbədə əsas tərəfə görə qruplaşdırılmalıdır və bu cəhətdən feli birləşmələrin məsdər, feli bağlama və feli sifət birləşmələrindən ibarət olduğu aydındır. Lakin bunların hər birinin struktur bölgüsü aparılarkən asılı tərəfi nəzərə almaqla, sintaktik əlaqələri əsas götürmək və feli birləşmələri ümumiləşmiş şəkildə "yanaşma əlaqəli" və "idarə əlaqəli" olmaqla iki qrupa ayırmaq heç bir çətinlik törətməz. Əksinə, tədris və tədqiqat baxımından daha faydalı olar.

Müəllifin gəldiyi nəticələr elmi obyektivlik baxımından inandırıcıdır. Əsər dilimizin sintaktik quruluşunun tədqiqi, tədrisi, yeni dərsliklərin, dərs vəsaiti və monoqrafiyaların yazılması baxımından faydalıdır. Avtoreferatdan aydın olur ki, müəllif zəruri elmi ədəbiyyatı diqqətlə öyrənmişdir. Çap olunmuş məqalələri və avtoreferat dissertasiyanın məzmununu əhatə edir. Bunları nəzərə alaraq qeyd edirik ki, Təranə Oqtay qızı Usubovanın "Azərbaycan dilində "fel+fel" tipli feli birləşmələr" əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir..

Təhsil Texnologiyası Mərkəzinin direktoru dos.M.F.Tahirov.
«Təlim prosesinin negentropiya prinsipi əsasında qurulmasının mühüm problemləri»
13.02.2003

Elmi işin hazırlanmasında əsas məqsəd, əsərin girişində deyildiyi kimi, ilk dəfə olaraq "negentropiya" prinsipi əsasında yeni təlim texnologiyası haqqında məlumat verməkdir. Həm də yalnız savad təlimi dövrü deyil, işdə təlimin bütün mərhələ və növləri nəzərdə tutulmuşdur.

Əsər bir neçə bölmədən ibarətdir. Birinci bölmədə "Qeyri-müəyyənlik və onun kəmiyyət ölçüsü. Entropiya və negentropiya" anlayışları izah edilmişdir. İxtsasımız olmadığı üçün bu bölməni anlamaqda çətinlik çəksək də, bir şeyi başa düşmək olur ki, bütün və hər cür təlim prosesi qeyri-müəyyənlikdən müəyyənliyə doğru qurulmuş olur. Ona görə də müəllif qeyri-müəyyənlik anlayışı, onun kəmiyyət ödçüsü üzərində xüsusi dayanmışdır və bizcə, doğru qeyd edir ki, ölçünün dəqiqliyi üçün "təcrübi tədqiqatlarda qeyri-müəyyənliyin sözlərlə ifadələrini kəmiyyət xarakteristikaları ilə əvəz etmək lazım gəlir".

Qeyri-müəyyənliyin kəmiyyət xarakteristikası üçün ehtimal və entropiya anlayışlaprından istifadə edilir. ***Entropiya*** yunan sözü olub 'çevrilmə', 'dönüş' deməkdir. Qayda üzrə S ilə işarə olunur. Statistik fizika entropiyaya müəyyən halda sistemin ehtimal olunan vəziyyətinin ölçüsü kimi baxır (Bolsman prinsipi).

Negentropiya da ölçüdür, bir şeyin müəyyənlik, tənzimlənmə, təşkiledilmə dərəcəsidir. Entropiyanın əksinədir, inkar formasıdır. Negentropik proseslər insanın məqsədyönlü fəaliyyətinin əsası hesab olunur.

Ətraf mühitdə olan bütün dəyişmələr iki kateqoriyaya bölünür: təbii dəyişmələr və bizim etdiyimiz dəyişmələr - bizim texnika, bizim sənaye tərəfindən edilən dəyişmələr. Fiziklər bunu ***entropik*** və ***antientropik dəyişmələr*** adlandırırlar. Elmdə olan dəyişmələr isə ***negentropik dəyişmələr*** hesab olunur. Əsərdə oxuduğumuz: "...mənfi entropiya (-H) negentropiya adlandırılır" tezisi doğrudur və onu belə də başa düşmək olar ki,entropiyada təxmin edilən, qeyri-müəyyən olanlar negentropiyada müəyyən edilmiş olur.

İkinci bölmədə informasiya, xəbər və siqnal anlayışları izah edildikdən sonra qeyri-müəyyənliyin müəyyənləşdirilməsi üçün konkret bir elm sahəsinə - dilçilik hadisələrinə müraciət edilmişdir. Linqvistik hadisənin entropik və negentropik ölçüləri ehtimal olunanla müəyyən edilən arasındakı kəmiyyət dəyişmələrinə əsaslanır. Yazılmış hər hansı cümlənin daşıdığı informasiya miqdarının hesablanması çətin olsa da, çox böyük təcrübi əhəmiyyətə malikdir. Müəllif çətinliyi onda görür ki, "dil haqda tam statistik məlumatların əldə edilməsi mümkün olmamışdır".

Burada hansı dildən söhbət getdiyi və dilin hansı sahəsi barədə statistik məlumatdan danışıldığı da entropikdir.

Cümlənin informasiya yükünün dəqiq müəyyənləşdirilməsi üçün modelləşdirmə prinsipindən istifadə məsələsi əhəmiyyətli sayılmalıdır. Bunun üçün müəllif hərflərin simvollarla əvəz edilməsini və sözlərarası fasilənin də işarələnməsini təklif edir, nəticədə 32+1 = 33 sivol alınır. Verilmiş düsturlardan baş açmasaq da, deyə bilərik ki, bunlar mümkündür və faydalı olar. Müəllif yazır: "Beləliklə, Azərbaycan dili əlifbasının hər bir hərfinin və bu əlifba əsasında yazılmış sözün və cümlənin daşıdığı informasiya miqdarını tapmaq mümkündür".(s.3) Fikrimizcə, bu şəkildə, yəni modelləşdirmə yolu ilə hər bir hərfin, sözün və ya cümlənin daşıdığı informasiya yükünü hesablamaq olmaz. Bu yolla ancaq əlifbadakı hər bir hərfin (cümlədə sözün, mətndə cümlənin) intensiv işlənmə dərəcəsini müəyyənləşdirmək olar. Bu isə təbii olaraq hərflərin təmsil etdiyi səslərdən asılı olacaqdır. Beləliklə, biz simvollar əsasında dilimizdəki fonemlərin işlənmə nisbətini müəyyənləşdirə bilərik. Bunun özü də maraqlı olub dilin səs sistemi haqqında aydın bilik almağa və həmin biliyi tətbiq etməklə tədris işini asanlaşdırmağa kömək edə bilər.

Növbəti bölmədə məsələ bir qədər də mahiyyətə doğru irəliləmiş, müəllif "Öyrənmə, təlim və təlim texnologiyası" məsələləri üzərində dayanmışdır. Məşhur filosoflardan biri "Hərəkət materiyanın varlıq formasıdır" demişdir. Müəllif bu müddəanın düzgün şərhini vermişdir. Bir qədər əvvəldə hərəkətin növlərini qeyd etdik və dedik ki, negentropik proseslər insanın məqsədyönlü fəaliyyətinin əsasıdır. Müəllif də bunu deyir: "Obyektə və ya mühitə uyğun hərəkətin tənzimlənən nəticəsi fəaliyyət adlandırılır". Deməli, hər cür hərəkət fəaliyyət deyil. Fəaliyyət insanın məqsədyönlü hərəkətləridir. Müəllif insan fəaliyyətini, bizcə, üç yerə bölməkdə haqıdır: oyun, təlim və əmək fəaliyyəti. Oyun təliməqədərki, təlim isə əməyəqədərki fəaliyyətdir. Təbii ki, bütün bu qeydlərlə müəllif məsələni insan fəaliyyətinin ikinci növü - təlim, öyrənmə üzərinə gətirmək istəmişdir. Və təlimə bir növ tərif də vermişdir: "Məqsədəuyğun, mütəşəkkil və planlı öyrənmə prosesi təlim adlandırılır". Təlim özü də, məlumdur ki, əlifba təliminə hazırlıq, əlifba təlimi və əlifbadan sonrakı dövr kimi üç mərhələyə ayrılır.

Məqsədəuyğun olaraq təlim dövrü ilə maraqlanan müəllif təlimin təlim strategiyasından, bu strategiyanın düzgünlüyündən, təlimin texnologiyasının keyfiyyətindən çox asılı olduğunu göstərir. Buna görə də hər bir elm sahəsi üçün əsas şərt olan termin və texnologiya anlayışlarına gəlib çıxır; təlimin negentropiya prinsipləri əsasında qurulması üçün məlum deduksiya, fərdilik və sistemlilik prinsiplərini müdafiə edir.

Bundan sonrakı bölmə "Savad təlimi prosesinin icrasına dair iradlar" adlanır. Burada müəllif daha çox Azərbaycan və ümumən, deyəsən,

dünya əlifbalarındakı hərflərin düzülüşü ilə bağlı qüsurları qeyd etmək istəmişdir. Əlifbadakı hərflərin informasiya vermə baxımından pis düzüldüyü, məsələn, ilk 16 hərfin bütün işlənmə variantlarında təlim prosesi üçün cəmi 40-a yaxın söz seçməyə imkan verdiyi göstərilmişdir. Əslində, indi mövcud olan əlifbaların, demək olar ki, hamısı yeni elmi texnologiya əsasında deyil, qədim ənənə əsasında yaradılmışdır. Əlifbaların yeni texnologiya əsasında tamamilə yenidən qurulması artıq mümkün və vacib deyildir. Çünki yalnız başlanğıc səslər deyil, sonrakı (ikinci, üçüncü... hecalardakı) səslər də nəzərə alınmaqla yaradılmış saysız lüğətlərin hərf sistemini dəyişmək bəşəriyyətin işini daha da çətinləşdirmiş olar. Düzülüş şərti bir şeydir. Bir vaxtlar yaradılmış ilk əlifbalardakı düzülüşün müəyyən dərəcə saxlanması əsasında minlərlə əlifba yaradılmışdır. Bizim əlifbamıza gəldikdə, bu əlifbada hərflərin düzülüşü daha qüsurludur və biz mətbuatda da fikrimizi bildirmişik.

Nəhayət, müəllif savad təliminin negentropiya prinsipi əsasında qurulması üçün əlifbamızdakı hərflərin informasiyavermə baxımından düzülüşünə diqqət yetirmiş, bu sahədə konkret təklif irəli sürmüşdür. İndiki əlifbamız Azərbaycan dilindəki 9 saitdən biri olan "a" saiti ilə başlayır. Müəllifin fikrincə, "...şifahi nitqin yazılı nitqə çevrilməsinin optimal təmin edilməsi ilə əlaqədar tədqiqatlar Azərbaycan dilində mövcud doqquz sayda sait fonemdən dilarxası, qalın, açıq, dodaqlanan "o" fonemindən başlanmasının məqsədyönlü olduğunu göstərir". Və müəllifin fikrincə, bu saitdən sonra n, t, x, l və d hərflərindən biri gəlməlidir, çünki "o" saiti ilə bu hərflərin birliyindən ***on, ot, ox, ol, od*** və s. kimi müstəqil sözlər düzəlir - bu imkan "a" saitində yoxdur və ya zəifdir. Həm də "o" müstəqil sözdür, hecadır, cümlə üzvüdür, nitq hissəsidir və s.

Bəşər nitqinin əsasında duran ən qədim saitlər ***a*** və ***ı*** saitləridir. Qalan saitlər bunların variantları olmuş, sonralar müstəqilləşmişlər. Məsələn, ***ə*** saiti ***a***-nın, ***i*** saiti ***ı***-nın refleksi sayılır. Bu cəhətdən dodaq saitləri daha sonrakı hadisədir; o, ö saitləri dilimizdə ən az işlənən səslərdir. Bunlar sözlərin sonrakı hecalarında daha az işlənir, şəkilçilərdə isə işlənə bilmir. Əgər müəllifin özünün irəli sürdüyü modelləşdirmə prinsipindən istifadə edilib yoxlama aparılsa, o və ö saitlərinin nə qədər az işləndiyi daha yaxşı aydın olar. Bir də ki ***a*** saiti, demək olar ki, bütün samitlərin önündə işlənib ***ana, ata, al, at, ay, ağ, aş, as, az*** və s. müstəqil sözlər yarada bilir. Ahəng qanunu əsasında sözlərin sonrakı hecalarında və şəkilçilərdə də çox fəaldır. Odur ki ***a***-dan başlamaq pis nəticə vermir. Lakin eksperimenti yoxlamaq olar.

Negentropiya prinsipləri əsasında müəllif başqa məsələlər də irəli sürə bilər. Məsələn, hər hansı bir mövzu keçilərkən məfhumun əsas əlamətləri mətn içərisində əridilir və şagirdə çətin çatır. Məfhumun əsas əlamətlərini ön plana çəkib sonra şərh etmək olar. Bu zaman tərifdəki

bir-iki əlamətə də ehtiyac qalmaz. Yaxud quru tərifləri öyrətmək əvəzinə, şagirdlərə müxtəlif tipli auditoriyalarda danışa bilmək vərdişləri aşılamaq yolları - natiqlik məharəti üzərində düşünmək olar. Ayrı-ayrı fənlərin tədrisi prosesində hadisənin həyatla, obyektiv aləmlə bağlılığına daha ciddi diqqət yetirmək mümkündür. Qeyri-müəyyənlikdən müəyyənliyə çatmaq üçün təlim dövrü materiallarının dəqiq ölçüsü üzərində iş aparmaq olar, - məktəb çox yüklüdür. Təlim materiallarının ideya-estetik keyfiyyətinin kəmiyyət ölçüsü üzərində fikirləşmək olar. Hazırkı dövrdə təlim prosesində vahid idealın nədən ibarət olduğu və onun kəmiyyət ölçüləri barədə də iş aparmaq mümkündür. Məktəbə daxil edilmiş saysız fənlərin ideoloji-estetik əhəmiyyəti və ya şagird təfəkkürünün götürə bilmə imkanları öyrənilə bilər. Əsas və əlavə ədəbiyyatın həcmi, fənlərin tədrisində varislik prinsipləri və s. üzərində düşünmək olar və s.

"O" saitindən başlamaq prinsipinə gəlincə. eksperimental məktəblərdə bu prinsipə əsaslanan dərslik üzərində iş aparmaq və nəticələrini yoxlamaq pis olmaz.

Fikrimizcə, nəzəri əsasları son əsrlərdə müəyyənləşsə də, əslində, negentropiya prinsiplərindən min illərlə daim istifadə olunub. Lakin indi bir halda ki, nəzəri prinsipləri də müəyyən edilib, geniş düşünmək və tətbiqi işini genişləndirməklə təlimin texnologiyasını həqiqətən yüksəltmək olar.

BDU. Dos.Tofiq Müzəffər oğlu Hacıyev. «Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası» DD. Opp.r. 09.09.2003

Bir vaxtlar tədqiqat mövzuları çox geniş idi - bütövlükdə Azərbaycan dilinin morfologiyası, yaxud leksika və frazeologiya, yaxud da dilimizin minillik inkişaf tarixi və s. bir tədqiqatın obyekti olurdu. Sonralar mövzular xeyli konkretləşdi: sadə cümlə, mürəkkəb cümlə, cümlə üzvləri, sintaktik əlaqələr, söz birləşmələri və s. İndi elə bir mərhələdir ki, ilkin tədqiqat prosesində gizlində qalan, hələ ilk baxışda öyrənilməli olana nisbətdə arxa planda olan mövzular üzərində iş aparmaq lazım gəlir. Burada xarici dillərin tədqiqi nümunələrinin də böyük rolu vardır. Belə ki xarici dillərə və xarici dilçilik ədəbiyyatına nəzər salıb öz dilimizə diqqət yetirdikdə hələ bir sıra kateqoriyaların çox üzdən öyrənildiyini müşahidə etdiyimiz kimi, bir sıra vacib məsələlərə hələ heç əməlli toxunmadığımız aydın olur. Filologiya elmləri namizədi, dosent T.M.Hacıyev sistemli şəkildə öyrənilməmiş belə çox mühüm məsələlərdən birini tədqiqat obyekti seçmiş, filoloji baxımdan dəyərli bir tədqiqat əsəri yaratmışdır.

Məlumdur ki, biz bu günə qədər daha çox mürəkkəb cümlənin qrammatik strukturu ilə məşğul olmuş, semantika məsələlərinə sistemli diqqət yetirməmişik. Mürəkkəb cümlə isə nitq mədəniyyətinin daha yüksək inkişaf pilləsinin nailiyyəti olduğundan bu sahənin tədqiqi bir zərurət kimi ortaya çıxır.

Bir sıra mühüm problemi əhatə edən 296 səhifəlik bu dissertasiya giriş, 6 fəsil, nəticə və ədəbiyyatdan ibarətdir. Girişdə mövzunun aktuallığı, dissertasiyanın elmi-nəzəri və praktik əhəmiyyəti, yenilikləri, tədqiqat metodu, aprobasiyası və s. əhatə edilmişdir. Lakin bu giriş ənənəvi girişlərdən bir qədər fərqlidir. Müəllif burada mövzu ilə bağlı müxtəlif terminlərin və terminoloji birləşmələrin, o cümlədən ***semantik funksiya, sintaktik funksiya, struktur semantika, semantik struktur*** və s. barədə dilçilikdə mövcud fikirləri nəzərdən keçirmiş, terminləri dəqiqləşdirməklə tədqiqatın sonrakı gedişi üçün zəmin hazırlamışdır. Müəllif ilk növbədə ***məna*** və ***funksiya*** terminlərinin fərqlərinə diqqət yetirmişdir: "…Məna "dil" anlayışını ehtiva edirsə, funksiya məna və ünsiyyətin dildən kənar məqsədini birləşdirir. Deməli, funksiya nə məna, nə də qrammatik quruluşdur, bunları özündə ehtiva edən daha böyük anlayışdır".

Əsərdə məna məsələsini üç istiqamətdə öyrənmək mümkün olduğu göstərilir: hər bir komponentin semantikası; komponentlərin qarşılıqlı semantik əlaqəsi; bütöv konstruksiyanın ifadə etdiyi məna.

Dissertasiyanın birinci fəsli "Tabesiz mürəkkəb cümlədə komponentlərin məna əlaqəsi" adlanır. Tabesiz mürəkkəb cümlələr dilçiliyimizdə xeyli öyrənilmişdir. Lakin etiraf edə bilərik ki, tabesiz mürəkkəb cümlələrin tədqiq və təsnifində hələ də qənaətbəxş olmayan, mübahisələr doğuran cəhətlər çoxdur. Əslində, mürəkkəb cümlənin bu növünün təsnifində vahid prinsip yoxdur. T.M.Hacıyevin bu fəsildə gördüyü işin əhəmiyyəti orasındadır ki, o, xüsusilə tədris prosesində aşkara çıxan mübahisəli məsələləri bir lay kimi qaldırmağa çalışmışdır. Həmcins xəbərli, bir subyektli sadə cümlələrlə tabesiz mürəkkəb cümlələrin münasibəti, komponentləri arasında tabelilik əlaqəsi olan eynisubyektli tabeli mürəkkəb cümlələr (*O gəlsə də, danışmadı*) və s. mübahisə doğuran məsələləri yada salmaq kifayətdir.

"Fikrimizcə… eyni mübtəda ilə əlaqələnən xəbərlər hər iki halda - həm həmcins, həm də qeyri-həmcins vəziyyətdə sadə cümlənin tərkib hissəsi kimi çıxış edir".(s.25) Belələrini müəllif ***polipredikativ sadə cümlələr*** adlandırmağı təklif edir (s.29) və bu cəhəti bağlayıcılı cümlələrə də aid edir. ***Amma, ancaq, lakin*** bağlayıcılarında tabelilik xüsusiyyəti görür, bu cəhətdən: *Teymurləng hamını müraxxəs etdi, lakin uzun müddət sakitləşə bilmədi* və *Teymurləng hamını müraxxəs etdi, çünki bir müddət tək qalıb sakitləşmək istəyirdi* - cümlələrindəki ***lakin*** və ***çünki*** bağlayıcılarının qrammatik funksiyasını çox yaxın hesab edir, yalnız mənaca fərqlən-

diklərini - birincinin qarşılaşdırma, ikincinin məqsəd əlaqəsi yaratdığını (əslində, məqsəd deyil, səbəbdir) göstərir və bu cümlələrin hər ikisini sadə cümlə kimi təhlil etməyi, yalnız komponentlərin hər ikisinin ayrıca subyekti olduqda mürəkkəb cümlə kimi götürməyi məsləhət bilir. (s.30-33) Şübhəsiz, bunların bir qismi mübahisəli olaraq qalır.

Müəllifin fikrinə görə, bir sıra tabesiz mürəkkəb cümlələrin komponentləri arasında əlaqə məna əlaqəsi səviyyəsində deyil, münasibət səviyyəsindədir. Bura daha çox sadalama üsulu ilə qurulan tabesiz mürəkkəb cümlələri daxil edir (Ona görə də ilk növbədə məna və münasibət anlayışlarını aydınlaşdırmalı olur. Əlaqəni - iki şey arasında bağlılıq, münasibəti - uyğunluq, müvafiqlik kimi izah edir). Odur ki zaman və ardıcıllıq əlaqələri barədə mövcud fikirləri ətraflı araşdıraraq yazır: "Komponentlərdəki hadisə və ya faktların eyni zamanda və ya müxtəlif zamanda olması tabesiz mürəkkəb cümlənin zaman, yaxud da ardıcıllıq əlaqə növündə olmasını şərtləndirmir. Hər şeydən əvvəl ona görə ki, tabesiz mürəkkəb cümlənin digər məna növlərində (səbəb-nəticə, qarşılaşdırma) də komponentlərin arasında zaman əlaqəsi vardır. Digər tərəfdən isə, zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin böyük bir qismində, ümumiyyətlə, komponentlərin zamana görə əlaqələnməsi yoxdur". (s.47) Müəllifin fikrincə, hətta tərkib hissələrə aid ortaqlı zaman zərfləri "komponentləri zaman eyniyyəti baxımından birləşdirsə də, komponentlər arasındakı əlaqə yenə də zaman əlaqəsi adlandırıla bilməz; burada da zamana görə şərtlənmə yoxdur". (s.51) Bu cür fikirlərlə yanaşı, yekunda oxuyuruq: "Bütün bunları sadalamaqda məqsədimiz tabesiz mürəkkəb cümlələrdə zaman əlaqəsini inkar etmək, yaxud zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin dilimizdə olmadığını sübuta yetirmək deyil".(s.54)

Buradakı fikirlər bizə aydındır: sadalama üsulu ilə tələffüz edilən cümlələrdə komponentlərdən biri o birini zamanca şərtləndirmir. Ona görə də müəllif N.Hacıyevanın verdiyi ***Hələ məktəbdə dərs qurtarmamışdı, rayon mərkəzindən kolxoza adam gəldi*** - cümləsini "həqiqətən zaman əlaqəli tabesiz mürəkkəb cümlə hesab etmək lazımdır" deyir (s.55). Əslində isə bu cümlə zaman budaq cümləli tabeli mürəkkəb cümlədir. Bu məqamda müəllifin "sadalama əlaqəsi" adlandırılan əlaqəyə etirazını düzgün hesab edirik. Sadalama əlaqə ola bilməz, üsul ola bilər və bunu biz çoxdan qeyd etmişik.

Dissertasiyanın "Tabeli mürəkkəb cümlənin tərəfləri arasında semantik və funksional əlaqələnmə" adlanan 2-ci fəslində əsas məsələ tabeli mürəkkəb cümlənin təsnifi məsələsidir. Dilçiliyimizdə budaq cümlələr üzrə təsnif ənənəvi təsnif sayılır. Müəllif bu təsnifatda şərt və qarşılaşdırma budaq cümlələrini zərflik budaq cümlələri sırasına daxil etməyi məntiqi bilmir, funksional-semantik prinsipi əsas götürərək həm cümlə üzvlərinə uyğun, həm də şərt, qarşılaşdırma, qoşulma budaq cüm-

ləri kimi, "bundan kənarda qalan" (yəni cümlə üzvlərinə uyğun olmayan) budaq cümlələr ayırmağı təklif edir. Burada əsas istinad bu budaq cümlələrin baş cümlənin daha çox ümumi məzmunu ilə bağlı olması və bəzən bunların ismi xəbərli baş cümləyə bağlanmasıdır. Bu son məsələ bir çox başqa budaq cümlələrə (məsələn, səbəb, yer, kəmiyyət budaq cümlələrinə) də aiddir.

T.M.Hacıyev prof.Ə.Abdullayevin təyin budaq cümləsinin 3-cü tipi kimi izah etdiyi cümlələri düzgün izah etmiş, həmin cümlələrdə ***ki-***nin ədat olması qənaətinə düzgün gəlmişdir. Müəllif qəlib sözlərin baş cümlədə rolundan danışaraq Ə.Abdullayevin verdiyi "*O yerə gəldi ki, yağı basılmışdı*" - cümləsində ***o yerə*** sözlərinin birlikdə qəlib söz olmadığını qeyd edir. Bu misalda fikri doğrudur, lakin ***o yerə*** sözlərinin qəlib söz kimi işləndiyi hallar çoxdur. (s.79)

Müəllif ***mənə elə gəlir, belə çıxır, görünür, aydındır*** tipli söz və ifadələrin ara sözə tam çevrilmədiyini, hələlik baş cümlə kimi çıxış etdiyini göstərir.(s.90-93) Bu fəsildə ortaq üzvlər, baş cümlənin budaq cümlə daxilində işlənməsi halları (s.100-102), üslubi cəhətdən qüsurlu cümlələrin izahı (s.103) kimi məsələlər də maraq doğurur. *Qorqud ata derlər…* - konstruksiyasının izahına da xeyli yer verilmişdir.(s.110)

Dissertasiyanın 3-cü fəsli "Tabeli mürəkkəb cümlənin natamam formalarının struktur semantikası" adlandırılmışdır. Sadə cümlənin natamam formalarından dilçiliyimizdə ətraflı bəhs olunmuşdur. Mürəkkəb cümlənin natamam formaları ilk dəfə bu əsərdə geniş tədqiq edilmişdir. Natamam forma tabeli mürəkkəb cümlədə təbii olaraq yeni informativ yükə malik olmayan komponentin ellipsisi şəklində ola bilər. Müəllif bu məqamda cümlənin verdiyi informasiya ilə cümlənin ümumi semantikasını fərqləndirir və V.B.Kaseviçə əsaslanaraq göstərir ki, "…informasiya hər hansı məlumat deyil, yalnız hər hansı məlumatın yeni olan hissəsidir." (s.119) Cümlə ellipsisə uğradıqdan sonra onun informativ yükü ilə semantikası fərqlənir. Semantika informasiyadan geniş olur. Tabeli mürəkkəb cümlələrin natamam formaları zəngin nümunələr əsasında üç qrup daxilində öyrənilmişdir: 1)elliptik formalar; 2) yarımçıq formalar; 3) ixtisar formalar.

Müəllif elliptik buraxılma ilə yarımçıq formanı düzgün fərqləndirə bilmiş, xəbəri ***demək, görmək*** felləri ilə ifadə olunan baş cümlələrin ellipsisinə əsərdə daha geniş yer vermişdir. Elliptik formalarda, müəllifin müşahidəsinə görə, "…daha çox postpozitiv budaq cümlələr ellipsisə məruz qalırsa, yarımçıq formalarda, adətən, postpozitiv baş cümlələr buraxılır".(s.149) Elliptik forma bir neçə, yarımçıq forma bütün budaq cümlə növlərini əhatə edir, daha çox "budaq cümlə + baş cümlə" quruluş tipinə aid olur. Bunlar faydalı ümumiləşdirmələrdir.

Əsərdə ixtisar formalar haqqında oxuyuruq: "İxtisar cümlə" termini isə, ümumiyyətlə, yoxdur, ona görə də, bildiyimizə görə, bu termini ilk dəfə biz işlədirik və onu da deyək ki, bu ifadə əsas etibarilə məhz termin kimi işlənmiş və bu mənada şərtiliyə malikdir".(s.161) İxtisar formalara dair ümumiləşdirmələr də maraqlıdır: belə cümlələrin yaranması dil qanunları ilə deyil, şərait, situasiya və ekstralinqvistik amillərlə bağlıdır. Odur ki bu cür cümlələr həm struktur, həm də semantik cəhətdən natamam olur və natamam hissəni əksərən bərpa etmək də olmur; həm baş, həm də budaq cümlələr ixtsar oluna bilir və hər iki halda ixtisar olunanı bərpa etmək çətin olur, nəticədə budaq cümlənin növü də dəqiq müəyyənləşə bilmir.

Elliptik və yarımçıq formalar dilin qənaət üsulu ilə bağlı olduğu halda, ixtisar forma dilin təbiəti ilə bağlı deyil. Natamam formalar öz potensial mənasına görə tabeli mürəkkəb cümlənin ümumi yükünü daşıyır. Elliptik formalar cümlənin öz strukturu, yarımçıq formalar mətn əsasında müəyyənləşir. İxtisar formalar əksərən qeyri-müəyyən olaraq qalır.

Müəllif bəzən yarımçıq formaların bərpası prosesində cümlənin implisit-presuppozisional xüsusiyyətini bərpaya meyil etmişdir.

"Qovuşuq tipli tabeli mürəkkəb cümlələrdə semantik müəyyənləşmə" adlanan 4-cü fəsildə ilk növbədə qovuşuq cümlələrlə qarışıq tipli mürəkkəb cümlələr fərqləndirilmişdir. Bu fəslin böyük bir hissəsi bütövlükdə dissertasiyanın mühüm yeniliklərindən hesab oluna bilər.

Dissertasiyanın bu fəslində dilçilikdə fərq qoyulmadan sintaktik çoxmənalılıq və ya sintaktik omonimlik xüsusiyyəti kimi izah olunan tabeli mürəkkəb cümlələr nəzərdən keçirilmişdir. Bu hissədə işin mahiyyəti ilə əlaqədar deyilir: "Tabeli mürəkkəb cümlədə çoxmənalılıq dedikdə, o qrammatik situasiya nəzərdə tutulur ki, komponentlər arasında əsas məna əlaqəsi digər - ikinci bir məna çaları ilə daha da mürəkkəbləşdirilir və bir sıra hallarda situasiyadan asılı olaraq həmin çalar hətta birinci plana keçə bilir". (s.171) Burada "o qrammatik situasiya" yox, "o qrammatik konstruksiya" ola bilər. Məna çalarına gəldikdə bu cəhət xüsusən Ə.Abdullayevin məlum əsərində xeyli aydınlaşdırılmışdır. Məsələ ilə bağlı müəllif ən çox budaq cümlələrdə zaman və şərt çalarları üzərində dayanmışdır. Bunlar nisbətən aydındır və az-çox məlumdur. Müəllif bunların bir qismini qovuşuq cümlələr hesab edir və yazır: "Demək olar ki, bütün budaq cümlələrdə digər məna çalarlarını üzə çıxarmaq mümkündür. Təbii ki, bunların hamısını qovuşmuş budaq cümlələr hesab etmək olmaz". (s.191) Bizcə, qovuşmuş dedikdə korrelyativ - bir neçə nisbi əvəzlikli cümlələri nəzərdə tutmaq düzgün olar. O birilərini semantik çalar kimi izah etmək düzgündür.

Bu fəsildə omonim sintaktik konstruksiyalardan da bəhs olunur. Bu sahəni genişləndirmək olardı.

Qovuşuq cümlələr ifadəsi müəllifin qeyd etdiyi iki haldan ikincisinə daha çox aiddir: "Dilimizdə bir tabeli mürəkkəb cümlə çərçivəsində bir neçə semantik-funksional əlaqələnmə özünü müxtəlif şəkildə göstərə bilir. Bir halda heç bir xüsusi fərqləndirici əlamət olmadan konstruksiyanın daxili məzmununda iki müxtəlif və eyni dərəcəli semantik əlaqələnmə və informativ yük olur. İkinci halda xüsusi qrammatik göstəricinin iştirak etdiyi konstruksiyada bir məna əsas olur, digəri ikinci dərəcəli, çalar xarakteri daşıyır". (s.172) Müəllifin fikrincə, qovuşuq tip ancan tabeli mürəkkəb cümləyə aiddir. Konkret təhlil prosesində tərzi-hərəkət və yer budaq cümləsinin, mübtəda və yer budaq cümləsinin qovuşması kimi yarımbaşlıqlar ayırsa da, sonralar bu prinsipi davam etdirməmişdir. *Cahannur qızı* ***hardan, necə*** *gətiriblərsə,* ***eləcə də oraya*** *qaytarsınlar.* ***Kim haraya*** *təhkim olunubsa, gedə bilər* **-** tipli cümlələrin budaq cümləsindəki iki bağlayıcı söz baş cümlədə iki qarşılıq bildirən sözə işarədir.

5-ci fəsil "Komponentlərdən biri frazeologizm xarakterli tabeli mürəkkəb cümlələrdə semantik müəyyənləşmə" adlanır. Bu fəsildə tərkib hissələrindən biri və ya hər ikisi frazeoloji vahidlər və sabit ifadə, ibarələrlə ifadə olunan tabeli mürəkkəb cümlələr təhlil olunmuşdur. Ona görə də bu fəsil: 1) komponentlərindən biri frazeologizm xarakterli olan tabeli mürəkkəb cümlələr; 2) hər iki komponenti frazeologizm xarakterli olanlar - kimi iki bölməyə ayrılmışdır. Tədqiqatdan aydın olur ki, həm baş cümlə, həm budaq cümlə, həm də baş və budaq cümlə eyni zamanda frazeologizm xarakterli ola bilir. Nümunələrin təhlili göstərir ki, bəzən baş cümlə tam məcaziləşmiş olur, bəzən isə tərkibində həqiqi mənalı sözlər və birləşmələr işlənir.

Tərkib hissələri frazeologizmlərlə ifadə olunan tabeli mürəkkəb cümlələrin komponentlərinin cümlə üzvlərinə və şəxsə görə təhlilinə az diqqət yetirilmişdir.

Son fəsil "Mürəkkəb cümlədə komponentlərin semantik əlaqəsinin formalaşmasında bağlayıcı vasitələrin rolu" adlanır. Burada intonasiya, bağlayıcı, bağlayıcı söz, şəkilçi və ədatların komponentləri bağlamaqda rolu nəzərdən keçirilmişdir. Bu fəsildə elə bir yenilik yoxdur. Müəllifin fikrincə, bağlayıcıların bir qismi və müəyyən məqamlarda intonasiya yalnız komponentlər arasında əlaqə yaradır, başqa vasitələr isə həm də məna əlaqəsinin üzə çıxmasına kömək edir.

Dissertasiyada bir sıra dəqiqləşdirilməli məsələlər də vardır. Müəllif bunları asanlıqla aradan qaldıra bilər:

1.T.M.Hacıyev aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrə etiraz edir. Müəllifin fikrincə, belə cümlələrdə ikinci tərkib birincinin çox zaman bir üzvünə aid olur, bu isə tabeli mürəkkəb cümlənin xüsusiyyətidir. (s.62) Qeyd edir ki, bütün hallarda birinci komponentdən sonra ***ki*** bağlayıcısını artırmaq mümkündür. (s.63). Bu fikirlə razılaşmaq olmaz. Aydınlaşdırma əlaqəli tabesiz

mürəkkəb cümlələr həm tərkibində ümumiləşdirici sözü olan sadə həmcins üzvlü cümlələrlə, həm də tabeli mürəkkəb cümlələrlə oxşar cəhətlərə malikdir. Aydınlaşdırma əlaqəsində birinci komponentdən sonra ***ki*** bağlayıcısını işlətmək olmaz. Digər tərəfdən, tabesiz mürəkkəb cümlənin bu növünün analiz-sintez üsulu da vardır.

2.Müəllif dərəcə budaq cümləsinin tərz və nəticə budaq cümlələrinə semantik-struktur yaxınlığını nəzərə alaraq, tərz budaq cümləsi içərisində öyrənilməsini münasib bilir. Digər tərəfdən, dərəcə budaq cümləsi kəmiyyət budaq cümləsinə də yaxın sayılır: "…dərəcə və kəmiyyət semantik baxımdan bir yuvaya girən anlayışlardır, daha doğrusu, dərəcə kəmiyyətin yüksək fazasıdır". "…dərəcə və bir çox hallarda kəmiyyət anlayışının özü tərz ilə üst-üstə düşür və ya ona yaxınlaşır".(s.76) "Mənə elə gəlir ki, dərəcə, hətta kəmiyyət budaq cümləsinə aid edilən bəzi nümunələr tərzi-hərəkət budaq cümləsinin içərisində öyrənilə bilər. Budaq cümlə növlərinin süni şəkildə artırılmasına, təbii ki, ehtiyac yoxdur". (s.76) "Nəticə olaraq onu demək istəyirəm ki, dərəcə budaq cümləsinə aid verilən konstruksiyaların bir qismi tərzi-hərəkət, digər qismi kəmiyyət və ya başqa budaq cümlələrdir" (s.78) "Ona görə də, mənim fikrimcə, "dərəcə budaq cümləsi" adlı müstəqil budaq cümlə növünün ayrılması özünü doğrultmur, onları müvafiq olaraq tərzi-hərəkət, kəmiyyət, təyin, nəticə və s. budaq cümlələri arasında dərəcə çaları ilə öyrənmək lazımdır" (s.78) Bizim fikrimizcə, dərəcə zərfliyi də, dərəcə budaq cümlələri də var. Ola bilər ki, dərəcə budaq cümləsi hesab edilən bir sıra mürəkkəb cümlələr tərz və ya kəmiyyət budaq cümlələrinə çox yaxındır. Lakin məsələn: *Elə bacarıqsızdır ki, on saata traktoru işə sala bilməyəcəkdir*. *Bayatının sözlərini elə bir təsir, elə bir ürəklə dedi ki, Firidunun da, Qəhrəmaninin də gözləri yaşardı* – cümlələrini başqa cümlə növü saymaq olmaz.

3.Mühüm bir problem də tərkibdaxili üzvlərə aid budaq cümlələrin işlənməsidir: Müəllif: *Deyəndə ki, hazırlaş, müəmmalı tərzdə arxaya çevrilmişdi* – tipli cümlələrdə tərkibdaxildi üzvlərə aid budaq cümlələrin olması fikrini qəbul etmir ona görə ki, "Əks təqdirdə. təsriflənməyən formanın - feli bağlamanın cümlə xəbəri olduğu fikrini qəbul etməliyik ki, bu da nə elmi, nə də, ümumiyyətlə, məntiqi olardı".(s.84) Əslində, burada qeyri-elmi bir şey yoxdur. Tərkiblərin budaq cümlə olmadığı fikri hələ tam əsaslandırılmayıb.

4.Müəllif: *Mən də onun xəstəsiyəm ki, hər gün səhər tezdən üç-beş nəfər baş endirə-endirə otağıma girib mənə təriflər desin*. - cümləsini qəlib sözə (***onun xəstəsiyəm***) əsaslanaraq təyin budaq cümləli tabeli mürəkkəb cümlə kimi izah etməyi məsləhət bilir. (s.89) Bu, böyük bir problemdir və həll edilməmişdir. Bunun üçün əvvəlcə 3-cü növ təyini söz birləşməsinin tərəflərinin sintaktik vəzifəsi müəyyənləşdirilməlidir.

5.Bir sıra mürəkkəb cümlələr düzgün izah olunmamışdır: *Allah səndən razı olsun, necə ki mən səndən razı oldum* - tipli cümlələri "müstəqil budaq cümlə" növü kimi öyrənmək məsləhət görülür. Belə cümlələr tərz budaq cümləlidir.

Mən sizə söz verirəm ki, o bizdə də amanda olacaq - cümləsi ***elə bir*** sözü artırılmaqla təyin budaq cümləsi hesab edilir, əslində isə tamamlıq budaq cümləsidir.(s.104) *Kim harada işləyir, heç kimi maraqlandırmamışdı* (Ə.V.) – cümləsində budaq cümlədəki ***kim, harada*** sözlərinin baş cümlədə korrelyativ qarşılığının olmaması bu cümlədə komponentlərin inversiyası ilə əlaqələndirilir.

(s.179) Əslində isə bu, ən qədim formadır və canlı dildə özünü bu gün də saxlamışdır.

Müəllif: *Nə zaman nə lazım olsa, zəng elə*, (s.179) *Kim hara gedəcəksə, indidən hazırlaşsın* (s.182) cümlələrində də korrelyativ əlaqə görmür, halbuki mümkündür: *o zaman ondan ötrü zəng elə. Kimə harda lazımdırsa, o həmin yerdə məskunlaşa bilər* - cümləsində ***həmin yerdə*** sözlərini iki üzvə ayırdığı üçün müəllif korrelyativ əlaqənin fərqli olduğunu qeyd edir.(s.180) Halbuki ***yerdə*** sözü müstəqil cümlə üzvü ola bilmir.

Günəşin qızartısı təzəcə göy üzünə yayılmağa başlayırdı, uzaqdan tanış olmayan bir maşın göründü - cümləsini birinci komponentin xəbərinin uzun və ya adi tələffüzü ilə zaman budaq cümləsi və zaman əlaqəli tabesiz mürəkkəb cümlə kimi izah etmişdir. (s.240) Fikrimizcə, burada tabesiz mürəkkəb cümlə və sadalama yoxdur. Arada ***və*** işlətmək də olmaz.

6.Müəllif: *Meydandakı köhnəlmiş artıq binalar sökülür və yeni binalar tikilirdi. - Nə meydandakı köhnəlmiş artıq tikililər sökülür, nə də yeni binalar tikilirdi. - Həm meydandakı köhnəlmiş artıq tikililər sökülür, həm də yeni binalar tikilirdi* - cümlələri haqqında yazır: "Bu nümunələrdəki fikirlərin bir-birindən əsaslı şəkildə fərqlənməsi göz qabağındadır və bu fərqi yaradan hər cümlədə işlənmiş bağlayıcılardır".(s.243) Halbuki bu cümlələrdə bağlayıcıların yaratdığı qrammatik mənada heç bir fərq yoxdur. Fikrin təsdiq və ya inkar olması fərq deyil. Birinci cümlədəki ***və*** də, sonrakı cümlələrdəki ***nə - nə də, həm - həm də*** hadisələri birləşdirmək məqsədi daşıyır. Dissertasiyada bağlayıcılar semantik və asemantik növlərə ayrılmışdır. Asemantik bağlayıcı olmaz. Bağlayıcı qrammatik mənaya malik olur. ***Və, ki*** bağlayıcıları asemantik deyil.

7.Müəllif yazır:"…şərt məzmununun qarşılaşdırma məzmunu ilə əvəz olunması məhz ***da*** ədatının iştirakı ilə olur" (s.254) Düz deyil. Qarşılaşdırma məzmunu bu ədatsız cümlənin özündə olur: *Koroğlu nə qədər çalışdı, Dəmirçioğlunu başından aşıra bilmədi.* Cümlə qarşılaşdırma mənalı olduğu üçün *da* ədatı işlənir.

Dissertasiyanın elmi və praktik əhəmiyyəti böyükdür. Dilimizin sintaktik quruluşunun daha ətraflı öyrənilməsi üçün bu əsərdən geniş istifadə oluna bilər. Dissertasiya göstərir ki, biz hələ xüsusilə tabeli mürəkkəb cümlələrin daha çox üzdə olan məsələlərini öyrənmişik və dərin qatlarda öyrənilməli məsələlər çoxdur. Əsər mühüm praktik əhəmiyyətə malikdir. Ali məktəblərdə sintaksis kursunun, bir sıra xüsusi kursların tədrisi, türk dillərinin müqayisəli qrammatikasının yaradılması üçün faydalıdır. Elmi aparaturası zəngindir. Dünya dilçiliyinin son nailiyyətlərindən geniş istifadə edilmişdir. Müəllifin əsəri tam şəkildə əhatə edən qiymətli monoqrafiyası və 20-dən aritıq elmi məqaləsi vardır. Bunlar əsərin məzmununu tam şəkildə əhatə edir.

Bir cəhəti də qeyd etmək istərdim ki, son vaxtlar sintaksis sahəsində mütəxəsis görünmürdü. Bu əsərdən aydın olur ki, T.Hacıyev sintaksisin ən incə məsələlərinə dərindən bələddir və o bu sahədə yaxşı bir

mütəxəssis kimi yetişmişdir. Bu bizim ümidlərimizi artırır və bu sahədə tədqiqatın davam etməkdə olduğunu göstərir.

Bütün bunları nəzərə alaraq qeyd edirik ki, "Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası" adlı bu əsər doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

S.Zülfüqarlı (Hüseynova). «Azərbaycan dili». (Azərbaycan Dövlət İqtisad Universitetinin rus bölməsi üçün dərslik). 28.01.2004

Rus qruplarında təhsil alan tələbələrin Azərbaycan dilində iqtisadiyyat terminlərini öyrənmələri üçün bu cür dərsliklərə daim ehtiyac hiss olunmuşdur. Odur ki dosent S.Zülfüqarlının Dövlət İqtisad Universitetinin tələbələri üçün hazırladığı dərslik, ilk təşəbbüs kimi, qiymətlidir.

Dərslik yaxşı tərtib olunmuşdur. Fonetik, leksik və qrammatik materialın iki dildə - Azərbaycan və rus dillərində olması mövzuların mənimsənilməsi baxımından faydalıdır. Elmi-nəzəri məlumat yığcam şəkildə verilmiş, tələbələrə dilin leksik, fonetik və qrammatik quruluşu ilə bağlı ən vacib məsələləri çatdırmaq nəzərdə tutulmuşdur. Praktik nitq vərdişlərinin yaradılmasına daha çox meyil edilmişdir.

Dərslik proqrama uyğun tərtib edilmişdir və dilin bütün sahələrini əhatə edir. Yeri gəldikcə orfoepiya, orfoqrafiya məsələlərinin ön plana çəkilməsi müəllifin metodiki qaydaları xüsusi nəzərə aldığını göstərir.

Şübhəsiz, dərslikdə verilmiş nəzəri məlumat dilimizin quruluş xüsusiyyətlərini öyrənmək üçün vacib və yararlıdır. Lakin dərsliyə daxil edilmiş mətnlər, fikrimizcə, onun dəyərini daha çox artırır. Bu mətnlər Azərbaycan xalqının mədəniyyət, ədəbiyyat və ictimai fikir tarixinin, demək olar ki, bütün inkişaf mərhələlərini əhatə edir. "Avesta"dan, xalqımızın qadın qəhrəmanı Tomirisdən başlamış bu günə qədərki ədəbi, elmi, tarixi şəxsiyyətlər haqqında dərsliyə maraqlı mətnlər daxil edilmişdir. Dərslik üzərində iş aparan tələbələr iki il müddətində (1 və 2-ci kurslarda) müəyyən nitq vərdişləri qazanmaqla yanaşı, Azərbaycan mədəniyyət tarixi ilə kifayət qədər tanış ola biləcəklər. Dünyanın görkəmli iqtisadçı alimləri haqqında tərtib olunmuş mətnlər də ixtisas qrupları üçün çox düzgün düşünülmüşdür.

Lakin mətnlərin tərtibində asanlıqla düzəldilə bilən qüsurlar da müşahidə olunur. Bəzi mətnlərin müəllifi, haradan alındığı var, bəzilərində yoxdur. 150-151-ci səhifələrdə I Pyotrun vəsiyyətləri verilmişdir. Belə bir irticaçı mətni dərslikdə yox, ümumən elm aləmində qeydə almaq düzgün deyil.

S.Zülfüqarlının bu əsəri müəllifin uzun illərdən bəri əldə etdiyi təcrübənin və xüsusi zəhmətin nəticəsidir. Dərsliyin sonunda Azərbaycan və rus dillərində verilmiş iqtisadiyyat terminləri lüğətinin faydalı olacağını xüsusi qeyd edirik.

S.Zülfüqarlının(Hüseynovanın) Azərbaycan Dövlət İqtisad Universitetinin rus bölməsi tələbələri üçün hazırladığı "Azərbaycan dili" əsərini faydalı hesab edirik və dərslik kimi çap olunmasını məsləhət bilirik.

Mehriban Əlihüseyn qızı Hüseynova. «Mətnin sintaktik-semantik və koqnitiv interpretasiyası»
ND. Opp.r. 22.02.2004

Mətnin tədqiqi məsələləri son dövrdə genişlənməkdədir. 60-cı illərdə bu sahə ilə yalnız bir nəfər məşğul idisə, indi bu sahənin K.Abdullayev, Ə.Abdullayev, M.Mahmudov, F.Əlizadə, N.Novruzova, Q.Bəyzadə kimi tədqiqatçıları vardır. Mətnin sintaktik-semantik və koqnitiv xüsusiyyətlərinin şərhinə həsr olunmuş bu dissertasiya da həmin sahə ilə bağlı olub, öz aktuallığı ilə diqqəti cəlb edir.

Mətn dilçiliyinin inkişafa başladığı dövrə qədər bitkin fikrin əsas ifadə vasitəsi cümlə hesab olunurdu. Dilin bütün elementləri - səs, heca, kök, şəkilçi, söz birləşməsi, cümlə və onun qrammatik semantikası cümlə vasitəsilə öyrənilə bilər. Yəni dilçiliyin bütün şöbələrinin (fonetika, leksikologiya, frazeologiya, morfologiya, sintaksis, üslubiyyat və s.-in) öyrənməsi üçün hər cür fakt və materialı cümlədə tapmaq mümkündür. Lakin tədqiqat genişləndikcə aydın olur ki, dilin quruluş və məna xüsusiyyətlərini hərtərəfli öyrənmək üçün mətnin tədqiqi lazımdır. Mətn bir aləmdir və mətnin qurulma texnikasını ətraflı öyrənmədən bir çox məsələləri dəqiq aydınlaşdırmaq qeyri-mümkündür. Odur ki mətn öyrənilməyə başlamışdır və öyrənildikcə yeni sahələri ortaya çıxır.

Qeyd etdiklərimiz göstərir ki, M.Hüseynovanın mövzusu aktualdır və dilçiliyimizin hazırkı səviyyəsində öyrənilməli mühüm bir məsələnin tədqiqinə həsr olunmuşdur.

132 səhifəlik bu dissertasiya giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir. M.Hüseynova girişdə ümumi sxemdən əlavə, bir sıra vacib məsələləri də aydınlaşdırmalı olmuşdur.

Məlumdur ki, mətn dilçiliyi yaranana qədər mətn anlayışı çox müxtəlif şəkildə, həm də bir qədər yayğın başa düşülürdü. Biz daim dil dərslərində istifadə etdiyimiz bir cümləni də, bir neçə cümlə birliyini də, səhifə-səhifə yazıları da mətn adlandırmışıq. Lakin artıq mətn dilçiliyində ***mətn*** sözü konkret mənası, məzmunu, quruluşu olan bir anlayışı bildirən dilçilik termini kimi işlənməyə başlamışdır. Bu mənada mətn mik-

ro və makromətn kimi iki növə ayrılır. Makromətnnin həcmi dəqiq deyil və o, mənası, məzmunu, daxili rabitəsi olan mətn kimi müxtəlif həcmlərdə düşünülə bilir. Mikromətn isə artıq tədricən dəqiqləşməkdədir. Bu mənada (mikromətn mənasında) müxtəlif terminlərdən (sintaktik bütöv, mürəkkəb sintaktik bütöv, abzas, diskurs, frazafövqi vahid və s.) istifadə edilməkdədir, lakin bunların arasında "sintaktik bütöv" termini sabitləşməkdədir. Bir çox hallarda bu termini "mürəkkəb sintaktik bütöv" şəklində, "mürəkkəb" sözünün əlavəsi ilə işlədirlər. Sintaktik bütöv mürəkkəb cümlədən böyük sintaktik vahiddir, mətnin başlanğıcı, məzmunu və ümumiləşdirici yekunu olan bitkin formasıdır. Buna "mürəkkəb" sözünü artırmaq düz deyil. Mürəkkəb sintaktik bütöv bir neçə sintaktik bütövün birliyi kimi başa düşülə bilər. M.Hüseynova bu cəhəti düzgün qiymətləndirmiş, termini bizim mövqeyimizə müvafiq şəkildə işlətmişdir.

Girişdə mətnin xarakteri (nəqli, təsviri, psixoloji mətnlər) və sintaktik bütövlərin sərhədi məsələləri də dissertantı maraqlandırmışdır. Təbii ki, bu sahələrdə hələ də fikir ayrılıqları qalmaqdadır. Girişin yaxşı cəhətlərindən biri də müəllifin tədqiq edəcəyi problemləri burada əvvəlcədən sıralamasıdır.

Dissertasiyanın birinci fəsli "Mətn dilçiliyinin nəzəri-metodoloji problemləri" adlanır Fəslin ilk bölməsi "Mətn dilçiliyinin təşəkkülü" məsələsinə həsr edilmişdir. Müəllif mətnin təhlili və tədqiqi üçün bir sıra problemlərin olduğunu göstərir. Fəslin əvvəlində L.İ.Zibelman, O.İ.Moskalskaya, T.M.Nikolayeva, E.İ.Şendels, Azərbaycan dilçilərindən K.Abdullayev, Ə.Abdullayev, Q.Bəyzadə və başqalarının mətn dilçiliyinin təşəkkül yolu barədə fikirləri nəzərdən keçirilmiş, ayrı-ayrı problemlərin tədqiqi tarixinə diqqət yetirilmişdir. Mətn dilçiliyinin inkişaf yolunu ümumiləşdirərək müəllif yazır: "Bizim fikrimizcə, 50-60-cı illəri paradiqmadan əvvəlki dövr kimi, yəni mətn qrammatikasının yaranması üçün bünövrə formalaşdıran dövr kimi xarakterizə etmək olar. 70-80-ci illər onun normal inkişaf dövrüdür. Bu zaman kommunikativ sintaksis ideyasını əks etdirən paradiqma monoqrafiyalarda, tədris vəsaitlərində öz əksini tapmışdır; müasir dövr (90-cı illər) - dilin inteqral təsvirinə keçid, yəni inqilabi dövr kimi xarakterizə olunur".(s.15-16) Dissertant göstərir ki, dilin inteqral təsvirinə keçidin vacibliyini leksikologiya çərçivəsində ilk dəfə Conson Layrd müəyyən etmiş, maşın tərcüməsi sistemləri layihəsini ilk dəfə o önə çəkmişdir.

Mətnin təhlilinin iki əsas metodu - interpretasiya və linqvistik informasiya metodları haqqında məlumat verən müəllif bu metodların hər birinə müxtəlif yöndən yanaşıldığını da qeyd etmişdir. Məsələn, interpretasiya metodunun mətnin xətti-kompleks təhlili (L.İ.Zibelman), məzmun-konseptual informasiyanın təhlili (V.A.Kuxarenko), mətnlərin müqayisəli-kompozisiyalı təhlili metodu kimi metodları vardır. Linqvistik-

informasiya metoduna isə qoparılma (ayırma) metodu, denotat təhlil metodu, tematik xətlərin ayrılması kimi metodlar daxildir. Hiss olunur ki, inteqrativ təsvir sahəsində dissertantın özünün də əməyi vardır. Dissertant özü də bir metod təklif etmişdir: mətnin kompozisiyalı modelləşməsi metodu.(s.17)

Əvvəlki əsərlərdə olduğu kimi, M.Hüseynova da bu fikirdədir ki, məzmun zəncirinə fikir parçasını ümumiləşdirici bir söz başçılıq edir. Fəslin ikinci bölməsi "Mətnlərdə mənanın dinamikası: oxucu qabiliyyəti və mətn tipi" adlanır. Mətnin interpretasiyası mətn mühakimələrinin sintaktik-semantik əlaqələrini aşkar etməkdir. Müəllifin fikrincə, bu işin çətinliyi iki səbəblə bağlıdır: mətnin oxunaqlılıq keyfiyyəti və oxucunun mətni oxumaq bacarığı ilə.(s.20) Əslində, bu sözləri bir qədər də şərh etsək, o deməkdir ki, mənanın dinamikası mətnin ustalıqla qurulmasından və oxucunun bilik, bacarıq və mətni anlama səviyyəsindən asılıdır.

Bu fəsildə mətnin yaranma modellərinə və mətni oxuyub anlama prosesi haqqında nəzəriyyələrə xüsusi diqqət yetirilmişdir. Təbii ki, oxucu mətni o zaman düzgün anlayır ki, mətni yaradanın məqsədini düzgün başa düşmüş olur və onun fikrini öz bilikləri sisteminə daxil edə bilir. Mətni anlamaq üçün sözlərin fərqli mənalarını bilmək və başa düşmək lazımdır.(s.43) Bu fəsildə əsas məsələ, bir qədər açıq şəkildə deyilməsə də, metodiki xarakter daşıyır, şagirdlər üçün qurulmuş mətnlər və şagirdlərin onları anlama bacarığından söhbət gedir. Məsələn, müəllifin izahına görə, statistik modeldə əsas məsələ sözün tanınması, sözün mənası, morfemlərin təhlili və kontekstin roludur. Müəllif deyir: "…statistik metod tədqiqatçıya imkan verir ki, oxumağa yenicə başlayan və artıq bu sahədə təcrübəsi olanların bir qrup halında anlamaq qabiliyyətlərini yoxlasın və nəticələri bütövlükdə təhlil etsin". (s.44)

Dissertasiyanın ikinci fəsli "Mətnin sintaktik, semantik interpretasiyası" adlanır. Bu fəsildə müəllif ilk növbədə mətnin yaranmasını şərtləndirən amillərə diqqət yetirmişdir. Dissertantın öz dediklərindən aydın olur ki, bu fəslin əsas məqsədi "…mətnin formalaşması və başa düşülməsi prosesinin nəzərdən keçirilməsi və onun semantik-sintaktik təhlili"ndən ibarətdir.(s.52) Dissertantın fikrincə, hər bir mətn müəyyən bir motivlə başlayır. Motiv mətnin yaranması prosesini doğurur, lakin motiv hələ məzmun deyil. İkinci mərhələ danışığın məqsədidir. Mətnin məzmununun meydana çıxması məqsədin izahıdır.

Dissertant daxili və xarici mətnləri fərqləndirməyə çalışmışdır. Daxili mətnin predikativ xarakterli olmaqla sintaqmatik quruluşlu xarici mətnə çevrilmə imkanına malik olduğunu qeyd etmişdir. Xarici mətn informasiyanı başqasına ötürmə vasitəsi olub, bir sıra cümlələrin birliyindən yaranır, qapalı struktura malik olur. Xarici mətn yaranarkən daxili mətn əsasında həm tema, həm də rema genişləndirilir. Müəllif yazır:

"Bunun üçün (tema və remanı genişləndirmək üçün) mətnin teması və həmçinin onun remasının uzun müddət saxlanması zəruridir". (s.62) Yəni dissertant demək istəyir ki, xarici mətndə tema və rema ilə əlaqədar detallardan xeyli danışılmalıdır ki, oxucunu inandıra bilsin, onun diqqətini remaya yönəldə bilsin. Əks halda mətn "qapalı məna sistemi" xarakterini itirə bilər. Bunlar göstərir ki, mətn nitq fəaliyyətinin mürəkkəb formasıdır. Mətnin yaranmasını şərtləndirən amillər operativ yaddaşın kifayət qədər həcmli olması, danışan şəxsin qarşısında duran məqsədin aydınlığı və s.-lə bağlıdır. Bu zaman mətn komponentlərinin diqqətlə seçilməsi və nizamlanması vacibdir.

Əsas fikrə görə, uşaqlarda mətnin yaranması izolə edilmiş sözlərdən, ifadələrdən başlayır, tədricən mürəkkəbləşir. Hallideyin müşahidələrinə əsasən, ilkin ingilis uşaq nitqində tonun yüksək və ya aşağı olmasından asılı olaraq, "e-e" səsi "bunu elə" və ya "bu yaxşıdır", yaxud "yatmaq istəyirəm" deməkdir.(s.63) Uşaqda yalnız məktəb yaşına çatdıqda qapalı mətn sistemi yaranır. Bu fikir də maraqlıdır ki, uşağın daxili nitqi xarici nitqindən gec formalaşır.

Sonrakı hissədə dissertant mətnin anlaşılması prosesi üzərində dayanmışdır. Mətnin anlaşılması xarici mətnin cümlələrindən başlayır və bütöv mətni əhatə edir. Mətnin alt mənasının anlaşılması çətin və az tədqiq olunmuş sahə sayılır. Mətnin anlaşılması üçün əsas şərt verilmiş informasiyaların düzgün dərk edilməsi və qrammatik strukturun düzgün mənimsənilməsidir. Əsas məsələ mətnin mərkəzi daxili mənasını dərk etməkdir. Bu isə üst mənadan mürəkkəb alt mənaya keçid deməkdir. Bunlar göstərir ki, mətn müxtəlif dərinlikdə anlaşıla bilər.

Mətnin mənasının anlaşılması sözlərin anlaşılmasından başlayır. Bu özü də mürəkkəb prosesdir, çünki sözlər omonimliyə, çoxmənalılığa malikdir, kontekstdə onun hansı mənada işləndiyi düzgün dərk olunmalıdır, yoxsa mətnin mənası düzgün anlaşılmaz.

Müəllif burada sözün mənasını anlama prosesini normal uşaqlarla bərabər, lal-karlar üçün də nəzərdə tutan şərhlər vermişdir.

Bu hissədə dissertant tema və rema və ümumən aktual üzvlənmə haqqında da yığcam məlumat vermişdir.

Dissertasiyanın son fəsli mətnin idraki şərhinə həsr olunmuşdur ("Mətnin koqnitiv interpretasiyası"). Bu fəsildə ilk növbədə xarici alimlərdən Kinç və Van Diykin mətnin koqnitiv - idraki interpretasiyasına dair fikirlərini nəzərdən keçirmiş, azyaşlı uşaqlarda mətni anlamanın çətinlikləri və bunun psixoloji tərəfləri, adları qeyd edilən alimlərin nəzəriyyəsinin müsbət və mənfi cəhətləri araşdırılmışdır. Əsas məsələlərdən biri mətnin dərkində müxtəliflikdir. Bu cəhət yaxşı və pis oxucuları fərqləndirmə əsasında aydınlaşdırılmışdır. Dissertant yaxşı oxucuların mətni anlama posesində 20-yə qədər şərtə əməl etdiklərini, pis oxucuların bu

şərtlərə ardıcıl əməl etmədiklərini qeyd etmişdir. Pis oxucuların mətni anlama prosesində əsas qüsurları onların mətni anlama prosesində çox vaxt itirmələrindən ibarətdir. Çətin sözləri anlamaqda ləng tərpənirlər.

Bu fəsildə mətni anlamada yaddaşın rolu xüsusi nəzərdən keçirilmiş, yaxın və uzaq yaddaş, uzaq yaddaşa keçilmədə yaxın yaddaşın rolu öyrənilmişdir (Los Anceles Universitetinin professoru Kofer yaddaşı belə səciyyələndirmişdir: "Yaddaş baş-beyndə həm yaxın zamanlarda, həm də uzaq keçmişdə baş verənləri toplamaq üçün insana verilən qabiliyyətin adıdır"). (108)

Nəhayət, dissertant belə bir nəticəyə gəlir ki, mətn insan şüurunun məhsuludur, onu anlamaq və şərh etmək olar, orada yalnız insan düşüncələrinin məzmunu deyil, strukturu da əks olunmuş olur. Mətnin yaranması semantik-sintaktik-koqnitiv hadisə deyil, həm də sosial hadisədir.

Dissertasiyanın mübahisə doğuran cəhətləri də vardır:

I.İlk fəslin ilk bölməsində ("Mətn dilçiliyinin təşəkkülü") deyilir: "Mətnin tədqiqi onun təhlilinin ümumi problemləri ilə bağlıdır. Bu sahədə mövcud tədqiqatların təhlilinin göstərdiyi kimi, verilmiş problemlərə aşağıdakıları əlavə etmək olar: 1)mətn qrammatikası inkişafının dövrləşdirilməsi… 5)mətn qrammatikası predmetinin müəyyən edilməsi… 6) mətn qrammatikası çərçivəsində tədqiqatların əsas istiqamətlərinin müəyyən edilməsi və s." (s.12)

Burada iki məsələ çətinlik törədir. Müəllif mətn dilçiliyi anlayışı ilə mətn qrammatikası anlayışını eyniləşdirir. Digər tərəfdən, "verilmiş problemlərə aşağıdakıları əlavə etmək olar" dedikdə bilmək olmur ki, bunlar (6 problem) müəllifin əlavə etdiyi problemlərdir, yoxsa bu tədqiqata qədərkilər də bura daxildir.

II..Əsərdə üslub qüsurları vardır:

1."T.M.Nikolayeva mətn qrammatikasının meydana gəlməsini 60-70-ci illərin ikinci yarısına aid edir". (s.13) 60-70-ci illər zəruri birləşdirilən illər deyil. Bunu elə ***70-ci illər*** də demək olardı.

2."Dilin təhlilinə inteqral yanaşma çərçivəsində bizim tərəfimizdən ilk dəfə olaraq, özündə nominal, kommunikativ, modal planları cəmləşdirən mətnin məntiqi-qrammatik strukturunun konsepsiyası hazırlanmışdır". (16)

Müəllifin bir neçə belə təklifi vardır və bunlar çox yaxşıdır. Amma iki şey anlaşılmır: əvvələn, hər bir mətndə nominal, kommunikativ və modal planlar olur və bunsuz mətn olmaz. İkincisi, "məntiqi-qrammatik strukturunun konsepsiyası" nə deməkdir - bilinmir. Bəlkə "konsepsiyasının təhlili (öyrənilməsi)" nəzərdə tutulur? Əgər belədirsə, "təhlil" sözünün işlədilməməsi presuppozisional haldır, yəni oxucu tərəfindən əlavə olunmalıdır. Bu sahə isə yeni sahədir və hər oxucu bu əlavələri edə bilmir, odur ki dissertasiyada anlaşılmazlıqlar çoxalır.

3.Başqa üslubi qüsurlar: "…mətnin başa düşülməsi *bir neçə proseslərin* nəticəsində baş verir".(s.34) "*Bu iki propozisiyalar* məhz *ona görə seçilmişdilər ki, çünki* onlar mətnin məzmununa daha çox aiddirlər".(s.39-40)

4.Cümlə quruluşu: "Hələ 1929-cu ildə Riçardsın "Praktikal Kritisizm" adlı kitabı çapdan çıxanda *hamı* oxuyub… ən vacib faktor kimi *yanaşmağa başladılar*".(s.43) "Sonralar psixoloji dilçilərin nəzəriyyələri oxucu və oxu prosesi

haqqında yeni təlimlərin meydana çıxmasına təkan verdilər".(s.46) "*Bu nəticələr* mətnin koqnitiv məzmununu təsvir etməkdən daha çox, onu mənfi cəhətdən *xarakterizə edirdilər*".(s.57)

5.Müəllif mətni əlaqələndirən vasitələr içərisində "*hansı ki*" bağlayıcısından da xeyli danışır. Oxuyuruq: "Bu cür konstruksiyaların sadə formaları, məsələn, "O qəzet, *hansı ki*, mən səhər oxuyurdum" (Mənim səhər oxuduğum qəzet") asan başa düşülür".(s.78) Müəllif mötərizədəki formanın asan başa düşüldüyünü deyir, amma, əslində, *hansı ki* forması ədəbi dilimiz üçün ümumən yabançıdır və hələ 30-cu illərdə yazıçı Mir Cəlal tərəfindən tənqid edilmişdir. Lakin, deyəsən, müəllifə xoş gələn ifadədir, çünki yazır: "Vaxtilə C.Miller tərəfindən təklif edilmiş nümunə klassik nümunədir: "Rəssamın çəkdiyi şəkil, *hansı ki,* kolleksionerə satmışdır*, hansı ki*, incəsənət əsərlərini yığırdı, *hansı ki,* bu yaxınlarda ölmüşdür, sərgidə mükafat almışdır". Bu cür cümlə və tərcümə olmaz, hələ klassik nümunə olması bir yana.

Bu cür qüsurlar var. Lakin bu cür qüsurlar və mətn dilçiliyi ilə bağlı hədsiz yeni terminlər bəzən müəllif fikrinin dərk olunmasını çətinləşdirsə də, cümlələr əksərən səlisdir.

Dissertant əsər boyu məntiqi-idraki və psixoloji araşdırmaları linqvistik təhlillə paralel aparmışdır. Məktəbli təfəkkürü və onun xüsusiyyətləri mətnin anlaşılması baxımından müəllifi daha çox düşündürmüşdür. Bu cəhət əsərin həm elmi-nəzəri, həm də praktik əhəmiyyətini şərtləndirir. Bir sıra dissertasiyalardan fərqli olaraq, əsərdə yerli ədəbiyyat da nəzərə alınmış, lakin təbii ki, müəllif ingilis dilində olan ədəbiyyatdan daha çox faydalanmışdır. Bu da əsərin iki dilin - Azərbaycan və ingilis dillərinin materialları əsasında yazılması ilə əlaqədardır. Əsərin əsas hissələri məqalə və tezislər şəklində çap olunmuşdur. Avtoreferat dissertasiyanın məzmunu əhatə edir.

Ümumiləşdirərək qeyd edə bilərik ki, Mehriban Əlihüseyn qızı Hüseynovanın "Mətnin sintaktik-semantik və koqnitiv interpretasiyası" adlı bu əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və müəllif dilçilik nəzəriyyəsi (10.02.19) və german dilləri (10.02.04) ixtisasları üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Sevinc Abbasqulu qızı Məhərrəmova. «Rus və Azərbaycan dillərinin leksik sistemində paradiqmatik münasibətlərin müqayisəli tədqiqi». DD. 11.06.2004

Mövzu aktualdır, yeni və əhəmiyyətlidir. Lakin məlumdur ki, mövzunun aktuallığı məsələni həll etmir. Aktual mövzunu elə işləmək olar ki, heç bir şey alınmaz; elə işləmək olar ki, yaxşı bir əsər meydana çıxa bilər. Mən Sevinc xanımın kitabını, rast gəldiyim məqalələrini oxu-

muşam, avtoreferatını isə bir gün əvvəl diqqətlə nəzərdən keçirmişəm. Sevinc xanım yaxşı bir əsər yazmışdır.

Son dövrlərdə tipoloji cəhətdən fərqlənən dillərin qarşılaşdırma yolu ilə tədqiqinə dilçiliyimizdə geniş yer verilir. Rus - Azərbaycan, ingilis - Azərbaycan, fransız - Azərbaycan, hətta bəzən bir neçə dilin, məsələn, ingilis - rus - Azərbaycan dillərinin birgə tədqiqi. Məsələ belədir ki, başqa bir dilin prizmasından, başqa bir dilin quruluş sistemindən baxdıqda ana dilinin bu vaxta qədər görünməyən tərəflərini, tədqiq olunmamış xüsusiyyətlərini görmək olur və tədqiqatçı istər-istəməz həmin məsələlərə diqqət yetirməli, onların üzərində araşdırmalar aparmalı olur. Bu əsərdə də bu cür hallar vardır. Doğrudur, bizim dilçilikdə çoxmənalı sözlərin, omonimlərin, sinonim və antonimlərin həm müstəqim şəkildə, həm də bədii əsərlərin dil materialı əsasında tədqiqinə çoxlu əsər həsr edilmişdir, lakin bu əsərdə paradiqmatik sistem əsasında tədqiqat prosesində bu sahədə də bir sıra yeniliklər müəyyən edilmişdir. Nəzəri məsələlər maraqlıdır. Lakin bizə xoş gələn daha çox rus təhsilli bir xanımın ana dilinin incəliklərinə son dərəcə dərindən bələd olmasıdır.

Dissertasiyanın qarşısında duran tələblərin yerinə yetirilməsi ilə yanaşı, bu cür əsərlərin bir mühüm əhəmiyyəti də var. Bu cür tədqiqat əsərləri göstərir ki, tipoloji cəhətdən fərqlənən dillərdən bu və ya digər birində elə bir sistem, elə bir quruluş yoxdur ki, o birində olmasın. Bu hal bizim müdafiə etdiyimiz bir problemin - dünya dillərinin bir kökdən olması probleminin xeyrinədir və paradiqmatik uyğunluqlar göstərir ki, dünya dilləri bir ulu dilin törəmələridir.

Əsər doktorluq dissertasiyasının tələblərinə tam cavab verir.

H.Qədimova. «Müasir Azərbaycan dilində qoşulma konstruksiyalar»
ND. 25.09.2004

Sintaksisin bir sıra problemləri ətraflı öyrənilmiş olsa da, bu vaxta qədər nitqin mühüm aktuallaşdırma vasitələrindən olan qoşulma konstruksiyalar monoqrafik şəkildə tədqiq olunmamışdır. Bir neçə jurnal məqaləsini və bizim "Müasir Azərbaycan dili (sintaksis)" (2000) dərsliyində verdiyimiz yığcam məlumatı nəzərə almasaq, bu sahədə sistemli tədqiqat aparılmayıb. Halbuki qoşulma konstruksiyalar dilimizin sintaktik quruluşunda mühüm yer tutur.

Dissertant faydalı bir iş görmüş və ilk dəfə olaraq qoşulmaların bütün əsas quruluş və məna xüsusiyyətləri barədə məlumat vermişdir.

Monoqrafiya iki fəsildən ibarətdir. "Qoşulma konstruksiyalar: mahiyyəti, canlı danışıq dilində rolu, tədqiqi vəziyyəti və oxşar konstruksi-

yalardan fərqli cəhətləri" adlı birinci fəsildə ilk növbədə "qoşulma konstruksiya" anlayışı, konstruksiyaların mahiyyəti izah edilmişdir. Tədqiqat göstərir ki, qoşulma konstruksiyaların mənbəyi şifahi ədəbi dil, canlı xalq dilidir və yazılı ədəbiyyata da şifahi dildən gəlmişdir. Canlı danışıq dilinin rəngarəng xüsusiyyətləri yazıda öz əksini tapır və insan nitqinin aktual-psixoloji keyfiyyətləri daha çox qoşulmaların vasitəsilə üzə çıxır. İctimai-psixoloji nitqin zəruri tərkib elementlərindən olduğu üçün qeyd edilən sintaktik vahidlərin tarixi qədimdir, ümumxalq Azərbaycan dilinin ilkin təşəkkül dövrünün (və təbii ki, ümumxalq dilini formalaşdıran tayfa dillərinin) mühüm əlamətlərindən biri olmuş, hazırkı dövrdə də dilin qrammatik quruluşunda mühüm yer tutur. Biz qoşulmalara "Kitabi-Dədə Qorqud"un dilində, klassiklərimizin yaradıcılığında və müasir bədii-publisistik əsərlərdə kifayət qədər rast gələ bilirik.

Qoşulma konstruksiyalar bir sıra sintaktik kateqoriyalarla – parsellərlə, elliptik və yarımçıq cümlələrlə, inversiya olunmuş üzvlərlə, ara və əlavə cümlələrlə, xüsusiləşmiş üzvlərlə oxşar və ortaqlı cəhətlərə malikdir. Müəllif qoşulma konstruksiyalarla həmin sintaktik konstruksiyaları müqayisəli şəkildə öyrənmiş, onların oxşar və fərqli cəhətlərini şərh etmişdir.

Əsərin "Qoşulma konstruksiyaların struktur-semantik və funksional xüsusiyyətləri" adlı ikinci fəsli öz əhatə dairəsinin genişliyi ilə diqqəti daha çox cəlb edir. Müəllif bu fəsildə ilk dəfə olaraq konstruksiyaların quruluşu, sintaktik mövqeyi və semantik-üslubi xüsusiyyətləri barədə geniş məlumat vermişdir. Qoşulmaları əlaqələndirən vasitələrdən biri kimi, intonasiyanın rolu burada daha ətraflı şərh olunmuşdur. Bu hal təbiidir, çünki tarix etibarilə də qoşulmaları əlaqələndirən və hazırda canlı danışıq dilində də həmin funksiyanı yerinə yetirən əsas vasitə intonasiyadır. Cümlənin parselləşmiş hər bir üzvü intonasiyanın köməyi ilə əsas söyləmlə əlaqələnmə imkanına malikdir və bu cəhət əsərdə bədii dildən, canlı danışıq dilindən seçilmiş nümunələr əsasında geniş tədqiq olunmuşdur.

Yazılı ədəbi dil inkişaf etdikcə qoşulmaları əlaqələndirən bir sıra bağlayıcılar və bağlayıcı vasitələr də təşəkkül tapmışdır - bunlar monoqrafiyada dil materialı əsasında ətraflı izah olunmuşdur. İlkin mərhələdə yalnız intonasiya ilə əsas söyləmə bağlanan konstruksiyalar yazılı ədəbi dildə tədricən bir sıra bağlayıcıların təşəkkülünü tələb etmiş və tədricən ***və, ilə (- la, - lə), amma, ancaq, lakin, fəqət, halbuki, yoxsa, ya, ya da, yaxud, yaxud da, yainki, gah, gah da, istər, istərsə, istərsə də, həm, həm də, həm də ki, da, də, hətta, habelə, həmçinin, özü də, bir də, o cümlədən, nə, nə də, yəni, yəni ki, məsələn*** və s. bağlayıcı qrupları konstruksiyaların tərkibində formal əlamət kimi işlənərək onları əsas söyləmə bağlayan vasitə kimi formalaşmışdır.

Şübhəsiz, qoşulmalar müstəqil olmadığı, əsas söyləm ilə (özül cümlə ilə) birgə işlənməli olduğu üçün əsərdə əsas söyləmin quruluş xüsusiyyətləri də araşdırılmalı olmuşdur. Qoşulmalar əsas söyləmin daxili ehtiyacından doğur, əsas söyləmdə deyilməyən, əvvəldən planlaşdırılmayan, bir çox hallarda qəflətən yada düşən, lakin faktik olaraq əsas söyləmdəki fikrə nisbətən daha aktual fikir ifadə edən sintaktik vasitələrdir. Odur ki bu sahənin - əsas söyləmin də tədqiqi zəruri idi. Əsas tədqiqat isə qoşulmaların öz üzərinə yönəlmiş və bu mövqedən çıxış etməklə qoşulma konstruksiyaların əsas söyləmin üzvləri ilə əlaqə və münasibəti daha ətraflı nəzərdən keçirilmişdir. Faktlar göstərir ki, qoşulmaların əsas söyləmin bu və ya digər üzvü ilə həmcins olan, əsas söyləmdəki üzvləri dəqiqləşdirən, izah edən, tamamlayan, genişləndirən, əlavə məlumatla təkrar olunan müxtəlif tipləri mövcuddur.

Qoşulma konstruksiyaların bədii dildə rolu böyükdür. Fikrin obrazlılığını, emosionallığını təmin edir, rema şəklində işlənən fikri aktuallaşdırmaqla cümlələr arasında əlaqə yaradır, tematik proqressiyaya səbəb olur.

Dil materialından aydın olur ki, qoşulma konstruksiyalar cümlə üzvləri şəklində formalaşdığı kimi, bütöv və yarımçıq, təktərkibli və cüttərkibli, müxtəsər və geniş, tabesiz və tabeli mürəkkəb cümlələr şəklində də ola bilir, intonasiya etibarilə fərqlənərək, nəqli cümlə, sual cümləsi, əmr və nida cümlələri şəklində təzahür edir.

Nəsimi ad. Dilçilik İnstitutu. Ramiz Fəsi oğlu Məmmədov.
«Müstəqillik illərində Azərbaycan dilində hərbi terminlərin inkişafı»
ND. 05.10.2004

Aktual bir mövzunun tədqiqinə həsr edilmiş 152 səhifəlik bu dissertasiya giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarətdir. Girişdə qayda üzrə mövzunun aktuallığı əsaslandırılmış, işin yenilikləri, elmi-nəzəri və praktik əhəmiyyəti, aprobasiya məsələləri barədə məlumat verilmişdir.

Müstəqilliyin yenidən əldə edildiyi az müddət ərzində - 10 ilin müddətində Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlər hərbi terminologiyanın yeniləşməsini və inkişafını bütöv bir əsrdə görülmüş işdən daha çox irəlilətmişdir. Dissertasiya işində bu cəhətin tədqiqi ön planda olmuş, müəllif müstəqilliyin hərbi terminologiya sahəsində bəhrəsini lazımi şəkildə tədqiq edib ortaya çıxara bilmişdir.

"Müstəqillik illərində Azərbaycan dilində hərbi terminologiyanın yenidən qurulması" adlandırılmış birinci fəsil beş bölmədən ibarətdir. Müəllif ilk növbədə müstəqillik dövründə ordu quruculuğu sahəsində dövlət tədbirlərini nəzərdən keçirmiş və az müddət ərzində bu sahədə

böyük işlər görüldüyünü müəyyən etmişdir. Eyni zamanda, bu bölmədə müstəqilliyin verdiyi imkanlar əsasında ilk dəfə ana dilində yaradılmış hərbi sənədlərin dil xüsusiyyətləri araşdırılmış, yenidən qurmalar, tərcümələr prosesində özünü göstərən bir sıra qüsurların mövcud olduğu müəyyən edilmişdir. Müəllif bu sahədə işin Demokratik Cümhuriyyət dövründən başladığını, lakin 1920-ci ilin 28 aprelindən sonra yarımçıq qaldığını da göstərmişdir. Dissertant bu fəsildə yeni yaranmış hərbi lüğətlərin araşdırılmasına, bu lüğətlərdəki qüsurlu cəhətlərin izahına geniş yer vermişdir. Aydın olur ki, bizim ikidilli lüğətlər əsasən tərcümə lüğətlərindən ibarətdir, ona görə də başqa dillərdəki bir sıra terminlərin dilimizdə sabit qarşılığı hələ də yoxdur.

Azərbaycan dilində hərbi terminlərin yaranma tarixi çox qədimdir. Ona görə də daim hərbi terminologiya Azərbaycan dilinin lüğət tərkibində xüsusi bir lay təşkil etmiş, cəmiyyətin, texnikanın, hərbi silahların inkişafı ilə əlaqədar zənginləşmişdir. Dilimizdə hərbi terminlərin yaranma tarixi barədə fikirlər ümumiləşdirilmiş, hərbi terminlərin formalaşma və inkişaf tarixi yenidən dövrləşdirilmişdir. Dövrləşdirmə dilimizin inkişafı tarixinə daha müvafiqdir.

Dissertasiyanın birinci fəslində müstəqillik illərində hərbi terminlərin dilçi alimlər və hərbçilər tərəfindən tədqiqi məsələlərinə xüsusi yer verilmişdir. Müəllif düzgün qənaətə gəlmişdir ki, az vaxt ərzində hərbi terminologiyanın inkişafı sahəsində daha çox iş görülmüş, lakin bu sahədə az tədqiqat aparılmışdır. Dissertasiya qeyd edilən boşluğu doldurmaq baxımından çox faydalıdır.

İlk fəsildə bilavasitə 90-cı illərdə hərbi terminoloji leksikanın inkişafı sahəsində ənənənin mühafizəsi və yeniliklər barədə də ətraflı məlumat verilmişdir.

"Müxtəlif sahə qruplarına daxil olan hərbi terminlərin müstəqillik illərində inkişafı" adlı ikinci fəsil daha geniş məsələləri əhatə edir. Burada müəllif əsas yeri hərbi terminlərin mənşəyi və quruluşu məsələlərinə vermişdir. Hərbi terminlərin mənşəyi məsələsi daim düşündürücü faktorlardan olmuşdur. Ta qədim dövrlərdən özək sözlər xalis Azərbaycan sözlərindən ibarət olmuşdur. Bu və ya digər xarici ölkədə müəyyən bir silah kəşf olunduqda həmin silahla birlikdə onun adını da almalı olmuşuq. Odur ki dilimizdə alınma hərbi terminlər xüsusi bir lay təşkil edir.

Dissertasiyada hərbi terminlərin mənşəyi diqqətlə araşdırılmış, terminlərin quruluş xüsusiyyətləri ətraflı izah edilmişdir. Yuva terminlərin quruluşu - sadə, düzəltmə və mürəkkəb terminlər diqqətlə qruplaşdırılmışdır. Ərəb, fars, rus və Avropa dillərindən alınma terminlər və onların quruluşu haqqında dissertasiyadan ətraflı məlumat almaq mümkündür.

Tədqiqatdan aydın olur ki, terminlərin böyük bir qismi söz birləşməsi şəklindədir. Odur ki müəllif ismi və feli birləşmə modelləri əsasın-

da qurulmuş terminlərə əsərdə xüsusi yer vermiş, onların struktur modellərini dəqiq araşdırmışdır.

Hərbi terminologiyada hərbi abbreviatürlər geniş yer tutur. Müəllif onların qurulma üsullarını da ətraflı araşdırmalı olmuşdur.

Dissertasiyanın hərbi etiketlərə həsr olunmuş bölməsi də maraqlıdır. Tədqiqat göstərir ki, hərbi terminlərin hamısı eyni işləkliyə malik deyildir. Bir qrup ümumişlək hərbi termnlər hamı tərəfindən başa düşülsə də, yalnız hərbi işçilərin işlətdiyi, az işlənən və xüsusi sahə sözü kimi fərqlənən hərbi terminlər də çoxdur.

Dissertasiyanın sonunda müəllif hərbi terminlərin semantikası və bədii dildə rolu barədə lazımi məlumat vermişdir.

Əsərin elmi aparaturası zəngindir. Müəllif lazımi elmi ədəbiyyatdan səmərəli şəkildə istifadə edə bilmişdir. Əsərin nəzəri və praktik əhəmiyyəti vardır. Müəllifin çap işi kifayət qədərdir və dissertasiyanın məzmununu tam şəkildə əzatə edir.

Qeyd etdiyimiz cəhətləri nəzərə alaraq, dissertasiyanın müdafiə üçün tam hazır olduğunu və namizədlik dissertasiyasının tələblərinə cavab verdiyini qeyd edirik.

Əsərin üçüncü nəşrinə bir neçə söz
13.02.2005

«Azərbaycan dialektologiyasının əsasları» kitabı Azərbaycan dilçiliyinin XX əsrin ikinci yarısında meydana çızan ən böyük uğurlarındandır. Bu əsər akademik M.Ş.Şirəliyevin ömür kitabıdır. M.Şirəliyev yaradıcı həyatının böyük bir hissəsini bu kitaba həsr etmişdir.

Doğrudur, Azərbaycan şivələrinin tədqiqi işinə, M.Şirəliyevin özünün qeyd etdiyi kimi, XIX əsrin ortalarından başlanmışdı; professor Mirzə Kazım bəy 1839-cu ildə Qazan şəhərində nəşr etdirdiyi «Türk-tatar dilinin qrammatikası» əsərində ilk dəfə olaraq Quba dialektində, Dərbənd şivələrində indiki zaman şəkilçisinin səciyyəvi fərqli təsrifi barədə məlumat vermiş, Cənubi Azərbaycan dialekt və şivələrində indiki zamanın ikinci şəxs təkdə ***-sən*** əvəzinə ***–ən***, üçüncü şəxs təkdə ***–i*** şəkilçisini qəbul etdiyini göstərmişdir. Lakin dialekt və şivələrimizin böyük vüsətlə tədqiqinə Sovet hakimiyyətinin ilk illərindən başlanmışdır. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti daxilində yazıçı Ə.Haqverdiyevin rəhbərlik etdiyi tarix-etnoqrafiya şöbəsi dövrün görkəmli ziyalılarını dialekt və şivə faktlarının toplanması işinə cəlb etmiş, hələ 20-ci illərdə çox zəngin deksik material toplanmışdır. SSRİ EA-nın müxbir üzvü N.İ.Aşmarin Azərbaycana dəvət edilmiş, topladığı materiallar əsasında 1926-cı ildə görkəmli türkoloq alimin «Общий обзор народных тюркских говоров

гор. Нухи» adlı əsəri nəşr olunmuşdur. 30 cildlik şivə sözləri lüğətinin çapı planlaşdırılmış, lakin bunlardan yalnız «A» və «B» hərflərini əhatə edən iki cild işıq üzü görmüşdür.

30-cu illərin əvvəllərindən dialekt və şivələrimizin daha çox monoqrafik tədqiqi ön plana keçmişdir. Lakin repressiyalar və sonra da Böyük Vətən müharibəsi tədqiq və araşdırmaların ləngiməsinə səbəb olmuşdur. Belə bir dövrdə gənc və istedadlı dialektoloq kimi yetişməkdə olan M.Şirəliyev öz yaradıcılığını Azərbaycan dialektologiyası elminin inkişafı istiqamətinə yönəltmişdir. Müharibənin gərgin bir dövründə - 1942-ci ildə «Azərbaycan dialektologiyası» (1-ci hissə, Bakı, Azərb.SSR XMK nəşri, 1942, 71 s.) kitabı çap olunmuş və həmin il «Bakı dialekti» əsəri əsasında birbaşa doktorluq dissertasiyası müdafiə etmişdir.

M.Şirəliyev dialektoloji araşdırmalara 30-cu illərin sonlarında başlamışdı. 1938 – 1944-cü illər arasında Şuşa şəhəri və onun ətraf kəndlərində, Bakı kəndlərində, Naxçıvan şəhərində və Nehrəmdə, Qazax rayonu ərazisində, Gəncə və Ağdam rayonlarında olmuş və zəngin şivə materialı toplamışdır. Təbii ki, bunlar «Azərbaycan dialektologiyasının əsasları» kimi monumental bir kitabın yazılması üçün çox az idi, qeyd edilən materiallarla Azərbaycan dialekt və şivələrinin təsnifini vermək və bütün Azərbaycan dialekt və şivələrini əhatə edən dialektoloji ümumiləşdirmələr aparmaq olmazdı. Əsərin meydana çıxması üçün materiallar toplanmasında yeni qüvvələrin də rolu az olmamışdır. 40-cı illərin sonlarında, 50-ci illərdə Azərbaycanda yeni bir dilçi nəsli yetişmişdi. Bu nəslin nümayəndələri R.Rüstəmov, K.Ramazanov, B.İbrahimov, T.Həmzəyev, M.İslamov, A.Vəliyev, A.Hüseynov, B.Sadıqov və b. bilavasitə dialektoloji tədqiqatla məşğul idilər. Bundan əlavə, dilçiliyin daha çox başqa sahələri ilə məşğul olan Z,Tağızadə, Ə.Bağırov, Ə.Abdullayev, Ş.Sədiyev, Ə.Əfəndizadə, A.Əbilov, A.Axundov, B.Tağıyev, Q.Həsənov, Y.Seyidov, M.Adilov, A.Aslanov kimi gənc nümayəndələri də tez-tez dialekt və şivə materiallarının toplanmasına cəlb edilirdi, Azərbaycan SSR EA Dil İnstitutunun (sonralar Ədəbiyyat və Dil İnstitutu) əməkdaşları tərəfindən Zaqatala, Qax, Sabirabad, Əli Bayramlı, Salyan, Puşkin (Biləsuvar), Culfa, Ordubad, Noraşen, Şahbuz, Naxçıvan, Ağstafa, Tovuz, Qazax, Borçalı şivələri öyrənilmişdir. Azərbaycan Dövlət Universiteti və başda Ə.Dəmirçizadə olmaqla V.İ.Lenin adına APİ-nin dilçi alimlərinin köməyi ilə Şamaxı, Ağsu, İsmayıllı, Mərəzə, Göyçay, Ağdaş, Vartaşen (Oğuz), Qutqaşen (Qəbələ), Borçalı şivələri tədqiq edilmişdir. Bunlar, demək olar ki, bütün Yuxarı Azərbaycan ərazilərini əhatə edirdi. Respublikamızın 370-dən artıq şəhər, qəsəbə və kəndindən material toplanmışdı. Bu materiallar M.Ş.Şirəliyevin «Azərbaycan dialektologiyasının əsasları» kimi qiymətli və sanballı bir əsərinin meydana çıxması üçün əsas oldu.

«Azərbaycan dialektologiyasının əsasları» kitabı məhz Azərbaycan dialekt və şivələrinin öyrənilməsi sahəsində görülmüş işlərin yekunu kimi meydana çıxdı. Əsər 1962-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin qrifi ilə ali məktəblər üçün dərs vəsaiti kimi nəşr olunmuşdur. Bir sıra əlavələrlə təkrar nəşri (1968) Azərbaycan Respublikası Dövlət mükafatına layiq görülmüşdür.

N.Y.Marrın irsinin tənqidindən sonra – 50-ci illərdə müqayisəli-tarixi metoddan istifadə üçün geniş imkanlar yaranmışdı. Bu dövrə qədər təsviri şəkildə davam etdirilən dialektoloji tədqiqat işlərində 50-ci illərdən başlayaraq müqayisəli metoda geniş yer verilir. Ona görə də əsəpdə müqayisəli və tarixi-müqayisəli metodlardan da istifadə edilmiş, Azərbaycan dilinin dialekt və şivə faktları yeri gəldikcə müasir türk dilləri və türk dillərinin qədim abidələri ilə müqayisəli şəkildə araşdırılmışdır.

Kitab çap olunan ərəfədə M.Şirəliyev Azərbaycan dili dialekt və şivələrinin ilkin təsnifini vermişdi. Apardığı zəhmətli araşdırma və ümumiləşdirmələr əsasında professor Azərbaycan dili dialekt və şivələrini coğrafi baxımdan dörd qrupa – şimal, cənub, şərq və qərb qruplarına ayırmış və bunların hər birinin daxilində dialekt və şivə qruplarını müəyyənləşdirmişdir. Müəllif genetik prinsipi də əsas götürərək ümumxalq Azərbaycan dili daxilində 10 dialekt, 5 şivə qrupu olduğunu müəyyən etmişdir (bax: Проблемы диалектного членения языка. «Вопросы диалектологии тюркских языков», том 2, Баку, 1960). Bu bölgü iki il sonra nəşr olunan «Azərbaycan dialektologiyasının əsasları» kitabına da daxil edilmişdir. Müəllifin müəyyənləşdirdiyi dialektlər Quba, Bakı, Şamaxı (şərq qrupu), Qazax, Qarabağ, Gəncə (qərb qrupu), Nuxa (şimal qrupu), Naxçıvan, Ordubad, Təbriz (cənub qrupu) dialektlərindən ibarət idi. Şivələr isə Muğan qrupu, Lənkəran şivələri, Ayrım şivəsi, Zaqatala – Qax şivəsi, Yerevan şivəsi adları ilə verilmişdir. Əslində, nəzərə almaq olar ki, «şivə» şəklində verilənlər bir şivədən ibarət deyil, şivə qruplarıdır. Müəllif bu bölgünü kitabın sonrakı (1968) nəşrində və rus dilində çap etdirdiyi «Диалекты и говоры Азербайджанского языка» (Бакы, Елм,1983) kitabında saxlamış, bölgüyə yalnız Göyçay, Ağdaş, Cəbrayıl keçid şivələrini əlavə etmişdir.

Əsərin çox mühüm keyfiyyətlərindən biri konkret nümunələr əsasında hər bir dialekt və şivə qrupuna aid səciyyəvi fonetik, leksik, qrammatik xüsusiyyətlərin dəqiq şəkildə şərh edilməsidir. Doğrudur, bir sıra şivə xüsusiyyətləri müxtəlif qruplar arasında kəsişə bilir, lakin ən mühüm və tipik fərqli cəhətlərin dialekt və şivə materialları əsasında ümumiləşdirilməsi böyük zəhmətin nəticəsi kimi qiymətlidir.

Bu kitab M.Şirəliyevin 20 ildən artıq bir müddətdə apardığı tədqiq və araşdırmaların nəticəsi olub, Azərbaycan dili dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətlərini bütövlükdə əhatə edir. Əsər-

də ədəbi dilimizlə müqayisə əsasında dialekt və şivə qruplarına aid fərqli fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərin ətraflı şərhi ilə yanaşı, qədim kökləri olan arxaik elementlər də üzə çıxarılmışdır. Dialekt və şivələrimizi fərqləndirən əsas əlamətlər xalqımızın təşəkkülündə iştirak etmiş türk tayfalarının ümumxalq dilinin qollarında sabitləşmiş qədim izləridir. Əsasən təsviri şəkildə müəyyənləşdirilmiş bu izləri tarixi aspektdə, həm də müqayisəli şəkildə araşdırmaqla Azərbaycan dilinin təşəkkülündə iştirak etmiş qədim yerli və gəlmə tayfa birliklərini müəyyənləşdirmək mümkündür. Bunun üçün şivə materialının müasir türk dilləri və türk dillərinə məxsus qədim yazılı abidələrlə müqayisəli tədqiqi vacibdir. Qeyd etməliyik ki, əsərdə bu istiqamətdə də müəyyən araşdırmalar aparılmışdır. Lakin bu, dialekt və şivə materiallarının tam toplanması əsasında başlana bilən yeni bir mərhələnin işidir və xüsusi tədqiqat tələb edir. 60-cı illərdən sonrakı dövrdə görülən işlər nəticəsində daha çox material toplanmış və tarixi dialektologiya üçün əlverişli zəmin yaranmışdır. İndi bu sahədə ilkin əhəmiyyətli təşəbbüslər də vardır (bax: E.Əzizov. Azərbaycan dilinin tarixi dialektologiyası)

M.Şirəliyev əsərdə ümumtürk leksik qatı ilə yanaşı, şivə leksikası içərisində alınmalara da diqqət yetirmişdir.

«Azərbaycan dialektologiyasının əsasları» kitabının meydana çıxdığı dövrdə filoloji aləm dialekt və şivə materiallarının toplanması və ilkin tədqiqi işinə cəlb edilmişdi. Şivələrin tədqiqi ilə bağlı namizədlik və doktorluq dissertasiyaları yazılır, monoqrafiyalar nəşr olunur, saysız məqalələr meydana çıxırdı. M.Şirəliyev bütün gücünü bu sahəyə sərf etməklə böyük dialektoloji məktəb yaratmışdı. Onun bu əsəri türk xalqları dillərinə məxsus dialekt və şivə xüsusiyyətlərinin öyrənilməsi baxımından qiymətli bir nümunədir. N.K.Dmitriyev göstərirdi ki, professor M.Şirəliyevin və onun şagirdlərinin işi təkcə Moskva və Leninqradda deyil, Çuvaşiyada, Tatarıstanda, Başqırdısanda, Yakutiyada, Qazaxıstanda da məlumdur. Hələ öz dialektlərinin öyrənilməsini genişləndirə bilməmiş həmin respublikalarda Azərbaycan dialektoloqlarının işi nümunə sayılır. N.K.Dmitriyev yazırdı: «M.Ş.Şirəliyevi tam əsasla Azərbaycan dialektologiyasının müasir elmin səviyyəsində duran banisi adlandırmaq olar» (M.Ş.Şirəliyev. Biblioqrafiya, Bakı, 1969, s.21)

M.Şirəliyevin «Azərbaycan dialektologiyasının əsasları» kitabı yenə bizim stolüstü kitabımız olaraq qalır.

Prezident fərmanı əsasında əsər yeni əlifba ilə çap olunarkən bir daha nəzərdən keçirilmiş, texniki qüsurları aradan qaldırılmışdır. Böyük zəhmət və istedadın nəticəsi kimi yaranmış bu əsərin hələ uzun müddət zəngin bir mənbə kimi Azərbaycan dilçilik elminə xidmət edəcəyi şübhəsizdir.

Nəsimi ad. Dilçilik İnstitutu. Əliyeva İradə Talıb qızı.
«Orfoqrafiya və onun dilin quruluşundan asılılığı»
ND.Opp.r. 15.03.2005

Orfoqrafiya məsələsi yetkin bir cəmiyyətin daimi yol yoldaşıdır. Çünki insan əlinə qələm aldığı gündən daim öz yazısını təkmilləşdirməyə, fikrin daha səlis və daha asan ifadəsinə çalışmışdır. Orfoqrafiya yalnız linqvistik deyil, mühüm sosial hadisədir. Hər bir xalqın mədəni-iqtisadi yüksəlişində onun mühüm rolu vardır. İradə xanım Əliyevanın belə bir mövzu üzərində tədqiqat aparması göstərir ki, bizim bugünkü orfoqrafiya qaydaları nə qədər kamil olsa da, yenə bizi düşündürür, dilimizin inkişafı ilə bağlı onun geridə qalan, tədricən əhəmiyyətini itirən qaydalarının islahına, onu dilimizin və müasir insanın inkişaf səviyyəsinə uyğunlaşdırmağa çalışırıq. Bu cəhət göstərir ki, faydalı mövzu seçilib və mövzu üzərində işləyərkən bir nəfərə, beş nəfərə aid olan məsələ deyil, bütöv bir xalqın gərəyi nəzərdə tutulub.

Həm də çox maraqlıdır ki, müəllif təkcə bizim dil ilə maraqlanmayıb. Tədqiqat prosesində, demək olar ki, bütün türk xalqlarının orfoqrafiya qaydaları nəzərdən keçirilib. Təkcə türk dilləri deyil, Hind-Avropa dillərindən yer üzərində çox geniş yayılmış ingilis, fransız, alman, rus dillərinin orfoqrafiya qaydalırı da müəyyən dərəcə araşdırılıb. Bunlar Azərbaycan dili orfoqrafiya qaydalarının müsbət keyfiyyətləri ilə yanaşı, nöqsanlarını da görmək üçün müəllifə imkan verib. Bunlar dissertasiyanın dil nəzəriyyəsi indeksi ilə müdafiəsi üçün tam təminat verir.

138 səhifəlik bu dissertasiya giriş, iki fəsil, nəticə və ədəbiyyatdan ibarətdir. Mövzunun aktuallığı, dissertasiyanın qarşısında duran məqsəd və vəzifələr, işin yenilikləri barədə qeydlər yaxşı təəssürat yaradır.

Təbii ki, orfoqrafiya tətbiqi dilçiliyin bir sahəsidir. Elə müəllif də ilk bölməni bu məsələyə həsr etmişdir.

Aydındır ki, orfoqrafiya dil normalarının sabitliyini, yazılı nitq normalarının vahidliyini təmin edən qaydalar sistemindən ibarətdir. Şifahi nitq və o cümlədən şifahi ədəbi dil yazılı nitqdən, yazılı ədəbi dildən əvvəl təşəkkül tapsa da, yazı cəmiyyətin həyatında elə böyük rola malikdir ki, insanlar hələ vahid orfoepiya normalarına əməl etməyin vacibliyini o qədər başa düşməsələr də, yazılı nitq normalarının vahidliyini və bu qaydalara əməl etməyin vacibliyini çox qədim dövrlərdən başa düşmüşlər. Bizim mədəni inkişaf tariximizdə bu sahədə sovet təhsil sisteminin çox böyük rolu olmuşdur. Biz indiki dövrdə sovet dövründə yaranmış o orfoqrafik intizamı irəlilətmək yox, saxlaya da bilmirik və mənə elə gəlir ki, getdikcə zəiflədirik.

Dissertasiyadan aydın olur ki, orfoqrafiya qaydalarına yeni baxış, qaydaları yeniləşdirmək, müasir tələblərə uyğunlaşdırmaq meyilləri baş-

qa türk xalqlarında da vardır. Müəllif bir nümunə kimi öz dilimizin yeni orfoqrafiya qaydalarını nəzərdən keçirmiş, onun bir sıra qüsurlarını aşkara çıxarmışdır. Məsələn, müəllif ilk səhifələrdən birində yazır: "Azərbaycan dili orfoqrafiya qaydalarının yeni layihəsində qaydaların 1-ci bölməsində milli Azərbaycan sözlərinin yazılış qaydaları arxa plana keçirilmiş, alınma sözlərin yazılışı isə ön planda verilmişdir. Lazım idi ki, milli sözlərimizin yazılış qaydaları birinci izah edilsin". Əslində, mənimsənilmiş alınma sözlər də artıq bizim milli sözlərdir. Müəllif türk mənşəli sözlər demək istəyir. "Qaydalar" çox qısa olduğundan tam mənimsənilmiş sözlərə o qədər də fikir verilməyib. Həm də layihəyə yox, müəllif təsdiq olunmuş qaydalara baxa bilərdi.

İ.Əliyeva birinci fəslin ("Orfoqrafiya və onun prinsipləri") bölməsində Ə.Dəmirçizadə, Ə.Əfəndizadə, rus alimlərindən A.N.Qvozdev və başqalarının əsərlərinə istinad edərək, orfoqrafiyanın əhatə etdiyi məsələləri ümumiləşdirməyə çalışmış, bu sahəyə sözün səs tərkibinin hərflərlə ifadəsi, baş hərfi böyük yazılan sözlər, sözlərin bitişik, defislə və ayrı yazılması, sözün sətirdən sətrə keçirilməsi, durğu işarələrindən istifadə kimi mühüm məsələlərin daxil olduğunu müəyyənləşdirmişdir.

Orfoqrafiyanın vahid normaları səslənən nitqə əsasən formalaşdırılır, yazılışla tələffüz arasındakı münasibətləri tənzim edir, dilin fonetik hadisə və qanunlarını qrafik işarələrlə əks etdirir. Nitqin ən kiçik mənalı vahidlərinin sərhədini orfoqrafiyanın köməyi ilə müəyyən etmək olur.

Məlumdur ki, sözlərin tələffüzü ilə yazılışı arasında tam eyniyyət mümkün deyildir. Müəllif düz deyir, yazı tələffüzü əks etdirən güzgüyə çevrilə bilməz. Lakin imkan daxilində orfoqrafiya ilə orfoepiya arasındakı fərqləri azaltmaq meyli daim cəmiyyəti düşündürmüşdür. Odur ki görkəmli alimlər qeyd edirlər ki, tələffüzlə yazını daha çox yaxınlaşdırmaq üçün tələffüzə yaxınlaşma hallarını artırmaq, istisnaları azaltmaq lazımdır Orfoqrafiyanı yazılı dil ilə şifahi dil arasında körpücük saymışlar. Həm də orfoqrafiya yalnız praktik məsələ deyil, onun fonetika, qrammatika ilə əlaqəli cəhətləri mühüm nəzəri məsələlərdir. Başqa sözlə, orfoqrafiya dilin bütün strukturu ilə əlaqəlidir. Müəllif bu məqamda fransız, ingilis, rus dili orfoqrafiya qaydalarının yaradıcı və tədqiqatçılarının fikirlərini nəzərdən keçirmiş və onların hamısının sadə, aydın, tələffüzə daha yaxın olan orfoqrafiya qaydalarını düzgün saydıqlarını qeyd etmişdir.

1973-cü ildə K.M.Musayevin redaktorluğu ilə "SSRİ türk ədəbi dillərinin orfoqrafiyası" kitabı çap olunmuşdur. Dissertant müxtəlif türk dillərinə aid orfoqrafiya qaydaları haqqında buradakı bütün əsas fikir və mülahizələri tənqidi şəkildə nəzərdən keçirmişdir. O bu əsərdən aldığı təəssürat əsasında belə bir sualı da araşdırır ki, yüz illərlə dəyişməyən orfoqrafiya qaydaları olduğu halda (məsələn, ingilis dilinin orfoqrafiya qaydaları), türk dillərinin orfoqrafiya qaydalarını bu qədər tez-tez dəyiş-

məyə səbəb nədir? Qeyd etməliyik ki, orfoqrafiya məsələsi əlifba ilə sıx bağlıdır. Biz bir əsrdə dörd dəfə əlifba dəyişəndə məcburuq ki, orfoqrafiya qaydalarına da nəzər salaq. Amma onu da deyim ki, Sovet dövründə orfoqrafiya məsələlərinə daha ciddi fikir verilir və qaydalar müzakirələrdən daha ciddi keçirilirdi. Əlifbanı tez-tez dəyişmək isə türk xalqlarının yarımmüstəqilliyi ilə bağlı olub, onları öz keçmişindən ayırmaq məqsədi güdür və xarici amillərlə bağlıdır.

Bu ümumi hissədə müəllif orfoqrafiyaya verilən tələbləri də ümumiləşdirmişdir: təkmil əlifba sadə, asan, hamı üçün anlaşıqlı, əlverişli, kütləvi, asan mənimsənilən, asan vərdişə çevrilən, dilin fonetik və morfoloji quruluşunu düzgün əks etdirən, milli əlifba əsasında qurulan, təlim üçün yararlı, nəşriyyat üçün münasib bir əlifba olmalıdır. Müəllif çox düzgün nəticəyə gəlmişdir: "Öz sadəliyi, aydın və asanlığı cəhətdən türk xalqlarının orfoqrafiyası Avropa xalqlarının orfoqrafiyasından bir sıra üstünlükləri ilə fərqlənir. Türk ədəbi dillərinin yazılı və şifahi formaları arasında yaxınlıq nə qədər çoxdursa, digər sistemli dillərin, məsələn, ingilis, fransız, alman və s. dillərin yazılı və şifahi nitq formaları arasında ayrılıq və diferensiasiya bir o qədər çoxdur". Bizcə, burada diferensiasiya sözü o qədər də yerinə düşmür, amma fikir doğrudur. Burdan belə bir sual da meydana çıxır: necə olur ki, daha qədim bir tarixə malik olan bir xalqın orfoqrafiyası tam yenidir? Cavab vermək olar ki, bu hal xalqın daim imperiyalar tərkibində olması, özünəməxsus əlifbasının inkişafına imkan verilməməsi, əlifbasının tez-tez dəyişdirilməsi ilə bağlı olmuşdur. Müəllif özü də düzgün başa düşür ki, əslində, hər bir orfoqrafiyanın bəzəyi onun sabitliyi ilə bağlıdır. Bu cəhəti nəzərə alan müəllif Axundovdan bu yana orfoqrafiya məsələlərinin tarixi müzakirələrinə diqqət yetirmiş, 20-30-cu illərdə yeni qaydaların müzakirə və yaradılmasında B.Çobanzadənin əməyini xüsusi qiymətləndirmiş, başqa türk xalqları dilləri üçün orfoqrafiya qaydalarının yaradılmasında əməyi olan alimləri də yaddan çıxarmamışdır.

Birinci fəsildə orfoqrafiyanın prinsipləri, onların ayrı-ayrı ədəbi dillərin inkişafında tarixi rolu, müasir vəziyyəti və mahiyyəti barədə də ətraflı məlumat verilmişdir. Orfoqrafiya qaydaları orfoqrafiyanın prinsipləri əsasında tənzimlənir.

Prinsiplərə nəzər salarkən də müəllif tarixə ekskursiya etmiş, müxtəlif sistemli dillərdə hər bir prinsipi bu və ya digər şəkildə tarixi istiqamətdə araşdırmışdır. Bizim dilçilikdə orfoqrafiya məsələlərinin həllində, prinsiplərin müəyyən edilməsində müxtəlif mərhələlər olmuşdur. İlkin mərhələ, müəllifin bölgüsünə əsəasən, 1922-1929-cu illərdir. Bu dövr prinsipaxtarma, prinsiplərin müəyyənləşdirilməsi mərhələsidir. Müəllif araşdırmalar apararaq müəyyən etmişdir ki, ingilis, fransız dillərində prinsiplərin sayı dəqiq deyil. Məsələn, akademik L.V.Şerbanın dediklə-

rindən aydın olur ki, fransız dilində üstünlük tarixi və etimoloji prinsiplərə aiddir. Bu, ingilis dilində də belədir.

Dissertasiyada fonetik, morfoloji, etimoloji, şərti prinsiplər haqqında geniş məlumat verilmişdir.

Fonetik prinsipə əsasən sözün yazılışı onun tələffüzünə əsaslanır. Hər bir səs həmin səsin şərti işarəsi olan hərflə ifadə olunur. Bu prinsip xəlqi prinsip sayılır, yazı ilə tələffüzü daha çox yaxınlaşdırır. Ona görə də yeni yaranan türk orfoqrafiyalarında üstün yer tutur, daha çox tarixi olan fransız, ingilis, alman orfoqrafiyalarında türk dillərindəki qədər aparıcı mövqedə deyildir. B.N.Qolovinin fikrincə, məsələn, belorus dilində də hakim prinsipdir. Fonetik prinsipdən geniş istifadə ədəbi dil normalarının ümumiləşməsi, sabitləşməsi, yazı və tələffüz qaydaları arasında fərqin azalması baxımından faydalıdır. Fonetik prinsipdə fonemlər, fonematik prinsipdə morfemlər əsas götürülür. Dissertant maraqlı müqayisələr apararaq göstərir ki, fonetik prinsip türk xalqları orfoqrafiyasının fərqlənməsinə səbəb olur. Məs.: bizim dildə söz başında "ç" qazax dilində "ş" ilə deyilir və yazılır: ***çağırmaq – şakırmak***.

Müəllif fonetik prinsipin üstünlüklərini nəzərdən keçirərək bu qənaətə gəlir ki, bu prinsip nə qədər xoş olsa da, başdan-başa bu prinsipə əsaslanan orfoqrafiya yaratmaq olmaz və əgər bu cür cəhdlər olarsa, yazıda hərc-mərclik yarana bilər.

Morfoloji prinsip fonetik prinsipi tamamlayır və ona istiqamət verir. Bu prinsipə əsasən sözün, morfemlərin ədəbi dildə qanuni şəkil almış formaları əsas götürülür. Bu prinsip tələffüzü o qədər də nəzərə almır. L.V.Şerbanın fikrincə, "Morfoloji prinsip ondan ibarətdir ki, sözün məna kəsb edən hər bir hissəsi (önşəkilçi, kök, suffiks, sonluq) həmişə eyni cür yazılır, lakin sözün həmin hissəsinin tələffüzü müxtəlif şəraitdə müxtəlif ola bilər". Bu prinsipə əsasən yazının əsas vahidi morfemdir. Burada seçmə və əvəzetmə əsasında normalaşmış variant əsas götürülür. ***Çekic*** yox, ***çəkic***, ***pencərə*** yox, ***pəncərə*** kimi. Dilimizdə cəm şəkilçisinin ***-dar, -der, -nar, -ner, -zar,-zer*** və s. tələffüz formaları var, morfoloji prinsip ümumiləşmiş ***-lar,-lər*** şəklini qəbul edir. Bəzi türk dillərində morfemlərin yazılışında fonetik prinsipə üstünlük verildiyi üçün dillərarası morfem fərqləri də çoxalır. Məsələn, qırğız dilində: ***too-lor, ter-ler*** kimi.

Avropa dillərində olduğu qədər olmasa da, bizim dilimizdə də orfoqrafiya qaydalarının müəyyənləşməsində tarixi-ənənəvi prinsipin rolu vardır. Bu prinsipi yazıda köhnəlmiş qaydaları özündə cəmləşdirən qəbiristana bənzətmişlər, bizim dilçilər də onun təlimi çətinləşdirdiyini qeyd etmişlər. Bu prinsip özünü daha çox alınma sözlərin yazılışında göstərir: ***hətta, əlbəttə, Moskva, motor, vaqiə*** tipli sözlərdə. Bu prinsip əsasında yazılan sözlərdə apostrofun mövqeyi haqqında son müzakirələrdə T.Hacıyev, A.Axundov və başqa alimlərimizin fikirlərindən ətraflı söz

açılmış, təbii ki, dissertan rəhbərinin mövqeyində dayanaraq apostrofu artıq bilmişdir. İ.Əliyeva geniş yayılmış Avropa dillərinində tarixi-ənənəvi prinsipi nəzərdən keçirərək bu qənaətə gəlir ki, onların, xüsusən fransız, ingilis, alman dillərinin orfoqrafiyasını çətinləşdirən ən mühüm amil bu prinsipə geniş yer verilməsidir.

Dissertant xalis Azərbaycan sözlərinin yazılışında bu prinsipin rolunu ətraflı şərh etmişdir

Dissertasiyada dünya dillərində omonimləri fərqləndirmək üçün diferensiasiya prinsipi (rus dilində), etimoloji prinsip, şərti prinsip kimi prinsiplər haqqında da izahat vardır.

Dissertasiyanın ikinci fəsli "Orfoqrafiya və dilin quruluşu" adlanır. İ.Əliyeva bu fəsildə iltisaqi dillərin tipik nümunəsi kimi türk dillərinin və flektiv dillərdən bir sıra geniş yayılmış Avropa dillərinin quruluş xüsusiyyətləri ilə orfoqrafiyanın necə əlaqələndiyini izah etmişdir. Bunun üçün ilk növbədə aqqlütinasiya məsələsini nəzərdən keçirmiş və bir sıra görkəmli alimlərin fikirlərini ümumiləşdirmişdir. Türk dillərində orfoqrafiya ilə bilavasitə bağlı olan əlifba məsələsini - saitlər və samitlər sistemini araşdırmışdır. Məlum olur ki, əksəriyyət etibarilə yaxınlara qədər kiril əlifbasından istifadə edən türk xalqlarının əlifbaları çox mürəkkəbdir. Azərbaycan əlifbasında cəmi 32 hərf olduğu halda, qaraçay-balkar, noğay, qaqauz, qırğız, Krım-tatar, çuvaş əlifbalarında 37, kumık, tatar, türkmən əlifbalarında 38, xakas əlifbasında 39, uyğur əlifbasında 41 hərf olmuşdur.

Fəslin ilk bölməsində qalın və incə saitlər ahənginin sözlərin orfoqrafiyasının tənzimlənməsində rolu xüsusi tədqiq edilmişdir. Saitlərin yazılışı ilə bağlı müəyyən edilən bir sıra hallar türk dillərini fərqləndirən əlamətlər kimi çıxış edir. Məsələn, bizim dildə adi saitlərin başqa türk dillərində uzun saitli orfoqrafiyası (***qaz - qaaz, toz - tooz*** qaqauz və s) kimi. Xüsusən assimilyasiya hadisəsi bizim dildə tələffüzlə bağlı olduğu halda, bir sıra dillərdə orfoqrafik normaya çevrilmişdir. Məsələn, Altay dilində hətta reqressiv assimilyasiya da yazıda əks olunur. Qırğız dilində assimilyasiya hətta şəkilçilərdə də orfoqrafik norma sayılır. Azərbaycan dilindəki ***st*** səs birləşməsi türkmən dilində ***ss*** şəklində yazılır***: xəstə – xassa, yastıq - yassık*** və s. Bizim dilimizdə ikihecalı sözlərin ikinci zəif saiti bir qrup sözdə, türkmən dilində isə daha çox sözdə düşür.

Müəllif araşdırmalarla belə bir düzgün nəticəni müdafiə edir ki, türk dillərində söz kökləri deyildiyi qədər də sabit, dəyişməz deyildir. ***Papaq - papağı, ələk - ələyi*** tipli sözlərlə yanaşı***, seyrək - seyrəl, yüksək - yüksəl, kiçik - kiçil, tərpən - tərpət, öyrən - öyrət*** kimi sözlər də bunu təsdiq edir. Bunların səbəbi var. Qoşa saitli, qoşa samitli sözlərin yazılışı da türk dillərini fərqləndirir. Belə fərqlər şəkilçilərin yazılışına da aiddir. Məsələn, türk və Azərbaycan dilində ***mı*** şəkilçisi kimi.

Müəllifin fikrincə, şifahi yolla alınan sözlər fonetik prinsiplə, yazı ilə alınanlar morfoloji prinsiplə yazılır. Bu hissədə mürəkkəb sözlərin, xüsusi adların, abbreviatürlərin türk dillərində orfoqrafiyasına dair məlumat da vardır.

Flektiv dillərin quruluşu və orfoqrafiya məsələlərinin tədqiqi üçün müəllif ilk növbədə insirafi dillərin söz köklərində fleksiya məsələsinə diqqət yetirmiş, xarici və daxili fleksiyaları aydınlaşdırmışdır. Bu cür dillərdə orfoqrafiya morfoloji, fonetik və ənənəvi prinsiplərə əsaslanır. Qoşa saitlərin, önlüklərin, rus dili materialları əsasında yumşaq səsi bildirən "ь" səsinin, məsdərin, mürəkkəb sifətlərin, fellərin, zərfin yazılış qaydası, xüsusi adlar daha çox rus dilinin quruluşu əsasında izah edilmişdir. Bu hissədə ingilis dili orfqrafiyasının çətinlikləri xüsusi araşdırılmışdır. İslahata böyük ehtiyac olduğu və dəfələrlə məsələ qaldırıldığı halda, ingilis əlifbasında heç vaxt dəyişiklik edilməmişdir.

Əsərdə mübahisə doğuran cəhətlər, bir sıra üslub qüsurları da var:

1.Azərbaycan dili orfoqrafiya qaydalarının yeni layihəsindən danışılır, birinci paraqraf tənqid olunur: "Sait və samitlər ayrıca yox, sözlərin tərkibində verilir və yazılış əlamətləri qeyd edilir. Həmin maddələrdə sözlərdəki sait və samitlərin yazılışı verilsə idi, daha məqsədəuyğun sayılardı".(64) Fikir başa düşülmür. "Sözlərdəki" ilə "sözlərin tərkibindəki" bir-birindən nə ilə fərqlənir? Həm də nə üçün qaydalar təsdiq olunduğu halda, layihədən danışılır?

2. Səh.73-də ***q*** samitinin ***ğ*** samitinə keçidindən söhbət gedir və Azərbaycan, türkmən, Krım-tatar dillərindən cədvəl şəklində nümunələr verilir. Bir səhifə sonra müəllif yazır və çox düzgün yazır: "Göstərmək lazımdır ki, cingiltiləşmə qanunu ilə bağlı olaraq kar samit cingiltililəşərkən hökmən öz cingiltili qarşılığına və əksinə çevrilməlidir. Deməli, bir məxrəcdən olan səsin digər məxrəcdən olan səsə keçməsi mümkün deyildir".(74) Bunu biz hələ 1967-ci ildə "Sirkə" hekayəsi və imlamız" adlı məqalədə (bu məqalə üç dəfə çap olunub) əsaslı şəkildə izah etmişik. Q və ğ səslərinin məxrəcləri ayrıdır: q səsinin kar qarşılığı k`, ğ səsininki x samitidir. Bəs nə cür olur ki, dilarxası səs dildibi-boğaz samitinə çevrilir?

3.Diqqətsizlik halları: "M.F.Axundov hələ *keçən əsrin ortalarında* ərəb əlifbasını dəyişmək ideyasını irəli sürmüşdü".(16) "*Ümumittifaq MK-nın* rəhbərliyi altında türk xalqları yeni əlifbaya keçirlər".(17) "1959-cu ildə E.İ.Ubryatova türk xalqlarının və dillərinin *mükəmməl, təkmilləşmiş orfoqrafiyasının qaydaya salınması* məsələləri haqqında məruzə ilə çıxış edir". (17)

4.Texniki cəhətdə də qüsurlar var. Başlıqlar, yarımbaşlıqlar yaxşı fərqləndirilməyib. Birinci fəsildəki bəzi məsələlər (apostrof və s.) ikinci fəsildə də təkrar olunur. Başqa dillərdən danışılarkən bir sıra misallar izah olunmur, ona görə də anlaşılmır Məs.: səh.49-50-də *cütləşmiş samitlər, lal samitlər* bir qədər izah olunmalı idi.

Müəllifin ingilis, alman, fransız, rus dillərini və quruluş etibarilə fərqli olan əksər türk dillərini tədqiqata cəlb etməsi və böyük zəhməti

əsər haqqında yaxşı təəssürat yaradır. Bu əsər redaktə ilə çap olunmağa layiqdir, çap olunarsa orfoqrafiya məsələlərinə dair təsəvvürləri genişləndirə bilər. Nəzəri və praktik əhəmiyyəti olan əsərdir. Müəllif lazımi elmi ədəbiyyatı diqqətlə nəzərdən keçirə bilmişdir. 6 adda məqalə çap etdirmişdir. Bunlar və avtoreferat dissertasiyanın məzmununu əhatə edir.

Bunları nəzərə alaraq qeyd edirəm ki, Əliyeva İradə Talıb qızının "Orfoqrafiya və onun dilin quruluşundan asılılığı" mövzusunda əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Məmmədov Musa İsmayıl oğlu. «Mayya yazıları»
02.07.2005

M.İ.Məmmədovun elmi işi qədim Mayya xalqları heroqliflərinin yeni üsulla öyrənilməsinə həsr olunmuşdur. Bu vaxta qədər Mayya xalqları heroqliflərinin öyrənilməsi "Landa əlifbası" (1562) və onun Y.Knorozov tərəfindən təfsirinə əsaslanmışdır. İspan katolik missioneri Dieqo de Landa hələ XVI əsrdə bir sıra Mayya heroqlifləri ilə ispan əlifbasındakı 27 hərf arasında uyğunluqlar olduğunu müəyyən etmişdir. Son dövrlərdə də bir sıra alimlər, o cümlədən Y.Knorozov Mayya heroqlifləri ilə maraqlanmışdır. Y.Knorozov Landa əlifbasındaki heroqlifləri sistemləşdirərkən heroqliflərin əsasında duran məfhumlardan çıxış etmişlər. Məsələn, o, 683-cü heroqlifi it başına oxşadığı üçün "it" mənasında izah etmişdir. M.İ.Məmmədov isə araşdırmaları dərinləşdirərək müəyyən etmişdir ki, Y.Knorozov mürəkkəb quruluşlu heroqlifləri izah edərkən onların tərkib elementlərinə diqqət yetirməmiş, heroqliflərin hecayi elementlərini ayırmaqla kifayətlənmişdir. M.İ.Məmmədovun yeni açma, oxuma (rasşifrovka) üsuluna əsasən hər bir mürəkkəb heroqlif tərkib elementlərinə ayrılır və tərkib elementlərinin hər biri hərf və ya heca kimi izah edilir. Müəllif elmi işdə xeyli nümunə də vermişdir. Məsələn, Landa əlifbasına əsasən müəyyən edilmiş Mayya heroqlifi "a" M.İ.Məmmədov tərəfindən 4 qrafik elementə ayrılmışdır: ***iç-ka-z-al***; mənası: "iç orqanlar" deməkdir.

M.İ.Məmmədov öz yeni üsulu əsasında qədim Kopan və Yaşçilan şəhərlərindəki Mayya mətnlərini oxuya bilmişdir. Müsa müəllimin fikrincə, Meksika, Honduras, Qvatemala ərazilərindəki 150-dən artıq Mayya yazısını bu yeni üsul əsasında oxumaq olar. Bunun üçün xeyli ağlabatan nümunələr də vermişdir.

M.İ.Məmmədov elmi işdə yeni üsulla müəyyənləşdirdiyi ***hal, hol, tax, tah, mal, shunan, chinan, nal, cab, ab, nac, ancıl, tzıl, ul, ıl*** determinantlarının ətraflı izahını vermişdir.

Dünya dillərinə məxsus ulu dilin sözləri birhecalı (sait+samit və ya samit+sait şəklində) olmuşdur. Müəllifin qədim dillərdən olan Mayya dilində qeyd etdiyi determinantların qapalı hecalı olması göstərir ki, bunlar həqiqətən müxtəlif məna və vəzifə daşıyan müxtəlif elementlərdən ibarətdir. Bu vaxta qədər bunları da əsas heroqlifdən ayırmamışlar. M.İ. Məmmədov öz yeni üsulu əsasında bunları ayıra bilmişdir. Lakin tədqiqatın özündən belə nəticəyə gəlmək olur ki, araşdırmalar dərinləşdirilərsə, bunların özlərini də tərkib elementlərinə ayırmaq olar. Məsələn, ***hal, hol, mal, nal, ancıl, tzıl*** elementlərinin sonundakı ***-l*** səsi özünü ya təsirsizlik əlaməti, ya da sifət düzəldən şəkilçi kimi göstərir. ***Ul, ıl*** determinantları isə aşkar şəkildə türk dillərində çox məhsuldar sifət düzəldən şəkilçidir: ***kav - əl*** (Mayya), ***kav-ıl*** - bacarıqlı (əl).

Bu cür araşdırma Mayya xalqları dillərinin hansı dil ailəsinə mənsub olduğunu üzə çıxarmaq üçün də əsas verir. Müəllif əsərini rus dilində yazsa da, araşdırmalardan aydın olur ki, Mayya dilində türk elementləri aparıcıdır. Məsələn, determinantlardan danışarkən müəllifin "yağış" mənasında verdiyi ***haa*** sözü hava, "gün" mənasında ***kin*** sözü gün, qara mənasında ***kab*** sözünün kökü (*qa*) qara, "böyük" mənasında ***noh*** sözü nəh(əng), "əl-qol" mənasında *kab* sözü qol, "quru" mənasında ***kan*** sözünün kökü (*ka/qu*) quru, "ölkə, sərhəd" mənalarında ***ab*** sözü ev, "oturmaq" mənasında ***oç (ç>t*** keçidi ilə) oturmaq və s. Bunların bir qismi ulu dildən gələn və müxtəlif dillərdə özünü mühafizə edən leksik vahidlərdir. Müəllifin müəyyən etdiyi determinantlar diqqətlə öyrənilərsə, türk dillərinə məxsus maraqlı qrammatik xüsusiyyətlər aşkarlana bilər. Buradakı tədqiqat üsulu yenidir və Mayya xalqları dillərinə məxsus heroqliflərin öyrənilməsi üçün geniş imkanlar yaradır. Odur ki bu əsər bir kəşf kimi qəbul edilə bilər.

Bədirxan Balaca oğlu Əhmədov. «Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər)»
DD. 23.11.2005

Adından göründüyü kimi, dissertasiya 70 ilə qədər bir dövrü – bütövlükdə Sovet dövrü ədəbiyyatımızı əhatə edir. Əgər müəllifin mövzu ilə bağlı araşdırmalarının lirik, epik və dramatik növləri – poeziya, nəsr və dramaturgiya nümunələrini əhatə etdiyini nəzərə alsaq, B.Əhmədovun böyük və ağır bir sahənin tədqiqini öhdəsinə götürmüş olduğunu görərik. Avtoreferatı nəzərdən keçirdikdə o da məlum olur ki, müəllif həmin ədəbi növlər üzrə dünya ədəbiyyatına da üz tutmuş, Azərbaycan ədəbiyyatında satirik janrların inkişaf yoluna, xüsusiyyətlərinə dünya ədəbiyyatının gözü ilə baxmışdır.

B.Əhmədov qarşısına qoyduğu problemləri dörd fəsildə ümumiləşdirmişdir. "Satiranın genezisi və nəzəri-estetik əsasları" adlı birinci fəsildə məsələnin qoyuluşu göstərir ki, bəşər mədəniyyəti tarixində çox qədim kökləri olan, uzun inkişaf yolu keçmiş bir ədəbiyyatı öyrənmək, satiranın, yumorun - komizmin bu iki formasının genezisi barədə söz demək üçün müəllif böyük zəhmətlərə qatlaşmalı, satira və yumor barədə zəngin estetik ədəbiyyatı öyrənməli olmuşdur. Ona görə də əsərin elmi əsaslandırmaları zəngindir, müəllif elmi-nəzəri ədəbiyyatı diqqətlə nəzərdən keçirə bilmiş, lazımi ümumiləşdirmələr aparmalı olmuşdur. Tədqiqatdan hiss olunur ki, hələ dünya estetik fikri şumer satirik hekayələrinə yön tuta bilməmişdir.

Satira tədqiqatçıları daim satira və yumorun münasibətləri üzərində dayanmış, komizmin bu iki formasının ortaqlı və fərqli cəhətlərini müəyyənləşdirməyə çalışmışlar. Birinci fəsildə bu məsələ bizim müəllifi də düşündürmüş, o, sosialist realizminin bir sıra cəhətlərinin tənqid olunduğu indiki dövrdə bu iki formanın münasibətlərini əsasən düzgün qiymətləndirmişdir.

İkinci fəsildə müəllif Azərbaycan dramaturgiyasında satiranın inkişaf yolları və mərhələləri probleminin tədqiqi ilə məşğul olmuşdur. Lakin Azərbaycan ədəbiyyatı ilə kifayətlənməmiş, komediyanın Aristofandan bu günə qədərki dünya ədəbiyyatında inkişaf yolunu izləməli olmuşdur. Azərbaycan ədəbiyyatında komik konflikt və satirik xarakter problemlərinin tədqiqi əsasında komediyanın Sovet dövründə inkişaf yolunun ziqzaq mərhələlərdən keçdiyini, həqiqi satirik komediyaların nisbətən az olduğunu, lirik, lirik-satirik komediyaların üstünlüyünü müşahidə etmişdir. Satirik tipikləşdirmə, final, komik maska və adlar və s. kimi məsələlərə ilk dəfə ətraflı nəzər salmışdır.

Üçüncü fəsil bədii nəsrdə satira problemlərini əhatə edir. "Aldanmış kəvakib"lə başlayan Azərbaycan realist nəsri bu cəhətdən müəllifə geniş imkanlar vermişdir. Müəllif satirik keyfiyyətinə görə haqlı olaraq "Mola Nəsrəddin" nəsrini 20-30-cu illərdə yaranmış satirik nəsrdən fərqləndirmişdir. "Mola Nəsrəddin" zirvəsini fəth edə bilməsə də, "Molla Nəsrəddin" kökləri üzərində qanadlanan yeni nəsrin xüsusiyyətlərini sistemli araşdırmış, satirik nəsrdə psixologizm, naturalizm meyillərinə diqqət yetirmiş, 2-ci Dünya müharibəsi dövründə yaranmış satirik nəsr nümunələrinin (S.Rəhimovun "Su ərizəsit", "Üzsüz qonaq" və s. hekayələri də bura daxildir) geniş təhlilini vermişdir. Anarın "Yaxşı padşahın nağılı" hekayəsi 60-cı illər satirik nəsrinin ən gözəl nümunəsidir. Bu fəsildə satirik nəsrin janr və üslub məsələləri də xüsusi yer tutur.

Dissertasiyanın son fəsli "Poeziyada satira axtarışları" adlanır. Müəllif tədqiqatı düzgün istiqamətdədir: 20-ci illərin və sonrakı dövrün satirik poeziyası Sabir poeziyası deyildir və heç bir satira ustası Sabir zir-

vəsini fəth edə bilməmişdir. Lakin az-çox yaradıcılıq nümunələri zamanın və quruluşun ahənginə uyğun yeni keyfiyyətli poeziya nümunələridir. Bu fəsildə satirik portret və obrazlar aləmi barədə müəllifin mülahizə və qeydləri də maraqlıdır.

Dissertasiya böyük zəhmətin və uzun tədqiq və araşdırmaların məhsuludur. Filologiya elmləri namizədi Bədirxan Əhmədovun bu mövzu üzərində uzun illərdən bəri tədqiqat apardığını, elmi-nəzəri ədəbiyyata yaxşı bələd olduğunu bilirəm. Müəllifin dissertasiya ilə bağlı məqalələri və iki monoqrafiyası ilə tanışam. Əsərin nəzəri və praktik əhəmiyyəti böyükdür. Bu əsərlə tanışlıq ədəbiyyata yeni baxışa səbəb olur. Müəllif gələcəkdə daim həqiqi xalq dövləti kimi xatırlanacaq Sovet hakimiyyəti illərində yaranmış ədəbiyyatı bütöv halda nəzərdən keçirməli olmuş, lakin çox təəssüf ki, belə bir möhtəşəm dövrün adını heç bir səbəb və inkarçılıq olmadan dırnaq arasına almışdır ("Sovet" dövründə ədəbiyyatımız… s.8)

Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, Bədirxan Balaca oğlu Əhmədovun "Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər)" mövzusunda bu əsəri doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tam layiqdir.

Xəlilova Aynur Sədrəddin qızı. «Aşıq rəvayətləri: təsnifi və poetik sistemi»
ND. 04.12.2005

Ümumən rəvayətlər və o cümlədən aşıq rəvayətləri folklorun epik janrları içərisində mühüm yer tutur. Xalq təfəkküründün məhsulu olmaqla, etnik, estetik gücü ilə xalqın yaddaşında keçmişi mühafizə etməklə yanaşı, aşıq dastanlarının yaranmasında da misilsiz mənbə hesab olunur. Odur ki dissertantın seçdiyi bu mövzu orijinal bir mövzu kimi diqqəti cəlb edir.

Bu maraqlı mövzunun ayrıca monoqrafik tədqiqi ilk dəfədir. Hiss olunur ki, müəllif onu sevgi və istəklə tədqiq edib öyrənmişdir. Əsər bir namizədlik dissertasiyası kimi. elmi səviyyəsi ilə seçilir. Mövzu kənara çıxılmadan bir süjet ətrafında bütöv və bitkin şəkildə tədqiq edilmişdir. Mövzunun aktuallığı, nəzəri və praktik əhəmiyyəti, qarşıda duran vəzifələr, işin elmi yenilikləri, metodologiya məsələləri diqqətlə əsaslandırılmışdır.

Mövzu iki fəsildə ümumiləşdirilmişdir. "Aşıq rəvayətlərinin səciyyəsi və təsnifi" adlı birinci fəsildə müəllif həqiqətən fəsli adlandırdığı istiqamətdə işləyərək, aşıq rəvayətlərinin orijinal təsnifini vermiş və mühüm səciyyəvi xüsusiyyətlərini aydınlaşdırmışdır.

Əsərdə aşıq rəvayətləri ilə digər rəvayətlər fərqləndirilmişdir. Müəllif öz tədqiqat obyektini konkretləşdirərək, mövzusunun hər cür rəvayətləri deyil, məhz aşıq rəvayətlərini əhatə etdiyini qeyd etmiş, aşıq rəvayətlərini səciyyəvi əlamətləri ilə fərqlənən: informativ-bioqrafik rəvayətlər, yurd-rəvayətlər, lətifə-rəvayətlər, dastan-rəvayətlər kimi dörd qrupa ayırmışdır. Zənnimcə, bu cür bölgü yeni və orijinal olmaqla yanaşı, eyni zamanda, əsaslı sayıla bilər. Müəllif bunların hər biri üzərində xüsusi dayanmış, rəvayətlərin göstərdiyi növlərini ətraflı səciyyələndirmiş, əsas əlamətlərini müəyyənləşdirmişdir. Müəllifin qeyd etdiyi kimi, aşıq rəvayətlərinin bu növlərinin hər biri xalqın yaddaşında sərbəst və müstəqil yaşamaq imkanına malik folklor örnəkləridir. Lakin bunlar, xüsusən bunlardan sonuncusu - dastan-rəvayətlər aşıq dastanlarının yaradılması üçün misilsiz mənbə sayılır. Odur ki müəllif əməli işə keçərək, ikinci fəsildə ("Aşıq rəvayətlərinin dastanlaşma prosesində rolu") aşıq dastanlarının yaranmasında bilavasitə aşıq rəvayətlərinin rolunu araşdırmışdır. Bu cür arapşdırmalar aparmaqla aşıq dastanlarının hər bir elementinin necə yarandığını, dastanların necə qurulmuş olduğunu müəyyənləşdirmək mümkündür. Dastan-rəvayətlərin dastanlaşma imkanları aşıq şerinin mühafizəsi üçün də mühüm amil olmuşdur: "Müşahidələr göstərir ki, aşıq şeirlərinin kontekst daxilində yaşama və gələcəyə daşınma imkanı təklikdə (müstəqil şəkildə) yaşama və gələcəyə daşınma imkanından daha güclüdür". Bu da nəzərə alınır ki, aşıq dastanlarının yaranmasında təkanverici qüvvə informativ-bioqrafik rəvayətlər sayılmalıdır.

"Aşıq dastanları" anlayışı geniş və dar mənada başa düşülür. Odur ki müəllif termini hansı məzmunda işlətdiyini dəqiqləşdirmişdir: "aşıq dastanları" dedikdə hər cür dastanları deyil, bilavasitə aşıqlar haqqında (özləri və ya başqaları tərəfindən) yaradılmış dastanları nəzərdə tutduğunu qeyd etmişdir: "Burada qəhrəman-aşiq də, dastançı-müəllif də, təqdimatçı da, qoruyucu-yaşadıcı da, informator-ötürücü də aşıqdır".(14) Bununla da müəllif ilk dəfə aşıq dastanlarını məhəbbət dastanlarından ayırmışdır. Və, zənnimcə, çox doğru mühakimə yürüdür: "…aşiqi aşıq olmayan "Leyli və Məcnun", "Fərhad və Şirin", "Şah İsmayıl - Gülzar", "Tahir - Zöhrə" və onlarca məhəbbət dastanı mövcuddur…"

Müəllifin zərif fərqləndirmə imkanları, səlis üslubu, az sözlə çox fikir ifadə etmə bacarığı oxucuya xoş gəlir: "Yəni burada qəhrəman hələ aşiq və aşıq olmamışdan əvvəl yuxuda ona buta (aşiqlik) və badə (aşıqlıq) verilir və yalnız bundan sonra o, məğlubedilməz bir aşıq və aşiq - haqq aşığı, haqq aşiqi olur".(15)

Müəllifə xatırlatmalarımız da var:

1.Aşıq sənətinin əcdadı, keçmiş inkişaf yolu barədə müəllifin təsəvvürləri bizim təsəvvür etdiyimiz inkişaf yoluna tam uyğundur: "…müəyyənləşdi-

rilir ki, qam-şaman rəvayətlərinin sonrakı dönəmlərdə ozan rəvayətlərilə əvəzlənməsi, orta çağlarda (təxminən XV-XVI yüzilliklərdə) aşıqlığın meydana gəlməsi ilə bağlı bu rəvayətlərin ənənənin davamı kimi öz yerini tədricən aşıqlarla ilgili rəvayətlərə - aşıq rəvayətlərinə verməsi amili də nəzərdə saxlanmaqla aşıq rəvayətlərinin mövcudluq tarixi aşıq sənətinə məxsus bütün növ yaradıcılıq nümunələrindən daha ilkindir".(12) Bu sözləri və müəllifin qeyd etdiyi "davul – qopuz - saz" üçlüyünü nəzərə alaraq, deyə bilərik ki, bu sənətin tarixi barədə fikir tam doğrudur. Bu doğru fikir ***bağlı*** və ***ilgili*** sözlərinin sinonimləşdirilməsi ilə ifadə edilmişdir. Bu sözlər əsər boyu belə müvazi işlənmişdir. Avtoreferatda təxminən 11-in 10-a nisbəti kimidir. Bir tələbəm kimi, hardan düşüb könlünə bu ***ilgili*** sözü, bilə bilmədim.

2.Müəllifin fikrincə, "Abbas-Gülgəz" və Valeh-Zərnigar" dastanları adı çəkilən aşıqların özü tərəfindən, "Qurbani" də daxil olmaqla bir sıra dastanlar sonralar başqa aşıqlar tərəfindən yaradılmışdır. Burada söylənməsinə imkan olmayan bir sıra cəhətlər bir yana, təkcə onu deyə bilərik ki, buta aldıqdan sonra aşığın başına gələn müsibətlər, üzləşdiyi çətinliklər, maneələr "Qurbani" dastanında çox mükəmməldir, "Abbas-Gülgəz"də isə kopiya xarakteri daşıyır, zəif və solğundur. Odur ki fikrimizcə, "Qurbani" M.H.Təhmasibin və bizim zənn etdiyimiz kimi, ilkin variantda Qurbaninin öz qələminin məhsuludur.

3.Dissertant aşığın - Qurbaninin buta aldığı yeri (Mazannənə pirini) "haradasa Gəncədə və ya Gəncə ətrafında" (19) təsəvvür edir. Mazannənə piri aşığın doğulub-böyüdüyü Diri dağının döşündə - Diri kəndində, Araz qırağında, Xudafərin körpülərinin qarşısında (Cəbrayıl rayonu ərazisində) yerləşir.

Dissertasiya gənc qələm sahibinə məxsus bir tədqiqat əsəri kimi, elmi cəhətdən xoş təsir bağışlayır. Ona görə də qeyd edirik ki, Xəlilova Aynur Sədrəddin qızının "Aşıq rəvayətləri: təsnifi və poetik sistemi" adlı əsəri filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Əliyeva Gültəkin Alışan qızı. «Feli birləşmələrin semantik-tipoloji təhlili (rus və Azərbaycan dillərinin materialları əsasında)» ND.Opp.r. 01.05.2006

Feli birləşmələrin tədqiqinə maraq artmaqdadır. Bu əsər son vaxtlar feli birləşmələrə həsr olunmuş üçüncü dissertasiyadır. Lakin bu əsərdə ilk dəfə olaraq tipoloji cəhətdən fərqlənən iki dilin – rus və Azərbaycan dillərinin feli birləşmələri qarşılaşdırma əsasında tədqiq edilmişdir. Xalqlar və dillər arasında əlaqələrin daha çox genişləndiyi indiki dövrdə bu cür tədqiqat işləri öz aktuallığı ilə diqqəti cəlb edir.

Ədəbiyyatla birlikdə 144 səhifəlik bu dissertasiya giriş, iki fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

Giriş ümumi qayda əsasında yazılmışdır. 1-ci fəsil «Feli birləşmələrin tipoloji təhlili» adlanır. Bu fəsil dörd bölmədən ibarətdir.

«Söz birləşməsi məsələsinin tarixi» adlı birinci bölmədə müəllif qədim hind, yunan qrammatiklərindən, Platon, Aristotel, Frakiyali və Qallikarnaslı Dionisilərdən başlayaraq, XVIII əsrdə yaşamış və sonrakı dövr mütəfəkkirlərinin – M.V.Lomonosov, A.Barsov, A.Vostokov, A.M.Peşkovski, A.A.Şaxmatov, F.Fortunatov, N.Y.Marr, V.V.Vinoqradov, türkologiyada A.N.Kononov, M.Kazım bəy, Jan Deni, A.K.Borovkov, N.K.Dmitriev və başqalarının söz birləşmələrinin tədqiqi sahəsində fikri necə irəlilətdikləri nəzərdən keçirilir. Müəllif belə bir nəticəyə gəlmişdir ki, feli birləşmələrinin tədqiqi ənənəsi böyükdür.

Birinci fəslin ikinci bölməsində feli birləşmələrin kəmiyyət-quruluş tiplərindən bəhs edilir. Burada predikativ və qeyri-predikativ birləşmələrin müəyyənləşdirilməsi tarixindən söz açılmış, F.Fortunatov, V.Suxotin, N.Baskakov və başqalarının fikirləri şərh olunmuşdur.

Məlumdur ki, dilçilərin bir qismi söz birləşməsi adı altında predikativ birləşmələrdən də danışmağı lazım bilir, bir qismi lazım bilmir. Müəllif belə bir qənaəti müdafiə edir ki, predikativlik anlayışı subyekt ilə predikat arasındakı əlaqədən geniş anlayışdır.

Bu bölmədə feli birləşmələrin quruluşu məsələsindən də danışılır, feli birləşmələrin sadə və mürəkkəb olduğu, iki müstəqil sözdən ibarət olanların sadə, üç və daha artıq müstəqil sözdən ibarət olanların mürəkkəb birləşmə olduğunu qəbul edir. Müəllif mürəkkəb birləşmələrin paralel tabelilik, ardıcıl tabelilik və qarışıq tiplərini qeyd etmişdir.

Birinci fəslin 3-cü bölməsində sabit və sərbəst birləşmələr izah olunmuşdur. Burada müəllif sabit birləşmələrin iki növə ayrıldığını – sabit leksik və sabit frazeoloji birləşmələrdən ibarət olduğunu izah etmək təşəbbüsündə olsa da, fikri irəlilətmir. Son ali məktəb dərsliyində bu məsələ nisbətən geniş izah edilmişdir (s.63-70).

Müəllif sabit və sərbəst birləşmələrin formal cəhətdən fərqlənmədiyini göstərir. Doğrudur, sabit birləşmələr sərbəst birləşmə modeli əsasında yaranır, buna görə də zahiri forma fərqi görünmür, lakin nəzərə almaq lazımdır ki, sabit birləşmələrdə morfoloji əlamət donuq vəziyyətdə, sərbəstdə isə dinamik olur. Odur ki sabit birləşmənin asılı komponentini hərəkətə gətirdikdə məna dəyişir: ***bel bağlamaq – beli bağlamaq*** kimi. Bu cəhətdən müəllif yalnız mənaya əsaslanmağın düz olmadığını deyən V.M.Nikiteviçi haqsız saymaqda haqlı deyil.

Birinci fəslin son bölməsində feli birləşmənin tərəfləri arasında sintaktik əlaqələrdən danışılır. Müəllif tabesizlik əlaqəsinə xeyli yer vermiş, «Leyli və Məcnun» tipli birləşmələri izah etmişdir. Sonra yanaşma, uzlaşma, idarə əlaqələri üzərində dayanmış, uzlaşmanın tam və natamam, güclü və zəif formalarını izah etmişdir.

İdarə əlaqəsində yalnız isim, əvəzlik, say və feli sifətin idarəsindən danışılır, ***учить плавать*** tipli birləşmələrin yanaşma əlaqəli oldu-

ğu göstərilir, bizim dildə ***üzməyi öyrənmək*** – birləşməsi rus dilindən fərqli əlaqə ilə yaranmışdır - idarə əlaqəlidir.

İkinci fəsil «Feli birləşmələrin semantik-qrammatik təhlili» adlanır. Bu fəsil üç bölmədən ibarətdir:

1.Asılı sözü isimdən ibarət olan feli birləşmələr və onların tərəfləri arasında məna əlaqəsinin əsas tipləri;

2.Asılı sözü məsdərlə ifadə olunan feli birləşmələr və onların tərəfləri arasında məna əlaqəsinin əsas tipləri;

3.Asılı sözü zərfdən ibarət olan feli birləşmələr və onların tərəfləri arasında məna əlaqəsinin əsas tipləri;

Bu fəsildə müəllifin tədqiqatçılıq qabiliyyəti daha aydın görünür. . Müəllif rus dilində asılı tərəfi önlüklü, bizim dildə qoşmalı feli birləşmələrin geniş müqayisəsini verMişdir. Müəyyənləşdirmişdir ki, təsirsiz fel təsirlik halda söz və birləşmələrlə də işlənir. Burada felin çoxmənalılığının, məcaziliyinin rolu izah oluna bilərdi. Ən mühüm iş isə ondan ibarətdir ki, müəllif asılı tərəfi müxtəlif sahə növləri üzrə qruplaşdırdığı kimi, əsas tərəfi – şəxssiz felləri də məna xüsusiyyətlərinə görə qruplaşdırmışdır. Fəslin ikinci bölməsində ***olmaq, başlamaq, istəmək, bilmək*** tipli modal münasibət ifadə edən fellərin iştirakı ilə yaranan feli birləşmələr də geniş təhlil edilmişdir

Dissertasiyada bir sıra qüsurlar vardır:

1.Əsərdə elmi ədəbiyyatdan düzgün istifadə edilməmişdir. Ədəbiyyat siyahısında rus dilində olan 158 əsər adı qeyd edilmişdir. Biz çıxarışları saydıq – 40-dan artıq ədəbiyyat istifadəsizdir, cəmi 114 ədəbiyyatdan istifadə edilmişdir ki, bunların da çoxu sadalama şəklindədir, yəni sitat verilməmiş, sadəcə istinad edilmişdir. Bir mühüm cəhət də budur ki, bunların hamısı birinci fəslə aiddir, ikinci fəsildə cəmi sadalama şəklində iki istinad vardır. Və bir cəhət də budur ki, əsərdə son vaxtlarda feli birləşmələrə dair müdafiə edilmiş iki dissertasiyanın və başqa zəruri ədəbiyyatın adı çəkilmir.

2.İkinci fəslin bölmələri düz müəyyən edilməmişdir. Birinci bölmənin daxilində isimlərlə yanaşı, asılı tərəf kimi, sifət, say, feli sifət və s. sadalanır. Odur ki bölmənin adı «asılı tərəfi isimdən ibarət olan» yox, «adlardan ibarət olan feli birləşmələr» adlandırılmalı idi.

İkinci bölmənin adı «asılı tərəfi məsdərdən ibarət olan feli birləşmələr»-dir. Məsdər isim xüsusiyyətinə malik olan sözdür, odur ki birinci bölmədə verilməli idi. Müəllif bu bölmədə asılı tərəfi feli sifət, feli bağlama olan (***остановить торопящих, ходить торопясь***) feli birləşmələrdən də danışmışdır. Asılı tərəfi feli sifətdən ibarət olanlar da birinci bölmədə verilməli idi, çünki feli sifət substantivləşərək asılı tərəf kimi çıxış edir. İkinci bölmə «asılı tərəfi feli bağlamadan ibarət olan feli birləşmələr» olmalı idi.

3.Qeyd edilir ki, dilçilikdə: ***поехал в город – şəhərə getdi, купил книгu – kitab aldı -*** tipli birləşmələr diqqətdən kənarda qalmış, predikativ birləşmə dedikdə yalnız ***Əhməd getdi*** – tiplilər nəzərdə tutulmuşdur. Lakin, məsələn,

«Müasir Azərbaycan dili. Sintaksis» (2000) dərsliyində deyilir: «Predikativ birləşmələr xəbərin iştirakı ilə yaranan birləşmələrdir. Burada, başlıca olaraq, cüttərkibli cümlənin mübtəda – xəbər əlaqəsi nəzərdə tutulur; məs.: ***Sabah Bəşir öz qızını müəllimənin yanına aparacaqdı*** – cümləsindəki ***Bəşir aparacaqdı*** birləşməsi predikativ birləşmədir. Nitq prosesində məlum olandan yeniyə istiqamətində bu cümlədəki ***sabah aparacaqdı, öz qızını aparacaqdı, müəllimənin yanına aparacaqdı*** birləşmələri də predikativ birləşmələrdir. Predikativ birləşmə başqa sözlə «cümlə» deməkdir».(s.13)

4.Subyektli feli birləşmələrə verilən misallarda (***желать увидеть – görməyi arzulamaq***) subyekt görünmür, müəllif ondan qabaq müdafiə edilmiş dissertasiyanı oxumalı idi.(116) ***Держаться очень хорошо – özünü əla almaq*** – (121) birləşməsinin tərcümə hissəsi zərf birləşməsi yaratmır, izah olunmalı idi. Nəticə bir səhifə yarımdır və s. Dissertasiyada tam yanaşma kimi verilən nümunələrin heç biri tam yanaşma əsasında qurulmayıb: ***Aram-aram, ağır-ağır yıxıldılar – aram-aram, ağır-ağır yerə yıxıldılar***.

Əsərin mühüm elmi və praktik əhəmiyyəti var. Dili xoş təsir bağışlayır. Müəllif öz fikirlərini rus dilində səlis ifadə etmişdir. 6 adda məqalə çap etdirmişdir. Fikrimizcə, əsər hazırkı dövrün tələblərinə uyğun yazılmışdır.

Bunları nəzərə alaraq qeyd edirik ki, Əliyeva Gültəkin Alışan qızının «Feli birləşmələrin semantik-tipoloji təhlili (rus və Azərbaycan dillərinin materialları əsasında)» adlı əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir, müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Əl-Abbasi Xeyruddin Nəşət. «Ərəbizmlərin müasir Azərbaycan ədəbi dilində semantik dəyişiklikləri»
DD. 06.05.2006

Əl-Abbasi Xeyruddin Nəşəətin bu əsəri aktul bir mövzuya həsr olunub. Bir sıra əsərlərdə yeri gəldikcə toxunulsa da, Azərbaycan dilində ərəb dilindən alınmalar bu vaxta qədər belə sistemli tədqiq edilməyib.

Üç fəsildən ibarət olan bu əsərdə müəllifi, hər şeydən əvvəl, ərəb dilindən alınmaların tarixi maraqlandırmışdır. Müəllif bunu ilk növbədə VII – IX əsrlərdə Xilafətin Azərbaycanı işğalı və ölkəmizin ərazisində islam dininin yayılması, sonralar da xeyli müddət ərəb dilinin elm dili kimi fəaliyyəti ilə əlaqələndirir. Bunlar doğrudur. Lakin ərəblərlə türklərin əlaqəsi daha qədimdir. İkiçayarası ərazilərin şərqində və qərbində türklərlə ərəblər eradan əvvəlki minilliklərdə birgə və yanaşı yaşamışlar.

İslam dini hazırkı müsəlman ölkələrinə yayıldıqdan sonra, bir sıra başqa dillərdə olduğu kimi, bizim dilimizdə də ərəb mənşəli dini leksika

geniş yer tutmağa başlamışdır. Bunu «Dədə Qorqud»un dili də göstərir. Müəllif ərəbizmlərin alınma tarixindən danışmaqla kifayətlənməmiş, onların Azərbaycan dilində mənimsənilməsi məsələsi ilə məşğul olmuş, əsərin əsas hissələrini bu məsələnin tədqiqinə həsr etmişdir. Müəyyənləşdirmişdir ki, ərəb dilindən alınma sözlər müxtəlif inkişaf yolu keçmiş - bir qisminin mənası dəyişmiş, bir qisminin mənası genişlənmiş və ya daralmışdır, müəyyən böir qismi isə öz ilkin mənasını saxlamışdır.

Maraqlı cəhətdir ki, ərəb dilindən alınmalar mənşə dildə əksərən fellərdən ibarət olduğu halda, Azərbaycan dilində isim kimi mənimsənilmişdir. Bu, Azərbaycan dili fellərinin çoxkateqoriyalı olması, yad dillərə qarşı sabitliyi və mühafizəkarlığı ilə bağlıdır və müəllifin mühüm nəticələrindən biri sayıla bilər.

Xeyruddin Nəşət ərəb dili leksikasının alınma yolları barədə də fikir söyləmişdir. Müəllifin fikrincə, ərəbizmlər daha çox yazı vasitəsilə mənimsənilmişdir. Şifahi yolla az söz keçmişdir. Ərəbizmlərin alınmasında vasitə dil kimi, fars dilinin rolu da unudulmamışdır.

Ərəb dilindən alınmaların böyük bir qismi dildə sabitləşə bilməmiş, sıradan çıxmışdır. Lakin zəruri ictimai-siyasi, dini leksitkadan ibarət olan sözlər Azərbaycan dilində sabitləşmiş və tam mənimsənilmişdir.

Dissertasiyadan aydın olur ki, əsər böyük zəhmət hesabına başa gəlmişdir. Müəllif rus və Avropa dillərində, ərəb dilində, türk dillərində və o cümlədən Azərbaycan dilində olan əksər müvafiq ədəbiyyatı nəzərdən keçirməli olmuşdur. Hiss olunur ki, müəllif elmi ədəbiyyat məsələsində çox həssasdır və heç bir ədəbiyyatı gözdən qaçırmamağa çalışmışdır. Nə qədə lüğət nəzərdən keçirməli olmuşdur. Bizim klassik ədəbiyyatı öyrənmişdir.

Əsərin elmi aparaturası zəngindir, elmi və praktik əhəmiyyəti böyükdür. Müəllifin kifayət qədər əsəri çap olunmuşdur.

Bunları nəzərə alaraq qeyd edirik ki, Əl-Abbasi Xeyruddin Nəşətin «Ərəbizmlərin müasir Azərbaycan ədəbi dilində semantik dəyişiklikləri» adlı əsəri doktorluq dissertasiyasının tələblərinə cavab verir və müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Müəllif «Azərbaycan dilində ərəb sözləri» adlı bir lüğət hazırlamış olsa idi, çox faydalı olardı.

Rafiq Yusif oğlu Əliyev. «XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri» DD. 30.09.2006

XX əsr, xüsusilə sovet dövrü Azərbaycan poeması ədəbi-estetik keyfiyyətlərinin, struktur xüsusiyyətlərinin zənginliyi ilə diqqəti cəlb

edir. Əgər daha əvvəllər yaranmış mənzum romanları nəzərə almasaq, poema janrı heç bir əsrdə bu dövrdə olduğu qədər inkişaf etməmişdir. Bunlar göstərir ki, dissertasiya geniş və sanballı bir mövzunun tədqiqinə həsr olunmuşdur. Həm də nəzərə almaq lazımdır ki, belə bir aktual mövzu, belə bir zəngin tədqiqat obyekti bu vaxta qədər konkret problem üzrə bütövlükdə öyrənilməyib.

İlk tanışlıqdan aydın olur ki, dissertasiyanın əhatə dairəsi çox genişdir. Müəllif bir əsrə yaxın bir müddətdə yaranmış Azərbaycan poemasının ümumiləşmiş mənzərəsini yarada bilmiş, janrın sənətkarlığını səciyyələndirən bütün əsas əlamətləri üzə çıxarmışdır.

Giriş, dörd fəsil, nəticə və kitabiyyatdan ibarət olan bu əsərin birinci fəslində ("Poemanın strukturu və bədii formanın tipologiyası") ilk növbədə janrın inkişaf meyilləri, tipologiyası tədqiq edilmişdir.

Aydındır ki, poema adətən ya lirik, ya da epik planda yazılır. Müəllifin üslubundan asılı olaraq, "Ölüm kürsüsü" kimi dramatik poemalar da mövcuddur. Bunlar poema janrının dünya ədəbiyyatının min illərlə sınaqdan çıxmış əsas növləridir. Lakin sonrakı mərhələlərdə janrın saysız üslubi qolları meydana çıxmışdır. Bunlar sovet dövrü Azərbaycan poemasının da böyük vüsətlə şaxələnməsinə səbəb olmuşdur. Müəllif bu cəhəti müşahidə edərək, lirik və epik poemanın poema-müraciət, poema-dialoq, fraqmentlər poeması, poema-məktub, poema-gündəlik, poema-reportaj, poema-peyzaj, alleqorik poema, poema-əfsanə, poema-rəvayət kimi mövzu və təsvir üsulu ilə bağlı çalarlarını ortaya çıxarmış, zəngin Azərbaycan poemasını bu əsasda diqqətlə qruplaşdıra bilmişdir.

Bu fəsildə poema janrında - epik poemalarda süjetin təkamül və inkişafına xüsusi diqqət yetirilmiş, məişət süjetləri, sosial-ictimai və folklor süjetləri fərqləndirilmiş və ətraflı təhlil edilmişdir.

"Zaman və qəhrəman problemi" adlanan ikinci fəsildə deyilir: "Müəllif belə qənaətə gəlir ki, zaman, ictimai mühit bədii əsərin mövzusuna, ideya-məzmununa, bədii formasına, qəhrəmanların fəaliyyətinə və mübarizəsinə, onların mənəvi dünyasına, xarakterlərinə, psixologiyalarına əhəmiyyətli dərəcədə təsir göstərir. Hər hansı bir bədii obrazı hərtərəfli təhlil etsək, onun yarandığı dövrü göstərməsək belə, o dəqiqə görünəcək ki, bu xarakterli insan hansı dövrün, epoxanın qəhrəmanı ola bilərdi".(s.16) Bu elə belə də olmalıdır. Təkcə qəhrəmanın səciyyəsi deyil, şairin sənət ustalığı da dövrlə, zamanla bağlı olur. Yüksək sənət əsərləri despotizmin gücləndiyi dövrlərdə meydana çıxır, sənətkar hansı fikri söyləyəcəyindən çox, onu necə ifadə edəcəyi üzərində düşünür. Bu cəhətləri nəzərə alaraq, müəllif ənənə və novatorluq, müəllif və zaman məsələlərinə fəsildə geniş yer vermişdir. Doğru mülahizə yürüdür ki, bədii əsərə tarixi yanaşma prinsipi hadisələrə, xarakterlərə daha düzgün qiymət vermək imkanı yaradır.

Mövzunun zamanla bağlılığı XX əsrin birinci yarısında onunla şərtlənirdi ki, əgər 20-30-cu illərdə sinfi mübarizə məsələləri ön planda idisə, 40-cı illərdə şairlərimizin qələmi bütövlükdə müharibə ilə mübarizəyə yönəldilmişdi. Müəllif qeyd edilən istiqamətlərdə yaranmış əsərlərin düzgün xarakteristikasını vermişdir.

Növbəti fəsil "Bədii sənətkarlıq komponentləri" adlanır. Bu fəsildə müəllif konkret faktlar əsasında Azərbaycan poemasının bədii-estetik keyfiyyətlərini üzə çıxarmaq üçün bədii portret, peyzaj, bədii detal, epitet, metafora, metonimiya, təşbeh, təzad, mübaliğə və s. kimi bədiilik vasitələrinin rolunu araşdırmışdır.

"Vəzn və qafiyə sistemi" adlanan son fəsil poemalarımızda heca vəzninin, qafiyə sisteminin tədqiqinə həsr edilmişdir.

Tədqiat işində H.Cavid, H.Sanılı, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, M.Müşfiq, Ə.Cavad, M.Rahim, R.Rza, N.Xəzri, B.Vahabzadə, Z.Xəlil, Ə.Kərim, Q.Qasımzadə, O.Sarıvəlli, M.Şəhriyar, H.Arif, S.Əsəd, X.Rza, M.Araz, F.Sadıq, B.Adil, Ə.Kürçaylı, M.Yaqub, C.Novruz, D.Ordubadlı, A.Zeynallı, A.Abdullazadə, F.Mehdi, N.Həsənzadə, Ə.Salahzadə və başqalarının poemaları quruluş, forma, sənətkarlıq baxımından müəllifə geniş material vermişdir.

Əsərdə bizim tərəfində durmadığımız fikirlər də vardır.

1.Müəllif XX əsr poemasının tədqiqinə həsr olunmuş əsərləri nəzərdə tutaraq yazır: "Lakin bütün bu əsərlər, o cümlədən də bu sətirlərin müəllifinin Azərbaycan poemasının on illik tarixini - 1956-1965-ci illəri əks etdirən namizədlik dissertasiyası marksizm-leninizm ideologiyası əsasında yazıldığı üçün tədqiqatın istiqaməti və nəticələri bu günün tələblərinə cavab vermir". (6)

Təkcə bu günə baxmaq doğru deyil. Marksizm ideologiyası, xüsusən dialektik metod nəzərə alınmadan bədii əsərə verilən qiymət heç vaxt düzgün ola bilməz. Müəllifin öz tədqiqatı başdan-başa marksizmin dialektik metoduna əsaslanır. Milli ideologiya (əgər varsa) nəzərə alınmaqla, bu cəhət daim diqqət mərkəzində saxlanılmalıdır. Bugünkü hərcmərclik dünyasının tələblərinə uyğun gəlməsə də, marksizmə əsaslanan əsərlərin gələcəyi var.

2.Müəllif yenə yazır: "Qələmə vurulmuş qandal, yaxud keçmişin ibrət dərsləri" bölməsində zəngin faktlar əsasında sosialist realizmi yaradıcılıq metodunun ədəbiyyatımızın inkişafına vurduğu ziyanlardan söhbət açılır". (19)

Başa düşmək olmur ki, sosialist realizmi yaradıcılıq metodunun ədəbiyyata vurduğu hansı zəngin zərbələrdən danışmaq olar? Yaradıcılıq metodu başqa şeydir, repressiya başqa şey. Sosialist realizmi tələb edirdi ki, hər bir hadisəyə inkişafda baxılsın, yenilik təqdir, köhnəlik tənqid edilsin. Bunun nəyi pis idi ki? Bəs əgər zərbə vururdusa, niyə indi o ədəbiyyatın üçdə biri qədər keyfiyyətli bir ədəbiyyat yaranmır? Repressiya ilə qarışdırmaq və küyə getmək düz deyil. Sonrakı səhifədə bu metod əsasında yaranmış ədəbiyyata daha düzgün qiymət verilmişdir: "XX əsr Azərbaycan poemasının əsas obrazları sosializm işi uğrunda mübarizə aparan, bəşəriyyəti faşizm taunundan xilas etməyə çalışan, qurub-ya-

radan, şəhərlər, kəndlər salan, vətənin çiçəklənməsi üçün əlindən gələni əsirgəməyən insanlardır. Humanizm, vətənpərvərlik, beynəlmiləlçilik bu qəhrəmanların xarakterinin aparıcı cizgiləridir". (21)

Daha nə istəyirsiniz? Heç bir hadisəyə birtərəfli yanaşmaq olmaz. Bunlar özləri də zəmanənin tələblərindən irəli gələn fikir ayrılıqları və bizim şəxsi fikrimizdir.

Mövzu ədəbiyyatşünaslıq sahəsində xüsusi xidmətləri olan, janrın nəzəri və praktik məsələlərindən bir ədəbiyyatşünas alim, bir şair kimi yaxşı baş açan təcrübəli tədqiqatçı tərəfindən öyrənilmişdir.

Müəllif böyük bir problemin öhdəsindən gəlmiş, zəngin XX əsr Azərbaycan poemasını sənətkarlıq baxımından ustalıqla ümumiləşdirə bilmişdir. Mövzu ilə əlaqəli beş kitab, 46 məqalə çap etdirmişdir.

Dissertasiyanın elmi və praktik əhəmiyyətini nəzərə alaraq qeyd edirik ki, Rafiq Yusif oğlu Əliyevin "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı əsəri doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

Mətbuat dili və orfoqrafiya məsələləri
04.11.2006

Biz 50 ildən artıq bir dövrdə Azərbaycan SSR Nazirlər Sovetinin 1958-ci il 24 iyun tarixli 497 nömrəli və 1959-cu ilin 6 aprel tarixli 258 nömrəli qərarları ilə təsdiq olunmuş orfoqrafiya qaydaları ilə işləmişik. Bu qaydalar yaxşı hazırlanmışdı və uzun müddət ali və orta məktəblərdə öyrənilmiş, savad təlimində böyük rol oynamışdır. Bir tərəfdən, 50 il müddətitndə bir sıra maddələrin köhnəlməsi və ya adiləşməsi, digər tərəfdən, yeni əlifbaya keçilməsi orfoqrafiya qaydalarının yeniləşdirilməsini tələb edirdi. Azərbaycan Dövlət Dilinin Tətbiqi üzrə Hökumət Komissiyası orfoqrafiya qaydalarının yeni layihəsini hazırlamış və bir sıra qəzetlərdə çap edərək («Azərbaycan müəllimi», 4 fevral 1999, №5 və s.) bir ay müddətinə ümumxalq müzakirəsinə vermişdi. Lakin layihə uzun müddət layihə şəklində qalmış, yalnız Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiq edilmişdir. Bununla da əvvəlki orfoqrafiya qaydaları haqqında verilmiş qərar qüvvədən düşmüş hesab olunur.

22 dekabr 1992-ci il tarixdə qərar verilməsinə baxmayaraq, yeni əlifbaya keçilməsi də 2004-cü ilə qədər ləngidi. Onu deyim ki, biz öz keçmiş tariximizin üzərindən həmişə belə qələm çəkmişik. Qonşu Qafqaz xalqlarının min ildən artıq işlətdikləri orijinal əlifbaları olduğu halda, biz bir əsrdə dörd dəfə əlifba dəyişmişik. Əsas zərbəni bir vaxtlar islam

dinini qəbul etdirərkən ərəblər vurub, bizim, M.F.Axundov demişkən, min illik şan-şöhrətimizi məhv ediblər.

İndiki əlifba daha sistemsiz və eybəcərdir. Xalqın ən azı 70 illik vərdişinin əleyhinə qurulmuşdur. Biz daim kar samitləri yazıb, diakratik işarələri cingiltili samitlərin yazılışına aid etdiyimiz halda, bu əlifbada əksinədir.

Yeni «Orfoqrafiya qaydaları» da çox bəsitdir. Əvvəlki qaydalar 117 bənddən ibarət olduğu halda, indiki qaydalar cəmi 36 bənddə ümumiləşdirilmişdir.

Qaydalarla bağlı sual doğuran cəhətlər çoxdur və bir sıra maddələrdə dəyişiklik olmalı idi.

I.20-ci maddədə ***idi, imiş*** köməkçi sözləri haqqında deyilir: bu sözlər adlardan və saitlə bitən fellərdən sonra ayrı, samitlə bitən fellərdən sonra həm ayrı, həm də bitişik yazıla bilər. Əvvəlki qaydalarda olduğu kimi. Amma mətbuat dilində, bədii dildə bu qaydalar 70-ci illərdən bəri pozulur. «Xalq qəzeti»nin 29 oktyabr 2006-cı il nömrəsində: («Zaman yurd dərdini unuda bilməz» məqaləsi):

Zəngilan elə 1988-ci ildən müharibənin ***içindəydi.***

…hücumları ilə ***üz-üzəydi***.

…***müdafiə etməliydi***.

…***möhkəmlənməliydi.***

…iflic vəziyyətdəydi və s.

Bədii dildə:

Xəzər bir ***aynaydı*** – üzü ləkəsiz… (S.Vurğun)

Bu misraları: ***Bir gəzə idim, Oxuya idim*** – şəklinə salsaq, bədiilik və təbiilik nə qədər azalmış olar!

Deməli, praktika göstərir ki, qayda dəyişməlidir. Bu, yaxşı haldır, yəni təbii tələbat qaydaları dəyişməyi tələb edir.

II. Bir də var ki, ***qaydalar səlisdir,*** lakin mətbuat onu pozur.

Müstəqilliyin bərpasına qədərki dövrdə ədəbi dilin normalarının yayılmasında ***bədii və elmi üslub*** daha böyük rol oynayırdı, 90-cı illərin əvvəllərindən isə ***publisistik üslub*** üstün mövqe qazandı. İndi mətbuat geniş oxucu kütləsinin həyatına daha möhkəm daxil olmuşdur. Mətbuat yazılı ədəbi dil normalarının keşiyində duran, onun yayılmAsında əvəzsiz rolu olan ən mühüm vasitədir.

Televiziyanın informasiyavermə imkanları, insan şüuruna, insanın estetik inkişafına təsiri bütün başqa informasiya vasitələrindən üstündür. Mətbuat, televiziya həyatda baş verən dəyişiklikləri, sıçrayışları sürətlə xalqa çatdıran vasitədir. Dildə yaranan yeniliklər də ilk növbədə mətbuat dilində öz əksini tapır. Mətbuat, televiziya, radio daim milyonlarla üzüzədir, insanın dünyagörüşünün, yazılı və şifahi nitqinin inkişafında misilsiz xidməti ilə fərqlənir. Televiziya 50 ildən artıqdır ki, şifahi nitqin

ümumxalq dili əsasında inkişafına aramsız təsir göstərir, ədəbi dilimizin saflaşmasına kömək edir.

Keçmişdə 5-6 qəzet var idi və həmin qəzetlərin redaksiyalarında mütəxəssis jurnalistlər çalışırdı. Bir qəzetdə adi bir orfoqrafik səhv böyük təəccübə səbəb olurdu. Amma indi kimin imkanı var, qəzet çıxarır. Və bu qəzetlərin də (bir neçə qəzet müstəsna olmaqla) kütləvi yox, məhəlli oxucuları var. Qəzet işçilərinin bir çoxu heç mütəxəssis də deyil. Ona görə də qəzetlər orfoqrafik, durğu, üslub səhvləri ilə dolu olur.

Əvvəlcədən deyim ki, il boyu çıxan qəzetləri vərəqləməyi lazım bilmədim. 29-30 oktyabr 2006-cı il tarixdə çıxan bir neçə qəzeti – «Azərbaycan», «Xalq qəzeti», «Yeni Azərbaycan», «Səs» - dövlət qəzetlərini və «Müxalifət», «Yeni Müsavat», «Azadlıq» və s. müxalifət qəzetlərini vərəqləməklə kifayətləndim. Eyni zamanda bu qəzetləri bütövlükdə deyil, hərəsindən konkret olaraq bir, bəzən iki-üç məqaləni nəzərdən keçirdim.

Mən deyərdim ki, bir sıra hallarda bəlkə də orfoqrafik səhvləri bağışlamaq olar, çünki dövrümüz kompyuter dövrüdür və bu elə bir texnikadır ki, jurnalist və yazıçının işini qat-qat asanlaşdırıb, digər tərəfdən, çalışsan da, yenə bu və ya digər hərfin gözdən qaçmasına səbəb olur. Əslində, qaçmamalıdır. Biz o nadir səhvləri demirik. İmla səhvləri təsəvvür etdiyimizdən çox-çox artıq olur.

Bir neçə misala diqqət yetirək.

«Milli yol» qəzetinin 30 oktyabr 2006-cı il nömrəsində üç balaca məqalədə («Heydərovun «quyusu»nu Eldar Mahmudov qazıb», «Müxalifət 2008-ə necə gedir?», «Mehbalı Əliyev Bakı meri olacaq» məqalələri) onlarca imla səhvinə rast gəlmək olur: ***przezidentin, demək olarki, sıfra (yəni sıfıra), üstəlikdə, aciz qalı, SC-ların, Abdullaeyvin, müzakirlər, narahat doğuran…***

«Azadlıq» qəzeti 31 oktyabr 2006-cı il tarixli nömrəsində bir məqalədə («Azadlıq» aclıq aksiyasına başladı» məqaləsi, Xəyal) aşağıdakı orfoqrafik səhvlər var: ***başladıqları brədə, müşayəti, onları üçün, ayrılmış müvinləri, şöbə müdri, nümayəndələriylə, yetirilənədək, «Azadlıq»a qarşı, hakiiyyətinin, ədalətin müdafəsində, Fikrət Hüseynlinin işiylə…***

Bununla yanaşı, bu balaca məqalədə dolaşıq cümlələr də var:

…Zakir Hüseynov da bildirdi ki, təmsil etdiyi partiya mətbuata olan son basqıları pisləyir və ***bu siyasətə*** (hansı siyasətdən söhbət gedir? – basqıları pisləmək siyasəti?) müqavimət göstərən hər bir aksiyanın önündə gedəcək.

Deməli, düşmən cəbhəyə keçir.

III.Qəzetlərdə elə qüsurlar var ki, onlar ümumi savaddan, orfoqrafiya qaydalarını bilməməkdən irəli gəlir və bugünkü mətbuatın dili bu cür səhvlərlə doludur.

1. Mühüm səhvlərdən biri ***defislə tirenin*** qarışdırılmasından ibarətdir. Defis mürəkkəb sözün tərəfləri arasında qoyular, tire aydınlaşdırma vasitəsidir. Mətbuatda çox vaxt tire yerinə defis, defis yerinə tire qoyulur. Məs.: Onda zəngilanlılar… yenidən ***qurub – yaradacaqlar***. («Xalq qəzeti», 29 oktyabr 2006) Onların qarşısında çox mühüm vəzifələr **dururdu-Konstitusiya** layihəsi … («Səs» qəzeti, 28 oktyabr 2006)

Defislə tire kompyuterdə çox vaxt eyni şəkildə işarələnir. Söhbət işarədən yox, ara məsafədən gedir.

Dialoqlarda da tiredən düzgün istifadə edilmir:

Müxbirin sualından sonra tire qoyulur və icra hakimi deyir:

-Hər şey aydın olsun deyə, bir az əvvəldən başlayım.

Bu sözlərin ardınca yenidən tire qoyulur və icra hakimi sözə başlayır.

2. Orfoqrafiya qaydaları pis-yaxşı təzələnsə də, durğu işarələrindən istifadə qaydaları yeniləşdirilməyib. Bu sahədə səhvlər çoxdur.

Bu başdan onu deyim ki, durğu işarələri barədə son vaxtlar mətbuatda qəribə fikirlər səslənməkdədir. Səhv etmirəmsə, Möhbəddin Səmədin bu barədə fikri və praktik işi ilə tanış olmuşam. Durğu işarələrindən tamamilə imtina etməyi təklif edir və bu cür (heç bir durğu işarəsi işlətmədən) məqalə də çap etdirmişdir. Məqalə bəhri-təvilləri andırırdı və heç bir cümlənin əvvəli və sonu bilinmirdi.

Durğu işarələri tarixi zərurətdən doğub və əsasən X1X əsrdə formalaşmağa başlayıb. Keçmiş əsrlərdə cümlə sərhədləri müxtəlif işarələrlə göstərilib.

3. Çox zaman vergüldən istifadə edərkən durğu işarəsinin sintaktik vəzifəsi ilə cümlədəki sintaqmlar arası fasilə qarışdırılır. Başqa sözlə, ***sintaktik fasilə ilə sintaqmatik fasilə*** fərqləndirilmir. Durğu işarəsi sintaktik vəzifə daşıyır, mürəkkəb cümlənin tərkib hissələrinin, həmcins üzvlərin, ara sözlərin, xüsusiləşmə və s.-in sərhədini göstərir. Bir sıra yazılarda isə cümlədəki sintaqmatik bölgülərdə durğu işarəsi, yəni vergül qoyulur. S.Vurğunun:

Mən/ nəfəsləri benzin və kükürd qoxulu/ milyonların şairiyəm – misrasında iki yerdə sintaqmatik fasilə var, heç birində vergül qoymaq olmaz. Mətbuat dilində isə bir çox hallarda qoyulur:

…mühüm keyfiyyətlərdən ***biri də, məhz*** bu idi… («Səs», 28 oktyabr 2006)

C.Həsənli ***kimilər də, məhz*** bu və digər amillərə ***görə də,*** F.Əliyevin hüquqlarını müdafiə etməyə cəhd edirlər. («Səs»)

Mən həmin müdhiş anlarda Zəngilan ***ağsaqqallarının, parlaq*** bir işığa yönəlmiş ümidini gördüm. («Xalq qəzeti») və s.

Vergülün işlədilməsində səhvlər daha çox ara sözlər, ədatlar və bağlayıcılarla bağlıdır.

4. Doğrudur, bəzən ara sözün heç bir tərəfində vergül qoyulmur, amma hiss olunur ki, ümumən jurnalistlər ara sözdə vergül məsələsini bilirlər, amma çox zaman yarımçıq bilirlər – ara sözün sonunda vergül qoyulur, əvvəlində qoyulmur:

Bu isə ***təbii ki***, müxalifətin… («Səs»)

Elə bil müharibə aparmırdılar. («Xalq qəzeti»)

Daha doğrusu, təəssüf ki, fərqli olaraq, əksinə olaraq, yəqin ki, baxmayaraq, bundan başqa, demək olar ki, belə getsə, çox güman ki - ara sözlərinin bir qismindən əvvəl, bir qismindən sonra, bəzilərinin heç bir tərəfində vergül qoyulmur. Orfoqrafik səhvlər də bir tərəfdən. («Milli yol», 30 oktyabr 2006; «Müxalifət 2008-ə necə gedir» məqaləsi) Bu məqalədə üç dəfə işlənmiş «düzdür» sözünün heç birindən sonra vergül yoxdur.

Sovet dövründə bir abituriyent belə yazı yazsa, «iki» alardı.

5. ***Ədatdan*** sonra vergül olmaz. Bu hal həm ***ki*** ədatına, həm də ***bəs, belə, yəni, təkcə*** ədatlarına aiddir. Amma mətbuatın dilində bu sahədə çox eybəcər vəziyyətə rast gəlmək olur:

Yəni, onların demokratiya dediyi nemət… («Yeni Azərbaycan», 31 oktyabr 2006)

Yəni, Heydərovun telefon danışıqları… («Milli yol», 30 dekabr 2006)

Təkcə, 2004-cü ildə… («Yeni Azərbaycan»)

Yoxsa, erməni kim idi ki… («Xalq qəzeti», 29 oktyabr)

Bəs, nə idi məğlubiyyətimizin səbəbi? («Xalq qəzeti»)

Lap tutaq ki, gətirəydik, ***bəs***, Vətən? («Xalq qəzeti»)

Götürüb gəlmək olmazdı ***ki,*** bunları. («Xalq qəzeti»)

Kim ki, öz biliyindən artıq iddia edir…(«Xalq qəzeti»)

6. ***Odur ki, belə ki*** bağlayıcılarından sonra vergül qoyulmaz, mürəkkəb cümlə tərkibindədirsə, onlardan əvvəl vergül qoyular. Bütün mətbuat orqanlarında bunlardan sonra vergül qoyulur:

Belə ki, bəzi idarə və müəssisələrdən… («Azadlıq»)

Belə ki, qeyd olunan prinsip… («Səs»)

Odur ki, Ermənistanın işğal etdiyi… («Yeni Azərbaycan»)

Odur ki, özünü müdafiə dəstələri yaradıldı. («Xalq qəzeti»)

«Xalq qəzeti»ndəki bir məqalədə 8 dəfə dalbadal «**odur ki**» sözü işlənmiş, hamısı da vergüllə ayrılmışdır.

Bu qəzetdə durğu işarəsi qoyulmalı yerdə yox, qoyulmamalı yerdə qoyulur. Məsələn:

Ermənistana nə qədər yardımlar et**sələr** ***də*** o, …

…torpağının bir qarışını **belə** heç kimə verməyəcək.

…***13 ildir*** onu qoruyub saxlayırıq.

Qara kursivlərdən sonra vergül olmalıdır.

7. Feli bağlamada vergüldən düzgün istifadə edilmir**.** Eyni cümlədə bir yerdə feli bağlama ilə təsriflənən fel arasına vergül qoyulur, o birində qoyulmur:

…xüsusi dəstələr camaatı ***qorxudub, deyirdilər*** *ki,* ***qaçıb getməsəniz****...* dəhşətli müsibət olacaq.

Məqalənin sonu da tire ilə qurtarır: …**qurub – yaradacaqlar.**

«Azərbaycan» qəzetində futbola həsr olunmuş «Qələbəni necə qazanmalı» məqaləsində (31oktyabr 2006) nə qədər imla və durğu səhvlərinə rast gəlmək olar: ***təcüvüzünün, «Neftçi»-nin, qayları (qaydaları*** əvəzinə***), pozsaydıq, qarışmasaydı, başlacanaq*** *... kimi orfoqrafik,* ***azaltdı, Fİ-FA, məş-qçi…*** kimi hecakeçirmə səhvləri var. 25-dən artıq vergül səhvi var – ara sözlərdə, xüsusiləşmələrdə və s.

«***AFFA-dakı rəhbər dəyişikliyindən keçən üç ilin əvvəlki illərdə yol verilmiş səhvlərin***…» kimi cümlə qüsurları var.

IV. Doğrudur, bu yazılarda durğu işarəsi səhvləri heç bir sosial-ictimai məzmun daşımır, amma yazı mədəniyyətdir, korlamaq yox, yaxşılaşdırmaq lazımdır. Yazıçıların dili haqqında bir məruzəsində professor Ə.Dəmirçizadə S.Vurğunun aşağıdakı misralarını misal gətirir:

Mən and içdim rəhbərimin vicdanındakı
Günəşdən də təmiz olan bir ülviyyətə.

Və qeyd edir ki, birinci misradan sonra mütləq vergül olmalı idi, vergülsüz şeir başqa məna ifadə edir. İzah etməli olur ki, vergül olduqda şeir belə anlaşılır: mən rəhbərimin vicdanında olan və günəşdən də təmiz olan bir ülviyyətə and içdim. Amma vergül olmadıqda belə anlaşılır: mən rəhbərimin vicanındakı günəşdən də təmiz bir ülviyyətə and içdim.

S.Vurğun az qala pərt halda yerindən səslənir ki, yox, mən birinci mənanı nəzərdə tutmuşam. Bu, Stalin dövrü idi.

V. Dürğu işarələrinin işlənməsi, dediyimiz kimi, sintaktik fasilələrlə bağlıdır. Nitqdə fasilənin rolu böyükdür. Fasilənin rolu düzgün dərk olunmadığından radio, televiziya aparıcılarının nitqində qüsurlar yaranır. Bir sıra aparıcılar nitqini bu sözlərlə bitirir:

Sabaha qədər salamat qalın!
Gələn görüşlərədək salamat qalın!
Gələn şənbəyə qədər salamat qalın!

Başa düşmürlər ki, əslində, dinləyiciyə qarğış edirlər. Bu cür ifadələr iki frazadan ibarətdir: biri deyilib qurtarmalı, intonasiya tamamlanmalı, sonra o birinə keçilməlidir: ***Sabaha qədər! Salamat qalın!***

Hələ onu deməmək də olar ki, bir sıra böyük vəzifə sahibləri iki kəlməni deyincə Azərbaycan dilini elə bir günə salır ki, onların bu dildə təhsil almadığını, yaxud heç təhsil almadığını güman edirsən.

VI. Apostrofun ləğvi də yazını və tələffüzü pisləşdirir. Bilinmir ki, nə üçün ***şeir*** sözünə apostrofun ləğvindən sonra «i» saiti artırılır, amma

fel sözünə yox. Həm də bilinmir ki, bu cür sözlərə saitlə başlanan şəkilçi artırıldıqda ikinci sait düşər, yoxsa qalar. Qaydalarda yoxdur. Apostrofun atılması klassik ədəbiyyat üçün də zərərlidir. İndi şagird Füzulinin: ***Fələklər yandı ahimdən, muradım şəm`i yanmazmı?***-misrasında ***şəm`i*** sözünü ***şə:mi*** şəklində, ***sür`ət*** sözünü ***sü:rət*** şəklində tələffüz edəcək və s.

VII. XX əsrin əvvəllərində Azərbaycan dilinə münasibətdə üç meylin (rus dilinə, ərəb,fars dillərinə və Osmanlı dilinə meyillər) yarandığı və Mirzə Cəlil tərəfindən kəskin tənqid edildiyi məlumdur. Əsrin sonlarında – müstəqilliyin bərpa olunduğu ilk illərdə türkçülük meylinin yenidən gücləndiyi və bir sıra ziyalılarda müstəqil yaşamaqdan çox, asılı yaşamaq meylinin güclü olduğu göründü. O zaman pedaqoji elmlər namizədi Hava Abdullayeva «Bəs mənim ölkəmin varlığı hanı?» məqaləsində belələrini çox sərrast tənqid edərək yazmışdı: «Bizim milli televiziyamız diktor və aparıcılarına Azərbaycan dilində danışmağı öyrətmək əvəzinə, osmanlı dilinin təbliğinə geniş meydan verir».

Yaxşı ki bu hal öz dilini sevən ziyalıların köməyi ilə dərinləşmədi, qaydaya düşdü. Amma yenə mətbuatda öz izlərini saxlamaqdadır. Elə bu günlərdə bu universitetdə (Bakı Slavyan Universiteti) türk ziyalılarından Osman Altındaş ilə görüş olub. «Yeni Azərbaycan» qəzeti görüş haqqında məlumat və müsahibə verib (müsahibəni Xanəmir aparıb). Müsahibə təmiz və səlis Azərbaycan dilindədir. Osman Altındaş bu təmizlikdə azərbaycanca danışa bilməz. Deməli, dil azərbaycancalaşdırılıb. Amma müsahibədə:

kəsinliklə, konuda, gərəkirsə, kültür, uzman, ayaq uydurmaq, bu tür işlər, ortamlar, güvənlik sistemi, kültür ortamı, ekonomik baxımdan dəng gəlməsə də, harizmatik tavrları və s. kimi söz və ifadələr işlənmişdir. Məqsəd nədir? Türkcə vermək lazımdırsa, nitqi olduğu kimi vermək olar. Çevrilirsə, hamısını çevirmək lazımdır. Yəni jurnalistlər asanına qaçırlar. O sözlərin qarşılığını tapmaq lazım idi.

VIII. Qəzet dili ilə yanaşı, reklamların dili də dəhşətdir. Keçmişdə cəmi iki dildə yazılırdı və başa düşülürdü. Amma indi hansı dildə olduğunu bilmək üçün, gərək bir vaxtlar Ə.Dəmirçizadənin dediyi kimi, gərək müəssisənin içinə girib gəzəsən.

Faktlar göstərir ki, qəzet və jurnal redaksiyalarında dil materialı üzərində az işləyirlər. Müəllifə ümid olmaq olmaz. Mən demirəm ki, keçmiş qəzetlərdə olduğu kimi, redaktə etməklə bütün yazıları bir üslubda formalaşdıraq. İndi qəzetçilərin işi xeyli asanlaşıb. Keçmişdə materialı makinada yığmaq mühüm problem idi. İndi qəzet üçün belə bir çətinlik qalmayıb. Hər kəs öz yazısını disketdə hazır verir. Redaksiyanın borcu onu planlaşdırmaqla yanaşı, dil qüsurlarından təmizləməkdir. Çünki yazı yazanların da hamısının yazısı mətbuatın tələb olunan ümumi və yüksək səviyyəsinə müvafiq deyildir.

Xəliyəddin Xəlilli. «Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi»
26.11.2006

Son dövrlərdə tarix və dilçilik elmində yaranmış bir sıra yeni əsərlər Azərbaycan xalqının və Azərbaycan dilinin təşəkkül tarixini daha əsaslı şəkildə üzə çıxarmaqdadır. Həmin əsərlərə söykənərək, xalqımızın və dilimizin mənşəyini obyektiv şəkildə aydınlaşdırmaq mümkündür. Tarix elmləri namizədi Xəliyəddin Xəlilli məhz bu yolla gedərək, Azərbaycan etnogenezi haqqında qiymətli bir əsər yazmışdır.

Onun dörd fəsildən ibarət olan "Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi" adlı əsəri milli vətənpərvərlik və elmi obyektivlik ruhunda yazılmışdır. Xalqımızın etnik tarixinin tədqiqinə həsr olunmuş bu əsərdə Azərbaycan türklərinin etnogenezi barədə uydurma və zərərli konsepsiya elmi dəlillərlə rədd edilir, Azərbaycan xalqının etnik tarixi düzgün izah edilir. Məlumdur ki, şimallı-cənublu Azərbaycan əraziləri türklərin əzəli və əbədi məskəni olmuşdur. Arxeoloji materiallar da, qədim mixi yazılar da bunu küll halında təsdiq etməkdədir. Azərbaycan ərazilərində heç bir xalqın assimilyasiyası baş verməmiş, Azərbaycan türkləri indi yaşadıqları ərazilərdə daim mövcud olmuşlar. Azərbaycan xalqının etnogenezi məsələsini yalnız bu yolla həll etmək mümkündür. Bu xalq son dərəcə qədim xalqdır, müəllif düz yazır ki, qədim Şumer və Misir mədəniyyəti ilə yaşıd olan mədəniyyəti və tarixi vardır. Bütün tarixi faktlar göz önündə olduğu halda, yad qüvvələrin quluna çevrilmiş tarixçi və dilçilərimiz bu həqiqəti üzə çıxarmaq əvəzinə, zərərli bir konsepsiya ətrafında fırlanmaqdadırlar. Azərbaycan xalqı tarix etibarilə çox qədim olduğu kimi, say etibarilə də böyük xalqdır. Lakin hazırkı şəraitdə səkkiz yerə parçalandığı üçün öz sözünü deməkdə çətinlik çəkməməli, tarixi həqiqəti üzə çıxarmalıdır. Xəliyəddin Xəlillinin bu əsəri bu yolda cəsarətli və uğurlu addımdır.

Müəllif Azərbaycan ərazilərinin çox qədim dövrlərdən ibtidai insanın məskəni olduğunu, bəşər sivilizasiyasının təşəkkülündə Azərbaycan aborigenlərinin böyük rolunu xüsusi araşdırmışdır. Ulu dilin - Yer üzərində yaranmış vahid dilin parçalandığı, protodillərə ayrıldığı dövrdən bu torpaqların daim türk məskəni olduğunu, miqrasiyaların Ön Asiyadan başlandığını və tarixin sonrakı mərhələlərində geriyə qayıdanların da olduğunu, yəni tarixi inkişafın əsas istiqamətlərini çox düzgün qələmə almışdır.

Azərbaycan ərazisi türk tayfalarının beşiyi olmuş, Albaniya və Atropatena dövlətlərinin təşəkkülü dövründən (e.ə.IV əsr) konsolidasiyanın başladığını, Azərbaycan türk xalqının və ümumxalq Azərbaycan dilinin tədricən təşəkkül tapdığını izah etmişdir. Müəllifin tədqiqatı bir daha

sübut edir ki, Azərbaycan xalqı və Azərbaycan dili heç bir başqa xalqın türkləşməsi, assimilyasiyaya uğraması nəticəsi olmayıb, yerli türklərin təbii-tarixi inkişafının nəticəsidir.

Sonrakı fəsillərdə Azərbaycanın başına gələn bəlalar, fars və rus şovinizminin Azərbaycan dövlətçiliiyinə qarşı mənfi rolu, milli münasibətlər, dövlətin və millətin inkişafı məsələləri əhatə edilmişdir. Bu əsər tarixi həqiqətləri aşkarlamaq baxımından çox qiymətlidir.

Əsər faydalıdır və onun çapını zəruri hesab edirik.

Əsərin bu mühüm keyfiyyətlərini qeyd etməklə yanaşı, aşağıdakı məsələləri də nəzərə çarpdırmağı lazım bilirik:

1.E.ə.VIII-VII əsrlərdən danışılarkən ***azəri*** terminindən də danışılır. Bizim fikrimizcə, bu termin ***Azərbaycan*** sözündən yaranmışdır, onun ixtisar şəklidir və ərəblər Azərbaycanı işğal etdikdən sonra işlənməyə başlamışdır.

2.***Azərbaycan*** sözünü Artabazanın adı ilə əlaqələndirmək ağlabatan deyil. E.ə.VIII-VII əsrlərə dair mixi yazılarda Manna ilə Mada arasında ***Andarpatkanu/Andarpatkan*** vilayət adı xatırlanır. Y.Yusifov da, biz də *Azərbaycan* sözünün əcdadının həmin sözlə bağlı olduğunu qeyd etmişik.

3.Sakların türk olduğunu göstərən mühüm bir dəlil də onların Azərbaycanın ən qədim tayfalarından olan kasların bir qolu olduğu olmalıdır. Bu onların gəlmə olmadığını da bildirir. Həm də Troya sakları məlumdur - e.ə. 13-cü əsrdə.

4.Əsərdə xalqın və xalq dilinin təşəkkülü Albaniya və Atropatena dövlətlərinin yarandığı gündən başlanır, lakin eramızın VII əsrində, həm də çox sönük şəkildə başa çatdırılır. Biz eramızın V əsrini təşəkkül dövrü sayırıq. Bu dövrdə təmərgüzləşmə başa çatmışdı və ən azı dövlətin ümumi əlifbası vardı.

5.Kalankatuklu Moiseyin göstərdiyi 26 dilin hamısı türk dilinin ləhcələri kimi izah oluna bilməz. Onların hamısı aparıcı deyildi. Bir qismi Dağıstan dillərinə aid idi.

6.Milli inkişaf və millətin yaranması Şah İsmayıl dövründən (XVI əsr) başlanır. Hər cəhətdən milliləşmə bu dövrdə özünü göstərir.

Laləndar Vaqif qızı Ziyadova. «İngilis və Azərbaycan dillərində cümlənin aktual üzvlənməsində remanın mövqeyi» ND. 17.12.2006

Beş fəsildən ibarət olan bu dissertasiya az tədqiq olunmuş bir sahəyə - cümlənin aktual üzvlənməsində remanın rolu məsələsinə həsr olunmuşdur. Dilçiliyimizdə aktual üzvlənmə və ümumən mətn sintaksisi barədə az-çox yazılmış olsa da, cümlədə remanın mövqeyi haqqında monoqrafik tədqiqat aparılmamışdır.

"Məlum olan"la - tema ilə "yeni"nin - remanın münasibət və mövqeyi məsələlərini ayırmaq, aydınlaşdırmaq, fərqləndirmək çətin olduğu qədər də əhəmiyyətli və maraqlıdır. Bu cür tədqiqat hər hansı bir bədii,

elmi və ya publisistik mətnin sistemli və ətraflı şərhi üçün son dərəcə faydalıdır. Yalnız bu yolla mətnin qurulma texnikasını düzgün təsəvvür etmək mümkündür. Bu cür tədqiqatlar çoxaldıqca dilçiliyimizin sintaksis bölməsi cümlə üzərində vaxt keçirmək mövqeyindən mətnin və geniş mənada təfəkkürün nitq vasitələri əsasında ifadəsi və inkişafı istiqamətlərinin öyrənilməsinə yönəlmiş olur.

Birinci fəsildə müəllif ingilis və Azərbaycan dillərinin materialları əsasında cümlədə remanın mövqeyini araşdırmış və ilk növbədə aktual üzvlənmənin komponentləri - tema və rema barədə məlumat vermişdir. Yığcam şəkildə V.O.Matezius, M..Həllidey, V.Valin, U.Çeyf, və M.Drayer kimi alimlərin - aktual üzvlənmə problemlərinin tədqiqatçılarının fikir və mülahizələrini araşdırmış, öz mövqeyini müəyyənləşdirmiş və belə bir qənaətə gəlmişdir ki, remanın invariant ifadəsi mövqeyindən çıxış etmək lazımdır. Çünki, müəllifin fikrincə, rema o şeydir ki, cümlədə müəyyən yolla əslində o ifadə olunur. Bu da məlumdur ki, tema və remanın mövqeyi dəyişkəndir və onlar heç də həmişə sabit qrammatik üzvlərlə ifadə olunmur. Ona görə də bir sıra dilçilər hətta cümlənin tema komponenti ilə rema komponentinin tam fərqləndirilməsinin qeyri-mümkünlüyünü də irəli sürmüşlər. Lakin bu çətinliklərə baxmayaraq, müəllifin qeyd etdiyi kimi, müxtəlif vasitələrin köməyi ilə tema və remanın cümlədə mövqeyini müəyyənləşdirmək mümkündür.

Müəllif cümlədə bu və ya digər komponentin (üzvün) aktuallaşma vasitələrini ümumləşdirərək üç qrupa ayırmışdır:

1.Söz sırası vasitəsilə aktuallaşma;

2.Formal-qrammatik vasitələrin köməyi ilə aktuallaşma;

3.Prosodik vasitələrin köməyi ilə aktuallaşma.

L.Ziyadova cümlədə remanın mövqeyini ingilis və Azərbaycan dili materialları əsasında prepozisiya, interpozisiya və postpozisiya kimi üç yerə ayırmış, sonrakı üç fəsildə bunların hər birini yaradan vasitələri ətraflı şərh etmişdir.

İkinci fəsildə aktuallaşdırma vasitələrinin köməyi ilə ingilis və Azərbaycan dili cümlələrində remanın ön mövqeyi araşdırılmışdır. Bu cəhətdən xüsusi aktuallaşdırma vasitələrinin köməyi olmadan, yəni yalnız inversiya əsasında remanın ön mövqeyi tədqiq edilmişdir. Müəllifin müşahidələrinə əsasən, bu səhədə cümlə üzvlərinin təbii normal sırasının kəskin dəyişməsi böyük rola malikdir. Remanın ön mövqedə işlənməsində başqa vasitələrin rolu da müəllif tərəfindən öyrənilmişdir.

Müəllif remanın ön mövqeyini araşdırarkən yalnız sadə cümlələrlə məhdudlaşmamış, mürəkkəb cümlələri də nəzərdən keçirmişdir. Bu qənaətə gəlmişdir ki, tabeli mürəkkəb cümlələrdə baş cümlə elə bir informasiya ifadə etmir, o yalnız budaq cümlə üçün zəmin hazırlayır, yeni fikir budaq cümlələr vasitəsilə çatdırılır. Belə bir qanunauyğunluq da var

ki, rema tabeli mürəkkəb cümlənin nə qədər sonuna yaxın yerləşirsə, o qədər çox informasiya ifadə edir. Heç şübhəsiz, burada ümumi mətnin əvvəlki və sonrakı cümlələrinin də rolu vardır.

Dissertasiyanın üçüncü fəsli hər iki dilin verdiyi faktlar əsasında remanın interpozisiyada yerləşmə imkanlarının tədqiqinə həsr edilmişdir. Bu cəhət aktuallaşdırma vasitələrinin köməyi ilə müəyyənləşir. Və adətən, aktuallaşan üzv xəbərdən əvvəl yerləşir. Ümumən remanın dəqiqləşdirilməsinin çətin olduğu bu mövqe normal nəqli cümlələrdə – mübtədanın əvvəl, xəbərin, xəbər qrupunun sonda işləndiyi cümlələrdə nisbətən asan müəyyənləşir. Əsas aktuallaşdırma vasitələri əvəzlik və ədatlardır. Müəllif burada K.Abdullayevin cümlə üzvlərinin mütləq sonda aktuallaşması ilə xəbərdən əvvəlki nisbi aktuallaşma barədə fikri ilə polemikaya girmiş, mövcud fikri xeyli irəlilətmişdir.

Dördüncü fəsildə ingilis və Azərbaycan dillərində sadə və mürəkkəb cümlələrdə remanın postpozitiv mövqeyi öyrənilmişdir.

Müəllifin fikrincə, yeni informasiya budaq cümlə vasitəsilə verilir və bu o halda olur ki, budaq cümlə baş cümlədən sonra işlənir. Əks təqdirdə, yəni budaq cümlə əvvəl işləndikdə bu cür aktuallaşdırma mümkün deyil, çünki baş cümlə "boş özək"dən ibarət olur. Şübhəsiz, bu cür fikirlərlə geniş mübahisə açmaq olar.

Son fəsildə remanın mütləq-absolyut (son) mövqeyində mətnyaratma mkanları nəzərdən keçirilmişdir. Remanın absolyut mövqeyi onun yeni cümlədə temaya çevrilməsinə və tematik proqressiyaya – fikrin inkişafına səbəb olur. Tema-rema proqressiyasından fərqli olaraq, rema – tema proqressiyasında proqresssiya ardıcıl deyil, məsafəli də ola bilir.

L.Ziyadovanın əsəri elmi və praktik cəhətdən əhəmiyyətlidir. Müəllif əsərin əsas hissələrini kifayət qədər çap etdirə bilmiş, elmi ədəbiyyatdan əsasən səmərəli istifadə etmişdir. Çap olunmuş yazılar və avtoreferat dissertasiyanın məzmununu əhatə edir.

Bunları nəzərə alaraq qeyd edə bilərik ki, Laləndar Vaqif qızı Ziyadovanın "İngilis və Azərbaycan dillərində cümlənin aktual üzvlənməsində remanın mövqeyi" adlı əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Qurbanisevərlərin ilk yaradıcılıq toplusu: «Bir ağacın budaqları» (elmi, ədəbi-bədii toplu) Bakı, «Təfəkkür», 2006

XV-XVI əsirlərdə yaşayıb-yaratmış görkəmli el sənətkarı Qurbani Azərbaycan klassik aşıq sənətinin banisi, dövrünün görkəmli el şairi ol-

muşdur. Azərbaycan milli dilinin formalaşma və inkişafında öz yaradıcılığı ilə misilsiz xidmətlər göstərmiş bu böyük sənətkar ozan-aşıq keçidində bir çox saz havaları yaratmış, şifahi xalq şerinin qoşma, gəraylı, bayatı, təcnis, divani, deyişmə, cahannamə və s. janrlarının ilk gözəl nümunələrini yaratmaq sahəsində misilsiz iş görmüşdür. Səfəvilər dövlətinin qurucusu Şah İsmail Xətainin yaxını və dostu kimi tanınan və sevilən Qurbaninin adı, özünün dediyi kimi, "ulu divanlarda" çəkilmiş, zəmanəsinin ünlü ozan-aşıqları ilə deyişmələrdə həmişə üstünlük qazanmışdır.

Üstündən 5 əsr ötməsinə baxmayaraq, Qurbaniyə umumxalq sevgisi azalmamış, adına dastanlar bağlanmış, pir kimi anılan qəbri müəyyən edilmişdir. Hələ vaxtilə folklor araşdırıcıları S.Mümtaz, H.Araslı, M.Təhmasib və başqaları tərəfindən ədəbi irsi və həyatı az da olsa öyrənilmiş, keçən əsrin sonlarında - 1983-cü ildə Azərbaycan KP MK və Mədəniyyət Nazirliyinin xətti ilə aşığın doğulduğu Cəbrayıl rayonunda Qurbaninin 500 illiyinə həsr olunmuş umumrespublika "Qurbani saz bayramı" keçirilmiş, Soltanlı orta məktəbinə Qurbaninin adı verilmişdir.

İlk dəfə 1990-cı ildə əsərləri küll halında işıq üzü görmüşdür. 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan dilinin inkişafı haqqında imzaladığı məlum fərmanın girişində Qurbaninin xidmətləri xüsusi qeyd edilmişdir. Haqqında "Qurbani və poetikası"(Q. Kazımov,1996), "Qurbaninin poetik irsi"(T.Abbaslı, 2005) kimi monoqrafiyalar və yüzlərlə məqalə yazılıb çap olunmuşdur. Sovet hakimiyyəti illərindən Qurbani daim tədris kitablarına daxil edilmişdir.

Rəssamlarımız tərəfindən Qurbaninin portret rəsmi də işlənmiş və ictimaiyyətə təqdim olunmuşdur. Nadir sənətkarlardan biri kimi, müxtəlif rəssamlar (R.Əzizov və E.Aslanov) tərəfindən iki portreti hazırlanmışdır.

Son zamanlar Qurbanini öyrənən və yaşatmağa çalışan yeni bir ictimai qurumun – «Dirili Qurbani Məclisi»nin meydana gəlməsi bu ulu sənətkarla bağlı tədbirlər içərisində xüsusi qiymətə malikdir. Qarşısına Qurbaninin irsini öyrənməyi və təbliğ etməyi, Azərbaycanda aşıq sənətinin kütləviləşməsi, ədəbiyyat, mədəniyyət və elm sahəsinin inkişafına kömək etməyi məqsəd qoymuş bu məclis öz ətrafında çoxlu istedadlı elm və sənət adamlarını, ədəbi gəncliyi toplamışdır. Bunu məclis üzvlərinin yaradıcılıq nümunələrinin toplanmış olduğu "Qurbani" ədəbi-bədi, elmi kitabından da görmək mümkündür.

Toplu digər ədəbi birliklərin almanaxlarından ciddiliyi və xüsusi yönü ilə seçilir. Məclisin ideya istiqamətinə uyğun olaraq dörd bölmədən ibarətdir: 1) poeziya; 2) aşıq-muğam ifaçıları; 3) nəsr; 4) elm.

Topluda əsas yeri poeziya bölməsi tutur. Bölmədə məclis üzvlərinin bir çoxunun şeiri verilmişdir. Şeirlər yaş etibarı ilə müxtəlif nəsil nü-

mayəndələrinin yaradıcılığını əhatə edir. Vətən sevgisi, insana və təbiətə məhəbbət, ana, uşaq aləmi, ictimai-sosial məzmunlu şeirlər və s.-dən ibarət olan bu topluya 200-dən çox bədii əsər daxil edilmişdir. Şeir müəllifləri əksərən yeniliyə, yeni ifadə tərzinə, fikrin obrazlı və emosional ifadəsinə meyil edir. Bunu orijinal deyim tərzinə, fikir biçiminə və obrazlılığına görə seçilən aşağıdakı nümunələr də göstərir: "Dünyanın dərd-qəminə Olmağa kölə gəldim" (Əhməd Fərhad), "Ovulub tökülən torpaqlar kimi, İndi öz içini yeyirdi həsrət" (Sahib Abdullayev), "Dərdə güldüm, dedi: "acizdi naşı" (Sənəm Səbayel), "Əziyyətsiz bir tikə, Əndişəsiz adam yox" (Sabir Şirvani), "Hər gün ölüb qurtarıram, Hər gün təzə doğuluram" (Əjdər Yunus Rza), "Axirət yerində kişi olmağa, Kişilər yanında yer saxlamışam" (Firudin Şahbuzlu), "Anamın ağısı göyləri sökdü, Daş olub bu dünya oyanmır, Allah" (Şövkət Zərin Horovlu), "Yaşaya bilmirəm mən məhəbbətsiz, Gəl gedək sabaha eşqimizlə biz" (Anna Bartkulaşvili), "Al səhərim açılmayır, Gecə sərt bir lövbər salıb" (Məhəmməd Əli), "Əzablı gecələr ömürdən baha, Ümidlə calanır sabah sabaha" (Kifayət Salmanqızı), "Gözlərimin qabağında sudan çıxarılmış balıq kimi Çabalaya-çabalaya ölür vaxt" (Etina Yusifli), "Sənə qurbanlıq üçün Tanrim məni saxlayıb, Nişan qoyub dərdimi, Dərdimi adaxlayıb" (Ramiz Əlixanlı), "Dərviş gördüm dərd yığırdı, Dərdi özündən ağırdı" (Damət Kərimli), "Necə кi yer üzü qan görür belə, Biz görə bilmərik düz bənövşəni" (Məmməd Əli), "Könlüm yenə qəmli-qəmli, Xəyal bağın pünhan gəzir" (Rafiq Mirzə) və bu kimi misra və beytlərdə poetik düşüncə ictimai-sosial problemləri, təbiət və məhəbbət duyğularını, yurd ağrısını, vüsala qovuşmaq həsrətini, eləcə də digər maddi-mənəvi məsələləri əhatə edir. Almanaxın bu bölməsində həmçinin Türkiyəli şair Tayyub Atmacanın Türkiyə türkcəsi, əslən gürcü olan Anna Bartkulaşvilinin Azərbaycan türkcəsi və rus dillərində şeirləri də verilib. Yaxşı haldır ki, topluda müxtəlif şeir janrlarından istifadə olunmuşdur; qoşma, gəraylı, bayatı, qəzəl, sərbəst şeir, dördlük, beşlik və s. Aşıq şeir janrlarına üstünlük verilmişdir.

Almanaxın ikinci bölməsi «Aşıq-müğam ifaçıları» adlanır. Burada Məhəmməd Bağbani və Məhəmməd bəy Aşıq Zəngilanlının xələfi, Dirili Qurbani Məclisi Aşıq bölməsinin rəhbəri Aşıq Şərqiyyə Zəngilanlı və onun şagirdləri, eləcə də aşıqlar yurdu qədim Borçalıdan olan Aşıq Leyli Darvazlı, gənc istedadlı muğam ifaçıları N.Cəfərzadə və A.Həziyeva, klassik ustad aşıqlardan Aşıq Valehin davamçısı kimi meydana gələn Tofik Ağdamlı və başqalarından bəhs olunur.

Nəsr bölməsində Eluca Atalının "Kor çalğıçı", "Qovuşmayan dünyalar", "Qonağım Fərəh", Rövşən Yerfinin "Novrüz payı", "Atdıq vələdüzna", "Ciddi yoxlama", Rasim İsmayılovun "Su maşını", "İşığı gələnə",

yazıçı-publisist Bəhram Zeynalovun "Təpəl camış", "Kəhər madyan", "Yuva", "Tənha söyüd", "Bir ovuc torpaq", gənc yazarlardan Fuad Əhmədovun "Ruh", Turanə Məhərrəmlinin "Ana qayğıları") hekayələri, bədii-fəlsəfi miniatürləri, esseləri toplanmışdır. Bu əsərlərdə günümüzün mövcud problemləri, insanın iç dünyası, xarakterik cizgiləri bədii boyalarla təsvir edilmişdir.

Elm bölməsində isə toplunun tərtibçiləri, əsasən, Qurbani irsinin müxtəlif aspektlərdən öyrənilməsinə diqqət yetirmiş, indiyə kimi tədqiqata cəlb olunmamış bir sıra mövzulara üstünlük vermişlər. Məsələn, "Dirili Qurbani yaradıcılığı və ətraf mühit" (Yusif Dirili), "Dirili Qurbani yaradıcılığında din və onun yeri" (Həsən Hüseynov), "Qurbani yaradıcılığında sosial-ədalət problemləri" (Rəfael Əliyev), "Qurbani yaradıcılığında qürbət şeirləri" (Tariyel Abbaslı) və s. kimi əsərlər bu qəbildəndir.

Topluda tərtibçilərin qarşıya qoyduqları məqsəd uğurlu alınmışdır. Doğrudur, burada təqdim edilən yazıların heç də hamısını uğurlu saymaq olmaz. Ancaq hesab etsək ki, bu, Dirili Qurbani Məclisinin ilk addımıdır, onda topluda verilmiş ədəbi nümunələrin, publisist yazıların və elmi məqalələrin qüsurlarını da təbii saymaq olar.

İnanırıq ki, məclisin yaradıcılıq uğur və axtarışları getdikcə genişlənəcək.

Nəsimi ad. Dilçilik İnstitutu. Aynur Famil qızı Qədimalıyeva.
«Qazi Bürhanəddinin dilinin leksikası»
ND. Opp.r. 29.03.2007

Qazi Bürhanəddinin - XIV əsrin bu böyük şairinin zəngin şeir divanının dilini öyrənmək çox vacibdir. Çünki onu öyrəndikcə görəcəyik ki, bizim ədəbi dilimizin tarixi biz düşündüyümüz qədər də yaxın keçmişin məhsulu deyil. Aynur xanım hələ təkcə onun leksikasını öyrənib və bu başdan deyim ki, onun dissertasiyasından belə bir təəssürat almaq olur ki, bu dilin tarixi çox qədimdir. Belə bir zəngin dil XI-XII əsrlərdə yaranıb, bir əsr sonra bu qədər qol-qanad ata bilməzdi. Səlcuqların gəlişi ilə türk-Azərbaycan ədəbi dilinin təşəkkülü kimi ağlasığmaz uydurma konsepsiya bir də ona görə yanlış və əsassızdır ki, heç dilimizdə şimal-şərqi Dağıstan dillərinə məxsus substrata da təsadüf edilmir. Bu cür tədqiqatlar ona görə aktualdır ki, XIV əsr ədəbi dilinin zənginliyi ilə dediyimiz konsepsiyanın xalqın tarixini təhrif edən bir konsepsiya olduğunu sübut edir. Bu cəhətdən mən bu dissertasiyanı çox faydalı hesab edirəm. Həm də təkcə mövzusunun aktuallığına görə yox, müəllifin zəhmətinə, işin səviyyəsinə, təminedici elmi araşdırmalarına görə. Bu əsər hazırlıqlı

tədqiqatçının və çox səlis bir üslubun məhsuludur. Ərəb əlifbasını bilməsi, əsərin yalnız çap variantından deyil, əlyazmalarından da istifadə edilməsi müəllifin tədqiqatçılıq keyfiyyətlərini göstərir. Faktlardan aydın olur ki, Qazi Bürhanəddin "Divan"ı üzərində istənilən istiqamətdə - leksik, frazeoloji, semantik, morfoloji və sintaktik baxımdan araşdırmalar aparmaq olar və biz bütün bu sahələr üzrə araşdırmaları vacib hesab edirik. Bu cür araşdırmalar dilin fonetik sisteminin, lüğət tərkibinin və qrammatik quruluşunun birdən-birə deyil, çox qədim dövrlərdən mövcud olduğunu göstərəcəkdir. Aynur xanım hələlik bir namizədlik dissertasiyası üçün gen-bol bəs edə bilən iki istiqamətdə - leksik-semantik və söz yaradıcılığı istiqamətlərində araşdırmalar aparmışdır. "Tədqiqatın ümumi səciyyəsi"ndən, "Giriş", iki fəsil, "Nəticə", "Ədəbiyyat" və "Arxaik sözlərin lüğəti"ndən ibarət olan 151 səhifəlik bu əsərin bilavasitə 130 səhifəsi Qazi Bürhanəddin "Divan"ının leksik-semantik xüsusiyyətlərinin və söz yaradıcılığı məsələlərinin tədqiqinə həsr olunmuşdur.

"İşin ümumi səciyyəsi" ilə yanaşı, fəsillərdən əvvəl müəllif 5-6 səhifəlik "Giriş" vermiş və həmin girişdə monqol işğalı, Teymurilərin hərəkatı nəticəsində ölkənin dağıdılması, aclıq və fəlakətlərlə yanaşı, işıqlı cəhətlər də görmüş, ədəbi dil sahəsində tədricən ərəb, fars hegemonluğundan Azərbaycan dilinin xilas olduğunu, ona görə də ana dilində yazılı ədəbiyyatın genişləndiyini xüsusi qeyd etmişdir. Sonra müəllif Qazi Bürhanəddin Əhmədin dilinin tədqiqi tarixinə nəzər salmış, bu sahədə türk alimlərindən Qocatürk, M.Ergin, H.Mazıoğlu, S.Nüzhət, A.Alparslan və b.-nın mövqeyini araşdırmışdır. V.M.Qocatürk Qazini Nəsimi və Nəvainin ustadı saymışdır. Şairin milli mənsubiyyəti barədə ziddiyyətli fikirlər söyləmişlər. M.Ergin Qazinin dilinin azəri türkcəsində olduğunu etiraf etsə də, A.Alparslan onun türk və Azərbaycan xalqları üçün ortaq bir dildə yazdığını qeyd etmişdir ki, bu da, türk və Azərbaycan dillərinin XVIII əsrə qədər fərqlənmədiyini iddia etməkdən ibarət köhnə bayatını xatırladır. Dissertant düzgün mövqe seçir: "Qazi Bürhanəddinin dili Şərqi Anadolu türkcəsinə yaxındır. Şərqi Anadolu dialektləri isə Azərbaycan dili ilə qaynayıb-qarışmışdır və Azərbaycan dili xüsusiyyətlərini ən bariz şəkildə əks etdirir". (s.9) Müəllif cəsarətlə bunu da deyə bilərdi ki, Şərqi Anadolu əraziləri tarixi Azərbaycan torpaqlarıdır. O zaman "qaynayıb-qarışmışdır" sözlərinə ehtiyac qalmazdı.

Sonra müəllif şairin və onun dilinin tədqiqi sahəsində M.Quluzadə, V.Aslanov, T.Hacıyev, A.Əlizadə, Ə.Səfərli və başqa alimlərimizin xidmətlərini nəzərdən keçirmişdir.

"Leksik-semantik xüsusiyyətlərin tədqiqi"nə həsr olunmuş birinci fəsildə müəllif nələri axtarmalı idi?

Əgər semantika məsələsi qoyulubsa, müəllif istər-istəməz semantik kateqoriyaların - sinonimlik, omonimlik və antonimlik məsələlərinin

tədqiqi əsasında Bürhanəddin şeri vasitəsilə XIV əsr dilinin mənzərəsini üzə çıxarmalı idi. Dissertant birinci fəslin ikinci hissəsində elə bu istiqamətdə də iş aparmışdır.

Qazi Bürhanəddinin şeir dili çətindir. Xüsusən qəzəllərdə lazımi mətləbi aşkara çıxarmaq, anlamaq üçün son dərəcə səbirli və təmkinli olmaq tələb olunur. Aynur xanım bu zəhmətə dözə bilmişdir. Misraların, beytlərin nahamvar söz sırasını təsəvvürdə düzgün qurmaq, XIV əsr təfəkkürü səviyyəsinə enməyi və şairin nə demək istədiyini anlamağı bacarmaq lazım idi. Müəllifin ortaya çıxardığı faktlardan bu qənaətə gəldim ki, o bu deyilənləri bacarmışdır.

Doğrudur, keçmişə getdikcə dildə və o cümlədən bədii dildə omonimlik güclənir. Bürhanəddinin dili də belədir. Alınma komponentlərin və dilin öz daxili imkanlarının hesabına sinonimlik və antonimlik də zəngindir. Lakin müşahidə olunan çox mühüm bir cəhət də vardır: şairin bilavasitə eyni bir misra və ya beytdə işlətdiyi sinonim cərgələri, omonimliyi və ya antonim qarşılaşdırmanı üzə çıxarmaq asandır. Antonimlərin şairin poeziya dilində sənətkarlıq keyfiyyətlərini üzə çıxarmaqda rolu tədqiqatçıya bu istiqamətdə fakt vermişdir. Lakin omonimlik, sinonimlik məsələləri üçün müəllif eyni misra, beyt və ya bəndlərlə kifayətlənməmiş və kifayətlənə bilməzdi də. Çünki bu yolla getsə, şairin lüğət ehtiyatının zənginliyini üzə çıxarmaq əvəzinə, bəsit bir mənzərəsini yarada bilərdi. Odur ki müəllif böyük əzaba qatlaşaraq, "Divan"dakı lüğət materialını çox diqqətlə ələkdən keçirmişdir. Onu da qeyd etməliyik ki, bu cür tədqiqat yalnız şairin sənətkarlığını aydınlaşdırmaq məqsədi yox, dilin zənginliyini nümayiş etdirmək məqsədi daşıyır ki, indiki halda bizə bu cəhət daha vacibdir.

Birinci fəslin böyük bir hissəsi leksik-terminoloji söz qruplarının tədqiqinə həsr olunmuşdur. Bura aşağıdakı söz qrupları daxildir: qohumluq bildirən sözlər; bitki adları; quş adları; heyvan adları; musiqi alətlərinin adları; bədən üzvlərinin adları; məişət əşyalarının adları; geyim, bəzək və parça adları; ərzaq, xörək, içki adları; xəstəlik adları; hərbi terminlər, silah və ov əşyalarının adları; peşə, sənət, vəzifə bildirən sözlər; mücərrəd məna və dini etiqad bildirən sözlər; əlamət və keyfiyyət bildirən sözlər; istiqamət bildirən sözlər; təbiət hadisələrini bildirən sözlər; zaman və məkan anlayışlarını bildirən sözlər; miqdar və sıra bildirən sözlər; tikili və tikinti materiallarının adları; hal-hərəkət bildirən sözlər; ədəbi terminlər.

Cəmi 21 söz qrupu. Bunların içərisində həm arxaik sözlər var, həm də dildə sabitləşərək müasir dilimizdə işlənən sözlər. Bir qismində tarixi inkişaf prosesində semantik və ya fonetik dəyişiklik olmuşdur. Məsələn, ədəbi terminlər kimi ***hekayət, mənzum, şeir, rəvayət, əfsanə, dastan, qəsidə, qəzəl, rübai, tuyuq, qafiyə*** və s. sözlər müəyyən edilmişdir ki,

bunların, demək olar ki, hamısı bu gün də işlənməkdədir. Lakin peşə, sənət, vəzifə adları sırasında (***atıcı, qaravaş, oğru, fərraş, məlik, qul, şah, təbib, sultan, xan, bitikçi, tacir, xoca, avçı, dayə, vəzir, lələ, yolçı, qapıçı, ayaxçı, çalıcı*** "musiqiçi", ***bağban, elçi, dərviş, kəniz, xadim***) arxaikləşmə nisbətən çoxdur. Bu sözlərin çoxu aid olduğu məfhumların özəri ilə birlikdə köhnəlmiş və işləkliyini itirmişdir. Lakin hiss olunan əsas cəhət budur ki, nə həmin əşya və anlayışlar XIV əsrdə yaranmışdır, nə də onların adları.

Müxtəlif sahə terminləri ilə yanaşı, onomastik leksikanın öyrənilməsi də əsərin mühüm keyfiyyətlərindəndir. Bu fəslin mühüm bölmələrindən birini antroponim, toponim, etnonim, hidronim və kosmonimlərin tədqiqi təşkil edir. Şairin qəzəllərində əsas yeri dini və əfsanəvi adlar tutur. Müəllif müəyyən etmişdir ki, şairin "Divan"ında rus, hind, firəng, moğol, türk etnonimləri dəfələrlə təkrar olunduğu halda, erməni adına təsadüf edilmir ki, bu da ətraf ərazidə belə bir xalqın olmadığını və ya görünmədiyini göstərir.

Fəslin böyük bir hissəsini arxaik adların və fellərin tədqiqi təşkil edir. Müəyyən edilmişdir ki, arxaik sözlərin böyük bir qismi müasir dil baxımından arxaikləşsə də, klassiklərimizin dilində geniş şəkildə işlənmişdir. Müasir dilimizdə işlənməkdə olan, lakin semantik və ya fonetik cəhətdən arxaikləşən sözlər də vardır. Müəllif arxaik adlar və fellərin şivələrimizdə və müasir ədəbi dilimizdə izlərini diqqətlə araşdırmağa çalışmış, onların çox az qisminin izsiz yox olduğunu müəyyən etmişdir.

Dissertasiyanın ikinci fəsli "Qazi Bürhanəddinin dilində söz yaradıcılığı" adlanır. Burada morfoloji yolla söz yaradıcılığına geniş yer verilmiş, ad və fel düzəldən şəkilçilər diqqətlə seçilib qruplaşdırılmışdır. Adlardan ad düzəldən, fellərdən ad düzəldən, adlardan fel düzəldən, fellərdən fel düzəldən şəkilçilər konkret nümunələrlə izah edilmişdir. Ad düzəldən alınma şəkilçilər də öyrənilmişdir. Əsas yeri, təbii ki, dilimizin özünə məxsus şəkilçilər təşkil edir. Və əsas cəhət də budur ki, bu şəkilçilərdə cüzi fonetik dəyişiklik var ki, bunlar da daha çox şivə xüsusiyyətləri, orfoqrafiya qaydaları və s. ilə əlaqədardır və şəkilçilər bu gün də dilimizdə işlənməkdədir. Şəkilçi birdən-birə yaranmır. Deməli, bu şəkilçilərin bizə məlum tarixindən daha uzun tarixi var ki, bu da dilimizin qədimliyini təsdiq edən başqa bir amildir.

Sintaktik yolla söz yaradıcılığı prosesindən danışarkən müəllif mürəkkəb fel problemi üzərində xeyli dayanmış və bir sıra dilçilərə əsaslanaraq dilimizdə mürəkkəb fellərin deyil, yalnız tərkibi fellərin işləndiyi qənaətinə gəlmiş və şairin dilini bu istiqamətdə tədqiq etmişdir. Odur ki tərkibi felləri:

a) komponentləri adlardan və köməkçi fellərdən (***ol, et, elə, qıl, bol***) ibarət olanlar; b)adlardan və müstəqil fellərdən düzələnlər (***İrax***

düşmək, gümana salmaq, yola gətirmək, can vermək, qərara gəlmək) şəklində qruplaşdırmışdır.

Qeyd etməliyik ki, burada müəllif daha çox iş görmüş, hər bir felin adlarla neçə cür birləşməsi varsa, hamısını qeydə almışdır. Məsələn, ***düşmək*** felinin müxtəlif sözlərlə əlaqədə 60-a qədər tərkibi fel yaratdığı öz konkret nümunələri ilə qeydə alınmışdır.

Dissertasiyanın sonunda arxaik sözlərin lüğəti verilmişdir.

Dissertasiyada mübahisə doğuran cəhətlər də var:

1.Müəllif səh.12-də Qazi Bürhanəddinin şeir dilini nəzərdə tutaraq yazır: "İlkin orta əsrlərdə Azərbaycan dilində yazılan bu şeirlər bir sıra səciyyəvi dil xüsusiyyətlərinə malikdir". "İlkin orta əsrlər" XIV yox, IV əsr sayıla bilər. İlkin orta əsrlər feodalizmin təşəkkülü, xalqın və xalq dilinin təşəkkülü dövrüdür.

2.Müəllif birinci fəsildə söz qruplarından danışarkən alınmaları (***sürahi, nəməkdan, ab, həmail, ağu*** və s.)fərqləndirməyib. Fərqləndirsə, yaxşı olardı.

3.Əsərdə bir sıra ixtisarlar var: ***DƏ, BG*** (s.29). Mənası açılmır, nəyin nəzərdə tutulduğu bilinmir.

4.***Çözmək*** sözü müasir dil üçün tam arxaik söz sayılır, ***onalmək*** sözünə sonrakı dövr ədəbiyyatında rast gəlinmədiyi qeyl olunur. Birinci söz hazırda elmi ədəbi dildə də işlənir, ikinci söz Ə.Haqverdiyevin dilində də var.

5.Müəllif yazır: "Sinonimlərin əksəriyyətini adlar və fellər təşkil edir". (63) Daha nə ilə ifadə oluna bilərdi ki?

"Klassik irsin və ümumxalq dilinin bütün incəliklərini dərindən mənimsəyən Qazi Bürhanəddin…" (63) Bu fikir həm yanlışdır, həm doğru. Yazılı ədəbi dili Həsənoğludan başlayanlar üçün yanlışdır, həqiqətdə isə doğrudur. O mənada ki, «klassik ədəbi dil»in içərisində bizə hələlik məlum olmayan, lakin Qazi Bürhanəddin üçün məlum olan ədəbiyyat da nəzərdə tutulur.

6.Səh.89-da alınma *-i* şəkilçisinin dilimizin ahənginə uyğunlaşdığı göstərilir və belə bir misal verilir: "Məgər ki bu türkiləri ol cəngə gətirdi" (90) Nə misal doğrudur, nə də fikir.

7.Doğrudur, müasir dilimizdə ***-la,-lə, -lan,-lən, -laş,-ləş*** şəkilçiləri müstəqil şəkilçilərdir. Lakin bunları ***-la,-lə*** şəkilçisinin növ şəkilçisi ***-n*** və ***-ş*** ilə birgə işləndiyi hallarla qarışdırmaq olmaz. Müəllif isə bir sıra sözlərdə qarışdırıb: ***dinlənir, qatlana, yaralanur, qavlaşurlar*** (98-99) sözlərində ***-la***n və ***-laş*** bir yox, iki şəkilçidir.

8.Bizim mətbuat orqanlarında olduğu kimi, bu dilçilik əsərində də tire ilə defisin funksiyası fərqləndirilmir, çox vaxt defis əvəzinə tire qoyulur; s.3, 8 və s.

Arı çiçəklərdən nektar yığan kimi, dissertant Aynur Qədimalıyeva da Qazi Bürhanəddini anlamaq üçün böyük düşüncə tələb edən "Divan"-dan ən qiymətli dil materialını toplayıb təhlil etmişdir. Müəllif mümkün olan elmi ədəbiyyatdan istifadə etmiş və bir çox hallarda tənqidi fikirlər söyləmişdir. Məsələn, Qazi Bürhanəddinin dilindən nümunələr gətirməklə ***-baz*** şəkilçili sözlərin yalnız XIX əsr ədəbi dilində müşahidə olunduğu barədə fikri haqlı tənqid etmişdir.(s.88) Bu əsər yazılı ədəbi di-

lin tarixinin qədimliyi barədə inamı artırır və yeni tədqiqatlar üçün yol açır. Dilimizin tarixi barədə elmi fikri irəlilətdiyini və tədris işinə köməyini nəzərə alaraq, əsərin mühüm nəzəri və praktik əhəmiyyəti olduğunu qeyd edirik. Avtoreferat və 10 məqalə əsərin əsas məzmununu əhatə edir. Üslubu səlis və səliqəlidir. Başqa əsərlərdə gördüyümüz imla və durğu səhvləri bu əsərdə az müşahidə olunur.

Yekun olaraq qeyd edirik ki, Aynur Famil qızı Qədimalıyevanın "Qazi Bürhanəddinin dilinin leksikası" adlı əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tam layiqdir.

Nəsimi ad. Dilçilik İnstitutu. Məsudə İslam qızı İslamzadə.
«1960-1990-cı illərin Azərbaycan nəsr dili (Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında)»
ND. Opp.r. 24.04.2007

Bədii əsərlərin dilinin tədqiqi, zahirən asan görünsə də, gənc tədqiqatçıya çox şey öyrədir. Çünki ümumxalq dilinin, ədəbi dilin zəngin, emosional, rəngarəng və obrazlı dil vasitələri bədii əsərlərin dilində toplanmış olur. Şübhəsiz, bu hal tədqiqat obyekti olan yazıçının sənətkarlıq qüdrətindən də asılıdır. Dissertantın seçdiyi yazıçılar bu baxımdan tam təminedicidir. Elçin, Anar, Ə.Əylisli, S.Azəri 60-cılar nəslinin və nəsrinin S.Əhmədov, İ.Hüseynov, F.Kərimzadə, Y.Səmədoğlu, İ.Məlikzadə və b. ilə birlikdə ən qüdrətli nümayəndələridir. Bu nəslin bədii dili bundan əvvəlki dövrün S.Rəhimov, M.İbrahimov, Ə.Əbülhəsən, Ə.Vəliyev, H.Mehdi kimi nəhəng yazıçılarının geniş, çoxşaxəli bədii nəsr dilindən öz çevikliyi, yeni dövrün dil materialına müraciəti ilə fərqlənir. Digər tərəfdən, dissertasiyada məhdud bir sahənin araşdırılması istiqamətində iş aparılmamış, dissertant 60-cılar nəsrinin dilindəki bədii təsvir və ifadə vasitələrini - trop növlərini, işlənmə dairəsinə görə fərqlənən söz laylarını, sözün mənşə məsələsini, bədii dilin frazeoloji sistemini, üslubi-poetik sintaksisin əsas xüsusiyyətlərini nəzərdən keçirmiş, bədii dilin tədqiqinə bir növ kompleks sənətkarlıq və ədəbi dilin inkişafı baxımından yanaşmışdır. Odur ki həm mövzu, həm də tədqiqatın istiqamətləri baxımından əsər aktual və faydalıdır.

Giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və bədii mətnlərin mənbəyindən ibarət olan 140 səhifəlik bu dissertasiyanın əvvəlində mövzunun aktuallığı, işin yenilikləri, metod və aprobasiya məsələləri izah edilmişdir.

Birinci fəsil "Nəsr əsərlərində bədii təsvir və ifadə vasitələri" adlanır. İki bölmədən ibarət olan bu fəslin birinci bölməsində məcaz növ-

ləri - metonim, metafora, sineqdoxa, perifraz, epitet və müqayisələr öyrənilmişdir. İkinci bölmə sinonimlərin, antonimlərin, frazeoloji vahidlərin və atalar sözlərinin tədqiqinə həsr edilmişdir.

Müəllif məsələlərin izahında hər bir yazıçının əsərlərini əsasən eyni nisbətdə öyrənməyə çalışmış, hər bir məsələdə yazıçıları fərqləndirən əlamətlərin tədqiqinə, üzə çıxarılmasına, trop növləri öyrənilərkən ümumdil vasitələri ilə yazıçıların qələminə məxsus fərdi-üslubi vasitələrin (epitetlər, metaforalar, müqayisələr və s.) fərqləndirilməsinə diqqət yetirilmişdir.

Dissertasiyanın II fəsli "Nəsr əsərlərinin dilində leksik laylar" adlanır. Bu fəsildə ümumən dilin, o cümlədən bədii dilin əsas layları olan xalq danışıq dili sözləri, dialektizmlər, arxaizm və tarixizmlər, fərdi-üslubi neologizmlərlə yanaşı, alınma sözlərlə, onomastik leksika ilə bağlı nəzəri cəlb edən ən mühüm məsələlər də tədqiqata cəlb olunmuşdur. "Danışıq dili sözləri" bölməsində "ekspressiv-emosional sözlər", "ekspressiv-qiymətverici sözlər", "vulqar, kobud ekspressiyalı sözlər", "familyar sözlər" yarımbaşlıqları altında alqışlar, qarğışlar, müraciət bildirən sözlər, vulqar söz və ifadələr əhatə olunmuşdur. Bu silsilədən olan söz və ifadələrdən yazıçıların fərdi istifadə üsullarına xüsusi yer verilmişdir. Nümunələr göstərir ki, dialektizmlər daha çox yazıçının doğulduğu, yaşadığı mühitlə bağlıdır, bədii dildə daha çox fərdiləşdirmə vasitəsi kimi çıxış edir. Məsələn, müəllif müəyyən edir ki, Elçinin dilində Bakı və Qarabağ dialektlərinə məxsus xüsusiyyətlər, S.Azəridə isə Qazax dialekti nümunələri üstünlük təşkil edir. Fərdi-üslubi neologizmlər sahəsində Anarın nəsr dili nəzəri daha çox cəlb edir. Anarda yeni söz yaradıcılığına meyil də güclü olmuşdur. Arxaizmlər, tarixizmlər tarixi mövzularda yazılan əsərlərin dilində daha çox müşahidə olunur. Odur ki Elçinin "Mahmud və Məryəm" romanının, Anarın "Dədə Qorqud dünyası" əsərinin dilində bu cür sözlər elmi, bədi-publisistik keyfiyyətə malikdir.

Dilimizin lüğət tərkibinin 40 faizdən artığını alınma sözlər təşkil edir. Odur ki tədqiqat obyekti olan yazıçıların dilində alınmalar ana dilinin milli sözlərindən o qədər də az yer tutmur. Lakin dissertant bütün bu cür qədim və bir növ artıq çoxdan mənimsənilmiş alınmalardan deyil, bədii dildə tarixi mövzularla bağlı müəyyən dərəcə yeni görünən, əsərlərin və əsrlərin məzmunu ilə bağlı tipik alınmalardan danışmışdır. Bu hal ən çox yenidən işlədilmiş ərəb, fars söz və ifadələrinə aiddir. Rus və Avropa xalqlarının dillərindən alınmalar elmi-mədəni tərəqqi ilə bağlı olan və daha çox 70-80-ci illərdən Azərbaycan dilində işlənməsi intensivləşmiş alınmalara aiddir. Əsərdə türk dilindən alınmalara da müəyyən yer verilmişdir ki, bunlar daha çox 90-cı illər nəsrinin dil materialına aiddir.

Bu fəslin son bölməsi nəsr dilinin onomastik leksikası – toponim və antroponimlərin bədii dildə rolu məsələsinə həsr olunmuşdur. Müəl-

lif bu hissədə real toponim və antroponimlərlə yanaşı, obrazların səciyyəsinə müvafiq düzəldilmiş satirik adlardan da bəhs etmişdir. Bu cəhətdən Anarın nəsr dili, xüsusən "Molla Nəsrəddin"- 66" hekayələr kitabı müəllifə xeyli fakt vermişdir.

III fəsil "Nəsr dilinin poetik və sintaktik-üslubi vasitələri" adlanır. Müəllif yazır: "Poetik nəsrin dili məcazlar sistemindən, sözün semantik strukturundan - antonim, sinonim, çoxmənalı sözlərdən, frazeoloji ifadələrdən, atalar sözlərindən istifadə olunması ilə yanaşı, ritmik-melodik vasitələr - intonasiya, ritm, fasilə, təkrarlar; sintaktik-üslubi fiqurlar – inversiya, parselyasiya, cümlənin məna növləri - ritorik suallar, nida cümləsi, həmcins üzvlü cümlələr və hətta müxtəlif quruluşlu konstruksiyaların işlənmə məqamları ilə müəyyənləşir".(87) Elə buna görə də müəllif bu fəsildə qeyd etdiyi poetik və sintaktik-üslubi vasitələrin tədqiqi ilə məşğul olmuşdur. Əsərlərin dilinə linqvistik poetikanın bir qolu olan poetik sintaksis baxımından yanaşmışdır. Bu sahədə müəllif A.Axundov, T.Hacıyev, M.Adilov, Q.Kazımov, M.Məmmədov, F.Ağayeva, K.Vəliyev, K.Abdullayev kimi alimlərin tədqiqatlarına əsaslanmışdır.

M.İslamzadə mətnin poetik intonasiyasına xüsusi diqqət yetirmiş və yazmışdır: "…qeyd etməliyik ki, nəsr dilini nəzərdən keçirdiyimiz Anar, Elçin, Ə.Əylisli və S.Azəri kimi yazıçılarımız 30-cu illərin qrammatik normalarına söykənən köhnə təsvir üsulundan imtina edərək, təfərrüata varmadan nəsrlə nəzmin sintezindən ibarət yeni poetik nəsr dili yaratdılar". (87)

Mətnin poetik intonasiyası sahəsində xüsusi araşdırma aparan müəllif bu nəticəyə gəlir ki, sintaktik vahidlər məhz intonasiya vasitəsilə cümləyə, bədii mətnə çevrilir. Sintaqmlar və sintaktik konstruksiyalar bir-biri ilə birləşərək, daha böyük sintaktik vahidləri - sintaktik bütövləri, nəhayət, mətnin intonasiyasını bütövləşdirir. Odur ki nitqin ritmik-melodik axınını tənzimləyən əsas vasitə kimi fasilənin roluna ayrıca diqqət yetirilir. Müəllif müəyyənləşdirmişdir ki, Anarın nəsr dilinə lirik bir intonasiya hakimdir. Ə.Əylislinin nəsr dili ənənəvi nəsr dilinə yaxınlığı ilə fərqlənir. S.Azərinin nəsr dili isə ənənəvi nəsr dilinə daha çox yaxındır.

Nəsr dilinin poetik imkanlarını artıran vasitələrdən biri kimi, dissertasiyada təkrarlar ətraflı nəzərdən keçirilmişdir. Təkrarlar Anar və Ə.Əylislinin nəsr dilində çeviklik yaradır, sintaktik bütövləri əlaqələndirən mühüm vasitə kimi çıxış edir. Təkrarlar emosionallıqla yanaşı, hadisələr arasında əlaqələr də yaradır. Cümlə üzvlərinin inversiyası, qoşulma konstruksiyalar - parsellər bədii mətnin emosional-estetik təsir gücünü artıran vasitələr kimi təhlil edilmişdir. Ritorik sual cümlələri, həmcins üzvlü cümlələr, sadalanan sözlər fikrin daha ətraflı izahı və bədii əsərdə obrazlılıq vasitəsi kimi öyrənilmişdir. Bu fəslin sonunda dissertant cümlə strukturlarının - sadə və mürəkkəb, tabesiz və tabeli mürəkkəb cümlə-

lərin yazıçıların dilində qazanmış olduqları fərdi bədii keyfiyyətləri də araşdırmışdır.

Əsərin ümumi məzmununa xələl gətirməyən bir sıra nöqsanları da vardır:

1.Müəllif Orxon-Yenisey abidələrinin dilində işlənmiş bir sıra sözləri "Dədə Qorqud"un dili və müasir dilimizlə müqayisə edərək yazır: "Fikrimizcə, göstərilən bu faktlar dilimizin öz tarixi keçmişinə nə qədər sadiq qaldığını, əvvəli Orxon-Yenisey abidələri ilə başlayan "Dədə Qorqud"un dilində daha da doğmalaşmış və sadələşmiş Azərbaycan dilinin nə qədər qədim tarixi olduğunu bir daha sübut edir".(64) Dil tarixi ilə bağlı bu fikir yanlışdır. Belə çıxır ki, bizim Azərbaycan dili öz əsasını Orxon-Yenisey abidələrindən almışdır. Əslində isə Azərbaycan xalq dili o abidələrin daşıyıcılarının dilindən əvvəl mövcud idi.

2.Dissertasiyada dialektizm və arxaizmlərin tədqiqinə səthi baxılıb. Diqqətlə araşdırma aparılsa idi, zəngin faktlar ortaya çıxarılardı.

3.Səh.63-də: "Arxaizm və tarixizmlərə bədii dilin üslub xüsusiyyətlərini vermək üçün müraciət edilir…" sözləri ilə başlayan sitat mənasızdır. Guya arxaizm və tarixizmlərə "təntənəli üslub yaratmaq üçün" müraciət edilir.

4."Əsərdəki qəhrəmanı savadlı, ali təhsil almış, bilikli, geniş dünyagörüşünə malik bir şəxs kimi qələmə verəndə yazıçı onun nitqində ümumişlək əcnəbi söz və beynəlmiləl terminlərə müraciət edir" (74) fikri məntiqsizdir.

6.Əsərdə nümunə gətirilən:

Саша:

-Вы пьете коньяк, а мы водку, - dedi - какая та анархия получается у нас за столом.

Мухтар:

-Нет, унас за столом не анархия, а монархия - dedi - поскольку есть королева. И даже две королевы" - tipli misallar alınmalara deyil, jarqonlara aiddir. Bu hal türk dilindən alınmalara dair misal kimi verilən (Anarın "Otel otağı" əsəri) nümunələrə də aiddir:

-Belke önce odaya bakmak isterdiniz?

-İstəməm. Yataq yeri varmı? Yetər mənə.

7."Bütün klassik ədəbiyyatımız boyu şairlərimiz, yazıçılarımız parsellərdən istifadə etmişlər. XX əsrdə isə parselyasiyaya məhz keçən əsrin 60-cı illərində müraciət olunmağa başlanmışdır" - cümləsindən belə çıxır ki, parsellərdən istifadənin arası kəsilmiş, bir də keçən əsrin 60-cı illərində başlanmışdır. Doğru deyil. Demək olardı ki, "daha çox istifadəyə başlanılıb". "XX əsrdə isə - keçən əsrin 60-cı illərində" ifadələri də yerində deyil.

8.Əsərdə diqqətsizlik hallarına da rast gəlmək olur: *Bulud topaları hərdən… günəşin sifətini örtürdülər*.(12) - cümləsində metafora hərəkət metaforası kimi verilmişdir. *Elə bil ki, sanki* modal sözləri bağlayıcı kimi izah edilmişdir. (29) *İstər-istəməz* sözü antonim sözlər kimi qeyd edilmişdir. (41) Əsərdə *Zəngilan dialekti, Abşeron dialekt*i kimi ifadələr də düz deyil. (58 59) Defislə tire fərqləndirilmir. Təktərkibli cümlələrdən danışılarkən dialoq və ya monoloq şəklində verilən bir neçə cümlədən hansının nəzərdə tutulduğu bilinmir.

Sevgi onu elə qüvvətli bir xoşbəxtlik duyğusuna bürümüşdü ki, heç bir şey bu səadəti yaralaya bilməzdi - cümləsi təyin deyil, dərəcə budaq cümləsidir.

(121) *Sürəyya xanım stolun üstünü elə şövqlə düzəldirdi ki…* (114) – cümləsi də tərz leyil, dərəcə budaq cümləlidir və s.

Müəllifin dili səlisdir. Əvvəlki bir çox dissertasiyalardan fərqli olaraq, bu əsərdə imla səhvləri görünmür. Elmi-milli ədəbiyyatdan geniş istifadə olunub. Əsərin 60-cılar nəsrinin yeniliklərini öyrənmək baxımından nəzəri və praktik əhəmiyyəti vardır. 10 adda məqalə çap etdirmişdir. Məqalələri və avtoreferat dissertasiyanın məzmununu əhatə edir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Məsudə İslam qızı İslamzadənin "1960-1990-cı illərin Azərbaycan nəsr dili (Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında)" adlı əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Həsənov Zaur Həsən oğlu. «Kimmerlər və onların Azərbaycan tarixində yeri» Tarix elmləri üzrə ND. 26.06.2007

Bizi ixtisasımıza müvafiq olaraq, bütövlükdə çox qiymətli olan bu əsərin 3-cü fəsli daha çox maraqlandırdı. Burada kimmerologiya linqvistik, epik və dünyabaxış nöqteyi-nəzərindən araşdırılmış və müəllif kimmer dilinin bərpası ilə məşğul olmuşdur.

Hələlik kimmer dilinə aid heç bir mətn əldə edilməmişdir. Müəllifin axtarışları və elmi ədəbiyyat əsasında məlum olur ki, mənbələrdə kimmerlərin yalnız üç padşah adı (***Teuşpa, Tuqdamme /Liqdamis, Sandakşatru***), ***kimmer*** etnonimi və onların etnos adı ilə eyniköklü dövlət adı - "***Qamir***" qalmışdır. Qədim mənbələrdə kimmerlərlə skiflərin adı çox zaman yanaşı çəkilir və hətta biri o birinin əvəzində işlənir. Bu hal onların (Çar skifləri ilə kimmerlərin) qohum tayfalar olduğunu göstərir. Odur ki rus alimləri skifləri irandilli hesab etdikləri kimi, mexaniki olaraq kimmerləri də irandilli saymışlar. Bəzi alimlər kimmer dilinin frakiya dili ilə qohum olduğunu söyləmişlər.

İ.M.Dyakonov, A.İ.İvançik, G.A.Qrantovski, İ.Əliyev və başqaları kimmer çar adlarını İran dilləri əsasında izah etməyə çalışsalar da, öz etimoloji izahlarının təminedici olmadığını qeyd etmişlər. Z.Həsənov kimmerlərin tədqiqi tarixini nəzərdən keçirərək belə bir nəticəyə gəlmişdir ki, kimmer çar adlarının etimoloji təhlili qənaətbəxş olmadığından bu sahədə tədqiqatı davam etdirmək lazımdır.

Odur ki müəllif ilk növbədə ***kimmer*** termininin qədim variantlarını müəyyənləşdirməli olmuşdur. Aydın olur ki, bu söz yunan mənbələrində ***Kimmer/kamarit***, Ön Asiya mənbələrində isə ***qimirri/qimirrai, qamir,***

qmr/qomer şəkillərində qalmışdır. Bunlar sözün mənşəyini araşdırmaq üçün imkan yaradır.

İ.M.Dyakonov sözün "q" variantını əsas, "k" variantını təhrif variant saymışdır. Z.Həsənov bu fikri qəbul edir, lakin İ.M.Dyakonovun kimmerlərlə yunanların sonralar tanış olması barədə fikrinin doğru olmadığını göstərir. İ.M.Dyakonov ***q*** ilə başlanan bu sözün yunan dilində ***k*** səsinə keçməsini frakiyalıların dilinin təsiri ilə izah etmişdir. Əslində isə ***q~k*** əvəzlənməsi türk dillərində daha geniş yayılmışdır. Digər tərəfdən, bu hadisəni frakiya dili ilə izah etmək üçün yunanlarla kimmerlərin gec tanış olmaları barədə fikir söyləmək də özünü doğrultmur.

Z.Həsənov Y.Bozekin kimmer mənşəli Makedon tunc məmulatlarının m.ö. IX-VIII əsrlərə aid olduğunu göstərməsinə əsaslanaraq, yunan və kimmer əlaqələrinin erkən olduğunu, Homerin əsərinə əsaslanaraq bu əlaqənin daha qədim olduğunu göstərmişdir.

Homer bu sözdən iki dəfə istifadə etmişdir:

Kimmerilər məmləkəti hər vaxt sisli-dumanlıdır.

Üzüb dərin Okean-çay sularını bütün günü,
Kommerilər yaşadığı bir şəhərə gəlib çatdı.

İkinci misradakı söz əsərin rus dilinə yunan dilindən tərcüməsində daha düzgün işlənmişdir:

Скоро пришли мы к глубокотекущим водам Океана,
Там ***киммериян*** печальная область. Покрытая вечно
Влажным туманом и мглой облаков.

Z.Həsənovun gəldiyi nəticə doğrudur: kimmerlərin yunanlarla əlaqəsi azı e.ə. XIII əsrdəndir. İ.M.Dyakonov türk dillərində geniş yayılmış q ~ k əvəzlənməsini nəzərə almamış, kimmer dilinin türk mənşəli ola biləcəyini ya şüurlu, ya da qeyri-şüuri lazım bilməmişdir. Z.Həsənov hər iki cəhətdən məsələni düzgün qoymuşdur.

İ.M.Dyakonov kimmer sözünü ***gm-ira*** şəklində "обладающий действием хождения" mənasında izah etmişdir. Sözü İran dilləri əsasında izah etməyə çalışsa da, "bu tipli İran sözü məlum olmadığını" da etiraf etmişdir. Belə nəticəyə gəlmişdir ki, kimmer etnonim deyil, ümumi isimdir və bu sözü şimali Qaradəniz sahillərindən Ön Asiyaya enən kimmerlərə aid etmişlər. Z.Həsənov bu fikirlə razılaşmamaqda tam haqlıdır. Kimmerlər qohum skif tayfalarından e.ə.II minilliyin sonlarında ayrılmış, Yaxın Şərqdən Şərqi və Qərbi Avropaya qədər böyük bir ərazidə yayılmışlar. İ.M.Dyakonov bir cəhəti doğru qeyd etmişdir ki, İran mənşəli *kimmer* tipli xüsusi ada təsadüf edilmir.

Bütün bu qeydlərdən sonra dissertant Akkad mənbələrində mühafizə olunmuş üç kimmer çar adının - ***Teuşpa, Tuqdamme*** (yunan mənbələrində ***Luqdamis***) və ***Sandakşatru*** antroponimlərinin türk mənşəyi əsasında etimoloji izahına keçmişdir. Z.Həsənov kimmerlərdən qalan sözləri şaman termini kimi izah etmişdir.

Müəllifin fikrincə, ***Teuşpa*** sözü türkcə iki sözün - ***te*** - "demək, danışmaq" və ***asp*** - "asılmış qab" (***s~ş*** keçidi ilə *Teuspa*) sözlərinin birləşməsindən ibarət olub, hərfi mənası "qaba danışan", ümumiləşmiş mənası "qurban qabına and içən" deməkdir.

Müəllif müəyyənləşdirmişdir ki, kimmerlərdə olduğu qeydə alınmasa da, skiflərdə belə bir adət olmuşdur: onların bütün dostluq müqavilələri müqavilədə iştirak edənlərin qanı qarışdırılmış şərabla dolu gil qablar ətrafında and içmə mərasimlərində bağlanmışdır. And içən isə, təbii ki, başçı olar, padşah olar.

Müəllif çar adlarını izah edərkən ad sözünü dırnaq arasına almış və yeri gəldikcə izah etmişdir ki, bunlar əsl ad deyil, ikinci bir addır. Müəllifin bu müşahidəsi də doğrudur. Biz qədim Manna, Maday çar adlarını nəzərdən keçirərkən onların çoxunun ad deyil, xalq tərəfindən verilmiş ləqəb olduğunu müəyyən etmişik.

Müəllif ***Tuqdamme*** antroponimini də şaman termini kimi izah etmiş, ***tuq-dam-mi*** və ya *tuq-dam-me* şəklində üç hissəyə ayırmışdır. Məlumdur ki, ***tuq*** sözü qədim türk dillərində "bayraq" deməkdir. Bayraq sözü türklərdə və bir sıra qədim dillərdə bayraqdara verilən ad və ya ləqəb kimi işlənmişdir. *Tuq* sözü qədim türk dilində nişan, simvol mənasını da daşımışdır. Hətta "baraban" mənasında da işləndiyi məlumdur. Sözün ikinci hissəsində ***dam*** sözü vardır - örtük, ev mənasında. Beləliklə, tuqdam - "öz damı üstündə bayraq saxlayan", "bayraq sancan" mənasında olub, "bayrağı olan" deməkdir. Qədim türklərdə bayrağı olmaq hakim olmaq mənasındadır. Söz, təbii ki, ad deyil, ləqəbdir.

Sözün sonundakı ***-me*** -"da, də", "həm də" mənasında işlənmiş ədatdır və "Kutadku biliq"də də işlənmişdir. Söz ümumilikdə "bayrağı da olan ev - hakim, hökmdar" mənasına gəlir.

Sandakşatru sözü də maraqlıdır. Z.Həsənov İ.M.Dyakonovun sözü ***Sandakşaça*** şəklinə salaraq təhrif etməsi ilə razılaşmamış, ***san-dak-şatru*** kimi dörd hissəyə ayırmışdır.

San hissəsi "ad-san, şöhrət" mənasında qədim və müasir türk dillərində geniş işlənən sözdür. İkinci hissədə müəllif daq "dağ" sözünü görmüş və tapmışdır ki, kimmerlərin qədim yaşayış ərazilərindən olan Krımda ***Sandık/ Sandak*** şəklində işlənən beş toponim vardır: ***Sandık-kaya*** adlı üç dağ adı, ***Sandık*** adlı bir qaya və ***Sandık-boğaz*** adlı bir dağ keçidi. Bu sözlərdəki "dık" hissəsinin "müqəddəs dağ" mənasında (***ıdık*** şəklində) olduğuna dair müəllif çoxlu inandırıcı faktlar vermişdir. Cun-

qariya Altayında (Qazaxıstan) Sandık dağ silsiləsi də vardır. Bunlar ***Sandak*** sözünün təsadüfi olmadığını göstərir.

Beləliklə, ***sandak*** - "müqəddəs sayılan dağ" mənasını verir.

Sözün ***şat*** hissəsi türk dillərində, o cümlədən Azərbaycan dilində ***çat(maq), çat*** - "yarıq" mənalarında işlənməkdədir. Lakin qədim türk dilində - xəzərlərdə ***şad*** titul bildirən söz olmuşdur. Müəllif bu sözün "Qədim türk lüğəti"ndə soqdi sözü kimi izahına düzgün etiraz edir.

Sözün son hissəsi ***- ru*** - yönlük-istiqamət halının şəkilçisi kimi izah edilmişdir: ***şat-ru*** - "(doğru) gedən cəsur şahzadə".

Beləliklə, müəllif ***Teuşpa, Tuqdamme*** və ***Sandakşatru*** sözlərini şaman termini kimi türk dilləri bazasında inandırıcı şəkildə izah etmişdir. Müəllif çox doğru deyir ki, hər üç "ad" kimmer dilində həmin adları daşıyanların dövləti keyfiyyətlərinin təsvirinə həsr edilmişdir, hər üçü dolayı yolla "hakim", "çar", "rəhbər" mənası verir.

Bundan sonra müəllif ***kimmer*** etnoniminin və ***qamir*** xoroniminin etimoloji izahı ilə məşğul olmuşdur.

Müəllifin tədqiqatına əsasən, *kimmer* sözü əksər yunan mənbələrində *kimmer,* Dionisii Periegetdə *kimmer/kamarit*, e.ə.VIII əsrə aid akkaddilli mənbələrdə *qimirri/qimirrai*, Bibliyada *qmr /qomer*, Assur mətnlərində *qamir/qamirra* şəklində işlənmişdir. Etnonimin iki kökdən ibarət olduğunu və hər bir söz kökünün aşağıdakı variantlarda bizə çatdığını görürük:

1) ***qim, qom, qam, kimm, kam;***

2***) er, ar, irri, irrai, ir.***

Müəllif çox doğru qeyd edir ki, heç bir çətinlik çəkmədən ***qam*** sözünün şaman, kahin, ***er*** sözünün adam, kişi mənasında işləndiyini və sözün "şaman adam" mənasında türk sözü olduğunu söyləmək mümkündür. Lakin müəllif bununla kifayətlənməmiş, bu sözlərin bütün qədim mənalarını sistem şəklində açıb-tökmüş, şaman anlayış, mərasim və atributlarını əks etdirən sözlərin geniş izahını vermişdir. Dəqiq etimoloji araşdırmalar üçün türk dillərində sait və samit keçidlərinə nəzər salmışdır.

Əsərdə etimoloji məsələlər şamançılıq baxımından izah edilmişdir. Kimmerlərdə şamançılıq çox mühüm keyfiyyət sayılmalıdır. Çünki onlar mağ nəslindəndir. Tarixçilər bu cəhəti görə bilməmişlər ki, ***maq*** və ***qam*** sözləri yalnız metateza ilə fərqlənir. Mağlar daha qədimdir, qamlar onların nisbətən sonrakı nəsilləridir. "Kitabi-Dədə Qorqud"dakı Qam Ğan oğlu Bayındır əslində "Mağ xanın oğlu Bayındır" deməkdir. (Bizim "Azərbaycan dilinin tarixi" kitabına bax, s.263-264) ***Şaman*** sözü də ***q ~ ş*** keçidi ilə *qam* sözündəndir. Odur ki müəllifin dediyi xüsusiyyətlər kimmerlərdə olmalıdır.

Əsərdə qim/qom/qam/kim/kam sözləri ilə fonetik və semantik cəhətdən qohum olan aşağıdakı şaman terminləri vardır:

kamçı (alət adı);
kmıs/kubız/kobuz/kopuz/kaval (musiqi alətlərinin adları);
kamıs/kumra/ kuman/kumkan/küp/kap/qab/küb (qab adları);
kumıs/kumnak/kibik/kibin (içki adları);
kum/kom/qumm/küm/kəb/köp/köb/küb (dalğa, köpük adları);
kömelek/kübələk/gümbə/göbələk (göbələk adları);
kəmik/gəmik/kemik/kabırğa (sümük adları);
kamış/kabıs/komuş/çib/çumak (çubuq adları);
kemi/kimi/kəbə/kəmi/gəmi/kapak (gəmi, qayıq adları);
göbek/köbek/gövek/kavapa (mərkəz, Dünyanın mərkəzi);
kapak/kabak/kapğak/kapğa/kapu (örtük, qapaq adları);
kamar/kəmər/kemer (kəmər adları);
kömür/kəmir/kümir/kömbö/kəməgə (kömür adları);
kamaş/ kem/ kövrədi (korluq, gözü korluq);
kam/kamai/kopsa/kapırlık/kamna/kamlık/kamtıra/
kamda/kabartğan/kumalak/çivi/kovuz/klovuç (şaman və onun hərəkətləri).

Bu sözlərin hamısının kökündə fonetik dəyişmələrlə, dil, dialekt və şivə fərqləri ilə ***qam*** sözü vardır. Bunlar ***qam/kam*** sözünün türk mənşəli olduğuna şübhə yeri qoymur.

Müəllif skif allah adı ***Arqimpas*** antroponiminin ilk iki sözündə sırası dəyişmiş ***kim-er***, yəni ***ar-qim*** sözlərini yaxşı müşahidə etmişdir. ***Arqimpas*** sözünün sonunda ***bas*** "baş" sözü işlənmişdir. Sözün bütöv mənası "şaman adamların başı/başçısı" deməkdir.

Z.Həsənov eyni şəkildə ***kim-er*** sözünün ikinci komponentini - ***er, ar, ir*** sözünü də bütün variantlar üzrə araşdırmışdır.

Türk dillərində ***ər*** sözü fonetik dəyişikliklərlə, müxtəlif mənalarda işlənir: ***ir*** - nəğmə, ***irla*** - oxumaq, ***irq*** - gələcəyi görmə, peyğəmbərlik, ***arva*** - and içmək, ***arvaş*** - and, ***arviş*** - cadugərlik, ***arba*** – sehrbazlıq, ***ar*** - su, ***arı*** - təmizləmək, ***arığ*** - təmiz və s. Bunlar ***ər*** sözünün çoxmənalı türk sözü olduğunu bir daha təsdiq edir.

Qamir dövlət adı da eyni kökdən olub, türk sözü kimi heç bir şübhə doğurmur.

Bir sıra rus, Avropa və Azərbaycan alimlərinin əsassız mülahizələri istisna olmaqla, sakların, skiflərin (əksəriyyət etibarilə), kimmerlərin türk tayfaları olduğuna şübhə yoxdur. Bunun elmi şəkildə əsaslandırılmasında Z.Həsənovun "Çar skifləri" əsərinin və bu dissertasiyasının çox böyük əhəmiyyəti vardır. Bu əsərlər rus və Avropa xalqlarının dillərində yazılmış çox zəngin ədəbiyyatın tənqidi şəkildə öyrənilməsi, şamançılıqla bağlı adət-ənənələrin, mərasimlərin tədqiqi və faktlardan alınan nəticələr əsasında yazılmışdır. Müəllifin nəticələri həqiqətdir: kimmerlər

türk tayfasıdır. Kimmerlərlə çar skifləri qohumdur, dilləri və adət-ənənələri eynidir, eyni mədəniyyətə, eyni dünyagörüşə malik insanlardır. Müəllifin nəzərdən keçirdiyi arxeoloji materiallar da bunu təsdiq edir. Əsərdə kimmerlərin yaşadığı ərazilər, kimmer arxeoloji mədəniyyət və mifləri barədə geniş məlumat verilmiş, daim mənşəyi mübahisəli olan "Koroğlu" dastanının kimmerlərlə bağlı olduğu barədə mülahizələr irəli sürülmüşdür.

Nəticə olaraq qeyd edə bilərik ki, Həsənov Zaur Həsən oğlunun "Kimmerlər və onların Azərbaycan tarixində yeri" adlı bu əsəri namizədlik dissertasiyası hüdudlarından çıxır, öz elmi və praktik dəyərinə görə doktorluq dissertasiyasının tələblərinə yaxınlaşır.

Ağayev Pərviz Yasinəli oğlu. «İngilis və Azərbaycan dillərində təktərkibli ismi cümlələrin sintaktik-semantik təhlili problemləri»
DD. 07.07.2007

Giriş, dörd fəsil, nəticə və ədəbiyyatdan ibarət olan 306 səhifəlik bu əsər aktual bir mövzunun tədqiqinə həsr olunmuşdur.

Dissertasiya rus və Avropa dilçiliyinin nəzəri görüşləri əsasında yazılmışdır. Ona görə də polemika əsərdə güclüdür.

1-ci fəsildə ("Müasir Azərbaycan və ingilis dillərində ismi cümlələrin sintaksem səciyyəsi və strukturu") müəllif "ismi cümlə" kimi ayırdığı dil vahidlərinin komponentləri arasında əlaqələri nəzərdən keçirmiş və tərkib hissələr - nüvə komponentlə digər komponentlər arasında subordinativ, introduktiv, koordinativ, appozitiv əlaqələrin olduğunu müəyyənləşdirmiş, bu əlaqələrin hər birini ayrıca bir bölmədə ingilis və Azərbaycan dillərindən verdiyi nümunələr əsasında ətraflı şərh etmişdir.

İkinci fəsildə ("Sintaksemlər ismi cümlələrin nüvə komponenti pozisiyasında") ismi cümlələrin semantik təhlilinə geniş yer verilmişdir. Bu fəsildə maddi varlıq bildirən sintaksemlərin, maddi varlıq bildirən fəal sintaksemlərin və maddi varlıq keyfiyyətli sintaksemlərin nüvə komponent pozisiyasında təyini kimi əlavə üç mühüm bölmə də verilmişdir.

Dissertasiyanın "Müasir ingilis və Azərbaycan danışıq dillərində birnüvəli qeyri-feli cümlələr" adlı üçüncü fəsli də maraqlıdır.

Burada müəllif əvvəlcə danışıq dilini xüsusi funksional-nitq sferası kimi nəzərdən keçirmişdir. Sonra diqqəti təknüvəli ismi cümlələrin sintaktik xarakteristikasına yönəltmiş, bu cür cümlələrin amerikan strukturalistlərinin əsərlərində, rus dilçiliyində və ümumən xarici ədəbiyyatda izahı, şərhi məsələləri üzərində dayanmışdır. "Dilin morfoloji və sintaktik səviyyələrində vahidlərin ayrılması, fərqləndirilməsi aspektində sin-

taksem analiz" adlı son fəsildə isə ismi təktərkibli cümlələr baş üzvün ifadə üsuluna görə təsnif edilmişdir.

Bu əsərin yalnız son fəsli deyil, bütün fəsilləri xarici ədəbiyyatın təhlili əsasında yazılmışdır. Ona görə də əsərin elmi səviyyəsi yüksəkdir. Qoyulan məsələlər oxucuda yeni fikirlər doğurur. Təbii ki, müəllif çoxlu yeni terminlər işlətməli olmuşdur. Dissertasiyanın dili də aydın və səlisdir. Müəllif ardıcıl olaraq hər bir məsələyə dair ingilis və Azərbaycan dillərindən zəngin paralel nümunələr vermişdir.

Dissertasiyadakı "именные предложения" termini çox geniş mənadadır. Bu termin rus dilindəki "назывные предложения", "номинативные предложения" və bizim dilimizdəki "adlıq cümlələr" terminlərinə uyğun olmayıb, çox müxtəlif dil vahidlərini əhatə edir. Bu termin altında bizim dilçilikdə təktərkibli cümlənin bir növü kimi nəzərdə tutulan adlıq cümlələrlə yanaşı, qoşulma konstruksiyalar, elliptik cümlələr, vokativ cümlələr, söz-cümlə, hətta ismi xəbərli müstəqil cümlələr də nəzərdən keçirilmişdir. Elə cümlələr də vardır ki, onlarda yalnız xəbərlik şəkilçisinin ellipsisi müşahidə olunur. Fikrimizcə, bunların hamısını bir sistem şəklində təktərkibli cümlələrə aid etmək olmaz. Məsələn, söz-cümlələr üzvlənməyən cümlə tipi olduğundan onu nə təktərkibli, nə də cüttərkibli cümlələrə aid etmək olar.

Bütövlükdə müəllifin nəzərdən keçirdiyi cümlələr qeyri-feli, yəni ismi cümlələrdən ibarətdir.

Qeyd edilən sintaktik konstruksiyalar Azərbaycan dilçiliyində də fərqləndirilir. Müəllif bu barədə girişdə məlumat verə bilərdi. Digər tərəfdən, verilmiş nümunələrin bir çoxunu təktərkibli cümlə hesab etmək də doğru deyildir. Tutaq ki, "Diqqət! Diqqət!" tipli elliptik cümlələrdə "edin" sözü təsəvvür olunur: ***Diqqət edin***! Belə olduqda "Siz" sözü də təsəvvür edilir və cütttərkibli cümlə alınır.

Dissertasiyanın anlaşılmasında çətinlik törədən mühüm bir cəhət təhlil prosesində nəzərdə tutulan faktların işarələnməməsidir. Hətta bir sıra səhifələrdə (s.84, 120 və s.) müəllif özü "выделенные слова" desə də, heç nə fərqləndirilmir. Nəzərdə tutulan dil faktlarını kursivlə işarə etmək, fərqləndirmək yaxşı olardı.

İndi artıq bizim müstəqil Azərbaycan dilçiliyi üçün "В отечественной лингвистике подобную точку зрения развивали А.М.Пешковский, А.А.Потебня" demək olmaz.

Bu qeydlərə baxmayaraq, dediyimiz kimi, dissertasiya yüksək elmi-nəzəri səviyyədə yazılmışdır, doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir. Əsərin monoqrafiya şəklində çapı faydalı olardı.

Elman Savad oğlu Mirzəyev. «Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası» ND. Opp.r. 15.03.2008

Bu dissertasiya bir neçə cəhətdən əhəmiyyətlidir. Hər şeydən əvvəl, Lənkəran və Astara əraziləri subtropik zonalar kimi ölkəmizin başqa ərazilərindən fərqlənir. Bu bölgə özünəməxsus təsərrüfatı, adət-ənənələri olan bir ərazidir, ona görə də tədqiqi nəzərdə tutulan terminoloji leksika ilə zəngindir. Onların qeydə alınması vacib bir zərurət kimi qarşıda dururdu. Çünki nəzərdə tutulan terminoloji leksika birdən-birə yaranmamışdır və bu ərazilərdə yaşayan insanların çox qədim ənənələrinin məhsuludur. Digər tərəfdən, elmin, texnikanın inkişafı bu ənənələrin çoxunun sıradan çıxmasına səbəb olur, təsərrüfat ənənələri ilə birlikdə terminoloji leksika da unudulur, yaddan çıxır., böyüməkdə olan nəsillər - o nəsillər ki, min illər boyu göz açıb həmin ənənələri görüb, o sözləri öyrənib, o nəsil indi çox sürətlə o ənənələrin bir çoxunu şəhər mədəniyyəti ilə əlaqədar yaddan çıxarır, yadırğayır. Gənclərin çoxu dana ilə buzovu, cöngə ilə düyəni fərqləndirə bilmir.

Mühüm bir cəhət də budur ki, mövzu yaxşı ələ düşüb, dediyimiz ənənələrə yaxşı bələd olan, onları diqqət və məsuliyyətlə öyrənməyə çalışan bir gənc tədqiqatçı tərəfindən araşdırılıb. Bütün bunlar dissertasiyanın xeyrinədir.

Elman Mirzəyev, yaxşı haldır ki, işə kor-koranə girişməyib. İlk növbədə ərazilərin tarixi keçmişinə, təsərrüfat həyatına nəzər salıb, rayonların ənənəvi iqtisadiyyatını öyrənib. Təbii ki, öyrənilməli olan terminoloji leksika bu sahələrlə bağlı olmalıdır və ona görə də ilk növbədə bunları öyrənməyi tələb etmişdir. Bu başdan qeyd edə bilərik ki, müəllif faydalı bir əsər ortaya çıxarmışdır.

140 səhifəlik bu dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısı və lüğətdən ibarətdir.

Müəllif material toplayarkən Astara və Lənkəranın bütün kəndlərini gəzməli olmamış, başlıca olaraq, yerli əhalisi türklərdən ibarət olan Balıqçılar, Darquba, Göyşaban, Qumbaşı, Lənkəran, Liman, Nərimanabad, Sütəmurdov, Veravul (L ə n k ə r a n), Astara, Qapıçıməhəllə, Məcidməhəllə, Şahağac (A s t a r a) kənd və qəsəbələri və bir sıra digər əraziləri öyrənməli olmuşdur.

Dissertasiyanın əsəasını 65 səhifəlik birinci fəsil - "Təsərrüfat sahələri ilə bağlı terminoloji səciyyə daşıyan leksika" fəsli təşkil edir. Dissertant birinci fəslin əvvəlində yazır: "Bölgənin Xəzər dənizi sahilində yerləşməsi, çayların və şirin su hövzələrinin çox olması ilk növbədə Lənkəran və Astara rayonlarında, əsasən, balıqçılıq, çəltikçilik təsərrüfatlarının inkişafında əsas rol oynamışdır. Belə ki Lənkəran – Astara böl-

gəsinə həsr olunmuş müxtəlif tarixi-etnoqrafik ədəbiyyatda da tarixən bölgənin iqtisadiyyatında bu təsərrüfat sahələrinin başlıca yer tutduğu haqda məlumatlara rast gəlirik".(9) Elə buna görə də müəllif bu cür spesifik sahələrin terminoloji leksikasının araşdırılmasını əsas diqqət mərkəzinə qoymuşdur. Odur ki əsərdə balıqçılıq təsərrüfatı və balıq ov alətləri ilə bağlı terminoloji leksikanın tədqiqi ön plana çəkilmişdir. İmkan daxilində terminoloji leksikanın mənşə məsələsini araşdırmağa çalışan dissertant balıqçılıq təsərrüfatı ilə bağlı bu ərazilərdə XIX əsrin əvvəllərindən başlayaraq artmış rusizmlərin tədqiqinə də xüsusi yer vermişdir.

Lənkəran - Astara əraziləri dəniz sahili və şirin sulu çaylar, göllər əraziləri olduğu üçün bu ərazilərdə quşçuluq təsərrüfatı, xüsusilə ov quşlarından istifadə məsələsi geniş yer tutur. Ona görə də müəllif çox qədim dövrlərdən bəri bu ərazilərdə əhalinin istifadə etdiyi quş ov alətləri, xüsusilə vəhşi quşları ovlamaq üçün istifadə olunan tor növləri barədə terminoloji leksikanı toplayıb analiz etmiş, müxtəlif quş növlərinin və bir çox hallarda quşların daxili orqanlarının adlarına da qeydə almışdır.

Təbii ki, qeyd etdiyimiz subtropik ərazilər heyvandarlıq təsərrüfatının inkişafı üçün də tarixən geniş imkanlar yaratmışdır. Odur ki birinci fəslin 3-cü bölməsini müəllif heyvandarlıqla bağlı terminoloji leksikanın tədqiqinə həsr etmiş, bir sıra əlamətlərinə, xüsusilə rənginə, yaşına, cinsinə, xəstəliklərinə görə fərqlənən camış, at, qoyun növlərini və həmin sahələrlə bağlı terminoloji leksikanı diqqətlə araşdırmışdır.

Azərbaycanın və xüsusən nəzərdən keçirilən ərazilərin təbiəti elədir ki, bu ərazilərdə təsərrüfatın hər cür sahəsini inkişaf etdirmək mümkündür. Odur ki müəllif xüsusi bir bölmədə Lənkəran - Astara ərazilərində baramaçılıq təsərrüfatı və bu sahə ilə bağlı qədim terminoloji layın tədqiqi ilə məşğul olmuş, eyni zamanda arıçılıq, bostançılıq, əkinçilik sahə terminlərini də toplayıb tədqiqata cəlb etmişdir. Məlumdur ki, bu ərazilərin daha səciyyəvi təsərrüfatı çəltikçilikdir. Çəltik əkini üçün hazırlanmalı əkinçilik alətləri, çəltik növlərinin adları və onlardan hazırlanan məhsulların adları dissertasiya üçün maraqlı material vermişdir.

Lənkəran - Astara bölgəsi bitkilər aləmi ilə də bizim başqa ərazilərdən fərqlənir. Meyvə növlərinin, meyvəsiz ağac növlərinin, məişətdə istifadə olunan bitkilərin, gül növlərinin, yabanı bitkilərin adları elmi tədqiqatdan əlavə, hər bir oxucu üçün də maraqlıdır. Müəllif bunları çox diqqətlə toplamış, araşdırmalarını faydalı istiqamətdə aparmışdır.

Bir cəhəti də qeyd etmək lazımdır ki, tədqiqat prosesində dissertant hamıya məlum olan ədəbi dil faktları ilə deyil, həqiqi şivə materialı əsasında ədəbi dildən fərqli leksikanın aşkara çıxarılması ilə məşğul olmuşdur.

Fəslin sonunda müəllif təsərrüfatla bağlı terminoloji leksikanın quruluşundan danışmış, sözlərin quruluşca sadə, düzəltmə və mürəkkəb

olduğunu qeyd edərək, xüsusən sözdüzəldici şəkilçiləri imkan daxilində diqqətlə ayırmağa çalışmışdır.

Bu fəsil genişliyi və material zənginliyi ilə seçilir.

Dissertasiyanın ikinci fəsli "Peşə-sənət sahələri ilə bağlı terminoloji səciyyə daşıyan leksika" adlandırılmışdır.

Bölgənin təsərrüfatı spesifik xüsusiyyətlərə malik olduğu kimi, burada kulinariya məsələlərində də başqa ərazilərdən fərqli cəhətlər çoxdur. Bu cəhət ilk növbədə özünü balıqla, düyü ilə, ov quşları ilə bağlı xörək adlarında, onların hazırlanma üsullarında göstərir. Balıqdan hazırlanan səciyyəvi yemək adları, mal və qoyun ətindən, ev və çöl quşlarının ətindən hazırlanan xüsusi yemək adları sistemli şəkildə, diqqətlə öyrənilmişdir. Düyüdən, müxtəlif bitki məhsullarından hazırlanan yemək adları, müxtəlif şirniyyat növlərinin adları - bütün bunlar ərazinin qədim və zəngin tarixindən, təbiətindən, mədəni-məişət qaydalarından xəbər verir.

Aydındır ki, əhali yalnız yeməklə məşğul olmamış, subtropik təbiətin zənginləşməsində əməyini əsirgəməmişdir. Ərazidə bağçılıq, çəltikçilik, balıqçılıqla yanaşı, toxuculuq işi də geniş inkişaf etmişdir. Odur ki bu fəsildə toxuculuq, dulusçuluq, misgərlik təsərrüfatı ilə bağlı leksika xüsusi olaraq diqqətə çatdırılır.

Müəllif əvvəlki fəsildə olduğu kimi, bu fəsildə də terminoloji leksikanın quruluşuna diqqət yetirmiş, peşə-sənət sahələri ilə bağlı leksikanı struktur baxımdan diqqətlə araşdırmalı olmuşdur.

Dissertasiya işi yalnız terminoloji leksikanın təsvirindən ibarət deyilditr. Müəllif hər iki fəsildə etimoloji araşdırmalara müəyyən yer vermiş, bir sıra sözlərin mənşəyini, necə əmələ gəldiyini, şivə tələffüzündə tədricən necə dəyişikliklərə uğradığını izah etmişdir. Bu cəhətə dissertasiyanın, demək olar ki, bütün bölmələrində rast gəlmək olur. Bu sahədə araşdırmalar göstərir ki, yerli talışlarla qonşuluq nəticəsində Azərbaycantürk əhalisi İrandilli tayfalara çoxlu söz verdiyi kimi, ünsiyyət prosesində onların bir çox səciyyəvi terminoloji sözlərini mənimsəməli olmuşdur. Müəllifin bu sahədə tədqiqatı obyektiv xarakter daşıyır və o, dilçilik nəzəriyyəsi, dil faktları, ikidilli və izahlı lüğətlər əsasında öz fikirlərini səliqə ilə əsaslandırmağa çalışmışdır. Bunlar əhalinin uzun müddətdən bəri birgəyaşayışı nəticəsində meydana çıxan terminoloji leksikadır və araşdırmalar təbii təsir bağışlayır.

Dissertasiyanın ciddi mübahisə doğurmayan bir sıra çatışmazlıqlarını da qeyd etmək olar.

1.Dissertant çox zəngin lüğət materialı toplamışdır. Şübhəsiz, bunların hamısının etimoloji təhlilini verə bilməzdi. Bir sıra çətin sözlərin mənasını müvəffəqiyyətlə açа bilmişdir. Lakin lüğət materialı içərisində elə sözlər var ki, onların izahı bir növ öz üzərindədir, yəni çox asandır. Müəllif elələrini diqqətdən yayındırmamalı, sözarası mənasını izah etməli idi. Məsələn:

Gənc - "səl" torunda quşun düşdüyü kisəşəkilli hissə (32). İzah oluna bilərdi ki, xəzinə mənasındadır - torun əsas məhsul olan hissəsi, xəzinəsi.

Çipçik - qurma balıq torlarını bərkitmək üçün istifadə edilən və uzunluğu 1-1,2 m olan iti uclu ağac aləti. V.İ.Dalın lüğətindən gətirilən "чипчикъ" sözü ilə izah edilir. Bizim dildəki *çivcik* - balaca çiv sözüdür.

Hovyarpağı/hovotu - dərman bitkisi, bağa yarpağı.(63) *Hov, hovlamaq* – soyuqlamaqdır. Soyuqdəymə üçün istifadə olunan yarpaq mənasındadır.

Pelçə - əkinçilikdə istifadə edilən kiçik bel(44) ***- p>-b*** keçidi ilə *bel* sözü.

Başdığ, dişdığ sözlərində *-dığ* hissəsi (69) *-lıq* şəkilçisidir və s.

2.İmla və üslub cəhətdən səlis olan bu əsərdə də tire ilə defis fərqləndirilmir. (71 və s.)

3.Müəllifin səlis ədəbi dilində bir şivə sözü çox ürəkdən işlədilir:

…üzərinə az miqdarda şirni əlavə edilərək ***vam odda*** dəmə qoyulur. Qazandan süzülmüş suya tökülərək ***vam odda*** qaynadılır.(89 və s.)

4.Bir sıra sözləri digər dialekt və şivələrlə müqayisə etmək olardı.

Sinəçü/anqəçülə - boyunduruğun heyvanın başından çıxmaması üçün yanlarına keçirilən 50-60 sm uzunluğunda ağac alət. (44) Dəmirdən də olur və Qarabağ şivələrində ***samı*** adlanır.

Çibin - bal arısı; başqa şivələrdə ***milçək***.

Tumcar sözündə ***-car*** şəkilçisi. Qarabağ şivələrində ***toxmacar*** sözü.

Bəsdi - saxsı qab adı (87). Yalnız Lənkaran – Astara şivələrinə aid deyil, başqa şivələrdə də işlədilir.

Pöhrə - körpə bal arısı (42). Başqa şivələrdə *körpə ağac*.

5.İzah zamanı baş sözlər kursivlə verilməli idi. Kursivlə verilmədiyindən çox zaman mətndə nəyin izah olunduğu ilk baxışda seçilmir.

Əsər çox səliqəlidir və nadir hallardı imla səhvinə, üslub qüsuruna rast gəlmək olur. Bu hal müəllifin elmi işə marağını göstərir, onun həqiqi mənada elmi işçi olmaq iradəsinin nəticəsi kimi təzahür edir.

Dissertant elmi ədəbiyyata yaxşı bələddir. Hiss olunur ki, ana dilindən əlavə, talış dilini, fars və rus dillərini də öyrənmişdir. Rus dilinin dialektoloji lüğətlərindən, V.Dalın lüğətindən istifadəsi onun elmi görüş dairəsinin genişliyini göstərir. Müqayisələr prosesində fars, tacik, kürd, xələc və s. kimi dilləriin materiallarına əsaslanması, türk dillərindən misallar gətirməsi onun elmi ədəbiyyata marağını göstərir. 6 adda məqalə çap etdirmişdir. Bunlar və avtoreferat dissertasiyanın məzmununu əsasən əhatə edir.

Əsər həm nəzəri, həm də praktik cəhətdən əhəmiyyətlidir. Terminoloji lüğətlərin hazırlanmasında dissertasiyanın sonunda verilmiş lüğət faydalı olacaqdır. Əsərin bütövlükdə çap olunması da faydalı olardı.

Elman Savad oğlu Mirzəyevin "Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası" mövzusunda əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Gülnarə Baba qızı Əhmədova.
«Temporallığın mətnyaradıcı xüsusiyyətləri
(ingilis və Azərbaycan dillərinin materialları əsasında)»
ND. Opp.r. 15.06.2008

İndiki dövrün çox pis bir cəhəti də budur ki, Sovet hökuməti süqut edən kimi, əksəriyyət fanatizmə qayıtdı. Deməli, insan ağıllanmayıb. Elm başqa şey deyir, din başqa şey. Bu əsərin yaxşı cəhəti odur ki, müəllif dini təbliğata uymamış, materialist görüşdən çıxış etmişdir: "Materialist fəlsəfə məkan və zamanın obyektivliyini qəbul etməklə belə hesab edir ki, məkan və zaman xaricində reallıq ola bilməz. Çünki həm məkan, həm də zaman materiyadan ayrı təsəvvür edilə bilməz". Tamamilə doğrudur və müəllif belə bir ideyaya əsaslanmadan mətnin strukturunu və bu sahədə temporallığın rolunu öyrənərkən düzgün nəticəyə gələ bilməzdi.

Mövzu maraqlıdır. Mətn sintaksisi məsələsi bizim dilçilikdə yeni olduğundan mətnin qurulması prosesində zaman məsələsinin rolunun tədqiqi aktualdır.

Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarət olub, ümumi qayda əsasında yazılmış, lazımi tələblərə müvafiq tərtib edilmişdir.

Birinci fəsildə ("Temporallıq mətndaxili əlaqəlilik növü kimi") müəllif temporallıq anlayışı, onun fəlsəfi və linqvistik xarakteri barədə məlumat vermiş, temporallıq və zaman kateqoriyasının hüdudlarını müəyyənləşdirmiş, mətnin tərkib hissələrinin əlaqələndirilməsində temporallığın rolunu nəzərdən keçirmişdir. İstiqamət doğrudur və müəllif əsas məsələyə keçməzdən əvvəl qeyd etdiyimiz məsələləri aydınlaşdırmalı idi. Lakin dissertant bu fəsildə bir sıra əlavə mühüm məsələlərə də münasibət bildirmişdir.

Mühüm məsələlərdən biri obyektiv və subyektiv zamanın, onların fərqli cəhətlərinin müəyyənləşdirilməsidir; obyektiv və qrammatik zamanın fərqləndirilməsi də bu cəhətdən çox vacib idi. Qrammatik zaman formaları hadisə zamanına və həmin hadisə ilə bağlı nitq anına görə müəyyən edilir. Bu cəhət zaman müstəvisini keçmiş, indiki və gələcək zaman kimi üç növə ayırır. Təbii ki zaman formaları hadisə zamanı ilə nitq anı arasındakı məsafə ilə müəyyənləşir. Müəllif bu nöqtədə felin zaman kateqoriyasının digər kateqoriyaları ilə əlaqə və münasibətinə və zaman anlayışının ifadəsi üçün zaman zərflərinin, zaman bildirən sözlərin roluna xüsusi yer vermişdir. Zaman kateqoriya əlamətləri ilə birlikdə işlənən və ya sərbəst çıxış edən temporallıq vasitələrinin zaman anlayışını dəqiqləşdirməkdə, konkretləşdirməkdə roluna ingilis və Azərbaycan dili materialları əsasında lazımi yer vermişdir. Bu cəhətdən ***often, sometimes,***

always, həmişə, bəzən, hərdən kimi temporallıq vasitələrinin izahı müəllif fikrini dəqiqləşdirməyə kömək etmişdir.

Bu fəsildə dissertant bir sıra rus və Avropa alimlərindən misallar gətirərək mətnin nə demək olduğunu, onun ölçüsünü müəyyənləşdirməyə çalışır və aydın olur ki, ümumən dilçilikdə bu barədə vahid fikir yoxdur və mətnin sərhədləri məsələsi hələ də açıq qalmaqdadır. Mətnin nə olduğu hələ də dəqiq deyil. Mətni "istənilən uzunluqda şifahi və ya yazılı nitq parçası", "mənalı vahidlərin ardıcıllığı" və s. hesab edənlər var.

Hiss olunur ki, müəllif mətn dedikdə makromətnləri nəzərdə tutur, abzasları, parçaları onun tərkib hissələri hesab edir, mətn üçün heç bir hüdud nəzərə almır, odur ki müəllif fikrinə görə, mətn həcm etibarilə kiçik də ola bilər, böyük də: "Zənnimizcə, mətnin maksimal həcmi barədə məsələnin qoyuluşunun özü məqsədəuyğun deyil".(34) Mətnin strukturunun cümlə əsasında tədqiqi həlledici sayılmır. (34)

Mətnin öyrənilməsi məsələsinə xüsusi fikir verən müəllif müəyyən edir ki, mətni qrammatikanın tədqiqat obyekti hesab edənlərlə yanaşı, onu ritorikaya, üslubiyyata aid edənlər vardır. Bu mülahizələri araşdıraraq, fikrimizcə, dissertant mətni öz istiqamətlərinə görə həm qrammatik, həm də üslubi cəhətən öyrənməyin mümkünlüyü, lazımlılığı qənaətinə gəlməklə düzgün yol tutmuşdur. Cümlə - söyləm mətnə aid bir çox xüsusiyyətlərin ən kiçik daşıyıcısı olduğundan mətnin öyrənilməsində onun mühüm rolu şəksizdir. Müəllif mətnin azı iki cümlədən təşkili barədə fikirlərlə yanaşı, bəzən bir cümlənin də mətn sayılması fikrinə əsaslanaraq mətnin həm aşağı səviyyədə, həm yuxarı səviyyədə həcminin dəqiq müəyyən edilməsinin qeyri-mümkünlüyü qənaətindədir.

Dissertantın söyləmə yanaşma üsulu da bir qədər fərqlidir: "Əsas mətn vahidi olan söyləm cümlənin bir hissəsini, bütöv cümləni, cümlələr qrupunu, mürəkkəb sintaktik bütövü özündə ehtiva edə bilər". (39) Bunlar göstərir ki, hələ mətn sintaksisi ilə bağlı dəqiqləşdirilməli məsələlər çoxdur və hazırkı fikirlərdə bir mücərrədlik var.

Dissertant sintaktik bütövlərin başlanğıc, orta və son mərhələlərdən ibarət olduğunu qəbul edir və bir cəhəti xüsusilə doğru qeyd edir: "Əgər son mərhələnin konkretləşdirici mahiyyətdə olması abstrakt başlanğıc mərhələ ilə şərtlənirsə, abstrakt sonluq əksinə - konkret başlanğıc nöqtəsi kimi özünü göstərir". (41) Bu hal makromətnlərə deyil, sintaktik bütövlərə aiddir. İki cümlədən ibarət olan sintaktik bütövlərdə orta hissə başlanğıc və sonluğun məna dərinliyində hifz olunur. Odur ki sadə mətnlərdə üç mərhələnin hər üçünü tapmaq mümkün sayılmır. İlkin mərhələ çox vaxt implisit şəkildə dərk oluna bilir.

Dissertant mətnin təşkilinin müxtəlif vasitələr hesabına mümkün olduğu fikrini qəbul etməkdə haqlıdır. Adların və ya fellərin ayrılıqda rolu məsələni təmin etmir. İ.R.Qalperinə əsaslanaraq həmin vasitələrin

bağlayıcılar, təkrarlar, deyktik vasitələr, retrospeksiya, prospeksiya və sairdən ibarət olduğunu göstərir. Bunlarla yanaşı, mətnin koqnitivliyi mətn komponentlərinin zaman birliyi, məkan birliyi, hərəkət birliyi ilə də əlaqədardır. Müəllif bu məsələləri aydınlaşdırmaqla mətnyaradıcı vasitələrdən biri kimi, temporallığın şərhinə keçmişdir.

Dissertasiyanın ikinci fəsli "Leksik-qrammatik temporallıq göstəricilərinin mətnyaradıcı amil kimi rolu" adlanır. Bu fəsil temporallığı təmin edən zaman ardıcıllığı və eynizamanlılıq məna əlaqələrinin şərhi üzərində qurululmuşdur. Məlumdur ki, mətnlər ya statik şəkldə – eynizamanlılıq əsasında qurulur, yaxud da ardıcıllıq üzrə əlaqələnir. Mətn proqressiyası daha çox zaman ardıcıllığına əsaslanır. Bir hissəsi zaman eyniliyi, bir hissəsi zaman ardıcıllığı üzrə qurulan qarışıq mətnlər də vardır. Dissertant əvvəlcə mətnin tərkib hissələrini zaman ardıcıllığı üzrə nəzərdən keçirmiş, sonra statik mətnlərə diqqət yetirmişdir. Lakin bir cəhəti qeyd etməliyik ki, bizim mövcud ədəbiyyatda daha çox konkret bir mətn parçasının daxili quruluşu öyrənilmiş, zaman eyniliyi və ya ardıcıllığı konkret bir mətn parçası üzrə araşdırılmışdır. Dissertant məsələni genişləndirmiş, konkret bir mətn kəsiyində deyil, makromətnlərin tərkib hissələri, mətnin parçaları, abzasları arasında əlaqələrin yaranmasında temporallığın rolunu araşdırmışdır. Bu da maraqlıdır. İngilis dilində, bizim dilimizdə bağlayıcıların, xüsusən ***və, and*** bağlayıcılarının abzasın əvvəlində işlədilməsi ilə əvvəlki və sonrakı mətnləri əlaqələndirmək sahəsində rolu zəngin misallarla müqayisəli öyrənilmişdir. Zaman ardıcıllığı dedikdə, məsələyə geniş aspektdən yanaşılmış, mətn proqressiyası əsasında, yəni hadisələrin ardıcıl əlaqəsi əsasında mətnin inkişafı araşdırılmışdır. Bu ardıcıllıq zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdəki ardıcıllıqdan fərqlidir və iri mətnləri əhatə edir. Lakin müəllif bağlayıcılarla kifayətlənməmiş, zaman mənalı sözlərin, zaman zərflərinin, digər vasitələrin bu sahədə roluna ətraflı nəzər salmışdır. Zaman ardıcıllığı çox vaxt zaman zərfliklərinin ardıcıl yerləşdirilməsi ilə təmin olunur. Təbii ki, bağlayıcı və zərflər-zərfliklər temporallığa xidməti ilə yanaşı, tematik proqressiyaya da xidmət edir.

Təkcə bağlayıcılar deyil, ***one morning, autumn, summer, winter, at ten - bir səhər, qışda, yayda, payızda, sonra*** kimi sözlərin mətnin tərkib hissələrinin əlaqələndirilməsində həqiqətən mühüm rolu var.

Mən deməyə söz tapmadım və bu məni daha da qəzəbləndirdi. Axşama yaxın hava yenə də tutuldu. Gecədən bir az keçmiş təkrar yağış başladı.Səhər biz oyananda yağış kəsməmişdi. (İ.Əfəndiyev) – göründüyü kimi, bu mətnin qurulmasında *axşama yaxın, gecədən bir az keçmiş, səhər* söz və ifadələrinin mühüm rolu vardır.

Müəllif yazır: "Hər bir mətn-diskursda presuppozisiya fondu mövcuddur və buraya dünya haqqında fon bilikləri, yəni mətn-diskursu əhatə

edən kontekst haqqında bilik daxildir. Kommunikasiya prosesinin hər bir iştirakçısı presuppozisiya fonduna malikdir və bu fond mətn inkişaf etdikcə genişlənir". (66)

Bunlar doğrudur. Lakin müəllif bu fondu implisit deyil, eksplisit baxımdan nəzərdən keçirmişdir. Ona görə də fəsildə bağlayıcıların, zərflərin, zaman bildirən sözlərin, fel zamanlarının mətnyaratma imkanlarına daha geniş yer verilmişdir. Bu hal retrospeksiya ilə yanaşı, prospeksiyaya da aiddir. Mətnin keçmiş və gələcəklə əlaqəli inkişafı daha çox eksplisit izahını tapmışdır.

Üçüncü fəsil "Zaman budaq cümləsinin mətnyaradıcı xüsusiyyətləri" adlanır. Burada ingilis və Azərbaycan dillərində zaman budaq cümləsinin mətnin tərkib hissələrini əlaqələndirməkldə rolu öyrənilmişdir. Burada müəllif ilk növbədə diqqət yetirib müəyyən etmişdir ki, zaman zərfliyindən fərqli olaraq, zaman budaq cümləsi temporal əlaqəni birbaşa deyil, dolayı yolla - baş cümləni izah etməklə yerinə yetirir. Və müəyyən edə bilmişdir ki, postpozisiyadakı budaq cümlələr baş cümlənin semantik cəhəti ilə daha möhkəm bağlı olduğu halda, prepozitiv baş cümlələr daha çox əvvəlki mətn ilə bağlanır.

Baş və budaq cümlənin zaman məzmunu eyni olduğu kimi, müxtəlif də ola bilir və müəllif bunları aydınlaşdırarkən bir növ ingilis dili faktları ilə Azərbaycan dili faktları təcrid olunmuş şəkildə öyrənilmişdir.

Dissertasiyada nöqsan kimi görünən cəhətlər də vardır:

1.Əsərdə mətn sintaksisi ilə bağlı çoxlu yeni termin işlənmişdir. Bəzən müəllif onların mənasını izah etmişdir. Lakin bu prinsipi ardıcıl davam etdirmir.

2.Bəzən feli sifət tərkibi budaq cümlə hesab olunmuşdur: ***Səhər tezdən oyandığım zaman*** *Adil çadırda yox idi*.(99) Və ya təsriflənən fel feli bağlama hesab olunmuşdur. *Şəhərdən bir-iki verst aralanmamışdılar ki, kəndlilər daldan çığırtı eşidib gördülər ki…* cümləsində ***ki*** bağlayıcısının feli bağlamadan sonra gəldiyi göstərilir. (99-100)

3.Bəzən də zaman budaq cümləsi adına başqa budaq cümlə verilmişdir: İt … kəndlərini bu vaxtacan öz içindən görürmüş ki, ona belə tanış gəlirdi hər şey. (99) Və s. Belə cümlələr azdır.

Əsərdə belə fikirlər də var: "…cümlə öz-özlüyündə heç bir bitkin mənaya malik deyil və əgər digər elementlərdən təcrid edilmişsə, başa düşülə bilməz. Başqa sözlə, o yalnız mətn çərçivəsində konkret hadisə ilə bağlı öz bitkin mənasını əldə edir…." (38) Cümlənin əsas əlamətlərindən biri bitkinlikdir. Cümlə azçox bitmiş fikir ifadə etməlidir və edir də.

Mətn sintaksisi çətin sahədir. Ona görə də dissertasiyada bəzi mətləblər o dəqiqə aydın olmur. Müəllif bu sahəni dissertasiyada göstərilən dərəcədə mənimsəmişdirsə, o bu sahədə yaxşı bir mütəxəssis sayıla bilər. Əsərin elmi aparaturası zəngindir. Nəzəri və praktik əhəmiyyətini

xüsusi qeyd etmək olar. Avtoreferat və çap olunmuş məqalələr əsərin məzmununu əsasən əhatə edir.

Gülnarə Baba qızı Əhmədovanın "Temporallığın mətnyaradıcı xüsusiyyətləri (ingilis və Azərbaycan dillərinin materialları əsasında" mövzusunda əsəri namizədlik dissertasiyasının tələblərinə cavab verir və müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Tahirov İlham Mikayıl oğlu. «Dildə temporallıq sahəsi (Azərbaycan və ingilis dillərinin materialları üzrə)» DD.Opp.r. 15.11.2008

5 fəsildən ibarət olan 283 səhifəlik bu dissertasiya əsas fəsillərlə yanaşı, zəngin elmi ədəbiyyatı, ingilis və Azərbaycan dillərində olan temporal leksikanın lüğətini, temporallığın ifadə vasitələrinin intensiv işlənmə sxemlərini əhatə edir.

Dissertasiya aktual bir mövzunun tədqiqinə həsr olunmuşdur. Müəllif bizim dilçilikdə ilk dəfə olaraq, zaman anlayışını geniş şəkildə, bütün təzahür formaları ilə birgə izah etmişdir. Obyektiv zaman, perseptual zaman və dil zamanı – linqvistik zaman anlayışları ətraflı izah olunmuş, zaman anlayışının ümumi nəzəri məsələlərinin şərhinə geniş yer verilmişdir. Bizdən asılı olmayaraq obyektiv aləmin özündə mövcud olan zamanın insan təfəkküründə inikası perseptual zamanı, obyektiv və perseptual zamanın nitq vasitələri ilə dildə ifadəsi dil zamanını, linqvistik zamanı yaradır. Müəllif zəruri olaraq ***dil zamanı, linqvistik zaman, bədii zaman, qrammatik zaman, temporallıq*** və s. kimi terminlərin semantik yaxınlıq və fərqlərini aydınlaşdırmalı olmuş, oxucuya bu terminlərin spesifik elmi semantikası barədə ətraflı məlumat vermişdir. Müəllif obyektiv zamanın əsas xüsusiyyətlərini - onun birölçülü olduğunu, dönməzliyini və sonsuzluğunu kifayət qədər aydınlaşdırmaqla bərabər, obyektiv və qrammatik zamanın oxşar və fərqli cəhətləri üzərində də lazımi şəkildə dayanmışdır. Bütün xalqlarda eyni cür dərk olunan, keçmiş, indiki və gələcək zamanları əhatə edən obyektiv zaman, məlumdur ki, hər bir xalqda onun dərketmə və nitq xüsusiyyətlərinə görə fərqli şəkildə ifadə olunur.

Azərbaycan və ingilis dili materialları əsasında yazılmış bu dissertasiyanın mühüm bir keyfiyyəti də ondan ibarətdir ki, müəllif dil zamanından, linqvistik zamandan danışarkən yalnız feldəki zaman kateqoriyası ilə kifayətlənməmişdir. Feldəki zaman şəkilçiləri ilə yanaşı, zaman anlayışı bildirən leksik vahidlər – zaman zərfləri, zaman bildirən isimlər, feli bağlama və feli bağlama tərkibləri, eyni zamanda vaxt anlayışının sintaktik ifadə vasitələri - söz birləşmələri, cümlə tipləri də nəzərə alınmışdır. Daim maraqlı olmuşdur ki, zaman anlayışlarının morfoloji ifadə

vasitələri ilə leksik və sintaktik vasitələri arasında əlaqə və münasibət nədən ibarətdir, leksik və sintaktik vasitələr varsa, morfoloji vasitələr nəyə xidmət edir və ya əksinə. İ.Tahirov bizim dilçilikdə ilk dəfə olaraq bu cəhəti diqqətlə araşdırmış, leksik və sintaktik vasitələrin morfoloji vasitələri dəqiqləşdirmək, konkretləşdirmək üçün təşəkkül tapdığını aydınlaşdırmışdır. Odur ki dissertasiyada leksik, morfoloji və sintaktik vasitələrin hər birinə ayrıca bir fəsil həsr edilmişdir.

Dissertasiyanın girişi səliqəli işlənmiş, ənənəvi standart forma bir qədər də təkmilləşdirilmişdir.

Birinci fəsil «***Zaman kateqoriyasının ümumi nəzəri məsələləri***» adlanır. Müəllif artıq buradan başlayaraq, zaman kateqoriyası dedikdə, yalnız felin zamanlarını deyil, bütövlükdə zaman anlayışını ifadə edən hər cür leksik və qrammatik vasitələri toplu halda tədqiqata cəlb etmişdir. Bu fəsildə zamanın çoxaspektliliyi, obyektiv, perseptual və konseptual zaman anlayışları, zaman və temporallıq məsələsi, linqvistik, qrammatik və dil zamanları, zaman momenti, nitq momenti və s. kimi ümumi nəzəri məsələlər əhatə olunmuşdur.

Zaman mövzusu geniş mənada beynəlxalq mövzudur, demək olar ki, bütün elmlərin maraqlandığı sahədir, buna görə də 1966-cı ildə zamanın öyrənilməsi ilə əlaqədar beynəlxalq cəmiyyət yaradılmış və həmin cəmiyyət 10 cilddən artıq əsər çap etdirmişdir.

Tədqiqatdan aydın olur ki, zamana çox müxtəlif tərif̧lər verilmişdir. Əsas tərif̧lərdə onun materiyanın hərəkət və məkanla birlikdə mühüm atributlarından biri olduğu göstərilmişdir: «Zaman materiyanın atributu və ya varlıq forması olub, ətraf aləmdə varlığın mövcudluğunun sürəkliliyini və bütün maddi sistem və proseslərin vəziyyətinin dəyişməsi ardıcıllığını ifadə edir».

Məlumdur ki, insan yeganə varlıqdır ki, keçmişi yaddaşında saxlayır və gələcək haqqında düşünür. Baxmayaraq ki insan özü də maddi varlığın bir hissəsidir, o, təfəkkürə, düşüncə tərzinə malik olması ilə həm də bir subyekt kimi çıxış edir. Perseptual zaman obyektiv şəkildə mövcud olan zamanın, real zamanın insan beynində inikasıdır. Dil zamanı isə hərəkətin real icra zamanı ilə nitq momenti arasındakı nisbətlə müəyyənləşir.

Dil zamanı, linqvistik zaman, qrammatik zaman, nitq zamanı, bədii zaman terminləri az fərqlərlə, uyğun terminlər kimi işlədilir. Linqvistik zaman dedikdə dil vahidlərinin tarixi inkişaf prosesi, dil zamanı adı altında isə dildə zamanı ifadə edən vasitələr nəzərdə tutulur. Qrammatik zaman da dil zamanı kimi başa düşülür. Temporallıq isə dil zamanına uyğun olub, perseptual və obyektiv zamanı da birləşdirir. İndiki, keçmiş və gələcək zaman nitq momentinə və ya hər hansı bir tarixi hadisəyə nisbətdə müəyyənləşdirilir.

İkinci fəsil «***Temporallıq sahəsinin struktur-funksional statusu***» adlanır. Bu fəsildə temporallıq sahəsinin strukturu araşdırılmış, temporallığın şaquli və üfiqi strukturları, keçmiş indiki və gələcək zaman mikrosahələri, temporallıq sahəsi konstituentlərinin semantik funksiyaları, təsbitli, mütləq və nisbi lokallaşdırma funksiyaları müəyyən edilmişdir.

Müəllif ilk dəfə olaraq dilçilikdə «sahə» terminini, sahə anlayışını geniş şəkildə izah etmiş, dildə modallıq sahəsi, temporallıq, kəmiyyət sahəsi və s. kimi çox müxtəlif sahələr olduğunu qeyd etmişdir. Bu, tədqiqatın strukturuna çox uyğundur. Sahə vahid anlayış məzmununun ifadə edilməsi üçün çox müxtəlif vasitələri birləşdirir və bəzən kateqoriya terminino uyğun gəlir. Təbii ki, hər bir sahə də mikrosahələrə ayrıla bilir. Azərbaycan və ingilis dillərində temporallıq üçün mərkəz sahə felin zamanları sayılır. Felin şəkilləri ilə, leksik-qrammaatik vasitələrlə ifadə olunan zamanlar onun nüvəsi ilə birlikdə hərəkət edir, mikrosahələrdir. Temporallığın şaquli strukturu təqribən obyektiv zamanın ifadəsi üçün eyni nitq aktında istifadə olunan butun morfoloji və leksik-qrammatik vasitələri, üfiqi strukturunda isə mikrosahələr – keçmiş, indiki və gələcək zamanlar üzrə əlavə ifadə vasitələri nəzərdə tutulur.

Üçüncü fəsil «***Leksik temporallıq sahəsi***» adlanır.

Bu məsələ də az tədqiq edilmiş sahələrdəndir. Odur ki müəllif əvvəlcə bu məsələnin tədqiqi vəziyyətinə dair araşdırmalar aparmışdır. İlk dəfə olaraq burada leksik temporallıq vasitələrinin semantikası ətraflı araşdırılmışdır. Sahənin semantik strukturunda əsas sözlərin seçilməsi mühüm məsələdir. Müəllif «***taym***» sözü və onun Azərbaycan dilində qarşılığı üzərində daha geniş dayanmalı olmuş, temporal leksikanın semantik təsnifini vermiş və struktur-semantik modelləşmə aparmışdır.

Temporal leksika qrammatik zaman kateqoriyası ilə daim vəhdətdədir və onları təcrid edilmiş şəkildə öyrənmək olmaz. Bizim dilçilikdə bu sahə öyrənilməmişdir. Temporal leksika bu dillərdə zəngindir və sadə, düzəltmə, mürəkkəb sözləri əhatə edir. Odur ki müəllif hər iki dildə isim, sifət, zərf, fel və başqa nitq hissələri üzrə temporal leksikaya dair dəqiq rəqəmlər vermiş, temporal leksikanı: zaman kəsiyini bildirən, qeyri-müəyyən müddət bildirən, müddəti müəyyən olan zaman kəsiyini bildirən, ay və həftənin günlərini bildirən, zamanı uzunluğuna görə səciyyələndirən, zaman daxilində təkrarlıq bildirən söz qruplarına ayırmışdır. Əsas işlənmə tezliyi ilə seçilən, məsələn, ***time*** tipli sözləri müəyyənləşdirmişdir. Bu sözün dilimizdə onlarca (12) qarşılığını müəyyən etmişdir. Temporal leksikanı semantik cəhətdən qruplaşdıraraq, indiki zaman, keçmiş və gələcək zaman sferalarına daxil olan sözlər kimi növlərə ayırmışdır.

Dördüncü fəsil «***Morfoloji temporallıq sahəsi»*** adlanır. Bu məsələ geniş mənada zaman kateqoriyasının ən çox öyrənilmiş, tədqiq edilmiş

hissəsidir. Lakin burada da tarixən mübahisəli məsələlər çoxdur. Digər tərəfdən, müəllif zamanın morfoloji ifadə vasitələrini leksik vasitələrlə əlaqəli öyrəndiyindən maraqlı məsələlər ortaya çıxarmışdır.

Bu fəsildə keçmiş, indiki və gələcək zaman mikrosahələri, onların əsas və ikinci dərəcəli morfoloji göstəriciləri sistemli şəkildə araşdırılmış, indiki zamandan danışılarkən davamlılıq əlaməti olan ***–maqda*** şəkilçisi də zaman göstəriciləri sırasına daxil edilmişdir.

Azərbaycan dilində müasir araşdırmalara əsasən morfoloji zamanın beş, ingilis dilində 12 forması əsas götürülür. Morfoloji zaman sferalarının ikinci dərəcəli komponentlərinin tədqiqi fonunda fel zamanlarının üslubi imkanları araşdırılmışdır. İngilis dilində gələcək zaman əlamətlərinin modallıq əlamətləri hesab olunması, müstəqil gələcək zaman formalarının olmaması barədə fikirlər, ***shall, will*** fellərinin mahiyyətcə ***can, may*** felləri ilə uyğunluğu barədə fikirlər də maraqlıdır. Zamanın ifadə vasitələri içərisində morfoloji ifadə vasitələri məcburiliyi, müntəzəmliyi, ümumiliyi ilə üstündür. Tədqiqatdan aydın olur ki, ingilis və Azərbaycan dillərində «komponentlər bir-birindən inventar və tezlik səciyyəsinə görə fərqlənsələr də, funksional-semantik baxımdan oxşardırlar».

Dissertasiyanın beşinci fəsli - «**Sintaktik temporallıq sahəsi**», demək olar ki, dilçiliyimizdə ən az tədqiq olunmuş sahədir. Doğrudur, bir sıra sintaktik vasitələrdən danışılarkən onların zaman bildirmə imkanlarına da toxunulmuşdur, lakin geniş mənada onların zaman kateqoriyasına xidməti baxımından araşdırma aparılmamışdır. Odur ki müəllif temporallığın sintaktik strukturu məsələsinə geniş yanaşmış, temporallığı sintaktik yolla reallaşdıran əsas vasitələr – söz birləşmələri və cümlə formaları diqqətlə öyrənilmişdir.

Temporallığın təyini söz birləşmələri, feli tərkiblərlə, ingilis dilində cerund tərkibi ilə, mürəkkəb söz birləşmələri, təktərkibli cümlələrlə, mürəkkəb cümlə, xüsusən zaman budaq cümləli tabeli mürəkkəb cümlələrlə, emfatik vasitələrlə ifadəsi hər iki dilin materialları əsasında tədqiq edilmişdir.

Əsərlə əlaqədar bəzi qeydlərimiz də vardır:

1.Zaman və ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrdə zaman məsələsinə nisbətən geniş münasibət bildirmək olardı. Bundan əlavə, tabesiz mürəkkəb cümlələrin bir qismi ortaqlı zaman zərfliyinin iştirakı ilə qurulur. ***Lalə çiçəklərin ətrini sinəsinə çəkdikcə*** *yarası sağalır, ayrılığın acıları canından çıxırdı* – tipli cümlələrin temporallığa xidmətinə toxunulmayıb.

2.Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin bir qismində baş cümlə zaman mənalı olur: ***İlk dəfə idi ki, belə çətin işə düşürdü***. Bunların zaman budaq cümləsindən fərqi və temporallığa xidməti bir qədər geniş araşdırıla bilərdi. ***Onlar*** *on ildən çox idi ki****, evlənmişdilər*** – cümləsində ***on ildən çox idi*** –

sözləri zaman zərfliyi hesab olunur (227), halbuki mübtəda budaq cümləsinin baş cümləsidir və budaq cümlənin arasında işlənmişdir.

3.Müəllif ilk təşəbbüs kimi temporal leksikanı - keçmiş, indiki və gələcək zamana aid olan söz və birləşmələri qruplaşdırmışdır. Lakin bədii ədəbiyyatda və ya canlı danışıq dilində maraqlı ifadələr vardır ki, onların hamısını əhatə edə bilməmişdir: ***Xaşal Qurbanı sel aparan ili, öküz ölən ili, it ilində*** və s.

4.«İngilis dilində gələcək zamanın mikrosahəsi az, Azərbaycan dilində isə daha çox qrammatikləşmə səviyyəsi ilə fərqlənir. İngilis dilində az qrammatikləşmə sahəsi leksik ifadə vasitələri ilə kompensasiya olunur». (170) Burada Azərbaycan dilində gələcək zamanın üstəlik fel şəkilləri – əmr, arzu, vacib, lazım və şərt şəkilləri ilə ifadəsi də nəzərə alına bilərdi.

Dissertasiya çox məzmunludur. Əsl tədqiqat əsəridir. Müəllifin səmərəli zəhmətinin nəticəsidir. Həm də çox səliqəlidir, böyük məsuliyyət hissi ilə ortaya çıxarılmışdır.

İlk dəfə olaraq leksik vasitələri əhatə edən cədvəllər və lüğət (hər iki dildə) verilmişdir. Müəllif hər fəslin sonunda gəldiyi konkret nəticəri qeyd etmişdir.

Hiss olunur ki, müəllif ana dili ilə yanaşı, ingilis dilini də yaxşı bilir. Bu, yüksək göstəricidir.

Əsərin mühüm nəzəri əhəmiyyəti vardır. Elmi qrammatikanın təkmilləşdirilməsi, tərcümə işlərinin genişləndirilməsi üçün faydalı olan bu əsərdən tədris işində də geniş istifadə oluna bilər. Nəzəri ədəbiyyat zəngindir, müəllif vacib olan nəzəri ədəbiyyatı diqqətlə araşdırmışdır.

Mövzu ilə əlaqəli 2 monoqrafiya, 26 məqalə çap edilmişdir. Bunlar dissertasiyanın məzmununu tam şəkildə əhatə edir.

Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, filologiya elmləri namizədi Tahirov İlham Mikayıl oğlunun "Dildə temporallıq sahəsi (Azərbaycan və ingilis dillərinin materialları üzrə)" adlı bu əsəri dil nəzəriyyəsi – 10.02.19 indeksi üzrə doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tam layiqdir.

Könül Elmar qızı Abdulrəhimova. «İngilis dilində «with» sözönülü birləşmələr və onların Azərbaycan dilində qarşılığı» ND.Opp.r.22.11.2008

159 səhifəlik bu dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat və dissertasiyada işlənmiş yeni terminlərin lüğətindən ibarətdir.

Dissertasiyanın mövzusu maraqlı və aktualdır. Çox maraqlı bir problemə toxunur: ingilis dilindəki ***with*** sözönü – önlüyü və bizim dilimizdəki ***ilə*** qoşmasının köməyi ilə yaranan sintaksemlərin qarşılaşdırma

yolu ilə öyrənilməsi. Müqayisəli tədqiqat, hazırkı tipoloji cəhətdən fərqli dillərdə fonetik cəhətdən tam fərqli sözlərin yaratdığı uyğun mənalar həmin fərqli dilldərin əslində bir kökdən olduğunu sübut edən bir vasitəyə çevrilir və dillərin inkişaf tarixini öyrənmək üçün maraqlı material verir. Digər tərəfdən, gənc elmi işçini elmi iş yaradıcılığına hazırlamaq, onda axtarışlar vərdişi yaratmaq üçün bu cür konkret mövzular çox faydalıdır. Bu başdan qeyd edə bilərik ki, dissertantın zəhməti böyükdür. O, mövzu ilə bağlı əhatəli bir əsər ortaya çıxara bilmişdir.

Təbii ki, hər bir əsərdə ilk növbədə mövzunun tədqiqi tarixinə diqqət yetirilməli, mövcud fikirlər araşdırılmalıdır. Dissertant elə belə də etmiş, «***Müxtəlifsistemli dillərdə söz birləşmələrinin müqayisəli təhlili***» adlı birinci fəsildə mövzusuna müvafiq olaraq, ilk növbədə ingilis dilindəki sözönülü, Azərbacan dilindəki qoşmalı birləşmələrin tədqiqi məsələlərini araşdırmışdır. Dissertasiyadan aydın olur ki, ingilis və rus dillərində sözönlərinin tədqiqinə həsr olunmuş zəngin ədəbiyyat mövcuddur, bizim dilçilikdə olduğu kimi, ingilis dilçiliyində də mövzu ilə bağlı mübahisəli məsələlər var. Bir çoxları önlükləri leksik mənadan məhrum hesab edir. Lakin önlüklər yalnız əlaqə yaratmaqla məhdudlaşmır, öz işlənmə dairəsində müəyyən münasibət də bildirir ki, bunlar onun leksik məna tərəfi sayılır. Müəllif qoşmalı və önlüklü birləşmələrin quruluş və semantik xüsusiyyətlərinə dair ədəbiyyatı nəzərdən keçirdikdən sonra konkret olaraq ***with*** önlüklü və ***ilə*** qoşmalı birləşmələrin tədqiqi tarixi üzərində dayanmışdır. Bizim dilçilikdə ***ilə*** qoşmasının məna çalarları geniş öyrənilmiş, qoşmanın köməyi ilə birgəlik, vasitə, alət, qarşılaşdırma, məkan, seçilmə və s. kimi mənaları müəyyən edilmişdir. İngilis dilində müvafiq olraq ***with*** sözünün – önlüyünün bəzən 20-dən artıq məna yaratdığı müəyyən edilmişdir. Bunlar o cəhətdən faydalıdır ki, xarici dilin tədqiqi prizmasından öz dilinə baxıb, onun görünməyən cəhətlərini görə biləsən.

İngilis dilinin tədqiqatçıları içərisində bizim dilçilikdən fərqli olaraq, bütün köməkçi nitq hissələrinin zəifləmiş də olsa, müəyyən leksik mənaya malik olduğunu qeyd edənlər vardır (A.İ.Smirnitski).

Müəllif bəzən dilin inkişafı məsələlərinə toxunmalı olur, flektiv dillərdə hal şəkilçilərinin sıradan çıxması ilə önlüklərin inkişafı məsələsini düzgün qeyd edir. Bir cəhəti doğru qeyd edir ki, ingilis dilində söz önlərinin yaratdığı məna onlardan sonra gələn sözlərin mənası və önlüyün təcrid olunduğu sözün mənası ilə, bizim dilimizdə qoşmaların yaratdığı məna onların qoşulduğu sözün mənası və qoşmaların təcrid olunduqları leksemlərin mənası ilə bağlı olur.

İngilis dilində felin təsirliliyi onun məchul növdə mübtədaya uyğun gələn tamamlığı ilə müəyyənləşir. Elə bizim dildə də belədir. Təsirli felin vasitəsiz tamamlığı və subyekti olmalıdır ki, fel məchul növ üzrə dəyişdikdə obyekt subyekti əvəz edə bilsin. Bu, birləşməni düzəldən

sözlərin leksik mənası ilə bağlı olsa da, bütövlükdə qrammatik hadisədir. Təsirliliyin leksik-sintaktik yox, leksik qrammatik kateqoriya sayılması daha doğrudur, çünki təsirlilik bir çox hallarda morfoloji yolla düzəlir, onun xüsusi şəkilçiləri var və həmin şəkilçilər tarixən çox fəal olmuş, fellərin səs tərkibi etibarilə genişlənməsində tarixən mühüm rol oynamışdır. CVC əsaslı, yəni iki samit, bir saitdən ibarət olan fellərin bir çoxunda son samit təsirlilik əlaməti olub sözə daşlaşmış vəziyyətdə qalmışdır.

Müəllif təsirlilik anlayışını izah etməyə çalışmış, «bir kəsi düşünmək» sintaqmındakı ***düşünmək*** feli ilə «bir kəs haqqında düşünmək» birləşməsindəki felin eyni mənalı olduğunu, ona görə də hər ikisinin təsirli olduğunu qeyd edir. Düzgün nəticəyə gəlir bir də ona görə ki, ikinci cümlədə yenə də nəyi isə düşünməyin yeri vardır.

Müəllif birinci fəsildə yeri gəldikcə önlüklü və qoşmalı birləşmələrin sinsemantik əlamətlərini öyrənmək üçün eksperiment və modelləşmə üsullarından da istifadə etmişdir.

Dissertasiyanın ikinci fəsli «***Təsirli leksemlərlə yanaşı işlənən with sözönü və ilə qoşmalı birləşmələrlə ifadə olunan obyektlik mənalı sintaksemlərin müqayisəli təhlili»*** adlanır.

Bu fəsildə müəllif sintaktik transform eksperiment üsulundan istifadə edərək, önlüklü və qoşmalı birləşmələrdə sinsemantik əlamətlərin - obyektlik, instrumentallıq, komitativlik (müşayiət), mediativlik (vasitə), lokativlik (məkan), temporallıq, deliberativlik (haqqında danışılan), aksionallıq (hərəkət bildirən), kvalitativlik (keyfiyyət), stativlik (hal-vəziyyət), kauzallıq (səbəb), finallıq (məqsəd) kimi müxtəlif mənaların mövcud olduğunu ortaya çıxarır, sistemləşdirir.

Dissertasiya işi müqayisəli, daha doğrusu, qarşılaşdırma əsasında yazıldığından müəyyən hadisə ilə buğlı müqayisə edilən dillərin zəif və güclü, bəzən az öyrənilmiş cəhətləri də görünür. Məsələn, tədqiqatdan aydın olur ki, ingilis dilində önlüklü vasitəsiz obyekt bildirən sintaksemlərdə önlük güclü pozisiyada da işlənə bilir, zəif pozisiyada da. Azərbaycan dilində, müəllifin fikrincə, zəif pozisiya yoxdur. Bu o demək deyil ki, bizim dilin imkanları zəifdir. Müəllifin əsas pozisiyada işlənmə nümunəsi kimi verdiyi ***Şamilin ordusu Qızıl ordu hissələri ilə birləşdi*** – cümləsini: ***Şamilin ordusu birləşdi Qızıl Ordu hissələri ilə*** – şəklində də işlətmək olar. (41)

Müəllif bu fəsildə önlüklü və qoşmalı birləşmələrin hansı fellər və isimlərlə – hansı söz qrupları ilə əlaqələndiyini göstərən çox zəngin nümunələr vermiş, bu sahəyə geniş diqqət yetirmişdir.

Fəslin ayrı-ayrı paraqraflarında önlüklü və qoşmalı (ingilis və Azərbaycan dillərində) obyekt mənalı (vasitəsiz obyekt bildirən) sintaksemlərin əlavə mənaları - ***aksionallıq*** (hərəkət bildirmə), ***kvalitativlik***

(keyfiyyət), ***stativlik*** (hal-vəziyyət), ***maddilik*** mənaları öyrənilmişdir. Bunlar obyekt bildirən isimlərə aiddir. Obyekt bildirən sintaksemlərin əvəzlikli variantları ayrıca araşdırılmışdır.

Dissertasiyanın son fəslində («***With sözönülü və ilə qoşmalı birləşmələrlə ifadə olunan qeyri-obyektlik bildirən sintaksemlərin müqayisəli təhlili»***) dissertant önlüklü və qoşmalı qeyri-obyektli, yəni vasitəsiz obyekt bildirməyən sintaqmların ingilis və Azərbaycan dili materialları əsasında təhlilini vermişdir. Vasitəsiz obyekt bildirməyən sintaqmların birgəlik, müşayiət (komitativlik), alət (instrumentallıq***),*** vasitə (mediativlik), səbəb (kauzallıq), hal-vəziyyət (stativlik), tərz, məkan (lokativlik), zaman (temporallıq), mənbə, miqdar (kvantitativlik) kimi 11 müxtəlif mənasını nəzərdən keçirmişdir. Tədqiqatdan aydın olur ki, ***with*** önlüyü və ***ilə*** qoşmasıının bu mənaları ifadə etmə prosesində işlənən zəngin əvəzediciləri vardır. Eyni zamanda aydın olur ki, bu əsas mənaların hər biri çox müxtəlif çalarlarda ifadə oluna bilir. Məsələn, birgəlik mənası birgəlik-agentivlik, birgəlik qeyri-müəyyənlik, birgəlik-topluluq, birgəlik-nisbilik və s. məna çalarları ilə ifadə olunur. Yaxud səbəb mənası kauzallıq-aksionallıq, kauzallıq-stativlik, kauzativlik-maddilik kimi çalarlara malikdir. Lakin bu çalarların çoxu qrammatik deyil, semantik cəhətlə bağlıdır.

Dissertasiyada mübahisə doğuran cəhətlər də vardır.

1.Müəllif dissertasiya boyu «təsirli leksemlər (fel, isim, sifət)» sözlərini işlədir. Təsirli leksemlərin ***with*** önlüklü və ***ilə*** qoşmalı obyekt bildirən sözlərlə əlaqəsindən danışır. Qoşmalı və önlüklü obyekt bildirən sözlərin işləndiyi cümlələrdə vasitəsiz tamamlıq da ola bilər və bu halda təsirlilik anlayışı doğrudur. Lakin müəllif «ltəsirli leksemlər» dedikdə isim və sifətləri də nəzərdə tutur. Təsirlik halı yalnız təsirli fellər idarə edə bilir.

Dissertasiyadan aydın olur ki, təsirliliyi yalnız təsirlik haldakı vasitəsiz tamamlıqla bağlanan fellərdə deyil, yönlük, yerlik, çıxışlıq hallarında olan sözlərlə əlaqədə olan fellərdə görənlər var (A.M.Muxin) Lakin bunlar vasitəsiz obyekt deyildir və hərəkətlə birbaşa əlaqələnən işi bildirmir. Görünür, müəllif əsər boyu fikirlərini bu əsas üzərində qurmuş, daha çox A.M.Muxinin təsiri altında olmuşdur..

2. Müəllifin fikrincə, S.Cəfərov və ardınca Y.Seyidov ***ilə*** qoşmasının qoşulduğu sıfır şəkilçili sözün yiyəlik halda olduğunu əsaslandırmışlar. Bu, mübahisəlidir. ***Əhməd ilə*** getdim. ***Onunla*** getdim – cümlələrində *Əhməd* və *o* sözlərini eyni halda hesab etmək olmaz. Müəllif fikir söyləməli, münasibət bildirməli idi. (s.21)

3. K.Abdulrəhimova yazır: «S.Əlizadə ***ilə, la,-lə*** qoşmasının mənşəyini qədim abidələrdən gətirdiyi misallarla təsdiqləyir». Təsdiqləyə bilmir, çünki ***ilə*** qədim abidələrdən çox qədimdir.

Bir kökdən olan dünya dilləri çoxdan o inkişaf səviyyəsinə gəlib çatıb ki, eyni linqvistik vahid qohum sayılmayan dillərdə fərqli qrammatik vasitələr kimi

öyrənilir. Əslində, ***with*** sözü də, **ilə** qoşması da bir kökdəndir. Bunların əsası şumer mixi yazılarındakı ***bi da*** bağlayıcı sözüdür ki, birləşərək ingilis dilində sürtünən **w** səsini saxlamış, türk dillərində, Azərbaycan dilində ***d > l*** keçidi ilə *bilə* şəklinə düşmüş, sonralar anlautdakı samiti itirərək *ilə* şəklində sabitləşmiş və *ilə* formasını saxlamaqla yanaşı, həm də şəkilçiləşmişdir.

4. A.M.Muxinin idarəni leksik əlaqə kimi qəbul etməsi də maraqlıdır. Müəllif də bu mövqeyi bəyənmişdir: «Tətbiq etdiyimiz nəzəriyyəyə görə, ingilis dilində idarə sözönülü, sözönüsüz və yaxud variativ olmaqla, təsirli (fel, isim, sifət) leksem ilə tamamlıq arasındakı leksik əlaqə kimi qəbul olunur». (31) Müəllif yenə deyir: «İdarə əlaqəsi vasitəsilə yaranan leksik birləşmələr tabesizlik və tabelilik kimi sintaktik əlaqələr vasitəsilə yaranan sintaktik birləşmələrdən həm formal, həm də məzmun etibarilə fərqlənir».(32) Bu fikir ağlabatan deyil.

5. Üslub: «Q.Kixner 100-dən artıq variativ idarə əlaqəsinə girən fellərin siyahısını vermişdir». (27) «Variativ idarə əlaqəsinə girən 100-dən artıq fel» demək istəyir.

6.Diqqətsizlik halları: 2-ci fəslin 2.4-cü bölməsi dissertasiyanın 77-ci səhifəsində tapılmadı. Mündəricatda 87-ci səhifədə olduğu qeyd edilən 2.5-ci bölmə s.86-dadır. Səh.64 yoxdur, onun yerinə başayaq 63 təkrar olunur.

Əsər həqiqətən böyük zəhmətin nəticəsidir və deyərdim ki, elmi tutumuna görə keçmiş namizədlik dissertasiyaları səviyyəsindədir. Nəzəri materialı güclüdür. Praktik iş üçün də böyük əhəmiyyətə malikdir. Hər iki dilin eyni baxışdan nümunələrlə tədqiqi Azərbaycan dilinin quruluşunun tədqiqi işini zənginləşdirməyə kömək edə bilər.

Müəllif 15 adda məqalə çap etdirmişdir. Bunlar və avtoreferat dissertasiyanın məzmununu əhatə edir. Hiss olunur ki, müəllif ana dili ilə yanaşı, ingilis dilini də yaxşı bilir.

Könül Elmar qızı Abdulrəhimovanın «İngilis dilində «with» sözönülü birləşmələr və onların Azərbaycan dilində qarşılığı» mövzusunda əsəri namizədlik dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi german dilləri və Azərbacan dili indeksləri üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

Fikrət Əlövsət oğlu Aslanov.
«Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi»
DD, Opp.r. 13.09.2009

Azərbaycan dilçiliyində sintaqm məsələsi, demək olar ki, öyrənilməmişdir. Doğrudur, Azərbaycan dilçilik ədəbiyyatında az hallarda olsa da, bu termindən istifadə olunur, lakin həqiqətdə sintaqm dedikdə nəyin nəzərdə tutulduğu mübahisəli olaraq qalmaqdadır. Bu sahədə

Ə.Dəmirçizadə, Y.Seyidov, F.Ağayeva, A.Axundov və başqaları müəyyən fikir söyləmişlər. Dissertasiyadan aydın olur ki, Y.Veysəlli mövcud problemlə daha əsaslı məşğul olmuşdur. Lakin F.Aslanov onu da alman dili tədqiqatçısı kimi, germanistlər sırasında vermiş, Azərbaycan dilçilərindən ayırmışdır. Bu sözə (*sintaqm* sözünə) rast gələrkən və ya onu bir münasibətlə işlədərkən daim düşünmüşük ki, bir dilçilik problemi kimi, sintaqm anlayışının ətraflı aydınlaşdırılmasına ehtiyac var. Bu gün belə bir əsərin meydana çıxması həqiqətən faydalıdır, mövzu tam aktualdır. Bu başdan qeyd edirəm ki, dissertasiya böyük və səmərəli zəhmətin nəticəsidir.

Əsər giriş, beş fəsil, nəticə, ədəbiyyat və əlavələrdən ibarətdir.

Müəllifin əsərə yazdığı giriş ənənəvi girişlərlə müqayisədə daha əhatəli və əsaslıdır. Burada müəllif mövzunun aktuallığını, tədqiqatın obyektini, qarşıya qoyduğu məsələləri, işin yeniliklərini, aprobasiya məsələlərini daha geniş planda izah etmişdir.

Təbii ki, müəllif mövzunun tədqiqi tarixindən başlamalı idi. Bu məsələ bu əsərdə daha vacibdir, ona görə ki Avropa və rus dilçiliyində irəli sürülmüş, başlanğıcının F.de Sössürlə, Boduen de Kurtene ilə qoyulduğu güman edilən sintaqm problemi haqqında fikir və mülahizələri, həm də çoxsaylı və mahiyyət etibarilə fərqli fikirləri öyrənmədən tədqiqatı irəlilətmək olmazdı.

Fikir və mülahizələr çoxdur. Əksəriyyəti də fərqli. Müəllif elə girişdə bir çox məsələləri aydınlaşdırmalı olmuşdur. Şübhəsiz, sintaqm problemi şifahi nitq ilə, intonasiya ilə bağlı məsələdr. Lakin sintaqmın müəyyənləşdirilməsində semantik və qrammatik cəhətlər də əsas götürülür. Hər bir sintaqm nisbi bitmiş fikir ifadə edir. Bəzən məna məsələsi dərinləşdirilir. *Cavan atlı qocaya yaxınlaşdı* - cümləsi iki cür sintaqma ayrıla bilir: *Cavan atlı / qocaya yaxınlaşdı - Cavan / atlı qocaya yaxınlaşdı.*

Burada sintaqm bölgüləri cümlənin mənasının dəyişməsinə səbəb olur. Belə misallar var. Məsələn: *İt / tək yaşamaqdan təngə gəlmişdi – İt tək yaşamaqdan / təngə gəlmişdi.* Şübhəsiz, bu hal hər cür sintaqmatik bölgü üçün xarakterik deyildir, çünki bir çox hallarda cümlə daxilində sintaqmlar məna dəyişikliyinə səbəb olmadan bu və ya digər sözün, ifadənin, birləşmənin mənasını nəzərə çarpdırmaq məqsədi güdür.

Müəllif bir sıra rus, Avropa və Azərbaycan alimlərinin (L.V.Şerba, V.V.Vinoqradov, S.A.Karsevski, A.Beliç, R.Yakobson, F.Yadigar və b.) fikirlərini diqqətlə nəzərdən keçirmiş, akad. L.V.Şerbanın nəzəriyyəsi üzərində xüsusi dayanmışdır. O bunların hər birinin sintaqm anlayışını necə, hansı yöndən izah etdiyini, tədricən necə zənginləşdirdiyini, irəlilətdiyini səliqə və diqqətlə izləmişdir. Tarixi araşdırmalar

prosesində cümlənin sintaqmatik üzvlənməsi ilə aktual və qrammatik üzvlənməsi məsələləri ortaya çıxmış, müəllif bunların oxşar və fərqli cəhətlərini izah etməli olmuşdur. Sintaqmın sözlə, birləşmə və cümlə ilə əlaqəsi, uyğun və fərqli cəhətləri öyrənilmişdir. Bu məqamda Kurtenenin «Sintaqmlar cümlənin, morfemlər sintaqmların, fonemlər isə morfemin ayrılmaz tərkib hissəsidir» fikri yerinə düşür. Sintaqmın fonetikanın və ya sintaksisin obyekti olması məsələsi də müəllifi düşündürür. Sintaqmın yaranmasında intonasiya yeganə vasitə olduğundan onun yalnız sintaksisin tədqiq obyekti sayılması ilə (V.V.Vinoqradov) bir çox dilçilər razılaşmır. Bir mühüm məsələ də sintaqmın dil vahidlərindən fərqidir - dil vahidlərinin forması, modelləri olduğu halda, sintaqmlar danışıq aktı ilə bağlıdır və konkret modellərə malik deyil.

Sintaqm probleminin tədqiq tarixinin araşdırılması göstərir ki, dilçilər sintaqmları daxili və xarici olmaqla iki yerə bölmüşlər. Bu fikrə əsasən cümlə və birləşmə şəklində olan sintaqmlar xarici, düzəltmə və mürəkkəb söz şəklində olanlar daxili sintaqmlardır, çünki hər bir sintaqmda təyin edən və təyinlənən komponent olur və bu cəhətdən, məsələn, ***evcik*** sözündə ***–cik*** morfemi təyinedici olmaqla daxili sintaqmın hissəsi sayılır. Tabeli mürəkkəb cümlədə budaq cümlə bu hesabla təyinedici hesab olunur (xarici sintaqm).

Sintaqmlardan danışarkən bir çoxları cümlənin bir nəfəsvermə ilə ayrılan hissəsini «nəfəs qrupu» kimi ayırmışlar. Lakin tədqiqatçı sübut etməyə çalışmışdır ki, bir nəfəsvermə ilə iki sintaqm da ifadə oluna bilir – tonun dəyişməsi ilə.

Nəhayət, müəllif ümumi dilçilikdə, alman və Azərbaycan dilçiliyində mövzunun tədqiqi məsələlərini nəzərdən keçirərək fikirləri ümumiləşdirmiş, əsasən L.V.Şerbanın fikirləri üzərində dayanmışdır. V.V.Vinoqradovun sözlərindən aydın olur ki, F.de Sössür ilə L.V.Şerbanın sintaqm nəzəriyyəsi arasında əlaqə yoxdur. Şerbada sintaqm anlayışı öz həllini tam tapmasa da, o, danışıq aktının sintaqmlar şəklində parçalanmasını semantik, sintaktik və fonetik faktorlarla bağlı izah etmişdir.

İkinci fəsil danışıq aktının üzvlənməsi və sintaqmın müəyyənləşdirilməsi meyarlarının tədqiqinə həsr olunmuşdur. Müəllif burada yenə vurğulayır ki, canlı danışıq məhsulu olan sintaqmlar müxtəlif nitq hissələrinin üç cəhətdən – sintaktik, semantik və fonetik cəhətdən birləşməsi ilə əmələ gəlir. Alman və Azərbaycan dilləri tipoloji cəhətdən fərqli olduğundan eyni məzmuna malik olan cümlə bu dillərdə müxtəlif şəkildə sintaqmlara ayrıla bilir. Sintaqmatik üzvlənmədə sözlər yanaşı işlənməli, birlikdə nisbi bitkinliyə malik olmalı və intonasiya baxımından bölünməz bütövə çevrilməlidir. Cümlələrin sintaqmlara bölünməsi üçün cümlədaxili fasilənin, nisbi bitmiş fikir ifadəsinin, sintaqm vurğu-

su daşıyan sözün olması (cümlədə neçə sintaqm olarsa, o qədər də sintaqm vurğulu söz olur), intonasiya və cümlə vurğusunun böyük rolu vardır. Bu da maraqlıdır ki, sintaqm dil sisteminin fəaliyyəti ilə gerçəkləşən, lakin dil sistemində mövcud olmayan, nitq prosesində yaranan vahiddir. Beləliklə, sintaqm fonetik, semantik və sintaktik hadisələrin məcmusu kimi şərh olunur.

Müəllif bu fəsildə sintaqmın növlərinə xüsusi yer vermişdir. Sintaqmlar müxtəlif baxımdan növlərə ayrılmışdır. Danışıq aktı sözlərin ritmik qruplar daxilində, ritmik qrupların sintaqmlar, sintaqmların isə cümlə daxilində birləşməsi şəklində baş verir.

Ümumi fikrin ifadəsində roluna görə sintaqmlar ***natamam (proqrediyent)*** və ***bitmiş (terminal)*** olmaqla iki növə ayrılır. Cümlə bir sintaqmdan ibarətdirsə, bitmiş sintaqmdır, bir neçə sintaqmdan ibarətdirsə, sonuncusu bitmiş, əvvəlkilər natamam sintaqmlardır. Çünki əsas fikir sonda tamamlanır.

Mövqeyindən asılı olaraq, sintaqmlar ***ön, ara*** və ***son sintaqmlara*** ayrılır. Cümlədə bir sintaqm olduqda o son mövqedə işlənmiş olur, ikisi olduqda ön və son sintaqmlar, üçü olduqda ara sintaqm da mövcud olur. Əsas fikir son sintaqmda olduqda ön sintaqm temaya, son sintaqm remaya uyğun gəlir.

Bunlardan əlavə, sintaqmlar ***bəsit*** və ***geniş*** olmaqla da fərqləndirilir. (E.V.Kroteviç) Bir sözdən ibarət olanlar bəsit hesab olunur.

Sintaqmlar ***predikativ, yarım predikativ*** və ***qeyri-predikativ*** olmaqla da fərqlənir. Feli tərkiblər yarımpredikativ sintaqmlar yaradır. Sintaqmlar müstəqil və qeyri-müstəqil olmaqla da iki növə ayrılar. Üzvlənməyən cümlələrlə ifadə olunanlar (*bəli, xeyr* və s.) müstəqil hesab olunur.

Müəllif bu fəsildə dəqiq nəticələrə gəlmək üçün bir çox faktları intonoqram və osilloqramların analizi əsasında ümumiləşdirmişdir.

Üçüncü fəsil «Sintaqmın semantik, sintaktik və fonetik bütöv kimi xüsusiyyətləri» adlanır. Müəllif araşdırmalar əsasında belə bir qənaətə gəlmişdir ki, sintaqm müəyyən məna ifadə edən, tərkib hissələri arasında semantik və sintaktik əlaqələr olan, fonetik cəhətdən bölünməz bütövü təmsil edən nitq-danışıq vahididir. Sintaqmlar daxilində sözlər məna və sintaktik cəhətdən əlaqələndiyi kimi, bir cümlə daxilindəki sintaqmlar özləri də eyni şəkildə əlaqəli olur. Müəllifin fikrincə, sintaqmın sintaktik strukturu başqa sintaktik vahidlərin strukturundan fərqlənir.

Bu fəsildə müəllif sintaqmların sintaktik strukturunu araşdıraraq, onların bir söz və ya bir üzvdən, subyekt və predikatdan, subyekt, obyekt və predikatdan, atributiv söz və subyektdən, relyativ söz və predikatdan ibarət müxtəlif formaları haqqında məlumat vermişdir. Sin-

taqm daxilində sözlər yalnız dil qanunları əsasında əlaqələnə bilir. Aralarında bilavasitə əlaqə olmayan sözlər sintaqm yarada bilmir.

Hər bir dilin məna strukturunda ən kiçik vahid *sem* hesab olunur (H.Pents). Semlərin məcmusu *semem* adlanır. Deməli, sintaqmem sememlərin sintaktik təzahürüdür. Leksem isə sememin leksik təzahürüdür. Sintaqm - hadisələri adlandırmaq vasitəsidir. Sintaqmlar birləşərək müəyyən bir fikrin ifadəsinə xidmət edir. Lakin hər bir sintaqm özü də nisbi bitmiş fikir ifadə edir.

Sintaqm danışıq vahidi hesab olunur və onun təşəkkülündə intonasiyanın mühüm rolu var: «Sintaqm danışıq prosesində özündən kiçik hissələrə (sintaqmlara) bölünməyən intonasiya vahididir». (133) Sintaqmın əmələ gəlməsində intonasiyanın müxtəlif komponentləri – cümlə vurğusu, fasilə, melodiya, temp iştirak edir. Sintaqmın intonasiya konturu cümlənin intonasiyasının tərkib hissəsinə daxil olduğundan cümlə intonasiyasından fərqlənir. Lakin birsintaqmlı cümlələrdə bu cür fərq olmur. Sintaqmın nüvəsini təşkil edən söz sintaqm vurğusuna malik olduğu üçün isintaqmın tərkib hissəsini təşkil edən digər sözlərdən fərqlənir. Nitq prosesində nitqin sintaqmlara parçalanmasında sintaktik əlaqələr pozula bilir. Sintaqm vurğusu daşıyan söz informativlik baxımından remanın daşıyıcısı olur.

Dissertasiyanın dördüncü fəsli çox geniş olub, alman və Azərbaycan dillərində sintaqmın eksperimental-fonetik tədqiqatdan ibarətdir. Sintaqm danışıq vahidi olduğundan onun strukturunu, sərhədlərini, fonetik və sintaktik xüsusiyyətlərini yalnız eşitmə ilə müəyyənləşdirmək çətindir. Ona görə də müəllif geniş eksperimental tədqiqat aparmalı olmuşdur. Sintaqmın eksperimental tədqiqi üçün alman və Azərbaycan dillərinə aid yüzdən artıq cümlə üzərində iş aparılmışdır. Nümunələr seçilərkən sintaqmların leksik tərkibinin müxtəlifliyinə xüsusi diqqət yetirilmişdir. Materiala bir, iki, üç və daha artıq sintaqmları olan cümlələr daxil edilmişdir. Alman dili materialları Münxen şəhərində yerləşən Ludviq Maksimileans Universitetinin Fonetika və Dil Ünsiyyəti mütəxəssisləri ilə (prf.H.Tillmann, prof.Hartmurt, R.Stevan) müzakirə edilib bəyənilmişdir. Materiallar maqnitofon lentinə yazılarkən dörd alman, iki azərbaycanlı diktordan istifadə edilmişdir. Sonra lentlərin osilloqramları alınmışdır. Osilloqramların bir qismi Sankt Peterburq Universitetinin, bir qismi isə Münxen universitetinin eksperimental-fonetika laboratoriyasında alınmışdır.

«…sintaqmın akustik xüsusiyyətləri, onların danışıq prosesində bölünməz bir bütöv kimi qəbul olunması, sintaqmın nüvəsini təşkil edən sözün sintaqmdakı digər sözlərə münasibəti, sintaqmın aksent və intonasiya xüsusiyyətləri və s. yalnız eksperimental təhlilin sayəsində mümkün olur».(s.142) Ona görə də müəllif danışıq prosesinin məhsulu

olan sintaqmın fonetik xüsusiyyətlərini üzə çıxarmaq üçün ilk növbədə bu və ya digər sintaqmın tələffüzü zamanı əsas tonun tezliyinin, intensivliyin və sərf olunan zamanın hansı dəyişikliklərə məruz qaldığının araşdırılması ilə məşğul olmuşdur. Sintaqmın fonetik təbiətinə təsir göstərən əsas amillər onun leksik tərkibi və cümlədəki mövqeyidir. Sintaqmın fonetik strukturu onun ön, orta və ya son mövqedə işlənməsindən asılı olaraq dəyişir.

Müəllif alman və Azərbaycan dillərində sintaqmın fonetik xüsusiyyətlərinin eksperimental tədqiqinə xüsusi yer vermiş, hər iki dildə sintaqmın intonasiya və aksent xüsusiyyətlərini araşdırmışdır. Bu qənaətə gəlmişdir ki, alman və Azərbaycan dillərində sintaqm vurğusunun yeri axırıncı və ya axırıncıdan əvvəlki heca olmaqla tam stabil deyildir.

Son – beşincə fəsildə müəllif alman və Azərbaycan dillərində sintaqmın fonetik xüsusiyyətlərinin müqayisəli təhlili ilə məşğul olmuş, bu dillərdə sintaqmın oxşar-uyğun və fərqli cəhətlərini ətraflı izah etmişdir. Hər iki dildə son – terminal sintaqm eyni zamanda remanı təşkil edir. Fərqlər dillərin tipoloji cəhətdən fərqli olması ilə daha çox bağlıdır. Azərbaycan dilində vurğunun ikinci və ya son hecada, alman dilində ilk hecada olması, Azərbacan dilində xəbərin cümlənin sonunda, alman dilində ikinci yerdə işlənməsi və s. sintaqmlarda fərqlər yaradır. Azərbaycan dilində vurğu təbiətinə görə melodik-dinamik, alman dilində dinamik-melodik hesab olunur. Azərbaycan dilində vurğu oksiton, alman dilində baritondur.

Əsərdə mübahisə doğuran bir sıra məsələlər də var.

1.Dissertasiyada böyük zəhmətin nəticəsi kimi saysız qrafiklər, cədvəllər, osilloqram görüntüləri verilmişdir. Bunların ümumi strukturu eksperimentlə məşğul olan şəxs üçün aydındır. Lakin eksperimentlə məşğul olmayan üçün onları tam oxumaq və nəticə çıxarmaq çətindir. Odur ki xüsusilə dördüncü fəslin əvvəlində metodiki izah lazım idi. Bundan əlavə, bir sıra osilloqram yazılarını göstərən qrafiklərin içi boşdur: səh. 138, 146, 154, 164, 166 və s.

2.Adətən, dissertantda öz mövzusuna bir aludəlik, onu şişirtmə halları olur. Bu əsərdə də var. Müəllif yazır: «Cümlənin tərkib hissəsi olan sintaqmların linqvistik xüsusiyyətlərini araşdırmadan bütövlükdə cümlənin linqvistik xüsusiyyətləri üzrə fikir söyləmək mümkün deyil». (s.20) F.de Sössür və Boduen de Kurtene bizə yaxın dövrlərin adamlarıdır. Amma cümlə haqqında üç min ildir fikir söylənir və əksəriyyət etibarilə əsaslı fikirdir.

3.Çox yerdə qeyd olunur ki, bir nəfəsvermə ilə bir yox, bir neçə sintaqm ifadə oluna bilər. Bu hal tonun dəyişməsi ilə izah olunur. Amma sintaqmın əsas əlamətlərindən biri onun bir nəfəsvermə ilə bir bütöv kimi tələffüzüdür.

4.Müəllif yazır: «Osilloqramların təhlilindən aydın olur ki, birsintaqmlı cümlələrdə üfüqi xətt boyunca düzülmüş səslər, hecalar və sözlər heç bir fasilə olmadan bir-birini əvəz edir və nəticədə müəyyən fikir ifadə etməyə qa-

dir olan vahid yaranır».(s.91) Fasilənin həcmi var. Sözlər arasında demirik, hətta səslər arasında da fasilə olur.

5. «Tədqiq etdiyimiz alman və Azərbaycan dillərinin lüğət fondunda sözlərin hər birinin yaranma mənşəyini müəyyən tədqiqatlar aparmaqla nisbətən müəyyənləşdirmək mümkün olduğu halda, bunu sintaqma şamil etmək qeyri-mümkündür». (s.112) Burada ***mənşə*** sözü yerinə düşmür. Sintaqmı təşkil edən sözlər də elə o sözlərdir. Müəllif qarışdırır: mənşə əmələ gəlmə deyil.

6.Müəllifin fikrincə, bizim dildə «isim + sifət» quruluşlu, alman dilində «sifət+isim» quruluşlu sintaqmlar xarakerikdir. (s.118) Ağlabatan deyil

7.Üslub səhvləri, texniki qüsurlar. «***H.Klinqhardın fikrincə***, maraqlı cəhətlərdən biri də odur ki, danışıq taktı onun tərəfindən iki hissəyə ayrılır» (s.52). «Alman və Azərbaycan dillərində sintaqm *nə* intonasiya, ***nə də*** fasilə ilə özündən kiçik hissələrə ***ayrılmır***».(s.90) İntonasiyanı *sintaksis struktursuz* təsəvvür etmək... (199) İsim və felin yanaşı işlənməsi ilə düzələn sintaqma misal: ***Adam var ki, adamların naxışıdır***. Burda fel yoxdur. Hətta bir cib telefonu və s.

F.Aslanov çox ağır bir işin öhdəsindən gəlmişdir. Bu əsər keçmiş həqiqi dissertasiyaları yada salır. Ümumi dilçilik ədəbiyyatının geniş və zəhmətli ümumiləşdirilməsi ilə yanaşı, çoxsaylı eksperimentlər aparmış, nəzəri şəkildə dediklərini dəqiq hesablamalarla təsdiq etmişdir. Əsər həm mühüm nəzəri problemin öyrənilməsi baxımından, həm də zəngin təcrübi-eksperimental nəticələri ilə faydalıdır. Müəllif dərslik, monoqrafiyalar və kifayət qədər məqalə çap etdirmişdir. Avtoreferatla birlikdə bunlar əsərin məzmununu tam şəkildə əhatə edir.

Bunları nəzərə alaraq qeyd edirik ki, Fikrət Əlövsət oğlu Aslanovun «Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi» adlı əsəri doktorluq dissertasiyasının tələblərinə tam cavab verir və onun müəllifi 10.02.04 – german dilləri və 10.02.01 – Azərbaycan dili indeksləri üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

QEYDLƏR

I HİSSƏ
AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İNKİŞAF TARİXİ

Monoqrafiya 2007-2009-cu illərdə yazılmışdır.

II HİSSƏ
XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN SİNTAKSİSİ

Prof.Ə.Sadıqovun eyni adlı əlyazmasından (80-ci illər) istifadə edilməklə, 2000-ci ildə yazılmışdır. Ə.Sadıqov həmmüəllif sayılır.

III HİSSƏ
FİLOLOGİYAMIZ XX ƏSRİN İKİNCİ YARISI, XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ: RƏYLƏR. MÜLAHİZƏLƏR

N.K.Abbasova. «C.Cabbarlı pyeslərinin leksikası» mövzusunda doktorluq dissertasiyasının ilkin müzakirəsində çıxış.1968-1969-cu illər. Əsər 1974-cü ildə müdafiə olunmuşdur.

R.C.Məhərrəmova. «Sabirin satirasının leksikası» mövzusunda doktorluq dissertasiyasının avtoreferatına rəy, 26.02.1969. Rəyi akad.F.Qasımzadə və prof. A.S.Abdullayev də imzalamışlar.

İ.Vəliyev. «XIV-XIX əsr Azərbaycan dili yazılı abidələrində keçmiş zaman formaları». Namizədlik dissertasiyasının avtoreferatına rəy, 03.03.1969.

C.M.Axundov. «Müasir Azərbaycan ədəbi dilində sual cümlələri». Namizədlik dissertasiyasının avtoreferatına rəy, 08.12.1969.

Azər Əliş oğlu Hüseynov. «Azərbaycan dilinin şimal-qərb şivələri». Doktorluq dissertasiyasının müzakirəsində çıxış, 17.11.1971.

A.Ə.Hüseynov. «Azərbaycan dilinin şimal-qərb şivələri». Doktorluq dissertasiyasının V.İ.Lenin ad.APİ-nin Azərbaycan dilçiliyi kafedrasında müzakirə protokolundan çıxarış, 17.11.1971. O zamanlar kafedranın elmi katibi olduğum üçün bu cür çıxarışları mən hazırlayırdım, sədrlə – prof. Ə.Dəmirçizadə ilə birlikdə (mən katib kimi) imza edirdik.

Г.Г.Байрамов. «Синтактико-стилистические вопросы перевода прозы с английского языка на азербайджанский язык» - namizədlik dissertasiyasının V.İ.Lenin ad.APİ-nin Azərbaycan dilçiliyi kafedrasında müzakirəsi, protokoldan çıxarış. Sədr - prof.Ə.Dəmirçizadə, 03.02.1972.

M.Ş.Qasımov. «Azərbaycan dili terminologiyasının əsasları» - V.İ.Lenin ad.APİ-nin Azərbaycan dilçiliyi kafedrası; rəsmi rəyə gəlmiş doktorluq dissertasiyasının müzakirəsində çıxış, 14.03.1972.

X.Cabbarov. «Azərbaycan dilində tabu və evfemizmlər». Namizədlik dissertasiyasının avtoreferatına rəy, 26.04.1972.

Ч.О.Гусейнова. «Сопоставительное изучение места прямого дополнения в современной французском и азербайджанском языках». Namizədlik dissertasiyasının avtoreferatına rəy, 10.09.1972.

T.Z.Əliyev. «Kəşkül» qəzetinin dili» – V.İ.Lenin ad.APİ-nin Azərbaycan dilçiliyi kafedrası; rəsmi rəyə gəlmiş doktorluq dissertasiyasının müzakirəsində çıxış, 1973-cü il.

М.М.Текуев. «Сложные глаголы в карачаево-балкарском языке (деепричастия с вспомогательными глаголами) в сравнительном плане» – namizədlik dissertasiyasının avtoreferatına rəy, 1973.

S.S.Hüseynov. «Qasım bəy Zakirin əsərlərinin leksika və frazeologiyası» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 14.03.1973.

V.İ.Aslanov. «Azərbaycan dilinin tarixi leksikologiyası (rekanstruksiya məsələsi)» - V.İ.Lenin ad.APİ-nin Azərbaycan dilçiliyi kafedrası; rəsmi rəyə gəlmiş doktorluq dissertasiyasının müzakirəsində çıxış, mart 1973.

İ. Nəcəfov. «Müasir Azərbaycan dilində qarışıq tipli tabesiz mürəkkəb cümlələr» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 05.12.1973.

Ə.Ə.Xəlilov. «Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin sintaktik rolu» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 25.05.1974.

«**Müasir Azərbayjan dili**» (IV kitab, Sintaksis) dərsliyinin S.M.Kirov ad.ADU-da müzakirəsi zamanı çıxış, 17.04.1979.

X.M.Cabbarov. «Son 30 ildə Azərbaycan dilçiliyində sintaksislə bağlı tədqiqatlar» – Azərbaycan dilçiliyi kafedrasına göndərilmiş elmi işə rəsmi rəy, 18.05.1979.

Cəlilov Firudun Ağası oğlu. Azərbaycan dilində bağlayıcısız tabeli mürəkkəb cümlələr – namizədlik dissertasiyasının avtoreferatına rəy, 20.12.1979.

Musayev Mehman Musa oğlu. «Cənub-qərb qrupu türk dillərində zaman budaq cümlələri və zaman mənalı feli sifət, feli bağlama tərkibləri» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 15.05.1980.

Akif Fərman oğlu Miriyev. «Azərbaycan mətbuat dilində qrammatik normalar (70-ci illər)» mövzusunda namizədlik dissertasiyasının avtoreferatına rəy, 15.10.1980.

Hüseynova Solmaz Rza qızı. «Ali məktəblərin rus bölmələrində tələbələrin Azərbaycan dilindən lüğət ehtiyatını zənginləşdirmək yolları» – opponent rəyi, 01.12.1980.

Ədəbi dilimizin morfologiyası. «Müasir Azərbaycan dili» (2-ci hissə, «Elm» Nəşriyyatı, 1980) kitabına rəy. İlk dəfə çap olunur. 1980.

Ənvər Abbasov. «Azərbaycan dili» proqramı. Rus məktəbinin II-X sinifləri üçün kompleks proqramın ETPEİ-də müzakirəsi zamanı çıxış. 26.04.1981.

7-8-ci siniflərin "Azərbaycan dili" (sintaksis) kitabı haqqında - Ali və Orta İxtisas Təhsili Nazirliyinin sifarişi ilə yazılmışdır, 1982.

N.İsmayılzadə, M.Yusifzadə və Ə.Rəcəbov. «Azərbaycan dilindən imla və ifadə yazı mətnləri» - vəsaitin ETPEİ-də müzakirəsi zamanı çıxış, 20.04.1982.

T.İ.Hacıyev, K.N.Vəliyev. «Azərbaycan dili tarixi (oçerklər və materiallar)» – «Maarif» nəşriyyatından rəyə verilmişdir, may 1982.

B.Əhmədov, A.Abdullayev. «Azrbaycan dili» – dərsliyin ETPEİ-də müzakirəsi zamanı çıxış, 06.09.1982.

Təlimi rus dilində olan məktəblərin II-X sinifləri üçün "Azərbaycan dili proqramı", (II sinif) – proqramın ETPEİ-də müzakirəsi zamanı çıxış, 02.12.1982.

M.Şirəliyev, M.Hüseynzadə, Q.Kazımov. Azərbaycan məktəbinin VII-VIII sinifləri üçün "Azərbaycan dili"dərsliyi. *Müəllif sözü,* dekabr 1982.

Ə.Şükürov. «Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi» – V.İ.Lenin ad. APİ, doktorluq dissertasiyasının 1-ci müzakirəsində çıxış, 26.12.1982.

S.Əlizadə. «Azərbaycan ədəbi dili tarixindən praktikum» - Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 27.12.1982.

İ.Salehova. «Müasir Azərbaycan ədəbi dilinin epistolyar üslubu» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 08.05.1983.

Yazıçı-jurnalist Məmməd Şəkili Çələbiyev. «Mən on birinci stolam» (povestlər) – «Yazıçı» nəşriyyatından rəyə verilmişdir, 14.09.1983.

H.H.Məmmədov. Azərbaycan sovet poeziyasının dil və üslub xüsusiyyətləri (30-cu illərin şeir dili materialları əsasında). 04.11.1983. Doktorluq dissertasiyası kafedraya verildikdən az sonra (kaf. müdiri prof.A.Qurbanov) mən oxuyub rəy yazmışdım. Lakin 90-cı illərə qədər əsər müzakirə edilmədi, 80-ci illərin sonlarında H.Məmmədov qəflətən vəfat etdi, dissertasiya kafedrada tapılmadı. Müəllif daha çox Müşfiqin dilindən bəhs edirdi.

H.İ.Mirzəyev. Azərbaycan dilində sadə fellər. 15.03.1984. Əsərin çapı üçün yazılmış rəydir.

Leyla Nuşiravan qızı Tahirbəyova. «Azərbaycan dilində fransız mənşəli adlar» – V.İ.Lenin ad.APİ-də dissertasiyanın müzakirəsi zamanı çıxış, 24.03.1984.

M.Aslanov, Z.Səmədov. «Azərbaycan dili» (rus məktəbinin 9-cu sinifləri üçün dərslik) – dərsliyin ETPEİ-də müzakirəsi zamanı çıxış, 07.04.1984.

Ə.Şükürov. «Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi» - V.İ.Lenin ad. APİ, doktorluq dissertasiyasının 2-ci müzakirəsində çıxış, 24.04.1984.

Mehdiyeva Təhminə Mehdi qızı. «Müasir Azərbaycan dilində isimlərin çoxmənalılığı». Namizədlik dissertasiyasına rəy. 02.07.1984.

Kəramət Tağıyev. «Hekayə, povest və felyetonlar» – «Yazıçı» nəşriyyatından rəyə verilmişdir, 25.09.1984.

H.Mirzəyev. «Müasir Azərbaycan dilində təsirli-təsirsiz fellər» - V.İ.Lenin ad. APİ, doktorluq dissertasiyasının müzakirəsində çıxış, 11.10.1984.

Hacıyev Tofiq Müzəffər oğlu. «Tabeli mürəkkəb cümlənin sadə cümləyə transformasiyası»-namizədlik dissertasiyasının avtoreferatına rəy, 07.11.1984.

Xəlilov Nizami Qasım oğlu. «Ə.Haqverdiyev və folklor» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 07.11.1984.

Z.B.Məmmədova. «Müasir Azərbaycan ədəbi dilində sözün mənasının genişlənməsi» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 16.01.1985.

Bağır Bağırov. «Poeziyaya həsr olunmuş ömür» - «Yazıçı» nəşriyyatından rəyə verilmişdir, 15.03.1985.

Z.Şahbazova. «Müasir Azərbaycan dilində ara söz, ara söz birləşmələri» - Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 26.03.1985.

R.Əsədov, Ə.Əhmədov. «Azərbaycan dili» (Azərbaycan məktəbinin VI sinfi üçün) - dərsliyin ETPEİ-də müzakirəsi zamanı çıxış, 08.08.1985.

Prof.T.İ.Hacıyev. «Azərbaycan ədəbi dili tarixi», 2-ci cild. Dərsliyin çapı üçün rəy, 15.11.1985.

V.Əliyev. «Azərbaycan dilində felin təsriflənməyən formaları (məsdər)». Əsərin çapı üçün rəy, 25.01.1986.

Sayalı Sadıqova. «Müasir Azərbaycan dilində termin-söz birləşmələri». Namizədlik dissertasiyasının müdafiəsi üçün rəy, 02.02.1986.

Məftunə Vəliyeva. «Azərbaycan xalq şerinin fonopoetik xüsusiyyətləri». Namizədlik dissertasiyasının müdafiəsi üçün rəy, 26.04.1986.

Nuryağdı Nartıyev. (Türkmənistan) «Müasir türkmən dilində mürəkkəb cümlənin quruluşu». Doktorluq dissertasiyasının müdafiəsi üçün rəy,07.12.1986.

Hacıyeva Nailə Nəriman qızı. «Əbri Xacə ibn Adilin "İxtiyarati-qəvaidi-külliyyə" əsəri və onun leksikası» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 05.01.1987.

K.Əliyev. «Nitq mədəniyyəti və üslubiyyatın əsasları». Proqram - Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 12.04.1987.

M.N.Qiyasbəyli. «Azərbaycan dilində sayın tədrisi». Metodik göstəriş. Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 14.06.1987.

Baxşəliyev Əflatun Şükür oğlu. «Azərbaycan sovet poemasında Lenin obrazı» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 23.02.1988.

İ.T.Məmmədov. «Azərbaycan dili semasiologiyasına giriş (kontekstoloji təhlil)) – əsərin çapı üçün rəy, 10.03.1988.

Hacıyeva Besta İsmayıl qızı. «Qafqazın türkdilli arealında zaman formalarının izoqlosları» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 22.03.1988.

A.M.Аббасов. «Лингводидактические проблемы содержания обучения азербайджанскому языку в русских школах (IV-VIII классы)» – opponent rəyi, 12.05.1988.

İmanov Akif Kazım oğlu. «Sintaksisdən başlanğıc kursunun tədrisində şagirdlərin sintaktik bacarıq və vərdişlərinin formalaşdırılması» – opponent rəyi, 10.06.1988.

C.Ə.Cəfərov. «Nitq hissələrində keçid prosesləri» - V.İ.Lenin ad. APİ, doktorluq dissertasiyasının müzakirəsində çıxış, 1988.

Hüseynov İmamverdi Ağa oğlu. «İngilis atalar sözlərinin Azərbaycan dilinə adekvat tərcüməsi problemi» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 21.10.1988.

N.Abbasova. «Klassik bədii dil» – «Maarif» nəşriyyatından rəyə verilmişdir, 16.01.1989.

A.Aslanov. «Azərbaycan dilində köməkçi nitq hissələri» – «Maarif» nəşriyyatından rəyə verilmişdir, 10.04.1989.

M.Həsənov. «Azərbaycan dili sintaksisi tədrisinin linqvistik-didaktik əsasları» – doktorluq dissertasiyasının avtoreferatına yazılmış, lakin göndərilməmiş rəy, 15.10.1989.

F.Həsənov, Ə.Əliyev, Ə.Rəhimova, Z.Əhmədova. «Azərbaycan dili» dərsliyinin ETPEİ-də müzakirəsi zamanı çıxış, 16.02.1991.

Əsgərli Zaman Şükür oğlu. «Azərbaycan faciəsinin poetikası» – doktorluq dissertasiyasının avtoreferatına rəy, 10.02.1992.

X.M.Cabbarov, O.K.Babayev. «Dil quruculuğu və nitq mədəniyyəti». Vəsaitin çapı üçün rəy, 02.03.1992.

Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə. Sintaksis – kitabın çapı üçün rəy, 1992.

Abdullayeva Hava Qara qızı. «Azərbaycan dili dərslərində linqvistik eksperiment priyomundan istifadə təlim prosesini optimallaşdırmağın vasitələrindən biri kimi (sintaksis materialları üzrə)» – opponent rəyi, 23.12.1992.

Mehdiyeva Sevil Hacı qızı. «XVII-XIX əsrlərdə yazıya alınmış Azərbaycan xalq dastanlarının dili» - opponent rəyi, 23.12.1992.

Ə.Şükürlü. «Qədim türk yazılı abidələrinin dili» – kitab haqqında çap olunmamış rəy, 1994.

Mehman Musa oğlu Musayev. «Türk dillərində tabeli mürəkkəb cümlə» – opponent rəyi, 10.05.1994.

Məmməd Həsənov. «Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair» - Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 05.12.1994.

H.Ə.Qasımov. «Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası» – Nizami ad. Ədəbiyyat İnstitutu, doktorluq dissertasiyasının müdafiəsi zamanı çıxış, 17.05.1995.

М.Н.Чобанов. «Основы азербайджанского ономалогии» (часть 1) – kitabın çapı üçün rəy, iyul 1995.

Barat Boran oğlu Quliyev. «Obyekt komponentli feli konfiqurasiyaların sistem-tipoloji analizi (rus və Azərbaycan dillərinin materialları əsasında)» – doktorluq dissertasiyasının avtoreferatına rəy, 18.11.1995.

Əfqan Əli oğlu Abdullayev. Aktual üzvlənmənin mətnyaratma imkanları (Azərbaycan və ingilis dillərinin materialları əsasında) – rəhbər rəyi, may 1997.

Nurlana Əliyeva, Mahmud Fətiyev, Sevil Əliyeva. «Azərbaycan dili proqramı». Proqram texnikumlar üçün hazırlanmışdır. Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasında çıxış, 05.12.1997.

Babayeva Gülbəniz Məcnun qızı. «F.Kərimzadənin yaradıcılıq yolu». AAK-nın ekspert şurasında çıxış. Köçürmələr çox olduğu üçün əsər təsdiq edilməmişdir, 12.12.1997.

Füzuli Nəcməddin oğlu Mustafayev. «Azərbaycan televiziyasının elm və təhsil verilişlərinin dili». AAK-da ekspert rəyi, 10.01.1998.

Rüstəmov Rüfət Əşrəf oğlu. «Müasir türk dilində köməkçi nitq hissələri (keçid prosesləri)». AAK-da ekspert rəyi, 13.01.1998.

M.Ç.Fərzəliyeva. Azərbaycan dilində fel əsaslarından ad düzəldən qeyri-məhsuldar -q,-k şəkilçisi, onun praforma və derivatları. Namizədlik dissertasiyasına rəhbər rəyi, 15.10.1998.

Novruzova Nuridə Səməd qızı. «Sintaktik bütövlərin struktur-semantik xüsusiyyətləri (müasir Azərbaycan dili materialları əsasında)». Rəhbər rəyi, 06.05.1999.

Təranə Hacıyeva. «Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi» – opponent rəyi, 03.04.2001.

B.Abbasov, Ə.Abbasov, M.Vəliyeva, N.Nəsrəddinov, İ.Əfəndiyeva. «Pilot təhsil müəssisələrinin V-VI sinifləri üçün Azərbaycan dilindən inteqrativ proqram» – çap üçün rəy, 08.06.2001.

Əsgərova Nabat Əjdər qızının Musəvi Mirəli Vəkil oğluna qarşı müəlliflik hüququnun pozulması iddiası üzrə məsələnin həlli üçün ekspert rəyi – sənədlər Nəsimi rayon məhkəməsindən Nizami ad.Ədəbiyyat və Nəsimi ad.Dilçilik institutlarına göndərilmiş və həmin sənədlər əsasında rəy yazılmışdır. Rəyi Nizami ad. Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi T.Həsənzadə və Nəsimi ad.Dilçilik İnstitutunun böyük elmi işçisi Q.Cəfərov da imzalamışdır.

Sevinc Novruz qızı Əliyeva. «Orxon-Yenisey abidələrində toponimlər» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 27.02.02.

Yusubova Təranə Oqtay qızı. «Azərbaycan dilində fel+fel tipli feli birləşmələr» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 13.02.2003.

M.F.Tahirov. «Təlim prosesinin negentropiya prinsipi əsasında qurulmasının mühüm problemləri» – əsər haqqında rəy, 13.02.2003.

Tofiq Müzəffər oğlu Hacıyev. «Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası» – opponent rəyi, 09.09.2003.

S.Zülfüqarlı (Hüseynova). «Azərbaycan dili» (Azərbaycan Dövlət İqtisad Universitetinin rus bölməsi üçün dərslik) – dərsliyin çapı üçün rəy, 28.01.2004.

Mehriban Əlihüseyn qızı Hüseynova. «Mətnin sintaktik-semantik və koqnitiv interpretasiyası» – opponent rəyi, 22.02.2004.

Sevinc Abbasqulu qızı Məhərrəmova. «Rus və Azərbaycan dillərinin leksik sistemində paradiqmatik münasibətlərin müqayisəli tədqiqi» - Nəsimi ad.Dilçilik İnstitutu. Doktorluq dissertasiyasının müdafiəsində çıxış, 11.06.2004.

H.Qədimova. «Müasir Azərbaycan dilində qoşulma konstruksiyaları» - rəhbər rəyi, 25.09.2004.

Ramiz Fəsi oğlu Məmmədov. «Müstəqillik illərində Azərbaycan dilində hərbi terminlərin inkişafı» – rəhbər rəyi, 05.10.2004.

Əsərin üçüncü nəşrinə bir neçə söz – M.Şirəliyevin «Azərbaycan dialektologiyasının əsasları» kitabının 3-cü nəşrinə (prezident sərəncamı ilə) ön söz kimi yazılmış, lakin çap edilməmişdir, 13.02.2005.

Əliyeva İradə Talıb qızı. «Orfoqrafiya və onun dilin quruluşundan asılılığı» – opponent rəyi, 15.03.2005.

Məmmədov Musa İsmayıl oğlu. «Mayya yazıları» – əsərin çapı üçün rəy, 02.07.2005.

Bədirxan Balaca oğlu Əhmədov. «Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər)» - doktorluq dissertasiyasının avtoreferatına rəy, 23.11.2005.

Xəlilova Aynur Sədrəddin qızı. «Aşıq rəvayətləri: təsnifi və poetik sistemi» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 04.12.2005.

Əliyeva Gültəkin Alışan qızı. «Feli birləşmələrin semantik-tipoloji təhlili (rus və Azərbaycan dillərinin materialları əsasında)» - opponent rəyi, 01.05.2006.

Əl-Abbasi Xeyruddin Nəşəət. «Ərəbizmlərin müasir Azərbaycan ədəbi dilində semantik dəyişiklikləri» - doktorluq dissertasiyasının avtoreferatına rəy, 06.05.2006.

Rafiq Yusif oğlu Əliyev. «XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri» - doktorluq dissertasiyasının avtoreferatına rəy,30.09.2006.

Mətbuat dili və orfoqrafiya məsələləri – Bakı Slavyan Universitetində keçirilən respublika konfransında məruzənin mətni, 04.11.2006.

Xəliyəddin Xəlilli. «Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi» – kitabın çapı üçün rəy, 26.11.2006.

Laləndar Vaqif qızı Ziyadova. «İngilis və Azərbaycan dillərində cümlənin aktual üzvlənməsində remanın mövqeyi» - namizədlik dissertasiyasının avtoreferatına rəy, 17.12.2006.

Qurbanisevərlərin ilk yaradıcılıq toplusu – kitaba ön söz, 2006.

Aynur Famil qızı Qədimalıyeva. «Qazi Bürhanəddinin dilinin leksikası» – opponent rəyi, 29.03.2007.

Məsudə İslam qızı İslamzadə. «1960-1990-cı illərin Azərbaycan nəsr dili (Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında)» – opponent rəyi, 24.04.2007.

Həsənov Zaur Həsən oğlu. «Kimmerlər və onların Azərbaycan tarixində yeri» – tarix üzrə namizədlik dissetasiyasına rəy, 26.06.2007.

Ağayev Pərviz Yasinəli oğlu. «İngilis və Azərbaycan dillərində təktərkibli ismi cümlələrin sintaktik-semantik təhlili problemləri» – doktorluq dissertasiyasına rəy, 07.07.2007.

Elman Savad oğlu Mirzəyev. «Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası» – opponent rəyi, 05.03.2008.

Gülnarə Baba qızı Əhmədova. «Temporallığın mətnyaradıcı xüsusiyyətləri (ingilis və Azərbaycan dillərinin materialları əsasında)» – opponent rəyi, 15.06.2008.

Tahirov İlham Mikayıl oğlu. «Dildə temporallıq sahəsi (Azərbaycan və ingilis dillərinin materialları üzrə)» – opponent rəyi, 15.11.2008.

Könül Elmar qızı Abdulrəhimova. «İngilis dilində «with» sözönülü birləşmələr və onların Azərbaycan dilində qarşılığı» – opponent rəyi, 22.11.2008.

Fikrət Əlövsət oğlu Aslanov. «Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi», doktorluq dissertasiyasına opponent rəyi, 13.09.2009.

«SEÇİLMİŞ ƏSƏRLƏR»İN ƏVVƏLKİ CİLDLƏRİNDƏ ÇAP OLUNMUŞDUR:

1-ci cild, Bakı, «Nurlan», 2008, 560 səh. Bu cilddə filologiya elmləri doktoru Zaman Əsgərlinin «Gələcək soraqlı yaradıcılıq» monoqrafik məqaləsi, «Ə.Haqverdiyevin dramaturgiya dili («Dağılan tifaq» pyesi əsasında)», «Cəlil Məmmədquluzadənin sovet dövrü felyetonlarının dili» monoqrafiyaları, tarix və dil tarixi problemlərinə həsr olunmuş məqalələr (2001-2007) toplanmışdır. Burada çoxcildli «Azərbaycan tarixi»nin birinci cildinin (1998) geniş tənqidi, «Aşina və Azərbaycan», «Homerin poemaları və «Kitabi-Dədə Qorqud», «Azərbaycan dili frazeologiyasının ən qədim qatı», «Avesta», Azərbaycan və doktor Şəfizadənin elmi qüdrəti» və s. məqalələr verilmişdir.

2-ci cild, Bakı, «Nurlan», 2008, 480 səh. Bu cildə «Komik-bədii vasitələr» və «Bədii ədəbiyyatda komizm üsulları» monoqrafiyaları daxil edilmişdir. Kitabın 3-cü hissəsi sənət və sənət adamları haqqında məqalələrdən ibarətdir.

3-cü cild, Bakı, «Nurlan», 2008, 512 səh. Bu cildə Qurbaninin ilk dəfə geniş həcmdə toplayıb tərtib etdiyimiz əsərləri, «Qurbani və poetikası» monoqrafiyası daxildir. Qurbaninin toplanmış şeirlərinin mənbələri «Qeydlər və izahlar»da dəqiq göstərilmişdir.

4-cü cild, Bakı, «Nurlan», 2009, 528 səh. Cild 1997-ci ildə çap etdirdiyimiz «Sənət düşüncələri» kitabı əsasında tərtib edilmişdir. Bəzi məqalələr cildə salınmamışdır.

Kitab «Məqalələr», «Rəylər, mülahizələr», «Müsahibələr, söhbətlər», «Xatirələr, çıxışlar» bölmələrindən ibarətdir.

5-ci cild, Bakı, «Nurlan», 2008, 500 səh. Cildə ali məktəblər üçün yazılmış və Təhsil Nazirliyinin qrifi ilə filologiya fakültələri üçün dərslik kimi çap olunmuş «Müasir Azərbaycan dili. Sintaksis» kitabı daxildir.

Dərslik ilk dəfə 2000-ci ildə nəşr olunmuşdur.

6-cı cild, Bakı, «Nurlan», 2009, 584 səh. Kitaba «Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)» monoqrafiyası daxil edilmişdir.

Monoqrafiya «Dünya dillərinin qohumluğu – monogenez problemi», «Protodillərin parçalanması dövrü. Şumer dili», «Proto-azərbaycan dili dövrü», «Azərbaycan dilinin əmələ gəlməsi», «Şi-

fahi ədəbi dilin təşəkkülü», «Yazılı ədəbi dilin təşəkkülü» fəsillərini əhatə edir. «Kitabi-Dədə Qorqud» dilinin sintaktik quruluşu monoqrafiyada geniş təhlil edilmişdir. Monoqrafiya ilk dəfə 2003-cü ildə çap olunmuşdur.

WWW.qkazimov.gen.az

KİTABIN İÇİNDƏKİLƏR

I HİSSƏ

AZƏRBAYCAN DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN İNKİŞAF TARİXİ 5

BİR NEÇƏ SÖZ **7**

Mərhələlər və şərti ixtisarlar 13

BUDAQ CÜMLƏNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR VƏ TİPLƏRİN MƏNŞƏYİ 15

BUDAQ CÜMLƏNİN NÖVLƏRİ 26

Mübtəda budaq cümləsi 26
Xəbər budaq cümləsi 39
Tamamlıq budaq cümləsi 44
Təyin budaq cümləsi 59
Zərflik budaq cümlələri 66
Tərz budaq cümləsi 66
Dərəcə budaq cümləsi 70
Zaman budaq cümləsi 72
Yer budaq cümləsi 81
Səbəb budaq cümləsi 84
Məqsəd budaq cümləsi 95
Şərt budaq cümləsi 99
Qarşılaşdırma budaq cümləsi 111
Nəticə budaq cümləsi 120
Kəmiyyət budaq cümləsi 127
Qoşulma budaq cümləsi haqqında 128

Qarışıq tipli tabeli mürəkkəb cümlələr 129

Baş cümləsi sadə, budaq cümləsi mürəkkəb quruluşlu olanlar 133
Budaq cümləsi sadə, baş cümləsi mürəkkəb quruluşlu olanlar 137
Hər iki komponenti mürəkkəb quruluşlu olanlar 138

NƏTİCƏ 142

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT *145*

II HİSSƏ

XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN SİNTAKSİSİ 147

GİRİŞ 149

SÖZ BİRLƏŞMƏLƏRİ 150

Sintaktik əlaqələr və söz birləşmələri..... 150

CÜMLƏ 166

MƏQSƏD VƏ İNTONASİYAYA GÖRƏ CÜMLƏNİN NÖVLƏRİ 166

Nəqli cümlə..... ..166
Sual cümləsi 167
Əmr cümləsi 172
Nida cümləsi 173

SADƏ CÜMLƏ..... 176

CÜMLƏ ÜZVLƏRİ 176

Mübtəda 176
Xəbər 178
Tamamlıq 183
Təyin..... 186
Zərflik 189
Əlavələr..... 194
Xüsusiləşmələr..... 195

SADƏ CÜMLƏNİN QURULUŞU 197

CÜTTƏRKİBLİ CÜM LƏLƏR..... 197

TƏKTƏRKİBLİ CÜMLƏLƏR..... 200

Şəxssiz cümlə..... 200
Qeyri-müəyyən şəxsli cümlə 202
Ümumi şəxsli cümlə..... 204
Adlıq cümlə..... 205

SADƏ CÜMLƏNİ GENİŞLƏNDİRƏN VASİTƏLƏR 207
Xitablar..... 207
Ara sözlər, ara və əlavə konstruksiyalar..... 209

MÜRƏKKƏB CÜMLƏ..... .212

TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR 212

Birləşdirmə əlaqəsi..... 212
Səbəb-nəticə əlaqəsi..... 213
Qarşılaşdırma əlaqəsi..... 214
Aydınlaşdırma əlaqəsi 214
Bölüşdürmə əlaqəsi 215
Qoşulma əlaqəsi 215
Qarışıq tipli tabesiz mürəkkəb cümlələr..... 215

TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR..... 218

Mübtəda budaq cümləsi..... 218
Xəbər budaq cümləsi..... 220
Tamamlıq budaq cümləsi..... 220
Təyin budaq cümləsi..... 221
Zərflik budaq cümlələri 222
Qarışıq tipli tabeli mürəkkəb cümlələr..... 233
NƏTİCƏ 236
ŞƏRTİ İXTİSARLAR *237*

III HİSSƏ

FİLOLOGİYAMIZ XX ƏSRİN II YARISI, XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ: RƏYLƏR, MÜLAHİZƏLƏR..... 239

N.K.Abbasova. C.Cabbarlı pyeslərinin leksikası..... 241
R.C.Məhərrəmova. Sabirin satirasının leksikası 244
İ.Vəliyev. XIV-XIX əsr Azərbaycan dili yazılı abidələrində keçmiş zaman formaları..... 247
C.M.Axundov. Müasir Azərbaycan ədəbi dilində sual cümlələri 249
Azər Əliş oğlu Hüseynov. Azərbaycan dilinin şimal-qərb şivələri..... 251
A.Ə.Hüseynov. Azərbaycan dilinin şimal-qərb şivələri. Protokoldan çıxarış..... 252
Г.Г.Байрамов. Синтактико-стилистические вопросы перевода прозы с английского языка на азербайджанский язык 255
M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları..... 257

X. Cabbarov. Azərbaycan dilində tabu və evfemizmlər..... 259
Ч.О.Гусейнова. Сопоставительное изучение места прямого дополнения в современной французском и азербайджанском языках..... .261
T.Z.Əliyev. "Kəşkül" qəzetinin dili 262
M.M.Текуев. Сложные глаголы в карачаево-балкарском языке (деепричастия с вспомогательными глаголами) в сравнительном плане.. 264
S.S.Hüseynov. Qasım bəy Zakirin əsərlərinin leksika və frazeologiyası 265
V.İ.Aslanov. Azərbaycan dilinin tarixi leksikologiyası (rekanstruksiya məsələsi)..... 267
İ. Nəcəfov. Müasir Azərbaycan dilində qarışıq tipli tabesiz mürəkkəb cümlələr 269
Ə.Ə. Xəlilov. Azərbaycan və tatar dillərində işarə və sual əvəzliklərinin sintaktik rolu..... 271
Müasir Azərbayjan dili (Sintaksis) dərsliyinin müzakirəsi 272
X.M.Cabbarov. Son 30 ildə Azərbaycan dilçiliyində sintaksislə bağlı tədqiqatlar..... 275
Cəlilov Firudun Ağası oğlu. Azərbaycan dilində bağlayıcısız tabeli mürəkkəb cümlələr 276
Musayev Mehman Musa oğlu. Cənub-qərb qrupu türk dillərində zaman budaq cümlələri və zaman mənalı feli sifət, feli bağlama tərkibləri 278
Akif Fərman oğlu Miriyev. Azərbaycan mətbuat dilində qrammatik normalar (70-ci illər) 279
Hüseynova Solmaz Rza qızı. Ali məktəblərin rus bölmələrində tələbələrin Azərbaycan dilindən lüğət ehtiyatını zənginləşdirmək yolları..... 280
Ədəbi dilimizin morfologiyası 285
Ənvər Abbasov. «Azərbaycan dili» proqramı 288
7-8-ci siniflərin "Azərbaycan dili" (sintaksis) kitabı haqqında 290
N.İsmayılzadə, M.Yusifzadə və Ə.Rəcəbov. Azərbaycan dilindən imla və ifadə yazı mətnləri ..... .292
T.İ.Hacıyev, K.N.Vəliyev. Azərbaycan dili tarixi (oçerklər və materiallar)..... 294
B.Əhmədov, A.Abdullayev.Azrbaycan dili..... 296
Təlimi rus dilində olan məktəblərin II-X sinifləri üçün "Azərbaycan dili proqramı"..... 298
M.Şirəliyev, M.Hüseynzadə, Q.Kazımov.Azərbaycan məktəbinin VII-VIII sinifləri üçün "Azərbaycan dili"dərsliyi. Müəllif sözü..... 298
Ə.Şükürov. Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi (birinci müzakirə)..... 299
S.Əlizadə. Azərbaycan ədəbi dili tarixindən praktikum 301
Ə.Abbasov, Ş.Qaralov. «Azərbaycan dili» (gürcü məktəbinin IV-V sinifləri üçün) dərsliyi..... 304
İ.Salehova. Müasir Azərbaycan ədəbi dilinin epistolyar üslubu..... 306
Yazıçı-jurnalist Məmməd Şəkili Çələbiyev. Mən on birinci stolam (povestlər)..... 308

H.H.Məmmədov. Azərbaycan sovet poeziyasının dil və üslub xüsusiyyətləri 313
H.İ.Mizəyev. Azərbaycan dilində sadə fellər 316
Leyla Nuşiravan qızı Tahirbəyova. Azərbaycan dilində fransız mənşəli adlar 317
M.Aslanov, Z.Səmədov. Azərbaycan dili (rus məktəbinin 9-cu sinifləri üçün dərslik) 320
Ə.Şükürov. Azərbaycan dilində köməkçi nitq hissələrinin inkişafı tarixi (ikinci müzakirə) 322
Mehdiyeva Təhminə Mehdi qızı. Müasir Azərbaycan dilində isimlərin çoxmənalılığı 323
Kəramət Tağıyev. Hekayə, povest və felyetonlar 324
H.Mirzəyev. Müasir Azərbaycan dilində təsirli-təsirsiz fellər 328
Hacıyev Tofiq Müzəffər oğlu. Tabeli mürəkkəb cümlənin sadə cümləyə transformasiyası 330
Xəlilov Nizami Qasım oğlu.Ə. Haqverdiyev və folklor 332
Z.B.Məmmədova. Müasir Azərbaycan ədəbi dilində sözün mənasının genişlənməsi 334
Bağır Bağırov. Poeziyaya həsr olunmuş ömür 335
Z.Şahbazova. Müasir Azərbaycan dilində ara söz, ara söz birləşmələri 339
R.Əsədov, Ə.Əhmədov. Azərbaycan dili (Azərbaycan məktəbinin VI sinfi üçün) 341
Prof.T.İ.Hacıyev. Azərbaycan ədəbi dili tarixi 343
V.Əliyev. Azərbaycan dilində felin təsriflənməyən formaları (məsdər) 344
Sayalı Sadıqova. Müasir Azərbaycan dilində termin-söz birləşmələri 346
Məftunə Vəliyeva. Azərbaycan xalq şerinin fonopoetik xüsusiyyətləri 347
Nuryağdı Nartıyev. Müasir türkmən dilində mürəkkəb cümlənin quruluşu 348
Hacıyeva Nailə Nəriman qızı. Əbri Xacə ibn Adilin "İxtiyarati-qəvaidi-külliyyə" əsəri və onun leksikası 350
K.Əliyev. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Proqram 352
M.N.Qiyasbəyli. Azərbaycan dilində sayın tədrisi. Metodik göstəriş 353
Baxşəliyev Əflatun Şükür oğlu. Azərbaycan sovet poemasında Lenin obrazı 355
İ.T.Məmmədov. Azərbaycan dili semasiologiyasına giriş (kontekstoloji təhlil) 356
Hacıyeva Besta İsmayıl qızı. Qafqazın türkdilli arealında zaman formalarının izoqlosları 357
А.М.Аббасов.Лингводидактические проблемы содержания обучения азербайджанскому языку в русских школах (IV-VIII классы) 359

İmanov Akif Kazım oğlu. Sintaksisdən başlanğıc kursunun tədrisində şagirdlərin sintaktik bacarıq və vərdişlərinin formalaşdırılması 363
C.Ə.Cəfərov.Nitq hissələrində keçid prosesləri..... 368
Hüseynov İmamverdi Ağa oğlu. İngilis atalar sözlərinin Azərbaycan dilinə adekvat tərcüməsi problemi 370
N.Abbasova. Klassik bədii dil 371
A.Aslanov. Azərbaycan dilində köməkçi nitq hissələri 373
M.Həsənov.Azərbaycan dili sintaksisi tədrisinin linqvistik-didaktik əsasları 375
F.Həsənov, Ə.Əliyev, Ə.Rəhimova, Z.Əhmədova. Azərbaycan dili (rus məktəbinin 1-ci sinfi üçün dərslik)..... 377
Əsgərli Zaman Şükür oğlu. Azərbaycan faciəsinin poetikası..... 378
X.M.Cabbarov, O.K.Babayev. Dil quruculuğu və nitq mədəniyyəti..... 380
Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə. Sintaksis..... .381
Abdullayeva Hava Qara qızı. Azərbaycan dili dərslərində linqvistik eksperiment priyomundan istifadə təlim prosesini optimallaşdırmağın vasitələrindən biri kimi (sintaksis materialları üzrə)..... 382
Mehdiyeva Sevil Hacı qızı. XVII –XIX əsrlərdə yazıya alınmış Azərbaycan xalq dastanlarının dili 386
Ə.Şükürlü. Qədim türk yazılı abidələrinin dili 391
Mehman Musa oğlu Musayev. Türk dillərində tabeli mürəkkəb cümlə ..... .394
Məmməd Həsənov.Sadə cümlənin tədrisinin bəzi məsələlərinə dair..... 399
H.Ə.Qasımov. Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası..... 400
М.Н.Чобанов.Основы азербайджанского ономалогии ..... .401
B.B.Quliyev. Obyekt komponentli feli konfiqurasiyaların sistem-tipoloji analizi (rus və Azərbaycan dillərinin materialları əsasında)..... 403
Əfqan Əli oğlu Abdullayev. Aktual üzvlənmənin mətnyaratma imkanları (Azərbaycan və ingilis dillərinin materialları əsasında)..... 404
Nurlana Əliyeva, Mahmud Fətiyev, Sevil Əliyeva. Azərbaycan dili proqramı..... 405
Babayeva Gülbəniz Məcnun qızı. F.İ.Kərimzadənin yaradıcılıq yolu..... 406
Füzuli Nəcməddin oğlu Mustafayev. Azərbaycan televiziyasının elm və təhsil verilişlərinin dili 408
Rüstəmov Rüfət Əşrəf oğlu. Müasir türk dilində köməkçi nitq hissələri (keçid prosesləri)..... 410
M.Ç.Fərzəliyeva. Azərbaycan dilində fel əsaslarından ad düzəldən qeyri-məhsuldar -q,-k şəkilçisi, onun praforma və derivatları 412
Novruzova Nuridə Səməd qızı. Sintaktik bütövlərin struktur-semantik xüsusiyyətləri (müasir Azərbaycan dili materialları əsasında)..... 413

Təranə Hacıyeva. Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi 415
B.Abbasov, Ə.Abbasov, M.Vəliyeva, N.Nəsrəddinov, İ.Əfəndiyeva. Pilot təhsil müəssisələrinin V-VI sinifləri üçün Azərbaycan dilindən inteqrativ proqram 422
Əsgərova Nabat Əjdər qızının Musəvi Mirəli Vəkil oğluna qarşı müəlliflik hüququnun pozulması iddiası üzrə məsələnin həlli üçün ekspert rəyi 423
Sevinc Novruz qızı Əliyeva. Orxon-Yenisey abidələrində toponimlər 427
Yusubova T. O. Azərbaycan dilində fel+fel tipli feli birləşmələr 428
M.F.Tahirov. Təlim prosesinin negentropiya prinsipi əsasında qurulmasının mühüm problemləri 430
Tofiq Müzəffər oğlu Hacıyev. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası 433
S.Zülfüqarlı (Hüseynova). Azərbaycan dili (Azərbaycan Dövlət İqtisad Universitetinin rus bölməsi üçün dərslik) 441
Mehriban Əlihüseyn qızı Hüseynova. Mətnin sintaktik-semantik və koqnitiv interpretasiyası 442
Sevinc Abbasqulu qızı Məhərrəmova. Rus və Azərbaycan dillərinin leksik sistemində paradiqmatik münasibətlərin müqayisəli tədqiqi 447
H.Qədimova. Müasir Azərbaycan dilində qoşulma konstruksiyalar ... 448
Ramiz Fəsi oğlu Məmmədov. Müstəqillik illərində Azərbaycan dilində hərbi terminlərin inkişafı 450
Əsərin üçüncü nəşrinə bir neçə söz 452
Əliyeva İradə Talıb qızı. Orfoqrafiya və onun dilin quruluşundan asılılığı 456
Məmmədov Musa İsmayıl oğlu. Mayya yazıları 462
Bədirxan Balaca oğlu Əhmədov. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər) 463
Xəlilova Aynur Sədrəddin qızı. Aşıq rəvayətləri: təsnifi və poetik sistemi 465
Əliyeva Gültəkin Alışan qızı. Feli birləşmələrin semantik-tipoloji təhlili (rus və Azərbaycan dillərinin materialları əsasında) 467
Əl-Abbasi Xeyruddin Nəşət. Ərəbizmlərin müasir Azərbaycan ədəbi dilində semantik dəyişiklikləri 470
Rafiq Yusif oğlu Əliyev. XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri 471
Mətbuat dili və orfoqrafiya məsələləri 474
Xəliyəddin Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi 481
Laləndar Vaqif qızı Ziyadova. İngilis və Azərbaycan dillərində cümlənin aktual üzvlənməsində romanın mövqeyi 482
Qurbanisevərlərin ilk yaradıcılıq toplusu 484
Aynur Famil qızı Qədimalıyeva. Qazi Bürhanəddinin dilinin leksikası 487

Məsudə İslam qızı İslamzadə. 1960-1990-cı illərin Azərbaycan nəsr dili (Anar, Elçin, Ə.Əylisli və S.Azərinin nəsr əsərləri əsasında)..... 492
Həsənov Zaur Həsən oğlu. Kimmerlər və onların Azərbaycan tarixində yeri 496
Ağayev Pərviz Yasinəli oğlu. İngilis və Azərbaycan dillərində təktərkibli ismi cümlələrin sintaktik-semantik təhlili problemləri..... 501
Elman Savad oğlu Mirzəyev. Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası 503
Gülnarə Baba qızı Əhmədova. Temporallığın mətnyaradıcı xüsusiyyətləri (ingilis və Azərbaycan dillərinin materialları əsasında)..... 507
Tahirov İlham Mikayıl oğlu. Dildə temporallıq sahəsi (Azərbaycan və ingilis dillərinin materialları üzrə)..... 511
Könül Elmar qızı Abdulrəhimova. İngilis dilində «with» sözönülü birləşmələr və onların Azərbaycan dilində qarşılığı..... 515
Fikrət Əlövsət oğlu Aslanov. Müasir alman və Azərbaycan dillərində sintaqm problemi və onun eksperimental-fonetik tədqiqi 519

QEYDLƏR..... .526

QƏZƏNFƏR ŞİRİN OĞLU KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ
VIII CİLD